A.A.MAZARAKİ

# TİCARƏT

# PUL

# MENTALİTET

Monoqrafiya

BAKI - 2010

**Monoqrafiya Azərbaycan Dövlət İqtisad Universitetinin «Ticarət» kafedrasının aşağıdakı əməkdaşları tərəfindən rus dilindən tərcümə olunmuşdur:**

i.e.d., prof. **Kərim Paşayev**
i.e.d., dos. **Əbdüləzim Ələkbərov**
i.e.n., b/m. **Hikmət Əsgərov**
i.e.n., d/ə. **Səbirə Rəsulova**
i.e.n., dos. **Bəxtiyar Musayev**
b/m. **İradə Məmmədova**
müəl. **Gülnarə Abdullayeva**
i.e.n., d/ə. **Mehriban Həsənzadə**

**Tərcümənin redaktoru: i.e.d., prof. Kərim Paşayev**

Mazaraki A.A. **Ticarət. Pul. Mentalitet.**
**Bakı: «İqtisad Universiteti» Nəşriyyatı, 2010.-578 s.**

Monoqrafiya iqtisadi fikir tariximizdə ilk dəfə ticarətin – sosial tərəqqinin mənbəyi və mühərriki (hərəkətverici qüvvəsi) – kimi ümumiləşdirilmiş tədqiqatını əks etdirir. Qədim zamanlardan təşəkkül tapan ticarət, cəmiyyət və onun inkişafının bütün mərhələlərini keçərək, insan məişətinin bütün sferalarının yaradılmasında aktiv rol oynamışdır. Müəllif tərəfindən aparılmış iqtisadi, fəlsəfi və kulturoloji təhlil ticarəti sivilizasiyanın ən böyük nailiyyətlərindən biri kimi göstərir. Ticarətin məğzinin açıqlanmasının aspekti kimi pul nəzərdə tutulur. Onun tədqiqatı bazar iqtisadiyyatının qərarlaşmasında, cəmiyyətdə və insan həyatında ticarətin rolu və əhəmiyyəti haqqında bütöv təsəvvür yaradır. Müəllif sosial-iqtisadi reallıqların fenomeni olan ticarət və pulun mentaliteti haqqında tam təəssürat verməklə orijinal konsepsiya təqdim edir.

Kitab iqtisadçılar, tarixçilər, filosoflar, iqtisadi və humanitar fakültələrin tələbələri, həmçinin geniş oxucu təbəqəsi üçün nəzərdə tutulub.

© А.А.Мазараки, 2006
© Издательство «Книга», художественное оформление, оригинал –макет, 2006
© «İqtisad Universiteti», 2010

# M Ü N D Ə R İ C A T

Giriş (İqtisadiyyatın dərk edilməsi)………………………………………………… 6

TİCARƏT FENOMENİ……………………………………………………………… 15

**Ticarət. Fəlsəfi aspekt**………………………………………………………………… 16
1.Ticarət anlayışı…………………………………………………………………… 17
2.Ticarət statusu…………………………………………………………………… 22
3.İqtisadi nəzəriyyənin modifikasiyalarında ticarət haqqında təlim……………. 27
4.Ticarət nəzəriyyəsi: metodoloji kontekst……………………………………….. 34
5.Ticarət və kapital………………………………………………………………… 36
6.«Ticarət nəzəriyyəsi»nin perspektivləri……………………………………...... 44
Ədəbiyyat………………………………………………………………………… 47
**Ticarətin nəzəri əsasları**……………………………………………………………… 50
1.Ticarətin əsas definitsləri………………………………………………………… 51
2.Ticarət vasitəçiliyi……………………………………………………………….. 58
3.Dünya təsərrüfatı və dünya bazarı……………………………………………… 61
4.Təsərrüfatın və ticarətin dünya təsərrüfatına və dünya ticarətinə çevrilməsi… 67
5.Ticarət anlayışının ticarətin təşkili haqqında təlim kimi inkişafı ……………..… 72
6.Dünya ticarəti prinsiplərinin təşəkkülü………………………………………… 77
7.Ticarət və gəlir……………..…………………………………………….....… 82
Ədəbiyyat………………………………………………………………………… 87
**Ticarət fəaliyyətinin iqtisadi prinsipləri**………………………………………….. 89
1.Ticarətin nəzəri-iqtisadi əsaslandırılması……………………………………… 90
2.Ticarətdə differensiatsiya və monolitlik…………………………………….… 93
3.Əmək və onun ticarət fəaliyyətinə təsiri………………………………………… 99
4.Ticarətdə təsərrüfatçılıq prinsipi………………………………………………... 104
5.Ticarət və sosial problemlərin qarşılıqlı əlaqəsi……………………………….... 108
6.Ticari mikro və makro təsərrüfatı…….………………………….…….…... 111
Ədəbiyyat………………………………………………………………………… 122
**İctimai təkamül kontekstində ticarət**……………………………………………... 124
1.İctimai təkamül konsepsiyasının mənası……………………………………….. 125
2.Ticarətin başlanğıcı: Qədim Şərq……………………………………………….. 129
3.Qədim Yunanıstanın sosial ticarəti……….…………………………………..… 138
4.Antikliyin böhran şəraitində ticarət əlaqələri……………….……………… 148
5.Mənfəətpərəstlik: iqtisadi şəraitlərin ümumi xarakteri……………………….. 153
6.Ticarətin modernin ictimai eyniliyində təkamülü.……………………………… 170
7.Bazar iqtisadiyyatının formalaşmasına merkantilizm aktivləri…….………… 177
Ədəbiyyat………………………………………………………………………… 182
**Ticarət və bazar cəmiyyəti**…………………………………………………………… 184
1.Ticarət iqtisadiyyatın büdcə modelində………………………………………… 185
2. Ticarətin iqtisadiyyatın mübadilə modelində inkişafı……………………….. 191
3. Ticarət siyasət və elmi bazarda ………………………………………………... 197
4. Saziş ticarətdə iqtisadi əlaqələndirmə mexanizminin əsası kimi……..………. 202
5.Bazar, ticarət və diskurs………………………………………………………… 211
6.Azadlıq, bazar, ticarət…………………………………………………………… 215
Ədəbiyyat………………………………………………………………………… 220
**İqtisadi cəmiyyətdə ticarətin institutlaşdırılması**………………………………… 222
1.Suveren hakimiyyət və bazar cəmiyyəti………………………………………… 223
2.İqtisadi dövlətdə ticarət əlaqələri……………………………….……… 229

3. Sosial nemət kontekstində ticarət konsepti .......................................... 235
4. A.Smit iqtisadiyyatının liberal paradiqmasında ticarət .......................... 245
5. İ.Kantın mənəvi iqtisadiyyatında ticarət azadlığı .................................. 250
6.Qətiyyətsizlik situasiyasında ticari-iqtisadi fəaliyyətin etikası..................... 258
Ədəbiyyat.......................................................................................... 261
**Xüsusi mülkiyyətin transformasiyalarında ticarət.....................................** **264**
1. Xüsusi həyatın sivilizasiyalı əhəmiyyəti.................................................. 265
2. Şəxsi maraq, azad ticarətin şərti kimi..................................................... 277
3. Xüsusi mülkiyyət və həyatın iqtisadi formaları........................................ 282
4. Bazar, ticarət, ədalətlilik......................................................................... 297
Ədəbiyyat.......................................................................................... 313
**Ticarət fəaliyyətinin xüsusiyyətləri.....................................................** **315**
1. Biznes, iqtisadiyyat, ticarət..................................................................... 316
2. Ticarət, hakimiyyət, mülkiyyət................................................................ 324
3. Təsərrüfat, bazar, ticarət......................................................................... 333
4. Ticarət və bazarın fəaliyyət xüsusiyyətləri.............................................. 340
5. Bazar mexanizmi və ticarət fəaliyyəti..................................................... 345
Ədəbiyyat.......................................................................................... 351

PUL SUBSTANSİYASI.................................................................... 354

**Pul problemi......................................................................................** **355**
1. Pul anlayışı............................................................................................. 356
2. Pul, dəyər kimi........................................................................................ 360
3. Kapital, pul kimi...................................................................................... 364
4. Qiymət və pul.......................................................................................... 370
Ədəbiyyat.......................................................................................... 374
**Fəaliyyət və pul.................................................................................** **376**
1. Fəaliyyət, şəxsiyyətin mənəvi potensialı kimi......................................... 377
2. Əmtəə və fəaliyyət.................................................................................. 381
3. Kapital və fəaliyyət................................................................................. 389
4. Fəaliyyət strukturunda pul....................................................................... 392
5. Fəaliyyətin ideal vasitə ilə ifadə olunması............................................... 396
6. Ticarət təsərrüfatında pulun fəaliyyət mahiyyəti...................................... 398
7. Pul, ticarət-iqtisadi fəaliyyətin siyasi strukturlarında.............................. 401
8. Təsərrüfatın sosial-fəaliyyət modernləşdirməl. Pulun mahiyyəti.............. 406
9. İnnovasiya fəaliyyəti, dünya və pul......................................................... 411
Ədəbiyyat.......................................................................................... 414
**Pul ölçüsündə sərvət..........................................................................** **418**
1. Sərvətin sosial-mədəni parametrləri......................................................... 419
2. Sərvət və nemət: mənanın formalaşması.................................................. 421
3. Pul – sərvətə qarşı maraq stimuludur....................................................... 431
4. Kapitalizmin başlanğıc dövründə fəlsəfədə sərvət nəzəriyyəsi................ 434
5. Bazar təsərrüfatında pul, sərvət kimi: xeyir və faydalılıq......................... 443
Ədəbiyyat.......................................................................................... 446
**Pul, simvol məkanında ......................................................................** **449**
1. Cismi simvolizm və pul........................................................................... 450
2. Sözün simvolikası................................................................................... 452
3. Simvol və simvolik məna........................................................................ 455
4. Pulun eydetik simvolikası....................................................................... 458

5. Apoftizm və pul simvolikası........................................................ 460
6. Pulun loqos kimi simvolikası........................................................ 461
7. Pul simvolunun ekzistensianal enerjiləri........................................... 463
8. Elm kontekstində simvol........................................................... 466
9. Pulun varlıq simvolikasında müəyyən edilməsi.................................... 467
Ədəbiyyat.............................................................................. 472

**İQTİSADİ HƏYATDA MENTALİTET.......................................... 474**

**Milli psixologiya və mentalitet.......................................................... 475**
1. Arxetip və milli xarakter.............................................................. 476
2. Mentalitet.............................................................................. 480
3. Mentalitetin xüsusiyyətləri........................................................... 485
4. Mentalitetin məna məkanı........................................................... 489
5. Etnik stereotip, mentalitetin sosial obrazı kimi.................................. 495
6. Mentalitetin paradiqmaları........................................................... 498
Ədəbiyyat.............................................................................. 504
**İşgüzar münasibətlərdə dünya xalqlarının mentalitetinin xüsusiyyətləri..................... 506**
**1. Şərq.................................................................................. 507**
Yaponiya: kompromiss – anın aynasıdır.............................................. 507
Çinin konfusi rasionalizmi.............................................................. 511
Koreya qeyri-rəsmi əlaqələrinin xüsusiyyətləri..................................... 513
Ərəb dünyası: pulun dəyərliliyi və fəaliyyətin nüfuzu.............................. 516
Yəhudi «işgüzar ruhu» və pula qarşı müdrik münasibət............................. 520
Ədəbiyyat.............................................................................. 526
**2. Afrika: zaman – pul deyil................................................................ 527**
**Ədəbiyyat.............................................................................. 530**
**3. Avropa............................................................................... 531**
**Qərbi Avropa......................................................................... 531**
Alman qənaətkarlığının rasional təcrübəsi........................................... 532
İngilislərin sahibkar individualizmi (fərdiyyətçiliyi).................................. 535
Fransız düzgünlüyü, yığımcıllığı və qənaətkarlığı.................................... 540
İtalyansayağı «fors atmaq» (özünü çəkmək).......................................... 544
İspanlar: ləyaqəti saxlamaq............................................................ 547
Skandinav xalqlarının pul mentaliteti................................................. 550
**Şərqi Avropa......................................................................... 552**
Ukrayna: arzudan reallığa.............................................................. 552
Rusiya: strategiya və layihələrin «kosmizmi»........................................ 556
Ədəbiyyat.............................................................................. 564
**4. Amerikalıların «Monetar» mentaliteti............................................ 566**
Nəticə.................................................................................. 576
Ədəbiyyat.............................................................................. 577

# İQTİSADİYYATIN DƏRK EDİLMƏSİ

*«Ticarət nədir?» sualının cavabından sadə nə ola bilər. Hər müasir insan ən mürəkkəb sosial-iqtisadi və siyasi münasibətlərdə olub, onların xüsusiyyətləri və mahiyyəti haqqında mülahizələrlə özünü əziyyətə salmadan sakitcə izah etməyə çalışar ki, «ticarət - ...». Amma sonra mütləq duruxma baş verəcək. Deməki, ticarət fenomenini izah etmək elə də sadə deyil. Ən yaxşı halda* ***təsəvvür*** *səviyyəsində. Məvhum – kateqoriya səviyyəsində qalldıqda formalaşdırmaq problemi yaranır. Həqiqətən, ticarət nədir? Həyat, fəaliyyət, iqtisadiyyat sferası, sadəcə iş və ya* ***pul əldə etməyə*** *imkan verən hər şey?*

*Cəmiyyətin xalq təsərrüfatının təşkili haqqında klasssik təsəvvür, tarixən qərarlaşmış əmək bölgüsü və qarşılıqlı mübadilə əsasında cəmiyyətin, onun maddi-iqtisadi mövcudluğu üçün lazım olan nemətlərlə təmin olunması məsələlərini həyata keçirən xüsusi təsərrüfat sistemidir. Bu təsərrüfatların bir qismi təbiətdən xammalın alınması ilə məşğuldur, digərləri materialların insan tələbatlarını təmin etməyə qadir nemətə çevrilməsi üçün onun emalını özünə məqsəd qoyur, üçüncülər istifadə üçün hazırlanmış nemətin, əmtəənin istehsalçılardan istehlakçılara çatdırılması ilə məşğuldur. İnkişaf etmiş cəmiyyətin təsərrüfat fəaliyyəti, beləliklə, üçlü təsəvvür edilir – hasilatçı, emalçı və ötürücü. İqtisadi nemətlərin qarşılıqlı mübadiləsi zamanı istehsalçılarla istehlakçılar arasında vasitəçilik məqsədinə malik axırıncı növ fəaliyyət tarixən formalaşmış* ***ticarət*** *adını daşıyır. Bu anlayış insan həyatına elə möhkəm daxil olmuşdur ki, ticarətsiz cəmiyyətin təsəvvür edilməsi ağlasığmazdır. Bundan əlavə, hətta, ticarətin nə olduğunu bilməyən ən sadə adamı tapmaq belə çətindir.*

*Lakin insan fəaliyyətinin istənilən artefaktının sadələşdirilməsi onu bütöv anlayışa gətirmir. Xüsusən özünün polifunksionallağında ordinar determinasiyalarla bitməyən ticarətin. Ticarət fəaliyyəti vasitəçi olub, aydın nəzərə çarpan subyekt-obyekt xarakteri daşıyır. Axı ticarətin bir tərəfində istehsalçı, digər tərəfində isə istehlakçı dayanır. Amma insan olan yerdə həmişə fəlsəfi təhlilə və metodoloji yanaşma müxtəlifliyinə ehtiyac yaranır. İnsanın və cəmiyyətin daimi inkişafı ticarəti mürəkkəbləşdirir. Belə ki, istehsalçı ilə istehlakçı arasında bilavasitə mübadilə ticarətçinin iştirakını artıq edir və ticarət fəaliyyətinin əlavəsini aradan qalldırır. Daha sonra bir sıra istehsalçılar öz məhsullarının istehlakçılara satışını özləri idarə edir. Ticarətçi vasitəçi kimi istehsalçıdan onunla fərqlənir ki, o, tam hazır məhsulun dövriyyəsinə şərait yaradır, ona görə də ticarət malları (əmtəələri)*

*mahiyyətcə dəyişə bilmir, başqa cürə o emal sənayesinə çevrilər. Hazır məhsulu istehsalçıdan istehlakçıya göndərərək ticarət həmin anda xalq təsərrüfatında dövr edən nemətlərin miqdarını dəyər kəmiyyətini artırmır. Bu nöqteyi-nəzərdən ticarət məhsuldar qəbul edilə bilməz. Bu vəziyyət ticarət fəaliyyətinin ünvanına iradlar, nemətlərin ticarət vasitəçilərinin əlində saxlanılan hissəsinə qarşı anlaşılmazlıq doğurur. Vasitəçilərin qarışmasının aradan qaldırılması arzusu istehsalçıların istehlakçılarla bilavasitə yaxınlaşmasına keçməyə cəhdlər yaratdı. İstehsalçılar öz məhsullarının satışı üçün satış yerləri təşkil edərək istehlakçıları özünə cəlb edir və eyni zamanda agentlər göndərilməsi yolu ilə yeni satış bazarları axtarırlar; digər tərəfdən istehlakçılar istehlak cəmiyyətləri təşkil edərək, ticarətçilərdən yan keçərək istehsalçılarla bilavasitə münasibətə girməyə can atırlar. Bununla belə, ticarətin xalq təsərrüfatı əhəmiyyəti şübhə doğurmur və daima yüksəlir. İqtisadi nəzəriyyənin əlifbası göstərir ki, ticarət vasitəçiliyinin vacibliyi, hər şeydən əvvəl o şəraitdən irəli gəlir ki, müasir tələbatlar, təbii şərait nəticəsində verilən ölkənin sərəncamında olmayan və ancaq başqa ölkələrlə mübadilə yolu ilə əldə edilə bilən nemətlərə ehtiyacdan irəli gəlir, ya istehlakdan imtina etmək, ya da vasitəçilikdən istifadə etmək lazım gəlir. İkinci, ticarət fəaliyyəti ictimai əmək bölgüsü nəticəsində vacib olur. İstehsalat işində ixtisaslaşma prosesi nə qədər irəli gedirsə, ticarətin təsiri də bir o qədər qaçılmaz olur. Müasir təsərrüfatçılar, özü üçün hər şeyi öz əməyi ilə hazırlamaq cəhdindən imtina etməklə və dünya bazarına işləyərək, onlara lazım olan nemətləri mübadilə yolu ilə ancaq ticarətin mövcudluğu ilə əldə etməyə qadirdir. Heç bir istehsalçı ona lazım olan nemətlərin kim tərəfindən istehsal olunduğunu və onun istehsal etdiyi nemətlərin ona lazım olan miqdarda, arzu olunan və mümkün vaxtda kimin mübadilə etməyə hazır olduğunu billə bilməz.*

*Ticarətin istehsala təsiri məhz onda görünür ki, ticarətçi istehsalçını alıcı axtarışından və riskindən azad edir, onun məlum məhsulların istehsal prosesində, onu təkmilləşdirib və genişləndirilməsində, fikrinin cəmləşdirilməsi imkanlarını yüngülləşdirir. Ticarətin istehlaka təsiri həm də onda görünür ki, istehlakçı müqayisəolunmaz miqdarda çox nemətlərdən və həm də daha ucuz qiymətlə istifadə etmək imkanı əldə edir, nəinki, o özünə lazım olan nemətlərin istehsalçılarda axtarılmasına özü cəhd etsəydi. Bir tərəfdən istehsalın artmasına, digər tərəfdən tələbatların artmasına zəmin yaradan ticarət müasir təşkilatlanmamış təsərrüfatın yaratdığı şərtlər daxilində özünün* ***mədəni təyinatını*** *yerinə yetirir.*

*Ticarət öz məzmununa görə və özünün təzahürlərində çoxsaylıdır. İbtidai ticarət kimi xarici ticarət tanına bilər. Vasitəçilik, hər şeydən əvvəl təbiətin verilmiş ərazidəki təsərrüfatı məhrum etdiyi şeylərə münasibətdə vacib görünür. Natural təsərrüfat daxili mübadiləyə yardım etmir. Ölkə daxilində ticarət yalnız* ***əmək bölgüsü*** *ilə əlaqədar yaranır.*

*Ticarət fəaliyyətinin yaranmasının ilk vaxtlarında vasitəçilik özünün saf görünüşündə çıxış edirdi. Ticarətçi, istehsalçılardan malı (əmtəəni) satın alıb özü, özünün hərəkət vasitələrində, əldə qılınc istehlakçıların axtarışına yollanır. Onun fəaliyyətində sonradan xüsusi, tamamilə sərbəst sahələrə ayrılacaq ticarət sənayesinin bütün elementləri qırılmaz surətdə bağlıdır.*

*Ticarətin sonrakı inkişafı məhz* ***fəaliyyətin differensiallaşmasındadır.*** *Malın (əmtəənin) satışından alınan və ya onun satın alınması üçün lazım olan pulların daşınması, öz varının çoxsaylı soyğunçulardan şəxsən müdafiə olunmasına məcbur olduğu orta əsrlərdə çox böyük təhlükə idi. Bankçılıq fəaliyyəti ticarətçinin bu əhəmiyyətli işini yüngülləşdirir və o vaxt üçün nadir kapitalın yığılması sayəsində çox erkən böyük ölçülər alır.*

*Dövriyyənin artması, malların uzaqlara, tez-tez və müxtəlif istiqamətlərə göndərilməsi yük nəqliyyatının şəxsən müşaiyyəti tacir üçün çətinliklər yaradır. Taciri onun bu fəaliyyətində əvəz edən şəxslər sinfi-inanılmış kapitanlar yaranır.*

*Differensiasiyada sonrakı addım nəqliyyat işinin ayrılmasıdır. Tacirin daha öz hərəkət vasitələrinə ehtiyacı yoxdur, o təkcə ona yox, çoxlarına, ona görə də sənaye fəaliyyətinin xüsusi sahəsinə çevrilən, ticarətin yanında yerləşən, ona şərait yaradan və onunla qidalanan özgə vasitələrin köməyinə əl atır. Malın (əmtəənin) məhv və ya xarab olması ilə bağlı, əvvəllər tam olaraq tacirin üzərinə düşən risk, yeni sahənin –* ***sığortanın*** *təşkili ilə onun üzərindən götürülür. Bu əməliyyatın mahiyyəti ticarət fəaliyyətinin ayrılmaz elementindən birinin xüsusi tapşırığa çevrilməsindədir.*

*Nəhayət, əmtəənin anbarlarda saxlanmasının özü, ona nəzarət, onun çeşidlənməsini xüsusi sahəyə –* ***mal*** *(əmtəə)* ***anbarına, elevatora*** *ayırmağa başlayırlar. Nəhayət əsas xadimin ticarət fəaliyyəti, onun bir sıra tapşırıqdan azad edilməsi yolu ilə texniki tərəfdən həddən artıq sadələşir. İri topdansatış ticarəti, teleqraf, telefon, faks, elektron poçtun və s. köməyi ilə təkcə bir mərkəzdən həyata keçirilə bilər. Bununla yanaşı işin mexaniki tərəfi hüquqi tərəfdən daha çox geri qalır. Eyni zamanda, ticarət fəaliyyətindən yaranmış sənaye sahələri, öz növbəsində sonrakı diferensiasiyaya yol açan daha mürəkkəb təşkilatdır.*

*Əsas ticarət fəaliyyəti – alış və satış kimi köməkçi sahələr də hüquqi aktlar vasitəsilə xüsusi mülkiyyət və müqavilə azadlığı üzərində qurulmuş müasir cəmiyyətdə öz vəzifələrini yerinə yetirir. Ticarət-vasitəçilik fəaliyyətinin həyata keçirilməsinə yönəlmiş hüquqi sövdələşmələrin məcmusu* ***ticarət dövriyyəsini*** *təşkil edir.*

*Ticarət dövriyyəsi cəmiyyətdə qarşılıqlı mübadiləyə yönəlmiş sövdələşmələr məcmusundan ibarət olan iqtisadi dövriyyənin tərkib hissəsidir. İstehsalçılarla istehlakçılar arasında bilavasitə mübadilə məqsədi olan sövdələşmələr ticarət dövriyyəsinə girmir, belə ki, onlarda vasitəçilik əlaməti*

*yox-dur. Öz növbəsində verilmiş vətəndaş cəmiyyətinin üzvləri tərəfindən həyata keçirilən, ümumiyyətlə bütün hüquqi sövdələşmələrin məcmusu kimi təmsil olunan iqtisadi dövriyyə vətəndaş dövriyyəsi anlayışı məzmununa bir hissə kimi daxil olur. Vətəndaş dövriyyəsi haqqında anlayış iqtisadi dövriyyə anlayışı ilə müqayisədə daha genişdir, çünki onun mahiyyətinə, öz ideyasına görə iqtisadi mübadilə ilə uyğunlaşmayan bağışlama, vəsiyyət kimi fəaliyyət həmçinin özünün qeyri-material mahiyyəti ilə iqtisadi fəaliyyət çərçivəsindən çıxan qeyri-maddi xidmətlər mübadiləsi daxildir.*

*Müxtəlif nöqteyi-nəzərdən baxılan ticarət, aralarındakı fərq başlıca olaraq iqtisadi əhəmiyyət, həm də hüquqi marağı olan bir neçə növə malikdir.*

*Ticarətin icra (istehsal) yeri nöqteyi-nəzərindən o, a) – daxili və b) – xarici ticarətə bölünür. Hər ölkə öz vətəndaşlarının tələbatını ya sonuncuların öz əməyinin məhsulları ilə, ya da digər ölkələrlə mübadilə vasitəsilə təmin edir – təbii şəraitlər, biliklər, incəsənət, adətlər, ölkələr arasındakı məşğuliyyətin bölünməsinə təsir göstərir. Beləliklə, nə qədər ki, iqtisadi fəaliyyət yerli istehsalçılar və istehlakçılar arasında vasitəçiliyə yönəlmişdir, bu* ***daxili ticarətdir****. Naçan ki, vasitəçilik yerli istehsalçılarla xarici istehlakçılar arasında və tərsinə həyata keçirilir, onda o,* ***xarici*** *ticarətə çevrilir. Öz növbəsində axırıncı* ***gətirilənə*** *– xarici istehsalçı ilə yerli istehlakçı arasında baş verdikdə,* ***aparılana*** *– yerli istehsalçılarla xarici istehlakçılar arasında baş verdikdə,* ***tranzitə*** *– xarici istehsalçılarla xarici istehlakçılar arasında baş verdikdə – bölünür.*

*Bu fərqin siyasi əlamətə görə qurulduğunu və iqtisadi siyasət nöqteyi-nəzərindən əhəmiyyəti olduğunu görmək çətin deyil.*

*İstehsalçılarla istehlakçılar arasında vasitəçilik bir-birini qarşılıqlı tamamlayan bir neçə şəxsin iştirakını vacib edir. Tanınmış məhsul bir nəfərdə kiçik həcmlərlə külli miqdarda, tutumlarda olduğu kimi yığılaraq, buradan istehlakçılara yaxın olan şəxslərə keçib. Onlar arasında yayılan, bununla da onlara malın (əmtəənin) lazım olan ölçüdə və vaxtda əldə etmək imkanı yüngülləşir.* ***Topdan və pərakəndə ticarət*** *arasındakı fərq bu iqtisadi başlanğıc üzərində qurulmuşdur. Bu fərq özünü onda büruzə verir ki, topdan ticarətçi malı (əmtəəni) bilavasitə istehsalçıdan satın alır; pərakəndə ticarətdə tərsinə, mal (əmtəə) tez-tez ticarətçidən alınır; topdan ticarətçi malı (əmtəəni) yalnız digər ticarətçilərə satır, pərakəndə ticarətdə, tərsinə, əmtəə (mal) tamamilə bilavasitə istifadəçiyə satılır. Topdan ticarətdə malın (əməənin) böyük miqdarda, partiyalarla satışı yer alır, pərakəndə satışda isə ticarət hər istehlakçının gündəlik tələbatı ilə təyin olunan ölçülərdə həyata keçirilir. Tez-tez bu fərqlə digəri –* ***iri*** *və* ***kiçik*** *ticarət arasındakı fərd qarışır. Topdan ticarət həqiqətən iri ticarətlə üst-üstə düşür, lakin belə uyğunluq pərakəndə və kiçik ticarətdə heç də həmişə baş vermir.*

*Əvvəllər mövcud olan və hərəkət üsulu ilə kəskin fərqlənmə ilə izah olunan quru və dəniz ticarəti arasında tarixən fərq olmuşdur. Məhz dəniz ticarəti, özünün texniki xüsusiyyətləri ilə ilk dəfə müstəsna hüquq formalarının yaranmasına səbəb olmuş və ticarət hüququnun yaranmasına xidmət etmişdir. Quru və dəniz ticarətinin fərqi indiki zamanda ticarət hüququ sistemindən malın (əmtəənin) dənizlə hərəkətini tənzimləyən xüsusiləşdirilmiş normalarında görünür. Hazırda texniki şərtlər, əvvəllər özünün yaratdığı fərqin silinməsinə çalışır. Yaxınlaşma, quru ticarətinə aid olan, lakin hüquqi normalara görə dəniz nəqliyyatına daha yaxın olan daxili sularda daşımanın təsiri altında baş verir.*

*Ticarət növünün müxtəlifliyi onun həcmliliyini və təsərrüfat həyatının bütün sferalarına qoşulduğunu göstərir. Adətən ticarət gömrük nəzarəti ilə qaydaya salınır ki, bu da sivilizasiya və tələbkarlığın əlamətidir. K.Quro ticarətin bəşəriyyətin taleyində rolu haqqında mülahizəsində qeyd edir: «Qalan dünya ilə müqayisədə bütün Avropa heç nədir. Ona Allah tərəfindən nə verilib? Palıdlar, şamlar, otlaqlar, bir neçə taxıl bitkiləri; Çində ipək, Hindistanda pambıq, Ərəbistanda isə – at tapırıq. Avropaya xüsusi olaraq nə verilib? Ancaq bir şey: insan verilib. Həqiqətən insan, tək insan – bax əvvəl Avropanın tək bir sərvəti bu idi, əvvəllər bu qədər yoxsul, indi bu qədər varlı! Əgər avropalı gömrükdən məhrum möcüzəli sistemli sərbəst ticarətə malik olmasaydı, öz iqliminin sərtliyinə və torpağının məhsuldarsızlığına qalib gəlmək imkanı olmasaydı öz vətənini dünyada ən varlı ölkəyə çevirmək əvəzinə onun təbii xarakterini saxlamış olardı. Əgər bu və ya digər səbəblərdən ticarət sistemi olmasaydı, görəsən tarix bəşəriyyəti hara gətirərdi? Axı o – ən müqəddəs azadlıqlardan birinin zəminidir: insanın bacarığı və əməyinin azadlıqlılığı!»[1]. Əgər ticarət olmasaydı, onda hər millət ancaq ona xas olan iqlimlə bağlı sənayenin işlənməsinə və təkmilləşdirilməsinə məcbur olardı. Onda gör nə baş verərdi. Bütün sənaye dünyası qədim Misir vəziyyətinə düşərdi. Hər dövlət öz təbii sənayesi ilə məhdudlaşmağa məcbur olardı və bu dairədən çıxmaq mümkün olmazdı, hər bir sənaye yalnız onun yarandığı yerdə qalardı; qədim misirlilərdə olduğu kimi, onun müxtəlif sahələri üzrə bölünərdi; ipək sənayesi Çində, pambıq kağız Hindistanda, yun Tibetdə və s. çiçəklənərdi. Belə nəticə qaçılmaz olardı, onun vacibliyi nəzərə çarpır; məlum olduğu kimi yalnız ticarətin köməyi ilə yad yerlərin sənayesini mənimsəmək olar. Bunlar aydındır – ticarət, məlum sənayenin çiçəkləndiyi millətdən ona ehtiyacı olan millətə çatdırılmasının yeganə vasitəsidir. Belə sistemin yoxsulluğunda əmək azadlığı nə vəziyyətə düşərdi? Hər bir istehsalçı öz ölkəsinin iqliminin qulu olub öz ixtiraçılığı və fəaliyyətini bir və ya iki sənayeyə tətbiq edə bilərdi; bütün digərləri onun üçün mövcud olmazdı və «xalqın dühası öz ölkəsinin iqliminin sərtliyinin və torpağının barvermәzliyinin quluna çevrilməklə tamamilə sönərdi. Əgər əşyaların düzümü təbii yolundan*

*çıxarılmasaydı gör əmək azadlığı nə hala düşərdi. Bu təbii yol, xalqların sənaye dühasının və onların azadlığının köləliyinin əbədi mühiti olardı»[2]. Bu köləlikdən qurtulma kompleks yolla incəsənətdən, dindən, iqtisadiyyatdan, elmdən keçməklə baş verdi. Müxtəlif formalardan keçərək ticarət vahid effektiv kommunikativ sistem oldu, bunun köməyi ilə dünyanın bütün hissələrini, bundan az əhəmiyyətli olmayan bazarın bütün hissələrini birləşdirən beynəlxalq bazar yarandı.*

*Onları bir şey birləşdirir – pul. Onların necə adlandırılmasının mənası yoxdur – dollar, rubl, rial, şekel, yuan, afqan və ya qrivna – onların hamısını yer kürəsinin hər bir hissəsini əhatə edən beynəlxalq sikkə sisteminin kiçik bir hissəsi kimi bir istiqamətdə fəaliyyət göstərməsi vacibdir. Coğrafiya və valyutanın növündən asılı olmayaraq müasir sistem pulun bir bazardan digərinə asanlıqla və tez köçürülməsinə imkan verir.[3] Belə köçürmənin köməyi ilə, özü ilə sosial fəzanı dolduraraq ticarət daha intensiv olur.*

*Pul ticarətin köməyi ilə özündə həm tropik Afrikanın bazarlarındakı adi qida məhsullarının qiymətini, həm də Sara Li Fuks birjasında və ya Nyu-York birjasında «Pepsi» kompaniyasının aksiyalarının qiymətini əks etdirən universallaşdırılmış dünya iqtisadiyyatını yaratmışdır. Hərçənd ki, siyasətdə, dində, texnologiyada və hətta havada dəyişmələr bu işlərin heç birində öz rolunu oynaya bilərlər, məhz bütün sistemin bazisi puldur və qiymətin təyin edilməsində həlledici manqanı formalaşdırır, ticarət mübadiləsini təmin edir və kommersiya yaradır. Pul bütün bunları vahid dünya sistemində birləşdirir. Bu bütün bəşəriyyəti bağlayan düyündür. Pul, məhz ticarətlə necə qarşılıqlı əlaqəyə girir? Bu problemin həlli, ticarət sistemi daxil olmaqla bütün dünya iqtisadi sisteminin yaranmasında bilavasitə iştirak edən pul fenomeninin özünə baxılmasını tələb edir.*

*Biz «pul» adlandırdıqda, o, tez-tez özünü abstrakt, lakin bununla yanaşı böyük qüvvə ilə heyrətləndirir. Əgər ticarət, nemətlərə çatmaq şərti olmaqla istehsalat, sənaye və fəaliyyətin digər növləri ilə bağlıdırsa, pul isə əməkdən və bütün fəaliyyət növlərindən nəzərən ayrıla bilir. Xüsusən bu gün, əmək-dəyər nəzəriyyəsi əsasən iqtisadi təlim tarixinin qəniməti̇dir. Müasir cəmiyyətdə pul, bütün ləzzətlərə olduğu kimi bütün fəlakətlərə də yol açan açardır. Pul müasir dünya mədəniyyətinin fokus nöqtəsini təyin edir. Pul təkcə bazarda müştəri ilə ticarətçi arasında münasibəti yox, həm də istehsalatda işverənlə işçi arasındakı və bütövlükdə insanlar arasındakı münasibəti təyin edir. Bu da – cəmiyyətdə insanlar arasındakı bütün münasibətlərdir. Pul müasir bazar və iqtisadiyyatın əsas institutlarını formalaşdırır, onların ətrafında dinin, siyasətin, mədəniyyətin köməkçi institutlarını qruplaşdırır. Pul müasir dünya üçün kommersiya dilidir.[4] O, ticarətdən ayrılmazdır. Buna görə ticarətin tədqiqatına pul problemi qoşulmayıbsa o məhsuldar ola bilməz.*

*Ticarət və pulun qarşılıqlı əlaqəsi onların əsası ilə – azadlıq ilə şərtlənmişdir. Azadlıqsız pul arta bilmədiyi kimi, ticarət də azadlıqdan kənarda inkişaf edə bilməz. Bazar, kapitalist münasibətlərinin formalaşmasının başlanğıcı dövründən, görkəmli dahilərin – filosofların, iqtisadçıların, yazıçıların nəzəri əhvaliruhiyyəsində sənayenin yaranması və möhkəmlənməsi dövründən başlayaraq azad (sərbəst) ticarət ideallaşır (amma pul yox). Azad ticarət «hər ticarət sənayesinin idealıdır. Bəşəriyyətə bu ideala can atmaq, onunla öz fəaliyyətini daha çox uyğunlaşdırmaq, ehtiraslarımızın gücsüzlüyünün imkan verdiyi qədər ona yaxınlaşmaq, hər gün az-az bu ehtirasları fəth etmək və xırda-xırda onları qardaşlıq daşına qurban vermək üçün gətirməyə nail olmaq təyin edilmişdir. Əgər artıq istəmirlərsə ticarət müəssisəsinin öz dəyəri olsun, onun yaşamasına (mövcudluğuna) bir az səbəb olsun, dünyaya qəribəliyi dərk edilən, özünü ticarət münasibətlərinin o mələk vəziyyətinə gətirmək üçün yenə bir az vaxt lazım olsun, onda həmin səcdə olunan sistem bu halda* ***azad ticarət*** *məktəbindən çox tanınmamalıdır, qədim dünyada qulların azadlığa doğru birinci addımı olduğu kimi, sınaq zənciri ilə yer həyatı ölməzliyə hazırlığın olduğu kimi»[5]. Hərçənd ki, ideal – axırıncı sığındığımızdır, bununla yanaşı ona müraciət ticarətin pulla qarşılıqlı əlaqəsində ticarətin mahiyyətinin üzə çıxarılmasında nümunəvidir. Hər bir nəzəriyyənin əhvaliruhiyyəsini müşayiət edən idealsız ticarət-iqtisadi fəaliyyətin mahiyyətinin həqiqi dərk edilməsi də baş verə bilməz.*

*Ticarət üçün ideal həmişə azadlıq olub.* ***Q.Leybnits*** *demişdi: «Uzun axtarışlardan sonra mən tapdım ki, ən qədim və ümumi qəbul olunmuş rəyin adi mahiyyəti əgər ədalətli izah olunursa, ən yaxşıdır». Maariflənmiş xalqların çoxdan mövcud olan elə bir müəssisəsi yoxdur ki, onlara ağıllı adamların məsləhət gördüyü kimi baxılmasın. Artıq, ancaq bir buna görə ticarət sistemi azadlıq nəzəriyyəsi və azad ticarəti öyrənənlər tərəfindən ətraflı araşdırılmağa layiq görülməli idi. Onlar rədd etməzdən və onların dağıntıları üstündə yeni ticarət sisteminin tikilməsini məsləhət görməzdən əvvəl onların mənbələrinə çatmalı idi, onları yaradan fikirləri öyrənməli, onların təsirini öyrənib və nəticələri çəkməli idilər. Belə hərəkət etməklə, onlar ağılsızlıqda günahlandırılmaqdan yaxa qurtara bilərdi, indi onları bunda günahlandırmamaq olmaz və bu onların təliminin əsaslı olmasının xeyrinə danışmır. Bununla biz ideal məramların nəzəriyyə və təcrübənin ticarət nəzəriyyəsi kimi, eləcə də pul nəzəriyyəsi kimi qurulmasında əhəmiyyətli olduğuna əmin oluruq.*

*Ticarətin mahiyyətinin aydınlaşdırılmasında onun sosial dinamikada baxılması vacib əhəmiyyət kəsb edir. Və bu təsadüfi deyil, axı hərəkət dünyanın həyatıdır və o, heç zaman kəsilmir. Daha çox maariflənmiş xalqlar geridə qalmışları gözləməzlər; onlar ya yüksələrlər, ya da geri qalarlar, əgər onlar inkişafda davam edərlərsə onda geri qalanlar onlarla heç zaman bərabərləşməz, əgər onlar geri gedərsə onda arxada qalanlar onları ötüb keçərlər.*

*Xalqların inkişafının dayanacağı apogeyə qaldıqda isə, bu xülyadır. Hər qüvvə apogeyə çatmır və heç biri orada qala bilmir; yüksək nailiyyət artıq yıxılmağın başlanğıcıdır. Xoşbəxtlik də dəniz kimidir, qabarma yoxdursa demək çəkilmə başlayır. Buna, yeni kəşflərin dühasının hərtərəfli bərabərlik müəssisəsinin qarşıya çıxartdığı maneələri əlavə edir. «Ticarət dünyasının fırlandığı ox tarixdə artıq bir neçə dəfə dəyişmişdir; irəliyə nə qədər sürətlə gediriksə – onu o qədər də dəyişməyə məruz qoyuruq. Qoy yeni mühərrikin və ya yeni qidalandıran bitkinin, ya da hər hansı naməlum toxuculuq lifinin kəşfi peyda olsun, onda yoxsulluğun cəngində olan ölkə ən varlı ölkəyə çevrilə bilər. Ticarət sistemi özünün ağlabatan hissiyyatı ilə əşyaların (şeylərin) və adamların bu dəyişikliklərin ardınca gedəcək; hər xalqın müstəqilliyinin mühərrik müdafiəsi ticarət dünyasının azadlığını həmişə qoruyar. Onun yerinə azad ticarət sistemi olsaydı nə edərdi? Burda da hər yerdə olduğu kimi o, gözlənilməz dəyişikliklərin bütün təsadüflərinə azadlıq verərdi».*[6]

*Ancaq, ticarətdə təsadüfün və qanunauyğunluğun qarşılıqlı əlaqəsinin dəqiq aydınlaşdırılması üçün onun sosial tarixinin əsas anlarının nəzərdən keçirilməsi lazımdır. Qarşılıqlı əlaqə əsrlərlə müqəddəsləşdirilib, onun əsaslarının tədqiqatı elə bunu tələb edir. Hansı bazarda olmasından asılı olmayaraq ticarətin azadlığı bir şərtdən – məhz rəqabətdən asılıdır. Eyni bazarda eyni məhsulların satıcılarının bir yerdə olmalarından baş verən rəqabət və ya mübarizə – budur* ***ticarətin azadlığının əsası.*** *Satışla alışın eyni dərəcədə azad olmadığı yerdəki əlaqələrdə tam azadlıq yoxdur; rəqabətsiz nə ticarət, nə iqtisadiyyat, nə də maliyyə azaddır. Elə insan həyatı da rəqabətdən kənarda mahiyyətini itirir. Ticarət azadlığının yüksək inkişafı – budur məqsədə çatmağın yolu. İnsan üçün hər şeyə hədd qoyulub, lakin eyni zamanda onu ruhlandıran və istiqamətləndirən həmişə sabit stimul mövcuddur. Duyğulu varlıq olduğundan o həmişə gözəlliyin yaran-masına can atır; ağlabatan varlıq kimi o həmişə elm vasitəsilə həqiqətin kəşfi və izahına can atır; fəaliyyət (təsir) göstərən varlıq kimi o, bütün vasitələrlə azadlığa can atır. Azadlıq – budur insan həyatının bütün təzahürlərinin idealı, gözəllik onun məhəbbətinin idealı, həqiqət isə – onun düşüncələrinin idealı olduğu kimi. Ticarət insan fəaliyyətinin başlıca sahələrindən biridir; bu mənada onun idealı – insan fəaliyyəti aktının mükəmməl halına qədər yüksəlmək, yəni azad olmaqdır. Bu, həmçinin xüsusi adamların ticarətinə münasibətdə olduğu kimi, xalqların ticarətinə münasibətdə olduğu kimi ədalətlidir; belə çıxır ki, dünyanın ticarət həyatının ideealı azadlıqdır.*

*Ticarət bir sistem kimi öyrənilməsini tələb edir. Dühası ilə yox, yalnız öz təsəvvürü ilə yeni qayda-qanun arzulayan adamlar öz təlimlərinin əsaslı olmasını nə mülahizələri ilə, nə də faktlarla sübut etmək adətinə malik deyil. Onlar öz təlimini izah edir və bu da onlara tam inanmaq üçün kifayət edir. Bunun əvəzinə onlar ehtirasların təsiri altında məhvini istədikləri müəssisə-*

*lərinə çatışmazlıqlarına yorulmadan hücum edirlər. Öz fantaziyalarına tamamilə sadiq olan belə sistem qurucuları təbii olaraq onunla fəxr edirlər: əgər onlar onda loqmatik vacibliklə danışırlarsa da, bu onun üçündür ki, özlərinin şəxsi xülyalarını sadə qəlblə doğma kimi qəbul edirlər. Lakin əməllər ancaq yolu azmaq kimi görünən tezliklə taktikaya çevrilir. Belə yeniliklər öz nəzəriyyələrinə əsas gətirmək imkanlarına malik olmadıqlarından təntənəli surətdə susurlar; tezliklə bəlli olar ki, onların sisteminə onlarla birgə kor-koranə imanı bölüşməmək günah olardı. Eyni zamanda qəbul etmək istəmədikləri inanclara qarşı çıxış edən əleyhdara qarşı borclu qalmırlar. Bununla yanaşı, cəmiyyət şeylərin mahiyyətini anlamır həmişə sözlərlə qane olur; onun gözlərində bütün varlıqlar mövcudluğunun bağışlanmaz çatışmazlığına malikdir; ona sui-istifadəni möcuzələrə dəyişmək söz verildikdə o, hər şeyi qəbul etməyə və hər şeyə inanmağa qadirdir; o sistemçilərin girdiyi libasa hörmətlə baxır və yavaş-yavaş təlim yayılır. Ağıllı adamlar gülümsəyərək ona əhəmiyyət vermir vaxt ötür, tərəfdarların sayı artır və bu yolla ən öldürücü ideyalar tətbiq edilir.*

*Həqiqi elm həmişə öz təkliflərinin yoxlanılmasını tələb edir. Heç olmasa adi yeniliklərin əksinə hərəkət etməklə. «. . . yenilikçilər dahidirlər.* ***Dekarta*** *baxın,* ***Kyuvyeyə*** *baxın: biri Aristotelin öz-özlüyündə gözəl əsərlərinin daha gözəl kitabla həmişə bu böyük mütəfəkkirin gözləri qarşısında olan kitabı dəyişdirilməsi; bəşəriyyətin qəlbi kitabı ilə; digəri* ***Byuffonun*** *və* ***Leybnitsin*** *parlaq fantaziyalarını təbiətin seyrinə dəyişdirilməsini təklif edir. Bu və digəri öz təliminin sadiqlik ruhu üzərində üstünlüyünü göstərməyə necə cürət edir? Yox onların bütün gücü mülahizə yolu və faktla gələcək nəslə yeni qayda və təlimlərə hökm vermək imkanı saxlamaqla söz qaydalarının möhkəmliyini sübut etməyə cəmlənmişdir! Həqiqi dühanın möhürü budur: ağıl ehtiyatlı və səbrlidir».[7] Bu mülahizələrin qüvvəsi tədqiqat prosesində həqiqətə qovuşmaq üçün pul fenomenindən başqa «mentalitet» anlayışının işlədilməsi arzusu nəzərə alınmışdır. Onun köməyi ilə bu tədqiqatların həsr olunduğu ticarət fenomeninin əlavə xüsusiyyətləri və spesifikası açılır.*

## ƏDƏBİYYAT

[1] Гуро К.О. О свободе международной торговли. – СПб., 1998. – С.17

[2] Yenə orada. – s.21.

[3] Везерворд Дж. История денег: Борьба за деньги от песчаника до киберпространства. – М., 2001. – С.15.

[4] Yenə orada. – s.19.

[5] Гуро К. О свободе международной торговли. – С.48

[6] Yenə orada. – s.74.
[7] Yenə orada. – s.12.

# TİCARƏTİN FENOMENİ

•

***Ticarət. Fəlsəfi aspekt***

•

***Ticarətin nəzəri əsasları***

•

***Ticarət fəaliyyətinin iqtisadi prinsipləri***

•

***Ticarət və bazar cəmiyyəti***

•

***İqtisadi cəmiyyətdə ticarətin institutlaşdırılması***

•

***Ticarət xüsusi mülkiyyətin transformasiyasında***

•

***Ticarət fəaliyyətinin xüsusiyyətləri***

# TİCARƏT. FƏLSƏFİ ASPEKT

*«Əgər insanlar öz öhdəliklərinə hörmətlə yanaşmırlarsa, ticarət və insanların ünsiyyətinin gətirdiyi belə böyük səmərə təmin edilə bilməz».*

D.Yum

*İnsan zəkası özünün fövqəltəbiiliyi təkcə Allahın, həqiqətin, azadlığın, qəlbin, dünyanın mənasının – yaşayışın metafizik mənasında sübut etməmişdir. O, bəşəriyyətin onsuz əmələ gələ bilməyəcəyi, çox cüzi olmayanın unikallığını və vacibliyini sübut edən çoxlu faydasız şeylər ixtira etmişdir. Buraya yazı, say, təkər, daxiliyanacaq mühərriki, elektrik enerjisindən istifadə, pul və bir sıra digər kəşflər aiddir. Lakin xüsusi yer ticarətə məxsusdur. Bütün ənənəvi cəmiyyətlərdə heç nə belə ittiham olunmamış və eyni zamanda heç nə ticarət qədər cazibədar olmamışdır. Ticarətin gücü nədədir və onu cəmiyyətin, siyasətin, iqtisadiyyatın, təsərrüfatın və əlbəttə ki, insanın inkişaf səviyyəsinin ən vacib göstəricisindən biri edən nədədir? Bunun üçün ictimai-mədəni həyatın fenomeni kimi ticarətin əsas xüsusiyyətlərini aydınlaşdırmaq vacibdir.*

# I. TİCARƏT ANLAYIŞI

Hamıya məlum olmayan predmet haqqında danışmaqdan mürəkkəb şey yoxdur. Ticarət... Bu sözün gizli qüvvəsi qədim sivilizasiyanın yaranma mərhələsindən başlayaraq həmişə bəşəriyyəti müşayiət etmişdir. Tacirlər, karvanlar, quldurlar, qızıl, sərgüzəştlər – bütün bunlar ticarətlə bağlıdır. Bu nə olan şeydir?

Ticarət iqtisadiyyatdan təşkil olunmuş təsərrüfat kimi başa düşülür, yəni ümumiyyətlə təsərrüfat kimi yox, iqtisadi fəaliyyətin təşkilinin xüsusi üsulu kimi. Bu fəaliyyət necə formalaşdı və onun xüsusiyyətləri nədədir? Elmi ölçüdə götürdükdə ticarət iqtisadiyyatdan nə qədər fərqlənir: iqtisadi nəzəriyyə, ticarət haqqında nəzəriyyə, iqtisadiyyatın fəlsəfəsi, təsərrüfatın fəlsəfəsi və s. Ticarət daha uzun tarixinə görə üstünlüyə malikdir və buna görə də duruş gətirmiş bir anlayışdır.

Beləliklə, ticarət dedikdə artıq hazır əmtəənin istehsalçıdan istehlakçılara çatdırılması məqsədini daşıyan fəaliyyət başa düşülməlidir. Bu təyinata müvafiq olaraq ticarətin ümumi anlayışında biz iki əsas növü fərqləndiririk: ***topdan satış ticarət*** – istehsalçı ilə bir və ya bir neçə ticarətçi müəssisələr arasında ticarət münasibətləri, ***pərakəndə ticarət*** – istehsalçı və ya ticarət müəssisələri ilə istehlakçı arasında ticarət münasibətləri. Birinci halda ticarət münasibətləri zənciri qapanmır və yarıyolda qırılır. İkinci halda o, tam bitmiş olur. Ticarət müəssisələri bu və ya digər halda müxtəlif ölçülərə və quruluşa malik ola bilər; son nəticədə onların forması təsərrüfat fəaliyyətinin digər sahələrində müşahidə olunan şərtlərlə təyin olunur. Müasir tendensiyada iri istehsalçı və ticarət müəssisələrində inkişafın analoji xarakteri müşahidə olunur.

Ticarətin yaranması bəşəriyyətin yaranmasının uzaq keçmişində itir. Qapalı ev təsərrüfatı şəraitində, təbii olaraq, istehsal ilə istehlak bir-birindən ayrı olmadığından qapalı ittifaq üzvləri arasında ticarət münasibətləri ola bilməzdi. Lakin yanaşı yaşayan sərbəst qəbilələr, tutduqları ərazinin təbii şəraitindəki fərqdən asılı olaraq bəzi əşyaların mübadiləsini həyata keçirirdilər. Sərbəst təsərrüfat və siyasi vahidlər arasındakı bu cür mübadilə daha güclü inkişaf edirdi. Bu özünü yüksək və aşağı mədəniyyətə malik xalqların qarşılıqlı münasibətlər zamanı büruzə verirdi. Eyni mədəniyyətə malik qəbilələr arasında xüsusən ***duz*** vacib əhəmiyyət kəsb edirdi. Duz ehtiyatına malik olan xalqlarla qonşu xalqlar düzgün ticarət mübadiləsi saxlayırdılar (bəzi hallarda düz pul rolunu oynayırdı).

Müxtəlif mədəniyyətə malik xalqların toqquşması zamanı daha inkişaf etmiş millətlərin nümayəndələri uzaq ekspedisiyalar təşkil etməklə

vəhşi qəbilələrə ticarət münasibətlərinin qaydalarını öyrədəcək mübadilədə aktiv rol oynayırdılar. İbtidai insanların düşmən münasibətində olması ilə əlaqədar ilkin ticarət ***lal*** idi. Karfagenyanlar ticarət məqsədi ilə Qərbi Liviya (Şimali Afrika sahilləri) əhalisinin yanına gələndə əmtəələrini sahildə boşaldıb özlərinin gəlişlərini bildirmək məqsədilə böyük tonqal qalayıb öz gəmilərinə qayıdırdılar. İşarəyə gələn yerlilər əmtəələrə (mallara) baxıb yanında qızıl qoyub aralanırdılar. Bu zaman karfagenlər gəmilərə qayıdaraq qızılın kifayət qədər olub-olmamasını təyin edirdilər. Qızılın az olduğunu təyin edəndə heç nəyə toxunmayaraq gəmiyə qayıdıb yerlilərin əlavə qızıl gətirmələrini gözləyirdilər. Adətən onlar belə də edirdilər, çünki əks halda karfagenlər öz əmtəələrini (mallarını) geri aparırdılar.

Bu münvalla şəxsi ticarət münasibətlərinin inkişafı üçün təməli möhkəmləndirən daimi mübadilə adəti yaranırdı. Sonuncu üçün xüsusən münbit şəraiti, yad xalqlarla ticarət münasibətlərinin yüngülləşdirilməsi məqsədilə qayğıkeşliklə saxlanılan qonaqpərvərlik institutu yaradırdı.

Beləliklə, ticarət fəaliyyətinin tarixi inkişafında biz, hər şeydən əvvəl, böyük ölçülərə malik xarici ticarəti görürük, halbuki bu zaman daxili münasibətlərdə hələ qapalı ev təsərrüfatı hökm sürürdü. Bu ticarətdə, xüsusilə də nisbətən mədəni millətlər tərəfindən təşkil edilmişsə, tezliklə ticarət vasitəçiliyi funksiyaları sərbəst iş kimi formalaşırdı. Dənizətrafı millətlərin (finiklər, karfagenlər) ticarəti təbii olaraq iri ölçülü müəssisələr formasını alırdı. Belə ki, gəmiləri uzaq dəniz ekspedisiyası üçün təchiz edilməsi lazım idi. Quru ticarəti də yad xalqlarla münasibətdəki çətinlik üzündən, nəqliyyatın tələblərə cavab verməməsi və yolda təhlükəsizliyə təminatın olmamasından iri müəssisə formasını alırdı (yaxşı təşkil olunmuş yarımhərbi təhqiqat). Orta əsrlər üçün bu mənada ərəblərin karvan ticarəti daha tipikdir. Ticarət təkcə iri həcmlərdə yox, həmçinin onu iri müəssisələrin müasir formalarına aksioner kompaniyalarına yaxınlaşdıran xüsusiyyətləri nəzərə çarpırdı. O zaman xırda kapitallar, karvan ticarətinə indiki səhmdar müəssisələrinə olduğu kimi axırdı.

Qədimdə beynəlxalq ticarətin təşkili ilə digər mədəni xalqlardan əvvəl finiklər məşğul olurdu; onlardan sonra yunanlar, xüsusilə romalılar məşğul olurdular. Romalıların ticarəti həm mübadilə predmetinə və həm də mübadilə olunan əmtəənin miqdarına görə çox geniş idi. Vahid hüquqi normalar, pul vahidləri və ödəmə qaydaları, ticarət münasibətlərini nəzərə çarpacaq dərəcədə yüngülləşdirirdi.[1] Əsrin ortalarında ticarətin inkişafı qırılır; sonra həmçinin müxtəlif mədəniyyətlərin toqquşmasının təsiri altında (qarətçi Qərbin Şərqin köhnə mədəniyyəti ilə) qayıdır. Əsrin ortalarında qədimdə olduğu kimi xarici ticarət üstün idi. Beləki, daxili təşkilat hələ də qapalı xarakter daşıyırdı. Yeni zamanın kəşfləri ticarət münasibətlərinin

ölçülərini artırır və onların ağırlıq mərkəzini daha əlverişli coğrafi şəraitdə yerləşən xalqlara doğru dəyişirdi.

Ticarətin qüdrəti müxtəlif millətlər arasında mübarizə doğururdu, lakin XVII və XVIII əsrlərdə dəniz ticarəti və proteksionist siyasəti üçün əlverişli vəziyyəti və qələbəni İngiltərə təmin edirdi.

Ticarət əsasən inhisar ticarət kompaniyaları vasitəsilə öz əsarətində olan əyalətlərlə aparılırdı. XIX əsrdə xarici ticarətə daha çox daxili ticarət qoşulmağa başladı. XVIII əsrin sonu XIX əsrin əvvəllərindəki sənaye çevrilişi, yəni iri sənayenin inkişafı və nəqliyyatın müasirləşdirilməsi, həmçinin pul sisteminin qaydaya salınması və kreditin inkişafı ölçmənin metrik sisteminin və çəkinin tətbiqi bir nəticə olaraq mədəni millətlər içində ticarət münasibətlərinin qeyri-adi genişlənməsinə səbəb oldu. Daxili ticarət fəaliyyətinin xarakteri nəzərə çarpacaq dərəcədə dəyişdi. Əvvəlki yarmarka və səyyar (daşınma) ticarəti öz yerini daimi və düzgün ticarət münasibətlərinə verirdi, dəmir yolu və digər nəqliyyat vasitələrinin inkişafı ilə belə ticarət yavaş-yavaş dövlətin uzaq və ən ucqar yerlərini əhatə edirdi. Xarici ticarətdə münasibətlər son dərəcə yüngülləşmişdi, bu da bir tərəfdən bir-biri ilə mübadiləyə qoşulmuş ölkələrin iqtisadi inkişafına kömək edir, digər tərəfdən ticarət sahibkarlığını dəstəkləyərək ardınca ziyanlı nəticələrə aparırdı (həm də daxili ticarətdə inkişaf edirdi).[2]

> *«İnsanın məharəti və ya əməksevərliyi ilə yaradılan və ya təkmilləşdirilən hər şey, belə* ***xeyirli*** *vərdişləri və nailiyyətləri mükafatlandırmaq üçün həmişəlik onlara həvalə edilməlidir; xüsusi mülkiyyət də həmçinin həmin* ***xeyirli*** *məqsədlər xatirinə övladlara və qohumlara verilməlidir; o, razılaşdırılmaqla, iqtisadi cəmiyyət üçün bu qədər faydalı olan həmin ticarəti və iqtisadi münasibətləri doğurmaq üçün özgəNinKiləşdirilə bilər; bəşəriyyətin ümumi marağına bu qədər xidmət edən qarşılıqlı inam və etibarın təmin edilməsi üçün bütün müqavilə və vədlər dəqiq yerinə yetirilməlidir».*
>
> **D.Yum**

Ticarət kapitalı ticarət sənaye böhranı adlandırılan ticarət fəaliyyətində kəskin sarsıntıların hazırlanmasında böyük rol oynayırdı. Ticarətçilər kreditin əzəmətli qüvvəsindən istifadə edərək bazarları rəqabətli mallarla (əmtəələrlə) doldurulmasına şərait yaradırdılar və özlərinin ardınca kapitalistləri aparırdılar (belə şərait olmasaydı işgüzar sənayeçilər öz istehsalını çətin genişləndirərdilər.

Burjuaziya sənaye inkişafı dövründə ticarət əməliyyatının belə mənfi tərəflərinə qarşı iqtisadi həyatda güclü qarşıdurma təsirləri ilə çıxış edirdi. Ticarətə

qarşı sənaye kapitalı sindikatlarda birləşərək ticarət vasitələrindən istifadə etməyərək satışı öz gücləri ilə təşkil edirdilər. Eyni zamanda istehlakçılar arasında istehlakçılar təşkilatları yaranırdı ki, bunlar da ticarət vasitələrini ya tamamilə aradan qaldırır, ya da onların sayını xeyli məhdudlaşdıraraq təkcə topdansatış ticarətçilərinin köməyindən istifadə edirdilər. Hər halda, indi ticarət, kapitalist millətlərin iqtisadi fəaliyyətində böyük rol oynayır. Ticarət dövriyyəsinin miqdarı və ticarət müəssisələrində işləyən adamların sayı artır, bu gün bu müxtəlif formaları ilə bütün dünya ictimaiyyətini bürüyərək kosmik ölçülərə malikdir.

Müasir təsərrüfat həyatında ticarətin qiymətləndirilməsi üçün müasir əmək bölgüsünün qeyri-adi şaxələnməsini, istehsalçıların istehlakçılardan tam ayrılmasını xatırlamaq lazımdır. Əmtəə istehsalçının öz istifadəsi üçün yox, müxtəlif və uzaq ərazilərdə satılmaq üçün istehsal olduğundan, istehsalçı ticarət vasitəçilərinin köməyi olmadan öz əməliyyatlarını müvəffəqiyyətlə apara bilməz. İstehsalçının məhsullarının istifadəçiləri bütün dünyaya səpələndiyindən, istehsalçı üçün öz malının satışı, hətta bu mümkün olsa belə çox çətinlik törədərdi. Hərdən bu hətta ağlasığmaz olardı, çünki əlavə xərclər və zəhmət istehsalçını bir sıra bazarlardan imtina etməyə məcbur edərdi, halbuki həmin bazarlarda bu mallar xüsusi ticarətçilər tərəfindən müvəffəqiyyətlə satılır. Eyni ilə istehlakçı özündən çox-çox uzaqlarda yerləşən və siyasi sərhədlərlə ayrılan istehsalçıların növbənöv məhsullarını alır.

Müasir qloballaşma şəraitində sərhədlər özünün əvvəlki təyinatını itirirlər. Bununla da ticarət vasitəsilə həyata keçirilən istehlakçı – istehsalçı münasibətlərinin xarakteri dəyişir. Əsrlər boyu dünyada təsərrüfatçılığın bütün tarixini kooperasiya, ixtisaslaşma və əmək bölgüsü, ticarətin və s. inkişaf tarixi kimi başa düşmək olar. Bu proseslər daima genişlənərək və inkişaf edərək həmişə baş verib. Kolumbun gəmiləri «varyaqdan yunana qədər» yol keçmişdi: Bu ticarətin inkişafı, dünya ticarət rabitəsi-kommunikasiyasının inkişafı idi. Beynəlxalq əlaqələr heç də həmişə qarşılıqlı səmərəli xarakter daşımırdı, yəni malların (əmtəənin) sərhədlərdən keçməsini bildirirdi.[3]

Ticarət əlaqələrinin inkişafı bu gün *universallaşma*, həyat fəaliyyətinin normalarının *standartlaşdırılması,* düşüncə və davranış (əxlaq) normalarına əsaslanır. Başqa Sözlə, əmək bölgüsü, ixtisaslaşma, kommuNikasiya və s. özü-özlüyündə qloballaşmanın görüntüsü deyil, elə onun inkişafıdır ki, bu halda üniversallaşdırılmış norma total xarakter alır. Qloballaşma – hər şeydən əvvəl idarəetmə prosesidir. İnsanlar və xalqlar arasındakı ibtidai insani münasibətlər əvəzinə – universal normalar heç bir simpatiya və antipatiyaya, uymur yalnız hesablama və kalkulyasiya uğrayır. Bu normalar əvvəllər də ticarət fəaliyyətinin diqqət mərkəzində olub, lakin bu gün

onlar (bu normalar) həlledici əhəmiyyət kəsb edir, beləki, ticarətin nəticəsi – pul müvəffəqiyyətin baş faktoruna çevrilir. Ticarət fəaliyyətinin formulası – ucuz almaq, baha satmaq (az xərc – ən yaxşı nəticələr) – müasir qloballaşma və bazar şəraitində istehsalçı ilə istehlakçının, satıcı ilə alıcının qarşılıqlı münasibətlərinin effektiv istifadə olunması ilə səmərənin maksimallaşdırılması kimi reallaşdırılır.

Ticarət özünün kommunikativ mənası (məğzi) ilə xalq təsərrüfatı üçün enerjini saxlamaqla istehsalçı ilə istehlakçı arasında qarşılıqlı münasibətləri yüngülləşdirir. Bununla da, ticarət onsuz (ticarətsiz) ağlagəlməyən münasibətlərin mümkünlüyü yaradır. Əmək bölgüsü prinsipinin hər hansı tətbiqi kimi ticarətin digər funksiyaya ayrılması ictimai ittifaqa böyük səmərələr gətirir. Ticarət ölkədə təsərrüfat fəaliyyətinin yaxşı inkişafına şərait yaradır, istehsalın genişləndirilməsini yüngülləşdirir (belə ki, ticarət vasitəçiliyi ilə istehsalçılar daha çox mal (əmtəə) sata bilir, bütün ticarət fəaliyyəti təbii olaraq nəqliyyat yolları ilə bağlı olduğundan ticarətçilər onların təkmilləşdirilməsinin qayğısına qalır) və pul-kredit dövriyyəsinə kömək edir. Müasir təsərrüfat quruluşunda onun əsas xüsusiyyətləri və cəhətlərinin təsirindən bütün xeyirli təsərrüfat funksiyaları eyni zamannda mənfi təsirlərlə birləşir. Ticarət istehsalçıları istehlakçılarla bilavasitə münasibətlərdən kənarlaşaraq, istehsal prosesini özündə qapayır və istehsalçıları cəmiyyətin həqiqi tələbatlarının dərk etməsindən məhrum edir.

Sosial problem və ziddiyyətli əxlaq düşüncələrin predmeti olaraq qalan ticarətin dərin metafizik mənasını nəzərə almaq lazımdır, bu ticarət-sənaye böhranına gətirib çıxarır. Beləliklə, istehlakçı əmtəənin (malın) istehsalının neçəyə başa gəlməsini bilməyərək çox vaxt onu lap baha qiymətə almaqla ticarətçiyə onun xidmətlərinə görə ölçüyəgəlməz mənfəət verir. Elə ticarətin bu tərəfi, başlıca olaraq əxlaq tərəfdarlarının və ilk sosialist yazıçılarının (Ş.Furye) etirazına səbəb oldu. Bundan sonra, ticarətçilərin şirnikləndirici reklamı və malların (əmtəənin) ünvana çatdırılması xidmətinin təsirindən istehlakçılar üçün ona lazım olmayan, hətta fiziki və əxlaqi münasibətlərdə zərərli olan şeyləri almaq təhlükəsi yaranır. Həhayət ticarət iqtisadi asılılığın yeni növünü əmələ gətirir. Belə ki, əhalinin yoxsul təbəqəsi dükan sahiblərindənkreditə mal (əmtəə) götürməklə onlara borclu qalırdılar.[6] Ticarətin bu cür neqativ tərəflərinə qarşı müasir təsərrüfat həyatı təsərrüfat fəaliyyətinin əks qütblərindən qarşı-qarşıya gələn iki nəhəng axını irəli sürür – istehsal və istehlak.

Birinci, istehsalçılar xüsusi mağazalar açmaqla və ya qiymətli əşyalar üçün istehlakçının tapılması məqsədilə malların (əmtəənin) pərakəndə ticarətçilərə və hətta istifadəçilərə sataraq topdansatış ticarətçilərdən asılı olmamağa çalışırlar.

İkincisi, istehsalçılarla bilavasitə münasibətlər qurmaqla özlərinə ucuz və keyfiyyətli mal (əmtəə) almaq təminatı yaratmaq məqsədilə isteh-

lakçılar tərəfindən kooperativ istehlakçılar cəmiyyətinin yaradılmasına cəhd göstərməyi nəzərə çarpır.

İstehsalçı və istehlakçıların ticarət vasitəçiliyinin narahatçılığının aradan qaldırılmasına yönəlmiş bu cəhdləri müasir ticarəti çoxsaylı sui istifadədən təmizləyir və onunla yanaşı yavaş-yavaş ümumiyyətlə daha əlverişli ictimai-iqtisadi quruluşun əsaslarına uyğun gələn yeni, istehsalçı və istehlakçı arasında daha ağlabatan münasibətlərin yaradılması üçün əlaqə yaradır. Bu münasibətdə istehlakçılar cəmiyyəti daha çox diqqət cəlb edir, ona görə ki, malların (əmtəənin) fabrikantlar tərəfindən təcrid olunmuş istehlakçılara bilavasitə satılması, adi ticarətdə olduğu kimi tez-tez sui istifadə ilə birləşir (qovuşur).

Lakin bu gün ticarət «adilik» həddindən çıxmışdır. Yüksək inkişaf etmiş sənaye bütün planeti vahid ərazi təkrar istehsal kompleksinə çevirir və ancaq belə birləşmiş halda bəşəriyyət özünün həyat fəaliyyətini inkişafın əldə edilmiş səviyyəsində saxlaya bilər. İqtisadi inkişafın bütün göstəricilərinin, inkişaf etmiş ölkələrin maliyyə vəziyyətinin uçotu göstərir ki, sonrakı prosesi sivil tərəqqinin müvəffəqiyyətli inkişafının onsuz keçinə bilməyəcəyi ticarətin problemini mürəkkəbləşdirir.

## 2. TİCARƏTİN STATUSU

Ticarət haqqında mülahizələr, ticarətin bütün problemlərini özündə birləşdirən və onların həllinin əsasında duran ümumi prinsipin qəbul edilməsini tələb edir.

O, ancaq ticarətlə bütün təsərrüfat həyatı arasında, bütövlükdə əlaqənin aydınlaşdırılması şərti ilə qəbul edilə bilər. Təsərrüfata qoşulma ticarət sferasını genişləndirir. Axı təsərrüfat – həyatdır. Təsərrüatla məşğul olmaq dünyada (aləmdə) olmaq, dünyada yaşamaq, dünya ilə təmasda olmaq deməkdir. Buna görə də həyat da təsərrüfatdır, və yaşayış da həmçinin təsərrüfatdır. Bununla biz ticarəti fəlsəfi mülahizələr sahəsinə daxil edirik. Axı fəlsəfənin həyata münasibəti fəlsəfi dərketmənin görüş sahəsindən heç vaxt itməyəcək. «Həyat axıra qədər təyin olunmazdır, halbuki sonsuz təyinolunandır, o, bizim mülahizələrimizə mahiyyət (məna) verir, lakin özündə bunlar heç vaxt bitmir».[7] Həyat – ölçüyəgəlməz dərinlik, tükənməz mənbədir. O, hər şeydir və heçnədir. Belə ki, həyat heç vaxt və heç nə ilə tükənmir. O, «fəzasız və «vaxtsız»dır, çünki fəzada və zamanda mövcud olan həyat deyil, lakin onlar həyatın təzahürünün formasının mahiyyətidir. Həyatı sadələşdirmək, ən aşağı səviyyəli bir şeyə tay tutmaq olmaz..., çünki o, «ölülərin yox, canlılar Allahının həyat çeşməsindən süzülmüşdür» (S.Bulqakov). O, fəlsəfəlik edən özünüdərkin dirəndiyi həddinin ibtidai başlan-

ğıcıdır. Həyat vaciblik üzərində hökmranlıq edən azadlıqdır və ona münasibətdə yaşayışın bütün tərəfləridir: sərbəstlik, düşüncə, şüur, instinkt (daxili hissiyyat), şüuraltı sferalar (və sairə) ancaq xüsusi təyinlər kimi görünür. «Abstrakt həyat mövcud deyil, yalnız konkret, özü üçün yaşayış, özündə həyat var».[8]

Həyat fenomeninin belə incə düşüncəsi S.Bulqakovu vaciblikIə «iqtisadçılığın empirik» sxematikliyindən aralayıb iqtisadiyyatın yox, həm iqtisadiyyat, həm də həyat olan təsərrüfatın fəlsəfəsinə gətirir. Həyata «rifahlı» münasibətin mənbəyi S.Bulqakovun üç elementdən ibarət – Allah, Sofiya və dünya pravoslav metafizikasındadır. Birinci – Sofiya, Allahla dünya arasında növbəti manqadır, o ilahi düşüncəni reallaşdırır. Üçüncüsü – dünyadır ki, S.Bulqakov bundan həyat anlayışını çıxarır. Dünya Sofiya tərəfindən tərk edilmişdir o – Allahın inostasıdır (xristian dünyasında üçlüyün hər birinin – allah – ata, allah – oğul, allah - ruh), bu S.Bulqakovun sosialogiyası haqqında danışmağa imkan yaradır. Bu nöqteyi-nəzərdən dünya Allahın təsərrüfatıdır, insan isə – onun idarə edəni. «Dünya bir təsərrüfat kimi», «həyat bir təsərrüfat kimi»-yə transformasiya olur. S.Bulqakov yazır ki, «Həyat, – ağılla tapılmayan, yalnız dünya həyatının yaşanılan sirləridir, şüur və həm də fərqləndirməyin doğduğu həmin ilkin nurdur».[9] Bu «sahibsiz okeanda» fəlsəfə, öz tərəzisində bütün dünyagörüşlərini çəkən, fəlsəfi sistemin «Arximed lingi»nin söykənə biləcəyi istinad nöqtəsinin tapılmasına cəhd göstərir.

Ticarət və təsərrüfatın qarşılıqlı əlaqəsi göstərir ki, həyatı onlar «yaradır». «Əvvəlki, həyat hər şeydə təsərrüfat deyil, lakin təsərrüfatın əsasında həyat olmayan həyat ümumiyyətlə yoxdur. Burdan həyat – təsərrüfatdır, təsərrüfat isə həyatdır, lakin həyat bir fenomen kimi təsərrüfatdan genişdir, məzmunludur, rəngarəngdir. Təsərrüfat – həyat istehsalının həyatıdır, daha doğrusu, xarici aləmin tələbatı və həyatdan keçən həyatın istehsalının həyatıdır». Ticarət – təsərrüfatın ayrılmaz atributudur».[10] Buna görə o həyatın istehsalında iştirak edir. Təsərrüfat kimi ticarət də ictimai prosesdir. Ticarətin statusunun təyin edilməsində vacib rol, bütün təsərrüfat həyatının və insan cəmiyyətinin öyrənilməsini özünə məqsəd qoyan iqtisadi elmə məxsusdur, həm də eyni zamanda ticarətə ümumiyyətlə bir elm kimi həm də ticarətin təşkil edilməsinin öyrənilməsinə öz münasibətini qurur. Burada ticarətin təsərrüfat-iqtisadi həyatın atributu kimi başa düşülmə problemi yaranır. İş orasındadır ki, yaranmış ənənəyə görə «ticarət» («kommersiya elmləri») altında kommersiya ixtisasının ayrı-ayrı fənnlərin və xüsusi biliklərin parlaq qarışığı kimi başa düşülürdü, belələrindən mühasibat, kommersiya hesabı, kommersiya yazıları, ticarət nəzəriyyəsi, ticarət hüququnun əsasları, əmtəəşünaslıq, ticarətin tarixi,

kommersiya və iqtisadi coğrafiya – bir sözlə, kommersanta gündəlik işi üçün lazım olan bütün fənnləri göstərmək olar. Bu fənnlər aşağı və orta ticarət məktəblərin proqramlarına daxil olurdu və ya ticarəti öyrənən şagirdlər və xidmətçilər tərəfindən müstəqil öyrənilirdi. «Kommersiya elmləri» üzrə saysız-hesabsız kitablardan: dərsliklərin, təlimatların, oçerklərin, kursların, nümunələr toplusunun, məsələlərin və buna oxşar materialların az bir hissəsi məktəbin tələbləri səviyyəsinə qaldırılmışdır. Məsələn, müəllimlərin mühasibat və ya kommersiya və bank texnikası üzrə elmi-təhsil işləri. Bu səbəbdən elm adamları, xüsusən iqtisadçılar «kommersiya elmlərinə» etinasız yanaşırdılar, hətta tez-tez kommersiya fənlərinin elmi olmadığı ali kommersiya institutlarının qarşısına arqument kimi gətirilirdi. Avropada ilk ali kommersiya məktəblərinin təsis edilməsi zamanı siyasi iqtisad və hüquqşünaslıq proqramlarda önə çəkilirdi, kommersiya elmləri isə ikinci dərəcəli yer tuturdu. Biliklərin bu sahəsini tamamlanmış elmə çevirmək üçün, biliklərin bu sahəsinin nümayəndələrinin kollektiv işi lazım idi. Onlar bu fikirdə idi ki, ilk növbədə kommersiyanın müxtəlif sahəsinin xüsusi elmi işləməsi lazımdır ki, sonra bu üsulla alınmış ayrı-ayrı kərpicdən təlim planının elmi şəkildə tikilmiş binası ucaldılsın.[11]

Ticarət haqqında elmi biliklərin vüsət alması metodik xarakter daşıyan hansısa qısamüddətli hazırlıq işi demək deyildi. Ticarət həyat kimi, təsərrüfat kimi tələb edirdi ki, alimlərin bir qismi xüsusi tədqiqatlarla məşğul olsunlar; digərləri bu tədqiqatların nəticələrini analitik işləmələrə məruz qoyaraq bu kommersiya mənalı nizamsız qarışığın içindən «ticarət fəaliyyəti haqqında elm»i ayırsınlar. Kommersiya fəaliyyətinin xarici təzahürü ticarət tədbirləri, yəni ticarət kapitalının dövriyyəsinə xidmət edən əmək və vasitələrin mərkəzi həndi ticarət təşkilatı haqqında nəzəriyyə olmalı idi; «Kommersiya elmləri» adı altında tanınan sahələr onun tərkib hissəsi və köməkçi fən-

> *«Dövlətin qüdrəti və adamların rifahı bəlli münasibətlərdə, bir-birindən heç də az asılı deyil, onlara ticarət baxımından adətən ayrılmaz sayılırlar; necə ki, hər hansı bir insan (fərd) hökmranlığı sayəsində özünün ticarət işinin həyata keçirilməsində və sərvətə malik olmasında böyük etibarlığa nail olur, elə də dövlət ayrı-ayrı şəxslərin varlanması və ticarətinin genişlənməsinə mütənasib olaraq daha da qüdrətli olur. Bu qayda ümumiyyətlə düzdür. Lakin bəlli şəraitlərdə ticarət fəaliyyəti, ayrı-ayrı şəxslərin sərvəti və zinəti nəinki dövlətin gücünü artırmır, hətta onun ordusunun kiçilməsinə və özünün qonşu millətlər arasında nüfuzunun zəifləməsinə gətirib çıxarır».*
>
> D.Yum

nləri kimi bu nəzəriyyənin əlavəsi idi.[12] Lakin bu, ticarət haqqında elmi istiqamətin təyini idi. Ticarətin özü isə ictimai-tarixi uyğunsuzluqların doğurduğu çoxsaylı mübahisələrin obyekti olaraq qalır. Buna görə iqtisadçılar ticarətin xalq təsərrüfatı nöqteyi-nəzərindən öyrənilməsi hüdudundan çıxıb onun xüsusi təsərrüfat fəaliyyəti kimi öyrənilməsi ilə məşğul olmağa məcbur oldular; bu ona görə daha çox lazım idi ki, ticarət haqqında elmə tədqiqat üçün material çatışmırdı.

Həqiqətən, demək olar ki, tətbiqi iqtisadiyyat üzrə bütün işlərdə, xüsusən xalq təsərrüfatı üzrə çoxsaylı dissertasiyalarda iqtisadi nəzəriyyənin xüsusi təsərrüfat problemlərinə – xüsusən ticarət problemlərinə keçidi göstərə bilərik. Yetər ki, birja, bank, diskont, balans, kalkulyasiya, pul dövriyyəsi, reklam, vaxta görə iş, ləğvetmə və s. haqqında işləri, çörək, ipək, pambıq, kağız ticarəti və çoxsaylı digər məsələlər haqqında monoqrafik tədqiqatları xatırlayaq. Ayrıca təsərrüfat hadisələrinin xalq təsərrüfatı orqanizminin ayrıca «hüceyrəsinin» - beləliklə, iqtisadi nəzəriyyənin nəzərə çarpan elementi və ticarət haqqında təlim, xüsusi təsərrüfat təlimi kimi ticarət haqqında təlimin vacib hissəsinə çevrilir. Eyni zamanda o, ticarət haqqında nəzəri biliklərin alınması üçün materiala çevrilir.

Ticarət nəzəriyyə predmeti ola bilərmi? Və ya başqa sözlə, ona yüksək məna nə qədər tətbiq edilə bilər? Əgər ticarət dedikdə ancaq «alqı-satqı» kimi xarici münasibətlər başa düşülərsə, onda əlbəttə burda təkcə yüksək məna haqqında fikirləşməyin özü yersizdir. Əgər ticarətə xüsusi təsərrüfat nöqteyi-nəzərindən yox, xalq təsərrüfatı vəziyyətindən baxsaq, onda bu onun zamanca, fəzaca və ümumi qarşılıqlı əlaqədə tədqiqatı demək olardı. Bununla yanaşı başqalarına da ciddi fərq qoymaq olmaz. İqtisadçı irəli sürdüyü elmi biliklərin öyrənilməsi hüququnu özündə saxlamalıdır; ancaq o təyin edə bilər hansı element onun tədqiqatı üçün əhəmiyyətlidir; birtərəfli xüsusi təsərrüfat münasibətlərinin nəticələri onu qane edə bilməz. O, görmür və ya kölgə salır, ola bilsin o şeylərin üstünə ki, hansılar suala xalq təsərrüfatı nöqteyi-nəzərindən baxdıqda məna kəsb edir.

Lakin ticarət haqqında elmin nümayəndələri, onun xalq təsərrüatı tərəfinin də aşkar edilməsi üçün öz problemlərinin dar xüsusi təsərrüfat baxışı çərçivəsindən çıxmaq üçün özündə daha çox hüquq saxlamalıdır. Belə qarşılıqlı əlaqə ancaq bütöv və bölünməzdə mövcud ola bilən ətrafa həyatın metafizik mürəkkəbliyini göstərir. Hüceyrə ancaq məhdud ölçüdə sərbəst varlıqdır və onun həyati təsirləri orqanizmdə tam olaraq büruzə verilir, eləcə də sərbəst xüsusi təsərrüfat özünün sərbəstliyində məhduddur və digər xüsusi təsərrüfat və onların məcmusundan asılıdır. Necəki hüceyrə haqqında təlim orqanizm haqqında təlimlə bitir, eləcə də xüsusi təsərrüfat haqqında təlim üzvi olaraq siyasi iqtisadla bağlıdır. Hamısından çox, bu

ticarətə aiddir. Belə ki, o, istehsalı istehlakla əlaqələndirir, əmtəə ehtiyatı ilə onlara tələbat arasında tarazlıq yaradır və beləliklə təsərrüfat həyatının hər iki qütbü arasında əlaqələndirici rolunu oynayır.

Ticarət haqqında xüsusi təsərrüfat təlimi, daha doğrusu ticarət təşkilatı haqqında təlim yalnız bir şərtlə təsəvvür edilə bilər, əgər o, ayrı-ayrı xüsusi təsərrüfatın öyrənilməsi hüdudundan çıxır və ayrı-ayrı təsərrüfat fəaliyyəti ilə xalq təsərrüfatının bütün təşkilatı arasında asılılıq yaradır. Cəmiyyət funksiyalarının əsas xüsusiyyətlərinin nəzərə alınmaması, təsnifati normaların qoyulması siyasi iqtisadda olduğu kimi və həmin əsaslarla olur. Məsələn, ticarət təşkilatının ümumi normaları hər hansı bir xüsusi təsərrüfatın yəni ayrıca bir ticarət müəssisəsinin öyrənilməsindən çıxarıla bilməz. Bunun üçün mümkün qədər çoxsaylı ticarət təşkilatlarının müqayisəsi və kritik baxılması, onların bütövlükdə əməkdaşlığına baxmaq lazımdır. Bu eyni dərəcədə kalkulyasiyaya, nəzarətə, təşkilata və s. aiddir. Ümumiyyətlə ticarət haqqında elmdə xüsusi təsərrüfat və xalq təsərrüfatı arasındakı yuxarıda göstərilmiş ayıran xəttə ciddi əməl olunmaqla xüsusi təsərrüfat müstəvisində bitmiş izahat və həllinə yol verən belə problem çətin ki, tapılsın və bu şərtlə ki, problemin baxılması və izahatı xüsusi təsərrüfatın xalq təsərrüfatı ilə əlaqəsinin başlandığı yerdə qurtarsın. Qarşılıqlı əlaqə problemi sadə və yüngül izah olunan deyil. O, təkcə bu qarşılıqlı əlaqənin mahiyyətinə yox, həm də ümumiyyətlə ticarətin mahiyyətinə daxil olmağa imkan verən fəlsəfənin mövqeyindən həll olunur.

Yalnız ilk baxışdan belə görünə bilər ki, ticarət sadə işdir və onun hətta iqtisadi nəzəriyyə ilə tutuşdurmaq lazım deyil. Buna görə əgər ticarət haqqında qanunu sadəcə ticarət texnikasına müvafiq işləri isə idarə (kontor) nümunələrinə gətirmək istəmirlərsə, ticarət haqqında təlimat bütövlükdən (vahidlikdən) məhrum etmək istəmirlərsə, onda bu elmi təqdim edənlərə xüsusi təsərrüfatın problemlərinin öyrənilməsi, ümumi təsərrüfat problemləri ilə birləşdirilməsi, öz təsərrüfatlarına xalq təsərrüfatı əsaslandırılmasını vermək hüququ olmalıdır. Çünki tək təsərrüfat xalq təsərrüfatının ümumi qanunlarına tabedir, gələcəkdə də bir, xüsusi təsərrüfat müəssisəsinin siyasi iqtisad qanunlarına tabe olduğunu bir neçə dəfə göstərməli olacağıq.[13] Yadda saxlamaq lazımdır ki, İ.F.Şerrin istinad etdiyi siyasi iqtisad iqtisadiyyat fəlsəfəsindən başqa bir şey deyildir. Reallığın ümumi mənzərəsini əks etdirməyə çalışan fəlsəfə kimi siyasi iqtisad da bütövlükdə çıxış edən və uyğun olaraq bütöv bilik tələb edən iqtisadi reallığın bir hissəsi kimi ticarət haqqında ümumi biliklərin verilməsinə çalışır.

Ticarət haqqında ümumi təlim iqtisadi biliklərin bütövlüyü kimi ayrıca ticarət müəssisəsindən, xalq təsərrüfatının ümumi orqanizminin bu hüceyrəsindən başlayır, ticarət müəssisəsinin yaşaması üçün lazım olan

şəraitin yaradılmasına çalışır. Onun üçün yaşayışın və inkişafın bu şərtləri verilmiş təsərrüfata qoyulmuş əməkdən və kapitaldan müvafiq gəlirin alınmasından ibarətdir. Lakin o, ticarətin xüsusi təsərrüfat funksiyası hüdudundan çıxır. Belə ki, ticarətdə ayrıca müəssisə təkcə tədrisc olunmuş həyat sürmür, özünün fəaliyyətində, özünün inkişafında, özünün məqsədlərinə çatmaqda o digər təsərrüfat vahidindən və onların məcmusundan daha çox asılıdır. Xalq təsərrüfatı qanunları eləcə də ayrıca təsərrüfata təsiri göstərir. Buna görə ticarət haqqında təlim ticarətin ancaq xüsusi təsərrüfat-nöqteyi nəzərindən öyrənilməsi ilə məhdudlaşa bilməz. O, öz problemlərini, xüsusi ticarəti xalq təsərrüfatının ümumi sisteminə qoşmaqla təkcə xüsusi təsərrüfat yox, həm də xalq təsərrüfatı nöqteyi-nəzərindən işıqlandırmalıdır. Ticarətin iqtisadiyyatı tərsinə, ticarətə yalnız bütün xalq təsərrüfatının elementi kimi baxır, onun əsas məqsədi – xalq təsərrüfatının bütün digər sahələri ilə əlaqəni tədqiq etməkdir. Ancaq o, bu halda xüsusi təsərrüfatın öyrənilməsinə müraciət etmədən iqtisadi sosial siyasətdən doğan xalq və xüsusi təsərrüfatın qarşılıqlı münasibətlərini axıra qədər araşdıra və qiymətləndirə bilməz. Çünki o, mahiyyətcə siyasi iqtisadın ayrılmaz hissəsidir.

Bu kontekstdə, iqtisadi nəzəriyyə və ticarət haqqında elmin təkcə qohum yox, həm də tədqiqat sahələrinə görə bir-biri ilə bağlı olduğu şübhə doğurmur: yalnız onlardan biri xalq təsərrüfatı ilə üzvi surətdə bütöv (tam) kimi, digəri isə – təsərrüfat həyatının ayrı-ayrı (xüsusi) tərəfləri ilə maraqlanır. Biri təklikdən çıxış edir və öz mütaliələrini onun digər təsərrüfat təklifləri ilə əlaqəsinin qurulması ilə başa çatdırır, digəri orqanizmin bütövlükdə öyrənilməsindən çıxış edir və varlığın (hadisənin) ictimai funksiyasının tədqiqatına gəlib çıxır.

Hər iki elmin bir-birinin tamamladığına, ümumiyyətlə təsərrüfat haqqında elmin hissələri olması heç bir şübhə doğura bilməz. Onların arasında sərhəd yalnız tədqiqatın başladığı nöqteyi-nəzərlər arasındakı fərqlə şərtlənir.

## 3. İQTİSADİ NƏZƏRİYYƏ MODİFİKASİYASINDA TİCARƏT HAQQINDA TƏLİM

Ticarət iqtisadi reallığın sferası kimi iqtisadi nəzəriyyənin də obyekti ola bilərmi? Bu gün ticarətin sırf elm və ya tətbiqi elm olduğu mübahisə doğuracağından bu daha vacibdir. Elm, cismlərin (şeylərin) və hadisələrin (varlığın) hər hansı tendensiyasından, hər hansı təəssübkeşlikdən, həqiqəti eybəcərləşdirən hər hansı fərdi-subyektiv qiymətlərdən azad həqiqətən dərk edilməsidir. Biliklərin hər hansı sahəsində elmin bu ideal

səviyyəsinə nail olmağı bir tərəfə qoyub yalnız bir şeyi təsdiq etməklə deyə bilərik: ticarət haqqında təlim nəzəri iqtisadiyyat kimi məqsəd və yolu təyin edən, öz qiymətləndirməyində və nəticələrində obyektivlikdən çıxış edərək yalnız təsvir və izahlarla məşğul olan «təmiz elm» ola bilər. Bu ticarət haqqında təlimin təsviredici və izahedici mahiyyətindən irəli gəlir. Xüsusi təsərrüfat haqqında təlimə onun iqtisadi nəzəriyyədən fərqli olaraq daha çox bilavasitə praktik məqsədləri təqib etdiyi üçün tez-tez şübhə altına alınır. Məgər, nəzəri iqtisadiyyat ona sərf edilmiş əməyi mənasız etməklə məqsədsiz və faydasız elm olmağa çalışır? Xeyr, o da praktik məqsədləri təqib edir. O da, həmçinin özünün praktiki hissəsində tətbiqi elmdir, o burada qiymətləndirir, yol və məqsədləri göstərir. Buna görə əgər onu elm kimi qəbul etsək, onda xüsusi təsərrüfat haqqında təlimi də elm hesab etmək olar.[14] Lakin belə sual meydana çıxır: elm tərəfindən özünün tədqiq etdiyi hallar (hadisələr) barədə müstəqil tənqidi mülahizələr yürütmək, məqsəd və yolu göstərmək elmdirmi? Xüsusilə əgər söhbət nəzəri - təsərrüfat anlaşmanın perspektivliyindən gedirsə.

> *«Əgər ticarətçi bazarda inhisar vəziyyətinə, qiymətlərin onların orta dəyərindən yüksəyə, ən pis şəraitdəki istehsal xərcləri ilə təyin olunmuş və ya daha yüksəyə qalldırılmasına nail olursa, onda onun mənfəəti daha da artır. İstehsalçı bundan heç nə udmur. Bütün izafi mənfəət ticarətçinin cibinə dolur».*
>
> İ.F.Şerr

«Təsərrüfat fəlsəfəsi»nin elmi yanaşmanın abstraktlığından fərqini ilk növbədə qeyd etmək lazımdır. Axırıncı dünyadan və həyatdan abstraktlaşdıraraq iqtisadiyyatın və həyatın bütövlükdə inkişaf məntiqini izah edir. «İqtisadi nəzəriyyə»nin yaradıcısı – S.Bulqakov üçün hər şey məntiqi və qeyri-məntiqinin konkret vəhdəti kimi ifrat məntiqi olan həyatdan başlayır, «heç bir məntiqi təyinə sığmayan, onun (həyatın) canlı hüceyrələri ilə yox, yalnız onun tinləri və sxemləri ilə işi olan, ancaq o (həyat) bundan məntiqəzidd və ya məntiqə etinasız olmur».[15] Həyat fikir doğurur, məxsusi özünüdərkə malikdir, öz vəziyyətini təhlil edir. Buna görə qeyri-məntiqi, məntiqi olanla bağlı olsa da, onda həll olan və ona nüfuz edən deyil. Gördüyümüz kimi, burada dərketmə hüdudlarından çıxan qeyri-məntiqilik üçün ənginlik açılır. Ancaq ticarət yaşayışın iqtisadi fenomeni kimi dərk olunmazlıqla az əlaqəlidir. Bu ilk növbədə praktiki təsərrüfat kimi insandan ayrılmazdır. Əgər bu belədirsə, onda o, hər hansı hüquq və vəzifə daşıyıcısı və dərk olunmazdır.

Metodoloji müxtəliflik prinsipi öyrənilən obyekt və subyekt arasındakı münasibətlərə qanunauyğun olaraq radikal şəkildə yenidən

baxılmasına gətirir. Təsərrüfat fəlsəfəsində subyektivliyin rolunun və statusunun dəyişməsi artıq «məntiqi» və «qeyri-məntiqi»nin nisbətinin dəyişməsində təyin olunmuşdur. S.N.Bulqakov – «Fikir, bilik – yaradıcılıqdır. Yaradıcılıq isə bilavasitə yaradıcı fikir və ideya süni məxluqlar (qomunkul) kimi kritik kolbada yox şüurda doğur. Buna görə biliyə yiyələnmək üçün həqiqi alətə yiyələnməyi öyrədən belə böhranlı təlimat ola bilməz, çünki, böhran yalnız post-faktum kimi gəlir, dərketmənin artıq başa çatmış faktına görə refleksdir».[16] Bu anlamda kritisizm fəaliyyətə və ya hər hansı bir metodoloji tapşırığa qarşı tapşırıq kimi qəbul edilir.

İqtisadi həyatın bu və ya digər təzahürünün izahı anlamında müəyyən azadlıq və hətta sərbəstliyi nəzərdə tutan şübhə dolu fikirləşmə (refleksiya) praktik ehtiyacların tələb etdiyi dəqiqliyi və elmi konkretliyi inkar etmir. İ.F.Şerr yazırdı: «Həyata əlavəni nəzərdə tutan hər hansı xüsusi elm və biliklərin hər hansı sahəsi, həm də xeyir verən tətbiqi elm olmalıdır. Biz bunu ona görə qeyd edirik ki, materialın işlənildiyi praktiki istifadə üçün nəzərdə tutulmuş nəticələr, nəzəriyyələr, rəhbər prinsiplər, metod və qaydalar, material geniş, metodlar obyektiv və elmi olduqda daha düzgün, həqiqi, yararlı olur».[17] Beləliklə, təsərrüfat və ticarət arasında əsasən prinispial fərqin olmaması axırıncının iqtisadi-nəzəriyyə analizi obyekti olmağa imkan verir. Bu, ticarət haqqında elm, ticarəti sosial-iqtisadi həyatın fenomeni kimi bir şəxsdə birləşdirir ki, bu da ticarət haqqında biliklərə tələbləri artırır. Burada diqqəti, ticarətin iqtisadi həyatın fenomeni kimi mahiyyətinin aydınlaşdırılmasının metodoloji yanaşmasına yönəltmək lazımdır. Ticarətin dərk edilməsi metodologiyasının spesifikliyi nədədir?

İqtisadi elmin diferensiallaşdırılması və peşəkarlaşdırılmasının obyektiv prosesləri, iqtisadi biliklərin mürəkkəbləşməsi tendensiyasının əsası metodoloji tədqiqatların miqyas və dərinliklərinin artmasındadır. İqtisadiyyat da dünya kimi xətti və birmənalı yox, daha çox mürəkkəb uyğunsuzluqlar və özündən asılı olmayan modifikasiyalarda inkişaf edərək metodoloji dikurs strategiyasında konseptuallaşmış inkişafın yeni imkanlarını üzə çıxarmışdır. «İqtisadi yeniliklər»in yaranması ekspansionist iqtisadi artım üçün daha qüvvətli stimullar yaradan öz miqyasına görə əlçatmaz, qlobal bazarın əmələ gəlməsi ilə bağlıdır. Qlobal iqtisadi səhman dünya miqyasında istehsal qüvvələrinin kombinasiyası əsasında yaranır ki, bu da ümumi tapşırığın həllinə yanaşmanın müxtəlifliyini doğurur.

Buna istinad edərək, metodoloji strategiyanın seçimi probleminin həllinin əlverişli üsulu – tədqiqat diqqətinin iqtisadi biliklərin analizinə transtsendent yanaşmanın məhsuldarlığını əsaslandıran nəzəri fikirlərin metodoloji imkanlarına yönəldilməsidir. Bu fəlsəfənin öz təbiəti ilə şərtlən-

dirilmişdir. Məlumdur ki, dəqiqliyə iddialı elm transtsendentliyi və qeyri-müəyyənliyi sevmir. Buradan külli miqdarda anlaşılmazlıq yaranır: gah qeyri-aydınlıqdan (qaranlıq məqamlardan) yaxa qurtarmağa çalışarkən yeni problemlər, bunlarla yanaşı, həm də yeni xülyalar yaranır. Elmi əminlik əvəzinə «muncuqlarla oyun», «İntellektual matuitslər» də «fikir – söz - kateqoriya»ların psevdo-elm yerdəyişməsi yaranır. Bu qəbildən olan bütün epistem-metodoloji mülahizələr elmi anlaşıqlığa yaxınlaşdırmır. Nəzəri mülahizə transtsendentliyə və qeyri müəyyənliyə «sakit» yanaşa bilməz, çünki, özündə onlara yol verir. O, sərbəst, daha doğrusu qeyri-müəyyən biliklərə baş vuraraq bilməyə yox, öyrənməyə dəvət edir. Nəzəri bilik – «özünə məxsus yenilik» xüsusiyyətinə malik olub daim yeniliklərdən törəyən bilikdir.[18] Elmə münasibətdə, o cümlədən həm iqtisadiyyata, həm də ticarət haqqında elmə, nəzəriyyə, qarşısında empirik hesablamaların aciz olduğu silah, qeyri-müəyyənliyə yiyələnmək üçün üsul kimi çıxış edir. Məhz hər hansı bir həmişəlik variantın təyin edilməsi cəhdi mülahizə və mülahizələrə son həqiqətin gətirilməsinə iddia edən metodoloji diskursu doğurur.

Transtsendentlik nəzəriyyənin metodoloji funksiya yerinə yetirən təbii hüququnu «çıxartmır»: tədqiqatın predmet sahəsini genişləndirməklə ümumi prinsipləri və kateqorial aparatı formalaşdırmaq, hər hansı elm aləmini plyuralistik təqdim etmək, biliklərin müxtəlif sahələri arasında əlaqəni açmaq və s. Nəzəri tapşırıqlar istənilən elmin düşüncə təsiri təyin edir və öz izlərini qoyur. Məsələn, nəzəri istiqamətlər çərçivəsində işlənmiş rasionallıq konsepsiyası ticarət-iqtisadi agentlərin davranışının izahı və iqtisadi sistemin bütövlükdə fəaliyyət göstərməsi üçün prinsipial əhəmiyyətə malikdir. Çünki ratsionallığın təyin edilməsinə klassik yanaşma yalnız məqsədəuyğun hərəkətin (başqa heç bir hərəkətin) təsvir olunmasını nəzərdə tutur.[19] Klassik yanaşmadan fərqli ratsionallığa postklassik yanaşma vahid subyekt əvəzinə «bu sistem haqqında tam təsəvvürü olmayan və onun nəzəri modellər çoxluğunu qurmağa məcbur olan müxtəlif subyektlər məcmusunu təklif edir».[20] Ticarət, iqtisadiyyat kimi «öz elminin immanent qüvvələri ilə öz-özlüyündə onun predmetinin fəlsəfəsini qura bilməz».[21] Öz növbəsində konkret elmlər fəlsəfənin inkişafı üçün zəngin material verirlər. Belə ki, iqtisadi nəzəriyyə ratsional fəaliyyətin və onun effektiv koordinasiyasının təhlili üçün vacib alət olaraq qalır. Fəlsəfə və digər elmlər bu iqtisadi prinsipdən istifadə edirlər.

Bu cür qarşılıqlı təsir nəticəsində, insan həyatının və ictimaiyyətin vacib sferalarından biri kimi iqtisadi yaşayışın əsaslarının dərk edilməsi daxil olan «iqtisadiyyatın fəlsəfəsi» yaranır. Fəlsəfi kateqoriya və prinsiplərə söykənərək o, iqtisadi təzahürlərin, proseslərin mahiyyət aspektlərini aşkar edir. İqtisadi elmin fəlsəfi əsaslarına mürəkkəb sosial institut kimi fəaliyyət göstərmə problemlərini və iqtisadiyyatın inkişaf tendensiyasını; iqtisadi bilik və öyrənilmələrin analizi; iqtisadi biliklərin məntiqi düzgün sxeminin qurulması problemləri; iqtisadi elmlərin spesifikası, ictimai münasibətlərin bir növü kimi iqtisadi münasibətlərin xüsusiyyətləri, iqtisadi sferada obyektin və subyektin qarşılıqlı təsiri, iqtisadi biliklərin obyektivliyi və həqiqiliyi sualları, iqtisadi nəzəriyyənin etik aspektləri və s. aid etmək olar.[22] İqtisadi münasibətlərin konkret formalarını, iqtisadiyyatın struktur elementlərini analiz edən iqtisadi nəzəriyyədən fərqli olaraq, iqtisadiyyat fəlsəfəsi təsərrüfat aləminin və iqtisadiyyatın inkişafının ümumi və universal qanunauyğunluqlarının dərk edilməsinə yönəlmişdir. Onun diqqət mərkəzində iqtisadiyyatın təbiətinin prinsipial məsələləri, həmçinin iqtisadi sferada insan davranışının və fəaliyyətinin mahiyyətinin aşkar edilməsi dayanır (antropoloji aspekt).

> *Kapitala canlı orqanizm kimi, bəlkə də qalan dünyanı qucaqlamağa, ona nüfuz etməyə, onu öz içinə sovurmağa, həzm etməyə, onu idarə etməyə, onu dəyişməyə qadir olan canlı aləm kimi yanaşmaqdan çəkinmək lazım deyil. Bu kapitaldan fərqli olaraq hələ axtarılmalı olan azadlıq, rəqabət və bazar haqqında sonsuz mülahizələrin mühakimələrindən yaxşıdır. Çünki, onların həqiqi, mifik olmayan varlığı, kapitaldan fərqli olaraq problematikdir. Əlbəttə, biz heç də azadlığı, rəqabəti və bazarı inkar etmirik, lakin biz görürük ki, burada heç də hər şey iqtisadi nəzəriyyənin tez-tez təqdim etdiyi kimi sadə deyil».*
>
> Y.M.Osipov

Ticarət haqqında elmin də, həmçinin metodoloji əsaslandırmaya ehtiyacı var, halbuki onun refleksiyalarının spektri iqtisadi nəzəriyyənin təklif etdiyi metodoloji konsepsiyalardan qat-qat geniş ola bilər. Fəlsəfi metodologiyanı ticarət üçün hər hansı məcburi tələblər yığımı kimi qəbul etməyib, nəzərə almaq lazımdır ki, o ticarətin inkişaf və fəaliyyətinin əsas tendensiyalarını, hərəkətverici qüvvələrini işıqlandıraraq ticarətə müxtəlif vəziyyətlərdən baxmağa yönəldir. Bu planda o, özünün tədqiqat predmetinə malik olmalıdır.

Ticarət nəzəriyyəsi başqa tədqiqat predmetinə malikdir. O, iqtisadi elmin fəlsəfi əsaslarına qovuşmur. Ticarət nəzəriyyəsini ticarətin müx-

təlifliyi öz-özlüyündə deyil, təsərrüfat-insan subyektinin prizmasından, onun təbiətlə qarşılıqlı münasibətləri və mədəniyyətin çevrilməsi maraqlandırır. İnsan həyatının müxtəlif tərəflərinin uçotuna görə ticarət nəzəriyyəsi iqtisadi, psixoloji, sosialoji, estetik və digər bilikləri üzvi surətdə birləşdirən sintetik bilik verə bilər. Söhbət biliklərin mexanizminin birləşdirilməsindən, cəmləşdirilməsindən, onların iqtisadi-nəzəriyyə çərçivəsində birləşdirilməsindən yox, bütün müxtəlif planlı biliklərin (elmi və qeyri-elmi) yaradıcılıqla dərk edilməsinə imkan verən ticarətə nəzəri baxış haqqında gedir, nəticədə insan həyatının müxtəlif tərəflərinə ümumiliyin proyeksiyası alınır. Bu planda ticarət təsərrüfatla eyniölçülüdür. «Təsərrüfatla məşğul olmaqla – Y.M.Osipov yazır, - insan aləmi (dünyanı), özünü, Allahı tanıyır, eləcə də özünün süni, təbii olmayan aləmini yaradır. Təsərrüfatçılıq – təkcə yaşamaq yox, həm fiziki – bioloji olaraq, bu, həm də yaratmaqdır. Təsərrüfatçılığın yüksək təzahürü – yaradıcılıqdır. Biliklərin əldə edilməsi təsərrüfatçılıqdır. Təsərrüfat – təsərrüfat kimi götürülən və baxılan həyatın, yaşayışın özüdür. Təsərrüfat - həyat və yaşayış deyil, yaşayış və həyat təsərrüfatdır. Yaşayış və həyat onların təsərrüfat aspektindədir».[23] Nəzəriyyə isə bütövlükdə təkcə aləm (dünya) haqqında bilikləri ümumiləşdirmir, həm də yaşayışın sirrlərinə, həmçinin ticarətdə reallaşan həyatın sirli mənalarına nüfuz etməyə imkan yaradır. «Təsərrüfat fəlsəfəsi» və «İqtisadiyyat dünyasının» yarımçıq fikirlərinin qavrama və dərk edilmə üsulunun tərkib hissəsi kimi «ticarət fəlsəfəsinin» imkanları digər nəzəri iqtisadi quruluşların imkanlarından daha çox miqyaslıdır.

Ticarət haqqında təlimlə qovuşmuş təsərrüfat fəlsəfəsi intellektual (rasional) iş kimi intuitiv (irrasional) işi də nəzərdə tutan təbii mülahizələrə yol verir; o hissiyatla, həyatla, «təbiiliyin dərinliklərinə» nüfuz etməklə qovuşmuş mülahizələrə yönəlmişdir (Y.Osipov).

Ticarət nəzəriyyəsinin məqsədi iqtisadi elmin qoyduğu problemləri açmaqdır. Lakin axırıncı da, həmçinin bu tapşırığı qoyur. Ancaq onun ticarətlə yox, bilavasitə və onun (insanın) material istehsalat həyat təminatı ilə qovuşmuş insanın həyat fəaliyyəti sferası kimi başa düşülən iqtisadiyyatla işi var. Amma ticarətin qoşulduğu həyat reallığı elmi-iqtisadi yanaşmanın hesab etdiyindən daha zəngin, mürəkkəb, ziddiyyətli, dərindir. Buna görə onun mövqeyindən «yalnız səthi, yalnız məhdud dairədə, yalnız sadələşdirilmiş deyimdə» əldə etmək olar. Nəzəriyyə ilə qarşılıqlı təsir elmi həmişə xilas edir, amma axırıncı dərketmənin və biliyin digər keyfiyyətinə keçid imkanının təhlükəsi, yəni öz predmetinin itirilməsini fərz edib hər zaman bu «işə» getmir.

Doğrudan da elm, o cümlədən iqtisadiyyat və ticarət haqqında elm təkcə nəzəriyyəyə və ya fəlsəfəyə çevrilə bilməz. Bir təlimin digər təlimi

sıxışdırmağın heç bir ehtiyac yoxdur, amma birinin digərini tamamlaması lazımdır. Bu çoxdanın təlimi olan və yaralı problemdir, onun praktiki həlli elə də sadə deyil. Bir çox hallarda təsiredici, üzvi, dərin deyil, formal-məntiqi, funksional sintez baş verir. Ticarətə münasibətdə bu, məsələn, özünü ticarət-iqtisadi təzahürün və proseslərin mahiyyət tərəfini nəzərdə tutan müəyyən nəzəriyyələşmədə büruzə verə bilər. Amma belə sxolastik, teoretik diskursun nəticələri az məhsuldar olar. Çünki, həqiqi mənada ticarətdə başlıca olan – onun insani mahiyyətinə nüfuz etməyə imkan verməyən «süni» sintez baş verəcək.

Ticarət nəzəriyyəsi üçün qiymətli ticarətlə mədəniyyətin qarşılıqlı münasibətinin təhlili, hər şeydən əvvəl, mədəni və etnik norma və dəyərlərin ticarətə təsiridir. Bu qarşılıqlı münasibətin vacibliyini qeyd edərək P.Kozlovski təsərrüfat haqqında elmi «başa düşən sosiologiyanın ən başa düşülən hissəsi» kimi təsəvvür edir, hər fəaliyyətdən şəxsi marağı təqib edən rasional fəaliyyəti hamısından yaxşı başa düşürük, eyni zamanda təbii elmi (emprik) elementləri olan elmlə – əmtəə (mal) və rifahın hərəkəti mexanizmi, istehsalat faktorlarının, belə ki, o miqdarlarla və ölçülən qiymətlərlə məşğul olur. İnsan təcrübəsinin mədəni mahiyyəti və qiymətinə əhəmiyyət vermədən müasir iqtisadi paradiqmaya xas olan stsientizmi aşmaq məqsədini güdən P.Kozlovski sübut edir ki, mədəniyyət çoxlu iqtisadi proseslərin xarakterini təyin edir. Bizim istehlak və investisiya qərarlarımız bu gün «həmişə mədəni, dini mənada təyin olunmuşdur, - söhbət, rifahın simvolik qiymətindən və əmanətlərin xeyrinə istehlakdan imtinanın dini əsaslandırmasından gedir». Mədəniyyət iqtisadiyyat və təbiətin qarşılıqlı münasibət xarakterinə də böyük təsir göstərir.

Postsənaye iqtisadiyyatı mədəni təsirə yüksək diqqət tələb edir. Bu onunla bağlıdır ki, o material rifahın miqdar istehsalından ticarət xidmətlərinin keyfiyyətli iqtisadiyyatına, mənəvi rifahın istehsalına, postmodern dövrü və onun texnikasının humanitar, qeyri material xarakterinin gücləndirilməsinə keçir. Bu dövrün əsas göstəricisindən biri virtual reallığın xüsusi mədəniyyətinin formalaşdırılmasıdır: o «özbaşına yox, ona nisbətdə xarici olan, obyektlərin təsirindən yaranır. İnkişafın müəyyən mərhələsində o artıq özünün, yaradandan asılı olmayan fəzaya, vaxta və mövcudluğunun spesifik qanunlarına malik olur, lakin bu halda digər sistemlərlə, həmçinin onu doğuran sistemlə aktiv kommunikasiyaya malik olur».[24] Əgər sənayedə istehsal və ticarət sazişləri (modern dövrü) nəzarət olunan son məhsula yönəlmişdirsə, ancaq bu gün xidmət sferasında fəaliyyət rifahın hazırlanmasında nəzarətin bütövlüyünü nəzərə almır. Belə məhsulların özü də bu sahədə simvolik xarakter daşıyır, nəinki, sənaye məhsulları və ya klassik ticarət sazişləri. Buna misal, istehsal və istehlakın əsas məhsulu ilə postmodernə keçmiş ölkələrdəki informasiya və biliklər ola bilər. Birincisi kimi ikinci də həmişə simvolikdir, çünki, sosial inkişafın verilmiş mərhə-

ləsində başlıca olan mədəniyyət formasının təsirindən bilavasitə asılıdır və onunla təyin olunur.

Mədəniyyət təkcə istehsala yox, istehlaka da təsir göstərir. Onun köməyi ilə kütləvi istehlak ideallarından digər estetik və mədəni sorğulara tədricən transformasiya olan istehlakın sosial nümunələrinin dəyişməsi baş verir. «Vahid kommunikasiya fəzasında, V.V.Mironov qeyd edir, ümumi stereotiplər, ümumi qiymətlər, tələb olunan davranışın ümumi parametrləri, onun ümumi əlçatan, yəni daha sadə komponentləri hökmranlıq edir».[25]

Bu, şübhəsiz ki, bir sıra rahatlıqlar yaradır, lakin bu insanı iqtisadi reallıqla qarşılıqlı münasibətin yeni strategiyasını doğuran yeni problemlərlə üz-üzə qoyur və yeni-yeni əngəllər yaradır. Onların həlli ilə, eyni zamanda yeni problem və əngəllər yaratmaqla ticarət məşğul olur.

Bununla əlaqədar, «təbiət-insan-mədəniyyət» triadası (L.Tutov) duran ictimai istehsal üçün: «İstehlak etmək – insanla onun olduğu mühit arasında yeni effektiv münasibətlərin yaradılması deməkdir» (P.Kozlovski) ideyası ticarətin obrazını dəyişən bir sıra digər problemlər yaradır. İstehlakın yeni münasibətləri, hər şeydən əvvəl, istehlakın obrazlı təəssüratı ilə bağlıdır ki, bu da şübhəsiz işarələrin, dilikinin (məlumatın) daim yenilənməsini tələb edir. Bu, mədəniyyətin bütün sferalarında dəyişikliklərə gətirən istehlakın fasiləsiz sürətlənən axınıdır. Həm də intellektual mədəniyyət sahəsində. Müasir epistem sahəsini, M.Fuko qeyd edir, geniş «açıq üçölçülü fəza» kimi təsəvvür etmək lazımdır. Onun bir ölçüsündə, qaydanın onlar üçün həmişə aşkar və ya «inanmaq üçün əlçatan» mülahizələrin deduktiv və xətti ardıcıllıq olduğu riyazi və fiziki elmlər yerləşdirilir. Müasir iqtisadiyyat bu elmlərə, xüsusən riyaziyyata daha çox istiqamətlənir. Dil haqqında, həyat haqqında, istehsalat haqqında elmlərdən başqa sərvət və onun bölünməsi haqqında elm də (iqtisadi elm) oxşar elementlərin elə tənzimlənməsinə can atırlar ki, onlar səbəb münasibətlərinə girə bilsin və struktur sabitliyi yarada bilirlər.

## 4. TİCARƏT NƏZƏRİYYƏSİ: METODOLOJİ KONTEKST

Yeni dövrün elmində möhkəm təsdiqini tapmış metodoloji standartlar «elm-lider»lərin təcrübəsini əks etdirirdi, ancaq metodologiya ümumelmi tendensiyaların yayılmasının əsas başlanğıcına xidmət etmişdir. Buna görə də metod faktoru konkret elmlərin inkişafının daxili məntiqinə münasibətdə müəyyən muxtariyyatı qoruyub saxlamışdır. Müxtəlif dövrlərdə və iqtisadi fikrin müxtəlif məktəbləri üçün metodoloji istiqamətləndirici kimi mexanika, biologiya, tarix, riyaziyyat, fəlsəfə, sosiologiya xidmət göstərmişdir.[26] Təsərrüfat fəlsəfəsi (postmodernist intellektualizm kimi) pe-

şəkar «tənqidin» boş iradları çərçivəsindən çıxır (S.Bulqakov). O, biliklərin transtsendentliyindən irəli gəlir. O, nə qədər predmetli, obyektiv və düzgün olsa da, özünün təbiətinə görə və öz mənbəyində həmişə «öz-özünə yaranmış, özü-özünü tərənnüm edən, özünə xidmət göstərən, öz-özünü dərk edən kimi qalır. Bilikdən bilik. Bilikdə bilik. Biliklə bilik. Hansısa öz-özündə qapanma, şey özündə».[27] Biliyin özünəyetərliliyi onun *müəyyən olunmasının subyektivliyindədir ki,* metodoloji alətlər öz-özlüyündə istisna edir və ya onlardan «qaçır».

Bilik qeyri-müəyyəndir, lakin eyni zamanda hansısa hissəsində müəyyəndir. Bilik – dünyanın, varlığın, həyatın elementi, onun üçün xarakterik olan «stixiya-substansiyadır». O, ümumi transsendentliyi aradan qaldırmır və qaldıra da bilməz, ancaq müəyyən qədər onu «aradan götürür», çılpaqlaşdırır, göstərir, üstünü açır. «Dünyanın, varlığın, həyatın transsendentliyinə nüfuz edərək, bilik dünyadan, varlıqdan, həyatdan onların transsendentliyini yığışdırmır, çünki o, bu dünyanı, varlığı, həyatı başqa cür – qeyri-transtsendentli edə bilməz. Lakin o, dünyanı, varlığı və həyatı nisbətən məlum olana çevirərək onların təməl xüsusiyyətlərini aşkara çıxardır».[28] Dünya tam qapalı mövcud ola bilməz. Dünya biliksiz (subyektsiz) – boşluqdur, heçnədir.

Bununla yanaşı, nəzəriyyənin diskursunu və ya ticarətin fəlsəfəsini daha tam və həcmli təsəvvür etməyə imkan verən metodoloji yanaşmanın digər xəttini də nəzərə almaq lazımdır. O, ratsionalizm və qeyri apozitivizm nəticəsində («elmin fəlsəfəsi») əldə edilmişdir. O, fakt dilindən nəzəriyyə dilinə çevrilmək məharətini öyrənməklə alimlərin fəaliyyətini nəzərə çarpacaq dərəcədə zənginləşdirir. Lakin fəlsəfədən, ümumi nəzəriyyədən və müşahidədən gizli mahiyyətlərin axtarışından imtina edərək bu yola ardıcıl getmək cəhdləri sadəcə qeyri-real göründü: elmi təsdiqetmələrin ciddiliyi və empirik birmənalılığı tapşırığı mövzuların «xırdalanmasına», fundamental problemlərdən aralanmağa və hətta tez-tez elmi məlumatların mənasının itirilməsinə gətirib çıxartdı. Nəticədə elə vəziyyət yaranır ki, söhbətin məhz nədən getdiyini başa düşməyə çətinlik çəkirik» (A.Leyonxuvud).
Nəzəriyyədəki bu vəziyyətə reaksiya, «post-modernist yetkinliyində» özünəməxsus olub transsendentlik aksenti ilə iqtisadiyyatın təhlilinin başqa imkanlarını açan təsərrüfatın fəlsəfəsinə diqqətin artması oldu. Y.M.Osipov hesab edir: «İqtisadi dünyada nəyin çox olması barədə fikirləşməyin vaxtı çatmışdır – elm adamları, hər şey aydın ol sunn deyə dəqiq sübutlar, sistemlilik tələb edirlər, amma yaddan çıxardırlar ki, sübutların və sistemliliyin arxasında həmişə yalan gizlənir».[29] Lakin həqiqət – heç də həmişə nəzəri düzülüşlərdə və metodoloji normativlərdə deyil. Həqiqət – coşqun, inkişaf edən təsərrüfat prosesləri haqqında mülahizələrdir, bununla yanaşı, tərkib hissəsi ticarət olan iqtisadiyyat haqqında mülahizələrdədir.

Bundan elə nəticə çıxmır ki, metodoloji yanaşmanı tamamilə inkar etmək lazımdır. Heç olmasa ona görə ki, hər bir elmi kəşf, nailiyyət, tədqiqat nəticəsi, elmin özünün inkişafı da sırf sərbəst həyata keçirilə bilməz. Daha çox tənqidə layiq, arzu və ümidlərin əksinə olaraq yeni ideeyaların yaradılması yolunda şəraitə yox, doqmatik «maneələrə» çevrilən metodologiyanın normativ funksiyasıdır. Elmi işin (ayrı-ayrı dahi alimlərin) texnologiyasının başa düşülməsi imkanlarını şərtləndirən elmi yaradıcılığın metodoloji analizi haqqında söhbət gedirsə, bu, bir başqa işdir.

Məhz iqtisadi-metodoloji tədqiqatlar iqtisadi elmin bir hissəsi kimi ticarət haqqında müasir elmin real janr müxtəlifliyinin başa düşülməsinə gətirib çıxartmışdır. Məsələn, göstərilmişdir ki, elmi və maarifləndirici tapşırıqların qoyulması zamanı qarışıqlığın az olmayan hissəsi bir tərəfdən *formalaşdırılmış* nəzəri modellərin işlənməsinə yönəlmiş tədqiqatların dəqiq hüdudlarının qoyulmasını bacarmamaq, digər tərəfdən isə emprik yönümlü elmi tədqiqatlarla bağlıdır (T.Mayer). Çoxsaylı praktiki problemlər arasında müasir iqtisadi nəzəriyyənin ontoloji (ilk növbədə davranış, əxlaq və institutsional) zəmininin rekonstruksiyası və dərk edilməsinə daha çox diqqət yetirir. Məsələn, bir tərəfdən iqtisadi inkişaf nəzəriyyəsinin əsasında duran ontologiyalarla, digər tərəfdən rasional davranışın (əxlaqın) mikroiqtisadi nəzəriyyəsi arasında uyğunsuzluqlar aşkar edilmişdir. İqtisadi nəzəriyyədə essentsializmin bərpası üzrə addımlar atılır. Son zamanlar iqtisad elmində sinergetik təsəvvürlərin istifadə edilməsi sualları xüsusilə diqqəti cəlb edir. Bu halda başlanğıc impuls iqtisadi interpretasiyaya[30] məxsus hazır riyazi aparatdan, iqtisadi elm və ticarət haqqında elm üçün az əhəmiyyətli olmayan sosial dərketmə və digər təsəvvürlərdən irəli gəlir.

> 4*«Ticarət kapitalı üstün hökmranlığa malik olan zaman hər tərəfdə soyğunçuluq sistemi mahiyyəti daşıyır və əbəs yerə deyil ki, onun həm qədim, həm də yeni dövrün ticarətlə məşğul olan xalqlarda onun inkişafı bilavasitə zorakı soyğunçuluq, dəniz quldurluğu, qulların oğurlanması, müstəmləkələrin əsarətə salınması ilə bağlıdır, bu Karfagendə, Romada, sonralar venesiyalılarda, portuqallarda, hollandlarda və s. belə olmuşdur».*
>
> K.Marks

## 5. TİCARƏT VƏ KAPİTAL

Ticarətin məna və məzmun müxtəlifliyi təsərrüfat həyatının və iqtisadi fəaliyyətin fenomeni kimi onun *kapitalın* problemi ilə müqayisədə baxılmasını şərtləndirir. Axı, həm ticarət, həm də kapital – bilavasitə pula

bağlı olan ictimai varlığın obrazlarıdır. Bu baxımdan onlar qarşılıqlı əlaqədardır. Lakin bununla yanaşı, həm ticarətin, həm də kapitalın – iqtisadi həyatın əsas tərkib hissələrinin həqiqi, dərin mənasını aydınlaşdırmağa imkan verən fərqləndirici xəttin aydınlaşdırılması lazımdır.

Ticarət – dünya təsərrüfatının ayrı-ayrı üzvləri arasında məqsədəuyğunluq və təsərrüfatçılıq prinsipləri üzrə təşkil edilmiş əmtəə mübadiləsidir. O, tələbatı və ehtiyatı tarazlığa gətirməli və onun birləşdirdiyi dünya təsərrüfatının ayrı-ayrı üzvlərinin istehsalının və istehlakının inkişafına təsir etməlidir. Beləliklə, ticarət – tələbın təmin edilməsi, istehsalın inkişafına təsir göstərən və s. vəzifəsi olan *təşkilatın elementidir*. Bununla yanaşı ticarət - ticarət kapitalının xüsusi funksiyasından başqa bir şey deyildir. «Əmtəə- ticarət və ya kommersiya kapitalı – dövriyyəsi istehsal prosesi ilə kəsilən sənaye kapitalından fərqli olaraq daima bir prosesi P-Ə-P (malın mənfəətlə alqı-satqısı) həyata keçirən ümumi kaptalın daima bazarda olan bir hissəsidir»[31].

Ticarətçi mahiyyətcə, istehsal üçün lazım olan materialların çatdırılması və istehsalçının məhsullarının satılması ilə sənayeçinin məlum funksiyalarını yerinə yetirir. Həmin funksiyalar malları özü alan və satan sənayeçi tərəfindən də yerinə yetirilə bilər. Belə ki, satın alınan əmtəə sənayeçinin əlində təkcə öz xarici görkəmini yox (pambıq ipliyə, parçaya çevrilir və s.), həm də mahiyyətini dəyişir: o özünə, onun emalına sərf edilmiş əməyin yaratdığı yeni dəyəri daxil edir: halbuki, tacirin əlində əmtəə əvvəlki şəkildə olduğu kimi qalır. Əmtəənin daşınması, çeşidlənməsi və s. – ticarət funksiyası ilə, yəni istehsalçı ilə istehlakçı arasında vasitəçiliklə bağlı olmayan kənar fəaliyyətlərdir. Sənaye kapitalisti özü və ya onun agenti əmtəənin çeşidlənməsini, seçilməsini və təyinat yerinə göndərilməsini özü həyata keçirir. Hər halda əgər biz ticarət haqqında iqtisadi nəzəriyyənin sərbəst kateqoriyası haqqında danışırıqsa, bu ona görədir ki, «əmtəə kapitalı tamamilə pula çevrilir – ardınca öz ilk metamorfozunu həyata keçirir, bazarda əmtəə kapitalına uyğun gələn funksiyanı yerinə yetirir, - bu əmtəə kapitalının istehsalçısından fərqli olan agentin əlindədir» və «əmtəə kapitalının bu funksiyasına tacirin əməliyyatları, onun alqı-satqısı elə xidmət edilir. Odur ki, bu əməliyyatlar sənaye kapitalının digər funksiyalarından fərqli xüsusi müəssisə formasına gətirir, və buna görə də sərbəst etdiyi - ictimai əmək bölgüsünün xüsusi forması nəticəsində, kapitalın təkrar istehsalının xüsusi fazasında, bu halda dövretmə fazasında, yerinə yetirilməli olan funksiyanın bir qismi istehsalçıdan fərqli dövretmənin xüsusi agentinin müstəsna funksiyasıdır».[32] Lakin bu xüsusi funksiyanı sənaye kapitalistinin xüsusi agenti də yerinə yetirə bilər. Əmtəə – ticarət kapitalına çevrilərək, əmtəə kapitalı tacirin, dəyəri artan pul kapita-

lının avanslaşdırması nəticəsində sərbəst kapital şəklini alır, K.Marks belə hesab edirdi. Qeyd edək ki, bu nəticə mütəfəkkirin ideoloji mövqeyi ilə şərtlənmişdir. Həqiqətdə isə, ticarət kapitalı sənaye kapitalından əvvəl meydana gəlir.

Beləliklə, ticarətin həqiqi fərqləndirici əlaməti – tərəqqinin hər iki sonunda özünün bu şəkildə qalan əmtəə kapitalının pul kapitalına çevrilməsidir. Başlıcası isə ticarətçi, əmtəənin bazarda satılmasına qədər, kapitalın bir hissəsini daraldaraq sənayeçinin kreditoru kimi çıxış edir. Ticarətçi kapitalın bir hissəsini sənaye kapitalistinə avanslaşdırdığına görə ticarət sərbəst rol oynayır.

Buna görə ticarət kapitalını sənaye kapitalının hissəsi kimi nəzərdən keçirtmək lazım gəlir. Ticarət sənayedən funksional fərqli rol oynayır; amma başlıcası, ticarətçini sənayeçidən sosial olaraq nə fərqləndirir, onu sənayeçinin sadə agentindən kapitalist təsərrüfatının sərbəst elementinə çevirən nədir? - Bu, onun tərəfindən sənayeçiyə pul kapitalının avans etməsidir. Dövriyyə prosesinə qulluq edən pul kapitalının nümayəndəsi kimi, ticarətçi özünün sosial və iqtisadi rolunu əldə edir. Aydındır ki, əgər ticarətçinin kapitalı yoxdursa və sənayeçi ona öz əmtəəsini (malını) kreditlə verir və o sənayeçinin sadə agentinə çevrilir; hər halda onun funksiyaları istənilən an belə agentə verilə bilər.

Əgər bizim ticarət kredit hesabına yaşayırsa və ya bizim kooperasiyanın sənaye tərəfindən kreditə ehtiyacı varsa, onda nə o, nə də digər ticarət iqtisadi olaraq hələ ticarət rolunu oynamır və asanlıqla dövlət ticarəti və sindikatlarla əvəz edilə bilər. Ancaq pul kapitalı yığaraq sənayeyə verən xüsusi ticarətçilər, eləcə də koperasiya ölkənin təsərrüfat həyatında müəyyən əhəmiyyəti olan ticarət kapitalı rolunu oynayır.

Əmtənin bilavasitə istifadəçi olmayana yox, ticarətçiyə satılması sənaye kapitalının dövriyyə vaxtını qısaldır, ona daha tez istehsal sferasına qayıtmaq və yenidən əlavə dəyər yaratmaq imkanı yaradır.

Kapital özünün «ibtidai» şəklində nədir?

Üzdə və ya fenomenal dünya çərçivəsində kapital pul gətirən puldur. Həqiqətən belə çıxır ki, işgüzar dövriyyəyə buraxılan pullar əlavə pul gətirir və ya artır. Necə ki, artım pulla qeyd olunur və həm də işgüzar dövriyyənin başa çatmasından sonra qayıdan pullarla. Əvvəl bir məbləğ pul (P) var, sonra isə digəri peyda olur – böyük ($P^1$) . $P^1$ həmişə P-dən çoxdur, P-$P^1$ aksiyası isə istənilərsə pulların öz-özünə artımı kimi hesab edilə bilən həmin aksiyadır. Bu da kapitalın təzahürüdür.

Lakin tələsməyə dəyməz. Onda əmtənin sadəcə əldən-ələ satılması nəticəsində pulun artımını da kapital hesab etmək olardı. Hər halda, kapital haqqında hər hansı xatırlatma, onun ən sadə deyimi, lakin təq-

dimatı kimi. Biznes biznesdir: aldın – satdın – artıq biznesmen, hətta iş adamı demək olar. Əlbət ki, amöb şəklində. Bəs əgər, böyük kütlədə əmtəənin alınıb-satılması baş tutursa, onda, həqiqətən artıq iş adamıdır – öz-özünə artan pulların agenti, kapitalın subyekti, bəlkə də birbaşa kapitalistdir. (I.F.Şerr).

Burada kapital haqqında ən sadə, heç də ən pis olmayan təsəvvürlər alınmışdır. Ancaq hər şey elə də sadə deyil, belə ki, əlavə pulun haradan götürüldüyü, daha doğrusu, pulun artmasına nəyin imkan yaratdığı qaranlıq olaraq qalır. Tək malın alınıb satılması ilə uzağa getmək olmaz – əlavə pulların hansısa mənbə əsası olmalıdır. Çünki, alıcının əlində pulların sözü gedən o artımının örtülməsi üçün nəzərdə tutulmuş məhz artıq əlavə pullar olmalıdır. Alqı-satqı aksiyaların özündən asılı olmayaraq əgər bu pul artımı yoxdursa, *iqtisadi agentlər* əmtəəni bir-birinə pul artımı ilə sata bilməz. Agentlər alqı-satqı əqdlərində, eyni zamanda hansısa əlavə pulların mənimsənilməsində də iştirak edirlər.[33] Onda hansı pullar, haradan götürülmüşdür? Ümumiyyətlə pulların mənbəyi və uyğun olaraq, həm də əlavə pulların mənbəyi hardadır?

Kapital – mürəkkəb, çoxmərtəbəli, müxtəlif xüsusiyyətli və məkanca səpələnmiş, çoxrabitəli və şərtləşdirilmələrlə bağlı bir fenomendir. Onu tərkib elementlərinə, əlbəttə ki, bölmək olar, ancaq hər şeydən əvvəl onu bütövlükdə görmək lazımdır. Kapital – sadəcə münasibət yox, həm də dolaşıq. münasibətlər məcmusudur, *Analitik sadələşdirmə* xeyirli olur, amma *sintetik bütövlük* daha vacibdir. Y.M.Osipov belə hesab edir ki, «Kapital sferik rabitə şəbəkəsində reallaşan orqanizmdir və həm də çoxlu qeyri-müəyyənliklərlə dolu proseslərdə dinamikdir».[34] Çoxsəviyyəli və çox mürəkkəb olan iqtisadi dünyaya yönəlmiş ticarət də belə orqanizmdir. Axı ticarət, kapitalla birlikdə ticarət kapitalı əmələ gətirərək sənaye kapitalının bir hissəsini daraldaraq onun dövretmə vaxtını qısaldır. Kapitalist cəmiyyətdə ticarət və sənaye kapitalı arasında qarşılıqlı münasibət təbii olaraq kapitalın bu hissələrinin qədəri ilə təyin edilir: əgər sənayeçinin öz istehsalını davam edə bilməyəcəyi ticarət kapitalına ehtiyacı varsa, onda o, öz «kreditorundan» asılı vəziyyətə düşür: əgər sənaye kapitalının ticarətçi tərəfindən daraldılan hissəsi nəzərə çarpan deyilsə, onda sənayeçi sərbəst olur, məlum şəraitlərdə hətta istehsalda hökmran faktora çevrilir.

Sənaye nə qədər az inkişaf etmiş və az təşkilatlanmış olarsa, ticarət kapitalının təsiri bir o qədər nəzərə çarpan olur. «Kapitalist cəmiyyətinin hazırlıq pillələrində ticarətçi sənayeçi üzərində hökmranlıq edir; müasir cəmiyyətdə tərsinə».[35] Bu ondan irəli gəlir ki, təsərrüfat inkişafının ilk vaxtlarında əmtəələrin dövriyyəsi daha sürətli olur, nəinki sonralar. İstehsalat kapitalı hələ ticarət kapitalından çox azdır, belə ki, əsas kapital hələ az

inkişaf edib, eyni zamanda, əmtəə istehsalçıdan istehlakçıya qədər uzun yol keçməli olur. Ticarət beynəlxalq xassəyə malik olaraq tezliklə böyük sahələrə yayılmışdır. Əvvəlcə Aralıq dənizi və Ərəb körfəzi ətrafı bölgələrinə, sonra isə Avropanın dərinliklərinə nüfuz etmişdir. Aylar və bəzən illər keçirdi ki, əmtəələr satılsın, ticarət kapitalı isə həmişə bağlı olurdu. «İstehsalın inkişaf etmiş kapitalist üsulu, əvvəlki vəziyyəti ilə müqayisədə, tacir kapitalına ikili təsir göstərir. Əmtəənin əvvəlki miqdarı tacir kapitalının həqiqi fəaliyyət göstərən az kütləsinin köməyi ilə dövr edir, tacir kapitalının daha sürətli dövriyyəsi və istehsal prosesinin böyük sürəti nəticəsində – daha sürətli dövriyyə elə buna əsaslanır – tacir kapitalının sənaye kapitalına nisbəti azalır».[36] Bu qarşılıqlı münasibət ticarət kapitalının sənaye kapitalından və ya ticarətin kapitaldan ayrılmazlığını göstərir.

Əmtəə dövriyyəsi kanallarının yeni pullarla dolması faktı əlavə pullar probleminin həllinə heç nə ilə kömək etmir. Bundan başqa əlavə pullar kapitalistin əlinə, ictimai dövriyyəyə yeni pul kütləsi daxil edilmədən də gələ bilər. Biznes (ticarət dövriyyəsi) hər dəqiqə həyata keçirilir, amma yeni pullar, nə qədər də olmasa vaxtaşırı daxil edilir. O da biznesin tələbatı üçün yox, əmtəə kütləsinə xidmət göstərmək tələbatının xatirinə edilir. Biznes üçün əlavə pullar isə təkcə pulun həmin ictimai kütləsində yox, həm də elə həmin əmtəə kütləsində də əmələ gələ bilər.

> *«Kapitalist təsərrüfatı – artıq sadəcə mübadilə – qiymətləndirmə yox, sadəcə əmtəə yox və hətta sadəcə pul təsərrüfatı deyil. Bu təsərrüfat pul artımına, artıma yönəlmişdir. Təsərrüfatçılığın məqsədi, hər şeydən əvvəl pulun köməyi ilə pul istehsalı, pulların öz-özünə artımına çevrilir. Pul, onunla birgə qiymət (dəyər) də ön plana çıxır. Məhz onlar hazırda təsərrüfatı aparır, onu təkcə vasitələndirmir».*
>
> Y.M.Osipov

Belə çıxır ki, problemin həllini orada – ümumi artmaya məruz qalmayan əmtəənin və pulun dövredən kütləsində axtarmaq lazımdır. Bununla belə əmtəənin gəlirlə alqı-satqısı faktı, bildiyimiz kimi, bizə heç nə ilə kömək edə bilməz, çünki cəmiyyətdə bütün agentlər belə edə bilməzlər – bunun heç bir mənası yoxdur, birdən hər kəsə satmamaq, onda ya hər kəs satın almaqdan imtina edər, ya da mümkün artımı ödəməklə satın alar. Burada ona fikir vermək yerinə düşərdi ki, pul artımının sirrini alqı-satqının tək-tək aktlarından – onları heç nəzərdən keçirtmək lazım deyil, ümumi mübadilə – qiymətləndirmə prosesindən, bunu nəzərdən keçirtmək də olardı.

Mübadilə mübadilədir – onda ekvivalent təntənə edir (əgər ictimai alqı-satqı prosesini yaddan çıxartmamışıqsa). Əmtəə mübadiləsinin bütün agentləri inkişaf etməlidir, buna görə də ola bilməz ki, onlardan biri digərinə sistematik güzəştə getsin.

Pulun artımının sirrini mübadilə Qiymətləndirilməsindən olduğu kimi mübadilədən də tapmaq olmaz. Və bununla belə, biz indicə ərz etdik ki, problemin həllini əmtəənin və pulun dövredən kütləsində axtarmaq lazımdır. Lakin alqı-satqı aksiyalarının özündə yox. Qiymətləndirmələrin özlərində də yox. Bütün sadalananlar pulun öz-özünə artması effektinin yaranmasında yalnız iştirak edir, amma effektin özünü hasil etmir.[37]

Problemin həllini, əmtəə və pulun dövr edən kütləsində axtarmaq lazımdır. Nəzərə alsaq ki, pul, mahiyyətinə görə əmtəədir və əmtəədən (qeyri-pul xarakterli) bir-başa asılıdır, onda söhbət əmtəə kütləsinin istehsalı, yəni əmtəə forması alan nemətlərin istehsalından gedə bilər.

Bax, burada da hər şey üçün ümumi olan nəyəsə ehtiyacımız yaranır: əmtəə, pul, mübadilə, qiymətləndirmə üçün, yəni bütün iqtisadiyyat, bununla yanaşı, əmtəənin istehsalına münasibəti olan (məhz istehsalına), baxılması mümkün olan və buna görə əmtəənin yaranması, onların mübadiləsi və qiymətləndirilməsinin bütün prosesini, biznesə xərclənmiş pulların artımını görmək mümkündür. Bu, ümumi – qiymətdir. Əmtəənin istehsalı, eyni zamanda, dəyərin istehsalıdır, qiymətin istehsalı isə – əmtəənin istehsalıdır. Dəyər hər yerdə – əmtəədə, pulda, mübadilədə, qiymətləndirmədə, yəni bütün iqtisadi və uyğun olaraq kapital işlərində görünür.

Dəyər – məlum olduğu kimi, məhsul artımını tez ötüb keçən əsas kapitalın başlıca məzmunudur. Sənaye müəssisəsinə qoyulan kapital tez böyüyür, nəinki onun məhsulu. Belə ki, əmtəə kapitalına ümumi kapitalın daha az hissəsi düşür. Bunun nəticəsində ticarət kapitalının rolu dəyişir. Əvvəllər tacirin əllərində kapitalın başlıca hissəsi cəmlənirdi və o, buna görə də ölkənin hökmran sinfini təmsil edirdi. Tacir bu rolu indiyə qədər, məhsulunun, onun istehsalına sərf olunan vəsaitlərin mübadiləsinin udduğu kapitalla müqayisədə nisbətən ucuz olan kənd istehsalçıları ilə münasibətdə oynayır. Buna görə öz məhsulunun yiyəsi belə istehsalçılar yox, onu uzaq bazarda satan tacirdir. Artıq kapitalın dövriyyə sahəsindən istehsal sferasına keçməsinin baş verdiyi istehsalın kapitalist üsulunda, «tacir kapitalı özünün əvvəlki müstəqil mövcudluğundan elə rola düşür ki, o zaman yalnız kapitalın ümumiyyətlə istifadə edilməsinin xüsusi momenti olur, və yalnız istehsal kapitalının agenti kimi fəaliyyət göstərir».[38] Ancaq bu istifadənin yekunu nemət-əmtəədir.

Təsərrüfatla məşğul olan və nemət istehsal edən insanın özünün mövcudluğu üçün lazım olandan daha çox nemət istehsal etmək imkanı var. Belə effektin olması bizə nemətlərin lazım olan kütləsini və nemətlərin əlavə kütləsini, uyğun olaraq lazım olan qiyməti (və onun kütləsini) əlavə qiymətdən ayırmaq imkanı verir. Pul artımının və ya mənfəət adlandırılmağı qəbul edilən mənbəyi elə lazım olanla yanaşı cəmiyyətdə istehsal olunan əlavə qiymətdir. Qiymətdə eyni əmtəə kütləsini istehsal edəndə, eləcə də eyni pul kütləsinin istifadəsi, həmçinin, onun agentlərinin ümumiyyətlə və bütövlükdə razı qaldığı bütün mübadilə-qiymətləndirmə prosesini həyata keçirməkdə möcüzə göstərmək – kapital fəaliyyətinin reallaşdırılması pulun üstünə pul gətirməkdir.[39]

Burda da ticarət kapitalının klassik anlayışda kapitala toxunmasının maraqlı momenti (anı) baş verir. Ticarət kapitalı nemət-əmtəələrin satılması ilə pul «istehsal» edir. Nemət-əmtəənin istehsalının özündə bu, pulun nemət-əmtəə istehsalına avanslaşdırmağın köməyi ilə baş verir ki, bu da pulun qeyri-pula çevrilməsi deməkdir, yəni istehsal vasitələrinə və ya muzdlu əməyə. Pulun qeyri-pula çevrilməsi faktına diqqət yetirmək lazımdır. Pul öz-özlüyündə artmır, onlar ancaq qeyri-pula çevrilərək artırlar. Və pulun artımı orada – qeyri-pul zonasında baş verir; yəni, nemət-əmtəənin istehsalında, qiymət istehsalında. Bu halda avans verilmiş pulun dəyəri olur. Nemət-əmtəənin istehsalı gedişində, istehsal edilmiş nemət-əmtəənin satılması vasitəsilə dünyaya gəlməli, yəni həqiqətən doğulmalı olan yeni dəyər (qiymət) meydana gəlir. Və əgər belə doğulma baş tutarsa, onda həm də artımın doğulması baş tutar, çünki doğulmuş $P^1$ avanslaşdırılmış və ölmüş P-dən çoxdur[40].

Bilavasitə nemət-əmtəə, dəyər və əlavə dəyər istehsalı ilə məşğul olan kapital məhsuldar kapitaldır. Bu, şərtsiz, cəmiyyətin təsərrüfat, həyat fəaliyyəti, iqtisadiyyatın gerçəkləşdirilməsi və ümumiyyətlə, kapitalın fəaliyyət göstərməsi nöqteyi-nəzərindən ən başlıca kapitaldır. Məhsuldar kapital insan üçün daha lazımlı nemətlərin istehsalına nə qədər yaxındırsa o, ümumi təkrar istehsalda əhəmiyyətlidir. Əlbəttə bu heç də o demək deyil ki, kapital hər zaman və hər yerdə daha çox mənfəətlidir. Kapitalın mənfəətliliyi çoxsaylı şərtlərdən asılıdır, bunların arasında ümumi təkrar istehsal (və hətta həyat üçün vacib) əhəmiyyəti gəribə olsa da birinci yerdə deyil. Prinsipcə hər-hansı nemət əmtəənin istehsalına qadir hər cür kapital (vacib deyil hansı şeyləri – əşyanı, xidmətləri, biliyi, məlumatı, ideyaları, qondarmaları, boşluqları) məhsuldar kapitaldır. Bu halda ticarət də kapitaldır, belə ki, nemət-əmtəə ilə birlikdə mənfəət və ya pul istehsal edir.

Qeyd etmək lazımdır ki, mənfəət yaradılmır, yalnız əmtəənin satılması ilə gerçəkləşir. Bu, əmtəə qiymətinin fabriklərda qoyulduğu za-

man inkişaf etmiş kapitalist münasibətləri üçün doğrudur. Ancaq harda ticarət, əmtəə istehsalçıları və xırda istehsalçılar arasında vastəçi rolunu oynayır, faktıki olaraq o, əmtəənin qiymətini təyin edir və mənfəət normasının yüksəkliyini qoyur. «Əvvəlcə, az və ya çox əmtəənin dəyərinə görə qiyməti təyin edən kapital ticarət kapitalıdır və ilk dəfə mənfəətin ümumi norması əmələ gələn həmin sfera təkrar istehsal prosesinə xidmət edən dövriyyə sferasıdır. İbtidaidə ticarət mənfəəti sənaye mənfəətini təyin edir. Yalnız istehsalın kapitalist üsulu tətbiq ediləndən və istehsalçı özü tacir olandan sonra ticarət mənfəəti, ticarət kapitalının təkrar istehsalın ictimai prosesində məşğul olan hissəsinə düşən bütün əlavə dəyərin belə müvafiq hissəsinə çevrilir».[41]

Kapital – hər münasibətdə nəzərəçarpan fenomendir. Kapital - işləyən və qeyri-pula çevrilən puldur, bu axırıncı, məhsuldar təşkiledicidir. Lakin bu da hələ hamısı deyil, bu pulun ictimai kütləsinin nemət-əmtəənin əlavə kütləsinə müvafiq olan hissəsindən götürülən pul gətirən puldur. Bu da heç hamısı deyil: Kapital özünə praktiki olaraq sonsuz genişlənmə və ya yığılma imkanını yaradır, bununla yanaşı həm də nemət-əmtəənin istehsalını, təsərrüfatın özünü genişləndirir. Prinsipcə kapital üçün hansı istehsalı idarə etmək, nə istehsal etmək, hansı miqdarda, nə qədər istehsal vasitəsi və əmək məşğul etməyin fərqi yoxdur, ancaq aydındır ki, kapital müəyyən daxili (məhsuldarlığın və effektivliyin həddləri) və xarici (nemət-əmtəələrin satış həddəlri) məhdudiyyətlərlə toqquşur ki, bu da nisbi kapital xərclərində (avanslaşdırılmış pullar) və ya adətən belə deyilməsi qəbul olunmuş istehsal gecikmələrinin (Maneələrinin) artımında (maya dəyərində) və tərsinə, mənfəətin ölçülərinin qısaldılmasında, bu daxili planda və satış həcminin azalmasında və ya tələbatın sıxılmasında öz əksini tapır ki, bu da gəlirliliyin (pul axınının) və mənfəətin aşağı düşməsinə aparır.

Ancaq kapital maneələri (ləngimələri) qısaltmağa, mənfəəti artırmağa, məhsulu diferensiallaşdırmağa, təsərrüfatı və istehsalatı diversifikasiya etməyə, nemət-əmtəələr istehsal etməyə, yeni və geniş tələbat yaratmağa imkan verən texniki təkmilləşdirmə və ümumiyyətlə texnika və istehsalatın köməyi ilə bu məhdudiyyətləri aşmaq imkanını tapmasa idi, bu qədər diqqətçəkən olmazdı. Yekunda, kapitalizmdə istehsal inkişafa doğru tamamilə inadkar tendensiyaya malikdir, buna müvafiq isə kapital da artır.[42] Təsərrüfat bütövlükdə böyüyür, rifah da artır. Təsərrüfatla birgə, özünün ticarət kapitalını yaradaraq ticarət də artır.

Sənaye kapitalı istehsalı yaxşılaşdırmaqla öz mənfəətini artırır, ticarət kapitalı üçün isə mübadilənin yaxşılaşdırılmasından əlavə mənfəətin yüksəldilməsi onun prosesinin sürətləndirilməsi, kapitalın dövretmə vaxtının qısaldılması ilə mümkündür. Tamamilə aydındır ki, kapitalın dövret-

mə müddəti nə qədər qısa olsa, onun verdiyi mənfəət də o qədər artıq ola bilər. Belə ki, ticarət kapitalları arasındakı rəqabət iş adamlarını müvafiq olaraq qiymətlərin aşağı salınmasına məcbur etmir. Əgər ticarətçinin kapitalı ildə dörd dəfə dövr edirsə, onda onun bir və ya iki dəfə dövrü zamanı gətirdiyi mənfəətdən çox olar. Nə qədər ki, rəqabətin təsiri altında qiymətlərin bərabərləşdirilməsi prosesi baş verir, ticarət kapitalı izafi mənfəət əldə edir. Onun, imkan daxilində, dövretmə prosesinin sürətləndirilməsinə canatması da buradan irəli gəlir.

Kapital – əməkdir, amma daha çox bu mübadilə və ticarətdir. Ticarətsiz dəyər ola bilmədiyi kimi, kapital da yoxdur və ola da bilməz, çünki, dəyərin və kapitalın istehsalı ola bilməz. Lakin ticarət kapitalı yox, tərsinə, kapital ticarəti təyin edir. Əvvəlcə ticarət prosesini təmin etdiyinə baxmayaraq, kapital ticarətə yox, ticarət proses kimi kapitala xidmət edir. Kapital ticarətdə bir o qədər yox, ticarət kapitaldadır. Ticarət kapitaldan azad deyil, birbaşa ondan asılılıqdadır – daha zəif əks asılılıqda. Kapital ticarətdən bütövlükdə istifadə edir, bu gün isə – həm də dünya miqyasında.

Kapital və ticarətin qarşılıqlı əlaqəsi ticarət fenomeninin fəlsəfəsi analizi problemini aktuallaşdırır. Qloballaşmanın müasir şəraitində iqtisadçılıq üstün qüvvəyə çevrilir – ticarət isə onun vacib tərkib hissəsidir. Bu halda ticarəti onun fəlsəfi kontekstində nə gözləyir?

## 6. «TİCARƏT NƏZƏRİYYƏSİ» NİN PERSPEKTİVLƏRİ

Qloballaşma fenomeni müasir dünya ilə sərbəst insan şəxsiyyəti arasındakı strateji konsensusu pozdu, nəticədə ticarətin qoşulduğu iqtisadi təcrübənin əvvəlki formaları miqyaslı sistemli böhran təhlükəsi ilə üz-üzə qaldı. Onun hücumu iqtisadi nəzəriyyənin həyat konkretliyinə məqsədəuyğun rasonallıqla yaxınlaşmanın astraktlığını qaytara bilən başqa kontekstdə öyrənilməsini qarşıya qoyur.

Ticarət nəzəriyyəsi bu problemin həllinə iqtisadi nəzəriyyənin metodologiyası çərçivəsində yanaşır. Onun mövqeyindən insanın və onun həyatının qlobal sualları həll edilir, iqtisadiyyat niyə və nə məqsədlə, necə və hansı nəticələrlə reallaşdırılır və hər şeydən əvvəl təsərrüfat necə bir insan təsərrüfatı kimi? İnsan onun üzərinə düşən təsərrüfatçılıq edən subyekt, yaradıcı rolunu necə yerinə yetirir? Təsərrüfat fəlsəfəsi – miqyaslı və qeyri-məhdud bilikdir.

Ticarət nəzəriyyəsi də belə bilikdəndir. Ticarətçi subyekt – yaradıcısıdır. Eyni zamandaiqtisadçı nəzəriyyəsinin nöqteyi-nəzərindən ticarət fəaliyyəti başlıca olaraq rasional xarakter daşıya bilər və ticarət subyekti

(ticarət iş adamı, tacir və s.) hesablaşması, layihələndirməyi və etməyi bacarmalıdır. Bununla yanaşı, ticarət nəzəriyyə nöqteyi-nəzərindən – bu təkcə iqtisadi varlığın təsərrüfat reallığının tərkib elementi yox, həm də həyatın, varlığın üzvi momentidir (anıdır). Ticarət nəzəriyyəsi mövqeyindən ticarət fəaliyyəti subyekti – həm saymağına, həm də hesablamağına baxmayaraq, Sayma-hesablama qurğusu deyil. İlk növbədə isə o, özünün bütün qüvvəsi və ehtirasları ilə, özünün bütün coşqu və zəifliyi ilə, özünün bütün işləri ilə sirrləri ilə, özünün bütün arzu və qəribəliyi ilə insandır. Bunun təsirindən ticarət edən Adam ona xas olan məzmunla bütöv dünyadır. Və ticarət buna görə – təkcə parsional qərar və hərəkətlər sferası deyil. Elə belə quraşdırıla bilən mexanizm deyil, elə-belə modelləşdirilə bilən sistem deyil, elə-belə riyazi təsvir oluna bilən təzahür deyil. Və əgər bu ticarət mübadiləsi ticarət sazişidirsə, bu iqtisadi nəzəriyyədə təqdim edildiyi kimi hər hansı istifadəçi nemət xətrinə yox, həyatın, bütövlükdə varlığın istehsalıdır.[43]

İnsanın həyat fəaliyyətinin, onun dünyadakı vəziyyəti, sosial və mənəvi varlığının bütün aspektləri və tərəfləri ticarət nəzəriyyəsi üçün maraq kəsb edir. Sintetik, ümumiləşdirilmiş görüntülü bilik kimi ticarət nəzəriyyəsi iqtisadi nəzəriyyə kontekstində yalnız adamlar arasındakı münasibətlərdə ən müxtəlif sahələr ayırır – idarəetmə, mənəvi, psixoloji, sosial, demoqrafik, etnik və s. Cəmiyyət və insan çərçivəsindən çıxmaqla isə – ekoloji, geo-siyasi, landşaft və digər.[44] Ticarət nəzəriyyəsini təyin etmək çox çətindir, demək olar ki, mümkün deyil, ona ancaq yaxınlaşmaq olar. O, sonrakı işləmələr üçün açıqdır və konstruktiv başa çatdırılana iddialı deyil. Bundan başqa ticarət nəzəriyyəsi – özünə elmi, fəlsəfəni, dini, adi bilikləri götürən ifrat bütöv bilikdir və hətta bütövlüyün özünü əks etdirəndir.Buna görə ticarət nəzəriyyəsini təkcə təfəkkürlə yox, onu yaşamaqla başa düşmək olar. Beləliklə, rasional olanla yanaşı böyük rol *irratsionallığa* məxsusdur. Buradan transtsendentlik, irreallıq, intuitivlik və digər oxşar xarakteristikalar aydındır.

Ticarət nəzəriyəsi «ictimai varlığın əksi» kimi və ya daha ümumi iqtisadi qanunlar haqqında elm kimi təyin olunmur. O, iqtisadiyyatla və onun qanunları ilə bağlıdır, lakin o, insan və təbiətin, insan və mədəniyyətin, insan və insanın münasibətlərinin qlobal aspektlərini tədqiq edir. Özünüdərkdən məhrum edilmiş ticarət nəzəriyyəsi predmetini itirir, formal-riyazi prinsiplər üzərində qurulmuş iqtisadi nəzəriyyəyə çevrilir. O. məxsusi mənbələrini itirir və öyrənən subyektin xarici əksolmalarında obyektiv təsərrüfat proseslərində ixtisaslaşır.[45] Bununla o, insan haqqında onun iqtisadi, təsərrüfat həyatının tam bütövlüyün, əhatəliliyin sintetik təsəvvürünün yaradılmasından ibarət olan məqsədlərini itirir. Çoxölçülü

təsəvvür isə ancaq obyektiv ola bilməz. Elmi-obyektiv təcrübə bəzi proseslərin, məsələn, irratsionallığın başa düşülməsində məhduddur. Ticarət nəzəriyyəsinin ticarətin bütöv kimi baxılmasına canatması onunla bağlıdır ki, bütün mövcud olanlar (varlıqlar) konkret ticarət-təsərrüfat təzahürləri aləmi yalnız fraqmentdir, buna onun reallığını tamamlayan düşüncələr lazımdır.[46] Ticarət nəzəriyyəsi, dərketmənin çoxölçülülüyünü nəzərə almaqla ratsional və irrasionallığın eyniliyi və müxtəlifliyi, iqtisadi aləmə tamamlanmış kimi baxmaqla onun bütövlüyünü axtarmağı tələb edir. Bu L.Altyusserin mülahizələrini xatırladır, tarixi (sosial) hadisələrin deferminasiyası həmişə çoxfaktorludur və vahid son səbəbə gətirilə bilmir. Buna görə mahiyyətlərin axtarışı praktiki əhəmiyyət kəsb etmir və məqsəd həqiqəti müəyyən şüurlu surətdə keçilmiş başlanğıc nöqteyi-nəzərindən dərk etmədədir.

*«Qəbul etməliyik ki, ticarət mənfəəti əlavə dəyərin hissəsidir, daha doğrusu iş adamlarının ümumi mənfəətinin hissəsidir. Ticarət kapitalı əlavə dəyərin bölgüsündə sənaye kapitalı ilə eyni dərəcədə iştirak edir. Çünki o, sənayeçiyə sonrakı istehsal üçün kapital, onun əmtəəsinin satılması və qoyduğu kapitalın reallaşmasından əvvəl təqdim edərək birbaşa olmasa da dolayı olaraq istehsalda iştirak edir».*

İ.F.Şerr

Metodoloji diskurs öyrənilən obyekti həmişə konkretləşdirir. Bu tamamilə bu və ya digər xüsusi elmi problemdə öz təsdiqini tapıb. Lakin söhbət ticarət kimi qlobal məvhumdan gedirsə bu bir başqa işdir. O, özünün sonsuzluğunda metodoloji determinasiyalara tabe olmayan möhtəşəm dünyadır, kosmosdur. Ticarət – «öz-özlüyündə – tamamilə ideal dünya, bu dəyər adlandırılması qəbul edilən ideal substansiyalar dünyasıdır, hər yerdə və hər şeydə olan, həmin kapitallarda və qiymətli kağızlarda olduğu kimi eyni zamanda pulda və qiymətlərdə olan həmin dəyər ki»[47] iqtisadi aləmin hissəsidir. Dəyərin substansiyası adamların münasibətlərindən irəli gəlir və iqtisadi və heç də az dərəcədə olmayan ticarət məlumatını seçən, emal edən və bölüşdürən şüurundan keçərək reallaşır. O da hər şeyi iqtisadi olaraq həll edir – iqtisadi və ticarət subyektlərindən, onların həlli və fəaliyyətindən, onların ticari – iqtisadi davranışından keçməklə. Ticarət aləmi iqtisadi aləm kimi – «ideal elementlər və parametrlər aləmidir» (Y.Osipov).

Bu planda ticarət aləmi «sadəcə» iqtisadi biliklərlə əlçatan ola bilməz. İqtisadiyyat «təsərrüfat həyatının, insanlar tərəfindən ideal dəyər mexanizminin köməyi ilə əvə çərçivəsində, onu elə bil ki, bürüyən, təkcə bütövlükdə real təsərrüfat fəzasını əhatə edənə yox, ierarxiya üzrə

qurulmuş, yəni təkcə horizontal üzrə yox, həcm üzrə, vertikal üzrə və vektorlar üzrə, yalnız təkcə aşağı hesablaşma hakimiyyətini deyil, həm də yuxarı hesablaşma hakimiyyətini həyata keçirən hesablaşmanın xüsusi növünə gətirən xüsusi növ təşkilatdır».[48] Standartların bu mürəkkəb aləmində emprik tədqiqatların istifadə olunmasının tərəfdarları bu gün azdır, lakin onlar iqtisadçıların nəzərə çarpan hissəsi üçün diqqətini cəlb etməkdədir. Bu keçidin dayağı elmin elm olduğu kimi dərk etmək üçün nəzərdə tutulduğuna alimlərin inamı, faktlara qəti riayət olunmasına can atmaq olub və özünə lazım olan kontekstdə, iqtisadi reallıq aləminin öyrənilməsi məqsədini öz qarşısına qoymuşdur.

Şübhə doğurmur ki, ticarət nəzəriyyəsi alimlərin – iqtisadçıların, sosioloqların, filosofların professional mühitdə kəskin nəzəri diskussiyalar meydanı olaraq qalır. Heç olmasa ona görə ki, təklif olunan predmet və tədqiqat metodları iqtisadiyyatın konkret – praktiki (təcrübi) elm və nəzəriyyə – ilk növbədə dünyagörüş bilikləri kimi bölünməsinə əsaslanan ənənəvi yanaşmalar çərçivəsindən uzaqlara çıxır. Alim – iqtisadçılar arasında (mühitində) ticarət nəzəriyyəsinin ideya və prinsiplərinin yayılması, yaradıcı tətbiqi, kultivasiya olunması iqtisadi biliklərin sonrakı inkişafını prioritet və məhsuldar istiqaməti olacaq.

İqtisadi sahədə metodoloji tədqiqatın miqyas və dərinliyinin mütəmadi inkişafı iqtisadi elmin təkcə diferensiasiyasını yox, həm də ixtisaslaşmasını, mürəkkəbliyə doğru tendensiyasını və hətta iqtisadi biliyin fraqmentləşməsini təyin etdi. «Elmdaxili kommunikasiya mexanizmlərini dəstəkləyən, müxtəlif ixtisaslaşma və elmi istiqamətlərin iqtisadçıları arasında qarşılıqlı anlaşmanı təmin edən»[4] iqtisadi biliyin elə elementlərinin və elmi icma institutlarının möhkəmləndirilməsinə real tələbat yaranır. Ticarət nəzəriyyəsinin yaranması iqtisadi reallığın mənzərəsinin qurulmasının prinsipcə yeni yanaşmasını irəli sürür.

## ƏDƏBİYYAT

[1] Самсин А.И. Основы философии экономики. – М., 2003. – С. 49.
[2] Железнов В. Очерки политической экономики. – М., 1908. – С. 527.
[3] Ушанков В.А. Глобализация – категория нравственная // Философия хозяйства. – 2004. - № 3 (33.)- С. 58.
[4] Yenə orada. – S. 59.
[5] Железнов В. Очерки политической экономики. – С. 530.
[6] Yenə orada. – S. 532.
[7] Булгаков С.Н. Философия хозяйства. – М., 1990. – С.14.

[8] Yenə orada.
[9] Yenə orada.
[10] Осипов Ю.М. Философия хозяйства. – М., 2001. – С.16
[11] Шерр И.Ф. Учение о торговле. – М., 1925. – С.24
[12] Yenə orada. – S. 25
[13] Осипов Ю.М. Философия хозяйства. – С. 37-38
[14] Шерр И.Ф. Учение о торговле. – С.28
[15] Yenə orada. – S. 30
[16] Булгаков С.Н. Философия хозяйства. – С.15.
[17] Yenə orada. – S. 33
[18] Шерр И.Ф. Учение о торговле. – С. 31.
[19] Осипов Ю.М. Экономика в лучах философии хозяйства // Философия хозяйства. – 2003. - № 1 (26). – С. 39.
[20] Калинин Э., Чуркова Е. Концепция постклассической экономической рациональности // Вопросы философии. – 1998. - №5. – С. 68-69.
[21] Погребняк А.А. О тематическом горизонте современной философии хозяйства // Философия хозяйства. – 2001. - №5 (17). – С. 52.
[22] Самсин А.И. Основы философии экономики. – С. 10-11.
[23] Осипов Ю.М. Филосовия хозяйства. – С. 43.
[24] Yenə orada. – S. 149.
[25] Мясникова Л.А. Экономика постмодерна и отношения собственности // Вопросы философии. – 2002. - №7. - С.5.
[26] Миронов В.В. Трансформации философии в эпоху глобализации // Философия хозяйства. – 2002. - № 24(22). – С.161-162.
[27] Ананьин О.И. Экономическая наука в зеркале методологии // Вопросы философии. – 1999. - №10. – С.143.
[28] Осипов Ю.М. Философия хозяйства. – С.31.
[29] Yenə orada.
[30] Осипов Ю.М. Экономика в лучах философии хозяйства. – С.39.
[31] Ананьин О.И. Экономическая наука в зеркале методологии. – С.148.
[32] Шерр И.Ф. Учение о торговле. – С.6.
[33] Осипов Ю.М. Философия хозяйства. – С. 157.
[34] Yenə orada. – S. 172
[35] Маркс К. Капитал. – Т.Ш. – М., 1965. – С. 314.
[36] Yenə orada. – S. 316
[37] Осипов Ю.М. Философия хозяйства. – С.159.
[38] Маркс К. Капитал. – Т.Ш. – С.311.
[39] Осипов Ю.М. Философия хозяйства. – С. 160.
[40] Yenə orada. – S. 161.
[41] Маркс К. Капитал. – Т.Ш. – С.270.

[42] Осипов Ю.М. Философия хозяйства. – С. 164.
[43] Yenə orada. – S. 82.
[44] Yenə orada. – S. 20.
[45] Тутов А.А. В поисках смысла в философии хозяйства // Философия хозяйства. – 2002. - № 1(19). – С. 145.
[46] Yenə orada.
[47] Осипов Ю.М. Что есть экономика вообще и что она есть сегодня// Философия хозяйства. – 2004. - № 3(33). – С. 89.
[48] Yenə orada. – S. 98
[49] Ананьин О.И. Экономическая наука в зеркале методологии. – С. 148.

# TİCARƏTİN NƏZƏRİ ƏSASLARI

*«Ticarət mərkəzlərinin, dövlətin mənfəət güdülsə də, müdafiəsi altında tam gətirib yaşaması yazılmış tarixin əksər hissəsi ərzində iqtisadiyyatın təşkilinin adi formasıidi».*

C.Xiks

*İqtisadi nəzəriyyə təsərrüfat həyatının hadisələrini bütövlükdə, yəni zaman və məkanda bir-birinə mübadilə ilə bağlanan təsərrüfat vahidlərinin məcmu kimi öyrənir. Ticarət haqqında təlim özəl təsərrüfat haqqında nəzəriyyədir, lakin o, bütövlükdə təsərrüfat həyatından ayrıla bilməz. Beləliklə, ticarət haqqında təlim iqtisadi nəzəriyyə ilə əlaqədardır. Bunlar bütün iqtisadi həyat haqqında vahid ümumi elmin tərkib hissələrini təşkil edir. Özəl təsərrüfat kimi ticarət nəzəriyyəsi ilə iqtisadi nəzəriyyə arasında fərq qoyulması müəyyən tədqiqat sahəsi çərçivəsində xüsusi sahənin kəmiyyətcə ayrılması işidir, yəni çox böyük tədqiqat sahəsi daxilində əmək bölgüsü məsələsidir. Ticarət haqqında təlimin nisbi müstəqilliyi tələbi bu təlimi daha yüksək dərketmə səviyyəsinə qaldırmaqdan ibarətdir. Ticarət nəzəriyyəsi nəinki tədqiqat sahəsini genişləndirir, həm də istər yeni material cəlb etməklə, istərsə də yeni tədqiqat metodlarını tətbiq etməklə «ticarət fəlsəfəsi»nin inkişafına kömək göstərir. «Ticarət fəlsəfəsi» öz problemlərinin daha dərindən öyrənilməsi üçün iqtisadi elmin nailiyyət və nəticələrindən faydalanaraq onları daha da inkişaf etdirir. Ticarət haqqında təlimin məna və təyinatı nədən ibarətdir?*

## 1. TİCARƏTİN ƏSAS TƏRİFLƏRİ

Hər insanın həyatı fasiləsiz təkrarlanan və yenidən yaranan tələblərdən, onların ödənilməsindən ibarətdir. Maddələr mübadiləsindən və buna əsaslanan həyat funksiyalarından qidaya tələbat yaranır, həyat və sağlamlığımızın qorunması üçün biz geyim və mənzilə ehtiyac duyuruq. Həmin adi həyati tələblərlə zinət,bəzək, ləzzət tələbləri birləşir; başqalarına qarşı münasibət və vəzifələrdən ictimai tələblər törənir, bunlar bizi ictimaiyyət və ədəb qaydaları ilə yükləndirir. İnsanların tərbiyəsi və bütün mədəniyyət sonsuz inkişaf qabiliyyətli mənəvi tələbat doğurur. Ümumiyyətlə, insanların bütün tələbatı nəinki hüdudsuz olaraq arta və genişlənə, həm də müəyyən məhdudiyyətlərə məruz qala bilər. Ahənglə ya yüksələn, ya enən xətt üzrə inkişaf edən bu tələblərin öyrənilməsi şübhəsiz ki, müasir iqtisadçının ümdə vəzifələrindəndir, çünki təsərrüfat sahəsində və iqtisadi həyatda baş verən dəyişikliklər bu məhz həmin tələblərdən asılıdır.

Tələbatın ödənilməsinə xidmət edən nə varsa, nemət adlanır. Təsərrüfatda nemət insan əməyi ilə əldə edilir. İnsan əməyi təbiət qüvvələrindən müvafiq surətdə istifadə edərək, materiyaya tələbatın ödənilməsinə xidmət göstərə bilən forma vermək üçün materiyanı dəyişməli, işləməli, yaxşılaşdırmalıdır. Tələbatın ödənilməsinə xidmət edən predmetlərin əldə olunmasına yönəldilmiş əməllərin cəmi istehsal adlanır. Əgər bu, məhsul istehsalı planauyğun surətdə, misal üçün, peşə köməyi ilə təşkil edilmişdirsə, təsərrüfata çevrilir. İstehsal, hasilat və tələbat insanın təsərrüfat həyatı ətrafında fırlanan qütblərdir.[1] Bununla birlikdə, insan məhsulları təkcə cari tələbatın ödənilməsi üçün deyil, həm də gələcək tələbatı nəzərdə tutaraq ehtiyatda kapital toplaması, saxlaması üçün əldə edir.

Burada əlavə etmək lazımdır ki, bilavasitə kapitalist müəssisələrindəki əməyin öz təbii funksiyası – kapitalistlərə nemətlər – malların, dəyərin və kapitalın özünün istehsalını (yaxud da cəmiyyətdə istehsal olunan dəyərin kapital üçün yenidən bölüşdürülməsini) təmin edərək, kapitala bir növ daxildən xidmət etmək funksiyası var. Müəssisədəki əmək təkcə kapital üçün bilavasitə məhsuldar əmək, onun varlığının birbaşa mənbəyi deyil, həm də ümumiyyətlə kapitalla əmək arasında «başlıca vasitəçi»dir, artıq dəyər deyil, kapitalla deyil, pul nasosu deyil, daha doğrusu, bütün lazımi əməyi, indiki, keçmiş və hətta gələcək əməyi, maddiləşmiş və virtual əməyi kapitalın orbitinə çəkən əmək nasosudur. Kapitalın əməyə məsrəfləri (avans

verilmiş pullar) sərf edilmiş pulların dövriyyə qabiliyyətinin özü kimi birinci məsələ, müəssisə işçilərinin əməyi ikinci məsələ, ümumiyyətlə kapitalın istifadə etdiyi əmək isə üçüncü məsələdir. Kapital və əmək varlığının daha dürüst mənzərəsini təsəvvür etmək üçün bu üç amil arasında fərq qoymaq çox faydalıdır.[2]

Əmək və kapital problemini doğuran ictimai təsərrüfatdan savayı eyniyyət təşkil etməyən, lakin ictimai həyat formaları olan «ayrıca təsərrüfat» və ailə nəzərdən keçirilməlidir. Ayrıca təsərrüfatın bəzi funksiyalarının ictimai məzmunla dolduğuna görə ictimai təsərrüfat ayrıca ailə təsərrüfatına və ya ayrıca ev təsərrüfatına qarşı durur. Dövlət və icma təsərrüfatı istehsal edən təsərrüfat adlandırılan ayrıca təsərrüfata rəğmən çox zaman istehlak edən təsərrüfat adlandırırlar. Lakin hər iki anlayış arasında hədd son zamanlar pozulmuşdur; axı, icma və ya dövlət təsərrüfatı xarakterli müəssisəni istehsal edən təsərrüfat (qaz təminatı, poçt, dövlət dəmir yolları, dövlət bankları və s.) adlandırmağın mümkün olduğu kimi eyni hüquqla istehlakçılar cəmiyyətini də istehlak edən təsərrüfat adlandırmaq olar. İstehsal edən təsərrüfat öz ehtiyacı üçün məhsul istehsalı ilə yalnız cüzi dərəcədə məşğuldur, çünki məhz təsərrüfat məhsulları istehsalında əmək bölgüsü güclü inkişaf etmişdir. Əmək bölgüsü təbii (ailədə kişi və qadın), peşə (müxtəlif məşğuliyyət növləri), süni (fabrikdə əmək bölgüsü və proseslərin ardıcıllığı) və nəhayət, beynəlxalq (əkinçilik və sənaye dövlətləri, cənub və şimal ölkələri) xarakterli olur.[3]

> *«Ticarət var ki, fərdidir, elementlidir, yəni ayrıca insan, sosial özək, kooperativləşmiş birlik tərəfindən aparılır, təsərrüfatçılıq da var ki, ictimaidir, məcmudur, bütövdür, yəni bu və ya başqa şəkildə bütövlükdə cəmiyyət tərəfindən ictimai prosesin özü kimi həyata keçirilən ticarətdir. Ticarət fəaliyyətinin birinci dərəcəsinin subyektivliyi göz qabağındadır, onu həyata keçirən subyektə – insana, icmaya, birliyə aiddir; ticarətin ikinci dərəcəsinin subyektivliyi o qədər də aydın deyil, çünki cəmiyyət subyekt kimi ifadə tapmamış ayrı cür subyektdir. Lakin cəmiyyətin subyektivliyi birbaşa mövcud olmamaqla vasitəli şəkildə təzahür edir».*
>
> Y.M.Osipov

Əmək bölgüsü təsərrüfat həyatı üçün maneəsiz əhəmiyyətə malikdir: məhz burada biz onun yalnız məhsul mübadiləsi ilə bağlı əhəmiyyətini göstərəcəyik.

Hər şeydən əvvəl söhbət əmək bölgüsü nəticəsində sənaye fəaliyyətində hədd qoymaqdan gedir ki, bu da özəl və ictimai, eyni vaxtlı və eyni mənalı hadisə kimi kapital yaranmasına aparıb çıxarır. «Necə ki, özəl mikrotəsərrüfatlar (mikrotəsərrüfatçılıq) mövcuddur, eləcə də özəl kapital və ictimai kapital mövcuddur. Özəl kapital və ictimai kapital eyni şeydir, amma əlbəttə, tam eyniyyət təşkil etmir, çünki özəl özəlliyindədir, ictimai isə ictimailiyində. Bəlkə də belə demək daha yaxşı olardı ki, özəl kapital və ictimai kapital ümumiyyətlə kapitalın qarşılıqlı surətdə şərtləndirilmiş, ayrılmaz təcəssümü, müəyyən mənada ümumiyyətlə onun iki təzahürüdür. İctimai kapital özəl kapitalların cəmidir. Lakin təkcə bununla iş bitmir, o həm də hansısa vahid bütövlükdür, obyektiv reallaşan özünəməxsus təsərrüfat subyekti, yəni subyekt-prosesdir. Özəl kapitallar sadəcə olaraq ictimai kapitalın vahidləri, elementləri, tərkib hissələri deyil, həm də ictimai xarakterli iştirakçı şəxslərdir. Məhz ictimai xarakterli, çünki qeyri-ictimai xarakterli ola da bilməzlər. Özəllik əlbəttə, ictimaiyyətdən ayırır, amma sonuncunu tamamilə kənara atmır, çünki ictimaiyyət özü də nə təhərsə özəllikdən ayrılaraq, özəlliyi heç də tamamilə inkar etmir. Bu da, o da bir yerdədir, ancaq fərqlidir, bu da, o da fərqlidir, ancaq bir yerdədir. Özəlliyin öz ictimaiyyəti, ictimaiyyətin öz özəlliyi var. Yekunda isə ümumiyyətlə kapital mövcuddur».[4]

İctimai kapital öz təsvir dairəsini genişləndirir, istehsal və istehlakı, ehtiyatları və tələbatı, zaman və məkanda fərqləndirir ki, bu da sənaye fəaliyyəti, ticarət və nəqliyyat üçün yeni imkanlar açır. İstər məhsulların hasil olunması, istərsə də emalı, mübadiləsi və istifadəyə hazırlanması üçün müxtəlif insan xidmətləri lazımdır. Daha sonra mənəvi tələblərin ödənilməsinə yönəldilmiş çoxcəhətli fəaliyyət nəzərdə tutulmalıdır. Bu tərbiyə, elm, incəsənət, dövlət idarəetmə və s. sahələridir. Xidmətlərin inkişafı ticarətin inkişafını gücləndirir. Axı məhsulların istehsalı mallar (nemətlər, məhsullar) istehsalçıdan istehlakçıya çatdırıldıqda məqsədinə nail olur. Dəyər istehsal fəaliyyəti inkişafının əsas müəyyənləşdiricisidir. Y.M.Osipov bunu başa düşməyin çox vacib olduğunu belə vurğulayır: «Dəyər guya mövcud olmayan və dərhal əlüstü hazır olan, guya susan və boğazdan yuxarı (öz dilində və əlbəttə, öz səsi ilə) danışan, guya bitərəf olan, amma həm də inanılmaz dərəcədə fəal və kəsərli olan eyni təbiət hadisəsidir. Ətrafda nə varsa, dəyərə bürünür, hər şey kapitalın nəzarətindədir, hər şey dəyərə və kapitala xidmət edir, hər şey onlar tərəfindən idarə olunur. Axı

kapital təsərrüfatında (yəni kapitallaşdırılmış, kapitala çevrilmiş təsərrüfatda) kapitalın özü ən birinci məhsuldar qüvvədir. Məhz kapital qüvvədir, daha sonra nə qalırsa, o da qüvvədir. Kapitala və ya onun fəaliyyət orbitinə daxil olan hər şey də kapitala çevrilir».[5] Biz deyərdik ki, müəyyən mənada sənaye kapitalının, məhsuldar kapitalın sələfi və törəməsi olan ticarət kapitalına çevrilir.

İstehsal (məhsuldar) fəaliyyəti nəticəsində hər bir təsərrüfat məhsulu həm də yaradılmasında nəinki müxtəlif şəxslərin, eləcə də daha çox ölkənin və hətta neçə-neçə əsrin iştirak etdiyi ictimai məhsuldur. Heç bir təsərrüfat subyekti həyati tələbatının ödənilməsi üçün lazım olan məhsulların hamısını tək özü istehsal edə bilməz. Lazım gəldikdə o, mübadiləyə əl atmalıdır. Buna görə də öz məhsullarını başqa təsərrüfat subyektlərinin məhsullarına dəyişdirməklə öz ehtiyaclarını ödəməyə çalışır. Bu məhsul mübadiləsini mümkünləşdirmək üçün müxtəlif vasitələr və orqanlar, hər şeydən əvvəl, ümumi mübadilə vasitəsi – pul, sonra qiymətin, yəni məhsulların pulla ifadə olunan mübadilə dəyərinin müəyyənləşdiyi ümumi mübadilə yeri – bazar və nəhayət, sənəti mübadilənin təşkilindən ibarət olan tacir lazımdır. Mübadilə üçün nəzərdə tutulan məhsul satlıq məhsula çevrilir. Bazarda ehtiyatlar və ehtiyaclar rastlaşır. Ehtiyatlar satış üçün təklif edilir və buna görə də təklifdə ifadə tapır, ehtiyaclar isə tələbdə ifadə edilir. Təklif və tələb qiyməti müəyyənləşdirir və əksinə, öz növbəsində qiymət də tələbə təsir göstərir. Bazar şəraitində sərbəst rəqabət yaranır və bunun nəticəsi olaraq (sərbəst mübarizə nəticəsində) qiymətlərin mövcud tələb və təklifə əsasən əks maraqları barışdıran orta səviyyəsi müəyyən olunur.

> *«Ticarət hər mala şər başqa mala müqayisədə cari qiymətini verir, belə çıxır ki, hər mal bütün başqa malların hansısa miqdarının ekvivalentidir, ona həmin malların girovu kimi baxıla bilər. Çörək təkcə şəraba deyil, çörək sahiblərinin ehtiyac duyduğu başqa predmetlərə, misal üçün, taxta-şalbana, gönə, yuna, pambığa və s. dəyişdirilir; bu, şəraba da, ayrılıqda hər hansı başqa mala da aiddir. Əgər çörəyin bir çəkisi altı pinta şərabın ekvivalentidirsə, bir qoyun isə çörəyin üç çəkisinin ekvivalentidirsə, həmin qoyun on səkkiz pinta şərabın ekvivalenti olacaq. Çörəyi olan, lakin şəraba ehtiyac duyan şəxs öz çörəyini çətinlik çəkmədən qoyuna, sonra həmin qoyunu ehtiyac duyduğu şəraba dəyişdirə bilər.»*
>
> A.R.Tyurqo

İstehsalçı və istehlakçı arasında qarşılıqlı münasibətləri nəzərə almaq vacibdir. Təsərrüfatçılıqla məşğul olan hər şəxs ikili mənada məhsul mü-

badiləsində və adi təsərrüfat xidmətlərində iştirak edir. O, məhsul və əməyini verir, bunların pulla ifadə tapıb əldə edilən – dəyəri müqabilində başqalarının məhsul və xidmətlərini alır. Həm də aydındır ki, o istehlakçı və deməli, alıcı ola bilər, çünki bundan əvvəl istehsalçı və deməli, istehlakçı və deməli, satıcı idi, daha dəqiq desək, o satdığı xidmətlərdən hasil etdiyi puldan daha böyük məbləğdə məhsul və xidmət ala bilməz. Lakin qarşılıqlı qiymətlər arasında bu tarazlıq müxtəlif səbəblərə görə pozulur. Əvvəla, ona görə ki, istehsalçı ilə istehlakçı arasında bazar və onun orqanları durur. Yuxarıda göstərildiyi kimi, bazar qiyməti heç də istehsal xərcləri və ya məhsulların istehlak dəyəri ilə deyil, təklif və tələblə, daha dəqiq desək, bu mürəkkəb anlayışa daxil olan satıcı və alıcıların sayı, tələb və təklif edilən malların miqdarı, satıcı və alıcı və satıcıların onlardan ötrü nəyin-malın və ya pulun (məhsulun qiymətinin) daha qiymətli olduğuna dair mülahizələri kimi amillərlə müəyyən edilir. İstehsalla istehlak arasında tarazlığın pozulmasının mövcud səbəbinin kökü bundadır ki, hər ayrıca təsərrüfat subyektinin mənfəəti iki hissədən: əvvəla, onun əməyinin məhsuldar mənfəət adlandıracağımız təsərrüfat nəticələrindən və ikincisi, başqasının sənətindən əldə edilən mənfəətdən, əlini ağdan qaraya vurmayan bəzi insanlara başqalarının haqq ödəməyindən nəsib olan renta mənfəətindən ibarətdir.[6]

Sərbəst bazar mövcud olduqda qiymət istehsal xərclərinin dəyəri ilə istehlak dəyəri arasında dəyişir, çünki bazar qiyməti istehsal xərclərindən xeyli müddət aşağı ola bilməz və heç bir istehsalçı uzun müddət zərərlə işləmək iqtidarında deyil. Eynilə qiymət də xeyli müddət istehlak dəyərini ötüb keçə bilməz, çünki qiymət alıcılıq qabiliyyətini üstələdikdə, habelə sərbəst bəhsləşmədə istehlakçılar yüksək gəlir nəticəsində istehsalı artırmağa çalışdıqlarına, beləliklə də təklif artdıqda qiymətin aşağı düşdüyünə görə istehlakçı ona lazım olan məhsullardan imtina etməlidir. Lakin bazar qiyməti istehsal dəyərindən aşağı endikdə və ya istehlak dəyərindən yuxarı qalxdıqda bazar böhranlı vəziyyətə düşür. Belə bazar çətinlikləri istehsalçılardan, yəni satıcılardan ötrü böhran vaxtı, böhrana həddən artıq istehsal və ya istehlakçı baxımından istehlakın yetərli səviyyəyə çatmaması, yəni alıcılıq qabiliyyətinin bəs etməməsi səbəb olduqda baş verir. Əks çətinlik bazarda qıtlıq, kifayət qədər mal çatdırılmaması, əlaqələrin kəsilməsi, idxalın azalması, sərhədlərin bağlanması, istehsalın məhdudlaşdırılması nəticəsində və ya başqa səbəblərə görə bazara gətirilən məhsulların miqdarı

bütünlükdə mövcud tələbatı ödəyə bilmədikdə, başqa sözlə, təklif zəiflədikdə, tələb isə daha vacib, gərgin və coşqun olduqda baş verir. Bu səbəblərdən sərbəst ticarət əksər mallar üçün yox olmaqla başlayır və bazar qiymətləri tənzimləmə funksiyasını itirir.

Bu, təsərrüfat həyatının vacibhadisəsinə gətirib çıxarır. Hər təsərrüfat məhsulunun yaranmasında üç amil: təbiət, əmək, kapital iştirak edir. Əgər ayrıca təsərrüfat subyektinin ixtiyarında məhsul istehsal üçün lazım olan hər üç amil yoxdursa, o, bunları başqala-rından borc və ya satın almağa məcbur olur. Məsələn, kəndli icarədar torpağa (təbiətə) görə renta, borc götürdüyü kapitala görə faiz, başqasının əməyinə görə isə əməkhaqqı ödəyir. Bütün bu hissələr ödənildikdən sonra ona qalan mənfəəti xalis gəlir saymaq olar. Lakin xalis gəlir də son anda üç hissəyə, yəni öz kapitalı üzərinə faizə, öz əməkhaqqına və sahibkarlıq gəliri adlanan qalığa bölünə bilər. Tamamilə belə münasibətlər təsərrüfatın bütün başqa sahələrində də: hasilat sənayesində, emal sənayesində, nəqliyyatda və xüsusilə ticarətdə mövcuddur. Axı tacir, xüsusən də pərakəndə mal satıcısı öz kontoruna, mağazasına və ticarət yerinə görə torpaq rentasının da daxil olduğu kirayə haqqı ödəyir. Ona kredit üzrə mal göndərənə satış qiyməti üzərinə hesablanan faiz, qulluqçularına isə əməkhaqqı ödəyir. Beləliklə, satıcı ümumi gəlirindən renta, faiz və əməkhaqqı ödəməlidir, qalan gəlir də üç hissəyə: öz kapitalı üzərinə faizlərə, öz əməyinə görə əməkhaqqına və sahibkarlıq gəlirinə parçalanır.

Əmtəə bazarı, kapital bazarı və əmək bazarı arasında müqayisə aparılmasının təhlili ticarətin mahiyyətinin aydınlaşdırılması üçün böyük əhəmiyyətə malikdir. Hər üç bazar üçün ümumi cəhət ondan ibarətdir ki, sərbəst rəqabət şəraitində qiymət əmtəə qiyməti, əməkhaqqı və faiz tələbin təklifə nisbəti ilə müəyyənləşdirilir. Təsərrüfat predmetlərinin istehsalından, yəni müəssisədən ötrü mal, əmək lazım olduğundan hər üç bazar bir-birindən sıx asılı vəziyyətdədir. Tələb və təklif çərçivəsində rəqabət nəticəsində baş verən qiymət dəyişikliklərinin həddi var. Əmtəə bazarında qiymət xeyli vaxt istehsal xərclərindən aşağı qala, habelə məhdudiyyətsiz olaraq aşağı düşə, eyni zamanda uzun müddətə və məhdudiyyətsiz olaraq bunlardan kənara çıxa bilməz. Əmək bazarında əməkhaqqının aşağı həddi yaşayış minimumu ilə, yuxarı həddi isə muzdlu əməklə istehsal edilmiş məhsulların tam bazar qiyməti ilə müəyyənləşir. Eynilə kapital bazarında da əgər borc faizi sahibkarın borc kapitalından əldə edə bildiyi sərfədən uzun

müddət daha yüksək səviyyədə qalırsa, tələbə son qoyulur. Borc faizini müəyyənləşdirmək çətindir, çünki təklifin asılı olduğu toplanmış pullar yalnız ikinci növbədə faiz yüksəkliyindən irəli gəlir. Əmək bazarında münasibətlər başqa xarakter daşıyır, çünki burada söhbət muzdlu əməklə yaşayan çoxlu şəxsin həyat şəraitindən gedir: odur ki, əmək bazarı sərbəst rəqabət (bazarın dövlət, icma və ya korporasiyalar tərəfindən təşkili, minimal əməkhaqqının müəyyən edilməsi, tarif dərəcələri və s.) təsirindən bütün üsullarla yaxa qurtarır.[7]

Hər üç bazarda ilk növbədə sənayeçi sahibkar tələb irəli sürür. O. əmtəə bazarında mal, əmək bazarında muzdlu fəhlə, pul bazarında investisiya axtarır, çünki istehsal üçün hər üç amilə ehtiyacı var. Beləliklə, bu müstəvidə sahibkardır. Lakin öz fəaliyyəti nəticəsində bazara yenidən hazır məhsul çatdırır, ya da istehsalçı kimi bazarda təkliflə çıxış edir. Burada bizim üçün heç bir əhəmiyyəti yoxdur ki, xammal bazarı və sənaye məhsulları bazarı müxtəlif təşkilatlarla işləyir: vacib odur ki, əvvəlki istehlakçı indi istehsalçı rolunda çıxış edir. Analoji münasibətlər əks tərəfdə, xammal və köməkçi material istehsalçılarında da mövcuddur.

Deyilənlərdən göründüyü kimi, hər hansı təsərrüfat subyekti ikili rol oynayır, daha doğrusu, hər istehsalçı eyni zamanda istehlakçı kimi də çıxış edir. Və ya hər kəs yalnız öz təsərrüfatçı əməyinə, yaxud da bazara gətirdiyi məhsullara görə aldığı pullarla ifadə edilmiş mübadilə vasitələrini aldığı dərəcədə istehlakçı kimi çıxış edə bilər. Buradan belə çıxır ki, məlum mənada həm də istehsalla istehlak arasında tarazlıqdan, amma, əlbəttə, bütövlükdə tam təsərrüfat baxımından, danışmaq olar. Bu tarazlıq tez-tez pozulur; əmtəə bazarında sahibkarın öz məhsuluna görə aldığı qiymətlər nə qədər yüksəkdirsə, muzdlu fəhlənin əməkhaqqı, borc kapitalı üzərinə hesablanan faizlər də bir o qədər yüksəkdir; başqa sözlə, ümumi mənfəət nə qədər yüksəkdirsə, bu üç qrupun alıcılıq qabiliyyəti, yəni istehlak qabiliyyəti də bir o qədər yüksəkdir. Amma istehlak qabiliyyəti artdıqca bazarın hər üçündə tələbin də, onunla birlikdə malların, əməyin və borc kapitalının qiymətinin də artdığına görə istehsalat bütövlükdə genişlənmək üçün impuls alır; belə vəziyyətdə istehsal istehlakı xüsusən yüksək qiymətlər ucbatından ötüb keçməyə başladığına görə kütlə öz istehlakını məhdudlaşdırmalıdır. Bu halda deyirlər ki, istehsal istehlak qabiliyyətini qabaqlamışdır; təklif tələbi ötüb keçir ki, bunun da nəticəsində qiymətlər aşağı düşməyə başlayır, əmtəə qiymətləri enəndə isə əmək və kapitalın

qiymətləri enməyə meyillənir; bazar məhsullarla həddər artıq dolur, istehlakçılar ehtiyaclarını məhdudlaşdırmalıdır. İstehsalçı baxımından belə vəziyyəti həddindən artıq istehsal, istehlakçı baxımından isə qeyri-kafi istehlak adlandırırlar. Yalnız ehtiyacların ödənilməsinin məhdudlaşdırılması nəticəsində alıcılıq qabiliyyəti bərpa edildikdə, istehsal isə əmtəə qiymətlərinin qeyri-rentabelliyinə görə azaldıqda, dövr etmə yenidən başlaya bilər.

## 2. TİCARƏT VASİTƏÇİLİYİ

Müvafiq vəziyyətə görə ticarət təşkilatının vasitəçiliyi zərurəti yaranır. Əmtəə bazarı və pul bazarı bir cəhətdən oxşardır ki, həm burada, həm orada nə istehsalçı, nə də istehlakçı öz məhsullarını bazara özləri çatdıra – bilavasitə bunları tələbə uyğun növlərdə və miqdarda, lazımi vaxtda və istənilən yerdə təklif edə bilmirlər. İstehlakçı və istehsalçı onların arasında duran müstəqil təşkilata müraciət etməyə məcburdurlar ki, sonuncu da istehsalçı ilə istehlakçı arasında məqsədəuyğun əlaqə yaradır. Vasitəçi kimi yeni təsərrüfat forması, ticarət və onun nümayəndəsi olan tacir çıxış edirlər. Ticarətin məqsədi bir tərəfdən, məhsululları istehsalçılardan bazara daşımaqdan, digər tərəfdən isə bazardan istehlakçılara çatdırmaqdan ibarətdir. Bu vəzifə vahid vəsiləsi tərəfindən yerinə yetirilə və müxtəlif hissələrə bölünə, buna görə də müxtəlif ticarət vasitəçiləri tərəfindən həyata keçirilə bilər.[8]

Ticarətin istehsalçı, istehlakçı və bazar arasında vasitəçilik edən vəsilə kimi meydana gəlməsi nəticəsində yeni münasibətlər yaranır. Onların aydınlaşdırılması üçün belə bir cəhəti əsas götürəcəyik ki, əgər tacirlərdən biri istehsalçı ilə bağlı orqandırsa, digəri istehlakçının xidmətlərinə müraciət edir. Hər iki tacir yalnız arxalarında duran istehsalçı ilə istehlakçının «uzadılmış əlləri» rolunu eyni dərəcədə oynayır. Beləliklə də həmin tərəfi bir-birindən yeganə maraqlar ziddiliyi ayırır ki, bu da satıcının ən yüksək qiymətə nail olmaq istədiyi halda alıcının ən aşağı qiymətə almağa çalışmasında ifadə tapır. Biri bazarda istehsalçını, digəri istehlakçını təmsil edir. Həqiqi bazar qiyməti hər iki tərəf arasında kompromiss olacaq və çox güman ki, tərəflərdən biri digərindən güclü çıxacaq və buna görə də müəyyən olunmuş qiymət tərəflərdən birinin, istehsalçının və ya istehlakçının marağına cavab verəcək. Lakin əgər tərəflər arasında sərbəst rəqabət mövcuddursa və bazarda böyük miqdarda həm satıcılar, həm də

alıcılar varsa, qiymət orta səviyyədə müəyyənləşəcək. Hər halda bazarda çıxış edən hər iki tacirin yalnız onların arxasında duran istehsalçının və istehlakçının «uzadılmış əlləri» olması güman edildikdə satıcı alıcıdan nə əldə edə bilirsə, hamısı istehsalçının xeyrinədir və əksinə, istehlakçı bazarda alıcının nail olacağı bütün sərflərin iştirakçısı çıxacaq.

Satıcı və alıcı onların arxasında duran istehsalçı və istehlakçıya tabe orqanlar deyil, artıq müstəqil tacirlər olduqda münasibətlər başqa cür qurulub. Bu vaxt maraqların iki yeni zidliyi yaranır. Bazarda satıcı kimi çıxış edən şəxs əvvəl istehsalçı üçün istehlakçı idi və buna görə məhsulları mümkün qədər aşağı qiymətə almağa çalışırdı, lakin o, bazarda əvvəlki mövqeyini dəyişərək satıcıya çevrilir; satıcı qiyməti nə qədər yuxarı qaldıra bilsə, gəliri də bir o qədər çox olar. Lakin alıcı da indi istehlakçıya zidd maraqlarla çıxış edir, çünki onun ticarətdən gəliri öz məhsuluna görə istehlakçıdan ala biləcək qiymətin nisbi bahalığından asılıdır. Buna görə də biz mübadilədə iştirak edən dörd şəxsin belə müqayisəsini aparırıq: əvvəlki vahid bazar indi üç bazara bölünür. İstehsal yerində istehsalçı ilə tacir arasında qiymət uğrunda mübarizə gedir.

> *«XVII yüzilliyin sonunda İngiltərədə qiymətli kağız ticarəti inkişaf etməyə başlayır. İlk vaxtlar bu, bir şəxsin adından digərinin adi və təsadüfi faiz və səhm köçürmələrindən ibarət idi. Lakin həmin işi əllərinə almış birja dəllallarının səyləri ilə müvafiq ticarət, bəlkə də heç vaxt doğruluq pərdəsi altında ortaya çıxmağa cəsarət etməyən intriqa, hiylə və fitnə görünməmiş bolluğu ilə seçilən ticarət yarandı. Kubok içində zər saxlayan dəllallar bütün birjanı oyuncaqlara çevirir, istədikləri kimi səhm qiymətlərini qaldırır və ya aşağı salırdılar, alıcı və satıcılar isə pullarını dələduz dəllalların şirin dilinə etibar etməyə hazır idilər. Qəfildən böyümüş ticarət hər bir yeniliyi müşayiət edən müvəffəqiyyətin şirinliyini dadandan sonra ondan yenidən qanundan kənarda duran, birja fırıldaqçılarını məşğul etmək üçün münasib alət olan hadisə törənir ki, bu barədə də (layihələr nəzərdə tutulur)söhbət aparıram. Beləliklə də birja sövdəsi xəyalçılığı tərbiyə etmişdir».*
>
> V.Zombart

Bu, tərkib hissələrinə bölünmə ticarətin başa düşülməsində böyük əhəmiyyətə malikdir. Burada, hər şeydən əvvəl, belə qənaətə gəlmək olar ki, dəyişdirilən məhsulun qiymətini artırmaq meyili üç dəfə, yəni bir dəfə bir tacir tərəfin-

dən digər tacirə qarşı və nəhayət, sonuncu tərəfindən istehlakçıya qarşı təzahür edir. Qiymət artırmaqla bu meyilə əks üçlü meyil qarşı durur, həm də birinci və ikinci tacir, habelə istehlakçı mümkün qədər aşağı düşürməyə çalışırlar.

Əgər normal şərait və eyni dərəcədə güclü cəhətlər nəzərə alınsa, habelə məhsul tədavülü prosesini pozan təsirlərdən yan keçilsə, qiyməti artırmaq üçün meyil qiyməti aşağı düşürməyə üçlü meyillə tarazlaşmalı idi; sonra istehsalçının qiymətləri artırmağa çalışmasının ticarət vəsilələri vasitəsilə istehlakçının özünə keçdiyinə görə belə çıxır ki, tacir istehlakçı qarşısında dolayısı ilə (əlbəttə, qiymət üzərinə əlavəyə nail olmaqla öz marağını güddüyünə görə dolayısı ilə) istehsalçının maraqlarını təmsil edir. Daha sonra isə istehlakçının ucuzlaşmaya nail olmaq istiqamətində göstərdiyi səy ticarət orqanları vasitəsilə istehsalçının özünə keçdiyinə görə tacir dolayısı ilə istehsalçı qarşısında istehlakçının maraqlarını təmsil edir. Ayrıca tacirin ucuz almaqdan və baha satmaqdan ibarət olan öz marağı dəyişkən rəqabət oyununda daima istehsalçının və istehlakçının maraqlarına tabe etdirilməlidir. Bazarın üç mərhələyə və ya malın istehsalçının əlindən istehlakçının əlinə keçdiyi qədər mərhələlərə parçalanması yalnız zahiri xarakter daşıyır, çünki həmin ticarət əqdlərindən hər biri eyni mal barəsində bağlanmır, həm də bu zaman istehsalçı və istehlakçı maraqlarının eyni ziddliyi özünü göstərmir. İstehsalçı və onun əvəzinə çıxış edən tacir bazarda və təklifdə ifadə olunan mal ehtiyatını satıcı kimi təqdim edir və qiyməti mümkün qədər yuxarı qaldırmaq istəyir. İstehlakçı və ya onun əvəzinə bazarda çıxış edən tacir bazarda tələbdə ifadə olunan ehtiyacları təmsil edir və qiymətlərin daha aşağı səviyyəsinə nail olmağa çalışır. Beləliklə də, eyni mal bazarda müxtəlif yerlərdə təkrarən alış və satış obyekti ola, bazarda müxtəlif yerlərdə dəfələrlə zahir ola bilər; malın təyinatı gerçəkləşəndə istehsalçıdan istehlakçıya doğru hərəkət edə və istehlakda rolunu başa vura bilər. Müxtəlif bazarlar yalnız bir zəncirin həlqələrini, bir bütövlüyün hissələrini, vaxt böyüncə uzanan əməliyyatı, yəni tacirin istehsalçı və istehlakçının vasitəsi orqanları kimi çıxış edərək, təklif və tələblə təmsil olunduğu və rəqabətin təsiri ilə qiyməti müəyyənləşdirdiyi bir ümumi bazarı təşkil edir.[9] Burada yalnız onu müəyyən etmək vacibdir ki, istehsalçı ilə istehlakçı arasında əmtəə mübadiləsi aralıq orqanlar-ticarət vasitəsilə aparılır: həm də mal qiymətin təkliflə tələb arasında dəyişkən nisbətin müəyyənləşdirildiyi bazardan keçir.

Bazara son dərəcə böyük təsir göstərən daha bir məqama diqqət yetirmək vacibdir. Tacir bazarda təkcə mövcud ehtiyatları deyil, həm də gələcəyin ehtiyatlarını təmsil edir; digər tərəfdən o, nəinki indinin, gələcəyin də tələbatını ödəyir. Bazarda gələcəyin ehtiyat və ehtiyaclarının nəzərə alınması ona böyük təsir göstərir, çünki bunun sayəsində mövcud ehtiyatların mövcud tələbat üzrə qiymətləri tamamilə başqa cür və həm də daha çox bir bərabərdə yaranır, mövcud ehtiyatların kifayət qədər olmaması bazarda gələcək ehtiyatların nəzərə alınması ilə tarazlanır, digər tərəfdən isə bunların artıqlağı bazarın ödəyəcəyi gələcək tələbatla tarazlanır.

## 3. DÜNYA TƏSƏRRÜFATI VƏ DÜNYA BAZARI

Ticarət anlayışının müəyyənləşdirilməsi əlavə xüsusiyyət və xarakteristikaların aydınlaşdırılmasını tələb edir. O cümlədən bir ölkə daxilində ayrı-ayrı təsərrüfatların qarşılıqlı münasibətlərinin, habelə dünyanın bütün təsərrüfat, iqtisadiyyat sahələri arasında münasibətlərin təhlili aparılmalıdır. Axı, iqtisadiyyatın başqalarının tələbatının ödənilməsi üçün məhsul buraxmaqla və onlardan analoji dəyərdə predmet və malları almaqla, bu və ya digər formada beynəlxalq əmək bölgüsündə iştirak edən bütün hissələri vahid bütövlük təşkil edir. Mədəniyyət baxımından bəşəriyyəti mövcud olduğu kimi təsərrüfat baxımından da məq-

> *«Üstəlik mənfəəti tacir inhisarçı vəziyyətində olduqda əldə edə bilər. Rəqabət inkişaf etdikdə ticarət gəliri də axırda orta səviyyəyə çatır. Ticarət kapitalının bazarlara təkbaşına yiyələnmək uğrunda mübarizəsi də, qədim zamanlardan ta bizim günlərədək bütün tarixi dolduran və demək olar, bu dövrün bütün iri müharibələrə gətirib çıxaran mübarizəsi də buradan irəli gəlir. Hindistana gedən yola təkbaşına yiyələnmək uğrunda mübarizə ilə bağlı saysız-hesabsız müharibələri, səlib yürüşlərini, Qapaleon müharibələrini qeyd etmək kifayətdir. Təkbaşına ticarət müasir xalqların tarixində mühüm rol oynamış müstəmləkəçilik siyasətinin ilk dövrünün mahiyyətini təşkil edir».*
>
> İ.F.Şerr

sədi təsərrüfat-iqtisadiyyat nemətlərinin istehsalından, mübadiləsindən və tələbatın ödənilməsindən ibarət olan vahid orqanizm-dünya təsərrüfatı-qapalı bütövlük mövcuddur.

Çoxsaylı ayrı-ayrı və Milli təsərrüfatlar eyni zamanda dünya təsərrüfa-tının «ürəyi» olan dünya bazarı ilə birləşir. İ.F.Şerr deyir ki, insan orqanizmində orqanların yaranması, böyüməsi, təzələnməsi, habelə onların işləməsi üçün şərait yaradan qan ürəkdən hər tərəfə axdığı, qanın əks axınının orqanlardan ürəyə axdığı kimi bazarda da eyni hal baş verir. Tələbatın ödənişi üçün istehsal olunan məhsulların ehtiyatı hər ayrıca təsərrüfat sahəsindən nəqliyyat vasitələrinin köməyi ilə bazara çatdırılır və orada bütün təsərrüfatlar üçün əlçatan olur. Dünya bazarının müəyyən etdiyi qiymətə müvafiq kompensasiya kənar tərzdə pula ifadə olunur, lakin bununla yalnız mübadilə aktı örtülür, çünki pullar dünya təsərrüfatına daxil olan hər təsərrüfata onun ürəyinə axıb gələn predmetləri əldə etməyə imkan verən ümumi mübadilə vasitəsidir. Lakin dünya bazarı onunla bağlı dünya təsərrüfatı üzvlərinin münasibətlərini tənzimləyərək, başqa cür də hərəkət edir. Tələb və təklifin köməyi ilə o, mübadiləsi aparılan məhsulların qiymətini müəyyən edir. Dünya bazarı mövcud tələbatdan artıq mal gətirilməsinin qarşısını alır, qiymətlərin istehsal xərclərindən aşağı səviyyəyə enməsinə əl atır., çünki bunun nəticəsində istehsal xərclərini özünə qaytarmayan təsərrüfatlardan predmetlərin daşınıb gətirilməsi tədricən sonna yetir. Əksinə, o, qiymət bazara gələn istehlakçının alıcılıq qabiliyyətini ötüb keçməyincə və ya artırılmış qiymət, qiymətlərlə istehsalın genişləndirilməsinə sövq edilən istehsalçılar qiymətləri istehlakçıların alıcılıq qabiliyyətinə endirməyincə qiymətin artırılmasını müxtəlif predmetlərə olan güclü tələbata qarşı qoyur.[10]

Bu prinsiplər necə olmalı məsələsini hədəf tutur. Təsərrüfatın dünya bazarı ilə birləşməsi mal və xidmətlərin istehsalı, bölgüsü, insanların bacarığı və imkanlarının genişlənməsi məsələlərini birləşdirir. Bu, ictimai inkişafın iqtisadi yüksəliş, məşğulluq, maddi və mənəvi nemətlərin bölgüsü, sosial müdafiə insanın bərabərliyi, maraqları, bütün fəaliyyət sahələrində fərdi seçim imkanlarının genişləndirilməsi kimi çox mühüm məsələlərini həllini əhatə edir.[11] Məhz bu kontekstdə dünya təsərrüfatı inkişaf və dünya bazarı təşəkkül edir.

Dünya bazarının bitişik təsərrüfatlara tənzimləyici rolu başqa istiqamətdə də özünü göstərir, yəni təsərrüfat nemətləri istehsalının ödənilməsi

tələbat üçün həcm və xarakterini müəyyənləşdirir. İş belə gedir: dünya təsərrüfatı yalnız zahirən nizamsız, daxili əlaqəsiz görünür. Hər istehsalçı tələbatın kifayət qədər olub-olmaması ilə hesablaşmadan adi bazar məhsullarını öhdəsindən gələ bildiyi miqdarda işləyib hazırlayır. Dünya bazarı bu və ya digər məhsulun belə əndazəsiz artıq istehsalına hədd qoyur, çünki istehsalçı yalnız dünya bazarı nə qədər ki, məhsulları qəbul edir, o baxtacan öz istehsalını davam etdirə bilər. Dünya bazarı bu və ya digər məhsulların artıq istehsalını qəbul etmir, həm avtomatik surətdə, həm də məhsulların daxil olmasını, ehtiyatının və bunlara tələbatı nəzarətdə saxlaya biləcək heç ali instansiya olmadan qəbul etmir. Bu avtomatik tənzimləmə məhz satış həcmindən və qiymətlərin səviyyəsindən ibarətdir, çünki satmağın mümkünlüyü kimi bəs etməyən satış qiyməti də istehsalçını öz-özlüyündə istehsalı məhdudlaşdırmağa və ya tamamilə dayandırmağa məcbur edir. Beləliklə biz tam ixtiyarla deyə bilərik ki, dünya bazarı dünya təsərrüfatının tənzimləyicisidir.

Məhsul mübadiləsi çox zaman bilavasitə ayrı-ayrı təsərrüfat sahələri arasında və ya bir sahə daxilində ayrı-ayrı təsərrüfatlar arasında aparılır. Buna görə də ümumi ehtiyatı və ya ümumi tələbatı müəyyənləşdirmək heç vaxt mümkün deyil. Dünya bazarı bir yerdə cəmləşməmişdir. Satıcı və alıcıların rastlaşa, qiymətləndirə və əmtəə mübadiləsi apara bildikləri hər yerdə fəaliyyətdədir. Hər halda dünya təsərrüfatının bu ayrı-ayrı bazarları vəhdət təşkil edir, çünki ticarət və onun təmsilçisi olan tacir ayrı-ayrı bazarlar arasında əlaqə yaradırlar ki, bunun da sayəsində nəinki qiymətlərin nisbiliyini müəyyən edir, həm də tələb və təklifi tənləşdirirlər. Tacir istehsalçının yanına gələndə burada rəqibinə rast gəlir, beləliklə də istehsalçı (bazardan sərbəst istifadə şərti ilə) dünya bazarının düzgün qiymətini alır. Tacir istehlakçının yanına gələndə isə öz rəqibi ilə hesablaşmalı və ticarət dövriyyəsinin, yəni dünya bazarının normalaşdığı satış qiyməti ilə razılaşmağa məcbur olur. Buradan göründüyü kimi, sərbəst ticarət şəraitində dünya bazarının nizamlayıcı gücü hər istehlakçının xeyrinədir, onlar bu gücə tabe olmağa məcburdurlar. Aydındır ki, dünya bazarının belə fəaliyyəti əlaqədar şəxslərdən, yəni istehsalçıdan, istehlakçıdan və ya tacirdən ötrü rahatsızlıq törədir. Dünya bazarı rəqabətinin təsiri olmasaydı, istehsalçı öz mallarına görə daha yüksək qiymətlər alır, istehlakçı ona lazım olan malları daha ucuz qiymətə alar, tacir isə daha çox gəlir əldə edərdi.

Buna görə də aydındır ki, dünya bazarının nizamlayıcı rolundan xilas olmağa tez-tez müxtəlif tərəflərdən cəhd göstərilir.

Bu gün həmin cəhdlər gözlənilməz və hətta əvvəlki ümidlərə uyğun olmayan formalar alır. Təşəkkül tapmış nizam qloballaşma nəticəsində dağılır və xəyalilikdən uzaq yeni nizam yaranır. «Resurslar uğrunda rəqabət prosesində güclü etnoslar daha zəif rəqiblərini kimyəvi aktiv mühitdə aparıcılartək udurlar. İstər millətlər arasında, istərsə də ayrı-ayrı fərdlər arasında fərqlərin inteqrasiya və nivelyasiyasına əsaslanan post-modern cəmiyyət mütləq rəqabətlə parçalanaraq inteqrasiya say artımını sürətləndirir, lakin məhz say artımı tələbat artımını stimullaşdırmış və rəqabəti gücləndirmişdir».[12]

Nəticədə biz sərbəst və ahəngdar rəqabət əvəzinə sərbəst rəqabətə qarşı duran ümumi inteqrasiya bazarına yiyələnirik. İndi bazar inhisarların və transkorporasiyaların sərbəsi mal və xidmət rəqabətinə qarşı mübarizəsi meydanı kimi çıxış edir. Transmilli korporasiyalar çox zaman o qədər də yaxşı olmayan məhsulu təklif edib sırımaqla, rəqabətli məhsul və xidmət istehsalını zor gücünə məhv etməklə rəqiblərini udurlar.[13] Lakin bu da – böyük qüdrətə malik dünya bazarının fəaliyyət və təsirinin nəticəsidir. Bu qüdrət ayrı-ayrı şəxsləri, birliklər və dövlətlər tərəfindən onun təsirindən çıxmaq üçün göstərilən bütün cəhdləri dəf edir. Az-çox müddət ərzində heç kəs hətta dövlət də bu qüvvəyə qarşı dura bilmir; Milli sərhədlər və dünya bazarının meyillərinə zidd qanunlar aciz olaraq qalır (heç olmasa, gümüşün qiymətini süni surətdə müəyyən etmək cəhdlərini yada salaq).Çünki dünya bazarı öz üzvlərinin qarşılıqlı fəaliyyətidir, köklü dünya təsərrüfatı orqa-nizminə gedən qüvvədir. Nəzərə almaq lazımdır ki, mövcud ümumilik iqtisadi zərurətdən irəli gəlir. Əvvəlki inkişaf göstərir ki, ayrı–ayrı təsərrüfatlar dünya təsərrüfatı daxilində qapalı vahidləri təşkil edir. Milli əlaqənin köməyi ilə dövlətdə birləşərək, onlar milli təsərrüfat sahələri, milli təsərrüfatlar yaradır ki, həmin təsərrüfatların da siyasi sərhədləri həm də təsərrüfat sərhədləridir. Dünya təsərrüfatının bütün hissələri birləşdirmək üzrə mərkəzəqaçan meyilinə ayrı-ayrı Milli təsərrüfatların mərkəzdənqaçan meyili qarşı durur. Başqa sözlə, daha geniş təsərrüfatda birləşmək kimi təbii səyə dövlət tərəfindən təsərrüfat müstəqilliyinə göstərilən səy qarşı qoyulur ki, bu da son nəticə etibarilə tam əlahiddələşmədə əksini tapmalıdır. Daha böyük təsərrüfat müstəqilliyinə nail olmaq məqsədi ilə bütün Milli

qüvvələrin gərginləşməsinin səbəbləri bütün dövlətlərdə öz xarici müstəqilliyini qorumaq səbəblərinin eynidir.

Təsərrüfat müstəqilliyinə göstərilən səy hər dövləti bütün təsərrüfat qüvvələrinin yüksək inkişafı və beləliklə də öz rifahı naminə çalışmağa sövq edir, çünki son nəticə etibarilə dövlətin iqtisadi qüdrəti onun xarici siyasi mövqeyini və gücünü müəyyənləşdirir. Buna görə də dövlət tərəfindən öz təbəələrinin bütün təsərrüfat mənafelərinin əhatə edilməsi şübhəsiz ki, özünüqoruma hissəsinin tələbidir. Buradan da dövlət üçün müvafiq surətdə təsərrüfat qrupplarına aqrar siyasətə və sənaye siyasətinə bölünən iqtisadi siyasət anlayışına daxil etdiyimiz bütün vəzifə və tədbirlər irəli gəlir. Həmin istiqamətdə hər dövlətin təsərrüfat və ticarət siyasətinin dünya təsərrüfatında mümkün qədər çox təcridlənmək və müstəqillik qazanmaq meyili daha da güclənir. Dövlət rəhbər xadimlərinin rəyinə görə, Milli təsərrüfata təsir göstərən dünya təsərrüfatının təsirlərindən özünüqoruma cəhdləri də buradan irəli gəlir.[14]

Lakin məhz bu, beynəlxalq əmtəə mübadiləsini çətinləşdirən tədbirlərdir və onlar xüsusən idxal gömrüklərinə aiddir; həmin gömrükləri müvafiq baxımdan adətən himayəçilik gömrükləri adlandırırlar və müdafiəçiləri tərəfindən bunların xeyrinə belə dəlillər gətirilir: Milli əməyin beynəlxalq rəqabətdən müdafiəsi; daxili bazarın daxili istehsal üçün qorunub saxlanması; bəzi təsərrüfat qruplarının, başlıca olaraq kənd təsərrüfatlarının, habelə yeni yaranmış, hələlik möhkəmlənməmiş sənaye sahələrinin yüksək idxal gömrüklərinin köməyi ilə müvafiq məhsulların daxili qiymətlərin süni surətdə artırılması sayəsində mühafizəsi.

Həmin mühafizə əvvəllərdəki kimi bu gün də lazımdır. «Hakimiyyətin mərkəzləşdirilməsi üsulu kimi «qloballaşma» ya daxil olan iqtisadi ekspansiya mədəni və iqtisadi cəhətdən fərqli etnosları bir-biri ilə əlaqə yaratmağa məcbur edir. Əlaqələr-parçalanmalar zonasında aktiv mühitlər ierarxiyası formalaşır. Hazırda bütün dövlətlər ahəng yaradıcılarının özlərinə məxsus daha böyük tezliklə rəqiblərini udduqları vahid sistemin tərkib hissələridir».[15] Deməli, daxili bazarı iqtisadi ekspansiyadan qorumaq problemi qarşıya çıxır. Qeyd etmək kifayətdir ki, hazırda demək olar, bütün ölkələr bu tədbirlə dünya təsərrüfatından və dünya bazarından təcrid olmaqla çalışır. Bu, əlbəttə, məsələnin bir tərəfidir, çünki digər tərəfdən hər ölkə dünya bazarında məhsullarını daha çox satmağa çalışır: himayəçilik gömrüklər sisteminin həllonmaz ziddiyyəti də məhz bundan ibarətdir: Əgər bütün ölkələr dünya bazarından məhsul daşınıb gətirilməsinə mane olsaydı və əksinə, dünya bazarına mal aparılmasını artırsaydı, axırda elə bir vəziy-

yət yaranardı ki, dünya bazarının beynəlxalq əmtəə mübadiləsi ilə birlikdə varlığı sonna yetərdi. Xoşbəxtlikdən dünya təsərrüfatı, yuxarıda göstərildiyi kimi, dünya bazarının qüdrəti qarşısında aciz olan bütün milli sərhədlərdən güclüdür.

Bunun əsasında ticarət haqqında klassik təlim belə qənaətə gəlir: bir sahədə artıqlıq başqa sahəyə ehtiyac yaradır; öz artıqlığı hesabına nə qədər çox məhsul almaq mümkündürsə, öz istehsalını artırmağa təkan da bir o qədər güclüdür. Buna görə də Milli təsərrüfat hüdudlarını aşmaq və beynəlxalq əmtəə mübadiləsinə daxil olmaq səyləri aşağıdakı səbəblərdən irəli gəlir:

a) iqtisadi cəhətdən inkişaf edən hər ölkənin daim artan məhsuldar enerjisi milli tələbatı ötüb keçir və bu, dünya bazarında satış imkanı axtarmağa məcbur edir;

b) dünya təsərrüfatının əksər sahələrində mədəniyyəti inkişafı və əhalinin artımı tələbləri artırıb dərinləşdirir və heç bir milli təsərrüfat onların ödənilməsi üçün kifayət qədər məhsul istehsal edə bilmir;

c) müxtəlif təsərrüfat sahələrinin iqlim fərqi, təbii sərvətlərin müxtəlifliyi, habelə sənaye əməyinin xarakterində fərqlər beynəlxalq əmək bölgüsündə və bununla beynəlxalq əmtəə mübadiləsində iştiraka vadar edir. Bu sonuncu şərait də beynəlxalq əmtəə mübadiləsinin xeyirli təsiri üçün şərtdir, çünki məhz həmin təsir hər təsərrüfat sahəsinin, hər təsərrüfat vəsiləsinin Ən yüksək məhsuldarlığa nail ola bildiyi əmələ əl atmasını mümkün edir;

d) rabitə yol və vasitələrinin tərəqqi edən inkişafı və bir nəticə kimi nəqliyyatın ucuzlaşması və sürətinin artması sayəsində çox uzaqda yerləşən yeni-yeni təsərrüfat sahələri bir tərəfdən, bütün başqa sahələri üçün məhsul istehsal etmək, digər tərəfdən isə həmin məhsullardan öz tələbatının ödənilməsi üçün istifadə etmək imkanı qazanır;

e) əgər yuxarıda göstərilən səbəblərə görə ticarət əmtəə mübadiləsinin aramsız genişlənməsi ilində daha çox passiv rol oynayırsa, digər tərəfdən:

-əvvəla, iri sənaye məhsullarının sərfəli qiymətə satılmasına çalışaraq, dünya təsərrüfatının bütün sahələrinə yayılmasına;

-ikincisi, müasir mədəni insana onun tələbatının ödənilməsi üçün dünya təsərrüfatının bütün məhsullarının istisnasız təqdim edilməsinə səy göstərməsi ilə bu genişlənmədə fəal iştirak edir.

## 4. TƏSƏRRÜFAT VƏ TİCARƏTİN DÜNYA TƏSƏRRÜFATINA VƏ DÜNYA TİCARƏTİNƏ ÇEVRİLMƏSİ

Bütün təsərrüfat prosesləri son nəticədə planetar xarakterlidir. Çünki planetdə nəyisə dəyişirlər. Başqa sözlə desək, təsərrüfat həyatının bir faktı kimi ticarət yekunda dünyada baş verən dəyişiklikləri şərtləndirən sosial-iqtisadi inkişaf sisteminə daxil edilmişdir. Ticarət bundan əvvəl olmayan nəyinsə meydana gəlməsi deyil.

Ticarətin bəşəriyyətin inkişafı prosesində təsadüfi ixtirası kimi təsəvvür etmək də səhvdir. Necə ki, dillərin, dövlətlərin və s. kəşfindən danışmaq olmaz, eləcə də ticarət də bəşəriyyətin ümumi inkişaf prosesindən ayrıla bilən hadisə deyil. O. bu prosesin zəruri məhsuludur və həmin səbəbdən də insan mədəniyyətinin özü qədər qocadır, hətta bəşəriyyətin, necə deyərlər, körpə vaxtından başlanır, belə ki, onun inkişafı bütün iqtisadi inkişafla paralel gedir. Əgər iqtisadi inkişaf öz gedişində dörd mərhələdən keçmişdirsə, ticarətin inkişafında belə mərhələlər daha çoxdur. Həm də ticarətin nə vaxtsa təsərrüfatın inkişafından irəli gedib-getməməsinə, yoxsa da təsərrüfatın müstəqil surətdə daha yüksək mərhələyə qalxmasına dair sual açıq qallmaqdadır. Müasir dövrün müvafiq hadisələri əsasında deyə bilərik ki, ticarətin inkişafı həmişə bütün təsərrüfatın inkişafı ilə yanaşı getməlidir, bir sahədəki tərəqqi və ya tənəzzül başqa sahədə müvafiq dəyişikliklər üçün şərtdir.

Təsərrüfatın təşəkkülü genezisinin təhlili onun inkişafını aşağıdakı dörd mərhələyə bölməyə imkan verir:

a) qapalı ev təsərrüfatı;

b) sex əməyi bölgülü şəhər təsərrüfatı;

c) milli təsərrüfat;

d) beynəlxalq və ya dünya təsərrüfatı.[16]

Qapalı ev təsərrüfatı dövründə təsərrüfat hələ əhəmiyyətli rol oynamır: ayrıca təsərrüfat öz tələbatını ödəmək üçün qapalı dairədə nə lazımdırsa, istehsal edincə məhsul mübadiləsi yalnız istisna qaydasında lazım olur. Burada ticarət yalnız təsadüfi olaraq, malın mala dəyişdirildiyi ticarətlə məhdudlaşır ki, bu da hədiyyə verməkdə, qonaqpərvərlikdə, qonşuya köməkdə və ya düşmən soyğunçuluğunda ifadə olunur; həm də bütün bunlar yalnız mədəni inkişafın müxtəlif mərhələlərinin xalqların

köçəri həyat tərzindən, ən yaxşı otlaqların axtarışından və ya bu zəmində baş verən müharibələrdən irəli gələn təması nəticəsində mövcuddur.

Şəhər təsərrüfatı dövründə qaçılmaz surətdə bir tərəfdən müxtəlif peşə sahibləri arasında, digər tərəfdən şəhər və kənd sakinləri arasında məhsul mübadiləsi zərurəti yaranır. Birinci sex quruluşuna uyğun surətdə, sənət ticarəti şəklində, ikinci şəhər və kənd sakinlərinin öz məhsullarını dəyişdirdiyi bazarda baş verir. Amma bu bazar həmin şəhərin təsərrüfatı dairəsindən kənarda yaşayan yad adamları cəlb edir; şəhər bazarına özgə malları, özgə məhsulları da gətirilir. Bu mərhələdə pul təsərrüfatı natural təsərrüfatı sıxışdırır.

Bu proses ümumi mədəniləşdirici inkişafın bir hissəsidir. Axı, təkcə iqtisadiyyatın sivilizasiyalı quruluşa deyil, sivilizasiyanın da iqtisadiyyat (əlbəttə, hər cürünə deyil) ehtiyacı var. İqtisadiyyatın mövcud olduğu və inkişaf etdiyi yerdə sivilizasiya iqtisadiyyatsız və onun bütünlüklə ibarət olduğu şəhər, dövlət, qoşun, polis, zadəganlar, xidmətlər, hüquqşünaslar, artistlər, siyasət, sadə adamlar kimi amillərsiz keçinə bilməz. Sivilizasiya varlığını xarakterizə edən hər şeyin və hər nəyin mallara və pullara, daha dəqiq desək, vergi, gömrük, töycü, xidmət haqqı ödənişi, müsadirə və s. vasitəsilə ilkin iqtisadiyyatın əlindən alınan pul və mallara ehtiyacı var. «Sivilizasiyanın qeyri-iqtisadi hissəsi iqtisadiyyata münasibətdə ölçü bilməsə, bu, çox pis ola bilər. Beləliklə, iqtisadiyyat sivilizasiyaya xidmət edir, bunun müqabilində özü də sivilləşmiş şəkil alır».[17] Bu prosesdə ticarətin sivilləşməsi baş verir.

> *«Heç də hər mal sərvətlərin eynilə münasib miqyasını göstərmir. Onlardan keyfiyyətinə görə o qədər də fərqlənməyən, dəyəri başlıca olaraq saydan və miqdardan asılı olmayanların istifadəsinə üstünlük vermək lazım gəldi. Hər mal mahiyyətcə bütün başqa malları təmsil etməyə qadir olsa da, onların dəyərinin ifadəsi üçün ümumi meyar və bütün başqa malların mübadilə vasitəsilə əldə edilməsi üçün girov olsa da, heç də onlardan hər biri bu iki məqsəddən ötrü eyni asanlıqla istifadə edilə bilməz. Mal keyfiyyətindən asılı olaraq nə qədər çox dəyişikliyə məruz qalmışdırsa, onu başqa malların dəyərliliyin miqyası etmək də bir o qədər çətindir».*
>
> A.R.Tyurqo

Pullu (sivilləşmiş) təsərrüfatın yaranması bütün ölkə üçün, ölkənin siyasi sərhədləri ilə müəyyənləşən bütün ərazidə genişlənməsinə zəmin yaradır. Milli təsər-

rüfat yaranır və onunla birlikdə ticarət milli ticarətə çevrilir; hər ikisi insanların ünsiyyəti və mal tədavülü üçün zəmin yaradır. Əvvəlki hərbi yollar əvəzinə iqtisadi yol və üsullar işə düşür. Təsərrüfat, ticarət və nəqliyyat sahələrində daxili milli canlanma labüddən böyük əmək bölgüsünə, xammala, əmək alətlərinə və istehlak predmetlərinə tələbatın artmasına gətirib çıxarır. Həm milli bazar, həm milli təsərrüfat indi bu artmış tələbləri ödəmir. milli təsərrüfat öz inkişafında dünya təsərrüfatına qovuşduğu kimi milli ticarət də qaçılmaz surətdə inkişaf edərək dünya ticarətinə çevrilir.

Qapalı ev təsərrüfatından dünya təsərrüfatınadək, adi mübadilə ticarətindən geniş şaxələnmiş dünya ticarətinədək inkişaf prosesi heç də həmişə və hər yerdə düz xətlə gedən və bundan əvvəl göstərdiyimiz dörd mərhələdən keçə bilməmişdir; lakin bir şey şübhə doğurmur ki, hazırda bütün xalqların təsərrüfatı tərkib hissələri olduğu dünya təsərrüfatına çevrilmişdir. Hazırda dünya təsərrüfatına iqtisadi qloballaşma nüfuz etmişdir ki, bu da bir tərəfdən tutumlu qlobal bazarına istiqamətlənmiş istehsalın miqyasının genişlənməsinə, digər tərəfdən təsərrüfatçılıqda «oyun qaydaları» nın bir-birinə yaxınlaşması, istehlakda üstün tutulan cəhətlərin hakim mövqeli dünya brendləri və s. vasitəsilə əldə edilən uyğunluğu şəklində iqtisadi unifikasiya ilə nəticələnir.[18] Beləliklə, dünya təsərrüfatı iqtisadi inkişafın müxtəlif kəmiyyət və səviyyələrinin çoxcəhətliliyi və ziddiyyətliyində tam bir vəhdətdir. Bizim zəmanədə nəinki iri sənayeçi, sıravi sənətçi də dünya təsərrüfatı ilə əhatə olunmuş və onun burulğanına sürüklənmişdir. Dünya təsərrüfatı və dünya ticarəti dünya bazarını əmələ gətirmişdir. Burada ona da diqqət yetirilməlidir ki, insanlar arasında münasibətlər və malların nəqli inkişaf nəticəsində dünya münasibətlərinə çevrilmişdir. Buna paralel olaraq belə bir son dərəcə mühüm fakt baş verir ki, ayrıca və milli təsərrüfatın ehtiyat və ehtiyacları bunların bütün məcmuu ilə bağlı olur, belə ki, biz artıq dünya ehtiyatları və dünya tələbatı haqqında danışa bilərik. Elmin, daha çox isə təsərrüfatın, xüsusən də ticarətin maraqları dünya ehtiyatlarının və dünya ehtiyaclarının statistik uçotunun aparılmasına, bunların nisbi həcmləri və xüsusən də dəyişikliklərinin müəyyən edilməsinə səbəb oldu: buna görə də dünya ehtiyatları və dünya ehtiyacları hazırda məchul kəmiyyətlər deyil.

Eyni zamanda, sırf təsərrüfat fəaliyyətinin inkişaf edib dünya təsərrüfatına çevrilməsi ilə əlaqədar olaraq mənəvi aləm də inkişafdadır. Əvvəlki zamanların məhdud zehni görüş dairəsindən qurtularaq insanlar özlərində

dünyaya və dünyagörüşünə daha sərbəst baxmaq qabiliyyətini tərbiyə edirlər. Xudbin partikulyarizm və şovinist vətənpərvərlik yerinə humanizmə, məhəbbətə, bütün bəşəriyyətə sədaqətə və onunla əməkdaşlığa verir. Müasir təhsilli insan yer kürəsinin vətəndaşına, bütün dünyanın insanına, çevrilmişdir. Axı dünya təsərrüfatı dünya iqtisadiyyatını yaradaraq, radikal ekonomizm yoluna qədəm qoyaraq, insana iqtisadi prinsiplərə uyğun fəaliyyət göstərməyə imkan verən dünyagörüşü ilə silahlandıraraq, ideologiyanı da dəyişdirmişdir. «İnsan təbiətin ağasıdır, az qala Tanrısıdır, Tanrısı olmasa da, yaradıcısıdır, həm də müstəqil, güclü yaradıcısıdır… Hər şey ona tabedir, o, təbiət adlandırdığımız aləmin yaradıcısıdır. İnsan qeyri-təbiətin, deməli, yeni texnikanın, yeni əmək üsullarının, idarəetmə metodlarının, materialların, yeni heyvan cinslərinin, bitki sortlarının və s. Dumiurqudur. İnsan Tanrının yaratdığı dünyaya qəti surətdə müdaxilə edir, onu ardıcıllıqla dərk edir (elm dərhal hazırdır) və (elm və mühəndisliyin, artan əməli təcrübənin köməyi ilə) dəyişdirir. Dünya artıq Tanrı tərəfindən insana verilmiş sayılmır, bu, insanın özünə götürdüyü və onunla istədiyini etdiyi dünyadır. Dünya dərk oluna və dəyişə bilir».[20] İnsanın müasir dünyada – iqtisadi, rasional, praktik dünyada müəyyənləşdirici rolu belədir.

Kapital aləmində hər şey mərkəzləşdirilmiş və əhatə edilmişdir. Hətta iqtisadi fərdiyyətçilik də müasir kapitalizm mərkəzləşdirilməsində bütün dünyanı əhatə edən müəssisələr formasına düşür. Kapital bazarı çoxdan milli hüdudları aşdığı və çoxsaylı axınlarını dünyanın bütün məntəqələrinə yönəltdiyi kimi bununla əlaqədar olaraq kredit işi də dünya kreditinə çevrilmişdir və dünya təsərrüfatını birləşdirən ən möhkəm əlaqələrdən biridir. Dünya təsərrüfatının mərkəzləşdrilmə meyillərinin təsiri ilə ayrı-ayrı dövlətlərin ümumi təsərrüfat qurumları təşkil etməsi də nəzərə alınsa, etiraf etmək lazım gələcək ki, ayrı-ayrı milli təsərrüfatların getdikcə daha çox ümumi funksiyaları ortaya çıxır. İndi biz bütün bəşəriyyəti əhatə edən bir təşkilat mənasında vahid dünya təsərrüfatı haqqında danışa bilərik, halbuki, heç bir dövlət məcburiyyəti ayrı-ayrı təsərrüfat vəsilələrini bu dünya təsərrüfatına bağlamır. Ümumdünya təşkilatının mövcudluğu zərurətinin özü də ayrıca və milli təsərrüfatın bütün dünya təsərrüfatından bütövlüklə asılılığından irəli gəlir.

Beləliklə, qarşılıqlı asılılıq nəticəsində milli təsərrüfatlar əmtəə dövriyyəsi ilə bağlı bütün ölkə və təsərrüfatları əhatə edən dünya təsərrüfatının üzvü oldular. Milli təsərrüfatlar kimi onların elementləri olan ayrıca

təsərrüfatlar da dünya təsərrüfatının üzvləridir. Hər ayrıca təsərrüfat ikili mənada, yəni mübadilə təyinatlı predmetlərin (malların, kapitalın, xidmətlərin) həm istehsalçısı kimi, həm də istehlakçısı kimi dünya təsərrüfatının üzvüdür. Milli təsərrüfatın dünya təsərrüfatı miqyasında genişlənməsi ilə əmtəə dövriyyəsi də dünya əmtəə dövriyyəsinə, bazar dünya bazarına, ticarət dünya ticarətinə çevrilmişdir.

Dünya bazarında məhsuldar və istehlakçı qüvvələr dünya ticarəti vasitəsilə rastlaşır; həmin orqan burada cari və gələcək ehtiyacların ödənilməsi üçün istehsalçını nağd və gələcək ehtiyatlar üzrə təklifdə, istehlakçını isə tələbdə təmsil edir. Dünya bazarı dünya təsərrüfatının çox mühüm orqanıdır, çünki məhz o, təklif və tələbin qarşılıqlı təsiri ilə qiyməti müəyyənləşdirir; bu qiymətlər qarşılıqlı məhsul mübarizəsini tənzimləyir; yəni həmin mübadilə arxasında duran istehsal və istehlakı tarazlayır.

Dünya bazarının dünya təsərrüfatında öz kökü var, o, sonuncunun funksiyalarından ibarətdir, buna görə də özü heç bir dövlətə tabe olmayan təşkilatını və qanunlarını yaradır. Dünya bazarı hansısa bir yerdə və müəyyən vaxtda deyil, istehsalçı və istehlakçının, yaxud onların orqanlarının, tacirlərin, fərqi yoxdur, əvvəlcədən razılaşdırıldığı kimi və ya təsadüfən, müntəzəm və ya kor-təbii surətdə (görüşdükləri hər yerdə və hər vaxt) yəni satış əqdlərinin bağlandığı və icra edildiyi hər yerdə mövcuddur. Hər birja, hər mağaza, hər yarmarka dünya bazarının bir hissəsidir. Zaman və məkanda dağınıqlıqlara baxmayaraq, dünya bazarı ilk növbədə tacirlər sayəsində və onlara görə vahid dünya bazarı kimi inkişaf edir, çünki dünyanın bütün bazarları bir-biri ilə qarşılıqlı əlaqədədir və bu, dünya bazarının birliyinə, xüsusən qiymətlərin tarazlaşmasına kömək edir. Lakin istehsalçı və istehlakçı özləri satış və alış əqdlərini yalnız bazar qiyməti ilə tanışlıqdan sonra bağlamağa uğurla can atırlar və həmin işdə onlara ən yeni zamanda yaranmış təşkilatları kömək edir, bunun nəticəsində dünya bazarı qiymətlərin yaranması üçün faktik olaraq həlledici instansiyadır. Dünya bazarı dünya təsərrüfatının orqanı olduğu kimi, dünya ticarəti də dünya bazarının orqanıdır; buna görə də dünya ticarəti dünya bazarının, onunla birlikdə isə dünya təsərrüfatının qanunlarına tabedir.

## 5. «TİCARƏT» ANLAYIŞININ TİCARƏTİN TƏŞKİLİ HAQQINDA TƏLİM KİMİ İNKİŞAFI

Ticarət haqqında yazılanlar sonsuzdur. Özünə hörmət bəsləyən hər iqtisadçı cəmiyyətin iqtisadi inkişafı haqqında öz konsepsiyasını yaradaraq, ticarət problemindən yan keçə bilmir. Luka Paççoli «Hesablar və qeydlər haqqında traktat» da əsl tacirə lazım olan şərtlər haqqında yazırdı. Kitabın ehtiyacı olanlara həyatın bütün hallarında – istər hesablar və yazılar barəsində, istərsə də müxtəlif hesablamalar barəsində xidmət edə bilməsi üçün nə varsa, hamısını bir yerdə toplayaraq, L.Paççoli yazır: «Mən hesab və kitabların lazımi qaydada aparılması üçün kifayət qədər nəsihət verməyi təklif edirəm.Məlum olduğu kimi, ticarəti səliqə ilə aparmaq istəyən hər kəs üçün üç şərt lazımdır. Onlardan başlıcası nağd pul və digər müxtəlif sərvətlərdir, filosofun təbirincə, unum aliquit necessarium est substantia (qaçılmaz vahid məzmundur ki,) bunlarsız da ticarət aparmaq çətindir. Doğrudur, elə oldu ki, bir çoxları varlı olmadan xoş etimad və bu etimadı doğrultmaq sayəsində xeyli dövlət əldə etmişdir. Bəziləri ilə İtaliyaya səfər zamanı şəxsən tanış olmuşam. Əksər respublikalarda namuslu tacirin bircə kəlməsi bəs edir və buna görə də and belə səslənirdi: «Namuslu tacirin sözünə görə». Heç kəs də təəccüblənməsin, çünki katolik dini hər kəsi xilas edir, ondan kənarda isə Tanrıadamı olmaq mümkün deyil.

Ticarətin ikinci şərti işi düzgün aparmağı və tez hesablamağı bacarmaqdan ibarətdir. Bu məqsədlə mən hər əməliyyatın icrası üçün zəruri qayda və nəsihətləri göstərdim. Bu qayda və nəsihətlərin köməyi ilə hər çalışqan kəs hər şeyi özü öyrənə bilər. Kim bunu dərk etməmişdirsə, sonrakı məqamları əbəs yerə öyrənəcək.

Üçüncü və axırıncı zəruri şərt öz işlərini zəruri qaydada və necə lazımdırsa, aparmaqdan ibarətdir. İstər borclar, istərsə də tələblər barəsində hər hansı məlumat ləngidilmədən əldə edilsin, çünki ticarət bundan başqa heç nəyə şamil olunmur».[21] Luka Paççoli ticarətdə qayda gözlənilməsi üçün narahatdır, çünki harada qayda yoxdursa, orada nizamsızlıq başlanır.

Ticarətin vəzifəsi bütövlükdə xalq təsərrüfatı çərçivəsində dünya təsərrüfatının əmək bölgüsü nəticəsində bir-birindən asılı vəziyyətə düşən vəsilələrini onun məhsullarının iqtisadi qanunlara uyğun surətdə mübadiləsi vasitəsilə üzvi bütövlük şəklində dünya təsərrüfatına birləşdirməkdən ibarətdir. Bundan ötrü o, istehsalçı ilə istehlakçı arasında məkan, zaman və

şəxs ayrılığını dəf etməli, ehtiyat və ehtiyaclar arasında tarazlıq müəyyən etməli və bu yolla ticarətlə bağlı ayrı-ayrı təsərrüfatları təsərrüfat qüvvələrinin ən yüksək məhsuldarlığın aşkara çıxmasına şərait yaratmalıdır. Ticarətin vəzifəsinin belə başa düşülməsi aşağıdakı təriflə nəticələnir:

Ticarət dünya təsərrüfatının ayrı-ayrı üzvləri arasında təsərrüfat məqsədəuyğunluğu qanunları əsasında təşkil edilmiş məhsul mübadiləsidir. O, mülkiyyətin başqasının əlinə keçməsi (alqı və satqı), yerinin dəyişməsi (nəqliyyat) və özgələrin tələbatının ödənilməsi üçün buraxılan məhsul ehtiyatlarının (anbar) yaranması vasitəsilə həyata keçirilir. Dünya bazarında ehtiyat və ehtiyaclara qiymətləri yaradan təklif və tələb şəklində rast gəlinir. Odur ki, tacir dünya ticarətinin orqanı qismində qiymətlərin yaradılmasında iştirak edir. O, təklifdə bazara həm də gələcək ehtiyatları, tələbdə isə gələcək ehtiyacları gətirdiyinə görə möhtəkirlik baş verir. Möhtəkirlik dünya bazarı inkişafının gələcək imkanlarını nəzərə alır, yəni konyunkturadan faydalanır.[22]

Öz mahiyyətinə görə ticarət dünya təsərrüfatının əmək bölgüsü nəticəsində istehsal və istehlakda bir-birindən asılı olan son vəsilələrini bir-birinə bağlamalıdır və bağlayır. Hər ayrıca təsərrüfat dünya təsərrüfatının ikili mənada: təsərrüfat və bazarın tələb etdiyi məhsul və xidmətləri verdikdə, sonra isə istehlak predmetləri və xidmətlərin son vəsiləsidir. Buna görə də hər vəsilə dünya təsərrüfatına münasibətdə daim dəyişən mövqe tutur. O, eyni dərəcədə həm istehsalçı, həm istehlakçıdır (artıq bundan əvvəl etdiyimiz qeyd-şərtlə ki, hər təsərrüfatın bilavasitə istehsal enerjisinə başqa təsərrüfatlardan axıb gələn zəhmətsiz gəlirləri də əlavə edirik).

> *«Prinsip etibarilə xammal ticarətində pis şey yoxdur. Tələbat olan hər şey satıla bilər və satılmalıdır. Lakin xammal bazarında kəskinləşən səbatsızlıq: heç bir ölkəyə, xüsusən dayanıqlı iqtisadi yüksəliş trayektoriyasına çıxma iddiasında olan ölkəyə təbii sərvətlər hesabına yaşamağa imkan verir. Bundan ötrü emal sənayesinin və xidmət sahəsinin rəqabətqabiliyyətinin artması, onların məhsullarının dünya bazarına fəal surətdə çıxarılması, beynəlxalq əmək bölgüsünün «yuxarı mərtəbələri»ndə mövqeyinin möhkəmlənməsi zəruridir».*
>
> S.N.Baburin

Son vəsilələr arasında onların məhsullarının mübadiləsi məqsədi ilə əlaqə yalnız xüsusi təşkilat vasitəsilə mümkündür, həm də fərqi yoxdur, o bir son

vəsiləyə, istehsalçıya və ya digər son vəsiləyə, istehlakçıya qoşulur, yaxud da xüsusi təsərrüfat qrupunun, tacirin xidmətindən istifadə edir. Məhsul mübadiləsi üçlü bölgünü: şəxs, məkan, zaman üzrə bölgünü dəf etməlidir. Şəxsi bölgü mübadilənin özü tərəfindən dəf olunur: inkişaf etmiş təsərrüfatda bu məqsədlə ümumi mübadilə vasitəsinin və qiymət ölçüsü-pulun tətbiq edildiyinə görə mübadilə alqıya çevrilir.

Alqı-satın alınmış predmetin verilməsindən və şərtləndirilmiş qiymətin əks tərəfə verilməsindən, ödənişdən ibarət olan ikitərəfli işdir. Hər iki işin məkan və zaman bölgüsü nəticəsində kredit tətbiq olunur və bundan əlavə, ödəniş, pul və kredit tədavülü müstəqil təsərrüfat funksiyalarıdır. Buradan belə nəticə çıxarılmalıdır ki, bizim ticarət haqqında anlayışımıza pul bazarı və xüsusən də bütün bank işi daxildir.

Məkan bölgüsünü dəf etmək üçün yeni xüsusi təşkilat, əmtəə nəqliyyatı və onunla bağlı çoxlu müəssisə (məsələn, yüklərin sığortası) tətbiqi zərurətə çevrilir.

Məhsul yığımları aralıqlarından, istehsal və istehsal yerləri arasında məsafədən, gələcək tələbat üçün vaxtında məhsul tədarük olunmasından irəli gələn istehsal və istehlakın zaman bölgüsünün dəf edilməsi məqsədi ilə xüsusi təsərrüfat fəaliyyəti göstərmək lazım gəlir.

Bura ehtiyatların tədarükü və bu işlə bağlı bütün müəssisələr (anbar ticarəti) aiddir. Həmin üçlü bölgünün dəf edilməsinin ticarətin vəzifəsi olduğuna görə ticarət təşkilatı üç müxtəlif təsərrüfat vəzifəsini yerinə yetirməli olur. Bir tərəfdən, istehsalçıya ödənilməsi haqqın həcmi və digər tərəfdən, istehlakçının başqalarının tədarük etdiyi istehlak predmetlərini əldə etmək bacarığı pulla ifadə edilmiş dəyişmə dəyərindən, yəni qiymətdən asılı olduğuna görə hər iki son vəsiləni bir-birinə bağlayan təşkilatın payına həm də qiymətlərin müəyyən edilməsi kimi mühüm vəzifə düşür. Yuxarıda deyildiyi kimi, dünya bazarı yerinə yetirir; burada bir tacir istehsalçının ehtiyatlarını (təklif), digər tacir istehlakçının ehtiyaclarını (tələb) təmsil edir. Qiymət istehsalçının müxtəlif təşkilatları arasında və istehlakçının müxtəlif təşkilatları arasında rəqabət nəticəsində müəyyən olunur. Rəqabət maraqlar zidliyini, qiymətlərin bəhsləşməsini, rəqabəti aradan götürmək cəhdlərini, bazara qiyməti əvəzləyicisindən kənara çıxarmaq üçün min cür təsirləri doğurur.

Bura, hər şeydən, əvvəl bazarda ticarət və onu təmsil edən tacir sayəsində nəzərə alınan, mövcud ehtiyatların qiymətini aşağı salan gələcək

ehtiyatlar aiddir. Əks maraqların təmsilçiləri mövcud istehlak predmetlərinin qiymətini qaldıran gələcək tələblərin nəzərə alınmasını qarşı qoyurlar. Hər iki cərəyanın bazara təsiri qiymətlərin təklifi üstün olduqda aşağı düşməklə, tələb üstün olduqda yuxarı qalxmaqla aramsız dəyişməsində ifadə tapır. Belə vəziyyət qiymətlərin bəhsləşməsi hər iki tərəf üçün təbii amillərin təsiri qarşılıqlı surətdə iqtisadi cəhətdən məqbul olan hansısa orta məxrəcə razılıq verməyincə davam edir. Bu, ticarətə ikili təsir göstərir, belə ki, o, səmərəli və möhtəkir ticarətə parçalanır.

Bütün yuxarıda deyilənlər dünya bazarında dünya təsərrüfatının saysız-hesabsız amillərinin mövcudluğunu göstərir. Bunlar qiymətlərə təsir göstərir, odur ki, dünya bazarı həmişə konyunkturanın təsiri altındadır. Konyunkturadan istifadə ticarəti möhtəkirlik aləminə gətirir: odur ki, ticarət anlayışına bu ehtikar məqam da daxil edilməlidir. V.Zombart qeyd edir ki, xüsusi möhtəkir kapitalist sahibkar tipidir. O, «ehtikar müəssisələrin banisi və rəhbəridir. Belələri himayədar öz ideyasını gerçəkləşdirmək üçün lazımi vəsaiti əldə etdiyi anda meydana çıxırlar».[23] V.Zombart ehtikarlığı sahibkarlıq ruhunun, onunla birlikdə isə çox tez dünya miqyasına yüksələn kapitalist bazarının inkişafı ilə əlaqələndirir. «Möhtəkirsayağı qızğınlıq» kapitala çevrilən, dividend gətirən və ajiotaj tələbin əli çatan dövlət borclarını tədricən əhatə edirdi.

Möhtəkir fəaliyyətini V.Zombart sahibkarlıq ruhu ilə əlaqələndirir. Möhtəkir fəaliyyətinin nəzərə çarpan əlaməti bundan ibarətdir ki, «o (heç olmasa öz müəssisəsinin əsasını qoyarkən) özündə yeni qüdrət mənbəyi kəşf edir, bu, təlqin qüvvəsidir və o, həmin qüvvənin köməyi ilə bütün planlarını həyata keçirir. O, hərəkətverici qüvvə kimi ümidi qorxunun yerinə qoyur».[24] Lakin bu, möhtəkirin bir növ psixoloji xarakteristikasıdır. Bununla belə o, ticarət, maliyyə, birja işləri və s. kimi başlanğıcların həyata keçirilməsində çox mühüm rol oynayır. Möhtəkirlər vahid sahibkarlıq fəaliyyəti zəncirinin həlqəsidir.

İ.F.Şerr deyir ki, – dünya təsərrüfatının son hissəsləri arasında bütün ticarət əlaqəsi bir əldə cəmləşə və ya ayrı-ayrı hissələrə parçalana bilər. Ən təbii bölgü onun üç hissəyə bölünməsidir. Biz bunları tədarük, bölüşdürmə və vasitəçilik ticarəti adlandırırıq. Birincinin, yəni tədarük ticarətinin üzərinə istehsal məhsullarının toplanması düşür: ayrı-ayrı, dağınıq, cüzi və daha böyük ehtiyatlar bir əldə, bir yerdə cəmləşdirilməli, nəql edilməyə uyğunlaşdırılmalı və dünya bazarına çatdırılmalıdır. Əks tərəfdə bölüşdür-

mə siyasəti durur ki, onun da vəzifəsi alıcı tələbatının həcm və xarakterinə uyğun malları dünya bazarından müvafiq yerə gətirməkdən, burada anbara vurmaqdan, hər an xırda və tək-tək tələbi ödəməkdən ibarətdir.

Ticarətin bu iki növü arasında heç bir yerlə bağlı olmayan, bir tərəfdən tədarük ticarətinə, digər tərəfdən bölüşdürmə ticarətinə söykənən, bəlkə də dünya bazarının ən mühüm orqanı olan vasitəçilik ticarəti durur.

Bu üç başlıca vəsilənin, onların qarşılıqlı münasibətlərinin və maraq ziddliyinin, yeni vəsilələri törətmək və ya aradan qaldırmaq meyillərinin daha ətraflı nəzərdən keçirilməsi sonrakı tədqiqatların vəzifəsini təşkil edəcək. Burada biz yalnız müəyyən edəcəyik ki, ticarət anlayışı müəyyənləşdirilərkən ticarətin bu üç başlıca vəsiləsi vəzifələri qeyd olunmalı idi, çünki, məhz bu vəsilələrin doğurduğu zidd maraqların toqquşması ticarətin təşkili haqqında təlimin mühüm hissəsini təşkil edir.[25]

Ticarətin üzərinə ehtiyat və ehtiyacları tarazlaşdırmaq vəzifəsi düşür. Bazar məhsul satışının miqdar və qiymətini müəyyənləşdirdiyinə görə istehsalı, həm də təkcə bütövlükdə istehsalı deyil, ayrı-ayrı sahələrin, müxtəlif məhsul növ və qruplarının istehsalını da tənzimləyən qüvvəyə çevrilir. Beləliklə, son nəticə etibarilə məhz dünya bazarı və ya onun orqanı olan ticarət istehsal artıqlığına, məsələn, saatların və ya əlcəklərin tələbdən çox buraxıldığına reaksiya verir və bunların istehsalını istehsal satış xərclərini örtən həddə qədər azaldır. Dünya bazarı, misal üçün, saatların həddən az və ya əlcəklərin həddən çox istehsal edildiyini, kauçukun həddən az və ya qəhvənin həddən çox olduğunu və s. göstərən yeganə instansiyadır. Ticarət bazarda təkcə istehsalçıları deyil, istehlakçıları və onların alıcılıq qabiliyyətini də təmsil etdiyinə, sonuncunun isə intəhasız orta bilmədiyinə, müəyyən həcmdən ibarət olduğuna görə məhsul qiymətlərinin səviyyəsi də dünya bazarında hüdudlarını tapmalıdır. Bazarın tutumu alıcılıq qabiliyyətinin dəyişən həcmindən asılıdır və buna görə istehsal artımına məkanın güclənməsi və ya zəifləməsi demək olar həmişə istehlak qabiliyyətindən asılıdır. Ticarət və ya tacir dünya bazarında bu alıcılıq qabiliyyətini təmsil etdiyinə görə aydındır ki, bu istiqamətdə onun payına istehsalla istehlak arasında tarazlıq yaratmaq düşür.

Qeyd olunmalıdır ki, dünya bazarı təsvir edilərkən dünya bazarının əhəmiyyəti və qüdrəti məkan və ya zamanda təmərküzləşmədən asılı vəziyyətdə deyil. Dünya bazarı alıcı və satıcıların təsadüfən və ya müntəzəm surətdə rastlaşdığı və sərbəst rəqabət şəraitində sövdələşib əqd bağladığı hər

yerdə mövcuddur. Bütün ayrı-ayrı bazarların vəhdəti ticarətin ümumi təşkili ilə, başlıcası isə inkişaf etmiş rabitə və xəbərvermə xidməti ilə təmin olunur. Əlbəttə, qeyd-şərt etmək lazımdır ki, ayrı-ayrı bazarlarda eyni qiymətlər müəyyən edilərkən onların məkan və zaman bölgüsü ucbatından çətinliklər yaranır, necə ki, bu, misal üçün, istehsalda və ya tələbatda qəflətən özünü göstərən mühüm dəyişikliklər, təbii fəlakətlər, yerlərdə məhsulsuzluq, nəqliyyatın işinin pozulması halları, müharibə və s. zamanı baş verir. Lakin belə hallarda da ticarət özünün təşkili sayəsində çox tez bir vaxtda tarazlığı bərqərar etmək üçün vasitə və üsullarını tapa bilir. Bununla birlikdə qeyd olunmalıdır ki, ticarətin təşkili kiminsə vahid iradəsindən irəli gələn hansısa planauyğunluqla yaradılmış iş deyil, bütün təsərrüfatın hərəkətverici qüvvələrinin labüd məhsuludur. Hər tacir istər-istəməz bu təşkilatın ya fəal üzvünə çevrilir, ya da passiv surətdə ona tabe olur. Buna görə də belə demək olar: istehsalçı ilə istehlakçı arasında əlaqənin zor gücünə (inhisarlar, firmalar və s.) pozulmadığı yerdə dünya təsərrüfatının son vəsilələri arasından dünya bazarı vasitəsilə ikiqat axın keçir, həm də ticarət onların zəruri əlaqələndirici vasitəsinə çevrilir.

## 6. DÜNYA TİCARƏTİ PRİNSİPLƏRİNİN TƏŞƏKKÜLÜ

Ticarət təsərrüfat qüvvələrinin, bir-birinə bağladığı dünya təsərrüfatı vəsilələrinin inkişafına yardım edir. Ticarətin belə başa düşülməsinə qarşı «ticarət» anlayışının tarixi kateqoriyalarına mənsub olduğunu göstərməklə etiraz edənlər var: buna görə də onlar iddia edirlər ki, ticarət mükəmməl iqtisadi quruluşda necə ola biləcəyi baxımından deyil, yalnız öz tarixi inkişafında hansı səviyyəyə çatdığı və faktiki olaraq nəyə çevrildiyi baxımından qiymətləndirməlidi. Belə olduqda isə ticarətin ideallaşdırılmış ideyasından danışmaq artıq lüzumsuzdur. Burada biz yenidən sırf elmlə tətbiqi elm arasında fərqə müraciət edirik. Ticarətin təsərrüfat fəaliyyəti və məqsədəuyğunluq prinsipləri əsasında təşkil edilmiş məhsul mübadiləsi olduğunu demək heç də kimlərinsə düşündüyü kimi ticarətin qiymətini norma mənasında, «necə olmalı idi» baxımından ifadə etmək deyil, çünki ticarətin mənşəyi, yaranması səbəbinin özü bir-birinə bağladığı ictimai təsərrüfat vəsilələrinin təsərrüfat fəaliyyətinə kömək göstərməsi faktından irəli gəlir və beləliklə də məqsədəuyğundur. Bu cür qiymət vermək yalnız

faktın təsdiqindən ibarətdir. Eynilə orqanizmdə də hər orqan bütün orqanizmin salamatlığı üçün işləyir, həm o özü də yaşamaqdan ötrü enerjisini və nə lazımdırsa, hamısını bütün orqanizmə xidmət vəzifəsini nə dərəcədə yerinə yetirməyindən asılı olaraq alır. Bu ümumi üzvi qanun, əlbəttə, ümumən xalq təsərrüfatına və o cümlədən ticarətə də tətbiq olunduqda qüvvəsini saxlayır; o, yaşamaq hüququnu və yaşamaq imkanının özünü bütün xalq təsərrüfatına göstərdiyi xidmətlər müqabilində əldə etməlidir. Bunu ticarətin tarixi inkişafına gözucu baxanda da yəqin etmək mümkündür.[26]

İ.F.Şerr hesab edir ki, həmin məqsədlə ticarətin ən qədim formasına – hələ daş dövrünün mağara sakinləri arasında mövcud olmuş bilavasitə təsərrüfatlar arasında məhsul mübadiləsinə müraciət olunmalıdır. Biz bu barədə belə əsasla mülahizə yürüdə bilərik ki, çaxmaq daşından alətlərin hazırlandığı mağaralar aşkara çıxarılmışdır, bu alətlərin bütün mağaralarda tapılması isə artıq o zaman əmək bölgüsünün və onunla bağlı mübadilənin mövcud olmasına sübutdur. Bəs həmin bu son dərəcə primitiv mübadilə necə aparılırdı? Bunu təsəvvürə gətirmək çətin deyil. Mağara sakinlərindən bəziləri təsadüfən tərkibində silisium olan təbaşir yataqları yaxınlığında yaşayır və çaxmaq daşından alət hazırlaya bilir və, görünür, bu alətləri ehtiyat üçün də istehsal edirdilər. Yaxınlıqda yaşayan mağara sakini ovda olanda həmin yeni aləmin əhəmiyyəti haqqında təsəvvür alandan sonra təbii ki, özündə də belə alətin olmasını istəməli idi. O, özünə lazım olan ayı xəzlərini sözü gedən alətə dəyişdirmək üçün onun sahibi ilə danışıq aparır, onu inandırmağa çalışır (əlbəttə, güman ki, o, zor gücünə və ya hiylə ilə, yəni soyğunçuluq yolu ilə aləti ələ keçirməsə). Sonuncu onu soyuqdan və küləkdən qoruyacaq xəzi almağa şaddır və çaxmaq daşından hazırlanmış bıçağını tərəddüdsüz olaraq verir. İlk ticarət əqdi bağlanmışdır. İşti-

> *«Mən əmtəə və ya pul ticarətindən kapitalist müəssisələrini inkişaf etdirənlərin əvvəlcə əmtəə və pul ticarətinin özündə xırda sənətçilik istehsalatlarını ilkin çərçivəsindən kənara çıxarıb kapitalist müəssisələrinə çevrilənlərin hamısını (sahibkar kimi) tacir adlandırıram. Bu son nəticə etibarilə «kəmiyyət keyfiyyətinə keçməyincə» nəzərə çarpmadan bir təsərrüfat formasını digərinə çevrildiyi, tədricən, addım-addım genişlənmə hadisəsi şübhəsiz (indi də hər gün rast gəlindiyi kimi) çox özəl idi.»*
>
> V.Zombart

rakçılardan hər biri özünün başqasının dəyişdirilən məhsulunu hazırlaması imkanı nə qədər az idisə və deməli, birinin zəngin ov yerləri ilə digərinin silisium yataqları arasında məsafə nə qədər böyük idisə, bir o qədər çox sərfə əldə edirdi. Quş, heyvan vurmaq, ağac qırmaq, gövdə oymaq və yüz cür başqa iş görmək üçün lazım olan alətlər haqqında xəbər qonşudan qonşuya, mağaradan mağaraya keçir. Hər kəs özü üçün daş balta əldə etmək istərdi, məhsul mübadiləsini asanlaşdıran vasitəçilər meydana gəlir. Görünür, bu ibtidai mübadilə hər iki iştirakçının həyat şəraitini yaxşılaşdıraraq, işini yüngülləşdirirdi. Ov yerlərində yaşayan mağara sakini uğurla quş, heyvan vura, həyatını rahat qura bilirdi, digəri soyuqdan qorunmaq üçün ayı xəzindən istifadə edir, iş qabiliyyəti artır, əhvalı yaxşılaşırdı. Hər kəs öz artığından bir az başqasına vermiş, hər ikisi öz iş qabiliyyətini artırmış və mübadilə nəticəsində tələbatını daha yaxşı ödəmək imkanı qazanmışdır.[27]

Elə bu müstəvidə var-dövlət qazanmağın ən başlıca şərti kimi ticarət haqqında düşünərək, A.Tyurqo artıq merkantilizmin süqutu dövründə yazırdı: «Qarşılıqlı tələbat, olanın olmayana dəyişdirilməsi ilə nəticələndi. Bir malı digər mal və əməyə dəyişməyə başladılar. Bu mübadilələrdə hər iki tərəf hər dəyişdirilən əşyanın keyfiyyət və miqdarı barəsində razılığa gəlməli idi. Təbii ki, hələlik razılaşmada hər kəs daha çox almaq və daha az vermək istəyir. Hər ikisi mübadiləyə təklif etdiyinin eyni bərabərdə sahibi olduğuna görə hər biri verdiyi əşyaya bağlılığı dərəcəsini özünün başqa əşya almaq istəyi ilə müqayisədə müəyyənləşdirməlidir və deməli, dəyişdirilən predmetlərdən hər birinin miqdarını müəyyənləşdirməlidir. Əgər onlar dərhal razılığa gəlmirlərsə, biri digərinə azca güzəştə gedərək, daha çoxu təklif edərək və ya daha azla kifayətlənərək, ümumi dil tapmalıdırlar. Mən güman edirəm ki, birinin taxıla, digərinin şəraba ehtiyacı var və hər ikisi müəyyən çəkidə taxılın altı pinta şəraba dəyişdirilməsi haqqında razılığa gəlir. Görünür, onlardan hər biri üçün müəyyən çəkidə taxılın qiyməti altı pinta şərabın qiymətinə bərabərdir və bu ayrıca mübadilədə müəyyən çəkidə taxılın qiymətini altı pinta şərab, sonuncunun qiymətini isə müəyyən çəkidə taxıl təşkil edir. Lakin başqa insanlar arasında başqa mübadilədə bu qiymət onlardan hansının başqasının malına daha çox və ya daha az dayanıqlı ehtiyacından asılı olaraq fərqlənəcək. Digər çəkidə taxıl səkkiz pinta şəraba dəyişdirilə bilər: halbuki, başqa çəkidə taxıl yalnız dörd pinta şəraba dəyişdirilir. Buradan tam aydınlığı ilə görünür ki, bu üç qiymətdən heç biri taxıl çəkisinin əsil (veritable) qiyməti kimi baxılmamalıdır, çünki

alınmış şərab razılığa gələnlərdən hər biri üçün verdiyi taxılın ekvivalentidir; bir sözlə, əgər hər mübadiləyə təcridlənmiş və əlahiddələşmiş şəkildə baxılsa, dəyişdirilən əşyaların hər birinin dəyərliliyinin razılığa gələn tərəflərin bir-birini tarazlaşdıran tələblərindən və ya arzularından savayı digər ölçüsü yoxdur və dəyərlilik yalnız onların istəklərinin uzlaşdırılması ilə müəyyən edilir».[28] Ticarət hər mala başqa mala nisbətən cari dəyərliliyini verir. Burada belə qənaətə gəlmək olar ki, hər hansı mal bütün başqa müxtəlif malların müəyyən miqdarının ektivalentidir və «onların girovu» kimi nəzərdən keçirilə bilər.

Müasir təsərrüfatda ticarətin xarakteri dəyişməz qalır. İnkişaf etmiş dünya təsərrüfatında da mübadilə subyektlərinin qarşılıqlı münasibətləri eynilə bundan qabaq olduğu kimi qalır. Dünyanın müxtəlif regionlarında mal istehsalçıları məhsullarının mübadiləsindən həm öz məhsuldarlığı, həm də varlıq

şəraiti baxımından faydalanırlar. Yeni dövrün dəyişdirmə əqdləri ən qədim dövrün dəyişdirmə əqdlərindən əslində mübadilənin asanlaşması üçün əlavə olunan iki məqamla: pul və tacirlə fərqlənir.

A.Tyurqo yazırdı ki, hər mal bütün başqa malların dəyərliliyinin müqayisəsi üçün ümumi meyar ola bilər. «Ticarətin çox canlandığı, çox məhsul istehsal və istehlak edildiyi, hər cür mallar üçün tələb və təklifin yüksək səviyyədə olduğu ölkədə hər mal növünün başqa növə nisbətdə cari qiyməti olacaq, yəni bir malın müəyyən miqdarı başqa mallardan hər birinin müəyyən miqdarına bərabər olacaq. Beləliklə, on səkkiz pinta şərab qiymətində olan eyni miqdarda taxıl, bir qoyun, bir aşılanmış dəri, müəyyən miqdarda dəmir qiymətində olacaq və bütün bunlar ticarət dövriyyəsində eyni dəyərliliyə malik olacaq.

Hər bir ayrı halda hər bir əşyanın dəyərliliyini ifadə etmək və bilmək üçün, görünür, ekvivalent kimi baxılacaq başqa malın miqdarını bilmək bəsdir. Belə ki, gönün müəyyən həcminin neçəyə olduğunu bilmək üçün sadəcə üç taxıl çəkisinə və ya on səkkiz pinta şərabadır demək olar: Eynilə müəyyən şərab miqdarının qiymətini ticarət dövriyyəsindəki qoyunların sayının və ya taxılın miqdarının qiyməti ilə ifadə etmək olar.

Buradan belə nəticə çıxır ki, ticarət predmeti olan bütün mallar, necə deyərlər, qarşılıqlı surətdə bir-birini ölçür, hər biri bütün başqa malların qiymətlərinin müqayisəsi üçün ümumi və ya şkala ola bilər. Eynilə hər mal

da kimin əlindədirsə, ondan ötrü bütün başqa malları almaq vasitəsinə, bir növ ümumi girova çevrilir.»[29]

Lakin heç də hər mal bir bərabərdə münasib qiymətlər miqyasını təmsil etmir. Odur ki, mahiyyətinə görə bütün başqa malları təmsil edə, onların dəyərinin ifadəsi üçün ümumi meyar və əldə edilməsi üçün ümumi girov ola bilən malı istehlakdan ötrü seçmək lazım gəlir.

Buna görə də «daha çox ümumi istehlakda və həmin səbəbdən daha çox qiymətdə olmaqla, daha yüksək dərəcədə öz aralarında oxşar, dəyəri keyfiyyətdən daha çox saydan və dəyəri miqdardan asılı olan malların müqayisə miqyası kimi» seçilməsinə üstünlük verilməlidir. Qiymətlə say və ya miqdar arasında dəqiq uyğunluğun olmadığından bir növ ideal sikkəyə çevrilən orta qiymət üzərində dayanmaq lazım gəlir… Qoyunların yalnız bir cinsinin olduğu ölkədə bir qoyun yununun və ya bir qoyunun qiymətini ümumi ölçü kimi götürmək asandır; bu zaman demək olar ki, bir çəllək şərab və ya bir ton parça qoyun yununun və ya qoyunların müəyyən miqdarının qiymətinədir. Əslində isə qoyunlar arasında bəzi fərqlər, qoyunların satılmasından söhbət gedəndə bu fərqləri qiymətləndirməyə və məsələn, quzunu bir qoyun hesab etməyə çalışırlar. Hər hansı başqa malı qiymətləndirmək lazım gəldikdə bir vahid kimi orta yaşlı və orta çəkili qoyunu götürürlər.[30]

Bütün millətlərin ticarət dövriyyəsində malların qiymətlərinin ifadəsi üçün, necə deyərlər, şərti dil olan belə qondarma qiymətlərə dair çoxlu misal məlumdur. Belə ki, A.Tyurqonun dediyinə görə, ərəb tacirləri ilə qızıl qum ticarəti aparan Mandinqo zənciləri bütün malları hissələri manuta adlanan uydurma şkalaya uyğunlaşdırır. Buna görə də tacirlərə deyirlər ki, onlar qızıl pulla filan qədər haqq ödəməlidirlər. Eyni makutalarla onlar aldıqları malları qiymətləndirir və tacirlərə həmin qiymət barəsində mübahisə edirlər. Eynilə Hollandiyada ticarət dövriyyəsində florin adlanan puldan ya baha, ya da ucuz qiymətləndirilən, yalnız qondarma pul olan bona florinləri ilə hesab aparırlar.[31] Bununla birlikdə hər hansı mal hər hansı qiyməti ölçmək və təqdim etmək kimi iki mühüm xüsusiyyətə malikdir və bu mənada hər hansı mal puldur. «Bu iki xüsusiyyət bütün sərvətlərin ümumi ölçüsü və eyni dəyərli bütün malları təmsil edən girovdur – pul adlanan amilin bütün mahiyyətini və faydalılığını ehtibar edir; indi üzərində dayandığım xüsusiyyətlərin nəzərdən keçirilməsindən belə qənaətə gəlmək mümkündür ki, bütün mallar müəyyən mənada puldur və onun iki

mühüm xüsusiyyətinə hər malın mahiyyətindən aslı olaraq az-çox malikdir. Bütün mallar ümumi istifadəyə qalma vaxtının, keyfiyyətcə oxşarlığının və bərabər qiymətli hissələrə bölünməsi asanlığının çoxluğundan və ya azlığından asılı surətdə ümumi meyar olmağa az-çox yararlıdır. Məhvə və miqdarında, yaxud da keyfiyyətində dəyişikliyə mail bütün mallar mübadilələrdə az-çox ümumi, girov ola bilər»[32] . Öz növbəsində hər pul da əslində əmtəədir. Yalnız ticarətdə öz dəyəri olan və başqa dəyərlərə dəyişdirilməklə qəbul edilən nə varsa, hamısı qiymətlərin ümumi ölçüsü kimi qəbul oluna bilər. Qiymətli olan ümumi girov bərabər qiymətli başqa girovsuz ola bilməz.

Lakin pullar mübadilənin mahiyyətini dəyişdirmir. Onlar yalnız ibtidai aktı mürəkkəbləşdirir, çünki mübadilə ikili sövdəyə: pulla ifadə olunan qiymət müqabilində satışa və pul müqabilində alqıya çevrilir. Lakin aydındır ki, alıcının mala görə ödədiyi pul onun öz malının satışından hasil olan pullardan götürülür. Məhsul tədavülündə pul tətbiqi ilkin çox sadə dəyişmə aktını gizlədir və mürəkkəbləşdirir, amma bununla belə, dəyişmə aktı dünya təsərrüfatının iki vəsiləsi arasında eynilə məhsul mübadiləsi olaraq qalır. Pullu olmaq yalnız cəmiyyət üçün görülmüş işin əvəzini almaq deməkdir və bu pula özgənin işinin müəyyən miqdarı satın alına bilər. Əmək mübadiləsi məhsul mübadiləsinin eynidir. Deməli, pul mübadiləsinin əsas aktını dəyişdirə bilməz. Alqıda da dəyişmə aktı bağlanır, bir predmet digər predmet əvəzinə verilir.[33]

## 7. TİCARƏT VƏ GƏLİR

Məhsulların mübadilədə dövr etməsi vasitəçiliyin tətbiqi nəticəsində mübadilənin mahiyyəti az dəyişmişdir. Tacirin meydana çıxmasına qapalı ev təsərrüfatının genişlənib, şəhər, milli və dünya təsərrüfatına çevrilməsi səbəb olmuşdur. İngiltərədəki istehsalçı Avstraliyadakı alıcını tanımır və əksinə hər ikisi qarşılıqlı asılılığı hiss etmədən bir-birinin məhsullarını istehlak edir; odur ki, üçüncü şəxs onların arasında üzvi surətdə əlaqə yaratmalıdır. Tacir hər iki yerdə öz təsərrüfatının tələblərindən əlavə, özgələrin tələbatının ödənilməsi üçün istehsal olunmuş məhsulların alıcısı rolunda çıxış edir və həmin məhsullara görə onların pulla hesablanan dəyərini ödəyir. Lakin eynilə o, həm burada, həm orada satıcı rolunda çıxış edir və bu məhsullara görə onların pulla hesablanan dəyərini alır. Odur ki, əgər biz ticarətin əsasına onun ilkin formasını, hər iki vəsilə arasında bir şəxsin köməyi ilə yaranan bilavasitə əlaqəni qoysaq, aydınlaşar ki, tacir

birinə digərindən aldığı pula haqq ödəyir; deməli, görünür ki, o, həmin vəsilələr arasında artıq yuxarıda xatırladığımız üçlü bölgünü (şəxs, məkan və zamanda) dəf edərək, dünya təsərrüfatının hər iki vəsiləsi arasında vasitəçidir.

Tacir insanları uğurlu birgə fəaliyyətdə birləşdirə bilən təşkilatçıdır. V.Zombart hesab edir ki, «bir təşkilatçı kimi tacir «yaxşı danışıq aparmağı, razılığa gəlməyi və sövdələşməyi...» bacarmalıdır. «Ticarət məhdud mənada, yəni təsərrüfat işlərində danışıq aparmaq mənasında yalnız ümumiyyətlə danışıq təzahürlərindən biridir.»[34] Bu xüsusi mənada ticarət işi aparmaq hansısa malın (səhmin, müəssisənin, istiqraz vərəqəsinin) satın alınması və ya satılması haqqında danışıq aparmaq deməkdir. Dövşan xəzi satmaq üçün aşpaz qadınla sövdələşən də, xırda ayaqçı da və ya şalvar-tuman satmaq üçün kənd arabaçısını uzun-uzadı inandıran da köhnə kürüşçü yəhudidə, habelə neçə-neçə gündür davam edən konfransda Prussiya «danışıqçı» sı ilə xüsusilə mürəkkəb şərtlərlə milyonluq borc haqqında razılaşma bağlayan da Natan Rotşild də, yaxud da bütün federasiyanın dəmir yol cəmiyyətləri ilə tariflərin tənzimi haqqında məsləhətləşən də Standartd Oil Company təmsilçiləri də (sözün elə həmin spesifik mənasında) ticarət aparırlar. Burada sırf kəmiyyət fərqləri özünü göstərir, işin mahiyyəti isə eynidir: hər müasir «alver»in ruhu danışıqlardır ki, bunlar müxtəlif formada aparıla bilər.

Söhbət həmişə alıcını (ya da satıcını) müqavilə bağlamağın sərfəli olmasına inandırmaqdan gedir: bütün əhali məhz satıcının tariflədiyi predmeti satın almaqdan başqa heç nəyi daha vacib saymayanda, insan kütləlləri onu vaxtında almaq fürsətini əldən verdiklərinə görə çaxnaşmaya düşdükdə satıcı idealına nail olunur. Odur ki, maraq oyatmaq, etimad qazanmaq, satın almaq istəyini aşılamaq, bunlar da xoşbəxt tacirin fəaliyyəti görünür. Fərqi yoxdur, buna necə nail olunur. Bilmək kifayətdir ki, bu, zahiri deyil yalnız daxili məcburiyyət xüsusiyyətləridir, yəni əks tərəf öz iradəsi xilafına deyil, öz qərarı ilə müqaviləyə daxil olur. Tacir təlqin etməlidir. Daxili məcburiyyət formaları isə çoxdur.[36]

Tacirin rolu çoxölçülü olsa da, bütövlükdə mal istehsalçıları, alıcı və satıcı arasında mal (məhsul) mübadiləsinin planlı təşkilinə yönəlməlidir. Deməli, sənət şəklində təşkil olunmuş ticarət onun bir-birinə bağladığı təsərrüfatlar arasında planauyğun məhsul mübadiləsindən başqa heç nə deyil. Məhz bu mübadiləni təşkil etmək və planlı şəkildə aparmaqla ticarət onu asanlaşdırır, istehsal və istehlak baxımından bir-birinə bağladığı vəsilələrin sərhesablılığına kömək göstərir. Sübuta ehtiyac yoxdur ki, burada təsviri verilən münasibətlər əgər mübudilə əməliyyatları bir əldə cəmləşməmişdirsə, eyni vəziyyətdə qalır. İndi olduğu kimi müstəqil hissələr parçalanır. Dəyişdirmə prosesinin mahiyyəti də mütəşəkkil istehlakçıların özü təsərrüfat sahəsində istehlak olunan məhsulları tədarük etdikdə (ictimai ticarət) və ya istehsalçılar məhsullarını bilavasitə istehlakçıya satmağa çalışdıqda (istehsal ticarət) az dəyişir. Ticarət dünya təsərrüfatının əmək

bölgüsü ilə mübadiləyə sövq edilən vəsilələri arasında, ticarətin tacirlər, fabrikantlar və istehlak cəmiyyətləri tərəfindən asılı olmadan təşkil edilmiş məhsul mübadiləsidir.[37]

Ticarətin belə təriflərinə qarşı etiraz edə bilərlər ki, tacir heç də bir-birinə bağladığı vəsilələr üçün faydalı olmaq və onların təsərrüfat qüvvələrinin inkişafına kömək etmək məqsədi ilə deyil, öz xeyri naminə, gəlir əldə etməklə öz sənəti ilə məşğul olur.

> *«Tələbatın daim artan dərəcədə ödənilməsini elan edən strategiya bir sadə, lakin insan üçün xoşagəlməz müddəaya məhəl qoymur. Sosial istehlak ilk növbədə hörmət istehlakıdır və o (insanın bioloji əsasını xarakterizə edən fizioloji tələbatdan fərqli və sosial tələbatla müqayisədə daha sabit olan) sivilizasiya ilə artırılır».*
>
> İ.V.Yefimçuk

Bu məsələnin anlaşılması üçün tacirin niyə ticarət fəaliyyətinə başlamasını, hansı şəxsi səbəblərin onu öz bacarıq və enerjisini məhsul mübadiləsi prosesinə həsr etməyə sövq etdiyini aydınlaşdırmaq lazımdır. Şübhə yoxdur ki, hər hansı başqa təsərrüfat subyekti kimi tacirin də təsərrüfat fəaliyyəti yaşayış vasitələri əldə edilməsinə yönəldilmişdir. Əlbəttə, istisna olunmur ki, onun səbəbləri başqa müstəvidədir; axı o, bu işi ictimai fayda haqqında mülahizələrə və ya kefi istədiyinə görə yerinə yetirə bilərdi. Lakin bütün hallarda bu da həqiqətdir ki, o, bir-birinə bağladığı hər iki təsərrüfata xeyir gətirir və buna görə də hər ikisindən haqq almağa ixtiyarı var. Bununla birlikdə belə nəticəyə nail olmaq üçün hər tacir «soyuqqanlı olmalı və arzulanan nəticəyə daha yaxşı xidmət edən vasitə tapmağa qadir olmalıdır».[38]

Daha bir xüsusiyyət — tacir dəllala oxşayır. Sonuncu rastlaşdırdığı hər iki tərəfdən, alıcı və satıcılardan qabaqcadan şərtləşdirilmiş komisyon haqq alır, çünki hər ikisinə faydalı xidmət göstərir. Müstəqil tacir də sözün geniş mənasında dəllallaldır. Buna görə də məhsulu tacir tərəfindən dünya bazarına çatdırılantəsərrüfat subyekti həmin dəllaldan lazım olan təklifləri alan hər hansı başqa təsərrüfat subyekti kimi onu mükafatlandırmalıdır. Dəllalla tacir arasında fərq bundan ibarətdir ki, görülmüş iş üçün tacirə ödənilәsi haqq dəllal barəsində olduğu kimi, qabaqcadan müəyyənləşdirilmir (komisyonçu və agentlər istisna olmaqla), amma ucuz almaq, baha satmaq düsturunda ifadə olunur. Lakin bu, ancaq o deməkdir ki, tacir həm satan istehsalçıdan və alan istehlakçıdan da haqqını alır. Əgər o, həm də qazanmaq imkanlarından istifadə edirsə, ticarətlə istehsalçı və istehlakçının məkan və zamanla bir-birindən ayrılmasından irəli gələn ticarətlə hərəkətə gətirilən məhsulların dəyərini öz xeyrinə artırmaqdan faydalanırsa, yalnız bu onun qanuni hüququdur, çünki digər tərəfdən, o, qiymətləri aşağı salmaq riskinə getməlidir. Taciri həmin riskdən azad etsələr, o, əvvəlcədən müəyyənləşdirilmiş mükafat müqabilində işləməyə hazır olacaq. Odur ki, ticarət anlayışı müəyyənləşdiriləndə qazanmaq istəyi

həlledici amil kimi buraya daxil edilməməlidir. Əmək bölgüsü və təsərrüfat aləminin genişlənib, bütün ölkələri, xalqları əhatə etməsi nəticəsində ticarət dünya təsərrüfatının zəruri faydalı vəsiləsidir. Tərəddüdsüz etiraf etmək olar ki, subyektiv olaraq tacir peşəsinin məqsədi yaşayış vasitələri hasil etməkdən ibarətdir, hər hansı başqa özəl təsərrüfatda olduğu kimi tacir də öz əməyindən, kapitalından müəyyən mənfəət əldə etmək istəyir, lakin ticarət anlayışı müəyyənləşdiriləndə öz təsərrüfatına xas olan mənfəət götürmək meyili ikinci dərəcəli əhəmiyyətə malikdir. Vacib olan və əhəmiyyətini saxlamaqda davam edən məsələ ondan ibarətdir ki, istehsalçı və istehlakçı kimi o da dünya təsərrüfatı orqanıdır və buna görə də ticarət ümumiyyətlə hər hansı təsərrüfat fəaliyyəti ilə eyni qanunlara tabedir. Tacirin əməyini və faydalı olmasını heç cür onun şəxsi məqsədlərindən asılı surətdə ölçmək olmaz, bunları yalnız onun ictimai əmək orqanizmində məhsuldarlığı ilə ölçmək olar.[39]

Ticarət əksər hallarda özəl təsərrüfat müstəvisində yaşayış vasitələri hasil etməkdə birləşən fəaliyyət və peşə kimi nəzərdən keçirilir. Belə anlayışa görə, ticarət və tacir haqqında təlimin cövhəri tacirin istehsalçı ilə istehlakçı arasında əmtəə mübadiləsində vasitəçiliyi zamanı istehsalçıya ən aşağı qiymət təklif edərək və istehlakçıdan mümkün qədər yuxarı qiymət tələb edərək, onların hesabına necə maksimal mənfəət sıxıb çıxardığını göstərməkdən ibarət olmalı idi. Əlbəttə, inkar etmək olmaz ki, indiki ticarətdə istehsalçı və istehlakçı hesabına pul çıxarıb varlanmaq meyili özəl ticarət müəssisələrində hələ də əsas yer tutur. Ticarətə yalnız başqalarının hesabına varlanmaq vasitəsi kimi baxanlar da az deyil. Ticarətdə rastlaşdığımız müxtəlif bəlalar: haqsız rəqabət, malların saxtalaşdırılması, ölçüdə, çəkidə aldatma və bir çox başqa mənfi hallar dediyimizə sübütdür. Lakin nə bu bəlalar, nə də bunların əsasında duran asan qazanc istəyi belələrinin timsalında ticarət və onun nümayəndələri haqqında mülahizə yürütməyə sövq etməməlidir. Bəlalar və sui-istifadə halları hər peşədə, yuxarı və aşağı pillələrdə mövcuddur. Yaşayış vasitələri hasil etməyə gəldikdə isə, hər hansı təsərrüfat fəaliyyətinin zəmini və stimuludur. Axı, hətta incəsənət və elm də bununla məşğul olmağa məcburdur. Buna görə də ticarətin tərifində onu qazanca səy göstərilməsinin mühüm əlaməti saymaq heç cür özünü doğrultmur, heç olmasa buna görə ki, ticarət gəliri deyilən gəlirdə ancaq mənfəət görmək olmaz. Bundan əvvəl müfəssəl açıqlandığı kimi, o, sahibkarın əmək ödənişindən, əməliyyat kapitalına hesablanan faizdən düzəlir və ya sahibkar riskini ödəmə əvəzi olan mümkün qalıq gəlir adlandırılmışdır. Odur ki, bu gəlir hər hansı başqa işdən çıxarılan gəlirlə eyni dərəcədə Qanunidir. Beləliklə, gəlir və qazanc əldə etmək üçün göstərilən səy heç də ticarətin səciyyəvi əlaməti deyil, bütün təsərrüfat və hətta elm peşələrinə xasdır. Odur ki, biz gəlir istəyini ticarət haqqında anlayışımızdan çıxarmalıyıq, çünki yuxarıdakı kimi tərif heç vaxt elmi tədqiqatda əsas götürülə bilməz.

Bir kommersiya fəaliyyəti kimi ticarətin miqyaslı anlayışından çıxış edilməlidir. Odur ki, bu və ya digər təsərrüfat fəaliyyəti haqqında anlayışı həmin fəaliyyətlə məşğul olmağın fərdi səbəbləri əsasında ifadə etmək düzgün deyil. Tacir öz peşə işi ilə gəlir naminəmi məşğul olur, bu işi başqalarına xidmətdəmi yerinə yetirir və ya əmtəə mübadiləsində öz kefi, yaxud da ictimai fayda üçünmü iştirak edir, - bütün bunlar tamamilə subyektivdir və ikinci dərəcəli əhəmiyyətə malikdir. Əgər tacirin qazancının gəlirdən, yəni alış qiyməti ilə satış qiyməti arasında fərqdən yarandığına görə hər hansı başqa peşədəkindən tamamilə fərqli xarakter daşıdığını göstərirlərsə, bu, gəlir əldə etmək istəyini «ticarət» anlayışına daxil etməyə hələ əsas vermir; əvvəl deyildiki kimi, gəlirin üç hissədən ibarət olmasından savayı, ümumiyyətlə vurğulamaq lazımdır ki, tacirin başqalarına göstərdiyi təsərrüfat xidmətlərinə görə haqq almağa ixtiyarı var, belə ki, bu mənada ticarətlə təsərrüfat fəaliyyətinin digər növləri arasında ciddi fərq yoxdur. Odur ki, ticarət xidmətləri ödənişinin xüsusi xarakterini ticarətin mühüm əlaməti saymaq nəinki faktik səhvdir, həm də məntiqi yanlışlıqdır.

Ticarətdə gəlir və qazanc əldə etmək meyili onun təsərrüfat məqsədəuyğunluğu əsasında təşkil olunmuş məhsul və mal mübadiləsi kimi xüsusiyyətini aşkara çıxarır. Belə təsəvvür bütövlüklə nəzərdən keçirilən ticarətin gerçəklikdə nədən ibarət olduğunu, ona faktik nəyin mahiyyətcə aid olduğunu ifadə edir; bu fərqləndirici cəhət iddia etməyə əsas verir ki, ticarət əmtəə mübadiləsində vasitəçilik rolu ilə ayrı-ayrı təsərrüfatların inkişafına kömək edir və beləliklə də onlardan ötrü faydalı və məqsədəuyğundur. Onun yaranmasına məqsədəuyğunluğu səbəbdir. Bu, onun varlığının mahiyyətidir. Bu cür təsəvvürə əsaslanan ticarət fəaliyyəti haqqında təlim beləliklə sırf elmi, siyasi qərəzlilikdən azad olaraq qalır, çünki əslində immanent olmayan və qabaqcadan fəlsəfi planda qurula bilməyən labüdlük meyarını ticarətə tətbiq etmir. Ticarətin bu immanent məqsədində nəticə kimi çıxarıla bilən tətbiqi nəzəriyyə də xalis elmdir, çünki onun əsas müddəaları fəlsəfi cəhətdən əsaslandırılmış hansısa məqsəddən nəticə kimi çıxarılmır.

Ticarət haqqında təlim ticarət fəlsəfəsinin tərkib hissələrindən biridir, lakin onun mənasını tam şəkildə açılmır. Təlim göstərir ki, ticarət fəaliyyətinə proqmatik, «çılpaq» səy ticarətin iqtisadi qanunlarına tabe etdirilməldir. «Ticarət» anlayışı elə müəyyənləşdirilməlidir ki, bu ticarət sənətini necə aparmağın meyarı olsun. Əgər ticarətə gəlir məqsədi ilə əmtəə mübadiləsi işi kimi baxılması davam etsə, burada ticarətin bütün sui-istifadə halları özünə yer tapar. Ticarətlə məşğul olaraq hiylə gələnlər, hesabda aldadanlar, pis xidmət edənlər, saxtalaşdıranlar ticarətin belə anlayışında özlərinə bəraət tapırlar, çünki gəlir xətrinə ticarət edirlər. Ticarətdəki bütün sui-istifadə halları hansısa üsulla qanuniləşdirilərdi, çünki, onlar ticarətlə labüd bağlı olan gəlir əldə etmək vasitəsidir.

Ticarət fəlsəfəsi ticarət fəaliyyətinin ruhunu elə göstərməlidir ki, onun əsl məzmunu ilə qeyri-əsl məzmunu arasında dərin fərq göz qabağında olsun. Ticarətin müəyyənləşdirilməsində bir neçə yanaşma nöqtəsi mövcud-

dur. Bunların hamısı ticarətin fəlsəfi çoxcəhətliliyini göstərir. Nəzəri planda bu məzmunu açıqlamaq niyyətlərinin miqdarı yetərincədir. Yanaşmaların birinci qrupunda gəlirə can atılması vurğulanır. Burada ticarətin mübadilə, vasitəçilik, yenidən satış, əmtəə dövriyyəsi sayəsində gətirdiyi fayda, sərfə məqamı göstərilir. İkinci qrupda ticarətin təsərrüfat cəhəti göstərilir. Təriflərin üçüncü qruppu ticarətin mahiyyətini deyil, yalnız funksiyalarını əhatə edir. Dördüncü qrupda ticarət kapitalist müəssisəsi kimi təsvir olunmuşdur. V.Zombart deyir: «Mən məqsədi ödənişli xidmətlərin yerinə yetirilməsi haqqında bir sıra müqavilələr bağlamaq sayəsində maddi əmlakdan sərfə çıxarmaqdan, yəni onu sahibinin xeyrinə artırma (gəlir) ilə təkrar etməkdən ibarət olan təsərrüfat formasını kapitalist müəssisəsi adlandırıram. Bu şəkildə istifadə edilən maddi əmlak kapital adlanır. Görünür, məqsəd hansısa canlı şəxsiyyətə münasibətdən tam kənarda müəyyənləşir: əksinə, lap əvvəldən mücərrəd nəsə, maddi əmlak diqqət mərkəzində durur. Bizim təsərrüfat formamızın təsərrüfat subyektinin bədəncə fərdi şəxsiyyətindən belə ayrılması tamamilə düşünülmüş şəkildə həyata keçirilmişdir. Bununla məqsədin özünün mücərəddliyi və eyni zamanda onun, kapitalist müəssisəsinin başlıca fərqləndirici əlaməti kimi, qeyri-məhdudluğu ifadə edilir. Kapitalist müəssisəsini sahibkar təbiətli, iradəli, yüksək intellekt sahibi, parlaq şəxsiyyətlər təmsil edirlər ki, onlar da öz istedadlarına böyük işlər naminə adilikdən yuxarı dərəcədə malik olmalıdırlar».[40]

Kapitalist müəssisəsinin bu tərifinə əsasən İ.F.Şerr belə ticarət anlayışını təklif edir: «Bir kapitalist təsərrüfatı forması kimi ticarət sözün geniş mənasında əmtəə alqı-satqısı vasitəsi il əvə ya ödənişli xidmətlərə dair əqdlər vasitəsilə pul kapitalının sahibinə bir qədər əlavə (gəlir) ilə təkrar qayıtması ilə tədavülə buraxmaq məharətidir. (Pul – mal – pul, əlavə ilə)».[41] Burada da gəlir nəzərə çarpdırılır. Bu yanaşma daha səmərəli görünür, çünki xalis özəl kapitalist təsərürfatı baxımından ticarət anlayışına uyğun pul dövriyyəsi nəzəriyyəsini (pul – əmtəə; əmtəə üstəgəl ticarət məharəti bərabərdir pula əlavəsi ilə) təklif edir. Özəl kapitalist təsərrüfatının gəlir prinsipi ümumi iqtisadi qanunlara tabe olmalıdır.

## ƏDƏBİYYAT

[1] *Щерр И.Ф.* Учение о торговле – М., 1924. – С. 34.
[2] *Осипов Ю.М.* Философия хозяства. – М., 2003. – С. 170.
[3] *Щерр И.Ф.* Учение о торговле – С. 36.
[4] *Осипов Ю.М.* Философия хозяства. – С. 165-166.
[5] Yenə orada. – S.168.
[6] *Щерр И.Ф.* Учение о торговле – С. 44.
[7] Yenə orada. – S. 44.
[8] Yenə orada. – S. 48.
[9] Yenə orada. – S. 51-52.
[10] Yenə orada. – S.53.

[11] *Плаксунова Т.А.* Экономический рост и становление концепции человечиского развития // Философия хозяйства. – 2004. – №5 (35). – С.107.
[12] *Сидорова В.В., Твердислав В.А.* Социальные системы с точки зрения биофизики // Философия хозяйства. – 2004. №5 (35). – С. 152.
[13] Yenə orada. – S.153.
[14] *Щерр И.Ф.* Учение о торговле – С. 56.
[15] *Сидорова В.В., Твердислав В.А.* Социальные системы с точки зрения биофизики. – С.153.
[16] *Щерр И.Ф.* Учение о торговле – С. 62.
[17] *Осипов Ю.М.* Философия хозяства. – С. 182.
[18] *Рязанов В.Т.* Экономическая стратегия России в условиях растущей глобализации мировой экономики // Философия хозяйства. – 2004. – №3 (33). – С.12.
[19] *Щерр И.Ф.* Учение о торговле – С. 64.
[20] *Осипов Ю.М.* Философия хозяства. – С. 187.
[21] *Пачолли Л.* Трактат о счетах и записях. – М., 1991. – С. 36.
[22] *Щерр И.Ф.* Учение о торговле – С. 68.
[23] *Зомбарт В.* Буржуа. Евреи и хозяйственная жизнь. – М., 2004. – С.93
[24] Yenə orada. – S.97.
[25] *Щерр И.Ф.* Учение о торговле – С. 73.
[26] Yenə orada. – S.75.
[27] Yenə orada. – S.76.
[28] *Тюрго А.Р.* Избранные экономические произведения. – М., 1961. – С.93.
[29] Yenə orada. – S.76.
[30] Yenə orada. – S.76.
[31] Yenə orada. – S.76.
[32] Yenə orada. – S.76.
[33] *Щерр И.Ф.* Учение о торговле – С. 77.
[34] *Зомбарт В.* Буржуа. Евреи и хозяйственная жизнь. – С. 61.
[35] Yenə orada. – S.62.
[36] Yenə orada. – S.63.
[37] *Щерр И.Ф.* Учение о торговле – С. 79.
[38] *Зомбарт В.* Буржуа. Евреи и хозяйственная жизнь. – С. 63.
[39] *Щерр И.Ф.* Учение о торговле – С. 80.
[40] *Зомбарт В.* Буржуа. Евреи и хозяйственная жизнь. – С. 199.
[41] *Щерр И.Ф.* Учение о торговле – С. 88.

# TİCARƏT FƏALİYYƏTİNİN İQTİSADİ PRİNSİPLƏRİ

*«İqtisadi rasionalizmə məxsus daxili özünütəsdiq enerjisi yüksək ticarət təsərrüfatının aparılmasının təkmilləşdirilməsi istiqamətində daha səmərəli təsir göstərir».*

V.Zombart

*Bütün iqtisadi fəaliyyət sahələri kimi, ticarət də ümumi, geniş əhatəli xarakterə malikdir. Pulla müəyyən edilmiş, daim gəlir götürməyə can atan bu sahə, öz orbitinə bütün «lazım olanı» və «lazım olmayan» hər şeyi cəlb edir. Bu baxımdan ticarət üçün, fiziki məhdudiyyətdən başqa heç bir məhdudiyyət yoxdur. Ticarət subyekti – ticarətçidən (sahibkar, biznesmen, tacir, iş adamı) başqa, ticarət özünə və ya öz fəaliyyəti orbitinə bütün iqtisadi resursları: əmək, əmək cisimləri, əmək alətləri, enerji, informasiya, bilik, bacarıq, ağıl, düşüncə, bütün hissiyatları, emosiyaları, duyğuları ilə insan gəlirlərini, eləcə də dövlət hakimiyyəti, siyasət, hüquq, mədəniyyət və ideologiyanı cəlb edir. Başqa sözlə desək, təsərrüfat həyatında bu və ya digər halda mövcud olan, ticarət vasitəsilə kapitala xidmət göstərə bilən hər bir şey onun üstünlüyünə köməklik edir. Lakin bu necə baş verir?*

## 1. TİCARƏTİN NƏZƏRİ - İQTİSADİ ƏSASLANDIRILMASI

Hər bir təsərrüfat fəaliyyətinin əsas prinsipi – az vəsait, güc və vaxt sərf etməklə maksimal təsərrüfat nəticələrinə nail olmaq istəyinə gətirib çıxarır. İstehsal sahəsinə şamil edildikdə, göstərdiyimiz vəziyyət belə məna kəsb edir: məhsulu ən aşağı məsrəflərlə istehsal etmək, yəni eyni məhsul hər dəfə əvvəlkindən daha ucuz başa gəlsin və ya əvvəlki istehsal məsrəfləri ilə daha keyfiyyətli və daha çox həcmdə məhsul istehsal etmək mümkün olsun. İstehlaka şamil edildikdə, bu prinsip tələbatın maksimal təyin edilməsi üçün həmin təsərrüfat nemətindən (əmtəədən) istifadə etməklə həyata keçirilir; belə ki, məsələn, bir kiloqram kömürdən maksimal həcmdə istilik almaq, sobaların və buxar qazanlarının istilik ötürməsini azaltmaq və yaxud istehlak prosesində əmələ gələn tullantılardan daha yaxşı istifadə etmək. Bu tələblərin hər ikisi də bir axına, bir məcraya yönəlir. Əgər istehlakçı məhsuldan istifadə edərkən daha çox qüvvə götürməyə nail olursa, bununla o, öz istehsalının məsrəflərini azaltmış olur; ərzaq məhsulları nə qədər qida məqsədlərinə daha çoxuyğunlaşdırılıbsa, bir o qədər çox insan onlardan həyat enerjisi ala bilər.

Ticarətə şamil edildikdə, yuxarıda qeyd etdiymiz prinsip belə açıqlana bilər: istehsalçı və istehlakçı arasında onların məhsullarının mübadiləsini təşkil etmək məqsədilə yaradılan əlaqə rahat olmalı, vaxt və xərclərə maksimal qənaət olunmalıdır. Bu yuxarıda qeyd olunan ticarətin ümumi vəzifəsinin qənaət və məqsədəuyğunluq əsasları üzərində həlli üçün vacibdir. Beləliklə, ticarətin üzərinə bu yüksək prinsipi həyata keçirmək vəzifəsi düşür ki, bu da bütün ticarət elminin rəhbər prinsipi kimi qəbul edilə bilər.

*«Hər bir zaman tacirlər üçün maliyyə müqavilələri ticarət müqavilələrinin davamı olmuş və bir-birinə, demək olar ki, maneəsiz keçmişdir. Hələ pulun əmələ gəlməsindən qabaq, bir şəxsə məxsus olan əmtəələri digər şəxsə, onun adından və onun maraqları daxilində ticarətlə məşğul olmaq məqsədilə, etibar etmək məcburiyyəti yaranırdı. Biz, ticarətin birinci addımları haqqında söhbətimizi həmin «vasitəçi» müqavilələrə toxunmadan başa vura bilmərik. Pulların yaranması ilə, əksər hallarda əmtəənin fiziki ötürülməsinin qiymətli kağızla əvəz olunması daha da məqsədəuyğun olur. Niyə də yox?»*

S.Xiks

Belə görünə bilər ki, qeyd olunan iqtisadi prinsipə özəl ti-

carət fəaliyyəti prinsipi ziddir, çünki hər bir ticarətçi maksimal gəlir götürmək üçün özünün əmtəə mübadiləsində iştirakını öz daimi fəaliyyət sahəsinə çevirir. Səthi yanaşmada belə görünə bilər ki, bu iki prinsip arasında keçilməz uçurum var. Ticarətçi öz gəlirini ya istehsalçı, ya da istehlakçı, yəni özünün fəaliyyəti ilə birləşdirdiyi halqalar hesabına artıra bilər. Beləliklə, özəl maraqlarından irəli gələrək, o ümumən cəmiyyətin maraqlarına cavab verən əmtəə mübadiləsinin ucuzlaşmasına deyil, bahalaşdırılmasına can atır. Buna görə də, ticarət fəaliyyətinin özəl təsərrüfat motivi cəmiyyətin xalq təsərrüfatı maraqları ilə münaqişəyə girir. Burada həlledici və hakim olan motivi araşdırmaq lazımdır.

Ən əvvəl təyin etmək lazımdır ki, özəl təsərrüfat nöqteyi-nəzərindən tacir ticarət xərclərinin maksimal azaldılmasına can atmalıdır. Belə ki, ticarət xərcləri nə qədər az olsa, o qədər çox əmtəənin alış və satış qiyməti arasında olan fərq ona gəlir şəklində qalır. Lakin, bu zaman, tacir özünün gəlirinin artması məqsədi ilə ticarət xərclərinin azalmasına çalışır və buna da ümumi gəlirdən ticarət xərclərinə ayırmaların azalması yolu ilə nail olur. İqtisadi prinsip ümumilikdə bütün təsərrüfat maraqları dairəsində əmtəə mübadiləsinin məsrəflərinin azaldılmasını tələb edir, yəni, ticarət xərclərinin azalması ticarət vasitəsilə birləşdirilən dünya təsərrüfatının ayrı-ayrı halqalarının xeyrinə yönəlməlidir. Beləliklə, əgər qəbul etsək ki, tacir yalnız öz şəxsi maraqlarını güdərək özünün vasitəçiliyə, yəni, əmtəələrin daşınması və satışına sərf etdiyi xərclərin minimuma azalmasına çalışırsa, yenə də əmtəələrin dövriyyəsi prosesi buna görə qeyd olunan rəhbər təsərrüfat prinsipinə əsasən, ucuzlaşmır. Ümumilikdə, özəl təsərrüfat maraqları öz xüsusiyyətlərinə görə iqtisadi prinsipə zidd olan ticarət təşkilinə gətirib çıxarır. Gəlir əldə etmək maraqlarını rəhbər tutan tacir, hər bir vasitə ilə özünün qazancını artırmağa çalışır, hər bir hiyləyə əl ataraq istehsalçını və istehlakçını aldadır, qanuni və qeyri-qanuni vasitələrlə başqalarının hesabına varlanır. Aydındır ki, özəl təsərrüfat maraqları, yəni əlavə gəlir götürmək cəhdi, təsərrüfatın daxilində ticarəti bir parazitə çevirir və ona anticəmiyyət yönümlü xüsusiyyət verir. Buradan görünür ki, ticarət haqqında elm, özəl təsərrüfat motivi – gəlir əldə etmək hərisliyindən çıxış edə bilməz. Buna görə də ilkin vəzifə, əksinə, özəl təsərrüfat maraqlarının xalq təsərrüfatı maraqlarına nə üçün tabe olması vacibliyinin səbəblərini açıqlamaqdan ibarətdir.

Bu halda onu nəzərə almaq lazımdır ki, nə qədər ki, ticarət fəaliyyəti müəssisə şəklində ayrı-ayrı şəxslər və ya kapitalist cəmiyyətləri tərəfindən aparılarsa, daha yüksək ticarət gəlirinə, kapitala maksimal müdaxilə və can

atma – ticarət müəssisəsinin rəhbər motivi olaraq qalacaq. Əgər ticarətçi öz müəssisəsinin təşkilində tam azad olsaydı və heç bir ictimai münasibətlərlə bağlı olmasaydı, o özünün istehsalçı və istehlakçı arasında tutduğu mövqeyindən istədiyi kimi istifadə edə bilərdi. Gəlir götürmək məqsədi (ticarət fəaliyyətinin özəl təsərrufat prinsipini biz qısa olaraq belə adlandırırıq) ticarətin yeganə, heç nə ilə məhdudlaşmayan motivi kimi qalardı.

Ticarət belə bir mövqeyi, doğrudan da o halda əldə edə bilər ki, ticarət müəssisəsi inhisarçı vəziyyət tutur və bu heç də ondan asılı deyil ki, onun kapitalının həcmi böyükdür, dövlət ticarətin bu sahəsini öz inhisarı etmişdir və ya bir neçə istehsalçı xarici rəqabətin olmaması nəticəsində istədiyi qiymətləri təyin edə bilər. Bazarda hakim olan inhisarçı özünün gəlir alma məqsədlərinə yalnız o məhdudiyyətləri qoyur ki, onlar onun maraqlarını təmin etsin. Yəni, istehsalçı öz əmtəələrinin əvəzində yalnız istehsalı davam etmək imkanını təmin edən həcmdə gəlir götürsün. Digər tərəfdən, istehlakçı əmtəəni alarkən, onun özünün alıcılıq qabiliyyəti maksimal gərgin vəziyyətə düşür, bu da alıcılıq qabiliyyətini stimullaşdırır və insan enerjisini kapitalı artırmağa yönəldir. Etos, fenomen, «kosmos» kimi (M.Veber), kapital (həm dağıdıcı, həm də qurucu) «güclü insan enerjisinin çıxmasını təmin edir». Bu enerji kapital üçün də qurucu olmuşdur. Kapital və insan enerjisi bir araya gələrək, bir-birini stimullaşdırır. Hər bir ən aşağı sosial mövqe tutan insanın, quldur maxinatorun real cəlbedici məqsədi – pul artımı, öz-özünə dəyər artımı və onların ardınca – var-dövlət, demək olar ki, cənnət istəyidir. Kapital insanı tam olaraq özünə cədb edir, tabe edir, təsiri altına salır, pul və şöhrət hərisliyinə mane olan məhdudiyyələri aradan götürür. Həyat səhnəsinə, sözün tam mənasında, iqtisadçı insan gəlir. Bu insan qədim zamanlardan əmtəə mübadiləsi ilə məşğul olurdusada, uzun müddət, necə deyərlər, qeyri-iqtisadi insan olmuşdur. Doğrudan da, iqtisadçı insan və ya homo economicus, məhz kapital insandır, kapital subyektidir, maneəsiz özü artan dəyər agentidir. Bütün digər iqtisadi insanlar – iqtisadi əhatə dairəsində insanlardan başqa bir şey deyillər. Bu da, əlbəttə ki, ciddi bir mövqedir, lakin kapitalist (sahibkar, biznesmen, iş adamı) olmaq kimi deyil». Və yaxud da, ticarətlə məşğul olan insandır. Belə ki, biznes və ticarət – eyni məvhumdur. Bu da, bütövlükdə, təsərrufatın gücünü təsdiqləyir.

Lakin belə inhisarlar nadir hallarda mövcud olurlar və bir özəl müəssisə əlində cəmlənəndə, onların varlığı qısamüddətli olur. Yuxarıda deyildiyi kimi, ticarət bütün xalq təsərrüfatının bir orqanıdır və bütövlükdə xalq

təsərrüfatı həyatının aparıcı qüvvələrinə tabe olmalıdır. İstehsalçılar və istehlakçılar tacirin xidmətlərindən o vaxta kimi istifadə edirlər ki, sonuncunun vasitəçiliyi daha ucuz və qənaətli əmtəə mubadiləsini təmin etmiş olur. Buna görə də təsərrüfatın inkişafının ümumi meyilləri, onlara qarşı duran ayrı-ayrı sahibkarlardan güclüdür. Hər bir tacir təsərrüfat həyatının təsirinə və qanunlarının hökmünə tabedir, onlarla özünün ticarət fəaliyyətini razılaşdırmalıdır. Bununla əlaqədar olaraq, tacirin alqı-satqı zamanı gəlir götürmək kimi şəxsi istəyinin yerinə yetirilməsi son nəticədə onun öz müəssisəsini qeyd olunmuş qanunlara tabe etməsindən asılıdır. Tacirin öz maraqlarını xalq təsərrüfatının maraqlarına tabe etməyə məcbur edən iqtisadi qüvvələr ticarətin inkişaf meyillərindən qaynaqlanırlar. Bunlardan bir necəsini araşdıraq: vasitəçi halqaların ləğv olunması meyilləri; əmək bölgüsü; ticarətdə hakim olan digər meyillərlə uzlaşan təsərrüfatçılıq prinsipi.

## 2. TİCARƏTDƏ DİFERENSİASİYASI VƏ MONOLİTLİK

Yeni halqaların daxilolunma meyillərinin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Ticarət fəaliyyətində biz onların üç əsas qrupları ilə rastlaşırıq: istehsalçı, ticarətçi və istehlakçı. Əvvəllər bir şəxs tərəfindən icra edilən tacirin vasitəçilik funksiyaları, ticarətin normal inkişafı zamanı üç qrupp: əmtəə tədarükçüləri, bölüşdürənlər və vasitəçilər arasında paylanır. Lakin ticarətin qarşısında duran vəzifələrin mürəkkəbliyi və çoxşaxəliliyi yenə də əmək bölgüsünü tələb edir ki, bu da həmin üç qrup daxilində həyata keçirilir. Əslində belə olur ki, əmtəə istehsalçıdan istehlakçıya qədər uzanan yolda beş, on və daha çox əldən keçir. Əmtəəni bir məntəqədən o biri məntəqəyə ötürən orqanlarla yanaşı, digər orqanlar bir sıra dolayı funksiyalar yerinə yetirir: ödəmələr və kredit sahəsində, nəqliyyat, sığortalanma, informasiya dəstəyi və s. Ticarətə xidmət edən qeyd olunan funksiyaların icrası zamanı ardıcıl əmək bölgüsü baş verir.

Ticarət istehsalçı və istehlakçı arasında olan canlı, orqanik bir əlaqədir. Burada iki meyil nəzərə çarpır: əmək bölgüsündə özünü büruzə verən yeni halqaların daxil edilməsi meyili və onun əksinə olaraq, mövcud halqaların ləğvi meyili. Bu meyilləri biz əyani olaraq sənayenin inkişafında görə bilərik. İlkin olaraq, onun inkişafı əmək bölgüsü yolu ilə gedir: məsələn, qapalı ev təsərrüfatında bir şəxs tərəfindən həyata keçirilən geyim tikilişi bir sıra ayrı-ayrı istehsal mərhələlərinə bölünür: sap əyirmə, toxuculuq, parça

biçmə, tikiş. Sənayenin ən yeni inkişaf meyilləri əks səmtə yönəlir. Əvvəllər müstəqil olaraq bitmiş istehsal fazasını yerinə yetirən ayrı-ayrı fabriklər, indi birləşdirilib, qarışıq müəssisələr yaradılır; məsələn, mədən sənayesində. Burada filiz və kömür hasilatı, domen sobaları, polad istehsalı və dəmir prokatı vahid bir istehsalın halqalarıdır. Bir-birinin əksi olan bu iki meyil eyni prinsipdən qaynaqlanır: məqsəd – daha çox təsərrüfatçılığa can atmaqla daha yüksək gəlir götürməkdir. Sənayedə bir sahibkar istehsala yeni iştirakçı daxil edir, digər sahibkar, bunun əksinə olaraq, bir müəssisədə yan-yana baş verən prosesləri birləşdirir. Bu iki sahibkarın eyni məqsədi var - yeniliklər vasitəsilə rəqibinə qalib gəlmək və öz yatırılan kapitalından daha yüksək gəlir götürmək. Burada da, ticarətdə olduğu kimi, özəl sahibkarın heç də ictimai maraqlara xidmət etmək fikri yoxdur. Lakin, məhz onun gəlir götürməyə can atması iqtisadi prinsipin həyata keçməsinə gətirib çıxaran həlledici motiv olur. Bu belə bir sadə səbəbdən baş verir ki, daha yüksək gəlir götürmək imkanı xalq təsərrüfatı maraqlarının həyata keçməsi ilə müəyyənləşdirilib; istehsalı yaxşılaşdırmaq yolu ilə istehsal xərclərini azaltmaq və yaxud əvvəlki istehsal xərclərini saxlamaqla məhsulun keyfiyyətini yaxşılaşdırmaq. Gəlir götürməyə can atan zaman alınan təsərrüfat effektini, cəmiyyətin xeyrinə yönəltmək barədə isə rəqabət düşünür. Lakin bu, aşağıda göstərdiymiz kimi, yalnız bu şərtlə mümkün ola bilər ki, sahibkar öz rəqiblərini sıxışdırıb çıxartmasın və ya dünya bazarının təsirindən azad ola bilməsin.

Ticarətdə də belə bir münasibətlər mövcuddur. Müstəqil ticarət fəaliyyətinə qədəm qoymaq istəyən tacirin qarşısında iki yol açılır: o öz müəssisəsini artıq mövcud olan analoji müəssisələrlə yanaşı təşkil edib onlarla rəqabətə girə bilər və yaxud xeyirli keyfiyyətdə yeni bir haqla şəklində mövcud ticarət dövriyyəsi zəncirinə qoşula bilər. Əgər o birinci yolu seçərsə, müəssisənin uğuru rəqabətlə mübarizədə üstünlüyün onun tərəfində olub-olmamasından asılı olacaq. Bu üstünlüyə o ticarət mübadiləsində öz vasitəçiliyinin ucuzlaşması və ticarətin rəqibləri ilə müqayisədə daha məqsədəuyğun və səmərəli təşkili yolu ilə nail ola bilər. Bu məqsədlə o, ya yeni əmtəə mənbələri, ya da yeni daha sərfəli satış bazarları axtarmalıdır. Belə vəziyyət, əgər bu daha sərfəlidirmə, onu mövcud olan aralıq halqalardan yan keçməyə vadar edir. Beləliklə, ticarət zəncirindən ayrı-ayrı halqaları kənar etmək meyili, ilkin olaraq, ticarət dövriyyəsi iştirakçılarının özündən irəli gəlir, lakin həm istehsalçı, həm də istehlakçı tərəfindən büruzə verilə bilər.

Belə müəyyən edilmişdir ki, ticarət mübadiləsində hər yeni halqa yeni bir maraq toqquşması yaradır, belə ki, yeni alqı-satqı müqaviləsi əlavə olunur və əmtəə bir daha əldən-ələ keçir. Aydındır ki, hər yeni iştirakçı qiymətə əlavə edir ki, bu da onun məsrəfləri, əməkhaqqı və risklərinin ödənməsindən ibarətdir. Bütün bunların nəticəsində əmtəənin qiyməti qalxır.

Hər yeni mübadilə iştirakçısının qiymətə etdiyi əlavə iki istiqamətdə dəyişə bilər: ya ilkin mənbə – istehsalçıya, ya da son məntəqə olan istehlakçıya tərəf. Əgər bir istehsalçı tərəfindən təyin edilmiş qiyməti daimi vahid kimi qəbul etsək, onda ona ticarət mübadiləsinin hər bir yeni iştirakçısı tərəfindən əlavə olunan məbləğ yalnız istehlakçıya təsir edə bilər. İstehlakçı əmtəə mübadiləsi zamanı yaranan bütün məsrəf və əlavələri ödəməlidir və beləliklə də, onun üzərinə bütün lazımi olan və olmayan ödəmələr yüklənir. Buna görə də, aralıq halqaların kənar edilməsi istiqamətində hər bir yenilik onun xeyrinə baş verməlidir. İstehsalçı isə bundan heç nə udmur, xüsusən də, öz məhsuluna qoyulan qiymətlərdən. Lakin bundan irəli gələn nəticələr heç də həqiqətə uyğun deyil. Hər şeydən əvvəl, istehsalçının ala billəcəyi qiymət heç də daimi olmur. İstehlakçının da alıcılıq qabiliyyəti bir elə elastik deyil və vasitəçilərin əmtəənin qiymətinə etdiyi əlavələrə tab gətirə bilməz. Əksinə, istehlakçının alıcılıq qabiliyyəti ümumilikdə çox məhdud səviyyədə genişlənə bilər. Qiymətlər qallxanda o tez aşağı düşür və yaxud əksinə. Məsələn, mal-qaranın qiyməti qalxdıqca, ət məhsullarının istehlakı da azalır, kətan parçalar nə qədər ucuz olsa, onlardan istifadə də bir o qədər artır. Daha çox istehlakçı cəlb etmək məqsədilə öz məhsullarını ucuzlaşdırmağa çalışan müasir sənaye meyilləri təcrübə ilə təsdiqlənən bu fakta əsaslanır. [6] Lakin, əgər biz əmtəənin satış qiymətinin dəyişməz bir vahid olmasından çıxış etsək, onda ticarət mübadiləsi iştirakçıların sayının artmasından irəli gələn məsrəflərin hər yeni artımı əks istiqamətə yönələcək, yəni istehsalçının qiymətinə təzyiq göstərəcək. Bu şərtlərlə ticarət dövriyyəsinin aralıq halqalarının etdiyi əlavələr yalnız istehsalçıya təsir edəcək.

Lakin, əgər ticarət vasitəçiliyindən və əmtəə mübadiləsinin yeni halqalarının yaratdığı əlavələrdən yaranan bütün xərclərin yalnız istehlakçının üzərinə düşməsi düzgün deyilsə, onları yalnız istehsalçının ödəməsi də bir o qədər yanlışdır. Həqiqət orta məxrəcdədir. Əmtəələrin mübadiləsi prosesinin məsrəfləri əsasən hər iki son halqaya düşür. Buna görə də, ticarətin inkişafında əldə olunan hər bir nailiyyət, nəqliyyatın ucuzlaşması, aralıq halqaların azalması, ticarətin təşkilinin yaxşılaşdırılması hər iki tərəfin: həm istehsalçının, həm də istehlakçının xeyrinədir. Əksinə, ticarət xərclərinin

artması, ticarət mübadiləsi iştirakçılarının sayının artması nəticəsində əlavə olunan xərclər həm istehsalçının, həm də istehlakçının üzərinə ağır yük olaraq düşür. Ticarət prosesinin hər iki son halqası arasında əlavə ticarət xərclərinin bölüşdürülməsi uzunmüddətli və şiddətli mübarizə nəticəsində həyata keçib və çox mürəkkəb bir problemdir. Bu mübarizənin sonu hər iki tərəfin təşkilatlanmağından asılıdır. Bununla əlaqədar olaraq, müharibədən əvvəlki Avropa ticarət həyatından İ.F.Şerrin misal gətirdiyi hadisə örnək ola bilər. O, deyirdi: «Bazeldə istehlakçılar təşkilatı süd təchizatında ticarət vasitəçilərini sıxışdırıb çıxartmışdır. Budapeştdə əlliyə yaxın iri torpaq mülkədarı süd ticarəti yoldaşlığı təşkil etmişlər. Bazeldə bir litr süd Budapeştdə satılandan 30%-dan çox ucuz idi. Qiymətlər, İsveçrə sud bazarının ümumi qiymət səviyyəsinə uyğun olaraq, qalxıb-düşür. Budapeştdə qiymətlər, hər hansı bir rəqabət olmadığına görə, daimidir. Beləliklə, Bazeldə dövriyyə prosesinin ucuzlaşmasından bütün xeyiri istehlakçılar, Budapeştdə isə istehsalçılar götürmüşlər. Lakin bu ilk baxışdan belə görünür, belə ki, Bazeldə istehlakçılar cəmiyyətinə süd çatdıran təchizatlar daha yüksək qiymət götürürlər, pullarını nəğd alırlar və heç bir itki olmur, Budapeştdə isə istehlakçılar təmiz, saxtalaşdırılmamış südü normal qiymətlə, qabaqkı parçalanmış pərakəndə ticarətin hakim olduğu dövriyyədəkindən daha ucuz alırlar. Beləliklə, istehsalçı və istehlakçı arasında əlaqənin yaxşılaşması və ucuzlaşması hər iki tərəfə xeyirdir. Həmin vəziyyət ağ neft təchizatında da mövcuddur. Hərçəndi ki, Şimali Amerika neft mədənlərindən başlayaraq avropalı istehlakçının mənzilinə qədər uzanan ticarət əlaqəsinin təşkili neft trestinin əllərində cəmlənmişdir və bu sonuncu, öz istəyindən asılı olaraq, qiymət təyin edə və külli miqdarda gəlir götürə bilər, lakin trestin hakimiyyəti zamanı istehlakçılar üçün ağ neftin qiyməti aşağı düşmüşdür».

Rəngarəng və ətraflı misal da daxil olmaqla, bütün yuxarıda qeyd olunanlar belə nəticəyə gəlməyə imkan verir ki, ticarət gəliri və ticarət məsrəfləri ticarətlə əlaqələnən hər iki tərəfin üzərinə düşür. Ticarət gəliri, ticarət dövriyyəsinə yeni vasitəçilik halqalarını daxil etməklə, daim maraqların əks olmasını mürəkkəbləşdirir. Bu özəl təsərrüfat meyili ticarətin xalq təsərrüfatı vəzifələri ilə ziddiyyət təşkil edir, belə ki, hər yeni halqanın daxil olunması ticarət dövriyyəsini bahalaşdırır. Buna görə də, ticarət, maraqların ziddiyyətinin ləğv olunması istiqamətində inkişaf etməli, maraqların harmoniyasına can atmalıdır.

Müasir zamanda biz ticarətdə vasitəçilik halqalarının ləğvi prosesini yaşamaqdayıq. Torpaq sahibkaları, fabrikantlar, hətta pərakəndə ticarətlə

məşğul olanlar xammal, maşın, toxum, gübrələrin birgə təchizatı üçün öz birliklərini yaradırlar. Onlar hətta topdansatış ticarətinə daxil olub, müstəqil topdansatış ticarətini sıxışdırmağa çalışırlar. Almaniya kömür mədənləri öz məhsullarının birgə və müstəqil satışı üçün sindikat təşkil etmişlər və bununla da kömür satışı ilə məşğul olan ticarətçilərin böyük bir hissəsini bazardan sıxışdırıb çıxartmışlar. Digər tərəfdən, istehlakçılar da birgə əmtəə tədarükü üçün təşkilatlanırlar. Onlar özəl pərakəndə ticarətinin sıxışdırılmasına çalışırlar. Dünya ticarətinin mərkəzi məntəqələrində, əsasən əmtəə birjalarında, rinqlər və ayrı-ayrı əmtəələr, məsələn, mis, pambıq, gümüş, buğda və s. məhsullarla dünya ticarətini inhisarlaşdırmış, bəzi güclü kapitala malik alverçi birliklər təşkil olunur ki, onların da məqsədi bu əmtəələrlə ticarət edən əvvəlki iştirakçıları aradan sıxışdırıb çıxartmaqdır. Bütün bu təşkilatlar, əlbəttə ki, fərqli məqsədlər güdür. Bəziləri şəxsi özəl təsərrüfat maraqlarını, digərləri – korporativ maraqları, bir başqaları isə ictimai maraqları nəzərdə tutur. Bu son qrupa, şübhəsiz ki, istehlakçılar cəmiyyətləri aid edilməlidir.

Buna baxmayaraq, kapitalist birləşmələri və ticarətdə vasitəçilik halqalarının aradan götürülməsinə olan meyillilik mahiyyətcə, təsərrüfatçılıq prinsipinin həyata keçməsinə köməklik göstərir. Onlar ən yüksək gəlirə, hər şeydən əvvəl, ticarət dövriyyəsi prosesinin təmərküzləşməsinə, iştirakçıların azalması, ticarət məsrəflərinin aşağı salınması yolu ilə nail olurlar. Cəmiyyət də ticarətin belə təkmilləşdirilmiş təşkilindən xeyir götürməlidir, belə ki, inkişaf və dünya bazarı istismarçılıq meyillərini zəiflədirlər. Belə vəziyyətdə, nəzərə almaq lazımdır ki, bu proses kapital təsərrüfatının mövcudluğu ilə şərtlənir və o də Y.M.Ospovun dediyi kimi - «artıq sadə mübadilə, əmtəə və hətta, sadəcə olaraq, pul təsərrüfatı deyil. Bu, pul artımına, gəlirə istiqamətləndirilmiş bir təsərrüfatdır. Təsərrüfatçılığın məqsədi, hər şeydən əvvəl, pul vasitəsilə daha çox pul əldə etmək, pulun özünün artması deməkdir. Pul, onunla da birgə dəyər ön plana çıxır. Artıq, məhz onlar təsərrüfat bilavasitə idarə edirlər. Çox vacib bir məqam – insan öz yerində, təsərrüfat subyekti öz yerində, lakin artıq təsərrüfatı işlədən pul var, dəyər var. Bunlar, əlbəttə ki, insan olmadan heç nədir, lakin artıq insan xüsusi pul, dəyər aurasında fəaliyyət göstərir, onunla əhatələnir, ona istiqamətlənir və ondan asılıdır. Pul vasitəsilə pul əldə etmək, təsərrüfatı xüsusi yolla idarə etmək, onu qabağa aparmaq, genişləndirmək və inkişaf etdirmək, əlçatmaz məqsədlərə nail olmaq, varlanmaq və həyatın keyfiyyətini dəyişmək, insanı və təbiəti, onların əməyini aktiv istismar etmək, təbiəti

– qeyri-təbiətə, insanı isə .... heç olmasa, başqa insana çevirmək imkanını verir. Faktiki olaraq, kapital bütün məhdudiyyətləri aradan götürür: nəinki fiziki, hətta mənəvi məhdudiyyətləri və yalnız özünün xeyrinə, özü başla düşdüyü səmərəyə, genişlənməyə və yeniləşməyə can atır. Kapital insanı maşınlaşdırır, onu ya dəyər hesablayıcı qurğuya, ya təbiətdən və adət-ənənədən uzaq zəhmətkeşə, ya yorulmaz istehlakçıya, ya da aktiv tədqiqatçı və konstruktora döndərir. Kapital özü ilə tam və əhatəli bir çevriliş – nəhəng kapital inqilabını gətirir. Bu inqilab hər şeyi: insanı, cəmiyyəti, təsərrüfatı, dövləti, siyasəti, mədəniyyəti, texnikanı, biliyi, ideologiyanı, dini, mənəviyyatı, həp şeyi, o cümlədən də, təbiəti radikal şəkildə dəyişdirir». Əlbəttə ki, ticarəti, belə ki, o ticarət mübadiləsinə yeni, tərəqqi elementlər daxil edir və bu da, son nəticədə, bütün xalq təsərrüfatına xeyir gətirir.

Bununla bərabər, hesab etmək olmaz ki, vasitəçi ticarət ölür. Özəl təsərrüfat da, xalq təsərrüfatı da məntiqi prinsiplərlə inkişaf etmirlər. Bu artıq o səbəbdən irəli gəlir ki, insan məntiqi təsərrüfatın inkişafında fəaliyyət göstərən bütün qüvvələri və münasibətləri, onların təsirini və təsərrüfatçılıq prosesində mahiyyətini dərk etməyə qadir deyil. Heç bir sahədə iqtisadi münasibətlərdə olduğu kimi, dəllalçılıq mülahizələri bir belə şübhəli, tərəddüdlü, problematik və səhv olmur. Bunlar ticarət dövriyyəsində vasitəçilik halqalarının çıxarlıması məsələsinə də aiddir. Bu sual yalnız bir məqama, təsərrüfatın inkişafının bir tərəfinə toxunur. Bununla bərabər, bir sıra digər amillər, hər şeydən əvvəl, güclünün üstünlüyü amili təsir göstərir. Həyat uğrunda mübarizə özünü nəinki təbiətdə, hətta təsərrüfat sahəsində də büruzə verir. «İqtisadi mübarizədə qələbə çalmaq və ya uduzmaq – bu olum və ya ölüm məsələsidir» (İ.F.Şerr).

Onu da deyək ki, vərdiş etməyin də çox böyük əhəmiyyəti var. İnsanın dar zəkalı, köhnə adət-ənənələrdən əl çəkməməsi bəzən iqtisadi inkişaf meyillərindən güclü olur. Görün nə qədər ticarət sahibkarı, öz dar düşüncəsi və tərsliyi üzündən köhnə qaydalarla işləyərək, öz müəssisələrini yeni münasibətlərə uyğunlaşdırmadan fəaliyyət göstərir və məhv olur.

Təsərrüfat və sosial problemlərin, xüsusən də, ticarətin tədqiqinə başlayan şəxslər üçün iqtisadi və sosial həyatda baş verən amillərin mürəkkəbliyini nəzərə almaq çox vacibdir. Dünya, özünün bütün mürəkkəb yaradıcı prosesləri ilə birgə, yalnız nəzəriyyə və elmi sistemlərdən quraşdırıla bilməz. İnsan özü hakim nəzəriyyəni gerçək həyatda müşahidə etməli və yoxlamalıdır. Toplanmış təcrübə tənqidi yoxlamaya məruz qalmalıdır; ondan şəxsi ideya və həqiqətlərin yoxlanması və sınanması üçün bir meyil

kimi istifadə etmək lazımdır. Buna görə də, bacarıqlı tacirdən biz yalnız uzaqgörənlik, aydın düşüncə, ümumilikdə iqtisadi həyatın aparıcı qüvvələrinə, xüsusilə də, ticarətin inkişaf meyillərinə istiqamətlənmə bacarığı tələb edə bilərik. Yuxarıda qeyd olunanları nəzərə alaraq, biz belə bir ümumi nəticəyə gəldik: hər bir ticarət vasitəçisi daim olaraq ticarət dövriyyəsindən çıxarılmaq qorxusu altındadır. O, yalnız ticarət dövriyyəsində xeyirli və lazımi funksiyaları yerinə yetirərək, öz ticarət fəaliyyətini xalq təsərrüfatı maraqlarına tabe etsə, vəziyyətini və qazancını qoruyub saxlaya bilər.

Bundan başqa, qeyd etmək lazımdır ki, ticarət dövriyyəsindən vasitəçi halqaların çıxarılması meyilləri ticarətin inkişafını və yeniləşməsini istiqamətləndirən aparıcı qüvvələrdən yalnız biridir. Eyni zamanda, bu istiqamətdə bir sıra meyil, əsasən də – bunun əksi olan ticarətdə əmək bölgüsü meyili mövcuddur.

## 3. ƏMƏK VƏ ONUN TİCARƏTİN FƏALİYYƏTİNƏ TƏSİRİ

Xalq təsərrüfatı nöqteyi-nəzərindən əmək bölgüsünün mahiyyətinə dair mülahizə yeritməyə ehtiyac yoxdur. Sancaq istehsalına dair Adam Smitin dərslik misalını qeyd etsək kifayətdir. Sancaq istehsalında bütün istehsal proseslərini təkbaşına yerinə yetirən fəhlə gün ərzində yalnız 20 sancaq düzəldə bilər. Səmərəli əmək bölgüsü əsasında öz istehsalını quran on fəhlənin əmək məhsuldarlığı min dəfə artır. Bunun səbəblərini fəhlənin məharətində, vaxt, avadanlıq və alətlərdən daha səmərəli istifadə etməkdə axtarmaq lazımdır. Bunlardan əlavə, düşünülmüş plan üzrə birgə iş üçün qüvvələrin birləşdirilməsi, ayrı-ayrılıqda hər bir fəhlənin əmək məhsuldarlığının artmasına gətirib çıxarır. Əmək bölgüsü əsasında fəaliyyət göstərən müəssisə yüzlərlə göz, qulaq, əl, insan zəkası və qüvvəyə malikdir ki, bu da yüksək məhsuldarlığa təminatdır.

Bu, sadəcə olaraq, müəssisə yox, kapitalist müəssisəsidir. Kapital əmək deməkdir. Əmək olmadan kapital da ola bilməz; dəyər də ola bilməz, belə ki, dəyərsiz və kapitalsız – istehsal da ola bilməz. Lakin, nə əmək, nə də ticarət kapitalı müəyyənləşdirmir, əksinə, kapital həm əməyi, həm də ticarəti müəyyənləşdirir. Y.M.Osipovun qeyd etdiyi kimi: «ilk-əvvəl əmək prosesini təmin etsə də (maliyyəsiz əmək yoxdur), kapital əməyə xidmət etmir, əmək kapitala xidmət edir. Kapital əməkdə deyil, daha çox əmək

kapitaldadır. Qul kimi, xidmətçi kimi, idarə edən kimi. Əmək kapitaldan azad deyil, ondan bilavasitə asılıdır. Əks əlaqə dəfələrlə zəifdir. Kapitalın cəlb etdiyi insan hüquqi cəhətdən azad olsa da, iqtisadi cəhətdən azad deyil və heç vaxt azad ola bilməz. Kapital özünə, və öz orbitinə əməyi çəkir və bir daha geri buraxmır. O bunu heç edə də bilməz. Yenə də təkrar edirik, kapital – elə əməyin özüdür».

Heç şübhəsiz, ticarət də əməkdir. Ticarət də kapital kimi əsaslı bir qurumdur. Belədirsə, ticarəti xarakterizə etmək üçün «əmək və kapitalın qarşılıqlı əlaqəsi» desək, uyğyn gələr: «Adətən, əmək deyəndə, bilavasitə özəl, əsaslı müəssisədə, ilk növbədə, məhsuldar əmək nəzərdə tutulur. Ümumilikdə, bu düzgündür, lakin, prinsipial olaraq, tam deyil. Kapital, konkret müəssisədə görünəndən daha çox həcmdə əməkdən istifadə edir, xüsusən də, biz unutmasaq ki, kapital, ümumiyyətlə, eyni zamanda, özəl-ictimai kapitaldır, necə deyərlər, tam kapitaldır. Və həmin bu kapital ümumilikdə cəmiyyətdən gələn bütün əməkdən – bütün! – istifadə edir. Və başqa cür də ola bilməz». [12] Ticarət kapitala pul təsərrüfatı kimi, lakin əmək, istehsal, fəaliyyət vasitəsilə daxil edilmişdir. İ.F.Şerr qeyd etdiyi kimi: «İstehsala aid olan hər şey ticarətə də şamil edilə bilər. Və burada da çox sayda xidmətçilərin yaxşı təşkil olunması hər birinin əmək məhsuldarlığını artırır».[13] Lakin, burada ayrı-ayrılıqda ticarət müəssisəsi daxilində süni əmək bölgüsünə deyil, daha böyük maraq kəsb edən, daha vacib olan professional əmək bölgüsü və onun ticarət fəaliyyətinə göstərən təsirinə fikir vermək lazımdır.

Heç şübhəsiz, çağdaş zamanın iqtisadi nailiyyətlərinin ən əsas səbəblərindən biri professional ixtisaslaşmadır. Tədqiqatı bir insan ömrü qədər ola bilən, hər bir elmin bölündüyü ayrı-ayrı xüsusi sahələr kimi, sənaye və ticarət də hal-hazırda bir sıra ixtisaslara bölünür. Tacirin, eyni zamanda, bankir, sığortaçı, ekspeditor və dağ-mədən mühəndisi olan vaxtları çoxdan keçmişdir. Bir sıra sahələr: nəqliyyat, bank işi, sığorta, vasitəçilik, məlumat və s., ticarətdən ayrılmış və müstəqil ixtisaslar olmuşdur. Əvvəllər bir müəssisədə birləşən bu sahələr, indi müstəqil professsional qruplar kimi inkişaf edir. Bu proses hələ tamamlanmayıb və yeni-yeni əmək sahələri əmtəə ticarətinmn gövdəsindən ayrılır, müstəqil sahələrə çevrilir. Onlardan bəzilərinin adlarını çəkək: reklam işi, təşviqat, kreditin sığortalanması, inkassasiya, hüquqi yardım, mühasibat və audit, qəyyumluq vəzifəsi, ticarət müəssisələrinin yaradılması, alqı-satqısı üçün müəssisələr, vergi büroları və s. Lakin, müstəqil sahələr kimi ticarətdən ayrılan bu ixtisaslar, gələcəkdə də

şaxələnməyə və bölünməyə meyillidirlər. Bank işi, sığorta və ekspeditor işini misal gətirmək kifayət olardı.

Ticarətdə mövcud olan ixtisasların daha da şaxələnməsinə ticarət sinfinə mənsub olan enerjili və təşəbbüskar elementlər səbəb olurlar. Həyatla mübarizədə onlar hər yerdə tutulmuş sahələrlə rastlaşırlar və buna görə də, öz əməklərinin tətbiqi üçün yeni sahələr qazanmağa çalışırlar. Xalq təsərrüfatı nöqteyi-nəzərindən belə əmək bölgüsü yalnız o halda düzgündür ki, onun sayəsində məsrəflər azalır və işin keyfiyyəti yaxşılaşır. Burada da xalq təsərrüfatı maraqları özəl təsərrüfat maraqları ilə toqquşur. Yeni professional qrupun mövcudluğu yalnız o zaman təmin oluna bilər ki, onun vasitəçiliyi ilə əmtəə mübadiləsi daha yaxşı və ucuz başa gəlsin. Məsələn, müasir tacir üçün bank işi – ekspeditor, sığorta və məlumat idarələrinin işi qədər vacibdir. Bu funksiyaların müstəqil əmək sahələri kimi formalaşmasını böyük təsərrüfat tərəqqisi hesab etmək olar. Bu tərəqqiyə kapital vasitəsilə nail olunur. Kapital isə: «bütün cəmiyyətin əməyindən istifadə edir, müasir zamanda – dünya miqyasında. Bütün! Burada heç bir illüziya olmamalıdır. Elə bir əmək yoxdur ki, kapitala bu və ya digər halda lazım olmasın və eləcə də ona xidmət etməsin. Kapital sadəcə əməyi, xüsusən də muzdlu əməyi deyil, ümumilikdə əməyi, o cümlədən də, artıq əmtəələrdə, enerji və informasiyada, bilik və ideeyalarda cəmlənmiş əvvəlki nəsillərin əməyini də istismar edir. İxtira etmiş bir alimin heç xəbəri də yoxdur ki, dünyəvi kapital onun ixtirasından istifadə edib, hansısa əmtəələr, dəyər və sair istehsal edir».

Kapital, digər sosioloji qurumlar üçün olduğu kimi, ticarət üçün də müəyyən rol oynayır. O «özünə, öz orbitinə hər şeyi» cəlb edir. Kapital subyekti – kapitalistdən (sahibkar, biznesmen, iş adamı) başqa, özünə və ya öz fəaliyyət orbitinə bütün təbii, insani və qeyri-təbii resursları, siyasi iqtisad dili ilə desək, məhsuldar qüvvələri: əmək, əmək cisimləri, əmək alətləri, enerji, informasiya, bilik, bacarıq, ağıl, elm, düşüncə, hətta bütün hissiyatları, emosiyaları, duyğuları ilə bərabər insan qəlblərini, eləcə də dövlət hakimiyyəti, siyasət, hüquq, mədəniyyət və ideologiyanı cəlb edir. Başqa sözlə desək, təsərrüfat həyatında bu və ya digər halda mövcud olan, ticarət vasitəsilə kapitala xidmət göstərə bilən hər şey, onun üstünlüyünə dominatlığına köməklik edir. Və heç də təəccüblənmək lazım deyil ki, bizim məhsuldar qüvvələr haqqında göstərdiymiz siyahı belə geniş oldu və açıq, tamamlanmamış qaldı. Belə ki, əlbəttə, biz burada heç də hamısının adını çəkmədik. İnsanlar vasitəsilə təsərrüfatın aparılması mövcud kapitalın

funksiyalarının həyata keçməsində bütün adını çəkdiklərimiz və bir çox başqaları özünün vacib istifadəsini tapır. Əlbəttə, əmək və emosiyalar – fərqli məvhumlardır, lakin bu o demək deyil ki, emosiyalar vacib deyil, onları nəzərə almamaq olar. Bu baxımdan kapital çox acgözdür: o hər şeyi özünə götürür, belə ki, bu hər şey ona doğrudan da vacib lazımdır (istehlakçıların və ya müəssisə işçilərinin emosiyalarını yada salaq). Kapital həyatı təşkil edir və onu özünə çəkir, öz təsirini onun üzərinə yayır, heç nədən çəkinməyərək, öz qaydalarına tabe edir. Kapital hətta məhəbbətdən öz maraqları üçün istifadə edə bilər; kapitalın maraqları qlobal və hüdudsuzdur, onu həyatın bütün, bütün sahələri maraqlandırır!» Heç bundan sonra «kapital» kateqoriyasına etiraz etmək olarmı? Bizim düşüncəmizdə «kapital» və «ticarət» kateqoriyaları klassik mənada həmrəydir. Bəli, əlbəttə, insan təsərrüfat fəaliyyəti və ticarət ilə məşğul olur, lakin necə insan – insan kapital və ya daha da kəskin, kapital – insan və kapital burada heç də sadə, ortabab vəzifə rolunu oynamır. O insan beyninə həkk olunub və orada bərqərar olub (bilmək olmur ki, insan orqanizminə düşüncədir, yoxsa onun əvəzinə artıq kapitaldır – qismən, əlbəttə). Kapital insanın özündədir, onun düşüncələrində, ağlında, qəlbindədir. Orada da yalnız dəyər, pul deyil, ticarət, fəaliyyət, alqı-satqıdır. Son nəticədə isə – mülkiyyət və onun həyata keçməsi arzuları. Lakin bütün bunlara, digər vasitələrlə yanaşı, əmək bölgüsü və professionallaşma vasitəsilə nail olunur.

Ticarətdə əmək bölgüsü son ən yeni dövrdə iki istiqamətdə inkişaf edir: əvvəla, ayrı-ayrı əmtəə növləri üzrə ticarətin daha da çox ixtisaslaşması baş verir; ikinci – bütöv əmtəə dövriyyəsi ayrı-ayrı əməliyyat hissələrinə bölünür. Əmtəə növlərinə görə ixtisaslaşma təkcə hər bir əmtəənin müxtəlif növ və sortlarının daim artmasından deyil, eləcə də istehlakçıların ehtiyac və tələblərini daha yaxşı ödəmək üçün, tacirin öz diqqətini kiçik sahələrdə cəmləmək vacibliyindən irəli gəlir. Bu hal həm topdansatış, həm də pərakəndə ticarətdə qeydə olınır. Divar kağızı örtükləri ilə alver edən tacir artıq xalça satmır, bir sadə səbəbə görə ki, bu əmtəələrin hər birisi xüsusi bilik, təcrübə, təşkilatçılıq tələb edir və tacirin bütün qüvvəsini götürür. Həmin səbəbdən taxıl alverçisi çay satmır; çaxır taciri isə spirtli iskilərlə alver etmir. Və mən elə bir firma tanımıram ki, topdansatış ipək alverini yun və ya pambıq parça alveri ilə birləşdirsin. Topdansatış ticarətin artan ixtisaslaşmasının səbəbi ondan ibarətdir ki, hər bir ayrıca əmtəənin alqı-satqısı sahibkarın, iş adamının bütün əmək qabiliyyətini və kapitalını tam əhatələyir. Əmtəə ilə əsaslı tanışlıq, konyunktura və dünya istehsalının

izlənməsi yalnız o halda mümkündür ki, tacirin bütün fikri bir əmtəənin üstündə cəmlənsin.

İxtisaslaşmaya belə meyil pərakəndə ticarətdə də özünü büruzə verir. Pərakəndə ticarətdə ixtisaslaşmanın necə dərin yeriməsini müşahidə etmək istəyənə böyük şəhərin əsas küçələri ilə gəzişmək kifayətdir. Universal mağazalar şəbəkəsində biz müasir, dar ixtisaslaşdırılmış ticarətdən, keçmişin xırda dükanlarına əks dönüş görürük. Lakin, əslində bu geri dönmə deyil, belə ki, burada əməyin bölgüsünün əvəzinə süni bölgü baş verir; xüsusi mağazalar əvəzinə bizim qarşımızda yalnız xüsusi şöbələrdir». Belə xüsusiyyət ticarəti kapitaldan ayırmır. Burada Y.M.Osipovu yada salmaq düzgün olardı. O, hesab edirdi ki, kapitalı özəl kapital (müəssisə, firma, bank və s.) kimi təsəvvür etmək təbii və ümumiyyətlə düzgündür: «Necə olursa-olsun, amma özəl kapital ictimai kapitaldan ilkindir. İctimai kapital özəl kapitallara bölünmür, əksinə, özəl kapitallardan ictimai kapital yarnır. Özəl kApitallar ictimai kapital məvhumundan kənarda mövcud olmur (təkrar istehsal edilmir), mövcud olsa da, yalnız hələ kapital təsərrüfatı olmayan mühitdə – onun əlavələri kimi mövcud olur. Xüsusən, kapital təsərrüfata gəldikdə isə, burada heç bir xüsusi – özəl, yəni ictimai kapitala daxil edilməyən kapital yoxdur və ola da bilməz. Buna görə də, özəl kapitala diqqət yetirdikdə, ictimai kapitalı görməmək düzgün deyil. Görünür, kapital deyəndə özəl kapital qeyd olunmayıbsa, ümumilikdə kapitalı başa düşmək lazımdır və yaxud əksinə: əvvəlcədən kapitalın özəl ictimai təbiətini nəzərə alıb, ümumiyyətlə kapitalda diqqəti cəlb etmək». Bununla yanaşı, ticarətin kapital kimi substansial təbiətə malik olmasını, kapital mahiyyətli olmasını nəzərə almaq lazımdır.

Ticarətdə əmək bölgüsünün ikinci növü ondan ibarətdir ki, ticarət prosesinə yeni vasitəçi halqalar daxil olur. Artıq qeyd olunub ki, birgə ticarət prosesi üç əsas qrupa bölünür: tədarük, bölüşdürücü və vasitəçi ticarət. Lakin bu qrupların daxilində də bölünmə və şaxələnməyə meyil özünü göstərir. Belə ki, kofe, yığım, istehsal və topdansatış ticarətçisinə qədərki prosesdə bir çox əldən keçir.

Bizim nöqteyi-nəzərimizdən, ticarət fəaliyyətinin rəhbər motivi olan ticarətin ümumi təşkilinə yeni iştirakçıların daxil olunmasına can atmanı təhlil edərkən, biz bunu deyə bilərik: əmtəə mübadiləsi prosesində əmək bölgüsü sənayedə baş verənlə analoji olaraq yer alıb. Məsələn, pambıqkətan industriyası bir sıra müstəqil sahələrə bölünür: ip əyirmə, parça toxuma, rəngləmə, appretura, hazır geyim istehsalı. Burada da ticarətdə

olduğu kimi, əmək bölgüsü yalnız o halda özünü doğruldur ki, onun nəticəsində əmtəə mübadiləsi daha ucuz, daha keyfiyyətli, məqsədəuyğun və dayanıqlı olsun. Bu mənada biz əvvəllər deyilən Byuxerin fikirləri ilə həmrəyik: «Ticarət yalnız o zaman özünü doğruldur ki, onun xidmətləri cəmiyyətə, onsuz olandan daha ucuz başa gəlsin». Buna görə də hər bir ticarət vasitəçisinin mövcudluğu xalq təsərrüfatı nöqteyi-nəzərindən yalnız o zaman özünü doğruldur ki, o xeyirli və lazımı funksiyaları yerinə yetirsin. Əgər bu yoxdursa, əgər yeni halqanın yaranması nəticəsində ticarət dövriyyəsi bahalaşır, yubanır və ümumiyyətlə mürəkkəbləşirsə, bu zaman onun yaranması heç bir şey ilə izah oluna bilməz. Onun əmtəə mübadiləsindən çıxarılması xalq təsərrüfatı nöqteyi-nəzərindən məqsədəuyğundur, özəl təsərrüfatçılıq nöqteyi-nəzərindən isə yalnız zamanını gözləyir. Və burada yenidən o müddəa təsdiqlənir ki, ticarətdə xalq təsərrüfatı maraqları gəlir götürmək kimi özəl təsərrüfat məqsədlərinə qalib gəlməlidir və buna görə də ticarət təsərrüfatçılıq prinsipinə riayət etməlidir.

## 4. TİCARƏTDƏ TƏSƏRRÜFATÇILIQ PRİNSİPİ

İqtisadiyyatla qarşılıqlı münasibətdə olan təsərrüfat anlayışı ilə biz ticarət fəlsəfəsinin mahiyyəti haqqında mülahizə edərkən, tanış olmuşduq. İndi isə, ticarətin təsərrüfat sisteminin özünə «daxil edilməsini» araşdırmaq vacibdir. Burada bizim qarşımızda ümumi meyildir – ticarətin müasir inkişafına hər hansı bir tərəfdən baxsaq, biz ilkin nöqtəmizə – ticarətin əsas vəzifələrinə qayıdırıq. Müstəqil ticarətçi-sahibkar öz özəl təsərrüfat məqsədlərinə – gəlir götürməyə – yalnız o halda nail olur ki, onu xalq təsərrüfatı maraqlarına tabe etsin. Əmtəə mübadiləsində onun yerinə yetirdiyi funksiyaları o maksimal təsərrüfat məqsədəuyğunluğu ilə yerinə yetirilməlidir. Bundan əlavə: onun gəlirinin ölçüləri onun ticarətdə iştirakının bütün cəmiyyətə verdiyi xeyirinin ölçülərindən bilavasitə asılıdır. Əgər o istehsalçı ilə istehlakçını bir-birinə birləşdirən lazımsız və xeyirsiz bir halqaya çevrilirsə, o zaman onun vəziyyəti təhlükə altına düşür. Bununla əlaqədar, ticarətdə cərəyan edən, xüsusən də ticarətin təsərrüfatçılıq xətti ilə inkişafına təsir edən bəzi meyilləri araşdırmaq ehtiyacı yaranır.

İlk növbədə, bu vasitəçilik halqalarının ləğvi meyilinin əməyin bölüşdürülməsi meyili ilə toqquşmasıdır. Əməyin bölüşdürülməsi nəticəsində ticarətdə yeni halqalar yaranır və bunları əmtəə mübadiləsinin sadələşdirmə

meyili kənarlaşdırmağa çalışır. Bu son meyil deyir: düz xətt – iki nöqtə arasında ən qısa yoldur. Əməyin bölüşdürülməsi meyili isə tam əksini təsdiqləyir: yaxşı dolayı yol, pis düz yoldan daha münasibdir. Sadələşdirməyə olan meyil təsdiq edir ki, ticarət prosesinin hər yeni iştirakçısı əmtəəni bahalaşdırır, buna görə də bütün ticarətçilər özləri əmtəəni alıb-satmağa can atmalıdır. Lakin belə mülahizə mövcud vəziyyəti əks etdirmir. Əmək bölgüsü digər təsərrüfat fəaliyyəti sahələrində olduğu kimi, ticarətdə də bir elə vacibdir. Bir meyil digəri ilə bərabər və ona əks olaraq fəaliyyət göstərir. Onların qarşılıqlı əlaqəsinin nəticələri, onların hər birinin ticarət fəaliyyətinin rəhbər motivinə nə kimi münasibətdə olduğundan asılıdır. Bəzi halqaların ləğvi meyili o halda qalib gələ bilər ki, onlardan yan keçərək, əmtəə mübadiləsi daha yaxşı, ucuz ümumiyyətlə daha məqsədəuyğun yolla baş versin. Hər-hansı bir halqanı kənarlaşdıraraq, ticarət dövriyyəsi onun gəlirinə düşən müəyyən yükdən azad olur, lakin bununla bərabər, o həmin işdən, təcrübədən, xüsusi biliklərdən, kapitaldan, kreditdən, inisiativdən, riskdən, başqa cür desək, bu sahədə xeyir verə biləcəyi hər şeydən məhrum olur. Lakin bu sahənin ləğvi nəticəsində onun daşıdığı əlavə xərclər, əgər onlar məqsədəuyğun və vacib idilərsə ləğv olunmur. Buna görə də, hər hansı bir sahənin ləğvi özəl təsərrüfat nöqteyi-nəzərindən əlverişli, xalq təsərrüfatı nöqteyi-nəzərindən isə yalnız o zaman xeyirli ola bilər ki, kənarlaşdırılanın yerini daha rasional, aşağı əlavə məsrəfləri olan, daha ucuz və əlverişli əmtəə mübadiləsini təmin edən ticarət müəssisəsi tutsun.

Yuxarıda qeyd olunduğu kimi, əmtəə mübadiləsinin aralıq iştirakçılarından və eləcə də, istehsalçı və istehlakçıların maraqlarından irəli gələn bu çalışmalar ticarət təşkilatı sahəsinə günü-gündən daha aktiv və dərindən daxil olur. Bir-birinə əks olan meyillərin toqquşmasından alınan bu effekt yalnız ona gətirib çıxara bilər ki, ticarət məqsədəuyğunluq və təsərrüfat təşkilatçılığı tərəfə inkişaf etməyə daha çox meyilli olsun. Belə ki, kənarlaşma qorxusu altında olan ticarət prosesi iştirakçısı qurtuluşu yalnız bu istiqamətdə: öz müəssisəsinin daha səmərəli təşkili, ticarət xərclərinin minimuma endirilməsi, öz tədarükçülərinə və alıcılarına daha münasib şərtlərin təqdim olunması, xüsusilə də öz ticarət gəlirinin məhdudlaşdırılması istiqamətində axtara bilər. Bütün bunlar onun təsərrüfatda yerini möhkəmlədər və ticarət prosesindən kənarlaşdırılma təhlükəsini aradan götürər.

İkinci meyil – rəqabət və onun ticarət fəaliyyətinin rəhbər motivinə təsiridir. Ticarətdə azad yarışma ona gətirib çıxarır ki, hər bir alqı-satqıda hər iki tərəf bir çox iştirakçı ilə təmsil olunub. Bunun nəticəsində istehsalçı

ona ən əlverişli şərtlər təklif edən alıcıya öz məhsulunu satmaq imkanı əldə edir; digər tərəfdən, tacir, müəyyən məhsulun bütün istehsalçılarına çıxışı açıq olduğuna görə, məhsulu daha ucuz və əlverişli yerdən alır. Azad rəqabət şəraitində belə seçim imkanı zəncirin istehsalçını və istehlakçını birləşdirən bütün yolu boyu yer alır. Yarışın bu növünü qiymət rəqabəti adlandıraq. Rəqabətin digər növləri – azad ixtisas seçimi, azad hərəkət və yaşayış seçimi, azad ticarət və sənət, bu konkret halda aktual deyillər.

Rəqabətin nəticələri özünü onda göstərir ki, alqı zamanı məhsula maksimal qiymət verən, satqı zamanı isə – ən aşağı qiymət verən qalib gəlir. Bu qaliblərlə birgə addımlaya bilməyənlər ya tamamilə bazardan kənarlaşdırılır, ya da arxa yerlərə çıxarılır. Beləliklə, qiymətlərin azad yarışması həm istehsalçının, həm də istehlakçının xeyrinədir: birinci əmtəəsini daha yüksək qiymətə sata, ikinci isə daha ucuz qiymətə ala bilər. Beləliklə, təsərrüfatın hər iki son halqası arasında qarşılıqlı olaraq əlverişli mübadilə təmin olunur. Ticarətdə rəqabətlə mübarizə ona gətirib çıxarır ki, hər bir ticarətçi öz ticarət xərclərini minimuma endirməyə, eləcə də aşağı gəlirlə kifayətlənməyə məcburdur. Burada, faktiki olaraq, seçim qanunu fəaliyyət göstərir. Ticarət məsrəfləri və ticarət gəliri minimuma enməyə meyillidir. Bunun əksinə olaraq, özəl təsərrüfatçılıq əks meyillidir. Rəqabət şəraitində özəl sahibkarlıq maraqları xalq təsərrüfatı maraqlarına tabe olmağa məcburdurlar. Bununla rəqabət ticarətdə təsərrüfatçılıq prinsipinin qələbə çalmasına şərait yaradır.

Üçüncü meyil – iri və xırda ticarət arasında mübarizə. Ticarətin inkişafına yeni zamənənin digər meyilləri də təsir edir, məsələn, iri və xırda ticarətin arasında olan mübarizə. Sənayedə, eləcə də ticarətdə, iri müəssisələr xırda müəssisələrdən güclüdür. İri müəssisələrin üstünlüyü istehsalçı və istehlakçı arasında əlaqənin daha ucuz başa gəlməsindədir. Xırda ticarət müəssisələri yalnız kəskin gərginlik vasitəsilə bazarda qala bilir. Beləliklə, ticarətin inkişafına hər hansı bir nöqteyi-nəzərdən baxsaq, görürük ki, təsərrüfatçılıq prinsipi hər yerdə özünə yol açır.

Bu meyildə təəccüblü heç nə yoxdur. Bununla belə, «azadlıq, rəqabət və bazar haqqında, xüsusən də onlar yoxdursa, az danışıb, daha çox real iqtisadi fenomen və proseslərdən mümkün qədər adekvat anlayışdan bəhs edək. Bundan ötrü də nəzərə almaq lazımdır ki, iqtisadi dünya mexanikası mövcud olsa da, mexaniki deyil; maddiliyi olsa da, qlobal anlamda maddi deyil; fenomenallığı olsa da, fenomenal deyil; nəinki determinasiyaya uğramayıb, baxmayaraq ki, səbəb və nəticə münasibətləri, əlbəttə ki, ona

tanışdır, əksinə, bu dünya qeyri-müəyyənliklə, ideallıqla, mahiyyətlə, təsadüflə doludur və o mütləq həmin bu «heç nə» ilə müəyyənlənib». Və sonda – bu ideal qüvvədir, özünəməxsus şəkildə canlıdır, lakin «artıq hansısa mütləq transsendent ölçüdə» (Y.M.Osipov).

İqtisadi həyatın inkişaf məntiqi göstərir ki, ticarətdə təsərrüfatçılıq prinsipi özünü yalnız mübarizə nəticəsində təsdiqləyir. Lakin, bu prinsipin həyata keçməsinə hansı qüvvələr və meyillər qarşı çıxır? İlk növbədə, özünü ticarətdə də göstərən ənənələr, adətlər və hüquqlar. Yeni dövrün hər cür təkmilləşmələrindən istifadə edən, yüksək inkişafa malik ticarət müəssisələri ilə yanaşı, böyük sayda ata-babadan qalan iş üsullarından əl çəkməyən, hətta bundan məhv olmaq qorxusu altında olan, köhnəlmiş ticarət müəssisələri vardır. Bu köhnəlmiş ticarət müəssisələri təsərrüfat prinsiplərinə uyğun deyillər və bu da xüsusi sübut tələb etmir. Lakin nə qədər ki, belə müəssisələr mövcuddur (adətən onlar çoz uzunömürlü olur) - təsərrüfatçılıq prinsipi tam həcmdə həyata keçirilə bilməz.

İkinci – ticarətdə olan suiistifadələr. Ticarətçilər arasında öz fəaliyyətində yalandan, aldatmadan, fırıldaqdan, tərcübəsizlikdən, bəzi insanların dar düşüncəsindən, axmaqlığından istifadə edən və varlanan elementlər hər zaman olub və olacaq. Belə elementlər ictimai və təsərrüfat orqanizminin bütün hüceyrələrinə yeriyib və orada möhkəmlənə bilirlər. Qanun və ya ticarət texnologiyasının uğuru ilə bir yerdən qovularaq, onlar digər bir yerdə yeni mövqelər qazanmağa çalışırlar. Onların «ticarət məharəti» qanunvericilikdə boşluqların müəyyən edilməsi və aldatmaqdan çəkinmədən, insanların məlumatsızlığından və təcrübəsizliyindən istifadə etmək məharətindən ibarətdir. Bu növ «tacirlər» əsasən, hər hansı bir sənətdə uğursuzluğa məruz qalıb, indi isə xoşbəxtliyini ticarətdə axtaranlardır. Aydındır ki, onlar ticarətçi sinfini komprometasiya edirlər; digər tərəfdən isə bu da həqiqətdir ki, bütövlükdə ticarətə, belə yaralara görə qiymət vermək olmaz. Ticarət prinsiplərini və biliklərini geniş əhali kütləsi arasında tədqiq etmək, ən əsası isə, ticarətdə təsərrüfatçılıq prinsipini daha geniş həyata keçirməklə, belə hallarla daha uğurla mübarizə aparmaq olar, nəinki ticarətdə düzgünlük naminə yeni qanunlar dərc etmək.

Üçüncü – ticarət siyasəti tədbirləri tərəfindən maneələr. Yəni, ayrı-ayrı ölkələrin qanunvericiliyi tərəfindən ticarət və rəqabət azadlığına qoyulan maneələr. Bunlardan, qoruyucu rüsumlar, ölkədən əmtəə və malların çıxarılmasına qoyulan rüsumlar, ölkəyə mal-qaranın gətirilməsinə qoyulan qadağalar, himayədarlıq məqsədilə verilən ərzaq məhsullarının ticarəti

haqqında qanunlar, xüsusən də ticarətin və əmtəə mübadiləsinin müxtəlif yığım və rüsumlarla yüklənməsi və s. Bütün bu tədbirlərin məqsədi azad rəqabəti məhdudlaşdırmaq, əmtəə mübadiləsini çətinləşdirmək, dünya bazarının təsirindən qorunmaqdır. Bunların nəticəsində əmtəə mübadiləsi bahalaşır və təsərrüfatçılıq prinsipi çətinləşir.

Dördüncü – kapitalist bilikləridir. Onların məqsədi – azad rəqabəti qiymətin əmələgəlməsindən çıxarıb, bütün istehlakçıların ziyanına, lakin bəzilərinin xeyrinə, ticarət gəlirlərini artırmaqdır. Ticarətin təşkili və ticarət məsrəflərinə qarşı təsərrüfatçılıq prinsipi burada tam mənada həyata keçir, lakin o xalq təsərrüfatının son halqalarının xeyrinə deyil, kapitala gəlirin artımına yönəlir. Qeyd etmək lazımdır ki, ticarət təşkilatının təkmilləşdirilməsi zaman ötdükcə, istehlakçılar üçün də sərfəli olur. Lakin, bütün ən yeni formaların nəticə effekti ondan ibarətdir ki, ticarət sahəsində bütün nailiyyətlər cəmiyyətin xeyrinə yönəldilsin.

## 5. TİCARƏTİN VƏ SOSİAL PROBLEMLƏRİN QARŞILIQLI ƏLAQƏSİ

Ticarətin iqtisadiyyatda, təsərrüfatda, eləcə də mənəvi-mədəni həyatda müsbət rolunu qeyd edərkən, onun digər, mənfi tərəfini də nəzərə almaq lazımdır. Hər zaman bir çox iqtisadi və sosial siyasətçilər ticarəti və onun nümayəndələrini ən ağır təqsirlərdə günahlandırıblar. Ticarəti bunda günahlandırırdılar ki, o məhsulların ədalətli bölüşdürülməsinə mane olur. Ticarət təsərrüfatın bədənində bir parazit kimi təsvir olunurdu, belə ki, o, istehsalçıdan onun məhsulunun bir hissəsini alır, bununla yanaşı bu qiymətə qeyri-qanuni əlavələr edir və məhsulu istehlakçıya satır. Bu və digər ağır və qeyri-ədalətli qınaqlar yalnız ticarət haqqında onun xəstə nümayəndələrinə baxıb, fikir söyləyənlər tərəfindən edilən bilər.

Təsərrüfat prinsipi ticarətə daha dərin yeridikcə, ictimai təsərrüfatın və insan cəmiyyətinin bir o qədər də xeyirli bir hissəsinə çevrilir. Buna görə də, biz burada qısa olaraq ticarətin sosial problem ilə əlaqəsi üzərində, yəni milli məhsulun ədalətli bölüşdürülməsi problemi üzərində dayanaq. Bu problemi araşdıraraq İ.F.Şerr ilə tam razılaşmaq olardı. O hesab edir ki, sosial problemi ümumilikdə hər necə təsəvvür etsək də, praktiki olaraq, o iki əsas məsələyə gətirib çıxarır. Öz əməyinə fəhlə – sözün ən geniş

mənasında – hansı payı, hansı hissəni alır? (əməkhaqqı problemi.) Və öz əməkhaqqısı müqabilində o nə alır? (istehlak problemi). [21]

Onillərlə, sosial islahatlarla maraqlanan bütün dairələrin diqqəti əməkhaqqı və onunla əlaqədar əmək şəraiti probleminə dikilmişdir. İstehlak məsələsinə heç bir diqqət yetirilmirdi. Lakin o, heç də digərindən az vacib deyil. İstehlak problemi aşağıdakı kimi ifadə oluna bilər: fəhlə, öz əməkhaqqısı müqasibilində, mümkün qədər daha çox sayda, daha yaxşı keyfiyyətdə və daha ucuz qiymətə istehlak məhsulları ala bilməlidir. İstehlak və əməkhaqqı problemləri öz aralarında sıx bağlıdır, belə ki, əvvəla, məhsuldarlıq istehlak qabiliyyətindən və ya istehlak gücündən asılıdır; və ikinci, əməkhaqqının yüksək olması çox zaman məhsulun nisbi qiyməti ilə müəyyənləşir. Bu halda məhsul istehsalçıdan tədarükçünün əlinə keçən zaman çatır. Bu iki hadisə əmtəə mübadiləsində vasitəçilərin iştirakına görə ayrılır (icarə haqqı və faiz şəklində zəhmətsiz gəlirləri, eləcə də əmtəələrin bahalaşmasına təsir edən rüsumları diqqətdən kənarda qoysaq). Əməkhaqqına dəyişdirilən əmtəələrin qiymətləri iki amildən asılıdır: əvvəla, azad rəqabət şəraitində dünya bazarının istehsalçılar üçün təyin etdiyi topdansatış qiymətlərdən; və ikinci, istehsalçıdan istehlakçıya tərəf əmtəələrin hərəkəti zamanı edilən məsrəflər və əlavələrdən, yəni ticarət məsrəflərindən və ticarət gəlirlərindən. İstehlakçı və istehsalçı arasında adı çəkilən əlaqəni nəzərə alsaq, biz araşdırmamızdan bir amili, istehsalçının öz məhsulunun satış müqabilində aldığı qiyməti çıxara bilərik və yalnız ticarət məsrəfləri ilə məşğul ola bilərik. Onlar topdansatış və pərakəndə ticarətin məsrəflərindən ibarətdir.

Bu gün topdansatış ticarət bütün xətt boyu iri müəssisələrdə cəmlənib, rəqabət şəraitində təsərrüfatçılıq prinsipinə riayət etməyə məcburdur və əmtəə mübadiləsinə minimum məsrəflərlə və qiymətə edilən əlavələrlə xidmət edir. Özünün daha yaxşı təşkilinə

> *«Ticarət iqtisadiyyatının inkişafı üçün «daxili bazar» xüsusi əhəmiyyət kəsb edir – bu və ya digər dərəcədə kredit qabiliyyətli və ümidbəslənən bazar. Orta əsrlərdə ticarətin ekspansiyasına başlananda, məhkəmələr heç də bu daxili bazara yardım etmək fikrində deyildir və o yalnız öz qüvvələrinə arxalana bilərdi. Və beləliklə, o özünün, məhkəmə qərarlarından bir o qədər də asılı olmayan maliyyə risklərinin minimallaşdırılması yollarını axtarmalı idi».*
>
> S.Xiks

görə o, artıq və gərəksiz vasitəçi halqaların, izafi xərclərin ləğv edilməsi yolunda daha qabağa gedib. Nəqliyyatın yaxşılaşdırılması və ucuzlaşması da o istiqamətdə fəaliyyət göstərir və bütün bunların nəticəsində, topdansatış ticarətində əmələ gələn ticarət əlavələrinin azalması meyili daha da güclü özünu büruzə verir. Bununla bərabər, əmtəə dövriyyəsində son halqa olan pərakəndə ticarət özünün köhnəlmiş, geridə qalmış formalarında mövcud olmaqdadır; kiçik müəssisənin bütün çatışmazlıqları ona xasdır. Təsdiq olunub ki, fabrikant istehsal etdiyi əmtəəyə 100 qəpik alırsa, istehlakçı ona 150, 200, bir çox hallarda isə 300 və daha çox qəpik ödəmək məcburiyyətindədir; bu, onu göstərir ki, pərakəndə satış sosial və təsərrüfat sahəsində tormoz olaraq qalır.

Onda, geriliyin səbəbləri nədədir? Heç də şübhə doğurmur ki, pərakəndə ticarətin geriliyi, inkişafında primitiv pillədə dayanıb qalmaqdadır, yüksək dərəcədə təmiz gəlirlə yox, daha çox dərəcədə, kiçik müəssisənin təşkilinin qeyri-təsərrüfat xarakterli olması ilə səciyyələnir. Pərakəndə ticarətə həyatın digər təsərrüfat sahələrində iflasa uğramış elementlərinin daxil olması; qabaqcadan hesablamalar etmədən məsuliyyətsizlik edib müəssisələr açmaq; ticarət biliklərinin olmaması; əmtəələrin uğursuz, hardan gəldi, tədarükü; işçi qüvvəsinin, kapitalın məqsədəuyğun olmayan istifadəsi; əmtəə dövriyyəsinin çox zəif olması; kreditin məsuliyyətsiz olaraq verilməsi; dövriyyə vasitələrinin çatışmaması və ya olmaması – bütün bunlar xırda pərakəndə ticarətin geridə qalmasının səbəbləridir. Buna görə də, təəccüblü deyil ki, müasir zamanda iri müəssisələr pərakəndə ticarət sahəsində də uğurla inkişaf edir. Doğrudan da, bu müəssisələr kiçik pərakəndə ticarətini bütün göstərdiyimiz sahələrdə üstələyir. Təsərrüfatçılıq prinsiplərini həyata keçirmək iri müəssisələrin imkanları daxilindədir: ən az güc, zaman və vasitə sərf etməklə maksimal təsərrüfat effektinə nail olmaq. Bununla belə, iri müəssisə təchizatın konsentrasiyası və öz əmtəə assortimentinin əhalinin tələbatına uyğunlaşmasının üstünlüklərindən istifadə edir; əmək, kapital və sahələrdən maksimal istifadə edir; eləcə də yüksək sürətli əmtəə dövriyyəsindən, kreditin riskdən azad olmasından, yaxşı reklam olunmaqdan və s. istifadə edir.

Nəzərə almaq lazımdır ki, ticarətin digər halqalarını da (tədarük və paylayıcı) hətta istehsalı da ələ keçirməyə can atan müasir iri pərakəndə ticarət müəssisəsi iki tam fərqli istiqamətdə inkişaf etmişdir: kapitalist istiqamətində müxtəlif növ iri universal və ixtisaslaşdırılmış mağazalar irəliləyirdilər, sosial istiqamətdə isə – istehlakçılar cəmiyyətləri inkişaf

edirdi. Birincilər – qoyulmuş kapitala gəlir almağı nəzərdə tuturlar; ikincilər isə ya tamamilə gəliri nəzərə almırlar, ya da onu ictimai-kooperativ maraqlara tabe edirlər: burada məqsəd kimi bölünməz kooperativ kapitalın yaradılması, müştəriləri daha ucuz təmin etmək məqsədilə daha ağaşı tədarük qiymətlərinin təmin edilməsi durur.

Ticarət müəssisələrinin iri kapitalist və xırda kapitalist formalarının yarışması son nəticədə açıq mübarizəyə keçmir, belə ki, onların hər ikisi öz qarşılarında ümumi düşməni – xırda pərakəndə ticarət müəssisələrini və orta sinfin maraqlarını müdafiə edən, onların siyasi nümayəndələrini görürlər. Lakin iri ticarət müəssisələrinin kapitalist və sosial formaları arasında mübarizənin hər-hansı bir mənası varsa, bu yalnız təsərrüfat zəmiNində uğurlar: ticarətin daha yaxşı təşkili, istehlakçının tələbatına daha yaxşı uyğunlaşma və ən əsası, ticarət məsrəflərinin azaldılması ola bilər. Bu iri ticarət müəssisələri formalarının hansının daha böyük təsərrüfat gücünün olmasını müəyyən etmək üçün, onların ticarət kalkulyasıyasını araşdırmaq lazımdır.

Yalnız sistematik olaraq ticarət kalkulyasiyasının araşdırlıması iqtisadi qiymətləndirmə üçün dəqiq məlumatlar verə bilər. Buna görə də müəssisə fəaliyyətinin bütün tərəflərini və bütün şaxələrini işıqlandırmaq lazımdır. Onun fəaliyyətini müəyyən edən bütün amilləri: təşkilati xərclərin həcmlərini, tərkibini və nisbi miqyasını; dövriyyə vaxtını; kapitala tələbi və ondan istifadə qaydalarını; əmək qüvvəsindən, binalardan və s. istifadəni qiymətləndirmək lazımdır.

Bu mülahizərlərdən ikili nəticə çıxartmaq olar: əvvəla, biz görürük ki, ticarət sosial mənada da yalnız o halda öz vəzifəsini yerinə yetirir ki, əmtəə dövriyyəsi prosesini təsərrüfat prinsipinə istiqamətləndirsin. İkinci, biz görürük ki, ticarətdə təsərrüfatçılıq prinsipinin hansı dərəcədə həyata keçməsini müəyyən etmək üçün xüsusi iş aparmaq lazımdır – kalkulyasıya, müqayisəli statistika, mühasibat uçotu və təşkili – bütün bu sahələr ticarət müəssisələrinin təşkili haqqında elmin əsasını təşkil edir. Bununla biz söhbətimizin ticarət müəssisəsinin təşkilinə həsr olunmuş praktiki hissəsində tanış olacağıq. Onlar nədir və bu necə baş verir?

## 6. MİKRO – VƏ MAKRO TİCARƏT TƏSƏRRÜFATI

Ticarət və müəssisələrin təşkili elmində, qaçılmaz olan, iqtisadi nemətlər problemi yaranır. Onlar nəinki istehsal edilməli, eləcə də, istehlakçıya çatdırılıb ona satılmalıdırlar. İstehlakçıya ötürülmə yolunda nemətlər bir

neçə mərhələdən keçir: daşınma, saxlanma, anbarda yerləşdirilmə, mağazalarda yerləşdirilmə, istehlakçıya çatdırılma və nəhayət satış. İstehlakçıya çatdırılma funksiyasını, öz üzərinə adətən, xüsusi kapital - ticarət kapitalı götürür; məhsulların satışı ilə xüsusi təsərrüfat subyekti – ticarətçilər (ticarət təsərrüfatı subyektləri, ticarət sahibkarları) – məşğul olurlar.

İstehsal olunan nemətin satışını elə istehsalçı özü də təşkil edə bilər. Müstəqil satış istehsalçıya bazarı tanımaq üçün lazımı biliklər, istehlakçı ilə bilavasitə təmas verir, bazarın müəyyən hissəsi üzərində nəzarəti təmin edir. Lakin müəssisə özü satışla məşğul olanda, onun maliyyə, istehsal və əmək resursları bilavasitə nemətlər istehsalı prosesindən yayınırlar. Xüsusi təsərrüfat fəaliyyəti üzərində ixtisaslaşan ticarət sahibkarı satış prosesini daha tez, effektiv və ucuz təşkil edə bilər.

Ticarət sahibkarları müxtəlif növ təsərrüfat fəaliyyəti ilə məşğuldurlar. Bir tərəfdən, nemətlərin istehsalı prosesini davam etdirirlər (lakin, artıq istehsal müəssisələri hüdudlarından kənarda), digər tərəfdən – nemətlərin satıcılardan istehlakçıların əlinə keçməsini təmin edirlər. Bu, dəyər istehsalı prosesində xüsusi bir andır. Bir tərəfdən onun satışını təmin edir, yəni, əmtəə formasından – pul formasına keçməsini; digər tərəfdən – son, real dəyəri özündə əks etdirir.

Qeyd edək ki, ticarətçi istehsalçıdan iqtisadi neməti aralıq dəyər ilə, istehsalın müəyyən mərhələsində əmələ gələn dəyər ilə alır, istehlakçıya isə – son (satış), ticarət xidmətlərini (satış xidmətlərini) ödəyən real dəyər ilə satır. Ticarət xidmətlərinin ödənilməsi – süni qiymətə əlavə deyil, yaradılmış, istehsal edilmiş dəyərin bölüşdürülməsi deyil. Bu dəyər hərəkəti prosesində vacib bir mərhələnin ödənişidir.

Real təsərrüfatçılıqla ticarətçinin yerinə yetirdiyi funksiyaların fərqi nemətin realizasiyası prosesi ilə əlaqəli iki növ məsrəflərin üzə çıxmasında özünü büruzə verir: ticarət məsrəfləri və ya dövriyyə sahəsində məsrəflərdə. Adətən, ticarət məsrəfləri iki yerə: əlavə və təmiz məsrəflərə bölünür. Əlavə məsrəflər deyəndə, dövriyyə sahəsində nemətin istehsal prosesinin davamı ilə əlaqəli məsrəflər başa düşürük (qablaşdırma, bükülmə, saxlanma, nemətlərin hərəkəti və s.). Əlavə məsrəflər digər məsrəflər kimi ödənilir – onlar dəyərin yaranması prosesi ilə müəyyənləşib, onlara kapital buraxırlır və o istehsal olunmuş nemətin qiymətindən (dəyərindən) əvəzlənir. Başqa sözlə, «adi» dəyər yaranma prosesi gedir, avansla buraxılmış dəyər (kapital) hərəkət zamanı öz-özündən artır və «adi» əlavə dəyər və gəlir gətirir. Təmiz məsrəflər xüsusi ticarət xidməti olan nemətin satışı xidməti ilə əlaqəlidir.

Onlara reklam, ticarət personalının əməyinin ödənilməsi, pul dövriyyəsinin xidmətlənməsinə edilən məsrəflər daxildir.

Əksər hallarda müasir şəraitdə belə baş verir ki, ticarətçi, iqtisadi nemətlərin dövriyyəsi ilə əlaqəli müxtəlif əlavə xidmətlər də göstərə bilər. Məsələn, o, hər hansı bir sahə bazarının xüsusiyyətlərini təhlil edib, realizasiya (satış) prosesini kreditləşdirə bilər (yaxud ticarət əməliyyatlarının həyata keçməsi üçün pul vəsaitlərini borc verə bilər: bu, həm nemətin (əmtəənin) istehsalçısının kreditləşməsi yolu ilə, hər hansı bir nemətin istehsalının əvvəlcədən ödənilməsi şəklində, eləcə də, istehlakçı-alıçının kreditləşməsi yolu ilə - məsələn, əmtəənin qiymətinin hissə-hissə ödənilməsi imkanının verilməsi yolu ilə baş verə bilər). Lakin ticarətçi fəaliyyətini digər təsərrufat subyektləri arasında fərqləndirən xüsusiyyət – məhz onun ticarət xidmətini göstərməsidir. [24]

Ticarət xidməti təsərrüfat subyekti tərəfindən müstəqil olaraq göstərilə bilər: müstəqil müəyyən edilən şərtlər əsasında və yaxud, iqtisadi nemətin istehsalçısı tərəfindən verilən tapşırıq əsasında. Birinci halda söhbət həqiqətən də müstəqil təsərrüfatçılıq edən ticarət sahibkarından gedir. İkinci halda söhbət ticarət təmsilçisindən, nemətin istehsalçısı və ya sahibi tərəfindən, onun tapşırığı və səlahiyyətləri çərçivəsində nemətlərin satışı ilə bağlı fəaliyyət göstərən subyektdən gedir.

Ticarət təmsilçiləri (onları ticarət vasitəçiləri də adlandırırlar) əmtəə istehsalçıları ilə bağlanan xüsusi müqavilələr əsasında fəaliyyət göstərirlər (aydındır ki, müəyyən şəraitdə ticarətçi də, əmtəəsini satmaq istəyən, həm bir sahibkar da, vasitəçi cəlb edə bilər) və bu hər zaman tapşırıq əsasında, səlahiyyətlər (hüquqlar) çərçivəsində, istehsalçının adından – tapşırıq müqaviləsi zamanı və ya öz adından – komissiya razılaşması zamanı, istehsalçının hesabına baş verir. Ticarət xidmətinin əvəzi olaraq istehsalçıdan və ya əmtəənin sahibindən maddi təminat verilir. Belə ödəniş forması dəyər hərəkəti prosesində ticarət xidmətinin «iştirakı» mexanizmini dəyişmir.

Ticarət vasitəçiləri müxtəlif olur. Komissionerlər istehsalçının əmtəələrinin satışını öz adından, lakin istehsalçının tapşırığı əsasında və vəsaiti hesabına həyata keçirirlər. Onlar komissiya müqaviləsi əsasında fəaliyyət göstərirlər. Komissioner satılan əmtəənin sahibi deyil. Satış, istehsalçı ilə razılaşdırılmış qiymətlər əsasında, müəyyən ərazidə baş verir. Satış tapşırığı komissionerə müəyyən vaxta verilir. İstehsalçı pul şəklində komission təminat verir və komissionerə, tapşırığın yerinə yetirilməsi ilə əlaqədar, lazımi məsrəfləri ödəyir.

Konsiqnator, istehsalçının xüsusi – konsiqnasion – anbara qoyulan əmtəələrin satışını öz adından, lakin istehsalçının tapşırığı və vəsaiti hesabına həyata keçirir. Anbarın fəaliyyətinə sərf olunan xərclər istehsalçı tərəfindən ödənilir. Konsiqnator da, komissioner kimi, satılan əmtəənin sahibi deyil, onu razılaşdırılan qiymətlər əsasında, əvvəlcədən razılaşdırılmış ərazi hüdudlarında satır. Adətən, konsiqnasiyanın müddəti, yəni anbara qoyulan əmtəənin satış müddəti də əvvəlcədən razılaşdırılır.

Müqavilə (saziş) əsasında işləyən ticarətçi, yəni distribyutor, komissioner və konsiqnatordan fərqli olaraq, öz adından və öz hesabına fəaliyyət göstərir. O istehsalçıdan əmtəələri satın alır, yəni adi ticarət edir. Lakin adi ticarətçi istehsalçıdan əmtəəni alandan sonra, onunla necə istəsə rəftar edə bilər (məsələn, daha yaxşı satış şərtləri olana qədər əmtəəni saxlaya bilər və yaxud onu xaricə çıxara bilər, əmtəəyə bu və ya digər qiymət qoya bilər). Bundan fərqli olaraq, müqavilə yolu ilə əmtəə əldə etmiş ticarətçinin hərəkətləri ciddi şəkildə əmtəə istehsalçısı ilə olan müqaviləsinin şərtlərilə müəyyənləşib (müqavilənin adı – satış hüququ verən sazişdir). Müqavilə ilə fəaliyyət göstərən ticarətçi əmtəəni qabaqcadan razılaşdırılmış ərazi daxilində sata bilər. O, minimal dövriyyə öhdəliklərinin tələblərinə riayət etməlidir, yəni qabaqcadan razılaşdırılmış zaman ərzində müəyyən həcmdə əmtəələrin satışını təmin etməlidir. Nəhayət, o əmtəəni yüksək qiymətlərlə sata bilməz. Bir sox hallarda satış qiyməti, sadəcə olaraq, istehsalçı tərəfindən təyin olunur.

Bəzi hallarda, əmtəənin alqı-satqı prosesi, alıcı və satıcını, eyni zamanda tapıb, bir araya gətirmək iqtidarına malik vasitəçilərin qarışmasını tələb edir. Belə vasitəçiləri (ticarət vasitəçilərindən fərqli olaraq ticarət xidmətini özləri göstərən ticarət təmsilçiləri) sadə və ya təmiz vasitəçi adlandırırlar. Sadə və ya təmiz vasitəçilik – əmtəə müqavilələrinin potensial kontraqentlərinin tapılması və bir araya gətirilməsi üzrə aparılan fəaliyyətdir. Sadə vasitəçi, adətən, bilavasitə, özünün hazırladığı, təmin etdiyi və bağladığı müqavilənin iştirakçısı olmur. Vasitəçilər öz müstərilərinin tapşırığı əsasında adından və müştərilərinin hesabına fəaliyyət göstərirlər (müştəri kimi əmtəələrin istehsalçıları, ya onların satışını həyata keçirmək istəyən sahibləri və yaxud potensial satıcı axtarmaqda maraqlı olan əmtəə alıcıları ola bilərlər).

Sadə ticarət vasitəçiləri arasından çox zaman brokerlər və agentlər seçilirlər. Broker – müəyyən əmtəənin satıcısı və alıcısı arasında əlaqə

yaradan vasitəçidir; özü müqavilədə iştirak etmir; adətən, razılaşmanın həcmindən asılı olaraq, mükafat alır.

Agent – vasitəçidir. O, nəinki alıcı və satıcını bir araya gətirir, eləcə də, onlardan birinin adından və tapşırığı ilə müqavilə bağlayır. Agent də öz zəhmətinə görə mükafat alır.

Ticarətçi iş adamları (sahibkarlar) əvvəllər deyildiyi kimi, əmtəə dövriyyəsi sahəsində, yəni istehsal müəssisələrindən kənarda fəaliyyət göstərirlər. Oxucu artıq görüb ki, ümumilikdə ticarət də istehsal fəaliyyətidir, lakin onun tərkibi və xüsusiyyətləri təmiz istehsal müəssisələrindən fərqlidir. Əmtəəni yaratmış və dövriyyəyə buraxmış istehsal müəssisəsinin hüdudlarından kənarda, əmtəənin dövriyyə sahəsində istehsalının davamı, ticarətdə alqı-satqı xidmətinin istehsalı ilə həmrəngdir. Və nəticədə – iqtisadi nemətə nail olunur.

Dünya ticarət təsərrüfatında ticarətin aşağıdakı növləri – topdansatış və pərakəndə ticarət – mühüm əhəmiyyət kəsb edirlər. Ticarətçi iş adamı istehsalçılardan və yaxud sahibkarlardan iqtisadi nemətləri – əmtəələri – onların aralıq dəyərini əks etdirən qiymətlərlə alır. O əmtəələri öz mülkiyyətinə, öz məsuliyyəti üzərinə, öz riskinə, öz adından və öz vəsaiti hesabına alır və sonra onların, öz adından, öz hesabına, istənilən ərazidə satışını həyata keçirir.

Ticarət fəaliyyəti, adətən, pərakəndə və topdansatış fəaliyyətdən ibarətdir. Topdansatış ticarəti – təsərrüfat və ya istehsal fəaliyyətində yenidən istifadə edilməkdən ötrü əmtəələrin alqı-satqısıdır.

Pərakəndə ticarət – şəxsi istifadə üçün son istehlakçıya iqtisadi nemətlərin alqı-satqısı üzrə fəaliyyətdir. Topdansatış ticarət edərkən əmtəə iri partiyalarla alınır və satılır. Topdansatış ticarətində əmtəə bir nesə dəfə alınıb-satıla bilər. Topdansatış ticarət istehsalçıdan – pərakəndə ticarət müəssisələrinə və yaxud, istehsal təyinatlı əmtəələrin satışı zamanı əmtəəni istehlak edən istehsalçı müəssisələrə qədər əmtəənin hərəkətinin ilkin mərhələsidir. Topdansatış ticarət vasitəçi rolunu oynayaraq, istehsal və istehlakı bir-birinə bağlayır. Pərakəndə ticarət isə istehsalçıdan istehlakçıya gedən əmtəənin hərəkət zəncirini tamamlayır. O, iqtisadi nemətlərin bilavasitə istehlakçıya hərəkətində son halqadır. Pərakəndə ticarətdə əmtəə cəmi bir dəfə satılır.

Topdansatış və pərakəndə ticarət müxtəlif formalarda həyata keçirilir. Hər kəsə tanış olan «mağaza», «dükan» forması ilə yanaşı digər ticarət formalarının mövcudluğu müxtəlif iqtisadi nemətlərin xüsusiyyətləri, onla-

rın istehsalçıdan – son istehlakçıya qədər hərəkətinin təşkilinin xüsusiyyətləri ilə izah olunur. Nəzərə alsaq ki, ticarət və onun konkret formaları, adətən, ümumnəzəri drsliklərdə tam əks olunmur, aşağıdakı mA-terialı ticarət sahəsinin təsərrüfat həyatının xüsusiyyətləri haqqında təsəvvür yaradan konkret məlumatlarla zənginləşdirməyi özümüzə borc bilirik.

Pərakəndə, eləcə də topdansatış ticarət öz formalarında təzahür edir. Topdansatış ticarət – topdansatış dükanları (satış anbarları, tədarük məntəqələri), əmtəə birjaları, topdansatış yarmarkaları Vasitəsilə həyata keçirilir. Topdansatış ticarətin spesifik formaları – ticarətçilər (rəqabət ticarəti) və auksionlardır. Topdansatış ticarətin müxtəlif formaları bir çox alıcıları və satıcıları bir araya gətirmək imkanı yaradır və bununla onlar tərəfmüqabil axtarmaq və ticarət müqavilələri bağlamağa lazım olan xərcləri (məsrəf və vaxt) aşağı salırlar; bazar münasibətlərinin qeyri-müəyyənliyini azaldırlar (müəyyən nemətin tələb və təklifinin formalaşması şərtləri haqqında məlumatları təmin edirlər); ayrı-ayrı subyektlər üçün inhisarçı (fövqəladə) bazar vəziyyətinin və təsərrüfat şəraitinin yaranmasının mümkünlüyünü azaldırlar. Topdansatış ticarətin müxtəlif formaları xüsusi şəkildə təşkil edilmiş bazarlardırlar – təsərrüfat subyektləri tərəfindən mücburi təşkil edilən iqtisadi nemətlərin alqı-satqı şərtləri (mübadilə-qiymətləndirmə prosesinin, bu münasibətlərin iştirakçılarının özləri tərəfindən təyin edilən, xüsusi şərtlərlə).

Topdansatış yarmarkalar – vaxtaşırı, adətən, eyni yerdə müəyyən zaman və vaxt ərzində, təşkil olunan iri ticarət bazarlarıdır.

Topdansatış yarmakalarının əsas məqsədi istifadə və ya yenidən satış üçün iqtisadi nemətlərin əldə edilməsində maraqlı olan istehsalçılar (satıcılar) və potensial alıcılar arasında bilavasitə əlaqə yaratmaqdan ibarətdir. Adətən, yarmarkalarda əmtəələrin nümunələri və ya müxtəlif kommersiya təklifləri nümayiş olunur. Yarmarkada iştirak etmək – məhsulun reklam edilməsi, istehlakçı tələbatının öyrənilməsi, yeni perspektiv bazarların, tərəf müqabillərin axtarışı üçün bir vasitədir.

Rəqabətli (podrat) ticarət torqları – topdansatış ticarətin təşkili formasıdır. Burada alıcı satıcılar üçün müsabiqə təşkil edir, alış-verişin, eləcə də əmtəələrin və xidmətlərin xüsusiyyətlərini təyin edir. Rəqabətli ticarət açıq keçirilə bilər. Bu zaman bütün satıcılar alıcının sifarişi ilə tanış olub, təklif ərizələrin müsabiqəsində iştirak edə bilərlər. Və yaxud, rəqabətli ticarət bağlı keçirilə bilər. Bu zaman iştirakçı kimi yalnız bir neçə qabaqcadan müəyyən edilmiş istehsalçı dəvət olunur. Topdansatış ticarətin bir

növü kimi, torqlar, maşın və avadanlığın alqı-satqısı müqavilələrinin bağlanması, müxtəlif obyektlərin tikintisi zamanı mühüm rol oynayır.

Auksion ticarəti – ticarətin təşkilinin elə bir formasıdır ki, bu zaman satıcı, maksimal gəlir götürmək məqsədilə, satışda iştirak edən bir çox alıcıların rəqabətindən istifadə edir. Əmtəə auksionu, adətən, qabaqcadan müəyyən edilmiş vaxt, xüsusi təyin edilmiş yerdə keçirilir. Auksion ticarətin predmeti – individual xüsusiyyətlərə malik əmtəələrdir. Auksion başlayana qədər alıcı mütləq əmtəələrə baxış keçirməlidir – sonradan satıcılara və uksion təşkilatçılarına təqdim olunan iradlar qəbul edilmirlər. Auksionlarda əsas ticarət predmeti – heyvan dəriləri, xəzlər, yuyulmamış yun, çay, tütün, tərəvəz, meyvə, gül, atlardır. Auksionun prinsipləri topdansatış və pərakəndə ticarətin təşkilində, eləcə də birja ticarətinin keçirilməsində istifadə oluna bilər.

Əmtəə birjaları – daim fəaliyyət göstərən, alıcıları və satıcıları bir araya gətirməyə imkan verən təşkilatlanmış bazarlardır. Daim fəaliyyət göstərən ticarət institutları kimi birjalar XVII əsrin əvvəllərində Avropa dövlətlərində yayılmağa başlamışlar və həmin o Avropa birjaları müasir birjaların real öncülləri olmuşdur. İlk əvvəl birja bilavasitə birjanın anbarına gətirilən nəğd əmtəə ilə ticarət edirdi. Sonradan – nümunələr üzrə ticarət yayılmağa başladı. Tədricən üzərində birja əməliyyatları aparılan əmtəələrin dairəsi genişləndi; zaman keçdikcə, birjalar bölünməyə başlandı: birja əmtəələri ilə ticarət edən əmtəə birjalarına; fond qiymətləri ilə – qiymətli kağızlarla ticarət edən fond birjalarına və valyuta ilə ticarət edən valyuta birjalarına. Universal birjalar da fəaliyyətlərini davam etdirir.

Əmtəə birjasında ticarətin predmeti – individual xüsusiyyətləri olmayan, qarşılıqlı əvəzolunan, nümunələr və ya standartlarla satılan, təyin olunmuş minimal həcmdə partiyada lazımı xüsusiyyətləri (keyfiyyət, sort) özündə əks etdirən əmtəələrə olan kontraktlardır. Birja əmtəələrinə 70 növ əmtəə aiddir. Onların arasında – kənd təsərrüfatı və meşə əmtəələri, onların emalı məhsulları (buğdalılar, yağlı toxumlular, diri mal-qara, ət, tekstil və ərzaq məhsulları, taxta materialları, təbii kauçuk), sənaye məhsulları (rəngli və qiymətli metallar), yanacaq məhsulları (xam neft) vardır.

Birjalarda ticarət daimi aparılır, bütün əməliyyatlar açıq şəkildə həyata keçirilir, kontraktlar tipikdir (standartdır), alıcılar və satıcılar isə öz seçimlərində azaddırlar. Birja öz adından və öz hesabına ticarət aparmır və müqavilə bağlamır. Bu, ticarət müəssisəsinin xüsusi tipidir, o yalnız təşkil edir, kommersiya məqsədilə, yəni gəlir məqsədilə ticarət aparmır. Birja özünü

təminetmə prinsipi əsasında fəaliyyət göstərir, öz xidmətlərinə görə müəyyən mükafat alır (hər bir bağlanmış müqavilədən faiz çıxılır) – təqdim olunan binaya, ticarət prosesinin təşkilinə, müqavilə iştirakçılarının informasiya təminatına görə. Ticarətin, vasitəçiliyin və digər fəaliyyətin (bank, istehsalat) heç bir növü ilə birja məşğul ola bilməz, belə ki, o zaman birjanın mənası itir. Birja, ticarətdə şəxsən iştirak edib, varlanmaq yox, ictimai ticarətin ədalətli həyata keçməsində maraqlıdır.

Birjada torqlar onlara buraxılmış birja vasitəçiləri tərəfindən aparılırlar. Birja vasitəçiləri brokerlərdən və alverçilərdən ibarətdir. Broker əməliyyatları müştərinin tapşırığı ilə, tapşırıq və ya komissiya müqaviləsi əsasında, bir sıra şərtlər müqabilində – müqavilə müddəti, əmtəənin həcmi və qiyməti üzrə həyata keçirir. Öz fəaliyyətinə görə broker müştəridən təyin olunmuş mükafat alır. Alverçilər öz adından, öz hesablarına və risklərinə görə hərəkət edirlər. Alverçi fəaliyyətinin mənası – birja məzənnələrinin fərqində oynamaqdır. Birja kontraktlarını qiymət artımına umid edib əldə edən alverçilərə «öküzlər» deyirlər; əksinə qiymətlərin aşağı düşməsinə ümid edib, birja kontraktlarını satanlara isə «ayılar» deyirlər.

Birja müqavilələrinin bağlanması prosesində əməliyyat maklerlərinin xüsusi rolu vardır. Onlar brokerlərdən və ya alverçilərdən gələn sifarişləri qeyd edirlər, sifarişin məzmununu (satış və ya alış) təklif edilən qiyməti, sifarişin ümumi həcmini və qiymətini və daxil olma vaxtını göstərirlər. Bu ana bütün daxil olan sifarişlər haqqında məlumatları, birja ticarəti təcrübəsində təsdiqini tapan bir sıra prinsipləri əlində rəhbər tutaraq (məsələn, sifarişin daxilolma vaxtının prioriteti, maksimum böyük həcmdə lot üzrə sifarişin təmin olunması, ən iri birja dövriyyəsi prinsipi və s.), o sifarişləri yerinə yetirməyə çalışır. Broker və alverçilərə müəyyən təkliflər edərək, o xüsusi təyin olunmuş siqnalı (işarəni, qışqırığı) gözləyir. Bu da onu təsdiq edir ki, hər hansı bir vasitəçi alınmış təklifə müvafiq olaraq, müqavilə bağlamağa razılıq verib. Bundan sonra müqavilə bağlanmıq hesab olunur.

Birjada real əmtəənin çatdırılması kontraktları, forvard Kontraktları, fyuçers və opsion kontraktları üzrə ticarət aparılır. Real əmtəəyə bağlanan müqavilə nəğd məhsula bağlanır, bu məhsulun qiyməti isə tələb və təklifin təsiri altında formalaşan bazar qiyməti kimi müəyyən edilir. Kontraktın ödənilməsi onun bağlanması anında və ya müəyyən olunmuş müddət ərzində baş verir.

Forvard müqaviləsi bu an mövcud olmayan, lakin gələcəkdə mütləq çatdırılan əmtəəyə bağlanır. Qiyməti, müqavilə bağlanan anda, mövcud

qiymətdən və onların dəyişməsinin mümkünlüyünə olan məlumatlardan asılı olaraq müəyyən edilir. Forvard müqaviləsi, bir tərəfdən, dəqiq qiymət əsasında əmtəənin çatdırılmasını təmin edir, digər tərəfdən isə – alıcını və satıcını ilkin öhdəliklərlə bir-birinə bağlayır, qiymətlərin gözlənilmədən dəyişməsi zamanı müqavilədən imtina etmək imkanı vermir. Forvard kontraktı qiymətlərin artması və azalmasına yönəlmiş birja oyunları üçün yaramır.

Fyuçers kontraktı da gələcəyə yönəldilən kontraktdır, forvard kontraktından fərqli olaraq, o standartlaşmış kontraktdır (həcminə, satış müddətinə, qiymətin dəyişməsinə görə). Fyuçers, kontraktın müddəti başa çatmamış da, hər an satıla bilər və bu zaman kontraktın ilkin və axırıncı qiyməti arasında yaranan fərq ödənilir. Kontrakt şəxsiyyətsiz olaraq, yalnız birjanın Hesabat (klirinq) Palatası vasitəsilə alınır və satılır. Adətən, fyuçers kontraktı real əmtəənin çatdırılması ilə nəticələnmir. Onun alqı-satqı məqsədi kursların (məzənnələrin) fərqində aparılan oyun və qiymətlərin qeyri-mütənasib dəyişməsindən özünü sığortalamaqdır (eyni zamanda real və fyuçers kontraktlarının alınması vasitəsilə həyata keçirilir və «xedjlənmə» adlanır).

Opsion da kontraktdır, lakin əmtəənin alqı-satqısına deyil, əmtəəni almaq və ya satmaq hüququnun əldə edilməsinə bağlanır. Opsion alıcısı opsionun sahibindən hər hansı bir əmtəəni (bazis aktivini) almaq hüququnu qazanır. Alış hüququnu verən opsion «koll», satış hüququnu verən isə «put» adlanır. Hüququn alınması mükafatla ödənilir. Opsion, onun alıcısına, gələcəkdə müəyyən edilmiş vaxtda (Avropa opsionu) və ya gələcəkdə razılaşdırılmış vaxt ərzində (Amerika opsionu), alqı-satqı etmək hüququ verir. Opsionun alıcısı onun

> *«İş burasındadır ki, kapitalın istifadə etdiyi əməyi yalnız müəssisələrdə məşğul olan əməyə aid etmək olmaz, xüsusilə də muzdlu əməyə. Burada hər şey daha mürəkkəb, dolaşıq və məzmunludur. Əgər hər şey, muzdlu əməkdən əlavə, yalnız müəssisənin işçilərinin əməyinə yönəlsəydi, bu zaman kapital heç özünü həyata keçirə bilməzdi. Bilavasitə müəssisələrdə məşğul olanların əməyi kapitalın tam şəkildə mövcudluğuna kifayət etmir (ona alimlər, vəkillər, siyasətçilər, hərbçilər və təbii ki, bütün zəhmətkeşlər lazımdır.*
>
> Y.M.Osipov

yerinə yetirilməsindən imtina etmək hüququna malikdir, satıcı isə alıcı təkid edərsə kontraktı yerinə yetirməlidir.

Pərakəndə ticarət pərakəndə ticarət müəssisələri vasitəsi (pərakəndə mağazalar və xidmət sahəsinin pərakəndə müəssisələri), eləcə də müxtəlif «qeyri-mağaza» üsullarının vasitəsilə aparılır. Sonuncu – bağlamalar ticarəti, evdə ticarət və ticarət avtomatları ilə təmsil olunub. Ənənəvi (mağaza, dükan) ticarəti ilə yanaşı, digər satış üsullarından istifadə ayrı-ayrı əmtəələrin satış xüsusiyyətləri, istehlakçı davranışı ilə izah olunur. Ticarət edən təşkilat üçün belə ticarət formaları satış bazarının genişlənməsinin əlavə üsulları, rəqabət mübarizəsi metodu kimi çıxış edə bilər (belə ki, analoji əmtəələr və ya digər istehsalçıların xidmətləri ilə rəqabət imkanı yoxdur, alıcını müəyyən ticarət firmasına «bağlamaq» imkanı mövcuddur).

Bağlama ticarətinə poçt kanalları və telefon şəbəkələri vasitəsilə sifarişçilərin yığılması və satılan əmtəələrin çatdırılması kimi müxtəlif satış növləri daxildir (əmtəələrin sifarişləri poçtla, telefon və ya kataloqlarla həyata keçirilir, sonra onlar anbarlardan alınır və müəyyən ödəniş etməklə evlərə çatdırılır). Bağlama ticarəti istehlakçıların vaxtına xeyli qənaət etməyə, alqı-çatqı prosesini yüngülləşdirməyə imkan verir. Burada ticarətçi də, satış məsrəflərini azaldaraq xeyir qazanır (əmtəələrin nümayişi, saxlanılması, ticarət heyətinin təmin edilməsi).

«Bilavasitə satış (əldə daşınan ticarət, «kəndarda» ticarət, «arşınmalçılıq») bilavasitə istehlakçının evində alış-verişin baş verməsini nəzərdə tutur. Xüsusi hazırlıq keçmiş ticarət agentləri çox da yüksək olmayan qiymətlərlə daimi alınan əmtəələri (ərzaq məhsulları, kosmetika və s.), yaxud da əksinə, çox bahalı əmtəələri (məsələn, məişət texnikasını) uğurla satırlar.

Əmtəələrin müəyyən növləri ticarət avtomotları vasitəsilə satıla bilər. Onlar fərqli yerlərdə quraşdırılır, gün ərzində 24 saat işləyir və onlara ticarət personalı tələb olunmur. Bununla belə, bu nisbətən bahalı satış kanalıdır. Avtomotlara xidmət edən firmaların məsrəfləri yüksəkdir, belə ki, onlar intensiv texniki xidmət və vaxtlı-vaxtında vəsaitlərin daxil olmasını tələb edirlər.

Ticarət - ticarət müəssisələri sistemi (firmalar) vasitəsilə həyata keçirilir. Hər ticarət müəssisəsi əmtəə dövriyyəsində fəaliyyət göstərən mikrotəsərrüfat iqtisadi vahididir. Ticarət müəssisələri əmtəələri öz vəsaiti hesabına əldə edir və öz adından satırlar. Ticarət müəssisələri topdansatış və pərakəndə ticarətlə, eləcə də digər fəaliyyət növləri, məsələn, əmtəələrin

daşınması, saxlanılması, qablaşdırılması ilə, bazarın öyrənilməsi, vasitəçilik əməliyyatları ilə məşğul ola bilər. Adətən, ticarət müəssisələri, sənaye və digər istehsal müəssisələrinə nisbətən daha böyük fəaliyyət azadlığı ilə fərqlənir. Lakin təcrübədə, xüsusi vergi rejimlərinin təyin olunması vasitəsilə ticarət fəaliyyətinin dolayı tənzimlənməsi aparılır, ya da satılan əmtəələrin qiymətlərinə bilavasitə təzyiq göstərilir.

Pərakəndə və topdansatış ticarətini birləşdirən ticarət müəssisələrinə ticarət evləri deyilir. Çox zaman maliyyə imkanları müəyyən edir ki, nə dərəcədə ticarət müəssisəsi bu kimi universal fəaliyyət üçün «yetişib», belə ki, bu fəaliyyət üçün lazımı anbar təsərrüfatı, nəqliyyat vasitələri, məlumatın təhlili sistemi mövcud olmalıdır.

Ticarət evinin xüsusiyyətlərindən biri də müxtəlif istehlakçıların əmtəələrinin onun şəxsi markası altında satışı təcrübəsidir. Ticarət evinin şəxsi markasının mövcudluğu onu göstərir ki, firma, adətən, istehlak təyinatlı müəyyən əmtəə növlərinin istehsalını təşkil edə və ya onlara nəzarət edə bilər, müəyyən keyfiyyət səviyyəsini təmin edə bilər, eləcə də onları öz səxsi markası altında, yalnız özünəməxsus ticarət müəssisələri vasitəsilə sata bilər.

Adətən, ticarət müəssisəsi (topdansatış və pərakəndə ticarətin yalnız qeyri-mağaza üsullarından istifadə edən müəssisələri istisna etməklə) bir və ya bir neçə ticarət müəssisəsinə (mağaza, ticarət məntəqəsi, sklad, nümayiş zalı və s.), başqa sözlə, xüsusi binaya malikdir ki, orada da ticarət xidməti göstərir.

İri ticarət müəssisələrinin, adətən, bir neçə ticarət mağazası var və onlar fərqli şəkildə təşkil oluna bilər. Mağazalar şəbəkəsi (və ya korporativ şəbəkə) bir neçə ticarət müəssisəsindən ibarətdir. Onlar ümumi mülkiyyətdə və nəzarətdədir, ümumi tədarük və satış xidmətinə malikdir və analoji assortimentdən olan əmtəələrin satılı ilə məşğuldur.

Ticarət müssəsisələri əmtəələrin istehsalçıları, ticarət vasitəçiləri və ya ticarət iş adamları tərəfindən yaradıla bilər. Ticarət müəssisələri müstəqil fəaliyyət göstərə bilər (təsərrüfat və hüquqi cəhətdən təsərrüfat subyekti olaraq), razılaşdırılmış birliklərin tərkibinə daxil ola bilərlər (hüquqi cəhətdən müstəqil təsərrüfat subyekti olub, müəyyən şərtlər əsasında təsərrüfat fəaliyyəti ilə məşğul olmaq), ticarət – istehsal (maliyyə – istehsal) qrupunun tərkibinə daxil ola bilərlər (hüquqi cəhətdən müstəqil qalmaq və ya hüquqi müstəqilliyini itirib, ümumilikdə qrup qarşısında qoyulan məqsədlərə nail olmaq üçün təsərrüfatla məşğul olmaq).

Ticarət mikromüəssisəsinin struktur elementlərinin tərkib hissələrinin qısa siyahısı müstəqillik əsasında fəaliyyət göstərir. K.Quro qeyd edir: «Ticarət azadlığı, ticarətçilərin tələb etdiyi hər şeyi edə bilmək hüququndan daha vacibdir. Lakin o da ədalətlidir ki, azad ticarət ticarətçiyə sərf edirdi. Belə sistemdə ticarətçi az olardı, çünki, ticarət də az olardı; ticarət də az olardı, ona görə ki, bir xalqın inhisarçılığı ilə bütün ölkələrdə sıxışdırılan məhsuldarlıq az məhsul verərdi, beləliklə də mübadilə üçün az əşya olardı. Bu hər zaman tarixlə sübut olunur».

Beləliklə, iqtisadi təcrübənin göstərdiyi kimi, ticarət mikromüəssisəsinin bütün elementlərinin məhsuldar fəaliyyəti nəticəsində makrosəviyyəyə, sonra da – maliyyə sahəsinə qədər başlanır. «Maliyyə sahəsi – pul və qiymətli kağızlar, pul krediti sahəsidir. Maliyyə sahəsində fəaliyyət göstərən maliyyə mikrotəsərrüfatını aparan, xüsusi maliyyə-əmtəə dövriyyəsini nəzərdə tutan iqtisadi maliyyə subyektləridir. Bu zaman mübadilə – qiymətləndirmə prosesinin obyekti adi əmtəələr – əşya xidmətləri deyil; ya maliyyənin əşya komponentləri – pul və qiymətli kağızlar, yaxud da təmiz maliyyə xidmətləridir. Bir halda ki, spesifik əmtəə mübadiləsi mövcuddur, deməli, ona uyğun olan maliyyə bazarı və maliyyə rəqabəti də mövcuddur. Harada ki, maliyyə agentləri və maliyyə təşkilatları var, orada ona uyğun maliyyə hakimiyyəti də mövcuddur. Əsil iqtisadiyyatda iqtisadiyyat – maliyyə iqtisadiyyatıdır». Beləliklə də, son nəticədə, puldan, maliyyədən, var-dövlətdən, qloballaşmadan və beynəlxalq əməkdaşlıqdan, müasir iqtisadiyyatın yaşadığı hər şeydən ayrılmaz olan ticarət fəaliyyəti başa çatır.

## ƏDƏBİYYAT


[1] **Шерр И.Ф.** Учение о торговле. – М., 1925. – С. 93.
[2] Yenə orada. – S. 94.
[3] Yenə orada. – S. 96.
[4] *Осипов Ю.М.* Философия хозяйства. – М., 2001. – С. 165.
[5] *Шерр И.Ф.* Учение о торговле. – С. 98-99.
[6] Yenə orada. – S. 100-101.
[7] Yenə orada. – S. 102.
[8] *Осипов Ю.М.* Философия хозяйства. – С. 164.
[9] *Шерр И.Ф.* Учение о торговле. – С. 103.
[10] Yenə orada. – S. 102.

[11] *Осипов Ю.М.* Философия хозяйства. – С. 169.
[12] Yenə orada.
[13] *Шерр И.Ф.* Учение о торговле. – С. 106.
[14] *Осипов Ю.М.* Философия хозяйства. – С. 169.
[15] Yenə orada. – S. 167.
[16] *Шерр И.Ф.* Учение о торговле. – С. 108.
[17] *Осипов Ю.М.* Философия хозяйства. – С. 164.
[18] *Шерр И.Ф.* Учение о торговле. – С. 111.
[19] *Осипов Ю.М.* Философия хозяйства. – С. 173.
[20] *Шерр И.Ф.* Учение о торговле. – С. 114.
[21] Yenə orada. – S. 116.
[22] Yenə orada. – S. 117.
[23] Yenə orada. – S. 118.
[24] *Осипов Ю.М.* Теория хозяйства. Начала высшей экономики: В 3-х т. – М., 1997.– Т. 2. – С. 94.
[25] Yenə orada. – S. 95.
[26] Yenə orada. – S. 105.
[27] Yenə orada. – S. 106.
[28] Yenə orada. – S. 108.
[29] *Гуро К.* О свободе международной таргoвли. – Спб., 1993. – С. 48.
[30] *Осипов Ю.М.* Теория хозяйства. Начала высшей экономики: В 2-х т. – Т.2. – С. 94.

# İCTİMAİ TƏKAMÜL KONTEKSTİNDƏ TİCARƏT

*Ticarət azadlığı hansı bazarda olursa olsun, yalnız bir amildən asılıdır, bu amil də məhz rəqabətdir»*

K.Quro

*Bu və ya digər ictimai, mədəni, siyasi, iqtisadi və digər yaranmaların hansı inkişaf dövründə olduqlarından asılı olmayaraq onların mahiyyəti yalnız onların əmələ gəlmə və inkişaf prosesinin nəzərə alınmasından sonra bütünlüklə müəyyənləşdirilə bilər. Onların hamının öyrəşdiyi və hər şeyin tutuşdurulduğu, abstrakt tarixinin deyil, öz müxtəliflifində insan varlığının mənəvi-mədəni artefaktlarına hərtərfli təsir göstərməyə qadir olan ictimai təkamül kontekstində maraqlandırır. Bu proses bizə öyrəndiyimiz hadisənin mahiyyətinə varmağa kömək edəcək.*

## 1. İCTİMAİ TƏKAMÜL KONSEPSİYASININ MƏNASI

Ümumi təkamül, ictimai təkamül daxil olmaqla, entropiyanın artması ilə materiyanın qarşılıqlı təsir altında daxili səbəblərdən törəyən inkişafın qarşılıqlı əlaqələrinin, müxtəlif formalarının bir-birinə çevrilmə proseslərinin intensivləşmə istiqamətində qarşılıqlı əlaqələrlə baş verir. Bu mütərəqqi özünütoplamaların «hər şeyin hər şeylə» və formaların ümumi müxtəlifliyi ilə bağlılığının vasitəsilə baş verir. İctimai təkamül prosesində dünyanın müxtəlif hissələrinin ticari, iqtsiadi, mədəni və digər qarşılıqlı əlaqələrin intensivliyi artır və bu da sosiumun qanunayuğun təkamül mərhələsini ifadə edərək addım-addım qloballaşmaya gedir. Bu prosesin nəzəri anlamı indiki zamanda iqtisadi elmin təkamülündə böhranlı mərhələlərə analoji olan məna daşıyır. «Dünya-sistemlər» inkişaf strategiyasının, onun tərkib hissələrinin, ölkələrin, ayrı-ayrı indivlərin seçimi məsələsi həll olunur. Qloballaşma inkişafın artıq bəzi yetişkənliyinin eyniliyinə və bu səbəbdən unifikasiyaya malik olan sahələrə və regionlara da təsir göstərdi. Müasir dünyanın özünün hansısa bütöv əmələ gəlməsində olduqca disproporsional və qeyri-bərabər görsənməyinə görə, qloballaşmada ayrı-ayrı regionlara, ölkələrə, sahələrə, təsərrüfatçılıq edən obyektlərə müxtəlif təsir göstərir. Doğrusu, qlobal proseslər zamanının ruhuna uyğun olub-olmaması dünyada baş verən ictimai-iqtisadi proseslərin iştirakçılarının işidir.[1] Buna görə də bu proseslər təkamüldən ayrılmaz olan qloballaşma prosesinə daxildir.

Bu təkamül nəyi ifadə edir?

Müşahidə edilən dünyanın fraktal olduğundan, onun təkamülü də franktaldır. İctimai təkamül də o cümlədən fraktaldır. Praktiki olaraq bu o deməkdir ki, təkamül, büdaqları təkamül inkişafının müxtəlif variantları ilə özünə təkamül «sabahına» yol açmaları üçün onların daha təkamüllü perspektivlərinin «ötmə hüququnu» almaqları üçün eksperiment aparan budaqlanma nöqtələri vasitəsilə həyata keçirilir.

İctimai təkamülə aid edilərək «silkələmə effekti» öz gücünü saxlayır, bu effekti növbəti misalda göstərmək olar. Gəlin, içində maqnit və səliqəsiz səpələnmiş dəmir kəpəkli plastik məcməyini təsəvvür edək. Öz-özlüyündə kəpək tərpənmir, sistem statikdir. Lakin artıq məcməyini yüngülcə silkələyəndə kəpək onun üzərində maqnitin qüvvət xətti düzəldən müəyyən struktur yaradır. Mütərəqqi təkamülə xas olan saltasion («partlayıcı», sıçrayışlı) xarakter «silkələnmə» ilə izah oluna bilər, lakin məcmə-

yinin deyil, bu təkamül edən sistemin. Kəpəyə daimi təsir göstərən «sülh» zamanı kəpək üçün görünən nəticələrə gətirməyən maqnit sahəsi burada hər zaman daim iştirak edən qarşılıqlı əlaqə təsiri rolunu ifa edir. «Silkələyənin» rolunda isə vaxtaşırı baş verən xarici və daxili mənşəli müsbətlər iştirak edir.[2] İctimai dünyaya nisbətən qısa müddətli gərcinlik təsiri yaradaraq bu müsibətlər mütərəqqi (yönəlmiş) təkamülü kəskin şəkildə sürətləndirir.

Bizim «silkələmə» effektimiz «J.Küvyenin təkmül müsibətinin və A. Toynbinin Çağırış və Cavab konsepsiyaları ilə səsləşir. Lakin təkamül müsibəti xarici mənşəli müsibətlərə xüsusi əhəmiyyət verirsə, A.Toynbiyə görə, Çağırış cəmiyyətin içindəndə səslənə bilər. Bundan əlavə o deyir ki, mədəniyyətin fasiləsiz inkişafı yalnız onun özünün Çağırış və Cavabın ardıcıl silsiləsini generasiya etdiyi zaman baş verə bilər.»[3]

> *“Əgər sən deyirsən ki, mallar sənin tərəfindən nağd pulla alınsa da sənin yerinə bank və ya dostun tərəfindən ödənilib, mən sənə cavab verərəm ki, hər halda mal sənin borclundur, vəkalət verəninsə sənin yerinə pulu ödəyən bank, ya da kı, dostundur.*
>
> *Kreditə alınan mallara, ya da əşyalara qaldıqda isə, mal sənin borclundur, kimdən kreditə almısansa sənin vəkalət verənindir. O halda ki, malın və ya başqa əşyaların bir hissəsi nağd pulla, digər hssəsi kreditə alınıb, mal sənin borclundur, malı qabaqcadan təyin olunan müddətə və qoyulmuş şərtlərə uyğun, məsələn, üçdə birini nağd pulla, qalan hissəsini isə gələn altı ay ərzində ödəmək şərtilə, kimdən malı almısansa sənin vəkalət verənindir. Sonra yeni maddə hazırlanmalıdır, bu maddədə nağd pulu alan, yəni qeyd edilmiş üçdə bir hissəni, sənin yerinə pulu ödəyən borclu olacaq, xəzinə və ya bank isə vəkalət verənin olacaq”*
>
> Luka Paççoli

Şübhəsiz ki, bizə görə A.Toynbi tamamilə haqlıdır. Böhran qarşılıqlı əlaqələrin daimi mütərəqqi təsirinə görə müxtəlifliyində yalnız böhranın köklərini aradan qaldırmağa qadir olan deyil, həm də başqa tərəflərə «yönəlmiş» və bu konkret böhrana heç bir münasibəti olmayan mütərəqqi mental və davranış özünütoplamalarını stimullaşdıra (aşkar edən) cəmiyyətin üzvlərinə göstərilən gərgin təsirin səbəbi olur. Buna görə də böhranlar yalnız növbəti ictimai-iqtisadi formasiyaya keçid deyil, həm də iqtisadiyyatda, texnikada, sənətdə, elmdə və s. lazımsız kimi görsənən, ictimai metabolizmləri intensivləşdirən və mütərəqqi təkamülün ümumi təbiətinə uyğun olan ictimai həyatın təzahür-

lərinin ümumi müxtəlifliyini artıran yeni istiqamətlərin yaranmasını stimullaşdırır.[4]

Lakin «müsibətdən müsibətə inkişaf» ən sürətli inkiaşf olmayacaqdır. İctimai dünya xüsusi - *bazar* – mexanizmi yaradıb və bu mexanizm mütərəqqi mental və davranış özünütoplamalarını stimullaşdıraraq *cəmiyyət üzvlərinə daimi gərgin təsiri* («permanent müsibət» effekti) göstərir.

*Bazarın ikinci mütərəqqi funksiyası* - ən *effektiv novasiyaları* saxlayan *filtr* funksiyasıdır. Bazar rəqabətinin orqanik həyatda mövcudluq üstündə mübarizədən mühüm fərqi çox vaxt təsəvvür səviyyəsində baş verən rəqabət ictimai həyatda sağlıq xarakteri daşıyır. Bunun sayəsində ictimai həyat da orqanik həyatda növlərin və ya onların populyasiyalarının sağ qalıb-qalmaması hesabına baş verən özünütoplama və təsəvvürlərin seçimindən daha tez və effektiv baş verir. Buna görə də ictimai təkamül orqanik təkamüldən əhəmiyyətli dərəcədə sürətlidir.[5]

*Bazarın üçüncü və ən vacib funksiyası* onun öz-özünə qarşılıqlı əlaqələrin müxtəlif formalarının mütərəqqi təkamülün vektoru ilə üst-üstə düşərək bir-birinə çevrilməsi prosesinin intensivləşməsidir. Bazar təsərrüfatı natural təsərrüfatdan ona görə mütərəqqidir ki, onun *əsasını müxtəlif təsərrüfat vahidlərini bağlayan metabolizmlər* təşkil edir.

İctimai metabolizmləri nizama salaraq, bazar ictimai həyatda elə böyük rol oynayır ki, bizim fikirləşdiyimiz kimi, ictimai təkamül onun, bazarın, təkamülü əsasında müəyyənləşdirilir. Bazarın təkamülündə isə müəyyənləşdirici amil həmişəki «perpendikulyarlığa» («dünya ziddiyyətlərlə hərəkətə gətirilir») görə içsi ilə sahibkar arasında olan münasibətlərdir. Burada həlledici sual «Sahibkar özünə nə qədər saxlayır və işçilərinə nə qədər verir?» sualıdır. C.Keyns bizim hamımıza zərurət nəticəsində istehlakçı tələbatının artması, bazarın təkamülü əməyin ödənişinin praktiki olaraq sıfırdan («şorba» əvəzinə qul əməyi) daha da əhəmiyyətli və işçinin sahibkardan azad olmasına uyğun artıma istiqamətini başa saldı.

Başqa sözlə, ictimai təkamül bütün ictimai həyatın intensivləşməsinə və bütün ictimai metobolizmlərin, o cümlədən intensivləşməsi istiqamətində təkamül edən bazar metabolizmlərinin intensivləşməsinə yönəlib. Bütün əhalinin, işçilər daxil olmaqla, istehlak tələbatı zamanı artımı nəzərdə tutan bazar metobolizmlərinin intensivləşməsi isə sonuncuların əməkhaqqının təkamül şəkildə artması və onların daha da özəl olması şərtilə baş verir.

Bu tezisi bəşəriyyətin tarixi keçmişini gözdən keçirərək yoxlamaq olar, lakin yalnız bazarın formalaşması baxımından deyil, həm də ticarət baxımından. Axı, hələ XIX əsrdə K.Quro yazırdı ki, dünyada hər şey, o cümlədən ümumi təhsillilik də, ticarətin müvəffəqiyyətindən asılıdır. «Aydındır ki, hər bir millət öz iqliminin məhsulu ilə qane olsa idi öz sərhədlərində dustaq kimi yaşayardı və bütün ölkələrin, bütün sənayelərin məhsullarının qalıqları hamıya ziyan gətirərək, heç kimə fayda vermədən məhv olardı. Bunun nəticəsində dünyamiqyaslı yoxsullaşma baş verərdi. Lakin buna əks olaraq özləri istehlak edə bilmədiyi təbii və süni sərvətlərinin qalıqlarını mübadilə edərək, millətlər öz rifahını yaxşılaşdırırlar. İstehsalçı kimi onlar daha geniş satış bazarı, istehlakçı kimi isə məhsulların böyük ehtiyatını əldə edərək öz əməklərinin vasitələrini, ərzaqlarını artırırlar. Buna baxmayaraq, fayda yalnız maddidir, müxtəlif dövlətlərin ticarət münasibətləri isə böyük mənəvi nemət təşkil edir. Ticarət millətləri yaxınlaşdırır və yaxınlaşdıraraq maarifləndirir. Öz var-dövlətlərini mübadilə etməkdən başlayaraq, sonradan onlar müxtəlif iş üsullarını müqayisə edirlər. Bu mübadilə məhsulların, sirlərin və istehsaledici qüvvələr mübadiləsindən daha faydalıdır. Ticarət dünyanın yalnız qidalandırıcısına və mühərrikinə deyil, həm də bütün bəşəriyyətin məktəbinə çevrilir. Alicənab yarışma bütün şüurlara yiyələnir: hər tərəfdən çağrılan elmlər, sənətlər yeni səylər göstərirlər, bəşəriyyətin təbiət sirləri və maneələri üzərindəki qələbəsi onların əsl bəhrəsidir. Öz növbəsində adətlər isə bu müvəffəqiyyətlərin təsirini hiss edirlər. Millətlər bir-birindən adətləri götürərək və öz fikirləri ilə mübadilə edərək bir-birini tapmağı öyrənirlər; onların zehniyyəti azalır, qarşılıqlı ədavəti tədricən yox olur, münasibətlər daha da səmimiləşir, xasiyyətlər düzəlir və yumşalır, maariflənmə yayılır, rifah yaxşılaşır. İndi isə özünüz təsəvvür edin ki, belə ticarət birdən dayandırılır, ya da tamamilə ləğv edilir, o zaman bəşəriyyətin mənəvi itkisi maddi itkidən çox olur; zaman - yalnız ən yaxşı rifah alətini deyil, həm də ən təsirli mühərriki olan ümumi maariflənməni itirir».[6]

Lakin bu müasir dövrün bütün nailiyyətlərinə səbəb olan ticarət fəaliyyətinin özünəməxsus nəticəsidir. Bu halda bizi əsası iqtisadi tərkib olan ictimai təkamül prosesi maraqlandırır. Təcrübədə, cəmiyyətin həqiqi tarixində bu necə baş verirdi?

## 2. TİCARƏTİN BAŞLANĞICI: QƏDİM ŞƏRQ

Keçmişdə insan cəmiyyəti heç vaxt vahid bir sistem təşkil etməyib. O hər zaman müstəqil, qismən bir-birindən təcrid edilmiş ictimai vahid olub və olmağa davam edir. Bu vahidləri ifadə etmək üçün həmçinin «cəmiyyət» termini istifadə olunur, bununla belə bu halda «cəmiyyət» Sözünə xüsusi isim də əlavə edilir: Qədim Roma cəmiyyəti, alman cəmiyyəti, rus cəmiyyəti və s. Cəmiyyətin belə adlandırılması həm də regional məna daşıya bilər - Avropa cəmiyyəti, Asiya cəmiyyəti, Latın Amerikası cəmiyyəti və i.a. Sualın ümumiyyətlə, belə cəmiyyətlər barəsində qoyulduğundan çox zaman sadəcə «cəmiyyət», ya da ki, məcazi mənada, əsasən tarixi tədqiqatlarda, «ölkə», «millət», «dövlət», «xalq» anlayışları istifadə olunur. Belə yanaşma zamanı «ictimai formasiya» insan cəmiyyətinin yalnız tarixi tipi, başqa sözlə - sosium mənasını daşıyr. Ümumi olaraq insan cəmiyyəti (onun inkişafı, yəni tarixi proses) ayrı-ayrılıqda mövcuddur. Bu gün bu ayrılığı «sivilizasiya» təşkil edir.

Formasiya inkişafının əsas hissəsi kimi «formasiya üçlüyü» çıxış edir - üç böyük ictimai formasiya. Son variantda formasiya üçlüyü K.Marks tərəfindən ilkin ictimai formasiya (ümumi mülkiyyət), ikinci ictimai formasiya (şəxsi mülkiyyət), üçüncü ictimai formasiya (ictimai mülkiyyət) kimi təqdim edilmişdir.[7] Proqressiv iqtisadi ictimai formasiya dövrləri Asiya, antik, feodal və burjua istehsal üsulları kimi adlandırıla bilər. Proqressiv iqtisdai ictimai formasiya dövrlərindən irəli gələrək, yuxarıda adlandırılmış istehsal üsul ları həm də istehsalın kiçik ictimai formasiyalar (formasiyalar sözün dar mənasında) təşkil edən formasiya üsulları kimi qəbul oluna bilər.

İlkin ictimai formasiyanı bu şəraitdə ayrı varlıq formasına malik olmayan, özünü müstəqil formada deyil, qohumluq əlaqələri: ailə-nigah və qan qohumluğu vasitəsilə göstərən ümumi mülkiyyəti və istehsal münasibətlərini ictimai münasibətlərin arxaik sinkretizmilə səciyyələndirmək olar. Burada bilavasitə həyat istehsalı özünə həyat vəsaitlərinin istehsalı və insanın özünün istehsalını, nəslin davamını daxil edir. İctimai qaydalar istehsalın iki növünüdə – bir tərəfdən əməyin, digər tərəfdən ailə-nigah və qan qohumluğu əlaqələrinin inkiaşf səviyyəsilə şərtlənir. Əmək nə qədər az inkiaşf edibsə, «o qədər də ictimai quruluşun qohumluq əlaqələrindən asılılığı özünü büruzə verir».[8] İlkin ictimai formasiya şəraitində qohumluq

əlaqələri istehsal münasibətlərini ifadə etmək üçün xüsusi vasitə kimi iştirak edirdi. Buradan da indiki patriarxal quruluş zamanında olduğu kimi, iqtisadi və qəbilə quruluşlarının üst-üstə düşdüyü ictimai həyat xüsusiyyəti irəli gəlir. Lakin şəxsi mülkün yaranması və inkişafı onların arasında sərhəd çəkir. İstehsal münasibətləri müstəqil varlıq forması alır. Buna müvafiq olaraq cəmiyyətin iqtisadi strukturunun, iqtisadi bazisin və üstqurumun marksist nəzəriyyəsi məhz ikinci ictimai formasiyanın tarixi həqiqətlərini əks etdirir. Bununla da onun ikili mənası izah olunur: iqtisadi-ictimai formasiya.

İkinci ictimai formasiya daha genişdir. Ticarətin təkamülünü Qədim Şərqdən başlayaraq onun ictimai törəmələrinin təhlilinə «Asiya istehsal üsulu» anlayışını da əlavə etmək lazımdır. Bəs bu üsula əsaslanan cəmiyyət nəyə bənzəyir?

Asiya istehsal üsulunun universallığını vurğulayaraq bəzi müəlliflər tarixi prosesdə ona uyğun olan «kiçik ictimai formasiya»nın qeyd edilməsi mümkünlüyü nəticəsinə gəlirlər. Bəziləri onu ilkin ictimai formAsiyadan ikinci ictimai formasiyaya keçid hesab edirlər. Quldarlıq və feodalizmlə birgə Asiya istehsal üsuluna əsaslanan böyük «feodal» (kapitalist cəmiyyətindən əvvəlki) formasiyalı cəmiyyəti nümunə kimi müəyyənləşdirən hipoteza da mövcuddur.[9]

Asiya üsulunun qeyd edilmiş şərtləri diqqəti artıq elmi axtarışı stimullaşdırdığına görə cəlb etməyə layiqdirlər. Bununla birgə öyrənilən yanaşmaların avrosentrist konsepsiyasının özü böyük şübhə doğurur. Məlumdur ki, G.Hegel üçün dünya tarixi - dünya idrakının birölçülü və xətti hərəkətidir: Şərq, antik dünya, xristian - alman Avropası. K.Marks da G.Hegelin dünya tarixi barədə fikirlərinin yeni şərhini götürmüşdür. Onun Asiya istehsal üsulunu antik, feodal, burgua üsulları ilə bir cərgəyə qoymaq səyi də bundan irəli gəlir.

Bəli, həqiqətən, Asiya istehsal üsulu antik və feodal üsullarından əvvəl əmələ gəlib. Lakin Asiya üsulunun tarixi yalnız bununla kifayətlənmir. Asiyanın geniş sahəsində, Amerikanın Kolumbdan əvvəlki və Afrikanın müstəmləkədən əvvəlki ərazisində o öz inkişafını Qərbi Avropa tarixi ilə bərabər davam etdirmişdir. Asiya istehsal üsulunun özünəməxsusluğu Avropa ölçülərinə görə ən müxtəlif münasibətlərin birləşməsini təşkil edir: xərac, vergi-renta, biyar-əmək, qəbələ, kölə və s. Buna görə də

onu öyrənərək Qərbi Avropa tədqiqat paradiqmasının əvəzi vacibdir. Tarix həqiqətən də bir ölçülü və xətti deyil.

Avropa tarixi ilə müqayisədə Asiya istehsal üsuluna əsaslanan cəmiyyətin tarixi, tarixi tərəqqinin dəqiq qeyd olunmuş xəttinə malik deyil. İctimai durğunluq dövrləri, geriyə hərəkət (dövlət-icma quruluşundan icma quruluşu istiqamətində təbii kataklizmlərin təsiri altında dönüşlərə və istilaçı müharibələrə qədər), dövrilik gözə çarpır. Göründüyü kimi Asyia istehsal üsulu ümumiləşdirilmiş məfhumdur. Bu həm onun özünün xüsusi tarixi dövrləri, həm də xüsusi formasiya pillələri deməkdir. Hər halda qədim və orta əsrlər Şərqi eyni şey deyil. Yalnız kapitalizm öz ekspansiyası ilə Avropa, Asiya, Amerika və Afrika tarixlərinin ümumi tarixin vahid axınına birləşmək prosesini başladı.

Tarixi prosesə formasiya yanaşmasını substansional kimi də müəyyənləşdirmək olar. O, ictimai həyatın vahid əsasının tapılması və tarixi prosesin mərhələlərinin bu əsasın dəyişməsindən asılı olaraq seçilməsi ilə bağlıdır. Lakin, yalnız formasiya deyil, formasiya üçlüyünün prinsipal xüsusiyyəti ilə uyğun gəlməyən sivilizasiya nəzəriyyəsi də mövcuddur. Bu artıq tarixə formasiya və sivilizasiya yanaşmalarının müxtəlifliyini təsdiq edir. Amma bu yanaşmalar bir-birini istisna etmir, əksinə tamamlayır. Formasiya nəzəriyyəsindən fərqli olaraq sivilizasiya nəzəriyyəsi onun hər bir seçdiyi tarixi pilləyə aid edilərək bir əsasla deyil, bir neçə əsasla bağlıdır. Buna görə də tarixi prosesə olan sivilizasiya yanaşması mürəkkəbdir. Ümumiləşdirən məhfum olaraq o bir neçə bir-birilə bağlı və bununla birgə nisbətən müstəqil sivilizasiya paradiqmaları təşkil edir. Bununla da «sivilizasiya» məhfumunun özünün məna müxtəlifliyi izah olunur. Bəs söhbət hansı paradiqmalardan gedir. Dörd sivilizasiya paradiqmasını qeyd etmək olar: *ümumi tarixi, fəlsəfi-antropoloji, sosiomədəni və texnoloji.* Ümumi tarixi paradiqma kontekstində sivilizasiya ayrı konkret cəmiyyətin (sosiumun), ya da onların birliyinin xüsusi növüdür.[10] Terminin etimologiyasına uyğun olaraq dövlətçilik, vətəndaş vəziyyəti (qanun hakimiyyəti, ictimai münasibətlərin dövlət və hüquqi idarəedilməsi), şəhər tipli məskənlər sivilizasiyanın əlamətləridir. İctimai fikrin tarixində sivilizasiya vəhşiliyə və barbarlığa qarşı qoyulur. Sivilizasiyanın tarixinin ilk əsası istehsal edən təsərrüfatdan (yığıcılıq və ovdan fərqli olaraq), əkinçiliyin yayılmasından, sənətdən ticarətdən, ədəbiyyatdan, zehni əməyin fiziki əməkdən ayrılmasından, şəxsi mülkiyyətin və siniflərin əmələ gəlməsindən,

iyerarxik (vertikal) və partnyor (horizontal) əlaqələrinin formalaşmasından və s. ayrılmazdır. Sivilizasiya (insan sivilizasiyası) öz məkan və zaman koordinatlarına görə özü ilə birinci, geosiyasi mərkəzləri formasiya növündən asılı olmayaraq (Rusiya sivilizasiyası, Çin sivilizasiyası), ya sosiumla, ya da belə sosiumların regional birliyi ilə təqdim olunmuş (Avropa sivilizasiyası, ərəb sivilizasiyası və s.) *yerli sivilizasiyaları* və ikincisi, hələ inkiaşf mərhələsində olmayan *dünya sivilizasiyasını* əhatə edir. Xüsusi ədəbiyyatda yerli sivilizasiyalar onları təmsil edən sosiumların (antik, burjua və i.a. sivilizasiyalar) formasiya növündən asılı olaraq müəyyənləşdirilir. Sivilizasiyanı yalnız kapitalizmin yaranması və inkişafı ilə eyniləşdirən mövqelərdə mövcuddur. Sivilizasiyanın ümumi-tarixi paradiqması konkret-tarixi təhlil məqsədini qəbul edir.

*Fəlsəfi-antropoloji paradiqma* sivilizasiya yanaşmasının əsasını təşkil edir. O, tarixi həqiqəti formasiya və sivilizasiya tədqiqatlarının mühüm fərqlərini açıq-aydın təsəvvür etməyə imkan yaradır. Ayrı cəmiyyətin tarixi növünü yalnız formasiya yanaşmasının fərdini sosiala çatdırması yolu ilə anlamaq mümkün olduğuna görə, idrak modelindən irəli gəlir. Formasiya yanaşmasının xüsusiyyəti kimi ictimai strukturların tədqiqatı, onların cəmiyyət sistemində subordinasiyası iştirak edir. Sivilizasiya yanaşması isə buna zidd olan sosialı fərdiyə çatdırması modelindən irəli gəlir, bunun da ifadəsi insanın sosiallığı olur. Sivilizasiyanın özü burada özünü bu ictimailik durumundan asılı olaraq sosiumun həyat fəaliyyəti kimi göstərir. Buna görə də sivilizasiya yanaşmasının tələbi də insan və insanın dünyasının öyrənilməsinə istiqamətlənməkdir. Beləliklə, Qərbi Avropa ölkələrinin feodal quruluşundan kapitalizm quruluşuna keçidində formasiya yanaşması diqqətini mülkiyyət münasibətlərinin dəyişməsində, sənətin və muzdlu əməyin inkişafında cəmləyir. Sivilizasiya yanaşması isə bu keçidi antik antropologizminin və dövriliyinin yeni əsasında baş verən dirçəlmə kimi izah edir. Avropa cə-

> *“Təzə əmələ gələn sikkələri standart mübadilə vasitəsi kimi istifadə edərək, Lidiya tacirləri gündəlik tələbat malları olan taxıl, yağ, pivə, şərab, dəri, qab-qacaq və taxta, həmçinin ətriyyat, kosmetika, qiymətli zinət əşyaları, musiqi alətləri, şirli keramika, bürünc heykəlciklər və fil sümüyü kimi bahalı mallar satırdılar. Ticarət mallarının müxtəlifliyi və bolluğu tezliklə daha bir yenilik gətirdi – pərakəndə bazar”.*
>
> D. Vezerford

miyyətşünaslığının məhz belə əhvali-ruhiyyəsi gələcəkdə həyata sivilizasiya anlayışının özünü və onunla bağlı olan maariflənmə, humanizm, vətəndaş cəmiyyəti və s. Anlayışları çağırdı.[11]

Formasiya aspektində sivilizasiyanın ilk pilləsi özü ilə Qərbi Avropa tarixində antikliyi və feodalizmi, ikinci – kapitalizmi, üçüncü – marksist anlayışında gələcək kommunizmi əhatə edir. Lakin problemin məğzi yalnız formasiya və sivilizasiya üçlüklərinin birinci mərhələlərinin tarixi sərhədlərinin bir – birinə uyğun olmamasını izah etmək deyil. Başqa bir məqam daha əhəmiyyətlidir. Formasiya üçlüyü tarixi prosesin ilk əvvəl ictimai münasibətlər sisteminin əsaslı dəyişdirilməsilə ifadə olunan fasiləliliyini vurğulayır, sivilizasiya isə – fasiləsizliyini. Onun təqdim etdiyi sosiumlar bir neçə formasiya və sivilizasiya mərhələlərdən keçə bilər. Buradan da əvvəlki tarixi zamanların sivilizasiyalarının inkişafının, əsasən də sosiomədəni dəyərlərin varisliyi irəli gəlir.

Sosiomədəni və texnoloji paradiqmaların təfsilatını öyrənməyərək formasiya və sivilizasiya təhlillərinin qədim cəmiyyətlərdən başlayaraq ticarətin, yalnız iqtisadi fenomen kimi deyil, həm də sosiomədəni fenomen olaraq, formalaşması üçün vacibliyini qeyd etmək istərdik. Belə binar yanaşmanın mahiyyəti ondadır ki, o, ticarəti bütün kontekstlərdə, məsələn, bu tarixi zamanda, təsəvvür etməyə imkan yaradır. Bu səbəbdən ticarət sosial təkamülün ümumi konteksinə daxil olur və bununla birgə öz iqtisadi, sivilizasiya mətləbini biruzə verir.

Qədim Mesopotomiya bunun parlaq nümunəsi ola bilər.

Eramızdan əvvəl IV əsrdə - III əsrin əvvəllərində böyük miqyaslı irriqasiya işlərinin aparılması zərurəti əhalini «Aşağı Mesopotamiyanın bütün irriqasiya şəbəkəsi daxilində» güclü mərkəzləşmiş (çar) hakimiyyəti olan bir dövlət kimi birləşməyə məcbur etdi. E.ə. 2800 - 2500-ci illərdə burada ibadətxana təsərrüfatları əmələ gəlməyə başladı. Yalnız adda bu torpaq bu yerin əsas tanrısının mülkiyyəti hesab olunurdu. E.ə. XXIII əsrdə çarın ilahiləşdirmək təcrübəsinin köməyi ilə vaxtilə ibadətgah torpaqlarının alınması sayəsində genişlənən saray (çar ya da ki, dövlət) təsərrüfatı əmələ gəldi.[12]

Mesopotamiyada çar təsərrüfatı öz zirvəsinə e.ə. XXI-XX əsrlərdə III Ura sülaləsinin dövründə çatdı. O, təsərürfatın fərdi şəxslər tərəfindən müstəqil olaraq aparılmasını heç rəğbətlə qarşılamırdı və ölkənin bütün mülkiyyətini inhisara almaq üçün səy göstərirdi. «Dövlət bütün il boyu çar

təsərrüfatının işçilərinə və onların ailələrinə, azyaşlı uşaqlar və əmək qabiliyyətini itirmiş qocalar daxil olmaqla, ərzaq payları verirdi. Bununla belə hər halda saray təsərrüfatı ilə bağlı olan əhalinin böyük bir hissəsi təmamilə belə paylardan asılı vəziyyətdə idi... Başqa sözlə, dövlət əhalinin əsas hissəsini işlə və ərzaqla təmin edirdi».[13]

*Şəxsi mülkiyyət* bu bürokrat dövlətdə elə az yer tuturdu ki, tarixçilər hətta onun olub-olmaması barədə mübahisə edirlər. O zamannlardan bizə xüsusi şəxslər tərəfindən kirayəyə götürülmüş tarlalar haqda müqavilələr gəlib çıxsa da, lakin belə mənbələr azdır və onların oxunması çox vaxt şübhə doğurur. İşçi qüvvəsi əsasən dəstələrə birləşmiş və il boyu gözətçilərin nəzarəti altında əkin sahələrində, bostanlarda və emalatxanalarda işləyən yarıazad kişilərdən ibarət idi. Onların arasında əkinlərlə (cütçülər, üzümçülər, bağbanlar) bərabər sənətkarlar da (missgərlər, dəmirçilər, dəriçilər, toxucular, dülgərlər, dulusçular və s.) var idi.[14] İşçilərin muzdla tutulması təcrübəsi nisbətən az yer tuturdu, bundan əsasən təcili mövsüm işləri zamanı istifadə edərdilər.

Beləliklə, III Ura sülaləsi dövründə Cənubi Mesopotamiyada əhalisinin əsas hissəsinin dövlət xidmətində işləyən SSRİ-yə bənzər güclü bürokrat ölkə yer tuturdu, əmək isə xüsusi sahibkar təsərrüfatlarının məhdud olduğu zaman qul xarakteri daşıyırdı.

İndi isə 626-cı ildə Assuriya hökmranlığından azad olmuş, qüvvətli dövlət yaratmış, bir əsrə qədər mövcud olmuş və 539-cu ildə isə farslar tərəfindən işğal olunmuş Yeni Babilistan zamanlarına nəzər yetirək.

Min beş yüz il ərzində vəziyyət qəti surətdə dəyişdi: «... Torpaq şəxsi mülkiyyətə çevrildə və sərbəst surətdə zəbt edilə bilərdi.... Qul əməyinin gəlirsizliyini nəzərə alaraq böyük mülkədarlar azad icarədarlara torpağı kiçik parsellərlə verərək və beləliklə, iri mülkədarlığı kiçik torpaq istifadəsi ilə birləşdirərək, onların xidmətlərindən istifadə edirdilər. İcarə haqqı iki növ idi: miqdar ya əvvəlcədən müqavilə bağlanarkən müəyyənləşdirilirdi, ya da torpaq sahibi məhsulun 1/3, icarədar isə 2/3 alırdı».[15] «Sənətkarlıq fəaliyyətində qul və əhalinin digər asılı qruplarının əməyi, azad əməyin geniş istifadə aldığı zaman, həmçinin icarə haqqlarını yığanlar institutunun yaradılması ilə birgə məhdud miqyasda istifadə olunurdu. Bunun hamısı ibadətgah mülkünün istifadəsi zamanı baş verən özəlləşmə proseslərini təsmdiq edir». «... Ölkənin iqtisadiyyatında sahibkarlıq evləri mühüm rol oynayırlar».[16]

Yeni Babilistan dövrü özəlləşdirmə ruhu ilə dolu idi. Hətta iri mülkədarlar qul əməyinin daimi nəzarət tələb etdiyindən irəli gələn böyük xərclərə görə torpağı icarədarlara icarəyə verməyi üstün tuturdular, çünki qullar cürbəcür yollarla işdən yayınmaq istəyirdi lər və işin nəticəsində, keyfiyyətində maraqlı deyildilər. Elə bu səbəblərdən qul əməyinə əsaslanan emalatxanalar mövcud deyildi. Buna görə də qullara pekuli ayrılması və öz mülklərini müəyyənləşdirilmiş töycünün ödənilməsi şərtilə istifadə etmək üçün icazə verilməsi təcrübəsi geniş istifadə olunurdu. Belə qullar iqtsiadi həyatda azad kimi fəaliyyət göstərirdilər: borc götürüb borc verirdilər, ticarətlə məşğul olurdular, emalatxanalar açırdılar, icarəyə torpaq götürürdülər və s. Çox güman ki, *pul-əmtəə münasibətlərinin* ən aydın və parlaq göstəricisi *azad muzdlu əməyin tətbiq olunmasıdır.* İbadətgahlar və ayrı şəxslər əsasən çətin iş növlərinin yerinə yetirilməsi üçün azad insanların muzdlu əməyini geniş miqyasda istifadə edirdilər.

Ərzaqların artıqları az deyildi, yüz minlərlə, milyonlarla hektolitr arpa və xurma təşkil edərək onlar müntəzəm olaraq saraylarda və iri malikanələrdə toplanırdı və qismən qıraqda satış üçün nəzərdə tutulurdu. Bazar şübhəsiz Babilistan iqtisadiyyatında, ən az e.ə. I minillikdə böyük rol oynayırdı.[17]

Mesopotamiyanın e.ə. III - I əsrlərdə ictimai inkişafının vektoru aydındır – əsasən qul əməyindən məhsulun müəyyənləşdirilmiş hissəsinə və yaxud qabaqcadan şərtləşdirilmiş əmək haqqını təyin edərək artıq «şorba» ilə məhdudlaşmayan razılaşdırılmış ödənişə muzdlu işçinin daha azad əməyinə yönlənmə. Keynsian ideologiyasına tam müvafiq olaraq burada bazarın inkişafı *işçinin sahibkardan «azad olması»* ilə baş verirdi. Lakin ən əsası - ticarətin inkişaf prosesi ictimai azadlığın inkişafının nəticəsi olaraq bununla yanaşı gedirdi. Bu çətin proses olsa da, bazar iqtisadiyyatının inkişafından ayrılmazdır. K.Quro qeyd edirdi: «Bizim dəfələrlə nəzər yetirdiyimiz faktlar azad ticarət sisteminin tətbiq edilməsindən yaranacaq nəticələri təmamilə təsdiq edə bilərdi. Mümkün qədər şöhrət qazanmış azad ticarət sisteminə yaxınlaşan vəziyyət ərzində bir neçə dövlət tərəfindən *himayətkar* sistemin qəbul edildiyi vaxtdan qabaq gəlir. O zaman alıcı demək olar ki, azad ticarətin bütün iltifatlarını təcrübədən çıxarırdı. Hər millət onun ölkəsinə xas olan sənaye ilə məşğul olurdu: daha ticari və yaxşı coğrafi mövqedə yerləşən millət özü təkbaşına malları dənizlərlə daşıyırdı, təkbaşına bu daşımanın qazancını götürürdü. Bunun istehlakı üçün nəticə-

ləri isə belə idi: birinci, dövlətin daxilində onun yaşaması və əməyi üçün lazım olan əşyaların çoxunun əldə edilməsi imkansızlığı; ikinci, bu əşyaları əşyaların təbii qaydasına görə yalnız onların istehsalına malik olan ölkədən gətirmək zərurəti. Bu zaman belə ölkə bütün dünyadan və onun üçün faktor olan millətdən xərac yığırdı: heç bir istehlakçı onsuz keçinə bilmirdi və hamısı ən vacib olan şeyi itirmək qorxusu altında onun tələbləri qarşısında baş əyməyə məcbur idilər. Bu tacirin inhisara malik olan soyğunçuluq ruhunun istehsalçının *əşyaların təbii qaydaları əsasında* xüsusi istehsaletmə üstünlüyünə malik olan hamiləçilik ruhuna birləşib köməksiz istehlakçıların başının üstündən əskik olmayan qızıl əsr idi; indiki dövlətlərdə azad ticarət nəzəriyyəsi üstünlük tutsa idi, bu qızıl əsr indiki zamanlaradək davam edə bilərdi. Qoy XIX əsrin maariflənmiş istehlakçısı öz alqı azadlığını, onun dövlətlərin ticarətinin hər bir himayədən məhrum edilmiş və mümkün qədər azad ticarətə yaxın olduqları zamanlarda bizim bədbəxt əjdadlarımızın başının üstündən əskik olmayan gömrüklər tərəfindən dəhşətli sıxışdırmalarla yaranıb saxlanılmasını müqayisə etsin, - qoy o bunların hamısını müqayisə edib özü qərar versin!».[18] Ticarətin azadlığı ilə birgə dini mifologiyanı, hakimiyyətin mərasimliyini, müxtəlif ayinləri və s. arxa plana sıxışdıraraq daha nüfuzlu ictimai qüvvəyə çevrilən iqtisadiyyatın inkişafı da başlayır.

> *«Ticarət lidiyalılar üçün elə vacib oldu ki, Herodot onları «tacir» və ya «satıcı» mənasını daşıyan* ***kapeloi*** *millәti adlandırdı, lakin bu sözün müəyyən dərəcədə gizli mənfi olan «xırda alverçi» mənasında. Herodot gördü ki, lidialılar alverçi millətinə çevrilib. Onlar adi ticarəti barterə və kommersiyaya döndəriblər».*
>
> D.Vezerford

Çox düzgün qeyd edilib ki, quldarlığın fərqləndirici xüsusiyyəti yekrənglikdir. Hər bir tiraniya həqiqətən də öz malikanəsinin bütün tərəflərində eyni dərəcədə hökmranlıq etmək istəyir, bunun üçünsə lazımdır ki, bərabərsizlik heç bir yerdə ümumi itaətin vahidliyini pozmasın. Azad ticarət sisteminin həyata keçirdiyi «ticarət istibdadı» dini, siyasi və s. istibdadların fərqləndiyi xüsusiyyətlə fərqlənir; o yekrəngliyi sevir. Beləliklə o, ehtirasların, adətlərin, hətta ehtiyacların sonsuz ayrılığına, eyni iqtisadi qaydanın dözülməz zülmünə baxmayaraq bütün dünyanı tabe etməyi nəzərdə tutur. Bu bəşəriyyətin sonuna qədər həyata keçilməsi təqdirində bütün

millətlərin həyat şəraitlərinin, qabiliyyətlərinin, ehtiraslarının və fəaliyyətlərinin eyni ölçülərə uyğunlaşdırılması və qısaldılması respublikanın ümumdünya ticarəti adlandırılan ruhunun mahiyyətidir. Çox nahaq ki, dünya hərəkətsizliyə bacarıqsız qalır; o əbəs yerə təbiət tərəfindən qeyri-bərabər istedad verilmiş, yerləşdirilmiş və maariflənmiş, millətlərə bölünüb, elə millətlərə ki, maraqları çox nadir hallarda ist-üstə düşür və şübhəsiz ki, dəyişən minlərlə müxtəlif səbəblərdən asılı olur. Bu azad ticarət sistemi tiraniyası üçün nə deməkdir: o öz hərəkətsiz əsarətinin vahidliyini bu hədsiz müxtəlifliyin və sonsuz hərəkətliliyin üzərinə yayır. Kontinental və ada, əkinçi və sənaye, geridə qalmış və ali savad almış, isti və ya soyuq qurşaqda yaşayan, ən geniş və ya ən kiçik ərazilərə malik olan, qonşularla əhatədə və ya səhraların dərinliyində gizlənmiş, sənət üçün ticarət qabiliyyətləri və ya istedadlarına malik olan millətlər, - azad ticarət hamı üçün eyni qayda elan edir, zərurəti və ya faydalı, onları zənginləşdirməyindən və ya iflaslarına səbəb olmadığından asılı olmayaraq onların riayət etməli olduğu yeganə qayda. Həqiqətən də, *hər bir millətin əmək azadlığını və onun istehsal etdiyi məhsulun istehlak azadlığını təmin etmək üçün çox gözəl vasitədir.* Bu mənasız və məhvedici sistemi himayətkar sistemin saysız-hesabsız vasitələri ilə müqayisə edir. Bu sonuncu dünyanın özü kimi müxtəlif və dəyişəndir; o, necə deyərlər, bütün zamanların və razilərin tələbatlarını əks etdirir. «Mahir dövlət adamının əlində ümumdünya azadlığının qoruyub inkişaf etməsi üçün necə də gözəl alətdir. K.Quro deyirdi: - Və bu aləti bütün millətlərin azad ticarət sisteminin tərəfdarları sındırır və yox etmək istəyir, nəyə görə? Onu nə heç bir millətin öz müqəddəratını təyin etmək, nə də ki, öz qabiliyyətlərini istifadə etmək iqtidarında olmadığı qaydada cəlb edici respublika adı altında əvəz etmək üçün».[19] Bu da əməyin Qədim Şərq ərazisində başlamış «azad» edilməsinin ilk nəticəsi oldu.

Bu nəticəyə ilk pulların əmələ gəlməsi və istifadəsi də əlavə olundu. Hələ e.ə. III minilliyin sonunda Mesopotamiya sakinləri qiymətli metalların külçələrini malların əvəzinə istifadəsinə başlamışlar. Mesopotamiyanın e.ə. 2500-cü ildə mixi yazı ilə yerinə yetirilmiş gil lövhəcikləri gümüşün ödəniş forması kimi istifadə olunması haqda xatırladır. İnsanlar bu çəkisi eyni olan qızıl və gümüş külçələri – *uninas, shekels, talents* adlandırırdılar. Zeytun yağı, pivə və ya buğda ilə dolu anbarlar asan daşınan qızıl və gümüş külçələri ilə əvəz edilmişdi. Bu sistem təmamilə dolu gəmilər və mal anbarları ilə əziyyət çəkən tacirlər üçün çox effektiv olsa da, qızıl hələ də

adi əşyaları almaq və ya satmaq istədiyi adi insanlar üçün əlçatmaz və bahalı idi. (D.Vezerford). Bu səbədən xeyli sayda hərbi yürüşlər və qarətlərdən başqa yalnız *ticarət* yolu ilə əldə olunan, qiymətli metala malik olan insanlar seçilməyə başladı. Yaranan pullar yeni düşünmə və hərəkət tərzi gətirdi, bu da yeni pulun əldə olunması və xərclənməsinə dair fəaliyyətləri dünyanı, demək olar ki, bir göz qırpımında dəyişən tacir kastasını formalaşdırdı.

## 3. QƏDİM YUNANISTANIN SOSİAL TİCARƏTİ

Qədim Ellada haqqında daşınmaq ən xoş, eyni zamanda olduqca çətin bir işdir. Bir sıra səbəblərə görə. Xususən, bu ölkənin özəl durumuna görə. «Yunan möcüzəsi» bir-biri ilə bağlı iki komponentdən ibarətdir. Birinci, məhz Qədim Yunanıstan demokratiyanın vətəni olmuşdur. «E.ə. IX-VIII əsrlərdə Balkan yarımadasının cənubunda, Egey dənizi adalarında və Kiçik Asiyanın qərb sahillərində bir çox yunan (ellin) dövlətləri (polisləri) qurulur. Bu dövlətlər bəşər tarixində ilk respublikalar olur. Əgər başqa sivilizasiyalar: hakimiyyət seçilmişlər üçündür, çünki Tanrı tərəfindən verilir, kimi siyasət həyata keçirirdilərsə, yunanlar ilk olaraq püşk atma yolu ilə idarəetməni və seçkiləri həyata keçirirdilər. İkincisi, yunanlar yenilik məqsədlərini bir pozitiv kimi ortaya qoydular. Məhz bu məqsədlər ictimai təkamülündə bir sıçrayış oldu, tərəqqipərvər əxlaqi və mənəvi özüquraşdırmalar ilk olaraq normadan kənar deyil, məhz norma kimi qəbul olundu».

Yenilik məqsədləri bir pozitiv kimi, azad şəxsiyyətə xasdır, azad şəxsiyyət isə şəxsi azadlıq şəraitində yaranır. «Qədim Şərqin» istibdad hakimiyyətlərindən fərqli olaraq, antik yunan respublikalarındakı şəxsi azadlıq onun mədəniyyətinin daha da inkişaf etməsində böyük rol oynamışdı. O dövrün bir çox sivilizasiyalarında mərkəzləşdirilmiş (çar) hakimiyyəti nizam-intizamı qoruma məqsədləri güdürdü, yəni, yenilik məqsədlərinin bir neqativi kimi. Məlumdur ki, e.ə. XI-X əsrlərdə başlamış və əkinçinin, sənətkarın əmək məhsuldarlığını kəskin artırmış dəmir alətlərə keçid ictimai təkamülə bir sıçrayış olmalı idi. Lakin e.ə. II minillikdə dəmir əsri bütün ərazilərdə başlamışdır və öz başlanğıcı ilə Çində, Hindistanda, İranda, Fələstində, Qədim Yunanıstanda, ola bilsin başqa regionlarda

zahirən duyulmadan bir bağlılıq şəraitində olsa da (bu sətirlərin müəllifinin nöqteyi-nəzərindən) Konfusi, Budda, Zərdüşt, yəhudi peyğəmbərləri və Milet məktəbi tərəfindən qeyd olunmuş bir irəliləyiş gətirmişdir. Bu irəliləyişi K.Yaspers ox zamanı fenomeni adlandırılmışdır. Yaspersin ox zamanı bizim fikrimizcə, ən tərəqqipərvər və budaqlarının gələcəkdə inkiaşf etdiyi tarixi davamı olmayanlar bəşəriyyətin tarixi yaddaşından silinmiş növbəti təkamül enercisinin əmələ gəlmə zamanıdır. Ellada da bu ən tərəqqipərvər irəliləyiş və Qərb sivilizasiyası üçün örnək oldu. Nə üçün məhz, Ellada?

«Yunan möcuzəsində» e.ə. XIII-XII əsrlərdə yunan səsli (əlifbalı) yazının yaranmasının rolu şübhə doğurmur, çünki təxminən həmin zamanlarda yaranmış Finikiya (e.ə. XII-XI əsrlər) və Arameya (e.ə.IX-VIII əsrlər) əlifbalarından kifayət qədər güclü təsiri olmadı.

«Yunan möcüzəsinə» görə məsuliyyət daşıyan e.ə. IX-IV əsr Qədim Yunanıstanın əsas xüsusiyyətini biz bu ölkə ərazisinin bölünmüş relyefi ilə «olduqca zəif» inkişaf etmiş nəqliyyat və hərbi vasitələrin uyğunlaşmasında görürük. Bu da onun vahid dövlət çərçivəsində birləşməsinə keçilməz sədd qoymuşdur. Ona görə də e.ə. IX əsrdən IV əsrin sonunadək Yunanıstan bir neçə yüz siyasi müstəqil polislər sistemi olaraq qalmışdır. Coğrafi cəhətdən Qədim Yunanıstanın ərazisi Egey dənizinin 2500 adasını əhatə edirdi. Lakin Yunanıstanın materikdə yerləşən hissəsi bölünmüş relyefə malikdir. «Yunanıstanın böyük hissəsini dağlar əhatə edir». Yunanıstanın ayrı-ayrı rayonlarını bir-birindən ayıran hündür dağ silsilələri münbit torpaqları əlverişsiz küləklərdən qoruyurdu və qarı hündürlüklərdə saxlayaraq tarlaların suvarması üçün nəmi saxlayırdılar. Beləliklə, hər bir düzənliyin sakinlərinin öyrəşdiyi öz mikroiqlimi var idi.[22] Əlbəttə, İoniya və Cənubi İtaliyadakı və Siciliyadakı müstəmləkələr də Qədim Yunanıstana daxil idi, lakin bu ümumi mənzərəni dəyişmir. Polislərə qaldıqda isə «keçmişdə yunan dünyası heç vaxt siyasi cəhətdən vahid olmayıb. O bir neçə yüz tamamilə müstəqil və adətən könüllü, bəzən də məcburən ittifaqlarda birləşə bilən, aralarında müharibə apara və sülh bağlaya bilən dövlətlərdən ibarət idi. Polislərin çox hissəsinin ölçüsü böyük deyildi: adətən onlar bir neçə yüz vətəndaşın ailəsi və qulları ilə yaşadığı və onlara məxsus olan torpaqların bir neçə on kvadrat kilometrlərlə məhdudlaşan yalnız bir kiçik şəhərdən ibarət olurdu».[23]

Bunun günahı isə, ilk növbədə, yollardadır. O zamanların Asiya dövlətlərindən fərqli olaraq, Qədim Yunanıstan karvan yolları şəbəkəsinə

malik deyildi, dəvələri yox idi, atları çatışmırdı, öküzlər isə idi. Dəniz əlaqələri quru əlaqələr üzərində üstünlük təşkil edirdi. «Quru əlaqəsi Yunanıstanda hər zaman daha zəif rol oynayırdı. Ölkənin rayonları arasında quru rabitəni çətinləşdirən dağlıq relyefi, iri yunan mərkəzlərinin böyük hissəsinin dəniz kənarlarında yerləşməsi, yunan şəhərlərinin bir neçə materik və çoxlu adalar sahili böyüu dağınıqlı – bunun hamısı ona gətirdi ki, əsas polislərarası əlaqələr, həmçinin ticarət əlaqələri, dəniz yolları vasitəsilə həyata keçirilirdi. Quru yollar vasitəsilə həyata keçirilən ticarətin payına yalnız bu və ya digər mərkəzin ətraflarının xidməti düşürdü: bu ticarət adətən polisin çərçivəsindən kənara çıxmırdı».[24]

Lakin dəniz əlaqələri də yastıdibli, geniş korpusunun qalxan burun və dal tərəfi olan yunan gəmilərinin məlum primitivliyinə görə məhdud idi. Belə gəmilər əslində çay gəmiləri idi və ən uzağı, dəniz sahilləri boyu üzə bilərdi. «Yunanlıların ticarət dənizçiliyi e.ə. XIII-VI əsrlərdə kifayət qədər primitiv idi. Cəmi səfərləri əsasən daha əlverişli olan və bir neçə ay sürən yay mövsümündə, yaxşı hava şəraitində həyata keçirilirdi... Gmilər bu erkən dövrdə açıq dənizə çıxmağa cürət etməyərək sahil boyu və yaxud bir adadan digər adaya yalnız kabotaj səfərləri həyata keçirirdilər... Gəmilər təmamilə hava şəraitindən asılı vəziyyətdə ididlər, həm sakit hava şəraitində, həm də fırtına zamanı. Belə gəmilərdə uzaq dəniz səyahətlərinə çıxmaq üçün cəsarət və hünar tələb olunurdu».[25]

Nəqliyyat vasitələrinin nisbətən zəif olduğuna yunanları hərbi güc vahid dövlətə birləşdirə bilərdi., lakin o zamanlar hərbi vasitələr də kifayət qədər inkişaf etməmişdi. Vəziyyət Böyük İskəndərin atası II Filipin makedon falanqasını (daha dəqiq desək, o, yunan hoplitlərinin falanqasını ikinci, üçüncü, dördüncü və beşinci sıraların falanqaçılarını artan uzunluqda nizə-

> *“Platonun bazarın nizama salınması barədə təklifləri hətta bizə, bir neçə sərt planlaşdırılmış iqtisadiyyat əsrində belə, çox amansız görsənir. O yazır ki, bazar hər bir qaydalrı pozan şəxsi göstərən başçılar tərəfindən idarə oluna bilər. Pərakəndə ticarətdən başqa, Platon üç hər ay on gündən bir təşkil olunmalı və insanların bir aylıq ehtiyat üçün özlərinə ərzaq almaqlarını nəzərdə tutan ixtisaslaşdırılmış bazarın olmasınıda ehtimal edirdi. Birinci bazar taxıl, ikinci – mayelər, üçüncü isə mal-qara, qul və bunlarla bağlı olan dəri, parça, geyim və digər bunun kimi mallar satılırdı”.*
>
> D. Vezerford

lərlə təchiz edərək islah etmişdir) icad etməsindən sonra dəyişdi. Üstünlük təşkil edən hərbi üstünlük Filipə nəqliyyat sisteminin zəif olmasına baxmaraq Yunanıstanın bütün materik hissəsini istila etməyə imkan yaratdı. Xoşbəxtlikdən bu yalnız e.ə. IV əsrin sonunda, «yunan möcuzəsinin» baş verməsindən sonra olmuşdur.

Lakin e.ə. IX-VI əsrlərdə polislərin müstəqilliklərinə baxmayaraq onların bir-birinə ehtiyacları var idi, bu isə öz növbəsində yenə də yaşama mühiti tərəfindən müəyyənləşirdi. Su az idi, torpaqlar çox da münbit deyildi. Mikroiqlimlərin xüsusiyyətləri polisləri bu şəraitlərdə *ixtisaslaşmaya* arxayın olmağa məcbur edirdi, polislərarası *ixtisaslaşmaya.* «Yunan polislərinin dağınıqlığı və onların yerləşməsinin müxtəlif təbii – coğrafi şəraitləri ayrı – ayrı rayonların bu və ya digər kənd təsərrüfatı bitkiləri üzərində ixtisaslaşmağa kömək edirdi. Beləliklə, materik və ada Yunanıstanın böyük hissəsinin daşlı torpağı, dağ landşaftı və quru iqlimi dənli bitkilər üçün əlverişsiz, lakin zeytunçuluq, üzümçülük və heyvandarlıq üçün çox əlverişli idi.

Buna baxmayaraq, Fessaliyanın, Şimali Qara dəniz ətrafı və Siciliya çox gözəl buğda və dənli bitkilər məhsulu verirdilər».[26] Bu xüsusiyyət onun malik olduğu ticarət imkanları barədə geniş təsəvvür yaradır. Bununla birgə nəqliyyat vasitələri bütün bu müstəqil polislərdə yaşayan yunanların ümumi dili, mədəniyyəti və iqtisadiyyatı olan *vahib millət* kimi birləşməsi üçün kifayət qədər inkişaf etmişdi. Bu o qədər də adi deyil, çünki gələcək qədim yunan ərazilərinin əvvəlki etnik tərkibi çox qırışıq idi, bura Krito-Miken dövlətini məskun edən *krito-mikenlər,* e.ə. XV əsrdə zorla daxil olan *axeylər* və e.ə. X əsrdə gələn *dorilər də* daxil idi. Polislərarası qarşılqlı əlaqə onları qədim yunanlılara çevirdi.

Bir neçə yüz polis dövlət və ictimai quruluş formaları ilə unikal və Yer üzündə birgə heç yerdə təkrar olunmayan təcrübə keçmək imkanını yaradırdılar, amma qaynayan və dəyişkənliyinə görə həddindən artıq çətin olan polislərarası həyat çar (irsi) hakimiyyətini mümkünsüz edirdi. *Demokratiya və yeniliyə pozitiv kimi köklənmə Qədim Yunanıstanın çoxpolisliyi tərəfindən yaranmışdı.* Bunun sayəsində əhali vahid dövlətə birləşmədən vahid millət yaradırdı.[27] D.Vezerford qeyd edirdi ki, «Fars və Misir mədəniyyətindən fərqli olaraq yunan mədəniyyətinin unikallığı onun ordunun müdafiə etdiyi möhkəm dövlət hakimiyyəti əsasında qurulmamasındadır. Yunanlılar heç bir vahid dövlət altında birləşə bilmədilər; onlar hərəsinin öz iqtisadi və mədəni inkişaf mərhələsində olduğu çoxlu dövlətlərə ayrılmış

vəziyyətdə qaldılar, Yunanıstanın hökmranlığı və qüvvəsi heç vaxt ordudan asılı olmayıb».[28] Yalnız klassik yunan sivilizasiyasının qonşu Makedoniyadan Filipin şəhər-dövlətləri istila edəndən və sonra onun oğlu İskəndərin qısa, lakin təsir bağışlayan əvvəlcə şərqi Aralıq dənizi və nəticədə hind subkontinentini istila etmə yolunu keçəndən sonra, bir liderin və bir ordunun başçılığı altında birləşməsinin ardınca «Yunanıstanın əzəmətli Lidiyadakı sikkə və kommersiya inqilabının, pulun, müasir bazarların, topdan və pərakəndə bölüşdürmənin əmələ gəlməsinin əlavə nəticəsi oldu».[29] Beləliklə, ticarət, kommersiya yunan əzəmətinin, indiki zamanlaradək təəccübləndirdiyi inkişafının həlledici faktoru oldu. Lakin bu indi belədir. Qədim romalılar isə yunanlara onların «aşaq» nizamsızdığına görə, bir-biri ilə daima didişmələrinə görə, dövlət ümumi yunan həyatını təşkil edə bilmədiyinə görə «hörmət etmirdilər». Romalılar başa düşmürdülər ki, yunan polislərinin bir-birlərinin arasındakı məhz bu «uşaq» didişmələrinə görə dünya Qədim Yunanıstana, onların romalıların özünün istifadə etdiyi mədəniyyətinə və elminə minnətdardır.[30] Qədim Yunanlıların «uşaqlarla analogiyası dərin məna daşıyır. Digər millətlər də polis quruluşu haqqında bilirdilər, lakin bu dövlət quruluşunun erkən mərhələsini, kiçik polisləri (nomları) böyük dövlətlərə birləşdirərək, tez keçirdilər. Qədim Yunanıstanın bütün gözəlliyi məhz ondadır ki, onun inkişafı sayəsində belə tərəqqi etmiş təkamülü həyata keçirmiş və Qərb sivilizasiyasının və bununla birgə - qərb iqtisadi təfəkkürün vətəni olmuş, dövlət quruluşunun bu yuvenil («uşaq») mərhələsində qalmasındadır».

Burada orqanik təkamülün nəzəriyyəsindən yaxşı tanış olan neoteniya, yəni orqanizmlərin antigenezinin bu mərhələdə böyük vəziyyətindən əvvəl gələn törəyib artma bacarığını əldə edərək *yuvenil* mərhələsinin ləngiməsi yada düşür. Neoteniya yolu ilə çoxlu müasir bitkilər qrupları, məsələn, çoxalmağa bacarıqlı, «böyüməmiş ağaclara» bənzəyən otlar və orqanik təkamülündə «neotenik dəyişikliklərin mozoin və orqanizmin müxtəlif hissələrində[31] baş verən» mağara proteylərindən[32] heyvanlar və insan əmələgəlmişdir».

Orqanik dünyada neoteniya metobolizmlərin intensivləşməsinə və bu yolla yeni növlərin əmələ gəlməsinin təkamül plastikliyinin artmasına gətirir. Lakin orqanik və ictimai təkamüllərin qanunları çox şeydə vahiddir. Buna görə də yuvenil inkişaf mərhələsinin ləngiməsi orada da burada da mənalı təkamül nəticəsinə gətirməsi heç də təəccübləndirici deyil.

Dövlətlərin formalaşdığı dövrdə məhz yuvenil inkişaf mərhələsinin ləngiməsi «yunan möcuzəsində» çdx böyük rol oynadı.

Bir neçə yüz qədim yunan polisi həddindən artıq gərgin və dəyişkən həyat sürürdü. Məhsul illəri çox zaman məhsulsuz illərlə əvəz ounurdu, daima kimsə kiminləsə müharibə aparırdı, yeni hərbi ittifaqlar yaranır və köhnələri dağılırdı. «Vəziyyət, siyasi və həyat şəraitləri yunanlardan - kiçik şəhər-dövlət millətindən - çox şey tələb edirdi... Daima həyatı təmin etmək və dövlətin müdafiəsi məsələsini həll etmək lazım gəlirdi. Onlar həmişə bir çox düşmənlərə qarşı durmağa və tez-tez məğlubiyyətə uğramaq məcburiyyəti qarşısında qalıblar».[33]

Polislərin *iqtisadi həyatı* çox çətin təşkil olunmuşdur. «Bütün yunan dövlətləri idxal və ixrac gömrükləri, liman rüsumlarının, dövriyyədən yığılan vergilər və i.a. vasitəsilə xarici ticarətdən maliyyə qazancları götürməyə çalışırdılar... Xarici ticarətin yunan dövlətlərinin əksəriyyətinin iqtsiadi həyatında çox böyük rol oynadığına və əhalinin həyatının lazım olan ərzaqlarla fasiləsiz təmin edilməsinin onun inkişafından asılı olduğuna görə dövlət tez-tez bu ticarətə müdaxilə edir və bu və ya digər dərəcədə onu nizama salırdı. Bu tendensiyalar əsasən hərbi əməliyyatlar zamanı və ya məhsulsuzluq illərində tacirlərə bəzi malların ixracı qadağalandığı və ya onları müəyyən limanlara çatdırılması göstərişləri daha gücləndirilirdi... Dövlət öz qazanclarını artırmaq üçün bəzən bu və ya digər malların ixracına inhisar elan edir və ya bu inhisarı iltizama verirdilər».[34] Lakin ən əsası odur ki, ticarət iqtisadi-ictimai həyatın yalnız atributu deyil, həm də siyasi, dövlət quruluşunun determinantına çevrildi.

Ticarətin inkişafı cəmiyyəti bütün institutlarına yayılan yeni dəyərlər sisteminin qurulması demək di. D.Vezerford qeyd edir ki, demokratiya ilk əvvəl möhkəm əskinasa əsaslanan, *güclü bazarı* olan Afina kimi şəhər-dövlətlərdə yaranmışdır. «Kommersiyanın yunanlıların arasında inqilabi yayılması özü ilə yeni ibadətgahlar, ictimai binalar, akademiyalar, stadionlar, teatrlar gətirir və eyni zamanda sənətin, fəlsəfənin, dramaturgiyanın, poeziyanın və elmin yüksəlməsinə səbəb oldu. Klassik yunan şəhərinin mərkəzi və çarın sarayı, nə əsgəri qala, nə də ki, ibadətgah idi. Yunanların ictimai həyatı bazar üzərində cəmləşirdi. Onların sivilizasiyası yalnız kommersiya xarakteri daşıyırdı».[35] Və bu fikir heç bir etiraza səbəb olmur.

Maarifləndirmə adətləri səbəbindən *niyə* sualı yarana bilər. Axı bütün fikirlər mənəvi faktorda cəmlənmişdir. Amma heç nə ictimai təka-

mülə yuxarıda danışdığımız «silkələmə effektini» yaradan gərgin dəyişən şəraitlər kimi səbəb ola bilməz. İctimai inkişafın müxtəlif variantlarının (ictimai alətin müxtəlif budaqlarının) işlənilməsi üçün bundan yaxşı şəraitləri heç təsəvvür etmək də mümkün deyil. Buna görə də Qədim Yunanıstanda ictimai quruluşların zamanla dəyişən forma müxtəlifliyi yer alırdı. «Polislərin dövlət quruluşu birtipli deyildir. Aristokratik respublikalarda (əsasən erkən zamanlarda), tiraniyalara - demokratik əhali təbəqələri tərəfindən irəli sürülən, qeyri-məhdud qüvvəyə malik olan hökmdarların idarə etdiyi, quldar demokratiya və oliqarxiyalara - hakimiyyətin bir neçə varlı insanların əlində cəmlənmiş dövlətlərə də rast gəlmək olurdu. Polislərin uzun tarixi boyu onların dövlət quruluşu dəyişikliklərə məruz qalırdı».[36] Lakin, minilliklər boyu sürmüş imperiyalardan (Misir, Babilistan və s.) sonra Yunanıstan dövründə yaranan *bazar,* vəziyyəti dəyişdi. Yunanıstandan - əvvəl istənilən böyük sivilizasiya hərbi güclə saxlanılan siyasi ittifaq və hakimiyyət üzərində əsaslanırdı. Yunanıstan birləşərkən *kommersiyadan* törədi və təmamilə yeni sivilizasiya növü yaratdı.[37]

Qədim Yunanıstanın polislərinin dövlət quruluşunun müxtəlifliyinə baxmayaraq, burada demokratik formalar üstünlük təşkil edirdi. Və onların həyata məhz polislərin başçılarından dövlət müdrikliyi tələb edən dövlət həyatının mürəkkəbliyi və dəyişkənliyi tələb edirdi. İrsi hakimiyyətin icra edilməsi çox zaman varisin «dövlət adamı» olub-olmaması ilə müəyyənləşdirilir və bu, heç də bioloji irsilik qanunları ilə təmin olunmur. Böyük dövlətdə hakimiyyət irsi də ola bilər, çünki burada hökmdarın kifayətsiz müdrikliyi bürokratik aparatla söndürülür, bu isə Qədim Misirdən Çar Rusiyasına qədər irsi monarxiyaların tarixi ilə təsdiqlənir. Qədim yunan polislərinin kiçik ölçüləri çar dövründə istənilən əhəmiyyətli aparatın «orta» ağıl qabiliyyətləri saxlamağını mümkünsüz edirdi, beləliklə o, polisin həyatının böyük dövlətin həyatı kimi müxtəlif və mürəkkəb olduğu zaman, təkbaşına hökmranlıq etməli idi. Buna görə də, çar (iri) hakimiyyətin qədim yunan polislərində möhkəmlənməyə şansı yox idi və onlara polislərə belə dəyişkən həyat şəraitlərində sağ qalmaq imkanı verən demokratik hakimiyyət formaları yarandı.[38]

Dövlət idarə etməsinin müxtəlif formalarını təcrübədən keçirərək polislər vaxtaşırı tiraniya formasında şəxsi hakimiyyət rejiminin möhkəmliyini də sınayırdılar və bütün bu təcrübələr demokratik «yenidənqurma» ilə bitirdi. Ya tiran özü çətin öhdəliklərlə bacarmırdı, ya da ki, varis uyğun

gəlmirdi. Bu cür təcrübələri dəfələrlə sübuta yetiriblər ki, polisin belə mürəkkəb və qeyri-sabit şəraitdə mövcudluğu bir insanın – *tiranın və ya çarın* - ağıl və ya digər qabiliyyətlərindən asılı olmamalıdır. *Şəxsi* irsi hakimiyyət rejimi polis şəraitində son dərəcədə təsirsizdir. Bu məntiq çar hakimiyyətinin Troyanın dağılması dövrünün (e.ə. təqribən 1200 il) polisləri üçün əlverişli olduğunu anlamağa imkan verir. O zamanlar qədim yunan arealında ilk əvvəl nəqliyyat vasitələrinin *inkişafdan qalmasına* görə polislərarası həyat bir neçə əsrlərdən sonra olduğu kimi gərgin və müxtəlif deyildi. Ahamemnon zamanlarının bu nisbi təcridliyi və sabitliyi burada çar hakimiyyətini mümkün edirdi - idarə etmə səhfləri digər polislər tərəfindən o qədər də tez «cəzalandırılmırdı». Odissey 20 il vətənində olmayıb və bu illər ərzində İtakada çox az şey dəyişmişdir və o, çətinlik çəkmədən öz hakimiyyətini yenidən geri ala bildi. VI-IV əsrlərin tezaxan və gərgin həyatı olan qədim yunan polislərində bunu təsəvvür etmək mümkün deyil.[39]

Bu halda «yunan möcüzəsi» fenomenini necə izah etmək olar? Yunan polislərinin qul əməyinə əsaslanmış əlaqəsinin və inkişafının əsası nə oldu, burada necə azad ticarət ola bilərdi? Lakin burada məsələ quldarlıq formasiyasının tarixi müxtəlifliyinin başa düşülməsində idi. K.Marks özü «quldarlıq», «istehsalın quldarlıq üsulu», «quldarlıq əsasında qurulmuş cəmiyyət» və s. anlamlarını istifadə edirdi. Buna baxmayaraq, tarixi inkişafın formasiya mərhələlərini sadalayaraq o digər termini istifadə edir – «antik cəmiyyət». Bu təsadüfidir? Deyəsən, yox. Həqiqətən, antik dövrdə quldarlıq var idi. Lakin, əslinə qalsa, istehsalın quldarlıq üsulu Qədim Roma tarixinin sonuncu mərhələsində, plebeylərin - nə vaxtsa azad icma üzvü - öz torpaq sahələrindən məhrum olmuş və qul əməyinə əsaslanmış latifundiyaların əmələgəlmə dövründə yaranmışdı. Antik cəmiyyət sonuncu mərhələsinə qədər əsas istehsaledici qüvvələri azad icma üzvləri olan uzun dövrü əhatə edir. Antik cəmiyyətin Yaxın Şərqdə və Şimali Afrikada yayılmasına baxmayaraq – səciyyəvi Qərbi Avropa cəmiyyətidir. Belə Qərbi Avropa mənşəli feodalizmə də malikdir. Qərbi Avropa ilə müqayisədə tarixi prosesin özünəməxsusluğu özünü yalnız Asiyada deyil, həm də Şərqi Avropada da büruzə verir.

Buradan da ticarətin quldarlığın qaranlığında deyil, fəaliyyət üçün perspektivlər açan azad icma ilə birlikdə mövcudluğu aydın olur və var-dövlətin bolluğu onun nəticəsi olur. Sonuncu polisə, yəni dövlət həyatının statusunun dəyişməsinə gətirdi. «Kommersiya Vasitəsilə toplanmış var-

dövlət dolğun ictimai həyat sürməyə və ictimai məşğuliyyətlərə, siyasət, fəlsəfə, idman, sənət, həmçinin yaxşı yemək və şənliklər daxil olmaqla, vaxt ayırmağa imkan yaradaraq yunan elitasının boş vaxtını çoxaltdı. Bundan əvvəl heç vaxt tarixdə bu qədər çox insanın belə var-dövləti olmayıb, bununla belə hətta minimum zinət əşyalarına malik olaraq onlar öz var-dövlətlərini asudə vaxtlarına sərf edirdilər. Alimlər bizim zamanlara qədər yunanlar tərəfindən əsası qoyulmuş zəngin şüar və fikir kimi intellektual yataqları açırlar və onların dövrü tarix, elm, fəlsəfə və riyaziyyat kimi akademik fənlərin yaranması ilə yadda qalıb».[40] Şübhəsiz, bu həm də *azad ticarətin* nəticəsidir, hansı ki, məlum olduğu kimi, axır məqamda özü barədə, öz cəmiyyəti barədə fikirlərin vacibliyini yaradır və bundan əlavə - hesablayır.

«Yunan möcüzəsinin» üzərində keçirilmiş müzakirələr onu bazar və digər ictimai metabolizmlərin intensivləşməsinə istiqamətlənmiş sosial təkamülün ümumi mənzərəsinə daxil etməyə imkan verir. E.ə. III-II əsrlərin əsasən dövlət iqtisadiyyatlı və xüsusi sektorun məhdud olduğu Qədim Mesopotamiyadan fərqli olaraq, Qədim Yunanıstan bir neçə yüz il bir-biri ilə səmərəli iqtisadi, hərbi, siyasi və mədəni əlaqədə olan, siyasi nəzərdən müstəqil polislərin sistemi ki, Krit-Miken dövlətinin qalıqlarının üzərində yaranmışdı. Bu çox polisli sistem *bazarsız, fasiləsiz* yaşaya bilmirdi, çünki polislər aralarında əsasən əvvəldə o qədər həyatın yaxşılaşması üçün deyil, nə qədər ki, polisin özünün həyatda qalması üçün vacib olan bir-birini tamamlayan mallarla mübadilə etməli idilər. Buna görə də bazar və ticarət əlaqələri ən əvvəldən fəaliyyət göstərirdi, dövlət sektoru isə nisbətən zəif rol oynayırdı: polislərarası səmərəli ticarət-bazar əlaqələrin onların daxilində səmərəli bazar əlaqələri tələb edirdi.

Yunan polislərinin formalaşmasının özü də ticarətə görə bazarlar yaxınlığında baş verirdi, əsasən də bazar meydanları ətrafında. «Şəhər meydanı - aqora... xalq yığıncaqlarının keçirildiyi yer, həm də ərzaq ehtiyatlarının və sənət əşyalarının satıldığı yer idi... Tədricən, ellin şəhərlərinin sonrakı inkişafı və aqoranın siyasi əhəmiyyətinin güclənməsi ilə bağlı onun ətrafında müxtəlif ictimai binalar və ibadətgahlar cəmləşməyə başalyır, aqoranın hər tərəfi portiklərlə tikilir, gələnlər burada qışda yağışdan və soyuq küləkdən, yayda isə bürküdən qoruna bilirdilər».[41] E.ə. III-II əsrlərdə Mesopotamiyada torpaq əsasən dövlət (saray, çar) və ya ibadətgah mülkiyyətində idisə, Qədim Yunanıstanda o lap əvvəldən əsasən polisin

vətəndaşlarının şəxsi mülkiyyətində idi: «Hər bir yunan şəhərinin bu şəhərin vətəndaşlarına məxsus olan torpaq sahələrinin yerləşdiyi kənd təsərrüfatı ərazisi var idi. Yunan şəhərlərinin vətəndaşlarının sahib olduğu torpaq sahələrini satmaq, almaq və ya icarəyə vermək olardı. Taxılla ölçülən icarə haqqının və icarədarın digər öhdəliklərinin qeyd edildiyi icarə müqavilələri tərtib edilirdi».[42] Lakin «zamanın ruhuna» riayət edərək qədim yunan sahibkarları qul əməyindən istifadə edirdi, nəzərə alaq ki, onun rolu zaman keçdikcə artırdı.

Qulların mübadilənin və ticarətin əsas obyektlərindən olduğunu nəzərə alaraq, demək olar ki, quldarlıq qədim yunan bazarının inkişafına kömək edib. Bununla bərabər işçilərin əsas hissəsi «şorba» əvəzinə işləyərək istehlak tələbatının formalaşmasından, nəticə etibarı ilə də bazar əlaqələrindən (yalnız passiv mal kimi iştirak edərək) çıxardılırdı, bu isə iqtisadiyyatın, bununla birgə bütün ictimai həyatın inkişafını dayandıraraq heç də sonuncuların intensivləşməsinə kömək etmirdi.

Çoxpolisli sistem müxtəlif ictimai özünütoplamalar üçün eksperimental roliqon olaraq yalnız qul əməyi ilə məhdudlaşmırdı. İşçinin və sahibkarın qarşılıqlı münasibət formaları burada ən müxtəlif idi və bununla da o əhalinin əsas hissəsinin faktiki olaraq öz qulları olan və ərzaq payına işləyən e.ə. III-II əsr Mesopotamiyasından qəti şəkildə fərqlənirdi. Polisin əhalisi «üç yaruslu» idi: o, qullardan, *azad vətəndaş olmayanlardan* (meteklərdən, ilotlardan) və azad vətəndaşlardan ibarət idi. Qədim Yunanıstanda xüsusi sektorla bərabər, rolu polisdən polisə dəyişən dövlət sektoru da mövcud idi: «...Yunanıstanda dövlət sektorunun rolu... yalnız ayrı-ayrı regionlarda - Spartada, nisbətən Fessaliyada - böyük idi. Yunan icmalarının çoxunda isə xüsusi təsərrüfatların geniş məna daşıdığı icma-xüsusi sektoru mövcud idi».[43]

Mülkiyyətin formalarının, işçi və sahibkarın qarşılıqlı əlaqələrinin müxtəlifliyi ticarət və maliyyə münasibətlərinin də formalarına təsir göstərirdi. «İstehsalatın yüksək əmtəəliyi və ticarətin geniş inkişafı yunan dünyasında pul dövriyyəsinin inkişaf etmiş formalarını tələb edirdi. Və bu formalar da tapılmışdı».[44] Pulun əmələ gəlməsi alışı satışdan ayıraraq bazarın imkanlarını xeyli genişləndirdi. Pullarla birgə, maliyyəçi də əmələ gəlir. «Kredit-bank, sələm və digər maliyyə əməliyyatlarının inkişafının yüksək səviyyəsi öndə gedən yunan dövlətlərinin klassik və elinistik dövrünün iqtisadi həyatı üçün istehsalatın yüksək əmtəəliyi, idxal-ixrac ticarətinin geniş miqyası və ticarət dənizçiliyi kimi səciyyəvidir».[45]

Beləliklə, qul əməyinin Qədim Yunanıstanda böyük yer tutmasına baxmayaraq o, bununla belə işçinin sahibkardan asılılığının yeganə forması deyildi Heç qullar da o qədər də çox deyildir. Məsələn, e.ə. 430-cu ildə Attikada quldarlığın qızğın çağında 315 min adam yaşayırdı, onlardan yalnız 115 mini qul idi.[46] Bununla bərabər, Qədim Yunanıstanda razılaşdırılmış əməkhaqqı alan muzdlu işçinin azad əməyi əhəmiyyətli yer tutmasa idi, əmtəə mübadiləsi və bazar münasibətləri bu cür yüksək inkişafa nail olmazdı və ictimai təkamül isə hüquq, elm, arxitektura, sənət və i.a. daxil olmaqla, burada belə intensiv olmazdı. Elladanın iqtisadi həyatında muzdlu əməyin bu cür əhəmiyyətli rolu keynsian ideologiyası ilə tamamilə uyğunlaşır.[47] Yəni hər zaman azadlıqla bağlı olan ictimai istiqamətlənmiş əməyə keçid nəticəsində. Nəticə etibarı ilə, pulların vasitəsi ilə ifadə edilmiş bazar və ticarətlə. Pul gəldiyi hər yerdə bazar yaradırdı. Pul saraylar ətrafında deyil, bazarlar ətrafında cəmlənmiş şəhərlərin yüksəlişinə kömək edərək yeni şəhər coğrafiyası yaradırdı. «Əmtəə mübadiləsi bir mərkəzdən digərinə gedən, beləliklə, Yunanıstanı və yeni hörümçək toruna bənzəyən kommsersiyanın qonşu torpaqlarını bağlayan yeni quru və dəniz ticarət yollarının vacibliyini tələb edirdi».[48] Bu da ictimai təkamülün sonrakı inkişafının şərti oldu.

## 4. ANTİKLİYİN BÖHRAN ŞƏRAİTİNDƏ TİCARƏT ƏLAQƏLƏRİ

Əlbəttə, cəmiyyətləri istehsal xarakterinə görə bölmək lazımdır, lakin sonuncunu xarici əlamətlərinə görə deyil, daxili əsasına –- istifadə etdiyi alətlərin növünə görə müəyyənləşdirmək lazımdır. Və bu planda, şübhəsiz, antik sosiumlar heç də mükəmməl kapitalist cəmiyyətləri ilə deyil, qədim bürokrat cəmiyyətləri ilə eyni cərgədədirlər. Bu da özünü onların inkişafının son istiqamətləndirməsində üiruzə verir. Antik cəmiyyətin iqtisadiyyatının kapitalist olub-olmaması onun heç də ticarət münasibətləri çərçivəsində inkişaf etməsinin miqyasından (əlbəttə, ona baxmayaraq ki, müəyyən keyfiyyət həm də müəyyən kəmiyyət parametrlərinin əldə edilməsini nəzərdə tutur) deyil, *onun təşkilaına uyğun olan və* istifadə olunan *istehsal vasitələrinin* xarakterindən asılıdır. Cəmiyyətin iqtisadi sistemini yalnız *mübadilə* deyil, həm də *istehsalatın xarakteri* yaradır.

Ticarətin özü bazar (kapitalist) ticarətinə çevrilib və ya çevrilməməsi onun hansı növ istehsalata xidmət göstərdiyindən asılıdır. Ticarətin

inkişafının ticarət istehsalatının inkişafının (kapitalist əmtəə istehsalatı daxil olmaqla) ilkin şəraiti olmasından heç də sonuncunun möhkəmlənməsi (xüsusən, kapitalist münasibətlərinin qələbəsi) üçün yalnız onun inkişafının kifayət etməsindən irəli gəlmir: çox zaman bazarın təsiri vasitəçi ticarətin inkişafı ilə qane olur. Eyni dərəcədə ticarət və sələm maliyyəsinin, faizlərin və mənfəətin mövcudluğu kapitalizmin ictimai quruluş kimi mövcudluğu demək deyil. Çünki, ictimai quruluş istehsalatın xarakteri ilə, *cəmiyyəti bünovrəsi ilə* müəyyənləşir.

Kapitalizm olduğu kimi sənaye istehsalı ilə bağlıdır. Burjuazlıq hələ kapitalistlik demək deyil. Antik cəmiyyətlər burjuaz olsada, kapitalist olmayıb. Onların əsas prinsipial təbəqələri onların tarixi əsli və mövcudluğu xüsusiyyətləri ilə səciyyələnən xırda və orta burjuaziya təbəqələri idi. Bu təbəqələrin aydın kapitalist gələcəyi yox idi. Hədd burada istifadə olunan alətlərin xarakterinə apreori müəyyənləşib. Və bu səbəbdən burjualar öz inkişafları proseslərində kapitalistlərə deyil, latifundistlərə, yəni, iri olsalar da, natural-istehsalçı sahibkarlara və nəticədə – adi, səviyyəsinə görə bu dövrün istehsalına uyğun olan bürokratiya silkinə çevrilirdilər.

Antikliyi elmdə ümumiyyətlə ictimai polis sistemi ilə eyniləşdirirlər. Yuxarıdakılardan göründüyü kimi, bu iki fenomen həqiqətən də bir-biri ilə sıx bağlı idi, lakin eyni şey kimi deyil, təmiz genetik olaraq və polis təşkilatı burada antiklə nisbətdə yalnız onun bir valideyni rolunda iştirak edirdi. Antik dünyası polis əsasında böyüyüb, lakin bilavasitə deyil, yalnız dünya bazarının, əmtəə-pul münasibətlərinin sonuncuya olan münbitləşmə təsiri nəticəsində. Bu təsiri hiss etməyən Aralıq dənizinin bölgələri, Balkan daxil olmaqla, qanuna uyğun olaraq klassik quldarlıq, inkişaf etmiş demokratiya, individualist ideyasının tərəqqisini, mədəniyyəti, elmləri və s. fenomenləri bilmirdilər. Beləliklə, antik cəmiyyət - özlüyündə cəmiyyət kimi deyil, polisə əsaslanan burjua cəmiyyətidir. Təsadüfi deyil ki, antik dövrü heç də arxaik dövrü deyil, məhz *bazar münasibətlərinin* inkişafına təsadüf edən Yunanıstanın və Romanın inkişaf əsrləri adlandırılır. Antik ictimai formalar bundan əvvəlki dövrün deyil, bu formanın məğzidir. Arxaikaya isə təmiz polis təşkilatı uyğun gəlir. Lakin e.ə. V-IV əsrlərin Yunanıstanının və ya e.ə. II eranın II əsrində Roma dövlətinin cəmiyyətlərinin ictimai təşkilatlarını belə hesab etmək olmaz. bu artıq əsas dərəcədə bazar təsiri altında qurulmuş - inkiaşf etmiş şəxsi mülkiyyəti, vətəndaş hüququ və s. olan cəmiyyətdir. Bazar münasibətlərinin göstərilmiş pozucu

təsiri olmasa idi, yəni onlar üçün səciyyəvi olan ictimai qaydalar və institutlarsız, əsas polis formalarının inkişafı təmamilə başqa istiqamətdə baş verərdi.

Beləliklə, antik qaydalar heç də polis qaydaları deyil, onlar polis, əmtəə-pul münasibətlərinə tərəf inkişaf istiqamətlənmiş qaydalardı. Buna baxmayaraq, öz keçmişlərinin izləri və xalları ilə. Bu xalların saxlanılması isə çox vaxt mövcud olan material əsasın (yəni əmək alətlərinin) göstərilmiş qaydaların xarakterinə olan uyğunsuzluqla şərtlənirdi. Beləliklə, antikliyin mahiyyəti burjua (bazar) ictimai əlaqələrinin növlərinə görə təbii olan əmək alətlərinin istehsalın əsası kimi saxlanılması şərtilə qabaqlayıcı inkişafından ibarət idi. Bu burjua inkişafının səbəbləri Avropada yeni zamanda baş vermiş dəyişikliklərə bənzəyən, dərin əsaslı dəyişikliklər deyil, səthi təsadüfi şəraitlər oldu. Buradan da antik cəmiyyətlərin siyasi və ictimai institutlarının pozğunluğu irəli gəlirdi: elə bununla da bu sistemin davamsızlığı müəyyənləşirdi. Baza və üstqurum burada əzəldən ticarətin öz statusunun, əhəmiyyətinin itirməsinə gətirən mübahisəli tandem yaradırdı. Böhran dövrü gəlir. Buna müvafiq olaraq da qeyd olunmuş mübahisənin tapılması və inkişafı prosesində antik cəmiyyətlərin özünü dağıtması da qanuna uyğun idi. Bununla birgə ictimai münasibətlər və istehsal vasitələrinin xarakteri arasında uyğunsuzluq genişlənirdi: sonuncular öz imkanları üzündən sadəcə birincilərin öz inkişafları nəticəsində qoyduqları tələblərlə bacarmırdılar. Axı burada hər şey çəp gedirdi, normal proses baş-ayaq qoyulmuş oldu: əmək alətlərinin və istehsalın yeniləşməməsi cəmiyyətdə formasını dəyişdi, yuxarıda göstərilən özü isə xarici təsadüfi şəraitlərin təsiri altında öz inkişafında olan material bazadan uzaqlaşaraq çox qabağa getmişdi.

> *“Öz maliyyə axtarışlarında italyan tacirləri bütün Avropa bazarlarına və yarmarkalarına gedirdilər. Digər səyyar tacirlər kimi onlar masalar və böyük dükanlar qururdular və bunlardan onlar öz mallarını yalnız satmırdılar, həmdə pullarını mübadilə edir, borc verir, qonşu şəhərdə kim üçünsə borc ödənişini qəbul edir və digər buna bənzər maliyyə xidmətləri göstərirdilər” .*
>
> D.Vezerford

İctimai formaların mövcud olan bazar şəraitində bu cür inkişafı əlbəttə, qanuna uyğun olaraq bu şəraitlərə öyrəşmək yolu ilə və eyni zamanda – bazarın qoyduğu oyun qaydalarına müvafiq olaraq gedirdi. Lakin bununla bu inkişaf qaçıl-

maz olaraq antik bazarın – polis təşkilatının özünün dağılmasına aparırdı. Burada bir valideyn daima antik dünyanın yaşamasını mümkün edən digərini sıxışdırır və məhv edirdi. Antikliyin (polis qaydaları ilə təmin olunan) mövcudluğu bazar münasibətlərinin mümkünlüyü və zəruriliyi ilə şərtlənirdi. Onun böhranı isə zəruriliyin saxlanılması və şiddətləndirilməsi şərti ilə mümkünlüyün böhranı idi.

Beləliklə, bazarın fəaliyyəti çərçivsəində və genişlənməsində Aralıq dənizinin ətrafılarında yerli sosiumların qanunauyğun «burjuazlaşması», yəni onların, əsasında ənənəvi polis qanunlarının dağılmasından ibarət olan, antiklər kimi cırlaşması baş verirdi. Sonuncular isə bununla bərabər, bazar münasibətlərinin özlərinin əsas şərti, ictimai bazası idilər. Polis sistemi sayəsində bu dövrdə bazarın ümumiyyətlə, öz inkişaf etmiş formasında mövcud olmasını mümkünləşdirən yeganə faktor idi, çünki primitiv istehsal vasitələri burada hələ belə faktor kimi iştirak etmirdilər. Elə bu bazanı bazar bu *qanunauyğunluqların təsir gücü ilə dağıdırdı.* Polislərin dağılması müxtəlif istiqamətlərdə baş verirdi. Bir tərəfdən öz daxillərində onlar iqtisadi, ictimai və siyasi böhranlara düçar olur, digər tərfdən, bu daxili dağılma və bəzi xarici təsirlər ictimai formaların mövcud ola bildiyi şərtlərin yox edilməsinə kömək edirdi. Artıq dediyimiz kimi, sonuncuların inkişafı şəraitlərin təsadüfi birləşməsi nəticəsi ilə şərtlənib; indi isə qeyd edilmiş sosiumların öz həyat fəaliyyətləri və çürümə prosesləri öz üfunətləri ilə bu çox zəif (yəni, yeniləşmə üçün möhkəm əsası olmayan) atmosferi zəhərləyirlər.

Antik əmtəə istehsal edən iqtisadiyyat, aydın olduğu kimi, bazarın qanunlarına uyğun olaraq inkişaf edirdi. Bu rəqabətin nəticəsi isə bir təsərrüfatların yaşaması, zənginləşməsi, digərlərin isə müflisləşməsi və qiymətdən düşməsi oldu. Bazar iqtisadiyyatı üçün təbii olan mülklərin və vardövlətin cəmləşməsi baş verirdi. Məsələn, e.ə. IV əsrdə Afinada torpaq sahələrinin alqı-satqısı haqda sazişlər kəskin surətdə artdı. Sıx torpaq sazişlərinin qanunauyğun nəticəsi isə bəzilərinin əlində torpaq mülkünün cəmləşməsi və iri mülklərin yaranması, digərlərinin isə torpaqsızlaşması oldu. Eyni şey sənətdə də baş verirdi.

Lakin bu şəraitdə istifadə olunan alətlərin təbii xarakter daşıması iqtisadiyyatın dağılmasına gətirirdi. Axı cəmləşmə, özü-özündə təsərrüfatların iriləşdirilməsindən başqa heç bir şey deyil. Qeyd edildiyi kimi, iri təsərrüfatlar isə burada intizamın qorunmamasından və digər çoxlu xəstəliklərdən əziyyət çəkirdi. Bomba isə antik iqtisadi sistemin içində – orta

təsərrüfatların ən yüksək gəlirliyində qurulmuşdu. Lakin bu texnikanın lazım olan mükəmməlləşməsi, yəni belə iriləşmənin material bazasının yaranması ilə müşayiət olunmurdu. Onların sahibləri, qeyd olunduğu kimi, öz torpaqlarını qullarına və s. pekuli əvəzinə icarəyə verərək xırda sahələrə məcburən parçalayırdılar. Çünki xırda təsərrüfatçılıq hər halda əmtəə istehsalı üçün iri təsərrüfatçılıqdan daha gəlirli təşkilat forması idi. Buna baxmayaraq, ən qorxulusu bu deyildi.

Əsas fəalakət latifundistlərin bazardan alıcı kimi getmələrində idi. Məsələn, orta təsərrüfatları götürsək, onlar yalnız bazara işləmirdilər, onlar öz gücləri ilə bütün lazım olan şeyləri istehsal edə bilməməkləri səbəbindən həm də özləri də bazarın müştəriləri idilər. Əlbəttə, bu orta əl sahibləri də xarici bazar sistemindən kənarlaşmağa, özlərini təmin etməyə çalışırdılar, lakin bu ideala çata bilmirdilər. Buna baxmayaraq, iri təsərrüfatlar rəqabət bacarığı olan orta təsərrüfatların zəifləri almaq yolu ilə çevrildiyi təsərrüfatlar) bunun öhdəsindən gələ bilirdilər. Onlar genişlənərək öz tərkibinə ən müxtəlif istiqamətdə çalışan sənətkarları daxil edirdilər və tədricən öz gərəkli tələbatlarını demək olar ki, hamısını müstəqil təmin etməyə başlayırdılar. Nəticədə, qeyd edilmiş iri təsərrüfatlar daha da artıq öz mallarını azaldırdılar, lakin özləri artıq Şərqdə olduğu kimi zinət əşyaları istisna olmaqla heç nə almırdılar.

Bununla antik təsərrüfat fəaliyyəti tükənirdi. Yeni sistemlər və yeni yanaşmalar vacib idi. Və burada, nə qədər təəccüblü olsa da, din çox böyük rol oynayırdı. Yunan kommersiya sisteminin yaranmasından əvvəl hər bir ölkənin öz tanrıları var idi. misirlilərin tanrıları farsların və yunanların tanrılarından frəqli idilər. Ümumi kommersiya (ticarət) mədəniyyəti hamı üçün açıq olan ümumi dinin yaranması üçün şərait yaratdı. Xristianlıq Aralıq dənizi şəhərləri arasında təmamilə yeni və inqilabi din konsepsiyası kimi yayıldı. Bu kəndlilərə assosiasiya edilən, günəşin, küləyin və ayın məhsuldarlıq və və «hava» tanrıları ilə heç bir əlaqəsi olmayan unikal şəhər dini idi. Bu birinci din idi ki, insanların ictimai və mədəni fərqlərini aşıb onları vahid bir din dünyasında birləşdirmək istəyirdi. Onun tərəfdarları fəal surətdə xristianlığı hərtərəfli din etməyə can arıtdılar və onlar bunu hərtərəfli iqtisadiyyatın yaratdığı üsulla edirdilər.[49] Və burada mühüm rolu ticarət oynayırdı. Axı yeni din, yeni din növünün müzakirə mərkəzi oldu. Tacirlər adi, demək olar ki, jarqon yunan ticarət dilini istifadə edirdilər, lakin o böyük ideyaları sadə bazar mübadiləsindən kənara çıxarmağı bacardı. Beləliklə, Avropa sivilizasiyasında ictimai təkamül kontekstinə daxil edilmiş yeni dövr idi və onunla birgə - ticarətdə yeni dövr başladı.

## 5. MƏNFƏƏTPƏRƏSTLİK: İQTİSADİ ŞƏRAİTLƏRİN ÜMUMİ XARAKTERİ

Mənfəətpərəstliyin yaranışı yeni dövrün başlanğıcıdır. Yalnız ticarət üçün deyil, həm də iqtisadiyyatla şərtlənmiş insan fəaliyyətinin bütün sahələri üçün. Və ilk əvvəl qeyd etmək lazımdır ki, bu Avropanın *böyük coğrafi kəşflər dövrü* adlandırılmış dövrünə daxil olması idi. Bu kəşflərə ticarət əsrlərlə yaxınlaşırdı. XV əsrin sonlarında beynəlxalq ticarət Aralıq dənizinin bir neçə limanında, Brüqqedə və ən əsas Hanza şəhərləri arasında kəsişən yollarla gedirdi. Ticarət üçün yeni sahələr çoxalmadı: köhnələrdən isə çoxu avropalılar üçün türklərin istilaları ilə bağlı idi. Yer kürəsinin ölkələrinin yarısı barədə insanların yalnız təxmini anlayışları, çox zamanlar isə heç anlayışları yox idi. Halbuki, tarixdə artan insan maraqları ötəri olsa da, geniş horizontları ildırımla işıqlandıran şücaətlər göstərirdi. Bundan neçə minilliklər qabaq finikiyalılar Afrikanın sahilləri böyu dövrəsindən keçmişdilər; onlar və ərəblər Hindistanda və Orta Asiyada da olmuşdular. Digər cəsarətli səyahətçilər Çinin və Hind-Çinin bütün hissələrində də olmuşlar. XI əsrin əvvəllərində normanlar İslandiyadan qərbə tərəf keçib Qrenlandiyanı kəşf ediblər. Onlar oradan iki dəfə Qrenlandiyanın cənubunda yerləşən və zənginliyi barədə möcuzələr danışılan hansısa böyük gəmi səfərləri dəfələrlə təşkil olunurdu. Lakin uzaq ölkənin müntəzəm öyrənilməsini kompasın hamının istifadə edə bilməməyi, dəniz xəritələrinin olmamağı və gəmiqayırmanın açıq okeanda üzmək üçün kifayət qədər mükəmməl olmadığı səbəbindən heç kim həyata keçirməmişdi. Normannların kəşfləri barədə çox az adam bilirdi və onlar haqda şübhə ilə danışırdılar.

Quru nəqliyyat orta əsrlər dövrü boyu heç yaxşılaşdırılmamışdı. Venesiyalı Marko Polonun səyahətləri özünə bənzəri ilə rastlaşmadı; sonralar isə, bütün Asiyada türk və tatar qəbilələrinin yayılması ilə bu cür səyahətlər mümkünsüz oldu. Şərqlə əlaqələr getdikcə çətinləşir və təhlükəli olurdu; ayrı-ayrı yollar tərk edilir və unudulurdu, avropalıların mülkədarlıq sahəsində görüş dairəsi məhdudlaşır və qaranlıqlaşırdı. Buna baxmayaraq, dənizçilikdə böyük nailiyyət əldə edilmişdi: küləyə qarşı dolama getmə üsulları tapılmışdı. Eyni zamanda daha bilikli dənizçilər kompasdan istifadə etməyi və ulduzlu səmada istiqamətin daha dəqiq müəyyənləşməsini öyrəndilər. Açıq dənizə artıq daha tez-tez çıxırdılar və onların hesablamaları daha da etibarlı olurdu. İtaliyanın elmli insanları arasında belə fikir

yaşayırdı ki, zəngin Hindistana, okeanla dəniz yolu olmalıdır. Bəziləri öz fərzlərində daha da irəli gedirdilər və okeanın o başında yeni ölkələrin mövcud olduğunu ehtimal edirdilər. Portuqaliya infantı *Dənizçi Henrix* bu cür ideyalar haqda düşünürdü. Bu ideyalarla yüksək səviyyədə maraqlanaraq o, 1415-ci ildə Afrika sahillərinə öz birinci ekspedisiyasını təşkil etdi və böyük kəşflər dövrünün başlanğıcı qoyuldu. Birinci ekspedisiyadan 4 il sonra Porto-Santonun və Madeyranın kəşfi baş tutdu, sonra isə portuqallar Yaşıl Buruna, Qvineyaya çatdılar. Dənizçilərin Afrika sahillərindən gətirdiyi nadir və qiymətli malların nümunələri insanlarda *təşəbbüskarlıq* hissini oyatdı; dövlət və xüsusi şəxslər tərəfindən yeni ekspedisiyalar təşkil olundu; bu ekspedisiyaların əsas məqsədi qədim yazıçılar tərəfindən qeyd olunan Hindistana dəniz yolunu açmaq məqsədi daşıyırdı. 1475-ci ildə ekvator aşıldı və on üç il sonra isə Bartolomeu Diaş Xeyirxah Ümid Burnuna çatdı. Nəhayət 1497-ci ildə Vasko da Qamaya Xeyirxah ümid burnunu keçmək, Afrikanın şərq sahili boyu şimala tərəf qalxmağa, yaxşı ərəb losmanı tapıb və onun göstərişləriilə Hind okeanını keçiməyə müvəffəq oldu. 1498-ci il mayın 20-də o, Kəlküttə şəhərinin Hindistanın Malobra sahilində yerləşən limanına daxil oldu. Beləliklə, Hindistana dəniz yolu açıldı.

Hindistana dəniz yolunun açılışı ilə demək olar ki, eyni zamanda ondan daha da çox vacib olan kəşflər həyata keçirilmişdi. Öz vətəninidə qəbul olunmamış Henuyalı Xristofor Kolumb özünə İspaniyanın kraliçası olan İzabellanı himayəçi tapdı və Atlantik okeanı vasitəsi ilə Hindistana gəmi yolunun axtarışlarına başladı. 1519 ildə Fernand Kortes Meksikanı istila etdi. Həmin ildə portuqaliyalı Magellan dövr-aləm səyahətini təşkil etdi, onun adına adlandırılmış boğaz vasitəsi ilə Amerikanın qurtaracağını dövrə vurdu və Polineziya və Filippin adalarının bəzi hissələrini kəşf etdi. Mağellan 1521-ci ildə Cənub okeanda Matana adası yaxınlığında yerli əhali ilə vuruşmada həlak oldu. Onun davamçısı Elkano 1522-ci ildə eyni gəmilərdə Afrikanı dövrə vuraraq İspaniyaya qayıtdı və dövr-aləm səyahətini başa çatdırdı. Nəhayət 1531-ci ildə F.Pissaro Perunu işğal etdi və avropalılar üçün Cənubi Amerikaının bütün hissələrinə yol açdı. Bununla belə 1523-cü ildə ingilislər Nordkapı dövrə vuraraq rus Arxangelskinə yol tapdılar, gələn ilin əvvəlində isə Qudzon Amerikanın şimalının vacib hissələrini açdı və təsvir etdi. Rusların təşəbbüskarlığı və enerjisi dünyanı Şimali Asiya barədə məlumatlarla zənginləşdirməyə imkan yaratdı. Asiya qütb dünyasının Kolumbu sayılan Yermak, Sibiri ələ keçirərək buranın öyrənilməsinin

başlanğıcını qoydu. XVII əsrdə öz dəniz səyahətləri ilə hollandlar və ingilislər məşhurlaşdılar. Onlar Avstraliya materikini və Sakit okean adalarının kəşf etdilər. Bununlada böyük kəşflər dövrü sona yetir: yollar göstərildi, qaldı yalnız kəşflərin ayrı-ayrı boşluqlarını doldurmaq və onlardan istifadə etmək.

Beləliklə, XV əsrin sonunda avropalıların Yer kürəsi barədə təsəvvürləri tamamilə dəyişdi. Hər tərəfdə yeni dənizlər və yeni torpaqlar açılırdı. İspanlar, portuqallar, hollandlar və ingilislər bir-birlərini arxada qoyaraq yeni torpaqların kəşfinə və işğallarına can atırdılar. Bu hərəkatın nəticəsi isə çoxlu köhnə ticarət yollarının tərk edilməsi və boşalması oldu, bununla da orta əsrlər ticarətinin mərkəzlərinin çoxlu bütün əhəmiyyətlərini itirdilər; buna baxmayaraq, ticarət yeni dövlət xadimlərinin əlinə keçdi, yeni şəhərlər və yeni millətlər yüksəldi. Beynəlxalq ticarətin ağırlıq mərkəzi Şərqdən Qərbə, Atlantik okeanın sahillərinə köçdü. Hind malları böyük miqdarda Avropaya daxil olmağa başladı və qiymətlər xeyli dərəcədə aşağı düşdü. Bir zaman ispan macəra axtranlarının sevimli məkanı qalan Yeni Dünyada böyük Avropa müstəmləkələri, sonra isə müstəqil dövlətlər yaranmağa başladı və dünya ticarəti üçün yeni zəngin bazarlar açıldı. Dünyanın açılması siyasi dəyişikliklərlə müşayiət olundu. Okean arxası dəyişikliklərdən asılı olmayaraq, Avropanın özündə yeni dövrün köhnə dövrdən fərqini vurğulayan çox mühüm hadisələr baş verməyə başladı. Reformasiya kilsəsinin əhəmiyyətinə tam dəyişiklik gətirdi; kitab çapının icad edilməsi və klassik təhsilin canlanması, odlu silahın icad edilməsinin hərbi işə gətirdiyi əsaslı dəyişikliklər kimi, elm dünyasına əsaslı dəyişikliklər gətirdi. İnsan fəaliyyətinin bütün sahələrində yeni həyat gücünün, yeni enerjinin axını hiss olunurdu. Ümumi axın iqtisadi quruluş kimi siyasəti də əhatə etdi. Böyük güclü dövlətlərin və orta əsrlərdə dövlətlərin parçalandığı xırda feodal mülkiyyətlərinin yaranması yeni dövrün səciyyəvi xüsusiyyəti oldu. Eyni zamanda qüdrətli dövlətlər yalnız feodalların deyil, azad şəhərlərin hakimiyyətini əllərinə keçirdilər. Bu da ona gətirib çıxartdı ki, əvəllər ayrı təbəqələrə, korporasiyalara və şəhərlərə aid olan işlər artıq dövlət işləri oldu. Buradan da xalqların iqtisadi həyatına təsir göstərmiş bütöv dövlət təsərrüfatçılıq sistemləri yarandı. Orta əsrlər eybəcərliklərinin çoxu bu zaman ləğv edildi, mükəmməlləşmə və qabağa getmək üçün çox yerdə imkanlar yarandı; *ticarət-sənaye* işləri daha da geniş yolla getdi, çünki rəqabət artıq ayrı-ayrı şəxslər, şəhərlər və birliklər arasında deyil, bütöv dövlətlər və xalqlar arasında gedirdi. Lakin iqtisadiyyat işlərində də dövlət

siyasətinin əhəmiyyəti artdı və dövlət siyasətində edilən hər bir səhf özü ilə çox mühüm nəticələrə səbəb olurdu. Bu cür hallar üçün hökumətlərin fəaliyyətlərinin hərbi qüvvə, ərazi işğalları haqqında yanlış anlayışların təsiri altında ölkənin istehsaledici qüvvələrinin tam tənəzzülə gətirməyini və əhalinin maraqlarına ziyan verməyini nümunə kimi göstərmək olar.

Ticarət, sənaye və insanlar arasında rabitə vasitələri hər dövlətdə mərkəzləşmiş hakimiyyətə tabe olurdu. Hökumətlər müxtəlif qanunverici, inzibati xarakterli tədbirlərlə xalqların həyatının iqtisadi hadisələrinə bu və ya digər istiqaməti vermək imkanı alırdılar. Nəhayət, mənfəət sisteminin əsasları hazırlandı. Bu sistemin əsas qanunları bunlardır: xalqın var-dövləti onun dövriyyədə olan metal pulları əsasında müəyyənləşdirilir. Beləliklə, dövlətin ticarətini elə istiqamətləndirmək lazım idi ki, pullar mümkün qədər çox idxal və mümkün qədər az ixrac edilsin. İdxal və ixrac arasında fərq - dövlətin ticarətinin balansı adlanan - malların ixracı pula çevrildikdə ixracdan çox olduqda əlverişli hesab olunurdu, bu fərq digər millətlər tərəfindən sikkə ilə öədnilirdi. Bu suratlə, öz ticarət balansının yaxşılaşdırılması üçün dövlət başqa ölkələrinin mallarının üzərinə gömrük vergiləri qoymaqla və qadağa qoyucu tədbirlərlə onların idxalını çətinləşdirməli idi; eynilə xammalın, qızılın və gümüşün ixracını çətinləşdirmək də faydalı hesab olunurdu; buna baxmayaraq, ölkənin istehsaledici qüvvələri hər bir yolla özlərini qoruyurdular. Sənaye maddi yardım, güzəştlər və imtiyazların verilməsi ilə həvəsləndirilirdi, fabrik-zavod istehsalı olan məhsulların ixracı isə əsaslandırılırdı.

*"Sənin satdığın mallara və digər şeylərə dair sən hər şeyi yuxarıda qeyd edildiyi kimi edəcəksən, lakin bir fərqlə ki, sən qeyd edilmiş üsülun tam əksini edəcəksən. Mən yuxarıda sənə demişəm ki, malı özünün borcun etməlisən. İndi isə deyirəm ki, satış zamanı mal hər zaman nağd pulla satıldıqda vəkalət verəndir, xəzinə isə - borclu. Xəzinənin yerinə bank o zaman borclu olacaq ki, əgər bu sonuncu öz üzərinə sənə pulu ödəmək öhdəliyini götürübsə. Mal kreditə satıldıqda, malı verən şəxs borclu hesab edilir; malı qismən pulla, qismən kreditə satdıqda isə sən, artıq mən dediyim kimi,mənim yuxarıda qeyd etdiyim iki maddəni hazırlamalısan.*

Luka Paççoli

Bu sistem Fransa inqilabınadək, bəzən ondan sonra da Avropada üstünlük təşkil edirdi. Onun istifadəsinin birinci təcrü-

bələri hətta orta əsrlərin sonuna aid edilir. İngiltərədə Kromvel tərəfindən naviqasiya aktları XVII əsrdə tətbiq edilmişdi. Fransada hələ o vaxtı o, ölkənin iqtsiadi həyatının hətta ən xırda təfsilatları ilə idarə etmək istəyən nazir Kolberin timsalında güclü tərəfdarını tapdı. Almaniyada bu sistemi öz siyasətində V Karl idarə edirdi. Digər hökumətlər də belə edirdilər və hər yerdə belə fikir hökm sürürdü ki, pul xalqı başqa nemətlərdən daha çox varlı edir. Rusiyada mənfəətpərəstlik sistemi Böyük Pyotr zamanlarından hökm sürürdü.

Bu sistem elm dünyasında öz tərəfdarlarnı, əvvəlcə italyanlar arasında tapdı. Lakin, alimlər arasında pulun öz-özlüyündə var-dövlət mənbəyi olduğu fikrinin əleyhdarları da vardı; onlar bu mənbənin yalnız təbiətin məhsuldarlığı və insan əməyi olduğunu qəbul edirdilər. Onlar hökmranlıq edən fikirlərə müqaviməti fiziokratların əmələ gəlməsi ilə möhkəm zəmin aldı. Fiziokratların nəzəriyyələrinin əsas nöqtəsi torpağın becərilməsinin və təbii nemətlərin istifadəsinin xalqların rifahının əsası olduğu fikri idi. İlk əvvəl əkinçilik həvəsləndirilməlidir. İstənilən inhisarı və üstünlükləri ləğv etmək lazımdır; əmək və ticarət mübadiləsi artıq sıxışdırılmalardan azad olmalıdır. Dövlətin xalqın iqtisadi həyatını idarə etməyə nə imkanı var, nə də ki, bunu edə bilər; faydalı müəssisələr özləri yaranıb və inkişaf edirlər.

*İstehsalatda baş verən dəyişikliklər* çox böyük əhəmiyyət kəsb edirdilər. Əkinçilik feodal quruluşunun yaratdığı anormal şəraitlərin təzyiqi altında qalırdı. Kəndlilər, İngiltərə, Çin və müsəlman ölkələri istisna olmaqla, asılı, bəzən də kölə vəziyyətində qalırdılar. Torpağın becərilməsi vəhşi xarakter daşıyırdı. Bütün ölkələrdə geniş becərilməmiş torpaq sahələri var idi. Əkinçiliyə mühüm şəkildə yalnız bir neçə xalqın hökmdarları himayədarlıq edirdi. Bu Köhnə Dünyada idi; Amerikada əkinçilik yaxşı inkişaf edirdi. Yeni torpaqların kəşfi ilə birgə Köhnə və Yeni Dünyalar arasında müxtəlif heyvanlar və bitkilər mübadiləsi başladı. Amerikanın xam torpaqlarında Avropa təsərrüfatı qurulur və Avropada qarğıdalı, tütün, kartof və s. kimi bəzi Amerika bitkiləri qəbul olunub, becərilirdi. Bizim nəzər yetirdiyimiz dövr ərzində yalnız İngiltərə və Niderlandda əkinçilik inkişaf edirdi. Kənd təsərrüfatında qaydaların tam düzəlməsi yalnız Fransa inqilabından sonra baş verdi. Bundan əvvəl yaxşılaşma əkinçiliyin yalnız məhz texniki məqsədləri ilə bağlı: sahələrin yaxşı becərilməsi, tədricən intensiv təsərrüfata keçid, əkinçiliyin yeni gəlirli maddələrinin və maldarlığın zavod üsullarının daxil edilməsi məqsədləri ilə həyata keçirilirdi.

Fabrik-zavod və sənət istehsalatlarına yeni ölkələrəin kəşfləri çox az təsir göstərdi. Buxarın hərəkət verən qüvvəsinin istifadəsi ilə tam çevriliş baş verdi. Orta əsrlərdə olduğu kimi, yeni əsrlərdə də sex quruluşu üstünlük təşkil edirdi. Dəyişilmiş iqtisadi şəraitlərdə quruluş yükə çevrildi, xüsusən də, sex nizamnamələri zamana uyğun olan düzəlişlərin daxil olunmamasına və bütün sex quruluşunun ətrafdakı həyatla müqayisədə ölüyə bənzəməyinə görə. Sex qaydaları sənayenin inkişafına mane olurdu: usta biliklərinin əldə edilməsi çətinlikləri, təhsilin müddəti, ustaların həddindən artıq üstünlükləri, gələn sənətçilər üçün sexlərin qapalılığı, müxtəlif imtiyazlar, qarşılıqlı əlaqələrin əhəmiyyətsiz nizama salınması, iş ölçülərinin, formalarının və məmulatların keyfiyyətinin bölüşdürülməsi - bunların hamısı azad rəqabətin, istehsalatın geniş inkişafı üçün maneələr idi. Bundan əlavə sexlərdə heç əvvəlki korporativ həmrəylik də qalmamışdı; bunun yerinə ədavət və sui-istifadə gəldi. XVII-XVIII əsrlərdə aparılan uzunmüddətli və təkrar olunan müharibələr də Avropanın sənayesinə pis təsir göstərirdi.

Ticarətin inkişafının və onunla bərabər mənfəətpərəstliyin təyinedici faktoru, müstəmləkələrin, müstəmləkə siyasətinin inkişafı oldu. Tarixin bu mərhələsində mənfəətpərəst sistemə tam uyğun olaraq müstəmləkələrə çox böyük əhəmiyyət verilirdi. Bunun üçün kifayət qədər gücü olan bütün dövlətlər, bütün üsullarla mümkün qədər müstəmləkə yaratmaq üçün torpaq işğal etmək istəyirdilər. Əsasən də müstəmləkə mallarının istehsalı üçün yararlı, yəni Avropada istehsal edilə bilməyən və həqiqətən də gəlirli ticarət predmeti təşkil edən mallara çox dəyər verilirdi. Qədim zamanlarda müstəmləkələr xüsusi mühacirlərin təşəbbüsü ilə yaranırdı; indi isə, əksinə, müstəmləkə hərəkatında əsas təşəbbüs dövlətə aid olurdu, hətta, müstəmləkələr enerjinin və xüsusi sahibkarların pulunun sayəsində yaranırdılarsa belə. Vətənlərində dinlərinə görə təqib edilən mühacirlər tərəfindən əsası qoyulmuş bəzi ingilis müstəmləkələri buna istisna idi. Dövlətlər, müstəmləkələr yaradaraq, yerli təbii sərvətləri öz ölkələrinin xeyrinə istifadə etməyi, həmçinin bu və ya digər müstəmləkə mallarının ticarətinin inhisarından əldə edilən gəlirləri nəzərdə tuturdulur. Müstəmləkələrin maraqlarına isə təmamilə laqeydlik göstərilirdi. Bu və ya digər müstəmləkənin istismarı və ticarətinə üstünlüklər verildiyi ticarət cəmiyyətləri qurulurdu; bu cür cəmiyyətlər öz xüsusi hüquqlarından hədsiz dərəcədə sui-istifadə edirdilər. Rəqabətdən kənarda qalaraq onlar müstəmləkələrdə yerli istehsal malarının qiymətlərini süni şəkildə aşağı salır, Avropada isə eyni malların

qiymətini qaldırırdılar. Lakin qeyd etmək lazımdır ki, dənizçiliyin o zamanki çətinliklərini və təhlükəsini nəzərə alaraq müstəmləkələrdə imtiyaz verilməmiş qüvvətli cəmiyyətlər olmadan yaşamaq mümkün deyildi. Bununla belə, dövlət öz imtiyazlarını çox baha satırdı və bu da metropoliyalarda, dövlətin xərclərində vergiləri qaldırmadan keçinməyə imkan yaradırdı. Sonradan, dəniz ticarətinin xüsusi enerji tələb etmədiyində bu cür cəmiyyətlər əsasən, müstəmləkələrin əhalisi üçün çox çətin yük oldu.

Ticarətin intensivləşməsinə həm də rabitə yollarının inkişafı da kömək etmişdi. Quru yollar yalnız İngiltərədə və Hollandiyada qayğıkeşliklə qurulur və mükəmməlləşdirilirdi. Amma su yollarının yaxşılaşdırılması üçün cəhdlər edilirdi. Almaniya 1516-cı ildə *dövlət poçtunun* təsis edilməsi ilə bağlı çox böyük addım atdı. Poçt karetləri və yeni liman poçtunun minik kuryerləri yalnız alman şəhərləri arasında deyil, hətta İtaliya və Fransa ilə rabitəni dəqiqlikdə saxlamağa başladılar. Dövlət poçtunun yanında yerli poçt rabitəsi yarandı. Əlbəttə, bunun hamısına Almaniyanın pərakəndəliyi mane olurdu; buna baxmayaraq, irəli böyük addım atılmışdı. Məktubların göndərilməsi üçün nəhayət 1635-ci ildə asan poçt yarandı. XVI əsrin əvvəlindən bu iş qaydaya salındı və camaat həm məktubların göndərilməsi üçün asan poçtu, həm də sərnişin hərəkəti üçün poçt atlarından geniş istifadə etmək üçün imkan əldə etdi.

*Naviqasiyada* mühüm yaxşılaşmaların səbəbi böyük kəşflər dövrü oldu. Sahilkənarı gəmiçilikdən çox zəif və təhlükəli olduğuna görə imtina edilmişdi; kompas və dəniz xəritələri istifadəyə daxil oldu. Eyni zamanda gəmiləri, okeanlarda firtınalara davam gətirmələri üçün, böyük ölçüdə və möhkəm tikirdilər, kompasla hərəkət etmək daha çox dəqiqlik tələb etdiyindən yelkənlərin təchizatı, idarə edilməsi üçün təkmilləşmələr, mürəkkəbləşmələr tətbiq edilirdi. Gəmiçilər astronomiyada da böyük müvəffəqiyyətlərə nail olurdular; buna onları dəniz xəritələrinin daim düzəldilməsi və əlavə edilməsi vadar edirdi. Artıq XVII əsrdə okeanlarda kifayət qədər elmlə idarə olunan çox böyük gəmilər üzürdü.

Dənizçilik hərəkatının inkişafı naviqasiyaya dair daha yaxşı hüquqi anlayışlara səbəb olmalı idi. Böyük kəşflər dövründə elə fikir üstünlük təşkil edirdi ki, hansısa bir dövlətin təbəəsi tərəfindən kəşf olunmuş torpaq bu dövlətin mülkiyyətini təşkil edir. Bu fikir tədricən ayrı dövlətlərin müstəmləkələrinin artması və müstəmləkələrə gedən yolların bir-biri ilə kəsişməsi ilə birgə yox oldu. Müharibə aparan dövlətlərin düş-

məninin ticarət gəmilərinə olan münasibətləri çox zaman son dərəcə qeyri-müəyyən qalırdı və arası kəsilməyən mübahisələrin səbəbi olurdu. Dəniz hüququ xeyli ayrı müqavilələr və razılaşmalar vasitəsi ilə tədriclə tərtib edilirdi.

Ticarətlə bərabər *gömrük* də inkişaf edirdi. Gömrük siyasəti barədə fikirlər, qeyd edildiyi kimi, üstünlük təşkil edən mənfəətpərəst sistemindən və ümumiyyətlə, birtərəfli kommersiya anlayışlarından asılı vəziyyətdə idi. Hökumətlərin qayğısı dövlət gəlirlərinin çoxaldılmasına və bu ölkəyə mümkün qədər çox pul gəlb etmək tədbirlərinə cəmlənmişdi. Buna baxmayaraq, bu tədbirlər çox zaman bir-birinə zidd idi və gömrük vergi qoyulmasında müəyyənləşdirilmiş sistemi ilk dəfə Fransada 1664-cü ildə Kolber yaratdı. Ölkənin ticarət balansı haqqında fikirlərlə müəyyənləşdirilən xarici ticarətin üzərinə vergi qoyma ilə bərabər, həm də daxili vergi qoymalar da mövcud idi. Dövlətlər arasında ticarət müqavilələrinin bağlanmasında ən əsaslı siyasi məqsədlər üstün tutulurdu, bunun nəticəsində gömrük tarifləri həddindən artıq mürəkkəbləşir və müxtəlifləşirdi. Beynəlxalq əlaqələrin düzgün anlaşılması yox idi. Hələ onda bilmirdilər ki, müqavilələr bir dövləti digər dövlətə təqdim etdiyi və bir dövlətin digər dövlətdən gördüyü qarşılıqlı xeyirə əsaslanırdı. Bir dövlətin sənayesinin xaricilərin sayəsində inkişaf etməsi fikrindən irəli gələrək dövlətlər hər cür müqaviələlərdə öz vətəndaşlarına imtiyazlar təmin etməyə və rəqiblərin fərqlərini yox etməyə çalışırdılar. İngiltərə Kromvelin dövründə nümunə göstərirdi. Vergi qoymada xaricilərin ticarətini çətinləşdirməyə və özünkünə üstünlük verməyə çalışırdı. Pulların dəyişdirilmiş qiyməti daxili rabitə yolları və limanlarla istifadə hüquqları, losmanların, bazarların və s. istifadə qaydaları ticarət müqavilələri ilə müəyyənləşdirilirdi. Buradan da hər cür çətinliklər formaları yaranır, çünki istənilən nizamnamə yalnız bu və ya digər dövlətin vətəndaşlarına aid edilirdi. Nəzərdən keçirilən dövrdə institutlar ticarət hüquqları və öz tacir təbəqəsinin imtiyazlarının müxtəlif dövlətlərdə müdafiəsi məqsədi daşıyan konsullar çox böyük əhəmiyyət kəsb etməyə başlayırdı. O zamanlar mövcud olan imtiyazların çoxluğu və mürəkkəbliyi ilə bərabər konsulluqlar daimi müəssisələr kimi təsis edildiklərindən sonra, indikindən daha çox vacib idilər.

Eyni zamanda ticarət hüququ da inkişaf edirdi. Ticarətin və sənayenin inkişafı xüsusi qanunların qurulmasının vacibliyinə səbəb oldu. Müxtəlif ölkələrdə ticarət hüququnun əsasını hələ orta əsrlərdə yaranmış

ticarət ənənələri və bəzi sexlərin nizamnamələri təşkil edirdi. Ticarət hüququ tamamlanmış nizamnamə şəklində və sənayedə ilk olaraq 1763-cü ildə Fransada yaranmışdı. Bu dövrdə kreditin və kredit müəssisələrinin inkişafı əhəmiyyət aldı. Kredit orta əsrlərdə maneələrlə üzləşirdi - kilsə borc əvəzinə faizlərin yığılmasını pisləyirdi. Kilsənin bu məsələyə dair münasibətinin müəyyən dərəcədə yumşaldığından sonra ticarət krediti dirçəldi və vətəndaşlıq hüququ aldı, lakin o zamanların kommersiya şəraitləri səbəbindən geniş inkişafı nail ola bilmirdi. Yeni torpaqların kəşfi ilə şərait dəyişdi: yalnız geniş miqyasda həyata keçirilən müəssisələr üçün böyük kapital tələb olundu; müstəmləkə siyasəti üzündən qəflətən ortaya çıxmış böyük xərclərin ödənilməsi üçün hökumətlərin özlərinin xeyli borclara ehtiyacları var idi; bu şəraitdə kredit müəssisələrinə geniş və faydalı sahə açıldı. Lakin kredit müəssisələrinə tezliklə kifayət qədər fəaliyyət azadlığı verilmədi; hələ uzun zaman kredit əməliyyatlarında kapitalın artması cinayət əməli kimi qiymətləndirilir və sələmçiliyə qarşı yönəlmiş mürəkkəb qanunverici tədbirlərlə sıxışdırılırdı. Buna baxmayaraq, maliyyə hadisələrinin həqiqliyi kifayət qədər aydın göstərirdi ki, krediti sıxışdıran qanunlar öz məqsədlərinə uyğun gəlmirdilər, bütün öz ağırlıqları ilə faydalı bank müəssisələrinin üzərinə yıxılaraq və gizli sələmçilərin təqib etmə məqsədlərinə çətin satdıqlarına görə əks nəticələrə gətirirdilər. Fikirlərin dəyişilməsindən və kredit müəssisələrinin sıxışdırılmasının azalmasından sonra faiz məzənnəsi yalnız təbii-iqtisadi qanunlara tabe olaraq hər yerdə özbaşına düşməyə başladı, çünki kapital daha da artırdı və kredit işlərində təminat çoxalırdı.

Xüsusi bank müəssisələri bütün bu maneələrə baxmayaraq mükəmməlləşir və genişlənirdi, lakin tam mənalarını yalnız XIX əsrdə aldılar. İctimai bank müəssisələrinin artıq çoxdan İtaliya şəhərlərində mövcud olduqlarına baxmayaraq, daha ləng yayılırdılar. İctimai banklar sərrafların və şəxsi kontorların sui-istifadələri və sikkələrin həddindən artıq müxtəlif olması, keyfiyyətsizlikləri nəticəsində yarandılar. İlk olaraq bank əməliyyatları ictimai müəssisələrdən və xüsusi şəxslərdən əmanətlərin qəbul edilməsindən, onların əmanətçinin əmri ilə saxlanılmasından, hissələrlə və ya bütövlüklə verilməsindən ibarət idi. Banklar hər bir əmanətçiyə xüsusi hesab açırdılar. Nəticədə banklar onlara verilmiş məbləğin bir hissəsini qısamüddətli borc kimi verməyə başladılar. Beləliklə, kapitalistlər və kreditə ehtiyacı olan insanlar arasında vasitəçiyə çevrildilər. Bankların əmanət-

ləri qəbul etdikləri barədə şəhadətnamələri adlıdan adsız bank biletlərinə çevrildi; sonuncular camaat tərəfindən ödəniş aləti kimi istifadə olunurdu. Bank işinin inkişafında gələcək addım bank biletlərinin əmanətlər tərəfindən təmin olunandan artdığının buraxılması və ayrı ticarət şirkətlərinin dövlət istiqrazlarında, müəssisələrində iştirakı oldu, sonra isə banklar indi mövcud olan müxtəlif təşkilatı qəbul etdilər. Venesiyadan, Genuyadan və digər şəhərlərdən sonra, həm İtaliya, həm də Avropa şəhərlərində ictimai banklar təsis edilməyə başladı. Eyni zamanda müstəqilliyə və əməliyyat azadlığına banklardan daha tez nail olan sığorta müəssisələri əmələ gəldi. Biz görürdük ki, sığorta (dəniz və səyahətlər təsadüflərindən sığorta) artıq çoxdan var idi, Barselona və Brüqqe də mühüm inkişafa nail olmuşdu. XV əsrin sonlarına o, ümumi istifadədə idi. Oddan sığorta XVIII əsrdə yarandı, əməliyyatlarda sadə pul xırdalaması və köçürmə veksellər ilə ticarət üstünlük təşkil edirdi.

Artıq XIV əsrdə veksellərin istifadə edilməsi ən əsas avropa şəhərlərində çox əhəmiyyətli idi. Veksellər ilk növbədə yalnız köçürmə vasitələri oldu və bir insanın digərinə müəyyən məbləğ ödənilməsi barədə əmrdən ibarət idi. Sonradan veksellər əmtəə sazişləri zamanı istifadə etməyə başladılar və veksellərə artıq yalnız məbləğ deyil, həm də ödəniş müddəti də daxil idi. XV əsrdən yarmarka veksellər adət halını aldılar və onları hətta, xırda tacirlər də kredit vasitəsi kimi istifadə etməyə başladılar. Yarmarka veksellər Fransa yarmarkalarında əmələ gəldi. XVI əsrdə yenə də Fransada həvalə qeydləri (indosament) adət oldu, bu da veksellərə onların ödəniş alətləri olduqlarından ticarətdə daha böyük əhəmiyyət kəsb etdi. Veksel sahibi kreditora sonuncunun razılığı ilə nağd pulla deyil, onda olan veksellər vasitəsi ilə onların üzərinə xüsusi qeyd qoyuraq ödəniş aparırdı. O zamanlara qədər veksel yalnız veksel verən və vekselin mətnində qeyd olunmuş şəxslər arasında ödəniş vasitəsi idi; indossamentin istifadəsi ilə veksellər müddətin sonuna kimi əldən-ələ ödəniş vasitəsi kimi istifadə edilirdi. Veksellərdən istifadənin geniş yayılması bu cür işlərdə qayda-qanun yaratmaq üçün qanunverici tədbirlər tələb edirdi. Veksellər barədə ilk qanunlar İtaliyada (XVI) və Almaniyada (XVII əsrin əvvəlində) meydana gəldi.

Tacir təbəqəsinin vaxtaşırı ticarət sazişləri üçün yığıncaqları bəzi mərkəzlərdə hələ XIII əsrdə başlamışdı. Bu sazişlərin predmetləri əsasən mallar, barat veksellər, onların təchizatı, dəniz çatdırılmaları v i.a. idi.

Lakin yalnız XVI əsrdə birja və birja cəmiyyətləri qismən daimi təşkil forması aldılar və onların fəaliyyəti əhəmiyyətli dərəcədə genişləndi. Birjalarda mallarla əməliyyatlardan başqa əsasən pul və ya qiymətli kağızlarla ticarət gücləndi. Buna dövlət borclarına dair istiqraz vərəqələrinin əmələ gəlməsi səbəb oldu. Birjalarda dövlət borc öhdəlikləri ilə ticarət dövriyyələri bank işlərində geniş və gəlirli maddə oldu. Eyni zamanda daha çox müstəmləkə müəssisələrinin yalnız səhmdar əsasında yarana bildiyindən dövriyyədə səhmlər əmələ gəldilər. Səhmlərlə ticarət və onlarla spekulyasiya tezliklə bütün pul bazarlarında yayıldı. Bu vaxtdan birjanın *ticarət və pul birjalarına bölünməsi* başlandı. İlk fond birjaları XVI əsrdə Niderlandda, Fransada və İngiltərədə yaranmağa başladı. Bu birjalarda başçılıq edənlər əvvəl demək olar ki, ancaq italiyalılar idi.

***Pul dövriyyəsi*** xüsusi gediş aldı. Yeni əsrlər natural təsərrüatdan pul təsərrüfatlarına keçid dövrü idi. Bu cür keçid əvvəllər yalnız əsas ticarət mərkəzlərində qeyd olunurdu; indi isə ona hər yerdə rast gəlmək olar və yenicə kəşf olunmuş ölkələrdən gələn qızıl, gümüş axınına görə daha da rahatlaşdı. Əvvəlki istehsaledici qüvvələrlə birlikdə pulun dövriyyədəki çoxluğunun ticarət əlaqələrini, spekulyasiyaları və geniş var-dövləti son dərəcədə asanlaşdırdığına görə yeni ticarət şəraitini təmamilə dəyişmiş təmiz *pul kapitalı* yarandı.

Amerikada zəngin qızıl və gümüş yataqlarının kəşfi Avropa pul dövriyyəsində çevrilişə səbəb oldu. Nəcib metalların Avropaya axını çox əhəmiyyətli oldu. Əvvəlcə yalnız qızılın, sonra isə 1522-ci ildən etibarən gümüşün. Qızıl Vest-Hind və Mərkəzi Amerikadan, gümüş isə - Meksika, Peru və çox keçmədən Çilidən gətirilirdi. Sonra isə qızıl olan ölkələrin arasına Yeni Qreknada və Braziliya da daxil oldular. Qızılın və gümüşün Avropaya çox böyük axınının ilk nəticəsi mallara olan qiymətlərin tam dəyişməsi oldu; ümumiyyətlə, qiymətlər əvvəlkindən beş dəfə yüksəkldi. Əməkhaqqı nisbətən gec, ləng və qeyri-bərabər, əməyin növündən asılı olaraq dəyişdi. XVI əsrin əvvəllərinədək və orta əsrlər boyu Avropada nəcib metalların qiyməti daima qalxırdı.; XVI əsrin davamı olaraq isə əksinə, nəcib metalların qyiməti düşürdü, əvvəlcə yavaş-yavaş sonra isə sürətlə. Bu qiymətlərin əsas düşməsi 1560-cı ildən 1600-cü ilədək müşayiət olunurdu. Avropada daxil olan qızılın paylaşdırılması heç də nə xalqlar arasında, nə də ki, eyni xalqın təbəqələri arasında bərabər aparılmırdı. Müəssisələrin müxtəlif növləri daxil olan xəzinələrin hesabına tez

varlandılar, digərləri isə daha ləng və yaxud da ziyan çəkdilər. Qərb xalqlarının iqtisadi həyatında da çox böyük dəyişikliklər baş verdi. Xırda irsli zadəganların kasıblaması, proletariatın inkişafı, burjuaziyanın əhəmiyyətinin tez yüksəlməsi və onun zənginləşməsi - bunların hamısı baş verən dəyişikliklərin nəticəsi oldu.

Sikkələrin kəsişməsi hökumətlərin gəlirli maddələri hesab edilirdi; bunun nəticəsində sikkələrin nominal dəyəri, məzənnəsi və həqiqi qiyməti çəkisi ilə üst-üstə düşmüşdü. Bu səbəbdən pul dövriyyəsində ölkələrin siyasi pərakəndəliyindən, müxtəlif sikkə sistemlərinin mövcudluğundan və sui-istifadə edilmələrindən genişlənən qarışıqlar baş verirdi. Artıq 1524-cü ildə Almaniyada bu işi qaydaya salmaq üçün səylər göstərilirdi, lakin bunlar boşa çıxdı. XVI əsrdə İngiltərədə və Fransada bir neçə dəfə sikkə islahatları keçirilmişdi, lakin bunlar da nəticə vermədi. Fransada pul sistemi təmiz fiskal və yüksək dərəcədə ədalətsiz məqsədlərə xidmət göstərirdi. Qızıl və gümüşün qiymətlərinin nisbəti heç də stabil deyildi və 1:10-dan 1:15-dək olurdu.

*Mal ticarəti* kəşflər dövründən sonra bazarlara daxil olan malların sayının dəyişdiyinə görə dəyişdi; beləcə də çoxlu yeni ticarət predmetləri əmələ gəldi. Bu da yalnız yeni spekulyasiya üsullarının yaranmasına deyil, həm də xalqların kütləvi istehlakında da böyük dəyişikliklərə gətirdi və həyat tərzində də öz əksini tapdı. Daha aydın və gözə çarpan nümunələri şəkərə, qəhvəyə, tütünə və çaya aid etmək olar.

Hindistanda hər zaman yetişdirilən şəkər qamışı artıq XV əsrdə idxalın çox vacib maddəsini təşkil etsə də, şəkərin ümumi istehlak malı olması səbəbindən yalnız Şərqdən idxal olunurdu və çox baha başa gəlirdi. 1520-ci ildə şəkər qamışı San-Dominqo adasında yetişdirməyə başladılar və iş elə müvəffəqiyyətlə gedirdi ki, ən qısa zamanda Vest-Hind şəkər qamışının «vətəninə» çevrildi. Sonradan şəkər plantasiyaları Braziliyada, Şimali Amerikada və bir çox adalarda əmələ gəldi. Bundan əlavə qamışın ən yaxşı növləri tapılmışdı, yetişdirmə üsulları təkmilləşdirilmişdi və bu səbəbdən yığımlar xeyli artmışdı. Vətəni Afrikanın şərq sahilləri sayılan qəhvə hələ çox qədim zamanlarda həbəşlər tərəfindən istifadə olunurdu. Artıq XV əsrdə qəhvə Ərəbistanda çox böyük miqdarda yetişdirilir və istifadə olunurdu. Avropaya o, XVI əsrdə türklər vasitəsi ilə daxil olub. XVII əsrdə qəhvə bütün Levantedə geniş yayılmış və sevimli içki hesab olunurdu. Həmin əsrin ikinci yarısında qəhvə artıq orta Avropanın varlı insanlarının adi içkisi idi. Yavada qəhvə kollarını 1650-ci ildə hollandlar

əkiblər. Vest-Hindistanda onu fransızlar calaq ediblər. Tədricən qəhvə tarlaları bütün tropik ölkələrə gəldi, böyük istehsalı nəticəsində onun qiyməti sürətlə aşağı düşdü və qəhvə artıq geniş insan kütləsi üçün əlçatan oldu. Çay ilk dəfə Avropaya XVI əsrin sonunda hollandlar və portuqallar tərəfindən gətirilib; eyni zamanda çay Çindən Rusiyaya əvvəlcə tatarlar, sonra isə sibirlilər vasitəsi ilə gətirildi. Qərbi Avropada çayın istehlakı XVIII əsrə qədər aşılanmamışdı və çay yalnız apteklər üçün müalicəvi bitki kimi gətirilirdi; buna baxmayaraq, Moskvada artıq 1674-cü ildə çay varlı tacir təbəqəsi arasında artıq kifayət qədər adi içki növünə çevrildi. Çayın istehlakı Rusiya və İngiltərədə əhəmiyyətli ölçülərə çatanda ingilislər çay tarlalarını öz müstəmləkələrində yetişdirmək üçün çox böyük cəhdlər göstərirdilər; lakin qəhvə yetişdirməsinə baxmayaraq, çayla buna müvəffəq ola bilmədilər və çay kolları yalnız Seylonda və qismən də Cənubi Amerikada yaxşı qəbul olundu. Kakao istehlakı ilə ispanlar Meksikada tanış olublar. Nəzərə alınan mərhələnin sonuna kakao artıq miqdarda ispanlar və italyanlar tərəfindən istehlak olunurdu. Kakao tarlaları bütün Vest-Hindistan, Cənubi Amerika, Yavada və Borneo adasında yayılmışdı.

Tütün ilk dəfə Avropaya portuqallar tərəfindən və ehtimal edildiyinə görə Braziliyadan gətirilmişdi. Əvvəlcə bitki müalicəvi və qismən də bağçaların bəzənməsi üçün nəzərdə tutulurdu; onun çəkilməsi isə xaricilərdən bunu öyrənmiş matroslar vasitəsilə təxminən 1586-cı ildə başlanmışdır.

Avropanın demək olar ki, bütün xalqları özlərini qul ticarəti ilə ləkələdilər: portuqallar, ispanlar, fransızlar, ingilislər, almanlar, danimarkalılar, isveçlilər qul alveri ilə məşğul idilər. Onlar zənciləri Afrika sahillərində və Afrikada buna öyrəncəli olan ərəb və yerlilər kimi agentlərdən alırdılar. Zəncilər yalnız Vest-Hindistan və Cənubi Amerikadan deyil, Şimali Amerikanın

> *"Bank işinin Renessans dövründə inkişafı ilə yeni sivilizasiya növü yaranmağa başladı. O, yeni düşüncə tərzi və kommersiya həyatının yeni təşkilat üsulları ilə fərqlənirdi. İki Amerikayada Avropa hegemonluğunun yayılması ilə eyni zamanda avropalılar heç vaxt heç bir xalqın əldə etmədiyi daha çox var-dövlətə nail oldular. Yeni var-dövlət yeni maliyyə institutları ilə birləşmədə unikal hibrid sistemini yaratdı, və bu sistem gələn beş əsr ərzində, Birinci dünya müharibəsinədək üstünlük təşkil edirdi."*
>
> D. Vezerford

müstəmləkərindən də alınırdı. Virciniyada qul əməyi 1640-cı ildə tətbiq edildi. Qaradəli qulların əsas tədarükçüsü əvvəl portuqallar, sonra isə hollandlar idi. Artıq XVI əsrdə ispanlar qullarla məşğul olmurdu, lakin həvəslə onları yerlilərdən alırdılar. İngilislər Kraliça Yelizaveta dövründə səylə qul alveri ilə məşğul olurdular; Liverpul şəhərinin var-dövlətinə bu sənət səbəb oldu. Yalnız XVIII əsrin ikinci yarısında quldarlığa qarşı hərəkət başladı və qul ticarəti mətbuatda və xalq yığıncaqlarında damğalamağa başlandı.

Bu münasibətdə nümunəvi olan ölkə İngiltərə idi. XV əsrdən başlayaraq, ingilis tacirləri nüfuzlu genuyalılarla, Hanza üzvləri ilə rəqabət aparmağa başladılar. Eyni zamanda əkinçiliyin və fabrik fəaliyyətinin şəraitlərini asanlaşdırmağa istiqamətlənmiş qanunverici tədbirlərin sayəsində İngiltərənin *sənaye həyatında* canlanma başladı. İngiltərənin bütün münasibətlərdə iqtisadli inkişaf başladı, əsasən də dənizçilikdə tərəqqi müşayiət olunurdu. Hanza üzvlərinin imtiyazları alındı, onlar buna cavab olaraq öz şəhərlərindən ingilis tacirlərini qovandan sonra, onların Londonda yerləşən ticarət sarayları bağlandı (1598-ci il) və bu zamanlardan İngiltərənin ticarət müvəffəqiyyətləri dövrü başlandı.

Kraliça Yelizavetanın səmərəli fəaliyyəti sayəsində ingilis ticarəti hər cür həvəsləndirilirdi. Qısa bir zamanda ingilislər Moskvanın vasitəsilə İranla, sonra isə Kiçik Asiya xalqları, Levant, Afrikanın qərb sahillərinin əhalisi ilə ticarət əlaqələri qurdu. Onların vətəgəçiləri Nyu-Faunlend çaylarında treska ovunda iştirak etdilər və orada ispanlar və fransızlarla uğurlu rəqabət aparırdılar. Ən gözə çarpan canlanma ingilis mahudunun və yunun göndərildiyi Antverpendə ticarət əlaqələrində hiss olunurdu. Böyük səhmdar şirkətləri yarandı - rus, türk-levanta şirkətləri. Sonradan məşhurlaşmış *Ost-Hind şirkəti də* öz ilk şəklində Kraliça Yelizaveta dövründə yarandı.

Oliver Kromvel dövründə (1653-1658) İngiltərə üçün bundanda əlverişli zamanlar başladı. Öz vətənpərvərliyində olduğu kimi, dini təsəvvürlərində də təəssübkeş olan Kromvel dövlət işlərində çox soyuq və mühakiməli idi, o, İngiltərənin nüfuzunu artırmaq və onun gücünü möhkəmləndirmək, əhalisini zənginləşdirmək üçün çox şey edirdi. O öz məşhur naviqasiya aktları ilə (1651-ci il) hollandların uğurlarını dayandırmağa müvəffəq oldu. Bu aktlarla malların ingilis müstəmləkələrinə idxalı yalnız ingilis gəmilərində və ingilis ekipajı ilə həyata keçirilməsinin mümkün olduğu; Avropadan kənar malların İngiltərəyə yalnız ingilis gəmilərində və ingilis istehsalçıları tərəfindən idxal olunması; çox malları,

hətta onların istehsal olduğu yerlərdən yalnız ingilislər tərəfindən götürülə bilməsi; ingilis vətəndaşlarının ovladığı balıqlar İngiltərəyə idxal olunduqda üzərinə ikiqat vergi qoyulduğu; ingilis müstəmləkələrinin istehsal əşyalarının yalnız İngiltərəyə ixrac oluna bilindiyi və s. müəyyənləşdirilirdi. Bu tədbirlərin İngiltərənin rəqibləri tərəfindən də götürüldüyünü nəzərə alaraq demək olar ki, bunların hamısı çox vaxtlı və İngiltərə üçün faydalı idi. Hollandiya ilə mübarizədə ingilislər qalib çıxdılar. Lakin Kromveldən sonra ingilis hökumətləri bu cür siyasətin tələb etdiyi bütün enerjilərini istifadə etmirdilər, güzəştlər başlandı və ingilis ticarətinin uğurları saxlanıldı. *Buna baxmayaraq, İngiltərənin iqtisadi gücü elə bərkimişdir ki, ayrı-ayrı səhvlər onun ticarətinin və sənayesinin ümumi inkişafını dayandıra bilməzdi.*

Raal tərəfindən Şimali Amerikada əsası qoyulmuş (1585-ci il) ingilis müstəmləkəsi genişlənir və möhkəmlənirdi. Artıq II Karlın dövründə qiymətli malların, əsasən xəz və tütünun gətirildiyi Şimali Amerikanın bütün şərq sahili ingilislərin hakimiyyəti altında idi. Lakin artıq onda malların müstəmləkələrdən yalnız metropoliyaya ixrac edilməsinə icazə verən müstəmləkə sisteminə ciddi riayət edilməsinə, Şimali Amerika müstəmləkələrinin narazılığının və gələcək ayrılmasının başlanğıcı qoyulmuşdu. İngilislərin Ost-Hinddəki əldə etmələri daha qiymətli idi. 1600-cü ildə imtiyazlı səhmdar cəmiyyəti orada bir neçə ingilis müstəmləkələrinin əsasını qoydu, müntəzəm olaraq yerli hökmdarları və farsları portuqallarla mübarizədə müdafiə etməyə başladılar, yerli əhaliyə yaxşı münasibətlərinin sayəsində çoxsaylı müttəfiqlərin yardımlarını əldə etdilər. İngilis ticarəti tam çiçəklənməsinə III Vilhelmin dövründə (XVII əsr) çatdı. Ölkə hökumətə və parlamentə öz fəaliyyətlərini tamamilə İngiltərənin material yaxşılaşmasına yönəltməyə, qaydanı isə vətəndaş azadlığının və ədalətin möhkəm prinsiplərinə əsaslanmağa imkan yaradan yeni konstitusiya ilə barışdırılmışdı. İngilis fabrik istehsalının yüksəldilməsi üçün fransız mallarının idxalı qadağan edilmişdi; eyni qadağalara və üzərinə çox yüksək vergilərin qoyulmasına sonradan bütün İngiltərə istehsal etdiyi mallar məruz qaldılar. Hətta Hindistandan gətirilən ipək və kağız məmulatları da qadağan idi. Eyni zamanda İngiltərədə emal edilə bilən istənilən xammalın İngiltərədən ixracı qadağan idi; buna baxmayaraq, bu cür xammalın idxalı həvəsləndirilirdi və ən əsas həvəsləndirici forma isə fabrika sahiblərinə materiallara görə ödədikləri vergilərin qaytarılması di, lakin bunun hamısı bu materiallardan hazırlanmış hazır məmulatların ölkədən ixracı zamanı

həyata keçirilirdi. Müstəmləkələrə münasibətdə isə tədbirlər İngiltərə üçün əlverişli olan himayədarlıq sisteminə uyğun keçirilirdi: müstəmləkələrdə sənayenin çiçəklənməsi süni şəkildə dayandırılırdı; müstəmləkəçiləri İngiltərəfə öz xammallarını göndərmək üçün və yalnız İngiltərədən hazır fabrik mallarını almaqları üçün məcbur edən tədbirlər icad edilirdi. Eyni zamanda xaricilərin ticarətini çətinləşdirmək üçün üsullar axtarılırdı; beləliklə, Amerika müstəmləkələrindən meşə materiallarının Rusiyadan deyil, öz müstəmləkələrindən gətirilməsini artırmaq üçün bu materialların idxalına mükafatlar təyin edilmişdir. Portuqaliya ilə İngiltərəyə üçün əsasən əlverişli olan *Metuen müqaviləsi* bağlanmışdır, bu müqaviləyə əsasən portuqallar öz şərablarının İngiltərəyə idxalı üçün yalnız bir neçə asanlaşdırmalar qazandılar, bunun əvəzində isə bütün ticarətlərini ingilistəlrin əllərinə verdilər.

Heç bir himayədarlıq tədbirləri ingilis sənayesini yüksəltmədi. İngiltərəfə Fransadan çoxlu sayda varlı və zəhmətkeşsevən protestantların köçürülməsi (1685-ci ildə) ingilis sənaye qüvvəsini əhəmiyyətli dərəcədə artırdı, bu mühacirlər xeyli yeni sənaye sahələri yaratdılar. Birmingem və Şeffild öz metal məmulatları ilə məşhurlaşdılar; polad, qalay, qurğuşun, şəkər, duz və kağız İngiltərədən böyük gəlirli ixrac əşyaları oldu. İngilis sənayesini daha yaxşı nəticələri özləri ilə iplik istehsalı və toxuculuq sənayelərində icadların səbəbi oldu. Tezliklə yeni yaranan ingilis fabrikləri üçün xammal daşınması artıq bütöv *ticarət donanmasını* daimi işlə təmin etməyə başladı. Həmçinin, müstəmləkələrdən İngiltərəyə idxal olunan və sonra qismən xarici ölkələrə ixrac olunan *müstəmləkə mallarının ticarəti də fasiləsiz* inkişaf edirdi (əsasən, şəkər, tütün və düyü istehsalı), İngilis gəmiləri isə Şimali Amerika və Vest-Hindistanla əlaqələrini saxlayırdılar. Vest-Hindistana, Pireney yarımadasının ölkələrinə olduğu kimi, Şimali Amerikadan əksərən kənd təsərürfatı malları idxal edilirdi. İngilis müstəmləkələri getdikcə, əsasən İspariya və Fransa ilə qələbə çaldığı müharibələrdən sonra genişlənirdi. Fransızlardan ingilislərə Kanada, Nyu-Faundlend və Vest-Hindistanda yerləşən bəzi müstəmləkələr; ispanlardan Hibraltar keçdi. Ost-Hində ingilis şirkəti potruqallar və hollandlar ilə uğurlu mübarizə aparırdı. XVIII əsrin birinci yarısında Ost-Hind şirkəti ilə bəzi xarici cəmiyyətlər rəqabət aparmağa başladılar, lakin sonradan Britaniya şirkəti yerli hökmdarların zəifliyinin və düşmənçiliyinin sayəsində demək olar ki, qüdrətli bir cəmiyyətə çevrildi, onunla mübarizə aparmaq

hətta güclü cəmiyyətlər üçün belə çətin idi. 1765-ci ildə Ost-Hind şirkəti bütün Hindistanı özünə tabe etdi.

İngiltərənin siyasi gücü artırdı. 1750-ci ildə onun donanması dənizlərdə hökmranlıq edirdi. XVIII əsrin müharibələrində ingilislər yalnız dənizdə və ya müttəfiqlərinə maliyyə dəstəyi göstərərək iştirak edirdilər; hər bir əlverişli məqamda, əsasən də sülh sazişlərinin bağlanmasında onlar öz ticarət rəqiblərini gücdən salmaq və öz ticarətlərinə yeni üstünlüklər vermək üçün tədbirlər görürdülər. Əsrin ikinci yarısında İngiltərə Avropanın, Amerikanın ispan müstəmləkələri ilə ticarətində son dərəcə əlverişli mövqe tutmağa və öz Vest-Hind ticarətinin tam çiçəklənməsinə müvəffəq oldu. Möhkəm qurulmuş nəzarətin sayəsində İngiltərənin daxilində əhalinin və müxtəlif istehsalatların rifahı yaxşılaşırdı. London Avropa, Hindistan və Amerika ilə ticarət əlaqələrinin mərkəzi olaraq qalırdı. Ticarət mənasında xüsusi əhəmiyyəti İngiltərənin özündə yerləşən sənaye şəhərləri kəsb edirdi (Mançester, Lids, Birmingem, Şeffild); Şotlandiyada həm ticarət, həm də sənaye baxımından Qlozqo şəhəri geniş inkişaf etmişdi. Britaniya əhalisinin həyat tərzi yaxşılaşmışdı; istehlakçılar ən yaxşı mallara və yüksək rahatlığa öyrənmişdilər, bunun nəticəsində tələbatlar xeyli artmışdı. Göstərilmiş misallar mənfəətpərəstlik dövründə ticarətin inkişafının çətin prosesinə şahid olmağa şərait yaradır. Və eyni zamanda ticarətin həyatın bütün sahələrini əhatə edən sistem təşkil edən əsasının genişliyinə inandırır.

Yeni qaydalar təklif edən sistemi müzakirə etmək, heç də asan iş deyil. Onu inkişaf yolu boyu izləmək, onun bütün yeniliklərinin səbəblərini və nəticələrini təhlil etmək, onun dəyişmək istədiyi fikrinə görə baş verəcək hadisələri müqayisə etmək, qurban verilən maraqları ölçmək, nəzərdə tutulan gəlirləri qiymətləndirmək və nəhayət, mümkün qədər onun heç bir müsbət xüsusiyyətini, rahatsızlığını unutmamaq lazım gələcək. Təbii ki, belə araşdırma planını təqdim etmək olar: azad ticarət sistemi eyni zamanda bütün beyinlərə sahib olmaq istəyən fəlsəfi nəzəriyyə və öz marağını faktlar sahəsinə daxil etməyə çalışan praktik sistemdir. Elə görünür ki, onun qiymətləndirməsi qaydada aydınlıqda və ayrılıqda öyrənildikdə, nəzəriyyə kimi tətbiq edildikdə, nəticədə udacaq. Nəzəriyyə kimi, azad ticarət sistemi bu hədsiz sistemin bəhrəsi kimi beynəlxalq ticarəti azadlığın inkişafının yüksək nöqtəsinə çatdırmaq iqtidarında olan əsasların tapılmasını nəzərdə tutur; o, bəşəriyyətə tarixdə bənzəri olmayan rifah və mənəvi mükəmməllik dövrü təklif edir; nəhayət, dünya onun qəbul etdiyi qaydalarla uyğunlaşsa, onun təyinat planı tələb etdiyi kimi azad, xoşbəxt və maariflənmiş olacaq. Bu əla binanın bünövrəsi nə dərəcədə möhkəm olacaq - əsas məsələ də elə budur. Lakin azad ticarət sistemi onun tərəfdarlarının gözündə iqtisadçı-filosof üçün yalnız idealdır; bu hər bir ada layiq olan

dövlət adamının həyata keçirilməsinə can atdığı idealdır. İngiltərə yol açdı: azad ticarət sisteminin müdafiəçiləri deyirlər ki, qalan millətlərin hamısı rifahın, əzəmətin aşkar və qiymətli gəlirlərindən imtina etmək istəmirlərsə onun dalınca bu yola can atmalıdırlar. Bu çevrilişin nəticələri necə ola bilərdi. Başlanğıc nöqtəni nəzərə alsaq dünyanın müasir iqtisadi durumu K.Quronun fikrinə görə, fəal müzakirənin mövzusudur. Daxil olmuş ticarətin inkişafının məhz bu yolu onun həm nəzəri, həm də praktiki əhəmiyyətini göstərir.

## 6. TİCARƏTİN MODERNİN İCTİMAİ EYNİLİYİNDƏ TƏKAMÜLÜ

Yeni Dünya – Amerikanın kəşfi avropalıların hind ədviyyatlarına can atmalarının, istilası və yiyələnməsi isə onların qızıl və gümüşə olan tamahkar hərisliyi sayəsində baş verdi. Böyük coğrafi kəşflər ticarət kapitalının nəticəsi oldu və öz növbəsində onun gələcək inkişafına çox böyük, mühüm dərəcədə təsir göstərdi. Ticarət kapitalı *kapitalın tarixi başlağıc formasıdır.* Bu formadan tədricən sənaye kapitalı əmələ gəldi.

İqtisadi siyasətin və iqtisadi fikrin XV-XVII əsrlərdə (və əhəmiyyətli dərəcədə XVIII əsrdə) əsas istiqaməti mənfəətpərəstlik oldu. Onun mahiyyətini mümkün qədər qısa izah etməyə çalışsaq, o zaman bu barədə: iqtisadi siyasətdə – ölkə və dövlət xəzinəsində qiymətli metalların hər cür yığılması; nəzəriyyədə - dövriyyə sahəsində iqtisadi qanunauyğunluqların axtarışı (ticarətdə, maliyyə dövriyyəsində) demək olar.

«İnsanlar metala görə məhv olur...» Qızıl fetiş kapitalist quruluşunnun bütün inkişafını müşayiət edir və burjua həyat tərzinin və düşüncə tərzinin əsas hissəsini təşkil edir. Lakin ticarət kapitalının üstünlük təşkil etdiyi dövrdə bu sənəmin parıltısı xüsusilə işıltılı idi. Baha satmaq üçün almaq - budur ticarət kapitalının prinsipi. Fərq isə sarı metal formasında anlaşılır. Bu fərqin yalnız istehsaldan (nəticədə əlavə edilən dəyər) və yalnız əməkdən irəli gəldiyi haqda hələ heç kim düşünmür. Xaricdə alınandan daha baha satmaq, merkantilizmin dövlət müdrikliyinin zirvəsi məhz bundan ibarətdir. Fərq isə yenə də dövləti idarə edən insanlar, onlar üçün düşünən və yazan insanlar tərəfindən, xaricdən ölkəyə gələn qızıl (və gümüş) şəklində təqdim olunur. Onlar deyirlər ki, ölkədə çox pul olarsa hər şey yaxşı olacaq. İlkin toplama terminini görünür ki, ilk dəfə Adam Smit istifadə edib: o yazırdı ki, əməyin məhsuldarlığının bir-biri ilə

bağlı olan istehsal sahələrinin inkişafına əsaslanan artmasının şərti kapitalın *ilkin toplanmasıdır.*

K.Marks «ilkin toplanma» adlandırılan bir anlayışdan danışır. İş ondadır ki, A.Smitin vaxtlarından bu termin iqtisadi elmdə möhkəmləndi və xüsusi ədəbli bir məna aldı: «Çox qədim zamanlarda bir tərəfdən zəhmətsevən, hər şeydən əvvəl qənaətcil, ağıllı seçilmişlər və digər tərəfdən, hər şeylərini, hətta, ondan da artığını kefə xərcləyən tənbəl səfillər... Elə oldu ki, birincilər var-dövlət topladılar, ikincilərin isə nəticədə özlərindən başqa satmağa heç nəyləri qalmadı», deyə alim yazırdı.

Beləliklə, nəticədə cəmiyyətdə kapitalistlər və muzdlu işçilər təbəqəsinin seçildiyi, kapitalizmin sürətli inkişafı üçün şəraitin yarandığı bütün bu proses Marksın müasirləri olan mütəfəkkirlər və alimlər tərəfindən iqtisadi idilliya kimi təsvir edilmişdir. Orada hüquq, ədalət, əmək müqabilində mükafatlandırılma, tənbəllik və israfçılığın cəzalandırılması hökm sürür.

Heç nə həqiqətdən uzaq ola bilməz. Əlbəttə, kapitalın ilkin toplanması - həqiqəti tarixi prosesdir. Lakin o həqiqətdə sərt silk mübarizəsi gedişində baş verirdi: zülm, zorakılıq və yalanla bağlı idi.

Bu kiminsə pis ixtiyarının, insanların zorakılığa olan «çoxdankı» meylinin və i.a. nəticəsidir? Xeyr, ilkin toplama gedişində obyektiv tarixi qanunauyğunluq özünə yol açırdı. Bundan əlavə, bu proses öz mahiyyətinə görə mütərəqqi idi və cəmiyyəti irəli aparırdı. *İlkin toplama* dövrü - istehsalatın nisbətən sürətli artımı, sənaye və ticarət şəhərlərinin yüksəlişi, elmin və texnikanın inkişafı dövrüdür. Bu min il durğunluqdan sonra gələn özü ilə mədəniyyətin və sənətin oyanışını gətirən intibah dövrüdür.

Lakin öz növbəsində köhnə feodal ictimai münasibətlərin dağıldığına və onların yerini yeni burjua münasibətlərinin tutduğuna görə elm də, mədəniyyət də bu dövrdə sürətlə inkişaf edə bilirdilər. Milyonlarla, qismən hələ yarıtəhkimçi, qismən artıq azad torpaq sahibləri olan xırda sahiblərin şəhər və kənd proletarilərinə çevrildiyi zaman idilliya barəsində söz ola bilməzdi. Dini pul olan kapitalist təbəqəsinin formalaşdığı dövrdə idilliya barəsində söz ola bilməzdi.

XVI əsrdə Qərbi Avropanın bir sıra ölkəsində - İngiltərədə, Fransada, İspaniyada – güclü kral hakimiyyəti olan mərkəzləşmiş milli dövlətlər yarandı. Bir əsr sürən mübarizə zamanı o baronların özbaşınalıqlarına qalib gəldi və özünə tabe etdi. Feodal dəstələri dağıdıldı,

feodalların əsgərləri və nökərləri «işsiz» qaldı. Bu insanlar muzdur olmaq istəmirdilərsə, onlar orduya və donanmaya gedirdilər, Amerikanın və Ost-Hindistanın əfsanəvi var-dövlətləri ümidi ilə müstəmləkələrə üz tuturdular. Lakin, onlar müzdür olaraq fermerləri və mülkədarları zənginləşdirirdilərsə, xaricə getdikdə onlar əsasən tacirləri, zəmindarları, gəmi sahiblərini zənginləşdirirdilər. Onların lap kiçik bir hissəsi «müvəffəqiyyət qazanırdı», zənginləşirdi, özləri tacirlərə və ya zəmindərlara çevrilirdilər. Digər böyük var-dövlət dəniz quldurluğu, birbaşa soyğunçuluq səbəb oldu.

Şəhərlər, sənətkar və ticarət burjuaziyası kralların baronlarla mübarizəsində müttəfiqi, arxaları idi. Şəhərlər kral hakimiyyətinə pul, silah və bəzən də bu mübarizə üçün adam verirdi. Təsərrüfat həyatının şəhərlərə hərəkəti feodalların hakimiyyətini və nüfuzunu sarsıdırdı. Lakin burjuaziya öz növbəsində dövlət hakimiyyətindən feodallara, «qara camaata» və xarici rəqiblərə qarşı öz maraqlarının müdafiəsini tələb edirdilər. Və dövlət bu köməyi göstərirdi. Ticarət şirkətləri və sənətkarlıq korporasiyaları krallardan müxtəlif imtiyazlar və inhisarlar alırdılar. Kasıbları sərt cəza qorxusu altında sahibkarlara işləməyi məcbur edən və yüksək əmək haqqı təyin edən qanunlar çıxarırdı. Şəhər, əsasən də ticarət burjuaziyasının maraqlarında iqtisadi mənfəətpərəstlik siyasəti həyata keçirilirdi. Çox hallarda mənfəətpərəst tədbirlər zadəganların maraqları ilə üst-üstə düşürdü, çünki onların gəlirləri hər halda ticarət və sahibkarlıq fəaliyyəti ilə bağlı idi.[50]

Hər bir sahibkarlığın başlanğıc və çıxış nöqtəsi sahibkarın sayəsində işçi tutduğu, emal və təkrar satış üçün mal aldığı pul kapitalına çevrilən puldur. Bu fakt mahiyyəti və mövzusu ölkəyə pul-qiymətli metallar gətirmək olan merkantilizmin əsasıdır.

Erkən merkatilizm dövründə bu tədbirlər primitiv idi. Xarici tacirləri yerindəcə bu ölkə daxilində malların satışından əldə etdikləri gəliri xərcləməyə məcbur edirdilər və hətta bunun üçün, bəzən gizli olan, xüsusi «gözətçilər də» təyin edirdilər. Qızılın və gümüşün xaricə aparılması təmamilə qadağan edilmişdi.

Sonra, XVII və XVIII əsrlərdə – Avropa dövlətləri daha çevik və konstruktiv siyasətə keçdilər. Hökmdarlar və onların məsləhətçiləri başa düşdülər ki, ölkəyə pul cəlb etməyin ən etibarlı üsulu - ixracat mallarının istehsalını inkişaf etdirmək və *ixracın idxalı ötməyinə* nail olmaqdır. Bu səbəbdən dövlət hakimiyyəti sənaye istehsalını tətbiq etməyə, manufakturalara himayədarlıq etməyə və onları yaratmağa başladı. Bu,

Fransada XIV Lüdoviq və Rusiyada I Pyotr dövründə belə idi. İngiltərədə dövlət öz manufakturalarını yaratmırdı, lakin tacirlərə və sənaye sahiblərinə mümkün qədər kömək göstərirdi.

> *"İngilis çox zaman qablaşdırmanı həddindən artıq ağır və möhkəm edir, xarici isə, əksinə, yüngül və rahat. İngilis əsasən ucuz və daha alçaq malların keyfiyyətdən asılı olmayan bəzəməni etina edir. O, ödəmələri tələb edir və öz xarici müştərilərinin kreditə olan ehtiyacları ilə hesablaşmır. O, reklamı etina edir. İngilis malları çox zaman çox yaxşı və çox bahadırlar. İngilis öz zövqünü bazara qəbul etdirir, və çox zaman ya özü istədiyi kimi təchiz edir, ya da ki, heç təchiz etmir."*
>
> V. Zombart

Merkantilizm siyasətində bu iki mərhələyə onun iqtisadi nəzəriyyəsində iki inkişaf mərhələsi uyğun gəlir. Erkən mənfəətpərəstlik, həm də *pul sistemi* adlandırılan, pulu ölkədə saxlamaq üçün inzibati tədbirlərin düzəldilməsindən kənara çıxmırdı. İnkişaf etmiş merkantilizm millətin zənginləşməsinin mənbələrini xəzinələrin primitiv toplanılmasında deyil, xarici ticarətin inkişafında və aktiv ticarət balansında (ixracın idxalı ötməsində) axtarır. Artıq «inzibati sevinc» onun üçün sələflərin «inzibati sevinci» yaddır. İnkişaf etmiş merkantilizmin nümayəndələri dövlətin yalnız, onların fikrincə, *təbii hüquq* prinsiplərinə uyğun gələn müdaxiləsini bəyənirlər. Təbii hüququn fəlsəfəsi XVII-XVIII əsrlərin siyasi iqtisadına vacib təsir göstərmişdi. Məlum dərəcədə bu elmin özü təbii hüquq fikirləri çərçivəsində inkişaf etmişdi. Öz mənşələrini Aristoteldən və digər antik mütəfəkkirlərdən götürmüş fikirlər, yeni zamanda başqa məna aldılar. *Təbii hüquq* filosofları öz nəzəriyyələrini abstrakt «insan təbiətdən» və onun «təbii» hüquqlarından götürürdülər. Bu hüquqların çox şeydə orta əsrlərin dünyavi və kilsə istibdadına zidd olduğuna görə təbii hüquq mövqeləri üzərində dururdular, bu da azadlığa və ticarət azadlığına gətirirdi.

Burada iki min il bundan əvvəl çarlıqdan əmələ gəlmələrini, uğurlarını və süqutlarını idarə edən əbədi qanunlarını təsvir edərək: «Elm insanı yaratmır, o insanı təbiət verdiyi şəkildə götürür», deyən Aristotelə müraciət etmək lazımdır. Budur dahinin sözləri, dərin mənalı olduqları qədər də sadədir, mütəfəkkirlərin bu sözlər barəsində düşünməsi heç də pis olmazdı. Həqiqətən, K.Quro yazırdı: «Dərkedilməyən dəlilik bütün ağıllıları əlinə alıb: hər yerdə insan nəslinin dəyişməsi üçün çalışırlar - dünyaya

olduğu kimi, Tanrının yaratdığı kimi, nəsillər və əsrlərlə düzəldiyi kimi baxmaq, gərək bağışlayasınız! Hansı düşüncələrə sahib olan insan bizim dövrdə bu fikirlərə qədər enə bilər? Hansı müəllif bu dərəcədə ixtiraçılıqdan məhrum ola bilər, özünə əziyyət vermədən onları müşahidə ilə ifa edə bilər? Aristotel, Nyuton, Monteskye və Küvye təbiəti sınaq vasitəsi ilə öyrənməyə çalışırdılar, indi isə sistemlərin təvazökar inşaatçısı sadəcə sizə təbiət üçün qanunlar icad edəcək və kim şübhə edə bilər ki, o onları hətta, yaxşı icad edə biləcək? Buradan da bizim əsrimizi karlaşdıran yeni ictimai, dini, siyasi nəzəriyyələrin saysız-hesabsız legionları, həqiqi həyatın tarixinin və tələbatlarının üzərinə əsaslanmayan nəzəriyyələr əmələ gəldi».[51]

Buna baxmayaraq, ticarətin azaldığını nəzərdə tutan merkantilizmin inkişafının baş verdiyi Maarifçilik dövrünün mütəfəkkirləri dövlətə müraciət edərək insanın təbii hüquqlarını, mülkiyyət və təhlükəsizlik daxil olmaqla, təmin etməyə qadir olan təşkilatı nəzərdən keçirirdilər. Bu nəzəriyyələrin ictimai mənası dövlətin burjuaz var-dövlətinin inkişafı üçün şəraitlərin təmin edilməsindən ibarət idi.

İqtisadi nəzəriyyələrin təbii hüquqla əlaqəsi sonradan merkantilizmdən klassik siyasi iqtisada keçdi. Lakin bu əlaqənin xarakteri dəyişdi, çünki klassik məktəbin (Fransada fiziokratlar, İngiltərədə smitianlıq) inkişafı dövründə burjuaziya dövlətin himayəsinə artıq az ehtiyac duyurdu və bundan əlavə, dövlətin təsərrüfata hədsiz müdaxiləsinə qarşı çıxırdı. Bu nəzəriyyələrin azad ticarət sistemi ilə xarici oxşarlıqları da şübhə doğurmur. Dünyaya onların fikrincə, şəxsi firavanlıqları üçün vacib olan yeni forma verməyə çalışaraq, onlar ticarətin azaldığını nəzərdə tutan geniş iqtisadi islahatın təşəbbüsçüsü və müjdəçisi olurlar. Düzdür, onların fikirləri utopizmdən uzaq deyil. Axı yer kürəsi, onların fikirləşdiklərinə görə, bir dövlət, bəşəriyyət - bir xalq, bütün yaranmış ölkələr - bir emalatxana və bir bazar təşkil etməli idilər. Onlar, millətlər və hökumətlər arasındakı fərqi ləğv edərək, dünyanın demək olar ki, lal xəritəsini çəkirlər. Bütün dünyada, ən azı ticarət baxımından, onlar nə Amerika, nə Fransa, nə İngiltərə, nə Türkiyə, nə Almaniya, nə İspaniya, nə İtaliya tanıyırdılar, onlar üçün yalnız bir ayrılmaz olan respublikanın milli maraqlarının qeydinə qalmayaraq, yalnız onları bir-birindən ayıran məsafələrin qısaldılması, rabitənin çoxalması, asanlaşması və ucuzlaşması, qarşılıqlı əlaqələrin genişlənməsi, siyasətin onların arasında qurduğu maddi və mənəvi maneələrin aradan götürülməsi barədə düşünən vətəndaşlar var. Məgər

həqiqi dünya bizə bu cür görsənir? O, hər bir milliyyətdən tam azadlıqda dəyərlərin dövriyyəsinin hansısa bir əyalətdəki kimi rahat və asan keçən bir bazara bənzəyirmi? Xeyr: dünya bizə öz milliyyətlərinin saxlanılmasına səydən, vətənpərvərlik adlanan anlayışdan irəli gələn xudbin maraqları olan, onlarla rəqabət aparan xalqlar təqdim edir. Bu maraqlar ölkənin fiziki və siyasi təsəvvüründən, iqlimindən, torpağın növündən, onun ölçülərindən, sülhsevən, döyüşkən, patriarxal, mədəni xəlqilik ruhundan; qitədə və ya adada yaşamağı, heyvan ovçusu, çoban həyat tərzi sürməsi, əkinçi, fabrikçi və ya tacir olması baxımından xalqın həyat tərzindən asılıdır.

Din, qəbilə, əhali, əfsanələr, siyasi və ictimai quruluş, qanunlar və adətlər – bunların hamısı milli maraqların fərqləndirilməsinə çox böyük təsir göstərir. Şəraitlər, məkan və zaman baxımından bazarlar mübarizəsi, xalqların rəqabəti, onların maraqlarının uyğunluğu və ya uyğunsuzluğu, - budur həqiqi həyatın ibarət olduğu və onunla yaşadığı. Onu azad ticarətin tərəfdarlarının təsəvvür etdiyi ticarət dünyası ilə bərabər qoyun, müqayisə edin.[52]

Eyni zamanda gerçəklik belədir: İngiltərədə pamfletlər və müştərək ərizələr, XVII əsrin 20-ci illərində ticarətə dair kommunikasiyada aparılan müzakirələr, əsrin sonuna qədər həyata keçirilən ingilis merkantilizminin əsas prisnipləri işlənib hazırlanmışdır. Xammalın ixracı (əsasən də yunun) qadağan idi, amma məmulatların ixracı isə həvəsləndirilirdi, həmçinin dövlət subsidiyaları tərəfindən də. İngiltərə sənayeçilərə ucuz xammal, tacirlərə - şəkər, ipək ədviyyat, tütünün tranzit və vasitəçilik ticarətindən gəlir verirdi. Xarici sənaye malların İngiltərəyə daxil olması yüksək idxal vergiləri ilə məhdudlaşdırılırdı, bu da rəqabəti zəiflədirdi və ölkənin manufakturların *(proteksionizm* siyasəti) yüksəlişinə kömək edirdi. Bütün dünyaya yükü çatdıran və ingilis ticarətini müdafiə edən donanmaya çox böyük əhəmiyyət verilirdi. Bu tədbirlərin ən əsas məqsədi ölkəyə qiymətli metalların axınını artırmaq idi. Lakin bilavasitə Amerika mədənlərindən qızılın daxil olduğu İspaniyadan fərqli olaraq, İngiltərədə pulun cəlb edilməsi siyasəti daha yaxşı nəticə verdi, çünki bu siyasətin üsulu sənayeni, donanmanı və ticarəti inkişaf etdirmək oldu. T.Menin nəzəri araşdırmalarının misalını nəzərə alaraq demək olar ki, mənfəətpərəstlik var-dövləti əsasən onu pul, qızıl və gümüş formasında görür. Onun təfəkkürü üzərində ticarət kapitalı nöqteyi-nəzəri təsir göstərir. Ayrı ticarət kapitalının pulu artımla götürmək üçün dövriyyəyə buraxdığı kimi, ölkədə

malların ixracını idxaldan artıq olmasını təmin edərək ticarətin vasitəsi ilə zənginləşdirməlidir. İstehsalatın inkişafı ticarətin genişlənməsi şəklində qəbul edilir.

Azad ticarətin inkişaf prosesini qiymətləndirərək K.Quro şikayətlənir ki, tarixin necə öyrənilməsinə baxmayaraq onun dərsləri heç vaxt belə pis anlanmamışdır. Bu bizi yolumuzdan çəkindirən şöhrətpərəstliyimizin və xülyalara olan zərərli hərisliyimizin nəticəsidir. Bizə elə gəlir ki, dünyada hər şey bizimlə birgə əmələ gəlib, bizdən əvvəl edilən hər şey yalnız bizim atalarımızın dərin cəhalətini təsdiqləmək üçün yararlıdır. Bizim yenidən başlama qızdırmalı hərisliyimiz var, əvvəlki əsrlərin qurduqlarının və işıqlandırdıqlarının hamısı bizə acınacaqlı görsənir; elə bir qədim müəssisə yoxdur ki, bizim təyinatımıza yararlı olsun; bəşəriyyətin əsrlər boyu qurduğu əsasla artıq öz zəmanəsini ötmüş və bizdən dəyişiklik tələb etdiyi kimi görünür. Din, hökumətlər, maliyyələr və bir sözlə, bizim əjdadlarımıza və bizim dahimizə olan inamımızın bu nifrətin nəticəsində təsir göstərmədiyi bir şey qalmalı - azad ticarətin tərəfdarları da bu sistemi istifadə edirlərmi? Onlar gömrüklərin ləğv olunmasını istəyirlər. Tarixi yada salın və siz, gömrüklərin təsisində və qorunmağında xalqın rifahını və əzəmətini görməyən bir nəfər də olsun inzibatçı və siyasətçi görməzsiz. Və daha artıq, dünya ticarətində şərəfli yer tutmuş hər bir xalq yalnız özünün gömrüklərlə müdafiə edərək uğurlar qazanıb, onları möhkəmləndirib və qoruya bilib. İsimləri və hadisələri xatırlamağa ehtiyac varmı?

III Eduardın, krallığın mahud fabrikantlarına verdiyi ilk imtiyazların sayəsində İngiltərənin saysız-hesabsız sərvətinin özəli qoyulduğu və bu millətin dənizdəki üstünlüyünə görə 1650-ci ilin məşhur dənizçilik aktına borclu olduğunu kim bilmir? Kimə məlum deyil ki, Mazarininin ölümündən sonra Fransanın sənayesi, ticarəti və donanması dünyada heç bir əhəmiyyət kəsb etmirdi və Kalber tək bir gömrük sisteminin köməyi ilə dövlətə tacir, hərbi donanmalar, balıq ovu, müstəmləkə və manufakturlar verdi ki, bunlar da ölkənin siyasi qüdrətinin mənbəyi oldu.

Lakin tezliklə bu böyük insanın sistemi unuduldu. Nant fərmanının ləğv olunması Fransa sənayesinə ağır zərbə vurdu: sistem Almaniyaya köçdü. Böyük kurfürst II Fridrix onu öz dövlətində tətbiq etmək üçün ona gömrüklərlə himayə edirdi. Bu Prussiyanın siyasi uğurlarının və sənaye qüdrətinin başlanğıcı oldu. İnqilab baş verir, Napoleon gəlir. O, Fransada hər bir şeyin olduğu kimi, sənayenin də bərbad olduğunu görür: 1786-cı ilin

ağılsız və biabırçı traktatı Fransız fabriklərini İngiltərəyə təslim edərək, onun son qalıqlarını məhv etdi. Birinci konsul gömrükləri bərpa edir; kontinental sistemin nəticəsində imperatorun siyasəti daxili sənayenin himayəsini son həddə çatdırır. Yeni bərpa olunmuş Fransız sənayesi böyük uğurlar əldə edir və bu müdafiə nəticəsində bütün Avropada Manufakturlar inkişaf edir və o öz sərvətini on dəfə artırır. Azad ticarət sisteminin ilk xarici araşdırmasını əsas təməlini bu sözlərlə anlatmaq olar: «Azadlıq öz təbii inkişafı buraxılmayanadək hər hansı bir maneənin onun inkişafını məhdudlaşdıranadək, bu maneəni aradan götürmək məqsədi güdən hər bir çevrilişə dəyişiklik bəşəriyyət üçün bir xeyirxahlıqdır». Lakin bu «xeyirxahlıq» necə baş verirdi? Onun maddi və nəzəri ilkin şəraitləri nədir.

## 7. BAZAR İQTİSADİYYATININ FORMALAŞMASINA MERKANTİLİZM AKTİVLƏRİ

İqtisadiyyat əsərləri az və ya çox dəqiqliklə məqsədlər güdür: bu və digər təsərrüfat tədbirlərini, metodlarını, siyasətini əsaslandırmaq. Lakin merkantilistlərdə bu praktiki məsələlər xüsusi üstünlüklər təşkil edirdi. Merkantilist müəlliflər hər hansı bir iqtsiadi baxışlar «sistemi» yaratmaq istəyindən çox uzaqdırlar. Lakin iqtisadi düşüncənin öz məntiqi var. Və merkantilistlər vaxtaşırı «əmtəə, pul, gəlir, kapital» kimi anlayışlardan istifadə edirdilər. Hər necə olsa, onlar bu anlayışların arasındakı səbəb əlaqəsini tapmaq istəyirdilər. Bu artıq yeni yanaşma idi. Lakin məlumdur ki, yenilik hər zaman çətinliklə həyata keçir. Və XVII əsr mütəfəkkirlərinin nailiyyətlərini qiymətləndirərək biz onların qarşıladığı böyük çətinlikləri unutmamalıyıq. Böyük İngilis materialist filosofları Frensis Bekon və Tomas Hops təbiətə, cəmiyyətə yanaşma üzərində yeni işə başlamışdılar. Bu yanaşma elmin əsas məqsədini onların obyektiv qanunauyğunluğunu aşkar etməli idi. İqtisadi düşüncədə, əsrlərlə kök atmış dini etik prinsiplərə qalib gəlmək lazım idi. Əvvəllər, əsas məsələ iqtisadi həyatın hansı tərəfi müqəddəs kitabda yazılanlara uyğun olmalı idi. İndi isə həqiqətdə nə var və «cəmiyyətin zənginləşməsi» maraqlarında bu həqiqətlərlə nə etmək olar.

Böyük coğrafi kəşflər və ticarətin artması üfüqləri genişləndirsə də, insanların dünya haqqında bilgiləri çox az idi. Və təkcə dənizlərin o tayındakı ölkələr haqqında deyil, hətta İngiltərənin coğrafi, iqtisadi təsviri

belə dəqiq deyildi, onda çoxlu səhv, cəfəngiyyat var idi. İqtsiadi araşdırmalar pionerlərin ixtiyarında çox az faktlar və heç bir statistik məlumatlar yox idi. Lakin həyat bəşəri işlərə hökmranlıqla yeni bir baxış tələb edirdi və insan əqlini yeni sahələrə yönəldirdi.

Merkantilizm heç bir ölçüdə spesifik ingilis hadisəsi deyildi. Pul toplamaq, himayədarlıq və təsərrüfatın dövlət reqlamentasiyası siyasəti XV-XVIII əsrlərdə bütün Avropada - Portuqaliyadan Moskvayadək keçirilirdi. Merkantilizm siyasəti Fransada öz inkişaf etmiş formalarını XVII əsrin ikinci yarısında qüdrətli nazir Kolberin vaxtında almışdı. Merkantilizm nəzəriyyəsini italyan iqtisadçıları böyük uğurla işləyirdi. Əgər ingilislərin merkantilizm haqqında hər bir traktatının başlığına «ticarət» sözü yerləşdirilirdisə, italyanlılarda bu söz «pul» və «sikkə» sözüdür. Bölünmüş İtaliya üçün pul və onun kiçik dövlətlər arasında mübadiləsi böyü kəhəmiyyət kəsb edirdi. Almaniyada merkantilizm onun kameralistika adlanan formasında XIX əsrin əvvəllərinədək iqtsiadi doktrina olmuşdur.

Lakin merkantilizm ideyalarının işlənməsində aparıcı rolu ingilis iqtisadçıları oynamışlar. Bu İngiltərə iqtisadiyyatının güdrətli iqtisadiyyatının inkişafı və İngilis burjuaziyasının yetkinliyi ilə izah olunur.

Adam Smit merkantilizmə baxışı mövhümatçılığa oxşatmışdır. Bu baxış klassik siyasi iqtisadın bayağılaşdırıcıları arasında möhkəmlənmişdi. Amma bu merkantilistləri azad ticarətin bayağı tərəfdarlarının təsvir etdiyi kimi axmaq təsəvvür etmək olmaz. Öz zəmanəsi üçün yetkin merkantilizm elmin çox ciddi nailiyyətlərindən olmuşdur. İqtsiadi şüur pionerlərin ən istedadlıları XVII əsrin ən böyük dühaları - filosofları, riyaziyyatçıları, təbiətşünasları ilə bir sırada durmağa layiq idilər.

Nə üçün «sərvət», yəni yaradılan, istehlak olunan və yığılan nemətlər toplusu - istehlak dəyərləri bir ölkədə o birisindən daha intensiv surətdə artır? Müəssisə və əsasən də dövlət səviyyəsində hansı işlər görmək lazımdır ki, sərvət daha da sürətlə artsın? Görmək çətin deyil ki, məhz siyasi iqtisadın bu suallara cavab vermək iqtidarında olması onun bir elm kimi mövcud olmasına bəraət qazandırır. Merkantilistlər cavablar tapmağa çalışırdılar və onları öz şəraitlərində axtarırdılar. Demək olar ki, «rasional təsərrüfatçılıq» məsələsini iqtisadiyyat elminin mühüm problemi kimi ilk dəfə onlar irəli sürmüşdülər. Onların bir çox nəticələri və tövsiyələri obyektiv inandırıcı olmuş və bu mənada elmi status almışdır.

Bununla belə, onlar kapitalist iqtsiadiyyatının daxili mexanizminin hərəkət qanunlarının dərk edilməsində ilk addımlar atmışlar. Bu dərketmə çox səthi və birtərəfli idi, çünki onlar iqtisadiyyat sirlərinin açmasını dövriyyə sahəsində axtarırdılar. Tənqidçilərdən birinin dediyi kimi, onlar istehsalata yalnız bir «zəruri şərt» kimi, ölkəyə daha dəqiq ticarətçi kapitalistlərin əlinə pul axını təmin edən bir vasitə kimi baxırdılar. Lakin hər bir cəmiyyətin əsasını maddi nemətlərinistehsalı təşkil edir, dövriyyə isə ona münasibətdə ikinci sırada durur.

Öz növbəsində, merkantilistlərin bu baxışı onunla izah olunur ki, ticarət kapitalın ümumiyyətlə ən üstünlük təşkil edən forması idi. İstehsalat çox hissəsində hələ də kapitalizm öncəsi üsulları ilə aparılırdı, lakin dövriyyə sahəsi, xüsusilə xarici ticarət, artıq o zamankı böyük kapitalın əlində idi. Təsadüfi deyil ki, Ost-Hind, Afrika və s. bu kimi şirkətlərin fəaliyyəti İngiltərədə bütöv XVII əsrdə və XVIII əsrin əvvəllərində iqtisadi diskussiyaların mərkəzlərində durmuşdu. «Millətin zənginliyinin» özünə merkantilist ticarət kapitalı maraqlarının prizmasından baxırdılar. Ona görə də onlar, mühüm iqtisadi kateqoriya sayılan «mübadilə dəyəri» ilə məşğul olmaya bilməzdilər. Bir nəzəriyyəçi kimi məhz bu, onları daha çox maraqlandırırdı, çünki pul və qızıldan başqa mübadilə dəyəri daha nədə öz təcəssümünü tapa bilərdi? Lakin Aristotelin çeşidli nemətləri mübadiləyə, mübadilənin çeşidli əmək növlərinin bərabərləşdirmə ideyası onlara yad idi. Əksinə, onlar düşünürdülər ki, öz təbiətinə görə mübadilə qeyri-bərabər və qeyri-ekvivalentdir. (Bu düşüncələrin tarixi əsası onda idi ki, merkantilistlər əvvəldən qeyri-ekvivalent olan, xüsusən də geridə qalmış «vəhşi» əsaslarla aparılan ticarətdə, xarici ticarət mübadiləsini araşdırdılar).

> *"Bizim həvəslə ciddi və tünd çalarlarda təsəvvür etdiyimiz XVII əsrdə pul hərisliyi azalmırdı. Əksinə, bəzi dairələrdə o, daha da güclənir. XVII yüzilliyin ilk onilliklərində fransız və ingilis cəmiyyətləri o zamanlar vaxaşırı yenidən bu və ya bundan daha qüvvətlə üzə çıxan, xalqın daxilində daha geniş kök bağlayan pul həyəcanının ilk həssas durumunu adladılar, və hal-hazırda pula olan ümumi ehtiras müasir insan ruhunun əsas xüsusiyyəti kimi qəbul edilə bilər".*
>
> V. Zombart

Merkantilistlər, bir qayda olaraq, başlanğıcı Aristoteldə və bəzi orta əsr müəlliflərinin əsərlərində olan əmək-dəyər nəzəriyyəsini inkişaf etdirmirdilər. Əslində muzdlu fəhlənin kapitalistlər tərəfindən mənimsənilən ödənilməmiş əməyinin bəhrəsi olan izafi dəyər merkantilistlərdə ticarət gəliri obrazında çıxış edir. Kapitalın artımı və yığımı onların təsəvvüründə əmək istismarının nəticəsi deyil, mübadiləsinin, xüsusən də xarici ticarətin məhsuludur.

Lakin bu xülya və yanlışlıqlar merkantilistlərin bir çox problemləri düzgün anladıqlarını istisna etmirdi. Belə ki, qayğılandıran əhalinin mümküncə böyük hissəsinin kapitalist istehsalına faktiki cəlb olunması idi. Real əmək haqlarının olduqca aşağı səviyyəsi ilə birlikdə, bu gəlir kütləsini artırmalı və kapital yığımını sürətləndirməlidir. Merkantilistlər iqtisdai inkişafda elastik pul sisteminə böyük önəm verirdilər. Onların iqtsiadiyyatda pul faktorunun roluna yanaşması bəzi məqamlarda Adam Smitin yanaşmasından daha dərin idi. Öz iqtsiadi layihələrində güclü dövlət hakimiyyətinə ümid bəsləyərək, sonunca mənfəətpərəstlər təsərrüfatın həttən artıq və xırda dövlət reqlamentasiyasına qarşı etiraz edirdilər. Bu əsasən dövlətə yalnız onun öz maraqlarını müdafiə etmək üçün etiraz duyan güclü müstəqil və təcrübəli burjuaziyanın maraqlarını ifadə edən ingilislərin xüsusiyyətidir.

Merkantilistlər iqtisadi proseslərdə obyektiv qanunauyğunluq görmürdülər, onlar hesab edirdilər ki, dövlət öz iradəsi ilə iqtisadi prosesləri idarə edə bilər. Onlara, bizim indi iqtisadiyyatda valyutarizm adlandırdığımız bir cəhət xas idi. V.Potti iqtisadiyyatda obyektiv dərk olunan qanunauyğunluqların mövcudluğu fikrini ilk dəfə irəli sürmüşdür və onları təbiət qanunları adlandırmışdır. Bu siyasi iqtisadın inkişafında irəliyə doğru böyük addım idi: o, (siyasi iqtisad) elmi baza qazandı.

Mühüm iqtsiadi proseslər – istehsalat, paylaşdırılma, mübadilə və dövriyyə mütəmadi və kütləvi, insanlar arasında münasibətlər pul-əmtəə xarakteri aldığı zaman iqtisadi qanun fikrinin özü əmələ gələ bilərdi. Əmtəənin alqı-satqısı, muzdlu fəhləlik, torpaq icarəsi, pul-dövriyyəsi - bu münasibətlər və ya digər dərəcədə inkişaf etdikcə, insanlar bütün bunlarda hansısa bir qeyri-mütəşəkkil nizamın olduğu fikrinə gələ bilərdilər.

Merkantilistlər üstünlüyə görə iqtsiadiyyatın bir sahəsi ilə məşğul olurdular - xarici ticarətlə. Lakin qiymətləndirməli olmayan risk, spekulyasiya, qeyri-ekvivalent mübadilə, soyğunçuluq və ya quldurluq nəticəsində iqtisadiyyatdan kənar zənginləşmənin (və ya əksinə, itkilərin) amilləri bu

sahədə təsvirindən, başlanğıc təhlilindən onun möhkəm qanunauyğunluqlarını çıxarmaq üçün çox böyükdür. Lakin bu qanunauyğunluqların axtarışında ən əsas dirək *ticarət* idi. Nəticədə xalqların tarixin göstərdiyi kimi onlar öz «kasıb», inkişaf etməmiş vəziyyətindən çıxmaq imkanı aldı və ticarətin onsuz təsəvvür edilmədiyi *azad ticarət* sistemi kök saldı. «Mötədil qurşaqda yaşayanlar, yəni təbii ərzaqlarla ən az təmin olunmuşlar, ticarət sayəsində sənayedə ən yaxşı uğurlara nail oldu. Təbiət baxımından Asiya və Amerika ilə müqayisədə çox kasıb olan və əvvəl nə pambığı, nə ipəyi, nə ən yaxşı qoyun, nə at cinsi, nə də ki, qiymətli metallar olan Avropa, bunlara baxmayaraq dünyanın ən xoşbəxt hissəsidir. O, torpaq və iqlim xüsusiyyətlərinə baxmayaraq, təbiinin üzərində üstünlük təşkil etməsə də, bərabər olan sənaye var-dövlətinə öz qabiliyyəti və öz fəaliyyətinin köməyi ilə nail oldu»[55]. Sənaye var-dövləti inkişaf etmiş ticarət vasitəsi ilə əldə edilir. Beləliklə, menkantilizm kapitalizm - inkişaf etmiş bazar iqtisadiyyatı üçün zəmin hazırlayırdı. Bu şərait ticarətin azadlığı müxtəlif mübadilə xarakteri daşıyan malları ümumi istehsal etmək, almaq və satmaq hüququ deməkdir faktından irəli gəlir. Bu hüquq ən yaxşı azadlıqda, əmək azadlığından irəli gəlir. Lakin bütün hüquqlar kimi, bu hüququn da möhkəm zəmanətə ehtiyacı var. Heç nə ilə cilovlanmayan kobudluq güc hər zaman və hər yerdə bütün hüquqların fəlakətidir. Qeyri-bərabər bölüşdürülmüş olaraq, o hər zaman idarə olunmalıdır; əks təqdirdə o sıxışdıracaq və əziyyət verəcək. Ticarət, digər sahələrdə olduğu kimi, qeyri-bərabər güclərin mübarizəsi baş verdiyi sahədir. Bütün xalqlar əlehdardır, lakin qeyri-bərabər əlehdar. Bu qeyri-bərabərliyin səbəbləri daim eyni olub: insanın öz təbiətində və xarakterindədir. Bu hüququn bu cür qeyri-bərabər rəqiblər arasında mövcudluğunu mümkün etmək üçün, azadlığı təmin etmək üçün, qanunverici, mümkün qədər gücləri tarazlaşdırılacaq ticarət idarəetməsinin məlum sisteminə müraciət etməlidir. Budur ticarət azadlığının fəlsəfəsi; o, bu azadlığın təbiət və tarix üzərində açılan qanunlarının ağıllı şərhidir.

## ƏDƏBİYYAT

[1] Лемешенко П.С. Глобализация: между мифом и реальностью // Философия хозяйства. – № 3(33). – 2004. – С.23.
[2] Хайиун С.Д. Сойиальная эволюйия и Джон Кейнс: от прошлого к будущему // Вопросы философии. – 2003. - № 2 (10). – С. 48
[3] Тойнби А.Дж. Постижение истории. – М., 1991. – С. 164
[4] Хайтун С.Д. Сойиальная эволюйия и Джон Кейнс: от прошлого к будущему. – С. 48.
[5] Yenə orada.
[6] Гуро К. О совбоде международной торговли. – Спб, – 1998. – С. 18
[7] Маркс К., Енгельс Ф. Сочинения: Т. 19. – С. 419
[8] Yenə orada. – S.21. – S.26
[9] Исторический процесс целостность, единство и многообразие, формационные ступени. – М., 1983. – С. 348-362.
[10] Тойби А. Дж. Цивилизация перед судом истории. – СПб., 1996. – С. 102, 130-133
[11] Дондамаев М.А. Распад государственного хозяйства и процессы приватизации в Древней Месопотамии // Вестник древней истории. – 2002. - № 4. – С. 33
[12] Yenə orada. – S.5
[13] Yenə orada. – S.6
[14] Yenə orada. – S.5
[15] Yenə orada. – S.21
[16] Yenə orada.
[17] Yenə orada.
[18] Гуро К. О свободе международной торговли. – С. 94.
[19] Yenə orada. – S. 114
[20] Античная цивилизация. – М., 1973. – С. 15
[21] Хайтун С.Д. Социальная эволюция и Джон Кейнс: от прошлого к будущему – С. 51
[22] Античная цивилизация. – С. 21
[23] Yenə orada. – S.8
[24] Yenə orada. – S.47-48
[25] Yenə orada. – S.52
[26] Yenə orada. – S.53
[27] Хайтун С.Д. Социальная эволюция и Джон Кейнс: от прошлого к будущему. – С.52
[28] Везерфорд Д. История денег: Борьба за деньги от песчаника до каберпространства. – М., 2001. – С.44

[29] Yenə orada.
[30] Хайтун С.Д. Социальная эволюция и Джон Кейнс: от прошлого к будущему. – С.53
[31] Еськов К.Ю. История Земли и жизни на ней. – М., 2000; - Биология. Большой энциклопедический словарь. – М., 1999.
[32] Бутовская М.А., Файнберг А.А. У истоков человеческого общества (Поведенческие аспекты эволюции человека). М., 1993. – С. 214.
[33] Кликс Ф. Пробуждающееся мышление. История развития человеческого интеллекта. – К., 1985. – С.230.
[34] Античная цивилизация. – С.58
[35] Везерфорд Д. История денег. – С.47
[36] Античная цивилизация. – С.8-9
[37] Везерфорд Д. История денег. – С.47
[38] Хайтун С.Д. Социальная эволюция и Джон Кейнс: от прошлого к будущему. – С.54
[39] Yenə orada.
[40] Везерфорд Д. История денег. – С.48
[41] Античная цивилизация. – С.78
[42] Yenə orada. S.23-24
[43] Дьюконов И.М. Пути истории. От древнейшего человека до наших дней. – М., 1994. – С. 40
[44] Античная цивилизация. – С.59
[45] Yenə orada. – S.65
[46] Кликс Ф. Пробуждающееся мышление. История развития человеческого интеллекта. – С. 230
[47] Хайтун С.Д. Социальная эволюция и Джон Кейнс: от прошлого к будущему. – С.56
[48] Везерфорд Д. История денег. – С. 48
[49] Yenə orada. – S. 55
[50] Аникин А.В. Юность науки: жизнь и идеи мыслителей экономистов до марксизма. – М., 1975. – С. 45-48
[51] Гуро К. О свободе международной торговли. – С.117
[52] Yenə orada. – S. 121
[53] Yenə orada. – S. 128
[54] Аникин А.В. Юность науки: жизнь и идеи мыслителей экономистов до макрсизма. – С.54
[55] Гуро К. О свободе международной торговли. – С.117

# TİCARƏT VƏ BAZAR CƏMİYYƏTİ

*«Azadlıq yalnız istər əsassız prioritetlərə, anarxiya və belə hərəkətlərin səbəblərinə, istərsə də fərdi hərəkətlərin bütün nəticələrinin başqa subyektlərdən və bütövlükdə ətraf mühütdən ötrü qiymətin hesablanmasına yol verməyən iqtisadi nizamın hökmramlığı şərtilə mümkündür.»*

P.Kozlovski

*Ticarət həm verdiyi xeyrin bilavasitə istehlakçısının, həm də iqtisad elminin daimi diqqət və xüsisi maraq obyekti olmuşdur. Ticarətin vəzifəsi istehsalçı ilə istehlakçı arasında vasitəçilik etməkdən ibarətdir və iqtisadiyyatın hər hansı başqa sahəsi kimi o da öz mövcudluq hüquqin yalnız xalq təsərrüfatına və cəmiyyətə daha yaxşı və daha ucuz xidmət göstərməklə haqq qazandırır. Ticarət bazar cəmiyyəti şəraitində gerçəkləşən sənətdir. Beləliklə də ticarətlə bazar cəmiyyəti arasında münasibət problemi meydana çıxır. Bu problemın həlli iqtisadi həyatın daha da iqtisadiləşdirilməsinə səmtləndirilən «ticarət ruhu»nun hopduğu müasir sivilizasiyanın mahiyyətini aşkarlamağa imkan verər.*

## 1. TİCARƏT İQTİSADİYYATIN BÜDCƏ MODELİNDƏ

İqtisadi inkişafın siyasi iqtisadda məqsədinin aydınlaşdırılması sosial insanın əbədi problemidir. Bu, bazarın planlaşdırma üzərində mümkün prioritetlər ətrafında müzakirələrdən daha çox bazar təsərrüfatının iqtisadi nəzəriyyələrinin dəyər amillərinə aiddir. Məsələn, mövcud baxıma görə, bazar əzəldən qoyulmuş məqsədlər haqqında təsəvvürlərin formalaşması üçün alətdir, müvafiq iqtisadi məqsədlərə nail olmaq üçün resurslarsı bölüşdürmək üsuludur. Digər mövqe tərəfdarları insanların nə istədiklərini və nəyi məqsəd saydıqlarını əsas tutaraq, bazarı hər şeydən əvvəl mümkün məqsədlərin aydınlaşdırılıb qarşıya qoyulmasına kömək göstərən mexanizm sayırlar. İqtisadi məqsədlərin hər iki anlayışı «ümumiləşdirilmiş şəkildə» siyasi iqtisadın və siyasi fəlsəfənin hər iki əsas ənənəsində mövcuddur. Bu ənənələrdən hər biri təcrübi fəlsəfənin üç tərkib hissəsi olan etika, siyasət və iqtisadiyyatın özünə məxsus modelini işləyib hazırlayır. Birinci ənənədə bu modellər evdemonizm, teleokratiya, planlı təsərrüfat, ikincisində isə deontologiya, nomokratiya, bazar təsərrüfatı (katallaksiya) anlayışları vasitəsilə təsvir olunur. Hər iki ənənənin elementlərini özündə birləşdirən aralıq variantlar da mümkündür. əslində məhz yuxarıda təsvir olunmuş iki ideal tip «etika-iqtisadiyyat-siyasət» kimi qarçılıqlı əlaqələrin funksional sistemini xarakterizə edir. Evdemonizm dedikdə etika doktrinalarından maddi fayda və ya səadət anlayışının əxlaqın məqsəd və meyarı kimi çıxış etdiyi növü başa düşülür. F.Xayekin ardınca teleokratiyanı elə bir siyasi quruluş kimi müəyyənləşdirirlər ki, onun da başlıca siyasi qüvvəsi (ən çox hallarda dövlət) maddi, sosial əhəmiyyətli məqsədlərin formalaşmasını sülh və ədalətin təmin edilməsi ilə əlaqələndirir, bunları əksəriyyətin qərarı kimi bəyan edir və inhisar hakimiyyətin vasitələri ilə həyata keçirir. Planlı təsərrüfat qərarların ictimai istehsalın həm vasitələrində, həm də məqsədlərində mərkəzləşdirilmiş qaydada, planlaşdırma mərhələlərini nəzərə alınmaqla qəbul edildiyi iqtisadi nizamdır. Deontologiya və nomokratiya etika və siyasət arasında münasibətlərin digər izahını verir. Burada belə bir müddəa əsas tuturlur ki, mənəvi və hüquqi tələblər insanların birgə fəaliyyətinin şərtlərini ümumilik və rəsmiyyət baxımdan müəyyənləşdirir. Siyasi və mənəvi hərəkətlər onların sərfəliliyə uyğunluğu mövqeyindən deyil, ümumvacib və rəsmi maksimumlara uyğunluğu meyarı baxımından qiymətləndirilir. Bitərəf hüquqi dövlət belə şəraitdə dövlət idealı kimi təsəvvürə gəlir. Bazar iqtisadiyyatı vahid təsərrüfat

çərçivəsində tələb və təklifin bazar qaydaları əsasında qeyri-mərkəzləşdirilmiş istiqamətlənmə və ya iqtisadi planlaşdırma kimi başa düşülür[1].

Bazar iqtisadiyyatının inkişafı, onun strukturunun mürəkkəbləşməsi prosesində ticarətin rolu da dəyişir. Bazarın imkanları aydınlaşdırıldıqdan sonra ticarətin dəyişən, iqtisadi inkişafın nail oluna bilən məqsədlərinin modelləşdirilməsi üçün tələblərə adekvat olan funksiyaların dəqiqləşdirilməsi baş verir.

İqtisadiyyatın büdcə modelində iqtisadi planlaşdırmanın əsas modeli büdcədən ibarətdir ki, onun da çərçivəsində ticarət məqsədlərinə nail olmaq üçün vəsait bölgüsünə və qoyuluşuna dair qərarlar qəbul edilir. İctimai inkişafın ilkin mərhələlərində, primitiv iqtisadiyyatda bu məqsədlər həmin büdcədən fərdlərin məqsədləri ilə eyni qayda üzrə müəyyənləşir və bunlar dəyişməsi üçün meydan açmır. Belə məqsədləri subsistent məqsədlər adlandırmaq olar, onlar fərdlərin iqtisadi fəallığını şərtləndirir, tələbatını ifadə edir. İnvestisiya və tələbat alternativləri məhduddur. Təbiətlə mübarizədə özünü qorumaq və salamat qalmaq iqtisadiyyatın məqsədləridir, Tələbat guya təbiətin doğurduğu hal kimi baxıla bilər. İqtisadiyyat arxaik cəmiyyətlərin sosiologiyasında olduğu kimi, statistik sosial strukturların və tələbatın dominantalarıüçün də səciyyəvidir. İqtisadiyyatın ənənəvi tələblərinə (istehlak və pul sərfi üçün daimi kvotalar), fərdlərin sosial statusu haqqında ənənəvi təsəvvürlərə meyililiyin mənası var, çünki ictimai orqanizmin ölməyib yaşamağının özü də «insan-təbiət» qlobal münüsibətləri çərçivəsində problematikdir və yalnız eksosial norma və tələblərə dönmədən əməl etməklə təminat verilir. Arxaik cəmiyyətlərin mühafizəkarlığının səbəbi ondan ibarətdir ki, həmin cəmiyyətlər yeniliklərin həyata keçirilməsi və «təşkiletmə sərbəstliyinin daha yüksək səviyyəsinin» (Н.Луман) əldə edilməsi üçün zəruri üsul və vasitələrdən istifadə etməyə qadir deyillər. Təsərrüfatın mövcudluğu məqsədi kimi, ölməyib yaşama kvazi təbiətin məqsədli təyinatını formalaşdırır ki, bu vəzifənin gerçəkləşməsi üçün iqtisadiyyat özünün bütün mövcud imkanlarından istifadə edir. Tarixin və dünya təcrübəsinin göstərdiyi kimi, iqtisadi

> *“Rəqabətli bazar iqtisadiyyatına yalnız hərəkətin səmərəliliyinə və sərbəstliyinə eyni dərəcədə şərait yaratdıqda ictimai təşkilatın optimal forması kimi baxmaq lazımdır. Onun qaydaları sistemi fərdi məqsədqoymanı, planlaşdırmanı və sosial əlaqələndirməni həyata keçirməyə imkan verən iş qaydaları deməkdir.»*
>
> P. Kozlovski

inkişaf məqsədinə nail olmağın başa çatdırılmasına yönəldilmiş səmərəli yol ticarətdir.

Tələbatın daimiliyi formulu xalis şəkildə hətta antik polis (şəhər-dövlət) cəmiyyətlərinin xarakteristikası üçün də tətbiq edilə bilməz. Peşə fərqlənmələrinə və sosial təbəqələşməyə, əlavə dəyər əldə etməkdən ötrü qul əməyindən istifadəyə gətirib çıxaran xüsusi mülkiyyətin və sosial fərqlərin yaranması nəticəsində investisiya və istehlak üçün yeni imkanlar yaranar. İqtisadi tələb forması kimi daimi subsistent norma polisdə sosial təbəqələşmə səbəbindən artıq iqtisadi istehlak forması kimi müəyyənləşdirici rol oynamır. Polis vətəndaşının və qulunun subsisteminin tələbatı hansısa dəyişməz eyniyyət deyil, buna görə də iqtisadi və sosial inkişafın məqsəd və parametrləri kimi nəzərdən keçirilə bilməz[2]. Bu ticarət dövrdə qulların deyil, ilk növbədə vətəndaşların, yəni polisin azad insanlarının tələbatını ödəməyə yönəldilmişdir.

Siyasi–iqtisadda iqtisadi məqsədlərin daimiliyi ideyası kifayət qədər papulyardır. Məsələ ondadır ki, belə müddəa iqtisadi problemin məqsədlərə yetməyin optimal və səmərəli problemi kimi şərhinə imkan verir; iqtisadi inkişaf məqsədlərinin hansısa daimi bir hec nə olması şərtləndirildikdə isə, müvafiq məqsədə çatmaq üçün səmərəli vasitələrin müəyyənləşdirilməsindən qabaq bu və ya digər tələbləri təsərrüfat inkişafının məqsədləri kimi ifadə etməyə imkan verən meyarların axtarıldığı şəraitdəkindən daha böyük diaqnostik və normativ dəqiqliyə nail ola bilər.

Yaşama məqsədlərinə səmtlənmə lap əvvəldən təsərrüfat fəaliyyətinə mexaniki determinasiya xarakteri verirdi ki, bu da XIX əsr iqtisadi nəzəriyyələrinə sübut gətirmə formalarını və bilik artırma üsullarını təbiətşünaslıqdan əks etməyə imkan verir. Məhsuldar qüvvələrin inkişafı iqtisadiyyatda subsistent məcburiyyətin ləğvi iqtisadi dinamikanın artıq mexaniki determinizm sxemlərinə sığmamasına şərait yaratdı. İqtisadi nəzəriyyə təbiətşünüslıq elminə oxşarlığını itirdi. Məqsəd seçmək problemi sərbəst xarakter aldı,asanlaşıb yayıldı. Ticarət mübadiləsi təsərrüfatın inkişafına xeyir gətirdi. Bunun sayəsində iqtisadi fəaliyyət mexaniki determinizmdən, mülkiyyətçi isə azad olmayan həyat şəraitində ona zorla qəbul etdirilən inkişafdan yaxa qurtardı.

П. Козловски hesab edir ki, iqtisadi məqsədlərin daimiliyi ideyası yalnız cəmiyyətin sürətlə hərəkət etmə qabiliyyətini istisna edən çərçivəsində mümkündür. Yalnız tələbat müəyyən cəmiyyət üzvülərinin sosial statusu ilə müəyyənləşdikdə, istehlak ümüdləri isə sosial ümüdlərə çevrildikdə, qısaca desək, əgər sosial statusun iqtisadi tələblərə dəqiq tabeliyi varsa, güman etmək

olar ki, sosial təbəqələşmə şəraitində istehlak tələbləri müəyyən vaxt kəsimində bütövlükdə daimililiyini saxlayacaq. İqtisadi məqsədlərin mövcudluğu və ictimai istehsal üçün normativ xarakteri haqqında naturalistik təsəvvür insan təbiətinə antrapoloji istinadlarla əsaslandırıla bilməz. K.Boulinqin dediyi kimi, biz südə istilik və quruluğa meyil göstərməkdən və aclığı, soyuqluğu və nəmişliyi qəbul etməkdən başlayırıq, insanların üstünlük verdiyi cəhətlərin əksər hissəsi sonralar qazanılır[3]. İnkişaf etmiş cəmiyyətlərdə yaşamanı şərtləndirən ehtiyaclar deyil, cəmiyyət üzvülərinin ehtiyaclarını sosial prioritetli, biri digərindən fərqli ehtiyacların resurs bölgüsündə müəyyənedici rol oynayır. İqtisadiyyatın məqsədi ölməyib yaşamaq deyil,yaxşı yaşamaq (Aristotel demişkən, «Xeyrə uyğun yaşamaq») imkanını təmin etməkdən ibarətdir. Belə şəraitdə iqtisadiyyatın büdcə modeli əslində tədbiqolunmazdır. F.Xayyek «İqtisadi» termininin müasir təsərrüfat strukturlarına tətbiqinin düzgünlüyünə ümumiyyətlə şübhə edir. «İqtisadiyyat sözün əsl mənasında kiminsə məqsədlərini hansı iyerarxiyasını həyata keçirmək naminə vasitələrdən məqsədə və plana uyğun surətdə istifadə etdiyi təşkiletmə və ya nizamasalma deməkdir. Bazarın öz daxili səbəblərinə görə törətdiyi qayda tamamilə başqa şeydir.»[4] Ticarət hər şeyi əhatə etmək, həcmcə genişlənmək meylindən daha çox uyğundur.

Ticarət bu halda iqtisadiyyatın büdcə modelində inkişafını tapa bilərmi? Axı ticarət qabaqcadan qoyulmuş məqsədlər və onlara nail olmaq mərkəzləşdirilmiş qaydada tətbiq edilən vasitələr haqqında təsəvvürdən irəli gəlib yetişir. İqtisadiyyat istehsal proseslərinin texniki təşkilinin variantıdır ki, bu proseslər çərçivəsində də məlum məqsədlərə çatmaq üçün obyektiv əhəmiyyətli istehsal amillərindən istifadə edilir. Ticarətin təcrübi problemi həm də texniki problemə çevrilir, bunların həyata keçirməsinin məqsəd və xərcləri qabaqdan mövcud olan şərtlərlə müəyyən edilmişdir. Nə istədiyini bildiyin halda məqsədləri həyata keçirməklə bağlı olan iqtisadi problemlərin həllini mərkəzi orqanlardan başqa heç kimə həvalə edə bilməz. Artıq iqtisadiyyata müstəqil təsərrüfat subyektlərinin əlaqələndirilməsi problemi kimi baxılmır, ona ancaq məhsuldar qüvvələrin optimal istifadə edilməsi haqda texniki məsələ kimi baxılır. İqtisadiyyata təcrübi yox, lakin qarşılıqlı əlaqələrin qurulması kimi baxılır. Bu, mövcud olanın xüsusi məqsədi yox, lakin ictimai istehsal və vasitələri çərçivəsində başlanğıcda verilmiş məqsədləri həyata keçirmək texnologiyasıdır.[5] İqtisadiyyatın büdcə modeli cəmiyyətin bütünlükdə iqtisadireallığına yayılır. İqtisadiyyat, həmkinun cəmiyyətin özü nəhəng büdcəyə çevrilir və büdcə ilə idarəetmə vahid məqsədə çatmaq naminə mərkəzləşdirilmiş qaydada

həyata keçirilir. Aydındır ki, ticarət belə bir şəraitdə özünün immanent inkişaf qanunları ilə müşayət edilə bilməz. Bütün şəxsiyyətlərarası münasibət səviyyələrində ticarət münasibətlərinin mənəvi deformasiyası başlanır.İşin belə vəziyyətdə olmasına səbəb nədir?

Görünür bu səbəblər ictimai-siyasi məqsədin (idealın) mütləqləşdirilməsində axtarılmalıdır. Lakin К.Маркс iqtisadiyyatın təşəkkülünün magistral xətti prosesində şəraitinin aşkara çıxarılmasında bəzi məqamları nəzərdən qaçırmışdır. O, bu yanlışlığa xüsusilə insanın qəbilə mahiyyətinin inkişafını nəzərdən keçirərkən yol vermişdir. İnsanın qəbilə üzvü kimi daimi və eyni ehtiyacları ictimai istehsalın daimi məqsədlər sisteminin, habelə həmin məqsədlərə nail olmaq naminə bu sistemin mərkəzləşdirilmiş qaydada idarə edilməsinin mövcudluğunu mümkünləşdirir. Fərdin iqtisadi səyləri formasını dəyişib iqtisadi tələbata çevrilə bilər. İqtisadiyyat qəbilənin fabriki olur. Eyni zamanda insan da azadlığa qovuşma prosesində qəbilə üzvünə çevrilməlidir ki, qəbilənin eyni zamanda həm rəhbərlik edən, həm də rəhbərlik edilən cəmiyyətə çevrilməsi prosesində ictimai istehsalın və təkrar istehsalın eyni zamandahəm obyekti və həmdə sübyekti olsun. Sosial təkamül fərdin bacarığının inkişafı və xarici mühitə uyğunlaşması prosesi kimi deyil, qəbilə ilə sübyekt qismində təlim keçmə prosesi kimi həyata keçirilir ki, bu da mərkəzləşdirilmiş rəhbərliyin köməyi ilə gerçəkləşir. Bu zaman subyektivlik və praktika məqsəd qoyan və həyata keçirən amillər kimi istisna edilir.[6] Belə «texniki qavranış» çərçivəsində iqtisadiyyat ilkin sosial statusa malik olur. Cəmiyyətə əzəldən mövcud və «sanballıq» kimi qavranmış məqsədlərə iqtisadi cəhətdən çatmaq imkanları mövqeyindən baxılır. Siyasət kimi iqtisadiyyat da məqsədlərin formalaşdığı və ifadə tapdığı sahələrdəki kimi qavranmır: bunlar vasitələrin sınaqdan keçirildiyi təcrübə meydanlarına çevrilmişdir. Marksizmin şeyləri idarə etməyin mümkünlüyü haqqında iqtisadi utopiyası məqsədlərin vasitəli ifadəsi və formalaşması haqqında təsəvvürlərin yerini tutur. Bu utopiya hökmranlıq ideyasını, eyni zamanda iqtisadiyyatda öz məqsədlərini güdən subyektlər arasında sərbəst mübadilə kimi baxmaq meylini sıxışdırıb çıxarır. Məsələnin belə anlamı istər bazar iqtisadiyyatının mahiyyətinə, istərsə də ticarət fəaliyyətinə ziddir. В.Зомбарт yazırdı, daha çox satmaq, uğurlu mübadilə aparmaq üçün «kənardan məcbur etmə, iradə, öz qərarının olması lazım deyil»[7].

Praktik münasibətlərin şeyləri idarə etmək münasibətlərinə tam şəkildə çevrilməsi yalnız cəmiyyətin qarşılıqlı əlaqələri kimi başa düşüldükdə mümkündür. İqtisadiyyatı siyasətin yerinə qoyan Marksin və ya Sen-Simonun

ekonomizmi texnokratik mənada yanlışdır, sosial texnologiya formalarından biridir ki, onun da əsasını insanın fəaliyyətinin məqsəd və vasitələrinin məhsulda qüvvələrin tarixən şərtləndirilmiş formaları və səviyyələri ilə müəyyənləşdirilməsi və bunlardan irəli gəlməsi haqqında əqidə təşkil edir.[8]

Sosial hormoniya haqqında rasionalist utopiyanın məhsulu olan, texnologizmə aparan belə anlamada çox zaman belə bir fakta nəzər salınır ki, ictimai texnologiyalar öz strukturunda maddi amillərlə birlikdə mənəvi amilləri-insan tərəfindən hadisələrin əsilsiz və ya həqiqi əlaqələrinin dərk olunmasını da əhatə edir. İctimai texnologiyaların mənəvi əsasları inkişafının köklü mərhələləri sivilizasiyanın inkişaf mərhələləri ilə bağlıdır. Bu inkişafı dünyaya praktik və mənəvi cəhətdən yiyələnmə səviyyəsi, başqa sözlə insan azadlığının hər kəsin azad inkişafının, hamının azad inkişafının şərti olan həqiqi azadlığa yüksəlmə yolu ilə hərəkəti ümumiləşdirilmiş şəkildə xarakterizə edir. İctimai texnologiyalar prosesinə bütün maddi və mənəvi istehsal vasitələri, o cümlədən dil və başqa əlamət sistemləri, ənənələrdə, adətlərdə, dövlət-hüquq qanunlarında, texniki sənədləşmədə sabitləşmiş sosial və texniki normalar, qanunyaratma, hüquq qaydası və i.a. daxildir. Bununla əlaqədaq olaraq sivilizasiya insanlar arasında texniki-texnoloji münasibət və onların təbiətə texniki-texnoloji münasibəti kimi görünür.

Bütövlükdə tarixi prosesə tətbiqən sivilizasiyalı texnoloji paradiqma insan-texnika sisteminin inkişafı ilə əlaqəlidir. Bu paradiqma bilavasitə təkcə insanın əmək funksiyalarına (əl texnologiyasına, maşın texnologiyasına, özünü idarə edən maşın texnologiyasına) deyil, həm də insanın ictimaləşməsi prosesinə-onun dünyagörüşünün, vərdişlərinin, təcrübəsinin, bilik və səhvlərinin, sosial mühütinin, həyati istiqamət və tələblərin, sosial mövqelərin və insanı ictimai fərdə çevirən bir çox başqa cəhətlərin dəyişməsinə toxunur. Odur ki, məsələyə ciddi yanaşıldıqda insan-texnika sistem də ictimai-texnoloji sistemdir. Bu kontekstə sistemin yaşamağının şərti

> *İqtisadi inkişaf mexanizmində bir tərəfdən insan, təbiət və texnika qüvvələrinin və digər tərəfdən onların işləməsi, təşkili və informasiyada əksi sosial formaların komplekslərinin qarşılıqlı əlaqəsində xüxusi rol oynayır. Bununla əlaqədar olaraq, başlıca rol bütün amilləri ümumi prosesə cəlb etmək, bilik bacarıq vərdişlərinin gücünü bunlarda reallaşdırmaq, həmin prosesin həyata keçirildiyi sosial münasibət və qrup sistemlərini öz fəaliyyəti ilə birləşdirən insana məxsusdur.*
>
> О.В.Кишаков

kimi sivilizasiyanın tərkib hissələri olan mədəniyyətin, iqtisadiyyatın və bunları bir-birinə bağlayan ruhun sərbəst inkişaf tapdığı azadlıq çıxış edir. Sonuncu Absolyut ruhu (H.Hegel), kimi deyil, həm də «sahibkarlıq ruhu» (B.Зомбарт) kimi çıxış edir ki, bunsuz da ticarətin sərbəst fəaliyyət kimi inkişafı mümkün deyil.

## 2. TİCARƏTİN İQTİSADİYYATIN MÜBADİLƏ MODELİNDƏ İNKİŞAFI

Əgər iqtisadiyyatın büdcə modeli ticarətin inkişafı üçün geniş meydan açılmasına səbəb olan «istehsal»(texnologiya) modeli kimi yoluza bilərsə, onun mübadilə (katallaksiya) modeli «qarşılıqlı fəaliyyət» (interaksiya) modelidir. Xatırladaq ki, katallastik model anlayışı (katallaktein-yunanca dəyişməz) iqtisadi mübadilə modelidir. İ.Şumpeter hesab edir ki, katallaksiya anlayışı siyasi iqtisad anlayışına əlavə kimi işlədilməyə başlamışdır. Dəyər mübadilə prosesləri Avstriya siyasi iqtisad məktəbində iqtisadiyyatın başlıca amilləri sayılırdı. Böyük miqyasda götürüldükdə katallaksiya spontan qaydadır. (F.Xayyek).

Katallaksiyalı modeldə fərdlərin öz məqsədlərinə uyğun yerinə yetirdiyi işlər mübadilə, ticarət, əməkdaşlıq, kooperasiya prosesləri bazarında bir-biri ilə elə əlaqələndirilməlidir ki, fərdi, məqsədqoyma və tələbatın ödənilməsi real surətdə mümkün olsun. İqtisadiyyat mövcud tələblərin ödənilməsinə deyil, bunların fərdin plan və səylərinin həyata keçirilməsində səmtləndirilməmişdir. Beləliklə də söhbət fərdin həyata keçirməyə çalışdığı məqsədlərin kəmiyyətcə deyil, keyfiyyətcə gercəkləşməyindən gedir ki, bunun da zəruri məqamı onları sərbəst surətdə qarşıya qoymaqdan ibarətdir. İqtisadi məqsədlər (salamat qalmağın bioloji məqsədlərini şərtləndirən tələblərinin fiziki minimumu istisna olmaqla) əvvəlcədən mövcud olmaqla insanların qarşılıqlı fəaliyyəti prosesində formalaşmalı və vasitələşməlidir. Katallaksiya modelində iqtisadi məqsədlər onların fərdin dəyişməz sosial statusu ilə qəti müəyyənləşdirilmiş istehlak tələbatın və substitensiya aparıb çıxaran büdcə modeli ilə yozula bilməməklə dinamik surətdə dəyişən müxtəlif istehlak tələblərinin ödənilməsi ilə bağlıdır. Mərkəzləşdirilmiş iqtisadi planlaşdırma deyil, bazar tələblə təklif arasında əlaqəni (vasitəliliyi) həyata keçirir. Bazar iki vəzifəni: müvəffəqiyyətin informasiya baxımından hazırlanması və nəzarətdə saxlanması vəzifələrini yerinə yetirir. İnformasiya təminatı və əlaqə «layihələşdirmə və ixtiralar sahəsi» olmaq

ehtibarı ilə bazarın müstəsna imtiyazlıdır. «Fərd nəyə səy göstərməli olduğunu deyə bilirsə, bu bazarın nailiyyətidir.»[9]

İqtisadi bazar fenomenlərinin səmərəli fərdi layihələşdirmə haqqında adekvat informasiya daşımağa qadir olduğunu əsaslandırmağa kömək göstərən dəlillər büdcə modelinə daban-dabana ziddir. Bu dəlillr sırasına tələblərin həqiqiliyi deyil, variantlığı, dəyərin (sərvətlərin) subyektiv yozumu, formal iqtisadi səmərəlilik, bazar nailiyyətlərinin sosial təşəkkül kimi tanınması aiddir. Tələbatın həqiqiliyi və əbədiliyi haqqında məsələni təhlil sahəsindən çıxarılmasını, bütün bu müddəalar məxrəc saymaq olaq.[10] Ticarət, ayrıca insanın həyatı kimi bütün ictimai həyatda ödənilən, yenidən törənən, adamsız təkrarlanan tələblərdən ibarətdir. Tələbat ticarət fəaliyyəti vasitəsilə ödənilir. Bu planda tələbat bazar iqtisadiyyatını həyata keçirmək mexanizmidir.

Tələbatın həqiqiliyinin inkarı və dəyərin subyektivvist mövqeyindən başa düşülməsi bir-biri ilə sıx əlaqədardır. Dəyər müəyyən məhsulun istehsalı iş vaxtının və kapitalın ictimai zəruri sərfi kimi deyil, əşyanın mübüdilə münasibətlərində bazar tələbatı vasitəsilə formalaşan qiyməti kimi müəyyənləşdirilir. Bazar qiymətin (mübadilə dəyəri) artıq tələbatın qeydə alındığı istehlak dəyərinin ekvivalenti kimi deyil, bir neməti, dəyəri eynilə subyektiv olaraq müəyyənləşdirilmiş başqa nemətə dəyişdirilmək üçün ekvivalent kimi nəzərdən keçirilir. Nemətlərin qiymətləndirilməsində istehlakçının son dərəcə subyektiv özünəməxsus tələbləri təzahür edə bilər ki, bu da bazar qiymətində əksini tapır. Həmin subyektiv qiymətlər ötürücü cəhətlər-onların gələcək sərvət və tələbatı nə dərəcədə əhatə etməsi, fərdi tələblər sistemində yeri, qoyuluşların və istehlakın dəyəri, ağıllı tətbiqi baxımından nəzərdən keçirilmir, bazarda faktik tələb kimi qavranılır. İqtisadi subyektivizmin praktik legitimləşməsi belə bir güman hesabına həyata keçirilir ki, heç kəs fərdin tələbləri haqqında onun özündən yaxşı məlumatlı deyil və bu biliklərdən yaxşı faydalanmağa qadir deyil. Fərdi siyasi azadlıq hüququnun qanuniləşdirilməsi prosesləri ilə analogiya aparılır: öz istehlak ideyalarını formalaşdırmağın mümkünlüyünün özü belə müsbət faydalıdır. İqtisadi subyektivizmin xeyrinə gətirilən bu dəlillər «istehlak suverenliyi» konsepsiyasında «işləyir».[11]

İqtisadi subyektivizmin və istehlak suverenliyinin belə başa düşülməsindən bazar səmərəliliyinin formal xarakterindən irəli gəlir. Formal və maddi səmərəlikdən fərqli olaraq bazar səmərəliliyi istehlak həcmlərini maksimum artırmaq və ya milli iqtisadi qüdrəti yüksəltməyə göstərilən maddi səyləri deyil, üstün istiqamətlər və resursların satış üçün maksimal bölgüsü haqqında

bilik istehsalının formal üsulunu təsvir edir.[12] Bu prosesdə bazar fəaliyyətinin intensivləşməsi sayəsində ticarət vasitəçi rol oynayır. Axı, tələbatın təminatı problemi iqtisad nəzəriyyəsinin tərkib hissələrindən biridir. sosial-iqtisadi inkişaf vektoru bu və ya digər mənada məhz bu problemin həllindən asılı idi.

Bazar iqtisadiyyatının katallaksiya modelinin kəsb etdiyi əhəmiyyət milli iqtisadiyyatın klassik tərifindən ölçüyəgəlməz dərəcədə böyükdür. Bu varianta məxsus iqtisadi paradiqma ya müxtəlif, bəzən isə bir-birini inkar edən məqsədlərə nail olmaq üçün vasitələrin məhdud həcminin bölüşdürülməsi problemi kimi baxılır. Belə çıxır ki, bölgü problemi vasitələrdən optimal istifadə problemidir, onu həm bazar vasitəsilə həm də dövlət tərəfində müdaxilə və tənzimləmə yolu ilə həyata keçirmək və həll etmək mümkündür. Lakin fəaliyyətinin fəallaşdırıldığını iqtisadi problematikasının tərifinə belə yanaşıldıqda başlıca məsələ həllini tapmamış qalır: cəmiyyətdə həmişə bu və ya digər məqsədlərə yetmək üçün təkcə vasitələrin deyil, məqsədlərin özünün də çatışmaması duyulur. Vasitə və resurslardan səmərəli istifadə hansı məqsədlərə nail olunmalı və hansı tələblər yerinə yetirilməlidir kimi əsas məsələni diqqətdən kənarda qoyur: Bazar konsepsiyanın məzmununun vasitələrin bölüşdürülməsi haqqında lokal məsələ ilə məhdudlaşdırılmasına qarşı F. Xayyek etirazını bu cür ifadə edir: «Bir çox bazar nəzəriyyələri» məqbul nemətlərin müəyyən miqdarının mövcudluğu haqqında müddəanı əsas tutduğundan respublikamız əqabətin adekvat anlayışına yaxınlaşa bilmir. Lakin hansı nemətlər məhduddur və ya hansı əşyalar nemətlər sayılmalıdır və ya bunlar nə qədər məqbuldur, məhz bu, zəqabətin aşkara çıxarmalı olduğu faktdır: fərdin nəyə çalışmaq lüzumunu başa düşməsi bazar işinin nəticəsi olmalıdır»[13]. Bazar konsepsiyası mexanizm kimi əslində iqtisadi problematikanı kasıblaşdırır, bazarın məqsədlərinin formalaşdırılması kimi başlıca funksiyası lazımınca qiymətləndirilmir. (N.Luman). Bu konsepsiya yalnız bazar vasitələri ilə həll oluna bilən iqtisadi problemlərin müxtəlifliyini azca sadələşdirir.

Bununla əlaqədar belə nəticəyə gəlmək olar ki, iqtisadiyyatın tərkib hissəsi kimi ticarət mümkün xırda vasitələrlə maksimum bolluq yaratmaq mexanizmi kimi qavranılmalıdır, əzəli məqsədlər optimallaşdırılmalıdır, çünki hər şeydən əvvəl nəyin iqtisadi məqsəd kimi başa düşülməli olduğunu, hansı resurs qoyuluşlarının və hansı məqsədlərin iqtisadi səmərə verəcəyini dərk etmək lazımdır. İqtisadi nəticələr ticarətdə satılmış mal və xidmətlərin miqdarı əsasında qiymətləndirilə bilməz, lakin bunlarda eyni dərəcədə istehsal olunmuş

məhsulların keyfiyyət göstəriciləri və həmin göstəricilərin istehlakçıların arzularına və üstünlük verdiyi cəhətlərə uyğunluğu əksini tapmalıdır.[14]

Lakin iqtisadi məqsəd və tələblər kənar müşahidəçi üçün nəzərdə tutulmamaqla fərdin istehlak prioritetləri strukturu ilə eyniləşdirilə bilməz. Buna görə də iş nəticələri ilə fərdin subyektiv ümidləri, üstün tutduğu cəhətlər arasında uyğunluğu müəyyən etmək çətindir. P. Kozlovski hesab edir ki, bazar fərdi həvəsləri ticarət vasitəsilə daim canına çəkir və dəyişdirir. Kəmiyyətcə və keyfiyyətcə optimal nəticənin reallaşıb-reallaşmadığı nə təcrübə, nə də eksperiment yolu ilə müəyyən etmək mümkündür. Üstünlük verilən vasitələr və deməli, onların səmərəliliyi bu məqsədlərdə birdən-birə və açıq-aşkar təzahür etmir.Təkrarlar mövcud deyil, hər zaman optimal həll axtarışı bir dəfə aparılır, çünki fərdin ixtiyarındakı vasitələr kimi onun ümidləri də hər dəfə bambaşqadır, yəni yenidir.[15]

Bazar ticarəti təlim keçmə üsuludur, qısa vaxt kəsimi ərzində satıcı və alıcı öz tələbat və imkanlarının nədən ibarət olduğunu, tələb və təklifin qarşılıqlı əlaqə şəraitində necə formalaşdığını müəyyənləşdirirlər. Alıcılıar arzuladıqlarını iqtisadi cəhətdən əsaslandıra bilmək iqtidarındadırlarsa, deməli nə istədiklərini həqiqətən bilirlər. Satıcı yalnız sınama və səhvlər nəticəsində öyrənir ki, alıcıları nə istəyirlər. Gələcək tələblər qabaqcadan hiss edilə bilər ancaq dərk edilə bilməz.[16] Bazar ticarəti onun iştirakçılarının tələbatının dərk olunması üsuludur, qabaqcadan duyulan tələblərdən hansılarının həqiqətən yerinə yetirilib ödənilməsini, hansılarının sahibkara daha çox xeyir gətirəcəyini aydınlaşdırmaq üsuludur.

Ticarət sayəsində yaşayan bazar fərdlərin öz niyyətlərini həyata keçirməyə çalışdığı sərbəst mübadilə qurumudur. (Д.Бьюкенен).

Əgər bazara yalnız əzəldən qarşıya qoyulan və miqyasına, qarşılıqlı əlaqələrinə, miqyasına görə artıq məlum olan məqsədlərə yetmək vasitəsi kimi baxılsa, o, informasiya işləyən impuls olan və nəticə verən mexanizmə,

*İqtisadiyyatın yaranmasının dərin tarixi kökləri var. Mal mübadiləsi yetərincə qədim fenomendir. Uzun tarixi dövr ərzində iqtisadiyyat müstəqil təsərrüfat üsulu olmaqdan daha çox qeyri iqtisadi təsərrüfata xidmət göstərirdi. Az-çox xalis iqtisadiyyat ticarət mərkəzləri (limanlar, yükboşatma məntəqələri, yarmarka yerləri) üçün səciyyəvi idi, lakin bu haldada istehsalı kifayət qədər əhatə edən, maliyyəmexanizmlərindən istifadə edən tamamilə inkişaf etmiş iqtisadiiyyat deyildi.*

Y.M.Osipov.

hesablayıcı maşına çevrilir. Mübadilə çərçivəsində bircə işlər (təcrübə) əlaqələrin ümumi və qarşılıqlı fəaliyyətin formalaşmasına aparıb çıxarır ki, bunların da çərçivəsində fərdlər öz plan və layihələri əsasında hərəkət etmirlər, amma mexaniki olaraq bazar qanunlarına tabe olur, gəlir və sərfəliliyi mütləqləşdirirlər: bu qlobal sistemin qarşıya qoyduğu məqsədlərin həyata keçirilməsinə düşünmədən xidmət göstərirlər. İqtisadiyyat, bütövlükdə cəmiyyət nemətlər istehsalını və ümumi büdcəyə payı artırmaq üçün nəhəng mexanizmə çevrilir.[17]

İqtisadi sistemlərinin xarakteristikası kimi finalizmin və iqtisadi hərəkətlərin qabaqcadan qoyulmuş məqsədlərə tabe olunmasının qəbul edilməməsi bazar proseslərinin açıqlığına və natamamlığına səmtlənməni nəzərdə tutur. Bazar çərçivəsində təkamül hər şeydən əvvəl ətraf mühitin dəyişməsinə və sistemdaxili motifikasiyalarda özünü göstərir ki, bu da ticarətdə xüsusilə aydın görünür. Prosesin yaranmasını özünün stimullaşdırdığı yeni məqsədlərə qarşı açıqdır. Yeni layihələr dəyişən xarici şərait, dərk olunan sosial və fərdi təlim prosesləri, iqtisadi və ictimai böhran və münaqişələr – bütün bunlar bazar mübadiləsi və rəqabətin həyata keçirilməsi proseslərində yeni keyfiyyət kəsb edir, Hər an yeni məsələ və yeni qərar nəzərdə tutulur. Məqsədlərin reqlamentlənməsi, bu təkamül hərəkatının lokallaşması cəmiyyətin uyğunlaşma bacarıqlarının sadələşdirilməsinə gətirib çıxarırdı.İqtisadiyyat yalnız qabaqcadan qoyulmuş məqsədlərin səbəbləndirdiyi impulslara reaksiya verir. Məqsədlərin axtarılması və aşkarlanması üsulu kimi öz hərəkətinin lokallaşması vəziyyətində artıq bu vəzifəni yerinə yetiri bilmir.[18] Bu, iqtisadiyyata bilavasitə təsir gücünü itirə biləcək ticarətə birbaşa təsir göstərirdi.

Bazar mexanizmi dəyişməz məqsədlərə söykənə bilməz. Əks tədqirdə o, spesifik iqtisadi fəzifəsini-vasitə və məqsədlərin məhdud sayı şəraitində mümkün tələbatı ödəmək vəzifəsini yerinə yetirmək iqtidarında olur. Əgər biz iqtisadiyyatın imumi sistemini qeyri-həqiqi, subyektiv, ötəri, yüksək dərəcədə variantlı tələbləri aşkarlayıb ödəməli olan hissəsi kimi tərifini veririksə, onun məhdud tələbat vasitəsilə xarakteristikasına gəldikdə isə o, inkişaf etmiş və fərqli cəmiyyətdə həyata keçirdiyi vəzifə və funksiyaların öhdəsindən gəlməyə qadir olmur. Bununla əlaqədar olaraq, tələbatın müxtəlifliyinin sonsuzluğa gedib çıxan artımını vətəndaş cəmiyyətinin mühüm hissəsi hesab edən H.Hegeli yada salmaq yerinə düşər. «Mülkiləşdirilmiş tələbat və öz növbəsində nisbi məqsədlərə və mücərrəd tələblərə çevrilən tələbatı ödəmə üsulları da belə bölünür və çoxalır.»[19] D.Luman bütövlükdə cəmiyyəti bu cür xarakterizə edir: «Gələcək həqiqi, qabaqcadan müəyyən olunmuş məqsədlərin tıxacları ilə kip

bağlanmamışdır, gerkəkləşdirə bildiyindən daha çox imkanlara malikdir.»[20] Bu xarakteristika cəmiyyətin alr sistemi kimi iqtisadiyyata şamil edilməlidir.

Bazar nəyin gözlənilən hal kimi qavranıla və bu ümidlərin nə dərəcədə dəyişkənliyə məhz qala bilməsi haqqında ticarətə məlumat verir. Bütün bazar qərarlarının mərkəzləşdirilmiş surətdə qabaqcadan duyulması məcburi duyulma kimi təsəvvürə gəlir. Bunun yanlışlığı və fərdin gəldiyi qərarlara zərər vurması aşkar olur. Mürəkkəbliyi ilə fərqlənən cəmiyyətin gələcəyi və üstünlüyük verdiyi cəhətlər bütün təfsilatı ilə qabaqcadan duyula bilməz. Bu duyulma yalnız qısa vaxt və əlaqələrin məhdud dairəsində özünü doğruldur. Bütövlükdə ictimai inkişafı qabaqcadan müəyyən etmək olmaz, bunu fərdlərin fərdi layihələrini və onların keçirilmələrini proqnozlaşdırmaq yolu ilə etmək mümkündür. Odur ki, sistemin böyük mürəkkəbliyi planlaşdırmaya daha çox yer verilməsi üçün deyil, təcrübə və təlimin genişləndirilməsi üçün vacibdir ki, bu da informasiya əldə edilməsinin və işlənməsininqeyri-mərkəzləşdirilməsi, inhisara götürülməmiş və yüksək dərəcədə mərkəzləşdirilməmiş üsulu mövcud olarsa mümkündür. Sistem nə qədər çox mürəkkəb olduqda onun inkişafını qabaqcadan görmə imkanı da o qədər az olduğundan onun mərkəzləşdirilmiş qaydada idarə edilib planlaşdırılmasına ehdiyac yaranır. Müasir cəmiyyətin strukturu məhz belə mürəkkəblik dərəcəsinə çatmışdır, çünki o, mərkəzləşdirilmiş, planlaşdırılmış və proqnozlar əsasında deyil, fərdi proqnoz və layihələrin sonsuz variantlarığı, zəruri, ötəri, təsadüfi və arzulanan vəziyyətlərə uyğunlaşma, bunlara olan fikirlər kimi inkişaf edir. Odur ki, iqtisadi prosesləri müasir cəmiyyətin mürəkkəbliyindən çıxış edərək şüurlu surətdə planlaşdırmaq tələbinin yerinə yetirilməsinin qeyri-mümkünlüyü qabaqcadan bəllidir. Bu tələbin həyata keçirilməsi ictimai geriləmə, yəni fəaliyyət üçün əldə edilmiş müxtəlifliyin və imkanların aradan qaldırılması hesabına başa gəlir. Fərdin ətraf sosial aləminin daim dəyişən şəraitinə uyğunlaşma xüsusiyyətlərinin inkişafına kömək edəcək iqtisadi nizamın yaradılmasına daha çox səy göstərilməlidir. İqtisadiyyatın katalaksiya modelində təqdim edilən bazar belə nizamdır.[21] Məhz burada ticarət üçün müvafik imkanlar açılır və o, bu imkanları reallaşdırmaqla «iqtisadi sivilizasiya»nın zəruri nəticəsi olan yeni ticarət sivilizasiyasının (Y.Osipov) təşəkkülündən ötrü bütün lazımi zəminləri yaradır.

## 3. TİCARƏT SİYASƏT VƏ ELM BAZARINDA

Ümumi və hərtərəfli razılaşmalar və güzəştlər şəraitində bazar sərbəst müqavilə qurumudur.Ticarət insan fəaliyyətinin bazar üsulu ilə təşkilində bilavasitə iştirak edir. Bu, cəmiyyətin qeyri-iqtisadi sahələri də daxil olmaqla başqa iştirak növlərindən daha səmərəli və daha məhsuldardır. Sərbəst fəaliyyət kimi bazara ən sıx surətdə bağlanan ticarət sözün əsl mənasında təkcə qarşılıqlı fəaliyyətin iqtisadi prinsipi deyil, eyni zamanda həmin prinsipin universal paradiqmasıdır ki, buna da əsasən ciddi müəyyənləşdirilmiş şəraitdə siyasi, elmi və i.a. «bazarlar»ı təcrübədəyaratmaq və nəzəriyyədə təsvir etmək mümkündür. Bilavasitə yaratmamaq, yəni öz imkanlarını elm, siyasət bazarlarını yaratmaqdan ötrü fəallaşdırmamaqdır. Əlbəttə, çox konstitutiv elementləri mübadilə, razılaşdıdılmış ticarət azadlığı, özəl hüquq avtonomluğu olan bazar cəmiyyətləri istehsalın intensifləşdirilməsinin və plandırılmanın mərkəzləşdirilməsinin törəmələri kimi inkişaf edən cəmiyyətlərə nisbətən ictimai istehsalın reallıqları ilə daha az dərəcədə müəyyənləşdirilmişdir. Bunu hələ F. Xayyek qeyd edirdi. Bazar şəraitində sərbəst rəqabət aparan fərdlər arasında vasitəçi və əlaqə kimi ticarət hər hansı səbəb və məqsədlərin mübadilənin bütün qalan iştirakçılarını dəlil və məqsədləri ilə əlaqəliliyi şərti ilə qanunauyğunluluğunu məqbul sayır. Prioritetli məqsəd və səbəblər səbəblər yoxdur, yalnız bazar formalaşandan sonra, bazarda dövr edən nemətlərə olan tələbata əsasən, lakin onların estetik, mənəvi, səmərəli ölçüləri nəzərə alınmadan,yalnız başqa adamların istək və səylərinin oxşarlığından bu nemətlərin hansısa iyerarxiyası doğur. «Kütləvi» nemətlərin belə fərqlənməsinə baxmayaraq, bazar prosesi əsas etibarilə məqsədlərin, nemətlərin, istəklərin, hərəkətlərin bütün tipləri üçün açıqdır. Müqavilə azadlığı bazar mübadiləsi iştirakçıları arasında müqavilə bağlamasının və əməkdaşlıq edilməsinin mümkünlüyünü öz normativi kimi nəzərdə tutur.[22] Bazar şəraitində əməkdaşlıq bacarığı, buna hazırlıq artır və mücərrəd xarakter kəsb edir, çünki bazarda şəxsiyyət və status münasibətləri pul münasibətləri ilə əvəzlənir. Y.M. Osipov yazır: "Pul təkcə mal mübadiləsində vasitəçi, qiymətin dərəcələr bölünməsində bölünməsi vasitəsi, alqı-satqı iştirakçısı və yüngülləşdirici, təkcə dəyər xəzinəsi, yəni dəyər toplayıcısı deyil. Lakin pulun adətən az diqqət çəkən, amma əslində daha sanballı olan belə bir əlamətdar rolu var: iqtisadi təsərrüfatçılığın başlamaq və başa çatdırmaq, beləliklə də bütövlükdə ictimai təsərrüfatı gerçəkləşdirmək. İqtisadiyyat sadəcə olaraq pulla və onun köməyi ilə fəaliyyət göstərmir,

iqtisadiyyat puldan başlanır və pulla da (əldə edilən nəticə baxımından) başa çatır.»[23] İqtisadiyyat və ticarətdə də pulsuz heç nə baş vermir, həm də hər hansı belə əmələ başlamaq mümkün deyil. Bu eynilə ayrıca fərdin fəaliyyətinə də aiddir. Belə vəziyyətin xüsusiyyətləri nədən ibarətdir? Fərdlər öz əməkdaşlığını və qarşılıqlı fəaliyyətinin statusu, meyil və i.a. nəzərə alınmadan, lakin formal sərfə ümudlərinə və səmərəliyin məqsədəuyğun meyarlarına əsaslanmaqla təşkil edə bilərlər. Bununla bazar təsərrüfatının məqsədəuyğunluğu şərtlənir ki, onun da çərçivəsində ədalətin, mütanasibətlərin sosial meyarları deyil, səmərəlilik, qarşılıqlı razılaşdırma və iştirak meyarları «işləyir.»

*Diqqəti özünütəşkil üzərində vurğulayaraq, iqtisadiyyatın özünütəşkilin qarşı duran lakin özünütəşkil olmayan, yəni şüurlu surətdə həyata keçirilən hansısa məqsədqoyucu, iradi təşkili də nəzərdən qaçırılmamalıdır. Təşkil (qeyri-təşkil) təkcə agentlərdən hər birinin (agent yalnız özü üçün kənar aləm, başqa agentlər barəsində özünütəşkil xarakterlidir) Öz (daxili) fəaliyyətini, həm də bu fəaliyyətinin kənar idarəetmənin şamil olunduğu hissəsini, habelə bütün iqtisadi agentlər birliyinin və ya bazarın həyat fəaliyyətinin bir hissəsini əhatə etməlidir. Təşkilə, həm də mərkəzdən təşkilə pullar, habelə müxtəlif dərəcədə maliyyə vəsaitləri, mal mübadiləsi, xarici iqtisadi əlaqələr, banklar və hətta kreditcəlb edilməlidir. Yalnız özünütəşkil iqtisadiyyatı yoxdur və ola da bilməz. İqtisadiyyatda özünütəşkil və təşkil zidiyyətlə lakin ətraflı surətdə bir-biri ilə əlaqəlidir. Təşkil struktur-institusional və cari funksional idarə tapmaqla, özünütəşkili müvazinətləşdirərək, sadəcə olaraq sonuncaya qarşı durmur., həm də bilavasitə onun həyata keçirilməsini təmin edir.*

Y.M.Osipov

Bazar konsensus əldə edilməsinə kömək göstərir, çünki fərqləri aradan götürür. Bazar şəraitində müqavilə üzrə iştirakçılar və ortaqlar arasında konsensus ona görə mümkündür ki, bütün məsələkərə münasibət prizmasından baxılır, konsensusəldə edilməsi perspektivi də yalnız bunlarla əlaqəli şəkildə düşünülür.Yalnız səmərəlilik sərflər hesaba alınır. Ticarət üçün iqtisadiyyat vur-tut yalnız mübadilə sahələrindən biridir, bazar isə mübadilənin məlum məqsədəuyğun və normativ əsaslarla təşkilinin müəyyən formasıdır. Onların başlıca determinantı daha çox puldur. (Q.Zimmel). Pul bazara çıxmaq üçün zəmin və mübadilə vasitəsidir, iqtisadiyyatı qiymətləndirmək və stabilləşdirmək meyarıdır, pul iqtisadiyyatın

"god termidir (ingiliscə "müəyyən edən" ( hər yerə əliçatan Tanrı). Pul təsərrüfatı proseslərində bütün qarşılıqlı əlaqələri müəyyənləşdirir. İqtisadiyyatda hərəkət parametri kimi vaxt ilə onun pulla ölçülməsi arasında əlaqə var. Vaxt pul ölçüləri vasitəsilə idarə edilən olur. Mal və nemetlərin dəyəri və qiyməti bugün və gələcəkdə mal və nemetlərin dəyər və qiymətlərindən fərqi də pulla hesablanacaq: axı pul vasitəsilə əldə edilmiş bütün fəaliyyətlər ya ləğv olunmuş, ya da kapitallaşdırılmışdır. Vaxt sensiumu nəinki gözdən keçirmə həm də hesablana bilər. Bugünki və gələcək istehlakın miqyasını da pulun köməyi ilə hesablamaq olar. Onlar isə həmişə ticarətin keçinə bilmədiyi qiymətləndirmənin köməyi ilə hərəkət edir. "Əlbəttə,salamat qalmaq və ya da elmi mənada təkrar istehsal, həm də təkcə qiymətləndirmə subyektlərinin (satıcıların və alıcıların) deyil, obyektləri də (əşyaları da) salamat saxlamaq zərurəti qiymətləndirmənin başında əskik deyil. Lakin qiyməti hər hansısa başqa cəhətə az-çox bərk bağlamaq üçün qeyri-mümkünlüyü kimi təkrar istehsala da hər halda bağlamaq mümkün deyil. Nəzərə alınmalıdır ki, qiymət təkcə obyektiv məqamların və subyektiv cəhdlərin əksi deyil, özü-özünün başçısıdır. İstəsək də istəməsək də qiymətləndirmə xeyli dərəcədə öz-özlüyündə, lakin başqa qiymətlərlə qarşılıqlı əlaqəli şəkildə aparılır. Hər şeyin və nəyin bir-birinə keçdiyi və təsir göstərdiyi qiymətlər aləminin özünün qiymətləndirmə aləmi var. Məhz hər şey və hər nə - həm də vaxt məkanında dərhal və keçmişlə gələcəyin axını ilə əlaqədar olaraq."[24] Qiymət kimi qiymətləndirmə də hesabla müəyyən edilir, lakin vaxt sərbəst surətdə deyil, malların qiymətləri nəzərə alınmaqla hesablanır. Odur ki, qiymətləndirmə heç zaman uyğun olmur. Qiymətləndirmənin şərtləri olduğunu bilməməkdən pul diktatı yaranır.

Elm və siyasət bazarı ölçmə və qiymətləndirmənin əməliyyat meyarlarından məhrumdur, lakin hər halda onlar da ticarət bazarlarıdır. Hər iki bazar mübadilə və konsensus qaydalarına tabe olsa da, onların səmərə meyarları, onlara daxilolma şərtləri fərqlənir. Elmə tətbiqən bazara daxilolma şərtləri alimlər birliyi müəyyənləşdirir, həqiqətən qiymətləndirmə meyarı və mübadilə vasitəsidir, keyfiyyət və dəyərliliyə elmi nüfuzu təlimat verir. Tələbat pul problemi deyil, nifuz, yəni həqiqi biliklərə nail olmaq yolunda keçmiş, kapitallaşmış uğurlar problemidir, satıcı ilə alıcı arasında münasibətlər xüsusi mərzdə yaranır, çünki hər alim bir malın (nemətin) həm satıcı, həm də alıcıdır; lakin elmi nailiyyətlərin təklif olunması prosesində onlara tələbat meyarı dəyişir. Bu, təbii olaraq, deyək ki, iqtisadi, təsərrüfat bazarlarında müxtəlif alıcılıq qabiliyyəti ilə şərtləndirildiyindən daha böyük mürəkkəbliklər yaradan

tələbat dəyişikliyinə gətirib çıxara bilər. Elmi məktəblər öz xüsusi tələbini formalaşdıra bilirlər, həmdə elm bazarlarının təklifin tələbi formalaşdırdığı, bazara yeni gələnlərin isə bütün yolları bağlayan inhisarçılıqla rastlaşdığı vəziyyətlərdə azala bilər.

Metodoloji postpozitibizm diskursları qnoseoloji anorxizmlə bağlı öz konsepsiyasını, lakin onu yuxarıda təsvir olunmuş vəziyyətin antitezası kimi təqdim edir. Bu konsepsiya mövcud elm məhsulları bazarın "iqtisadi istehlak suverenliyi" (P.Feyerabend) əlamətləri daşıyan əsil bazar rəqabəti mexanizminə çevrilməsini nəzərdə tutur. İndi elmi ideyaların və ya konsepsiyanın dəyərli olub-olmadığını onların istehsalçıları deyil, istehlakçıları müəyyənləşdirməlidirlər. Elmdə nəzəriyyənin hansı məqsədlə necə tətbiq edilə bildiyini daha çox alimin adekvat başa düşdüyünün nəzərə alınmaması irəli sürülən dəlillərin nöqsanıdır. Elmi ideyanın həqiqiliyi məsələsi istehlakçılırın siyasət üçün səciyyəvi olan "ope man-ope vote"- "bir nəfər – bir səs" sxemi və ya iqtisadiyyatda qəbul olunan ope dollar-ope vote"-bir dollar bir səs sxemi üzrə demokratik razılaşması əsasında həll edilə bilməklə, əvvəlcədən sahibi olmağı, bu həqiqəti bazar münasibətləri iştirakçılarının bilməyini nəzərdə tutan xüsusi razılaşma tələb edir. Lakin bu konsepsiyada ideyalar sahəsində nəyin dəyərli olduğu və nəyin dəyərli olmadığı məsələsinin özünün həll etdiyi vəziyyətin təhlükə daşıdığının göstərilməsi şəksiz nailiyyətdir; məhz buradan rəsmi elmə yad adamlar üçün elm məhsulları bazarı açmaq tələbi irəli gəlir, elm məhsulları bazarının elmin özü tərəfindən inhisara alınması proseslərinə qarşı mübarizənin qeyri-mənəvi, qeyri-konvensial metodunun tətbiqi güman edilir.

*Bazar fərdlərin sərfəsinə əsaslanan sosial optimiumunu bir-biri və kortəbii surətdə şərtləndirmir, lakin fəaliyyət avtonomluğunun və nemətlərin mühafizəsinin vəhdəti olan azadlığın qorunub saxlanmasına kömək edir. Buna görə də azadlığa nail olmaq imkanları səmərə artımı göstəricilərinin köməyilə hesablanmağa yatmır; azadlıq öz-özlüyündə elə nemətdir ki, ona nail olmağın üstünlüyü ancaq planlı iqtisadi nizamla müqayisədə qiymətləndirmək olar. Sosial optimumu nemətlərin artımı vasitəsilə qiymətləndirmək olmaz, yalnız məsul hərəkətin mümkünlüyü kimi azadlıq vasitəsilə müəyyənləşdirmək olar.*

P.Kozlovski

Avstriya inhisarçısı, məşhur "İqtisadi təhlil tarixi" nin müəllifi Y.Şumpeter siyasətdə partiyaların demokratik mübarizəsi ilə iqtisadi rəqabət arasında əlaqəni, siyasət bazar

kateqoriyalarının tətbiqinin mümkünlüyünü göstərən ilk tədqiqatçılardan idi.[25] Bu problematika sonralar bir çox müəlliflər tərəfindən işlənmişdir. İqtisadi və siyasi sahibkarlıq, analogiyalar seçici və istehlakçı arasında izlənən anologiyalar bazar və ticarət münasibətləri konsepsiyasının demokratik siyasət prosesin təhlilinə tətbiqinin səmərəsini təsdiq edir.

Bütün bu bazarlar-iqtisadiyyat, elm və siyasət bazarları üçün səciyyəvidir ki, onlar qabaqcadan müəyyən olunmuş məqsədlərə nail olmaq üzrə fəaliyyət sahəsi kimi finalizm baxımından şərh edilə bilmir. Onlar maddi və məqsədəuyğun amilləri reallaşdırmır, lakin, yalnız və yalnız səmərəli meyarlar (iqtisadiyyatda pulla ölçülən səmərəlilik,elmdə həqiqət, siyasətdə inteqrasiya) mövcudluğundan onlara nail olmağın məqsəd və vasitələri haqqında həmin təsəvvürlərin formalaşmasını və ifadə tapmasına mümkünləşdirir.

Bu, onların istifadə etdiyi vasitələr və meyarlar o qədər formal və ümumidir ki, yeni qərarlara və yeni prioritetlərə yer verir.Bunlar ibarət olduğu altsistemlərin formadəyişməsini və təlim bacarığını təmin edir. Məqsəd və meyarların hər hansı şəkildə məzmunca (əyani surətdə) müəyyənləşdirilməsi sistemin fəaliyyət potensialının məhdudlaşmasına və ya itkilərə aparıb çıxarır. Əgər iqtisadiyyat müəyyən istehsal məqsədlərindən ("ağır sənaye üstünlüyü"ndən) və ya siyasi məqsədlərdən çıxış edirsə; əgər elm müəyyən axtarış ("əhəmiyyətlilik") məqsədlərini güdürsə, siyasət isə inteqrasiya ("sinfi maraqlaq naminə siyasət") prioritetlərinə istiqamətlənmişsə, hansısa bir məqsədə tətbiqən, butün qalan məqsədləri hesaba almadan qısamüddətli uğur qazanıla bilər ki, bu da bütövlükdə sistemin optimal inkişafına kömək etmir.[26]

Lakin iqtisadiyyat öz inkişaf sistemini qurmaqda yalnız qısamüddətli müvəffəqiyyətə istiqamətlənmir. Dəyər mübadilə-qiymətləndirmə, rəqabət təsərrüfatı olmaqla o, əsas etibarilə özünütəşkil təsərrüfatıdır. İqtisadiyyatın bu xüsusiyyətlərini və özünütəşkili bazarın həyata keçirdiyi nəzərdə tutulmaqla adətən bazarın təşkili adlandırırlar. Bazar əlbəttə ki, pul, mal, mübadilə aksiyaları, qiymət, təklif və tələb kimi atributları ilə birlikdə rəqib agentləri özünütəşkil birliyidir.[27] Bu məqamı nəyi-siyasi və nəyi iqtisadi razılaşmanı prioritet saymaq məsələsinin həllində olduğu kimi, iqtisadi və siyasi amillər arasında nisbət məsələsinin həllində də nəzərə alınmalıdır. Bəs burada ticarətin yeri varmı və nədədir?

# 4. SAZİŞ TİCARƏTDƏ İQTİSADİ ƏLAQƏLƏNDİRMƏ MEXANİZMİNİN ƏSASI KİMİ

Öz legitim əsaında hökmranlıqdan azad, bərabər qüvvələrin oyunu olmağı burjua cəmiyyəti üçün şübhə doğurmayan şərtdir. Deməli, o, öz əsasında hansısa siyasi hökmranlığı doğrulda bilməz. Burjua cəmiyyətinin siyasi iddiaları hökmranlıqdan azadlıq iddialarıdır. Hökmranlıq quruluşu olan dövləti hökmranlıqdan azad vətəndaşların birliyi əvəz edir. İqtisadi planda fərd azadlığı şəxsləndirilməmiş, zorsuz bazar qanunları ilə müəyyənləşdirilir. Mənəvi planda birlikdə yaşamaq hüquq və imkanların ümumiversallığı meyarının ağlabatanlığı etiraf faktı ilə müəyyənləşdirilir. Liberal nəzəriyyə baxımından dövlət arxa plana sığışdırılır, onun yerini iqtisadi cəmiyyət və vətəndaşlar birliyi tutur. İctimai nemətlər yaratmaq vəzifəsinin istisna prinsipinin tətbiqə yararsızlığı prinsipinə əməl olunması, həmin nemətlərin bölünməzliyi və istehlakın ahəngdarlığı şərti ilə özəl istehsalın və nemətlərin bazar vasitəsilə bölüşdürülməsi, bu məsələlərin özəl qaydada həyata keçirilməsi, bütövlükdə cəmiyyət üçün sərfəli olmadığına görə dövlətin yerinə yetirməsi zəruri sayıldıqda qərar konsensusun köməyi ilə konsensus fərdi ehtiyacların zordan azad, qarşılıqlı əlaqəli surətdə əlaqələndirildiyi quruma siyasi əlavəyə çevrilir, Odur ki, bazar çərçivəsində qəbul edilmiş qərarlar gizli konsensus kimi səciyyələndirilə bilər. Bazarı, iqtisadi qanunları siyasi qarçılıqlı fəaliyyət qurumları ilə əvəzləməyə göstərilən bütün cəhdlər yalnız bütün cəmiyyət tərəfindən qəbul olunduqda hesaba alınır. Burja cəmiyyətində hökmranlıqdan azadlıq ideyası bazar və konsensusla tamamlanmalıdır. Tarixən bu qarşılıqlı əlaqə bazar iqtisadiyyatının və parlament demokratiyasının qarşılıqlı şərtlərində və bir-birindən asılılıqda özünü göstərir.

Bu gun siyasi iqtisadi bazarla konsensusun əlaqəsinin işlənib hazırladığı yeni iqtisad şəklində (C.Byukenen, Q. Tullok) dirçəltməyə səy göstərilir ki, bu da ticarət mexanizmlərinin spesifikasını, vasitə olmasını və qarşılıqlı əlaqəsini aşkara çıxarmışdır. Məsələyə belə yanaşma onunla maraqlıdır ki, bazar mənafelərini konsensusun, o cümlədən ticarət konsesusunun meyarları əsasında genişləndirərək, siyasi qərarlar sferasını məhdudlaşdırır. Fəlsəfi kontekstdə konsensusa bazarın iqtisadi qərarlarına siyasi təsirin və nəzarətin genişlənməsi, demokratikləşmənin müdafiəsi xeyrinə dəlil kimi baxılır. Amerika tədqiqatçıları konsensus ideyasından istehlak suverenliyinin və bazarın iqtisadi qərarlarının qanuniliyinin müdafiəsi məqsədi ilə istifadə edidilər. Amerika ədəbiyyatında

konsensus ənənəvi “qovernment bu konsent “(“razılıq vasitəsilə idarəetmə”) ideyasının müdafiəsi, bununla da mövcud vəziyyətin saxlanması xeyrinə dəlilə çevrilmişdir. İnistitusionalist C.Byukenen bazarda razılaşdırılmış vahid ticarət qərarlarının formalaşdırılması mexanizmini görür.[28] Bazar üzrə ortaqların müqaviləsi onların razılığı ilə eləcə də bazar mübadiləsinin qalan iştirakçılarının gizli razılığı ilə bağlanır, çünki bazar qiymətini formalaşdırmaq prosesində bazar işlərinə cəlb olunmuş bütün fərdlər iştirak edirlər. Siyasi seçim şəraitində bu, müstəsna hallarda baş verir. Söhbət hər şeydən əvvəl iştirakşıların mövqeyi əsasında bazar çərçivəsində qərar qəbulu mexanizmlərinin müqayisəsindən və səsvermədən gedir.[29] Hansı qərarların daha yaxşı və daha səmərəli olması barədə suallara cavab axtarmaq lazım deyil, hansı qərarın qəbulu mexanizmlərinin insanların fərdi azadlığına daha daha çox təminat verən, onların arzularını və nələri üstün tutduqlarını daha yaxşı nəzərə alan mexanizmləri aydınlaşdırmaq lazımdır. Bazar qərar qəbulu mexanizminə, fərdi prioritetlər haqqında informasiyanın yayılması və işlənməsi alətinə çevrilir. C.Byukenen bazarla səsvermə arasına yeddi prinsipial fərqi nəzərə çatdırır.

Bazar qərarı fərd üçün öz seçiminin nəticələrinə daha çox inamı və məlumatlılığı baxımından daha çox məqbul ola bilər. Qərar alternativlik mövqeyindən birmənalı şəkildə qəbul edilir, halbuki, səsvermə səslərin son qərara təsir göstərəcəyinə daim inam yaradır. Seçici başqa seçicilərin necə davranacağını qabaqcadan deyə bilməz, bu dövranışın eytimal dərəcəsini müəyyənləşdirmək iqtidarında deyil, halbuki, satıcı və ya alıcı üçün onların hərəkətlərinin çərçivəsi bazar qiyməti ilə müəyyən olunmuşdur. Bazar və ticarət fəaliyyətinin nəticəsi onun hər subyekti üçün qabaqcadan bilinəndir və məlumdur, halbuki, seçici verdiyi səsin nə ilə nəticələnəcəyi haqda məlumatlı olmadan hərəkət edir. Düzdür, bazarın və konsensusun qarşı-qarşıya qoyulması onların alternativ imkanlarını məhdudlaşdırır. Ona görə də iqtisadi, siyasi seçim və qərar qəbulu sistemlərin bir-biri ilə müxtəlif əlaqəliliyi mümkündür. Nəticədə, bütün deyilənlərdən savayı, bu ticarətdə, habelə ticarət sazişlərinin qəbulunda və həyata keçirilməsində özünü göstərən belə ziddiyyətlərin aradan qaldırılmasına imkan verir.[30]

Bazarda fərd özünü elə aparmağa çalışır ki, sanki sosial amillər onun öz hərəkətləri xaricində qurulur və onun arzusu ilə dəyişə bilməz. Buna görə də onun və ticarətdə davranışı seçkilərdə davranışından fərqli olaraq daha subyektiv daha eqosentrikdir. Onun bazar davranışı cəmiyyətə ziddir, zövqdən

(tastes) irəli gəlir, onun seçici kimi özünü aparması ictimai baxımdan adekvatdır, qərarlarına qiymət səbəbdir.

Kollektiv hərəkətlər doğuran sazişlər barədə ictimai və ya kollektiv qərarlara məsuliyyət mütləq bölüşdürülməlidir. Fərd başqasının hərəkətinə heç cür təsir göstərə bilmədiyindən bütövlükdə qərar üçün şəxsi məsuliyyət daşımır. Buna görə də hesab etmək olar ki, məsuliyyətin mənası, məsuliyyət daşımağa hazırlıq alternativ itki və sərfələrin dəqiq və obyektiv uçotundan ibarətdir. C.Byukenen belə bir müddəanı əsas tutur ki, fərd bazar şəraitində daha böyük məsuliyyətlə və işi daha yaxşı bilməklə qərar qəbul edir. Çox zaman bu, şübhələnməyə vadar edir ki, öz qərarlarında ictimai xeyrə istiqamət götürən fərdlər təklif olunmuş bütün alternativlərin naminə və əleyhinə olan cəhətləri real hesabını aparmağa hazır və ya aparmaq iqtisadiyyatında deyil. L.fon Mizeslə birlikdə Byukenen qeyd edir ki, bazar mexanizminə cəlb edilmiş fərd siyasi mübarizə iştirakçısından daha az rüşvətxordur. İnsan iqtisadi qərarları müstəqil surətdə qəbul etmək bacarığını o qədər də asanlıqla itirmir, siyasi qərarlarda isə bunun əksini götürürük, çünki onlar müstəqil surətdə deyil, qrupun təsiri altında qəbul olunur.[31]

Bazar "daha çox-daha az" prinsipi ilə kəmiyyət göstəriciləri seçiminə yol verir, halbuki, səsvermə əsas etibari ilə "ya bu-ya o" prinsipi üzrə seçim təklif edir. "Əgər fərd müəyyən mal və nemətləri daha böyük miqdarda almaq istəyirsə, bazar təbii qalaraq belə bir tələb irəli sürər ki, o, başqa mal və xidmətləri daha az miqdarda alacaq səsvermə çərçivəsində bu tipli alternativlər əslində mümkün deyil[32]. Çünki birinin seçilməsi digərinin seçilməsini istisna edir. Bundan yalnız bəzi seçki mexanizmlərində "one dollar-one vote" prinsipinin müxtəlif mal, nemət və xidmətlərin seçimi və kombinasiyasına yol verildiyi bazarda alıcılıq qabiliyyətinin ayrı-ayrı dərəcələrə bölünməsindən fərqli olaraq seçicilərin səslərinin müxtəlif alternativlərə bölünməsi məqbuldur. Bazarda qərara gəlmək qabiliyyətinin

> *İnkişaf strategiyasının təminliyi ixracyönlü inkişafdan daha çox daxili bazara və daxili artım mənbələrinə söykənməyə üstünlük verilməsini nəzərdə tutur. Qeyd edək ki, ixrac tipli inkişafı həyata keçirən ölkələrin heç də hamısı uğur qazanmamışdır. Müvəffəqiyyət ölkələr yüksək əlavə dəyərli məhsul buraxılışında ixtisaslaşmaya keçdikdə müvəffəqiyyət əldə edirlər. Eyni zamanda iqtisadi yüksəlişi proteksionizm və qapalılıqdan başlayan ABŞ-nın təcrübəsi də nəzərə alınmalıdır.*
>
> B.T.Ryazanov

(yəni alıcılıq qabiliyyətinin) fərqli xarakteri daha böyük dəqiqlər dərəcəsi ilə qərar qəbul etməyə imkan verir. Səslərin bölüşkənliyi və tələbatın dəyişkənliyi ucbatından daha çox və ya daha az fondları vasitəsilə üstünlük verilməyin intensivliyinə əsasən bazar vahid ehtimal dərəcəsi ilə fəaliyyət göstərən mütənasib vahid təmsilçilik sistemi kimi görünür.

"One dollar-one vote" nisbəti heç vaxt pozulmayaraq, fərd siyasət aləminin tez-tez baş verdiyi kimi bazarda fərd çoxluğunun rəyinə qoşulmağa məcbur olan azlığın vəziyyətində heç vaxt olmayacaq, halbuki, o səsvermədə üstünlük verdiyi cəhətlərə zidd nəticədə gözləyə bilər. Belə halda o, "daha az-daha çox" prinsipi üzrə deyil, "ya o –ya bu" prinsipi üzrə seçim aparmalıdır.[33] C. Byukenin fikrincə, seçici öz tələbini müvafiq təklif hesabına heç də həmişə ödəyə bilməz. Bu, alıcının, məsələn, alıcılıq qabiliyyəti arzulanan nemətlər istehsalının dəstəklənməsi üçün kifayət etmədikdə və ya onların bazarda yox olmasının qarşısını ala bilmədikdə baş verir. Bundan başqa, təklif olunan və həyata keçirilən alternativlərin miqdarı "dollar-vote" prinsipinə tam uyğun deyil, belə ki, ayrıca fərd ələ keçilə bildiyi məhsul üçün bazar tapmaz.[34] C. Byukenenin rəyinə görə, belə vəziyyətə həm bazar,həm də səsvermə (saziş qəbulu) şəraitində rast gəlinir. Seçim alternativlərinin sayı həmişə məhduddur.

Bazarda alıcılıq qabiliyyətinin qeyri-bərabər ölçüsü və qəbul olunmuş qərarların qüvvəsi məsələləri üzərində düşünərək, C. Byukenen belə nəticəyə gəlir ki, bazar və ticarət mübadiləsində qeyri-bərabərlik fərdi azadlığın deyil, fərdi hakimiyyətin qeyri-bərabərliyidir. Azadlığın olmaması elə vəziyyət deməkdir ki, bu vəziyyətdə fərd adətən ixtiyarında olan resurslardan öz fəaliyyətini həyata keçirmək üçün istifadə edə bilmir. Qeyri-bərabər alıcılıq qabiliyyəti azadlığı əldən almır, lakin daha az dövlətli olanların iştirakını məhdudlaşdırır.

Hansı həll mexanizminin bazarın yoxsa səsvermənin sosial qrupun daha səmərəli təşkilinə kömək etdiyi barədə suala bir-birindən fərqli cavab vermək olar. Səmərəliliyə fərdi davranış mövqeyindən baxıldıqda bazar daha səmərəli üsul kimi görünür. Hər fərdin öz işinin nəticələrinə görə böyük məsuliyyəti kimi fəaliyyət nəticələrinə böyük inam da daha səmərəli qədər qəbuluna köməkedir. "Seçim qüvvəsin"də fərqlər bazarda yaranan qərarları daha çevik və dəqiq edir. Lakin bazar şəraitində qəbul edilmiş qərarların səsvermə yolu ilə qəbul edilmiş qərarlardan daha səmərəli olması faktı fərdi davranış barəsində o demək deyil ki, bazarın qərarlarının sosial səmərəsi daha yüksəkdir.[35]

Siyasi məsələlər üzrə səsvermə insanda bütün ən yaxşı cəhətləri oyatdıqda və fərdi ictimai fayda prioritetləri ilə hesablaşmağa sövq etdikdə daha yüksək

sosial səmərəyə kömək edə bilmir. Qərarların hansı sferasında: özəl-iqtisadi və ya ictimai-siyasi sferasında səmərəliliyin özünü daha çox büruzə verdiyini qət etmək son dərəcə çətindir. Vətəndaşların özlərinə aid sfera iqtisadi qərarların qəbulu zamanı məlumatlılıq və səmərəlilik mətləblərini onların siyasi bilikləri və siyasi seçimi ilə müqayisə oluna bilər. İ.Şumpeterin rəyinə görə, həll olunan məsələlər fərdin insani şəxsi həyat aləminə qədər yaxındır, onun siyasi səmərəsi də bir o qədər yüksəkdir.[36] Yəni vəzifələr iqtisadi xarakterlidir. Bazar fərdi azadlıq və fərdi fəaliyyət miqyasları cəmiyyət üçün üstün meyarlar olduqda daha mükəmməl qərar qəbulu mexanizmi sayıla bilər. Əgər sosial firavanlıq və ya ictimai xeyir ideyası,hətta ən naqis ideya belə əsas tutulursa, səsvermə qərar qəbulunun üstün forması olur.[37] Özəl mülkiyyət anarxizmi və sosial təkamül ideyalarından fərqli olaraq, C.Byukenen hesab etmir ki, bazarın bütün qanunları səmərə baxımından legitimdir. Əgər özəl sahibkarlar müəyyən nemətlərin (məsələn, ölkənin müdafiəsi üçün lazım olan və oxşar nemətlərin) sərfəli saymırlarsa, haqq ödəməyən istehlakçıları aşkara çıxarmaq mümkündürsə, bazar həmin nemətlərin istehsalından imtina edə bilər. Belə hallarda qərarlar hansı əlamətlər üzrə qəbul olunmalıdır. Bazar modeli nəzərdə tutur ki, hər hansı qarşılıqlı fəaliyyətdə istehsalın istər gəlir və ya itki olsun, bütün dolayı nəticələri ortaqlara məlumdur və onlar tərəfindən kalkulyasiya aparılmışdır. Qiymət əşyanın müvafiq mübadiləyə razılıq vermiş mübadilə iştirakçılarının dəqiq dəyərini əks etdirir. Bütün qalan xarici effektlər ya həmin sövdədə iştirak etmədiklərinə görə fərdlərə təsir göstərmir,ya da onlar artıq bazar qiymətinə daxil edilmişdir ki, bununla da fərd ticarət fəaliyyətinə istiqamətlənir.[38] Ticarət qarşılıqlı bazar fəaliyyəti kimi iştirakçıların vahid hədəf seçdiyişəraitdə həyata keçirilir. Sövdə yekunları üzrə heç kəs müəyyən qiyməti ödəməyə və ya istehsal olunmuş məhsulun bir hissəsini başqasına verməyə məcbur edilə bilməz. Bu məcburiyyətdən azadlıqın vəziyyəti dövlət maliyyə-iqtisadi qərarlarının ya müvafiq azadlığını nəzərdə tutur. Məcburiyyətdən azadlıq siyasi mənada ancaq bir şey haqqında hamının razılığı deməkdir. C.Byukenen üçün razılıq prinsipi bazar prinsipinə uyğundur.[39] Hər hansı başqa

> *Dəyər miqdardır, ədədlərdə, sonuncular isə rəqəmlərdə ifadə edilmişdir. Alqı-satqı miqdar və rəqəmlərində. Alqı-satqı həm də ticarət rəqəmini- qiyməti müəyyənləşdirən rəqəmlər dialoğudur. Hər qiymətin yaranması hətta hər hansı məntiq yoxluğunadək öz məntiqi var. Qiymət aramsız təzyiq təsirinə məruz qalsa da, sərbəstdir.*
>
> Y.M.Osipov

qərar qəbulu qaydası əksəriyyət xərcləri (məsələn, ictimai işlərə dair vergiləri) bağlamağa icazə verir. Azlığın çoxluq tərəfindən vergilərin köməyi ilə uzunmüddətli istismarı tamamilə mümkündür. Ancaq razılaşma qaydası istənilən kollektiv qərarın hüdudlarını, kollektivliliyin fərdilikdən ucada durduğu belə qərarın normativini müəyyənləşdirməlidir. Hər hansı milliləşdirməni məcbur etməklə bağlı olduğundan və ya bunu məqbul saydığından ağıllı fərd heç vaxt bununla razılaşmaz və azad fəaliyyətinə – bazar üstünlük verər. Yalnız razılıq qaydaları ona kollektiv qərarların könüllü xarakterinə təmimat verir və perspektivdə dövlət fəaliyyətini həyata keçirmək xərclərini aparmağa məcbur etmək imkanını məhdudlaşdırır. Digər tərəfdən, razılıq tələbi optimal qərar axtarışına məsrəfləri artırır. Konsensus bahadır, ən azı vaxt tələb edir. Beləliklə də optimal siyasi qəraraxtarışına və dövlət tərəfindən müəyyən edilmiş əlaqələndirmə və istehsal formalarında bazar qərarının həyata keçirilməsinə xərclərin və sərfələrin kalkulyasiyası yaranır. Bu, xarici xərclər müəyyənləşdiriləndə və eyni zamanda xərclər qəbul edilmiş qərarlardan fərqləndiriləndə xüsusilə vacibdir.

Kənar xərclərdən danışılarkən nəzərə almaq lazımdır ki, bu anlayışla gəlirlilik səviyyəsinə təsir göstərə bilən üçüncü şəxslərin hərəkətlərinin iqtisadi nəticələrini və başqalarının fərdin nəzarət edə bilmədiyi hərəkətlərinə görə düşdüyü xərcləri əlaqələndirmək olar. Hər hansı fəaliyyət kimi dövlət fəaliyyətinin də fərd üçün istər mənfi, istərsə də müsbət nəticələri ola bilər. Daha ağır vəziyyət heç kəsə heç vaxt kompensasiya edilməyən mənfi kənar nəticələr ucbatından yaranır. Kollektiv və dövlət bu məsrəfləri başqalarının çiyninə yükləməklə və ya onları vurulan zərəri ödəməyə məcbur etməklə bu məsrəfləri azalda bilər. Bununla birlikdə dövlət siyasi qərarlarında da fərdin razılığı ilə hesablaşmadan məsrəflərin onun çiyninə atılmasına yol verilir; burada fərdin dövlət xidmətlərini istehlak etməsi və bunlara görə vergi ödəməsi şərtdir. Əgər fərd belə qərarların yalnız və yalnız səslərin mütləq çoxluğu ilə qəbulu tələbində təkid göstərsə, kənar xərclərini aşağı sala bilər. Qərarlar yalnız onun razılığı ilə edilir və onun tərəfindən bəyənilirsə, o ümumiyyətlə bu xərclər maddəsini ləğv edə bilər. Amma kollektiv fəaliyyətin özü də məhz konsensusa nail olmaq, vaxt, əsəb və s. xərclərini tələb edir. Kənar xərclər və qərar qəbulu xərcləri fərdin, istər cəmiyyətdə, istərsə də dövlətdə olsun, bütün qalan yaşama xərcləribdən asılı surətdə həyatı üçün ödəyəsi qiyməti təşkil edir. Bu, qarşılıqlı sosial asılılığının qiymətidir.[40] Həmin xərclərin hər hansı sosial qrup üçün maksimum azaldılması hər hansı sosial təşkilatın məqsədi olmalıdır. Bu zaman

qərar axtarışı və ifadəsi xərclərinə gətirib çıxarmayan konsensusun özü də qarşılıqlı asılılıq probleminin ideal həllinə çevrilə bilər.

Fərd hansı qaydaların qəbul edilməli olduğu barə də düşünərək, gözlənilən kənar məqsədləri, habelə qərar qəbulu məsrəflərini nəzərə almalıdır.

Onun ***"Calculus of consent"i*** kalkulyasiya razılığı xeyli dərəcədə gözlənilən qarşılıqlı sosial asılılıq məsrəflərindən asılıdır. Azlıq nə qədər az müdafiə olunmuşdursa, bunun xarici məsrəfləri də bi o qədər çox olacaq. Əksinə qərar qəbulu qaydalarının uzaqlaşması möhkəmləndikcə məsrəflər azalır. Gözlənilən xarici məsrəflər fərd üçün qərar qəbulu qaydalarının tətbiqi funksiyasıdır.[41] Əgər qərarı fərd qəbul etməlidirsə, məsrəflər çox yüksək olur. Diktat vəziyyəti barədə belə qənaətə gəlmək mümkündür ki, fərd arzuolunmaz saydığı işləri həyata keçirməlidir. Qərar qəbulu qaydaları tətbiq edilsə, mənfi nəticələri, zahiri effektləri heçə çıxarmaq mümkündür, çünki fərd yalnız ona fayda gətirəcək qərarları dəstəkləyir.

*Qiymәti müәyyәnlәşdirәrkәn A malını B malına bәrabәr tutmaq heç dә mütlәq lazım deyil, A malını hәm dә fәrdin özünә bәrabәr tutmaq (mәcazi mәnada güzgüyә yaxınlaşdırmaq) olar, çünki eyni zamanda burada hәr şey rәqәmlәrdә dә, qiymәtlәndirilәn malla әlaqәdә dә ideal vә qeyri-realdır. Ümumiyyәtlә mal rәqәmlәr mühitindәdirsә, artıq hansısa şәkildә hesablanmış olur. Hәr mal istәr qeyri-real olsun, istәr güzgü mәşәli (güzgüdәn görünәn) olsun, hәmişә rәqәmdir. Bu rәqәmin düzgün olub-olmaması, başqa rәqәmlәrlә, habelә digәr rәqәmlәrin mәcmuu sistemi ilә tәsdiqini tapa bilib-bilmәmәsi başqa mәsәlәdir.*

Y.M.Osipov

Belə mülahizələrdən gözlənilən qərar qəbulu məsrəflərini hesablamaq üçün istifadə etmək olar. Bu məsrəfləri öz cəhd və arzularının aydınlaşdırılması ilə bağlı subyektiv səylər kimi deyil, daha çox xarici vəhdətin ***(aqreement)*** gerçəkləşməsindən irəli gələn səylər kimi başa düşülməlidir. Razılıq verməli olanların sayı artdıqca, qrup böyüdükdə həmin xərclər artacaq. Əgər fikir birliyi zəruridirsə, qərar qəbulu xərcləri yenə də ölçülməz dərəcədə artacaq, çünki fərdi davranış strategiyasının necə olacağını qabaqcadan demək deyil. Hər kəs ciddi güzəştlərə məcbur edə bilər. "Hər seçici çox mühüm resurslar üzərində, yəni öz xüsusi mövqeyi üzərində təkbaşına hüquqa malikdir; hər şəxs razılaşmaların qarşılıqlı faydadan öz xeyrinə istifadə etməyə çalışır." (C.Byukenen) . Qərarların qəbulu xərclərinin həcmi anoloji vəziyyətlərdə xarici xərclər

kimi tərs münasibdir. Qərarların fərd tərəfindən qəbul olunduğu diktatura şəraitində qərar qəbulu məsrəfləri sıfıra bərabərdir; əgər bütün əlaqədar şəxslər qərarı birlikdə qəbul etməlidirlərsə,birliyə nail olmaq məsrəfləri də çox yüksək olacaq. Əfər fərd öz fəaliyyəti üçün lazım kollektiv qərarların çıxarılmasında iştirak edirsə, qərar qəbulunda xüsusi fəaliyyət lazımdır. Bu anlayışların (“xarici xərclər, və qərar qəbulu xərcləri”) hər ikisi gözlənilən fərdi xərcləri, kollektiv hərəkətlərdə iştirak qiymətini xarakterizə edir; fərdin öz hərəkət qaydalarını seçməyin kömək göstərən meyarların formalaşmasına da onlar təkan verir. Səmərəli iş görən fərd xarici qərarların qəbulunda xərclərin məbləğinin azalmasına çalışmalıdır.[42]

Səmərə haqqında fikirləşən fərd baxımından qrup və ya kollektiv üzvləri qərar qəbulunun baş tutması üçün ümumi razılığa gəlməlidirlər. Öz hərəkət strategiyasını seçməkdə həddən çox bir-birindən ayrı düşməmiş, lakin artıq da birləşməmiş səlahiyyətli çoxluğun tələb etdiyi qərar qəbul olunub bəyənilir. Ayrı-ayrılıqda hər kəs bilir ki, kollektiv iş ondan müəyyən xərclər və xüsusən onun icazəsi, razılığı nəzərə alınmayan iş tələb edəcək. Digər tərəfdən o, eyni dəqiqliklə dərk edir ki, qərar qəbulu qaydaları nə qədər ciddidirsə, bunların gerçəkləşməsinə bir o qədər çox xərc sərf etməyə məcburdur. Fərdin hansı kompromis qərar qəbul edəcəyi, hansı məsrəfləri-xarici məsrəfləri və ya qərar qəbulu məsrəflərini üstün tutacağı xarici şəraitindən (məsələn, qrupun böyüklüyündən) və ya qrupun sərvətlərinin yekcinsliyindən asılı olacaq. Aydındır ki, qərar qəbulu xərcləri müəyyən yer hüdudlarından kənara çıxmayan və region birliklər tipli kiçik qruplarda daha azdır, konsensusa isə daha az səy göstərilməklə nail olunur. Bu, federalizm xeyrinə son dəlil deyil. Yüksək regional inkişaf sürətinə malik ölkələrdə yerli və ya regional konsensusu müəyyən etmək imkanları daha çoxdur, çünki bir-biri ilə razı şəxslərin sayinin artması mənəvi və siyasi birliyə kömək göstərir ki, buna görə də kollektiv qərarların qəbulunu asanlaşdıran vahid əhəmiyyətə istiqamətlənmə yaranır.[43] Bu, iqtisadi məqsəd və vəzifələrin reallaşmasına müəyyən rol oynayır.

Ağıllı fərd hər hansı kollektivin qərarı barəsində razılaşdırma qaydalarına qarşı eyni tələbləri irəli sürməz, lakin müxtəlif tipli qərarların qəbulu üçün müxtəlif razılaşdırılma qaydalarının aşkara çıxarılmasını ağlabatan və düzgün sayacaq.

Qayda seçimi qarşıya qoyulmuş vəzifənin və özgə adamların qərarlarını qiymətləmdirmənin mürəkkəbliyindən aslıdır. Hüquqları, o cümlədən mülkiyyət hüququnu,müvafiq surətdə həm də fəaliyyət şəraitini müəyyənləşdirən

konstitusiya qərarları üçün konsensusun dövlət işləri icrasının tələb etdiyindən daha yüksək səviyyəsi lazımdır. Əgər konstitusiyaya ümumi qaydalar sistemi kimi baxılsa onun işlənib hazırlanmasında vəhdət zəruri tələbdir.

Cəmiyyət çərçivəsində gündəlik qərar üçün konsensus tələb etmək düzgün deyil, çünki belə vəziyyətdə qərar qəbulu xərcləri fərdin başqaları tərəfindən qəbul olunmayan qərarın həyata keçirilməsindən dəyən zərərlərdən çox olacaq. Fərd üçün qərar qəbulu prosesini başqalarına həvalə etmək, hətta o, bu prosesin tapşırıldığı şəxslərin intellektual potensialına şəxsən naməlum olmasa da, ağlabatan və iqtisadi cəhətdən sərfəlidir. Gözlənilən qüsurlar isə qərar qəbulu prosesi iştirakçısının xərclərindən hər halda daha az əhəmiyyətli görünəcək. Qərar qəbulu məsrəfləri ticarət və iqtisadi fəaliyyət də daxil olmaqla optimal funksiyalar seçicimində səmərənin əsaslandırması xeyrinə mühüm dəlildir. Əksəriyyətin qəbul adi etdiyi qərar öz xarakteri baxımından müəyyən vəziyyətdə fərd üçün səmərəli məna daşıyan çoxsaylı axtarış qaydalarından biridir. Bütövlükdə, Byukenenin fikrincə, güman etmək olar ki, insan yaxşıca fikirləşəndən sonra əksəriyyətin qaydasını seçməz, çünki hesaba alınmayan azlıq sıralarına düşmək şansları həddən böyükdür, əksəriyyətin diktaturasını qurmaq imkanları isə həddən genişdir. Bu, xüsusilə, həmişə dəyanətli və yekcins istiqamət və səylərə meyilli olan eyni fərdlərdən formalaşan əksəriyyət hansısa bütövliyə çevriləndə özünə yer alır. Əksəriyyətin seçiminin əksəriyyətin dəyişkənliyi, əksəriyyətlə azlıq arasında yeni-yeni koalisiyaların mümkünlüyü bütün mümkün alternatiflərin qiymətləndirilməsində və onların prioritetlərinin müəyyən edilməsində birlik ola bilməz. Lakin belə vəziyyət əksəriyyətin maraqlarının müəyyən dərəcədə yekcins olmadığını da nəzərdə tutur. Əks təqdirdə stabil koalisiya və azlığa təzyiq yaranır. Nə əksəriyyət, nə də azlıq bütün alternativlərin qiymətləndirilməsində və prioritetlərin müəyyən olunmasında eyni mövqedədir. Yeni problemlər əksəriyyətlə azlıq arasında yeni münasibətlərin, yeni təmas nöqtələrinin formalaşmasına kömək etməlidir. Diskussiya gedişində deputatların prioritet və mövqelərinin dəyişməsinin, yeni birlik və koalisiyaların yaranmasının məqbul sayıldığı parlamentarizm ideyası məhz belə oriyentasiyaya uyğundur. Bir fraksiya daxilində siyasi məsələlərin optimal həllinin axtarılması prosesində oriyentasiyanın və rəylərin müxtəlifliyi müxalifətin formalaşmasının şərti və mümkünlüyüdür. Bununla da bazarın törətdiyi ən mürəkkəb iqtisadi vəziyyətlərdə qərar qəbul etmək qabiliyyəti formalaşır.

Həmin bu və ya digər iqtisadi problemin (ticarət-qiymət probleminin) həllinə öz münasibətini dəqiq müəyyənləşdirmək üçün imkanlarınınyetərincə

olub-olmaması məsələsi ortaya çıxır. Hətta əgər güman edilsə ki, konsensusa nail olmaq üçün müxtəlif dəyərli alternativlərin nəzərə alınması və qəbulu prosesinə biganə adamların cəlb edilməsi istisnadır, bir məsələ açıq qalır: iştirakçılar bərabər dəyərli alternativlər nəzərə alınmaqla qərar işlənib hazırlanmasında və qəbul edilməsində lazımi informasiyanı qavramağa və işləməyə hazırdırlarmı? İqtisadi fəaliyyətdə konsensusa nail olunmasına və zəruri informasiyanın işlənməsinə yönəldilmiş fəaliyyətin institusiyalaşdırılması və professionallaşdırılması gəlir götürmək üçün faydalı qərar qəbulu vərdişlərinə öyrətmə modelidir.

## 5. BAZAR, TİCARƏT VƏ DİSKURS

Konsensusun köməyi ilə siyasətin əsaslandırılması C.Byukenin bazar nəzəriyyəsini və Y.Xabermasın diskurs konsepsiyasını şərtləndirir. Hər iki halda söhbət fərdi prioritetlərin nəzərə alınmasından və başqa şəklə düşməsindən gedir. Bzar və diskurs (deməli, həm də ticarət) fərdi maraqların əldə edilməsi və uyğunlaşması üsuludur. Mübadilə və ünsiyyətdə konsensusa əsaslanan qərarların işlənib hazırlanmasına cəhd göstərilə bilər. Lakin bazar ticarət və diskurs fərdi maraq və meyillərin hərəsi başqa cür, öz tələblərinə əsasən başqa şəklə salınır. Bazar faktik prioritetlərə ***(revealed preferences)*** və onların fərdlər tərəfindən qarşılıqlı faydalı mübadilənin köməyi ilə vasitəyə çevrilməsinə səmtlənmişdir. Diskurs fərdi üstüntutma hallarlnın əxlaqi dəyişikliyi iddiasındadırki, bu da əxlaqın subyektin modifikasiyaya hazır olması kimi mövcuddur. Məsələn, Y.Xabermas bazar manasibətlərinə strateji hərəkətlər kimi baxır. Problem strateji əməlləri kommunukativ əmməllərə çevrilməkdən ibarətdir. Qərar *kompromis* vasitəsilə bazarı qanuni kompromislərin qarşılıqlı asılılığ vasitəsi kimi xarakterizə edir və yalnız ictimai nemətlər konsensus üçün açıqdır,çünki yalnız onlar ümumilik törədə bilən maraqlardan ibarətdir. Ümumiliyi təkliyə endirməklə ticarət məşğuldur, bəs belədirsə, bu özəl nemətlərin məhz mülki xarakterinə görə ticarət vasitəsilə təmin edilir,Y.Xabermasın məhz bazarı diskursa əvəz etməyə çalışdığı sahələrdə diskurs konsesusa gətirib çıxara bilməz. İşi biganəliklə, ticarəti xeyriyyəçiliklə, eqoizm–altryuzlə əvəzləməyin mümkün olmadığı kimi cəhd də mümkünsüzdür.[44]

Belə məsələ bazar nəzəriyyəsi üçün də mənalıdır, çünki pareto-optimal mübadiləyə hazır olma üçün həmişə əxlaqi ehtiyata və kooperasiyaya hazır

olmaqlazımdır. Əlbəttə, bazar fərdin ümumi mənəvi tələbləri yerinə yetirməyə hazırlığını tam formalaşdırmır. Hər iki mövqe məlum mənada mücərəddir. Lakin bu və ya digər prioritentlərin səmərəliliyinin qiymətləndirilməsindən tamamilə imtina etmək, onların mübadilə çərçivəsində sıfr iqtisadi vasitəliliyinə istiqamətlənmək diskurs çərçivəsində öz fərdi tələblərini dəyişdirməyi hər yerdə tələb olunması qədər az məqbuldur. Öz istiqarmətini başqa şəklə salmağa sözsüz hazır olmaq şəxsiyyəti məhv edir, hər hansı faktik ehtiyacı birmənalı surətdə bəyənmək isə düzgün düşünülmüş azadlığı bünövrəsindən məhrum edir. Azadlıq prioritetləri səmərəlik baxımından qiymətləndirməyi nəzərdə tutur ki, bu da iqtisadiyyatın deyil, mənəviyyatın müstəsna ixtiyarındadır və eyni zamanda reaı mövcud olan, modifikasiyaya uğramayan əxlaqi, dini və siyasi əqidələr nəzərə alınsa hər iki mövqeyin oxşarlığı onların həqiqiliyinin və legitimliyinin şərhində aşkara çıxır. Bazarda proses başa çatanadək, ünsiyyətə yekun vurulanadək heç bir tələbata, heç bir ittihamə təcrübədən əvvəlki həqiqiliyə malik anlayışlar kimi baxıla bilməz. Ədalət və ya həqiqətən müəyyən şəraitdə cərəyan prosesin nəticəsi kimi xarakterizə edilir. C.Byukenenin fikrincə bütün məsələlərinməlum olduğu "həqiqi qayda beynəlmiləlləşdirilmiş (yəni onların başqalarının razılığı olmadan kiməsə ünvanlanmaşı yolverilməzdir) və minimuma endirilmişdir.[45] Bütün bu tələblərə cavab verən qayda optimal qayda sayılır. Y.Xabermasin fikrincə, əgər diskurs çərçivəsində istisnasiz olaraq tələblər, maraqlar,nəzər nöqtələri, "ideal müsahibə vəziyyətində" tamamilə aydınlaşırsa, dəyişilirsə, norma həqiqi normadır, konsensusa nail olmar isə yekundur.

Təfəkkürdə ekvivalentliyi hər iki nəzəriyyənin prosesual xarakterinə uyğundur. C.Byukenen əvəzlənməyə səylərin və tələbatın, həqiqilik haqqında əqidə və təsəvvürlərin substitusiyaya məruz qalması haqqında eyni təsəvvürlərdən çıxış edirlər. Fərd öz davranışında dəyişməli əqidələr barəsində olduğu kimi nemətlərin müxtəlif kombinasiyalarına da biganədir.[46] Y.Xabersman diskurs haqqında anlayışında belə mövqedən çıxış edir ki, ünsiyyət çərçivəsində ciddi dəyişikliyə məruz qala bilməyən, diskurs şəraitindən asılı olmayaraq bütün fərdlərə birmənalı şəkildə aydın olan əqidələr yoxdur. Şərtsiz əqidələrə yol verilmir və onlara diskursa tabe olmayan əqidələr kimi baxıla bilməz. Y.Xabersman hesab edir ki, "özəl olan və özəl qalan" maraqlar mövcuddur.[47]

Fərdlər bazarda müxtəlif nemətləri mübadilə şərti kimi bir-birindən seçməməyə (fərq qoymamağa) nazır olması ideyası hər halda fərdlərin ynsiyyət prosesində öz əqidə və başqa təsəvvürlərinin almasına hazır olması qədər perspektivli deyil. Ekvivalent tərzində düşünməyə hazır olmaq bazar üçün

prinsip etibarı ilə vacib deyil, çünki söhbət məzmun (mahiyyət) ekvivalentlərindən deyil, kəmiyyət ekvivalentlərindən (nemətlərin miqdarından və qiymətdən) gedir, həm də bunların həqiqiliyi məsələsi irəli sürülmür. Bazar nəzəriyyəsinin tərəfdarları heç də iddia etmirlər ki, xalis rəqabət şəraitində qarşılıqlı bazar fəaliyyətinin nəticələri "həqiqi" nəticələrdir. Bazarın haşiyə qeyri qaydasında uyğunlaşmaya yol verdiyinə o, "həqiqilik" baxımından "həqiqi-yalan" sxemi üzrə deyil, "çoxdur-azdır" sxemi üzrə düşünür. Müxtəlif əqidələr yanaşı yaşaya bilər. İdeal edilməsində, bütün əqidələr barəsində meyar olmasındadır.

> *Mərkəzləşdirilmiş planlaşdırmaya əsaslanan iqtisadi sosial və siyasi sistemlərin qlobal iflası nəticəsində bazar qüvvələrinə və azad sahibkarlığa qlobal miqyasda tətbiq edilməli olan qabiliyyətli sosial-iqtisadi sistemin əsası kimi baxılmağa başlanır. Bu kontekstdə dünyanın əksər regionlarında özəlləşdirmə və tənzimsizləşdirmə iqtisadi yüksəliş reseptlərinə çevrilir. Bu yenidən istiqamətlənmə dövlətin funksiyalarının və siyasətinin yenidən istiqamətlənməsi ilə müşayiət olunur ki, bu da prinsip etibarilə dövlətin idarə ediməsinin formalarını dəyişdirməli və keyfiyyətini yaxşılaşdırmalıdır.*
>
> T.A.Plaksunova

Bazarın, həm də ticarətin diskursa qarşı üstünlükləri nədədir? Əgər istehlakçılar mübadilə üzrə həmrəy ortaq tapırlarsa, Bazar onların istək və səylərinin sonsuz çoxluğuna yol verir. Tələbat ciddi dəyişikliyə məruz qalmır,çünki bazar həqiqilik prinsipini irəli sürmür. Heç bir alternativ nə mübadilə aktına başlanmazdan əvvəl nə də ondan sonra həqiqi olmayan alternativ kimi istisna edilə bilər ki, bu da diskursla zəruri olaraq nəzərdə tutulur. Bazar prosesi hətta bir çox mərhələlərin və dövrlərin mövcudluğunda belə açıq və aramsızdır. Odur ki, bazar mexanizmləri hər hansı yeniləşmələri: nəzər nöqtələrini, tələbləri, texnologiyaları asanlıqla assimilyasiya edir. Vasitəlilik, qarşılıqlı əlaqə ünsiyyətə, diskursa sonsuz və spontan proses kimi baxıla bilmədiyi halda daim və hər dəqiqə həyata keçirilir. Müəyyən anda başa çatan və nəzərdən keçirilmiş informasiya əsasında qərar formalaşdıran diskurs azı barəsində müəyyən biliyə malik olmadığı vaxt intervalında davam edir.

İddia etmək olar ki, bazar və diskurs prinsipləri zaman baxımında bir-birindən fərqlənir. Əgər diskurs konsepsiyası əqiqətə ünsiyyət prosesi başa çatdıqda nail olduğunu əsas tutursa, bazar nəzəriyyəsi belə qənaətdədir ki, tələbatı ödəməyin adekvat mexanizmləri bir anda formalaşmır və uzuznmüddətli

uyğunlaşmanın nəticəsidir. Nəticə etibarilə insanlar fəaliyyətin müəyyən "şərtsiz" zəmin və hüdudları istisna olmaqla gələcəyə və xüsusən gələcək tələbata dair biliyə malik deyillər. Müəyyən şərtlər: imkan azadlığı, yalan məlumatdan müdafiə və i.a. mövcuddur, bazar ictimai-iqtisadi həqiqətə yaxınlaşma kimi çıxış edir. Bazar uzunmüddətli fəaliyyət mexanizmi olunduğu halda uzunmüddətli ünsiyyətdə həddən çox məsrəfləri nəzərdə tutur. Odur ki, sual olunur: hər hansı həqiqi ünsiyyət onun bütün tələblərinin icrasına ideal şərait yaradılması şərtilə eynilə bazarda insanlar arasında əldə edilən, Y.Xabermas tərəfindən "normativ hakimiyyətin yeganə təzahürü" kimi xarakterizə olunan kompromis deyilmi?[48] Hər hansı yerli ünsiyyət nəticəsində tapılan həqiqət kompromisdən başqa heç nə deyil və ola bilməz. Ticarət mübadilə prosesi, razılaşma axtarışı prosesi kimi kompromissiz keçinə bilməz. Əgər kimsə "saxta" və qanunsuz tələblərə görə ödəniş aparmağa hazırdıra, bazar ticarət bunları ümumiyyətlə istisna edir. Əgər mən müvafiq xərcləri aparmağa hazıramsa,öz idiosinkraziya və ya biliksizliyə güzəştə gedə bilərəm. İdeal diskurs öz əsası qismində norma və tələblərinhəqiqətən törətməyə qadir olan vahid sistemini tələb edir. Belə nəticəyə gəlmək olar ki, bazarda tələblər daha çox alınır və ehtimal ki, daha kəskin qavranır, çinki kimsıə onların dəyərini ödəməyə hazırdır. Bazarda məsuliyyət belə formada ifadə edilə bilər: "Mən buna görə haqq ödəməliyəm". Ünsiyyətdə məsuliyyət başqa ifadəni nəzərdə tutur: "Mən filan şeyin xeyrinə yaxşı dəlillər tapmalıyam". Odur ki, bazarda yaxşı pul xərcləyən, ünsiyyətdə isə daha çox və yaxşı danış bilən qiymətdədir.[49] Əlbəttə, ünsiyyət çərçivəsində hər kəsin mənasız mülahizələrə görə xərc aparmalı olduğu fəaliyyət sistemi kimi təşkil edirsə, diskurs naqisliklərini aradan qaldırmaq olar. Lakin hakimiyyət problemi qərar qəbulunun bazar səviyyəsində də, diskursiv yolla qərar axtarışı səviyyəsində mövcuddur və hər iki halda həll olunmamışdır.

Diskursla bazar arasında nisbət bazar üçün elmi mənada son dərəcədə perspektivlidir. Ünsiyyətlə bazar arasında anologiyalar göz qabağındadır: orada da, burada da ekvivalentlik prinsipi üzrə təvəkkür məqbuldur, bazarın və ünsiyyətin prosessual xarakteri tanınır, qərəzlərin, səylərin, əqidələrin bir-biri ilə əlaqəliliyi güman olunur. Bundan başqa bazar və diskurs konsepsiyasına hökmranliq və məcbur etmə elementlərindən azad olan sosial qarşılıqlı fəaliyyət nəzəriyyələri kimi baxılır. Əgər artıq klassik siyasi iqtisad çərçivəsində iqtisadi qanun hakimiyyətin yerini tutmuşdursa, C.Byukenenin müqavilə paradiqmasında bazar konsensusun formalaşdığı sferaya çevrilir. Analoji olaraq Y.Xabermasın diskurs nəzəriyyəsində də hakimiyyət problemi tamamilə arxa plana

keçir. Sözün və biliyin hakimiyyəti əhəmiyyətsiz anlayışlar kimi xaeakterizə edilir. Lakin Y.Xabermasdan fərqli olraq C.Byukenen konsensusun hüdüdlarını daha aydın təsəvvür edir. Bazar diskursa rəhmən bütün qalan sosial strukturların metainstitutu deyil: o, ictimai faydaya nail olmaq məqsədilə təkcə razılıq faktına deyil, həm də ideala istiqamətlənmiş qərar qəbulu üsulları ilə tamamlanmalıdır. Razılıq hüdudlu normadır, Lakin o, həqiqilik meyarı ilə gerçəkləşmir, çünki onun real tətbiqi cəmiyyətdən həddən artıq məsrəflər tələb edəcək. Bütün bunlar ticarət-iqtisad fəaliyyətində nəzərə alınmalıdır.

## 6. AZADLIQ, BAZAR, TİCARƏT

Etik və iqtisadi qaydaların formal xarakterini əsaslandıran, qabaqcadan qarşıda duran məqsədlərin texniki cəhətdən həyata keçirilməsinə deyil, fərdi fəaliyyətin və azad kooperasiyanın hüdudlarının müəyyənləşməsinə hədəflənən iki tip dəlillər mövcuddur. F.Xayek hesab edir ki, bu dəlillər bir-birini tamamlayır və bir-biri ilə bağlıdır, həm də aralarındakı münasibətlər gərgindir. Dəlillərin birinci tipi insan biliksizliyindən yetişən azad quruluşu daha çox səmərəli olduğunu əsas tutur. Azadlıq inamsızlıq ifadəsidir, iqtisadi fəaliyyətin uyğunlaşmasının və təsadüfi determinizminin zəruriliyi haqqında biliksizliyin sübutudur. Dəlilllərin ikinci tipi azadləğı iqtisadiyyatın daha yüksək səmərəliliyi üçün qurban verilə bilməyən ictimai xeyir kimi, bazarda isə fəaliyyət müxtəriyyətinin institusional zəminləri kimi müəyyən edir.

Birinci qrupa gəldikdə, ona yekunlaşdıranda müəyyən məqamları vurğulamaq vacibdir. Azadlıq inamsızlığının doğurduğu ideya bazarın mümkün qədər minimal məsrəflərlə iqtisadi optimala nail olmaq üsulu kimi şərhini nəzərdə tutur; fərd yalnız tələbat haqqında və ya tələbat sayıla bilən hər hansı bir şey haqqında ümumi təsəvvürün formalaşması üçün zəruri olan məlumat almaq iqtidarındadır. Amma səmərəlilik yeganə dəlil sayıldığından daha səmərəli qərarların mümkünlüyü vəziyyətlərində bazardan imtina etmək də olar. Bazar azadlığı hər şeydən əvvəl biliksizliyin nəticəsidir. Əgər kimsə əvvəlcədən istehsal amillərinin cəmiyyətin inkişafına iqtisadi təsiri haqqında biliklərə, bazarın törətdiyi tələbat formaları, miqyasları haqqında informasiyaya malik olsaydı, bazar əlaqələndirmə mexanizmi qismində yoxa çıxardı. Lakin belə biliklərdə lazılı həcmdə heç kəsin malik olmadığına görə gələcək barəsində inamsızlıq fərdi azadllğın əsaslandırılmasında başlıca dəlilrə çevrilir. Fərdin

özündən savayı heç kəs gələcəyi fərddən çox bilmir. Hər hansı insan öz tələbatını, meyillərini, bacarığını başqalarından daha çox təsəvvür etdiyinə görə öz əvəzinə qərarını da özü verməlidir, fəaliyyətin sosial koordinasiyası isə bu azadlığı öz müqəddəratını təyin etmə formasında həyata keçirməlidir.[50] Fərd özünü hamıdan yaxşı tanıyır, çünki onun bioqrafiyası artıq heç kəsin keçmədiyi öyrətmə və uyğunlaşma prosesindən ibarətdir.[51] Fərd öz lahihələrini reallaşdırılması məhsulu və nəticəsidir. İqtisadi və soaial fərdiyyətçilik cəmiyyətin innovasiya potensialının artmasına kömək göstərir, çünki təlim prosesi mərkəzləşdirilmiş planlaşdırma subyektləri ilə məhdudlaşmır, fəaliyyət subyektlərinin fərdi təlim prosesində dönə-dönə təkrarlanır. Layihələrin,cəhdlərin, məyusluqların sayı daha çoxdur.[52] Yanılma riski, səhvə yol vermə və uğursuzluğa uğrama riski atolizm dərəcəsindədir, deməli, cəmiyyət o qədər böyük olmayan yalnız düzgün qərarlar çıxarmağa qadir olmasa da, heç vaxt tamamilə yalançı qərarların təsiri altına düşməz. Fərdiyyət və bazar nizamı və qayda itopistlərin qeyd etdiyi kimi, tam iqtisadi riski inkar edən bazar itopiyasından bazar cəmiyyətinə aparmaq və "maksi-minimal" qərar və qayda kimi nəzərdən keçirilə bilər.[53] İki utoniya arasında seçilməyə utopistlərin əsaslanan antirisk strategiyasının tətbiqi belə bir fikrə aparıb çıxarır ki, utonistin təkliflərindən ən yaxşısı utoniyalar bazarıdır, yəni bazar cəmiyyətidir.

Məcmu riskin hər iki ictimai formada qeyri-simmetrikliyi faktı xüsusi əhəmiyyətə malikdir. Bunu əsas götürmək olmaz ki, hər iki sistemdə hansısa "risk məbləği" verilmiş və onun sistemlər arasında bölgüsü də fərqlidir. Mərkəzləşdirilmiş planlaşdırma sistemlərində ümumi risk xeyli yüksəkdir, təlim keçmiş iztisaslı fərdlərin sayı azdır, təlim prosesinin özü də ləng gedir.

Qarşılıqlı sosial-iqtisadi əlaqələr haqqında bilik yoxluğu və ağla gəlməyən gələcəyə münasibətin qeyri-müəyyənliyi fərdi azadlıq ideyalarının xeyrinə əsaslandırılmış dəlillərdir, çünki bunlar bir tərəfdən daha böyük innovasiya potensialının inkişafına və digər tərəfdən risk üçün imkanların kifayət qədər geniş spektrinin yaranmasına kömək edir. Fərdiyyətçilik nizamı "inamsızlığın doğurduğu azadlıq ideyası" baxımından eyni zamanda daha səmərəlilik, çünki heç bir başqa iqtisadi quruluş, sosial-iqtisadi və ətraf mühit haqqında daha çox bilik verməz. Hər şeydən əvvəl iradə özünütəyini kimi deyil, xarici vəziyyətə uyğunlaşma qabiliyyəti şərti və səbəbiyyətdən asılı aləmin dərk edə bilmədiyimiz hissəsi üçün tutulmamış yer kimi qavranır; bu, ifrat mürəkkəb səbəbli müəyyənləşdirici amillərin şəfridir və fərdin bu mürəkkəbliyinin tam həcmdə dərkinə qadir olmamasına işarədir. Azadlıq iqtisadiyyatı primitiv mexa-

nizmdən rəqabət qabiliyyətli təşkilat sisteümінə və "qeyri-bayağı mexanizmə" (D.Dyupon) çevirmək üçün şans verir. Azadlıq qismən olmanın ekvivalentidir, quruluş isə bu natamamlığa hüdud verən qeyri-müəyyənliyi yalançı bilik və əsilsiz zərurət təzyiqindən üstün tutan nizamın bir hissəsidir. Bu mənada azadlıq cəmiyyətin daha yaxşı nizam seçmək imkanı ilə fikrində qeyri-müəyyənliyin hökm sürdüyü hansısa daha pis sferanı gerçəkləşdirmək imkanının da mümkün sayıldığı riskin minimallaşdırılması strategiyasıdır.

İnamsızlıq nəzəriyyəsi mövqeyindən baxanda azadlıq güclü ifadə tapmış yaşamaq hüququ kimi başa düşülə bilməz, lakin o, səmərə və məsrəfhaqqında bütün mümkün təsəvvürlə məhdudlaşdırılmış tərzdə özünü göstərir. Fəaliyyət azadlığını məhdudlaşdırmağın pozitiv sərfəliliyini həqiqətə oxşar şəkildə əsaslandıran hər kəs biliksizliyi azaldır. Cəmiyyət nə qədər çox bilirsə, bir o qədər azad deyil və ya nə qədər azad deyilsə, bir o qədər çox bilir. Biliksizliyin məhdudlaşdırılması azadlığın məhdudlaşdırılması demək olardı. Azadlıq, necə deyərlər, səmərəlilik hüdudu və səmərəli təşkiletmə haqqında hər hansı bilik azadlıq baxımından mümkün itkilər nəzərə alınmadan həyata keçirilə bilərdi. İnamsızlıq nəzəriyyəsinə görə, ümumi planlaşdırmaya, əgər onun səmərəliliyin artmasına köməyi müəyyən edilmişdirsə yol verilir. Planlaşdırma azadlığl münasibətdə prioritetlərini yalnız qarşılıqlı əlaqələr haqqında bilik açıq-aydın yetərincə olmadıqda itirər. Əgər kollektiv nemətlər istehlakına (məsələn, sosial təlimata) məcburetmə fərdin öz durumunun müdafiəsi sərbəst və fərdi formalarından daha səmərəlidirsə, bu məcburetmə qanunauyğun sayılır, çünki o, azadlığı deyil, inamsızlığı məhdudlaşdırır. Axı ümumi rifah iqtisadiyyatın müdafiəçilərinin hesab etdiyi kimi kollektiv nemətlər təklifinin hansı miqyası alması olduğunu "fərdin özünün həll etməsi hüququ nemətlərin qeyri-optimal təklifinə gətirib çıxarırdı". Doğrudur, burada C.Byukenen ümumi rifah iqtisadi nəzəriyyəsi tərəflərini kollektiv üçün seçimi "elmi" cəhətdən hesablanan parametrə çevirmək cəhdlərini tənqid edir.[54] Azadlıq nemətlərdən biri kimi bu kalkulyasiyaya daxil edilmədiyinə görə səmərəliliyin hər hansı artımı hətta azadlığın məhdudlaşmasına aparıb çıxarsa

> *Bütün milli təsərrüfatın maksimal faydalılığı hər bir müəssisənin idarəedilməsinin onun əlahiddə maksimal faydalılığının təmin olunmasına deyil, onun özünün və istehlakçılarının məcmu faydalılığın təmin olunmasına yönəldildikdə əldə edilə bilər. Bu müddəa məlum optimallıq prinsipindən irəli gəlir və onun mümkün ifadə formalarından biridir.*
>
> K.B. Makaryan

belə, cəmiyyətin optimal duruşuna nail olmağa kömək edir. Əksinə azadlığın qorunub saxlanması naminə səmərəliliyin artmasından imtina etmək yolverilməz sayılır.

İqtisadiyyat və ticarət səmərəliliyinin maddi nemətlərin mümkün qədər böyük artımı ilə məhdudlaşan hökmranlığı totalitar meyillidir,çünki hər yerdə iqtisadiyyat və cəmiyyət mütəşəkkilliyinin hüdudları yalnız yalan biliklə müəyyənləşir. Lakin tələbat doğuran nemətlərin həcm və müxtəlifliyi nəzərə alınsa, iqtisadi prosesi ətraflı sürətdə aydınlaşdırmaq olmaz. Tələbat hər mərhələdə dəyişir, daha çox nemət təklifinə cavab olaraq formalaşır ki, bu təklif də iqtisadi inkişafın əvvəlki mərhələsindən öncə duyulan tələbatın nəticəsidir. Ən vacib ehtiyacların səmərəli strukturunun işlənib hazırlanması sabahkı gün mövqeyindən səmərəsizdir, çünki istehlakçıların öncə duyduğu və xəyala gətirdiyi gələcək tələbat kimi azadlıq minumumu həm də səmərəlilik baxımından lazımdır. Əgər səmərəliliklə azadlıq bir-birinin qarşılıqlı istisnası kimi düşünülürsə, səmərəliliyin iqtisadi şərhi hər halda bunların arasında seçim aparmağa imkan vermir. Azadlıq hansı ölçüdə dövlətin kollektiv nemətlərin istehlakına məcbur etməsi naminə qurban verilə bildiyini və qurban verilməli olduğunu, bu hərəkətlərin necə olacağını seçim azadlığını pozitiv nemət deyil, yalnız inamsızlığın ifadəsi kimi nəzərdən keçirən iqtisadi nəzəriyyə çərçivəsində həll etmək olmaz.

Buna görə F.Xayyek azadlıq anlayışının utilitarist naqisliklərini aradan qaldırmağa və öz nəzəriyyəsini azadlığın və azadlıq hüququnun deontoloji və qeyri-utilitarist baxımından əasalandırılması ilə tamamlamağa cəhd göstərirdi. Azadlıq öz mahiyyətinə görə daah mox səmərəlilik və optimallıq meyarları, idealları ilə toxunula biməyən şərtsiz hüquqdur. Müvafiq surətdə siyasi hərəkətin əxlaqi prinsipi kimi qavranmalı olan fərdi azadlıq inkişaf etdirdiyimiz nemətlərin böyük olmayan miqdarından ən mühüm amildir. Bütün digər əxlaqi postlulatlar kimi azadlığa da öz-özlüyündə qiymətli amil əsas prinsip kimi baxılmalıdır ki, bu prinsiplə də həyata keçirilməsinin nə qədər sərfə gətirib gətirməyəcəyindən asılı olmayaraq hesablaşmaq lazımdır.F.Xayyek azadlığın utilitarist və ya deontoloji baxımdan əsaslandırılmasının müdafiə edərək yazır: "Azadlıq prinsiplərinin lehinə və kollektiv hərəkətlərin məqsədəuyğunun əlehinə olan dəlil son nəticə etiabri ilə azadlığın xeyrinə dəlildir." F.Xayek hesab edir ki gələcək haqqında adekvat biliyin olmamasından irəli gələn azadlıq fərdiyyətli bazar quruluşu çərçivəsində ticarətin optimallığı barəsində utilitarist dəlil, inamsızlıq barəsində tezis azadlığın təminatı üçün kifayət deyil. Azadlıq hüququnun samballılığı deontoloji cəhətdən əsaslandırılmalıdır.[55] Azadlığı dəyərliliyi onun səbəb olduğu məqsədəuyğunluqların dəyərliliyini ötüb keçir. Azadlıq prinsipi səmərəlilik prinsipi naminə gendəmdən çıxarıla bilməz. Çünki

son nəticə etibarıilə o, iqtisadi cəhətdən deyil, əxlaqi (deontoloji) cəhətdən əsaslandırılmışdır.[55]

Azadlıq istər fəaliyyətə başlamaq imkanı kimi, istərsədə fəaliyyətin şəriti kimi başa düşülməlidir. Fəaliyyət və seçim insan amilinin mahiyyət xarakteristikalarına aiddir. Azad varlıqlar kimi fərdlər qarşılıqlı asılılıq şəraitində yaşaya bilmək üçün əxlaqi varlıqlar kimi hərəkət etməlidirlər. Onların azad varlıqlar cəmiyyətində birgə yaşamağının mümkün olması üçün hərəkətləri hüquqi müddəalar ruhunda olmalıdırlar. Qəti əxlaqi tələb prinsipi və hüquqi prinsip işgüzar və işgörən fərdlərin birgəyaşayışının formal mümkünlüyü üçün şərtdir. Razılaşma azadlığı və mexanizmləri kooperasiya və mübadilə şərtləri kimi fərdi məqsədəçatmanın maddi imkanlarınını yaradır. Əxlaqi və iqtisadi muxtariyyət fərdə bir tərəfdən öz hərəkətlərini öncə görməyə və başqa adamların hərəkətlərinə müqavimət göstərməyə, digər tərəfdən sonuncuların hərəkətlərini məlum həddə nəzərə almağa imkan verir. Bu qaydalar fərdə təkrar onun fəaliyyətinin hüdudlarını vermir, həm də bu çərçivədə onu başqa fərdlərin qədlərindən qoruyur. Fəaliyyət avtonomluğu eyni dərəcədə ümumiliyə və universallığı malik qaydaların mövcudluğunu nəzərdə tutur ki, bu da fərdi əməl və qərarlara meydan açır, lakin mənfi təsirlərin mümkünlüyünü azaldır və fəaliyyətin, o cümlədən bazar iqtisadiyyatının atributu olan ticarət fəaliyyətinin nəticələrinə görə məsuliyyəti məhdudlaşdırır. Əslində heç bir iqtisadiyyat qeyri-bazar iqtisadiyyatı ola bilməz. Fərd əməl və üsul texnologiyasını detallaşdırmağa çalışmadan öz hərəkətlərinin bölgüsünü aparmağı bacarmalıdır. O, həm də öz hərəkətlərinin müəyyənləşdirilməsi və hesablanması məqsədilə işlərini başqalarının işlərindən ayırmaq iqtidarında olmalıdır. Fərddən əməlləri vasitəsilə ətraf aləmin xeyrinə çalışmağı tələb edən utilitarizm qaydasında fərdi hərəkətlərin belə kalkulyasıya yolverilməz sayılır. Burada fəaliyyətin istisnasız olaraq bütün nəticələri, eləcə də bütün başqa subyektlərin mümkün strateji göstərişlərinin uçotu nəzərdə tutulur, çünki həmin subyektlər müvafik qəti tələbə əməl edirlərsə,əməlləri vasitəsilə minikləşdirilməyə yol vermir. F.Xayyekin fikrincə, hamılıqla qəbul olunmuş qaydalar avtonom fəaliyyət üçün şərtdir, çünki fərd vəziyyətin bütün mümkün nəticələri adekvat qiymətləndirilə bilmir. "Bütün əsas müddəalara tabelik əruridir, çünki praktik əməllərimizin bütün nəticələr haqqında mükəmməl biliklə və adekvat qiymətlə müşayiəti qeyri-mümkündür. Nə qədər ki, insanlar hər şey haqqında biliyə malik deyillər, universal qaydalar, qərar çıxarmağa imkan verən fərdi azadlığı təmin edən yeganə vasitədir."[56] Bu qaydalar fərdin bütün başqa fərdlərin fəaliyyətindən fərqli fəaliyyəti üçün meydan açır, məsuliyyət hissəsinin formalaşmasına kömək edir. Azadlıq kimi məsuliyyət hissi də həmişə ticarət və iqtisadiyyat fəaliyyətinin həyata keçirilməsi üçün şərt olmuş və şərt olacaqdır.

## ƏDƏBİYYAT


1 *Козоловски П.* Общество и государство: неизбежный дуализм. – М., 1998. – С. 230.

2 Yenə orada. – S.232.

3 Yenə orada. – S.233.

4 *Хайек Ф.* Право, законодавство та свобода. Новее викладення широких принцинів справедливості та політичноі економіі: – В 3т. – К., 1999 – 2000. – Т.2. – С.96

5 Yenə orada. – S.185.

6 *Маркс К., Энгельсь Ф.* Сочинения. – 2-е изд. – Т.3. – С.31–78.

7 *Зомбарт В.* Буржуа. Евреи и хозяйственная жизнь.–М., 2004.– С.63.

8 *Козоловски П.* Общество и государство: неизбежный дуализм. – М., 1998. – С. 230.

9 *Хайек Ф.* Пагубная самонадежность. Ошибки социализма. – М., 1992. – С. 47.

10 *Шерр И.Ф.* Учение о торговле. – М., 1925. – С.33.

11 *Вебер М.* Избрание произведения. – М., 1990. – С.60.

12 *Хайек Ф.* Пагубная самонадежность. Ошибки социализма. – С. 56.

13 *Козоловски П.* Общество и государство: неизбежный дуализм. – С. 230.

14 Yenə orada – S. 238.

15 *Хайек Ф.* Право, законодавсво та свобода. – Т. 2. – С. 117.

16 *Козоловски П.* Общество и государство: неизбежный дуализм. – С. 238.

17 *Хайек Ф.* Право, законодавсво та свобода. – Т. 2. – С. 121.

18 *Гегель Г.В.Ф.* Философия права. – М., 1980. – С. 236.

19 *Козоловски П.* Общество и государство: неизбежный дуализм. – С. 239.

20 *Хайек Ф.* Право, законодавсво та свобода. – Т. 2. – С. 128.

21 Yenə orada. – S. 135.

22 *Осипов Ю.М.* Философия хозяйства. – С. 142.

23 Yenə orada. – S. 147.

24 *Шумпетер И.* История экономического анализа: В 3т. – СПб., – 2001. – Т.1. – С. 191.

25 *Козоловски П.* Общество и государство: неизбежный дуализм.– С.

26 *Осипов Ю.М.* Философия хозяйства. – С. 363.

27 *Бьюкенен Дж. М.* Сочинения. – М., 1997. – С. 74

28 *Бьюкенен Дж. М.* Конститутция экономической политики / / Вопросы экономики. 1994. – №6. – С. 105

29 Yenə orada. – S. 106.

30 *Мизес Л.* Социализм. Экономический и социалистический анализ. – М., *1994. – С. 76-78.*
*31 Бьюкенен Дж. М.* Сочинения. – С. 86.
32 Yenə orada. – S. 91-94.
33 Yenə orada. – S. 336
34 Yenə orada. – S. 341.
35 *Шумпетер И.* История экономического анализа: Т.3. – С. 114.
36 *Бьюкенен Дж. М.* Сочинения. – С. 175.
37 Yenə orada. – S. 342.
38 *Бьюкенен Дж. М.* Конститутция экономической политики. – С. 107.
39 *Бьюкенен Дж. М.* Сочинения. – С. 175.
40 Yenə orada. – S. 64.
41 *Козоловски П.* Общество и государство: неизбежный дуализм.– С.250.
42 Yenə orada. – S. 252.
43 *Бьюкенен Дж.* М. Сочинения. – С. 120.
44 Yenə orada. – S. 77
45 *Козоловски П.* Общество и государство: неизбежный дуализм.– С. 255.
46 Yenə orada.
47 *Бьюкенен Дж. М.* Сочинения. – С. 77.
48 *Козоловски П.* Общество и государство: неизбежный дуализм.– С. 257.
49 Yenə orada. – S. 258.
50 *Хайек Ф.* Право, законодавсво та свобода. – Т. 2. – С. 148.
51 Yenə orada.T. 1. – S. 201.
52 Yenə orada.T. 2. – S. 78.
53 Yenə orada.T. 1. – S. 149.
54 *Хайек Ф.* Пагубная самонадежность. Ошибки сочиализма. – С. 62-64.
55 Yenə orada. – S. 37
56 *Хайек Ф.* Право законодавство та свобода. – Т. 2. – С. 101.

# İQTİSADİ CƏMİYYƏTDƏ TİCARƏTİN İNSTİTUTLAŞMASI

*"Uzun əsrlər ərzində dövlət məqsədlərindən möhtəşəm sahibkarlıq ruhu yarandı və o, bunu ayrı-ayrı təsərrüfat subyektlərinin qəlbini ruhlandırdı ".*

V. Zombart

*Merkantilizmin (mənfəətpərəstlik) inkişafı feodalizm və mütləqiyyət şəraitində həyata keçirilirdi, bunlarda öz siyasi quruluşunda dünyanın hakimiyyətli konstitusuyalaşma ideyasına və buna uyğun olaran mərkəzləşmiş siyasi hakimiyyət ideyasına arxalanır. Siyasi hakimiyyəti şəxsi hökümranlıq kimi qəbul etmək proteksionizmin (merkantilizm və ticarətlə birgə) inkişafına uyğundur. Lakin ictimai caziş ideyaları, ictimai quruluşun üçbirliyi ideyası sosiallıq silk strukturunu keçib yeni tendensiyalar – ictimai neytral bazar cəmiyyətinə keçid kimi tendensiyaları nəzərdə tuturdu. Mütləqiyyət yeni dövr – iqtisadiyyat əsiri hazırladı. Onun siyasi ilahiyyatı deizm oldu, və məhz onun əsasında azad ticarət inkişaf edə bilərdi. O, yeni sosial dünyanın bir hissəsinə çevrildi. Və bu dünya artıq hakimiyyətin həyata keçirilməsi kimi səciyyələndirilir; ictimai həyat tərzi mahiyyətcə hökmranlıqdan azad olmuş görünür. Bəs azad ticarətin azad, bazar iqtisadiyyatlı cəmiyyətdə gələcək inkişafı necə baş verir? Bu inkişafın parametrləri məlumdurmu? Burada ticarət problemini aktuallaşdıran əsas məsələlərdən biri ədalət məsələsidir.*

## 1. SUVEREN HAKİMİYYƏT VƏ BAZAR CƏMİYYƏTİ

Tam aydın və qanuna uyğun olaraq yeni cəmiyyət quruluşu prosesi azadlıq, bərabərlik, əbədi sülh və firavanlıq haqqında düşüncələrlə müşayiət olunur. Bu düşüncələr nəinki filosofların, hətta hər şeydən başqa ümumdünya ticarət respublikası arzusunda olan iqtisadçıların əsərlərində belə özlərinə geniş yer tapmışlar. Lakin "dünyanın firavanlığı" azad ticarət tərəfdarlarının ən çox istifadə etdiyi səs-küylü və boş ifadələrdən biridir. Bu məktəbin incəliklərini bilməyən hər kimsə bu sistemin çətinliklərini anlatmaq üçün onlara müraciət edərsə, dərhal: "Dünyanın firavanlığı" cavabını alacaq. Bu söz dərhal mübahisələri kəsməli və bütün suallara filosof Voltersayağı cavab verməlidir: Volter "Ruh nədir?" sualına "*C`est une ene entelechie*" (bu entelexiyadır) cavabı ilə nə dinləyicilərinə izahat vermiş, nə də özü bür şey anlamışdı. Ancaq bu gün insanlar daha az təvazökardırlar və hər şeylə daha çox maraqlanırlar. Onlar imkan dairəsində həm özlərini, həm də başqalarını anlamağa çalışırlar. Azad ticarət sistemi, inandırdıqları kimi, bütün dünyanın rifahı üçün bitib tükənməyən bir mənbə ola bilərdi. Lakin əvvəla dünyanın rifahı nə demək olduğunu aydınlaşdırmaq gərəkdir. Yəqin ki, bu nədirsə bütün dünya dövlətlərinin, yaxud da onların böyük hissəsini təmsil edən hər ölkənin sərvəti və rifahının ayrılmaz parçasıdır. Çünki yeganə birliyin sərvəti və rifahı heç zaman onun hissələrinin kasıblığı və səfalətindən qurula bilməz. Beləliklə, "Bu sistem bütün dünyanı varlandıra bilərmi?" sualı ona gətirib çıxarır ki, bir şox xalqlar rifahını yaxşılaşdırmaq üçün daha çox çalışa, ticarətlərini inkişaf etdirə bilərmi? Merkantilizmdən bazar cəmiyyətinə keçid dövrünün bütün öndər iqtisadçıları və filosofları bu suala cavab tapmağa çalışırmışlar.

T. Hobbsun sosial fəlsəfi sistemi bu baxımdan nümunəvidir. Bir tərəfdən Hobbs orta əsr siyasi metafizika ənənəsinə uyğun düşünür. Bunu onun siyasi ilahiyyata istiqamətlənməsi göstərir. Digər tərəfdən o, əmək bölgüsündən, müqavilə azadlığından, şişirdilmiş tələbatlardan doğan müasir burjua cəmiyyətinin strukturunu qabaqlayır. T. Hobbsa görə ilkin silki dini hakimiyyət quruluşunun yerini tutmuş suverenlik ideyası müəyyən mənada dövlətin və cəmiyyətin suveren ideyasında özgələşməsi və ikiləşməsinin "aradan qaldırılması" deməkdir. Hobbsun hakimiyyət konsepsiyası daxilən dialektika qanunlarına uyğundur. O, yeni ictimai inteqrasiya sisteminə keçidi əks etdirir. Dövlətin totallaşması zamanı suverenin təmsil etdiyi qarışıq bərabərhüquqlu, lakin hakimiyyət qarşısında aciz olan bir vətəndaş kütləsi yaranır. Əzəmətli

suverenin bütün silki ayrıseçkilikləri pozulur. Hər bir silk nümayəndəsi adi vətəndaş olur, iyerarxiya ideyası öz mənasını itirir. Hakimiyyət düsturu və öz məntiqi sonuna çatdırılmış cəmiyyət üzərində hökmranlıq öz tam əksinə - fərdilik və vətəndaşların bərabərliyi doktrinasına çevrilir. Hər individin öz iqtisadi maraqlarından çıxış etdiyi bir cəmiyyət öz birliyini yalnız məcburiyyət və hakimiyyət qorxusu altında saxlaya bilər. Hobbsdan başlayaraq iqtisadiyyat və suveren hakimiyyət cəmiyyətin konsitutiv elementlərindən sayılır. Yeni əsr avropa tarixinin həlledici faktoru olan iqtisadiyyat suveren hakimiyyətin imperativi köməyi ilə dinə əsaslanan iyerarxik feodal strukturların eynicinsliyinə nail olmağa kömək edir. L. Dyumon avropa fərdliliyinin inkişafı prosesinin xüsusiyyətlərini göstərir. Və bu inkişafın dini şərtlərə əsaslanan iyerarxiyadan suveren hakimiyyətdən keçərək iqtisadi bazar mexanizminə çatdırır və bunu hind cəmiyyəti və onun dini qanuniləşdirən kasta iyerarxiyası ilə müqaisə edir. O, qeyd edir ki, suveren mütləqiyyət dövrü cəmiyyətin azad məqsəd təyin etməsinə və atomlaşdırmasına zəmin olur. Siyasət və iqtisadiyyatın köməyi ilə iqtisadi paradiqma və bazar konsepsiyası axarında sosial inteqrasiya ideyalarını C. Lokk inkişaf etdirmişdir. O, İngiltərə ticarətinin inkişafını izləmiş və onun ingilis sənayesinin çiçəklənməsinin təsiri olduğunu təsdiq etmişdir. Bir mütəfəkkir

> *"Ticarət qanunvericiliyində dəfələrlə belə bir ifadəyə rast gəlinir ki, bu və ya digər hallarda dürüst bir kommersant çalışqanlığı ilə hərəkət etmək lazımdır. Bu ehtimala görə dürüst kommersant anlayışı sözlərlə təyin olunmasada, hər halda hakimin və kommersantların şüurunda yaşamalıdır. Bu onu göstərir kı, ticarət elminin, əsasən də ticarət fəaliyyəti qanunlarının ilkin və vacib məsələləri sırasına dürüst kommersant anlayışının nə olduğunu daxil etmək lazımdır, bu isə o zaman mümkün olur ki, ticarətin nə olduğunu təyin edərkən, onun nə olacağı nəzərdə tutulsun. Ticarət anlayışına məqsəd ideyasını daxil etməyə qarşı, ticarətin bir qədər ideallaşdırılmış anlayışına qarşı bir dənə də olsa ciddi etiraz göstərmək olmur. Ona tərəf isə ticarət fəaliyyəti və ticarətçilərin davranış meyarlarının zərurəti deyir, bu meyarlara əsasən onların fəaliyyətini düzgün olub olmamasını qiymətləndirmək olar. Biz sübut edərik ki, ticarətin şəxsi təsərrüfatlılıq və xalq təsərrüfatlılığı prinsiplərinə riayət etdiyi zaman nail olması mümkündür. Yəni o, təsərrüfat orqanizmində həm zəruri, həmdə faydalı iş görür."*
>
> İ.F. Şerer

və dövlət xadimi kimi Lokk həmdə ticarət işlərinin fəallığı asılı olan iqtisadi fəliyyətin subyektinə diqqət cəlb edir. İnsan fərdiliyini açıqlayaraq C. Lokk artıq onda yalnız ölüm qorxusu təsiri altında yaranan sosial və düşüncəli ümumiləşmədən doğan tamahkarlıq arzuları görmürdü. Onun üçün insan elə bir varlıq idi ki, öz şəxsi maraqlarının düzgün anlamı ilə assosiasiyasının zəruriyyətini dərk edirdi. Mülkiyyətin müdafiyəsi işində assosiasiya və iqtisadi maraq hökmranlıq və siyasi qüvvəni əvəz edir. Dövlət bir trestə çevrilir və ona sədaqət hər bir individ tərəfindən onun şəxsi ehtiyacları müqabilində göstərilir səhmdarlar mülkiyyət sahibi olan insanların "səhmdar cəmittətinə" çevrilir.

Hobbs üçün də suveren hakimiyyətə tabe olmaq zərurətinin əsaslandırılması, dövlət hakimiyyətinə tabe olmağı "hamı hamıya qarşı müharibə" vəziyyətində olmağı daha üstün tutan hər bir insanın maraqları olurdu. Geriyə, təbii barbarlıq və vəhşiliyə hərəkət etmək təhlükəsini T. Hobbs C. Lokkdan daha yaxşı hiss edir. Cəmiyyətin "vətəndaşlıq vəziyyətindən" çıxmaq imkanı ilə bağlı itkilərin qarşısını almaq üçün siyasi hakimiyyət daha artıq qüvvə toplamalıdır. Hobbsa görə insan təbiyyətdən az sosiallaşmış bir varlıqdır, dövlətə üzv olarkən o bir çox azadlıqlarını itirir, ona görədə hər zaman imzaladığı müqavilədən çıxmağa hazırdır. Lokkun nəzəriyyəsinə görə isə "Allah insanı elə bir varlıq yaradıb ki, onun üçün tənha qalmaq yaxşı deyil və insanın tabe olduğu öz istək və vərdişlərini vadar edici qüvvəyə çevirib onu cəmiyyət axtarmağa vadar etdi."

Lakin C. Lokkun anlamında insan A. Smitin anlamındakı insandan fərqli olaraq "təbii ticarət və mübadilə meylinə" malik deyil, ona təbii ictimailik xasdır. Buna görədə insanı ictimai vəziyyətə vadar etmə məsələsi T. Hobbsun nəzəriyyəsində C. Lokkunki qədər kəskin göstərilməyib. İctimai vəziyyətdə individual tələbat daha geniş məna alır və assosiasiya vasitəsilə inteqrasiya məcburiyyəti qarşısında birləşmənin yerini tuta bilər. Cəmiyyət və ya assosiasiyanin *iqtisadi paradiqması,* iyerarxik dini paradiqmadan fərqli olaraq, insanın insanın üzərindəki təbii üstünlük hüququnu inkar etməyə əsaslanır. Konsensus istənilən hakimiyyətin legitimizasiyasının əsasına çevrilir. *Müqavilə*, əsasəndə *ticarət* müqaviləsi, konsesual öhdəliklərin ifadəsi olur. Ticarət sazişlərində müqavilənin legitimliyi özünü məhdudlaşdırma və uyğunlaşdırmanı vasitə kimi istifadə edən siyasətin legitimliyi rolunda çıxış edir. Buna baxmayaraq hər ticarət müqaviləsi *azad* razılıq nəzərdə tutmur. Xarici mühakimələrdən irəli gələrək müqavilənin könüllü və ya məcburi olduğunu həmişə müəyyən etmək olmur.

Aristotelin və orta əsrlərin praktik fəlsəfəsi müqavilənin, həmçinin ticarət müqaviləsinin, ədalətli olduğunu araşdırmaq üçün çox güc sərf ediblər, çünki tərəflərin müqaviləyə görə statusları bütövlüklə ədalətli və ya ədalətsiz müqavilənin xüsusiyyətləri ilə sıx bağlıdır. Bu axtarışların yekunu *ədalətli qiymət* konsepsiyası oldu. Tək müqavilə çərçivəsində mübadilə edilən nemətlər eyni əhəmiyyət daşımalı deyil, həmdə tərəflərin birinciliyi və üstünlüyü də bərabərləşdirməlidir. Müqavilənin ədalətli olmağı barədə hökm sürülən zaman onların sosial statusu və tələbatları nəzərə alınmalıdır. Yalnız müqavilənin tərəflərinin xidmətləti və tələbatları qarşılıqlı əlaqələndirildikdən, və bu münasibətlərin ədalətli olduğundan sonra, müqavilə ədalətli adlana bilər.

*Yeni iqtisadi paradiqma* üçün səciyyəvi xüsusiyyətlərdən biri onun daxilində müqavilənin ədalətli olması barədə sual qaldırıldığı deyil, lakin hər faktiki müqavilənin ədalətli olduğunun qəbul edilməsidir. T. Hobbs aristotel-tomist ədalətli müqavilə konsepsiyasını qətiyyən qəbul etmir. O ontoloji- realist dəyər anlamını onun nominalistik mənasına qarşı qoyur. *Əşyanın razılaşdırılmış qiyməti onun dəyəri deməkdir.* Dəyər yalnız qarşılıqlı razılaşma prosesində müəyyənləşdirilir. "Müqavilənin obyekti olan əşyaların qiyməti, müqavilə iştirakçılarının istəyi ilə ölçülür. Buna görə də ədalətli qiymət onların verməyə razı olduğu qiymət deməkdir." Əksinə Foma Akvinskinin *justitia communativa* (lat. razılaşdırılmış ədalət – insanların münasibətlərindəki ədalət) konsepsiyası bu şəkildə ifadə olunub: *alıcı* və *satıcı* bir-birini satıcı əşyanı dəyərindən baha satanda, alıcı isə onu dəyərindən aşağı qiymətə alanda aldadırlar. Belə yanaşma T. Hobbsa təmamiylə mənasız görsənir: "Bu nöqteyi-nəzərdən elə çıxır ki, əşyanı bizim aldığımızdan baha satmaq və ya ona layiq olduğundan artıq qiymət vermək ədalətsizdikdir." Yalnız müqavilə tərəflərinin fikirlərinin vəhdəti əşyanın qiymətini müəyyənləşdirir. Beləliklə, əşyanın müqavilədə göstərilmiş qiyməti, onun əsl qiymətidir. Qiymətlərin azad təyin edilmə mexanizmindən kənarda dəyər ideyası heç bir məna daşımır.

Lakin artıq Foma Akvinski dərk edirdi ki, əşyanın qiymətinin onun ontoloji dəyərinə uyğun olması tələbi, daha dəqiq seçilmişlərə, mütəxəsisslərə nəinki camaata yönəlmiş tələbdir, ona baxmayaraq ki, mütəxəsisslərə deyil məhz camaata verilmiş *lex humana* (insan qanunu), müqavilənin predmetini və azadlığını müəyyənləşdirir. Qanun nöqteyi nəzərindən, yalnız hər zaman həddindən artıq şişirdilən üstünlüklərlə bağlı olan mübadilə edilən əşyaların qiymətlərinin mümkün artırılması cəzaya səbəb ola bilər. Foma Akvinskiy *müqavilə ədaləti* anlayışını *mənəvi qanun* kimi qəbul edir. Əşyanın qiymətinin

müqavilədə şişirdilməsi mənəvi qaydalara ziddir (*contrarium virtuti*) və *lex divina-ya* əsasən (*lat. İlahi qanun*), insani qanun çərçivəsində olmasada, imkanverilməzdir və cəzalandırılmalıdır.

T. Hobbs müqavilənin bu kimi mənəvi və hüquqi qiymətləndirilməsinin fərqləndirməsini, mənəviyyat hüququnun müqayisə edilməsini əsassız hesab etdiyinə görə, mənasız sayır. Müqavilə ya hüquqi mexanizmlərə tabe olur, ya da olmur. O hüquqi mexanizmlərə tabe olursa, onları təmin edirsə, o zaman o ədalətli sayıla bilər. Müqaviləyə görə tərəflərin ədalətliliyi tərəfdaşının statusunun nəzərə alınmasından və ya müqavilə obyektinin ontoloji ya da real dəyərindən deyil, yalnız müqavilənin şərtlərinin yerinə yetirilməsindən ibarətdir. “Kommutativ ədalət kontragentin ədalətliyi deməkdir, yəni onun müqaviləni yerinə yetirməsi.” İstənilən, o cümlədən ticarət müqaviləsi, tərəflərin məcburiyyət qarşısında deyil, könüllü razılığı əsasında bağlandığı müqavilə ədalətli hesab oluna bilər. Ədalət əşyanın ontoloji dəyərinin uyğunluğundan deyil, tərəflərin razılığından, onların istəklərini bildirmələrindən ibarətdir. Razılıq, müqavilənin bağlanmasından öncə gələn şərtlərdən və şəraitlərdən asılı olmayaraq, müqavilənin vacib və ədalətli olmağının səbəbidir. Müqavilə ədalətinin belə anlayışının nominal kökləri göz qabağındadır. Ədalət anlamı çərçivəsinə Hobbs qiymətlərin ontoloji uyğunluğunu, tərəf müqabillərinin müqavilə üzrə statusunu deyil, razılığı, insanların bir biri ilə razılaşması meyarını daxil edir.

Hobbs tərəfindən “*justita commutativa et distributiva*” (müqaviləli (kommunikativ) və genişləndirici (distributiv) ədalət) konsepsiyasının şərhi dövlətin iqtisadi cəhətdən əsaslandırılması istiqamətində edilən hərəkətin başlanğıcı, sosiumun iqtisadi üsüllarla analizinin dominantlığı haqda xəbər verir. Axı öhdəçiliyin əsaslandırılması olan konsensus həm iqtisadi, həmdə özəl hüququn paradiqmasıdır. Hobbs konsensus üzərində qurulmuş hər bir müqaviləni ədalətli hesab edərək, istəklər ədalətsiz qəbul edilə bilməz fikrində dayanan roma özəl hüquq prinsiplərini sosial müqavilə sayılan cəmiyyətin burjua durumunun əsaslarınadək genişləndirir. Hobbs daha irəli gedərək təsdiq edir ki, müqavilə nəinki qeyri qanuni deyil, hətta mənəvi baxımdan ədalətlidir, çünki mənəviyyat və hüquq vahiddirlər. Konsensus müqavilənin “həqiqiliyini” - nəinki onun hüquqiliyini, hətta mənəviyyatlılığını - əsaslandırır.

Hobbsun sosial fəaliyyətin bütün sahələrinə, xüsusən ticarət işinə belə yayılan müqavilə konsepsiyası, müqavilə azadlığının iqtisadi əsaslandırılmasının hazırlıqlarına uyğun gəlir. İmzalanan hər bir saziş, əgər məcburiyyətlə

imzalanmamışsa, qanuna uyğundur, çünki bütün tərəflər üçün mənfəətlidir. Bu baxımdan Dümonun çox önəmli bir qeydi var. O hesab edir ki, mübadilənin hər iki tərəf üçün sərfəli olduğunu qəbul etmək əhəmiyyətli bir dəyişiklik olmuş və iqtisadiyyat elminin meydana gəlməsindən xəbər veermişdir. Və bu dəyişiklik məhz merkantilizm dövrünə təsadüf etmişdir. Merkantilizm olan yerdə ticarətdə mövcuddur. Tərəfmüqabillərinin hər biri öz mənfəətini qazanır, əks təqdirdə saziş imzalanmazdı. Təyin edilən qiymət əşyanın dəyərini optimal dərəcədə əks etdirirmi? Tərəf müqabillərinin qarşılıqlı öhdəçiliyi ədalətlidirmi? kimi suallar hər iki tərəfin sazişin qüvvəyə mindiyi zamanadək qazandığı mənfəət müqabilində ikincidərəcəlidir. Bu halda tərəfmüqabillərinin razılığını qiymət və əmtəə ilə şərtləndirilmiş sazişin hər iki tərəf üçün mənfəətli olmasını subyektiv əminlik kimi qəbul etmək olar. Müqavilə başa çatanadək hüquqların bölüşdürülməsindən və yaxud başa çatdıqdan sonra əldə olunan mənfəətin bölüşdürülməsi prinsiplərindən asılı olmayaraq hər bir konsensusa əsaslanmış müqavilə qarşılıqlı mənfəət nəzərdə tutur.

Siyasi fəlsəfədə qarşılıqlı mənfəət mübadiləsi ideyası onun siyasi iqtisadiyyata olan əhəmiyyətindən daha böyükdür. Bundan sonra birgə mənfəət əldə etməyi gizli konsensus nümunəsi kimi qəbul etmək olar. Əgər hər iki tərəfə bu və ya digər dəyişikliklər nəticəsində qazanc əldə edilərsə , demək həmən dəyişikliklər onlar tərəfindən bəyənildiyini ehtimal etmək olar .Ümümiləşdirərək demək olar ki, hamının durumunu yaxşılaşdıran hər hansı bir dəyişiklik hər kəsin razılığı ilə həyata keçirilməlidir. *Pareto* prinsipinin əsas məzmunu məhz budur. Bəzilərinin rifahına xidmət edən və heç kimə bir zərər gətirməyən hər bir dəyişiklikləri ədalətli və razılaşdırılmış hesab etmək olar. Qarşılıqlı mənfəət sosial norma xarakteri qazanır və sosial davranışı legitimləşdirir. Bu məqsədlər çərşivəsində C. Lokk (zəif ardıcıllıqla) və T. Hobbs insan cəmiyyətinin təbii, təbiətə yaxın vəhşi vəziyyətindən vətəndaş durumunadək keçdiyi yolun zərurətliyini əsaslandırırlar. Bu keçid Lokkun fikrincə cəmiyyətin hər bir üzvünün razılığını nəzərdə tutur. Lakin belə yekdilliyə çatmaq mümkünsüz olduğuna görə gizli "lal" təqdirin nə olduğu sualı meydana gəlir. C. Lokkun fikrincə "hər hansı bir dövlətin hər hansısa bir ərazisinə sahib olub ondan istifadə edən adam bununla öz dinməz razılığını vermış olur.[9] K. Buldinqin müasir düşüncələrindən nümunə göstərmək olar. O hesab edir ki, yaxşı məlumatlandırılmış və ağıllı ticarət partnyoru (yaxud diskursu) optimal dəyişikliklərə razılaşmanın, əgər qərəzli niyyəti yoxdursa, bərqərar olmasına kömək edir.

Merkantilizmdən bazar iqtisadiyyatına keçid dövründə dövlətin rolu haqqında düşünərək V. Zombart onun kapitalizm və yeni ticarət münasibətlərinin çiçəklənməsində böyük əhəmiyyətini qeyd edir. Nəzərdə tutduğu növlərdən daha çox dövlətin istəmədiyi halda etdiyi təsir növləri kapitalizm ruhunun inkişafında daha artıq əhəmiyyət kəsb edirdi.[11] Bunun sayəsində kapitalizm ruhunda ticarətçilik elementi inkişaf edirdi. "...Öz mövcudluğu və inkişaf xüsusiyyətləri ilə dövlət kapitalizm ruhuna böyük dəstək oldu. Mən müasir özünü onun həqiqətən də olduğu əsas işbirliyi formalarından biri kimi qeyd etdim. Bununla o, öz ümumi təşkilində, öz vəzifə iyerarxiyasında, məqsədlərinin uzaq olmasında və onları daim təqib etməsində və sair işlərdə böyük kapitalist müəssisələrinə ən yaxşı nümunə olurdu və bu təsərrüfatların vahidlərinin təşkilati ruhuna qıcıqlandırıcı və öyrədici təsir göstərib onların rəhbərlərinin təşkilati bacarığını təkmilləşdirirdi."[12] Təsərrüfat vahidi dedikdə sahibkar, tacir, iqtisadiyyat xadimi və i. a. nəzərdə tutulur. Nəticədə cəmiyyət, onun sosial və iqtisadi həyatı vətəndaş statusu qazandırır. Bir halda ki vətəndaşlıq vəziyyəti ilk növbətə şəxsi mülkiyyəti müdafiə etməlidir, o zaman məhz mülkiyyətçi vətəndaşlıq vəziyyətinə keçmək üçün cəmiyyətin başqa üzvlərindən daha hazırlıqlıdır. Bu sayaq keçid optimal və özünü doğruldandır. Mülkiyyəti olmayan, ancaq heç olmasa öz həyatının sahibi olan hər bir şəxs, onu müdafiə etmək üçün cəmiyyətin vətəndaşlıq vəziyyətini qəbul edər. Hər bir şüürlu varlıq təbiəti vəhşilikdən vətəndaşlıq vəziyyətinə keçməkdə maraqlıdır. Bu keçidin optimallığı təbiət fazasında maddi nemətlərin ilkin bölüşdürülməsindən asılı deyil. İndividlərin insan nəslinin təbii vəziyyətində qoruyub saxlamaq məqsədi ilə, onun vətəndaşlıq vəziyyətinə keçməyi o dərəcədə arzuolunandır nə qədər ki, hər bir individ öz həyatını və sərvətini başqalarından qorumaq zərurətindən azad olur.

## 2. İQTİSADİ DÖVLƏTDƏ TİCARƏT ƏLAQƏLƏRİ

Əgər insanlar hansısa bir zərurət qarşısında vahid bir cəmiyyət təşkil etsəydi, o zaman onların yaxşı və pis cəhətləri də eyni olardı. Onlar ütün dünyaya səpələnərək, Buffonun fikrincə, iqlimlərin rəngini alardılar. Ümumbəşər kamillik üçün olduqca sərfəli olan sonsuz istedad, adət, xasiyyət çeşidliyi bundan irəli gəlib. Maariflənmə yayılmağa başladı. Yaşadıqları ölkələrin iqlimi və torpağı kimi dili və zehni istedaları ilə fərqlənən insanlar tez bir zamanda

eyni məqsədə can atdılar. Bu xalqların arasında bəzən çox qəddar, lakin hər zaman səmərəli olan müharibə başladı və bu müharibə qızışdıqca maddi, mənəvi və zehni maariflənmə daha da yüksəlir və möhkəmlənirdi. Ticarət ən səmərəli döyüş meydanı idi. Ticarət mübarizəsinin millətlə arasında daha da fəallaşması ilə bərabər, dünya daha da zənginləşir və maariflənirdi. Ümumdünya salnamələr bunun həqiqi şahididir. Onları göstərmədən, Avropanın Hollandiyada inhisarçılığın aradan qalxdığından və müxtəlif qərb və şimal millətlərinin ticarət rəqabəti, "ticarət həsədi" meydanında tədricən əmələ gəlməsindən sonra ümumi maariflənmə yolu ilə böyük addımlarla getdiyini qeyd etmək kifayətdir. Buradan da mütəfəkkirlərin - iqtisadçıların və filosofların – dövlətlə qarşılıqlı təmasda olan müəyyən iqtisadi prinsiplərin qurulmasına olan səyləri aydınlaşır. Buna görədə gəlin, onların mövcud sosioiqtisadi, o cümlədən ticarət, münasibətlərin tənzim edilməsində iştirak etməli olan *dövlət məsələsinə olan marağı* izah edək.

İşlənilmiş prinsiplərə müraciət edərək, C. Byukenen öz dövlət nəzəriyyəsində *dövlətdən əvvəlki* vəziyyətdən keçidi izah etməyə səy göstərir. Bununla birgə o, dövlətin iqtisadi əsaslanmasınıda izah edir. C. Byukenen hər şeydən əvvəl Hobbsun insanın təbii vəziyyətin izahından irəli gəlir və belə cəmiyyətdə *X* istisna olmaqla bütün nemətlərin bol olduğunda nə baş verəcəyi və təbii vəziyyət şəraitində təsərrüfatla yalnız A və B subyektləri məşğul olduğu zaman yalnız *X –ni* istehlak etməsində eyni dərəcədə maraqlıdırlar sualını qarşısına qoyur. Belə olan təqdirdə A-nın istehlakı B-nın istehlak imkanlarını məhdudlaşdırır və onlar ikisidə X-nın tam miqdarına malik olmasına çalışacaqlar, çünki Hobbsa görə Cəmiyyətin təbii vəziyyətində individlərin hər şeyə hüququ çatır. X –ni əldə etmək üçün ikisi də vəsait qoyacaq. Bunların arasındakı münaqişə təcavüzə və X-ə olan hüquqların müdafiəsinə çevriləcək və sonda, X müəyyən formada A və B arasında bölüşdürüləcək. Bölüşdürmə üsulunu "təbii" kimi səciyyələndirmək olar. Bu təbii bölüşdürmədə tufandan əvvəlki özünə məxsus sakitlik hökm sürür, A və B bir birini qıcıqlandırır. A özünün X payına olan hüququnu qoruyub saxlamaq üçün bütün mümkün tədbirləri görməlidir; B ona lazım lan X-nin böyük hissəsini əldə etmək üçün A-ya təsir göstərməlidir. Onların ikisi də tərəddüd içindədirlər. X-nin dəyəri tam reallaşdırılmayıb. Byukenenin fikrincə təbii bölüşdürmə razılığın əldə edilməsi üçün və müqaviləyə dair təkliflər sürə bilən şəxslərin müəyyənləşdirilməsi üçün *X*-in tərəflərin hansısa biri tərəfindən zor gücü ilə ələ keçirilməsinə və *X*-in istehlak imkanlarının qorunmasına xərclər nəzərdə tutur." A və B-nin qarşıdurma

situasiyasında qeyd edilir ki, yaxşı olardı ki, onlar razılığa gəlsinlər, çünki *X* payının digər tərəfdən qorumağa güc sərf etmək lazım gəlməzdi. İki tərəf də razılığa gəldikdə, müəyyənləşdirilmiş *status quo* ya stabilləşib, ya da başqa bölüşdürmə prinsipi formalaşır. İki tərəfdə situasiyanı anlamaqda birdirlər və *X* payının qorunmasına və əldə edilməsinə sərf edilən vəsaiti azalda bilərlər. *X* -in dəyəri xarici əlavələrsiz reallaşır. Bu düşüncələrdən elə bir nəticə çıxarmaq olar ki, müqavilədə təbii bölüşdürmə situasiyasını təşkil etmək onu özbaşına buraxmaqdan daha yaxşıdır; cəmiyyətin vətəndaş vəziyyəti onun təbii vəziyyətindən yaxşıdır, çünki o, bölüşdürmə vəsaitlərinə qənaət etməyə və nəticələrin təhlükəsizliyini təmin etməyə imkan yaradır.

Müqavilə nəticəsində meydana çıxan mülkiyyət hüququnun bölüşdürülməsi zərurəti müqavilədən əvvəlki dövrdə hökümranlıq etmiş bölüşdürmə formalarından, individlərin xudbin məqsədlərindən və qüvvə və bacarıqların fiziki və mənəvi yerləşdirilməsindən asılıdır.

Başqa bir situasiya da mümkündür. A və B özlərinin mülkiyyət paylaşma prinsiplərində əlbirdirlər, lakin onlar bəzi şəraitdə müqavilənin pozulmasını özləri üçün daha sərfəli hesab edirlər. Hər ikisinin problemin mükəmməl (müqaviləyə görə) həllindən imtina etdiyinə görə, onlar paylaşma şərtlərinin dəyişdirilməsinin mümkünlüyünü öz xeyirlərinə işlətmək istəyirlər. Bu halda A və B oyunlar nəzəriyyəsində *Prisoner`s dilemma* adlanan bir vəziyyətdə qalırlar. Təyin olunmuş qaydalarla oynayarsa, hər kəs böyük mənfəət qazana bilər, lakin hər kəsə ayrılıqda qaydaları pozmaq sərf edir. Əsas çözüm - stabil çözümdür, çünki hər bir tərəf müqabili özü üçün müqaviləyə əməl edərək qazandığı nəticədən daha yaxşısını görmür. Hər kəs bilir ki, müqaviləni pozmaqla o, digərinə də oyun qaydalarını pozmaq imkanı yaradır, nəticədə hər iki tərəf təbii durum situasiyasında qalacaq, və hər iki tərəf öz mənfəətini itirəcək.

> *“Ticarət qanunvericiliyinin ali rəhbər prinsipi düzgünlüyün qorunmasındadır; sonda qanunla və məhkəmə ilə üzləşən satıcının hər bir hərəkəti etibarlıq ölçüsündə qiymətləndirilir. Ona görə də bütün xüsusi ticarət qanunları onu tamahkarlığa meyllilik yaralarından təmizləməyə, ticarəti və onun daşıyıcısı olan satıcını bizim anlayışımızdakı faydalı təsərrüfat fəaliyyəti və düzgünlük yolunda saxlamağı, onu xoş məramlara zidd olan hər bir şeydən azad etməyə yönəlib. Vıcdansız rəqabət haqqında qanunu birja, ticarət nişanları haqqında qanunları xatırlatmaq istərdim.”*
>
> İ.F. Şerer

Vəziyyətin stabilliyi hər iki iştirakçı tərəfindən oynanıldığı kimi bərk sarsıdılmış olacaq, əgər müqavilədə çox sayda tərəf müqabili iştirak edirsə tərəf müqabillərinin müqavilə şərtlərinin dəqiq yerinə yetirilməsinə nəzarət etmək çətin olur, ona görə də müqavilə dərhal müqaviləni pozaraq tərəf müqabilləri tərəfindən saziş qaydalarının pozulmasına reaksiya verə bilmir. Bunun üçün onda sadəcə lazım olan informasiya olmur. Nəticədə müqavilənin dövlətin köməyi və vasitəçiliyi ilə yerinə yetirilməsi zəruri olur.

Burada Gegelin "substansial iradəli", özünü düşünən və bilən ki, "o, yerinə yetirir, çünki bilir... Bu substansional vəhdət azadlığın öz ali hüququna gələn mütləq daşınmaz məqsəddir ki, bu da son məqsəddə ali borcu dövlətin üzvü olan tənhalara qarşı hüquqa malikdir". Dövlət haqında olan düşüncələrini xatırlatmaq yerinə düşərdi. Azadlığı sevən şəxs burada özündən çıxmağa nahaq yerə tələsir. G. Gegel onun istədiyini ona verir: o deyir ki, hər vətəndaş cəmiyyətində, kollektivdə "ayrı-ayrı şəxslərin marağı - ali məqsəddir." Məhz belə, yalnız cəmiyyəti dövlətə dəyişərək, ilk növbədə şəxsi maraq kristallaşmağa başlayır. Burada bütün *iqtisadi və ticarət münasibətlərinin* siyasətə gətirib çıxardığını nəzərə almaq lazımdır. Və onun vasitasilə cəmiyyəti bir-biri ilə razılaşan insanlar toplusu kimi qəbul etmək olar. Həmçinin sahiblik azadlığı prinsipinidə. Buradan müqavilə təcrübəsinə olan diqqət də aydın olur.

Ticarət fəaliyyəti razılaşmaların zəruri olduğu haqda təsəvvürlərin inkişafına imkan yaradır. Dövlətin yaranma sxemində müqavilənin yerinə yetirilməsi şərtləri onu həyata keçirən strukturun mövcudluğunu nəzərdə tutduğuna görə insanların müqavilədə iştirak etməsi situasiyası təsvir edilir. O insanların müqavilədə iştirak etməsi situasiyasında necə görsənir? Onun institutlaşmasına dair iştirakçı – individ, koalisiya, qrup, yarımqrup kütləsi arasında keçirilən danışıqlar, hakimiyyətin individlərin individlərlə mübarizə apardığı "hamının hamıya qarşı" olan müharibəsilə şərtlənən "təbii" bölüşdürülmə - *ekstremal situasiyadır.* Daha mümkün görsənən qrup razılaşmalarının əmələ gəlməsilə şərtlənən qruplar üzrə differensasiya və bu, öz hüquqlarının möhkənlənməsində maraqlı olan, qruplar arasında olan toqquşmalar individlərin arasında baş veridiyi kimi baş verir. Bu qrup birləşmələrinin bütün individləri qrup şəklində birləşdirən təkamül mümkündür; hərə öz mövqeyini yaxşılaşdırmağa çalışan qrupun üzvlərindən olarkən individ burada onun öz gücünü və vəsaitlərini əmlakını qorumağa sərf etmək vacibliyindən azad olduğuna görə arzularını real formada gerçəkləşdirə bilər. C. Byukenen onun müqavilə bağlamaq konsepsiyasının *sosial müqavilə* nəzəriyyəsilə heç bir əlaqəsi olmadığını və onun yalnız insanlar arasında şəxsi razılaşmalara nail

olmaq təcrübəsini ümumiləşdirdiyini vurğulayır. Bu tezis onun (düzdür, bir az gec söylənilən olsa da) *vətəndaş vəziyyətinə məcburiyyət* zəruriyyəti ideyasına ziddir.[17] Əslinə baxılırsa, azad ticarət müdafiəçilərinin düşüncələri proteksionizm şəraitindədə məhz bu fakt kimi göstərilirdi. Axı başqa imkanların perspektivsizliyi aydın idi.

Bu cür hüquqi birliyin miqyasları əvvəcədən müəyyənləşdirilə bilər. Ən müxtəlif vəziyyətlərin vacib olduğu təqdirdə milli dövlət tipli cəmiyyətə tərəf hərəkət daha mümkün görsənir. Lakin milli prinsip əsasında qruplaşmanın öz çatışmazlıqlarıda var. İndivid bu tipdə müqaviləni pozduqda çox şey, hətta öz millətilə əlaqəni belə, itirə bilər. Yalnız regional və lokal qruplaşmalardan real çıxış yolu var. C. Byukenen dövlət mülkiyyətinin, son nəticədə ən yaxşı olduğu fikrilə razılaşmır. İndivid və ya qrupun dövlət tərəfindən zəmamət verildiyi təhlükəsizlik naminə təbii mülkiyyətdən imtina etdiyi zaman verdiyi qurbanın miqyası bir neçə faktordan asılıdır: təbii mülkiyyətin narahatlığı, qaydanın və qayda ideallarının subyektiv dəyərinin dərk edilməsindən və s. dövlət iqtisadi cəhətdən rasional ola bilər; lakin təbii mülkiyyətin təhlükə yaratdığı həyatı fərdi mövcudiyyətin dəyəri hesab edən T. Hobbsdan fərqli olaraq, C. Byukenen anarxiyanın qaydanın təyin edildiyi kimi mütləq aradan qaldırıldığından irəli gəlir. Hər bir qayda üçün həyata keçirilmə və onlara riayət etmə problemi mövcuddur. Bu həm şəxsi mülkiyyətin hüquqlarının qorunmasına, həm torpaq mülkiyyətinin sosial nemətlərinin yaradılması üçün bölüşdürlməsinə və vergilərin yenidən ədalətli bölüşdürlməsinə aiddir. Bununla əlaqədar bir növ "biletsizlər", yaranmasında iştirak etdilməyən dövlət nemətlərinin istifadəsinə meylli olan insanların problemi yaranır. Belə baxanda, hər bir insan, əsasən cəmiyyət tərəfindən göstərilən xidmətlərə iddia edərək (müdafiə, ictimai nemətlər), onların ödənilməsindənsə, "biletsiz sərnişin" olmağa çalışır. Bu problem, *optimal dövlətin,* yəni ictimai nemətlərin yaradılmasında hüquqların və ohdəliklərin müəyyənləşdirilməsinin optimal həcmini, razılaşdırılmasının, yaranma prosesini çətinləşdirir. Göstərilən proses çətinləşir, çünki o, yalnız fərdi mənfəətin nəzərə alınmasına əsaslanır. O halda ki, dövlət müqaviləsinin həyata keçirilməsi üçün birlik və razılıq lazımdır, çünki əks təqdirdə individlər dövlətdə yaşamağa "məcbur" olacaqlar, individlərin müqavilədə iştirak etməmək, üzərinə öhdəliklər götürmək istəməməsilə, lakin öz mənfəətləri üçün onun üstünlüklərini istifadə etməklə bağlı çətinliklər yaranır. Hər individ, təklikdə götürüləndə, mülkiyyətin qorunması üçün ondan başqa hamının dövlət müqaviləsinə qoşulmağı kifayyət olduğu ideyasını tamamilə məntiqə uyğun sayır. Geniş könüllü kollektivist ictimai sisteminin yaranması belə fikrin nəticəsi olur. C.

Byukenen öz nəticəsini *individualist nəzəriyyəsinin* paradoksu adlandırır. Lakin hüquqi vəziyyətin əldə edilməsi üçün *məcburiyyətin ədalətli olduğunu* qəbul edərək, müqavilə əsaslandırılmasının bu paradoksunu İ. Kant da qeyd etmişdir.

C. Byukenenin individlərin istənilən, o cümlədən ticarət müqaviləsinin göndərmə və son nöqtəsi olduğu "metodoloji individualizmdən" irəli gəlməsini nəzərə almaq lazımdır. Müqavilə çərçivəsində müxtəlif sosial utopiyalar və sistem layihələri təqdim edən insanlar arasındakı münasibətlərin necə yaranması barədə sual bu planda heç bir maraq kəsb etmir. Məhz bu halda konstitusional müqavilə, əsasında "şəxsi hüquqi" dövlətin yaranması mümkündürmü sualı qalxır. Bəlkə T. Hobbsun suverenə tabe olmaq ideyası özü lazımsızdır? Dövlətin qurulma prosessini izah etmək üçün bir şərtə əsaslanmaq lazımdır: dövlətlər, onların quruluşunun rəqabətli və ziddiyətli layihəsi olduğu zaman mərkəzi qüvvəyə tabe olub düzənlənirlər. Bu qüvvə cəmiyyətin eyniləşmiş təbəqələrindən əlavə müqaviləli münasibətlər nəzərdə tutan azad iqtisadi fəaliyyət də ola bilər. Müqavilənin (yəni hüququn) inkişafı ticarət sisteminin təkamülü arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Bu barədə C. Xiks iqtisadi tarixin nəzəriyyəsi haqda düşünərək demişdir. Ticarət, pul və hüquq (tacir hüququ) – işdə bunlar qədim dünyanın üç əsas iqtisadi irsidir. Məhz onlar əsrlərlə qorunan ən önəmli nailiyyətlərdəndir. Roma İmperiyasinin süqutuna və ənənəvi – əmr iqtisadiyyatı dövrünün qayıdışına (Qərbi Avropanın böyük hissəsində) baxmayaraq, ticarət, pul və hüquq – çox dar çərçivədə olsa belə yaşadılar. İqtisadiyyatın pul-əmtəə sahəsi kiçildi, lakin tam olaraq deyil. Unudulduqlarına baxmayaraq, Roma qanunları qorundu. Ona görədə yeni orta əsr respublikalarında və ölkələrində heç nəyi yenidən icad etmək gərək olmadı. Onların üstünlüyü onda idi ki, bir çox şeyləri artıq sınaqdan keçirmişdilər. Ticarətdən və pullardan istifadə edərək bu ölkələr inkişafın yeni pilləsinə qalxmışlar. Tacir hüququna tələbat hiss edən zaman onun üzə-

> *"Feodal cəmiyyətdə sərvət titullardan imtiyazlardan, monarxalrın hədiyyə etdiyi torpaqlardan yığılırdı. İndiki zamanda titulu, maliyyə yardımı və torpaqları olmayanlar əksinə aristoklardan daha çox pul əldə edirlər. Müharibənin aristokrat sinfinin deyil, daha çox peşəkar ordunun işi olduğunu bir erada yüksəliş əldə edən kommersantlar heç də müharibə ilə işğal etmək lazım olmayan böyük torpaq sahələrini pulla əldə etmək iqtidarında olduqlarını anladılar. Yeni sosial sistemdə titullar və imtiyazlar daha çox toplanmış ailə pullarının və yaxşı düşünülmüş sərfəli nigahların ardınca gedirdi."*
>
> D. Vezerford

rində yenidən işləmək lazım olmadı, unudulmamış nüfüzlu Roma İmperiyasının hüququna arxalanmaq kifayyət edərdi.

Bu ölkələrin öz inkişafında daha yüksək pilləyə çatdığı və "böyük dövlətlərin" (milliyət – dövlətlərin deyil, onların əjdadlarının) kölgəsinə düşdükləri zaman onlara vərəsə kimi qalmış tək maliyyə hüququ və ticarət sistemini özləri ilə gətirmədilər, onları həmdə zənginləşdirdilər.

Beləliklə, bu sistemlər mühüm təkamül dövrü keçiblər. Onların Roma hüququndan irəli gələn ticarət hüququ, lakin indi Roma vaxtlarından fərqli olaraq daha ifadəli "tacir" xüsusiyyəti daşıyan hüququ var idi. Müəyyən dərəcədə Roma tacir hüququ ingilis hüququna daxil olmuşdu. Cəsarətlə ehtimal etmək olar ki, sonradan bütün Avropaya yayılmışdı. Nəticədə o, individin və cəmiyyətin iqtisadi varlığında ifadə olundu. Eyni zamanda, elə görünür ki, bu konsepsiyalarda heçdə iqtisadiyyata adekvat olan ideyalar yaranmırdı. Onların mahiyyəti nədir və ticarət üçün hansı məna daşıyır?

## 3. SOSİAL NEMƏT KONTEKSTİNDƏ TİCARƏT KONSEPTİ

Bu problemin qoyulması merkantilizm və bazar iqtisadiyyatının inkişafı dövrünün fəlsəfi fikirlərilə bilavasitə toqquşur. Eynizamanda bu bir neçə sual doğururdu. Ən asasıda mənəviyyata olan münasibət məsələsinin həllində. O dövrün ən tanınmış mütəfəkkirlərıdən biri B. Mandevil, ətikanın aradan qaldırması şərtilə, bazar cəmiyyətinin və suverenitetin arasındakı qarşılıqlı əlaqəni (T. Hobbsdan fərqli olaraq) daha aydın öyrənir. Mandevil onu yalnız artıq kimi yox, həmdə siyasətə və iqtisadiyyata xələl gətirən kimi səciyyələndirir. O öz mənəviyyat tənqidini *ekonomizm* nöqteyi-nəzərindən həyata keçirir.

B. Mandevil T. Hobbsdan *suveren hakimiyyətin* gücü və vasitələrilə birləşmə kimi mexaniki-materialistik psixologiyalı antiaristotelizmi, hərəkətin mexaniki izahını, sosial integrasiya ideyasını aldı. İnsanın ehtiraslarını daha yüksək və güclü ehtiraslarla boğmaq şərtilə cilovlamaq mümkündür. Cəmiyyətin birliyi siyası hakimiyyətlə təmin edilir.

Cəmiyyət elə bir siyasi orqanizmdir ki, onun çərçivəsində individlər məcburiyyət qarşısında intizamlı məxluqa çevrilir və vahidin ali hakimiyyətinə tabe olaraq öz ehtiyaclarını ödəyə və öz məqsədlərini güdə bilir. Hakimiyyətin məqsədəuyğun həyata keçirilməsi və istifadəsi şərtilə dövlət hər hansısa bir məxluq kimi fəaliyyət göstərə bilir.[21] İnsanın sosiallığı onun sosial təbiətindən irəli gəlmir: onun əsasında insan istəklərinin hədsizliyi və onların daima həqiqi həyatın gerçəkliklərilə dağılmağı durur. Cəmiyyət bir vahid kimi mövcuddur, lakin nə ünsiyyətə və əməkdaşlığa olan təbii həvəsi, nə də ki, dostluq və ya meyli bu vahidliyin səbəbi saymaq olmaz.

*“Onlar deyirlər ki, hüquq azadlıqları gömrüklər tərəfindən pozulur. Sənaye və əmək azadlığı şəxsi, hətta siyasi azadlıq belə - hamısı məhv olur, yaxud da bu müəssisənin ucbatından əziyyət çəkir. Cəmiyyətin hər üzvünü istədiyi və bildiyi yerdən öz qidalanması, işi və yaşayışı üçün ucuz ərzaq, avtomobil, alət, məişət avadanlığı və s. əldə etmək hüququ var. Və həmin vətəndaş öz məhsullarını istədiyi qiymətə satmaq hüququna malikdir. Lakin bu hüquqlar gömrüklər tərəfinən pozulur. Onların sayəsində hər bir istehlakçı öz məhsulunu müəyyən sayda alıcılara satmalıdır, hər bir alıcıda istədiyini yalnız müəyyən olunmuş satıcılardan almalıdır. Öz əməyinin bəhrəsini bütün dünyaya satmaq hüququ insana Tanrıdan verilib və bu hüquqa əsasən də o bütün yer kürrəsindən özü üçün zəruri olan hər bir şeyi tapıb əldə edə bilər. Lakin bu hüquqlar yoxdur. Gömrüklər onları boğub. Vətəndaş azadlıqları da məhv olub. Qanunun vahidliyi və hüquqların bərabərliyi bu azdlığın şüarıdır. Bəs hüquq azadlığına nə oldu? Vətəndaş azadlığı istehsalçı və istehlakçı arasındakı qarşılıqlı münasibətləri qəbul etmir.*

Əksinə, ictimai həyatın vahidliyi siyasi hakimiyyətin insan ehtiraslarının və istəklərinin müxtəlifliyindən yaranan həyəcanlı ziddiyyətlərinin zor tətbiq etmədən barışdırmaq səylərinin nəticəsidir. Siyasi hakimiyyət olmadan insan da digər məxluqlar kimi cəmiyyətdə yaşamağa az yayarlı olardı. B. Mandevil hesab edir ki, siyasi həyatın məcburiyyət qorxusu olmadan yüz insan bir-biri ilə mübahisə etmədən iki saat belə yaşaya bilməz. İnsan tərəfindən yönləndirilən *ehtiraslar oyunu* məcburiyyətin alternativi ola bilər. Zira hər bir individ özünütəsdiqə və xoşbəxtliyə can atan “öz icindəki dünyadır” və bu arzuda zərurətlə başqa dünyalarla və dünya-individlərlə münaqişəyə qoşulandır, çünki insan yalnız öz ehtiyaclarından irəli gələrək hər zaman özünü hər şeyin mərkəzi təsəvvür edir, sevir, ya da nifrət edir. Ehtiyaclar ticarət və eynizamanda iqtisadi məsələlərin həllindən başqa harada özünü asanca biruzə verə bilər? Bu prosesdə insan təbiəti daha tam formada özünü biruzə verir. B. Mandevil insan təbiətinə antiilahi nöqteyi nəzərin tərəfdarıdır. Mandevilə istinadən bizim insanın cəmiyyətə olan arzularının və meylinin ona xas olan məhəbbət və dostluq hisslərindən əmələ gəlməsi fərziyyələrimiz, planetlərin hərəkət trayektoriyasının ulduzların bir-birinə olan qarşılıqlı meylindən yarandığına inamımız qədər az əsaslıdır. B. Mandevilin təbiətə ilahi baxışlarından imtina etməsi, hər şeydən əvvəl sosial münasibətlərin izahında

ilahi komponentlərin nəzərə alınmaması ilə bağlıdır. Bu münasibətlərə ticarət və iqtisadi münasibətlər sıx bağlıdır.

Lakin T. Hobbsdan fərqli olaraq, Madevil *sosial ilahiyyatın* iqtisadiyyatda siyasətlə birgə cəmiyyətin vahidliyini şərtləndirən rolunun tanımağının tərəfdarıdır. A. Smitdən əvvəl cəmiyyətin inteqrasiya vasitəsi olan əməyin bölünməsinin vacibliyinə B. Mandevil fikir verdi. *Əməyin bölünməsi prinsipilə fəaliyət göstərən iqtisadiyyat* – onun sosial nəzəriyyəsinin əsas ideyasıdır. Bu ehtiyacların sayəsində insan yalnız onun kimi hərəkət edənlər üçün işləyərək öz məqsədlərinə çatan, daha da ictimai məxluq olur.

> *Bir istehlakçı kimi özümün və ailəmin tələbatların təmin etmək üçün mən bəzi əşyaları qaytarmalıyam və bu əşyaların bazar qiymətinə proporsional olan zəhmət çəkməliyəm; yalnız bu ümumi qiymətə proporsionallıq təbii və qanunidir. Lakin gömrüklər istehsalçıya – mənim qonşuma, yaxınıma, yaxud yaxınım sayılan adama – mənim üçün zəruri olan əşyanı özümə bazar qiymətindən baha satmağa hüquq verir. Məgər bərabərsizlik göz qabağında deyil?Hətta bir dövlətin manufakturaçılarına da eyni himayədarlıq olmur: birinin himayəsi böyükdür, o birinin isə heç yoxdur. Bəs qanunun vahidliyi harada qaldı? Əlavə etməliyik ki, hətta əcnəbi də qisas almaq üçün himayəsiz manufakturaçının məhsulunu hədəfə alır, ona görə də o, ikiqat qurbana, bir nəfərin mənfəəti üçün təsis olunmuş monopoliyanın və imtiyazların ikiqat köləsinə çevrilir."*
>
> K. Quro

Mexanistik şərh olunmuş ilahiyyat iqtisadiyyata yeridilmiş və ona yayılır. Əvvəlki nəzəriyyələrdən fərqli olaraq B. Mandevilin əmək bölgüsü konsepsiyası ilk dəfə normativ xarakter alır. İqtisadiyyatın fəaliyyət qanunları cəmiyyətin əsas qanunları olmalıdır, mənfəət isə - mənəviyyatın meyarı. İqtisadiyyat mənəviyyatın yerini tutur və özü də mənəviyyat, labüdlük ölçülərini qazanır. Bu vəziyyət qarşılıqlı əlaqələrin praqmatik istiqamətdə inkişafını təmin edən ticarətə də ekstrapolyasiya edilir. Bu da mənəviyyat problemini gündəmə gətirir.

Özəl maraqlara və şəxsi məqsədlərə çatmaq azadlığı bir neçə mərhələ ilə həyata keçırilir. Bu istiqamətdə ilk addım siyasətin din və bütpərəstliklərinin təbii hüququndan azad olmasını nəzərdə tutur. Bu addım T. Hobbs tərəfindən atılmışdır. Özəl maraqların bu cür azad olunması təbiət anlamına yenidən baxılmasını, onun teleoloji şərhindən mexanistik şərhinə keçməsini tələb edir. Bu da insana xas olan maraqları fiziki cismin sonsuz düz xətli hərəkətləri ilə anologiyada

düşünməyə imkan verir. Lakin Hobbsa görə, vasitələnmə prinsipləri insanın şəxsi maraqları çərçivəsində deyil. Öz ixtiyarına buraxılmış xudbinlik qüvvəsi öz məqsədlərini güdən subyektivliyi məhdudlaşdıran siyasi zorakılıq nəticəsində bütövlüyü əldə olunan hər hansı bir sosial sistemi məhv edər. B. Mandevil T .Hobbs modelindən əhəmiyyətli bir əlavə ilə geniş istifadə edir. Bu əlavə özəl maraqların (həm də ticarətin və iqtisadiyyatın) dini – mənəvi normalardan və siyasi nəzarətdən azad olunması istiqamətində ikinci mərhələdir. Şəxsi maraqların güdülməsi nəinki hər bir fərdin tələbatına çevrilir , hətta cəmiyyətin mövcudluğunun əsas prinsipi olur. İstəklərin və maraqların azadlığı bu zaman sosium mövcudluğunun zəruri və destruktiv prinsipi kimi deyil ilk əvvəl integrativ prinsip kimi qəbul olunur. Özəl maraqları güdmək ictimai rifaha təkan verir (*privace vices – public benefits*).

Burjuaziyanın partikulyar etika prinsipləri şəxsi maraqları bir nemət kimi qiymətləndirilir. B. Mandevil daha da irəli gedir və əsas etik postulatları o, şəxsi maraqların və ya digər formasında deyil həqiqi tələbatın və xudbinliyin cəmiyyətə xeyri növündə görür. Özünəvurğunluq individin mənfi xüsusiyyəti olsa belə - legitimləşir, çünki o iqtisadi cəhətdən çox xeyirlidir. Mənəvi məcburiyyətin və şəxsi maraqlara uzunmüddətli uyğunluğun bənzərliyi hər hansı evdemonistik etika sistemi çərçivəsində insanlar üçün nemət ola bilir, lakin özü özlüyündə bütün xoşagəlməzlikləri ilə belə ictimai nemət ola bilər – bu, şübhəsiz, iqtisadiyyatı normaya və mənəviyyat haqqında elmə yaxınlaşdıran B. Mandevilin yeniliyidir.

Ticari-iqtisadi fəaliyyət o zaman mənəvi – sosial normalarının təsirindən qaça bilir, nə vaxt ki o, özü normativ xarakter daşıyır. Çünki əvvəlki burjuaöncəsi mənəviyyat öz normalarının düzgünlüyünü ticarətə və iqtisadiyyata tətbiq etməkdən çıxış edirdi. Bu da ədalətli qiymət ideyasını doğurur. B. Mandevil iqtisadiyyatı mənəviyyatdan məhrum edir, fərdin təbii xudbinliyinə deyil sosial inkişafı iki tərəfli təsərrüfatçılığın xeyrinin fərdi davranışın forma və meyarlarına bəraət verir. Əgər hər hansı bir şəxsi marağın həyata keçırilməsi ümumi xeyrə işləyirsə, o zaman onlarıda müsbət qiymətləndirmək olar. Beləliklə paradoksal vəziyyət yaranır: tərəqqi və nemət şəxsi istəklər və nöqsanlar hesabına qazanılmaq mümkünlüyünə çatır. Etika nöqteyi-nəzərindən təəcüb doğuran iqtisadi nəzəriyyə və ali ictimai mənfəətin mənən hər hansı bir davranışın (hətta şübhə doğuran olsa belə) reglamentləşməsini təsdiq edən utilitarizm doktrinası B. Mandevil tərəfindən əsaslanır. B. Mandevilin konsepsiyasında bu ideyalar ictimai ali rifahın həyata keçirilməsi vasitələri və

yollarının heç bir mənəvi şərtlər və məqsədlər tələb etmədiyi müdafiə arqumentləri kimi səslənmişdir. Ali ictimai fayda legitimdir, çünki iqtisadiyyat özlüyündə mənəviyyatdır. Bilavasitə ictimai fayda verən ticarət də mənəviyyata çevrilir.

Buradan faydanı nemətə çatdıran merkantilizmə meyllik yaranır. Mənəviyyatın iqtisadiyyata tabeliyinin zəruriliyini və mümkünlüyünü əsaslandırmaq üçün B. Mandevil Aristotel etikasının təhlilinə müraciət edir. Onun qiymətləndirilməsi ideologiyasının "ideologiyanın tənqidi" xarakteri daşıyır. Lakin bununla belə B.Mandevil ardıcıl olaraq varlanmağa və gəlir əldə etməyə yönəlmiş burjua iqtisadiyyatı prioritetlərini zümrəaristokratın etosu münasibətlərində müdafiə edir. Mandevilin əsas ideyası ondan ibarətdir ki, mənən konstitutlaşmış cəmiyyətdə iqtisadiyyatın inkişafı mümkün deyil, burjuaöncəsi etosu və ləyaqət haqqında təsəvvürlərin qorunması ilə üst-üstə düşmür. Müasirləri zəmanə böhranını ictimai mentalitetdən ictimai xudbinliyin artmasında, həyatın əvvəlki zümrə formalarının dağılmasında görürdülərsə, Mandevil, əgər insanlar sosial və mədəni differensasiyası və ictimai rifahın və sərvətlərin artması ideyalarından imtina etmirlərsə, bu böhranı zəruri və qaçılmaz hesab edir. *Çiçəklənmə və etika prinsipləri, iqtisadi tərəqqi və mənəvi – sosial stabillik cəmiyyət tərəfindən eyni zamanda əldə edilə bilməz.*

"Arılar haqqında təmsil" dövrün mənəvi böhranı zamanı ictimai tərəqqini zəruri mərhələsini qane edir. "Təmsilin" əsas məqsədi həyat səviyyəsindən çiçəklənən "sənayeləşmiş" dövlətlərin nemətlərindən həzz almağın mümkünsüzlüyünü və burjuaöncəsi sivilizasiyanın bütün üstün cəhətlərini və toxunulmazlığını göstərmək idi. C. Keysin bu istiqamətdə düşüncələri çox maraqlıdır. "Ona görə də, mən düşünürəm ki, biz dinin bəzi güvəncli və şübhəsiz prinsiplərinə, və "xəsislik – pislikdir", "zorla məhrum etmə cəzalanmalıdır" kimi qanunlara qayıtmaqda azaddır." Nəhayət ki, biz məqsədləri vasitələrdən üstün tutub rifahımızı mənfəətimizə qurban vermərik. Lakin bütün bunların zamanı hələ yetişməyib. Hər halda bir neçə yüzilliklər özümüzü inandırmalıyıq ki, düzlük – pisdir, pislik isə alicənablıqdır, çünki yalan mənfəət gətirir, düzlük isə yox. Tamahkarlıq və müamiləçilik, qorxaqlıq və ehtiyatçılıq bizim allahlarımız olmalıdır (sic!). Yalnız onlar bizi iqtisadi zərurətin tunelindən işığa çıxara bilər. İş ondadır ki, şəxsi mənfəət əldə etməklə bağlı olan mənfiliklərdən qurtulma prosesi iqtisadiyyatın tərəqqisinə imkan verir. Ümumi xeyirxaxlıq və ədalət isə əksinə, cəmiyyəti bir bölünməzlik səviyyəsində saxlaya bilir. Xeyirxaxlıq və çiçəklənmə bir –birini istisna edir. "Çox nadir hallarda müsbət xüsu-

siyyətlər insanların iş tapmasına kömək edir, ona görədə onlar kiçik bir xalqı xeyirxah edə bilər, lakin möhtəşəm bir xalq edə bilməz." Zəmanə adət - ənənələrinin süqutundan şikayətlənən, lakin inkişaf etmiş cəmiyyətin bütün sərvətlərini və imtiyazlarını öz xeyri üçün istifadə edib mənimsəmək istəyində olan hər bir kəs ya bu sadə həqiqətləri anlamır, ya da iqtisadi çiçəklənmənin zəminləri haqda düşünərək özlərinin və başqalarını aldatmağa çalışır. B. Mandevil hər zaman deyinən və narahatlıqları və mənfilikləri ucadan pisləyən, eyni zamanda onlara gözəl həyat bəxş edən bütün nemətlərə hərislik göstərən ağılsız insanlara qarşı çıxır.

B. Mandevil bu qeyri-səmimiliyi üzə çıxarmağın qarşısında məqsəd qoyur. Onun nöqteyi-nəzərindən A.E.Şeftsberinin etika baxışlarına görə onu qeyri-səmimilikdə günahlandırmaq olar. B. Mandevil onun etosu üçün əbədi əhəmiyyət kəsb edən və hamı üçün mütləq olan şərhi ilə razı deyil. Bu şərh danışıqların və insanların qarşılıqlı güzəştlərinin nəticəsi ola bilər. A.Şeftsberi altruist, qeyri-iqtisadi etika barəsində fikirlərini söyləyərək riyakarlıq edir. Onun mənəviyyatı işgüzar xadimlərin deyil, tənbəllərin, tüfeyli rahiblərin mənəviyyatıdır.

B. Mandevil Aristotelin nemətə verdiyi *utile, pulchrum, honestum* (lat. *fayda, gözəllik, sədaqət*) izahına üz tutur. A. E. Şeftsberi ondan irəli gedir ki, Romalıların alicənablığı, gözəlliyi və sədaqəti və *yunanların "kalon" –mənəvi gözəlliyi* nemətin faydadan daha ali ölçü vahididir. B. Mandevil cavab verərək, qarşısına hər bir başa düşən insanın razılaşdığı alicənablığın ümümiyyətlə bizim dünyanın reallığı olduğu haqda, "hansısa bir həqiqi dəyərin, ya da ləyaqətin nədənsə ibarət olduğu haqda, bir əşyanın digərinin üzərindəki üstünlüyü barədə" məsələ qoyur. Alicənablığın həqiqiliyi barədə məsələni B. Mandevil hərtərəfli təcrübə anlayışına müraciət edərək həll etməyə çalışır. Yalnız alicənablığın həmişə hamı tərəfindən qəbul edildiyi təqdirdə ona həqiqətən mövcud olan statusu vermək olar. Gözəllik anlamına bu üsulu aid etmək olmaz. B. Mandevilə istinadən incəsənət əsərləri bazarda aldıqları dəyərdən başqa daxili dəyərə malik deyillər. Onların dəyəri bazar qiymətindən, məmulatın nadirliyindən və s. asılıdır. Eyni şeyi sədaqət barəsindədə demək olar. Ümumiyyətlə bir xalqın alicənablıq ifadəsi kimi qəbul etdiyi digər xalq tərəfindən eyib hesab edilə bilər. *Alicənablıq – razılığın nəticəsi və əksəriyyətin verdiyi qiymətdir.* Məhz bunun üzərində ticarət və iqtisadiyyat münasibətlərini qurmaq lazımdır.

B. Mandevilin Aristotelin etika aspektinin digər tənqidi daha əhəmiyyətlidir. O, hesab edir ki, aristotelizmin mənəvi prinsipləri yalnız riyakarlığa zövq verir. Məhəbbətin yeganə ifadəsinin özünə sevgi olmasını nəzərə alaraq, səxavəti sevməyə çağırış özünü aldatmadan və riyakarlığdan başqa heç nə ola bilməz. Yalnız şəxsi mənfəət həqiqi mənəvi səbəb ola bilər. Aristotel nemətinin triadasından yalnız tək fayda qalır. Mandevil üçün ləyaqət xülyadır, moralistlərin və siyasətçilərin ixtirasıdır. Onun aləmində ləyaqət yoxdur. "Ləyaqət nəsilinin " sonuncu təmsilçisi Don Kixotdur, ondan sonra ləyaqət hissi – donkixotluq deyə adlandırılır.

B. Mandevilin A.E. Şeftsberiyə yönəltmiş üçüncü tənqidi - iqtisadiyyat və sosial biliklər mövqeyindən olan tənqiddir. Aristotel tipinə bənzər yaradılmış etika ya da ki, A.E. Şeftsberi etikası (bunların fərqi yoxdur), yalnız rantyelər, burjuaz əldəetmələrinin çətinliklərindən və qarışıqlıqlarından uzaq olan insanlar tərəfindən qəbul oluna bilər.[29] O, gözəl sosial səxavətlər anlamı və ölümə olan nifrət barəsində öz kabinetində düşünəcək. Amma Aristotelin bu tərəfdarları nə öz ölkəsi üçün savaşacaq, nə də ki, dövlətin itkilərini qaytarmaq üçün işləyəcək. Belə insanların səxavətləri səxavət deyil, çünki o əməldə ifadə olunmur. Mandevilin nəticəsi belədir: "Səxavət əməldən ibarətdir". Aristotelin tərəfdarlarının seyrçi həyatı faydadan və fəaliyyətdən uzaqdır, bu rantyelərə və tənbəllərə aid bir həyatdır. A. Şeftsberinin aristokratik etosu burjua iqtisadiyyatının tələblərinə cavab vermir.

İctimai nemətin iqtisadı anlamına yönəlmiş cəmiyyətdə alicənablıq və ləyaqət anlamlarının yeri yoxdur. Bu artıq başqa etos idi, çünki iqtisadiyyat və ticarət başqa ölçüyə keçmişdirlər. Merkatilizm öz cazıbədarlığını itirmiş olsada ictimai münasibətlər *mənəvi deyil* daha da *merkantil* olmağa başlamışdı. Mandevil faydanın səbəbini mənəvi qandallardan azad edərək müxtəlif əsaslandırmalardan istifadə edirdi. Əvvəla o mütəəssirlik nöqteyi-nəzərdən səxavət haqqında olan nəzəriyyələri qeyri-səmimi olduqlarına görə qınayır, sonra isə qüsuru iqtisadi səxavət dərəcəsinə qədər yüksəldir, çünki yalnız o səmimidir. Mütəfəkkir hesab edir ki, bizim səxavət adlandırdıqlarımız gizli qüsurlarımızdır. Əgər F. Laroşfuko deyirdi ki, "bizim səxavətlərimiz çox zaman gizli qüsurlarımızdır", Mandevil "çox zaman" sözünü "həmişə" sözü ilə əvəz edir. İnsan səxavətləri - vüqar və ləyaqət geymini geyinmiş yeganə səmimi hiss olan xudbinliyi gizlədən geyimdir. İnsan əməllərinin əzəli əsl əxlaqi səbəbləri yoxdur, yalnız öz mənfəətinin səbəbi olan təbii özünü qoruma qanunu. Əxlaq, bizim eqoistik maraqlarımızın çərçivəsidir, aparıcı rolu ticarət ifa edən özünü

qoruyan iqtisadiyyat fenomenidir. Səmimiyyət ayininin ilk müjdəçilərindən olan Mandevil, mənəvi səxavətlərdən tam imtina etməyə və səmimi olaraq eqostik məqsədlərin arxasınca getməyə çağırır.

Ticarət fəlsəfəsi üçün vacibi odur ki, B. Mandevil qüsurnan heysiyyatı eyniləşdirir, cünki əxlaqın aradan götürülməsi situasiyasında mənəviyyatsız əməlin laqeyd əməldən fərqləndirilməsi bütün mənasını itirir.

İnsanların etdikləri hər şey eyni dərəcədə eqoistik məqsədlərlə şərtlənir və onlara tabe olur. Mandevilə görə üç əsas qüsurlardan (yalan, cah-calala meyl, vüqar) ikisi qüsur deyil, onlar əxlaqi laqeydsizliyin (adiafora) ifadəsidir. Bu iki (əzəldən ticarətlə təmin olunan) xüsusiyyəti - vüqar və cah-calala meyli mütəfəkkir iqtisadiyyatın inkişafının iki sövqedici səbəbi kimi səciyyələndirir, lakin sonrakı işlərində yalanı sürətli iqtisadi inkişafın qacılmaz nəticəsi kimi qiymətləndirir. Mandevil hesab edir ki, pulpərəstlik və vüqar hissi bu əsas şərin – işsizliyin – qarşısını alaraq ehtiyacların artmasına, tələbatın canlandırılmasına gətirib çıxarır, iqtisadiyyatı və ticarəti stimullaşdırır. Istehlakçı baxımından fərdi qüsurlar iqtisadiyyatı və ticarəti canlandırır, istehsalın səviyyəsini qaldırır, və beləliklə ictimai üstünlüklərə çevrilirlər. Ayrı şəxslərin cəmiyyətin nemətlərinə çevrilən qüsurları barədə olan fikirlərin mənasıda məhz bundan ibarətdir. Mənəvi deyil, mənəvi laqeyd ehtiyaclar milləti varlı və güclü edirlər; onlar cəmiyyəti idarə etməlidirlər, əks halda nəticə etibarilə ümumi məşğulluğun mümkün olmamasına görə xoşbəxtlik də mümkün deyil.

> *“Sərvətin bölüşdürülməsi əsasən XVII əsrdə ticarətçilərin orta sinfinin yüksəlməsinə təkan verdi.. Onlar öz növbəsində, pul ilə bağlı yeni peşələr yaratdılar. Bank işinin genişlənməsilə əlaqədar hər şeyin satılmasında və alınmasında – torpaq mülkündən başlayaraq, Çinə ticarət səfərində iştirak üçün səhmlərə qədər – ixtisaslaşmış brokerlər meydana gəlir. Sığorta edənlər bir səfər zamanı təhlükədən sığortada ixtisaslaşmış, sonradan isə bir neçə səfəri sığortalayardılar.”*
>
> D. Vezerford

Fərdi qüsurun ictimai nemətə çevrilməsi Mandevilin fikirlərinə görə, siyasətçilərin iştirakını nəzərdə tutur, çünki o, öz-özünə baş verə bilməz. Hökümətin vəzifəsi bu fərdi qüsurların - cah-calala həvəsin və xudpəsəndliliyin ictimai üstünlük xüsüsiyyətlərinin əldə etməsi, onların istehsalın stimulu kimi istifadə edilməsi, individlərin tam məşğulluğunu təmin etmək, ictimai istehsalın

bütün potensialların istifadəsindən ibarətdir. Bunun üçün fərdi istehlakın, nüfuzlu tələbatların istənilən yolla inkişafı lazımdır. Mandevil ticari-iqtisadi mexanizmi kifayət qədər asan başa düşür. O, istehlakı təsərrüfat inkişafının hərəkətverici qüvvəsi hesab edir; investisiyaları isə əhəmiyyətsiz sayır. O, hesab edir ki, tam məşğulluğa nail olmaq üçün yalnız istehlakı inkişaf etdirmək lazımdır. Digər fərdi istiqamətlər B.Mandevil tərəfindən disfunksional, istehlak nemətlərinə olan tələbatları dağıdan kimi qəbul olunur. Cah-calala və nüfuza olan meyl faydalıdır, çünki onlar istehlakı stimullaşdırırlar. Mütəfəkkirin təsərrüfatçılıq sxemində iqtisadiyyata və maliyyə yatırımlarına yer yoxdur. Onun fikrinə görə insanın nə qədər qüsuru var, o qədər də çox iqtisadiyyat fəaliyyəti üçün imkanlar var. Mandevil təlabatı və istehsalı yalnız şüurluluq və keyfiyyət nöqteyi nəzərindən deyil, həmdə kəmiyyət baxımından öyrənir. Buna baxmayaraq bu qüsura nail olmaq üçün o keyfiyyət anlamı yolu ilə deyil, təcrübə yığmaq yolu ilə gedən dövrlə təmamilə özünü doğruldur.

L. Dumonun: Mandevilin nəzəriyyəsində cəmiyyəti iqtisadi, ticarət, təsərrüfat nöqteyi nəzərindən qiymətləndirən ideologiyanın əsasını axtarmaq lazımdır – fikrini doğru saymaq olar. O düşünür ki, səxavətlər iş vermir və "nə incəsənət, nə də ki, sənaye onu heç vaxt öz nemətləri ilə müjdələməyib." Nə etika nə də ki, din cəmiyyətə heç bir fayda daşımır. "Din – bir şeydir, ticarət- başqa şey. Öz qonşularına narahatlıq törədən və çox zəhmət tələb edən istehsalatlar icad edən şəxs, onun haqlı və ya haqqsız olduğundan asılı olmayaraq, cəmiyyətin ən yaxşı dostudur."[35] Burjua cəmiyyətində dinin ümumi məşğulluğa kömək etməməsinə görə ona yer yoxdur. Mandevilin fikrinə görə, nə səxavətlər, nə də ki, insanın dostluq etmək və ünsiyyətdə olmaq bacarığı ictimai binanın binövrəsini təşkil etmir. Onun əvvəlki fikirlərinə baxmayaraq, o, iqtisadi cəmiyyətin siyasi hakimiyyətsiz mövcud ola bilməməsi fikrini irəli sürür. Öz müasirlərinin tənqidlərinin təsiri altında Mandevil bacarıqlı (həqiqi) rəhbər tərəfindən idarə edilmək şəraiti şərtilə şəxsi qüsurun ictimai nemətə çevrilmək mümkünlüyünü qəbul etməyə məcbur olur. Şəxsi qüsurun ictimai nemətə çevrildiyini qəbul etmək təqdirində ilahi məqsədə nail olmaq mümkün deyil, çünki Mandevilin mexaniki psixologiyası və hər istənilən mənəvi əsaslandırmanı qəbul etməkdən imtina etməyi, individlərin məqsədyönlü ümumiliyə meylini istisna edir. Mexanizmin analogiyası əsasında cəmiyyəti dərk etmək ilahi prinsipdən ibarət ola bilməz. Mexanizm yalnız ixtisaslı mexanikin nəzarəti altında işləyir. Şəxsi qüsur ictimai mexanizm şəraitində "məharətli siyasətçinin

bacarıqlı rəhbərliyi altında" bütün cəmiyyət üçün nemətə çevrilə bilər. *Dövlət və hökmranlıq individlərin niyyətlərini ifadə etmək üçün vacibdirlər.*

Azad ticarət konsepsiyası üçün ən vacib olan, şəxsi marağın ictimai nemətlə harmoniyasının uyğunluq hipertrofiyası, yəni Mandevilin yaradıcılığında ən başlıca liberalizmin, liberal iqtisadi qaydanın mənbəyi, yaxından müşahidə edəndə isə, nümayəndələri iqtisadi nöqteyi nəzərdən cəmiyyəti öyrənib və dəyişdirməyə çalışan *liberalizmin* tarixi fazasının başlanğıcı kimi görsənsən, lakin merkantilizmin əvvəlki formasıdır. Dövlətin idarəsi olmadan individlərin eqoistik maraqları vasitəsilə ifadə edilmirlər, cəmiyyət inkişaf etmək iqtidarında deyil. Filosov fərdi faydanın vacibliyinə inamında liberalizmin ilk nəzəriyyəçisi kimi görsənir: individlərin şəxsi marağının vasitə kimi ifadə edilməsi tələbində o *merkantilizmin nümayəndəsidir.* B. Mandevil ilk sosial filosof – utilitaristdir ki, ümumi faydanı, ictimai üstünlükləri, insanların hərəkətlərinin və əməlləri haqqında olan bütün fikirlərin ölçü vahidi olmasını qəbul edib. Lakin utilitarizm onda mənəfi doktrina xüsusiyyətini almamışdır, çünki o, mənəviyatın özünün mümkünlüyünü inkar edirdi. İndivid ictimai fayda kriterisinin öz istəklərindən irəli gələrək dərk edə bilməz.[36] Fəallıq hər zaman ilk olaraq ticarətin iradəyə arxalanaraq öz daxili enerjisilə hərəkətsizliyə qalib gələn təməlidir.

Mandevil iqtisadi nöqteyi-nəzərdən hesab edirki, tək ticarətdən deyil, mənəviyyatdanda ayrılmaz olaraq, ümumilik cəmiyyətdə xaricdən quraşdırılıb, çünki o, mənbəyi individin eqoistik maraqları olan mexanizm kimi fəaliyyət göstərir. Mənəviyyatda o, idrakın ehtiraslara xarici əks təsir kimi səciyyələndirilən məqsədyönlü təyin-müqəddəratını inkar edir. Cəmiyyətdə hər hansı teoloji səbəbləri kənarlaşdırmaq öz mənəviyatının köməyilə individin düşüncəli özünüidarəetməsi ilə bərabər fərdlərin cəmiyyətdə müstəqil, qarşılıqlı əlaqəsini də istisna edir. İctimai nemətlər süni yeridilir və bu müdrik siyasətçinin ağıllı rəhbərliyi nəticəsi olur. Mandevilin eyni ilə Hobbs kimi düşündüyü insan təbiəti onun zehninin fəallığını siyasi hakimiyyətlə əsaslandırdığını nəzərdə tutur. Əgər insan təbiətən qeyri sosial bir varlıq kimi, ünsiyyət isə özünü qoruma istəyinin, ölüm qorxusunu üstələməyin nəticəsi kimi qiymətləndirilirsə, o zaman sosial asayış individin istəyi kimi deyil, yalnız xaricdən zorla müdaxilə nəticəsində yarana bilər. İnsanları birliyə aparan əmək bölgüsünü qəbul edərək, Mandevil öz cəmiyyət konsepsiyasına ilahi məqam daxil edib, lakin psixologiyasının mexanistik xarakterli olduğu üçün, bu yalnız bacarıqlı siyasətçi tərəfindən həyata keçirilə bilərdi. Teoloji prinsipləri kənarlaşdıraraq, ictimai

asayışın öz başına qurulmasını rədd edərək, mütəfəkkir xudbinliyin ictimai faydasını (*public benefits*) və özəl maraqları (*private vices)* qəbul etdiyini imtina etmir. Bütün bunlar ticari–iqtisadi fəaliyyətdə baş verən təkrar istiqamətləndirilmənin çətin prosesləri haqda xəbər verirdi.

## 4.A. SMİT İQTİSADİYYATININ LİBERAL PARADİQMASINDA TİCARƏT

Ticarət heç zaman öz aktuallığını itirməyib. Lakin hər yeni dövr, onun rolunun əhəmiyyətinin dərk olunmasına öz düzəlişlərini edirdi. Əsas məsələ onda idi ki, ticarət heç vaxt iqtisadi nəzəriyyədən kənar tutulmurdu. Buna nümunə - A. Smitin iqtisadi əməllərinin özbaşına uzlaşmasını izah etmək məqsədilə teleologiyanı iqtisadi nəzəriyyəyə qaytarılması mövqeyidir. A. Smit B. Mandevilin nəzəriyyəsinin əsas müddəalarını – psixoligiyanın mexanistik şərhini, individlərin dərrakəsizlik fərziyələrini tənqid edir: Öz sələflərindən fərqli olaraq, A.Smit yaradıcılığında liberalizmin ideya əsaslarının təməlini qoyur. O, B. Mandevillə polemikada bir çox məsələlərdə onu ilk növbədə əsaslandırır. Qeyd edək ki, ticarət, iiqtisadiyyat və etika üçün A.Smit yaradıcılığının əhəmiyyəti tək onun baxışlarının orijinallığı ilə deyil, daha çox onun "öz zəmanəsinin milli iqtisadi doktrinasını nizama salmasına görə" (Ş. Şumpetter) müəyyən edilir. Bu həmdə onun etik nəzəriyyəsi üçün də səciyyəvidir. Lakin məhz etik və iqtisadi nəzəriyyələrin qarşılıqlı əsaslandırılmasına görə, Smit nəzəriyyəsi liberalizmin sosial fəlsəfəsinə çevrilir. Etika və iqtisadiyyatda A.Smit şüurun teoloji quruluşunu

> *"Mənəviyyatın və evdemonik doktrinaların differensiasiyası ikiləşmənin davamıdır. Bunun nəticəsində individi iradi niyyətlərin və sosial-konformist tələblərin oxşarlığı daha çox "təbii", "təbiətdən" verilməmiş, lakin hər bir individin istəkləri ilə üst-üstə düşməlidir. Ona görə də müstəqil, rəsmi etikanın yaranması vətəndaş və kollektivin təbii oxşarlığının dağılması nəticəsidir. Ümumi nemətlərin və utilitarizm istəklərinin mütləqiyyət dövləti siyasi ideologiyası isə individin mənəvi muxtariyyətini hesaba almadan fərdi xoşbəxtliyə və sosial nemətlərin vahidliyinin köməyi ilə məhz bu təbii oxşarlığı bərpa etmək cəhdləridir.*

vurğulayaraq onun ticarətdə və ictimai istehsalatda sosial qarşılıqlı təsirin mexanistik şərhinə qarşı qoyur. Etikada bizim subyektivliyimizi transendentləşdirməyə imkan yaradan qərəzsiz seyriçinin ümumiləşmiş şüuru böyük əhəmiyyət kəsb edir. İqtisadiyyatda isə ümumiləşmiş şüur individin ticari-iqtisadi davranışının optimal əlaqələndirilməsini həyata keçirən görünməz bir əl kimi təqdim olunub. Smit öz etikasının fərziyyələrini sintezləşdirərək "mənəvi hisslərin nəzəriyyəsi" və iqtisadi nəzəriyyələr, "sərvət" haqqında araşdırılmalar, mənəvi muxtariyyatın və bazar iqtisadiyyatı quruluşunun əlaqəsini əsaslandırır. Beləliklə, Smitin yaradıcılığında liberalizmın dünyagörüşü kredosu təsvir olunub. Məhz bu kredodan, mövqelərdən azad ticarətin (digər əhəmiyyətli nəticələrdən əlavə) statusu və konsepsiyası formalaşıb.

A.Smitin baxışlarında liberalizmə xas olan siyasəti və dini iqtisadiyyat və mənəviyyatla əvəz etmək aydın görünür. B. Mandevil siyasətin köməyi ilə individin vasitələnmiş özəl maraqlarının modelini yaradır və əməyin təsərrüfat bölgüsü ilə intervensionizminin qırılmaz əlaqəsi ideyasını əsaslandırır. Bu ideyaları o, iqtisadiyyatın sosial və dini normalardan azad olunmasını üçündə ilk addım kimi düşünmüşdü. A.Smitə görə, əksinə mənəviyyat və iqtisadiyyat individlərin qarşılıqlı təsirində və ümumiləşdirilməsində bağlayıcı vasitələrə çevrilir. Həm mənəvi olayda, həm də təsərrüfatdakı qarşılıqlı təsirdə ümumiləşmə və vasitələşmə elementi var, mənəviyyatda bu "qərəzsiz seyriçidir", iqtisadiyyatda "ticarət və mübadiləyə təbii meyllilik". Bununla əlaqədar, iqtisadiyyatda və etikada ümumilik probleminin həll olunması məqsədəuyğundur, çünki bütövlüklə liberalizmin mövqeyini açıqlayır. Burada ən əhəmiyyətli odur ki, individi "özünə qapanmış bir dünya, başqalarının mənəvi tələblərinə biganə olan insan kimi göstərən Mandevildən fərqli olaraq, A.Smit

> *Mütləq dövlət "Leviafan"ın nümunəsində göründüyü kimi, etikanı suverenin iradəsinə uyğun olan vətəndaş hüququna çevirir və vətəndaş dövlət arasında olan birliyi siyasi vasitələrlə bərpa etmək istəyir. İqtisadi utilitarizm etik doktrinanı iqtisadi səmərəli işlər nəzəriyyəsinə çevirir və individin və cəmiyyətin ikiləşməsini ona oxşar uzunmüddətli fərdi iqtisadi maraqlar və sosial mənfəətlərlə əvəz edir. Mütləq dövlət dövlətçiliyin birliyi naminə dövlət və cəmiyyət arasındakı fərqi "aradan qaldırır". Utilitarizm modeli iqtisadi şüurlu individlərin dövlətsiz cəmiyyətindəki bu ayrıseçkiliyi "aradan qaldırır".*
>
> P.Kozlov

insanı, öz subyektivliyini "ürəyində yer tutmuş qərəzsiz seyriçi" vasitəsilə transendentləşdirməyi bacaran bir varlıq kimi şərh edir. Rəğbət və mərhəmət – bunlar xudbin niyyətlərdən kənarlaşdırılmağı mümkünsüz olan bir xüsusiyyətlərdəndir. Kantın praktiki şüur məqsədləri ilə tutuşdurulan mənəviyyatın real vəziyyəti A.Smit baxışlarının əsas elementlərindəndir. Mənəviyyatlı insan "öz hisslərinin və hərəkətlərinin qərəzsiz seyrici tərəfindən məhkəməyə çəkildiyini bir dəqiqə belə unutmur." Həqiqi mənəviyyat insanları bir birinə bağlayır və Mandevilin hesab etdiyi kimi, yalnız xudbinliyin riyakar sığınacağı ola bilməz. Mənəvi təqdirin yalnız faydalıq hissinə bağlanılması daha da qeyri mümkün olur, çünki mənəvi davranışların həqiqi mənası bizim fayda haqqında təsəvvürlərimizdən fərqlənir. A.Smit D.Yumun utilitarizminə (mənfəətpərəstlik) etiraz edərək, vurğulayır ki, insanlarda onların fayda və mənfəət haqda fikirlərindən asılı olmayan iki növ qabiliyyət mövcuddur: idrak və soyuqqanlıq. Elm və müdriklik dəyərlərinin onların sosial və iqtisadi faydasına bağlamaq olmaz. Nümunə kimi Smit riyazi biliklərin həqiqiliyini göstərir – onların kəşfi, onun fikrincə, heç bir hiss olunan mənfəət gətirmirdi.

İkinci müsbət cəhət – iradənin dəyəri ondadır ki, o, insanda ləyaqət və şərifət təbiyə etməyə imkan yaradır, çünki zaman seçimimizə görə də biz bu dəqiqə götürdüyümüz mənfəəti bu dəqiqə arzularımızın yerinə yetirilməsini daha üstün tuturuq, nəinki gələcək planlarımızın həyata keçməyini. Bu dəqiqəlik mənfəətdən və arzulardan gələcəyin xeyrinə imtina etmək mənfəət fetişi qarşısında düşünmədən baş əymək deyil, şüurun davranış üzərində bilavasitə hakimiyyətini nəzərdə tutur. İradə anlamında mənfəət düşüncələri ilə izah olunmayan üstünlük vermə aktı daxildir. O yalnız mənəvi əsaslara bağlıdır. Axı bu dəqiqəlik ehtiyaclarımız bizim üçün daha önəmlidir, nəinki hansısa gələcək mənfəətimiz. On ildən sonra ala biləcəyimiz zövq, bizi bu günkü məmnunluqdan daha az maraqlandırır, bu gün nəyinsə əldə olunmaq arzusu onun gələcəkdə əldə olunma arzusundan daha güclüdür., ona görədə biz tərəddüd etmədən indiki zamanı seçərdik, əgər bu cəsarətli seçimdə hamının təqdirini qazanmaq əminliyi bizə dəstək olmasaydı."

İnsan dəlilini şəxsi mənfəətə bağlayan B.Mandevildən A.Smit individin davranışında şüurun rolunu vurğulayır. Şüurluluq özüllüyü xaricdən aşılanmır, lakin məhz onda mövcud olur və hərəkət edir.

Bu düşüncələrin əsasında A.Smit liberalizmin bazarın həmdə ticarətin özünü idarəetmə tarazlığı nəzəriyyəsinin əsaslandırılmasına çatır. Təbiət elmindən götürülmüş qayda–qanun və məqsədəuyğuluq anlayışları A.Smitin

iqtisadi nəzəriyyəsində əhəmiyyətli rol oynayır. O, "mükəmməl azadlığın təbii nizamından", "təbii tarazlıqdan" danışır. A.Smit iqtisadi strukturun şərhini vermiş və bu şərhdə teleologiyanın mexanistik nəzəriyyədə təbiətin özü ilə bağlı olan elementləri nəzərə çarpır. Əgər B. Mandevil və Hobbs sosial nizam-intizamı hakimiyyətin əli ilə görülmüş süni bir iş sayırdılarsa və onun dəstəklənməsini dövlətin daimi intervensionist siyasəti ilə bağlayırdılarsa, Smit hesab edirdi ki, ictimai bütövlük individin azad hərəkətləri üzərindən ticarət və mübadilə nəticəsində əldə olunur. O, mənfəətpərəstliyi tənqid edərək yazırdı: "Üstünlük və sıxıntılar sistemlərinin tamamilə kənarlaşdıqlarına görə, təbii azadlığın sadə sistemi qalır və təsdiq olunur. Hər bir insana onun ədalət qanunlarını pozmayanadək şəxsi maraqlarını öz düşündüyü kimi tam azad təqib etmək imkanı yaradılır və öz əməyi və kapitalı ilə başqa adamın və ya bütün sinfin əmək və kapitalına rəqib ola bilər."

Təbii azadlığın sadə sistemi tarazlanmış sistemdir. O, insanların plan və arzularının həyata keçməsi kimi yaranmayıb, o, təbiət, ticarət və mübadilə üçün yaratdığı insanların hərəkətlərindən irəli gəlib. İnsanın öz təbiətinə xas olan əmək bölgüsü təsərrüfatın "təbii nizam intizamının" əsası sayılır. "Belə mənfəətlərə gətirib çıxaran əmək bölgüsü heç də uzaqgörənliyi ilə özünün doğurduğu ümumi rifahını dərk etmiş hər kimsənin müdrikliyinin nəticəsi deyil, o insan təbiətinin müəyyən çox ləng və tədricən inkişaf edən, belə olsa da meylinin nəticəsidir və bu meyl xeyirli bir məqsəd, məhz ticarət, bir əşyanı o birisinə dəyişmək həvəsidir.

Bu, ona görə baş verir ki, müxtəlif ərzaqlar satışa və mübadiləyə meylli olduğu üçün bir yerə toplanır və hər bir insan oradan özü üçün başqasının istehsal etdiyi məhsulu ala bilər." A.Smitə görə mübadiləyə meyllilik insan təbiətinə danışmaq bacarığı kimi bütün insanlara və yalnız insanlara xasdır. "Bir itin öz sümüyünü başqa bir itlə dəyişməsini, bir heyvanın jestlə və ya səslə : bu - mənimdir, o – sənin, gəl əlimizdəkiləri dəyişək – göstərdiyini görməmişik."

İnsan təbiətinin mübadiləyə meylli olmasını və bu meylliliyin əmək bölgüsündə bilavasitə həyata keçməsindən elə çətin bir nizam-intizam formalaşır ki, heç bir rasional kalkulyasiyaya tabe olmaq istəmir, lakin buna baxmayaraq cəmiyyətdə tarazlığa gətirib çıxarır. Təbii azadlıq teleologiyası individin tam duya bilmədiyi heç kimdə lazımi biliklər və məlumatlar olmadığı üçün tarazlanmış nizam-intizam ideyasını şərtləndirir. Beləliklə, "hökmdar, yerinə yetirilməsində hər zaman yalanlarla üzləşəcək və onun düzgün yerinə yetirilməsi heç bir insan biliyinə və müdrikliyinə sığmayan ayrı-ayrı şəxslərin

əməyinə rəhbərlik etmək və bu əməyin cəmiyyətin maraqlarına uyğun işlərə yönəltmək vəzifəsindən azad olunur.” Özəl mənfilikləri ictimai prioritetlərə döndərməyə təminat vermək üçün Mandevilin müdafiə etdiyi “kamil siyasətçinin” bacarıqlı rəhbərliyi ümumiyyətlə həyata keçilməzdir: çünki siyasətçi bu cür idarə etmək üçün zəruri olan biliklərə yiyələnməyib. Bu heç gərək deyil, çünki insanların mübadiləyə olan təbii meylliliyi tarazlığın qurulmasına təkan verir. Lakin Mandevildən fərqli olaraq A.Smit üçün, bu tarazlığa çatmağın yalnız qanunlara riayət etmək şərti ilə mümkünlüyü çox önəmlidir. Özəl şəxslərin mənfi cəhətləri deyil, fərdi mənəvi indefferent (nə yaxşı, nə pis) maraqalrı, əyər qanuna riayət olunarsa, mütəmadi genişlənən mübadilə prosesində ümumi rifah əldə etməyə imkan yaradır. A.Smit yenidən B. Mandevilin ləğv etdiyi iqtisadiyyat və etikanın fərqləndirilməsinə qayıdır və bütün insanın dəlillərini individin şəxsi mənfəətinə bağlayır. O, qeyd edir ki, doktor Mandevil bütün ehtirasları, onların qüvvə və istiqamətlərindən asılı olmayaraq qəbulolunmaz sayır. Beləliklə o, şöhrətpərəstliyi, başqalarını hissiyat asılılığında olan hər bir şeydə görür, və bu sofizmin köməyi ilə bütün xudbin mənfiliklər ümumi nemət təşkil edir kimi müddəasını sübuta yetirir. Əgər hakimiyyət tərəfindən siyasi rəhbərlik proqramı olmasa, Mandevilin paradoksları gerçəkləşə bilməz, və bu da onun arqumentlərinin zidiyyətli olmasını döstərir. A. Smit B. Mandevilin baxışlarında öz baxışlarının ilkin şərtlərini görür: “Bu sistem çox təhlükəli olsa belə, o, heç vaxt çoxlu sayda insanları yoldan çıxara bilməzdi, əgər ilk baxışdan həqiqətə bu qədər yaxın görünməsəydi” Mandevilin nəaliyyəti - özəl maraqların azadlığı ideyası və onunla bağlı əmək bölgüsü ideyası idi, səhvi isə - insan davranışının əsasını təşkil edən hər bir tələbatın və ehtirasın ümumi sosial məqsədlərin formalaşmasına təkan verdiyinə inamıdırş. Bu da bütünlüklə mənəviyyatdan imtina etməyə təkan verir.

A.Smitə görə isə, əksinə, ictimai birliyin və həyatın mümkün olması üçün mənəviyyat hər bir insanın “ürəyində” qərəzsiz şahid görümündə yer tutmalıdır. Fərdi maraqları “mərifətlik mənası” ilə genişləndirmək lazımdır, insanların şəxsi maraqları ümumi-mənəvi maraqlarla tamamlanmalıdır. A.Smit şəxsi maraqları mənəvi ümumilikdən ayrı tutur. Lakin Hakimiyyət və hökmranlıq problemləri onun üçün arxa plana keçir. Bu cür məqsədlər bütünlüklə liberalizmə xasdır. Əgər insanların fərdi istəkləri ictimai tarazlığın qurulmasına həqiqi təkan verirsə və insanlar özlərinin mərifətlik anlayışında və öz oxşarlarına hörmət etməkdə birgədirlərsə, o zaman iqtisadiyyat və mənəviyyat, fərdi mənfəət və “mənəvi hisslər” dövlətə ehtiyacı olmayan bir ictimai nizam-intizam

əsasında durur. Siyasət iqtisadiyyat və mənəviyyatla əvəz olunur. Dövlət yalnız bir funksiya daşımalıdır: qanunları və mülkiyyəti qorumalıdır. [49]

Bununla belə A.Smit utilitarizmi rədd edir, onun etik doktrinasını qəbul etmir. O hesab edir ki, utilitarist nöqteyi-nəzərindən bir çox mənəvi və estetik fenomenləri dərk etmək mümkün deyil, bundan başqa utilitarizm çərçivəsində mənəvi – etik məqsədlər iqtisadi səhiyyəyə endirilir, daha çox şəxsi mənfəət əldə etməyin vasitəsi kimi qəbul olunur. A.Smitin anlamında mənəvi mülahizə utilitarizm mülahizəsi ilə eyniləşmir. Əlbəttə, A.Smitin mənəviyyat və azadlığın birliyi nəzəriyyəsi yoxdur, o, utilitar etikanın heteronom xüsusiyyətini dərk etmir. Lakin insanın iqtisadiyyatda və cəmiyyətdə kommersiya fəaliyyəti azadlığın təbii sisteminin zorakılığının təbii nəticəsi ola bilməz, yalnız daha artıq mənfəət və gəlir mövqeyindən həyata keçirilə bilməz. O, insan məramlarının çeşidliyini nəzərdə tutur. İqtisadi quruluş hər hansı öncədən düşünlümüş yüksək mənfəətin layihələndirilməsinə deyil, müqavilə ohdəçilikləri çərçivəsində baş verən azad mübadiləyə əsaslanır. Cəmiyyətin mənəvi nizam-intizamı mənfəətin mümkün dərəcədə yüksək olması ilə deyil "mərifətlik mənasına" və qərəzsiz seyriçi ideyasına əsaslanan azad mənəvi çözümlə şərtlənir. A. Smitin təbii azadlıq və mənəviyyat sistemi dövlət və cəmiyyət , hökümranlıq və əməktaşlıq arasındakı fərqi başqa iqtisadiyyat və həm də ticarət və mənəviyyat arasındakı fərq və oxşarlığın müstəvisinə keçirir. İqtisadiyyata və mənəviyyata çevrilən siyasətin liberalizm ruhunda yenidən dərk edilməsində A.Smit utilitarizm tənqidində olduğu kimi İ.Kantın sosial fəlsəfəsinin sələfi kimi çıxış edir. Bunun sayəsində sosial ahəng yaratmaq ümidi ilə hər bir nəzəriyyədə yer tutan ticarət və mənəviyyat, etika və sahibakrlıq fəaliyyətinin qarşılıqlı münasibətləri daha da aydın olacaq.

## 5. İ.KANTIN MƏNƏVİ İQTİSADİYYATINDA TİCARƏT AZADLIĞI

A.Smitin iqtisadi liberalizm nəzəriyyəsi İ. Kantın insan tarixinin müəyyən mərhələsinin inkişafını tamamlayan klassik alman fəlsəfəsinin əsası olan fəlsəfənin təşəkkül dövründə inkişaf edir. İ. Kant öz qabağına təbiət elmləri, fəlsəfə, siyasət, iqtisadiyyat, mənəviyyat və dinlə bağlı çoxlu məsələlər qoyur və onları həll edir. İ.Kantın sistemində xüsusi yeri iqtisadiyytla etika arasındakı münasibətlər tutur.

Mənəviyyatın sərbəstliyini İ.Kant ümumi firavan dövlətin sosial praqma-

tikasıyla *əxlaqi avtonomiyanı* müqayisə edərək əsaslandırır. O, Mandevil və

onun tərəfdarları kimi çox iqtisadçıların iqtisadiyyatı mənəviyyata çevirmək,

mənəvi əməli iqtisadi rasional hərəkətə bənzətmək cəhdlərini qəbul etmir. İ. Kantın fikirlərində tək evdemonizm etikasını evdemonizmi dövlət idrakının funksiyalarında birinə çevirən ümumi firavan dövlət ideyasının tənqidi deyil, həm də iqtisadi rasional ticarət hərəkətinə dair etikanı refleksiya elementi kimi qəbul edən *ekonomizmin müxalifətidə* yer tutur. Etikanın əsaslandırılması iqtisadinin mütləqləşməsinin əsas zəminlərini inkar edir. Belə fikirlərə : bütün nemətləri ekvivalent formada ifadə etmək, bütün nemətlərin çoxlu ekvivalenti var kimi fikiləri də aid etmək olar. Hər bir hərəkət məqsədəuyğunluq və vaxtlılıqla bağlı xərclər nəzərdə tutur. Heç bir qərar qəti hesab edilə bilməz, çünki hər bir rasional qərar maksimal fayda anlayışından, C. Byukenenə görə, iqtisadi təfəkkürün xüsusiyyəti "onun bütün məsələləri alternativlik terminləri çərçivəsində nəzərə almaq qabiliyyətindən irəli gəlir. İqtisadçı üçün onun öyrəndiyi situasiya qarşılıqlı imtiyazlar situasiyası deyil. İqtisadçı peşəkarcasına çoxluğun dəyərlərinə və meyarlarına variabellik kateqoriyasında fikirləşməyə öyrəşib, və onu xoşbəxt etməyə məhkumdur" fikrindən ibarətdir. İ. Kant öz etikasını heç bir maneə olmadan nemət hesab edilən postulatdan irəli gələrək yaşadır. O, "heç bir niyyətdən asılı olmayan, yəni başqa məqsədi olmayan hərəkəti özü-özlüyündə zəruri olduğunu qəbul edən" qəti imperativ düsturu kəşf edir. Qəti imperativ prinsipi - əxlaqi seçimin şərtsiz qaydasıdır. Sözün qısası, İ.Kant öz etikasını heç bir ekvivalenti olmayan, bazar qiyməti olmayan, lakin ləyaqəti olan "nemət" anlayışı, yəni əxlaqi azadlıq üzərində qurur. İ. Kant şərtsiz əxlaqi seçim nəzəriyyəsini kəşf etmək və onu əminlik situasiyasında fəaliyyət kimi əsaslandırmaq istəyir. "Məqsədlər hökmranlığında hər şeyin ya *qiyməti* var, ya da *ləyaqəti."* İqtisadi məqsədlərin öz qiyməti var, mənəvi – ləyaqəti. İ.Kant qiyməti olan məqsədləri, yəni *relativ qiymə-*

> *"Etikanın xüsusi statusu, onun sosial konformizmin tələblərindən azadlığı və əxlaqın məqsədəuyğunluğun qorunması üçün siyasi və iqtisadi arqumentlərlə eyniləşdirilməməsinin əsası İ. Kant tərəfindən qoyulub. Kant etikanın müstəqilliyini müdafiə edirdi, həm də onun onu siyasətin bir törəməsinə çevirən suveren dövlət ideyası tərəfindən boğulmasına, həm də etikanın onu rasional – iqtisadi münasibətlər kimi deyil utilitasizm nöqteyi-nəzərindən izah edilməsinə gətirib çıxaran iqtisadiyyata daxil olunmasına qarşı çıxırdı". İki halda iradənin əxlaqi avtonomluğu heteronomiya ilə, qəti imperativ formalizm isə dolğun material kateqoriyalar ilə əvəz edilir.*

*ti,* və ləyaqəti olan məqsədləri, yəni *şərtsiz qiyməti*, eyni sahəyə aid edir. Bu individlərin bütün məqsədlərini əhatə edən məqsədlər hökmranlığıdır. O, "özü özlüyündə məqsəd olan bütün məqsədlərin və ağıllı məxluqların və individin özü öz qarşısında qoya biləcəyi məqsədlərin" vahididir.[53] Göstərilən hökmranlıqda özü özlüyündə məqsədlər, mənəvi – dərrakəli məxluq olan insanın məqsədləri və onun xudbin məxluq kimi məqsədləri, sistematik əlaqədədirlər.

Bu iki növ məqsədi – insan məqsəd kimi və fərdi məqsədləri - bir biri ilə necə əlaqələndirmək olar? *Ləyagət* və *qiymət* vasitəsilə. Mənəviyyat isə ağıllı məxluqları məqsəd olaraq ləyaqət vasitəsilə başa düşməyə imkan yaradan vasitələndirən hissədir. Bazar fərdi məqsədlərə qiymət verərək onları vasitələndirir. "Özündə məqsəd" İ.Kantın nəzəriyyəsinə görə tək nisbi deyil, həm də daxili dəyəri olan ləyaqəti var. Lakin əxlaq – elə bir şərtdir ki, ona əməl etmək insana ağıllı məxluq kimi məqsəd olmağa imkan verir: yalnız əxlaq individin özünə dair ağıllı məqsəd qoymaq üçün zəmin yaradır. "Özündə məqsədləri" son məqsəd olduğundan heç bir başqa məqsədlərlə əlaqələndirmək olmaz. Buradanda onların başqalarına qurban verilmək üçün və vəsaitə çevrilmək üçün qiyməti ola bilməz. Onlar başqaları üçün vəsait deyil özləri üçün məqsəddirlər. Bu da onların ləyaqəti deməkdir. "Özündə məqsədlər" vəsaitlər deyil, yalnız məqsədlər baxımından bir-biri ilə əlaqələndirilə bilər. Ticarət üçun bu hər zaman vacib bir məsələ olub. Onun həlli ticarət (tacir) münasibətlərini şərtləndirib.

İnsan ağıllı məxluq olduğuna görə özünü və ya başqasını "heç bir qiymətə" başqa bir şey üçün vəsaitə çevirməməlidir. Şəxsiyyətin özü-özlüyündə qiyməti yoxdur, çünki onun ekvivalenti yoxdur və o yalnız öz ekvivalenti hesab edilə bilər. Əks təqdirdə biz İ. Kantın tezisinin: hər bir ağıllı məxluq "özü ilə və başqaları ilə yalnız vəsait kimi yox, həmdə özünə görə olan məqsəd kimi rəftar etməlidir" yalnış ifadəsilə qarşılaşa bilərik. Əgər individ digərini öz məqsədlərinə çatmaq üçün vasitə kimi istifadə edirsə, onda söhbət artıq ağıllı məxluqların məqsəd kimi mövcudluğundan deyil, hamısının qiyməti olan məxluqlar cəmiyyətindən, yəni özlərinin ekvivalenti olan məxluqlardan gedir. Onda bu artıq "özündə məqsədlər" hökmranlığı deyil, ekvivalentlər hökmranlığı, *vəsaitlər hökmranlığıdır.* Lakin vəsaitlər hökmranlığı ümumilik xüsusiyyətinə qədər qalxa bilər. Ekvivalentlər hökmranlığı ən azından bütün vahid məqsədə çatmaq üçün vasitə kimi xidmət edən individlərin sayılma nöqtəsi olmadan ağlasığmazdır. İndividlərin hamısı özlərini və başqalarını vasitə kimi qiymətləndirməyəcəklər. Bu halda: "Əgər individin qiyməti varsa və o alqı-

satqıya yararlıdırsa, onda ümumilik prinsipinə riayət etmək şərtilə onun özü özünə məxsus" olduğunu qeyd etmək çox vacibdir. Və əgər bütün insanların qiyməti varsa, onda qiymətləri müəyyən edən subyekt haradadır? Ən azından heç olmasa bir individ özünə məxsus olmalıdır ki, başqa individlərdə ona məxsus olsunlar. Heç olmasa *bir* "şəxsiyyət – məqsəd" münasibəti refleksiv xarakter daşımalıdır: şəxsiyyət öz xüsusi məqsədidir, digərləri isə *vəsaitdir.* "Məqsədlər – vəsaitlər" münasibətləri həm ticarət münasibətlərini həm də mülkiyyət münasibətlərini, ən azından bir refleksiv məqsədin mövcudluğunu nəzərdə tutur. Məqsəd və məsələn, mülkiyyət anlamı burada məqsədin özməqsədinə refleksiv çevrilməsini tələb edən, özünə məxsusluğu kimi nisbi anlayışlar, məqsəd rolunu ifa edir.

Nəyə görə insanın qiyməti yoxdur və özünü qiyməti olan kimi təsəvvür edə bilmir? Kantın cavabı belədir: "Qiyməti olan hər bir şey başqa ekvivalent kimi bir şeylə əvəz oluna bilər."[57] Ağıllı *individ* onun ekvivalentinin mövcudluğu ilə razılaşa bilməz, çünki bu halda o artıq individ deyil və onu ekvivalent əvəz edir. İndivid "özünə məxsus olmadığına" görə artıq özü üçün hesab nöqtəsi və miqyas deyil, o özünü əşyavi ekvivalentdə itirib və bununla özünü əşyaya çevirib. Bu fikirlərlə İ. Kantın fikirləri uyğun gəlir: özünü təhkimli kimi aparan individ, artıq şəxs deyil. Subyektin və individin mövcudluğu üçün heç bir vahid ekvivalent yoxdur. Şəxsiyyət özünü əldə edilmiş nemətin haqqı hesab edə bilməz, çünki bu nemətlər və onların haqqı məhz şəxsiyyət üçün mövcuddur.

Bəzən elə hesab edilir ki, hansısa bir məqsədə çatmaq üçün verilən xərclər o məqsədin həyata keçməsi üçün yeganə vasitədir. Aradan qaldırılmış, xərclər alternativ imkanlardır. Lakin şəxsiyyət statusunun itirilməsi xərclərini ödəməyin qiyməti yoxdur, çünki bu itki ilə birgə individin mövcudluğunun digər seçim və alternativ aktları öz mənasını itirir. Ən çox özünə məxsus olan şəxs seçim edə bilmir. Artıq azad olmayan individ, məqsəd qoymaq, seçim etmək iqtidarında deyil (bunu onun yerinə başqaları edirlər), onun üçün qiymətin və xərcin əhəmiyyəti yoxdur.

Azadlıq sahibkarlıqda və ticarətdə əsas problemdir.

> *Söhbətin mümkün qədər çox nemət əldə etmək məqsədlərinə uyğun gələn hərəkətlərin norma və qaydalarını strukturlaşdırmağa çalışan ümumi nemətli mütləqiyyət dövlətindən getdiyində, iqtisadiyyatdan irəli gələn utilitarizm iradənin azadlığını yalnız çox mənfəətə əsaslanaraq iradənin azadlığınını əsaslandırmağa çalışır. Kant material (dolğun) etika doktrinalarına qarşı çıxaraq bu iki ifadənin arasında fərq qoymur. Kant onları əxlaq prinsipinin şəxsi xoşbəxtlik prinsipilə əvəz etmək təşəbbüsü kimi səciyyələndirir."*
>
> P. Kozlovski

Azadlıq yeganə qarşılıqlı əvəzetmə və qarşılıqlı hesablanma neməti deyil. Azadlıq və ya subyektivlik ümumiyyətlə dəyərin mövcud olma şərtlərindəndir. Azadlıq əşyanın subyekt üçün dəyəri olduğu kimi, dəyər münasibətinin ilkin şərti və başlanğıc nöqtəsidir. O, nemətlərin mövcud olma və əldə etmə şərtidir, lakin özü iqtisadi nemət deyil. Hər bir şəxs istədiyi kimi ona münasibət bəsləyə bilər, lakin azadlığın başqa nemətlərlə eyniləşdirilməsi yolverilməzdir. Əks təqdirdə şəxsiyyət artıq şəxsiyyət olmur və dəyərləri həyata keçirmək bacarığını itirir.

Mənəviyyat həqiqətdə elə azadlıq deməkdir ki, həyata keçirilməsində bir vasitə olan xeyirxah əməllər məqsədlər üçün heç bir əhəmiyyət kəsb etmir. Başqa şeylərlə müqayisədə onların nisbi dəyəri yoxdur, amma özlüyündə onlar "mütləq dəyərdirlər". İ. Kant bu relyativləşdirilməyən münasibətsiz dəyərləri "şə-rəf" adlandırır. İnsanın başqa xüsusiyyətləri isə səxavətdir, yəni bu və ya digər məqsədlərə çatmaq üçün mümkün olan vasitələrdir. Onların dəyərləri gətirdikləri fayda ilə ölçülür. "İnsanların ümumi meylliliklərinə və tələbatlarına yaxın olan hər bir şeyin öz bazar qiyməti var. Hər bir işdə bacarağın və səliqəliyin də öz bazar qiyməti var, hazırcavablıq, geniş təsəvvür və xoşxasiyyətlik – affektlə təyin olunan dəyər." Onların dəyəri ekvivalentində və qiymətdə əks olunub, onlara uyğun (ekvivalent) əvəz tapmaq olar. İstifadə etdiyimiz nemətləri (maddi və mənəvi) rahat (ya da nisbətən rahat) kompensasiya etmək olar. Lakin azadlığı və onun mənəviyyatda həyata keçiril-məsini heç bir nemət və səxavətlərlə əvəz etmək olmaz. "Bacarıqda olduğu kimi, təbiətdə də itirilmiş hissəni heç nə ilə əvəz etmək olmaz, axı onların dəyəri onlardan irəli gələn nəticələrdə deyil, gətirdikləri xeyir və mənfəətdə deyil, özünü məhz bu sayaq əməllərdə göstərən məslək və böyük iradədədir."[58] Azadlıq və mənəviyyatın dəyərləri yalnız onların empirik faydası ilə şərtlənmir. Məsələn, bizim azad iqtisadi fəaliyyətimiz nəticəsində gördüyümüz kimi və şərəfi hər bir dəyərdən üstün tutan qiymətləndirmə ilə. Şərəf, ticari-iqtisadi fəaliyyət subyektilərinin can atdığı əsas nəticədir.

İ. Kantın iqtisadiyyat və mənəviyyatın əlaqəsi barədə fikirləri mənəvi utilitarist əsaslandırması potensialı probleminin həllində böyük əhəmiyyət kəsb edir.Utilitarizm iqtisadiyyat və etikanın arasındakı fərqi silmək istəyir. *Tələbatların hesablanması və kalkulyasiyası həm iqtisadi həm də mənəvi optiumun əsası olmalıdır.* Yalnız çox fayda gətirən hərəkət və fəaliyyət optimal hesab edilə bilər. Mənəvi və iqtisadi hərəkət problemi – maksimallaşdırma və optimallaşdırma problemidir. Utilitarist etikasının monizmi *fayda prinsipi*

tərəfindən qoyulub. Faydanın maksimallaşdırılmasına quraşdırılma ümumi *iqtisadi və mənəvi əsaslandırılma* kimi qəbul edilir. İ. Kant məsələnin belə qoyuluşuna qarşı çıxaraq hərəkəti və fəaliyyəti şərtləndirən prinsiplərin zərurətinə əmindir. O, prinsipləri hərəkətin nəticələrinin haqda fikirlərin xarakterinə görə fərqləndirir. "Azad hərəkətlər nemət deməkdir, çünki onlar: 1) onların nəticələrinə görə fiziki cəhətdən yaxşıdırlar; 2) onların məqsədlərinə görə mənəvi cəhətdən yaxşıdırlar". "Fiziki cəhətdən yaxşı" – bu tərif praktik və empirik mənfəətə yönəlmiş iqtisadi optimallıq kriterisi kimi qəbul edilə bilər. "Mənəvi cəhətdən yaxşı" – maksimanın mənəvi qanunla uyğunlaşmasının ağıllı kriterisi barədə fikirdir. Lakin hər şeyi vahid prinsipdən çıxarmaq mümkün deyil, buna görə də utilitarizm əxlaqın nəzəriyyəsi ola bilməz. O ola bilməz – lakin ticarət və iqtisadiyyat fəaliyyəti üçün ***o var!***

Ticarət və iqtisadi fəaliyyətdə mənəvi konstantlar üçün hərəkətin empirik nəticəsinin müəyyənlik (dəqiqlik) situasiyasında deyil, qeyri-müəyyənlik situasiyasında baş verməsi şərtilə, hərəkətin mənəvi kriteri rolunda iştirak etməsi vacibdir. Fəaliyyətin ticari empirik nəticəsini və ya durumunu, ya da ki, daha yüksək empirik (sərfəli) göstəricini əldə etməyi, alqoritm və ya miqyas cərgəsinə qoyan etika ümumi və hamı üçün əhəmiyyətli normanı fəaliyyət göstərən individ üçün formalaşdırmaq iqtidarında deyil, çünki nə fəaliyyətin təsadüfi şərtləri, nə də digər individlərin hərəkələrinin startegiyası ayrı individ tərəfindən idarə olunmur. Bu situasiyada xüsusi produktiv fəaliyyət yalnız ticarət və iqtisadi hərəkətin baş verdiyi bütün şərtlər və realiyalar və digər iştirakçıların məqsədləri və hərəkələri haqqında tam məlumatın olduğu təqdirdə mümkündür.

Əgər hətta ehtimal etsək ki, hərəkətin əvvəlki və hazırki situasiyaları barədə tam məlumat almaq mümkündür, gələcək nəticələr barədə biliklər əldə edilməzdir. Ticarətdə fəaliyyət göstərən individ, öz hərəkətinin alqoritmini seçərkən hər zaman qətiyyətsizlik vəziyyətindədir. Ona onun gələcək fəallığının nəticələri, onu əhatə edən dünyanın reaksiyasıda məlumdur. Məhz gələcəyə dair qətiyyətsizlik belə ən çox fayda gətirən hərəkət planlarının seçiminə yönəlmiş utilistarist məqsədin adekvat həyata keçirilməsinə yol vermir. Gələcək barədə biliklər heç vaxt tam olmur və *daha produktiv* hərəkətlər və ya hərəkətlər kombinasiyasını müəyyən etmək üçün kifayət etmir. Bəzi tədqiqatçılar maksimal mənfəətin ticari iqtisadi anlayışının sahibkarlıq fəaliyyətinin qaydaları olmasını təklif edirlər. Bu arqumentlər utilitarizm barədə müzakirələrdə istifadə oluna bilrə. Nəticə: qətiyyətsizlik situasiyasında hərəkət optimallığı, faydanı, maksimal dərəcədə mənfəətli nəticələrin perspektivlərini

dəqiq qiymətləndirməyə və qabaqlamağa imkan vermir, onlar yalnız təxmini hesablamaq mümkündür. Hərəkətin prinsipləri (maksimaları) "maksimal faydaya" deyil, yalnız "*pozitiv faydaya*" yönələ bilər. Bunu yalnız ticari – iqtisadi hərəkətləri modelini planlaşdıraraq və hesablayaraq nəzərə almaq lazımdır. Bu cür hərəkətin əsası olaraq utilitarizm individlərin hərəkətlərinin nəticələrinin praqmatik qiymətləndirilməsinə başqalarının hərəkətlərini daxil etməlidir. Tam utilitarist yanaşma bütün situasiyaların və risk momentlərini nəzərə almalıdır. Bu səbəbdəndə individ üçün bu əlavə şərtlərin təsirinin optimizasiyası problemidir və onun lokallaşdırılması bütövlüklə yalnız sərbəst və daxili səbəblərdən törəyən xarakter daşıyır. Hərəkətin baş verdiyi situasiyanın sərbəst qiymətləndirilməsi, və əlavə təsirlərin səhf ölçülməsi qeyri-optimal nəticələrə gətirir. Məlum olur ki, uğura yönələn mənəvi məqsəd problematikdir: məlumatı və hərəkətin nəticələrini hesablanmasını nəzərə alsaq əldə edilən həll yolları çox mübahisəlidir.

Qətiyyətsizlik situasiyasında daha produktiv fəaliyyət barədə sual yalnız ardıcıl utilitarist nəzəriyyələri üçün deyil, həm də utilitarizmin "zəifləmiş" variantı – requlirativ utilitarizmə aid olan, mənanın hərəkəti deyil, hərəkət qaydaları var və məhz onlara əməl etmək mənfəət gətirə bilər fikri üçündə mürəkkəbdir. Lakin bu haldada hansı qaydaların həqiqətən optimal olduğunu dəqiqliklə müəyyənləşdirmək olmaz. Qaydalar bəzən elə hərəkət sxemi yaradırlar ki, ya qayda individə azadlıq verir və onların çərçivəsində o müstəqil seçim edə və qərara gələ bilər, yaxud o, individin bu sitasiyada müstəqil öz fəaliyyətinin perspektivlərinin qiymətləndirmək və onlara öyrəşmək imkanını nəzərə olmadan, xırda detallara qədər hər şeyi müəyyənləşdirir, sualı qalxır. Bu qaydalardan hansı birisi daha çox fayda almaqa yol verir – bir mənalı cavab vermək mümkün deyil. Nə daha yaxşıdır – "yalan danışma və sən təmiz vicdanla deyə bilərsən ki, sənin yalan danışmağa çoxlu imkanın var idi" ya da ki, "heç vaxt yalan danışma" qaydasına riayət etmək. Bəs birdən "başqa qaydalarla müəyyənləşdirilmiş hallar istisna olmaqla heç vaxt yalan danışma" qaydasına riayət etmək daha sərfəlidir? Qaydanın, qanunun öz xarakteri daha optimal variant axtararkən çox çətinliklər yaradır.Problem tək hansı qaydaya riayət etməkdə deyil, həmdə onun hansı sahələri əhatə etməyindədir. Nə daha vacibdir, bu cəmiyyətin üzvlərinin heç bir qanunlardan uzaqlaşmayan texnologiya kimi ifadə olunan fəaliyyət qaydalarını müəyyənləşdirmək, yoxsa individə daha çox hərəkət və situasiyanı qiymətləndirmək azadlığı verən qaydalara əsaslanmaq. Hansı qaydaları seşmək daha yaxşı olardı sualına cavab vermək ayrı individlərin və cəmiyyətin malik olmadığı məlumatın mövcudluğunu nəzərdə tutur. Bu və ya digər problemin detallaşması əldə olan biliklərin həcmindən və və onun mövcud olan informasiyanın funksiya

olmasından asılıdır. Gələcək barədə nə qədər çox biliriksə, hərəkətlərə dair qaydaların o qədərdə dəqiq olduğunu ehtimal etmək olar. Əslində *requlirativ utilitarizm, hərəkət utilitarizmindən* fərqli bir şey deyil: hansı hərəkətin daha çox fayda gətirdiyini qayda müəyyənləşdirəcək. Bu ideal situasiyanın həyata keçirilməsi hər bir situasiyada hər bir hərəkət üçün həqiqətən onun istifadəsindən daha çox fayda olacağını təmin edən bir üsul seçə bilən hansısa "hər şeyi bilən seyriçinin" mövcudluğunu nəzərdə tutur (Foma Akvinskiy). Beləliklə, qaydaların belə fərqlənməsi requlyativ utilitarizm mövqeyindən çətin həll olunan mənəvi problem kimi iştirak edir. Gələcək barəsində qətiyyətsizlik situasiyasında faydanın maksimalaşdırılması promblemi "hər şeyi bilən seyriçinin" iştirakı olmadan həll oluna bilməz. Qeyd edək ki, çox iqtisadi modellərdə bilavasitə məzmunundan çıxarılmayan məlumat, bilik var. Burada mütləq iqtisadi (empirik) müşahidə iştirak etməlidir.

Təcrübədən keçirilən hər bir individ üçün (iqtisadiyyatda və ticarətdə) bütün məqamları, o cümlədən *dolğun* xarakterli çətinliyi nəzərə almaq lazımdır. O, faydanı necə anlama sualı ilə bağlıdır. Maksimal fayda tələbi nəyin ictimai cəhətdən vacib olduğu barədə subyektiv fikirlərdən irəli gələrək həyata keçirilə bilər; yaxud, mənəvi qanunvericilik bizə özünün sosial fayda haqda fikrini yeridir. Utilitarizm mövqeyindən *faydanın dolğun mənasını* müəyyənləşdirmək mümkün deyil, çünki faydaya *azadlıq anlayışına xas olan refleksiya* verilməyib. Azadlıq azadlığı nəzərdə tutur azadlığın şərti və məqsədidir. Fayda özünə münasibətdə refleksiv ola bilməz və böyük faydanın nəyə lazım olduğunu müəyyənləşdirə bilməz. Nəticəni maksimal fayda hesab etmək olarmı sualında *konsesual* və *desizionist* qərarını almaq olar. Konsesual qərar qəbul olunduğunda mənəci arqumenlərdən imtina etmək olar. Hər şeyi konsensus həll edir və bu o deməkdir ki, əxlaqi fikirlər düşüncələr deyil, faktlar və realiyalar nəzərə alınır. İctimai fayda barədə öz fikirlərini elan etməyə ixtiyarı olan şəxs desizionist qərarı qəbul edir. Lakin fayda anlayışını müəyyənləşdirən üsullardan hansının daha faydalı olduğu barəsində qərara gəlmək çətindir. Bununla yanaşı nəzərə almaq lazımdır ki, *mənəvi muxtariyyət,* yəni fərdi mənəvi seçim üçündə ayrı seçim üçün olduğu kimi, utilitarist qiymətləndirmə sxeminin böyük əhəmiyyəti var. Yalnız individin onun analmında ümumi faydaya daha uyğun olan qaydaları qəbul etdiyi situasiyası optimal ola bilər. *Requlyativ utilitarizm* olmayan *məqsəd (fayda)* haqqında biliklərin mövcudluğunu nəzərdə tutur və son məxluğun, yəni hər bir insanın, malik olmadığı gələcək, fəaliyyət strategiyaları barədə məlumatları tələb edir.

## 6. QƏTİYYƏTSİZLİK SİTUASİYASINDA TİCARİ-İQTİSADİ FƏALİYYƏTİN ETİKASI

Heç bir konkret iqtisadi və ticarət fəaliyyətilə məşğul olan individ üçün istənilən situasiyadan optimal çıxış yolu tapmaqdan başqa vacib şey yoxdur. Kant etikası müəyyən dərəcədə öz hərəktlərinin nəticələrində və başqalarının stragiyasında *qətiyyətsizlik* situasiyasında hərəkət alqoritmi seçimi modelini *qətilik* situasiyasında seçim sferasına çevirir. Bir tərəfdən, material məqsədə (ictimai fayda və ya şəxsi xoşbəxtlik) çatmaq üçün edilən hərəkətin empirik nəticələri, onun mənəvi qiymətləndirməsi üçün ikinci dərəcəli məna daşıyır, çünki fəaliyyətin maksimaları qəti imperativin tələbatlarına müvafiqdir. Digər tərəfdən, ağıllı iradənin transendental refleksiyasında əxlaq qanununun aydın ümumiliyi iştirak edir. Bu ümumilik individi xəbərdar edir ki, bütün insanlar ağıllı məxluq olduqlarına görə və ağıllarına əsaslanaraq eyni fəaliyyət strategiyasını seçəcəklər. Bununla da əminlik situasiyası (digər individlərin strategiyasına dair) və dəqiqlik (öz hərəkətlərinin nəticələrinə dair) ortaya çıxır. Buna görədə Kantın qaydalarının ağlasığan nəticələrinin məntiqə uyğun qanunun (mənəvi maksimanın) fəaliyyətinin nəticələrilə uyğunluğunun zəruriliyini iddia edən deontoloji etikası transendental *regulyativ utilitarizmin* forması kimi nəzərə alınır. Bu kontekstdə əxlaqi subyekt üçün mənəvi qanunun formalizmi dəqiq (birmənalı) seçimin mümkünlüyü deməkdir. Etika material prinsipləri əsasında qurulursa, nə başqalarının mənəvi ümidlərində və maksimalarında, nə də, konkret (empirik) situasiyada individin ayrılıqda əxlaqi prinsiplərin həyata keçirməsində əmin olmaq olmaz. Hər bir iqtisadi fəaliyyət və iqtisadi saziş belə situasiya ola bilər. Lakin Kant fəlsəfəsinin mənası ilk növbədə praqmatik paradiqmada onların bağlanması zamanı mövcud olan *empirik sazişlərdən* yüksəkdə durur. Mütəfəkkirin formal etikasını dəqiqlik empirik hərəkətlərin etik fikirlər çərçivəsindən qırağa çıxması ilə təmin edir. “İradənin səbəbiyyəti obyektin həqiqiliyi üçün kifayətdirmi – bu məsələni praktik məsələdə seyr heç bir məqamını təşkil etməyən iradə obyektlərinin öyrənilməsi mümkünlüyü kimi həll etmək ağılın nəzəri prinsiplərinə həvalə edilir.” Burada söhbət nəticədən deyil, yalnız iradənin müəyyənləşdirilməsindən və maksimanın azad iradə kimi müəyyənləşdirən əsasından gedir.

*"Hər bir ticarət müəssisəsi öz axınında əvvəlcədən nəzərə alına bilinməyən təsadüflərdən asılı olduğuna görə, hər bir sahibkarın sahib olacağı xüsusiyyətlər - ruh yüksəkliyi və gözlənilən nəticəyə çatmaq üçün lazımi xidmət göstərən düzgün vasitənin üstünə düşmək qabiliyyəti vacibdir. Böyük Fridrix bu xüsusiyyəti hər bir sərkərdə (dediyimiz mənada sahibkar kimi çıxış edən) üçün vacib olduğunu qeyd edərək onu "iti göz" adlandırırdı. Bu düzgün vasitənin üstünə tez düşmək vergisinə düzgün qəbul edilmiş və ya bu an ona əməl etmək qabiliyyəti olan qətiyyət uyğun gəlməlidir ."*

V. Zombart

Kantın etikasının rəsmi xarakteri *əminlik situasiyası* yaratmağa imkan verir. Birincisi, fəaliyyət göstərərək individ istənilən situasiyada əmin ola bilər ki, onun hərəkətlərinin mənəvi düzlüyü başqalarının hərəkətlərindən və əməllərindən asılı deyil. Çünki söhbət faktiki optimal məqsədə çatmaqdan deyil, əməlin ümumi universal qaydalara riayət etməsindən gedir. Digər individlərin bu qaydalara riayət etməyən hərəkətləri və yaxud da bu hərəkətin səhf başa düşülən strategiyası, hərəkət maaksimasının seçimində və onun qiymətləndirilməsində heç nə dəyişmir. Xarici şəraitlərin bu individ üçün fəaliyyətinin qaydalarının qəti imperativə uyğun olan dərəcədə əhəmiyyətlidir. Onun hərəkətlərinin material sərvətin və ya insanın rifahın çoxalmasına təsir göstərib göstərməməyi vacib deyil.[64] Lakin göstərilmiş inkişaf ideyasının əxlaqi kriteri olduğu təqdirdə, individ heç zaman düz və ya səhf hərəkət etdiyində əmin ola bilməz. O, yalnız onun hərəkətlərinin fayda mövqeyindən qurulmuş müəyyən parametrlər baxımından effektiv olub olmadığında əmin ola bilər. Bu cür utilitarist oxumada etika ümumiyyətlə hərəkətlərin və əməllərin düzgünlüyü barəsində qərar çıxara bilməz. O, yalnız onu deyə bilər ki, bundan daha faydalı və ya faydasız hərəkətlər və əməllər var. Mənəvi dəqiqlik istisna edilir. Əslinə baxanda o, heç tələbdə olunmur. Axı maksimal mənfəət gətirən aktiv ticarət fəaliyyətdə mənəvi imperativlərin dəqiqləşdirilməsinə yer yoxdur.

İkincisi, etik nəzəriyyənin rəsmi xarakteri əxlaqi qaydaların yaradılması üçün dəqiq kriterilər qurulmasına imkan yaradır: gələcək qeyri-müəyyən empirik nəticələrin və bütün qaydalara müvafiq olaraq edilən hərəkətlərin yekunlarının optiumumunu axtarmaq lazım deyil. Ümumi gözlənilən nəticələri cərgədüzülüşü, bir yerdə yaşama faktından irəli gələrək təhlil etmək lazımdır. Məlum mənada İ. Kantın fikri eyni zamanda həm hər şeyi əhatə edir, həm də məhduddur. Mütəfəkkir təcrübədə real optiumu həyata keçirməyə cəhd göstərmir, o, hərəkətə olan universal tələblərin həyata keçirilməsinin mümkünlüyünü

əsaslandırmaq istəyir. Lakin bununla yanaşı, İ. Kant əmindir ki, onun normativ sistemi istənilən situasiya üçün yararlıdır. Belə əminlik yalnız qaydaların formalizasiyası və universalizasiyası, yəni riskin empirik risk şəraitini istisna etmək şərtilə mümkündür. Bu yolnan əldə olunan formal və ümumi qaydalar böyük xüsusiyyətlə və situasion optimallıqla fərqlənmirlər. Buna müqabil onlar dəqiqdirlər, çünki sitasiyadan asılı deyillər və hesablana bilərlər. Maksimal faydanın dinamik, risk doğura bilən situasiyalarda alınmasına iddia edən utilitarist normalar, bu tələblərin baxımından yalnız xüsusi kimi nəzərə alına bilər. Dəqiqliyin müxtəlif dərəcəsi mənəvi utilitarist doktrinası və Kantın *deontoloji etikası* üçün fərqləri ohdəliklər anlamından qabaqcadan müəyyən edir. Yuxarıda artıq Kantın normalarının vaciblik dərəcəsini ölçmək barədə danışmışıq. Hüquqi normalar məhs onlarda universallığın və öhdəliklərin qətiliyinin müəyyənləşdirilməsinə görə icbari xarakter daşıyırlar. Mənəvi normalar məcburidir, yalnız onların yerinə yetirilməsi məcbur etməni nəzərdə tutmur, çünki onlarla bağlı mənəvi fikirlər kifayət qədər qəti deyillər; onlar dəqiq qərar ola bilməzlər. Etik normaları isə Kant *özünə aid və başqalarına aid mükəmməl və qeyri – mükəmməl öhdəliklər kimi ayırırdı.* Özünə aid mükəmməl öhdəliklər – intihara, yalana, xəsisliyə, yaltaqlığa olan qadağa – elə normalardır ki, onlara riayət etmək hər kəs üçün istənilən situasiyada mümkündür. Söhbətin qadağadan getdiyinə görə onların həyata keçirilməsi ehtimalı *birmənalıdır*; istifadəsinin miqyası, ölçüsü və sərhədləri müəyyən olunur.Bu tələblərin həyata keçirilməsi hər bir individin əlindədir. Əgər biz qeyri-mükəmməl ohdəliklərdən – təbii mükəməlliyin inkişafı və çoxaldılmasından danışırıqsa, onda onun həyata keçməsinin hər individin istənilən zaman əlində olmasını dəqiqliklə müəyyənləşdirmək olmaz. Ona görə də bu əxlaq normalarının mütləqlik dərəcəsi daha aşağıdır, individ tərəfindən onların qəbul edilib edilməməsi onun "şüurlu mülahizələrindən" asılıdır. Başqalarına münasibətdə mənəvi borca riayət etmək üçün anlamaq lazımdır ki, onların zərurilik və universallıq dərəcəsi çox şərtidir, xeyriyyə fəaliyyəti buna nümunə ola bilər.

Dəqiqliyin və vacibliyin əlaqəsi İ.Kantın etikasında şübhə yaratmır. Borc kimi qeydiyyata alınmamış və qəbul olunmamış borc tam yerinə yetirilə bilməz; əgər normanın yerinə yetirilməsi borcun ödənməsi deyilsə, bu norma vacib sayıla bilməz. Normanın vaciblik dərəcəsi onun dəqiqlik dərəcəsindən asılıdır.

Ona görə də İ.Kantın nöqteyi-nəzərindən bizim borc kimi səciyyələndirdiyimiz minimum hüquqi və mənəvi normalar mövcuddur. İnsanlar bir çox özəl və qeyri-dəqiq qaydalara riayət etməyə məcbur deyillər. O, ümumi, dəqiq

və hər yerdə həyata keçirilən normalara riayət etməlidir. “Bu dünyada öz əməllərinlə daha çox xeyir gətirməlisən” kimi utilitarist məqsədlər şüurlu individ üçün borc ola bilməz. Bu normaların bu və ya digər fəaliyyət növlərinə hansı konkret tələblərdə həyata keçirildiyi naməlum qalır. Əgər biz “daha çox mənfəət, daha çox xeyir” ideyasının tərəfdarıyıqsa, o zaman borc anlamı boş taftalogiya olacaq: biz bütün əməllərimizlə daha çox xeyir verməyə çalışırıq. Borc anlamının “utilitarizm işləri” məqsədləri çərçivəsində əsaslandırmaq mümkün deyil. Lakin requlyativ utilitarizm müəyyən işləri və onların prinsiplərini normaya çevirir, onları ümumi və vacib edir. Onların vacibliyi iş və əməllərin optimal nəticəsindən deyil qaydaların normativ məzmunundan irəli gəlir. Onlar vacibdir, çünki bu normalara riayət etmək bu və ya digər fərdi işlərin nəticəsi olmayan, lakin bir çərçivədə toplanan böyük mənfəət gətirir.

Bu da əxlaq və ticarət, etika və biznes, mənəviyyat və özəl sahibkarlığın qarşılıqlı münasibətlərinin qurulmasında əsas mövqe oldu. Mövqelər əks olsa da son variantın da fəal işgüzar insanın mövqeyini möhkənmləndirirlər.

## ƏDƏBİYYAT


[1] *Козоловси П.* Общество и государство: неизбежный дуализм. – М., 1998. – С. 160.

[2] *Локк Дж.* Опыт о человеческом разуме. – Соч.: В 3 т. – Т. 1 – М., 1985. – С. 220.

[3] Yenə orada. – S. 3. – S. 306.

[4] *Аристотель,* Никомахова этика / / Соч.: В 4т. – М., 1983. – Т. 4. – С. 149-150.

[5] *Козоловси П.* Общество и государство: неизбежный дуализм. – С. 160.

[6] *Гоббс Т.* Левиафан / / Соч.: В 2т. – М., 1991. – Т. 2. – 115–116.

[7] *Козоловси П.* Общество и государство: неизбежный дуализм.– С. 160.

[8] Yenə orada. – S. 326.

[9] *Локк Дж.* Два трактата о правлении / / Соч. – Т.3. – С. 332.

[10] *Козоловси П.* Общество и государство: неизбежный дуализм. – С. 327.

[11] *Зомбарт В.* Буржуа. Евреи и хозяйственная жизнь. – М., 2004. – С. 282.

[12] Yenə orada. – S. 282-283.

[13] *Козоловси П.* Общество и государство: неизбежный дуализм. – С. 163.

[14] Yenə orada.

[15] Yenə orada.

[16] *Бибихин В.В.* Свое, собственное / / Вопросы философии. – 1997. – №2. – С.79.

[17] *Козоловси П.* Общество и государство: неизбежный дуализм. – С. 165.

[18] Yenə orada. – S. 166.

[19] *Хиск Дж.* Теория экономической истории. – М., 2003. – С. 98.

[20] Yenə orada – S. 99.

[21] *Мандевиль Б.* Басня о пчелах. – М., 1974. – С. 310.

[22] Yenə orada – S. 309.

[23] *Козоловси П.* Общество и государство: неизбежный дуализм. – С. 169.

[24] Yenə orada – S. 170.

[25] Keynes C.M. Economic Possibilities for our Grandchildren / / Essays in Persuasion. – New York, 1963. – P / 371 – 372.

[26] *Мандевиль Б.* Басня о пчелах. – С. 327.

[27] Yenə orada. – S. 47.

[28] Yenə orada. – S. 291.

[29] Yenə orada. – S. 297.

[30] Yenə orada.

[31] *Ларошфуко Ф. ge.* Максимы и моральные размышления / / Размышления и афоризмы французских моралистов XVI – XVIII веков. – Л., 1987. – С. 115

[32] *Козоловси П.* Общество и государство: неизбежный дуализм. – С. 173.

[33] Yenə orada. – S. 327.

[34] Мандевиль Б. Басня о пчелах. – С. 328.

[35] Yenə orada – S. 318.

[36] *Козоловси П.* Общество и государство: неизбежный дуализм. – С. 176.

[37] *Смит А.* Исследования о природе и причинах богатства народов. – М., 1992. – С. 27.

[38] *Смит А.* Теория нравственных чувств. – М., 1997. С. 150.

[39] Yenə orada – S. 188.

[40] Yenə orada – S. 190.

[41] *Смит А.* Исследования о природе и причинах богатства народов.– С. 440 – 442.

[42] Yenə orada – S. 497

[43] Yenə orada – S. 27.

[44] Yenə orada.

[45] Yenə orada.

[46] Yenə orada – S. 497.
[47] *Смит А.* Теория нравственных чувств. – С. 302.
[48] Yenə orada. – S. 303.
[49] *Козоловси П.* Общество и государство: неизбежный дуализм. – С. 182.
[50] Yenə orada. – S. 338.
[51] *Кант И.* Основы метофизики нравственности / / Соч.: В 6 т. – М., 1966. – Т. 4 (1). – С. 253.
[52] Yenə orada. – S. 276.
[53] Yenə orada. – S. 275.
[54] Yenə orada. – S. 277.
[55] Yenə orada. – S. 275.
[56] *Козоловси П.* Общество и государство: неизбежный дуализм. – С. 338 – 339.
[57] *Кант И.* Основы метофизики нравственности. – С. 276 – 277.
[58] Yenə orada. – S. 277 – 278.
59 *Козоловси П.* Общество и государство: неизбежный дуализм. – С. 219.
[60] Yenə orada. – S. 219 – 220.
[61] Yenə orada. – S. 221.
[62] Yenə orada. – S. 222.
[63] *Кант И.* Критика практического разума. – Т. 4 (1). – С. 276 – 277.
[64] *Козоловси П.* Общество и государство: неизбежный дуализм. – С. 223.
[65] Yenə orada. – S. 224.
[66] *Кант И.* Метафизика нравов. – Соч. – Т. 4 (2). – С. 366 – 387.
[67] Yenə orada. – S. 385.
[68] *Козоловси П.* Общество и государство: неизбежный дуализм. – С. 225.

# XÜSUSİ MÜLKİYYƏTİN TRANSFORMASİYALARINDA TİCARƏT

*«Deməli, əgər bizim vətəndaşlar birlikdə «Bu mənimdirmi?» deyə bilsələr, xüsusilə*

*mütəəssir olacaqlar. Belə ümumi mütəəssirlikdən onlar, çox yəqin ki, ümumən sevinəcək və ya kədərlənəcəklər».*

Platon

*Azad ticarətin şərti kimi, bazarın özünü təşkil etməsi xüsusi mülkiyyət haqqında sual doğurur. Bazar, formalaşaraq mərkəzdə tələbat yaradır və tələbatdan mərkəzin ideyası doğur ki, bu da nəticədə konkret subyektlərdə və institutlarda təcəssüm olunur. Sosial-iqtisadi həyatın inkişafı tarixində özünü doğrultmuş ən əhəmiyyətli institut* ***xüsusi mülkiyyət*** *institutudur. Xüsusi mülkiyyət üzrə tələbat təkcə bazarın təşkilinə (hansı ki, şübhəsizdir) yox, həm də ticarət sisteminin təşkilinə əsaslanır. Xüsusi mülkiyyət institutu həm bazarın təşkilinə yol açır, həm də özünü təşkil etməməyə, yəni müxtəlif destruktriv elementlərə müqavimət göstərir. Bəs ticarətdə xüsusi mülkiyyətin cəhətləri hansılardır?*

## 1. XÜSUSİ HƏYATIN SİVİLİZASİYALI ƏHƏMİYYƏTİ

Ticarətin inkişafı azadlığın inkişafından ayrılmazdır, sonuncu isə xüsusi mülkiyyət institutunun inkişafı ilə birlikdə həyata keçirilə bilər. Lakin əvvəlcə «xüsusi» sözünün mahiyyətini açıqlayaq. V. Dalın «Canlı rus dilinin izahlı lüğətində» «xüsusi» sözü «dövlət» və «ictimai» sözlərinə əks olaraq çıxış edir. Burada, bir tərəfdən, insan həyatının cəmiyyətin üzvü, dövlətin vətəndaşı (və dövlətlə bağlı olan bu və ya digər kollektivin üzvü) kimi, digər tərəfdən isə onun həyat fəaliyyətinin sfera və atributlarının uyğunsuzluğu və hətta ziddiyyətliliyi problemi qeyd olunur. Biz həmçinin «xüsusi» sifətindən (*nitq hissəsi kimi*), onun bizim ölkənin taleyi və ənənələrindən fərqli olan tarixi tale və ənənələrə malik ölkələrdə əldə etdiyi bir sıra məna çalarlarının ümumi sivilizasiya üçün əhəmiyyətliliyini qeyd etmək üçün də istifadə edəcəyik.

Latın dilindən törəmə dillərdə danışan ölkələrdə latınca «privatus» sözündən yaranmış söz və anlayışlardan istifadə olunur ki, bu da Azərbaycan dilində «*xüsusi*» sözünə uyğun gəlir. Məsələn, ingilis dilində «privacy» («prayvasi» - amerikan tələffüzündə, «privasi» - ingilis tələffüzündə) sözü var. Bu sözə, termin kimi, *ictimai düşüncə və ictimai həyat haqqında ədəbiyyatda tez-tez rast gəlinir və eyni zamanda o, böyük məna yükünə malikdir*. İngilis dilinin Vebster lüğətinə əsasən o, *insanın həyatın «xüsusi» adlandırıla bilən sferasında avtonomluğu və azadlığı həyata keçirməsi üzrə imkanı ilə müəyyən olunan həyatın keyfiyyətini* ifadə edir. Bu termin-söz insanın xüsusi həyatda *avtonomluq və azadlıq üzrə,* oraya başqa insanların, hakimiyyət orqanlarının və ya hər hansı başqa ictimai təşkilatların və dövlət institutlarının soxulmasından (zorla girməsindən) müdafiə üzrə *hüququnu ifadə etmək* üçün də istifadə olunur. Yalnız insanın özü və ya əlacsız qaldıqda, qanun və məhkəmə, hüquqi və demokratik cəhətdən təşkil olunmuş dövlətin tələblərinə uyğun olaraq, belə zorla girməyə icazə verə bilər.

Dövlət və ictimai həyat üzrə, ənənəvi olaraq, aşkarlıq ideyasına istinad edən ingilislər və amerikanlar bununla birlikdə əmindirlər ki, elə bir xüsusi sfera olmalıdır və vardır ki, bu sfera haqqında insan hər şeyi aşkar etməmək hüququna malikdir – *onun şəxsi (xüsusi) həyatı*. ABŞ-da, *Uilyam Folknerin* «əgər insan cinayət törətməmişdirsə, elementar əxlaq normalarını pozmamışdırsa və ya ictimai və siyasi vəzifəyə öz namizədliyini irəli sürmə-

mişdirsə (əgər sürsə, onda öz baxışlarının və ya həyatının ictimai müzakirə predmetinə çevrilməsinə razılıq vermiş olur), o, həm hüquqi, həm də mənəvi cəhətdən başqa insanlar və kütləvi informasiya vasitələri tərəfindən onun şəxsi həyatı haqqında istənilən məlumatın aşkar edilməsinə (yayılmasına) qarşı mübarizə aparmaq hüququna malikdir» tezisinin ehtiraslı şəkildə müdafiə olunmasına həsr olunmuş məqaləsi çox məşhurdur[2].

Əlbəttə ki, sözün müasir mənasında, hər bir sivilizasiyalı dövlətə öz vətəndaşları haqda ən rəngarəng informasiyalar lazımdır.

Amma xüsusi həyata hörmət bəslənilən ölkələrdə insan həyatına bu kimi keyfiyyətlər verə biləcək və insan həyatının belə keyfiyyətinin müdafiə olunması üzrə öz ayrılmaz hüququnu dərk etməsini şərtləndirəcək sosial şərait və varlıq formaları əsasında xüsusi həyatın müdafiəsi üzrə qanunlar mövcuddur. İnsan həyatının bu keyfiyyəti, onun üzrə hüququn qəbul olunması kimi, sivilizasiyanın inkişafının müasir mərhələsində və təhlil edilə bilən gələcək dövrlərdə ən mühüm əlamət və elementlərindən biridir.

Xüsusi həyat, azadlıq mövcud olduqda uğurla inkişaf edə bilən ticarətlə birbaşa korrelyasiya əlaqəsindədir. Qeyd edək ki, «xüsusi həyat» anlayışının artikulyasiyalı şəkildə müəyyən olunmasına cəhd göstərilməsi tarixən hər zaman şəxsiyyətin avtonomluğu və azadlığına can atan ənənə ilə əlaqədar olmuşdur. Əlbəttə ki, bu anlayış təkamül yolu keçmiş və keçəcəkdir. Bəs xüsusi həyatın daha çox və ya daha az dayanıqlı olan tərəfləri hansılardır?

Birincisi, *daxili mənəvi həyat*. Onun xüsusi həyat sferasına aid edilməsi – insanın düşüncə və hisslər dünyasında onun suverenliyinin: bu və ya digər şəkildə düşünmək, nəyəsə inanmaq və nəyəsə inanmamaq, bu və ya digər hisslər keçirmək, nəhayət, öz düşüncələri, inancları, emosiyalarını kimə və dərəcədə çatdırmaq və ya çatdırmamaq, onları aşkar müzakirə predmetinə, yəni *ictimai həyat faktına* çevirmək və ya çevirməmək azadlığının qəbul edilməsi üsuludur. Xüsusi həyatın bu aspekti İntibah dövründə möhkəmlənməyə başlanır və *merkantilizmin* meydana çıxması və formalaşması dövrü ilə üst-üstə düşür.

İkincisi, bu sfera birbaşa *şəxslərarası ünsiyyət* sferasıdır. Burada şəxslərarası kommunikasiyaların (yazışmalar, telefon danışıqları, bu gün isə kompyuter poçtu vasitəsilə əlaqələrin) sirlərinin müdafiəsi kimi mühüm xarici aspekt mövcuddur. İnsanın özünün, öz ürəyinin səsi və öz ağlı ilə şəxslərarası münasibətlər qurmaq, kimin onun hörmətinə və kimin onun

nifrətinə layiq olduğunu, kimi sevmək, kimi isə sevməmək, kiminlə intim, dost münasibətlərinə girmək, kimdən çəkinmək, uzaqlaşmaq və qaçmaq üzrə qərar qəbul etmək hüququnun qəbul edilməsi də az vaciblik kəsb etmir. Bu aspekt sayəsində şəxsi işin – ticarətin, biznesin, sahibkarlığın və s. həyata keçirilməsi üzrə hüquq təsdiqlənir. Lakin istənilən halda onlar yalnız kommunikasiya sirlərinin müdafiəsi həyata keçirildikdə uğurla inkişaf edə bilər.

Üçüncüsü, xüsusi həyat – şəxsi və ailə istehlakı ilə bağlı qərar və fəaliyyətlərdir. İnsan hansı əşya və xidmətləri, nə zaman və hansı proporsiya və miqdarda istehlak etmək, *əmtəə-pul və bazar münasibətləri şəraitində* isə – həmin əmtəələri haradan, kimdən və hansı şərtlər altında almaq haqqında özü qərar verir. Buraya ev təsərrüfatları, ev tikintisi, evdarlıq, eləcə də asudə vaxtla bağlı hər şey daxildir. Bu sferada hər bir insanın öz arzu və ağlı üzrə hərəkət etmək hüququ və imkanı nəzərdə tutulur. Bu da ticarət müqavilələri üçün xüsusilə vacibdir.

Dördüncüsü, xüsusi həyat anlayışı mülkiyyət münasibətlərinə də aiddir – insan öz əmlakı, sahib olduğu hər şey, yəni öz şəxsi mülkiyyəti üzrə sərəncam vermək hüququna malikdir. Burada xüsusi həyat problemi *xüsusi mülkiyyət* probleminə keçir. Bu mülkiyyət forması nə dövlət, nə də ictimai mülkiyyət deyildir və o, bu mülkiyyət formalarına münasibətdə müəyyən, qanunla müdafiə olunan müstəqilliyə malikdir.

Birinci üç sferanın təhlili xüsusən diqqətəlayiqdir. Xüsusilə, ev təsərrüfatının, fərdi istehlakın və asudə vaxtın təşkilinin xüsusi həyat sferasına aid edilməsi haqqında tezis çətin ki, əsaslandırılmağa ehtiyac duysun. *Bizim şərait üçün insanın daxili mənəvi həyatının və onun başqa insanlarla ünsiyyətinin bu sferaya aid edilməsi haqqında tezis daha mürəkkəbdir. Axı bizdə mənəvi həyat və şəxslərarası münasibətlər hələ ki, bir qayda olaraq, hər şeydən əvvəl, insanın ictimai təbiətinin və onun sosial mahiyyətinin təzahürü kimi nəzərdən keçirilir.* Doğrudur, şəxsiyyətin mənəvi, intellektual və əxlaqi inkişafı ünsiyyətin sosial forma və kanallarının zənginliyini, cəmiyyətin mədəniyyəti ilə əlaqəni, habelə şəxsiyyətin aid edildiyi ictimai münasibətlərin demokratikləşdirilməsi və humanistləşdirilməsini nəzərdə tutur. Lakin əgər biz mənəvi inkişafı xüsusi həyat sferasına aid etsək, onda bununla o fikri də qəbul etmiş olacağıq ki, insan bu və ya digər ideya, intellektual və ya emosional təsirlərə təkcə «bəli» yox, həm də «xeyr» demək hüququ və imkanına malik olmalıdır. Əgər o, öz

daxili mənəvi dünyasını, düşüncə və hisslərini, öz dostluq və intim əlaqələrini başqa insanların, sosial institutların, hakimiyyət aparatının, ictimai təşkilatların, təbliğat və kütləvi informasiya vasitələrinin istilasından qorunmaq hüququ və imkanına malikdir. İstənilən «ürəyə girmə» cəhdinə qarşı müqavimət göstərmək hüququ və imkanını lazım hesab edirsə. Axı xüsusi sahibkarlıqla, o cümlədən, ticarətlə məşğul olan insan üçün kimisə «ürəyə» yaxın buraxmaq xoş təsir bağışlamır.

Tarix, insanın öz mənəvi səylərini və ya öz-özünü tapmaq, özünü refleksiya və təhlilin obyektinə çevirmək və duyğularını aydınlaşdırmaq üçün gündəlik işlərin dövranı və təlaşından öz düşüncə və duyğular aləminə girmək səyləri və ya müəyyən müddət üçün ictimai həyatın dəyişkənliyi (səbatsızlığı) və münaqişələrindən dostların, yaxınların və doğma insanların əhatəsinə daxil olma səylərini və ya nəhayət, öz «*uzaqlaşması*» ilə mövcud ictimai qaydalarla, hakim ideologiya ilə razı olmadığını, səhv və ya ədalətsiz hesab etdiyi işlər və fikirlərlə şərik olmama arzusunu qeyd etmək və bununla da öz adını və vicdanını təmiz saxlamaq səylərini reallaşdırmaq istəyirsə, rahat buraxıla bildiyi sosial qaydaların sivilizasiyalı əhəmiyyətliliyi və qiymətliliyini artıq çoxdan sübut etmişdir.

Bütün bu səylərə və onların xüsusi həyatda reallaşdırılmasına insanın hüququ olmalıdır. Bu gün belə səyləri boğan, onların ifadə olunması və reallaşdırılması üzrə hüquqları tanımayan cəmiyyəti çətin ki, sivilizasiyalı cəmiyyət adlandırmaq olsun. Avropada ilk növbədə iqtisadi inqilablar kimi çıxış edən bütün burjua inqilabları da məhz bu hüquqlar uğrunda mübarizələr nəticəsində başlamışdı. *Y.M.Osipov* hesab edir ki, iqtisadi

> *«Təcrübə bizə nə öyrədir?*
> *O, bizə, birincisi, onu öyrədir ki, insan fəaliyyətinin heç bir SAhəsində azadlıq gözlənilməz təsadüflərə, insani ehtiras və günahlara qarşı məlum zəmanətlərlə müdafiə olunmadan təsis edilməmiş və dəstəklənməmişdir; təcrübə bizə ən öldürücü və ibrətamiz nümunələrlə göstərir ki, öz təzahürlərində məhdudlaşdırılmamış istənilən azadlıq anarxiyaya gətirib çıxarır və onunla ani mubarizədən sonra diktaturaya çevrilir. Azad ticarət sisteminin tərəfdarları azadlığın zəmanətçisi kimi, gömrüklərin məhv edilməsi yolu ilə xalqların ticarətini azadlığa apararkən, dünyanı haraya aparırlar? Qaydasızlığa və qaydasızlığın ən mükəmməl forması olan köləliyə. Yol seçimində qəribə səhv!»*
>
> K.Quro

inqilab Qərbi Avropada XIV-XVII əsrlərdə baş vermişdir və bu inqilab haqqında, habelə onun üçün səciyyəvi olan ilkin kapital yığımı (adət edilmiş terminologiya üzrə), başqa sözlə, kapitalın həlledici artımı (kapital əvvəl, yəni inqilabdan öncə yaranır, sonra geniş vüsət alaraq hədsiz yığımlarla bu inqilabı həyata keçirir; buna görə də kapitalın ilkin yığımından çox, onun həlledici artımından danışmaq daha tərcihediləndir) haqqında çox söz demək olar[4]. Qeyd edək ki, bu artma prosesi ticarət kapitalı və onun sənaye kapitalına transformasiyası ilə qırılmaz surətdə bağlıdır.

Burada onu xatırlamaq yerinə düşərdi ki, yalnız qalma, gündəlik təlaşdan, müstəqillik və şəxsi inkişaf məntiqi qazanmış ideologiya formalarından, sosial münasibətlər və şəxslərarası əlaqələrdən uzaqlaşmaq və ya hətta qaçmaq problemi ta qədimdən dini və fəlsəfi düşüncəni maraqlandırmışdır. Neçə-neçə filosofun, yazıçının və din xadimin yalnızlıq axtarmalarını, «təlaşlar təlaşından» yaxa qurtarmağı azadlığın – səyləri dünyagörüşü və əxlaqi məsələlərin həlli üzərində mərkəzləşdirmək üzrə azadlığın ilkin şərti olduğunu hesab etdiklərini yada salmaq kifayətdir. Onlar hesab edirdilər ki, dünya küyündən uzaqda dünyanın ümumi halda necə olduğunu, Tanrının və insanın mövcud olduğunu daha aydın görmək olur; onlar gözə görünən hadisələrin pərdə arxasına girmək, şeylərin, iş və tarixi proseslərin mahiyyətini görmək imkanının mövcud olduğunu düşünürdülər. Onlar üçün mənəvi tənhalıq imkanı əxlaqi təkmilləşmə, yüksək müdrikliyə nail olma vasitəsi idi. Eyni zamanda onlar insanın ruh və şəxslərarası münasibətlər sferasında, yəni xüsusi həyat sferasında avtonomluğu və azadlığı uğrunda mübarizə aparırdılar. Bu ideyaları Yeni dövrə *C. Lok, T. Peyn, T. Ceferson, E.Berk, J-J. Russo, Q. Toro və B. Konstan* daha tam şəkildə təcəssüm etdirmişlər və heç də təsadüfi deyildir ki, bu mütəfəkkirlər həm də siyasi demokratiya konsepsiyasını işləyib hazırlamışdırlar. İnsanın, onun şəxsi həyatındakı azadlığının tanınması təbii və məntiqi olaraq öz ardınca başqa insanların eyni hüquq və azadlıqlarının da tanınmasına gətirib çıxarmışdır. Bu fikirlər kontekstində daima aşağıdakı xəbərdarlıq səslənir: hüquq və azadlıqların reallaşdırılması qanunların, əlbəttə ki, despotik hakimiyyət tərəfindən sivilizasiyalı cəmiyyətin kriteriyaları və tələblərinə uyğun olan əxlaqi norma və birgə yaşayış qaydalarının pozulması ilə həyata keçirilən qanunların yox, demokratik yolla qəbul olunmuş qanunların pozulması ilə bir araya sığmır. Eyni

zamanda insanda *sosial məsuliyyətlilik* hissi və şüurunun tərbiyə olunmasının da vacibliyi və əhəmiyyətliliyi qeyd olunur. Nəzərə almaq lazımdır ki, bu məsuliyyətlilik *sosial ədalətlilik* əsasında ortaya çıxır.

Bununla yanaşı, insanın avtonomluğunun və azadlığının mütləq şəxsi həyatda da müdafiə olunması əzəldən bəri sosial qayda, sosial intizam və təşkiletməyə qarşı tələbatla qarşılaşmışdır. Ümumsivilizasiyalı prosesin daxili ziddiyyətliliyi, müxtəlif istiqamətli tendensiya və tələbatların vahidliyi bunda əks olunmuşdur. Bu prosesin şərti, mühüm və öncədən söylənilə bilən proses və nəticələri təyin etməyə imkan verən qaydalar sistemi kimi çıxış edən bazardır, bu proses və nəticələr çərçivəsində fərdi fəaliyyət və davranışları yox, yalnız fəaliyyətlərin sistemli strukturlarını və tiplərini dərk etmək və öncədən təsvir etmək mümkündür[6]. Xüsusi həyat və xüsusi marağa əsaslanan azad bazar iqtisadiyyatının (və azad ticarətin) inkişafının həyata keçirilməsi üçün mümkün olan qayda elə bundan ibarətdir.

Qeyd edək ki, burada söhbət bizim adət etdiyimiz anlamda əksliklərin vəhdəti haqqında getmir («vəhdət» nisbi, onların mübarizəsi isə «mütləqdir»). Lakin real tarix təsdiqləyir ki, sivilizasiyanın əks tendensiya və tələbatlarının prinsipial başqa tipi də mövcuddur; müxtəlif istiqamətli olmaqla yanaşı, onlar ümumsivilizasiyalı inkişaf üçün, prinsip etibarilə, həm də *müxtəlif mənalıdırlar*. Əksliklərin bu tip münasibətini *İ. Kantın*, misal üçün, «Xalis ağlın tənqidi» əsərində azadıq və zərurət əksliklərinin təhlili zamanı tətbiq etdiyi termindən istifadə edərək «antinomiya» anlayışı ilə ifadə etmək daha düzgündür.

Əlbəttə ki, antinomiyanı təşkil edən tendensiya və tələbatların ziddiyyətliliyi mübarizə və münaqişələrlə müşahidə olunur, çünki müəyyən ölkələrdə və sosial sistemlərdə tarixin bu və ya digər dövründə hər hansı bir tendensiya, bir tələbat üstünlük təşkil edə bilər – elə kifayət qədər tez-tez də üstünlük təşkil edir. Bu zaman şüurda və təcrübədə tez-tez başqa tələbat və başqa tendensiyaya əhəmiyyət verilmir və o, fəal şəkildə boğulur (yatırılır). Lakin sivilizasiya artıq çoxdandır ki, antinomik, yəni ziddiyyət halında olan, amma eyni səviyyədə məhv edilə bilməyən, sivilizasiya üçün əhəmiyyətli olan və eyni zamanda sivilizasiyanın inkişafı üçün faydalı şəkildə yalnız birlikdə reallaşdırıla bilən tendensiyaların inkişafı və tələbatların reallaşdırılması üçün geniş sahə verildiyi təqdirdə, cəmiyyətin daha dinamik inkişaf edə bildiyi, durğunluq təhlükəsinə, böhran proseslərinə və ağrılı münaqişələrə daha böyük müqavimət göstərilə bildiyi mər-

hələyə çatmışdır. Əlbəttə ki, əgər onlar arasında ağıllı kompromisə və nisbi (tarixdə hər şey nisbidir), ancaq eyni zamanda, verilmiş tarixi şəraiti üçün optimal olan tarazlığa nail olunması şərti ilə bu, özünü doğruldur. Bizim tarixin acı təcrübəsi kifayət qədər inandırıcı şəkildə göstərdi ki, xüsusi həyatın *avtonomluğu, azadlığı və müstəqilliyi hüququnun* layiqincə qiymətləndirilməməsi, ona əhəmiyyət verilməməsi və hətta onun qətiyyətlə *inkar edilməsi* insanın bütün həyat sferalarında, o cümlədən *ictimai həyatda və dövlət-təşkilati kollektiv fəaliyyətdə fərdi enerji*, təşəbbüs, işgüzarlıq və müstəqilliyi *inkişaf və təzahür etdirmək bacarığının reallaşdırılması üçün maneələr yaratmaya bilməzdi*[7]. Lakin ticarət-iqtisadi həyat fəaliyyətinin cəmiyyət tərəfindən tələblə qarşılanmasını nəzərə alaraq, özünü bu fəaliyyətdə reallaşdırmaq daha mühümdür.

Ruh və şəxslərarası münasibətlərin formalaşması sferasında və bir sıra başqa həyat sferalarında insanın şəxsi fəallığının onun xüsusi, daha doğrusu, Dalya görə, «nə dövlət, nə də ümumi olmayan» işi kimi tanınması özünün mənəvi inkişafı, əxlaqi və psixi sağlamlığı, onun başqa insanlarla öz münasibətlərini formalaşdırması, nəhayət, öz ailəsində sülh və maddi rifah üzrə fərdi məsuliyyət hissinin tərbiyə olunmasının ilkin şərtidir. Belə cəhətlər inkişaf etmədikdə, bu, labüd olaraq insanın kollektiv fəaliyyətdə, o cümlədən dövlətə münasibətdəki davranışına təsir göstərir.

Fərdin dövlətin sadəcə bir elementi, kollektiv-təşkilati fəaliyyətlərin təkcə iştirakçısı olduğunu iddia edən ideyaya əsaslanan təcrübənin nəticəsi nə ola bilərdi? Ancaq fərdi fəallıq və təşəbbüs səviyyəsinin aşağı düşməsi. Bu, öz növbəsində, kollektiv fəaliyyətin effektivliyini və ictimai inkişafın dinamizm səviyyəsini azaldardı. Müvəqqəti enerji coşması (şiddəti) və kütlənin ekstremal situasiyaLardakı (müharibə) və ya ictimai fəaliyyətin ayrı-ayrı sahələrindəki (30-cu illərdə ağır sənayenin yaradılması, 50-ci illərdə xam torpaqların mənimsənilməsi və s.) fəaliyyəti istisna təşkil edə bilərdi. Dövlət və ictimai təşkilatlar, xüsusilə hakim partiya ilə bitişik ictimai təşkilatlar üzərində total şəkildə (bütövlükdə) nəzarət sistemi insan həyatının bütün sferaları üzrə və insan həyatının bütün başlıca təzahürlərində *passivliyin, məsuliyyətsizliyin və başqasının öhdəsində yaşama hallarının* artmasına yol açdı.

Bürokratizmin artımı, öz növbəsində, paradoksal şəkildə cəmiyyətin faktiki idarəolunmazlığı, dövlət idarələrinin, partiyaların və ictimai təşkilatların kollektiv məsuliyyətsizliyi ilə dövr edən peyk kimi çıxış edirdi.

Xüsusi həyat aradan qaldırıla bilməzdir və bütün şəraitlərdə bu və ya başqa avtonomluq ölçüsünə malikdir – hətta insanın həyatına müdaxilə edən bürokratik, dövlət və ictimai təşkilatlar şəbəkəsinin, kutləvi qarşılıqlı izləmə (casusluq) və xəbərçilik (çuğulçuluq) apparatının nəhəng addımlarla inkişafı zamanı belə. Bununla yanaşı, totalitarlıq və avtoitarlıq nəticəsində insan özünün müdafiə olunmadığını, «kiçikliyini», vətəndaş kimi faktiki gücsüzlüyünü hiss etdikdə və təbii olaraq kollektivist ritorikasında (sözçülüyündə) ümidləri boşa çıxdıqda, onun gözlərində xüsusi həyatın dəyəri yüksəlir. O, haqsızlıq və qeyri-azadlıq situasiyasında avtonomluq və azadlığın heç olmazsa, bir payını təmin edən bir növ bazis kimi dərk olunur. Məhz bu şəraitdə ticarətin natamamlığı hiss olunur və görünür. Daha doğrusu, totalitarlıq və ədalətli həyatın mövcud olmadığı şəraitdə tamhüquqlu ticarət də mövcud olmur. İnsan üçün zəruri olan məhsul və xidmətlərin natamam istehsalı və xroniki qıtlığı ev təsərrüfatının həyata keçirilməsini həddən artıq çətinləşdirir və bununla da xüsusi həyatın bu tərəfinin əhəmiyyətini kəskin artırır. Boş piştaxtalar, istehlak predmetləri və xidmətlərini qanuni yolla əldə etməyin, onları leqal (qanuni) yolla qazanılmış pula satın almağın qeyri-mümkünlüyü – bütün bunlar qohum münasibətlərinin və «faydalı» şəxsi tanışlıqların, dostluqların, «lazımi» əlaqələrin qiymətliliyini artırır. Bu və ya digər yolla, faktiki olaraq, xüsusi şəxs kimi, insanın sahibliyinə daxil olan və ona şəxsi həyatında xidmət göstərən hər şey (əşyalar, şeylər, xidmətlərin əldə edilməsi imkanı) xüsusi vaciblik əldə edir, bu da tamah və paxıllıq obyektinə çevrilməyə bilməz.

Beləliklə, cəmiyyətin bürokratiyaya və avtoritarlığa əsaslanan dövlət-kollektiv təşkiletməsi insanların xüsusi həyatını nəinki öz bölünməz nəzarəti altına almaq, hətta onun praktiki əhəmiyyətini belə azaltmaq iqtidarında deyildir. Lakin bu təşkiletmə insanın şəxsi həyatı ilə onun dövlətin və rəsmi tanınmış ictimai, o cümlədən, ayrılmaz atribut kimi ticarətin də daxil olduğu iqtisadi təşkilatların bir üzvi kimi mövcud həyatı arasında *xüsusi münasibətlər tipi* yarada bilər[8].

Bu münasibət tipi antoqonizmin real cəhətlərinə malikdir. Totalitar hakimiyyət və onun əlavəsinə çevrilən ictimai təşkilatlar xüsusi həyat sferasında fərdi azadlığın, müstəqilliyin, təşəbbüsün və ticarət sahibkarlığının istənilən təzahürünə qarşı etibarsızlıq yaradır. Bu da təəccüblü deyildir. Çünki sonuncu, insanda onu belə şəraitlərdə bu hakimiyyətdən və kollektivçiliyin rəsmi formalarından qaçılmaz yüksək uzaqlaşma dərəcəsini

yaradan bütün hər şeyi akkumulyasiya edir. Lakin, digər tərəfdən, insan öz şəxsi həyatında ictimai-dövlət təşkilatlarının onun məhz şəxsi həyatı ilə bağlı ümidlərinin reallaşmasına maneçilik törədən fəaliyyətlərlə daimi olaraq rastlaşır və buna görə də bu fəaliyyətlərin arxasında duran hər şeyə qarşı etibarsızlıq nümayiş etdirir.

Lakin şəxsi və ictimai həyat antinomiyanın müxtəlif tərəfləri kimi çıxış edərək, hətta onların münasibətlərinin antoqonizm cəhətlərini əldə etdiyi zamanlar belə daxili qarşılıqlı asılılığı saxlayırlar. Bununla yanaşı, bu cür münasibətlər zamanı onların qarşılıqlı asılılığı özünü, spesifik formalarda olmasına baxmayaraq, çox dəqiq şəkildə təzahür etdirir.

Belə ki, öz şəxsi həyat sferasında avtoritar-kollektivçi nəzarətdən qurtulmağa çalışan insan çox vaxt, özünün tənhalıq dünyasına, ailə və dostlar ortamına xidməti münasibətlər, dövlət bürokratiyası və bürokratiyalaşmış təşkilatlarla təmas zamanı ortaya çıxan davranış vərdişləri və stereotipləri, ağrılı emosiyaları, qorxuları, inciklikləri, qıcıqlıqları, şüursuz aqressiv impulsları da özü ilə bu sferaya gətirir. İnsan şəxsi həyat sferasına o qədər düşgünləşmiş, yorulmuş və mənəvi cəhətdən əzilmiş formada düşə bilər ki, hətta orada belə özünün ünsiyyətə, azadlığa və təşəbbüsə qarşı tələbatlarını reallaşdırmaq qabiliyyətinə malik olmaya bilər. Özünün şəxsi həyatının bu cür nizamsız olmasının günahını isə o, ilk növbədə, cəmiyyət və dövlətdə görməyə meyillidir. Müəyyən şəraitlərdə kifayət qədər təbii olan bu meyillilik tez-tez elə hədlərə gəlib çatır ki, insan artıq öz şəxsi məsuliyyət ölçüsünü ayıq və tənqidi qiymətləndirə bilmir – məsələn, tənbəllik və öz evinin təşkili üzrə fəaliyyət, öz həyat tərzi, mənəvi yaradıcı axtarışlar üçün asudə vaxtdan istifadə etmək və özünü inkişaf etdirmək, ailədə istilik və yaxınlıq atmosferini yaratmaq, dost qazanmaq və onu saxlamaq üzrə məsuliyyətlər[9].

Bu meyillilik, xüsusilə cəmiyyətin zənginlər və kasıblar kimi qütbləşməsinin reallıq olduğu bu gün də təzahür edir. Sonuncular, demək olar ki, bərabər şərtlər və imkanlar altında özlərini reallaşdıra bilməyərək fərdlərin günahı özlərində yox, başqalarında axtaran hissəsini təşkil edirlər.

Belə insan öz şəxsi həyatının nizamsızlığının və dramatikliyinin səbəbini yalnız xarici sosial amillərdə görməyə meyillidir. Əlbəttə ki, bu vəziyyətdə belə amillərin mənfi təsiri aydındır, amma insanın özünün real olaraq günahı olan tərəflər də onlara aid edilir.

Şəxsi və ictimai-dövlət həyatının bu xüsusi tip münasibətinə başqa növ meyillər də xasdır. İnsan *şəxsi həyat sferasında* öz daxili azadlığını reallaşdıra bildiyi zaman şəxsiyyətin insan ünsiyyətinin istiliyindəki, öz ailə və dostları ortamındakı qiymətini dərk etmək mümkün olur; o, ev qurulmasında və ya öz asudə vaxtını və xüsusilə də onun biznesdə, ticarətdə təşkil edilməsində təşəbbüs və müstəqillik nümayiş etdirə bildikdə, çox vaxt onun üçün bürokratik qaydaların rəsmiyyətçiliyi və laqeydliyi, xidməti iş zamanı, bürokratik formada təşkil olunmuş əmək sferasında və şəxsi mahiyyətdən məhrum edilmiş ictimai və sahibkarlıq fəaliyyətində insanlarla əlaqələrin formalizmi xüsusilə əzabverici və dözülməz olur. Xidməti, əmək və ictimai öhdəliklərə qarşı qəti etiraz, inciklik, qıcıqlıq və qəzəb buradan çıxır. Bu hissləri insan onun əməyinə ehtiyacı olan hər kəsə – onun tərəfindən istifadə olunan əşya və xidmətlərin müştəriləri və ya istehlakçılarına istiqamətləndirə bilər. İctimai-dövlət sferasındakı fəaliyyətin, onu obyektiv, məcburi və şəxssiz olaraq əlaqələndirdiyi bütün insanlar – bu insanlardan bir çoxu onun inciklIyində, qıcıqlığında və qəzəbində günahsızdır - «qurbanlıq qoyuna» çevrilirlər. Əlbəttə ki, zəncirvari reaksiya nəticəsində bu insanın özü də ona oxşar insanlar üçün «qurbanlıq qoyuna» çevrilir. Nəticədə bir növ qarşılıqlı iddia, inciklik, qıcıqlıq və qəzəb dairəsi yaranır. Bu vəziyyətin dramatikliyi, paradoksallığı və əgər istəyirsinizsə, absurdluğu (cəfəngliyi) iqtisadiyyatda əyani olaraq təzahür olunur. Planlı iqtisadiyyatlı dövlət cəmiyyətin bütün üzvlərini zəruri məhsullar, istehlak əşyaları və xidmətləri ilə bu gün olmasa da yaxın gələcəkdə təmin etmək öhdəliyini ənənəvi olaraq öz üzərinə götürmüş və elə bu cür ənənəviliklə də yerinə yetirməmişdir.

Belə şəraitdə ticarət dövlətdən tam asılı vəziyyətə düşür və buna görə də öz rolunu yerinə yetirə bilmirdi. Bazar iqtisadiyyatı, müasir dünya iqtisadi təcrübəsi və dünya iqtisadi nəzəriyyəsi göstərir ki, heç bir dövlət, prinsip etibarilə, belə öhdəliyi yerinə yetirə bilməz.

Dövlətin öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirə bilməməsi tez-tez bütün dövlətə, o cümlədən də bütün qanunlara *mənfi* münasibətin mənbəyi kimi çıxış edir. Və təəccüblü deyildir ki, belə şəraitdə və həm də iqtisadiyyatda dərinləşən böhran şəraitində özünü xüsusi iş kimi reallaşdırmağa məcbur olan sahibkarlıq fəaliyyəti çox vaxt kölgə iqtisadiyyatı, habelə korrupsiya, dövlət və ictimai mülkiyyətin oğurlanması və qanunların birbaşa pozulması ilə bağlı olur.

Bununla yanaşı, dövlətin verdiyi iqtisadi və ideoloji vədlər onların reallaşdırıla biləcəyinə *inanan* insanlarda xüsusi həyat münasibətləri və gözləmləri (ümidləri) yaradır. Onlar öz ehtiyacları, tələbatları və arzularının təmin olunacağı ümidlərini, hər şeydən əvvəl, bəzən isə müstəsna olaraq, dövlət və ictimai təşkilatların fəaliyyətilə bağlayır, özləri və uşaqlarında maddi rifaha görə məsuliyyət hissinin tərbiyə olunması haqqında düşünmürlər. Başqasının öhdəsində yaşamağa meyil, böyük əksərriyyətlə, məhz belə insanlara xasdır. Onlar öz həyat tərzlərini təkmilləşdirməyə, evlərini təmiz saxlamağa, evlərinin yerləşdiyi yolu və ya ərazini abadlaşdırmağa adət etməmişlər. Onlar hər zaman gözləyirlər ki, dövlət instansiyaları, ev idarələri, şəhər icra hakimiyyəti, ictimaiyyətçilər iməclik günləri və s. bu işlərlə məşğul olacaqlar. Tənbəlliklərinə, sivilizasiyalı həyat formalarına qarşı tələbatlarının olmamasına və öz acınacaqlı abadsızlıqlarına boyun əyməyə hazır olmalarına onlar psixoloji olaraq ictimai-dövlət təşkilatlarının qayğısızlığına və qeyri-effektivliyinə istinad edərək haqq qazandırırlar. Real olaraq mövcud olan qayğısızlıq və qeyri-effektiv təşkiletmə isə onlara öz qənaətlərində möhkəmlənməyə fəal şəkildə kömək edir.

*«Mövcudluğunun başlıca əsası olan ticarət müstəqilliyinə təqlidolunmaz incəsənətlə hücum edilərək azadlıqları əllərindən alınmağa çalışılan xalqlar əmələ gəlmələrinə görə nəyə minnətdardırlar? Onlar yaranışlarına görə zəruriliyi qeyri-ixtiyari olaraq düşünməyə vadar edən labüd səbəbə minnətdardırlar.*

*Torpağı üç oğlu arasında bölüşdürən və Tanrının, onun insanları bir cəmiyyət halında birləşdirmək kimi ağılsız fikrinə mane olduğunu görən Babil hökmüdarı Nuh haqqındakı qədim rəvayətlərdə sadə şəkildə ifadə olunan bu səbəb bütün insan nəslinin dünyanın bir ölkəsində yaşamasının qeyri-mümkünlüyündən və müxtəlif cəmiyyətlər qurmaq üçün bütün Yer kürəsi boyu yayılmasının zəruriliyindən ibarətdir. Bütün bəşəriyyətin xalqlara bölünməsinin bu ilkin səbəbi bundan başqa öz rüşeymində azad ticarətin tərəfdarlarının heç bir diqqət ayırmadıqları iki böyük nəticəyə mAlikdir. Bu nəticələrdən birincisi torpaqların getdikcə artan becərilməsi və adamların məskunlaşmasıdır. Daha mühüm olan ikincisi səbəb isə bəşəriyyətin ağlının, əxlaqının və təyinatının müxtəlif şəkilli inkişafından ibarətdir-».*

K.Quro

Lakin qayğısız və ya sadəcə olaraq ruhdan düşmüş insan-

lar belə öz həyatlarının uğursuzluğu və qeyri-sivilizasiyalı olmasından əziyyət çəkməyə bilmirlər. Onlar şəxsi həyatlarına qəzəblənirlər və bu qəzəb yenə də ictimai-dövlət təşkilatına istiqamətlənir. Beləliklə, qəzəb hər iki qrupdan olan insanları – *şəxsi həyatda fəal sahibkarlığa* meyil edənlər və öz ehtiyac və arzularının başlıca təmin olunması mənbəyini bunda görənləri və əksinə, öz ehtiyac və arzularının təmin olunmasını ictimai-dövlət təşkilatının fəaliyyəti ilə əlaqələndirənlər və onun şəxsi həyata mənfi təsir göstərdiyini hesab edənləri əhatə edir.

Amma sivilizasiyanın inkişafı, ictimai quruluşun daha sivilizasiyalı formalarının yaranması insan həyatının *bu iki sferasının münasibətlərinin* prinsipial olaraq *başqa tipinin* axtarılması ilə müşayiət olunmuş və olunmaqdadır. Bu axtarışlar o fikrə əsaslanır ki, hər iki sfera təbii və əhəmiyyətlidir, onların xüsusiyyəti və müxtəlifliyi aradan qaldırılmazdır. İnsanlar bu və ya digər formada başa düşdülər ki, hər iki sferanın öz rolunu yerinə yetirməsi, onlarla əlaqədar olan və onların çərçivəsində reallaşdırılan ehtiyac və tələbatları təmin etmələri üçün bir-biriləri ilə münasibətdə müəyyən dərəcədə avtonomluğa və müstəqilliyə malik olmalıdırlar[12]. Bununla yanaşı, bir-birini qarşılıqlı tamamlama, qarşılıqlı kompensasiya, qarşılıqlı yardım və müvafiq praktiki səylərin dərk edilməsi də zəruridir. Çünki, misal üçün, şəxsi həyatda işgüzarlığın, təşəbbüskarlığın, fəallığın dərk olunması, insanın öz şəxsi qiymətini və məsuliyyətini başa düşməsi və bu hissin azad inkişafı bu cəhətlərin onun həyatının ictimai-dövlət sferasında da formalaşması və reallaşdırılmasını stimullaşdırardı və əksinə.

Həqiqətən də tam şəxsi həyata uymaq, bəzən öz işinə, dövlət və ictimai işlərə qarşı laqeyd olan sakinə xas ola bilər. Ancaq şəxsi həyatında fəal olan insan kollektiv, dövlət və ictimai işlərdə də çalışqan və təşəbbüskar olar. Təcrübə göstərir: öz şəxsi həyatlarını çalışqan və təşəbbüskarcasına qurmağa adət etmiş, öz mənəvi kamilliyinə, özlərinin və ailələrinin maddi rifahının vəziyyətinə görə yüksək inkişaf etmiş şəxsi məsuliyyətə malik olan, öz evini və həyat tərzini nizama salmağı bacaran, şəxsi mülkiyyətini qorumaq, ondan ağıllı şəkildə, qənaətlə və effektiv istifadə edən insanlardan təşkil olunmuş kollektiv daha yüksək daxili təşkilatlığa, daha böyük effektivliyə və dinamizmə malik olur. Bu isə öz talelərinin başqa insanların talelərindən və onlarla əməkdaşlıqdan, eləcə də ictimaiyyətin və dövlətin taleyindən asılı olduğunu başa düşən insanlar üçün həddən artıq vacibdir. Məhz bu prinsip «kapitalizm ruhunun»

möhkəmlənməsinə yol açmışdır, *M.Veber* bu prosesin ifadəsini protestantlıqda tapırdı. Əksinə, əgər dövlət və ya başqa birlik forması kimi çıxış edən kollektivçilik – belə insanlara malik deyildirsə, o, daha yüksək dərəcədə bürokratizmin, təşkilatsızlığın və daxili münaqişələrin təsirinə məruz qalır. Totalitar və avtoritar hakimiyyət sistemlərinin bütün «səfərbəredici» səylərinə baxmayaraq, belə kollektivçilik üçün nəinki passivlik və məsuliyyətsizlik, həm də anarxizm, ehtirasların irrasionalizmi və destruktiv niyyət ünsürləri xarakterikdir.

İqtisadiyyatın və dünya ticarətinin tarixi aşağıdakılara şahidlik edir: sosial və vətəndaş fəallığın bir çox stimul, impuls və motivləri öz başlanğıcını təkcə ictimai borcun ideoloji-estetik konsepsiyalarından, dövlətə, millətə, insanın tərəqqisinə qulluqdan, təkcə insanların qardaşlığını, mərhəmətli olmağı, iztirab çəkənlərə qayğını aşılayan dini məzhəblərdən götürmür. Belə konsepsiya və məzhəblər, əlbəttə ki, insanların ağlı, ürəyi və davranışlarına az təsir göstərmir. Bu haqda bizdə çoxlu ədalətli əsərlər yazılır və danışılır. Lakin ictimai və kollektiv fəaliyyətə, dövlət səviyyəsində fəallığa qarşı maraq mənbəyi kimi, həmçinin şəxsi həyat sferasındakı praktiki ehtiyaclar, qayğılar, narahatlıqlar və maraqlar çıxış edə bilməz. Məhz onlar xüsusi mülkiyyətə, bazar iqtisadiyyatına və azad ticarətə qarşı həvəsin fəallaşmAsının səbəbləri kimi çıxış etmişlər.

## 2. ŞƏXSİ MARAQ, AZAD TİCARƏTİN ŞƏRTİ KİMİ

İnsanın şəxsi həyatında formalaşan maraqlarını qismən maraqlar kimi müəyyən etmək düzgün olardı. Lakin şəxsi maraqlara təkcə onlar aid deyildir. İnsanın ölkənin vətəndaşı, bu və ya digər birliyin, məsələn, millətin, bu və ya digər kollektivin üzvü kimi fəaliyyət göstərdiyi zaman onun dövlətin, millətin və kollektivin ümumi hesab etdiyi maraqlarla üst-üstə düşməyən maraqları ola bilər, daha dəqiq desək, olmaya bilməz. Ayrıca insanın belə fərqliliyini təcəssüm etdirən maraqlarını şəxsi maraqlar adlandırmaq olar[14].

Keçmiş etirazların əksinə olaraq, bu gün aşağıdakı fakt hamı üçün aydındır: bu gun insanın dövlət hakimiyyətindən, bu hakimiyyət tərəfindən milyonlarla insanla bağlı qərarların qəbulu prosesindən, dövlət və ya dövlət nəzarəti altında olan mülkiyyətdən, kollektiv əməyin nəticələri və

məhsullarından uzaqlaşdırılması xüsusilə böyük miqyas almışdır. Siyasətin, iqtisadiyyatın və həyatın başqa sahələrinin demokratikləşdirilməsi və bütün təsərrüfat formalarının effektivliyinin artırılması xüsusi və dövlət, xüsusi və kollektiv maraqların qarşılıqlı uzaqlaşdırılması və qarşıdurması səviyyəsini əhəmiyyətli dərəcədə azalda bilər. Ancaq şübhəsiz ki, ictimai quruluşun istənilən, ən mükəmməl formalarında müəyyən qədər uzaqlaşma yenə də mövcud olacaqdır. Buna görə də xüsusi maraq problemi qalacaqdır[15].

*Dövlət, kollektivçiliyin istənilən konkret formaları*, onların fəaliyyətləri nə qədər effektiv və demokratik olsa da nə bu gün, nə də nəzərdə tutulan gələcəkdə insanların bütün maraqlarını təmin edə bilməyəcəkdir. İnsanların sayı durmadan artır, onların maraqları da eynən fasiləsiz çoxalır və ən önəmlisi isə bu maraqlar getdikcə müxtəlifləşir. Bu gün hər bir insanın unikal olması, onun həyatının, şüurunun və hisslərinin çox halda təkrarolunmazlığı fikri bizim üçün bayağıdır. Lakin *əgər bu belə olsa, onda bu unikal və təkrarolunmaz insanın, onun daxil olduğu istənilən sosial birliyin maraqları ilə bütünlüklə və tam üst-üstə düşməyən unikal və təkrarolunmaz maraqları olmaya bilməz. Bundan başqa, fərdi həyatın hər zaman, ən kiçik kollektivlərdən tutmuş, dövlət və millətə qədər, sosial birliklərin həyatı və inkişafının dövrləri və zaman hədləri ilə heç vaxt üst-üstə düşməyən öz dövrləri, öz zaman hədləri mövcud olur.* Ekzistensialist filosofların «sərhəd» adlandırdıqları həyat vəziyyətləri (insanın xəstəlikləri və ölümü, onun şəxsi böhranları) bu və ya digər birlik və təşkilatların, böhranları və tənəzzüllərinə nisbətən başqa mexanizmlərə tabedirlər. Buna baxmayaraq, əlbəttə ki, xəstəliklər, böhranlar və tənəzzüllər milyonlarla insanın talelərinə təsir göstərməyə bilməz. *Fərdin və onun ailəsinin taleyini müəyyən edən şəraitlər dövlətin və millətin taleyinə əhəmiyyətli dərəcədə təsir göstərən şəraitlərin məcmusu ilə tam üst-üstə düşə bilməz.* Ümumən, dövlət, sosial birlik və kollektiv üçün xarakterik olan hadisə və proseslər ayrı-ayrı insanların həyatında eyni ölçüdə və eyni nəticələrlə əks oluna bilməz. *Ayrı-ayrı insanların şəxsi maraqları ilə dövlətin, habelə istənilən başqa sosial qrupların mAraqlarının qaçılmaz olaraq üst-üstə düşməməsi buradan çıxır. P.Kozlovski* bunu sosial və iqtisadi tarix kontekstində nisbi olaraq nəzərdən keçirir.

İqtisadi cəhətdən yüksək inkişaf etmiş, demokratik cəhətdən təşkil olunmuş cəmiyyətlər getdikcə əməyin bölüşdürülməsinin və idarəetmə mexanizminin daha mürəkkəb və diferensiasiyalaşmış sistemlərinə malik

olan daha mürəkkəb və daxili diferensiasiyalaşmış orqanizmə çevrilirlər. Bu isə bu müəyyən dərəcədə inkişafın, sahələrin, regionların, qrupların, əhali təbəqələrinin və əlbəttə ki, bu sahələrdəki, regionlardakı və təbəqələrdəki ayrı-ayrı insanların faktiki vəziyyətinin qeyri-bərabərliyinə səbəb olmaya bilməz. *İnsanların vəziyyətlərində, gəlirlərində, statuslarında, təsirlərində və nüfuzlarındakı faktiki qeyri-bərabərliklər onların sosial, qrup, regional həyat tərzlərindəki və ən mühümü isə onların fərdi qabiliyyətləri, səyləri, çalışqanlıqları və iradələrindəki müxtəlifliyi əks etdirir və bununla bərabər, onların həyat şəraitlərinin uğurlu və ya uğursuz əlaqələndirilməsindən asılıdır. Böyük sosial bərabərliyin təmin edilməsinə istiqamətləndirilmiş bütün tədbirlərə baxmayaraq, bu həmişə belə olacaqdır, bununla yanaşı, belə tədbirlərin qəbul olunması və onların xarakterinin, çərçivələrinin və sərhədlərinin müəyyən edilməsi sivilizasiyanın müasir mərhələsində qaçılmaz olaraq ortaya çıxır.*

Özünü xüsusilə 70-ci illərin əvvəllərindən biruzə verməyə başlayan qloballaşma proseslərini nəzərə almaq lazımdır. Məcmu halda, onlar *sivilizasiyalı* irəliləyiş adlanır. Enerjinin, xammalın və təbii resurslarla, eləcə də ekologiya və insan sağlamlığı ilə bağlı problemlərin hər yerdə və qəflətən kəskinləşməsi onun əlamətlərindən biridir. Onların həlli və ya heç olmazsa, vəziyytin stabilləşdirilməsi cəmiyyətdən getdikcə daha böyük xərclər və daha intensiv səylər tələb edir. Sivilizasiyalı irəliləyiş artıq dərəcədə optimistik təsəvvürlərin yenidən qiymətləndirilməsinə sövq etməyə başlayır. Bu təsəvvürlərə görə elm və texnikanın durmadan və sürətlə tərəqqisi avtomatik olaraq ictimai sərvətin də belə sürətlə artımına səbəb olur. *Hamıya məlum olan «bolluq» arzuları çox çətin reallaşdırıla bildiyinə görə, inkişafın qeyri-bərabər templərlə getməsi, həyat səviyyəsinin qeyri-bərabərliyi və sosial birliklərin, qrupların və fərdlərin maraqlarının üst-üstə düşməməsi bu və ya digər ölçüdə qalmaqdadır*[17].

*Konkret insanların fərdi, şəxsi maraqların rəngarəngliyinin artmasına ümumi təkamül prosesləri və bütün bəşəriyyətin mədəniyyətinin zənginləşməsi də təsir göstərir.* Müasir insan mədəniyyətin nailiyyətlərinə, mənəvi dəyərlərə, başqa qrupların, dövlətlərin və millətlərin ideeyalarına və həyat tərzlərinə getdikcə daha böyük çıxış əldə edir. O, müxtəlif ideyaların, mədəni dəyərlərin, həyat tərzlərinin seçimində, onları yaradıcılıqla öz daxili dünyasının elementlərinə çevirməkdə daha azaddır. Buna görə də insanın mənəvi dünyasının fərdi-şəxsi variantlarının rəngarəngliyinin mümkünlüyü və həqiqiliyi ortaya çıxır. Buna baxmayaraq, əlbəttə başqa, əks tendensiya

da özünü göstərir: konformizm, mənəvi həyatın standartlaşdırılması. Ancaq məhz bu sonuncu mövqe müasir eranın simvollarına çevrilmiş bazar iqtisadiyyatı və ticarətin inkişafı üçün ən əlverişli hesab olunur. *İ.Kant* o fikrin xeyrinə sübutlar gətirir ki, insan öz arzularında təkcə konkret nemətlərə yox, həm də öz həyat səviyyəsinin müəyyən vəziyyətinə, əsasən onun yaxşılaşdırılmasına səy göstərir[18]. Verilmiş tendensiyanın antinomik münasibətləri haqqında tendensiyası ona əks olan mənəvi axtarışların, şəxsi tərcihlərin, həyat münasibətləri və ümidlərinin və deməli, maraqlarının fərdiləşdirilməsi tendensiyasıdır. Belə maraqlara yenə də V.Dala istinad etsək, «xüsusi» sifətini (nitq hissəsi) şamil etmək olar, çünki onlar dövlətin, millətin, müxtəlif birliklərin və qrupların özlərinin kollektiv maraqları kimi nəzərdən keçirdikləri maraqlarla üst-üstə düşməyə və hətta onlarla ziddiyyət təşkil edə bilər. Əgər şəxsi maraqlar ən müxtəlif təzahürlərdə mövcud olurlarsa və mövcud ola bilmirlərsə, onların kollektiv, ictimai və dövlət maraqları ilə qarşılıqlı münasibətlərində problem ortaya çıxır. Yəqin ki, belə tipli qarşılıqlı münasibətlərin iki, prinsipial olaraq müxtəlif, alternativ tip və modeli haqqında danışmaq olar.

Birinci model bizə yaxşı tanışdır. Onu kifayət qədər uzun müddət ərzində qətiyyətlə reallaşdırmağa çalışıblar. O, dövlət, ictimai və kollektiv marağın şəxsi marağa münasibətdə *prioritet* kimi elan edilməsini nəzərdə tutur. Şəxsi marağın istənilən azad ifadəsi, praktiki təzahürü və fəal şəkildə qorunması cəmiyyətin, dövlətin və xalqın maraqlarına qarşı potensial və ya real təhlükə kimi qəbul olunur. Təbii ki, belə şəraitdə şəxsi marağı həyata keçirmək çətin ki, mümkün olsun.

Belə modelin sosial təcrübədə həyata keçirilməsi müəyyən, məhdud zaman üçün böyük sayda insan kütlələrinin konkret vəzifələrin həyata keçirilməsi üzərində mərkəzləşməsini təmin edə bilər. Lakin daha geniş tarixi və sivilizasiyalı kontekstdə bu modelin ardıcıl olaraq reallaşdırılması, bizim yaxşı bildiyimiz kimi, əhalinin əsas hissəsini təşkil edən insanların enerjisinin tükənməsi ilə müşayiət olunur. İnsanın bilavasitə öz şəxsi marağını müdafiə edə bilmədiyi yerdə başqa cür ola da bilməz[19].

Bizim təcrübə cəmiyyətin və dövlətin maraqlarının ifadə olunmasında demokratiya və inhisarın olmamasının nəyə gətirib çıxardığını göstərir. Ən yaxşı halda, cəmiyyətin və dövlətin marağı kimi elan olunan fikirlər hakimiyyətdə olan qruplaşmaların, bürokratik idarələrin və hətta dövlət başçısı kimi çıxış edən ayrı-ayrı şəxslərin ziddiyyətli maraqlarını əks

etdirərək, cəmiyyət və dövlətin həqiqi maraqları çoxluğuna zidd olur. Ən pis halda, bu şəxsi maraq, faktiki olaraq, özünə ictimai və dövlət marağını tabe etdirir, baxmAyaraq ki, özü formaca belə maraq kimi çıxış edir. Ortaya «kafkian» vəziyyəti çıxır. Rəsmi olaraq ictimai maraq kimi çıxış edən və hətta müəyyən zaman ərzində kifayət qədər geniş kütlələr tərəfindən belə maraq kimi qəbul olunan fikir işdə şəxsi marağın ifadəsi kimi təzahür edir. Şəxsi maraq kimi mühakimə olunan fikirlər isə işdə milyonlarla insanın real maraqlarını əks etdirir, ölkənin inkişaf maraqlarına uyğun gəlir və eyni zamanda ümumsivilizasiyalı əhəmiyyət daşıyır.

Cəfəngiyyat situasiyası – anlayış və mahiyyətlərin bir-birinin əksinə çevrildiyi zaman baş verən situasiya insanı oriyentasiyasızlaşdırır, onun əxlaqını pozur, ictimai rəyi təhrif edir və ictimai fikri sarsıdır. İnsan təkcə ictimai-dövlət marağı kimi elan olunanlara yox, həm də özünə, öz hisslərinə, meyillərinə, daxili impluslarına və öz ağlına inanmamağa başlayır.

Amma şəxsi marağın dövlət, ictimai və kollektiv maraqla qarşılıqlı münasibətinin prinsipial olaraq başqa modeli haqqında da danışmaq olar. Bu prinsip ona əsaslanır ki, həm bu, həm də digər növ maraqlar hazırki dövrdə və gələcəkdə öz reallıqlarını və eyni zamanda daimi mümkün əksliklərini saxlayırlar. İnsanın özünün şəxsi maraqlarını aşkarcasına ifadə etmək və onları müdafiə etmək hüququ nəzərdə tutulur. Dövlət, konkret kollektivlər, bu və ya digər siyasi və ictimai təşkilatlar bu maraqları maksimal olaraq nəzərə almalı və onların həyata keçirilməsinə yardımçı olmalıdırlar. Əgər dövlət, kollektivlər və təşkilatlar bütün bu maraqlar rəngarəngliyini təyin edə və ya bilavasitə onların praktiki olaraq reallaşdırılmasına kömək edə bilmirlərsə, - bu, hər zaman belədir – onlar vətəndaşlara xüsusi sahibkarlıq və ticarət sahəsində müəyyən azadlıqlar təqdim etməlidirlər. Vətəndaşların həm azad sahibkarlıq və ticarət fəaliyyəti, həm də dövlət və başqa kollektiv təşkilatların fəaliyyətləri demokratik yolla, habelə sivilizasiyalı həyat formalarının kriteriyalarına cavab verən mənəvi normalara uyğun olaraq qəbul olunmuş qanunlarla nizamlanmalı və tənzimlənməlidir.

Şəxsi və ictimai-dövlət maraqları arasındakı münasibətlər nə qədər tarazlıqdadırsa, şəxsi maraq bir o qədər tez-tez, tam və təbii olaraq dövlət və ya başqa növ kollektivçilik maraqlarının şəxsi və fərdi təcəssüm forması

kimi çıxış edir. İnsanın şəxsi marağı onu dövlətin, başqa kollektiv törəmələrin və sosial hərəkatların maraqlarının reallaşdırılmasında fəal iştirak etməyə sövq edir. Bu

zaman ictimai və dövlət marağı insanların şəxsi maraqlarının davamc kimi çıxış edir.

Ümumi və xüsusi maraqların tam vəhdətini təcəssüm etdirən ideal cəmiyyət mövcud ola bilməz, belə cəmiyyət haqqında arzu insanların şüurlarında hər zaman yaşamış, yaşayır və yaşayacaq, özünün sivilizasiyalı əhəmiyyətini saxlayacaqdır. Ümumi və xüsusi (şəxsi) maraqların əksliyi qaçılmazdır, lakin onların kəskinliyi, onlara icazə verilməsinin üsul və formaları bir-birilərindən əhəmiyyətli dərəcədə fərqlənə bilər.

Tarixin istənilən mərhələsində, istənilən cəmiyyətdə mümkün olan və ehtimal olunan ziddiyyət və münaqişələrin kəskinliyini azaltmaq və praktiki olaraq həll etmək üçün optimal mexanizmi *demokratiya* yaradır. O, maraqların açıq dialoqunu təmin edir, eləcə də ayrı-ayrı insanlara, dövlət orqanlarına və vətəndaş cəmiyyətinin inkişafı ilə yaranmış müxtəlif qrup və kollektivlərə öz maraqlarını müəyyən etmək imkanı verir, müxtəlif maraqlar arasında kompromisə nail olunması, onların uzlaşdırılması və tarazlaşdırılması üsullarını formalaşdırır. Demokratiya zamanı, onun düşünülmüş şəkildə təşkil edilmiş və tarixlə sınanmış formalarının fəaliyyəti zamanı xüsusi şəxslərin, kollektivlərin, habelə dövlət və siyasi təşkilatların fəaliyyətlərini görməyə, müqayisə etməyə və nəticələrini qiymətləndirməyə imkan yaradan mexanizmlər başqa şəraitlərə nisbətən daha böyük gücə malik olurlar. Bu isə iqtisadi, sosial həyatın və tarixin bütün subyektlərinin maraqlarının təshih (korreksiya) edilməsini asanlaşdırır. Doğrusu, münaqişə və ziddiyyətlər aradan qalxmır – onlar, artıq qeyd edildiyi kimi, ümumiyyətlə, tam aradan qaldırıla bilməzlər – onlar yalnızca daha az gərginliklə, daha az məsrəf və qurbanlarla həll oluna bilərlər.

## 3. XÜSUSİ MÜLKİYYƏT VƏ HƏYATIN İQTİSADİ FORMALARI

*Xüsusi mülkiyyətin* uzun müddət inkar olunduğu bizim ölkədə bu, yenə də *özəlləşdirilmə* ilə əlaqələndirilir. «Özəlləşdirmə» - əgər, əlbəttə, istifadə olunan anlayışlar haqqında düşünsək və onları ciddi qəbul etsək, - xüsusi

mülkiyyətin tərkibinin müəyyən edilməsini nəzərdə tutur. Bu xüsusi mülkiyyət təkcə gündəlik istehlak məhsulları, uzunmüddətli istifadə malları və ya yaşayış yeri üzrə yox, həm də əmək vasitələri, alətləri və onun bir sıra mühüm şərtləri, həmçinin sahibinə bu və ya digər müəssisələrin taleləri ilə bağlı qərarların qəbulunda iştirak etmək və öz payına uyğun olaraq onların mənfəətinin bir hissəsini əldə etmək hüququnu verən qiymətli kağızlar və səhmlər üzrə mülkiyyət hüququnu da nəzərdə tutur.

*«Nəhayət, ticarət və siyasi azadlıq arasında irəli sürülən o məşhur annalogiya haqqında bir neçə söz deyək. Əgər sözlərlə oynayaraq «ticarətçinin azadlığı vətəndaşın azadlığı ilə eyni olmaladır» deyilirsə, onda bu annalogiya sofizmdir. Tacirin yaşadığı Ölkədəki və bir hissəsini təşkil etdiyi dövlətdəki azadlığı vətəndaş azadlığı kimi tam olmalıdır. Lakin sual olunur ki, hansı əsasa görə onlar tacir üçün öz ölkəsindən kənarda vətəndaşın tələb edə bilmədiyi azadlığı tələb edirlər? İngilis və ya fransız yəqin ki, bütün dünyada seçmə hüququna malik deyildir. Onlar bu hüquqa yalnız İngiltərə və ya Fransada malikdirlər. Onların vətəndaşlıq hüquqları, onların ölkələrinin sərhədlərinin bitdiyi yerdə qurtarır. Sözlərin analogiyası vasitəsilə vətəndaşın milli azadlıqlarından ticarətçinin kosmopolitik azadlığının düzəldilməsi mənasız bir şeydir. Həqiqi analogiyaya gəldikdə isə ondan çıxan nəticə, azad ticarət tərəfdarlarının nəticələri ilə tamamilə ziddir. Ümumi mənada azadlığın bütün növləri öz aralarında qarşılıqlı əlaqədardırlar və eyni əsaslara söykənirlər.*

Burada söhbət həqiqətən də o mülkiyyətdən gedir ki, onu dünya və rus dili ənənələrinə uyğun olaraq və mənim fikrimcə, «şəxsi» adlandırmaq lazımdır. O, nə dövlət, nə də ictimai mülkiyyətdir. Bu mülkiyyətin taleyi haqqında qərar qəbul etmək *onun sahibinin şəxsi işidir*. Məhz o, könüllü olaraq və öz istəyi ilə müstəqil mülkiyyətçi və ya qrupa və kollektivə məxsus olan mülkiyyətin payçısı və ya şəriki kimi malik olduğu hər şeydən azad şəkildə istifadə edə və onunla bağlı sərəncam verə: miras qoya, bağışlaya, sata və ya yerini dəyişə bilər.

Əlbəttə ki, bəşəriyyətin ümumsivilizasiyalı inkişafı özünə bu azadlığa başqa insanların və ümumilikdə cəmiyyətin maraqlarını təmin etməli olan müəyyən çərçivələr verən qanunlar sistemini, hüquqi, inzibati və mənəvi normaları daxil etmiş və bu gün də daxil etməkdədir. Lakin bu cür bitmə-

yən və çətin axtarışların obyektiv təhlili fərdin öz mülkiyyəti üzrə sərəncam verməsindəki azadlığının saxlanılmasının vacibliyini göstərir[22].

Buna görə də azadlıq insana öz müstəqilliyini, avtonomluğunu və sahibkarlıq təşəbbüsünü reallaşdırmağa, onun mülkiyyətə sahiblik və ondan istifadə üzrə sərəncam verməklə, onun əldə edilməsi və saxlanılması ilə bağlı fəaliyyət formalarının effektivliyinin çoxaldılmasına və bu insanın həyat keyfiyyətinin artırılmasına onun sivilizasiyalılıq səviyyəsinin yüksəldilməsinə istiqamətlənmiş səylərin fəal şəkildə stimullaşdırılması üçün kifayət qədər geniş olmalıdır.

Burada haqqında söhbət gedən azadlıq da öz gücünü və sahibin öz mülkiyyəti ilə bağlı və ya belə qərarların qəbul olunmaması ilə bağlı qərarlara görə şəxsi məsuliyyətlilik prinsipinin həqiqiliyini saxlamaq üçün kifayət qədər geniş olmalıdır. Mülkiyyətçi öz sərəncamverici fəaliyyətinin mənfəət və zərərlər formasında, mülkiyyətin artması və ya azalması, bəzən isə ümumiyyətlə itirilməsi şəklində olan məhsullarını yığmalıdır. Tarix də həmçinin özünü xüsusi mülkiyyət institutunun təşəkkül tapması və təkamülü prosesində təsdiqləyən prinsipin sivilizasiyalı əhəmiyyəti haqqında inandırıcı şəkildə şahidlik edir. Bu, xüsusi mülkiyyətin toxunulmazlığı, onun hüquqi və mənəvi müdafiəsi yaraq, prinsipidir. Yalnız demokratik yolla qəbul olunan qanun və ciddi olaraq bu qanuna istinad edən məhkəmə insanın öz mülkiyyətinə sahib olmasını, ondan

*Ticarətin azadlığı, onun mövcudluğu nöqteyi-nəzərindən, dini azadlığın, vətəndaş azadlığı və siyasi azadlığın asılı olduğu eyni qanunlardan asılıdır. Ancaq hər yerdə güclərin qarşılıqlı mübarizəsinin; onların dində qarşılıqlı tarazlığının olması zəruridir. Ağlın hər şeylə maraqlanma istəyi ağılsız fanatizmi, həqiqi inama ciddi itaət isə ağlın artıq dərəcədə hər şeylə maraqlanma istəyini cilovlaması lazımdır; Dövlətdə bütün hakimiyyətlər bir-birilərinə qarşılıqlı nəzarət etməsi və bir-birilərini cilovlaması vacibdr. Vətəndaş hüququnda bərabərlik müəyyən qədər təbii və ictimai qeyri-bərabərliyə tab gətirməyi bacarmalıdır və bu qeyri-bərabərliklər öz növbəsində bərabərlikləri sıxışdırmAmalıdırlar. Ümumdünya ticarəti də bizim gördüyümüz kimi, bu qanuna tabe olmalıdır; o, o zaman azaddır ki, bütün millətlər arasında rəqabət təmin olunmuşdur və bu rəqabət o zaman mümkündür ki, millətlər qarşılıqlı yarışmağa hazırdırlar. İstənilən azadlığın annalogiyasının dərin mahiyyəti belədir».*

K.Quro

istifadə etməsini və ya onun haqqında sərəncam verilməsini məhdudlaşdırmaq, mülkiyyətin milliləşdirlməsi (onun mütləq kompensasiyası şərtilə) və ya qanun pozuntusu halında əmlakın tam və ya qismən müsadirə edilməsi haqqında qərar çıxarmaq hüququna malikdir. *C.Xiks* hesab edir ki, bu məsələnin həlli üçün son nəticədə tapılan metodlar həddən artıq rəngarəngdirlər. «Müasir geniş və kifayət qədər diferensiasiyalaşmış maliyyə sisteminin əsasını məhz onlar təşkil edirlər. Aydındır ki, vaxt keçdikcə, hüquq sistemi bu metodları özünə daxil etmiş və inteqrasiyalaşdırmışdır. Odur ki, hazırda onlar tam qanuni əsaslarda tətbiq edilir və qanunla təyin olunmuş institutlara istinad edirlər». Azad ticarət və bazar münasibətləri belə formalaşır və möhkəmlənirlər.

Bu gün verilmiş prinsip insanın hakim partiyanın siyasi xəttinə münasibətindən və ya verilmiş anda kütləvi şüurda hakimlik edən ideeologiyadan asılıolma insanın mülkiyyətə sahiblik və onun haqqında sərəncam vermək hüququnu müdafiə etməlidir. Bizim ölkədə mülkiyyətə qarşı belə münasibətin insan üçün zəruri azadlıq və avtonomluğu təmin etdiyini, habelə siyasi hakimiyyətin diktaturası və özbaşınalığından (biz, «ən öncül sinfin» və ya «əhalinin ən şüurlu hissəsinin») adından çıxış edən və onların hakimiyyətə qarşı hüquqlarının olduğunu elan edən, lakin diktaturanı faktiki olaraq özü üçün qeyri-məhdud hakimiyyət hesab edən hakimiyyətin nəyə hazır olduğunu yaxşı bilirik), partiyaların və bürokratiyanın və ya onunla bağlı ictimai təşkilatların totalitar və avtoritar iddialarından, nəhayət, oxlokratiyanın özbaşnalığından, kütləvi meyillərdəki fərqlərdən və bu meyilləri təcəssüm etdirən qanunla məhdudlaş-dırılmayan fəaliyyətlərdən müdafiə ölçülərini təmin edir.

Zaman göstərir ki, dövlət mülkiyyəti olmayan və ya de-fakto kimi dövlətə məxsus olmayan bütün mülkiyyət növləri qorunmamışdırlar. Doğrusu, şəxsi mülkiyyət adlandırılan mülkiyyət forması yaxşı və ya pisliyindən asılı olmayaraq, yenə də xüsusi şəxslərin qanunsuz qəsdlərindən (oğurluq, qarət, zorakılıq) qorunurdu. Ancaq xüsusi mülkiyyətdən başqa hətta şəxsi mülkiyyətin belə siyasi hakimiyyətin və dövlətin (və onların və ya onlarla bağlı ictimai təşkilatların adından çıxış edən hər kəsin) qəsdlərindən müdafiəsi çox tez-tez öz ifadəsini tapmırdı. Belə ki, bilavasitə inqilabdan sonra şəxsi mülkiyyətin, əgər həmin mülkiyyət «düşmən» siniflərə və ya qruplara aid olunurdusa, onun istənilən formasının ekspropriasiyası təcrübəsi geniş yayılmağa başladı. Bu qruplarla yanaşı xüsusi ticarət, xüsusi

sahibkarlıq və fərdi biznes fəaliyyətinin istənilən başqa formaları da ləğv olundu. Tam kollektivləşdirmənin həyata keçirilməsi zamanı mülkiyyətin (o cümlədən şəxsi mülkiyyətin) ekspropriasiyası daha kütləvi və qorxunc (insan qurbanları və ölkə üçün mənfi nəticələrin miqyaslarına görə) hal aldı.

Vətəndaşların şəxsi mülkiyyətinin qorunmamasına çoxlu sayda, bu gün isə, bəzən daha böyük miqyaslarda nümunələr göstərmək olar. Məsələn, insanın bu günə qədər şəxsi mülkiyyəti olan ev əvvəlki kimi yenə də ona məxsus olmayan torpaq üzərində yerləşir. Ona görə də bu və ya digər hakimiyyət orqanı və ya dövlət idarəsinin torpaqdan hər hansı məqsəd üzrə istifadə olunması üzrə qərarları mahiyyət etibarilə bu torpağa bağlı şəxsi mülkiyyətin taleyini müəyyən edir. Təqdim edilən kompensasiya, bir qayda olaraq, əsas etibarilə cüzidir, lakin o, belə inzibati-bürokratik qərarlar müəyyən edilir.

Bu gün rəsmi ideologiya, sosial və hüquqi nəzəriyyələrinin şəxsi və xüsusi mülkiyyəti fərqləndirmələrinə baxmayaraq, xüsusi mülkiyyətə qarşı mənfi münasibət, sanki, şəxsi mülkiyyətə köçürülür. İctimai-dövlət mülkiyyətinin əhəmiyyətinin əvvəlki kimi daimi qeyd olunması çox vaxt şəxsi mülkiyyətə maraq göstərən və canıyananlıqla onun qayğısına qalan insanlara qarşı açıq-aşkar etinasızlığa gətirib çıxarır. Eyni zamanda bu, təkcə özlərini ictimai və dövlət mülkiyyətinin nümayəndələri hesab edən istənilən səviyyədən olan məmurlar və «müdirlər» üçün yox, əgər iş başqa insanların şəxsi mülkiyyətilə bağlıdırsa, həm də bir çox sıravi vətəndaşlar üçün də xarakterikdir. Həm inəyə, başqa mal-qaraya və kolxoz və sovxozun sərəncamında olan başqa hər şeyin, həm də zavod, fabrik, nüfuzlu avtomaşın, ticarət kompleksləri, evlərə və s. sahiblərinə xitabən işlədilən «sahibkar», «burjua», «qolçomaq» kimi etiketlər buradan çıxır. Bərabərləşdirici mühakimə və məqsədlər, bizi kommunist perspektivində gözləyən tam bərabərlik vədləri hazırda da əhalinin əksər hissəsinin şüurunda qalmaqdadır. Kommunist yerinə, milli demokratik, sosialist və s. Formalarda Başqasının əmlakına qarşı aqressiv paxıllığın belə geniş vüsət alması da təsadüfi deyildir. Son dövrlər sahiblik hüququnu pozan fhərəkətlər, o cümlədən qəzəbli vandalizm aktları (həm də inzibati səviyyədə) da təsadüfi deyildir.

Şəxsi mülkiyyətə qarşı hörmətsizlik həmçinin ona gətirib çıxarmışdır ki, insanlar təcrübədə hətta öz əmlaklarından belə səhlənkar və diqqətsiz istifadə etməyə başlayıblar. Səliqəsiz, qulluqsuz, düşgünləşmiş şəxsi evlər və yaşayış yerləri, pis təşkil olunmuş həyat tərzi bizim üçün nə qədər də

tipikdir. Şübhəsiz ki, burada çox halda kök salmış yoxsulluq günahkardır; o, hətta insanların maliyyə vəziyyəti yaxşılaşdıqda belə dəyişməz qalan vərdişlər yaratmışdır. Qorxu da qallmışdır: sizin evdə, təsərrüfatda əmin-amanlıq, firavanlıq, xüsusilə zənginlik əlamətləri yaranan kimi, kiminsə sizin qazandığınızı əlinizdən alacağından, sizin əməyinizlə yaradılan hər şeyin dağıdacağından qorxmağa başlayırsınız. İdeoloji iqlim isə insanın yaratmaq, şəxsi mülkiyyəti artırmaq səylərinə hər zaman hörmətsiz münasibət bəsləmişdir. Əlbəttə, bu, hazırda fəal şəkildə dəf edilir, amma bununla belə, şüurun dəyişdirilməsi o qədər də uğurla həyata keçmir. Buna görə də insanın xüsusi mülkiyyət əldə etməsi üzrə hüququnun qəbul olunması və qanuniləşdirilməsi bizim ölkədə kütləvi şüurda elə dəyişikliklərlə tamamlanmalıdır ki, bunlar təkcə xüsusi mülkiyyət hüququnun qorunmasını yox, həm də bu hüququ müdafiə edənlərə, onların səylərinə, əgər bu səylər qanunlara və müasir sivilizasiyalı cəmiyyət tərəfindən qəbul olunan əxlaq normalarına uyğun olaraq həyata keçirilirsə, hörmət edilməlidir.

Xüsusi mülkiyyət institutunun sivilizasiyalı əhəmiyyəti haqqında iki əsas problem qrupu üzrə danışmaq olar. Bu, birincisi, insanın avtonomluğunun və azadlığının təmin olunması, onun öz qiymətini dərk etməsi və öz ləyaqətini qoruması problemləridir. İkincisi, iqtisadi və təsərrüfat fəaliyyətinin effektivliyinin artırılması problemləridir. Bunlarsız, prinsip etibarilə, insan həyatının keyfiyyətini artırmaq qeyri-mümkündür.

Xüsusi mülkiyyət institutunun mövcud olması iqtisadi özünütənzimləmə, bazar və rəqabət mexanizmlərinin fəallaşmasının zəruri ilkin şərtidir. Xüsusi mülkiyyət öz sahibinə nəinki hüquq, həm də müstəqil, azad xüsusi *sahibkar və əmtəə istehsalçısı,* bazar və rəqabət münasibətlərinin fəal iştirakçısı kimi çıxış etməyə real imkan yaradır. Əgər o, belə imkan və hüquqdan məhrum edilsə, yüksək dərəcəli səmərəliliyə və effektivliyə nail ola bilməyəcəkdir. Heç bir başqa mülkiyyət forması, işgüzarlığın, novator enerjisinin, təşəbbüsün, müstəqil qərar qəbul etmək və məqsəd seçmək qabiliyyəti, fəaliyyətin istiqamət və üsulları, riskə getmək cəsarəti və hazırlığı, nəhayət, öz fəaliyyət və hərəkətlərinin iqtisadi nəticələrinə görə birbaşa şəxsi məsuliyyət üçün bu qədər tam azadlıq, bu qədər geniş imkanlar, bu qədər geniş meydan və eyni zamanda bu qədər aşkar obyektiv məcburiyyət (inzibati-bürokratik və ya avtoritar yox) yaratmır.

Bütün bunlar bizim ölkədə müəyyən dərəcədə artıq qəbul olunmağa başlayır, lakin bilavasitə xüsusi mülkiyyət haqqında sual çox vaxt fərdi və ailə əmək fəaliyyəti kimi, təsərrüfat fəaliyyəti üzrə qoyulur. Bu zaman marksizimdə yetişmiş və diqqətini əməyin ictimailəşdirilməsi tendensiyası (bu tendensiyasının aparıcı kimi qəbul olunmasına ictimai mülkiyyətin üstünlüyü haqqında postulat əsaslanır) üzərində mərkəzləşdirən ictimaiyyətçi düşüncə tərzində xüsusi mülkiyyətin qəbul olunması, mənə elə gəlir ki, çox vaxt tarixin müasir mərhələsində bu tendensiyanın inkişafının tamlığı və dərinliyinin kifayət qədər olmaması ilə bağlıdır. Müvafiq olaraq, xüsusi mülkiyyətin ləğv edilməsinə tarixən ictimailəşdirmə prosesinə hələ ki, kifayət qədər tam daxil edilməyən əmək növləri üzrə haqq qazandırılmır. Belə əmək növlərinə ilk növbədə fərdi (ailə) əmək fəaliyyəti aiddir.

Lakin tarixin təcrübəsi bizi daimi olaraq özünün antinomikliyinə inandırır. Buna görə də təəccüblü deyildir ki, insan getdikcə daha tam şəkildə əməyin ictimailəşdirilməsi prosesinə daxil edildikdə, bu prosesdə özünün fərdi iştirakını dərk etmək və reallaşdırmaq, öz əməyin nəticəsinə görə, onların bazar dəyərlərinə uyğun olaraq qiymət əldə etmək üçün getdikcə artan tələbat hiss edir. Onun üçün öz əmək şərtləri və nəticələri üzrə sərəncam vermək və bundan başqa, onlara sahib olma üzrə obyektiv imkan getdikcə daha böyük vaciblik kəsb etməyə başlayır. Əməyin kollektiv və daha ictimailəşmiş formalarının yaranması əmək bölgüsü və fərdiləşdirilməsinin dərinləşməsi ilə eyni vaxtda gedir. Əməyin ümumi və mücərrəd xarakteri (Marksa görə) özünü həm fərdi, həm də qrup əməyinin öz konkretliyini nə qədər reallaşdırmağın tələb etdiyi qədər dəqiq ifadə edir. Buna görə də dünyanın hər yerində getdikcə daha böyük istehsal və maliyyə birliklərin yaradılması ilə yanaşı, təsərrüfat və iqtisadi təşkilatların kiçildilməsi (parçalanması) prosesi də intensiv şəkildə getməkdədir. Dünyanın bütün regionlarında xüsusi (həm xüsusi-fərdi, həm də xüsusi-qrup mülkiyyəti) mülkiyyətlə dövlət və ya ictimai mülkiyyətin müxtəlif əlaqələndirmələri və hətta qatışıqları şəklində mülkiyyət formalarının plüralizminin obyektiv zəruriliyi özünü aşkarcasına ifadə edir.

Yuxarıda qeyd olunmuş antinomik tendensiya və tələbatlar bir-birilərilə üzvi surətdə qarşılıqlı əlaqəlidirlər. Belə ki, əgər kollektiv əməyin fərdi iştirakçısı, onun bilavasitə subyekti bu və ya digər dərəcədə özünün bu əməyin şərtləri və nəticələrinə sahibliyini hiss etmək və obyektiv olaraq rəsmiləşdirmək iqtidarında deyilsə, bu əməyin məhsuldarlığı, effektivliyi,

onun stimullaşdıran yaradıcı enerji zəifləyə bilər. İri və ortaölçülü şirkətlərin işçiləri arasında səhmlərin bölüşdürülməsi, bu şirkətlər çərçivəsində faktiki olaraq istehsal vasitələri və onun nəticələri üzrə xüsusi-qrup və hətta xüsusi-fərdi mülkiyyət əsasında nisbətən müstəqil halqaların yaradılması tendensiyası buradan çıxır.

Antinomik tendensiya və tələbatlar, əmək nə qədər ixtisaslı və mürəkkəbdirsə və əmək öz iştirakçılarından nə qədər çox yaradıcılıq və təşəbbüs tələb edirsə, bir o qədər dəqiq şəkildə təzahür edirlər. Marksistlərin, haqlı olaraq, əməyin ictimailəşdirilməsinin ən ardıcıl təcəssümünü, onun ümumi və abstrakt xarakterini gördükləri elm və mənəvi istehsal sferasında bu gün azad, xüsusi, fərdi və qrup sahibkarlığının inkişafı və «intellektual mülkiyyətin» rəsmiləşdirilməsi tendensiyası özünü eyni qətiyyətlə ifadə edir.

Fərdi və ailə əmək fəaliyyətinə gəldikdə isə, biz bu sahə üçün xüsusi mülkiyyət institutunun əhəmiyyətini qəbul etmişik, lakin aşağıdakı mühakimələri ifadə etmək istərdik. Sivilizasiyanın tarixi aşağıdakıları düşünməyə əsas verir: əməyin ictimailəşdirilməsi prosesi və dəqiq ifadə olunmuş təşkilati-kollektiv xarakterə malik olan əməyin inkişafı prosesi necə tərəqqi etsə də fərdi və ailə əmək fəaliyyəti və deməli, belə fəaliyyət üçün zəruri olan xüsusi mülkiyyət də öz əhəmiyyətliliyini saxlayacaqdır. Bu gün bu, öz ifadəsini, təkcə iqtisadi yox, həm də siyasi məqsədlər güdən oliqarxların ailə planlarının yaradılmasında tapır. Aydındır ki, tarixin elmi tədqiqatlar üçün nəzərdən keçirilə bilən növbəti mərhələlərində hər zaman elə təsərrüfat həyatı sferaları olacaqdır ki, bu sferalarda ən effektiv və rəqabət qabiliyyətli fəaliyyət məhz fərdi və ailə fəaliyyəti olacaqdır. Bu, təkcə ərzaq məhsullarının istehsalı sferası yox, həm də kiçik kəmiyyətlərdə tələb olunan yüksək texnologiyanın (elm və texnikanın inkişafı zamanı fərdi əmək həddən artıq yüksək texniki və elmtutumlu ola bilər), ticarət sferası, habelə bədii sənətlər, təsviri incəsənət, ədəbiyyat və s. ola bilər. Eyni zamanda fərdi sahibkarlıq fəaliyyəti və onun üçün zəruri olan xüsusi mülkiyyət forması məhz şəxsiyyətin avtonomLuğunun və azadlığının maksimal dərəcədə tam reallaşdırılmasına qarşı obyektiv tələbatın və bunun həyata keçirilməsi imkanının olduğu yerdə daha effektiv, o cümlədən iqtisadi cəhətdən effektiv olacaqdır.

Tarixi və mənəvi ənənələri nəzərə alaraq xüsusi fəaliyyət və xüsusi mülkiyyət özbaşınalıqdan və zorakılıqdan müdafiə olunmalıdırlar. Onların inzibati-bürokratik avtoritarizmdən və bizdə bu qədər kök salmış iqtisadi

inhisarçılığın rəngarəng növlərindən qorunması mexenizmləri tapılmalı və fəal şəkildə işə salınmalıdır. Bu zaman fərdi xüsusi sahibkarlıq fəaliyyəti və onunla əlaqədar olan xüsusi mülkiyyət (azad bazar və azad rəqabətlə birlikdə) əgər inkişaf üçün kifayət qədər azadlıq əldə etsələr, özləri inzibati-bürokratik avtoritarizminə və informasiya inhisarçılığa qarşı mexanizmlərə çevrilə bilərlər. Hətta fərdi (ailə) fəaliyyəti ilə bağlı xüsusi mülkiyyət problemləri üzrə bu gün bir sıra məsələlər tamamlanmaya və hüquqi cəhətdən rəsmiləşdirilməyə ehtiyac duyur. Həm ticarət sisteminin, həm də bütünlükdə bazar iqtisadiyyatının səmərəli inkişafı yalnız bu şəraitdə mümkündür.

Bununla əlaqədar olaraq, xüsusi mülkiyyətin hər hansı səviyyə və ya tavanla məhdudlaşdırılması kifayət qədər təhlükəlidir, əgər sonuncular özündə ideoloji mənfi rəy və qorxuları təcəssüm etdirirlərsə, bu daha da mütləqdir. Fərdi ticarət və ya təsərrüfat fəaliyyəti ilə məşğul olan insanın varlanmaq və qazandığını dərhal «yemək» yox, öz fəaliyyət şəraitinin keyfiyyətli şəkildə təkmilləşdirilməsinə – yeni texnologiyaya, avadanlıqlara, ticarət mərkəzlərinə, təsərrüfat qurumlarına, ən müasir nəqliyyat vasitələrinə, kommunikasiya yollarına, informasiya təminatı alətlərinə və s. vəsait qoymaq hüququnun olması çox mühümdür və sərmayə edilən vəsaitlər böyük olmalıdırlar. Bununla əlaqədar olaraq, yada salmaq lazımdır ki, ən inkişaf etmiş ölkələrdə müstəqil sahibkarlar, hər şeydən əvvəl, fermerlər adətən payçılar – çoxsaylı və xarakterinə görə müxtəlif kooperativlərin üzvləri kimi çıxış edirlər. Bu da onlara böyük həcmdə vəsaitləri akkumulyasiya etməyə və birləşdirməyə imkan verir. Çox vaxt onlar dövlətdən birbaşa yardım da alırlar.

Torpaq üzrə xüsusi mülkiyyət məsələsi hələ də nəzəri cəhətdən tam aydınlaşdırılmamışdır. O, hər şeydən əvvəl, kənd təsərrüfatında fərdi və ailə əmək fəaliyyəti ilə məşğul olanlarla və həm də fəaliyyətləri yerdə yerləşən binalara ehtiyac duyan insanlarla bağlıdır. Hələ ki, nəinki kənddə keçmiş kolxozların qaytarılması uğrunda mübarizə aparan azad xüsusi sahibkarlığa qarşı açıq-aşkar çıxış edənlər, hətta fərdi təsərrüfat fəaliyyətinin bir çox tərəfdarları belə torpaq üzrə dövlət mülkiyyətinin saxlanılması ideyasını şübhə altına qoymurlar.

Kəndli yalnız torpağın həqiqi mülkiyyətçisi olduqda və bu mülkiyyətin özgəninkiləşdirilməyəcəyinə əmin olduqda, torpağa mümkün qədər

çox vəsait qoyacaqdır. Bu, başqa mülkiyyət növlərinə (ticarət, istehsal və b.) də aiddir.

Ancaq burada, xüsusilə torpağın miras qoyulması haqqı ilə onun müddətsiz icarəyə verilməsinin tərəfdarları arasında ortaya sual çıxa bilər: torpağı müddətsiz icarəyə götürmüş insan və ya ailə bu və ya digər səbəblərdən təsərrüfatı kifayət qədər effektiv təşkil edə və onun rəqabət qabiliyyətliliyini təmin edə bilməsə nə baş verəcəkdir? Xüsusilə, əgər bizim iqtisadiyyatda işlərin vəziyyətinin yaxşılaşacağı barəsindəki ümidlərimiz doğrulsa və əgər təklif dinamik şəkildə artaraq tələbi üstələsə, rəqabət qabiliyyətliliyi problemi kifayət qədər aktual ola bilər. *Rəqabətin kəskinliyi* bunlara müvafiq olaraq artmalıdır.

Yaxud başqa bir sual yarana bilər: əgər insan, onun ailə üzvləri və ya uşaqları həyata keçirilməsi üçün torpağın icarəyə götürülməsi zəruri olan fəaliyyətə qarşı maraqlarını itirsə, nə baş verəcəkdir? Nəsildən nəslə torpağa qarşı məhəbbət aşılayan ənənəvi kəndli ailəsi haqqında nostalji hisslər (həsrət) keçirənləri başa düşmək olar. Bu həsrət, ənənəvi kəndlilələrin və ənənəvi kəndli ailəsinin zorakı və misli görünməmiş qəddar məhvetmə prosesinin ədalətli qəzəb, ağrı yaratdığı ölkədə xüsusilə təbiidir. Yaxşı olardı ki, belə kəndli həyatınının və belə kəndli ailəsinin bərpa edilməsi ümidləri özünü, heç olmazsa, qismən doğrultsun.

Lakin biz XXI əsrin əvvəllərində yaşayırıq və ən müxtəlif ölkələrdə, o cümlədən fermer təsərrüfatının yaxşı inkişaf etdiyi ölkələrdə son dövrlərin statistik və sosialoji məlumatları öz fəaliyyət tiplərini çox radikal şəkildə dəyişən insanların maraqlarının artan hərəkətliliyi üzrə ümumi tendensiyanı göstərir. Nəsillərin talelərinin vərəsiliyini, onların bir fəaliyyət tipinə qarşı maraqlarının dəyişməz qalmasını göstərən faktlar getdikcə azalır. Hər yerdə gənclər şəhərə və əksinə, şəhər tünlüyündən və ekoloji çarəsizlikdən təbiətə, torpağa doğru meyillidirlər.

Bütün torpaq üzrə dövlət mülkiyyətinin saxlanması şəraitində bilavasitə torpaqla bağlı fərdi və ailəvi fəaliyyətlə məşğul olan insanların maraqlarındakı dəyişikliklərin azadlığını necə təmin etmək olar? Torpaqla bağlı fərdi sahibkarlıq fəaliyyətinin maksimal yüksək effektiv səviyyəsi uğrunda mübarizəyə həvəsləndirən rəqabət mexanizmlərinin, əgər belə rəqabət həm də qaçılmaz olaraq müflisləşməyi və sərfəli olduqda torpağın və başqa mülkiyyət növlərinin başqasına verilməsini, ondan istifadə etməyi də nəzərdə tutursa, onun fəal şəkildə fəaliyyətini necə təmin etmək lazımdır?

Yəqin ki, torpağa sahib olan insanların həyatlarındakı dəyişikliklərin obyektiv dinamikasını və ən əsası isə kənd təsərrüfatı sferasında azad rəqabət mexanizmlərinin fəaliyyətini ən yaxşı şəkildə təmin edəcək azad torpaq bazarı ən optimal variant hesab oluna bilər. İcarə hüququnun dövlətə verilməsi zamanı isə ortaya icarəni itirən insanların (əgər onların dövlətə olan borcları torpağın işlənməsinə qoyulan vəsaitləri üstələmirsə) kompensasiya olunması haqqında məsələ çıxır. Lakin əgər kompensasiyanın ölçüləri onlara faydasız görünsə, onlar hər cür vasitə ilə icarəni əllərində saxlamağa (həm də icarə müddətsiz olsa) və öz sərəncamlarında olan, lakin mülkiyyətlərinə daxil olmayan torpağın, hüquqi dövlət (yerli İttifaqların) mülkiyyəti hesab edilən obyektlərin icarəyə verilməsi kimi, gizli yarım-qanuni və ya qeyri-qanuni şəkildə icarəyə verilməsinin müxtəlif üsullarından istifadə etməyə çalışmayacaqlarmı? Burada xüsusi mülkiyyət olmayan torpaqdan götürülən rentanın müxtəlif formaları mövcud olacaqdır. Bütün bunlar kənd təsərrüfatı istehsalını bahalaşdıracaqdır. Buna görə də mən, torpağın, habelə başqa mülkiyyət növlərinin azad alqı-satqı bazarının yaranması üçün dövlət mülkiyyətinin hər hansı bir hissəsinin fərdi (ailəvi) sahibkarların və ola bilsin ki, korporativlərin və səhmdar cəmiyyətlərin xüsusi mülkiyyətinə çevrilməsinin lehinəyəm. Bu isə ticarətin bütün növ və formalarının fəallaşdırılması zamanı mümkündür.

Deyilənlər heç də o demək deyildir ki, dövlət institutlarının və yerli hakmiyyət orqanlarının torpaq və başqa mülkiyyətə sahiblik, onun barəsində sərəncam vermək və ondan istifadə etmək üzrə nəzarəti lazım deyil. Torpaq üzrə xüsusi mülkiyyətin mövcud olduğu bir çox sənayecə inkişaf etmiş ölkələrdə mərkəzi hakimiyyət, yerli hakimiyyət orqanları, bələdiyyələr tərəfindən torpağa xüsusi sahiblik, sərəncam vermə və ondan istifadə edilməsi üzrə müxtəlif, inkişaf etmiş və kifayət qədər güclü nəzarət formaları mövcuddur. Bu nəzarət formaları müxtəlif maraqlara – bütün ölkənin və ya hər hansı regionun, hər hansı birliyin və ya xüsusi şəxslərin, məsələn, qonşuların maraqlarına xidmət edirlər. Onlar həmçinin ekoloji problemlərin həllinə də xidmət göstərirlər. Bunun üçün vergi nəzarətinin və ya hüquqi norma və prosedurlar vasitəsilə nəzarətin diferensiasiyalaşdırılmış sistemləri işlənib hazırlanmışdır.

Xüsusi mülkiyyətin müxtəlif formalarını nəzərdən keçirərkən muzdlu əməkdən istifadə olunmasını və onunla əlaqədar olan, avtomatik mənfi emosiyalar yaradan «istismar» anlayışını nəzərə almaq lazımdır. Bəs

istismar nədir? Biz bilirik ki, bu, bir insan, qrup, sinif və ya təşkilatın başqa insanların, qrup, sinif və birliklərin əməyinin nəticələrini mənimsəməsidir. Tarix belə mənimsəmənin çoxlu sayda müxtəlif üsullarını göstərsə də bizim şüurumuzda bu mənimsəmə və istismar məhz xüsusi mülkiyyət və muzdlu əməklə daha birbaşa şəkildə və möhkəm bağlıdır. Bununla bərabər, praktiki olaraq əməyin istənilən forması – təkcə muzdlu yox, həm xüsusi, həm də kollektiv mülkiyyətlə bağlı formaları istismar imkanını yarada bilər və yaradırlar da.

Belə ki, muzdlu deyil, fərdi əməklə məşğul olan və şəxsi əmək alətləri və əmək vasitələrinə malik olan insan istismar obyekti ola bilər və tez-tez olur da. Bunun üçün birbaşa zorakılıqdan, dini və ya dünyəvi formalarda mövcud olan ənənələrin gücündən, vergi sistemindən, iqtisadi şantajdan və s. də istifadə olunur. Ailə mülkiyyəti ilə bağlı ailəvi əmək istismar imkanı yarada bilər və yaradır da. Ailə başçısı həyat yoldaşının və uşaqlarının əməyini mənimsəmək və öz fərdi-eqoistik maraqları üzrə onun nəticələrindən istifadə etmək qabiliyyətinə malikdir. Xüsusi mülkiyyətin müxtəlif miqyaslarda (kiçik, orta və böyük) muzdlu əməkdən istifadə edilməsinə istinad edən müxtəlif formaları istismarla əlaqədardırlar. Onun mexanizmləri ətraflı şəkildə izah olunmuşdur, bu fəaliyyətin əsası isə muzdlu əmək işçilərinin istehsal vasitələrinə sahiblik və onlar barəsində sərəncam verməkdən məhrum edilməsindən ibarət-

*«Ancaq müəyyən oluna bilər ki, çörəyə sahib olanlara bir çoxları şərab təklif edirlər. Əgər onlardan biri bir ölçü çörək üçün dörd pintadan çox şərab vermək istəmirsə, onda çörək sahibi başqasının altı və ya yeddi pinta şərab verəcəyini bilərək birinci şərab sahibinə çörək verməyəcəkdir. Əgər birinci şərab sahibi çörəyə sahib olmaq istəsə, o, təklif etdiyi qiymətinin səviyyəsini daha çox təklif edənlərin səviyyəsinə qədər yüksəltməyə məcbur olacaqdır. Şərab satıcıları, öz növbəsində, çörək satıcıları arasındakı rəqabətdan istifadə edirlər. Onlardan hər biri öz əmtəəsini yalnız ehtiyacı olduğu əmtəənin müxtəlif təkliflərini ölçüb-biçərək satmaq qərarına gəlir və ən yüksək təklifə üstünlük verir. Çörək və şərabın qiymətliliyi iki xüsusi şəxsin qarşılıqlı tələbat və vasitələrindən asılı olaraq mübahisə predmeti deyildir; o, bütün şərab satıcıları məcmusunun tələbat və vasitələrinin tarazlaşdırılması ilə müəyyən olunur.*

dir. Lakin istismar kollektiv mülkiyyət (birlik, dövlət, kooperativ, kolxoz və s.) çərçivəsində də mümkündür. İstismar – hər zaman işləyən insanın bilavasitə mülkiyyətin (o cümlədən kollektiv mülkiyyətin) idarə edilməsindən və hasil edilmiş məhsullar üzrə nəticələrin bölüşdürülməsindən məhrum edilməsidir.

Əllərində kollektiv mülkiyyət üzrə sərəncam vermək hüququnun cəmləşdiyi, inzibati, bürokratik idarəetmə sistemin hakim mövqeləri tutmuş insanlar onların ictimai nemətin bu əməyə qoyduqları vəsaitləri aşkarcasına üstələyən payını əldə edə bilərlər. Bundan başqa, onlar ümumiyyətlə heç bir sosial-əhəmiyyətli funksiyalar yerinə yetirməyərək və hətta ictimai əməyin effektivliyi və səmərəliliyinin artırılmasına, ölkə iqtisadiyyatının dinamizminə mane olan «fəaliyyəti» həyata keçirərək həddən artıq yüksək məvaciblər ala və əhəmiyyətli səlahiyyətlərə malik ola bilərlər. İstismar təhlükəsi – xüsusi mülkiyyətin muzdlu əməyini nəzərdə tutan formasından imtina etmək üçün yetərli dəlil deyildir. Yəqin ki, xüsusi mülkiyyət problemi, o cümlədən muzdlu əmək problemi ilə yanaşı, hər şeydən əvvəl, cəmiyyətin iqtisadi inkişafı, əmək məhsuldarlığının artımı, maddi ilkin şərtlərin yaradılması (əmtəə və xidmətlərin bolluğu və s.) baxımından, mülkiyyətin bu və ya digər formasının nisbi üstünlükləri və çatışmazlıqları ilə bağlıdır. Bunlar olmadan cəmiyyət üzvlərinin əsas kütləsinin maddi rifahının, habelə əməkhaqqının faktiki səviyyəsinin, həyat keyfiyyətinin və muzdlu əmək işçilərinin konkret hüquqlarının artırılması qeyri-mümkündür.

> *Çünki bir ölçü çörək üçün həvəslə səkkiz pinta şərab verməyə hazır olan şəxs, əgər öyrənsə ki, hər hansı çörək mülkiyyətçisi eyni ölçüdə şərab üçün iki ölçü çörək verir, onda çörək üçün cəmi dörd pinta şərab verəcəkdir. Müxtəlif təklif və müxtəlif tələblər arasında orta qiymət cari qiymətdir və bütün satıcı və alıcılar öz mübadilələrində bu qiymətə əsaslanacaqlar. Tam əminliklə demək olar ki, əgər bir ölçü çörək üçün altı pinta şərab burada orta qiymətdirsə, o, hamı üçün çörəyin ekvivalent ölçüsünü təşkil edəcəkdir».*
>
> A.Türqo

Əlbəttə ki, dövlət mülkiyyəti forması nəhəng maliyyə vəsaitlərini və maddi resursları akkumulyasiya etməyə (toplamağa), mərkəzləşdirməyə, böyük insan kütləsinin əməyini koordinasiya etməyə və onu hər hansı məqsədlər üzrə istiqamətləndirməyə imkan yaradır. Lakin o, asanlıqla

praktiki olaraq «heç kimin» olmaya və ya bürokratik idarələr tərəfindən pis idarə oluna bilər. Belə mülkiyyət çərçivəsində inhisar özünün iqtisadiyyat üçün bütün mənfi nəticələri (iqtisadi artımın və texnoloji yenilənmənin dinamikliyinin itməsi, istehlakçılar üzərində istehsalçı diktaturası və s.) ilə birlikdə və həm də misli görünməmiş miqyaslarda inkişaf edə bilər.

Muzdlu əməklə bağlı xüsusi mülkiyyət (inhisarçı olmayan və inhisarçı olmaq təhlükəsi olmayan) məhz özünə xas olan üstünlüklərə malikdir. Bu mülkiyyətin sahibləri yüksək azadlıq dərəcəsi ilə və kifayət qədər sürətlə əmək vasitələrini ən böyük tələbin toplaşdığı, kapital, işçi və əmək səylərinin çatışmadığı yerə köçürə bilərlər. Onlar iradə və seçim azadlığını maksimal dərəcədə reallaşdıra və buna görə də bazar tələbatlarının dinamikasına çox sürətlə və ən qısa vaxt ərzində reaksiya verə, istehsalın qəti, yenidən qurulması haqqında operativ qərar qəbul edə, ən cəsur təcrübəni reallaşdıra və riskə gedə bilərlər. Bütün bunlar böyük məsuliyyətə və yaranmış vəziyyətin bütün mənfi və müsbət cəhətlərinin diqqətlə öyrənilməsinə maraq oyadır. Çünki mülkiyyət sahibləri – bunu təkrar etmək lazımdır – öz mülkiyyətləri üzrə qəbul etdikləri qərarların nəticələrinə görə cavab verirlər[30].

Xüsusi mülkiyyətin çatışmazlıqlarına, məsrəflərinə və mənfi tendensiyalarına əhəmiyyət verməmək olmaz. Xüsusi mülkiyyətə əsaslanan iqtisadi sistem iqtisadi böhranlardan, depressiya, işsizlik və s.-dən sığortalanmışdır. Təsərrüfat tarixi bütün bu məsrəf və mənfi meyillərin nə qədər real olduğunu göstərir.

Lakin tarix həm də onu göstərir ki, istənilən mülkiyyət forması özündə real məsrəflər təhlükəsini və mənfi tendensiyaları gizlədir. Məgər sosialist dövlət mülkiyyəti bizi sosial fəlakətlərdən, o cümlədən qeyri-bərabərlik və ədalətsizlikdən, böhran və durğunluqdan sığortalayırdımı? Belə bir sual meydana çıxır: bu təhlükələri əhəmiyyətli dərəcədə azaldan vasitə və mexanizmlər tapıla bilərmi? Yəqin ki, tapıla bilər. Dünya sivilizasiyasının çətin inkişaf prosesi də axtarışların bir sıra istiqamətlərini göstərir.

Onların arasında ən əsaslardan biri *mülkiyyət formalarının plüralizminin* təmin edilməsidir. Bu halda, dövlət mülkiyyəti (həm icarə verən, həm də verməyən); səhmdar və kooperativ mülkiyyətin müxtəlif formaları; xüsusi mülkiyyət: fərdi, ailəvi, qrup, o cümlədən muzdlu əməkdən istifadə edən mülkiyyət ola bilər. Muzdlu əmək muzdlu işçilərin tədricən tamhüquqlu payçılara çevrilmək imkanının olduğu kooperativlərdə də

tətbiq oluna bilər. Görünür, mülkiyyətin qarışıq formaları və onun müxtəlif növlərinin əlaqələndirilməsi perspektivlidir.

Söhbət maksimal dərəcədə hərəkətli, eksperiment və dəyişikliklər üçün açıq olan iqtisadi strukturlardan, sosial inkişafın dinamizmindən gedir. Bu inkişaf prosesi zamanı müxtəlif mexanizmlər və müxtəlif mülkiyyət formaları mümkün olduqca, onların hər birinin fəaliyyəti nəticəsində yaranan məsrəfləri kompensasiya edərək və mütləqləşməyə, hər hansı bir mexanizmin inhisar mexanizminə çevrilməsinə yol verməyərək bir-birilərini tamamlaya bilərdilər. Məhz belə pozğunluq şəraitində ticarət fəaliyyətinin həqiqi dinamizmi mümkündür.

Ancaq hər bir mexanizm – özünün müəyyən iqtisadi və hüquqi sistem çərçivələrində – fəal şəkildə fəaliyyət göstərmək üçün geniş meydana malik olmalı və ona xas olan xüsusiyyət və potensiyaları reallaşdırmaq iqtidarında olmalıdır. Burada, prinsipial olaraq müxtəlif mexanizmlərin bir-birilərini qarşılıqlı şəkildə təcrid edən sistemləri heç bir halda yaramırlar, amma bizdə bu gün məhz belə sistemlər meydana çıxır.

Mülkiyyət formalarının iqtisadiyyatda demokratiyanın ifadəsi olan rəngarəngliyi siyasət və cəmiyyətin idarə edilməsi sferasında demokratiyanın inkişafı ilə əlaqələndirilməlidir. Demokratiya bütün vətəndaşlara mülkiyyət formaları, mülkiyyətdən istifadə olunması və onun barəsində sərəncam verilməsi çərçivələri və prosedurları ilə bağlı qərarların, eləcə də müxtəlif mülkiyyət fomaları arasındakı münasibətləri tənzimləyən qanunların qəbulu prosesin iştirak etmək imkanı yaradır. Demokratiya müxtəlif mülkiyyət formaları ilə bağlı istehsal iştirakçılarına demokRatikcəsinə qəbul olunmuş hüquq sistemi sərhədləri daxilində öz şəxsi və qrup maraqlarını azad şəkildə ifadə etməyə, onları praktiki olaraq qorumağa və qarşılıqlı uzlaşdırmağa imkan verir. Bundan başqa, bu şəraitdə cəmiyyətin bütün üzvləri həm onların istehsal iştirakçıları kimi çıxış etdikləri zaman meydana çıxan bu və ya digər mülkiyyət formaları ilə bağlı, həm də istehlakçıya xas olan maraqlarını ifadə edə, qoruya və uzlaşdıra bilərlər.

İqtisadiyyatda, ticarətdə və siyasətdə demokratiya hər bir insanı öz əməyini bağlamaq istədiyi bu və ya digər mülkiyyət formasını azad seçmək hüququ ilə təmin etməlidir. Valideynlərinin hansı sosial qrupa, hansı sinfə mənsub olmasından asılı olmayaraq, hər kəs üçün maksimal dərəcədə geniş bərabərlik imkanları, cəmiyyətdə öz rolunu, bu və ya digər mülkiyyət formalarına qarşı öz praktiki münasibətini azad şəkildə müəyyən etmək və

arzu etdikdə bu rolu dəyişmək imkanı təmin edilməlidir. İmkanların belə bərabərləşdirilməsinin genişləndirilməsi insanın avtonomluğu və azadlığının daha yüksək dərəcəsini ifadə edəcəkdir.

Şəxsi həyat, şəxsi maraq, xüsusi mülkiyyət bu vaxta qədər aradan qaldırıla bilməyən ümumbəşəri, ümumsivilizasiyalı formalar və insanların həyat fəaliyyəti formaları olmuş və olaraq qalacaqlar. Buna görə də şəxsi həyatın, şəxsi marağın, xüsusi mülkiyyətin və onlar üzərində düşünulmüş, aşkar demokratik nəzarəti açıq və üzvi şəkildə təmin edə bilməyən sosial-iqtisadi sistem qeyri-effektivlik, böhran və kataklizmalara məhkumdur. Böhranların dəf edilməsi üsullarından biri effektiv ticarət sistemidir. Onun sayəsində insanların həyatının real keyfiyyəti - onların maddi rifah və abadlıq səviyyəsi, öz qabiliyyət və istedadların azad şəkildə inkişaf etdirmələri, təşəbbüskarlıq və yaradıcı axtarış nümayiş etdirmələri, habelə onların sosial müdafiə olunma dərəcəsi təmin olunur.

## 4. BAZAR, TİCARƏT, ƏDALƏTLİLİK

Bazar və ticarət prinsiplərindən istifadə edərək qurulmuş iqtisadi quruluş modeli onun fəaliyyət nəticələrinin təsviri və təşkilini nəzərdə tutmur, çünki göstərilən quruluş hər hansı planlaşdırılmış son məqsədə istiqamətləndirmir, yalnız müəyyən ümumi qayadalar çərçivəsində inkişaf edir. Azadlıq, vərəsəlik və zərurət vəhdət halındadır. *F. Xayek* bazar mexanizmini fəaliyyət qaydaları məlum olan, amma nəticələrin iştirakçıların bəxtindən və sənətkarlığından asılı olan oyunla müqayisə edir. Qaydalar nəticəyə zəmanət vermir. «Bu, hər şeyi bacarığın, gücün və həmçinin də bəxtin həll etdiyi, bütün qaydaları ilə oynanılan oyundur. Sənətkarlıq oyunu bəxt oyunu kimidir»[30]. Təsadüf bazarda sosial amil statusu alır. İqtisadi subyektlərin fəaliyyətlərinin koordinasiyasına «bazar iqtisadiyyatı» adlı oyunun qaydalarına riayət edilməsi hesabına nail olunur. Bu zaman fərdi məqsədlərə nail olmaq mümkündür, amma nemətlərin bölüşdürülməsi qeyri-müəyyəndir. Oyun qaydaları, hər şeydən əvvəl, nemətlərin strukturlarının təkmilləşdirilməsini nəzərə almaqla onların artırılmasına və bölüşdürülməsinə (yalnız bölüşdürülməsinə yox) istiqamətləndirilir.

Oyunun birinci məqsədi heç-heçəyə yol verməməkdir; səylərin və uduşun bölüşdürülməsinin hansı qaydalarından istifadə edilməsinin fərqi yox-

dur, ən əsası, oyunun sonunda başlanğıc nəticəyə gəlməməkdir. Bazar mexanizmlərinin fəaliyyəti nəzərdə tutur ki, «biz sıfır nəticəsini istisna edən oyunu oynayırıq, onun qaydaları dividendlərin artımına istiqamətlənmişdir, buna baxmayaraq, hər bir fərdin iştirakı qaydalara yox, təsadüfə tabe edilmişdir». Təsadüf bazarda nəticələrə nail olunmasında mərkəzi generasiyaedici amil olduğundan, bazar mexanizmlərindən çıxan bölüşdürmə də təsadüfi, planlaşdırılmamış xarakter daşıyır. Fəaliyyət nəticələrinin belə bölüşdürülməsinə qarşı ədalətlilik kriteriyaları tətbiq olunmazdır. «Ədalətlilik elə bölüşdürülə bilməz ki, heç kimə heç nə qalmasın…lakin hər kəsin payına düşəni başqaları tərəfindən planlaşdırıla və əvvəlcədən müəyyən edilə bilinmədiyi üçün ümumi nəticəni, nə ədalətli, nə də ədalətsiz hesab etmək olmaz». *Xayekin* fikrincə, bazar iqtisadiyyatında nemətlərin bölüşdürülməsi fərdin başqaları üçün həyata keçirilmiş nailiyyətləri ilə şərtlənir. Bu, şüurlu və qabaqcadan düşünülmüş planlaşdırmanın, əməyin və həmçinin təsadüfi xarici şəraitlərin nəticəsidir. Mükafat, bir tərəfdən, qabiliyyətlərə, fərdin nail olunmuş nəticəyə qoyduğu əmanətlərə uyğun gəlməlidir, digər tərəfdən isə təkcə subyektiv səylərin yox, bütün yerdə qalanlar üçün qəbul olunmuş və sərf olunmuş səylərin obyektiv müsbət faydasını nəzərə almaq lazımdır. Effektiv fərdiyyətçi iqtisadi

> «*Lakin, öz növbəsində, istehsal azadlığından bu qədər yaxın asılı olan istehlak azadlığı da artıq azad ticarətin sınaqlarına qarşı tab gətirə bilməzdi. Əgər əmtəələrin və bir çox satıcıların təkliflərinin ixtiyari seçiminə malik deyildirlərsə, heç bir ticarətçi azad deyildir. Azad ticarət hər bir dövlətdən təbii sənaye kastası nəsli yaradaraq dünyanın bütün sənayesini ələ keçirəcək inhisar yarada bilərdi. İnsan nəsli qəti surətdə özünün müstəsna olaraq özünə xas olan əsərələrlə təmin edilməsi üzrə millətə tanış olan xəracverən olardı. Xarici rəqabət olmadıqda, bu əsərlər təkmilləşməzdi: bahalıq və hərəkətsizlik – ümumdünya sənayesinin başlıca cəhətləri bunLardır. Alıcı hər yerdə bu qaydaların qurbanı olardı; o, məşhur əmtəəni yalnız bir satıcıdan əldə edə bilərdi, sonuncu isə öz əmtəəsinin üstünlüklərini yaxşılaşdırmaq üzrə güclü surətdə həvəslənməyərək əmtəələr üzrə qiyməti dəstəkləyərdi. İstehlakçının aqibəti belə olardı; o, hər zaman öz ehtiyaclarının böyük hissəsini təmin etmək üçün xarici inhisarın buyunduruğu altında olardı*».
>
> K.Quro

quruluşun qurulması üçün fərdin başqalarının xeyrinə həm əmanəti və ya subyektiv nailiyyətləri, həm də uğuru və ya obyektiv nailiyyətləri mükafatlandırmada bərabər ölçüdə nəzərə alınmalıdır.

Başqalarının tələbatlarının formalaşdırılması və onun mükafatlandırmada nəzərə alınması üçün təkcə subyektiv səylərin deyil, həm də fəaliyyətin obyektiv nəticələrinin əhəmiyyətləri haqqında mühakimələrdən belə çıxır ki, daimi olaraq dəyişən tələbatlar situasiyasında bizim fəaliyyətlərimizin faydalılığının qəbul olunması əsasında bazarın şəxsləşdirilməmiş qərarlarının ədalətliliyi haqqında məsələ yalnız şərti olaraq həll oluna bilər.

Bazar – əhəmiyyətli və öncədən söylənilə bilən proses və nəticələri təyin etməyə imkan verən, ticarətlə şərtləşən qaydalar sistemidir və bu qaydalar çərçivəsində fərdi fəaliyyət və davranışları yox, fəaliyyətin yalnız sistem strukturlarını və tiplərini dərk etmək və əvvəlcədən təsvir etmək mümkündür. Planlı sistem, əksinə, fəaliyyətin bütün mümkün proseslərinin, xərclərin və nəticələrin kəmiyyətinin müəyyən edilməsini nəzərdə tutur və ümumi iqtisadi prosesi məqsədlərin maksimumlaşdırılması, fərdi davranışları isə onun instrumental alətləri kimi interpretasiya edir. Bazar sisteminin zəifliyi ondan ibarətdir ki, prosesin məcmu nəticəsini və onun yekun bölüşdürülməsini və ya son vəziyyətini dərk etmək olmur, onlar açıq və qeyri-müəyyən olaraq qalırlar. Bazarın bu nəticə açıqlığı, bununla bərabər, fərdi məqsəd qoyuluşu və məqsədin həyata keçirilməsi şəraitini də yaradır.

Qeyd edək ki, artıq merkantilizmin çiçəkləndiyi və bazar münasibətlərinin doğulduğu əsrdə yaşayan *İ.Kant* üçün əxlaqi davranış üçün yol göstərən ulduz kimi, maddi məqsədlərə oriyentasiya edilməsi yox, fəaliyyətin empirik nəticələrindən asılı olmayaraq müəyyən ümumi qaydalarla uzlaşma çıxış edir. *İ.Kant* üçün əxlaq nöqteyi-nəzərindən düzgün fəaliyyət nə isə *açıq* bir şeydir, son nəticəni mütləq əminliklə demək mümkün deyildir, o, insanın ilk başdan səy göstərdiyi son vəziyyət və ya məqsədlə, yəni xoşbəxtliyə nail olmaq məqsədilə üst-üstə düşməyə bilər. Xoşbəxtliyə səy göstərmək bilavasitə hər bir fərdə verilməmişdir, ona nail olunması əxlaqi davranışa zəmanət vermir. Fərdin əxlaqi normalara riayət etməklə xoşbəxtliyə nail olmağın mümkünlüyünə, əminliyinə yalnız Tanrının mövcud olduğunu qəbul etmək şərtilə və nəticə etibarilə fərdin xoşbəxt olmağa layiq olub-olmamasına uyğun olaraq, əxlaq və xoşbəxtliyin transedent (*dərk edilə bilinməyən şəkildə*) birləşdirilməsi vasitəsilə nail olmaq olar. Ancaq belə əminlik, sözün həqiqi mənasında, *əxlaqla* yox, *dinlə* verilir.

Əxlaq belə əminliyi, aprior və ya empirik mühakimə kimi yox, Tanrının şəxsən mövcud olması haqqında postulat kimi xarakterizə edərək, onun formalaşması şərtlərini əsaslandıra bilər. «Məhz buna görə əxlaq, bizim özümüzü xoşbəxt etmək üçün nə etməli olduğumuz haqqında yox, bizim xoşbəxtliyə necə layiq olduğumuz barədə təlimdir. Yalnız əgər ona din birləşsə, nə vaxtsa bizim xoşbəxtliyə layiq olmaq üçün etdiyimiz şeylər ölçüsündə ona nail olmaq üçün ümid yaranar».

> «*Beləliklə, dəyərlilərin qoyu0nlarla ifadəsi şərti dil kimi çıxış edir və ticarət dilindəki bu qoyun sözü ondan istifadə edənlərin ağlında təkcə qoyun haqqında yox, ən çox istehlak olunan və qoyunun ekvivalenti kimi nəzərdən keçirilən əmtəələrin hər birinin kəmiyyəti haqqında təsəvvürlər yaradır və ifadə son nəticədə real qoyuna nisbətən abstrakt və uydurma dəyərə münasibətdə tətbiq olunur. Buna görə də əgər qoyunlar tələf olsa və bir qoyun əldə etmək üçün iki dəfə çox çörək və ya şərab vermək lazım olsa, onda başqa dəyərlilər haqqında danışaraq alışdığımız ifadəni dəyişməyərək deyəcəyik ki, bir qoyun iki qoyunadır*».
>
> A.Türqo

Ticarət azadlığının inkişafı əsrində azadlığa optimistik inam struktur deontoloji əxlaq elementini yaradır, çünki azadlıq və xoşbəxtliyin yanaşı qoyulması haqqındakı ilkin şərtlər olmadan ticarət və iqtisadi fəaliyyətin əxlaqi motivləşdirilməsi praktiki olaraq ağlasığmazdır. «Görünməz əl» (*A.Smit*) və «ağlın hiyləgərliyi» (*Q.Hegel*) fərdin əxlaqi və iqtisadi fəaliyyətlərini elə vasitə ilə ifadə etməlidir ki, onlarla yanaşı mövcud ola bilsinlər.

Onlar vasitə ilə ifadə etmə mexanizmləri kimi, təkcə bütün ağlasığan yekun vəziyyətlər arasından ən yaxşılarına yox, həm də fərdlərin birgə mövcud olma və fəaliyyət (fərdlərin orqanizmin və ya sosial mexanizmin elementləri kimi çıxış etdikləri fəaliyyətlərdən başqa) göstərmə şərtləri kimi müəyyən qəbildən olan vəziyyətlərə nail olunmasını mümkün edir.

Unversalizm və formalizm əxlaqi və iqtisadi quruluşun maddi cəhətdən müəyyən olunmuş məqsədlərin həyata keçirilməsinə təkamül deyil, ümumi və formal qaydalarla uzlaşmanı tələb edən əlamətləridir. Unversalizm və formalizm bu zaman aşağıdakı mühakimələrlə şərtlənirlər: yalnız formal qaydalar ümumiləşməyə yol verir və ümumi prinsiplər formal hesab oluna bilər. Sözün həqiqi mənasında, yalnız o qaydalar unversallaşmış hesab oluna bilər ki, onların tətbiqi sferası son dərəcə qeyri-

müəyyəndir (formal olaraq verilmişdir), tələblər isə hər bir fərd tərəfindən istənilən situasiyada reallaşdırıla bilər. Əxlaqi planda bu ümumi formal qayda aşağıdakı kimi ifadə oluna bilər: «Qəti imperativi izlə!», iqtisadi planda isə bu aşağıdakı kimi səslənəcəkdir: «Mülkiyyət qaydalarına riayət etmək şərtilə öz məqsədlərini izlə!». Fərdiyyətçi əxlaq və iqtisadiyyat, *İ.Kant* etikasında və *A.Smit* siyasi iqtisadında təsvir edildikləri kimi, öz qaydalarının formalizmi və öz vəzifələrinin unversializmi nöqteyi-nəzərindən oxşardırlar. Həm *Kant*, həm də *Smit* açıqlığın yüksək kriteriyasını, yeni situasiyanı ələ almaq qabiliyyətini və orada yaşamağı öyrənməyi ifadə edir. Onlar fərdlərin ətraf mühitin dəyişən şəraitinə maksimal dərəcədə uyğunlaşmasını fərz edirlər, çünki mənəvi və iqtisadi fəaliyyət və hərəkətlərin qiymətləndirilməsi nəticələrin effektivliyi üzrə kəmiyyət parametrləri və məqsədləri ilə yox, prosesual kriteriyalar və fərdi fəaliyyətin ümumi qaydalara uyğun gəlməsi ilə şərtləşir. Buna görə də *Kant* və *Smit* insan həyatının qeyri-müəyyənliyi və dəyişkənliyi, gələcəyin öncədən söylənilə bilinməməsi probleminin həllinə materialist etikası və maddi rasionallıq iqtisadiyyatının tərəfdarlarına nisbətən daha yaxındırlar. Nə bu, nə də digəri sistemin ümumi və ya son vəziyyətini qiymətləndirmə predmeti və ya kriteriyası hesab etmirlər. Əgər etika və dində əxlaqlılığı və xoşbəxtliliyi tarazlaşdırmağa imkan verən Tanrının mövcud olması postulatı və iqtisadiyyatda və ticarətdə xüsusi və ümumi maraqların qarşılıqlı əlaqələndirilməsinə imkan verən görünməz əl ideyası qəbul edilməmişdirsə, son nəticə hər zaman hər kəs üçün açıq qalır. Lakin insan fəaliyyətinin nəticə açıqlığı ideyasının özü fəlsəfi tənqidin köməyilə əsaslandırılmalıdır.

Bu tənqid bazar iqtisadiyyatı tərəfdarları nöqteyi-nəzərlərini təhlil etməyə imkan yaradır: siyasi hökmüranlıq və dövlət quruluşu bazar və ünsiyyət (diskurs) münasibətləri ilə tamamilə sıxışdırıla bilər. Konsensusa nail olunması üsuallarının hər ikisi ona iddia edir ki, cəmiyyətin *tam inteqrasiyası* bazar şəraitində və ya ünsiyyət vasitəsilə həyata keçirilə bilər. Avstriya iqtisadi məktəbinin *F.Xayek* və *F.Mizes* kimi nümayəndələri cəmiyyəti tələbatların ahəngini və fərdlərin səylərini ifadə edən vahid bazar kimi nəzərdən keçirirlər. Dövlətin yalnız bir vəzifəsi qalır – *mülkiyyət hüququnun qorunması və hər birinin istənilən növ başqa təsirdən mühafizə olunması.* Konsensus nəzəriyyəçiləri, misal üçün, *Y.Xabermas*, əksinə, dövlət quruluşunun siyasi-hakimiyyət elementinin yerinə ünsiyyət vasitəsilə nail olunmuş qərarı qoyurlar. Bazarın razılaşma versiyasının nümayəndəsi

olan *C.Byukenen* bazarı xüsusi nemətlərə və ictimai nemətlərin yaradılması zamanı razılıq (konsensus) üzrə qərar qəbulu institutu kimi nəzərdən keçirərək hər iki yanaşmanı birləşdirməyə cəhd göstərir. Hər iki halda ideal nümunəvi qərar fərdlərin tərcihlərindən çıxış edərək qəbul olunur. Siyasi hakimiyyət tərəfindən qəbul olunmuş ayrıca fərdin iradəsinə zidd olan qərara yer vermək olmaz. Fərd məsrəf və xərclərə qənaət etməyi düşünərək razılıqdan imtina edə bilər, ancaq siyasət kollektiv fəaliyyətlər üçün fərdi tərcihlərin razılaşdırılması prosesi olaraq qalır. Siyasət – koordinasiya problemidir. Dövlət, iqtisadiyyatdan fərqli olaraq, şəxsi formalaşdırıcı potensiala malik deyildir. Siyasət, gələcək üzrə qərar şərtləri kimi, *konsensusun əvvəlcədən düşünülməsindən yox, faktiki konsensusun yaradılmasından ibarətdir*. Buna görə də *C.Byukenen* dövlətin heç bir formalaşdıran funksiyasını qəbul edə bilmir. Dövlət, yaradıcı kimi, özünün istənilən fəaliyyətində hər kəsin razılığını təmin etməlidir[36]. Lakin *C.Byukenen* hökmüranlığı dövlətin zəruri elementi hesab etməyə məcburdur. Mülkiyyət hüquqlarına bu hüquqları həyata keçirən mərkəzi instansiya tərəfindən zəmanət verilməlidir, çünki fərdlər «müttəhimlər dilemmasına» (bu zaman hər kəs arzu edir ki, qaydalar şəxsi faydaya nail olunması üçün mövcud olsunlar və eyni zamanda bu qaydaları pozmağa çalışırlar) istinad edərək xüsusi mülkiyyət qaydalarına riayət edilməsi situasiyasında fəaliyyət göstərirlər. Dövlət – xüsusi mülkiyyət maraqlarına zəmanət verən müdafiəçi, hökmüranlığın qalıq anına yol verir. Məhz bu an sayəsində merkantilizm inkişaf edə bilmiş, proteksionizm qurulmuş və azad ticarət formalaşmışdır.

Merkantilizm əsrində dövlətin «*razılaşmalara riayət olunmalıdır*» postulatının zəmanətçisi kimi çıxış etməsi *Q.Hobbs* üçün adi (bayağı) bir şey idi. Lakin *Y.Xabermas* tərəfindən formalaşdırılmış hökmüranlıqdan azad olan və cəmiyyətin ünsiyyətinə (diskursa) əsaslanan ideal burada öz sərhədlərini tapır, çünki bu cəmiyyətdə də uzlaşma nəticəsində nail olunmuş şeyi həyata keçirməlidir. Hər biri müəyyən olunmuş davranış normaları çərçivəsində «biletsiz sərnişin» olmağa çalışan ünsiyyət iştirakçılarını onların özləri tərəfindən yaradılmış normalara riayət etməyə necə vadar etmək olar? Bu «müttəhimlər dilemması» *T.Hobbsun* «insan təbiətinin iki ən şübhəsiz tələbi»[37], mülkiyyətə və hakimiyyətə səy göstərilməsi üzrə təbii tələbatlar, təbii ağıl və insanın, yalnız başqa fərdlərlə birləşərək öz vəziyyətini yaxşılaşdıra biləcəyini dərk etməsi haqqındakı müddəasını

> «*Bazar – törəmə özütəşkilatdır, amma elə törəmədir ki, ilkin təşkilatları özünə tabe etmək qabiliyyətinə malikidir. Belə çıxır ki, bazar təsərrüfatçılıq edən özütəşkilatıdır. Subyekt kimi yox, subyektlərin qarşılıqlı fəaliyyəti, ictimai təşkilati proses kimi təsərrüfatçılıq edən subyektlərin təsərrüfat birliyini yaradar və bununla da dünyaya təsərrüfatçılıq edən birlik əmələ gətirir. Bazar təsərrüfatçılıq edir. Bazarın təsərrüfat fəaliyyəti ilə məşğul olması mikro və mezotəşkilatları, onların qarşılıqlı əlaqələrini nizamlamaq, bütün ictimai təsərrüfatın saxlanması və təkrar istehsalı məqsədini güdür. Əgər rəqib-subyekt iqtisadi eqo-maksimuma nail olmağa səy göstərirsə, onda bazar iqtisadi unio-optimuma səy göstərir*».
>
> Y.M.Osipov

(fikrini) xatırladır. İnsan bilir ki, birlik zəruri və sərfəlidir, lakin eyni zamanda bu birlikdən öz şəxsi məqsədləri üçün istifadə etmək istəyir. Göstərilən dilemma insanın, burjuaziya cəmiyyətinin üzvü kimi, xüsusilə pis və ya zalım olması faktını təsdiqləmir; o, sadəcə olaraq, artıq *Platona* məlum olan, insanın fərdiləşdirilməsi nəticəsi kimi xudbinlik (eqoizm) və ümumi idarənin üst-üstə düşməməsi (və ya *Avqustinin* sözləri ilə desək, amor sui a amor Dei – özünə məhəbbət və Tanrıya məhəbbət) faktını yada salır, əgər burada ikiləşmə, dövlətdən uzaqlaşma baş versə bunda işlərin elə vəziyyəti ifadə olunacaqdır ki, bu da *Avqustinin* təlimində insanın günahkar təbiətli olması nəticəsində dövlətin əmələ gəlməsinin dini-mifoloji versiyası kimi göstərilir.

Əgər dövlətin hüquq-mühafizə funksiyalarının və onun ifrat və liberallar, *F.Xayek və İ.Kant*, həmçinin eynilə *Q.Hobbs və C.Byukenen* arasında birləşdirici-hakimiyyət başçılığının zəruriliyi haqqında fikirlərin tam vahidliyi mövcuddursa, onda dövlətin funksiyalarının genişləndirilməsinə haqq qazandırılması problemi və ondan çıxan məcburiyyətlər mübahisəlidir. Qeyd edək ki, mərkəzi distansiyanın (qərarı həyata keçirən və bu həyata keçirməni idarə edən) zəruriliyi yalnız o zaman mənasını itirir ki, məhdud istehlak limiti sərhədlərindən çıxış mümkündür. Əgər qeyri-məhdud sayda əmtəə, nemət və xidmətlər varsa, onda xüsusi və ümumi iradə arasında fərq də olmur: dövlət lazımsız olur. Ancaq bu gün də məhdud istehlakın aradan qaldırılması kifayət qədər çətin məsələ olaraq qalmaqdadır.

Dövlətin hakimiyyət funksiyalarının genişləndirilməsinin zəruriliyinin qəbul olunması, hər şeydən əvvəl, bölüşdürmə problemi ilə bağlıdır. «İstehsaledici» (yaradıcı) dövlət vəzifələri (ictimai təsisatlar, yolların tikintisi və s.) sahəsi ümumiyyətlə tam konsensus əsasında qəbul olunan qərarları nəzərdə tutur, çünki bu nemətlərin ictimai istehsalının iqtisadi faydası az və ya çox dərəcədə fərdə aydındır, bu ictimai nemətləri o, özü də istehlak edir. *Bölüşdürmə problemi* ilə iş isə başqa cürdür.

*İ.Kant* öz dövründə hüququn ümumiliyi ideyası ilə bir araya sığmayan nemət, prinsipial olaraq, dövlət məcburiyyətinə qarşı çıxış edirdi. Ümumi maddi rifah dövləti hüquqi dövlət idealına ziddir. *F.Xayek* bu problemi inkar edir, çünki bölüşdürməni uğurun, bacarığın və bəxtin qarşılıqlı fəaliyyət göstərdiyi oyunun nəticəsi kimi nəzərdən keçirir. Lakin o, tələb edir ki, bu oyunun nəticələri səlahiyyətli hesab olunsunlar. Bundan başqa, *F.Xayek* konsepsiyasında bölüşdürmənin təkamül xarakterinin məqsədi üzrə belə bir fikir mövcuddur ki, görünməz əl bölüşdürməyə ən yaxşı şəkildə kömək edir. *C.Byukenen* öz nəzəri dəlillərinin milli iqtisadiyyatın Avstriya məktəbinin postulatları ilə yaxınlığına baxmayaraq, bölüşdürmə məsələlərinin məcburiyyət olmadan, razılaşma əsasında həll oluna biləcəyinə ümid bəsləyərək, görünməz əlin[39] təkamül-optimistik ideyasını rədd edir. Gözüaçıq olduqlarına və ya inqilabdan qorxduqlarına görə mülkiyyətçilər məcburiyyətdən azad olan yenidən bölüşdürməyə müraciət edəcəklər. Bu, *C.Byukenenin* fikrincə, *Pareto* prinsipi ilə yenidən bölüşdürməni şərtləndirir. Bu prinsipə görə, heç kim üçün pis olmayacaq, amma bəziləri üçün daha yaxşı olacaq, çünki varlılar yenidən bölüşdürmədən faydalanacaqlar. İndi sübut etmək olar ki, *yenidən bölüşdürmənin azad sxemi* dövlətin yenidən bölüşdürmə tədbirləri ilə müqayisədə kifayət qədər optimal deyil, çünki bu halda da «müttəhimlər dileamması» mövcuddur. Əgər başqaları verirsə, bir çoxları da verməyə və əgər onlar yeganə müvəffəqiyyətli olanlardırsa, öz maddi rifahlarını azaltmağa hazırdırlar. Paretonun optimal olması və ya konsensusa əsaslanan yenidən bölüşdürmənin kifayət olması və hansı bölüşdürmənin ədalətli olması haqqında sual bölüşdürmə üsulunun effektivliyi haqqında sualın sərhədlərindən kənara çıxır.

Birinci sualın cavabını tarix özü verə bilər. Dövlət oriyentasiyalı cəmiyyətin ortaya çıxması anından sonra dövlətin əsas vəzifəsi yenidən bölüşdürmə olmuşdur, çünki aydındır ki, könüllü, xüsusi bölüşdürmə kifayət etməmişdir. Dövlətə məxsus olan yenidən bölüşdürmə çox halda

onun meydana çıxmasının səbəbi olmuşdur. Qeyri-adi qabiliyyətlərə, xoş xasiyyətə, ağıla, gözəlliyə, fiziki qüvvəyə və ya sadəcə olaraq bəxtə malik olan insanın ədalətli məhkəməni və ədalətli bölüşdürməni həyata keçirən böyük şəxsiyyətə çevrildiyi sosiumun nəhənglər («biqmenlər») cəmiyyətinə, sivilizasiyalı birliyə doğru təkamülü prosesində yenidən bölüşdürmə problemi dövlətin meydana çıxmasında həlledici rol oynadı. Bürokratiya təkcə yenidən bölüşdürmə vasitəsilə stabilləşmirdi, o, əksərən elə yenidən bölüşdürmə üçün ortaya çıxırdı. Dövlət – «mərkəzləşdirilmiş və ekspansiyanı həyata keçirən siyasi təşkilat formasının yaranması «biqmenlərin» yerdə qalanların xidmətləri sayəsində nail olunmuş öz sosial əhəmiyyətliliklərini öz yoldaşları üzərində hökmüranlıq etmək üçün adi istifadə etmək cəhdlərindən başlamışdır»[41]. Çünki iqtisadi qeyri-bərabərlik və siyasi hökmüranlıq münasibətləri elə səbəb və nəticə münasibətləridir, lakin, əksinə, iqtisadi fərqlər dövlətin meydana çıxmasının nəticəsidir, dövlət ondan əvvəl meydana çıxan mülkiyyət münasibətlərinin zəmanətçisi kimi yox, «dövlətin özü tərəfindən təsdiqlənən mülkiyyətin yenidən bölüşdürülməsi» məqsədilə yaradılır.

Bəs hansı yenidən bölüşdürmə forması ədalətli hesab oluna bilər? *C.Roulsun* ədalətlilik konsepsiyası və *R.Notsikin* ədalətlilik üzrə hüquq ideyası bu suala cavab verməyə çalışır. *Rouls* fərdlərə əvvəldən ağıllı və azad varlıqlar kimi bərabərlik situasiyasında birləşməyə imkan verən bölüşdürmə prinsipi təklif edir. Bu birlik daxilində fərdlər öz təbii qabiliyyət və xəbərdarlıq dərəcələrindən çıxış edərək öz gələcək sosial vəziyyətləri üzrə qərar qəbul edirlər. *Roulsun* fikrincə, onlar diferensiasiya prinsipinə üz tutacaqlar: sosial və iqtisadi fərqləri elə tənzimləmək olar ki, onlara) minimal yardım zamanı ən böyük üstünlük gətirsin; b) imkanların bərabərliyi nöqteyi-nəzərindən açıq olan vəzifə və mövqelərlə bağlı olsunlar. *Roulsun* prinsipindən istifadə olunmasının çətinliyi göz qabağındadır. Bir tərəfdən, o öz nəzəriyyəsini müstəsna olaraq eqalitar kimi, digər tərəfdən, status-kvonun saxlanılmasına oriyentasiya edən və yenidən bölüşdürmənin imkanlarını həddən artıq məhdudlaşdıran xalis konservativ kimi şərh etməyə imkan verir. Ən az yardım göstərilən qrupları necə müəyyən etmək olar? Ən az yardım göstərilənlər üçün ən yaxşı perspektivlər nə deməkdir? Digər tərəfdən: niyə fərd öz gələcək sosial statusunu bilməməkdə bağlı hansısa abstrakt konstruksiyanın qaydalarına riayət etməli və bu qaydalar içərisindən hansısa müsbət normaları götürməlidir? Ola bilsin ki,

diferensiasiya prinsipi dövlət məcburiyyətini əsaslandırmağa qadirdir, lakin o, ağıllı fərdlərin faktiki konsensusu vasitəsilə yenidən bölüşdürmənin ən yüksək anını əvəz etmək iqtidarında deyildir. O həmçinin dövlət fəaliyyətini könüllü yenidən bölüşdürmə ilə əvəz edə də bilməz. *Roulsun* qaydaları faktiki konsensusun reallıqlarına tətbiq oluna bilməz, onlar yalnız onun ideal modeli çərçivəsində fəaliyyət göstərirlər.

Əxlaqın əsasları nöqteyi-nəzərindən, heç kimi öz iradəsinə zidd olaraq məcbur etmək olmaz, buna görə də dövlətə geniş bölüşdürmə direksiyaları verilməsi nöqteyi-nəzərindən polemika (mübahisə) yaranır. Sual ondan ibarətdir ki, hansı bölüşdürmə ədalətlidir və dövlətin belə bölüşdürməni həyata keçirməyə haqqı varmı? Ümumiyyətlə, muzdlu əmək (bizim yuxarıda haqqında danışdığımız) əsasında mövcud olan bazar iqtisadiyyatı şəraitində «ədalətli» bölüşdürmə problemi nə dərəcədə yol veriləndir? Kiminsə «uşaqlara tort dilimləri verməsi və son anda pis bölünmüş (kəsilmiş) olanlara əl gəzdirməsinə» oxşar bölüşdürmənin həyata keçirilməsini tənqid edən nöqteyi-nəzərlə razılaşmaq olar. Bu o deməkdir ki, bütün yardım mənbələrini nəzarətdə saxlamaq və onun necə bölüşdürülüləcəyinə qərar vermək hüququna malik olan şəxslərin və ya şəxslər qrupunun mövcud olması qəbul olunur. Aydındır ki, belə situasiyada heç bir az-azacıq məsuliyyətli fəaliyyət mümkün deyildir. O faktı yüksək dərəcədə nəzərə almaq lazımdır ki, bölüşdürmənin həyata keçirilməsinə istiqamətlənmiş bütün tədbirlər ədalətli olardılar. Hər şeydən əvvəl, bölüşdürmənin tarixi əsaslandırılması reallaşdırılmalıdır: bölüşdürmə ədalətli şəkildə həyata keçirilməlidir. Bu nəzəriyyəyə görə, bölüşdürmənin bu və ya başqa sxem üzrə həyata keçirilib-keçirilmədiyini soruşmaq olmaz; bu və ya digər fərdin malik olduğu şey üzrə iddiasının nə qədər olması və bu yenidən bölüşdürülmənin nəticələri ədalətli olacaqmı sualını vermək lazımdır[44]. Əsas odur ki, sonuncu, təkcə dövlət strukturları vasitəsilə yox, həm də bu prosesi qanuniləşdirən ticarət sistemi vasitəsilə reallaşdırılır.

Bütün mümkün ticarət-iqtisadi üsullarla əldə edilmiş mülkiyyətə ədalətli sahib olma kriteriyaları kimi aşağıdakı müddəaları hesab etmək olar:

- ədalətli mənimsəmə normaları ilə mülkiyyətə sahib olan şəxs bu mülkiyyət üzrə sahiblik hüququna malikdir;
- bu mülkiyyəti onun üzrə sahiblik hüququna malik olan şəxsdən ədalətli ötürmə normaları ilə əldə etmiş şəxs də həmin mülkiyyətə sahiblik

hüququna malikdir. Birinci və ikinci hallardakı iradlar aşağıdakı qaydalara əsaslanır.

Bu qaydalar, artıq qeyd etdiyimiz kimi, ağılla təyin olunur. Bu qaydalara bəşəriyyətin ən görkəmli zəkaları, o cümlədən pul, əmtəə, dəyər və əlbəttə, ticarəti tədqiq edərək ekonomizin qələbəsinin qaçılmazlığını öncədən görmüş insanlar inanmışdır. Təsərrüfat həyatının bütün bu fenomenləri azadlıq şəraitində mövcud ola bilərdilər. Ancaq, əgər azadlıq ağıl tərəfindən ilkin olaraq müstəqil kimi nəzərdən keçirilə bilirsə, onda ola bilərmi ki, digər tərəfdən, onu təfəkkürdə mövcud olduğu məntiqi ciddiyyətlə həyata keçirmək mümkün olsun. Əgər həqiqi dünya məntiqi ağıl, xalis efir olsaydı, əgər ideyalar müqavimətlərə və azdırılmalara məruz qalmasaydılar, bu mümkün olardı; lakin həqiqi dünyada təmiz bir şey yoxdur; Bu, sonsuz maraq və ehtiraslar burulğanında mövcud olan sahədir. Azadlığın belə dünya ilə keçinə bilməsi üçün onu müdafiə edən xüsusi quruluş (qanun) yaratmaq lazımdır: onu hər dəqiqə, birinin toxunması ona ləkələməyə kifayət edən minlərlə natəmiz toxunmalardan (əlaqələrdən), birinin gücü onu yıxmağa kifayət edən minlərlə zərbələrdən qorumaq lazımdır. Bəs azad ticarət sisteminin tərəfdarları nə edirlər? Onlar belə bir ağlasığmaz (dərkedilməz) fərziyyə ilə çıxış edirlər ki, dünyada ehtiraslar yoxdur və olmayacaqdır və rəngarəng maraqlar nəinki onu ayrı-ayrı ölkələrə bölüşdürür, həm də sonuncunu bir tam halında birləşdirir. Onlar öz romantik təsəvvürləri ilə Yer kürəsini daima yaxına qarşı məhəbəbbət və həqiqətin hökmüranlıq etdiyi bir cənnətə çevirirlər və dünyada azadlığın tez zamanda həyata keçirilməsi üçün onlar təsəvvür edirlər ki, dünya özünün bütün həqiqiliyini itirmişdir!

Bu qeydlər bizi həddən artıq uzağa apara bilər. Təkcə onu göstərmək kifayətdir ki, istənilən elmli ziyalı yerdə qalan hər şeyi başa düşsün. *M.Monteskyönün* dediyi kimi, «Məsələ oxumaqda deyil, düşünməyə məcbur etməkdədir». Bizim predmetin öz mahiyyəti ilə məhdudlaşaraq qeyd edək ki, azad ticarət sisteminin tərəfdarları öz təlimlərinin insanların ticarət həyatının idealı olduğunu nəzərdə tutduqları zaman, təkcə söz qarışılıqlığına yox, həm də ideya ziddiyyətliliyinə yol verirlər – azad ticarət sistemi nə xalqların ticarətinin idealı deyil, nə də belə ifadə hətta mənaya belə malik deyildir. Azad ticarət sistemi nəinki ticarəti öz idealını, yəni azadlığı həyata keçirməyə aparmır, əksinə, onun bu ideala nail olunmasının bütün

*«Bazarın mövcud parametrlərini götürək – qiymət, tələb və təklif. Onların bazara məxsusluğu şübhə doğurmur. Elə bir bazar nəzəriyyəsi yoxdur ki, bu parmetrlərə fəxri yer verməsin, eyni zamanda elə bazar təcrübəsi yoxdur ki, qiymət, tələb və təklifdən istifadə etməsin. Qeyd etmək lazımdır ki, biz də nə bu parametrləri, nə də onların bazara məxsusluğunu inkar etmirik. Amma biz yalnız onların bazara məxsusluğu xarakteristikası ilə məhdudlaşmırıq. Bizim yanaşmaya görə, göstərilən parametrlər təkcə bazar yox, həm də qeyri-bazar, misal üçün, təkrar istehsal xarakterlidirlər. Subyektlər kimi, qeyd edilən parametrlər də əvvəlcə qeyri-bazar (onlar təkrar istehsalın dərinliklərində doğulurlar, bu dərinliklərdən yüksəlirlər və bazar mühitinə çıxırlar), daha sonra isə bazar xarakterli olurlar (bazar mühitində olur, bazar oyununda iştirak edirlər*)».

Y.M.Osipov

vasitələrini əlindən alır. Məhz bu an mülkiyyətə ədalətli sahib olma meyarlarına şübhə gətirir.

*K.Quro* özünün ticarət haqqındakı fikirlərində eqoizm haqqında, xalqlar arasında düşmənçilik salan, qarşılıqlı paxıllıq və münaqişələr yaradan, bölüşdürmə normalarını və mülkiyyətə sahiblik hüququnu hər zaman pozan səbəb kimi danışır[45]. Belə vəziyyətlərdə məgər bazarın və ticarətin idarə olunmasının hüquqi şərtləri ədalətlilik nəzəriyyəsinin postulatları kimi çıxış edə bilərmi?

Bu istiqamətin nümayəndəsi *R.Notsik* bazar proses və mexanizmlərinin əmək, nailiyyət və uğurla şərtləşən fəaliyyətlərinin real nəticələrini əxlaqi fəaliyyətin nəticələrinə çevirir, o, ədalətliliyi bazarda xüsusi hüquq qanunları ilə həyata keçirilən hər şeylə eyniləşdirir. Bu zaman status-kvonun istənilən böhran və normativ qavrayışı itirilir. Belə ədalətlilik nəzəriyyəsi iqtisadi qanunları mütləq etika normasına ucaldan tənqidə layiqdir[46].

Lakin mütləq etika - utopiyadır, çünki artıq adı çəkilən eqoizmi nəzərə almaq lazımdır. *Q.Quro* qeyd edirdi ki, azad ticarət tərəfdarları bəşəriyyəti bu mükəmməl olmayan və ya başqa cür desək, mədəniyyətlə barbarlıq arasında mövcud olan vəziyyətdən çıxarmaq istəyirlər. Həm adətlərin yumşaldılması, həm də maarıfləndirmənin uğurlu olması üçün faydalı olan vətənpərvərlik ruhu hazırda həm buna, həm də digərinə yalnız maneçilik törədir. Onlar bu ruhu məhv etməyi və bunun üçün də məhv etməyə milli ticarətin, yəni siyasi milliyətin əsasından başlamağı təklif edirlər. Bu təqdirdə, onlar maariflənməni yüksəldəcəklər. Dünyanı bu

qədər uzun müddətdir ki, ayıran merkantil paxıllıq ruhu onlar tərəfindən gömrüyün yavaş-yavaş məhv edilməsi ilə, bütün xalqları yaxınlaşdıracaq və bir cəmiyyət halında və ya başqa cür desək, bir ailə halında birləşdirəcək qardaşlıq ruhu ilə əvəz olunacaqdır. Bütün xalqlar qardaş olacaq və o vaxtdan başlayaraq daimi və hər yerdə olan sülh zənciri ilə bağlanmış nəhəng xalqlar cəmiyyəti formalaşdıracaqdır. Artıq gömrük, ayrı-ayrı ölkələr və ya milli dövlətlər olmayacaqdır! Xalqlar, qucaqlaşın və müqəddəs ittifaq yaradsın! Təsirli arzular, şirin və xeyirxah hisslər! Onlar zərif və geniş ürəkləri heyran etməli idi. Azad ticarət sistemi bunda özü üçün ən alovlu şəfqət mənbəyi və ən acı şöhrəti tapmışdır. Bəs bu sözlər nə qədər ədalətlidir?

Təlim real olaraq qəbul olunmaq üçün təkcə tam xoşbəxtlik vəd etməməlidir. Acı təcrübə bizə ehtiyatlı olmağı öyrədir. Hazırda arzular qrupuna aid edilən və ya özündən sonra yalnız böyük yanılmaları qoyan çoxlu sayda sistemlər də bir vaxtlar hamının diqqətini qızıl əsr vəd etməklə cəlb edirdilər! Tam xoşbəxtlik haqqında xəyal etmək çox asandır, amma ən kiçik bir səadəti belə həyata keçirmək nə qədər çətindir! Azad ticarətin mühafizəçiləri bizi cəlb etmək üçün bütün dəlilləri tükəndirərək, nəhayət tam bir parlaq ideyalar qatarı irəli sürürlər. Lakin təsəvvür bu görünüşə alüdə olsa da sağlam ağlı cəlb etmək o qədər də asan deyil; ən gözəl ideologiya da əgər həqiqəti təhrif edirsə və təbiətin qanunlarını ələ salırsa, heç bir gücə malik deyildir[47].

Ticarət və bazar iqtisadi proseslərinin nəticələri üçün hər zaman böyük rol oynamış təsadüfiliyi də nəzərə almaq lazımdır. Qeyd edək ki, gəlirlərin artımı və bölüşdürülməsini şərtləndirən amil kimi, təsadüfün və ya təsadüfiliyin rolunu *Olçien* xüsusi olaraq öyrənmişdir. Onun fikrincə, təsadüf bazar iqtisadiyyatında və ticarətdə gəlirlərin bölüşdürülməsinin başlıca prinsiplərindən biridir, çünki maksimal mənfəət gətirən istehsalda iştirak etmək təsadüfdən, uğurdan asılıdır. «Mənfəət öz rəqibinə nisbətən daha kasıb olan üçün daha sürətlə artır; bu zaman rəqabət aparan tərəflərdən hansının cahil, hansının aqil, hansının məharətli olmasının… əhəmiyyəti yoxdur. Qeyri-müəyyənliyin miqyasları – məhz bu kəmiyyət hər bir faydanın risk və xoşbəxtliklə müşayiət olunduğunun, habelə mənfəət uğrunda yarış zamanı uğurun fərdi keyfiyyətlərə (ağıl, dəqiqlik, faktları təhlil etmək bacarığı) nisbətən daha vacib olduğunun ilkin şərtidir»[48]. Əlbəttə ki, bu aspektdə hər hansı ümumi, abstrakt mühakimələrə bel bağlamaq çox çətindir. İqtisadi (ticarət) proseslərin nəticələri

ədalətlilik anlayışı nöqteyi-nəzərindən indifferent (bitərəf) olaraq nəzərdən keçirilməlidir. Bir halda ki, istənilən mülkiyyət *investisiya*, *miras* və *bəxt* kimi üç mənbədən yaranır və bu mənbələrdən yalnız birincisi «ədalətli» xarakteristikasına uyğun gəldiyi, ikincisi qanunauyğun olduğu, üçüncüsü isə ədalətlilik və hüquq normalarına birbaşa əks olduğu üçün hər üç mənbəni ədalətli yox, daha çox «ədalətsiz» adlandırmaq olar.

> *«Bazar rəqabət olmadan, rəqabət isə bazar olmadan reallaşdırıla bilməz və bu, bazar və rəqabətin maraqları birbaşa üst-üstə düşməsə də belədir. Ancaq rəqabət bazara həyat verir, bazar isə rəqabəti həyati şəkildə qaydaya salır.*
>
> *Rəqabət bazarı yaradır və onu özü üçün adekvat reallaşma mühiti kimi nəzərdə tutur. Bazar rəqabətlə qidalanır və onu özünün adekvat əsaslanma elementi hesab edir.*
>
> *İqtisadi subyekt bazarda sadəcə olaraq rəqabət aparmır, o bazarla da rəqabət aparır. Bazar isə rəqabəti nizamlayaraq hər bir iqtisadi subyektlə rəqabət aparır. Bazar rəqabəti – xüsusi ictimai rəqabətdir. O, ictimai təsərrüfat təkrar istehsalı çərçivəsində xüsusi rəqabətlərin nizama salınması uğrunda rəqabət aparır. Bazar, rəqabətlərlə rəqabət apararaq, daimi olaraq təkrar istehsalın nizama salınması variantlarını seçərək özü ilə də rəqabət aparır».*
>
> V.S.Sizov

Bu əkslik rəqabətlə tarazlaşır həm iki gücün görüşməsindən və bir-birinə qarşı qoyulmasından yaranan mübarizə ideyasını, həm də bir məqsədə nail olmağa səy göstərərək bir-birinə əks təsir göstərən iki gücün razılığa gəlməsi ideyasını formalaşdırır.

Rəqabətin bu tərkib elementləri aydındır; lakin bu zaman zəruriliyi az hiss olunmayan daha bir şərt də mövcuddur. Bu, ondan ibarətdir ki, qarşı-qarşıya qoylmuş güclər toqquşmaya tab gətirə bilərdilər, ona görə də bərabər olardılar. Əgər biri digərindən daha böyükdürsə, onda o, digərini yıxacaq, məhv edəcək və yarış faydası itəcəkdir: rəqabətin məqsədi güclərin toqquşması deyil, bu sadəcə olaraq vasitədir, onun məqsədi onların qarşılıqlı tarazlanmasıdır. Burada bütün dünyanı, həm əxlaqi, həm də fiziki dünyanı idarə edən böyük tarazlıq və ya balans qanunu yaranır. Bu qanuna riayət etmədən nə əxlaqi dünyada qayda-qanun, nə də fiziki dünyada azadlıq vardır. Xalqların ticarəti, insan fəaliyyətinin istənilən başqa fəaliyyət təzahürləri kimi, bu qanuna tabe olduqda azaddır. Əgər bu zaman

fəaliyyətə gələn qüvvələr tam tarazlaşmırlarsa, onda onun azadlığı məhv olur. Bəs ticarətdə rəqabət aparan bu qüvvələr hansılardır? Bunlar millətlərdir. Beləliklə xarici ticarət azadlığının ürəyi olan millətlərin rəqabəti, əgər onların kommersiya qüdrəti qarşılıqlı tarazlaşmırsa, qurula bilmir. Buna isə yalnız iki fərziyyədən birini qəbul etməklə yol vermək olar: ya bir-birilə rəqabət aparan millətlərin gücü artıq təbiət tərəfindən tarazlanmışdır, ya da bu süni yolla həyata keçirilmişdir. Çünki aydındır ki, əgər dünya bazarında xalqların güc mənbəyini təşkil edən onların var-dövləti bərabər deyildirsə, onda rəqabət mövcud ola bilməz və azadlıq öz yerini inhisar və quldarlığa verərək, zəif şölə saçıb sönəcəkdir. Beləliklə, xalqların iqtisadi qüdrətinin tarazlığı ticarət azadlığının yaranması və mövcud olmasının son şərtidir, çünki bərabər mübarizə imkanı ilə birlikdə rəqabət imkanı yalnız tarazlıqdan asılıdır, tarixin və ağlın (idrakın) gəldiyi nəticəyə görə «ticarət azad ola bilməz» (*Q.Quro*). Ədalətlilik və ədalətsizliyin vahidliyi görünür ki, bunda ifadə olunacaqdır.

Bazar və azad ticarət nəzəriyyəsi (hüquqi və iqtisadi qaydalar çərçivəsində bazar mübadiləsinin nəticəsi kimi çıxış edən gəlirlərin bölüşdürülməsini aprior ədalətli kimi nəzərdən keçirən) iqtisadi prosesin hər bir mərhələsində hansısa yekun ədalətli vəziyyətə nail olmanı axtaran nəzəriyyə nisbətən daha abstraktdır. Siyasi problem «baisser-faire» prinsipinin, yəni sosial məqsədlərə nail olunması üzrə xalis proses və prinsipin ifadə edilməsindən ibarətdir. Dövlətin vəzifəsi bazar azadlığını, ticarət azadlığını, xüsusi mülkiyyət hüququnu təmin etməkdən və bölüşdürmə zamanı heç kim tərəfindən ədalətli kimi qiymətləndirilə bilinməyən nəticə və situasiyaların meydana çıxmasına mane olmaqdan ibarətdir. Dövlət sosial ədaləti nə ədalətliliyin həyata keçirilməsinin xalis prosesi, nə də yekun nəticə kimi şərh edə (məna verə) bilməz[49]. Nəzərə almaq lazımdır ki, müasir sivilizasiyada mövcudluğu mümkün olan ən azad iqtisadi qayda aşağıdakıları tələb edir: a) azad bazar strukturundan uzaqlaşmağa yol verməyən geniş və müfəssəl qanunvericilik; b) cəmiyyətin maksimal olaraq tamamilə xalis iqtisadi nəzəriyyə əsasında modelləşdirilən konkret bazara yaxınlaşan, müstəsna olaraq fərdi mübadilə əsasında təşkil olunduğu zaman situasiyaların yolverilməz nəticələrinin qarşısının alınması üçün bütün güc və resurslardan istifadə olunması[50]. Buradan, azad ticarət modeli, bazar cəmiyyəti modeli və s. çıxır.

Ancaq bu, o demək deyildir ki, siyasi problemlər nə müdaxilə və məcburiyyət kateqoriyalarında, nə də konsensus anlayışının köməyilə izah oluna bilinmir, bölüşdürmə problemi isə mütənasiblik və tələbkarlıq prinsiplərinə əsaslanaraq həll olunmalıdır. Qərəzli siyasi element bölüşdürmə probleminin həlli zamanı ağıllı fərdlər arasında mümkün konsensusun qabaqcadan duyulmasını, lakin faktiki konsensusun həyata keçirilməməsini nəzərdə tutur, çünki sonuncu, əgər məcburiyyətdən həqiqətən azaddırsa, bölüşdürmə probleminə münasibətdə hər zaman kifayət qədər optimal olmur. Ədalətliliyin siyasi problemi sadəcə olaraq bölüşdürmə qaydalarının həyata keçirilməsi səviyyəsinə endirilə bilməz, amma mütənasiblik və qanunauyğunluq üzrə iradların düzəldilməsini əks etdirə bilər. Bu, ədalətliliyin normativ analayışından onun tarazlıq, siyasətin Platon-Aristotel fəlsəfəsindəki harmoniya kimi şərh olunmasına gətirib çıxarır. Bütün klassik iqtisadi nəzəriyyələr, o cümlədən azad ticarət nəzəriyyəsi bu nəzəriyyə əsasında qurulmuşdur.

Bazar iqtisadiyyatının, azad ticarətin və xüsusi mülkiyyətin bütün konsepsiyaları ictimai harmoniya üzərində qurulur. Lakin istehsal və bazar bölünmənin qarşısını ala bilmir. Tamamilə siyasətsizləşdirilmiş cəmiyyət – fantaziyadır, çünki mülkiyyət bazarın daimi ilkin şərti və eyni zamanda bölünmə və mənimsəmədən əvvəl gələn nəticəsidir. Hətta əgər ilkin bölüşdürmə ədalətliliyin tələblərinə uyğun gəlsə də, bu praktiki olaraq bəşər tarixində baş verməmişdir, müəyyən vaxtdan sonra iqtisadi fəaliyyət proseslərində uğur, miras və bəxt nəticəsində meydana çıxan mülkiyyət və sahiblik münasibətlərinin ədalətli bölüşdürülməsi üzrə siyasi problem ortaya çıxır. Tamamilə iqtisadiləşdirilmiş və mənəviləşdirilmiş dövlətsiz cəmiyyət mövcud ola bilməz, çünki nəinki xüsusi mülkiyyət hüquqlarının təsdiqlənməsi və həyata keçirilməsi, bölüşdürmə də məlum anlamda siyasi problem kimi mövcud olmaqda davam edir. Onun həllinə nə iqtisadi, nə də əxlaqi vasitələrlə nail olunmur; onlar ictimai sistemdə siyasi yer tuta bilmirlər[53].

Tamamilə əxlaq qanunlarına tabe olan dünyanın mövcud olması qeyri-mümkündür: insanın *əxlaq* və *fayda* kimi ikiləşməsi anından ümumi və fərdi iradə eynilik təşkil etmir. Tam iqtisadiləşdirilmiş dünyanın mövcudluğu da az ehtimallıdır: *iqtisadi insanın* (homo economics) xudbin (eqoist) niyyətləri sosial tarazlığın formalaşmasına imkan vermir, klassik siyasi iqtisad isə bunu hər vəchlə gizlətməyə çalışırdı. Bazar iqtisadiyyatı cəmiyyətinin, azad ticarət sisteminin daimi təkmilləşdirilməsi prosesi, cəmiyyət və dövlətin, şəxsin və cəmiyyətin (mənəvi və əxlaqi), dualizmini tarazlaşdırmağa səy göstərən yeni ədalətlilik konsepsiyalarının yaradılması bununla əlaqədardır.

## ƏDƏBİYYAT

[1] *Замошкин Ю.А.* Частная жизнь, частный интерес, частная собственность // Вопросы философии.-1991. -№ 1. - С.4.

[2] Faulkner W. On Privacy: The American Dream. What Happened to It. – In: The Borzoi College Reader. Ed. Ch. Muscatione and M. Yriffith. N.Y., 1966

[3] Экономическое мышление: философсикие предпосылки. – М., 2005. С. 114.

[4] *Осипов Ю.М.* Фиолософия хозяйства. – М., 2001. – С. 184

[5] *Замошкин Ю.А.* Частная жизнь, частный интерес, частная собственность. - С.4.

[6] *Козловский П.* Общество и государство: неизбежный дуализм. – М., 1998. – 267.

[7] *Замошкин Ю.А.* Частная жизнь, частный интерес, частная собственность. - С.7.

[8] Yenə orada. - S.8.

[9] Yenə orada. - S.9.

[10] Yenə orada.. - S.10.

[11] *Макаров С.П.* Государство в макроэкономическом инвестиционном процессе // Фиолософия хозяйства. – 2005. №6(42). – С.138.

[12] Yenə orada. - S. 139.

[13] *Вебер М.* Избранные произведения. – М., 1990.

[14] *Замошкин Ю.А.* Частная жизнь, частный интерес, частная собственность. - С.11.

[15] Yenə orada. - S. 12.

[16] *Козловски П.* Общество и государство: неизбежный дуализм.

[17] *Замошкин Ю.А.* Частная жизнь, частный интерес, частная собственность. - С.13.

[18] Экономическое мышление: философсикие предпосылки. – С. 252.

[19] *Замошкин Ю.А.* Частная жизнь, частный интерес, частная собственность. - С.13.

[20] Yenə orada.. - S. 20.

[21] *Козловски П.* Общество и государство: неизбежный дуализм. – С. 281-287

[22] *Замошкин Ю.А.* Частная жизнь, частный интерес, частная собственность // Вопросы философии.-1991. -№ 1. - С.3.

[23] Yenə orada.. - S. 4.

[24] *Хикс Дж.* Теория экономической истории. – М., 2003. – С. 105.

[25] *Замошкин Ю.А.* Частная жизнь, частный интерес, частная собственность // Вопросы философии.-1991. -№ 1. - С.5.

[26] Yenə orada. - S. 6.

[27] Yenə orada. - S. 7.

[28] Yenə orada - S. 8.

[29] Yenə orada. - S. 9-10.

[30] *Макаров С.П.* Государство в макроэкономическом инвестиционном процессе. - С. 140.

[31] Хайек Ф.А. Пагубная самодеятельность. Ошибки социализма. – М., 1992. – С. 52.

[32] Yenə orada. - S. 51.

[33] Yenə orada - S. 52.

[34] *Козловский П.* Общество и государство: неизбежный дуализм. – С. 267.

[35] *Кант И.* Критика практического разума // Соч.: В 6 т. – М., 1964. – т. 4(1). – С. 463-464.

[36] *Козловский П.* Общество и государство: неизбежный дуализм. – С. 270

[37] *Гоббс Т.* О гражданине // Соч.: В 6 т. – М., 1991. – Тяшкил – С. 274.

[38] *Козловский П.* Общество и государство: неизбежный дуализм. – С. 271

[39] Yenə orada. - S. 272.

[40] Yenə orada.

[41] Yenə orada. - S. 273.

[42] Yenə orada.

[43] *Макаров С.П.* Государство в макроэкономическом инвестиционном процессе. - С. 141.

[44] *Козловский П.* Общество и государство: неизбежный дуализм. – С. 274

[45] *Гуро К.* О свободе международный торговли. – Спб., 1998. – С. 275.

[46] *Козловский П.* Общество и государство: неизбежный дуализм. – С. 275

[47] *Гуро К.* О свободе международный торговли. – С. 74.

[48] *Козловский П.* Общество и государство: неизбежный дуализм. – С. 347

[49] Yenə orada. - S. 276.

[50] Yenə orada. - S. 347.

[51] Yenə orada. - S. 277.

[52] *Мезенцев С.Д.* Социальное рыночное хозяйство: философия свободы и парядка // Философия хозяцство. – 2005. - № 1(37). – С. 123.

[53] *Козловский П.* Общество и государство: неизбежный дуализм. – С. 288.

# TİCARƏT FƏALİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ

*«İqtisadi subyekt bazardan ayrılmazdır – bazar iqtisadi subyektdən ayrılmazdır. Onlar bir-birlərini nəzərə alır və şərtləndirirlər».*

Y. M. Osipov

*«Biznes» anlayışı artıq mədəniyyətə, həm mədəni, həm də gündəlik, adi ünsiyyətə kifayət qədər möhkəm daxil olmuşdur. Doğrusu, bəzən «biznes» sözü istehza və bədxahlıqla tələffüz olunur. Ola bilsin ki, bunun bir səbəbi də odur ki, bizim özlərini biznesmen adlandıran «işgüzar insanlarımızın» bir hissəsi artıq dərəcədə kiçik və səriştəsizdirlər. Axı, biznes fərdi təşəbbüs, azad kapital, azad ticarət, bazar iqtisadiyyatı, hüquqi dövlət və müasir sivilizasiyanın bir çox başqa atributlarıdır. Biznes, bu anlayışların vəhdəti kimi – müasir qərb dünyasını belə zəngin, yüksək təhsilli, cəlbedici, tox və xeyirxah, oraya şövqlə və ümidlə can atan, demək olar ki, bizim bütün vətəndaşlarımız üçün cazibəli edən canlı özək, mühərrik və fəaliyyətdir. Bu, hamıya – həm qərbçilərə, həm vətənpərvərlərə, həm beynəlmiləlçilərə və həm də sadəcə seçicilərə aiddir. Bəs, biznesin ticarətlə qarşılıqlı münasibətində onun mahiyyət və məzmunu nədən ibarətdir?*

## 1. BİZNES, İQTİSADİYYAT, TİCARƏT

Biznes və ticarətin qarşılıqlı fəaliyyəti prosesində onların «iqtisadiyyat etnosunda» (*M. Veber*) qarşılıqlı münasibət problemlərinin aydınlaşdırılması üçün bu anlayışların məzmun və mənasını aydınlaşdırmaq lazımdır (ticarət anlayışında olduğu kimi). Həm də istənilən elmi-tədqiqat hər zaman anlayışların aydınlaşdırılması ilə başlanır.

Buna görə də əgər biz məlum olmayan və ya az məlum olan predmetin formal olaraq müəyyən edilməsini və ya xarici əlamətlərinə görə tanınmasını yox, onun mahiyyətini başa düşməyə çalışaraq «bu nədir?» deyə soruşuruqsa, onda, *M.Xaydeqqerin* qeyd etdiyi kimi, *fəlsəfi suallar* veririk. Buna görə də bölmənin başlığında göstərilən suallara verilən cavablar müəyyən mənada fəlsəfi xarakter daşıyır. Bu zaman birinci sualı cavablamaq üçün əvvəlcə ikinci sualı cavablamaq lazımdır. Çünki biznes – *iqtisadi fəaliyyətin xüsusi növ müxtəlifliyidir.*

Görünür ki, iqtisadi nəzəriyyənin peşəkar müəllimləri və sahə iqtisadçıları bununla dərhal razılaşmayacaqlar. Onlar deyəcəklər ki, iqtisadiyyat – təsərrüfat fəaliyyətidir. O, özünə müxtəlif maddi nemətlərin istehsalını, tikintini, daşınmaları və bununla əlaqədar buna oxşar olan hər şeyi daxil edir. Ancaq bu heç də belə deyildir. Daha ciddi və dəqiq mənada, iqtisadiyyat – *əmtəələrin istehsalı, yaradılması, onların reallaşdırılması və istehlakçıya, yəni alıcıya çatdırılması prosesidir*. Əmtəə kimi, demək olar ki, hər şey çıxış edə bilər: avtomobil, ev, xidmətlər, informasiya, elmi biliklər və xüsusi olaraq satış üçün yaradılan və ya predmetə dəyər verən xüsusiyyətlərə malik olan bir çox başqa şeylər. Lakin onlar, eyni zamanda, «məgər natural təsərrüfatda iqtisadiyyat yoxdur?» deyərək etiraz da edə bilərlər. Quldarlıq və ya təhkimçilik cəmiyyətində iqtisadiyyat olmayıbmı? Lakin bu cəmiyyətlərdə, əgər əmtəələr istehsal edilmir və reallaşdırılmırsa, müəyyən istehsal və istehlak fəaliyyəti mövcud olsa da, sözün dəqiq mənasında, iqtisadiyyat yoxdur. Məhz buna görə maddi və mənəvi nemətlərin istehsalı bu cəmiyyətlərdə iqtisadiyyat qanunları ilə yox, *güc, məcburiyyət və ya qeyri-iqtisadi xarakterli başqa mexanizmlərlə* tənzimlənir. İqtisadiyyat anlayışının belə ifadə olunması mübahisəli görünə bilər, amma mən belə qiymətləndirmə ilə razılaşmağa hazıram, çünki mübahisəsiz (şəksiz) rəyi çətin ki, müzakirə etməyə ehtiyac olsun, onların yeri elmi və publisistik məqalələrdə yox, dərsliklərdədir. Həmçinin yaxın vaxtlara qədər şübhəsiz

görünən şeylər bu günün düşüncəsi ilə sadəcə olaraq səhvdir. Mübahisəli fikirlər isə hər zaman həqiqət olmasa da şübhəsiz ehkam və kanonlara (kilsə qanunları) nisbətən çox vaxt həqiqətə yaxın olur. İqtisadiyyat qanunları gözəl bir xüsusiyyətə – *qapalılıq, özü-özü üçün kifayətlilik* xüsusiyyətinə malikdirlər. Bu, o deməkdir ki, əmtəə istehsalı, daha doğrusu, maddi və mənəvi əmtəə yaxud xidmətlərin yaradılması *əmtəənin, əmtəə istehsalının özü ilə tənzimlənir və idarə olunur*. Bu, praktiki olaraq, aşağıdakı fikri ifadə edir: *pul – xüsusi bir əmtəədir. İstehsal fəaliyyətinin iqtisadi cəhətdən idarə edilməsində pul əmtəə istehsalının tənzimləyiciyisi kimi çıxış edir*. Bu, o əmtəədir ki, istehsalı sürətləndirərək və ya yavaşıdaraq, onu asanlaşdıraraq və ya çətinləşdirərək yerdə qalanlara katalizator və ya inqubator kimi təsir göstərir. Əgər istehsal hansısa başqa vasitələrlə, yalnız siyasi və inzibati vasitələrlə tənzimlənirsə, bu, iqtisadi sistem deyildir.

> *«Hər bir iqtisadi subyekt ümumi mübadilə-qiymətləndirmə prosesi çərçivəsində, agentlərin əmtəə birliyində, bazarda və bazarın köməyilə mövcuddur və təkrar istehsal olunur. Bazarsız iqtisadi təsərrüfat qeyri-mümkündür. Lakin bazar – sadəcə olaraq, ayrıca iqtisadi subyekt üçün passiv və köməkçi mühit deyil. Bazar özünü təşkil edən, təsərrüfat subyektlərinə təsir göstərən və onların talelərini müəyyən edə bilən təşkiledici sistem-prosesdir. Bazar – mikrosubyektlər məcmusuna nisbətən daha böyükdür, özü subyekt rolunda, ancaq artıq makrosubyekt rolunda çıxış edən xüsusi təsərrüfat orqanizmidir. O, kifayət qədər müstəqil şəkildə qərar qəbul edə və fəaliyyət göstərə bilir. Bazar iqtisadi subyektləri idarə edir, hətta onlara hökmüranlıq belə edə bilər».*
>
> A.A.Poroxovski

Bu həqiqətdir. Çünki sübut etməyə ehtiyac yoxdur ki, bu, pulun pul kimi maddi təbiətindən çıxmır. Müəyyən etmək çətin deyildir ki, pulun pul kimi təbiəti sosial təbiətə malikdir. Bu, insanın, cəmiyyətin və sosial-təsərrüfat həyatının özünün inkişafı nəticəsində baş vermişdir. Əmtəə mübadiləsinə əsaslanan bölünmüş təsərrüfatda mütləq pul funksiyasını yerinə yetirilən əşya meydana çıxmalıdır və bu əşya qəti surətdə özünü əmtəə dünyasında kifayət qədər rahat hiss etmək qabiliyyətinə malik olan əmtəə olmalıdır. Yəni, ən yaxşı satılan, istənilən başqa əmtəəyə dəyişdirilə bilən, «lazım olduqda yığıla bilən, asanlıqla bölünən və toplanan, vahid və kütlə

halında olan, dərhal itməyən və saxlanıla bilən» olmalıdır. Məhz burada bu əmtəənin əşya kimi xüsusi keyfiyyətləri lazımdır. Yerdə qalanlar - iqtisadiyyatdan asılı olmayaraq mövcud olmayan cəmiyyətdəndir. «Əşyavi-əmtəə sosiumu» anlayışı (*Y.M.Osipov*) əbəs yerə mövcud deyil, çünki əşya-əmtəələrə insanlar və cəmiyyət tərəfindən sosial və hüquqi funksiyalar verilir.

Bu nöqteyi-nəzərdən, pul və ya onun funksiyasını yerinə yetirən başqa əşyalar, məsələn, qiymətli metallar, qiymətli kağızlar və s. bütün qalan *əmtəə və istehsal vasitələri ilə xüsusi münasibətdə ola bilər. Bu münasibət qısa və ümumi sözlərlə ifadə olunur – kapital.* Məlumdur ki, əgər insan pulları küpədə, döşəyin altında, corabında və s. yerlərdə gizlədirsə, bu onları torpağa basdırmaq kimidir. Bunlar ölü pullardır, daha dəqiq desək, ümumiyyətlə pul deyildir, çünki heç nə istehsal etmir. *Bunlar, iqtisadiyyat və əmtəələrin istehsalı üçün itirilmiş xəzinə (dəfinə), yəni vəsaitlərdir.* Özlərini iqtisadçılar və dövlət xadimləri kimi qələmə verən insanlar əhalidə müəyyən məbləğ pulun toplandığı barəsində inildiyirlərsə və sanballı jurnal və qəzetlərdə ciddi şəkildə pul islahatları və ya qiymətlərin qarşısıalınmaz şişirdilməsi (yüksəldilməsi) vasitəsilə bu məbləğləri əhalinin əlindən almağın daha yaxşı fikir olduğunu müzakirə edirlərsə, biz burada müasir iqtisadçıların yox, xəzinə talançılarının cəmiyyət üçün patoloji və dağıdıcı təfəkkürləri ilə qarşılaşırıq. Doğrudanmı bu insanlar ABŞ, AFR, Yaponiya və s. kimi ölkələrin əhalisinin əlində daha az əmanət olduğunu düşünürlər?

İstehsala buraxılmamış pullar ətalət üzrə pul adlandırılan kağıza çevrilir. «Əgər əhali tərəfindən qazanılan və yığılan pulları kapitala çevirmək, yəni onları işə, biznesə buraxmaq, bu pulları əmtəə və nəticə etibarilə yeni, böyük alıcılıq qabiliyyətinə malik olan real pullar istehsal etməyə məcbur etmək mümkün olsaydı, bizim maliyyə və başqa problemlərimizin doxsan faizi, sadəcə olaraq, mövcud olmazdı». Bu vəzifənin reallaşdırılmasının ən həqiqi üsulu azadlıq və ondan irəli gələn azad, yəni azad ticarətdən ayrı mövcud olmayan bazar iqtisadiyyatıdır. Doğrusu, nəzərə almaq lazımdır ki, azad ticarət yox, azadlıq ilkindir (başlanğıcdır). *K.Quro* qeyd edir ki, azad ticarət sistemi yalnız məlum qayda, inzibati üsul və daimi sistemdir. «Deyiləndə ki, azad ticarət dünya ticarətinin idealıdır, fəlsəfi dilin ən yüksək terminlərinin birindən böyük qeyri-dəqiqliklə istifadə edilmiş olur». Ticarət bu və ya digər quruluş, bu və ya digər sistem, bu və ya başqa vasitə ilə öz idealının, yəni azadlığının həyata keçirilməsinə can ata bilər; lakin bu vasitəni nail olmağa çalışdıqları (necə olursa olsun) məqsəd kimi

qəbul etsək, qəribə şəkildə aldanacağıq: bu, sübut və nəticə elm idealının mahiyyətidir, rəsm və ya boyalar, harmoniya və ya melodiyalar rəssamlığın və musiqi idealının mahiyyətidir demək kimidir. Əlbəttə ki, müəlliflər öz boşboğazlıqlarını ən yaxşı fəlsəfi terminlərlə bəzədərək heç də pis olmayan taktikadan istifadə edirlər; bununla onlar belə terminlərə, onlar nə qədər gur səslənsələr və onları nə qədər az başa düşsələr, bir o qədər dərindən pərəstiş edən düşüncəsiz insan yığını qarşısında çox şey udurlar; amma görünür, ümumi ictimai müzakirələrdə belə terminlərə müraciət etmək ağıllı iş olmazdı, çünki belə müzakirələrdə, demək olar ki, hər zaman elə insanlar tapılır ki, onlara deyilən sözləri başa düşmək istəyirlər və əgər nəyisə onlara izah etmirlərsə, onlar bu zəhməti öz üzərlərinə götürürlər». Nəticə etibarilə, azad ticarət sistemi başlanğıc deyil, idealdır: o, iqtisadiyyatın idarə edilməsi sistemini ifadə edir.

«Azadlıq başlanğıcdır, lakin azad vəziyyət yalnız faktdır. Buna görə də, baxmayaraq ki, insan fəaliyyətinin istənilən doğru təzahürü düzgün olduğu üçün azadlığa layiqdir; amma onun belə olması üçün şərait yalnız bəşəriyyətin özü tərəfindən verilir və ya yalnız tarixin öyrənilməsi vasitəsilə açılır. Azadlıq bizim təfəkkürümüzdə işıqlanan daimi yol göstərən ulduzlardan biridir; bu, həqiqət, gözəllik və doğruluq kimi insan ağlının üfüqlərini daima nura qərq edən parlaq nöqtədir. Belə başlanğıcın mücərrəd şəkildə müşahidə olunması bizi onun varlığının hərəkətsizliyi və zəruriliyinə inandırır, amma bununla kifayətlənir. Bu təmiz şuanı necə yolundan çıxarmaq və dünyanın qaranlığını işıqlandırmaq olar? Necə etmək olar ki, bu qaranlıq onunla işıqlansın, amma özü onu qaranlığa qərq etməsin? Bu ilahi ocağı necə oğurlamaq və onunla yeri necə canlandırmaq olar?» Ticarət insan fəaliyyətinin ən faydalı növlərindən biridir, ağılla düşündükdə, o azad olmalıdır; lakin onu necə azad etmək olar? Ağıl buna cavab vermək iqtidarında deyildir, bu, təcrübənin işidir.

Belə təcrübə sahibkarlıq, biznes fəaliyyətində əldə edilir. Amma əgər bu fəaliyyət məhduddursa və ya ümumiyyətlə qadağandırsa (uzaq keçmişdə bizim ölkədə olduğu kimi), onda vahid partiya – dövlət aparatı sistemi yaranır. Onun hakimiyyət fəaliyyəti azadlığı ləğv edir. Mülkiyyət, topaq və s. haqqında bütün qanunlara baxmayaraq, o, demək olar ki, bütün torpağın, təbii resursların, mənzil fondunun, yolların, müəssisələrin, rabitə vasitələrinin, təhsil və səhiyyə təsisatlarının mülkiyyətçisi olaraq, və müxtəlif milliyyətlərdən olan insanları xarici borca, yaxud müəyyən güzəşt

və imtiyazlar rejiminə dəyişə bilən, praktiki olaraq, universal təhkimçi kimi çıxış edirlər. İnsanlar belə şəraitdə pul qazanmır, pulu dövlət tərəfindən təyin olunan paritetlərdən asılı olaraq əldə edirlər. O, bu paritetləri öz maraqlarından asılı olaraq bölüşdürür, onlardan ən əsası isə hakimiyyəti əldə saxlamaq və ondan faydalanmaqdır. «Əhalinin yerdə qalanı üçün iş və istənilən fəaliyyət sərfəli deyildir. Tarif dərəcələri, vəzifə maaşları və s. praktiki olaraq sizin faydalı əməyinizdən asılı deyildir və onu stimullaşdırmır: tamamilə fövqəladə situasiyalardan başqa, siz heç nə udmursunuz, heç nə uduzmursunuz və heç bir şeylə riskə getmirsiniz. Əgər, yenə də hər hansı risk və ya fayda mövcuddursa, bu sizin əməyinizlə yox, sizin «müdiriyyətlə» olan münasibətinizlə, yəni partokratik sistemin görünən fenomeni – aşağı hissəsi gizli olan aysberiqin təpəsi ilə müəyyən olunur»[6]. İnsan belə şəraitdə işdə maraqlı deyil və ya çox az maraqlıdır. O, passivdir və onu daimi olaraq tələsdirmək və ona nəzarət (idarə) etmək lazımdır. Bu, partokratiyanın mövcudluğuna haqq qazındıran yeganə funksiyadır. O, bu yolla, özünə haqq qazandırma şəraitini yaratmışdır.

Azad sahibkarlıq, azad ticarət və bazar iqtisadiyyatı sayəsində partokratiya və onunla bağlı quruluş özünü tükəndirir. Hökmranlıq edən partokratiya tamamilə funksiyasız olur. O, öz gözündə predmetsiz, lazımsız, haqsız və mənasızdır. Bütün imtiyazlar, paylar və dövlət vergiləri və s. öz cazibədarlıqlarını itirir. Təbii ki, bütün əhali üçün «yaxşı həyat» partokratiya üçün «xarakteri» demək olardı. Məhz buna görə də, sual mütləq alternativ kimi qoyulur – ya partokratiya, ya da «yaxşı həyat», yəni ümumi maddi rifah istiqamətində inkişaf edən cəmiyyət və bununla sıx bağlı olan demokratikləşmə, maariflənmə, sosial humanizm və s.[7]

Ancaq həqiqətdə belə möcüzələr olmur, yaxşı həyat və firavan cəmiyyət yalnız bir yolla – iqtisadi yolla, yəni əmtəə istehsalının və normal bazar münasibətlərinin inkişaf etdirilməsi yolu ilə qurula bilər. Bu, bütün dünya təcrübəsi ilə təsdiq olunmuşdur və bundan başqa yol yoxdur. Bu gün bunu hər kəs başa düşür.

Lakin bundan bir neçə aydın, demək olar ki, aksiomatik müddəa çıxır.

Birincisi, sosial əmin-amanlığın artımı və demokratiya üçün normal şəraitin yaradılması, mədəniyyətin çiçəklənməsi, kəskin sosial problemlərin həlli mənbəyi əmtəə istehsalı və bazarın inkişaf etdirilməsidir.

İkincisi, əmtəə istehsalı və bazar yalnız qeyri-dövlət mülkiyyəti, hər şeydən əvvəl, bütün modifikasiyaları (səhmdar, korporativ və s.) ilə birlikdə xüsusi mülkiyyət əsasında mümkündür.

> «*Azalan qiymətlər iqtisadiyyatını hazırlayan iqtisadi (islahatlar) – iqtisadi tərəqqinin təbiətinə adekvat olan münasibətlərə keçiddir. Bazar iqtisadiyyatında onun haqqında təsəvvürlər təhrif olunmuş, onun nəticələri mənfəətin artmasına, hətta qiymətlərin yüksəlməsinə gətirilmişdir. Artan qiymətlər üzündən, iqtisadiyyatın irəli hərəkət etdiyini, yoxsa geri yuvarlandığını heç kim bilmir. Mahiyyət etibarı ilə isə nəticələr tamamilə başqadır, yəni resurslara qənaətdən, xüsusi və ümumi xərclərin azalmasından (yəni artan yox, azalan qiymətlərlə), son nəticədə isə əməyə və iş vaxtına qənaətdən ibarətdir*».
>
> V.V.Kornyakov

Üçüncüsü, bü mülkiyyət formaları əmtəə istehsalı sisteminə daxil edilərək əmtəə və xidmət istehsalçıları arasında kəskin rəqabətə və nəticə etibarilə məsuliyyətli qərarların qəbuluna, mülkiyyət sahibləri və bu qərarları həyata keçirənlər tərəfindən təşəbbüs və çalışqanlığa səbəb olur. Məhz bu insanlar biznesmendirlər, rəqabət şəraitində əmtəə məhsulunun yaradılması və onun bazarda reallaşdırılması üzrə fəaliyyət isə, sözün əsl mənasında, biznesdir.

Dördüncüsü, biznesmen riskə gedir, o, öz riskindən, fəaliyyətindən özü xeyir götürür və öz uğursuzluqlarına görə özü hesabat verir. Ənənəvi sovet idarəçisi, meneceri və ya direktoru xeyir götürmür, risk etmir və uduzmurdu (ələbəttə ki, əgər o, kölgə iqtisadiyyatı ilə əlaqədar deyildisə). Onun öhdəliklərinə görə dövlət hesablaşır və bu, istehsal-bölüşdürmə münasibətlərinin superetatistik modelinin iqtisadiyyat və bizneslə prinsipial olaraq bir araya sığmayan prinsipial və köklü fərqidir. Bu məsələdə illüziya olmamalıdır. İqtisadiyyat və təsərrüfatın superetatistik modeli, biznes və işğal sistemi arasında kompromisə nail olunması yalnız bir nəticə ilə – cəmiyyətin tam və kompromissiz, qarşısıalınmaz dağılması, hərbi diktatura, şəxsiyyətin boğulması (susdurulması), insanın bütün hüquqlarının məhv edilməsi və bunun nəticəsində, bizim ölkənin tam təcrid olunması və onun tarixi arenadan tamamilə getməsi ilə sona çata bilər.

Biznes də ticarət kimi rasionaldır. İstənilən rasional fəaliyyət müəyyən standart və qaydalar dəsti ilə tənzimlənir. Onlar verilmiş birliklə tanış

olmalı və onun üzvləri tərəfindən eyni cür qavranılmalıdır. Biznesin əsasında, həmçinin, az və ya çox dərəcədə müəyyən edilmiş qaydalar da durur. Onlardan bəzilərini müasir işgüzar fəallığın, o cümlədən, ticarətin təməl (fundamental) həqiqətləri hesab etmək olar.

İşə, yəni biznesə başlamaq biznesi davam və inkişaf etdirmək üçün *kapital* lazımdır. Kapital artımı – *biznesin müvəffəqiyyətliliyinin ən yaxşı göstəricisidir*. Biznes xeyirli olmalıdır, bu o deməkdir ki, o, mənfəət gətirir və nə qədər çox gətirirsə, bir o qədər yaxşıdır. Yaxşı biznesmen – *əmtəə istehsalını* inkişaf etdirərək öz mənfəətinin böyük hissəsini kapitala çevirən şəxsdir.

Biznesin uğurlu, mənfəətli olması üçün onunla peşəkarcasına məşğul olmaq lazımdır. Biznesmen nə istehsal etmək, necə istehsal lazımlığını, bunun üçün hansı resursların gərəkliyi, hansı yolla daha xeyirli və sürətlə reallaşdırmaq, yəni istehsal edilmiş əmtəəni satmaq mümkün olduğunu bilməlidir.

Biznesmen hər zaman rəqiblərin istehsal etdiklərini kəmiyyətcə və keyfiyyətcə üstələyən yeni əmtəələr istehsal etməyə səy göstərməlidir. Rəqabət qanunu – biznesin ali prinsipidir. Məhz o, bolluq mexanizmini təmin edir və yaradır.

Biznesmen yadda saxlamalıdır ki, biznesin Tanrı alıcı: insan, təşkilat, başqa firma və ya korporasiyadır. Bazar – biznesin inkişaf etdiyi, yaşadığı, böyüdüyü və fəaliyyət göstərdiyi bəsləyici mühit, əlverişli şəraitdir. Yalnız iki əsas səbəb bazarı tənzimləməyə haqq verir: alıcının marağı və bazar münasibətlərinin özünü saxlaması, dəstəkləməsi. Ancaq bu tənzimləmə bir təbii yolla baş verə bilər – alıcıların marağına və biznesin rəqabət qabiliyyətliliyinin artırılmasına istiqamətləndirilmiş vergilər sistemi vasitəsilə.

Nəhayət, sonuncu təməl tərəqqi və maddi – rifah dilemması kimi adlandırıla bilər. Bir tərəfdən, müasir, yüksək inkişaf etmiş, yüksək texnologiyalara əsaslanan biznes əməyin məhsuldarlığını artırmağa, yəni minimal iş qüvvəsi sərf edərək maksimum əmtəə istehsal etməyə çalışır. Digər tərəfdən, daha yeni istehsalatlar yaradaraq və artım templərinə görə ənənəvi istehsalı üstələyən xidmətlər sferasını genişləndirərək, o, artan miqyasda daimi olaraq yeni və daha yüksək ixtisaslı işçi qüvvələrini cəlb edir. Vulqar ideoloji-yolxucu təsəvvürlərə baxmayaraq, biznes işçilərin istismarında yox, tədiyyə qabiliyyətli istehlakçı tələbinin maksimal dərəcədə artımında maraqlıdır, çünki istehsal olunmuş əmtəəni yalnız belə satmaq olar. Bu isə

o deməkdir ki, ümumi əmin amanlığın və hər kəsin maddi rifah halının yüksəlməsi biznesin inkişafının əsas şərtidir. Distilləedilmiş suyu olan akvariuma buraxılmış və bioloji fəal maddələr sayəsində dərhal özü üçün əlverişli yaşayış mühiti yaradan qızıl balıq kimi, biznes də cəmiyyətdə öz şəxsi mövcudluğunun və inkişafının təbii və zəruri ilkin şərti kimi, rifah və varidatı yaradır[8].

Superetatizm üçün mövcudluğun əsası ümumi yoxsulluq, passivlik və müflislikdir. Burada azad sahibkarlıq zamanı malik olduğu keyfiyyətlərlə yanaşı ticarət və onunla yanaşı – tərəqqi, var-dövlət, inkişaf, bolluq, rahatlıq və *inkişaf etmiş sivilizasiyanın* bütün başqa nemətləri lazımsızdır. Biznes üçün mövcud olmanın belə əsası kimi, maddi rifah, təşəbbüs və dinamizm çıxış edir.

Doğrusu, burada kapitalın «ilkin yığımının» sərt və hətta qəddar problemləri ilə qarşılaşmaq gərəkdir. Amma bu elə sərtlikdir ki, onun köməyilə sağlamlaşdırıcı əməliyyat həyata keçirilir. Müxtəlif xalqlar tərəfindən toplanmış tarixi təcrübə göstərir ki, xarici-iqtisadi sistemlərdə iqtisadiyyatın inkişafı ilə əlaqədar çətinliklər vaxtında aşkar edilsə tam olmasa da əhəmiyyətli dərəcədə minimumlaşdırıla bilər. Bazar iqtisadiyyatında dövlətin başlıca funksiyası istehsalın başqa üsulları ilə müqayisədə, mahiyyət etibarilə humanist rolu yerinə yetirən biznesi boğmaqdan yox, məhz belə minimumlaşdırma strategiyasının axtarışından ibarət olmalıdır.

Bu isə artıq iqtisadi yox, sosial-fəlsəfi nəticədir. Burada eyforiyaya düşmək lazım deyil. Biznes, ticarət və istənilən başqa sahibkarlıq fəaliyyəti kimi sərtdir. Rəqabət mübarizəsində daha zəif və uğursuz olanlar müflisləşirlər. Lakin bütün vətəndaşların və cəmiyyətin məcmu maddi rifahı artır. Tərəqqinin bu sərtliyi yüz milyonlarla insanın yarıac həyat sürməyə və daima çoxlu sayda narahatlıqlardan əzab çəkməyə vadar edən totalitarizmin rəhmsiz qəddarlığını (azğınlığını) yox, intellekti, elmi, mədəniyyəti və məişət komfortunu təkmilləşdirən sərtlikdir.

Biznesin ticarətin azadlığına əsaslanan təməl prinsiplərinin dərk edilməsi aşağıdakı nəticəyə gətirib çıxarır: bir tərəfdən, *superetatizm* və *totalitarizm*, digər tərəfdən, iqtisadiyyat və biznes bir araya sığmaz və məsələ birinci sistemin ayrı-ayrı nöqsanlarında yox, prinsipial, tarixi təcrübə ilə təsdiqlənmiş qüsurlularındadır. Superetatizmdən iqtisadiyyata, ticarətdən biznesə keçid nə qədər sürətlə baş verərsə, ümumi halda cəmiyyətin özü və ayrı-ayrılıqda onun üzvləri bir o qədər çox udar. Bəli, bu, mübarizə

vasitəsilə həyata keçirilə bilər. Dünya mövcud olandan bəri «mübarizə bəşəriyyətin qanunudur. İnsan idrakı və hərəkətlərində (əməllərində) rəqabət üçün saysız-hesabsız meydan (sahə) vardır və onlardan hər birində tərəqqi mübarizənin mükafatıdır. Bizim əsrin, eynilə əvvəl gələn əsrlər kimi, öyrətdiyi şey budur. Azad ticarət sistemi işlərin daimi gedişini dəyişməyi, xalqların ticarət münasibətlərində (əlaqələrində) rəqabət ruhunu qardaşlıq ruhu ilə əvəz etməyi nəzərdə tutduqda»[8], aşkarcasına biznesin və «sahibkarlıq ruhunun» inkişafına yol açır (*V.Zombart*).

## 2. TİCARƏT, HAKİMİYYƏT, MÜLKİYYƏT

«Hakimiyyət» və «mülkiyyət» anlayışlarının çoxsaylı müxtəlif tərifləri mövcuddur. Biz tədqiqat kontekstində aşağıdakı təriflərə əsaslanacağıq: *mülkiyyət – mülkiyyətçiyə aid olan əşyalar, o cümlədən, mənəvi və İntellektual məhsullar üzrə sərəncam verilməsi hüququdur; hakimiyyət – gücə əsaslanan, insanlar üzrə sərəncam vermək, onları güc subyektinin arzu etdiyi şeyləri etməyə məcbur etmək hüququdır.* Hakimiyyət və mülkiyyət müəyyən əlaqədə, funksional asılılıqdadır. Ancaq bu ifadənin arxasında müxtəlif tip reallıqlar dura bilər.

Gücə malik olan şəxs son nəticədə mülkiyyət, o cümlədən ona məxsus olmayan özgənin mülkiyyəti üzrə sərəncam verə bilər. Güc nə qədər çoxdursa, hakimiyyət də bir o qədər qüdrətli, müqəddəs və toxunulmaz mülkiyyət hüquqlarının pozulması (sənə məxsus olmayan maddi və mənəvi nemətlər üzrə sərəncam vermək və onlardan istifadə etmək) mümkünlüyü və buna qarşı cazibə də bir o qədər böyükdür. Hakimiyyət, özünüdərk və bəhanə tapmaq çətinliyinə salmayaraq, təkcə gücə əsaslanaraq istənilən mülkiyyəti qəsb edə, hətta insanın öz şəxsi həyatı üzrə sərəncam vermə hüququnu belə poza bilər. Tarix, ali hökumət orqanının başqasının maliyyətindən istifadə etdiyi, onu özü üçün mənimsədiyi dağıdıcı iradi aktlarına çox şahid olmuşdur. Hakimiyyət bir cəmiyyəti, misal üçün, məğlub olmuş ölkəni dağıdaraq təzminatlar və vergilərin köməyilə öz əzəmətini və şəxsi dövlətini möhkəmləndirə bilirdi.

Biznes, ticarət və mülkiyyətin qarşılıqlı münasibətini müəyyən edərək sonuncunun qısa təhlili üzərində dayanmaq lazımdır. Burada adət edilmiş təriflər sərhədindən çıxmaq lazımdır. Axı, ticarətdə, biznesdə olduğu kimi,

«sahibkarlıq ruhu» daima transformasiya olunur. Buna görə də mülkiyyət *özünün mahiyyətinə* varmağın çətinliyinə məhkumdur. Kiməsə terminin təəssüf ediləcək dərəcədə çoxmənalılığı, leksikologiya problemi kimi gələn bir şey, əslində görünən üzüdür. Mülkiyyətin hüquqi instansiyalarda dəqiqləşdirməyə, təsdiqləməyə, möhkəmləndirməyə səy göstərilməsi təsadüfi deyildir. Qanunvericilikdə mülkiyyəti dəqiqləşdirməyin, onu təyin etməyin daimi və təkidli zəruriliyi leksikada gözə çarpmayan şəkildə qeyd olunur. Bunsuz o, minimum iki mənalıdır. Onun sürüşməsini hər kəs müxtəlif cür hiss edir. «Mülkiyyət anlayışı toz kimi davamsızdır»[9]. O, tariflərin çata bilmədiyi yerdədir. Mülkiyyətin yeni layihəsi ilə özünə güvənən şüur dərinliklərdə ilişib qalmışdır, onun hətta təsəvvür etməyə belə gücü yoxdur. Yeni mülkiyyətçilərin şüuru ümid edir ki, şəxsi, xüsusiləşmişin özü tam və sağlama çevriləcəkdir. Belə demək yanlış olmaz ki, eksperimentatorlar (təcrübəçilər) yenə də mülkiyyət haqqında sözlərlə aldanır və qrammatik çalışmalarla, bir-birilərilə ziddiyyətliliyə qədər əks olan iki müxtəlif mənanın xəyal olunan vəhdət halında birləşdirilməsi ilə məşğuldurlar.

> *«İstənilən əmtəə, ticarətin bütün digər predmetlərini təmsil edərək təminatçı kimi çıxış edir və o, bu keyfiyyətdə dəyişdirilmədən nə qədər asan daşınması və saxlanılmasından asılı olaraq istifadəyə yararlıdır.*
>
> *Əmtəələrin keyfiyyətində və onları başqaları ilə müqayisədə ümumi meyar kimi çıxış etmək üçün daha az və daha çox yararlı edən bu keyfiyyətlərə uyğun olaraq, onların qiymətində baş verən dəyişiklik həm də onların daha az və ya daha çox yararsız olduğunu nəzərdə tutur və eyni dəyərliliyə malik olan istənilən başqa əmtəəni təmsil edən təminatçı kimi çıxış edir.*
>
> *Ancaq bu sonuncu xüsusiyyətlə bağlı qeyd etmək lazımdır ki, müxtəlif əmtəə növləri arasında çox böyük fərqlər mövcuddur.*
>
> *Aydındır ki, məsələn, eyni dəyərə malik bir çəllək şərabdansa, bir ədəd kətanı olan insan əmindir ki, istədiyi vaxt onun müqabilində müəyyən miqdar çörək əldə edə biləcək, çünki şərab, onu dərhal qiymətdən sala bilən sonsuz təsadüflərə məruz qala bilər».*
>
> A.R.J.Türqo

Əmlakın hüquqi şəxsin adına yazılması kimi çıxış edən mülkiyyət, özünə qayıdan və özünün özü olan mülkiyyətdən təzadlı şəkildə fərqlidir.

Lakin hüquqi mülkiyyət təsadüfi olaraq hər zaman əşyaların və insanın öz mülkiyyətinə bərpa edilməsi kimi başa düşülmür. Mülkiyyətin hüquqi mahiyyətini yalnız süni yolla ayırmaq və xüsusiləşdirmək mümkündür. Bolşeviklər mülkiyyətçilərə qarşı çıxaraq mülkiyyətin bitməz-tükənməz mahiyyətləri ilə kar olduqları zaman özlərini doğruluqdan məhrum etdilər. İndiki özəlləşdiricilər yenidən zehni yaradıclığa ümid bəsləyərək mülkiyyəti qanunvericiliklə təyin etməyə ümid edirlərsə, onlar yenə də mülkiyyətin köklərinə görə kardırlar. Mülkiyyətin əldə edilməsi son nəticədə yalnız özünün zəbt edilməsi ilə hərəkətə gətirilir.

Biz *özümüzə* məxsus olduğumuz qədər heç nəyə məxsus deyilik, o, mənada ki, öz işimizlə məşğulluq, öz ağlımızla yaşayırıq və öz vaxtımızı bilirik. *Öz* sözü notarial qaydada təsdiq olunmuş əmlakdan fərqli mənada sahib olmanı ifadə edir. Biz başdan-ayağa özümüzə dalırıq, buna görə də onun haqqında müsahibə verə bilməzdik və həmişə onu qismən başa düşürük. Latın sözü olan suo cure «öz hüququ ilə» kimi tərcümə olunur və şəxsiyyətin hüquqi müdafiəsi kimi eşidilir. İlkin olaraq fərdi hüquqla əsaslı surətdə münasibətdən kənar olan «tam hüquqlu» mənasını verirdi. Hərfi olaraq «özünün olmaq» kimi başa düşülən suum esse ifadəsi azad olmaq deməkdir. Rus sözü olan «svoboda» «mənim» mənsubiyyət mənasında yox, «məni» mənsubiyyət mənasında «svoeqo» sözündən törənmişdir. Sözün əsil mənasında *mən*, *özüm* və *özümün* sözləri o ilkin mülkiyyətdir ki, bunlardan savayı istənilən başqası anlaşılmazdır. Varlığın, həyatın qədim yunan dilindəki adları öz ilkin mənalarını saxlamışdır. *M. Xaydeqqerin* fikrincə, *hadisələr,* olaylar, varlığın aydınlaşması (işıqlanması) kimi, *öz-özünün* (Ereignis - eignen) sözlərinin mənalarından birini ifadə edir. Fikir *öz* sözünün kiməsə hüquqi məxsusluq mənasında sürüşkən relyativliyindən şəxsən özümün mənasına geri dönməyə bilmir və insan yalnız qəsbə canatma vasitəsilə ümidsiz olaraq izah etməklə intim şəkildə qəsb olunmuşdur. *Azadlıq*, mahiyyət etibarilə müstəqillik deyildir, əksinə o, *öz* «sirrinə» bağlıdır[10].

Beləliklə, mülkiyyət anlayışını müəyyən edərkən biz «öz» anlayışından yan keçə bilmərik, mülkiyyətin tərifində son hədd orientiri kimi son nəticədə «dünya» çıxış edir. İstənilən qəsbin cəlbedici məqsədi kimi, dünya ta əvvəldən yaxın, intim, razılıq əlamətlərini ifadə edir. Dünya, bir qayda olaraq, ətraf şərait, kollektiv və ailəyə nisbətən daha böyük həvəslə qəbul olunur. Təsadüfi deyildir ki, dilçilikdə (dilşünaslıqda) *dünya* (mir) anlayışı *əziz* (milıy) anlayışı ilə qohumdur. *V.Rozanov* «dünyanın mərhəmət mər-

kəzindən» danışarkən o, yalnız şıltaq görünən, ancaq əslində fundamental və istənilən leksik konstruksiyalardan daha möhkəm olan əlaqəni eşidir. Dünya, hər şeydən əvvəl, özünündür, yəni doğmadır[11]. Dünyaya sahib olarkən öz-şəxsi-xüsusi cins və yaradıcılığın uşaqlarında və «məhsullarında» doğulan xalqa gətirib çıxarır. Azadlıq – hər şeydən əvvəl, özününkünə sahib olmadır, burada özününkünü cins və xalqla («özünkülər») əlaqədar olaraq başa düşmək lazımdır. Nə hüquqi şəxs, nə də fərdi (fiziki) mən özünü azadlıqda düşünmür, mülkiyyəti isə dünyaya sahib olma mənasında başa düşmür. Bizim mövcud olduğumuz peyzacın genişliyi onun mülkiyyət haqqında bütün müzakirələrə daxil olmasına mane olmur, əksinə buna yardımçı olur.

*Öz* tədricən özünə intim cəhətdən yaxın olanı, dünyanı, sonra dövləti, daha sonra cəmiyyəti, ailəni və yaxınları seçir. Dünyada *öz* cinsi ilə (qohum) üst-üstə düşür. Bütün bu kəmiyyətlər mülkiyyət problematikasına daxildir. Bu mənada bizim ölkədə müasir islahatlar özündə yenə də əllə toxunaraq dünyadan baş çıxarılması cəhdini əks etdirir, həmçinin, onun qəsbi bütün başlanğıclar üçün sirr olaraq qalır. Artıq qeyd edildiyi kimi, məsələ siyasətin pis düşünülməsində yox, şəxsi özün heç vaxt dünya kimi aydın olmamasındadır. Mülkiyyət üzrə mübarizənin azğınlığı və qeyri-intellektuallığı bununla əlaqədardır. Şəxsi öz-özümüzdə bizim üçün əlçatmaz olur. Özünü bilmə – Tanrının işidir (*Platon*). Əgər indi bizdə bütün mülkiyyətə oxşayan şeylər artıq yerbəyər edilmişdirsə, kimin nə götürdüyü hələ də məlum deyildir, bu qeyri-müəyyənlik sirr deyildir, çünki yeni hökmdarlar gizlənmişdirlər və kimin həqiqətən də nə göütürdüyünü öyrənmək prinsipial olaraq qeyri-mümkündür. Şəxsi mülkiyyət dünyadır. Biz buna yalnız mövzu kimi malik ola bilərik[12]. Biz kimik və bizim dünyadakı yerimiz hardadır kimi bizim dünya hadisələri haqqında soruşmaq qabiliyyətimiz, o cümlədən, bilavasitə mülkiyyətlə bağlı ticarət, iqtisadiyyat, hakimiyyət barəsində suallara cavab veririk.

Qəsb edənin ələkeçirilməzliyi özündən sonra yalnız mənfi müəyyənlik buraxır. Sonuncu, rəngarəng tənqid üçün etibarlı baza kimi çıxış edir. Özünkünə, özünə məxsus olana canatma, əsas etibarilə, həmrəyliyə və quruluşluluğa səbəb olmur. Ən amansız mübarizə qohumlar arasında doğma olan şey üzrə başlayır. Bioloji təkamülə məxsus olan və əzəldən dünya ilə birləşmiş bizim üçün dünya ilə niyə birləşə bilməməyimiz xüsusi bir məqalənin mövzusudur. Mülkiyyətin son izahları apokalipsisin siması

ilə insana üz çevirir. Xristian təfəkküründə vəhy və son məhkəmə Tanrının tərəfindən insan haqqında sərt, lakin xilasedici həqiqəti açıqlayır. Apokalipsisin işini insan və ya kollektiv görməyə başlayanda məhkəmənin sərtliyi, bir qayda olaraq, təmin olunmuşdur, lakin proses göstərilən səbəblərdən, həqiqətin qələbə çalmasına nail ola bilmir. Dünya tarixi istənilən halda dünya məhkəməsi olacaqdır (*Hegel*), bütün fərq məhkəmə instansiyasındakıların insanın öz mahiyyətinə varmağa qabiliyyətlərinin olub-olmadığından ibarətdir. Mülkiyyəti araşdıran kollektiv daxilində amansızlığın mövcud olması üçün insanların mülkiyyətin kimdə və nədə olduğunu bilməsi tələb olunmur, Əksinə, bu məsələdə həyəcanlı izahsızlıq mövcud olsun. Aydınlaşdırma cəhdi bizi getdikcə mənimsənilməsi asan olmayan yeni məkanlara çıxarır. Bir şey tam aydındır: əgər mülkiyyətlə işləməyin ümumiyyətlə mənası varsa, onda bu, yalnız özününkünün (cinsi olanın) xeyrin (əmlak və nemətin) və dünyanın, intim yaxın olanın səbrlə dərk edilməsi yolu ilə baş verir.

Mülkiyyətin əsaslandırılması – cismə onun özünün varlığının qaytarılmasındadır. Cismin israf edilməsi öz-özlüyündə yox, ona görə pisdir ki, bu israfçılıq ola bilsin ki, onun təyinatına ziddir. Yalnız cismin mövcud olması buna haqq verir. Tarla o zamana qədər tarladır ki, o məhsul verir. Onunla kim düzgün davranırsa, o, onun mülkiyyətçisidir, hər hansı başqasının qəbul olunması boş abstraksiyadır. Əgər istifadəetmə hüququ tamamən mənə məxsusdursa, onda cism də bütünlüklə mənim iradəmə tabedir və bundan sonra hər hansı başqa bir mənada, deyək ki, hüquqi sənədlərə görə cismin başqasına məxsus olduğunu demək mənasızdır. Daima və bütünlüklə istifadədən uzaqlaşdırılmış mülkiyyət nəinki yararsız mülkiyyətdir, o, heç mülkiyyət belə deyildir.

*Q.Hegel*, «praktiki istifadə hüquqi sahibliyə çevrilə bilər» kimi səslənən keçmiş *Yustinian* əmlak hüququnu dərindən başa düşərək qətiyyətlə mülkiyyətin azadlığını gələcəyin norması kimi irəli sürürdü. *K.Marks* «istehsal alətlərinin», o cümlədən torpağın ondan istifadə edənlərə, zavodun – fəhlələrə, tarlanın – kəndliyə aid olduğunu qeyd edəndə, bu, *Hegelin* «Hüquq fəlsəfəsi» əsərindəki *Hegel* peyğəmbərliyinin reallaş-dırılmasına edilən cəhd idi. «Təxminən min beş yüz il əvvəl xristianlıq sayəsində şəxsin azadlığı təsdiq olunmağa başlandı və yalnız dünənə qədər prinsip kimi birtəhər qəbul olundu. Bu, ruhun öz-özünü dərk etməsi üçün nə qədər uzun müddətin tələb olunduğunu göstərən və rəylərin səbrsizliyinə qarşı

qoyula bilən ümumdünya tarixindən nümunə kimi çıxış edə bilər». Hüquqi şəxs cismi mənimsədə «boş cənabdır»[13], əsl sahib isə mülkiyyətin azadlığı hüququna görə bunu ona qaytarandır.

*K.Marksda* mülkiyyət azadlığı prinsipi ictimai mülkiyyət, yəni yeni hüquqi və hakimiyyət mexanizmi anlayışının daxil olunması ilə əlaqədar qaranlıq və qarışıqdır. Yeni mexanizmlərin həyata tətbiq olunması ilə yüklənməmiş *Hegel* prinsipi insanların cismi özünə qaytaran şəxsləri mülkiyyətçi kimi görməyə adət edəcəkləri zamanı gözləməyə hazırdır. Marksistlərin Rusiyadakı səhvləri ondan ibarətdir ki, onlar sosialist hakimiyyətinə və xalqa nəinki marksizmin mənbəyi olan *Hegeli,* hətta *Marksın* özünü belə, oxumağa cəsarət edə bilməmişdilər. Birtərəfli marksizmin əsassızlığı ucbatından ölkə hazırda *Hegelin* göstərdiyi və sosial-bazar təsərrüfatında həyata keçirilən istiqamətdən əks tərəfə doğru atılmışdır. *Hegel*, buna baxmayaraq, səbrli olmağı və fikir tərəddüdlərindən yan keçməyi tövsiyyə edirdi. Əmin olmaq olar ki, «azadlıq qarşısında heç bir şeyin mənası yoxdur… dünyada hüquqdan yuxarı heç nə yoxdur, onun əsası isə azadlığın mövcud olmasıdır; var olan hər şey ruhun öz-özünü dərk etməsidir»[14].

> «*Pozğunluq forması, müstəqil olan və mənim düzgün olmayan anlamaları özümlə bağlı hesab edərək yalnız qavradığım cismə yox, əmtəəyə məxsusdur; lakin əgər hər şey qavranılmışdırsa və qavramağa heç bir şey qalmamışdırsa, idrak öz yerini ağla verir, o isə öz növbəsində boş «daxili olanı» yaradır və onu yenidən özünə mənimsədir; bu güc və manipulyasiyalar oyununun nəticəsi – burada dərketmə əks olduğu üçün – yüksək dərəcədə həssas dünya yox, düşüncələrdən yaxa qurtarmaqdan və əməyin bütün ciddiyyətini saxlayaraq bütünlüklə əmtəəyə çevrilməkdən ibarətdir; pul deyir, amma bunu başqalarından təyin edir*».
>
> Q. V. F. Hegel

*Hegelin* «Hüquq fəlsəfəsində» təməl mövzu *işıqlanmanın özgələşdirilməsi* mövzusudur. «Özgələşdirmə mülkin həqiqi qəsbidir»[15]. Ancaq bu, mülkiyyətin azadlığı prinsipindən çıxır. Cisim onu özünə qaytarana və onunla onun həqiqəti üzrə davranana məxsusdur. Cismin həqiqəti özünə həm də onun məndən azadlığını da daxil edə bilər. Mən onu ona görə özümünkü edirəm ki, onun müstəqilliyinə hörmət edirəm. Belə mülkiyyət qarşısında istənilən başqası solur (sönür). Nümunə. Cismlər öz dəyərlilik-

lərinə uyğun olaraq əmtəəyə çevrilir və bu zaman onlardakı bütün xüsusi və fərdi olan hər şey bir meyarla – pulla qiymətləndirilir. Cismin onun universal dəyərliliyi kimi sadələşdirilməsi ruhun böyük nailiyyətidir. Pul «insan ideyasına layiq olan ən dərkolunmuş sahiblikdir». «Hər hansı xalqın pulunun olması üçün o, yüksək quruluş səviyyəsinə çatmalıdır»[16]. Pul, əmtəəyə nisbətən mülkiyyətin daha ağıllı formasıdır. Əskinazda əmtəə görünmür, amma o, orada var, həm də istənilən əmtəə var. Pulun qarşısında bütün əmtəə dünyası açıqdır. İlbizin yarpağa yapışdığı kimi, bu bir parça torpağa yapışmaqdan və onun əlavəsi olmaqdansa, son nəticədə bütün milli sərvəti ölçmək qabiliyyəti olan sadə dəyərə malik olmaq daha üstündür. Pul təbiətdən soyuma, vidalaşmadır, amma belə soyuma manual (əllə) qəsbə nisbətən daha azad, ağıllı və həqiqidir. Soyuma nəyisə əldə tutmaqdan elə imtina etməkdir ki, həqiqi olan daha təmiz sahibolma imkanı verir.

Bu yolda növbəti addım kimi mən puldan ayrılıram! Əşyavi təbiətdən ayrıldığım kimi, onlardan da ayrılıram. Bu yeni ayrılmadan mənə hansı mülkiyyət qalır? Mən özümün «ayrılmaz substansional müəyyənliklərimin» tam sahibi oluram, ruhun daxili mülkiyyətinə, öz mövcudatıma qayıdıram. *Hegel* qeyri-mülkiyyətin ruhi mülkiyyətdən fərqləndirməyin kriteriyalarını (müddətlə məhv edilə bilməmə) təqdim edir. Mənim uşaqlıqda itirdiyim rubl mənim üçün itmişdir. Amma mənim söz haqlarım tamamilə başqa söhbətdir. Əgər uzun müddət, çox uzun müddət, onillərlə azad danışa bilmirdimsə və başqaları mənim haqqımdan istifadə edərək öz sözlərini deyirdilərsə, onda bu o demək deyildir ki, çox illər keçdiyinə görə bu məni həmişəlik tərk etmişdir. Danışıq – xüsusidən xüsusidir; burada son nəticədə ayrılma qeyri-mümkündür. Yoxsa mümkündür?

Eposun müəllifi unudulmuşdur. Min illər ərzində ev heyvanlarının qırılması genetikasının arxaik nailiyyətləri simasızlaşmışdır. Dünyanı kimin yaratdığı da unudulmuşdur. Görünür bu yolla, son nəticədə hər bir şey özgəninləşdirilə bilər. Fikir, əhvali-ruhiyyə də özgəninləşir. İradə-şəxsiyyət özünü bütünlüklə onun içində onun vasitəsilə böyüyən doğmasına verir. Özünü dünyadan aparmaq hüququna malik olmadığından, o, dövlətin onu özünə götürmək hüququ ilə mübahisə etmir. Dövlət şəxsiyyətin «həqiqi gücü» kimi şəxsiyyətin nüvəsində, onun şəxsiyyəti özündən özgələşdirən doğmasına qarşı sadiqliyindədir. «Ruhun daxili mülkiyyəti» son nəticədə mənim deyil; hətta dövlət belə onun ideyasında onun üzrə məndən daha

böyük haqqa malikdir. Kiminsə mülkiyyəti kimi mülkiyyət əriyir, təkcə mahiyyət kimi mülkiyyət qalır! Fərdin özü-özünə qayıtması zamanı onun daxilində obyektivliyə doğru canatma baş verir, bu zaman insan boşluğun əzabından və mənfilikdən qaçmaq üçün özünü qul və tam asılılıq dərəcəsinə qədər alçaldır. «Şəxsiyyətin» mülkiyyəti müvəqqəti quruluşdur. Üzümün dəstək olmadan düşməsi kimi, «hüquq da insanın ətrafında dolanmalı və onu möhkəm ağac kimi qorumalıdır»[17]. Xilasedici özgələşdirmə natural təsərrüfatda cism və əmlakı, sonra əmtəələri, sonra pulları, daha sonra intellektual qabiliyyətləri və ən sonda fərdiliyi zəbt edir. *Q. Hegelin* «ruhun daxili mülkiyyəti» adlandırdığı mənada mülkiyyət son nəticədə özünə elə gəlir ki, onun kimə məxsus olduğunu soruşmaq artıq mənasız olur.

Görəsən şəxsiyyətdə, pis vərdişlərdən, gizlilikdən, çox vaxt onun fərdiliyinin təşkil olunduğu maskalardan başqa, bir cins kimi bəşəriyyətə yox, ona məxsusdur? Ört-basdır edilən və şəxsiyyəti həyəcanlandıran zəifliklər mahiyyət etibarilə hamıya məxsusdur və hər kəs onu eyni cür gizlədir. Əksinə, unikal və nadir hallarda rast gəlinir ki, hər kəsin mahiyyətini təşkil edən və adətən, tamlıqla müşahidə etmək mümkün olmayan xüsusiyyət doğma və cinsi olsun. O, ayrı-ayrılıqda heç kəsdə olmasa da, özü olmaq istəyən hər kəs üçün arzuediləndir və ona yalnız insanın insana çevrilməsinin lazımi dərəcəsində nail olunur. Lakin bu prosesdən öncə bütün öz ipostasiyaları ilə birlikdə iqtisadi fəaliyyət gəlir.

Mülkiyyət hakimiyyətdən ayrılmazdır. Lakin əgər hakimiyyət mütləq və müstəqildirsə və superetatizmə çevrilirsə, mülkiyyət isə (dövlət mülkiyyətindən başqa) xəyalidirsə və qanunla qorunmursa, ali hakimiyyətin, yəni dövlətin istənilən fəaliyyəti təkcə cəmiyyət üçün deyil, həm də dövlətin özü üçün lüzumsuz və çox zərərli olur. Superetatistik sistem özünü möhkəmlətmə, özünü təsdiqləmə və özünü dəstəkləməni öz mövcudluğunun yeganə məqsədi kimi seçərək oturduğu budağı kəsir. Başqasının mülkiyyəti üzrə sərəncam verilməsinin *superetatistik modeli*, heç olmasa, hətta qədim Şərq despotları nöqteyi-nəzərindən belə misli görünməmiş məşhur faktı nümayiş etdirə bilər: Volqa çayı üzərindən körpü olacağını nəzərdə tutularaq, Neva körpüsünün sökülməsi və Leninqraddan indiki Tver şəhəri olan Kalinin şəhərinə gətirilməsi (*M.İ.Kalininin* şıltaqlığını yerinə yetirərək). Bu mənasız ideya heç bir iqtisadi və sosial əsasa malik olmamasına və Volqa üzərindən bir neçə yeni körpünün tikilməsindən də baha başa gəlməsinə baxmayaraq, o, Stalinin sadiq silahdaşının istəyi ilə reallaşdırıldı[18]. Ancaq bütün bunlar

«qalib gəlmiş», «yetkin», «real» və «inkişaf etmiş» sosializm dövründə, habelə «inkişaf etməkdə olan» sosializmdən sonra inkişaf edən və sağlam düşüncənin əksinə olaraq baş verən sosializm zamanı insan və təbiət resurslarının qarşısıalınmaz şəkildə istismarı və dağıdılması ilə müqayisədə sönük görünür.

*Hakimiyyət və mülkiyyətin nisbəti haqqındakı düşüncələr fundamental fəlsəfi əhəmiyyətə malikdir, çünki iqtisadi təsərrüfatçılıq üsuluna keçid, Leninin «siyasət iqtisadiyyat üzərində ağalıq etməyə bilməz» dediyi məşhur tezisində ifadə olunmuş əvvəlki siyasi və iqtisadi fəlsəfədən imtina edilməsini tələb edir.* Burada marksizmin, onun ilkin (ən qədim) şəklində bərpa edilməsinə ehtiyac yoxdur. O, iqtisadi planda hazırki situasiyaya adekvat olmasa da, sözsüz ki, özündə əhəmiyyətli tarixi, sosial-fəlsəfi və ideoloji hadisələri əks etdirir. Ancaq demək lazımdır ki, bu tezis mahiyyət etibarilə özündə təkcə, sənaye kapitalizminin iqtisadi mexanizmlərinin yeni cür başa düşülməsi ilə yenicə məşhurlaşan *autentik marksizimdən* yox, həm də iqtisadi təfəkkürdən, iqtisadi təsərrüfatçılıqdan, ali hakimiyyətə oriyentasiya uğrunda insana – superetatizm sisteminə istiqamətlənmə uzaqlaşmanı əks etdirir. Bu istiqamətlənmənin nəyə gətirib çıxardığını və əxlaqi, hüquqi, təsərrüfat, maliyyə və sosial-mədəni sferalarda onun dəhşətli nəticələrinin hansılar olduğunu indi hər kəs bilir, amma heç də başa düşmür ki, bizim tarixi bəlalarımız «səhvlərin», «pozğunluqların» və s. yox, indiyə qədər də yalnız gücə və onun təlqin etdiyi qorxuya əsaslanan nəhəng, tarixi cəhətdən misilsiz superetatistik sistemin nəticəsidir.

İndi mən belə bir sual verirəm: superetatistik sistem azad ticarət və iqtisadiyyata yol verə bilərmi, bizim cəmiyyətdə biznes, yəni fərdi, kollektiv və korporativ mülkiyyətçinin öz əmlakı və vasitələri üzrə sərəncam verməsinə, risk etməsinə, udmasına, uduzmasına və bu zaman cəmiyyətin var-yoxdan çıxmasına deyil, zənginləşmənin iqtisadi mexanizmlərini inkişaf etdirməsinə əsaslanan fəaliyyət yarana bilərmi? Niyə superetatizm iqtisadiyyatın inkişafında maraqlı olmalıdır? Axı, superetatizmin mahiyyəti, ali, mütləq məqsədli hakimiyyətdir. Əsas etibarilə təşəbbüskar, fəal, azad, müstəqil, müasir rahatlıqlar və yüksək maddi-rifah şəraitində yaşayan, zəmanətli mülkiyyət və insani hüquqlara malik olan əhali ilə müqayisədə, yarıac, yarıboğulmuş, passiv, doğru-düzgün işləyə və öz maraqlarını müdafiə edə bilməyən əhali üzərində hakimlik etmək müqayisə olunmayacaq dərəcədə asandır.

Superetatistik rejim özünün bütün resurslarını tükədərək bir araya sığmayan iki məsələni həll etməyə çalışır: hakimiyyəti necə əldə saxlamaq və cəmiyyətin təsərrüfat və sosial həyatını necə gücləndirmək olar. İkinci məsələnin yeganə həlli – iqtisadiyyatin inkişaf etdirilməsi, nəticə etibarilə isə mülkiyyət və biznesin hakimiyyət üzərində prioritetliyinin təsdiq olunması birinci məsələnin superetatistik həlli ilə bir araya sığmır. Hakimiyyətin özü başqa cür olmalıdır. O, məqsəddən vasitəyə, yəni insanın iqtisadi, sosial, hümanitar-mədəni və hüquqi tələbatlarına xidmət göstərilməsi vasitəsinə çevrilir. Bu, totalitar sistemin, heç olmazsa, qismən özünün əvvəlki mütləq hakimiyyətindən imtina etməsini və qısa formada olsa da demokratiyanın iqtisadiyyatla bağlı ictimai quruluşun yeganə rasional forması kimi qəbul etməsinə baxmayaraq, ən azı, fiziki cəhətdən sağ qalmaq üçün buna razı olmağa məcburdur. Bizim ölkədə ictimai quruluşun və hakimiyyətin radikal transformasiya prosesi getməkdədir, hələ uzun müddət və ardıcıl olmayaraq gedəcəkdir. Hakimiyyətin ən uzaqgörən nümayəndələri özləri bizneslə məşğul olmağa və mülkiyyətçiliyə can atırlar. Baş verən prosesin birmənalı olmaması və ziddiyyətliliyi aydındır. Amma dərin fəlsəfi nöqteyi-nəzərdən ən əsas iş iqtisadi sistemə, bazara, bazar ticarətinə, əmtəə boluğuna, biznesə və onun yaratdığı cəmiyyətin maddi, iqtisadi, mənəvi-mədəni və psixoloji əmin-amanlığına keçidin ən az ağrılı və daha effektiv olduğunu başa düşməkdən ibarətdir. Şübhəsiz ki, bu prosesin əsas komponenti bütün iqtisadi-ticarət fəaliyyətini stimullaşdıran rasional bazar mexanizmi sistemidir.

## 3. TƏSƏRRÜFAT, BAZAR, TİCARƏT

İqtisadi subyekt ticarət fəaliyyətində başqa iqtisadi subyektlərlə qarşılıqlı fəaliyyətdə reallaşır. Belə qarşılıqlı fəaliyyət ümumi *mübadilə-qiymətləndirmə prosesi* əsasında və çərçivəsində baş verir. Sonuncunun fəal iştirakçıları mülki təsərrüfat əsasları və vasitəçiləri olan – *əmtəələr və pullardır*.

İqtisadi subyektin təkrar istehsalı bütün yerdə qalan iqtisadi subyektlərin təkrar istehsalı ilə şərtləşir, buna görə də iqtisadi subyektlər birliyi hansısa təsadüfi subyektlər yığını ola bilməz və özündə subyektlərin ictimai təkrar istehsalı sistemini əks etdirməlidir. Subyekt, həyati təkrar

istehsala qadir olan tam ictimai təsərrüfat çərçivəsində subyektə xidmət göstərməlidir.

İqtisadi subyekt ümumi iqtisadi subyektlər cəmiyyətində bütün subyektlər cəmiyyəti ilə birlikdə, onun təsiri altında və onun əsas elementi kimi təkrar istehsal olunur: rəqabət rəqabətlə, təkrar istehsal tələbatları isə təkrar istehsal tələbatları ilə. Yalnız rəqabətlər birliyində, bu birliklə hesablaşaraq, onu inkar yox, təsdiq edərək rəqabət aparmaq olar. Birlikdə xüsusiləşərək onun içərisində olmaq və öz yerini tutmaq lazım gəlir. Rəqabət aparmaq – təkcə fərdi təsərrüfatçılığın uğurlu olması uğrunda yox, həm də rəqabətli birlikdə yer uğrunda mübarizədir. Rəqabət aparmaq – həm özü olmaq, həm də başqaları ilə bağlı olmaq deməkdir. Xudbinlik bir yana, təkrar istehsal qarşılıqlı təsir və hətta qarşılıqlı anlaşma olmadan keçinmək olmaz[19].

Rəqabət ticarət rəqibləri birliyinin həyata keçirilməsinə imkan verirmi? Əlbəttə, əgər təkcə fərdi yox, həm də ümumi tələbatları hiss edirsə imkan verir. Bu isə ona bu və ya başqa formada müyəssər olur: o, tək istehsal ehtiyaclarına oriyentasiya edərək qarşılıqlı asılılıq və qarşılıqlı məhdudlaşdırma yaradır, təbii imperativlərə (qəti tələblərə) etinasızlıq göstərmir. Rəqabət birliyi özü-özünü təkrar istehsal etmək qabiliyyətinə malikdir.

Bu, *ticarət subyektlərinin rəqabət birliyi* və ya *iqtisadi rəqib-subyektlərin ümumi birliyidir* və özündə bizim adətən bazar adlandırdığımız anlayışı əks etdirir. Məhz rəqib-subyektlər birliyi bazarın tərkibini müəyyən edir və onun əsası kimi çıxış edir. İqtisadi subyektlər, onların ümumi ticarət birliyi və onların ictimai əmtəə təkrar istehsalı sistemi olmadan bazar haqqında danışmaq mənasızdır.

Əlbəttə, bazar təkcə iqtisadi subyektlərdən təşkil olunmamışdır. Bazarın tərkibində əmtəə və pul da vardır bazarın səciyyəvi fenomen-əlamətləri qiymət, təklif və tələbdir. Amma əsas komponent yenə subyekt-lərdir və məhz rəqib-subyektlər, yəni təkcə bazarda olan, özünü, başqala-rını və bütün subyektləri yaratmaqla kifayətlənməyən, iqtisadi işi başa çatdıra, özbaşına bölünə, müqavimət göstərə, birləşə və cəmiyyət yarada bilən subyektlər çıxış edir. Əmtəə və pul olmadan ticarət və bazar mövcud ola bilməz, bunlar, həmçinin, qiymət, təklif və tələb olmadan da mövcud deyildir. Amma əmtəəsi, pulu, qiyməti, tələbi və təklifi olan bazar belə əmtəə və pulu yaradan, onları hərəkətə gətirən, qiymətləri, tələb və təklifi

«*Bazar, sərbəst olaraq ona daxil olan və ondan çıxan iqtisadi subyektlərdən ibarətdir. Sonuncular özlərini iqtisadi cəhətdən öz-özlərini müəyyən edən subyektlər, yəni təsərrüfat fəaliyyətinin tətbiqi ilə bağlı məsələlərdə (vəsaitlərin investisiya edilməsi, təkliflərin verilməsi, tələb və qiymətlərin formalaşması) öz qərarları ilə fəaliyyət göstərən subyektlər kimi, bazar birliyi çərçivəsində reallaşdırırlar. Əlbəttə ki, agentlərin azadlığı və fəallığı hər zaman bu və ya başqa formada məhduddur, amma ümumi təsərrüfat (verilmiş halda, iqtisadi) müstəqilliyini hiss etməyəcək dərəcədə yox.*».

A. P. Andreyev

müəyyən edən və onların dinamikasını təşkil edən *ticarət aparan təsərrüfat subyektləri* olmadan mövcud ola bilməz. Subyektlər olmadan, ümumiyyətlə, təsərrüfatda heç nə, nə bazar, nə ticarət, nə də onların işi yoxdur.

Bazar – subyektdən törəmədir. Bazar subyektə iqtisadi olmağı əmr edir, əksinə iqtisadi subyekt iqtisadi subyektlər cəmiyyətinin bazar təşkiletməsinə ehtiyac duyur. Subyekt – ilkin, bazar – ikincidir. Buradan, subyekt necədirsə, bazar da elədir nəticəsi, bazarın *konkret tarixi forması* çıxır. Bazar daha çox və daha az azad-təbii ola bilər. O, az və ya çox dərəcədə mütəşəkkil, öz-özünü təşkil edən ola bilər. Hər şey ticarət və bazarı keyfiyyət və imkanlarına görə hansı iqtisadi subyektləri təşkil etdiyindən, bazarın hansı ictimai-təbii mühitdə reallaşdığından, təsərrüfat subyektlərinin hansı təsərrüfat güclərinə və amillərinə malik olmalarından, dövlətin cəmiyyətdə hansı rolu oynamasından, ölkənin hansı vəziyyətdə (sülh və ya müharibə) olmasından və sairə-dən asılıdır.

Bazar hər zaman eynidir. Bunu nəzərə almaq lazımdır: hər yerdə və hər zaman keyfiyyətinə və təşkili üsuluna görə eyni bazarı axtarmaq lazım deyil. Bazar, iqtisadi subyektlərin özü kimi, onların təsərrüfatçılıq və ticarət fəaliyyəti üsulları, rəqabəti, həyatın özü kimi rəngarəngdir. Bəzən bazar aşkarcasına ifadə olunur, bəzən isə elə gizli olur ki, onu xüsusi olaraq aşkar etmək lazım gəlir. Bazar şərq kimi – «incə işdir»[20].

İctimai təsərrüfat sistemi kimi bazarın tərkibindən danışarkən qeyd etmək lazımdır ki, bazar – *təkcə mübadilə yox, həm də istehsal sferasıdır*. Bazardan o vaxt danışmaq olar ki, əmtəə mübadiləsi baş versin, alqı-satqı getsin, ticarət (tədavül) sferası fəaliyyət göstərsin və s. Əmtəə tədavülü sferası olmadan bazar yoxdur. İstehsal sferası olmadan da tədavül sferası

mövcud ola bilməz. İş təkcə nemətlərin istehsalı faktında yox, həm də bu istehsalın şərtləri və nəticələrindədir. İstehsal, nemətlərin istehsalına münasibətdə neytral deyil, o, onu canlı şəkildə əvvəlcədən müəyyən edir. Buna görə də bazar – həm ticarət, həm də, ictimai istehsaldır. Məgər qiymət, təklif və tələbi istehsal, onun şərtləri və tələbatları, onun «direktivləri» olmadan təsəvvür etmək olarmı? Əlbəttə olmaz. Ona görə də bazarı xarakterizə edərək tədavüllə məhdudlaşmaq olmaz: istehsalı da yada salmaq lazımdır (yeri gəlmişkən, bizim iqtisadi subyekt bunu hər zaman yadda saxlayır)[21].

Bazarı başa düşmək – həm də onun təşkili mahiyyətini açmaq, *bazar mexanizmini* göstərməkdir. Məqsədi özünü təkrar istehsal etməkdən ibarət olan iqtisadi subyekt nemət istehsal edir və onu ona lazım olan başqa nemətlərlə mübadilə edir. O, bunu, istisnasız olaraq, bütün obyektiv şəraitlərini nəzərə alaraq, öz təsərrüfat fəaliyyətinin bütün natural (təbii) və iqtisadi parametrlərindən zəruri və mümkün olduğu qədər istifadə edərək öz qərarı ilə edir. Subyekt öz iqtisadi hesabını aparır. Burada nəzərə almaq lazımdır ki, iqtisadi subyekt eyni zamanda tələb və təklif agenti kimi çıxış edir. Subyekt iqtisadi hesabalama apararaq öz tələb və təklifini balanslaşdırır, satış və tədarükat qiymətlərini tələb və təklifin bu balansına uyğunlaşdırır. Subyekt tələb və təklifin «sonunu» qiymətlərin «sonu» ilə birləşdirərək özünün iqtisadi təkrar istehsalını həyata keçirir[22].

Eyni zamanda, subyekt onun kimi iqtisadi hesablama əsasında fəaliyyət göstərən başqa subyektə də təkrar istehsal olunmağa imkan verir. Bütün fərdi tələb, təklif və qiymətlər öz aralarında tarazlaşır. Son nəticədə onların yerinə ictimai, yəni ictimai təkrar istehsal prosesi tərəfindən təsdiq olunmuş tələb, təklif və qiymətlər gəlir. Eyni zamanda, yenə də ictimai məcmu tələb və təkliflər həcmlərinə görə onlara uyğun gələn qiymətlər də ortaya çıxır. İctimai təklif, tələb və qiymət bütün subyektlər cəmiyyətinin təkrar istehsal tələbatını əks etdirir. Təsərrüfatçılığın fərdi parametrləri müəyyən ümumi tamlıqda reallaşaraq ictimai təsərrüfatın məcmu parametrləri ilə əlaqələndirilir.

Təsərrüfat və ticarət subyektlərinin iqtisadi birliyi, uğurlu təsərrüfat subyektlərinin və bütünlükdə subyektlər birliyinin təkrar istehsal tələbatlarını təmin etməlidir. Təkrar istehsalın tələbatları – cəmiyyət üzvlərinin normal həyat fəaliyyətini təmin edən tələbatlardır, amma həm də bütünlükdə subyektlər birliyinin mövcudluq və inkişafetmə imkanlarını müəyyən edir. Göstərilən tələbatlar real həyat tələbatlarından yaranır, çox vaxt təkcə iqtisadi yox, həm də natural əsasa malik olur, subyektiv şəraitlərdən çox obyektiv şəraitlərlə diktə olunur. Hətta sanki tamamilə uydurma, süni xarakterli artıq tələbatlar belə, natural tələbatların öncədən təmin olunması nəticəsində real tələbatlara çevrilir[23]. İradi seçim tələbatın yalnız nisbətən yüksək, yəni artıq kifayət qədər süni səviyyələrində, əsas təkrar istehsal tələbatları təmin olunduqda mümkündür.

«*Subyekt-rəqib öz təsərrüfat resursları üzrə müstəqil qərar verir və o, bazara öz təsərrüfat parametrləri ilə çıxır. Lakin rəqabət mübarizəsi və bazar təzyiqi nəticəsində fərdi parametrlər dəyişikliyə uğrayaraq ictimai parametrlərə uzlaşırlar. İqtisadi subyekt, son nəticədə, əvvəlcədən istədiyi şeyə deyil, xarici rəqabət və bazarın ona imkan verdiyi şeyə nail olur.*

*Azad rəqibə qarşı azad bazar da durur. Rəqib azad şəkildə bazara təqdim edir, bazar isə azad şəkildə onu təlqin edir. Son nəticədə azadlıq qeyri-azadlıqla əlaqələnir. Hədsiz rəqabət həddə malik olur – öz-özündən və bazardan (bu, rəqabətin rəqabət birliyindən). Rəqabət hədlərlə hesablaşaraq onları dəf etməyə çalışır. Hədlər hədsizliyə sürükləyir. Hədsizlik hədliliyə gətirib çıxarır və bu, sonsuzluğa qədər davam edir. Rəqabət və bazar bir-birini tamAmlayır, onlar qarşılıqlı olaraq bir-birlərinə nüfuz edir və bir-birlərinə çevrilir*».

S. D. Mezensev

Əgər fərdi təkrar istehsal parametrləri subyektlər tərəfindən tamamilə dərk olunursa, onlar tərəfindən şüurlu şəkildə təyin edilir və korreksiya olunursa, onda ictimai təkrar istehsal parametrləri özlərini yalnız ümumi ticarət mübadilə-qiymətləndirmə prosesində onun nəticəsi kimi ifadə edir. Xüsusiləşmiş, müstəqil, sərbəst fəaliyyət göstərən subyektlər birliyinin ictimai tələbatlarının aşkar edilməsinin başqa üsulu yoxdur və ola da bilməz. Bu da elə məhz ictimai təkrar istehsalın reallaşdırılmasının bazar, daha dəqiq desək, *rəqabət-bazar üsuludur*. Burada iqtisadi hesab hökm sürür, rəqabət

işləyir, kütləvi davranışlar ortaya çıxır, ictimai tələb formalaşır və ictimai təklif reallaşır, bazar qiymətləri əmələ gəlir və bütün bunlar düzlərlə səhvlərlə, qabarmalarla çəkilmələrlə, əldə etmələrlə və əldən qaçırmalarla həyata keçir. Rəqabət və bazar təsərrüfat subyektlərinin bir an belə dayanmayan «sürtülməsini» həyata keçirir, bütün təkrar istehsal parametrlərinin - həm iqtisadi, həm natural, həm obyektiv, həm subyektiv, həm material, həm ideal, həm təsərrüfat, həm də qeyri-təsərrüfat - qarşılıqlı uyğunluğunu axtarır və tapırlar[24]. Bazar və rəqabət niyə buna müvəffəq olur? Ona görə ki, rəqabət və bazar subyektlidir, çünki onların içərisində və onlar vasitəsilə insan fəaliyyət göstərir, çünki insan olmadan nə bazar, nə rəqabət, nə də iqtisadiyyat ola bilər (*Y.M.Osipov*).

Nemətlərin mübadiləsi mühümdür, amma nemətlərin qiymətləndirilməsi də mühümdür. Qiymətləndirmə – bazarın təşkilində, bazar mexanizminin fəaliyyətində ən başlıca andır. Bazar mexanizmi *tamamən dəyər mexanizmidir*. O, qeyri-dəyər tipli ola bilməz, dəyər olmadan o, fantaziyaya, heçliyə çevrilir. Amma dəyərin də bazar və rəqabətə ehtiyacı var. Dəyər – daimi bərabərləşdirmələr, fasiləsiz axtarışlar, sonsuz nizamlamalar prosesidir. Elə bir prosesdir ki, burada həm mikroproseslər, həm makroproseslər, həm də mezoproseslər (sahə və regional) eynilə vacibdir. Bu prosesdə kütləvi sayda fəaliyyət göstərən şəxs və elementlər iştirak edir, bunlar prosesdə fəal və eyni zamanda iştirak edirlər. Bu, sonsuz sayda qarşılıqlı təsirlər, qətiyyən təsadüfi və əsla mənasız olmayan, amma sonsuz sayda çox və həddən artıq müxtəlif qarşılıqlı təsirlər prosesidir. Bu, həm də kütləvi, birtipli hadisələr, təbii müəyyənliklərdən yaranan öncədən deyilə bilən ehtimallar prosesidir. Bu elə prosesdir ki, məhz rəqabət-bazar əsasında və çərçivəsində həyata keçirilə bilər[25]. *Dəyər, rəqabət, ticarət və bazarın qarşılıqlı əlaqəsi – üzvi qarşılıqlı əlaqədir*.

Bütün tələb, təklif və qiymətlərin qarşılıqlı təsiri öz aralarında fərdi və ictimai təkrar istehsal parametrlərini əlaqələndirməyə, onları ümumi təkrar istehsal qaydasını əks etdirən əlaqələndirməyə və uyğun şəklə salmağa imkan verir. Hər bir müvəffəqiyyətli subyekt (əgər belə demək olarsa) özünü subyektlərin təkrar istehsal birliyində tapır və təkrar istehsal üçün şans əldə edir. Təkrar istehsalın ictimai şərt və parametrləri fərdi şərt və parametrlər əsasında yaranır. Ardıcıl iqtisadi təsərrüfatda başqa variant yoxdur. Lakin ictimai şərt və parametrlər, bir qayda olaraq, fərdi, daha dəqiq desək, ilkin fərdi şərt və parametrlərdən fərqlidirlər. Son nəticədə

təkrar istehsalın şərt və parametrlərinin ümumi uzlaşması baş verir, bazar qiymətləri, tələb və təklifləri qələbə çalır.

İqtisadi subyekt təsərrüfatın bazar sisteminə uyğun gəlməli, onun mikrohüceyrəsi olmalıdır. Subyektin sahib olduğu azadlıq nisbi və məhduddur. Subyektin improvizasiya və variasiya imkanları var lakin müəyyən hədlərdə, başlıcası isə qarşılıqlı əlaqədə, rəqib heç də hər şeyə qadir deyil və yalnız özü üçün azad məkan tapa, yaxud artıq azad məkanı aşkar etdikdə nə isə güclü fəaliyyətə qərar verə bilər. Beləliklə, bazar mexanizmi – subyektlərin iqtisadi davranışı, onların iqtisadi hesablamaları, onların rəqabət mexanizmidir; bu, qiymətlərin, tələb və təklifin qarşılıqlı təsiri, onlar tərəfindən qarşılıqlı uyğunluğun və qarşılıqlı əlaqəliliyin axtarılması mexanizmidir; bu, təsərrüfat təkrar istehsalının natural tələbatlarını da nəzərə ala bilən iqtisadi qurulmalar mexanizmidir. *Bazar mexanizmi – iqtisadi parametrlərin daimi oyunu, onların fasiləsiz dəyişmələri, qarşılıqlı şərtləndirilmiş tendensiyalar mexanizmidir, bütün bunların arxasında isə iqtisadi təsərrüfatda oynayan subyektlərin mexanizmi durur.*

Bazar mexanizmi sayəsində vahid təkrar istehsal kompleksi yaranır, bu kompleks çərçivəsində ticarət və təsərrüfat subyektləri özlərini və bütünlüklə subyektlər birliyinin təkrar istehsalını təmin edərək bir-birlərini tamamlayır. Bazarı formalaşdıran subyektlər onu yaratmır. Bazar – özüyaranan sistemdir və bir-birlərini qarşılıqlı tamamlayan iqtisadi subyektlərin kütləvi şəkildə meydana çıxması ilə bağlı olaraq yaranır. Bazar öz-özlüyündə nə daxil edilmir, nə də tətbiq olunmur, o, iqtisadi subyektlərin özünü təşkil etməsi nəticəsində yaranır. Bazara sahib olmaq istəyirsənsə, iqtisadi subyektləri həvəsləndirməlisən.

Bazarın özünü təşkil etməsi – təkcə subyektlərin yox, həm də ticarətin, yəni əmtəə və pulun «işidir». Sonuncular belə özünü təşkil etmədə həm passiv əmri icra edənlər, həm də fəal müstəqil güclər kimi iştirak edirlər. Subyektlər bir yana, bazarda kütləvi sayda əmtəə və pullar öz həyatları ilə yaşaya bilirlər (bazarın hər hansı əmtəələrlə həddən artıq doyması, misal üçün, bu əmtəə agentlərindən heç kim bunu arzu etmir, amma doyma, buna rəğmən, baş verir və bu, onların vəziyyət və davranışlarına təsir göstərmək üçün təsərrüfat subyektlərinə təzyiq göstərir; bunu, qiymətləri dəyişən, iqtisadi hesablamalara təsir göstərən bazarın pullarla həddən artıq dolması haqqında da demək olar). *Mülki təsərrüfat vasitəçiləri – bazar özütəşkilinin mühüm qeyri-subyekt amilləridir*[26].

Bazarın özütəşkil olunan olmasını nəzərdə tutaraq, biz o faktı diqqətdən qaçırmamalıyıq ki, bazar bizim özütəşkillə müqayisədə qeyri-özütəşkil kimi müəyyən etdiyimiz, yəni verilmiş halda, özütəşkilə kənardan gələn təşkiletmə olmadan mövcud ola bilməz.

Bizim nəticəmiz aşağıdakından ibarətdir: bazar, öz mənbələrinə görə qeyri-bazar, həm də öz mənbələrinə görə bazar təşkiletməsinə məruz qalır. Bu təşkiletmə rəqabətin, mikrotəsərrüfatçılığın və iqtisadi münasibətlərin institutsional təşkilinə aiddir. Rəqabətin təşkili artıq elə bazarın təşkilidir. Lakin bazar, artıq subyektlərə və onların münasibətlərinə yox, təsərrüfat məkanına (lokal və ya ictimai), ümumiyyətlə iqtisadiyyata şamil edilən xüsusi təşkiletməyə də malikdir. Bazarın belə təşkilinə, misal üçün, pulun təşkilini və iqtisadi sərhədlərin təşkilini və həmçinin, əsas etibarilə – ticarət sisteminin təşkilinə aid etmək olar[27].

*Bazar – təkcə özünü təşkil edən yox, həm də təşkil olunan təsərrüfatdır.* Bunu diqqətdən qaçırmamaq lazımdır. Çünki əks təqdirdə, bazar haqqında yanlış təsəvvür yarana bilər. Bazarın nə təbiiliyini, nə də onun iradi təşkilatlardan asılılığını həddən artıq şişirtmək olmaz. Nə bazar azadlığının, nə də onu təşkil edən qeyri-azadlığın əhəmiyyətini azaltmaq olmaz. *Özü təyin olunan bazar qaydası təyin olunan qayda ilə üzvi şəkildə əlaqələnir.*

## 4. TİCARƏT VƏ BAZARIN FƏALİYYƏT XÜSUSİYYƏTLƏRİ

Ticarət kimi bazar da sosial təşkilatdır. Bu, təsərrüfat cəmiyyətinin xüsusi təşkilatıdır və şübhəsiz iqtisadi təşkilatdır. Ümumiləşmiş şəkildə demək olar ki, *sosial-iqtisadi təşkilatdır*. Amma biz bazar fenomeninin başqa tərəfini – naturallığını da unutmamalıyıq.

Bazar təbii təşkiletmə əsasında yaranır və mövcud olur. Çünki nemətlərin və insanın istehsalı, ilk növbədə, təbii prosesdir və bu təbiilik öz qaçılmaz təsirini istənilən təsərrüfat təşkilatına, o cümlədən, bazara göstərir.

Bazar öz natural əsasından gedə bilməz və getmir, onu mənimsəyir və ona istiqamətlənir. Bazarın özünü formalaşdırması və tənzimləməsini, istənilən təsərrüfatın, o cümlədən, bazar təsərrüfatının əsası kimi çıxış edən, artıq formalaşmış və tənzimlənmiş təbii natural bazis olmadan təsəvvür etmək çətindir. Bazar, nə təsərrüfat həyatının təbii şərait və parametrlərinə, nə də öz subyektlərinin həyat fəaliyyətinin təbii-maddi müəyyənliyinə

əhəmiyyət verməyə bilməz. *Dəyərin formalaşması və hərəkəti – natural-iqtisadi prosesdir*[28]. Ticarət və bazar mexanizminin təsviri bir sıra fundamental uyğunlaqları fərqləndirməyə imkan verir: iqtisadi subyekt – iqtisadi subyektlər birliyi; mikrotəsərrüfat – makrotəsərrüfat; subyektin özütəşkili – subyektlər birliyinin özütəşkili. Biri digərini, əks olanı nəzərdə tutur, biri digərini inkar edir, biri digəri olmadan mövcud olmur. Qiymət subyektin təsərrüfatçılıq etməsinin mahiyyəti rəqabətlə, iqtisadi subyektin təsərrüfat fəaliyyətilə məşğul olmasının, başqa cür desək, iqtisadi birliyin təşkilinin (özütəşkilinin) mahiyyəti bazarla ifadə olunur. Rəqabət bazara, bazar isə rəqabətə ziddir[29].

> «*Hər bir nemət-əmtəə öz təklif, tələb və qiymətə malikdir. Hətta demək olar ki, iqtisadiyyatda iştirak edən hər bir nemət-əmtəə təklif, tələb və qiymətin vahidliyidir. Bu vahidlik təklif, tələb və qiymətlərin təsirindən, onların bir-birlərinə qarşılıqlı təsirlərindən çox, nemət-əmtəənin təsərrüfat agentlərinin birliyi üçün zəruri olan bütün nemət-əmtəələrin birlikdə təkrar istehsalına aiddir. Təklif, tələb və qiymətin nisbəti cəmiyyət üçün lazım olan nemət-əmtəələrin təkrar istehsalının şərtlərini yox, cəmiyyət üçün lazım olan nemət-əmtəələrin təkrar istehsalı təklif, tələb və qiymətin nisbətini diktə edir*».
>
> Y. M. Osipov

Rəqabət əmtəə vasitəsilə aparılır, bazar isə əmtəələrin qarşılıqlı fəaliyyəti, yəni ticarət vasitəsilə həyata keçirilir. *Mükəmməl rəqabət – dəyər rəqabəti, mükəmməl bazar – dəyər bazarıdır*. Rəqabət dəyərin təkrar istehsalı, onun böyüməsi, bazar da dəyərin təkrar istehsalı və cəmiyyət miqyasında böyüməsidir. *Rəqabət və bazarın qarşılıqlı fəaliyyəti və qarşılıqlı çevrilməsi dəyərlərin, həm xüsusi, həm də ictimai (ümumi) dəyərlərin qarşılıqlı fəaliyyəti və qarşılıqlı çevrilməsidir*. Dəyər təkcə rəqabətin məqsədi yox, həm də onun vasitəsi, təkcə bazarın şərti yox, həm də onun nəticəsidir. Nə natural-maddi, nə də dəyər proporsiyaları olmadan keçinmək olmaz. Rəqabət və bazarın mübarizəsi – *dəyərlərin təkrar istehsalının dəyər proporsiyaları uğrunda mübarizəsidir*.

Əmtəə və pul olmadan iqtisadi təsərrüfat da yoxdur. Əmtəələr və pullar – tələbat münasibətlərində əşyavi (mülki) vasitəçi, amma özlərini ifadə etməyi bacaran və fəal rol oynayan vasitəçilərdir. Subyektlərin əmtəə və pulları idarə etdiklərinə baxmayaraq, sonuncular həm təkbaşına, həm də onların arxasında durmuş agentlərin İradələrini yerinə yetirərək sub-

yektlərin özlərini idarə etmək qabiliyyətinə malik olurlar. Təkcə münasibət və şəxslərin maddiləşməsi (bütün münasibətlər əmtəə və pullar vasitəsilə, onların vasitəçiliyi ilə və şəxsi-maddi nümayəndəliyi) ilə yox, həm də cismin insan üzərində hökmüranlıq etməsi effekti reallaşır (əmtəə bazara gedir, ya getmir, kreditə pul götürdümü, ya götürmədimi, infliyasiya varmı, yoxsa yoxmu və s.). İqtisadi subyekt əmtəə və pulların mövcud olması davranışından, onların nisbi keyfiyyətindən və əhəmiyyətindən asılıdır. Subyekt cismlərin hərəkətinə oriyentasiya edir, cismlərin hərəkəti isə agentin iradəsindən asılı olmayan güclərlə – başqa rəqabət və bazarlarla müəyyən olunur. Subyekt reaksiya verir və uyğunlaşmağa çalışır[30].

Lakin bu elə də asan iş deyil, çünki insan fəaliyyəti elə rəngarəngdir ki, hər zaman subyekti seçim problemi qarşısında qoyur. Ancaq ticarət-iqtisadi münasibətlərin məntiqi elədir ki, *cismin varlığı iqtisadi subyektin varlığını müəyyən edir*. Subyektin şəxsi azadlığı və müstəqilliyi onun üçün cismi qeyri-azadlıq və asılılığa çevrilir. Subyektin davranışı cismlərin davranışından asılıdır. Cismlərdən, hər şeydən əvvəl, pullardan subyektin gücü, onun real imkanları və *iqtisadi hakimiyyəti* də asılıdır. İqtisadi subyekt – cismlərin agenti və cismi agentdir. İnsan, şüur, şəxsiyyət – bunlar hamısı yaxşıdır, lakin reallıqda başqa bir şey də var: insan-cism, şüur-cism və şəxsiyyət-cisim[31]. Bütün bunlar ticarət fəaliyyəti vasitəsilə ifadə olunur.

Ticarət kimi bazar da ictimai təsərrüfat sisteminin təbiətinə, sosiumuna və mədəniyyətinə daxildir. Əgər nəzərə alsaq ki, istənilən iqtisadi təsərrüfat həqiqətdə təkcə bazarla, yəni təkcə bazar motivləri və kriteriyaları ilə, bazar üsulu ilə deyil, həm də təbiətlə, dövlətlə və ümumilikdə cəmiyyətlə təşkil olunursa, onda belə düşünmək yerinə düşərdi ki, bazar təsərrüfatında öz-özlüyündə bazarın rolu çox böyük olmalıdır. Bu da aşağıdakı deməkdir: *iqtisadiyyat çərçivəsində cəmiyyət səviyyəsi və miqyasında əsas təşkiledici güc bazardır* (bütöv özünü təşkil edən iqtisadi subyekt-rəqiblər birliyi kimi və onların sərəncamındakı əmtəə və pullarla birlikdə).

Bazar təsərrüfatı – *ictimai istehsalın təşkilində başqa, yəni qeyri-bazar təşkiletmə mexanizmləri arasında əsas rolun bazara məxsus olduğu təsərrüfatdır*. Onun fəaliyyət göstərməsinin əsas şərtləri, birincisi, bazar təsərrüfat fəaliyyəti imkanı. Əgər o, bir tərəfdən, təsərrüfatın naturallığını və onun təşkilini inkar edirsə, digər tərəfdən təsərrüfat həyatının natural bazasını təsdiq edir və saxlayırsa. Əgər naturanın inkar edilməsi ilə hər şey az-çox aydın (iqtisadi olan natural olana qarşı durur) olursa, onun təsdiq edilməsi ilə hər şey

aydın görünmür. Bazar natura üzərində «uça» bilməz, o, ona istinad etməli və onu özünə mənimsəməlidir. Naturallıq bazarın bazis nizamlılığını, onun fundamental bölüşdürücü strukturunu təmin edir və bununla da bazar natural sferadan kənara çıxaraq və onun üzərindən yüksələrək improvizasiya etməyə və oynamağa imkan verir[32].

İkincisi, bazar təsərrüfatı – təsərrüfat gücləri, amilləri, məhsul və pullarının nisbi bolluğu şəraitində reallaşır. Bu fenomenə, heç də artıq olmayan təsərrüfat gücləri, amilləri, məhsul və pullarının yox, bazar mexanizmi üçün zəruri olan və bütün ictimai təsərrüfat sistemini lazımi təkrar istehsal qaydasına gətirən yüksək – kəmiyyətlərin mövcud olması kimi baxmaq lazımdır.

Əgər özünü təşkil edən sistem daxili tarazlığa, yəni bütün mubadilə nisbətlərinə təklifin tələbə nisbətən yüksəldilməsi, yəni haqqında söhbət gedən artıqlıq və ya nisbi bolluq vasitəsilə nail olmursa, bəs nə ilə nail olur? Yalnız artıqlıq tələbin doymasından xəbər verir, yalnız nisbi bolluq tarazlığa təzyiq göstərir. Yalnız onların nəzarətdə saxlanması şərtilə təkrar istehsal intizamı mümkündür.

Təsərrüfat güclərinin, amillərin, məhsul və pulların nisbi bolluğu bazar təsərrüfatının özünü təşkil etməsi, onun tərəfindən daxili dayanıqlığın axtarılması, zəruri struktur nisbətləri və proporsiyalarının müəyyən edilməsi üçün mütləq surətdə zəruridir.

> *«Bazarda qiymət necə olmalıdır – azad və ya qeyri-azad? Bir qisim insan cavab verəcəkdir ki, rəqabətin iqtisadi cəhətdən ədalətli qiymətlər təyin etməsi üçün azad olmalıdır; digərləri belə cavab verəcəklər ki, bazarda iqtisadiyyat və rəqabətin özü üçün ədalətli qiymətlərin təyin olunması üçün qeyri-azad olmalıdır. Bəs bunlardan kim haqlıdır? Ayrı-ayrılıqda heç biri. Qiymət həqiqətdə azad-qeyri-azaddır, o, eyni zamanda şərait və məhdudiyyətlərlə bağlıdır, həm də bağlı deyildir, yəni həm hədlidir və eyni zamanda hədsizdir. Qiymət müxtəlif hədləri nəzərə almaya bilməz, lakin qiymət müxtəlif hədlərə əhəmiyyət verməyə də bilməz. Əks təqdirdə, özünəməxsus tarazlıq-qeyritarazlıqları, statikliyi-dinamikliyi, stabilliyi-qeyri-stabilliyi, dəyişməzlikləri-dəyişkənlikləri olan ticarət mövcud olmaz».*
>
> Y. M. Osipov

Üçüncüsü, bazar təsərrüfatı hər zaman *xarici institutsional təşkiletmə* çərçivəsində və onun köməyilə, bir çox hallarda isə həm də *xarici funksional təşkiletmənin* iştirakı ilə də həyata keçirilir. Qaydalar və ümumi qəbul olunmuş davranış normaları, onlara riayət edilməsi mexanizmi olmadan ən sadə

məcburiyyətdən belə çəkinməyən bazar təşkiletməsi qeyri-mümkündür. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə geniş miqyaslı və çoxşaxəli təsərrüfat qanunvericiliyi, o cümlədən müxtəlif növ inzibati qanunlar toplusu və aktlar fəaliyyət göstərir. Bazar, yalnız onun hər şeyi əhatə edən qanunverici-inzibati rəsmiləşdirilməsi zamanı, rəngarəng nəzarətedici institutların fəal rolu şəraitində (heç olmazsa, gömrüyü yada salaq) fəaliyyət göstərə bilər.

Bazar, həmçinin, öz işinin düşünülmüş şəkildə dəqiqləşdirilməsi, tez-tez isə onun birbaşa tamamlanmasına ehtiyac duyur. Bazar, onun «filosoflarının» qeyd etdiklərinə görə, hər zaman haqlıdır, amma cəmiyyət kənd təsərrüfatını, nəqliyyatı, infrastrukturu, kömür istehsalını, səhiyyəni, mədəniyyəti, elmi, təhsili, əmtəə istehsalçılarının böyük qruplarını, məsələn, sənətkarları və xırda tacirləri, əhalinin böyük təbəqələrini və geniş regionları bazardan qorumalı və onları iqtisadi cəhətdən dəstəkləməli olur. Təkcə pul sisteminə yox, həm də bank sferasını, xarici əmtəə mübadiləsinə və investisiya prosesinə nəzarət etmək lazım gəlir. Cəmiyyət şüurlu surətdə təsərrüfatın strukturu ilə məşğul olur, onu dəyişir, yeniləşdirir və təkmilləşdirir. Bazarın özü, daha dəqiq desək, adətən konyunktur adlandırılan kateqoriya, yəni iqtisadiyyatın cari vəziyyəti də diqqətdən kənar qalmır. Əmtəələri ictimai tələb və təklifinə, ssuda faizinin hərəkətinə təsir göstərilir. Cəmiyyət hətta qiymətəmələgəlmənin gedişinə belə müdaxilə etmək məcburiyyətində qalır, gəlirlərin bölüşdürülməsi və yenidən bölüşdürülməsi ilə, daima məşğul olur. *Bazar heç də hər şeyə qadir deyil və heç də hər şey bazarda yaxşı alınmır*[34]. Bazar zəruridir, lakin o hər yerdə, hər şeyə qadir deyildir, Bazar əlavə təşkilata və təkcə onun yanında fəaliyyət göstərən təşkilata yox, onun tərkibinə daxil olan təşkilata ehtiyac duyur.

Belə əlavə təşkilat hər zaman kapitaldır. Onun bazar təsərrüfatı ilə əlaqəsi hər zaman üzvidir. Qeyd edək ki, əvvəlcə o, ticarət kapitalı kimi meydana çıxır, formalaşır və mövcud olur. Lakin təsərrüfat və iqtisadiyyatın sonrakı inkişafı göstərir ki, pulların artması yalnız müstəqil iqtisadi təsərrüfatçılıqda, uyğun olaraq isə – yalnız rəqabət və bazar şəraitində mümkündür, əks təqdirdə, bu, artıq artım yox, pulların hansısa xarici şüurlu iradə tərəfindən təşkil olunmuş, heç bir azad təşəbbüs, rəqabət və bazarla şərtləşməyən zorla artırılması olacaqdır.

Kapital rəqabət və bazar olmadan mövcud ola bilməz və bu mənada bazar təsərrüfatı – mütləq surətdə kapitalla həyata keçirilən kapital təsərrüfatıdır. Əgər yaxşı düşünsək, başqa nəticəyə də gələ bilərik: bazar təsərrüfatı, özlüyündə rəqabət də kapitalsız mövcud ola bilməz[35]. Amma həm də aydındır ki, o, bazar təsərrüfatının bütün fəaliyyət mexanizmlərini şərtləndirən ticarətsiz də mövcud olmur.

## 5. BAZAR MEXANİZMİ VƏ TİCARƏT FƏALİYYƏTİ

*Bazar mexanizmi üzvi olaraq ticarət-iqtisadi təsərrüfata xasdır.* Bazarsız iqtisadiyyat və ticarət ola biməz, bazar isə ticarət-iqtisadi tərkibsiz mövcud olmur. Bazarı inkar etmək – iqtisadiyyatı inkar etməkdir, iqtisadiyyatı inkar etmək isə bazarı inkar etməkdir. SSRİ-də ictimai təsərrüfat təşkilatlarının təcrübəsi bunu inandırıcı şəkildə təsdiq etmişdir. Təsərrüfatdan pulların, yəni iqtisadi başlanğıcın sıxışdırılması bazarın (əlbəttə gizli bazardan başqa) yox olmasına gətirib çıxarır; təsərrüfat təşkiletməsindən bazar mexanizminin sıxışdırılması və onun planlı-inzibati təşkiletmə ilə əvəz olunması iqtisadiyyatın yoxa çıxması ilə sona çatır (hər halda, mahiyyət etibarilə). *Bazarla iqtisadiyyatın və bazarla ticarətin qarşılıqlı əlaqəsi şübhəsizdir.*

Eyni zamanda nəzərə almaq lazımdır ki, iqtisadiyyat və bazar, təsərrüfatçılığın iqtisadi sistemi və bazar mexanizmi sinonimlər və eyni şeylər deyildir. İqtisadiyyat sistemi tərkibinə görə bazara nisbətən daha zəngindir, o, özünə həm özünü, həm də heç cür bazar adlandırıla bilinməyən elementi, məsələn, dəyər axınlarının dövlət institutsional təşkiletməsini (vergi, büdcə, dövlət xərcləri) daxil edir. Bazarı təşkil edən iqtisadi təsərrüfat subyektlərinin özləri də təkcə bazarın subyektləri (bazar agentləri) kimi yox, həm də qeyri-bazar subyektləri kimi çıxış edirlər, çünki onlar təkcə bazar üsulu ilə, yəni bazara müvafiq olaraq, təkcə bazarda və bazar üçün fəaliyyət göstərmirlər. İqtisadiyyatın bazardankənar sferası mövcuddur, qeyri-bazar motivləri fəaliyyət göstərir və təsərrüfat fəaliyyətinin bazardankənar oriyentasiyası baş verir.

Ən əsası isə ondan ibarətdir ki, iqtisadi təsərrüfat subyektləri sadəcə olaraq bazarı təşkil etmirlər, onlar bazarı *yaradır, onu ərsəyə gətirirlər. Bazar subyektləri yaratmır, subyektlər bazarı yaradır*[36].

Bü mühüm vəziyyətdən belə çıxır ki, bazarın subyektlərin fəaliyyətlərini müəyyən etdiyinə, subyektlərin bazar qarşısında necə əyildiklərinə, subyektlərin bazarın hər şeyə qərar verərək onlar üzərində hökmüranlıq etdiyini düşünmələrinə baxmayaraq, bazar yenə də subyektlərin törəməsi olaraq qalır, o, öz-özünə, yəni subyektlərin fəaliyyətindən kənarda yaranmır və mövcud olmur iqtisadi subyektlər birliyi çərçivəsində, nə iqtisadi subyektləri, nə də onların birliklərini tamamilə udmayan özünəməxsus üstqurum kimi çıxış edir. İqtisadi təsərrüfat subyektləri, əlbəttə ki, bazara tabedirlər, onlar onun mütəşəkkil təsirini qəbul edirlər. Lakin nəticə olaraq

onlar bazarın məhsulları kimi çıxış etmirlər, əksinə, bazar yekunda subyektlərin məhsulu kimi çıxış edir. Bu isə o deməkdir ki, iqtisadi təsərrüfat subyektləri nəticə olaraq *bazar subyektləri deyildir, onlar öz fəaliyyətləri prosesində subyekt, bazara bütünlüklə yox, yalnız bir tərəfdən yanaşan, tamamilə yox, qismən bazar subyekti olurlar*. İqtisadi təsərrüfat subyektləri – mürəkkəb bazar-qeyri bazar (həm də əvvəl qeyri-bazar, sonra bazar) subyektləridir.

Bazar (nəticə etibarilə ticarət) subyektləri özündə nəyi əks etdirir?

İlk növbədə, bazar subyektləri kimi bilavasitə iqtisadi subyektlər – əmtəə mübadiləsi iştirakçıları, satıcı və alıcılar, təklif və tələb agentləri, istehsalçılar və istehlakçılar, qiymət agentləri çıxış edirlər. Şübhəsiz ki, iqtisadi subyektlər arasında əsas rolu bazarın fundamental nüvəsini təşkil edən *təsərrüfat subyektləri* oynayır.

Ancaq bazar subyektləri arasında biz, həm vasitəli iqtisadi, həm də tam iqtisadi (həmçinin, sözsuz ki, yarımiqtisadi) subyektlərə də rast gəlirik. Bunlar hansılardır?

Bazarı təşkil edən subyektlər – müəssisə-subyektlərdən (bazarlar, yarmarkalar, sərgi-satışlar, birjalar, ticarət palataları) tutmuş, yerli mərkəzi və inzibati aparatlara və ictimai təşkilatlara (ölçü və nüfuz palataları, ittifaq və korporasiyalar, komitə və nazirlik idarələri) qədər subyektləri əhatə edir. Heç bir müəyyən qədər inkişaf etmiş ba-zar idarəetmə təşkilatları, agent-təsisatlar sistemi və onların bəzi ierarxiyaları olmadan keçinə bilməz. Bazar – özlüyündə təkcə əmtəə agentlərinin məcmusu yox, həm də bazarı təşkil edən təsisatlar sistemidir.

Bazar subyektlərinin tərkibinə bazar münasibətlərinin reallaşdırılmasında fəal iştirak edən və nə əmtəə agentləri, nə də təşkilatçı agentlər olmayan funksional-subyektlər də daxildir. Bunlara maliyyə (fiskal) agentləri, gömrük xidmətləri, hüquqi agentlər (notarius, hüquq məsləhətçiləri), sanitar və başqa müfəttişlər, mühafizə xidmətləri (polis, milis və s.) aiddir. Belə subyektlər olmadan bazar mövcud olmur, o, fəaliyyət göstərə, dövlət və cəmiyyət tərəfindən qəbul oluna bilmir[37].

Gördüyümüz kimi, bazarın subyekt tərkibi çox rəngarəngdir. Onda təkcə keyfiyyətinə və funksiyalarına görə müxtəlif agentlər yox, həmçinin fərqli qatlar - agentlər məcmusu da öz əksini tapır. İstənilən bazar – mürəkkəb struktur törəmədir, həqiqi ictimai orqanizm, müxtəlif təsərrüfat – iqtisadi,

inzibati, müəssisə, təsisat, ictimai, qeyri-iqtisadi və s. subyekt bilikləri, onların bütöv və bəzən ierarxik təşkilatıdır.

Ticarətə münasibətdə isə burada bütün bazar parametrləri – qiymət, tələb, təklif və başqaları son dərəcədə ticarət-iqtisadi xarakter daşıyır. Onların bazar səciyyəli olmaları şübhə doğurmur.

İqtisadi təsərrüfat mexanizmi çərçivəsində hətta hələ institutsional təşkiletmə və tənzimləmə mexanizmi ilə təchiz olunmamış bazar mexanizmi, iqtisadi mexanizm üçün kifayət qədər üzvi olmasına baxmayaraq, törəmə və tamamlayıcı mexanizm kimi çıxış edir. Bazar mexanizmini, onun iqtisadiyyat üçün çox mühüm olan təşkilati effekti ilə birlikdə yetərincə qiymətləndirməmək və bütünlüklə iqtisadi təsərrüfat mexanizmini təmin edə bilməyən bazar mexanizminə isə həddən artıq əhəmiyyət vermək olmaz.

Bazar lazımdır, onsuz ticarət və iqtisadiyyat çərçivəsində keçinmək olmaz. Lakin bazarın zəruriliyi o demək deyildir ki, bazar qüdrətli, təşkil oluna bilməyən, nəzarət edilə bilməyən və qeyri-əlaqəli ola bilər və olmalıdır. Yuxarıda qeyd etdiyimiz kimi, bazar mexanizminin törəmə olması ondan xəbər verir ki, bazar qüdrətli, tamamilə azad və özbaşına ola bilməz və olmamalıdır. Bazar mexanizmi az və ya çox dərəcədə müstəqil, az və ya çox dərəcədə əhəmiyyətli ola bilər, lakin o, «prinsipial olaraq azad və müstəqil ola bilməz» (*Y.M.Osipov*).

> *«Bazar iqtisadiyyatı» söz birləşməsi tavtoloji (eyni fikrin və ya sözlərin başqa-başqa şəkillərdə lüzumsuz yerə təkrar edilməsi) söz birləşməsidir, çünki bazarsız iqtisadiyyat yoxdur, o, hər zaman bazar səciyyəlidir. «Azad bazar təsərrüfatı» fikri mütləq şəkildə yox, nisbi şəkildə düzgündür, belə ki, o, ümumən azad bazar təsərrüfatını deyil, başqa bazar təsərrüfatlarına nisbətən daha çox azad olan bazar təsərrüfatını ifadə edir. Təsərrüfat islahatının məqsədinin «bazar» olduğu haqqında tezis bir o qədər dəqiq deyil, hətta belə desək, heç dəqiq deyil, çünki islahatın məqsədi özlüyündə bazar yox, bazarın və həmçinin, kapitalın da daxil olduğu iqtisadiyyat ola bilər. «Məqsəd kapitalizmdir» demək daha düzgün, əhəmiyyətli və səmimidir. Müasir bazar kapitalsız nədir? Heç nə».*
>
> Y. M. Osipov

Ticarət bazardan ayrılmazdır. Lakin bazar, ticarət kimi, çox vaxt təklikdə, yəni hər hansı xüsusi təşkilati rol olmadan ortaya çıxır. Əlbəttə ki, belə bazar, bir qayda olaraq, qeyri-iqtisadi təsərrüfatı tamamlayan və

şərtləndirən lokal hadisə kimi meydana çıxır. Belə bazarlara nümunə kimi, feodal, kəndli, sənətkar, monastır təsərrüfatlarının həyat fəaliyyətini ifadə edən aqrar-peşə bazarı və həm də hətta inkişaf etmiş iqtisadiyyat şəraitində belə meydana çıxan qeyri-qanuni, gizli və yarım-gizli, qapalı və aşkar bazarlar çıxış edə bilər. Həqiqətən də bazar təsərrüfat həyatında müstəqil olaraq yarana bilər və yaranır da. Bu o demək deyildir ki, insan şüuru bazarın əmələ gəlməsində iştirak etmir, əksinə, bazar təsərrüfat agentlərinin iştirakı ilə, bunun üçün xüsusən nəzərdə tutulmuş niyyət olmadan yaranır.

> *«Bazar» sözünün özündən müxtəlif cür istifadə olunur. Bazar haqqında, misal üçün, alqı-satqı yeri («şəhər bazarı»), hər hansı əmtəə üzrə tələb və təklifin nisbəti (taxıl bazarı, əlvan metallar bazarı, EHM bazarı), tələbin mübadiləsi (böyük bazar, artan bazar), oriyentir-tənzimləyici (bazar göstərdi, bazar dedi, bazar qərara gəldi), bazarın cari vəziyyəti (bazar konyunkturu) kimi danışırlar. Bazar haqqında ən az fenomen-sistem kimi danışılır, onu elmi şəkildə müəyyən etməyə çalışdıqları zaman isə «tədavül sferası», «əmtəələr məcmusu», «qiymətlərin, tələb və təkliflərin nisbəti» kimi ifadələrlə məhdudlaşdırlar. Bazarın bu cür xarakteristikaları düzgün olsa da kifayət etmir. Biz, birinci növbədə, bazarın qlobal sistem xarakteristikasını, ikincisi, onun subyekt oriyentasiyasını tərcih edirik. Belə yanaşma zamanı bazar kifayət qədər canlı, bütöv və mükəmməl, ictimai təsərrüfat sistemi vasitəsilə özünü təşkil edən, bu sistemin fəaliyyətdə olan mexanizmi kimi çıxış edən xam-xəyal (fantaziya) kimi yox, əsasında və başında «təsərrüfatçı insanın» durduğu sağlam reallıq kimi görünür».*
>
> Y. M. Osipov

Bazarın özbaşına meydana çıxması imkanı onun vahid ictimai-razılıq və ya hakimiyyət-sərancamverici təşəbbüslə şüurlu şəkildə yaradılmasını istisna etmir. Bazarlar iri icma və feodalların, şəhərlərin, ticarət korporasiyaların və dövlət xadimlərinin iradəsi ilə meydana çıxır. Belə bazarlar, bir qayda olaraq, təsərrüfatın qeyri-iqtisadi üsullarını tamamlayır – amma, bununla belə məhz bazar kimi çıxış edir, çünki əmtəə mübadiləsi əsasında formalaşır və mövcud olur[38].

Reallıqda bazarın əmələ gəlməsinin hər iki imkanı – *təbii* və *iradi* – qarışıq olur; bazar, bir tərəfdən, onun yaranması üçün təbii ənənələrin, digər tə-

rəfdən isə şüurlu-ictimai və hakimiyyət-sərəncamverici göstərişlərin mövcud olduğu yerdə yaranır, əsası isə möhkəmlənir.

Biz qeyri-iqtisadi təsərrüfat şəraitində ortaya çıxan bazarlar haqqında yaranan və formalaşan iqtisadi təsərrüfat kimi danışdıq. Bazarın artıq inkişaf edən iqtisadi təsərrüfat çərçivəsində formalaşmasına gəldikdə isə o, özü üçün adekvat olan şəraitdə baş verir və buna görə də iqtisadiyyatın inkişafının tarixi yolunu təkrarlayır. Bazarsız iqtisadiyyat və ticarət yoxdur, həmçinin, ticarət və iqtiSAdiyyatsız da bazar yoxdur Çünki bazarın formalaşması iqtisadiyyatın formalaşması ilə, iqtisadiyyatın formalaşması isə bazarın formalaşması ilə üst-üstə düşür.

Bazarın özütəşkili də mühüm əhəmiyyətə malikdir ki, bu da bilavasitə bizneslə və sahibkarlıq fəaliyyəti ilə əlaqədardır. Bazarın özütəşkili iqtisadi agentlərin kifayət qədər azad şəkildə iqtisadi birliyə – bazara daxil olması və oradan çıxması, onların bir-birilə və bütün agentlər dünyası ilə rəqabəti, onlar təsərrüfat qərarları və aksiyaları, əmtəə mübadiləsi üzrə qarşılıqlı təsirləri vasitəsilə həyata keçirilir. Subyekt bazarının özütəşkili subyektlər və təbii ki, *özlərini müəyyən edən iqtisadi subyektər tərəfindən reallaşdırılır.*

Bazarın özütəşkili özünəxas məhdudiyyətlər və öz-özü üçün karkas çərçivələr yaradır. İstənilən azad fəaliyyət azad əks təsirlə qarşılaşır, gec-tez bu və ya başqa cür balans təyin olunur, kompromisə nail olunur, müvəqqəti də olsa, dayanıqlıq əldə edilir. Agentlər çox vaxt kifayət qədər uzunmüddətli razılaşmalara hazırdırlar. Özütəşkil – hədlər, tədricən özünü müəyyənləşdirmə, hədlərin qoyulması və əlbəttə ki, onların aradan qaldırılmasıdır. Vahid və uzunmüddətli azad qiymət – hədqoymanın bazar özütəşkilinin ən yaxşı göstəricisidir[39].

Lakin, şübhəsiz ki, bazar üçün ən səciyyəvi məhdudiyyətlərin xarici və eyni zamanda daxili mənbəyi onun, mahiyyət etibarı ilə, özütəşkilə əks olan şüurlu, iradi, çox vaxt sadəcə olaraq subyektiv təşkilidir. İnstitusional, funksional, strateji, operativ, hüquqi, müqavilə, inzibati, inhisar, gizli, kriminal, mikro, mezo, makro, meqo … hansı olursa olsun! *Bazar hər zaman və hər yerdə rəngarəngdir və qlobal təşkilatdır sözündən də qorxmayaq.* Bazarın təşkili bazarın özütəşkilindən az əhəmiyyətli deyildir, ola bilsin ki, daha əhəmiyyətlidir. Bundan başqa, çətin ki, *bazarın özütəşkilini onun təşkili olmadan* təsəvvür etmək mümkün olsun[40].

Bazar, eyni zamanda həm özütəşkiledən və həm də təşkil olunandır, hədlidir və «həddən-sonralıdır», cari və dayanıqlıdır. Bazar mütləq surətdə

hər zaman və hər yerdə azaddır. Bazar həddən artıq özbaşınadır, lakin bazar o qədər də özbaşına deyil. Bazar hər zaman və hər yerdə ram ediləndir, lakin o qədər yox ki, bazar olaraq mövcudluğunu dayandırsın. Bazar – yaradıcı məna və tərkibinə görə klassik təşkilatdır.

Ticarət, ictimai institut kimi, bazar şəraitində səmərəli şəkildə fəaliyyət göstərə bilər.

O, təbii-şüurlu surətdə, özünütəşkili və təşkili dialektik cəhətdən əlaqələndirərək ortaya çıxır, formalaşır, fəaliyyət göstərir və inkişaf edir. Bazar cəmiyyət, ilk növbədə, təsərrüfat subyektlərinin birliyi tərəfindən yaradılır, o, bu və ya digər formada cəmiyyətin, ictimai həyatın (həmçinin, təkcə təsərrüfat və ya son dərəcə iqtisadi həyatın yox) qurulan (təşkil edilən) hansısa məhsuludur. Bazar, ticarət kimi – ümumən cəmiyyətin təsisatıdır.

Belə bir sual meydana çıxır: əgər bazar ictimai institutdursa və cəmiyyət tərəfindən təsis olunursa, hər hansı plan üzrə bazar qurmaq olarmı? Bəli, olar, lakin ilk növbədə, bazara, daha dəqiq desək, təsərrüfat subyektlərinə özlərini qurma imkanının verilməsi şərtilə – özlərini müəyyənləşdirən təsərrüfat agentlərinin iqtisadi fəallığı olmadan heç bir bazar qurmaq olmaz. İkincisi, xaricdən, yəni hakimiyyət tərəfindən sistematik dəstəklə bazarın özünü formalaşdırması; üçüncüsü, hakimiyyət və cəmiyyət tərəfindən bütün bazar infrastrukturunun tikilməsi, onun təşkili (qeyri-özütəşkil) sisteminin yaradılması və istismara verilməsi. Deyilənləri nəzərə alsaq, belə çıxır ki, bazarın qurulması təşkiletmənin və özütəşkiletmənin konstruktiv qarşılıqlı fəaliyyəti nəticəsində, habelə hər hansı kifayət qədər ciddi və oriyentasiyalı layihə-plan üzrə (bazarın yaradılması – maşın və ya binanın yaradılması deyildir) mümkündür[41].

Əgər ticarət ortaya çıxır və formalaşırsa, onda bazar müstəqilliyin mütləq təmin olunması şərtilə hər zaman və hər yerdə qurulur. Bazar – institutdur, lakin cəmiyyət tərəfindən həm plan üzrə və ya sadəcə olaraq, niyyət üzrə, həm də ictimai təsərrüfatı həyat fəaliyyəti, onun özüoriyentasiya və «özüinkişafı prosesində yaradılan institutdur» (*Y.M.Osipov*).

Ticarət və bazarı onların institutsional xarakteri birləşdirir. Bu, özünə fəaliyyətdə olan subyektlərlə (istehsalçılar, tacirlər, bankirlər, vasitəçilər, sığortaçılar və s.) birlikdə *bazarın institusional-subyekt strukturunu* təşkil edən çoxlu sayda institutlar daxil edilən bazara aiddir. Misal üçün, yarmarkalar və ya gömrük, hüquqi və ya ənənəvi normalar haqqında danışarkən faktiki olaraq bazar institutlarına toxunulmuşdur; Onu da qeyd

edək ki, bütün bu institusional təşkilatlar mürəkkəb və rəngarəng ictimai institut kimi, bazarın tərkibinə daxildir, onlar onu təşkil edir və onlarsız bazar ümumiyyətlə yoxdur. Bazar – özlüyündə yalnız ictimai institut yox, *bütöv institutlar sistemidir*. Bazarın yaradılması – onun üçün zəruri olan bütün institutların yaradılmasıdır. Ticarət – bu yaradılışın ən mühüm alətlərindən biridir.

Əmtəələr, pullar və ticarət olmadan hansı bazar mövcud ola bilər? Bu, iqtisadi cəmiyyətin gündəlik olaraq bazarda pul müqabilində əmtəə alan hər bir vətəndaşına da aydındır. Bu, bazarın fəal agentlərinə xüsusilə aydındır – əmtəə və pulsuz bazarda heç bir iş yoxdur. Bazarda iqtisadi subyektlər öz əmtəə və pulları ilə birlikdə təmsil olunurlar, onlar münasibətlərə də əmtəə və pullar üzrə daxil olurlar. Deyilənlərdə heç bir yenilik yoxdur. Biz də burada bu məqsədi güdmürük. Bizim vəzifəmiz başqadır, yəni bazarın üzvi tərkibi kimi, onun *əmtəəliliyini* və *pulluluğunu* göstərmək, ticarətin, əmtəə və pulların institusional xarakterini (əmtəə və pul – *bazarın institutlarıdır*) göstərmək, bazarın əmələ gəlməsi və fəaliyyət göstərməsi üçün onların keçici olmayan əhəmiyyətini qeyd etməkdir. Bundan başqa, bizim vəzifəmiz bazarın tərkibinin, onun sistem və mexanizmlərinin əmtəə-pul və ya sadəcə olaraq, əmtəə səciyyəli şərhindən çəkindirməkdən ibarətdir. Əmtəə və pul bazar üçün nə qədər vacib olsa da onlar, məlum ontoloji və funksional müstəqilliyə malik olmalarına rəğmən, insanların ticarət fəaliyyətlərində, sadəcə olaraq cismi vasitəçilərdir.

*Əmtəə mübadiləsi və pul sistemi – bazarın ən mühüm təşkilati altsistemləridir, bunlar olmadan bazar mövcud olmur və bazar yalnız bunlardan ibarət deyildir.* Əmtəə mübadiləsi və pul dövriyyəsi ticarətlə təmin olunur, bunun vasitəsilə ictimai təsərrüfatın bütün struktur elementlərinin ümumi təkrar istehsalı həyata keçirilir.

## ƏDƏBİYYAT

[1] *Осипов Ю.М.* Философия хозяйства. – М., 2001. – С. 141.

[2] Yenə orada.

[3] *Ракитов А.И.* Философская азбука бизнеса // Вопросы философии. 1991. - №2. – С.26.

[4] *Гуро К.* О свободе международный торговли. – СПб., 1993. – С. 33.

[5] Yenə orada.
[6] *Ракитов А.И.* Философская азбука бизнеса – С. 27.
[7] Yenə orada.
[8] *Гуро К.* О свободе международный торговли. – С. 147.
[9] Алекссев Н.Н. Собственность и социализм // Русская философия собственности. – СПб., 1993. – С. 348.
[10] Бибихин В.В. Свое, соювственное // Вопросы философии. – 1997. - №2.С– 75.
[11] Yenə orada.S. 76.
[12] Yenə orada.
[13] Гегель Г.В.Ф. Философия права. – М., 1990. - С. 89.
[14] Yenə orada. - S. 91.
[15] Yenə orada.- S.121.
[16] Yenə orada.- S. 128.
[17] Yenə orada.- S. 141.
[18] *Ракитов А.И.* Философская азбука бизнеса – С. 31.
[19] *Осипов Ю.М.* Теория хозяйства: В 3-томах. – Т.3. – М., 1997. - С. 218.
[20] Yenə orada.- S. 220.
[21] Yenə orada.- S. 221.
[22] Yenə orada.
[23] Yenə orada.- S. 222.
[24] Yenə orada.
[25] Yenə orada.- S. 223.
[26] Yenə orada.- S. 225.
[27] Yenə orada.
[28] *Давыдов В.В.* Теория деятельности и социалная практика // Вопросы философии. – 1996. - № 5. - С. 52
[29] *Осипов Ю.М.* Теория хозяйства. - Т.2. - С. 229.
[30] Yenə orada.- S. 231.
[31] Yenə orada.- S. 232.
[32] Yenə orada.- S. 234.
[33] *Давыдов В.В.* Теория деятельности и социалная практика. - С. 54.
[34] *Осипов Ю.М.* Теория хозяйства. - Т.2. - С. 236-237.
[35] Yenə orada.- S. 238.
[36] Yenə orada.- S. 361.

[37] Yenə orada.- S. 366.

[38] *Руткевич М.Н.* Философское значение концепции устойчивого развития // Вопросы философии. 2002. - № 11. - С. 27.

[39] *Осипов Ю.М.* Теория хозяйства. - Т.2. - С. 368.

[40] Yenə orada.

[41] *Руткевич М.Н.* Философское значение концепции устойчивого развития. - С. 29.

# PUL
# SUBSTANSİYASI

*Pul problemi*

•

*Fəaliyyət və pul*

•

*Pul ölçüsündə zənginlik*

•

*Pul, simvol məkanında*

# PUL PROBLEMİ

*«Əgər bəzi insanlar pula və sərvətə nifrət edirlərsə, bu ona görədir ki, onlar özlərinin nə vaxtsa zənginləşəcəklərinə bütün ümidlərini itirmişdirlər».*

F. Bekon

*Pul problemi qədim dövrlərdən tədqiqatçıların diqqətini özünə cəlb edir. İqtisadi nəzəriyyənin çətin ki, elə bölməsi olsun ki, onun haqqında puldan daha çox danışılsın və yazılsın. Bununla yanaşı, çətin ki, puldan başqa hər hansı bir məsələ haqqında bu qədər düzgün və bəzən tamamilə fantastik nəzəriyyələr formalaşdırılsın. XIX əsrin məşhur ingilis siyasi xadimi U.Qladston bir dəfə demişdi ki, ola bilsin məhəbbətdən çox insanları pulun mahiyyəti haqqında müzakirələr sərsəm edir. İş orasındadır ki, təkcə həqiqətin təmənnasız tədqiqi yox, qudrətli praktiki maraqlar da pul tədavülü nəzəriyyələri ilə bağlıdır. Əhalinin müxtəlif təbəqələrində əsas həyati maraqların mövcud ziddiyyətliliyində pul tədavülünün müxtəlif formalarından bir qisim insanlar udur, digərləri isə itirirlər. Buna görə də ölkədə fəaliyyət göstərən pul tədavülü sisteminin dövlət tənzimlənməsinin güclənməsi ilə ifadə olunan hər bir sosial dəyişiklikdə qızğın mübahisələr yaranır və bu zaman pulun mahiyyəti və onun təsərrüfat həyatındakı rolu üzrə müxtəlif baxışların müdafiəçiləri şüurlu və şüursuz surətdə öz nəzəri müddəalarında əhalinin müəyyən qruplarının praktik maraqlarını əks etdirirlər. Buradan pulun, insanın sosial-iqtisadi, mədəni həyatının, onun varlığının dəyişməz peykinin müəyyənləşdirilməsi vəzifəsi çıxır.*

## 1. PUL ANLAYIŞI

Bazar, fayda, pul, mənfəət ... Bu gün bu anlayışlar insanların həyatının praktiki olaraq ümumi formasına, həqiqətən də qlobal hadisəyə çevrilmişdirlər ki, bu da açıq cəmiyyəti «bütün bəşəriyyətin işıqlı gələcəyi» kimi elan etməyə imkan vermişdir. Hesablaşmalar, alqı-satqı, pulun əldə edilməsi və alınması probleminin həlli aktuallığı maddi istehsal və istehlak sferası ilə sanki bir araya sığmayan həyatın başqa sahələrinə də nüfuz etmişdir. Elmi yaradıcılıqda – intellektual mülkiyyət, incəsənətdə – şou-biznes, idmanda – güc və ağlın təmənnasız yarışması, intim münasibətlərdə satılmış məhəbbət özünün müxtəlif üsulları ilə dəqiq pul preyskurantları nöqtəsinə çatmışdır, ailələr artıq qarşılıqlı partnyor müqavilələri ilə möhkəmlənirlər. Qədim dövrlərdə istifadə olunan indulgensiyalardan daha səmərəli şəkildə Tanrıya inamın satışı ilə məşğul olan dini biznes nümayəndələri meydana çıxmış və getdikcə də çiçəklənirlər. Sonuncular, yəni qeyri-əmtəələr, özüdəyərli, ekzistensial səciyyəli olanlar diskreditasiya edilir (hörmətdən salınır)[1]. Ancaq bu o demək deyildir ki, pul insanın sosial-mədəni varlığının son dərəcə mənfi amilidir və bununla əlaqədar olaraq, müasir cəmiyyətdə onların rolu və əhəmiyyətinin azaldılması üzrə hansısa səylər göstərilməlidir. Qəbul etmək məqsədəuyğundur ki, XXI əsrin əvvəlinə utalitarizm cəmiyyətin mənəvi ideallar üzərində qurulmasının hər bir cəhdinə qalib gəlmiş və Qərbin ən inkişaf etmiş ölkələrində qlobal *iqtisadi cəmiyyətlər,* habelə ona uyğun insan tipi olan – Homo economicus yaranmışdır.

Hamıya məlumdur ki, pul, konyunkturun vəziyyətinə və iqtisadi tsiklın (dövrün) gedişinə böyük və daimi təsir göstərən əmtəə, xüsusilə kapitalist təsərrüfatının ayrılmaz elementidir. Pul – sistem və ya pul sistemi kimi, xalq təsərrüfatı mexanizmində istehsal və bazar əlaqələrinin ən mürəkkəb şəbəkəsi kimi «maddələr mübadiləsini» təmin edir, böyük əmtəə kütlələrinin və pul kapitalının hərəkətinə vasitəçilik edir, kredit və maliyyə kanalları vasitəsilə istehsal güclərinin inkişafını stimullaşdırır. *Y.M.Osipovun* fikrincə, bu planda, mahiyyət və əhəmiyyətinə görə kifayət qədər fərqli olan iki tendensiyanı (təmayülü) fərqləndirmək olar: «Onlardan biri iddia edir ki, ümumiyyətlə iqtisadiyyata pul lazımdır, ikincisi isə göstərir ki, iqtisadiyyat ta əvvəldən pulun vasitəçilik rolundan daha çox pulun özündən, onun mövcudluğundan asılıdır, belə ki, başlanğıc elə başlanğıcdır,

baxmayaraq ki, iqtisadiyyatın ümumi hərəkətində onun vasitəçisi kimi çıxış edir. Başlanğıc – axma, sərf olunma, çıxmadır. Belə çıxır ki, iqtisadiyyat, nəticə etibarilə təsərrüfat puldan … axır, sərf olunur və çıxarılır. Bu da sənin üçün vasitəçilik! Burada həqiqətdən də nə isə ciddi bir şey var»[2]. Eyni zamanda pul sferası kapitalist bazarına məxsus olan dayanıqsızlıq və risk elementlərini gücləndirir ki, bu da sosial münasibətlərin mürəkkəbləşməsinin səbəbi kimi çıxış edir. Bütün bunlar o səbəbdən baş verir ki, pul ümumi təhlilin obyektidir. Təsərrüfat mexanizmi kimi, onu iqtisadi elm öyrənir. Həyatla birlikdə vəhdət təşkil edən tam kimi isə o, fəlsəfi refleksiyanın obyektidir. Bu mənada, fəlsəfə pulun, ayrıca olaraq iqtisadi nəzəriyyə tərəfindən öyrənilən hadisə kimi, həyati mahiyyətini və əhəmiyyətini başa düşməyə çalışır. Buna görə də pulun «səssiz-səmirsiz» başlanğıcı kimi nəzərdə tutulan tərəf elm üçün hudud və sərhəddən kənardır və bu, fəlsəfənin problemlər dairəsini təşkil edir. İqtisadi nəzəriyyə və təsərrüfat fəlsəfəsi qarşısında insan təsərrüfatının eyni faktı – pul – durur, lakin biri onu ümumi və ya dünyəvi münasibətdə nəzərdən keçirir, digəri isə onun üzərində müfəssəl, hərtərəfli, dünyagörüşü-ekzistensialist təhlil aparır.

Bizim əsr dünyanı ilk növbədə iqtisadi tərkib nöqteyi-nəzərindən hiss edir və duyur və buna görə də zənginliyi təcəssüm etdirən pulu *sevir*. Pula inam insandan, hətta o, özündə öz-özünə kifayət qədər bütövlük əks etdirsə belə, daha böyükdür. *S.N. Bulqakovun* «*iqtisadi materializm*» adlandırdığı bütün müasir düşüncə tərzi bunu ifadə edir. «İqtisadi materializm dedikdə, iqtisadi nəzəriyyə nümayəndələri arasında hökmranlıq edən dünyagörüşü başa düşülür (amma bununla bitmir). Bu gün o, elə geniş intişar tapmışdır ki, hətta özlərini marksizmin rəqibləri hesab edənlər belə özləri marksistdirlər»[3]. Müasir sosialogiya tərəfindən təqdim edilən nümunə diqqətəlayiqdir: orta amerikanlının söhbətlərinin təxminən 90 %-i pulla bağlıdır: pula necə sahib olmaq olar və onu nəyə sərf etmək lazımdır. Dünyanın bütün digər maraq və hadisələri yerdə qalan 10 %-in payına düşür. Onun (orta amerikanlının) ləyaqəti də iqtisadi yolla müəyyən olunur: «Bu insanın dəyəri nə qədərdir»[4].

Aydındır ki, bu ehkamın (marksist, postmodernist, iqtisadi və b.) aradan qaldırılması üçün ən əlverişli yol bu problemi mövcud situasiyanın adekvat başa düşülməsi üçün ilkin şərtləri təyin edən *təsərrüfat fəlsəfəsi* baxımında nəzərdən keçirməkdir. Təsərrüfat fəlsəfəsinin problemlər məcmusu təkcə ümumfəlsəfi yox, həm də xüsusi-iqtisadi, materialist maraq kəsb edir. Bu

mənada, bu gün ümumi olaraq «iqtisadi nəzəriyyə» adını daşıyan siyasi iqtisad öz *ekonomizmi* ilə birlikdə, öz əsaslarına, xüsusilə pul probleminə fəlsəfi cəhətdən yenidən baxılmasına və dərinləşdirilməsinə ehtiyac duyur. Onun nöqteyi-nəzərindən, pul - «ümumi ekvivalent xüsusiyyətinə malik olan və bütün başqa əmtəələrin dəyərinin ifadə olunması üçün edilən universal mübadilə aləti və xüsusi əmtəə» kimi nəzərdən keçirilməlidir[5]. Bu baxımdan, pulun mahiyyəti istehlak dəyəri ilə dəyər arasındakı ziddiyyətin həllindən ibarətdir.

Ancaq iqtisadi fəaliyyətin və Homo economicus-un iqtisadi təfəkkürünün ümumi ilkin şərtlərinin fəlsəfi tədqiqi, ümumiyyətlə, həm iqtisadi nəzəriyyələrin, həm də ümumi iqtisadi dünyagörüşünün fəlsəfi apriorilərini tədqiq edən təsərrüfat fəlsəfəsinin birbaşa vəzifəsini təşkil edir. Təsərrüfat fəlsəfəsinin problematikasının iqtisadi nəzəriyyənin vardığı nöqtəsindən daha uzağa və dərinə nüfuz etməsi lazımdır. Təsərrüfat fəlsəfəsi ümumi fəlsəfəyə daxil olaraq onun mühüm hissəsini təşkil edir. Buradan kifayət qədər qanunauyğun şəkildə belə çıxır ki, onun obyekti pul kimi mühüm tərkib hissənin tədqiqindən ibarətdir. Pul heç də həmişə, indi dünyanın sosial-iqtisadi mənzərəsinin hər şeyi əhatə edən əsasının fundamentini (bünövrəsini) təşkil etdiyi kimi, universal anlayış olmamışdır. O, bu gün, tarixin mahiyyətini, insanın təyinatını, mənəvi-mədəni varlıq problemlərini özündə əks etdirərək sivilizasiyanın və mədəniyyətin inkişafında aparıcı rola iddia edir.

> *«Romantik və dini pərdələr industrializm əsrində meydana çıxmış bir çox iqtisadi proseslərin üzündən düşmüş, onların antihumanist mahiyyətləri çılpaqlaşmışdır. İdeal, qərb ölçüləri üzrə «qızıl milyard» ölkələrinin konsorsiumu (birliyi) və xüsusilə də onun bütün dünya ilə münasibətlərində dəqiq şəkildə şəxslərarası və beynəlxalq münasibətlər üzrə pul dominantı formalaşmışdır. İnsan sanki qüdrətli, hər yerdə mövjud olan, görünməz və hər şeyə sirli şəkildə nəzarət edən pulun marionetinə (əlaltısına) çevrilmişdir».*
>
> İ. Andreyev

Bu planda məhz pul üzrə fəlsəfi-təsərrüfat düşüncəsinin istiqamətinə tamamilə haqq qazandırmaq olar. Çünki insanlar hər zaman «nə haqqındasa» və «bu nəyisə öz qarşılarına bilavasitə və artıq təyin edilməli olmayan varlıq (verilən) kimi qoyaraq fəlsəfə yürüdürlər və ya necə deyərlər, *fəlsəfə hər zaman nəyəsə oriyentasiya edir*»[6]. Bununla da fəlsəfənin həyata

münasibəti haqqında daha, təbii ki, fəlsəfi təfəkkür zonasından heç vaxt yox olmayan və birtərəfli, «ağrılı» intellektualizm əsrində daha da kəskinləşən ümumi başlıca məsələ müəyyən olunur. «Pul insanı ovsunlayır. İnsanlar ona görə əzablara qatlaşır, onun üçün zəhmət çəkirlər. Onlar pulu əldə etmək üçün ən mahir üsullar düşünüb tapır və qazandıqları pulları sərf etmək üçün də bir o qədər də məharətli üsullar fikirləşirlər. Pul – yeganə əmtəədir ki, ondan istifadə etməyin yalnız bir yolu var, o da ki, ondan azad olmaqdır. Siz pulu sərf etməyənə və ya investisiyalaşdırmayana qədər o, nə sizi qidalandıracaq, nə geyindirəcək, nə yaşamağa yer verəcək, nə də əyləndirəcəkdir. İnsanlar pul üçün demək olar hər şey edirlər və pul da insan üçün demək olar ki, hər şeyi edir. Pul – məftunedici (füsunkar), təkrarlanan və maskasını dəyişən tapmacadır»[7]. O, elə bir şeydir ki, hər kəs təkrarən ona müraciət edir. Hər kəs (düşünən kəs!) özü üçün pulun nə demək olduğu sualına cavab verməlidir.

Əgər daha geniş planda danışsaq, pulun tədqiqi, mahiyyət etibarilə elə həyatın tədqiqidir. Çünki pul insanın ona hansı münasibət bəslədiyindən asılı olmayaraq, onun bütün həyatına «nüfuz edir». Çünki həyat – insanı və ya bütün elmləri maraqlandıran, onlar tərəfindən onun dərk edilməsi və bir tam kimi dünyanın tabe etdirilməsi üçün istifadə edilən əsasdır (bazisdir). Pul fəlsəfəsi məhz həyatı və onun bütünlüyünü başa düşmək üçün öz diqqətini pul üzərində cəmləşdirir. «Həyat istənilən fəlsəfi refleksiyadan daha ilkin və daha birbaşadır»[8]. Bunu, düşünən təfəkkürün səviyyəsindən asılı olaraq bizim mühakimələrimizin birbaşa və ya vasitəli şəkildə tərkibini müəyyən edən pul haqqında da demək olar. Məsələn, alim və filosof *İ.Kant* bir sıra məntiqi mühakimə və mülahizələrdən sonra belə bir nəticəyə gəlir: «Bu əsasda *pulun* aşağıdakı real *tərifini* vermək olar: pul – *əməyin qarşılıqlı mübadiləsinin ümumi vasitəsidir*»[9]. Adi (gündəlik) şüur səviyyəsində isə pul sadəcə olaraq puldur; və ya həyat mahiyyəti və dünyagörüşü münasibətindən, həyatı ətraflı surətdə başa düşülməsindən asılı olaraq hər şeydir, yaxud heç nədir.

Lakin həyat, onun haqqındaki biliklər kimi, heç vaxt tükənmir. Həyat bizim mövcudluğumuzun «bütün boşluqlarını» doldurur. Təfəkkür də onun kimidir, o, «ana qucağı», «tədqiq olunmamış mənbədir», «zamandan və məkandan kənardır», çünki zaman və məkan ölçülərində bitmir, əksinə onları özü ilə şərtləndirir. «Həyata münasibətinə görə varlığın bütün tərəfləri yalnız xüsusi qərardad (təyin) kimi çıxış edir: iradə, təfəkkür, instinkt, şüur, hətta varlığın özü belə mövcudluğun «olmaq» köməkçi feli və predikatı yalnız özünün ayrı-ayrı mövcudluqlarını və ya vəziyyətlərini xüsusi təyinlər olduğunu düşünən canlı orqanizmə – həyata münasibətdə mənaya malikdir.

*İn abstrakto* varlıq mövcud deyildir, yalnız konkret, özü üçün varlıq və özünü dərk edən həyat mövcuddur»[10]. Və bu konkretlikdə pul təkcə xüsusi yox, həm də lazımi yer tutur. Çünki həyat hər yerdə özünün ümumi eyniliyini və özünün vahid təbiətini saxlayaraq «fərdi şüurlarda» bölünür.

Həyat öz bütünlüyü ilə birlikdə ağılla çözülmür. Həyatla birlikdə duyulan pul kimi, hər bir fərdi varlığın da öz sirri var. İlkin olaraq əmtəə mübadiləsi və həyat qabiliyyətliliyinin təkmilləşdirilməsi üçün meydana çıxan pul başqa ölçüyə keçir. Bu ölçüdə pul iqtisadi mAraqlardan başqa, dəyər mahiyyəti yox, qiymətlilik mahiyyətinə malik olur. Həyat, həm şüurun, həm də fenomenlərin fərqliliyini doğuran «ilkin işıqdır» (*S.N.Bulqakov*). Pul – insan həyatının bir hissəsidir. Məhz bu münasibətdə onun haqqında insanın varlıq faktı və fenomeni kimi danışmaq olar. Bu mənada, sərhədsizliyi səbəbindən adi şüur nöqteyi-nəzərindən çözülə bilinməyən pulun fəlsəfi təhlili də mümkündür. Ümumi halda, həyat mövqeyinin şəxsi seçiminin tərkibi fəlsəfədən və onunla müəyyən olunan dünyagörüşü mövqelərindən asılıdır. Bu mənada, pul həyatın özürefleksiyası olan fəlsəfi refleksiyanın obyektidir.

## 2. PUL, DƏYƏR KİMİ

Pulun təbiəti təkcə maddi yox, həm də idealdır. Bu planda o, təkcə əməyin yox, həm də təfəkkürün nəticəsi və məhsuludur. *Q.Hegel* yazırdı: «Öncəki dövrlərdə əsas diqqət fərdlərin konkret cəhətlərinə verilirdi və onları öz bacarıqlarına müvafiq olaraq işləməyə məcbur edirdilər. Bizdə dövlət özünə lazım olanı *alır* və bu ilk baxışda abstrakt, ölü və cansız görünə bilər. Elə görünə bilər ki, dövlət abstrakt hərəkətlərlə (əməllərlə) kifayətlənərək səviyyəcə aşağı düşmüşdür. Lakin ən yeni dövlət prinsipi ondan ibarətdir ki, fərdin etdiyi hər şey onun iradəsi ilə ifadə olunmalıdır. Pul vasitəsilə isə ədalət əhəmiyyətli dərəcədə daha yaxşı həyata keçirilə bilər. Əgər bütün iş konkret qabiliyyətlərdə olsa idi, onda istedadlı insan istedaddan məhrum olana nisbətən daha yüksək vergilərə cəlb olunardı»[11]. İstedad – mühakimə, nəticə etibarilə, təfəkkür qabiliyyətidir. Pulun şəxssizliyini, ideallığını yalnız təfəkkürün, mühakimənin təfəkkür qabiliyyətliliyinin köməyilə başa düşmək olar. Pul şəxssizdir, amma biz onları adlandırdıqda, belə bir sxem meydana çıxır: söz – iş – cism (işlə, əməllə yaradılan) – yenə də söz. Pul (söz) – həyat əməlidir (əsasın mahiyyəti yox) – iş – nəticə (cism, predmet (əşya)) və yenə də söz. Spiral alınır. Doğrusu, yaddan çıxarmaq olmaz ki, spiralın ortası nəyləsə (müəyyən mahiyyətlə) –

əhəmiyyətlə, canatma, iradə, yaradıcılıq, xeyirxahlıq və s. ilə dolmuşdur. Nəticə etibarilə, mahiyyətin reallaşdırılması insanın təfəkkür fəaliyyətində sözlərin aktuallığından asılıdır.

Pulun mahiyyətinin nəzərdən keçirilməsi təcrübəsi (fikrin ifadəsi kimi, sözlə analogiya üzrə) marksizm tərəfindən həyata keçirilmişdir. Qeyd edək ki, bu təcrübə ideal, mənəvi olan haqqında təsəvvürün *Hegel* metodologiyası üzrə yenidən işlənməsi əsasında həyata keçirilmişdir. Marksizmdə təhlilin obyekti kimi Mütləq Ruh yox, əmtəə-pul münasibətləri, kapitalist təsərrüfatının demiurqu çıxış edir. Marksist ictimai konsepsiyasının, insanın, əməyin, dəyərin və pulun özünəməxsusluğu bununla əlaqədardır.

Marksist təhlili maddi və ideal olanın nisbəti baxımından həyata keçirilir və bu zaman maddinin ilkin olması nəzərə alınır. Toplanmış əməyin (əmək vasitələri və məhsullarında qeydə alınan) kapital obrazında («özüartan dəyər») çıxış etdiyi və şüurlu «qəyyum», sahibkar, yaradıcı (!) kimi kapitalistin (sahibin) çıxış etdiyi kimi, elmi biliklər (cəmiyyətin toplanmış mənəvi əməyi) də «biliyin özü inkişaf edən gücü» kimi çıxış edir. Elmin sosial funksiyası (mənəvi sərvət, yəni fəlsəfə) uzun mənəvi əmək müddəti (əsr və minillik) ərzində toplanmış mənəvi sərvətin yeganə nümayəndəsinə çevrilməkdən ibarətdir. O, onun vahid şüuru və vahid iradəsindən asılı olmayaraq həyata keçirilən prosesin – biliyin artması prosesinin canlı aləti kimi çıxış edir. Burada, artıq o, (öz-özlüyündə) yox, təhsil prosesində onun başında «məskən salmış» bilik «düşünür». O, anlayışa sahib deyil, əksinə Anlayış ona sahibdir və ona öz tədqiqatlarını, öz şəxsi enerjisini haraya istiqamətləndirmək lazım olduğunu diktə edir, bir nəzəriyyəçi kimi, ona öz fəaliyyətinin üsul və formalarını diktə edir[12]. Bu planda, yeganə insan ümuminin (verilmiş halda, Anlayış, Elm, Bilik) abstrakt «təcəssümü» kimi çıxış edir.

Dəyər dünyasında, təsərrüfat dünyasında (nəticə etibarilə, hərtərəfli insani münasibətlərdə), sosial reallıqda pul predmet-konkret və iqtisadi-təsərrüfat fəaliyyətinin bir tərəfi, xüsusiyyəti kimi çıxış edir. Qeyd edək ki, xüsusiyyət cismi xarakterizə edir, onun daxilinə yerləşdirilir. Xüsusiyyəti münasibətlər vasitəsilə müəyyən etmək olar. «Xüsusiyyət – verilmiş cismin daxil edildiyi və bu cismin mövcud olduğu münasibətdir»[13]. Cism – həm xüsusiyyət, həm də münasibətlərin daşıyıcısıdır. *Ontoloji* planda, cism xüsusiyyətlərin daşıyıcısı, məntiqi planda isə cism, xüsusiyyətin şamil edildiyi şeydir. Cism, cism və xüsusiyyət, habelə münasibət vasitəsilə

müəyyən olunur. Xüsusiyyət və münasibətlər cismdən ayrılıqda mövcud olmurlar. Münasibət müxtəlif obyektlərin bir sıra qarşılıqlı fəaliyyətlərini nəzərdə tutur; cism təkdir, münasibətlər isə müxtəlif ola bilər. Münasibətin qurulması yeni cismin əmələ gəlməsinə gətirib çıxarır. «Xüsusiyyət çoxlu sayda predmetlərə, həmçinin onlar arasında qurulan münasibətlərə şamil edilə bilər»[14]. Bu metodoloji dəqiqləşdirmələr sayəsində pul haqqında, müxtəlif qarşılıqlı fəaliyyət və münasibətlər zamanı çıxış edən predmet-konkret fəaliyyət (cism) xüsusiyyəti kimi, daha ətraflı danışmaq olar.

Marksist intenpretasiyasında (şərhində) yalnız abstrakt-ümumi olanın formaları hissi-konkret mahiyyət əldə edir, amma bunun əksi olmalı idi. Məhz abstrakt-ümumi olan yalnız konkret olanın xüsusiyyəti, verilmiş halda, dəyərin xarakteristikası olmalıdır. Çünki pul – təkcə dəyər nişanı, dəyərin hər-hansı miqdarı, onun sayı yox[15], həm də dəyərin qiymətlə ifadə olunmuş konkret kəmiyyətidir. Ancaq burada «dönmə» müşahidə olunur ki, bu da əks prosesin təhlilinin həyata keçirilməsinə imkan verir. Məsələn, *Q.Hegelin* klassik fəlsəfəsi üçün insana anlayışlar (söz-işarə ifadələri formasında) formasında qalan bilik onun üçün həm nəzəri (idraki-fəlsəfi) fəaliyyətin başlanğıcı, həm də onun spesifik məqsədinin, lovğa «entelexiyasının» sonudur. Buna görə də «dönmə», abstraktdan konkretə doğru qalxma prosesində və əksinə, özündə iqtisadi-sosial fəaliyyət prosesində ortaya çıxan insani münasibətlərin zənginliyini təcəssüm etdirən müəyyən «abstrakt-ümuminin» xüsusiyyəti və keyfiyyəti kimi, pulun mahiyyətini başa düşməyə imkan verir.

> *«Pul – abstrakt dəyər kimi, nəticə etibarı ilə, özü hər hansı xüsusi tələbatın təmin olunması üçün istifadə oluna bilməyən ümumi əmtəədir. O, yalnız ehtiyac duyduğumuz xüsusi şeyləri əldə etmək üçün istifadə etdiyimiz ümumi vasitədir».*
>
> Q.V.F.Hegel

Pulun sadə cismdən, onun əmtəə kimi tərifindən fərqi bundadır. *L.Harris* yazır ki, iqtisadi nəzəriyyə üzrə hər bir dərslikdə «Pul nədir?» sualına aşağıdakı ənənəvi cavabı alacağıq: «Pul, tədavül vasitəsi, ölçü vahidi və dəyərin saxlanması vasitəsi kimi fəaliyyət göstərən istənilən əmtəə kimi müəyyən olunur»[16]. Ancaq bu və buna oxşar təriflər çoxlu sayda sual doğurur və bu məsələlərin aydınlaşdırılması zamanı məlum olur ki, pul, konkret ictimai və təsərrüfat münasibətləri çərçivəsində fəaliyyət göstərən ictimai hadisədir.

«İqtisadi cəmiyyətdə müəyyən qədər pul kütləsi mövcud olmalıdır, amma bu, ona müvafiq dəyər kütləsinin də olmasını ifadə etmir, çünki dəyərin bir hissəsi əmtəələrdə, daha dəqiq desək, əmtəələrdə və məhz əmtəələrlə bağlı olan pulda olur. Əmtəədə olan dəyərin pulla ifadəsi üçün heç də pulla təcəssüm olunan dəyərə malik olmaq lazım deyil, çünki pul əmtəə dəyərini tamamilə ideal şəkildə, hər hansı fiziki iştirakçılıq olmadan ifadə edə bilər. İqtisadi cəmiyyətdə olan pul kütləsi və elə bu cəmiyyətdə dövr edən dəyər – kəmiyyətcə eyni deyildirlər, həmçinin pul çoxdəfəlik istifadə olunmaq, yəni tədavül edən pul kütləsinə nisbətən böyük dəyər kəmiyyətinin real proseslərinə xidmət göstərmək qabiliyyətinə malikdir»[17]. Bu xarakteristika pulun yarımməzmunlu mahiyyətini əks etdirir ki, bu da onu təkcə əmtəə və ya dəyərin saxlanması vasitəsi kimi nəzərdən keçirməməyə imkan verir.

Klassik fəlsəfi ənənə pulu həm də ictimai fenomen kimi nəzərdən keçirir. *Q.Hegel* özünün «Məntiq elmi» əsərində biliyin toplanması prosesini göstərir, çünki anlayış elə toplanmış bilik, elmdə hər zaman söz formasında çıxış edən «daimi təfəkkür kapitalıdır» *(E.İlenkov)*. *K.Marks* əsas diqqətini ictimai mexanizmin iqtisadi əsas üzərində cəmləşdirərək biliyə anoloji olaraq dəyəri «özüartan substansiya», «substansiya-subyekt» kimi nəzərdən keçirir. Buradan çıxış edərək, əmtəə-pul tədavülünün sxemi qurulur və bu sxem məlum Ə – P – Ə düsturu ilə ifadə olunur. Burada məhz *pul* fərqlənməyə başlayır. Əmtəə (Ə) tsıklın (dövrün) başlanğıcı (və sonu) kimi, pul (P) isə onun aralıq halqası, «əmtəənin metamorfozu» kimi çıxış edir. Lakin dövri (tsiklik) hərəkətin (Ə – P – Ə – P – Ə – və s.) müəyyən nöqtəsində pul artıq vasitəçi – əmtəə kütlələrinin tədavül vasitəsi kimi çıxış etmir və qəflətən özündə sirli «özüartma» qabiliyyətini aşkar edir. Düsturda bu fenomen sxematik olaraq, P – Ə – P kimi ifadə olunur[18]. Nəticə etibarilə, məhz burada pul, funksiya, vasitə və ya üsul kimi yox, ictimai proseslərin dinamikasını müəyyən edən substansiya kimi təzahür edir.

Nəticədə yerdəyişmə baş verir: bütün prosesin həqiqi, çıxış məntəqəsi olan əmtəə pulun vasitəçi və «özüartma» aktını həyata keçirmək üçün təcəssüm olunduğu əvvəlki rolunu yerinə yetirir. Pulun bu sirli xüsusiyyəti onu *kapitala* çevirir və sonuncunun obrazında dəyər «özü dəyər olduğu üçün sehrli dəyər yaratmaq qabiliyyətini» əldə edir; «o, qəflətən əmtəə və pulun yalnız formanın mahiyyətindən ibarət olduğu özüinkişaf edən və özühərəkət edən substansiya kimi çıxış edir»[19]. Dəyərin P – Ə – P

düsturunda bütün dövri hərəkətin «substansiya-subyekti» kimi çıxış etdiyi yerdə onun daimi olaraq öz çıxış nöqtəsinə qayıdışı baş verir. Abstraktdan konkretə və əksinə hərəkəti yada salaq. İqtisadi prosesdə dəyər subyekt olur və «pul formasını əmtəə forması ilə və əksinə əvəz edərək özü öz kəmiyyətini dəyişir və daimi olaraq «özüartaraq» ilkin dəyər kimi çıxış edən özünü, əlavə dəyər kimi çıxış edən özündən uzaqlaşdırır»[20]. Bu planda, pul – «dəyər kütləsi, onun məbləği, aqreqat abstrakt kəmiyyət, yəni istənilən mümkün həcmdə öz-özünə dəyərdir. Pul axını – sadəcə olaraq dəyər axını yox, dəyərlərin axınıdır»[21]. Burada, pul – dəyərin ümumi ifadəçisidir, amma sanki ikiqat dəyərdir: özü üçün dəyər və pul üçün dəyərdir.

## 3. KAPİTAL, PUL KİMİ

Dəyər təkcə pul deyildir. Dəyər kimi, qeyri-pul da çıxış edir, amma .. pul ifadəsində (*Y.M.Osipov*). Buna görə də pulun növbəti xüsusiyyəti onun kapital, dövri olaraq «öz-özünə» qayıdan bütün prosesin çıxış məntəqəsi və məqsədi formasında ifadə olunmasıdır. Onun, əgər onu izahatsız buraxsaq, mistik özüartma (özüinkişaf) qabiliyyətliliyi bundan ibarətdir. «İqtisadi həyatda iştirak edən bütün pul – tədavül edən pul kütləsi heç də mütləq olaraq dəyər kütləsi demək deyildir, çünki pulun bir hissəsi sadəcə hesabi və vasitəçi funksiyasını yerinə yetirir. Dəyərin dəyər kimi hərəkəti isə başqa məsələdir (misal üçün, iqtisadi təsərrüfatçılığın eyni başlanğıcında). Avans edilən (sərf olunan) pul məbləği, sözsüz ki, dəyər kimi fəaliyyət göstərən dəyərdir. Bu dəyər, sadəcə olaraq nişan vasitəçisi yox, substansiya kimi öz-özünə dəyərdir. İnsanlar pulu toplayır və hər hansı işə sərf edirlər. Pul cəmiyyətdə hər şey üçün – həm pul yalnız vasitəçi kimi çıxış etdikdə əmtəələrin tədavülünə, həm də pulun iqtisadi prosesin fəal iştirakçısı kimi çıxış etdiyi zaman pulun özünün tədavülünə kifayət etməlidir»[22]. Marksist izahda «dəyərin özüartması» sirri isə istehsalın və əlavə dəyər sirrinin təhlilindən ibarətdir.

Pul – dəyərdir və dəyərin özü, hər şeydən əvvəl, pulla ifadə olunur. Hər bir müəyyən pul məbləği təsərrüfat prosesində iştirak edən insanın fəaliyyətinin çıxış nöqtəsidir. Buna görə də pul bu spesifik fəaliyyətin formal məqsədi kimi çıxış edir. Lakin burada o nəzərdən qaçırılır ki, hər bir müəyyən dəyər mütləq pul formasında ifadə olunur. Bu pul məlbəğinin (öz

mistik xüsusiyyətləri ilə birlikdə) ilkin olaraq necə və haradan meydana çıxması təsərrüfat fəaliyyətinin subyektini (bu isə hər bir şüurlu insandır) xüsusi olaraq maraqlandırmır. Buna görə də pul («praktiki həqiqi» illüziya) anlaşılmaz, iradəsindən və şüurundan asılı olmayan bir prosesə cəlb olunmuş insanın şüurunun dövr etdiyi sferada zəruridir və bu sferada pul hər şeyi əhatə edən və üstün bir gücə çevrilir. Bu planda insana münasibətdə xarici cism və hadisə kimi, pulun təbiəti və mahiyyəti abstraksiyalaşmış (mücərrədləşmiş) və müvafiq olaraq, hissi-konkret olanın abstrakt-cismi formada təzahüründən ibarət olur. Başqa sözlə, o, özünü dəyər və əmtəələrin qiyməti ifadəsində göstərir.

İnsanın əmtəə mübadiləsi, pul və dəyərə əsaslanan təsərrüfat həyatının reallaşdırılmasının xüsusi üsulu *kapital* fenomenidir. «Fenomenal dünya çərçivəsində kapital *pul gətirən pul kimi* çıxış edir»[23]. Həqiqətən də işgüzar dövriyyəyə buraxılan pul artır, artma pulla və işgüzar dövriyyənin bitməsindən sonra geri qayıdan pullarla qeydə alındığından, tamamilə real olaraq belə bir təəssürat yaranır ki, pul özü artır. Əvvəlcə bir məbləğ pul olur, sonra başqa – daha böyük məbləğ yaranır. Bu isə pulun özüartması kimi hesab oluna bilən aksiyadır. Bu proses kapitalın təzahürü prosesidir.

Ancaq bu problemin həllini tədavül edən əmtəə, pul kütləsində, mübadilədə, qiymətləndirmələrdə axtarmaq lazımdır ki, bu da hər şeyi özünə çəkən, hər şeydə «olan», hər şeyi açan ümumiyə, yəni dəyərə gətirib çıxarır. Əlavə dəyərin, pulun (dəyərin real forması) istehsalı və toplanması prosesi dəyərin «özüinkişafının», nəticədə isə bütün həyat prosesinin formaları kimi görünməyə başlayır. Bu baxımdan da o, *adladılaraq (mistifikasiya edilərək)* müstəqil substansiyaya çevrilir. İqtisadi həyatda, əgər məntiqi (fəlsəfi) nöqteyi-nəzərdən əmtəənin təhlili dəyərin doğulması, ortaya çıxması sirrini, daha sonra isə onun pul formasında, yəni pul ifadəsində təzahür etməsi sirrini ifşa edirsə, bu mistifikasiya öz örtüklərini itirir. Əks təqdirdə, sirrin ifşası qeyri-mümkündür və kapital kimi pul da nə isə qeyri-müəyyən bir şey kimi qalmaqda davam edəcəklər.

> «*Heç vaxt kiçik pullarla məşğul olmayın, onları qazanmaq çox çətindir və bu işin perspektivi yoxdur. Böyük rəqəmlərlə, böyük, hətta həddən artıq böyük layihələrlə məşğul olun, böyük pullar havadan yaranır, siz bunu birdəfəlik yadda saxlayacaqsınız*».
>
> V. Mixalski

Dəyər qiymət, münasibət və

substansiya ipostasiyalarında çıxış edir. Sonuncu ipostas dəyərə hər yerdə – həm əmtəələrdə, həm pulda, həm mübadilədə, həm qiymətlərdə, yəni bütün iqtisadi məsələlərdə və müasir iqtisadi cəmiyyətin – kapitalizmin məna özəyi olan kapital fenomenində olmağa imkan verir. Avropa, özünün antroposentrizm və individualizmdən (fərdiyyətçilikdən) başlamış, rasionalizm və liberalizmə qədər, bütün qiymətlilər sistemi kapitalizmin dünyagörüşü fomasında dərk olunmasına hazırlanmışdı. «Burjua-fərdiyyətçi sivilizasiyasında» (*E.Munye*) pul başlıca dəyər kimi çıxış edir. Çünki hər şey dəyərə çevrilir. «İndustrial mənfəətin ehtikar spekulyativ qazancla (mənfəətlə), yaradıcılıq dəyərlərinin rahatlıq dəyərləri ilə əvəz olunması yavaş-yavaş fərdiyyətçi idealı hörmətdən saldı və əvvəlcə hökmranlıq edən siniflər, daha sonra isə xalq kütləlləri üçün bizim indi burjuaziya ruhu adlandırdığımız və istənilən mənəviyyatın ən çox hiss olunan antipodu ilə təqdim olunan yerə yol açdı»[25].

Bu burjuaziya «sahibkarlıq ruhu» (*V.Zombart*) özündə təkəbbürlə gücə qarşı marağı saxlayır, bu güc qarşısındakı istənilən maneəni pul aradan qaldırır; bu güc istənilən riskdən uzaqdır və təhlükəsizliklə təmin olunmuşdur. Bu qələbəni hər bir müasir sahibkar arzulayır; ehtikarlıq və avtomatizm onu hər kəs üçün əlçatan etmişdir. Pul, istənilən mübadiləni kommersiyalaşdıraraq, insanları, öz təminatlılıqları haqqında düşünən, yəni yalnız özünün olan şeylərə - evə, məktəbə, hotelə, avtomobilə, əlaqələrə sahib olanlara və yalnız adət etdikləri mənzərə ilə kifayətlənənlərə bölür. Kapitalizmin təhlükəsi ondadır ki, o, insanı burjuaya çevirir. Varlıq mahiyyətini itirmiş, yalnız daxili sirdən məhrum olan və yalnız istifadə üçün nəzərdə tutulan cismlər arasında yaşayan insana; Bu insan məhəbbətini itirmişdir, həyəcan hissi olmayan xristian, ehtirassız ateistdir, o, bütün xeyirxahları devirir, ona dinclik, xoşbəxtlik, sağlamlıq, ağıl, stabillik, həyat, zövq və rahatlıq verən sosial-psixoloji xüsusiyyətə malik dəyərlilərə can atır[26]. Kapital, cismlərə, əmtəələrə sahib olma vasitəsilə bütün bu həyat nemətlərini təmin edir. Əmtəə istehsalı, eyni zamanda, həm də dəyərin istehsalı olduğundan, dəyər istehsalı da əmtəələrin, yəni bütün nemətlərin istehsalıdır.

Təsərrüfatçılıq və istehsalla məşğul olan (nemətlər istehsal edən) insanın özünün mövcud olması üçün lazım olandan daha çox nemət istehsal etmək imkanı vardır. Bunu, insana özünə lazım olandan daha çox sayda məhsul istehsal etməyə imkan verən «xüsusi istehsal effekti»

(*Y.M.Osipov*) adlandırmaq olar. Belə effektin mövcud olması zəruri nemətlər kütləsi ilə nemətlərin əlavə dəyərini, müvafiq olaraq da zəruri dəyər (və onun kütləsi) və əlavə dəyəri fərqləndirməyə imkan yaradır. Nemət artımı nemətlərin əlavə kütləsindən və müvafiq olaraq əlavə dəyərdən götürülə bilər. Pulun (mənfəət) artım mənbəyi cəmiyyətdə zəruri ilə birlikdə istehsal olunan elə əlavə dəyərdir. Cəmiyyətdə eyni kütlədə əmtəələrin istehsalı zamanı, eyni kütlədə pulun istehsalı zamanı olduğu kimi, eləcə də bütün mübadilə-qiymətləndirmə prosesinin həyata keçirilməsi zamanı mənfəət əldə etmək və kapital fəaliyyətini reallaşdırmaq – *pulla pul əldə etmək* mümkün olur. Bu, təkcə və sadəcə olaraq pulun yox, həm də nemətlərlə birlikdə dəyərin də özüartmasıdır[27].

Dəyər kimi çıxış edən və kapital kimi istifadə olunan pullar elə bir yol keçməlidir ki, bu yolda dəyər istehsalı ilə təmasa girməli, bu da ona «doğulan dəyərin əlavə hissəsini» özünə çəkməyə və sonra dəyər istehsalı ilə təmasdan artımla – mənfəətlə çıxmağa imkan verməlidir. Pul «girməli və çıxmalıdır»[28]. Nəticə etibarilə, pul birbaşa olaraq yox, yalnız dəyər istehsalında təmas vasitəsilə iştirak edərək pul gətirir. Dəyər istehsalı burada pulun pulla istehsalını da təmin edir. Nəzərə almaq lazımdır ki, əlavə pulların arxasında cəmiyyət və insanın onlarsız keçinməsi mümkün olmayan nemət-əmtəələrin əlavə kütləsi durur. «Nemət-əmtəələrin istehsalında pulun bu nemət-əmtəələrin istehsalına avans edilməsi baş verir ki, bu da *pulun qeyri-pula*, yəni istehsal və muzdlu əmək vasitəsinə çevrilməsini ifadə edir. Pul öz-özünə artmır, o, yalnız qeyri-pula çevrilərək artır. Pulun artımı orada – qeyri-pul zonasında, yəni nemət-əmtəələrin istehsalı, dəyərin istehsalı zamanı baş verir. Bu zaman avans edilmiş pulların dəyəri «ölür», o, yox olur. Əgər istehsal olunmuş əmtəə satılmırsa, deməli artıq pulun dəyəri yoxdur, yenisi isə hələ ki, yaranmamışdır»[29]. Nemət-əmtəənin istehsalı prosesində yeni dəyər yaranır və bu sonsuzluğa qədər davam edir.

Kapital – pulların işlədiyi fenomendir. Bu, qeyri-pula çevrilən puldur. «Qeyri-pul pul gətirən puldur və bu pul ictimai pul kütləsinin nemət-əmtəələrin əlavə kütləsinə uyğun gələn hissəsindən götürülür»[30]. Kapital, praktiki olaraq, sonsuz şəkildə genişlənməyə və ya toplanmağa imkan verir və bu zaman o, nemət-əmtəələrin istehsalını və təsərrüfatın özünü də genişləndirir. Onun genişlənməsi ilə eyni zamanda insanın özü, onun ruhu da dəyişir və «müasir iqtisadi insanı» yaradır (*V.Zombart*). Biz, insanın şəxsi dəyərlərə münasibətində qəribə irəliləyişə rast gəlirik. Bu irəliləyiş

daha dar mənada, mənə elə gələr ki, həyatının bütün qalan quruluşu üçün həlledici əhəmiyyət kəsb edir. Mən o faktı başa düşürəm ki, canlı insan, öz sevinci və kədəri, öz tələbat və tələbləri ilə birlikdə *maraqlar* dairəsinin mərkəzindən sıxışdırılmışdır və onun yerini iki abstraksiya tutmuşdur: asan *qazanc (zəhmətsiz gəlir)* və *iş*. Nəticə etibarilə insan erkən kapitalist əsrinə qədərki dövrdə olduğu kimi – *bütün cismlərin ölçüsü* kimi qalmamışdır. Əksinə, təsərrüfat subyektlərinin səyi isə mümkün qədər daha yüksək asan qazanca və işin mümkün qədər daha çox çiçəklənməsinə istiqamətlənmişdir... Onların bir-birlərinə münasibətləri ondan ibarətdir ki, sahibkarlar *işin çiçəklənməsinə səy göstərmək istəyirlər* və «hətta asan qazanc əldə etməyi qarşılarına məqsəd kimi qoymasalar belə *onu həyata keçirmək üçün səy göstərməlidirlər*»[31]. «Kapitalizmin atası» *V.Zombartın* irəli sürdüyü fikrə görə, kapitalizmdə özünü «pula» həsr etməyi, pulla qeyri-pul yaratmağı və bunu sonsuzluğa qədər davam etdirməyi yalnız xüsusi tip insan və ya yeni mənəviyyat tipi olan insan həyata keçirə bilər. Çünki işgüzar insanın məşğul olduğu sahibkarlıq, hansı formada həyata keçirilməsindən asılı olmayaraq, hər zaman onun üçün canlı kimi çıxış edir və işgüzar insanın səyi birdir – onu çiçəklənən, güclü və zəngin imkanlara malik olan orqanizmə çevirmək. XIX-XX əsrlərin məşhur alman siyasətçisi və mütəfəkkiri *V.Ratenau* belə düşünürdü. Lakin yadda saxlamaq lazımdır ki, «hər zaman pul məbləği ilə başlayan və hər zaman onunla bitən *«işin»,* yəni *kapitalist müəssisəsinin çiçəklənməsi xalis artığın əldə edilməsi ilə bağlıdır.* Mənfəət olmadan iş də çiçəklənmir… Əgər kapitalist müəssisəsi artmalı və çiçəklənməlidirsə, o, mənfəət verməlidir: *çiçəklənmək – gəlir gətirmək deməkdir*»[32]. Beləliklə, kapitalizmdə istehsal artım və əlbəttə ki, kapital artımı üzrə kifayət qədər inadlı tendensiyaya malikdir. Kapitalist təsərrüfatı mənfəətə, pul artımına oriyentasiya edir.

Mühüm olan odur ki, kapitalizmdə təsərrüfatçılığın məqsədi, hər şeydən əvvəl, pul vasitəsilə pul istehsalıdır və yəni pulun özüartmasıdır. Pul, onunla bərabər dəyər də ön plana çıxır, onlar indi nəinki vasitəçi kimi iştirak edir, həm də təsərrüfatı həyata keçirirlər. Ən mühüm məna anı ondan ibarətdir ki, insan artıq «xüsusi, pul, dəyər aurasında, ona meyl edərək və ondan asılı olaraq» fəaliyyət göstərir»[33]. Pulun pul vasitəsilə əldə edilməsi təsərrüfatı irəliyə aparmağa, inkişaf etdirməyə, varlanmağa, həyat keyfiyyətini dəyişməyə, insanı «başqa» insana çevirməyə imkan verir. Kapitalizm insanı (burjua) pula sahib olaraq özünü, hər şeydən əvvəl,

sahibkar kimi hiss edir, o, mülkiyyət hissinə mübtəla olur: «*mülkiyyət sahibolmanın* yerini tutmuşdur»[34]. Bu, artıq başqa sevinclərə malik olan, alicənablığını, fantaziya və xeyirxahlığını itirmiş insandır. Çünki kapital insanı rasionallaşdırır maşınlaşdırır və onu, ya «dəyər səciyyəli həlledici qurğuya», ya mexaniki zəhmətkeşə, ya da yorulmaq bilməyən istehlakçıya çevirir. Kapital fayda və mənfəətə mane ola bilən bütün fiziki və mənəvi məhdudiyyətləri ləğv edir. Nəhayət, kapital – radikal olaraq hər şeyi (cəmiyyəti, insanı, təsərrüfatı, siyasəti, mədəniyyəti, ideologiyanı, texnikanı, əxlaqı, elmi və o cümlədən təbiəti) dəyişən kapital inqilabıdır[35].

Bu şərait cəmiyyətin, «mərkəzi planlaşdırma və proqnozlaşdırma əsasında yox, fərdi proqnoz və layihələrin sonsuz variantlılığı, zəruri, təsadüfi və arzuolunan situasiyalara uyğunlaşmaq və onlara reaksiya vermək kimi inkişaf edən struktur ilə də şərtləşir və belə mürəkkəblik dərəcəsinə çatır»[36]. Buna görə də iqtisadi proseslərin planlaşdırılması tələbləri açıq-aşkar yerinə yetirilməzdir. Nümunə – marksizmin proqnozları və «inkişaf etmiş sosializmin» planlı iqtisadiyyatı. Onun qiyməti sosial reqres, yəni fəaliyyət üçün imkanların mürəkkəbliyi və rəngarəngliyidir. Kapitalizm fərdin sosial dünyanın daima dəyişən şəraitinə uyğunlaşması xüsusiyyətlərinin inkişafına yol açan iqtisadi quruluş yaradaraq insanın və əhalinin «başqa həyatını» (*Y.M.Osipov*) şərtləndirir[37]. Belə quruluş pula və mənfəətə oriyentasiya edən kapitalizmdir.

Kapital insanın pul əldə etməyə istiqamətlənmiş, kəmiyyətcə qiymətləndirilə bilən çox böyük enerjisini ayıraraq, istənilən ölçülə bilən və çəkisi olan kəmiyyətə, sürətə heyranlıq, əzəmətə, fəaliyyətə qarşı yeni səyə (fəth etmək, təşkil etmək, danışıqlar aparmaq, möhtəkirlik etmək, hesablamaq)[38] qarşı maraq yaradaraq insanı özünə çəkmiş, onu ələ keçirmiş, pul və pul şöhrətinə canatma yolundakı bütün qadağaları aradan qaldırmışdır. Çünki pulun arxasında cəlbedici məqsəd – artan pullar, özüartan dəyər, onun arxasında isə var-dövlət, firavanlıq və cənnət durur[39]. Öz qarşına «nüfuz və iddialılığa» (*E.Mune*) nail olmağı məqsəd kimi qoymaq da az əhəmiyyət kəsb etmir.

Həyat meydanına kapital insanı, kapitalın subyekti, sonsuz şəkildə özüartan dəyər agenti kimi çıxış edən *iqtisadi insan* çıxmışdır. «Kapitalist ictimai-iqtisadi formasiyası fəaliyyətinin həqiqəti və ideeologiyası ekonomizmdən ibarət olan bir formasiyaya çevrilMişdir»[40]. İqtisadi insan qələbə çaldıqda cənnət nemətlərinə yol açacağını vəd edən «Böyük Kapital

Oyununun» (*Y.M.Osipov*) iştirakçısıdır. İqtisadi insan – «kapital insandır və ya başqa cür desək, insan-kapitaldır və burada kapitalın rolu xidməti-vasitəçi rol deyildir… Kapital insanda, onun şüurunda, ağlında və onun ürəyindədir. Dəyər də oradadır»[41]. İqtisadi insan bütün öz tamlığı ilə puldan, kapitaldan ayrılmazdır. Bu planda, *V.Zombart* tərəfindən gündəlik yaşayışa daxil edilmiş, öz-özünə rasional və məqsədə istiqamətlənmiş olan «kapitalist təfəkkürü» anlayışı təqdirəlayiqdir. Asan qazanc ideyası, iqtisadi rasionalizmlə birlikdə, həyat qaydalarının təsərrüfat həyatı sferasına tətbiqini nəzərdə tutur. «Kapitalizmin inkişaf edə bilməsi üçün əvvəlcə təbii, instinktiv insanın bədənindəki bütün sümükləri sındırmaq, əvvəlcə ilkin, təbii həyatın yerinə spesifik rasional quruluşlu ruhi mexanizmi qoymaq, əvvəlcə istənilən həyat qiymətini və həyatın dərk edilməsini döndərmək lazım idi. Homo capitalisticus – son nəticədə bu döndərmədən yaranan süni və mahir varlıqdır»[42]. Bu insan hər şeydə dəstək tapmışdır, çünki bazar, azad mübadilə institutu kimi, ümumi və hərtərəfli razılaşmalar və güzəştlər şəraitində insan fəaliyyətini təşkil edir və onu cəmiyyətin başqa, qeyri-iqtisadi sferalarında tətbiq edir[43]. Nəticə etibarilə, kapitalizm, pulun özüartması şərti kimi, ümumi sosial-iqtisadi, mədəni və siyasi varlığın «universal paradiqmasıdır» (*P.Kozlovski*).

## 4. QİYMƏT VƏ PUL

Pul «sirrinin» mahiyyətinin tapılması anı qiymətin – obyektiv kateqoriyanın, amma bununla yanaşı, həm də ideal formanın təhlili ola bilər. «Pulun özü ölçüləbiləndir və *öz ölçüsünə* malikdir. O, hər zaman şərtləndirilmiş şəkildə qiymətləndirilmişdir və hər zaman şərtləndirilmiş miqdara malikdir. Pulun qiyməti, həmçinin onun miqdarı – subyektiv-obyektivdir, lakin, eyni zamanda, həm də immanent-transendentdir. Pulun qeyri-müəyyənliyi, onun variantıllığı və sadəcə olaraq sirrinin olması bununla əlaqədardır»[44]. Qiymət – insan əməyi məhsulunun pulla, məsələn, müəyyən miqdar qızılla ifadə olunmuş dəyəridir. Lakin qızıl öz-özlüyündə pul deyil, o, ictimai funksiyanı – bütün əmtəələrin dəyər ölçüsü funksiyasını yerinə yetirərkən pul olur. Qızıl belə ölçü kimi, məhsulların istehsalı və mübadiləsi prosesində insanlar arasında ictimai münasibətlər sistemində fəaliyyət göstərir. Qiymət düsturunun ideallığı buradan çıxır. Qiymət

cismin, məlum miqdarda pulla təqdim olunmuş, pulla (qızılla) bərabərlik vasitəsilə ifadə edilmiş və ona qarşı münasibətdən aşkar olunmuş dəyəridir. Belə təzahür forması «idealdır», yəni qiymət formasının ideallığıdır. Tədavül prosesində qızıl özü kimi qalaraq, əmtəə-pul dövriyyəsi prosesində «başqanı» əvəz edərək və təmsil edərək, həmin «başqanın» mövcud olması və hərəkətli forması kimi çıxış edir. Əmtəə qiymətdə pulla ideal qərarlaşır, çünki pul ondan fərqli reallığa malikdir. Real pullarla yanaşı, əmtəə ideal qərarlaşdırılmış pul kimi də mövcud olur. Əgər pul real olaraq əmtəə kimi qərarlaşdırılırsa, onda əmtəə ideal olaraq pul kimi qərarlaşır[45]. Qiymətləndirmə prosesində hər şey nəzərə alınır – nə isə yaxşı, nə isə pis. Lakin «sağ qalmaq zərurəti və ya elmi dildə desək, təkrar istehsal, həm də təkcə qiymətləndirmə subyektlərinin (satıcılar və alıcılar) yox, obyektlərin (cismlərin, yəni əmtəələrin) də təkrar istehsalı qiymətləndirmənin başı üzərindən əskik olmur»[46]. Beləliklə, real məhsulun başqa bir məhsulun ideal obrazı kimi qəbul olunması əmtəə kütlələrinin dövriyyəsi prosesində baş verir.

Pul iki əmtəənin qarşılıqlı mübadilə münasibətlərini ifadə edir: o, artıq bilavasitə real mübadiləyə girməyən, real olaraq dəyişdirilən əmtəələrin ümumi ölçüsü kimi təzahür edən üçüncünün mübadilə dəyəri kimi çıxış edir. Ancaq «təsərrüfat fəlsəfəsinə, ya qiymətin ölçülə bilən və bu ölçmələrə uyğun olaraq qiyməti təyin etmək mümkün olan maddi əsasını, ya da eyni vəzifəni yerinə yetirən (amma hər hansı bir materialı dəyişdirmədən) hansısa hesabi mexanizmi axtarmağa səy göstərmək qədər böyük yanlışlıq yoxdur. İqtisadiyyat qiymətləri özü hesablayır, o, bunun üçün transendent mexanizmə malikdir və bu mexanizm haqqında bir də onu demək olar ki, o, dəyər mexanizmidir. Məgər iqtisadiyyatın elə qiymətqoyma mexanizmi olduğunu iddia etmək azdırmı, o, bütünlüklə elə bunun üçün mövcuddur, iqtisadiyyatsız burada keçinmək olmaz... Məhz buna görə də qiymətlər mövcuddur, o, qiymətlər ki, transendent şəklində iqtisadiyyat tərəfindən hesablanır»[47]. Nəticə etibarilə, baxmayaraq ki, pullar, «üçüncü əmtəə» kimi maddi (cismani) olaraq mübadiləyə girməsələr də mübadilə aktında iştirak edirlər, yəni danışıqda, ağılda, təsəvvürdə ideal olaraq mövcud olurlar. Amma, bununla belə, o, sim-

> *«Əslində qiymət – əməyin qarşılıqlı mübadiləsini (tədavülünü) ümumi əvəzedici vasitə kimi çıxış edən bərabər miqdarına nisbətdə cismin ümumi qiymətləndirilməsidir».*
>
> İ. Kant

vola – yəni insanlar arasındakı ictimai münasibətlərin simvoluna çevrilir. Bu yanaşma pulun real mövcudluğunu saxlayır, çünki o, dəyər və onun formalarını xalis simvolika, münasibətlərin adları, qanunverici və şərti təsis olunmuş nişan kimi göstərən pul və dəyər nəzəriyyələrinə zidd olaraq, maddiləşmiş əməyi simvolizə edir. *K.Marksın* fikrincə, «əmtəələrin öz qiymətlərində ideal şəkildə qızıla çevrilmələri, qızılın da buna görə ideal şəkildə pula çevrilməsi şəraiti ideal pul vahidi ölçüsü nəzəriyyəsinin yaranması üçün səbəb kimi çıxış etmişdir»[48]. Bu da avtomatik olaraq əmtəələrin qiymətləri haqqında, sadəcə olaraq münasibətlərin adları və ya «xalis» nişanlar haqqında təsəvvürlərə aparıb çıxarır. Bununla da obyektiv iqtisadi hadisələr, özündə iradəni, təsəvvürü, «daxili» həyəcanı və s. əks etdirən sadə simvollara çevrilir. Lakin «əmtəənin ideal şəkildə qızıla və bununla da qızılın ictimai münasibətlərin simvoluna çevrilməsi, əmtəənin real olaraq pula çevrilməsindən zaman və mahiyyət etibarilə daha əvvəl baş verir»[49]. Nəticə etibarilə qızıl, əmtəələrin dəyər ölçüsü kimi, mübadilə vasitəsi olmaqdan daha əvvəl çıxış edir və deməli, pul kimi, əvvəlcə ideal formada fəaliyyət göstərir. Qızılın çəkisindən «dəyər əldə etmək olmaz – artıq, heç olmazsa, ona görə ki, dəyər nisbidir və münasibətdə, daha dəqiq desək, münasibətlər dünyasında, münasibət fəzasında, sosiumda ortaya çıxır. Sosium və onun həyatı qızılı pula çevirir, uyğun olaraq da başqa bir şeyə yox, qızıla qiymət verir. Belə çıxır ki, qızıl hərəkətdə, tədavüldə, bütün əmtəələrlə dövriyyədə olmalıdır və yalnız bu təqdirdə, o, qiymətə malik ola və pula çevrilə bilər»[50]. Beləliklə, pulun gücü ondadır, o, əmtəələri tədavülə çıxarır və onlar fərdlərin və cəmiyyətin təsəvvüründə artıq ideal olaraq pula *çevrilir*.

Pul, cism (predmet) kimi, başqa bir cismin (predmetin) *nümayəndəsidir*. Pul, özü kimi qalaraq, başqa cismin, hissi qavranılan şəkildə yox, mahiyyət etibarilə xarici təcəssümünə çevrilir. Bununla da verilmiş cism (pul) ideala çevrilir. Bu idealın hisslə qavranılan siması ilə yanaşı, onun mənası dəyişməz qalır və yalnız bütün cismlərin verilmiş cismə və ya əksinə, verilmiş cismin bütün cismlərə qarşı münasibətlər sistemi vasitəsilə aşkar edilir. Pul, cism kimi, elə bunu nümayiş etdirir, çünki əgər onu iqtisadi sistemdən çıxarsaq, o, öz rolunu (ideal mənasını) itirəcək və başqa cismlərlə yanaşı, adi, hisslə qavranılan cismə çevriləcəkdir. Lakin bu baş vermədiyinə görə, pulun ideal simvol kimi mövcud olması və fəaliyyət göstərməsi özlüyündə ona yox, daxilində onun öz xüsusiyyət və funksiyalarını əldə

etdiyi sistemə (iqtisadi, təsərrüfat) məxsusdur. «Bu da pul və onun qiymətidir. Bəli, o da təkrar istehsal olunaraq iqtisadiyyata uyğun gəlməlidir, elə olmalıdır ki, iqtisadiyyatın çıxışları və qeyri-bərabərlikləri onun təkrar istehsalını təmin etsin»[51]. Bu planda pulun «funksional varlığı» onun «maddi varlığını» tamamilə udur[52]. Maddi cismin, əşyanın (pulun) onun funksiyaları ilə uzlaşdırılması ideal olanı nişana, yəni öz-özlüyündə *heç* bir məna kəsb etməyən, özünün heç bir ortaq nöqtəsi olmayan başqa bir predmeti təmsil və ifadə edən predmetə çevirir.

Simvolun pulun funksiyalarına açıq şəkildə təzahür olunan funksional mövcudluğu məhz ondan ibarətdir ki, o, özünü yox, başqasını təmsil edir. Pul başqa hisslə qavranılan cismlərin (əmtəələrin) aşkar edilməsi vasitəsi və aləti kimi çıxış edir. O, özünün ümumi, ictimai-bəşəri mənasının, ictimai orqanizmin daxilində öz rolu və funksiyasının daşıyıcısıdır. Pulun funksiyası «cism», xarici cismin ideal obrazının maddi konsentrasiyası olmaqdan ibarətdir. Əgər pulu (simvolu) sosial fərd və mühit arasındakı qarşılıqlı fəaliyyətdən çıxarsaq, o, artıq simvol, ideal obrazın maddi qişası (örtüyü) olmayacaqdır. «Pulun məbləği hər hansı dəyər kütləsini təmsil etmək qabiliyyətinə malikdir, lakin bu, pulun pul kimi və müvafiq olaraq dəyər kimi real qavranılmasında olduğu kimi, iqtisadi proses çərçivəsində baş verəcəkdir»[53]. Əks təqdirdə, onun «bədənindən» ictimai insanın təsərrüfat fəaliyyətinin malik olduğu mahiyyət («ürək») uçub gedir, yox olur.

İdeal obraz olmadan insanın, ümumiyyətlə ətraf mühitlə qarşılıqlı fəaliyyəti həyata keçirə bilməməsi, ictimai istehsala cəlb olunmuş cismlərlə əməliyyat aparıla bilinməməsi də prinsipial və mühümdür. İdeal obraz da öz növbəsində, özünün həyata keçirilməsi üçün cismi-predmet material tələb edir ki, bunun da «özəyi» kimi, əmək fəaliyyəti çıxış edir. Doğrusu, «qeyd etmək lazımdır ki, onda açıq-aşkar ideal olanın mövcud olmasına baxmayaraq, əmək də öz-özlüyündə heç də tam maddi bir şey deyil: çünki əmək öz-özünə fiksə olunmur (fiziki və ya hətta intellektual və ya psixoloji enerji üzrə xərclərə heç nə demirlər, bundan başqa, bunlar hər hansı enerji üzrə məsrəflərdir – yenə də bu əmək deyildir). Əmək, dəyər və kapital kimi, öz-özlüyündə ələ keçirilməzdir»[54]. İdeal olan insan fəaliyyətinin forması kimi, nəticələrdə yox, yalnız fəaliyyətdə mövcuddur.

Pul – sadəcə nəticə deyil, fəaliyyətə qarşı daimi stimul, onun «ürəyidir», o, bu mənada, cismlərin mövcud olan, hissi olaraq Qavranılan formasının daimi olaraq inkar edilməsi, onların dəyişməsidir. O, predmetləri (cismləri, əmtəələri) onların müxtəlif formalarında «çıxarır», onun inkişafı

isə təsərrüfatçılıq formalarında ifadə olunan ümumi, nəticədə – bütün sosial-mədəni həyatın qanunauyğunluqlarına müvafiq olaraq gedir. Cəmiyyətin və insanın bu və ya digər predmetə (əmtəəyə) qarşı tələbatı təmin olunmuşdursa, deməli, bu məhsuldakı fəaliyyət də sönmüş, bununla bərabər, pul da güc, «qəlb», səy, fəaliyyət kimi öz mahiyyətini itirmiş, ölmüş öz təyinatını tükəndirmiş və «qeyri-pula» çevrilmişdir.

## ƏDƏBİYYAT


[1] *Кутырев В.А.* Духовность, экономизм и «после»: драма взаимодействия // Вопросы философии. – 2001. - №8. – С. 60.
[2] *Осипов Ю.М.* Философия хозяйства. – М., 2001. – С. 143.
[3] *Булгаков С.Н.* Философия хозяйства. – М., 1990. – С. 8 – 9.
[4] *Кутырев В.А.* Духовность, экономизм и «после»: драма взаимодействия – С. 61.
[5] *Усов В.В.* Деньги. Денежное обращение. Инфляция. Учеб. пособие для вузов. – М., 1999. – С. 7.
[6] *Булгаков С.Н.* Философия хозяйства. – С. 13.
[7] Federal Reserve bank of Philadelphia. Wreening Inflation // Business Review/ - 1957. - #8/ – C. 171/
[8] *Булгаков С.Н.* Философия хозяйства. – С. 12.
[9] *Кант И.* Основы метафизики нравственности. – М., 1999. – С. 659.
[10] *Булгаков С.Н.* Философия хозяйства. – С. 14.
[11] *Гегель Г.В.Ф.* Философия права. – М., 1990 – С. 339.
[12] *Ильенков Э.В.* Диалектическая логика. Очерки истории и теории. – М., 1974. – С. 176-177.
[13] *Уемов А.И.* Системный подход и общая теория систем. М.,1978.– С. 88
[14] Yenə orada.– S. 86
[15] *Осипов Ю.М.* Деньги как стоимость // Философия хозяйства. – 2002. - №4 (22). – С. 214.
[16] *Харрис Л.* Денежная теория. М., 1990. – С. 75.
[17] *Осипов Ю.М.* Философия хозяйства. – С. 151.
[18] *Ильенков Э.В.* Диалектическая логика. Очерки истории и теории. С. 178.
[19] *Маркс К. и Энгельс Ф.* Сочинения. – Т. 13. – С. 165.
[20] Yenə orada.
[21] *Осипов Ю.М.* Деньги как стоимость. – С. 215.
[22] *Осипов Ю.М.* Философия хозяйства. – С. 150.
[23] Yenə orada.– S. 156.
[24] Yenə orada.– S. 157.

[25] *Мунье Э.* Манифест персонализма. – М.. 1998. – С. 276.
[26] Yenə orada.
[27] *Осипов Ю.М.* Философия хозяйства. – С. 160.
[28] Yenə orada.
[29] Yenə orada.– S. 161.
[30] Yenə orada.– S. 163.
[31] *Мунье Э.* Манифест персонализма. – С. 131.
[32] *Зомбарт В.* Буръуа. Этюды по истории развития современного экономического человека. – М., 1994. – С. 132.
[33] *Осипов Ю.М.* Философия хозяйства. – С. 164.
[34] *Мунье Э.* Манифест персонализма. – С. 277.
[35] *Осипов Ю.М.* Философия хозяйства. – С. 164.
[36] Козловски П. Общество и государство: неизбежный дуализм. – М., 1998. – С. 240.
37 Yenə orada.
[38] *Зомбарт В.* Буръуа.
[39] *Осипов Ю.М.* Философия хозяйства. – С. 165.
[40] *Кутырев В.А.* Духовность, экономизм и «после»: драма взаимодействия – С. 61
[41] *Осипов Ю.М.* Философия хозяйства. – С. 167.
[42] *Зомбарт В.* Буръуа.
[43] Козловски П. Общество и государство: неизбежный дуализм. – С. 240.
[44] *Осипов Ю.М.* Деньги как стоимость. – С. 215.
[45] См.: *Ильенков Э.В.* Диалектическая логика. Очерки истории и теории. – С. 196.
[46] *Осипов Ю.М.* Философия хозяйства. – С. 146.
[47] Yenə orada.– S. 147.
[48] *Маркс К. и Энгельс Ф.* Сочинения. – Т. 23. – С. 140.
[49] *Ильенков Э.В.* Диалектическая логика. Очерки истории и теории. – С. 198.
[50] *Осипов Ю.М.* Философия хозяйства. – С. 144.
[51] Yenə orada.– S. 149.
[52] *Маркс К. и Энгельс Ф.* Сочинения. – Т. 23. – С. 140.
[53] *Осипов Ю.М.* Философия хозяйства. – С. 150.
[54] Yenə orada.– S. 171 - 172.

# FƏALİYYƏT VƏ PUL

*«Milyon axtaran insan onu çox nadir hallarda tapır, amma axtarmayan insansa, onu heç vaxt tapmır».*

O. de Balzak

*Fərdi varlıq dünyasında onun təbii-maddi yox, mənəvi, sosial-mədəni əsasları müəyyənedicidir. Bu – insanlaşdırılmış, təbiətin fəaliyyəti ilə (bizə verilmiş mənada) dəyişdirilmiş dünyadır. Fəaliyyət vasitəsilə xarici təbii dünya bütünlüklə biliklərdə, dildə, elmdə və mədəniyyətdə açılır. Mövcud olan real həyat fəaliyyəti yalnız indiki zamanda, bu gün vardır. O, keçir, ötür və özündən sonra yalnız «izlərini», «nəticələrini» qoyur (obyektiv-predmet və subyektiv-mənəvi). Həyat fəaliyyətinin ən belə mühüm nəticələrindən biri puldur. O, müxtəlif imkanlarda və qeyri-imkanlarda - bizim gözləmələrimizin ümidlərimizin, hadisə və arzularımızın predmetlərində meydana çıxan varlığın – keçmiş və indiki varlığın «əlaqələndirici» əsası kimi çıxış edir. Fəaliyyət nə qədər polifonikdirsə, pul da bir o qədər çox ekzistensial fenomendir, o, insanı onun həyat fəaliyyətinin mahiyyətindən ayıran şeyə və həyat fəaliyyətinin dərk edilməsi və özünütəhlilin predmetinə çevirir.*

## 1. FƏALİYYƏT, ŞƏXSİYYƏTİN MƏNƏVİ POTENSİALI KİMİ

«Fəaliyyət» anlayışının fəlsəfi tədqiqatlardakı əsas, metodoloji mərkəzi yer tutması onun *antropoloji tərkibi* ilə müəyyən olunur. Fəaliyyətin köməyilə, ya bütünlükdə insan dünyasının (alman klassikası), ya da konkret insanın bütünlükdə daxili dünyasının (klassik ekzistensializm və personalizm) universal xarakteristikası verilməyə cəhd edilir. İstənilən halda, fəaliyyət kateqoriyası özündə «nəzəri dərinlik və metodoloji konstruksiyalı empirik düzgünlüyü birləşdirən»[1], ümumi, son hədd abstraksiyaları ranqına ucaldılır. Fəaliyyət nəzəriyyəsində ən mühüm iş subyektivin obyektivə keçməsi və əksinə, obyektiv-predmet olanın subyektiv və nəzəri olana keçidi prosesinin fiksasiyasıdır. Fəaliyyətin təhlili təkcə predmetlik və obyektivliyin statusunu qiymətləndirməyə yox, həm də ən fundamental kateqoriya olan *ruhu* aktuallaşdırmağa imkan verir. O, fəaliyyətin potensialı, onun, son nəticəni – maddi və ya ideal cismi şərtləndirən «enerjisidir». «Ruh – substansiya yox, fəallıq vəziyyətidir; o, fəaliyyətin daxilində, cisimlərin ideya vəziyyətin transformasiyası və ideyaların vəziyyətini cisimlərin vəziyyətində açılmasına baxış bucağı altında baş verən şeydir»[2]. Ruh, subyektin özünü həyata keçirməsini, onun özünü predmet dünyasında (xüsusilə, təsərrüfatda) yenidən yaratmaq (bərpa etmək) və bu dünyanı yaradıcılıq vasitəsilə predmetləşdirmə qabiliyyətini xarakterizə edir.

Fəaliyyət kateqoriyasının tərkibi çoxmənalılığı onun predmet baxış dairəsinə pulu – spesifiki tam obyekti də daxil edir. Pulun rolunun təhlili və aşkar edilməsinə artıq ilk yanaşma göstərir ki, o, təsərrüfat fəaliyyəti nəzəriyyəsində məhdud şəkildə yazılır. «Pul «fəaliyyət» konsepsiyası məcrasında (istiqamətində) kifayət qədər fəaliyyətlidir: o, özündə fəaliyyətin məqsəd və vasitələrini təcəssüm etdirir, onun nəticəsi və ya onun adekvat qiyməti kimi çıxış edir»[3]. *Pulun «fəaliyyəti»* konkret, əvvəlcədən müəyyən olunmuş ideal göstərici və tapşırıqların həyata keçirilməsi kimi çıxış edir, yəni *məqsəd qoyuluşu və məqsədin reallaşdırılması* statusu əldə edir.

Fəaliyyət, fəlsəfi kateqoriya kimi, *fəaliyyət yanaşması* kontekstində özündə həqiqət münasibətlərinin spesifik insani tipini əks etdirir. O, «bioloji pulla yox, tarixi formalaşmış, sosial-mədəni proqramlarla» müəyyən olunur[4]. Fəaliyyətin fəlsəfi-dünyagörüşü mövqeyi cəmiyyət və insanın mədəni-tarixi konsepsiyası ilə əlaqədardır, dəqiq olaraq naturalizmə qarşı

istiqamətlənmişdir, dünyaya münasibətdə sosial-mədəni, nəticə etibarilə isə təsərrüfat normalarının rolu və mənasının primatlığına (birinciliyinə, üstünlüyünə) istinad edir. Fəaliyyətin, dünyaya qarşı münasibətin spesifik insani üsulu kimi başa düşülməsi belə bir nəticə çıxarmağa imkan verir ki, insan varlığı özündə təsərrüfatda həyatı əks etdirir. Şəxsiyyətin formalaşması təkcə mədəniyyət normalarının mənimsənilməsini yox, həm də sosial-iqtisadi məkanda həyat fəaliyyətinin həyata keçirilməsini nəzərdə tutur. Bu, pulun daimi olaraq «iştirakını» şərtləndirir, çünki iqtisadiyyat – pul dünyası və puldan dünyadır, «pul isə özü elə dünyadır» (*Y.M.Osipov*).

Fəaliyyət – fərdin təsərrüfatda fəallığıdır və pulun ta əvvəldən onun tərkibinə daxil edilməsi mənası bundan ibarətdir. «İnsan dünyasına demarkasiya xətti qoyan, onun məkan konturlarını qeyd edən bu anlayışın sonrakı konkretləşdirilməsi, labüd olaraq, sosial-mədəni paradiqmaların formalaşması, fəaliyyət göstərməsi və inkişafı haqqında təsəvvülərin izahatı istiqamətində həyata keçirilə bilər»[5]. Onların əsası kimi, artıq öz başlanğıcında pulla şərtlənmiş varlığın «təsərrüfat» xətti çıxış edir[6]. Əgər fəaliyyət – mədəniyyətin müəyyən mövcud formalarının mənimsənilməsi və inkişaf etdirilməsi əsasında təsərrüfat dünyasının məqsədəuyğun şəkildə dəyişməsi və yenidən təşkilidirsə, onda pul onun daxilində qarşıya qoyulmuş məqsədin nəticəsinin əldə edilməsi vasitəsi kimi çıxış edir.

Sosial-mədəni bazislərə, ilkin şərt və normalara əsaslanaraq, fəaliyyət, fəaliyyətin ölçülməsi və dəyişdirilməsinin *iqtisadi-kommunikativ* üsulunun tarixi inkişafı nəticəsində yaranmış pulun mənimsənilməsi, istifadə edilməsi və tətbiqini şərtləndirir. Pulun iştirak etdiyi funksiyalarda fiksə olunmuş tənzimləmə metodları, normaları, məqsədləri və formaları ona fəaliyyətin müəyyən paradiqmasını verməyə imkan yaradır. Paradiqmanın ilkin əsaslarının dünyaya qarşı münasibətin konkret üsulunu və bununla da fəaliyyətin istiqamətliliyini şərtləndirdiyindən, onun məqsəd oriyentirləri pula həqiqətin – təsərrüfat dünyasının məqsədyönlü dəyişməsi və yenidən təşkili kimi çıxış etməyə imkan verir. Bu mənada, pul həm fəaliyyətin obyekti, həm də subyekti kimi çıxış edir. Pullar, ideal fenomen kimi, «özbaşına olmasalar da kifayət qədər subyektivdirlər» və «obyektivdirlər, amma o dərəcədə yox ki, şüurlu şəkildə yaradılmış olmasınlar»[7]. Pul, səmərəli predmetləşmə və predmetləşdirmə proseslərinin vəhdəti kimi, obyektiv və subyektiv formada çıxış edir.

Fəaliyyətin fəal, yaradıcı başlanğıcı ən yüksək dərəcədə pulun, həqiqətin mənimsənilməsi forması kimi, fenomeninin üzvi şəkildə daxil edildiyi mədəniyyətin mövcud formalarının inkişafında təzahür edir. Məhz fəaliyyətdə bu səviyyədə, onların imkanları yüksəkliyində, pulla yanaşı, həqiqətin məqsədyönlü şəkildə dəyişdirilməsinin əsas subyekti olan «insan fenomeni» də açılır. Bu cür fəaliyyət açıq sistem kimi çıxış edir, çünki daimi olaraq yenidən baxış, onun əsasında duran proqramların təkmilləşdirilməsi, daimi olaraq yenidən proqramlaşdırma və öz şəxsi əsaslarının yenidən qurulması üzrə qabiliyyətini nəzərdə tutur. Bu o deməkdir ki, fəaliyyət kontekstində pul insan varlığının əmək, bilik, fəaliyyət, istehsal və başqa həyat sferaları vasitəsilə reallaşdırılmasına yol açır. Pulun, mübadilə, alqı-satqı, mülkiyyətin dəyişdirilməsi vasitəsilə ifadə olunmuş öz varlıq üsulu *fəaliyyət səciyyəlidir*. Cəmiyyətin iqtisadi həyatı – fəaliyyətin nəticəsidir, çünki «özgəninkiləşdirilmə və mənimsəmə aktlarının daimi növbələşməsi – bazarın nəbz döyünüşü, dağınıq halda olan istehsalçı və istehlakçıların qarşılıqlı fəaliyyət üsulunu ifadə edən cəmiyyətdə yaradılmış nemətlərin bir əldən başqasına ötürülməsi əsasında formalaşır»[8]. Pul burada insanların fəaliyyətində *iqtisadi məkanın* yaradılması və dəyişdirilməsi üzrə keyfiyyət və kəmiyyət sərhədlərini müəyyən edir. Bu zaman insan sadəcə olaraq verilmiş davranış proqramının, onun çərçivəsində yeni, orijinal həyata keçirilmə qərarları tapan, fəal iştirakçısı kimi yox, son nəticədə, yeni fəaliyyət proqramlarının, yeni mədəniyyət paradiqmalarının yaradıcısı kimi çıxış edir. Belə fəaliyyət məqsədyönlü və məqsədəuyğundur, digər tərəfdən, öz əsaslarının yenidən qurulması ilə bağlı olduğundan, məqsəd müəyyən edəndir[9]. Məhz məqsədəuyğun fəaliyyətdən məqsədləri müəyyən edən fəaliyyətə keçid zamanı pulun, vasitə və bununla bərabər, məqsəd kimi dəyişmə rolunun perspektivləri açılır.

> *«Fəaliyyət – insanın özünü həyata keçirməsi və onun tərəfindən öz şəxsi həyatını (o cümlədən, onun daxili və ya seyrçi həyatını) fasiləsiz olaraq qurmasıdır. Əgər o, azad və ölçülüb-biçilmişdirsə, zövq verir. Əmək – fəaliyyətin xüsusi, lakin faydalı - maddi və qeyri-maddi predmetin yaradılmasına istiqamətlənmiş növüdür, ağır növüdür».*
>
> E. Mune

İnsan fəaliyyəti mədəniyyət tərəfindən verilən və təbiətə münasibətlə transendent olan proqramların mexanizminə yazılır. Pul dəyər kimi, az

transendent deyildir, o, yalnız zahirən elə görünür, əslində isə elə olmur. Ancaq «görünən, hətta hiss olunan belə transendent ola və öz transendent xüsusiyyəti xaricində anlaşılmaz ola bilər»[10]. Pul, fəaliyyət kimi, «insandan kənarda», onun xarici mühitinin dəyişdirilməsinə meyillə (istiqamətlə) məhdudlaşmır. O, həmçinin «insanın, onun daxili dünyasının özüdəyişməsini, özütəkmilləşməsini nəzərdə tutur ki, bu da insanlar arasındakı münasibətlərin tənzimlənməsinin spesifik insani formalarının meydana çıxmasını nəzərdə tutur»[11]. Beləliklə, *fəaliyyətin müxtəlif forma və üsullarının qarşılıqlı əlaqəsi, özünə pulun fəaliyyət təbiətini daxil edən fəaliyyətdir.*

İnsan dünyasının unversiumunda fəaliyyətin, mövcud olan real bir şey kimi və pulun cəmiyyətdə, varlıq kimi qarşılıqlı əlaqəsi onun eyniliyindən danışmağa əsas verir, çünki o, insan varlığının açıqlığı və transendentliyi mənasında, ümumi halda, insan sosiumuna formalaşmasına və inkişafına bilavasitə təsir göstərərək, oraya birbaşa çıxışa malikdir.

Nəticə və yekunlar məcmusu kimi, çətinliklərin dəf edilməsi və insanın özünü dəyişməsi prosesi kimi, fəaliyyəti pulla o birləşdirir ki, o, pulla birlikdə «*insan birliyinin öz həyat şəraitinə münasibətinin*» ümumi üsuludur[12]. Onların vəhdəti sayəsində insan reallığının yaradıcı şəkildə dəyişməsi baş verir. Bu mənada, insanın fəaliyyətli varlığından, onun, özünə birlik, şüur və təcrübəni (onun mövcudluğunun son hədd forma və üsullarını) daxil edən həyatının fəaliyyət təcrübəsindən danışmaq olar.

Göstərilən vəhdət həmçinin pul və fəaliyyətin ontoloji statusuna da əsaslanır. İnsan varlığının məzmununu təşkil edən xarakteristika göstərir ki, fəaliyyət sosial reallığın (onun fəallığının xüsusi formasının yox) ontoloji kateqoriyasıdır, o, hər zaman subyektivdir, çünki istənilən fəaliyyətin öz sahibi, müəllifi və təşkilatçısı var. Təsərrüfatsız və subyektsiz fəaliyyət olmadığı kimi, pul da yoxdur, «əks təqdirdə, bu, sadəcə olaraq obyektivləşdirilmiş, şəxsizləşdirilmiş bir prosesdir, yəni «sayrışır», «işıqlanır» və s.: proses var, sahibi isə yoxdur»[13]. Konkret fəaliyyət subyektinin çox vaxt qeyri-müəyyən olması və onun tez-tez proses kimi görünməsi başqa məsələdir. Bu, sirr kimi çıxış edən pula da aiddir, çünki «pul canlı orqanizm olmasa da *canlı orqanizmlər arasında olan* və buna görə də nə isə bir canlılığa malik olan orqanizmdir»[14]. Yaxud fərdi subyekt yalnız düşünür ki, o, özü fəaliyyət göstərir, faktiki olaraqsa, başqasının, sahibi anonim olan və birincini öz məqsədləri üzrə manipulyasiya edən (anonim subyekt kimi, öz funksonerləri üçün sosial struktur çıxış edə bilər) fəaliyyət vasitəsi kimi çıxış edir.

Fəaliyyət hər zaman predmetlidir (obyektivdir); onun bu cəhəti göstərir ki, o, təsərrüfatın hansısa keçmiş məkanında «genişlənir». Pul kimi, fəaliyyət də öz gedişatının müəyyən obyektiv şərtlərinə tabedir[15]. Predmetsiz və məqsədsiz fəaliyyət olmadığı kimi, «*pulsuz təsərrüfat*» kimi çıxış edən predmetsiz pul da olmur (*Y.M.Osipov*). «Ümumi fəaliyyətin» bu baza xarakteristikaları və determinantları öz qarşısına onun pula münasibətdə təhlili vəzifəsini qoyur ki, bu da insan varlığı ölçülərində onun ekzistensial statusunu aşkar etməyə imkan yaradır.

## 2. ƏMTƏƏ VƏ FƏALİYYƏT

Fəaliyyət, çoxaspektli və çoxvariantlı prosesdir, onun oriyentasiyası müxtəlif kateqorial kəsiklərdə həyata keçirilir. Ümumi halda, «həm məqsədlərin reallaşdırılması spesifikasını, həm məna yaradıcılığının geniş sahəsini, həm də müxtəlif imkanların sınaqdan keçirilməsini»[16] əhatə edən fəaliyyət həyat fəaliyyəti adlandırıla bilər. «Həyat fəaliyyəti» anlayışı onun formalarının çoxluğunu müəyyən edir və xüsusi halda, onun *əməklə* əlaqəsini göstərir. Həyat fəaliyyətində diqqət yaradıcılığı xarakterizə edən *özfəaliyyət* və ruh aktları üzərində cəmləşir. «Əmək» anlayışı altında «ümumi halda, insanın həyati təminatının təfərrüatı ilə, xüsusi halda isə faydalı məhsulların istehsalı ilə determinləşmiş mühitin məqsədə oriyentasiyalaşmış şəkildə dəyişməsini» başa düşmək lazımdır[17]. Nəticə etibarilə, qarşıya qoyulmuş problem kontekstində «pul» termininə münasibətdə «əmək» terminin anlayış statusunu mərhələli şəklində təhlil etmək lazımdır.

> *«Əksəriyyət, əsas etibarı ilə, iki şeydən asılıdır: zəhmətsevərlik (çalışqanlıq) və mötədillik (ətalətlilik), başqa sözlə – nə vaxt, nə pul itirmə, həm bundan, həm də digərindən ən yaxşı şəkildə istifadə et».*
>
> B. Franklin

Sərvətin, kapitalın, pulun və bütün insan nemətlərinin mənbəyinin əmək olması hamı tərəfindən qəbul olunmuşdur. İnsanın bütün uğurları, varı və sərvəti sərf olunmuş əməyin miqdarı ilə müəyyən olunur. Artıq mifoloji qəhrəmanlara təkcə onların misilsiz qüvvələri və onların qələbə çaldıqları döyüşlərə görə yox, həmçinin onların ictimai rifaha nail olunmasına istiqamətlənmiş əmək fəaliyyətlərinə görə də hörmət edilir. *Heraklın*

qəhrəmanlıqlarından birini – onun Avgi tövlələrini təmizləməyini yada salmaq kifayətdir. Avropa mədəniyyətinin mifoloji və xristian ənənələri əmək anlayışı ilə sıx bağlıdırlar. Əsrlər ərzində mütəfəkkirlər əməyin təbiətini və onun növlərini dərk etməyə çalışmışlar. Tədqiqatlar göstərir ki, «əməyin və insanlar arasında əmək münasibətlərinin inkişafı təxminən aşağıdakı qaydada təkamül etmişdir: əmək insanlara təbiətin özü (antik), Tanrı (orta əsrlər), insan təbiəti (İntibah) tərəfindən bəxş olunub»[18].

Əməyin fəlsəfi cəhətdən dərk olunmasına, əməkhaqqında insan varlığının ümumi substansiyası kimi müddəa irəli sürmüş *Q.Hegel* mühüm töhfə vermişdir. Mütəfəkkir belə hesab edir ki, əmək ruhun reallaşması formasıdır, buna görə də məhz onda insan özü-özünü həyata keçirir. «Mütləq ideyanın» - özünün baş nəzəriyyəsinin mahiyyət və tərkibindən çıxış edərək, filosof əməyi istənilən fəaliyyətlə – siyasi, incəsənət, dini və başqa fəaliyyətlərlə eyniləşdirir[19]. *K.Marksın* da tərəfdar çıxdığı *Hegel* ənənəsinə uyğun olaraq, ruh əməklə müqayisə olunur. Bu müxalifətdə (əkslikdə) əmək, nəticələrdə predmetləşmiş müsbət fəaliyyət kimi, ruh isə mənfi güc kimi çıxış edir. *Hegeldə* sonuncu, o deməkdir ki, prinsipial olaraq, ruh əməyin istənilən nəticəsində, hər bir fəaliyyət məhsulunda, ondan inkişaf üçün istifadə edərək sönmür. Başqa sözlə, predmet varlıq (pulun dəyər kimi fəaliyyət göstərdiyi varlıq) ruh üçün hərəkətin start (başlanğıc) şərti, yaradıcı inkardır. Bu anlamda, ruh fəaliyyəti, onun müxtəlif təzahürlərində – «işdə», «məşğuliyyətdə», «təcrübədə», «əməkdə» canlılaşdırır.

Əməyin fəlsəfi və utilitar anlamlarını fərqləndirmək lazımdır. Klassik siyasi iqtisad (marksizmin ortaya çıxdığı) nöqteyi-nəzərindən, əmək maddi nemətlərin və mübadilə dəyərlilərinin, yəni pulların istehsalıdır. *K.Marks* bu nəzəriyyəyə əsaslanaraq əməyin struktur-tərkib təhlilini verir və onun daxilində fəaliyyətin, əməyin predmet və vasitəsinin məqsəduyğunluğunu qeyd etməsinə baxmayaraq, yenə də onun mahiyyətinin sadələşdirilmiş başa düşülməsi mövqeyində qalır. Əməyə insanların mövcud olması şərti, daimi təbii zərurət kimi baxılmasını ifadə edərək o, iqtisadi-mexaniki reduksionizm metodunu tətbiq edir, onu «insanın beyninin, əzələlərinin, sinirlərinin, əllərinin və s. məhsuldar şəkildə sərf olunması» kimi müəyyən edir[20]. Son dərəcə iqtisadi məsələlərin həllinin dərinliyi marksist anlamında əməyi fəlsəfi tərkibdən məhrum etmişdir, çünki diqqəti praqmatik məsələlər üzərində cəmləşdirərək, onun daxilində son nəticədə aşağıdakı fikir təsdiq-

lənir: «Əgər əməyin müəyyən xarakterindən uzaqlaşsaq, onda onun daxilində yalnız bir şey qalacaqdır – o, insan gücünün sərf edilməsidir»[21].

Marksist ekonomizminin əksinə olaraq S.N.Bulqakov üçün əmək, ümumiyyətlə, həyatın təməl fenomenidir. O, subyekt və obyekt arasında «canlı həyat» kimi, «Mən»i reallıqlar dünyasına çıxaran və onu bu dünya ilə qırılmaz şəkildə əlaqələndirən körpü kimi çıxış edir. Əmək – kənarda obyektivləşən və bununla da dünyanı bizim üçün obyektivləşdirən «*insani aktuallıqdır*». Əmək sayəsində subyektin – obyektin «*canlı vahidliyi*» həyata keçir və yalnız əməyi «metodoloji abstraksiyalar vasitəsilə bu və ya digər münasibətdə nəzərdən keçirərkən, ondan subyekt və ya obyekt ayrılır»[22]. *S.N.Bulqakov* əməyin qneseologiya vasitəsilə öyrənilməsinin vacibliyini qeyd edir, bu isə subyekt və obyektin birbaşa verilənlər kimi qırılmaz «bütövlüyünə» oriyentasiyanı ifadə edir.

*S.N.Bulqakov* əməyi subyektiv tərkiblə dolduraraq, siyasi iqtisadı onun «iqtisadi materializminə» (əməyi yalnız onun məhsullarına, «obyektinə» görə «tanıyan») *Kantın* «subyektiv idealizmini» isə anoloji səhvə (amma əks qütbdə) görə tənqid edir. Mütəfəkkir qeyd edirdi ki, «Kant subyekti, daha çox isə neokant subyekti tənbəldir, o, tamamilə passivdir və istənilən əmək enerjisindən məhrumdur»[23]. Bu, onu öz subyektivliyini «sağlam şəkildə» dərk etməkdən, «Mən reallığından» məhrum edir. Bu fəlsəfi yanaşmanın fatal, qaranlıq (ümidsiz) fatalizmi, subyektin tam passivliyinin ifadəsi, onda aktuallığın, özfəaliyyətin, «aseizmin» olmaması buradan çıxır. Əslində subyekt «maddi nemətlərin istehsalı zamanı mövcud olan əməklə eynilik təşkil edən və ya ona anoloji olan əmək prosesi ilə şüursuzluq dərisini soyur və öz obyektinə çıxır»[24]. Əmək – subyekt və obyekt arasında qütbləşmənin dəf edilməsi yoludur, o, eyni zamanda hər şeyin əmək fəaliyyətindən ibarət olduğu həyat yoludur.

*S.N.Bulqakov* əməyin fəlsəfədə kifayət qədər qiymətləndirilmədiyini hesab edərək, əmək problemini pulla birləşdirən mübadilə dəyərinin əmək nəzəriyyələrinə istinad edir. O, özünün əsas fikrini aşağıdakı kimi ifadə edir: «Böyük mühakimə: əmək təsərrüfat həyatının ali başlanğıcı, onun təyinedicisidir; kiçik mühakimə: əməyin bu rolu müvafiq yolla təsərrüfat həyatının fenomenologiyasında, hadisələrin səthində təzahür etməlidir»[25]. Buradan belə bir nəticə çıxır ki, mübadilə proporsiyaları, yəni pul və əmtəənin dəyəri onların istehsalına sərf olunmuş əməyin miqdarı ilə müəyyən olunur. Ancaq həqiqətdə təsərrüfatda əməyin onun əsası kimi əhəmiyyətini

qiymətləndirmək üçün bazar qiymətlərinin əmək dəyərlərinə qarşı hansı münasibətdə olması tamamilə əhəmiyyətsizdir. «Hər zaman yadda saxlamaq lazımdır ki, qiymətləndirmə – təkcə obyektiv an və subyektiv coşğunluqların (ehtirasların) əksi (inikası) yox, *öz-özünə başdır*»[26]. Bütün problem bundadır, çünki qiymətləndirmə dünyasında «hər şey və hər kəs bir-birilə bağlıdır və qarşılıqlı fəaliyyətdədirlər» (*Y.M.Osipov*). Qiymət, həm qiymətlərin nəzərə alınması ilə, həm də müəyyən dərəcədə ixtiyari (özbaşına) hesablanır. Qiymətlər şərtlənmişdirlər və eyni zamanda təsadüfidirlər və daimi olaraq canlı reallıqla korreksiya olunurlar. *S.N.Bulqakov* buna istinadən, belə hesab edir ki, pul qiyməti və əmək fəaliyyətinin münasibəti bir-birinə tamamilə uyğun gəlmir. Lakin bununla belə, o, təsərrüfatın əsası kimi əməyin əhəmiyyətini inkar etmir. Bu planda, «təsərrüfat əməyi» özündə pulu ifadə edir, çünki o, təbiətin yeni gücü, yeni «yaradan, kosmoqonik amildir», həm təbiətin başqa güclərindən, həm də onun merkantil-monetar qiymətləndirilməsindən prinsipial olaraq fərqlənir[27]. Bəşəriyyətin şüurlu surətdə inkişafı dövrü ondan başlayır.

Burada əməyin (texnologiya kimi) fəaliyyətdən (özünü dərk etmə) ayrılması tendensiyası relyefli şəkildə təzahür edir. *F.Nitşenin* nöqteyi-nəzərindən, əmək insanı real həqiqətlə ən möhkəm bağlılıqla əlaqələndirir, amma şəxsiyyətin özünü reallaşdırması «xalis» azad vaxt sərf olunan dərk olunmuş fəaliyyət prosesində həyata keçir. «Əməyin qiymətini, əgər biz onu işə sərf olunmuş zaman, səy, həvəs və ya həvəssizlik, məcburiyyət, yaradıcılıq və ya işdə az və ya çox dərəcədə aşkar olunmuş tənbəllik, vicdanlılıq, canfəşanlıq kimi müəyyən etsək, heç vaxt düzgün hesablamaq mümkün deyil, çünki bu halda tərəzinin gözünə bütün insanı qoymaq lazım gələcəkdir ki, bu da qeyri-mümkündür»[28]. İnsanlar hər zaman öz əməklərinin qiymətləndirilməsindən narazıdırlar və əməyi qiymətləndirənləri ədalətli olmağa çağırırlar. Amma pul öz-özünə ədalətlilik ölçüsü ola bilməz, çünki istənilən iş, məlum güc, zəiflik, biliklər və səylərin mövcud olmasından asılı olaraq yaxşı və ya pisdir. Əməyin qiymətləndirilməsi pulla yox, az və ya çox dərəcədə onun faydalılığı nöqteyi-nəzərindən müəyyən olunur ki, bu da pul qiymətqoymasını obyektivlər bölümündən ali, incə (zərif) faydalılığı nəzərə alan subyektiv bölümünə keçirir.

Əmək müxtəlif cür başa düşülür. *A.Şopenhauer* xoşbəxtlik haqqında düşünərək onu bizim *şəxsiyyətimizin, fərdiliyimizin* əsas tərkib hissəsi hesab edir; bu, «ona görə ədalətlidir ki, şəxsiyyət daima və hər cür şəraitdə fəaliy-

yətdədir (hərəkətdədir)»[29]. Bu şəxsiyyətə uyğun gələn məşğuliyyət və həyat tərzini seçmək lazımdır. Nəticə etibarilə, əmək insanın gücü və qabiliyyətlərinə uyğun gəlməlidir. Buna görə də sərvət əldə etməkdənsə, sağlamlığın saxlanması və qabiliyyətlərin inkişafının qayğısına qalmaq daha tədbirli fəaliyyətdir. Pul həqiqi və mənəvi tələbatları təmin edir, amma bizim «rifahımız» və əmin-amanlığımız üzərində yalnız cüzi təsirə malikdir. Pul sərvətinin saxlanılması və artırılması hətta ləyaqəti belə zəhərləyir, çünki o, labüd (qaçılmaz) və daimi tələbatlarla bağlıdır. *A.Şopenhauer* insanların artıq toplanmış sərvəti daha da artırmaq üçün «qarışqalara məxsus zəhmətsevərliklə» səhərdən axşamadək yorulmadan işləməyi tənqid edir. Bu, baxış dairəsini daraldır, qızıl yığınlarını əvəz etməyən mənəvi zövqləri və «az vaxt və çoxlu pul tələb edən ani zövqləri əlçatmaz edir»[30]. Bütün iş, həyatı mənalı edən öz qabiliyyətinə uyğun gələn əməyin (*Q.S.Skovorodanın* dediyi kimi, «bacardığın işi») seçilməsindədir.

*E.Munye* öz personalist fəlsəfəsinin prinsiplərində «ümumi halda, əməyi fəaliyyətdən və xüsusi halda, fəaliyyətin ən mənəvi forması olan şüurdan fərqləndirməyi təklif edir. Əməklə birlikdə təkcə müdriklik yox, həm də ağılsızlıq gəlir; yaratmaq – insan fəaliyyətinin mahiyyəti budur, lakin yalnız bir şərtlə: əgər o, bəşəriyyəti ucaldan ilahi mənsubiyyətin ən gizli məqsədlərinin götürüldüyü total perspektivdə həyata keçirilsin»[31]. Əmək, nəticəsi «insanın iş qüvvəsinin sərf edilməsinə» (*K.Marks*) görə kompensasiyadan ibarət olan praktiki, maddi fəaliyyət və mənəvi və yaradıcı əsası təşkil edən fəaliyyət kimi çıxış edir. Əmək – insanın mövcudluğunun dəyişməz şərtidir, o, faydalı məhsulun yaradılmasına, inadkar mAteriyanın «ram edilməsinə» doğru ağır, lakin zəruri təmayüldür (meyildir). Ancaq əmək, istehsal fəaliyyəti kimi, yalnız özünün ən yüksək məqsədi – «*şəxsiyyət erasının*» gəlməsi ilə qiymətlidir. Bu məqsəd, nə texniki təchizat səviyyəsindən, nə əmək məhsullarının miqdarından, nə də pul firavanlığından və ya onun miqdarından asılı deyildir.

*E.Munye* əməyi fəaliyyətdən fərqləndirərək onların dəqiq xarakteristikalarını verir: *fəaliyyət – insanın özünü həyata keçirməsi, onun öz həyatını, o cümlədən daxili və seyrçi həyatını fasiləsiz olaraq qurmasıdır. Əmək – fəaliyyətin təbii, amma ağır, faydalı predmetin yaradılmasına istiqamətlənmiş xüsusi növüdür.* Əgər azad və ölçülüb-biçilmiş fəaliyyət zövq verirsə, əmək, bundan fərqli olaraq, nə insanın bütün həyatını təşkil etmir, nə də onun daxilində əhəmiyyətli yer tutmur[32]. Fəaliyyət, qəlbin və ağlın həyata keçiril-

məsi kimi, pula adekvat deyildir. Məcburiyyət elementinin xas olduğu əmək isə fərqlidir, o, rentabelli olmalıdır, nəticə etibarilə, sərf olunmuş səylər pul kompensasiyasını tələb edir. Əmək, fəaliyyət və yaradıcılığa nisbətən daha az meyilə malik olaraq, hər şeydən əvvəl, *hər bir insan üçün onun mövcudluğunun təminat və mükəmməl həyatın yaradılışı vasitəsi kimi çıxış edir.*

Əmtəəyə çevrilmiş əmək müxtəlif qapalı qiymətləndirmə sistemləri ilə tələb və təklif «oyununa» tabe olur. Əməyin, nəticəsi kimi çıxış edən onun məhsulların miqdarına və ya sərvətin artmasına görə qiymətləndirilməsi rentabelliyin adi qaydalarına və «pul müharibələri» əsnasında bağlanılan müvəqqəti paktlara müvafiq olaraq hesablanan mükafatları şərtləndirir. *Y.M.Osipov* hesab edir ki, «pul heç zaman hər kəs üçün rahat olmur, lakin o, yenə də «həzmolunan» olmalıdır». Bu, «qiymətlərin qəbul olunmasıdır və nəzərə almaq lazımdır ki, reallıqda bütün qiymətlərin birlikdə qəbul olunması baş verir»[33]. Qiymət – əməkhaqqı, əməyə görə mükafatdır.

Əməkhaqqı, əmək rejiminə əsaslanan bir sıra hesablama qaydalarına malikdir, lakin pulun miqdarını üstələməyə yol verilə bilməz, o, həyatın təmin edilməsi səviyyəsinə uyğun gəlməlidir («real əməkhaqqı»). Bu planda, əməyin pula istiqamətlənməsi, həm insanın həyata keçirilən işdə «həll olması» təhlükəsini (hansı ki, kollektivist psixologiyası buna can atır) yaradır, həm də «insanın industrial cəmiyyət tərəfindən qoyulan qaydalara itaətkarsadiqliklə icrasına çevrilməsinə yol açır»[34]. Nəticə etibarilə, bir qayda olaraq qəbul etmək lazımdır ki, əmək, şəxsiyyət tərkibli olaraq, ölçülə bilmir: pul (əməkhaqqı), hətta avtomatik əməyə görə mükafat olduqda belə, *məhsuldarlığa yox, insana, onun ləyaqətinə istiqamətlənmək lazımdır.*

İnsan həyatının əxlaqi-etik tərəfi ilə qarşılıqlı əlaqə əməyi fəaliyyətə çevirir. *V.S.Solovov* bu mövqedən çıxış edərək belə hesab edir ki, insanı yalnız iqtisadi xadim – istehsalçı, sahibkar və maddi nemətlərin istifadəçisi kimi qəbul olunması səhv və qeyri-əxlaqi nöqteyi-nəzərdir. Adları çəkilən funksiyalar insan üçün öz-özlərinə mənaya malik deyildirlər, onun varlığını və ləyaqətini (dəyərini) heç bir vəchlə ifadə etmir. Məhsuldar əmək, onun nəticələrinə sahiblik və onlardan istifadə olunması insan həyatının tərəflərindən və ya onun fəaliyyət sferalarından birini əks etdirir[35]. Mövcud olmaq üçün vəsait əldə etmək, yəni məhz pul qazanmaq üçün işləmək, zəhmət çəkmək zərurəti sosial-iqtisadi reallığın tələb etdiyi kimi, yalnız insanı fəaliyyətə sövq edən təkandır və bunun sonrakı gedişi etik, fəlsəfi xarakterli səbəblərlə müəyyən olunur. *V.S.Solovyov* üçün insan mahiy-

yətinin məhz əxlaqi-etik tərəfi mühümdür, buna görə də əməyin xüsusiləşməsini müşahidə edərək o, onu əxlaqi münasibətlər dairəsində saxlamağa çalışır və aşağıdakını ifadə edir: «Ümumi şərait ondan ibarətdir ki, iqtisadi fəaliyyət sahəsi müstəqil, sərbəst olaraq xüsusiləşməsin və möhkəmlənməsin, istehsal istehsalçıların insani ləyaqətləri hesabına həyata keçməsin, onlardan heç birinin yalnız əmək aləti olmasın, hər kəs üçün layiqli mövcudluq və inkişaf etmək üçün maddi vəsaitlər təmin olunsun; maddiyə münasibətdə əməyin məqsədi əşya və pulun əldə edilməsi üçün ondan istifadə edilməsindən yox, onun özünün təkmilləşdirilməsindən, ondakı ölünün, mənəvi olmayanın və maddi olanın canlandırılmasından ibarətdir»[36]. Gördüyümüz kimi, böyük rus mütəfəkkiri üçün əməyin mahiyyəti hər kəsi layiqli mövcudluq və hərtərəfli təkmilləşmə üçün zəruri vasitələrlə təmin olunmasından ibarətdir. Nəticə etibarilə, pul, maddiləşmiş əmək kimi, yekun məsələnin (maddi təbiəti dəyişdirmək və diriltmək) həlli vasitəsi kimi çıxış edir.

Bütün insanlar əməkdə iştirak edirlər ki, bu da ona qarşı xüsusi diqqəti şərtləndirir, çünki o, məqsəd və ya əmək məhsullarından ibarət olan sərvəti, və ya pula əsaslanan var-dövləti, yaxud əmək məhsulunu nəzərdə tutur. Buradan belə bir fikir çıxır ki, müəyyən nəticəyə nail olunmasına istiqamətlənmiş istənilən fəaliyyəti təsərrüfatda müxtəlif formalarda çıxış edən əmək hesab etmək lazımdır. Təbiətlə qarşılıqlı münasibətdə əmək şüurlu fəaliyyət kimi, təkcə təbiətə uyğunlaşma şəklində yox, həm də onun dərk olunması və dəyişdirilməsi şəklində çıxış edir. Təsərrüfatın başqa subyektləri ilə münasibətdə əmək, ünsiyyət, qarşılıqlı yardım və əmək məhsullarının (mənəvi və maddi) mübadiləsi formasında çıxış edir. Mədəniyyət səviyyəsində əmək özünə insanın sosial-mədəni mühitə adaptasiya prosesini və konkret nəticələr, fəaliyyət tipləri, idrak formaları şəklində möhkəmlənir. Əmək fəaliyyətinin bütün təzahüratları və proyeksiyaları öz aralarında qarşılıqlı əlaqəlidirlər və hər biri digərindəki məhdudiyyətləri kompensasiya edir[37]. Gördüyümüz kimi, müəllif ardıcıllıq qurur: *əmək – fəaliyyət – nəticə*. Bu sırada özünə fəaliyyəti daxil edən əmək üfüqünün əsaslığı, «genişliyi» qeyd olunur. Amma «azad fəaliyyət» anlayışına

> «*Mən hissi dünyada fəaliyyət göstərirəm. İstənilən dərketmə buradan başlayır. Və mənim fəallığımın belə dərk edilməsi olmadan heç bir özünüdərk yoxdur, öz növbəsində, özünüdərk olmadan da Mən olmayanın dərk edilməsi mümkün deyildir*».
>
> İ. Q. Fixte

münasibətdə əmək tabe mövqeyini tutur. Bu, azad fəaliyyətə daxili və xarici məqsədləri ifadə edən kommunikasiya prosesinin daxil edilməsi ilə izah olunur[38]. Bu müddəa o münasibətdə ədalətlidir ki, kommunikasiya, ilkin təcrübə kimi, fərdin qarşısında şəxsi mövcudluq perspektivlərini açaraq onun öz əməyi vasitəsilə «mərkəzləşdirir».

Əməyin insanın vaxtının böyük hissəsini tutduğu müəyyən sosial-iqtisadi vəziyyət şəraitində o, kəmiyyət dəyişiklikləri, yəni pulla şərtlənir. «*Azad* (formal) *əməyin* rasional təşkili iki mühüm komponent olmadan ağlasığmazdır: müasir iqtisadiyyatda hökmüranlıq edən *ev təsərrüfatı üzrə müəssisə bölməsi* və bununla sıx bağlı olan rasional *mühasibat hesabdarlığından*»[39]. Sonuncu, məlum olduğu kimi, öz növbəsində, pul ölçülərini nəzərdə tutur, çünki «əsasında özgəninkiləşdirilən və mənimsənilən nemətlərin ekvivalentliyi prinsipinin durduğu mübadilənin miqdar proporsiyaları pul vasitəsilə təyin edilir»[40].

Ancaq *pulun mahiyyəti* insanın reallıqla münasibətlərinin bütün sferalarına transformasiya olunmuş fəaliyyət anlayışı vasitəsilə açıla bilər. Xüsusilə, məqsədin – pulun reallaşdırılması üzrə fəaliyyət adi, monoton zərurət kimi yox, *özünü dəf etmə* imkanı kimi qavranılır. İnsan daima özünü yaratma istiqamətində fəaliyyət göstərir, o, hər zaman «insan olma layihəsidir və buna görə də öz insanlığının təsdiqlənməsi üçün daimi olaraq səy göstərmək lazımdır. Bu yolla, insan öz gələcəyinə istiqamətlənir, baxmayaraq ki, öz keçmişindən güc götürür. Fəaliyyət, gələcəyi keçmişə döndərən, onu həyat təcrübəsinə çevirən və həyatı gözlənilən gələcəyin yeni üfüqlərinə yönləndirən mexanizmdir»[41]. Əmək, «labüdlük» (*E.Munye*) kimi, tənzimləyici sosial-iqtisadi təsir nəticəsində insanı nail olunmuş nəticələrdən uzaqlaşdırır. Lakin fəaliyyət vasitəsilə subyektin «maddi İradəsini» istiqamətləndiyi obyektin yaradıcı potensialı aşkar edilir. Bu situasiyada pul özgəninkiləşdirilmir, nail olunmasına insanın dəyişdirici qüvvəsinin istiqamətləndiyi məqsədin, ideyanın, arzunun və layihənin bir hissəsi kimi çıxış edir.

İnsan, təsərrüfat subyekti kimi, müəyyən sosial-mədəni mühit kontekstində müxtəlif imkanlar və «oriyentasiya potensialı» (*S.B.Krımski*) olduğu zaman vardır. İnsanın qiymətliliyi və onun varlıq mahiyyəti formalaşmasından pulun fəal iştirak etdiyi iqtisadiyyat məkanı ilə şərtləşmişdir. «İqtisadi mühitdə heç bir işi sadəcə olaraq pulsuz yox, bu işin əvvəlindən pulsuz etmək mümkün deyil»[42]. Bu proses yalnız «fəaliyyət» anlayışı vasitəsilə daha tam şəkildə ifadə oluna bilər.

## 3. KAPİTAL VƏ FƏALİYYƏT

Müasir sivilizasiyanın əsas əlaməti – insan üçün «özünü yaratma fəallığı» ilə dolu yeganə məqsədəuyğun varlanma yolu kimi, «azad sahibkarlıq» cəmiyyətinin inkişafının qanunauyğunluğudur. Sosiumun mövcudluğunun bu mərhələsi pulun ətraf mühitin insan üçün faydalılığının və əhəmiyyətliliyin yeganə meyarı kimi qəbul edilməsi ilə müəyyən olunur. Belə dünyagörüşü məqsədi, hər şeylə yanaşı, bu və ya digər tərəf və birliklərin maraqlar mühitində istənilən müdaxiləyə yol verir. Bu halda beynəlxalq hüququn «kamuflyajı» ədalət gücünə malik olmur, çünki pul sərvətinə malik olanlar ortaya çıxan və yox olan tələbatları əsasında onu özləri qurur, təyin edir və dəyişdirirlər.

Ancaq bu özbaşınalıq yalnız zahiridir. Onun əsasında, ümumi halda, sosial-iqtisadi reallığa və xüsusi halda pula qarşı münasibətlərin bütün mümkün dəyişikliklərini stimullaşdıran fəaliyyət durur. Müasir Qərbin formalaşması, öz başlanğıcını protestant etikasından götürən fəaliyyəti motivləşdirən siyasi və mədəni şərtlər yaratmış, «məsuliyyətli» azadlığı («dərk olunmuş zərurət») olan *avtonom fərdi* və vətəndaş cəmiyyətinin nəzarəti altında olan dövləti yaratmışdır. Yeni ruhun iqtisadi həyata nüfuz etməsi, kapitalist sahibkarlığında zəruri olan əməyin intensivliyi və məhsuldarlığının artımı, bir qayda olaraq, «bizim bütün iqtisadi tarix ərzində rast gəldiymiz cəsur və prinsipsiz spekulyantlar və ya avanturistlər, «böyük pul» sahibləri» tərəfindən çox sərt həyat məktəbini keçmiş, eyni zamanda həm ehtiyatlı və həm də qətiyyətli, səbirli, öz təbiətləri etibarilə, mülayim və inadkar olan, öz işlərinə tamamilə sadiq olan, ciddi burjuaziya görüşləri (baxışları) və prinsipləri olan insanlar tərəfindən həyata keçirilmişdir. Fəaliyyət impilist olaraq artıq «kapitalizmin özündə», onun «sahibkarlıq ruhunda» əks olunur, o, bütün bazar mexanizmini, bütün təsərrüfat sistemini birləşdirir. *M.Veber* kapitalist sahibkarlığını bazara oriyentasiya edən və bazar mübadilələri vasitəsilə gəlir əldə edilməsinə istiqamətlənmiş *iqtisadi fəallıq* kimi müəyyən edir. Belə fəallıq elə fəaliyyətdir. Bunun köməyilə kapitalist sahibkarlığı əvvəlcə bütün Avropa iqtisadiyyatını, daha sonra isə bütün dünyanı özünə tabe edir. *M.Veberin* əsas ideyası ondan ibarətdir ki, «kapitalizm yalnız qərbi Avropa sivilizasiyasının nailiyyətidir». Bu cür istisnalığı *M.Veber* məhz «Qərbi Avropada kapitalist quruluşunun yaranması və formalaşmasına protestantizmin təsiri ilə əlaqələndirirdi.

Başqa xalqlar protestantizmə oxşar bir din tanımırlar və onların industrial inkişaf tipindən uzaqlaşması da bununla izah olunur»[44]. Protestantizmin təsiri ilə yaranmış «təfəkkür quruluşu» «(müasir) *kapitalizmin* ruhunu» müəyyən etdi. Bu ruh üçün «öz sənəti çərçivəsində qanuni mənfəətin əldə edilməsinə müntəzəm və rasional səy göstərilməsi» xarakterikdir[45]. Tarixi müşahidə göstərir ki, belə «təfəkkür quruluşu kapitalist müəssisəsində özünün ən adekvat formasını, kapitalist müəssisə isə öz növbəsində onda ən adekvat mənəvi hərəkətverici qüvvəni tapmışdır»[46]. Bu proses hər yerdə müasir insanın şüuruna fəaliyyətdən ayrılmaz olan və həyatın bir çox tərəflərini determinasiya (müəyyən) edən *pul ideyasının* nüfuz etməsi ilə izah olunur.

Mənfəətin, ən böyük miqdarda pulun əldə edilməsinin əsas şərti – hərəkət, fəallıq və iqtisadiyyatın bütün mümkün imkanlarına reaksiya verilməsinin cəldliyidir. Bütün bunlar müasir industrial kapitalizmin əsas cəhətlərini təşkil edir və *P.L.Berqer* bunlar arasında iqtisadi fəallığın yeni şüurlu oriyentirlərinin möhkəmlənməsindən xəbər verən «rasional kalkulyasiyanın»-«mənfəətin rasional şəkildə hesablanmış səyi»nin adını çəkir[47]. Başqa xarakteristikalar bunlardır – istehsalın, hər şeydən əvvəl, xüsusi mülkiyyət sahəsində fəaliyyət kimi çıxış edən bütün maddi vəsaitləri; bazarın bütün feodal və kapitalist məhdudiyyətlərinə əks olan azadlığı; iqtisadi fəallığın nəticəsi və şərti olan rasional texnologiya; rasional hüquq sistemi, azad əmək; hər şeydən əvvəl, iqtisadiyyatın müdafiəsi və qiymətli kağızların azad satışının əhəmiyyətinin artması ilə ifadə olunan iqtisadiyyatın kommersiyalaşdırılması. Lakin bunlar yalnız fenomenin konturunu cızır, onun mahiyyəti isə təşəbbüskar fərdlər və onların qrupları tərəfindən mənfəət əldə etmək məqsədilə həyata

> *«Əgər əmək yalnız məhsulun miqdarı və ya onun nəticəsi kimi çıxış edən sərvətlə qiymətlidirsə, onda əməyə görə mükafat adi rentabellik qaydalarına və pul müharibələri sonunda bağlanmış müvəqqəti paktlara (müqavilələrə) uyğun olaraq hesablanacaqdır. Kapitalizm, əməyi məhz bu yolla, yəni onu, müxtəlif qapalı qiymətləndirmə sistemlərinə malik olan (bu sistemlər yerinə yetirilən funksiyaların əhəmiyyətliliyindən çox, burjua nüfuzunun səviyyəsinə uyğun gəlirlər) tələb və təklif edilənə tabe olan əmtəəyə çevirərək nəzərdən keçirir».*
>
> E. Munye

keçirilən əmtəə istehsalından ibarətdir[48]. Pulda reallaşan sonuncu, kapitalizmin əsasını təşkil edir. Özünün inkişaf etmiş formasında kapitalizm fenomeni dünyanı dəyişdirən yeni iqtisadi institutlar və yeni texnologiyalar yaradır.

Nəticə etibarilə, kapitalist sahibkarlığının nüvəsi kimi, insanların ictimai həyatının spesifikliyini fiksə edən və obyektiv xarici mühitin – təbiətin və sosial reallığın dəyişdirilməsindən ibarət olan fəaliyyət, anlayış çıxış edir. «Müasir iqtisadi insanın yeni fəaliyyətində həlledici cəhət onun fəaliyyətinin *ölçülərinə* təsir göstərən dəyişikliklərdir. Çünki səyə qarşı bütün təbii məhdudiyyətlər aradan qalxmışdır, çünki canlı insanın tələbləri, işlənməli olan nemətlərin miqdarı sahibkarın fəaliyyətinə maneə törətmir, bu ölçülər «hədsiz» və «hüdudsuzdurlar». Müsbət olaraq bu o deməkdir ki, müasir iqtisadi insanın enerji sərfiyyatı insan üçün mümkün olan sərhədlərə qədər həm ekstensiv, həm də intensiv şəkildə yüksəlir»[49]. Bütün ömür həyatın mənasına çevrilmiş fəaliyyətə həsr olunur, çünki o, pul əsasında reallaşır ki, bu da öz növbəsində varlığın növbəti fəaliyyət dəyişiklikliyini stimullaşdırır.

İnsanın ictimai həyatının xarakterik cəhəti ondan ibarətdir ki, o, özünü yalnız onun müxtəlif növ və formalara, habelə müxtəlif nəticələrə malik olan fəaliyyəti ilə müəyyən edir. Lakin əksər hallarda pul fəaliyyətin əldə edilmiş nəticəsinin ekvivalenti kimi çıxış edir. Təsərrüfat sistemi nə qədər çox inkişaf edirsə, insan fəaliyyəti yeni növ və formalar nə qədər çox diferensiasiya edirsə, mənfəət də bir o qədər çox onun effektivliyi göstəricisi kimi çıxış edir. O, hətta fəaliyyətin özgəninkiləşdirilmiş növlərini belə fərdiləşdirir, onları məna ilə doldurur.

Pulun mahiyyətinin fəaliyyət aspekti, ilk növbədə, fəaliyyətin özünün subyektiv xarakteri ilə şərtlənir. Onun daşıycısı hər zaman qarşısına obyektiv reallığı dəyişmək məqsədlərini qoyan insandır. Fəaliyyətin yaradıcı-dəyişən xarakteri onun subyektinə mövcud konkret situasiyanın sərhədlərindən «çıxmağa», onun təməlində duran «paradiqmaları» dəf etməyə imkan verir. Bu xarakter fəaliyyətin predmet-material və potensial aspektləri ilə şərtlənir. Onlardan birincisi predmet-dəyişmə fəallığı, insanın dünyada baş verən dəyişikliklərin səbəbi olması qabiliyyəti ilə xarakterizə olunur, ikincisi isə müəyyən potensiallarla açılır. Onlara aiddir: «ruha və müstəqilliyə qoşulma (birləşmə) ölçüsü ilə müəyyən olunan intensionallıq potensialı; müxtəlif imkanların sınaqdan keçirilməsi məkanı və ya sferası ilə

ölçülən ekstensivlik potensialı və ümumi olaraq, məqsəd qoyuluşu, məna müəyyənliyi ilə xarakterizə olunan oriyentasiya potensialı»[50]. Bu potensialların reallaşdırılması təsərrüfat həyatında əsas etibarilə pul formasında çıxış edən bu və ya başqa stimullara malik olmalıdır. Onların funksionallığı fəaliyyətin prinsipial açıqlığını, universallığını və azadlığını müəyyən edir ki, bu da özündə mədəni-tarixi yaradıcılığın ümumi formasını əks etdirir.

Məqsədyönlü fəaliyyət hər zaman «bizim xüsusi, müstəsna olaraq, özünə bizdən kənarda mövcud olan dünyanın dərk edilməsini daxil edən insani intersubyektivliyimizin kənarlaşdırılmış reallığıdır»[51]. Bu cəhətdən o, ümumi halda, mənəvi-təcrübi mədəniyyəti təşkil edən bizim fasiləsiz ünsiyyətlərimizin «məna-hiss sahəsini» məqsədyönlü şəkildə dəyişir.

## 4. FƏALİYYƏT STRUKTURUNDA PUL

Müasir fəlsəfədə kifayət qədər geniş öyrənilmiş fəaliyyət quruluşunun təhlili onun pulla dərin qarşılıqlı əlaqəsi olduğunu göstərir. Əgər sonuncu stimul kimi çıxış edirsə, onda insan, fəaliyyətin daşıyıcısı kimi, *fərdi və kollektiv subyektlərin* çıxış etdiyi açıqlıq, universallıq, azadlıq, şüur, ilahiyyat kimi qarşılıqlı əlaqəli xüsusiyyətlərin təhlili prosesində aşkar oluna bilər. Bütün xarakteristikalar, bu halda, insanlar tərəfindən fəaliyyətin müxtəlif növ və formaları vasitəsilə reallaşdırılan sosial təcrübənin çoxsaylı problemlərinin həlli şərti kimi çıxış edən pula tam uyğun gəlir. Pul «işləyir», fəaliyyətin (əməyin) meyarı, qlobal, universal «fəaliyyət texnologiyası» kimi çıxış edir[52]. Onun klassik düsturu pul – əmtəə – pul kimidir.

Sosial təcrübənin başlıca, həlledici məsələləri ilə yanaşı, fəaliyyət nəzəriyyəsi bazar münasibətlərinin formalaşması prosesinə tam daxil edilmişdir və münasibətlərin canlılığının mahiyyəti onların daima dinamikada, dəyişməkdə olmasındadır. Buna görə də zəruri məsələ bazarın öz şəxsi qanunları ilə ortaya çıxmalı və təşəkkül tapmalı olduğu naturalist təsəvvürləri dəf etməkdən ibarətdir. Pul, bu halda, hər hansı subyektiv müdaxilələrdən kənarda olan müxtəlif növ məsələləri həll edərək son dərəcə köməkçi rolunu yerinə yetirə bilər. Lakin müasir sivilizasiyanın mahiyyətini təşkil edən bazar, yəni kapitalist münasibətləri yalnız təklif olunan yüksək keyfiyyətli əmtəə və xidmətlər əhatəsində xüsusi təşkil olunmuş davranış seçimləri dəsti kimi təqdim edilə bilməz. Dərininə təhlil göstərir ki, bazar

münasibətlərinin «qumaşı» (məzmunu) ictimai quruluşun xüsusi olaraq yaradılan və yetişdirilən konstruksiyasından başqa bir şey deyildir[53]. Nəticə etibarilə, elə fəaliyyət sistemləri mövcud ola bilər ki, onlar belə formalaşmanı, bununla yanaşı, sosial həyat və təcrübə kontekstində pulun, həm istehsalçı, həm də istehlakçı insanın şüuru və davranışını müəyyən edən dəyişdirici funksiyasının daimi olaraq transformasiyanı təmin etsinlər. Bu şərait «fəaliyyətin maddi-praktiki və potensial aspektlərinin vəhdəti ilə şərtlənir ki, bu da onun daxilində, həm nəzərinin, həm də praktiki olanın qarşılıqlı əlaqəsini təsdiq etməyə imkan verir»[54]. Buradan, istehlak və istehsal, «özgəninkiləşdirmə-mənimsəmə» (*A.A.Şeptun*) dialektikası aydınlaşır.

Fəaliyyət nəzəriyyəsinin ardıcıl təhlili onun pul nəzəriyyəsi ilə qarşılıqlı əlaqəsinin müxtəlif aspektlərini aşkar edir. Bununla da biz bizim dəyərimizi müəyyən edən fundamental münasibətləri başa düşürük. O, təkcə şüurun, təfəkkürün, özünüdərkin, şəxsiyyətin təbiətinin yox, həm də sosial təşkilatın xarakterinin, təsərrüfat üsulunun və sosial-iqtisadi proseslərin məqsədəuyğunluğunun başa düşülməsinin özünəməxsus əsasıdır.

Bununla bərabər, sxemin sadələyini aradan qaldırmağa imkan verən dəqiqləşmə də aparmaq lazımdır: *fəaliyyət – nəticə – pul*. Ona istinad etmək lazımdır ki, *fəaliyyət yalnız öz daşıyıcısı (sosial fərd, şəxsiyyət) ilə bağlı olduğu zaman öz yaradıcı-dəyişdirici statusunu əldə edir*. Fəaliyyət (istehsal, təsərrüfat, cəmiyyət və s.) bu mövqedən, öz-özünə mövcud ola bilməz, o, yalnız fəaliyyətdə olan insanla birlikdə mövcud olur. Bu halda, fəaliyyət anlayışı mənəvi fenomenlərin aydınlaşdırılması zamanı təkrarən nəzərdən keçirilməlidir. Mənəvi fəallığın daşıyıcısı kimi, «subyekt» anlayışı «fəaliyyət» anlayışına münasibətdə ilkindir. Nəticə etibarilə, onun bütün nəticələrini, o cümlədən yalnız zahiri olaraq ilkin kimi görünən pulu və sərvəti özünə tabe etdirir. Subyekt, persona fəaliyyət göstərən və düşünəndir (o cümlədən, fəaliyyət və ya hər hansı başqa konkret varlıq fenomeni və faktları haqqında). Bununla da məşhur *əmtəə – pul – əmtəə (fəaliyyət – nəticə – fəaliyyət)* sxemi öz təməl əsasını itirir, çünki şəxsi, subyektiv başlanğıc vurğuları başqa cür qoyulur. Xüsusilə, «fəaliyyət» anlayışı «subyekt» anlayışının aydınlaşdırılması üçün cəlb oluna bilməz və «pul» anlayışı bu və ya başqa fəaliyyət növündən (maddi və mənəvi) reduksiya oluna bilməz. Bu halda, nəzərə almaq lazımdır ki, fəaliyyət «öz potensiyalarında (qabiliyyətlərində) ruhun sonsuzluğu ilə qapanır (birləşir) və burada ilahiyyatın təhlilinə nisbətən daha həcmli xarakteristikalar lazımdır. Ruh kimi, onunla

bağlı olan fəaliyyət də öz refleksiyasına, özüqapanmaya malikdir»[55]. Buna görə də artıq özfəaliyyət situasiyalarında insanın fəallığı yaradıcı şəxsiyyətin utilitar dəyərləri, onun «bitməz-tükənməz potensiyaları» çərçivəsindən çıxır (*S.B.Krımski*).

Formal, «sxematik» təhlil mənəvi fəaliyyəti hər hansı «pul» müdaxiləsindən azad edir. Bu, «dual» təsəvvür ənənəsi ilə şərtlənir. Bu təsəvvürə görə pul sanki mənəvi olanın dərk edilməsi ilə bağlı «yuxarı güclərə» uyğun gəlmir. Bu halda fəaliyyət öz təyinatından (özünəməxsus material substratdan) «ayrılır» ki, bu da nəinki sosial varlığın mövcud problemləri haqqında təsəvvür və bilikləri, həm də sosial münasibətlər sistemini təhrif etmişdir. Eyni zamanda cisimlərin mövcud vəziyyətinin dəyişməsi və yenilənməsi dinamikasının daimi prosesi də pozulmuşdur. Çünki fəaliyyət – «obyektlərin və onların informasiya resurslarının energetik və ya predmet statusunun dəyişməsidir»[56]. Bu şəraitə əhəmiyyət verilməməsi subyektlə sıx bağlı olan pulu fəaliyyətdən nə isə abstrakt-törəmə bir şeyə çevirir, elə bir elementə ki, o, mütləq olmasa da fəaliyyətə daxil olur.

> «*Tanrının yaratdığı dünyadan başqa, insanın yaratdığı dünya da var. Bizim ətrafımızdakı dünya artıq çoxdandır ki, insanların və onların müasirlərinin, əvvəlki nəsilləri təşkil edənlərin yaratdığı dünyadır. Biz onların sözləri ilə danışırıq, onların fikirləri ilə düşünürük, onlar tərəfindən miras qoyulmuş problemləri müzakirə edirik, onların gördükləri, adlandırdıqları və izah etdiklərini görürük, onların həyatından qalmışlarla yaşayırıq və heç də insan ayağı dəyməyən torpaqlar olmayan yerlərdə yaşayırıq. Hər şeyə insan övladları tərəfindən toxunulmuş, təsir göstərilmiş və ya dəyişdirilmişdir*».
>
> İ. Q. Fixte

Ancaq müəyyən istifadə üçün ixtira olunmuş, insan münasibətləri sisteminə daxil edilmiş pul təkcə «dar», məhdud təyinata malik artefakt deyildir. O, «qeyri-üzvi bədənin (cismin)» - bizim varlığımızda təcəssüm olunan mənəvi mədəniyyətimizin bir hissəsidir. Pul, «özünün başqası haqqında fikir» kimi, bizim üçün məqsədyönlü fəaliyyət sayəsində dəstəklənən təcəssüm olunmuş *məna* kimi, mənəviyyata qarşı çıxış edir. Bu mənada, pul mədəniyyətin reallığı - qeyri-üzvi təbiətə «mənəvi reallıq» gətirən, hər bir fərdə onun obyektiv dünyasının bir hissəsi kimi müqavimət göstərən

fəaliyyət sayəsində təbiətin təşkil olunmuş, transformasiya edilmiş və «insanlaşdırılmış» bir hissəsidir. Bu, tam mənada, zahirən xüsusilə öz nəticəsi – pul simasında müqavimət göstərən, özgəninkiləşmiş güc kimi görünən iqtisadi reallığa aiddir. Fəaliyyətin köməyilə transformasiya edilmiş sosial-iqtisadi (təbii dünyadan seçilmiş) əhatə məna ilə dolu olur ki, bunun sayəsində də biz «öz dünyamızı dəyişərək, ona yeni məna verərək fəaliyyət göstərir və bununla da sonrakı dəyişikliklərin zəruriliyini əvvəlcədən müəyyən edirik»[57]. İnsan bu prosesdə, təkcə yeni bacarıq və biliklər yox, həm də «həyat məkanına» *oriyentasiya və bununla yanaşı ona tabe olma* vasitələrini taparaq bu məkanın dəyişən reallığına daima uyğunlaşmalıdır (adaptasiya olunmalıdır). Burada pul *vasitə kimi* insanı sadəcə olaraq canlı orqanizmə yox, həm bu dinamik dünyada yaşaya, həm də onun sonrakı transformasiyalarını müəyyən edə bilən fəaliyyət subyektinə çevirir.

> *«Ümumiyyətlə, əməyi fəaliyyətdən və xüsusilə də fəaliyyətin ən yüksək mənəvi forması olan yaradıcılıqdan fərqləndirmək lazımdır».*
>
> E. Munye

Fəaliyyətin təbiətinin konstruktiv başa düşülməsi, subyekt və obyektin formalaşan bəşəriyyətin fəal qarşılıqlı təsiri prosesində doğulduğu subyektiv münasibətin «substantiv» fəlsəfi izahdan azad edilməsini nəzərdə tutur. Bu aspektə reallıq, özünün istənilən istiqamətində nə dəyərə, nə mənaya, nə də əhəmiyyətə malik deyildir. Belə «obyektivləşdirən» nöqteyinəzər subyekt və obyekti (pulu) qarşı-qarşıya qoymağa vadar edir. Beləliklə, verilmiş fəlsəfi problemin qoyuluşu kəskinləşir (daha az vacib olan problemlər kontekstində). Burada subyekt və obyekt elə müxtəlif «mAhiyyətlər» olurlar ki, onların eyni məkanda necə mövcud olmalarını başa düşmək çox çətin olur. Lakin istənilən artefakt artıq təkcə hər hansı mənanı yox, həm də fəal fəaliyyətin niyyəti və stimulu olan əvvəlcədən verilən dəyəri nəzərdə tutur. Buna görə də pul sadəcə olaraq rəngarəng fəaliyyət sisteminə daxil edilmiş abstrakt obyekt yox, öz-özlüyündə subyektivliyi aydınlaşdıran reallıq kimi çıxış edir. Bu situasiyada belə demək olar ki, pul sadəcə əmtəə kimi cisimlər dünyasına, ictimai münasibətlərə dəyişiklik gətirmir, o, həm də insanın daxili dünyasına «qüvvətli» təsir göstərir. Bundan başqa, pul çox halda yeni insan – əsasən varlanmağa istiqamətlənmiş məşhur «ağıllı eqoisti» formalaşdırır[58]. Eqoizm (xudbinlik) – subyektivliyin çoxsaylı hüdudlarından (üzlərindən) biridir.

Fəaliyyətin «kulturalizmi» (*D.Bekxerst*) haqqında fərziyyələr skeptisizm və sientizm arasında, son nəticədə fəaliyyət prosesi üçün bu və ya digər «subyektivləşmiş obyektlərin» stimullaşdırıcı əsasını inkar edən alternativi müəyyən etməyə imkan yaradır. Adı çəkilmiş mövqe, «bizim (reprezentasiya) nümayəndəlik güclərimizə» xüsusi əhəmiyyət verən obyektiv reallığa «kobud naturallıq» kimi baxılması və başa düşülməsindən azad edir. Bu güclər mədəniyyət sayəsində transendentlik güclərinə xüsusi əhəmiyyət verərək, bizim təbii varlığımızı reallaşdırır və ucaldır[59]. Bu güclər reallıq və onun «mənəvi oxunuşu» arasında fəaliyyət prosesi ilə determinləşmiş harmoniyanın mövcud olduğu dünyada reallaşdırıla bilərlər. Çünki fəaliyyət «potensial olanı aktual olana çevirir, xarici olanı daxili olana transformasiya etdirir, predmetləşdirmə və predmetsizləşdirmənin, qərarların qəbulu və reallaşdırılması, yəni variantların seçilməsinin vəhdəti kimi çıxış edir»[60]. Bunun sayəsində subyekt və obyekt (pul) arasındakı əkslik sanki neytrallaşır, müəyyən ahəngdar (harmonik), vahid prosesə çevrilir.

## 5. FƏALİYYƏTİN İDEAL VASİTƏ İLƏ İFADƏ OLUNMASI

Sosial-iqtisadi əhatə (mühit), əməklə yaradılan predmet varlıq dünyası və eyni zamanda fəaliyyət prosesində formalaşan insani münasibətlər sisteminə daxil edilən pul dünyası fərddən, onun iradə və şüurundan asılı olmayaraq mövcuddur. Beləliklə, insanla yanaşı təkcə sosial-iqtisadi və təsərrüfat gerçəkliyinin («özündə») real dünyası yox, həm də konkret əməklə, fəaliyyətlə dəyişdirilmiş «insanlaşdırılmış təbiət» («özü üçün») də mövcuddur. Bu gerçəklik – mədəniyyətdir və onun tərkibinə dəyərlər, mənalar, modellər və insanın inkişafında həlledici rol oynayan başqa buna oxşar («qeyri-müəyyən-maddi») cisimlər daxildir. Bu planda, hər bir cisim, o cümlədən pul, təbiətin bir sıra hadisələri ilə birlikdə insan fəaliyyəti ilə *ideallaşdırılır*. Onlar, insanın mənəvi fəaliyyəti çərçivəsinə daxil edilmələri cəhətindən özündə dəyərlilik əks etdirirlər və bunun sayəsində onların dərk edilməsi və həyat məzmunu ilə dolması baş verir. Burada «pulu iqtisadi kateqoriya kimi yox, ənənəvi cəmiyyətdən burjuaziya cəmiyyətinə keçid və pulun doğrudan da hər şeyin ekvivalenti olduğu zaman böyük rol oynayan mədəniyyət fenomeni kimi nəzərdən keçirmək mühümdür»[61]. Ciddi şəkildə desək, bu şərait ətraf dünyanın bütövlüyünü təşkil edir.

*NOMİSMA.*

*««Maneta» mənasını verən nomisma yunan sözündən həm yununlar, həm də romalılar istifadə edirdilər. Bizim «maneta» (sikkə) sözü bizə latın dilindən gəlmişdir (Qədim Romada pulları Kapitol təpəsində Yunona Monetanın məbədində kəsirdilər).*

*Sikkə şəkilində pullar Egey dənizi bölgəsində e.ə. VII əsrin əvvəllərində dövriyyədə idi. Herodota görə ilk sikkələr Lidiya şahlığında kəsilmişdir. Lidiyada və ya İonidə kəsilən Stateri (elektrumdan (gümüş və qızılın qarışığı) hazırlanan iki drahmalıq sikkələri) tez-tez dünyanın ən qədim sikkələri adlandırırlar. Şübhəsiz ki, bir toxunuşu hər şeyi qızıla çevirən əfsanəvi Midasdan tutmuş, adı misilsiz vardövlətin sinonimінə çevrilmiş Krezə (e.ə. 561-546-cı illərdə hakimiyyətdə olmuşdur) qədər Frigiya şahları pulun meydana çıxması ilə sıx bağlı idilər. Avropada ilk sikkələr e.ə. 670-cı ildə dövriyyəyə buraxılmış Eginanın gümüş sikkələri idi. Üzərində dəniz tısbağasının təsviri olan sikkələr «egin» ölçü və çəki sisteminin yayıldığından xəbər verirdi. Hər bir növbəti sikkə sarayı özünə buna oxşar emblem seçirdi – Afinada bayquş və ya zeytun budağını, Korinfdə Peqası, Sirakuzda Aretuz nimfasını. Sikkə kəsilməsinin ilk günlərindən onların üzərində ALLAHların başlarının təsvirinin, sikkənin harada kəsildiyi və sahibinin kim olduğu haqqında qeydin göstərilməsi adi hala çevrilmişdi. Hökmdarların təsviri olan sikkələr yalnız ellinizm dövründə meydana çıxdılar, amma Roma imperiyasında bunlar norma idilər» .*

N.Deyvs

Bizim maddi cismlər dünyası ilə qarşılıqlı fəaliyyətimiz ideal vasitə ilə ifadə olunur. Fəaliyyət prosesində çıxış edən pul, bir qayda olaraq, hərəkətin ideal nəticəsi, obyektin «insanlaşdırılması», düşüncə və ideal olandır. Buna görə də düşüncə hərəkətin xüsusi növü, iqtisadi reallığın, ümumi halda, təsərrüfatın inkişafı prosesində formalaşan və transformasiya olunan mənaları qavramaq və manipulyasiya etmək imkanı və qabiliyyəti kimi müəyyən olunur.

Sosial-iqtisadi münasibətlər dünyası özündə ona görə dəyər xarakterli mənanı daxil edir ki, fəaliyyət sayəsində (və fəaliyyət vasitəsilə) ideal olanın obyektivləşməsi baş verir. Buna görə də bu dünya ilə düşünən, şüurlu fərdlər, onu məna və biliklə dolduranlar kimi rəftar etmək lazımdır. Dünyanın, onun predmet təzahürlərində ideallaşdırılması tarixi pullarda olduğu kimi, fəaliyyətdə baş verir. Bu, təbii və onunla bərabər özgəninkiləşdirilmiş dünyadan «bizim üçün» olan dünyaya keçilməsi tarixini təşkil edir ki, bu da fikrən mümkündür. Bu proses insanın dünyada iştirakının ayrılmaz aktıdır.

## 6. TİCARƏT TƏSƏRRÜFATINDA PULUN FƏALİYYƏT MAHİYYƏTİ

İnsan – mürəkkəb təsərrüfat dünyasında özünün çoxsaylı tələbatlarını reallaşdıran, öz tərkibinin müxtəlif ipostasiya və ölçülərdə daimi olaraq transformasiyası vəziyyətində olan dinamik canlıdır. Onların hər birində müasir dünya quruluşunun dəyişdirilməsi üzrə idraki fəaliyyətin rolunu müəyyən etməsini ifadə edən kifayət qədər sayda bütün mümkün layihə və modellər mövcuddur. Onun (dəyişmənin) mütləq qaydada özünə pulun gücünü «daxil etməsi», transformasiya proseslərində onun fəaliyyət mahiyyətini nəzərdə tutması mühümdür. Fikri və real gerçəklik arasında *təsərrüfat* dünyasını yaradan harmoniyanın «artikulyasiyası» məhz elə bundan ibarətdir. *S.N.Bulqakovun* fikrincə, təsərrüfat artıq yaradılmış və mövcud olan həyatın funksiyasıdır, buna görə də bir sıra hərəkətverici motivlərə malikdir – *«bəşəriyyət», «dünya insaniyyəti» ideyası, «təsərrüfatçılığın transendental subyekti»*. Fəaliyyət insan üçün məqsəd deyildir, o, sosium və ya başqa insan tərəfindən verilməmişdir. Doğulduğu andan insanın daxilində cəmiyyətdə fərdin inkişaf etdirilməsi ideyası olur və bu ideya «onun öz Mənindən» çıxışına fəal münasibəti, daxili, iradi səy vasitəsilə reallaşır[62]. Təsərrüfat vasitəsilə ifadə olunmuş fəaliyyət kollektiv şüursuz «metafizik variantın» mövcud olması ilə izah edilir.

*S.N.Bulqakov* fəaliyyət probleminin həllini təsərrüfat prosesinə daxil edilmiş həyat konsepsiyasının nəzərdən keçirilməsi vasitəsilə həyata keçirir ki, bu da insanın tələbatların (bu kontekstdə, pul əsas yerlərdən birini tutur) ödənilməsinə yönəlmiş səylərini reallaşdırır. Mütəfəkkir üçün həyat, «paradoksal» olaraq ziddiyyətlidir, çünki sona qədər qeyri-müəyyəndir, baxmayaraq ki, sonsuz müəyyənediləndir. O, özündə məntiqi və analitik (rasional və irrasional) olanın vəhdətini əks etdirir və bu zaman məntiqdən yüksək səviyyəni tutur və heç bir məntiqi fikrə sığmır. Həyat varlıqdan yüksəkdir, belə ki, «həyata münasibətdə varlığın bütün stereotipləri yalnız xüsusi təyinlərdir: iradə, təfəkkür, instinkt, şüur, şüuraltı sferalar, hətta varlığın özü, olmaq köməkçi feli və mövcudluğun predikatı yalnız canlı orqanizmə – həyata münasibətdə mənaya malikdirlər»[63]. Daha sonra *S.N.Bulqakov* həyatı ətraf gerçəklikdə özünü fəaliyyət və şüurlu əmək

vasitəsilə dəstəkləyən insanın təsərrüfat prosesində iştirakı prizmasından (nöqteyi-nəzərindən) qiymətləndirməyi təklif edir.

Əməyin təbiəti «fəaliyyət» anlayışı vasitəsilə açılır, onun tərkibi mənəvi və fiziki əməyi tutuşdurmağa imkan verir ki, bu da cisimlərin dəyərinin həqiqi qiymətini verməyə imkan yaradır. Nəticə etibarilə, həyat fəaliyyətinə dəyər meyarı kimi pulu da daxil etmək lazımdır. Əmək dedikdə, istənilən fəaliyyəti başa düşərək dəqiqləşdirmək lazımdır ki, bu zaman heyvanların həyatını yox, yalnız insanların həyatını başa düşürük. Bu, fəaliyyətdə iki istiqamətin fərqləndirilməsinə imkan verir: *istehlak və istehsal*. İstehlak prosesi həyatı universallaşdırır, lakin buna pulun canlı və cansızı, «Məni» və «qeyri-Məni» əlaqələndirən funksional xüsusiyyətləri sayəsində nail olunur. Bu, subyektin - fəal, şüurlu, «cəsarətli» insanın və obyektin – passiv, reseptiv və «qadın təbiətli» obyektin mütləq surətdə eyniləşdirilməsinin həyata keçirildiyi istehsal faktı ilə təsdiq olunur. *E.Levinasın* fikrincə, «təbii, müəyyən bir iradəni, başqa iradəni pozmadan götürmək mümkün olan iqtisadiyyatda mühüm olan hər şey heç bir anlayışdan asılı olmayan, öz xüsusiyyətləri ilə qoşulmaqdan imtina edən mütləq xüsusi həyatların ilahiləşdirilməsi vasitəsilə həyata keçirilir. Transaksiyada bir azadlığın başqa azadlığa münasibətdə fəaliyyəti sona çatır»[64]. Fəaliyyət insanda fəal iradi başlanğıc kimi, praktiki ağılla kortəbii iradənin ən düzgün nisbətini sübut edir, çünki «Mən»-subyektdən «qeyri-«Mənə» çıxmağa imkan verir. «Mən» və «qeyri-Mənin» bütün qarşılıqlı fəaliyyət praktikası xarici dünyanın reallığını təyin etməyə və «qeyri-Mənin» boş, soyuq sahəsini güclə, istiliklə, cisimlərlə doldurmağa imkan verir, «qeyri-Mən» ilğımını təbiətə çevirir, bununla bərabər, «Mən» və «qeyri-Məni» üzvi olaraq vahid kainatda qovuşduraraq, «Mənin» özünü də təbiətdə yerləşdirir»[65]. Təsərrüfat fəaliyyətinin belə başa düşülməsi özündə fəaliyyətin daimi olaraq layihələşdirilməsi və ideyaların obyektivləşdirilməsini

> *«Ən xoşagəlməz hiss – şəxsi gücsüzlük hissidir. Zəif olmaq – əsl bədbəxtlikdir. Amma güc özünü xoşbəxtcəsinə sona çatdırılmış işdən başqa heç bir şeydə təzahür etdirə bilməz. Məlum, tutqun özünüdərk-etmə bizim içimizdə yaşayır və yalnız işlər bizə özümüzü dəqiq şəkildə göstərə bilər. Bizim işlərimiz – ruhun ilkin olaraq öz təsvirini gördüyü güzgülərdir».*
>
> T. Karleyl

əks etdirərək «Mən» və «qeyri-Mənin» əlaqələndirici halqası kimi çıxış edir. Onların canlı birliyini daimi pulun katalizator rolunu oynadığı hərəkət prosesi vasitəsilə sübut edir ki, bu da verilmiş vəziyyəti başqa mühakimələr əsasında aksiomlaşdırır.

Bu mənada, pul, mövcud dünya qaydasını dəyişmək qabiliyyətinə malik olan (çünki onda «Mənin» «qeyri-Mənə», yəni təsəvvür olunan və başa düşülənin sərhədlərindən kənara çıxmaq səyi öz ifadəsini tapır) insanın təsərrüfat həyatının bir hissəsi kimi çıxış edir. Bütün bunlar isə əməkdə konkretləşdirilmiş fəaliyyətin köməyilə həyata keçirilir. Bu o deməkdir ki, fəaliyyət yalnız predmet və instrumental fəallıqla eyniləşdirilə bilməz, o, həmçinin həyatın müəyyən «məna baxımından başa düşülməsi» ilə də bağlıdır. Ruhla birlikdə (vəhdətdə) fəaliyyət refleksiyaya, özünütəhlilə qadirdir və artıq özfəaliyyət situasiyasında «insan fəallığı çoxaspektlidir və onun oriyentasiyası kateqorial kəsiklərdə baş verir»[66]. Əmək – fəaliyyətin konkretləşdirilməsidir, o, ümumiyyətlə insanın həyatını təmin edən tələbatlarla determinasiya olunmuşdur. Buradan, pulun «təsəvvür edilən və başa düşülənin» ümumiləşdirildiyi «abstrakt təbiət» (*E.Levinas*) rolu aydındır. *S.N.Bulqakovda* bu proses təbiətin *F.Şellinqin* naturfəlsəfəsinin köməyilə insanlaşdırılması vasitəsilə həyata keçirilir. Onun mərkəzi ideyası təbiətin şüursuz yaradıcı ruh və onun şüurlu surəti kimi, subyekt və obyektin eyniləşdirilməsidir.

Təsərrüfat fəlsəfəsinin fəaliyyətin vahid, subyekt-obyekt prosesi kimi nəzərdən keçirilməsinin mərkəzində bütöv insan, şəxsiyyət durur ki, bu da təsərrüfat-iqtisadi proseslərin təhrif olunmuş şəkildə başa düşülməsinə, obyektin subyektivlə «kölgələnməsinə» yol vermir. Bu, bütövlük, nemət, sərvət, pul, dəyər və başqa bu kimi başlıca iqtisadi anlayışların tərkibinə yeni şəkildə baxmağa və onların mahiyyətlərini görməyə imkan verir. Məsələn, ənənəvi olaraq maddi nemətlər məcmusu kimi başa düşülən sərvət, təsərrüfat fəaliyyəti nöqteyi-nəzərindən, hər şeydən əvvəl, verilmiş cəmiyyətin malik olduğu biliklər, imkanlar bacarıqlar kimi şərh olunur. Maddi nemətləri mütləq dəyərlər kimi yox, şəxsiyyətin azad olması şərtləri kimi nəzərdən keçirmək lazımdır. Pul, dəyərə malik olaraq, «təsərrüfat subyektinə mühüm informasiya verir, dünya mənzərəsini formalaşdırır, gerçəkliyin başa düşülməsi üsulu kimi çıxış edir ki, bu da ona müvafiq qərarlar qəbul etməyə və nəticə etibarilə, insan azadlığının sərhədlərini genişləndirməyə imkan verir»[67]. Bununla da fəaliyyət sayəsində insanın

arzuolunan nemətlər haqqında təsəvvürlərinin obyektivləşməsi baş verir. *V.Zombart* qeyd edir ki, «öz işini həyata keçirməyə çalışan sahibkarın idealları hiss olunan forma alır, yəni onun səylərinin nail olunmasına istiqamətləndiyi yaxın məqsədlərə (onun ümumi ideallarından hər hansının həyata keçirilməsi üçün hər zaman zəmin kimi çıxış etmiş onun işinin böyüməsi və çiçəklənməsi) çevrilir. Sahibkar kimi, onun da fəaliyyətinin istiqamət və ölçülərini asan qazanc və işin marağı müəyyən edir»[68]. Nəticədə sahibkarın fəaliyyəti getdikcə daha çoxtərəfli, məqsədi – pul, daha rasional şəkildə əsaslandırılmış olur, təsərrüfat isə mübadilə üçün nemətlərin «xalis» istehsalına istiqamətlənir. Bu şəraitdə pul «insanın öz fəaliyyətlərinin rasionallığının əsaslandırılması zərurəti qarşısında qoyur»[69] ki, bu da fəaliyyətin, ancaq ilk növbədə instrumental fəaliyyətin fəallaşmAsına gətirib çıxarır.

## 7. PUL, TİCARƏT-İQTİSADİ FƏALİYYƏTİN SİYASİ STRUKTURLARINDA

Daha müasir və nəticə etibarilə, rasional əsaslandırılmış maddi nemətlərə səy göstərilməsi siyasi sistemin, fəaliyyətin yeni parametrlərini şərtləndirən yeni paradiqmasının yaranmasına səbəb olur. Müasir dünya quruluşu iki əsas paradiqma əsasında inkişaf etmişdir. *S.Xantinqtonun* fikrincə, *Vestfal* paradiqması müasir dünyanın formalaşmasında əsasdır. *Geosiyasi mənada* baş konsepsiya kimi, o, institutsional vahid kimi suveren dövlətə – milliyyət-dövlətə malikdir, onun *davranış tipi* – balans axtarışı və ya liderə qoşulmaqdır. Onda sülhə nail olunması müharibə ilə təmin olunur, o, demokratiyaya qarşı indifferentdir (etinasızdır). *Geoiqtisadi* əsaslarda o, özünə milli iqtisadiyyat ideyasını daxil edir və industralizasiyanı həyata keçirən dövlətin hərəkətverici qüvvəsi hesab edilir ki, bu da onun effektiv, səmərəli inkişaf etməsi üçün böyük kapital və pul qoyuluşlarını nəzərdə tutur. Geosiyasi planda, *Filadelfiya sistemi* (1776-cı ildə ABŞ-da Müstəqillik Deklarasiyasının qəbul olunmasından sonra Vestfal paradiqmasının alternativi kimi ortaya çıxır) *xalqların suverenliyi ideyasına* istinad edir. Onun institutsional vahidi liberal demokratiyadır. Geoiqtisadi mənada, bu sistemin əsas konsepsiyası qlobal bazar, hərəkətverici qüvvəsi isə bazara oriyentasiyalaşmış və yeni texnologiyalara əsaslanan *meqakom-petensiyadır*.

Həm birinci, həm də ikinci halda, pul onların dinamikasına daxildir. Pul, kapital kimi, sosiumun hərəkətverici qüvvəsi və onun modelinin həyat prosesində maksimal miqdarda nemətin əldə edilməsi prinsipi üzrə qurulması kimi çıxış edir.

Həm birinci, həm də ikinci siyasi paradiqmada sosial vəzifələrin rasional həyata keçirilməsinə diqqət verilir ki, bu da fəlsəfi yox, iqtisadi nəzəriyyənin mərkəzinə çevrilən iqtisadi insanı nəzərdə tutur. Onda insan modeli fərdin həyatının başqa mühüm tərkib hissələrinin mühüm məhdudiyyətləri zamanı məqsədli funksiyanı maksimumlaşdıraraq onun spesifik cəhətlərini kəskinləşdirən «təcrid *olunmuş abstraksiyadır*» (*B. Losbi*). «*S.N.Bulqakov* yazır ki, insan nəslinin vahidliyi heç nə ilə məhv edilə bilməz, çünki o, tarixi cəhətdən əlçatmazdır, bəşəriyyətin daimi olaraq sevgiyə, həmrəyliyə səy göstərməsində, sosial ideal axtarışında, normal cəmiyyət quruluşunun tapılmasında subyektiv olaraq ifadə olunur ...Şüurda zərurilik postulatı kimi çıxış edən şey metafizik sahədə varlıq kimi mövcuddur»[70]. Sərvət və pul kimi başa düşülən nemətə qarşı rasional oriyentasiya təsərrüfat fəaliyyətinin məqsəd və vasitələrinin rasionallığının hərtərəfli qiymətləndirilməsindən azad edir. Müəyyən dar sərhədlərdə, verilmiş situasiyada rasional olan şey universal insan münasibətləri nöqteyi-nəzərindən heç də rasional olmaya bilər. Belə ki, bir insanın maliyyə, maddi rifahı çox vaxt başqa insanların, əzabları, məhrumiyyətləri və qeyri-azadlıqları ilə bağlı olur. İqtisadi insan, hər şeydən əvvəl, müxtəlif nemətlərin istehlakçısı rolunda çıxış edir, bu zaman onun həyatının bütün yerdə qalan hissəsi baxış dairəsindən kənarda qalır. Bu – ekonomizmin fenomenidir və bu zaman, praktiki olaraq, «*mövcud olan*» hər şey rentabellik prizmasından nəzərdən keçirilir (*V.A. Kutieev*).

«İqtisadi insanın», həm birinci, həm də ikinci siyasi paradiqma nəticəsində formalaşmış və neoklassik iqtisadi nəzəriyyə anlamında reallaşdırılmış varlığı bir sıra aşağıdakı cəhətlərlə şərtlənir: maddi və mənəvinin harmoniyası kimi çıxış edən dünya (təsərrüfat dünyası) *istehlak dünyası* ilə əvəz olunmuşdur; insan *istehlak prosesi funksiyasına* çevrilmişdir; sonsuz tələbatların təmin edilməsi – iqtisadi fəaliyyətin məqsədidir; ictimai tələbatlar dünyasının rəngarəngliyi fərdin yalnız maddi tələbatlarını ifadə edir; fərdiyyətçiliyin mütləqləşdirilməsi və insanın mənəvi həyatının əhəmiyyətinin azalması; iqtisadi təfəkkürün ali təzahürü kimi, son hədd faydalılığının son hədd xərclərinə nisbətən prioritetliyi[71]. Belə yanaşma subyektiv əsasın

inkişafını nəzərdə tutan fəaliyyət haqqında təsəvvürü, həyati oriyentasiyaları yüksək dərəcədə ancaq pul qazanılması ilə məhdudlaşdıraraq (onun həqiqi təbiəti və təyinatını) darlaşdırır. *M.Veberin* nöqteyi-nəzərindən, bu şərait tamamilə qanunauyğundur. «Kapitalizm ruhunun» formalaşması prosesində onun prinsipləri nə qədər ardıcıl həyata keçirilirdisə, onlar dünyəvi həyatın qaydaları və dəyərləri ilə bir o qədər güclü toqquşurdular. «Öz növbəsində, dünyəvi həyatı öz qanunauyğunluqlarına müvafiq olaraq nə qədər çox rasionallışdırır və sublimasiyalaşdırdısa, onların bir birindən fikir ayrılığı da bir o qədər barışmaz olurdu»[72]. Bu fəaliyyətin yeni tərkiblə (məzmunla) dolmasından xəbər verir.

Bu kontekstdə insan fəaliyyətinin öz humanist təyinatının reallaşdırılması üzrə adları çəkilən paradiqmalarının xüsusiyyəti ondan ibarət olur ki, onlar insanlar tərəfindən öz dövrünün böhranlarını aradan qaldırılması üçün təklif olunmuş layihələri təcəssüm etdirirdilər. Lakin onlar, aktiv fəaliyyətin istehlaka oriyentasiyalaşmış daha dar-praqmatik istiqamət üzrə axmasını şərtləndirən nə isə bir «universal status» əldə etmişdirlər. Ancaq onun şərtləri pul, sərvət və bolluqdur. Çünki «müasir iqtisadi nəzəriyyə (economicus) pulu ticarətin asanlaşdırılması üçün nəzərdə tutulan «mübadilə vasitəsi» kimi nəzərdən keçirir və bunda onun «son dərəcə vacib» əhəmiyyətini görür»[73]. Belə birölçülü yanaşmanın böhranı təklif olunmuş sosial-siyasi quruluşların utopiya olduğunu göstərdi və bu da yeni paradiqmanın yaradılmasını zəruri etdi. O, həm müasirliyi yekunlaşdırmalı, həm də insanın gələcək fəaliyyət perspektivlərində nə isə yenilik açmalı, ona əvvəlki vəziyyətlərdən keyfiyyətcə fərqlənən və inkişafın müasir fazasına uyğun məna verməlidir.

Sosiokonstruktiv fəaliyyətin antiutopik paradiqmaları siyasi dünya quruluşunun yeni model və tiplərini yaradır. Lakin müasirliyin siyasi quruluşunun heç bir tipologiya vahidi dar praqmatik trasformasiyalardan tutmuş, qlobal insani məqsədlərə qədər, «yeganə və həm də yeganə düzgün» vahid ola bilməz. Tipologiya təməl, kontekstdən asılıdır[74]. Ancaq bu gün «monetarist şüur» (*V.Kortunov*) və pulun qüdrətli olmasına inam kontekstə nüfuz etmişdir. Buna baxmayaraq, «metafizik əhəmiyyəti ola bilsin ki, hələ ölçülə bilməyən (bu məsələ üzrə çoxsaylı iqtisadi və sosial tədqiqatlarına baxmayaraq) və öz qüdrəti ilə iradəni rahatlaşdıran pul əsas etibarilə adi termindir»[75]. Bununla belə, onun həyat və insan fəaliyyətinin bütün sferalarına təsiri və daxil olması şübhəsizdir, bu isə təkcə şəxsiyyət varlığının

mahiyyəti üçün yeni məzmunlar yox, həm də yeni ontoloji, sosial-iqtisadi, dünya görüşü təsəvvür və məqsədləri formalaşdırır.

Bu gün üçün müasir siyasi sistemin cari transformasiyası üzrə bir sıra nöqteyi-nəzərlər mövcuddur – postmüasirliyə, postiqtisadi, postindustrial informasiya cəmiyyətinə və müxtəlif nəzəri sistemlərin konseptlərinə uyğun gələn risk cəmiyyətinə keçid baş verir. Ancaq motivləşdirmə qiymətləri və oriyentasiyalarını pozmalı olan fəaliyyətin status və keyfiyyətinin dəyişməsi zərurətinin bütün fərziyyə və proqnozlar şəraitində maliyyə-pul əsası sarsılmaz olaraq qalır. Bu, müasir siyasi dünyanın keyfiyyətcə yenidən qurulmasına yox, ondakı dəyişikliklərin mikromodelləri üzrə müzakirələrə gətirib çıxarır. Siyasətlə birlikdə çıxış edən maliyyə, «monetarist» əsas (səbəb) «daha obyektiv», daha qənaətcil və ehtiras, hiss, qəzəb və sevgidən azaddır. Mənəvi-əxlaqi həyatdan «uzaqlaşma» «tam rasionallaşma», qətiyyətli maddələrdə isə ənənəvi legitimiliyin «birbaşa rəqibilə» baş verir[76]. Buradan belə çıxır ki, «sarsılmazlıq» keyfiyyət yox, kəmiyyət stabilliyidir.

Bunun səbəbi, hər şeydən əvvəl, ondadır ki, böhranın, misal üçün, XVII əsrin sonunda *Filadelfiya* layihəsinin yaradılmasını müəyyən edən vaxtı (zamanı) hələ ki, gəlməmişdir. Baxmayaraq ki, keyfiyyət dəyişikliklərinin olacağı hissi, xəbərdarlıqlar bir sıra layihələrdə öz ifadəsini tapmışdır (misal üçün, *F.Fukuyamanın* məşhur konsepsiyasında). Fəaliyyət kontekstində insan həyatının təkamülünün nəticəsi kimi mövcud böhranın dəf edilməsi məsələsi – çoxplanlıdır. *E.Toflerin* fikrincə, yaranmış vəziyyət elmi-texniki innovasiyaların yekunu və onların həyat tərzinə təsiri kimi çıxış etmişdir ki, bu da iradə və ya arzunun aşkar edilməsi azadlığı üzrə yox, kəmiyyət göstəriciləri ilə ölçülən standartlar və parametrlər üzrə *birölçülü, sosiallaşdırılmış insan* fenomenini yaratmışdır. «İnsanların eyni zamanda əmtəələrin tərtibinə (qaydasına) inteqrasiya olunduğu ikiqiymətli mühit ortaya çıxır, çünki əmtəələrin tərtibi (təbiətin tərtibinə uyğun gəlməyən) özünü satan insanları nəzərdə tutur»[77]. Birölçülü, sosiallaşdırılmış insan öz fəaliyyətlərində mümkün *kəmiyyət* sərhədlərini müəyyən edərək varlıq haqqında utilitar təsəvvürlə eyniləşir. Nəticə etibarilə, onun fəaliyyəti yaradıcı-universal xarakter daşımır, onu heç bir yaradıcılıq əlaməti olmayan unifikasiya edilmiş əməyə və ya işə («rabota» (iş) – «rab» (qul) sözündən götürülmüşdür) çevirən ümumi prosesin fraqmenti və seqmenti kimi çıxış edir. Belə əmək müasir iqtisadi nəzəriyyəyə (economicus) xas olan pulun məhdud-kəmiyyət anlamını şərtləndirir. Onun vəzifəsi «iqtisadiyyata nə

qədər pulun lazım olduğunu, pul təklifinin necə formalaşdırıldığını, onun strukturunun necə olduğunu, pul tələbinə hansı amillərin təsir göstərdiyini və pul bazarının necə fəaliyyət göstərdiyini aydınlaşdırmaqdan ibarətdir»[78]. Qarşıya qoyulmuş məqsədlər anoloji təsəvvürləri formalaşdıran müvafiq kəmiyyət metodlarını nəzərdə tutur.

Neoliberalizm klassiklərin (*F.Xayek*) hesab etdikləri kimi, qərbdə müasir sosial quruluşun formalaşması spontan olaraq baş verməmişdir. Onlara görə bu fomalaşma üzvi, təbii olaraq həyatdan çıxır. Pul, yəni kapital, həm kapitalzm «daxilində», həm də ondan «kənarda» formalaşır və mövcuddur. *M.Veber* təsərrüfat fəaliyyətinin gəlir və xərclərin, bunun nə qədər primitiv həyata keçirilməsinə baxmayaraq, pul ifadəsində müqayisə edilməsini qeyd edir. «Bu mənada «kapitalizm» və kapital hərəkətinin kifayət qədər rasional uçotunu aparan «kapitalist» müəssisələri yer kürəsinin bütün mədəni ölkələrində mövcud olmuşlar – bunu, onların təsərrüfat həyatı (Çində, Hindistan, Babilistanda, Misirdə, qədim, orta və müasir dövrün Aralıq dənizsahili ölkələrində) haqqında əlimizdə olan məlumatlarla təsdiqləyə bilərik»[79]. Aydındır ki, maliyyə-pul münasibətləri çoxdan mövcuddurlar, çünki «kapitalist müəssisəsi və kapitalist sahibkarlar» kifayət qədər geniş intişar tapmışdırlar. Buna görə də hər zaman cəmiyyətin müasirləşdirilməsi məsələsi mövcud olmuşdur. İqtisadi nöqteyi-nəzərdən bu, pul kütlələrinin fəaliyyət göstərməsini təmin edə və bu prosesə adekvat olan sosial və siyasi mühiti yarada bilən fəaliyyətin başqa modelinə keçid demək idi.

Qərb modernləşdirməsi cəmiyyəti, siyasəti və mədəniyyəti insan fəallığının başqa tipinə əsaslanan kapitalist sahibkarlığına adekvat şəklə salmaqdan ibarətdir. *V.Zombart* hesab edir ki, «müasir kapitalist sahibkarının fəaliyyəti» öz növlərinə və əsas cəhətlərinə görə elə əvvəlki kimidir – o, fəth etməli, təşkil etməli, danışıqlar aparmalı, spekulyasiya etməli və kalkulyasiya etməlidir. Amma bizim dövrümüzdə «tacir» - danışıqlar aparan insandır; «spekulyasiya» - birja əməliyyatlarını aparmaq bacarığıdır. Həyatın bütün yerdə qalan sahələri arasında fəaliyyət getdikcə daha çoxtərəfli və «kombinələşmiş» formaya düşür. Nəticədə Qərbdə iqtisadi həyatın siyasi və sosial örtüyü (qabığı) təkcə təbii yolla deyil, həm də sosial fərdlərin səyləri və fəaliyyətləri ilə formalaşmışdır.

## 8. TƏSƏRRÜFATIN SOSİAL-FƏALİYYƏT MODERNLƏŞDİRMƏLƏRİNDƏ PULUN MAHİYYƏTİ

İctimai fərdlərin sosial-iqtisadi səylərinin vektoru pul ətrafında təmərküzləşir. *M.Veber* qərb kapitalizmini xarakterizə edərək onun qeyri-qərb kapitalizmindən (burada kapital oğurluq, müharibə, aldatma və başqa yollarla əldə edilə bilər) fərqini onda görür ki, o, *əmək əsasına və sahibkarlıq fəaliyyəti etikasına malikdir*. Əxlaq və əməyə əsaslanan Qərb kapitalmiznin qeyri-qərb kapitalizmindən ayrılması *M.Veberin*, mahiyyət etibarilə, yeni fəaliyyət tipinin konstruktoru olan modernləşdirmə ideyalarının mahiyyəti təşkil edir. «Pul qazanılması işində *mütləq* arsızlıq (utanmazlıq) və tamahkarlıq (mənfəətpərəstlik) məhz öz burjua-kapitalist inkişafına görə Qərbi Avropa miqyasları üzrə «geridə qalmış» ölkələrin spesifik, xarakterik xüsusiyyəti olmuşdur»[82]. Aydındır ki, milli iqtisadiyyatın mahiyyəti məhz bundan - «yetişən» (qovub çatan) inkişaf fenomenindən ibarətdir.

Kapitalist modernləşdirməsi təkcə zəruri tələbatlar üçün istehsal və pul yox, həm də istehsal üçün istehsal, pul üçün pul və sazlanmış tələb yaradır. Kapitalizm zamanı iqtisadi motiv məqsədə çevrilir, pul, fəaliyyət və təfəkkürün ənənəvi tərzi ilə ziddiyyət yaradaraq fetiş statusu əldə edir. *M.Veber* qeyd edir ki, «... İnsan «öz təbiəti etibarilə» pul qazanmağa, daha çox və daha artıq pul qazanmağa meyilli deyildir, o, sadəcə olaraq, yaşamaq istəyir, adət etdiyi kimi yaşamaq və belə həyat üçün zəruri olan qədər qazanmaq istəyir. Müasir kapitalizmin əməyin «məhsuldarlığını» onun intensivliyini qaldıraraq yüksəltməyə çalışdığı hər yerdə o, əməyə qarşı münasibətin, arxasında qeyri-adi inadcıl müqavimət duran, bu kapitalizmöncəsi leytmotivilə qarşılaşmışdır, kapitalizm bu leytmotivlə bu gün də toqquşur və bu nə qədər güclü şəkildə baş verirsə, onun əlaqədə olduğu işçilər də bir o qədər geridə qalmış olurlar (kapitalist nöqteyi-nəzərindən)»[83]. Nəticə etibarilə, əsas ziddiyyət pula qarşı müvafiq

> *«Barbar tənbəldir və ziyalı (təhsilli) insandan onunla fərqlənir ki, o, özünü küt işsizliyə verir, çünki praktiki təhsil məşğuliyyət vərdişi və tələbatından ibarətdir. Bacarıqsız işçi hər zaman o şeyi istehsal edir ki, onu istehsal etməyi istəmir, bunun əksinə, bacarıqlı işçi predmeti necə lazımdırsa, elə istehsal edir və öz subyektiv fəaliyyətində məqsədlə ziddiyyətlilik görmür».*
>
> Q.V.F.Hegel

münasibəti yaradan fəaliyyətin xarakterindədir. Aydındır ki, *birölçülü* cəmiyyətdə məhz fəaliyyətin subyektivləşdirilməsi *sosiallaşdırılmış fərdlər* arasında pulu modernləşmə yolunda müasir ictimai paradiqmanın ən mühüm cəhətlərindən birinə çevirir. Çünki pul «abstrakt təbiət» (*E.Levinas*) kimi, mahiyyəti olmayanı ümumiləşdirir, miqdarı olmayanı tarazlaşdırır»[84], buna görə də bu vəzifəni ən böyük uyğunluq dərəcəsi ilə yerinə yetirə bilər.

Bu faktın yaddan çıxarılması sosial-siyasi transformasiya prosesinin təhrif olunmasına gətirib çıxarır, bu zaman bütün problemlərin həllinin şərti kapital və müxtəlif təzahür və funksiyalarda çıxış edən puldur. Bu, o qənaətə gətirib çıxarır ki, əhalinin ən fəal təbəqələrinin asan qazanc ehtirası Qərb kapitalizminin iqtisadi motivləşməsi ilə eynidir. Həyat üçün kifayət qədər pul əldə etmək məqsədilə formalaşan iqtisadi motivlərə qarşı ənənəvi etinasızlıq asanlıqla müasir olmayan, qeyri-qərb tipli *asan qazanc ehtirasına* çevrilir. *M.Veber* qeyd edir ki, «pul qazanılması işində *mütləq* arsızlıq (utanmazlıq) və tamahkarlıq (mənfəətpərəstlik) məhz öz burjua-kapitalist inkişafına görə Qərbi Avropa miqyasları üzrə «geridə qalmış» ölkələrin spesifik xarakterik xüsusiyyəti olmuşdur»[85]. Bu halda, pul fəal əmək fəaliyyəti nəticəsində və əxlaqa riayət etmədən əldə edilə bilməz. Lakin pula, asan qazanca qarşı ehtiras iqtisadi marağa çevrilməyən, fəaliyyətin rolunun fundamental əhəmiyyətinin başa düşməsinə əsaslanmayan yerdə Qərb, yəni müasir tip kapitalizmi formalaşdıran iqtisadi modernləşmə mövcud deyil. Belə iddia «bazar iqtisadiyyatının formalaşmasının ən başlıca problemlərindən birinin ehtirasın şəxsi marağa çevrilməsi olduğuna heç bir şübhə doğurmur»[86]. Belə çevrilmə (dəyişmə) üçün Qərbdə bir çoxu mövcud ənənələrdən götürülmüş çoxlu sayda rəgarəng dini, siyasi və əxlaqi resurslar səfərbər edilmişdir.

Bu, ən böyük əhəmiyyətə malikdir. Çünki insanın *sadəcə* iqtisadi fəaliyyətini təsərrüfat fəaliyyətinə çevirərək onun sərhədlərini genişləndirir. Təsərrüfat fəaliyyəti dedikdə isə «insanın təbiətin dəyişdirilməsinə, insanın özünün təkrar istehsalı və təkmilləşdirilməsinə, mənəvi və maddi qiymətlilərin yaradılmasına, müxtəlif xüsusi institut və münasibətlərin formalaşmasına istiqamətlənmiş bütün yaradıcılıq fəaliyyəti» başa düşülür[87]. Təsərrüfat fəaliyyəti, sözün geniş mənasında, təkcə istehsal deyil, həm də predmetlərin mənimsənilməsidir ki, bu zaman insanın özünün fəaliyyət subyekti kimi kəmiyyətcə və keyfiyyətcə dəyişməsi baş verir (xarici obyektlərin dəyişməsi nəticəsində).

Təsərrüfat fəaliyyəti pulun mahiyyətinin başa düşülməsini nəzərdə tutur: təkcə onların «tamahkarlıq» (*M. Veber*) yaradan funksional tətbiqi nöqteyi-nəzərindən yox, həm də tamın inkişaf gedişini müəyyən edən mahiyyət ziddiyyətliliyi mövqeyindən. Təsərrüfat özündə fasiləsiz hərəkətdə olan təbiəti, insanı və mədəniyyəti orqanizm kimi birləşdirərək pul hesablaşmaları (xudbin hesablaşma – həmrəy şəkildə əldə etmə və bölüşdürmə; pulun xarici təzahürləri və onun həqiqi mahiyyətinin başa düşülməsi kultu; texnokratik-rasional hesablaşma – iqtisadi dəyərin humanist-ekzistensial «çəkilməsi», ekonomizm prioritetlərində pulun məqsədi – pulun layiqli həyat şəraitinə çevrilməsi şərti kimi, təsərrüfat-mədəni fəaliyyət) dünyasında insanın varlığını müəyyən edən əsas ziddiyyətlər sistemini əks etdirir. Bu dilemmalar sadəcə iqtisadi inkişafın idealını yaratmırlar, onlar həm də həqiqi təsərrüfat dəyərləri ilə bağlıdırlar.

Fəaliyyətdə aşkar edilmiş bu ziddiyyətlər təsərrüfat prosesində pulun yerinin başa düşülməsi üçün qiymətlidirlər və hər şeydən əvvəl, ümumiyyətlə dünya təsərrüfatının hərəkət vektorlarını verən oriyentirlər və kənar nöqtələr kimi çıxış edirlər. Onları «ya-ya» prinsipi üzrə yox, yalnız sintez halında, göstərilən ziddiyyətlərin tezis və antitezisinin *kəsişmə imkanı* kimi nəzərdən keçirmək lazımdır. Məsələn, «tamahkarlıq-mötədillik» dilemmasının sintezi kimi, rasional cəhətdən əsaslandırılmış sağlam tələbatlara ağılsız səy göstərilməsi və ölçünün mükəmməl həyat şərti kimi dərk olunması çıxış edir. Yaxud, pul, maddi nəticə kimi, - onun əldə edilməsi üçün sərf olunmuş əməyin həyati mahiyyət kəsb edən dəyəri – başqaları ilə yanaşı maddi və mənəvi qiymətlilərin və s. yaradılması üzrə yaradıcı fəaliyyətin mövcud olmasını nəzərdə tutur.

Nəticə etibarilə, belə təşkilati fəaliyyətdə ziddiyyət aradan qalxır və pul, həm insanın, həm də mədəniyyətin tənəzzülünə (pisləşməsinə) səbəb olan kolliziyalar (toqquşmalar) üçün şərt kimi çıxış etmir. Bu situasiya təsərrüfat fəaliyyətinin yaradıcı xarakteri (sosial-siyasi məkanın yaradılmasını özünə daxil edən) və «Universumla əlaqəlilik» aspektində nəzərdən keçirilən təsərrüfatın bütövlüyü sayəsində mümkündür[98]. Təsərrüfat sistemində pul insan həyatına və onun *mənimsənilməsinə* yox, *möhkəmləndirilməsinə* (sabitləşdirilməsinə) istiqamətlənmiş fəaliyyətə oriyentasiya edir. O, son nəticədə özündə məhsuldar həyata əminliyi əks etdirir. Məhz bu, modernləşməni daimi təkmilləşmə prosesi kimi ifadə edir. O, milli iqtisadiyyatların qloballaşmasına, ənənəvi cəmiyyətlərin kapitalist cəmiyyətlərinə

təkamül etməsinə və sonuncuların postiqtisadi mərhələyə keçməsi tendensiyasına «toxunur».

Üç inkişaf əsri – iqtisadidən öncə (ənənəvi), iqtisadi (kapitalist) və postiqtisadi pulun rolu və mahiyyətinin dəyişməsi diapazonunu fərdi maraqların bir-birinə tabe etdirilməsi sistemi vasitəsilə açır. *İqtisadidən öncəki cəmiyyətdə* o, həyat üçün bilavasitə vasitələrin təmin edilməsi məqsədilə təbiətlə qarşılıqlı fəaliyyətdə idi, bu da pulun rolunu minimumlaşdırırdı, çünki əsas yeri fərdi xarakterli başqa xüsusiyyət və keyfiyyətlər tuturdu. *İqtisadi əsrdə* fəaliyyət müstəqil xarakter alır, pul isə maddi və böyük gücə çevrilir. Postiqdisadi əsrdə maraqlar çoxölçülü olurlar ki, bu da pulun, təkcə çoxsaylı problemlərin həlli şərti kimi yox, həm də bütün rəngarəngliyin bir məxrəcə gətirilməsinin unifikasiya qabiliyyəti kimi, rolunu fəallaşdırır. Bu zaman ortaya çıxan əmək və yaradıcılıq dixotomiyası (ardıcıl surətdə ikiyə bölünmə, parçalanma) son nəticədə pul, «ümumi ekvivalent» ifadəsində reallaşır. Ancaq postiqtisadi cəmiyyətdə (postindustrial, informasiya, risk cəmiyyəti və s.) *intellektual elitaların yaradıcılığı* dominant əhəmiyyətə malikdir. Buna görə də «bu gün sosiumun iqtisadi əsaslarının dəf edilməsi sosial strukturların transformasiyası vasitəsilə yox, fərdlərin mənəvi və intellektual təkamülü nəticəsində həyata keçirilə bilər»[89]. Modernləşmə problemi və onunla birlikdə pul dünyasında (onun iqtisadi-sosial birölçülüyündə və yaradıcı universallığında) insan problemlərinin maksimal sayının dərk olunması yalnız bu yolla həll oluna bilər. Fərdin və cəmiyyətin gələcək inkişaf oriyentirlərinin formalaşması zamanı təsərrüfat fəlsəfəsi nəzəriyyə kimi, məhz bunu iddia edir.

Sosiumun dəyişməsi prosesində pulun təhlili üçün onun tərkibinin «ənənəvi» və «müasir» cəmiyyət anlayışlarını nəzərdə tutaraq fəlsəfi, sosialoji nöqteyi-nəzərlərdən açılması evristik cəhətdən qiymətlidir. Ənənəvi cəmiyyətdə ən mühüm xarakteristika fərqləndirilmiş personallığın (fərdiliyin) mövcud olmamasıdır ki, bu da xüsusi psixi durumun (maddi sferada zəruri tələbatlar üçün yox, gələcək üçün istehsal etmək qabiliyyətindən məhrum edilmiş fəaliyyətsiz şəxsiyyətin) dəf edilməsini şərtləndirir və bu da təsərrüfatçılığı iqtisadidən öncəki, məcburi şəklə salır. Bu – fərdilik üzrə sosial tələbin müvafiq stimullaşdırıcı oriyentirin olması şəraitində yeniliyi istehsal etmək qabiliyyətinə malik olan yaradıcılıq fəaliyyəti subyekti üzrə tələb kimi çıxış etdiyi ənənələrin dominantlıq etməsinin nəticəsidir. *M.Veber* qeyd edir ki, dini inam (mənəvi amil) və «dini həyat təcrübəsi

vasitəsilə bütün həyat quruluşuna istiqamət verən və fərdi ciddi olaraq bu istiqamətə riayət etməyə məcbur edən psixoloji stimulların aşkar olunması mühüm maraq kəsb edir»[90]. O dövr (Reformasiya) üçün bu stimullar əhəmiyyətli dərəcədə spesifik dini təsəvvürlərlə şərtlənirdi. Lakin onlarda fərdilik *sağ qalma üzrə seçilmənin* sübutu kimi təzahür edə bilərdi.

Sosial-fəlsəfi təhlil göstərir ki, ənənələrin innovasiyalar üzərində üstünlük təşkil etməsinin şərti (ənənəvi cəmiyyətdə) kimi, ənənələrə dini və ya mifoloji cəhətdən haqq qazandırılması çıxış edir. Dini və mifoloji təsəvvürlərin kollektivçi xarakteri fərdiliyin, personallığın aşılanmamasını şərtləndirir. Fərd ənənəvi cəmiyyətdə siyasi subyekt kimi çıxış etmir. Müvafiq olaraq, onlarda dəyərlərin üstünlük təşkil edən tipi kimi avtoritar dəyərlər, yəni ənənə ilə dəstəklənən və onun kollektivçilik təsəvvürlərini dəstəkləyən dəyərlər çıxış edir. «Ənənələrin zəifləməsi və sərbəst əldə etməkçiliyin sosial qarşılıqlı əlaqələrin daxili sferasına da az və ya çox dərəcədə dərindən nüfuz etməsi adətən öz ardınca heç də yeni baxışların (görüşlərin) etik qəbul olunması və rəsmiləşdirilməsini aparmır: onları, ya etik cəhətdən indifferent hadisələr, ya da kədərli, amma təəssüflər olsun ki, qaçılmaz fakt kimi nəzərdən keçirərək, sadəcə olaraq, itirmişdilər»[91]. Bu situasiya təsərrüfatda fəaliyyətin stimullaşdırıcı amili haqqında başqa təsəvvür yaradır.

> *«Kimin pulu çoxdursa, kimin hakimiyyəti böyükdürsə, həmin adam birincidən daha az və ikincidən daha çox sui istifadə edir».*
>
> F. Çesterfild

Dəyərlilərin dəqiq olaraq instrumental (gündəlik davranış və fəaliyyətləri tənzimləyən) və dünyagörüşü (dünya haqqında təsəvvürlərlə bağlı) növlərinə bölünməməsi birincilərin ikincilərə tabe olmasını şərtləndirir. Sərt dünyagörüşü nəzarəti, insanların davranış və təfəkkürlərinin daxili və xarici senzurası, labüd olaraq, fəaliyyətə avtoritet tərəfindən haqq qazandırılmasına səbəb olur. Ənənəvi cəmiyyətlərin bütün şüur strukturu, onların mədəniyyəti və hakimiyyəti köhnənin təkrar istehsalına zəmanət verir, insanlar onların daxilində iqtisadi planda «bu günlə» yaşayırlar. Pul, hansısa xarici köməkçi (mifoloji) güclərin yardımı ilə gələn törəməyə çevrilir. Bunun nəticəsində, təşəbbüskarlığa, aktiv fəaliyyətə qarşı tənqidi münasibət formalaşır və onun yerinə toplayıcılığa (yığıcılığa) və pul qarşısında bütpərəstliyə qarşı ehtiras güclənir. Belə cəmiyyətlərin öz fəaliyyətlərinin perspektivlərinin elmi əsaslarına yox, elmdən kənar görüşlərə oriyentasiya etməsi tamamilə aydındır.

## 9. İNNOVASİYA FƏALİYYƏTİ, DÜNYA VƏ PUL

Müasir cəmiyyətə keçid prosesi *onun innovasiyanın formalaşmasına*, onun daxilində personallığın, instrumental dəyərlərin üstünlük təşkil etməsinə, sazlanmış tələbin, yəni zəruri tələbatlar üçün yox, gələcək üçün istehsal etmək qabiliyyətinin mövcud olmasına oriyentasiyasını şərtləndirir. Pulun əldə edilməsi və qazanılmasının bütün mümkün üsullarının reallaşdırılmasına kömək edən fəal, «psixoloji quruluş» ortaya çıxır və eyni zamanda universalın lokal üzərində üstünlük təşkil etməsini, dəqiq elm və texnologiya biliklərinə (texnogen sivilizasiya) nisbətən dünyagörüşü biliklərinin üstünlük təşkil etməsini təsdiq edir. Bu proses dəyər rasionallığından məqsəd rasionallığına keçidi ifadə edir ki, bu da pulun əldə edilməsi, qazanılması və hasil edilməsi üzrə müəyyən məqsədin formalaşdırılmasını nəzərdə tutur. *T.Parsonsa* görə, bu, universal prosesdir və onun əsasında ümumi rasionallıq prinsipinin tapılmasına aparıb çıxaran adaptasiya durur və onun təcəssümü kimi, moderləşməni dramatik prosesə keçirən pul çıxış edir. Çünki söhbət, praktiki həyat məqsədləri ilə bilavasitə bağlı olan ənənəvi dünyagörüşü dəyərlərinin əvəzlənməsindən gedir.

Müasir cəmiyyətin mərkəzi kimi, *innovasiya, sekulyarizasiya və demokratizasiyanın* kəsişdiyi yerdə yaranan fərdilik çıxış edir. Onun sadəcə bu günun istehlakı üçün yox, həm də gələcək üçün aktiv fəaliyyəti dəyərlərə, o cümlədən pula qarşı, hazırki vəziyyətin rasional təmin olunmuş həyat tərəfə dəyişmək üzrə ümid və əminliyin təcəssümü kimi, keyfiyyətcə başqa münasibət formalaşdırır. Fəaliyyət prioritetinin qəbul olunması əsasında şəxsiyyətin dəyişməsi belə bir əminliyə səbəb olur ki, yalnız onun rasioal cəhətdə əsaslandırılmış xarakterə malik olan prosesinə daimi daxil olma nemətlərin əldə edilməsi şərti kimi çıxış edir. Buna nümunə olaraq, səkkiz otaqda nəinki «yaşayan», həm də «işləyən» Bulqakov professoru Preobrajenskini göstərə bilərik.

«Fəaliyyətdə olan insan» tipi onu həyatın (varlığın), həll edilməsi ənənəvi dəyərləri şübhə altına qoyan mürəkkəb ziddiyyətlərindəki dayanıqlığa oriyentasiya etdirir. Müasir insanı yeni olan hər şeyə, istənilən dəyişikliklərə, baxışın rəngarəngliyinə, informasiyaya oriyentasiya, əsas dəyərlərdən biri kimi çıxış edən vaxta ciddi münasibət, onun ölçülməsinə, öz əmək və fəaliyyətinin effektiv planlaşdırılmasına, şəxsi ləyaqət, partiikulyarizm – şəxsi maraqların dominantlıq etməsi cəhətləri fərqləndirir[92]. İlk

növbədə, fəaliyyətin dərk olunması ilə bağlı olan fərdi dəyişmə və yenidən qurulma – sosial transformasiyalardan az dramatik proses deyildir. Bununla yanaşı, modernləşdirmə prosesində yaranan müasirlik – sadəcə olaraq yeni yox, nə isə qabaqcıl, daha yaxşı bir şeydir. Buna oxşar olaraq, Qərbə XX və XXI əsrlərdə onun ardınca gedən ölkələrə aid edilən «müasir cəmiyyət» anlayışı cəmiyyətin inkişafının ən yüksək obrazı üçün tətbiq olunurdu.

Dəyişdirici-modernləşdirici fəaliyyət cəmiyyəti yeniləşdirən insanın identikliyinin dəyişməsini tələb edən institutların və münasibətlərin, dəyərlərin və normaların yaradılmasını nəzərdə tutur. Bu, ənənə ilə tərbiyə olunmuş müxtəlif növ sosial-psixoloji məqsədlərə qarşı münasibətlərin dəyişməsini ifadə edir. Məsələn, afrikalılarda pula olan münasibət avropalının münasibətindən fərqlidir. Məlum olduğu kimi, Qərbi Avropada kapitalizmin proloqu kapitalın ilkin yığımı, habelə gələcəyin maddi təminatı üçün könüllü askez üzrə protestant etikası olmuşdur. *İ.L.Andreyev* qeyd edir ki, hətta bu gün belə Tropik Afrika bazarlarında «sənətkar əmtəəsinin qiymətilə onun dəyəri arasında, onun məqsədi və nəticəsi kimi, ticarət və mənfəət arasında sezilən bağlılıq mövcud deyildir... Sənətkar, yaxud tacir (ticarətçi) – adətən onun qohumu - ilkin materialların dəyərini, bir qayda olaraq, ifadə edə bilər. Məmulatın hazırlanmasına sərf olunan iş vaxtına gəldikdə isə onu astronomik vaxtdan çıxarılması daha çətindir, sərf olunmuş əməyi qiymətləndirmək isə ümumiyyətlə mümkün deyil. Sonuncunun dəyərini sərf olunmuş vaxt və ustalıq səviyyəsi yox, əsas etibarilə. ənənə və bazarın konyunkturu, eləcə də fərdin əhval-ruhiyyəsi və ani tələbatları müəyyən edir»[93]. Buna görə də modernləşmə nəzəriyyələrində identiklyin dəyişdirilməsi vəzifəsinin qarşıya qoyulması – qərb dəyərləri və sosial qanunlara uyğun gələn, heç olmazsa, əks olmayan yeni özünüeyniləşdirmə çərçivələrinin tələbləridir. Bunlara, fərdin hüquqlarına riayət olunması, vətəndaş cəmiyyətin başqa dəyər və institutları, öz kökləri ilə qərb xristianlığına gedib çıxan əxlaq, əmək etikası və başqa buna oxşar şərtlər aiddir.

Müasir industrial cəmiyyət öz dayanıqlığını nümayiş etdirir, çünki (sabiq sovet planlı sistemi ilə müqayisədə) kapital funksiyasının reallaşdırılması üçün mütləq adekvat substansiya, yəni müəyyən sosial-siyasi və mədəni mühit tələb etmir. Başqa sözlə, qərb kapitalizmi öz sərt nüvəsini – pul kütləsi gücünü formalaşdırmış və kapitalizm əsasına malik olmayan, yəni bazar iqtisadiyyatına daxil edilmək üçün istənilən cəmiyyət strukturunu da ona uyğunlaşdırılmasına hazırlıq əldə etmişdir. Kapitalizm, dünyəvi sistem kimi, pulun, maliyyənin və

kapitalın dünya miqyasında fəaliyyəti üzrə qayğılıdır və bu da bütün dünya birliyinin (cəmiyyətinin) dəyişməsi problemini aktuallaşdırır. Lakin bu o demək deyildir ki, Qərb hər yerdə (məsələn, postkommunist ölkələrində) özünə adekvat mühit yaratmaq üzrə maraqlıdır. Maraq yalnız pulun fəaliyyəti prosesinə və bunun üçün müvafiq fəaliyyət mühitinin formalaşdırılmasına aiddir.

Qarşılıqlı anlaşma prinsipi üzrə dünya quruluşu problemi, sabiti (konstantı) pul olan müxtəlif ölçmələri nəzərdə tutur. Bu, ənənəvi və müasir cəmiyyətin əks cəhətlərinin yaxınlaşması perspektivini, onların qarşılıqlı fəaliyyətini nəzərə alır. O, fəaliyyət nəticələrinin nəzərə alınması ilə özünə yeniyə oriyentasiyanı daxil edir: ənənədən yenilənmənin ilkin şərti kimi istifadə olunması; rasionallığın məqsəd və qiymətlərinin birləşdirilməsi; özünə keçmişi, indini və gələcəyi daxil edən zamanın inteqral obrazı; fərqləndirilmiş personallığın əhəmiyyəti və bununla bərabər, mövcud kollektivçilik formalarına haqq qazandırılması və onlardan istifadə olunması; dünyagörüşü və instirumental dəyərlərin əlaqələndirilməsi; effektiv məhsuldarlıq, həm də artım hədlərinin məhdudlaşdırılması; sosial seçimin ənənəvi, dəyər legitimləşdirilməsinin həyata keçirilməsi zamanı elmdən effektiv istifadə olunması; lokal və qlobal olanın əlaqələndirilməsi[94]. Bütün bu və başqa formalar cəmiyyətin təşkilinin təkcə institutsional formalarında yox, həm də mədəni-təsərrüfat mühitində – insan «varlığının» əsas sahəsindəki dəyişiklikləri nəzərdə tutur. *V.-Zombart* qeyd edir ki, «müasir iqtisadi insanı təsərrüfatın vahid rasional təşkilini həvəsləndirir və o, bu iradəni həyata keçirmək, nəticə etibarı ilə, istənilən mükəmməl metodu tətbiq etmək üçün qətiyyətə də malikdir»[95]. Əsas tələb – rasionallıq, mənfəətə doğru hərəkətdir ki, bu da üstünlüyü ifadə edir.

Bu və ya digər ölkənin inkişafın hansı yolunu seçməsindən asılı olmayaraq, o, hər yerdə pulun bu və ya digər fəaliyyət tipi (ənənəvi, innovasiya və s.) əsasında fəaliyyətini nəzərdə tutur. Hər bir halda dəyişmə kapitalın fəaliyyət sərhədlərini genişləndirməyə çalışan müasir (və ya ona adekat olan) cəmiyyətin yaradılmasını nəzərdə tutur. Özünün istənilən tarixi tətbiq formalarında, yəni kapitalın inkişaf prosesinə daxil edilməsinin və bununla bərabər mühitin özünün dəyişməsinin fəallaşdığı zaman pulun «funksional gücünün» istiqamətləndiyi obyektin «mədəniyyət kodu» dəyişmişdir. Bu, cəmiyyətin identikliyi və bütövlüyü məsələsini başqa cür qoyur, çünki kapital təkcə müsbət, yaradıcı yox, həm də destruktiv rol oynayır.

> «*Həmişə böyük və dəyişməz həqiqəti yadda saxlayın ki, sizin sahib olduğunuz şeyə başqa heç kim sahib ola bilməz və sizin istifadə etdiyiniz və ya istehlak etdiyiniz istənilən maddənin hər bir hissəsi özündə insan həyatının bir hissəsini əks etdirir*».
>
> D. Reskin

İnkişaf prosesinin variativliyi (dəyişkənliyi) müasir cəmiyyətə qoşulmanın (birləşmənin) yalnız bir yolunun seçilməsini şübhə altına qoyur. Çünki qloballaşma və lokallaşma ideyalarının rəqabəti bu və ya digər inkişaf tipinin mövcudluğu və ya ona üstünlük verilməsi haqqında suala cavabı həddən artıq çətinləşdirir və həm də lüzumsuzlaşdırır. Bu problem «kapitalın substansiya və funksiyası» (*A.S.Fursov*) arasındakı ziddiyyətdən ibarət olduğundan, biz onu pulun fəaliyyəti ilə onun sosial mühiti arasındakı münasibət kimi başa düşürük. Çünki «kapital və istehsal münasibətləri, bazar və infrastruktur şəklində onun substansiyası havadan asılmamış, sosial substansiyaya, hakimiyyət və idarəetmənin təşkilinin siyasi substansiyasına, dəyər, norma və mədəni nümunələrin mədəniyyət substansiyasına yerləşdirilmişdir»[96]. Buna görə də belə bir iddia ilə razılaşmaq olar ki, inkişafın bu rəngarəngliyində fəaliyyət aspektində pul («dəyər sisteminin yaranması, yeni aksiologiyasının və yeni etikanın doğulması pul prizmasından baş verir) amilini nəzərə almaq lazımdır. Pul öz siyasətini diktə edir, öz dünyagörüşünü və öz fəlsəfəsini qəbul etdirir»[97]. Bütün bunlarla yanaşı, pul, sosiumun dəyişdirilməsi prosesinin adekvat metodlarını tələb edərək fəaliyyətin əsas amili olan insan ağlının inkişafına yol açır.

## ƏDƏBİYYAT

[1] *Юдин Э. Г.* Методология науки. Системность. Деятельность. – М., 1997. – С. 249.

[2] *Крымский С. Б.* Запити Философських смислив. – К., 2003. – С.47.

[3] *Корлев В. К.* Деньги в хозяцственной культуре // Философия хозяства. – 2003. - № 5 (23). – С. 282.

[4] *Швырев В. С.* О деятельностном подходе компания истолкования «феномена человека» // Вопросы философии. – 2001. - №3. – С. 109.

[5] Yenə orada.

[6] *Осипов Ю. М.* Философия хозяйства. – М., 2001. – С. 143.

[7] *Осипов Ю. М.* Деньги как стоимость // Философия хозяства. – 2002. - №4 (22). С. 215.

[8] *Шеаптун А.А.* Философия денег // Вопросы философии. – 1999. - №7 – С. 110.

[9] *Швырев В. С.* О деятельностном подходе компанийа истолкования «феномена человека». – С. 110.

[10] *Осипов Ю. М.* Философия хозяйства. – С. 139.

[11] *Швырев В. С.* О деятельностном подходе компания истолкования «феномена человека». – С. 110.

[12] *Слободчиков В.И.* Деятельносись как антропологическая категория // Вопросы философии. – 2001. - №3. – С. 49.

[13] Yenə orada.– S. 52.

[14] *Осипов Ю. М.* Философия хозяйства. – С. 139.

[15] *Слободчиков В.И.* Деятельносись как антропологическая категория – С. 52.

[16] *Крымский С. Б.* Запити Философських смислив – С. 51.

[17] Yenə orada.

[18] *Михайлова Т. М.* Труд как историко-филосовская проблема. – М., 1998. – С. 71.

[19] *Гегель Г.В.Ф.* Философия права. - М., 1990. – С. 228-230.

[20] *Иноземцев В.П.* За пределами экономического общества. Постиндустриальные теории и постэкономические тенденции в современном мире. - М. 1998. – С. 53.

[21] Yenə orada.– S. 55.

[22] *Булгаков С. Н.* Философия хозяйства. – М., 1990. - С. 82.

[23] Yenə orada.– S. 83.

[24] Yenə orada.– S. 87.

[25] Yenə orada.

[26] *Осипов Ю. М.* Философия хозяйства. – С. 147.

[27] *Булгаков С. Н.* Философия хозяйства. – М., 1990. - С. 89.

[28] *Ницше Ф.* Утренняя заря. Переоценка всего ценного. Веселея наука. – Мн., М., 2000. – С. 584.

[29] *Шопенгауер А.* Афоризмы и истины. Сочении. – М., 2000. – С. 469.

[30] Yenə orada.– S. 471.

[31] *Мунье Э.* Манифест персонализма. – М., 1999. – С. 475.

[32] Yenə orada.– S. 146.

[33] *Осипов Ю. М.* Философия хозяйства. – С. 147.

[34] *Мунье Э.* Манифест персонализма. – М., 1999. – С. 149.

[35] *Соловьев В.С.* Оправдание добра: Нравственная философия. – М., 1996. – С. 296.

[36] Yenə orada.– S. 310-311.

[37] *Тутов Л. А.* Философия хозяйства. Опыт духовного преображения М., 2003. – С. 189.

[38] Yenə orada.– S. 190.
[39] *Вебер М.* Избранные произведения. – М., 1990. – С. 51.
[40] *Шептун А.А.* Философия денег. - С. 182.
[41] *Крымский С. Б.* Запити Философських смислив. – К., 2003. – 49.
[42] *Осипов Ю. М.* Философия хозяйства. – С. 143.
[43] *Вебер М.* Избранные произведения. – М., 1990. – С. 89.
[44] *Элоян М.Р.* Хозяйства и религия (Вебер М., С. Булгаков, В. Зомбарт) // Философия хозяйства. – 2003. - № 1 (25).
[45] *Вебер М.* Избранные произведения. – М., 1990. – С. 85.
[46] Yenə orada.
[47] *Бергер П.* Капиталистична ревалюция: Пятдесят пропозиций щодо процвитания, ривности и свободи. – К., 1995. – С. 41.
[48] Yenə orada.– S. 47.
[49] *Зомбарт В.* Буръуа. Этюды по истории развития современного экономического человека. – М., 1994. – С. 138.
[50] *Крымский С. Б.* Запити Философських смислив. – К., 2003. – 49.
[51] *Михайлова Т. М.* Труд как историко-философская проблема. – М., 1998. – С. 26.
[52] *Корлев В. К.* Деньги в хозяцственной культуре. – С. 282.
[53] Давдов В.В. Теория деятельности и социальная практика // Вопросы философии. - 1996. - № 5.
[54] *Крымский С. Б.* Запити Философських смислив. – К., 2003. – 49.
[55] Yenə orada.
[56] Yenə orada.– S. 49.
[57] *Бэкхерст Д.* Философия деятельности. // Вопросы философии. - 1996. № 5. – С. 78.
[58] *Корлев В. К.* Деньги в хозяцственной культуре. – С. 282.
[59] *Бэкхерст Д.* Философия деятельности – С. 78.
[60] *Крымский С. Б.* Запити Философських смислив. – К., 2003. – 49.
[61] *Корлев В. К.* Деньги в хозяцственной культуре. – С. 283.
[62] *Булгаков С. Н.* Философия хозяйства. – М., 1990. - С. 36.
[63] Yenə orada.– S. 14.
[64] *Левинас Е.* Миж нами. Дослидження думки-програм-иншого. – К., 1999. - С. 43.
[65] *Булгаков С. Н.* Философия хозяйства. – М., 1990. - С. 78-79.
[66] *Крымский С. Б.* Запити Философських смислив. – К., 2003. – 51.

[67] *Тутов Л. А.* Философия хозяйства. Опыт духовного преображения М., 2003. – С. 191.

[68] *Осипов Ю. М.* Философия хозяйства. – С. 137.

[69] *Шептун А.А.* Философия денег. - С. 182.

[70] *Булгаков С. Н.* Философия хозяйства. – М., 1990. - С. 109.

[71] *Федотова В.Г.* Типологизачия модернизаций и способов ихтисас изучения. // Вопросы хозяцства. – 2000 – № 4.

[72] *Вебер М.* Избранные произведения. – М., 1990. – С. 72.

[73] *Шептун А.А.* Философия денег. - С. 180.

[74] *Федотова В.Г.* Типологизачия модернизаций и способов ихтисас изучения. – С. 7.

[75] *Левинас Е.* Миж нами. Дослидження думки-програм-иншого. – С. 43.

[76] *Вебер М.* Избранные произведения. – М., 1990. – С. 319.

[77] *Левинас Е.* Миж нами. Дослидження думки-програм-иншого. – С. 43.

[78] *Шептун А.А.* Философия денег. - С. 180.

[79] *Вебер М.* Избранные произведения. – М., 1990. – С. 49.

[80] Yenə orada.– S. 50.

[81] *Зомбарт В.* Буръуа. – С. 137.

[82] *Вебер М.* Избранные произведения. – М., 1990. – С. 78.

[83] Yenə orada.– S. 81.

[84] *Левинас Е.* Миж нами. Дослидження думки-програм-иншого. – С. 43.

[85] *Вебер М.* Избранные произведения. – М., 1990. – С. 78.

[86] *Капустин Б. Г.* Современность как предмет политической теории. М., 1998. – С. 52.

[87] *Тутов Л. А.* Философия хозяйства. Опыт духовного преобРажения М., 2003. – С. 84.

[88] Yenə orada.– S. 190.

[89] *Иноземцев В.П.* За пределами экономического общества. – С. 187.

[90] *Вебер М.* Избранные произведения. – М., 1990. – С. 138.

[91] Yenə orada.– S. 190.

[92] *Inkels A., Smith D.* Becoming Modern. Individual Change in six Developing Countries. – Cambridge, 1974. – C. 35.

[93] Андреев И. Л. Человек по имени «Деньги» // Вопросы философии. – 2022. - №. 11. – С. 66

[94] *Федотова В.Г.* Типологизачия модернизаций и способов ихтисас изучения. – С. 18-19.

[95] *Зомбарт В.* Буръуа. – С. 79

[96] *Федотова В.Г.* Типологизачия модернизаций и способов ихтисас изучения. – С. 26.

# PUL ÖLÇÜSÜNDƏ SƏRVƏT

*«İnsanlar varlı olmaq istəmirlər; insanlar başqalarına nisbətən varlı olmaq istəyirlər»*

Con Stüart Mill

*Pul obrazının məqsədli ideya və yaxşı həyat haqqında hipotetik ümid kimi nəzərdən keçirilməsi özünə sərvəti, yəni insan həyatının ən əsas anlayışlarından birini daxil edir. Onun vasitəsilə sərəncamda olan əşyaların miqdarı, qəlbin xüsusiyyəti, sınaqdan keçirilmiş və yaşanılmış olunanların keyfiyyəti qiymətləndirilir: «zəngin mənəvi dünya», «zəngin təcrübə» … və s. Sərvətin kolliziyası, sərvət anlayışından az ekspressiv anlayışı olmayan, eyni zamanda özündə harmoniyanın entropiyasını, sönməsini, dağılmasını, dünyanın qeyri-tarazlığını əks etdirən yoxsulluq fonunda açılır. Zənginlik (sərvət) – yoxsulluq əlamətləri üzrə diferensiasiya – varlığın mahiyyətinin ənənəvi ekzistensial-mədəni ölçülməsidir. Sərvətin ən geniş yayılmış eydosu, təsərrüfat subyektinin şəraitə uyğunlaşma sujetini təsvir edən, subyektiv əxlaq mexanizmini, fərdi məqsədlər və dəyərlilər sistemini açan puldur.*

## 1. SƏRVƏTİN SOSİAL-MƏDƏNİ PARAMETRLƏRİ

Dünyanı və özünü dərk edən insanın sosial-iqtisadi varlıq sistemində müəyyən həyati – mənalı oriyentasiyaların işlənib hazırlanmasına istiqamətliliyi ideal-vital məqsəd sayılan sərvət qaçılmaz olaraq aktuallaşır. Sərvəti öz inkişafı mərkəzinə qoymuş mahiyyət formalaşdırılması prosesi *şəxsiyyət mahiyyətlərin hərəkəti*, həqiqətin və sosial fəaliyyətin rəngarəng normativ-dəyər sistemlərinə uyğunlaşması nəticəsində həyata keçən gərginliyin konseptual şəkildə dərk edilməsidir. Sərvət, pul kimi, hər hansı bir tərifə malik ola bilmir. Əks təqdirdə bu, insana pul problemini birdəfəlik həll etməyə imkan verərdi. O, birölçülü determinasiyalara sığmır, çünki özündə «bütün rəngarəngliyi ilə birlikdə insan üçün açıq olan bütün dünyanı (həmçinin dünyadakı insanın özünü də) – maddi və mənəvi, yəni insan və onun yaşayış mühiti, eyni zamanda, insan tərəfindən həyata keçirilən və qəbul olunan insan dünya haqqında informasiya, insan həyatını təmin edən, ona himayədarlıq edən, onu dəstəkləyən və ona xidmət edən hər şeyi əks etdirir»[1]. İlkin dünyagörüşü oriyentasiyasının formalaşdırdığı bütün təməl insan dəyərləri sərvətə məxsusdur, bu dəyərlər arasında sadə insan münasibətlərinə: ailəyə, dostluğa, yoldaşlığa, rolsuz, rəqabətsiz ünsiyyət formalarına, həmçinin, «utilitarizm çılmaq hesab sərhədlərindən kənara çıxan əxlaq və hiss normalarına»[2] hörmətlə münasibət göstərilməsi mühüm əhəmiyyətə malikdir. Sərvət – əmək, bilik, fəaliyyət imkanı, öz intellektual və yaradıcı potensiallarını reallaşdırmaq qabiliyyətidir; onun varlığını insani varlıq kimi hiss olunmasıdır ki, bu da birmənalı olmaması, etibarsızlığı, bivalentliyi, ekzistensial gərginliyi həm yaratmağa, həm də dağıtmağa istiqamətliliyi ilə birlikdə insan təbiətinin əhəmiyyətliliyini və mühümlüyünü hiss etməyi nəzərdə tutur.

> *«Maddi əmək sahəsində insan münasibətlərinin əxlaqi münasibətlərə çevrilməsinin başlıca şərti: insanın təsərrüfat fəaliyyətinin müstəqil məqsədi kimi qəbul olunmamalıdır; istehsal istehsalçıların insan ləyaqəti hesabına həyata keçirilməməli və onlardan heç biri yalnız istehsal aləti kimi çıxış etməməlidir».*
>
> V S. Solovyev

Sərvət mənimsəmək və istehlak etmək üçün olan, insan tərəfindən istehsal və məhv edilən, bəzən iqtisadiyyatda əmtəə xarakteri alan nemətlər

aiddir; «ona təkcə mövcud olmağa yox, həm də müxtəlif cür yaşamağa (başqalarından daha yaxşı, başqaları kimi və heç də başqalarından pis olmayan yaşayış) imkan verən insan varlığı faktorudur»[3]. Sonuncu, bütün sosial-mədəni varlıq tarixində insan həyatının bütün ehtiras və sirlərini yaradan stimuldur. Sərvət insan həyatının məqsədi kimi çıxış edir, çünki hətta adi həyat məkanında belə insan hər zaman «zəngin və sağlam» olmağı arzu edir. Nəticə etibarilə, sərvət insan həyatının əsas məqsədi kimi çıxış edir. Bununla yanaşı, o, nemətlərin istehsalı prosesinin vasitəsi kimi özünü büruzə verir ki, bunların arasında da ən universalı puldur.

Sərvət – mülkiyyətin ayrılmaz obyektidir. Sərvət anlayışında insanın sosial qiymətləndirmələrdə öz əhəmiyyətliliyinə nail olması üzrə bütün fəaliyyəti «birləşir». Zəngin olmaq – təkcə, həyati uğur və qürur predmeti olan yüksək istehlak səviyyəsinə çatmaq yox, həm də özünü reallaşdırmaq imkanı, öz gücünə inam deməkdir. Sərvət hər zaman ağılla, «*həyat sənəti*» bacarığı (*M.Monten*), predmetləri, əmtəələri, sadəcə olaraq, əvəz etməyən, həm də öz-özünə «sərvət ifadəsi, onun fenomeni» (*Y.M.Osipov*) kimi çıxış edən pulla assosiasiya təşkil edir. «Zəngin» mövqeyinə nail olma sayəsində insan hər zaman xüsusi mövqelər tutmuşdur. O, «Yupiterə rəva bilinən, öküzə icazə verilmir» prinsipinə riayət edərək, artıq «ümumi qəbul olunmuş norma və qaydaların sərhədlərindən «çıxa» bilərdi». Zəngin insan ictimai və siyasi həyatın artıq onu təmin etməyən bu və ya digər tələblərindən yüksəkdə durur. Bundan başqa, o özü – sərvətə malik olan və çoxlu pulu olan insan kimi, bu qaydaları özü təyin edir. Yəqin ki, zənginliyə qarşı buna görə xüsusi münasibət mövcuddur; əgər xüsusilə böyük pulları olan yeni meydana çıxmış insanda mənəviyyatla əlaqələr yoxdursa, onda bu, nəzərdə tutulduğu kimi, müəyyən sosial və mədəni rahatsızlıqla müşayiət olunur.

Adi şüurda belə bir inam uğurun, layiqli və xoşbəxt həyat üzrə ümidlərin reallaşdırılmasının açarı zənginlikdədir. İnsan nə qədər zəngindirsə, o, bir o qədər çox pula malikdir. Zənginliklə həm illüziyalar, həm də təəssüflər əlaqədardır. O, təkcə müəyyən sosial və iqtisadi vəziyyətin şərti yox, həm də ən gizlin (məxfi) olana – hakimiyyətə doğru ən etibarlı yoldur. Dünya ədəbiyyatı və incəsənətinin ən dramatik sujetləri zənginlik mövzusu üzərində qurulmuşdur. Zaman ötdükcə qarşılıqlı təsirdən, təbiətin məhv olunmasına çevrilmiş təbiətin ram edilməsi də son nəticədə sərvətə (mülkiyyət kimi, keyfiyyət varlığının «fundamenti», ən yaxşı həyatı özülü, onun müxtəlif nemətlərlə bolluğu kimi) nail olmaq məqsədilə həyata keçirilir.

Sərvət – *subyektivləşdirilmiş fenomendir* (mənsubiyyət subyekti olmadan, o mənasını itirir), buna görə də təkcə nəzəri və tətbiqi iqtisadi elmə mənsub deyildir, onların fundamental kateqoriyasıdır. Sərvət – insanın (qrupun, ölkənin, millətin) elə «nəzəriyyəsidir» ki, onun məqsəd oriyentasiyaları ilə müəyyən olunur. Buna görə də, sərvət – təkcə *münasibət yox, həyat məqsədləri, insanın planları üzrə münasibətlərin nəticəsidir*. O – keyfiyyətdir, onun kəmiyyət tərəfi isə puldur. Birlikdə onlar, tarixin şahidlik etdiyi kimi, sosial-mədəni varlığın inkişafı insan həyatının, xüsusilə iqtisadi, müvafiq olaraq da istehlakçı, fərdiləşdirilmiş, sivilizasiyalı cəmiyyətdə məqsədini müəyyən edən bütövlüyü formalaşdırırlar. İqtisadiyyatın xarakterik xüsusiyyətləri sərvətlərin mübadiləsi, onların alqı-satqısı, ticarət, əmtəə, maliyyə və pul müqavilələri vasitəsilə sərvətin sahibinin dəyişdirilməsidir[4].

Sərvət insanlar arasında mülkiyyətin mümkün qədər daha çox mənimsənilməsi və ələ keçirilməsi uğrunda yarışın və mübarizənin əsas şərti kimi çıxış edir. Sonuncu, xüsusiləşməni və buradan çıxan azadlığı nəzərdə tutur. Buna görə də, sərvət sosiumda mövcud olan ziddiyyətlərin və ixtilafların obyekti və ya amili kimi çıxış edir. Ancaq onlar son nəticədə sərvətə nail olunması ilə şəxsiyyətin identifikasiyasının dəyərini müəyyən edir. «Şəxsiyyət dünyadan kənarda və «başqalarından» təcrid olunmuş şəkildə yox, şəxssiz və məsuliyyətsiz dünya, həyatın söndüyü, əyləncənin hökmranlıq etdiyi, ideologiya və söhbətlər balının hökm sürdüyü dönüklük dünyası ilə mübarizədə özünü təsdiq edir»[5]. Nəzərə almaq lazımdır ki, sərvət həm layiqli həyatın şərti, həm də ədalətsiz və düzgün olmayan həyatın bəhanəsi, həm fiziki və əxlaqi sağlamlıq, həm də qeyri-sağlamlıq şərti kimi çıxış edir. Bu, bir sıra müqayisəli münasibətlərdən asılıdır, çünki sərvətin özü əhəmiyyətlilik və ya dəyərlilik kimi, «sosial-müqayisəli fenomendir»[6]. Sərvətlə yaranmış oriyentasiyaların müxtəlifliyi, askezlərdən tutmuş, bütpərəstliyə və fetişləşdirməyə qədər bütün pula qarşı münasibətlərin spesifikasını şərtləndirmişdir.

## 2. SƏRVƏT VƏ NEMƏT: MƏNANIN FORMALAŞMASI

Təsərrüfat məsələlərinin reallaşdırılması göstəricisi kimi, sərvət hər zaman çıxış etmişdir. Buna görə də, onda həyatın şərtləri və məqsədləri, fərdin sosial, mənəvi və psixoloji vəziyyəti haqqında təsəvvürlər cəmlənmişdir. Artıq fəlsəfənin ortaya çıxması anından sərvət onun təhlili və düşünülməsi obyektinə çevrilir. İntellektual mədəniyyətin formalaşması sərvətin toplanması ilə birlikdə baş vermişdir. Çünki bölüşdürmə problemi cəmiy-

yətin stabil fəaliyyət göstərməsi üçün dərk olunması lazımi məsələlər çoxluğunu (*əmək, ədalətlilik, nemət, xoşbəxtlik, azadlıq* və s.) yaradırdı. *Q.Zimmel* xüsusi olaraq belə hesab edirdi ki, intellektin inkişafı sərvətin və pul təsərrüfatının inkişafı ilə paralel gedir[7].

Sərvət – zəruriliyi və cəlbediciliyi cəhətdən diqqətin ən geniş yayılmış predmetidir. Qədim yunan müdriklərindən biri olan *Biant* belə hesab edirdi: «Güc insana təbiət tərəfindən, vətənin xeyrinə danışmaq bacarığı – ürək və ağıl tərəfindən verilir, sərvət isə – çox halda, sadəcə olaraq, təsadüfən yaranır»[8], çünki həm layiqli, həm də layiq olmayan insan zəngin ola bilər. Nəticə etibarilə, o, həyatının əsas dəyərlərinə məxsus deyil. Buna baxmayaraq, insan üçün *ən xoş məşğuliyyət* – sərvətə nail olunması səylərini reallaşdıran asan qazanc və puldur.

İntellektual paradoksun ustası, əxlaqi əsasların qoruyucusu, himayəçisi və onlar uğrunda mübarizə aparan müdrik *Sokrat* asudə vaxtı ən dəyərli sərvət hesab edirdi. Nemət yalnız bilikdir. Sərvət isə əsil-nəcabət (ad-san) kimi, heç bir şərəf gətirmir, təkcə pislikdən başqa. *Sokrat* üçün əsas yerdə insan ləyaqəti dururdu. *Laertli Diogenin* bildirdiyinə görə, bir dəfə filosof öz evinə zəngin qonaqlar çağırır. Lakin onun arvadı *Ksantina* öz yoxsul naharına görə utanırdı. «Qorxma – *Sokrat* dedi, - əgər onlar alicənab insanlardırsa, onda razı qalacaqlar, əgər boş adamlardırsa, bizim onlarla işimiz olmaz». Onun dostu *Esxip* deyəndə ki, «Mən kasıbam, mənim heç bir şeyim yoxdur, ona görə də mənim özümü al», – *Sokrat* ucadan dedi: «Məgər sən başa düşmürsən ki, bundan dəyərli hədiyyə ola bilməz!»[9]. Sərvətə münasibətdə birincilik mövqeyində duran əxlaqlı xeyirxahlıqlara yalnız *ağıla (dərrakəyə), ədalətliliyə, cürətliliyə və müstəqilliyə* riayət etməklə nail olunmur.

> «*Elə bir fayda yoxdur ki, başqaları üçün zərər yaratmasın. Tacir gənclərin bədxərcliyinə, əkinçi çörəyin qiymətinin yüksək olmasına görə, inşaatçı – binaların çökməsi və dağılması hesabına; məhkəmə işçiləri – insanlar arasındakı mübahisə və iddialar sayəsində qazanırlar; ruhanilər öz fəaliyyətlərini bizim ölməyimizə və günahlarımıza borcludurlar. Hər birimiz öz daxilimizi yaxşıca araşdırsaq, görərik ki, ən gizli arzularımız və ümidlərimiz, əsas etibarilə, hər hansı başqa bir adam hesabına ortaya çıxır və təmin olunur».*
>
> M. Monten

*Sokrat* ali məqsədlərə nail olunması kimi, ağıla müraciət edir, çünki davranış intellektlə müəyyən olunur. *T.Qompers* yazır: «Sənətkarlıqda və istənilən başqa fəaliyyətdə olduğu kimi, işin keyfiyyəti əqli baxış dairəsinin genişlənməsi ilə birlikdə yüksəlir. Belə ki, *Sokrat* belə tərəqqini o halda gözləyir ki, şəxsi və ictimai həyat aydın şəkildə işıqlanır, onlar ali məqsədlərə nail olunması vasitələri sistemini təşkil edən dəqiq davranış qaydalarına tabe olurlar»[10]. Buna görə də, bütün baş verən səhvlər ağlın kifayət qədər inkişaf etməməsi nəticəsində ortaya çıxır. Ancaq istisnasız olaraq bütün insanlar onlar üçün yalnız zənginliklə assosiasiya təşkil edən yaxşını istəyirlər. Bu işdə onlar bir-birlərindən fərqlənmirlər, çünki hamının məqsədi ümumidir, vasitələr isə müxtəlifdir.

Nəticə etibarilə, ümumi məqsədə – zənginliyə nail olunması əsas vasitənin – ağlın və ya dərrakənin inkişaf səviyyəsi ilə müəyyən edilir. Bu isə nemətlərə verilən fərqli qiymətlərin səbəbi kimi çıxış edir ki, bu da çox vaxt əks oriyentasiyalar yaradır. İdrak və davranış arasındakı eynilik məsələsi buradan çıxır və bu baxımdan *Sokrat* belə bir yekun çıxarır ki, «mənəvi keyfiyyət ümumidir və yeganə olaraq müdriklikdən ibarətdir. Həyatın müxtəlif sahələrində tətbiqi xeyirxahlığı müxtəlif edir: həqiqətdə isə o, vahiddir, çünki ağıl və müdrikliklə eynidir. Müdriklik kimi, xeyirxahlığı da öyrənmək olar, belə mühüm bilik heç zaman yox olmadığından, onu itirmək qeyri-mümkündür»[11]. Sərvət isə sərf olunan bir şeydir, o, özündən sonra yalnız təəssüf hissi qoyur. Ümumiyyətlə, sərvət lazımdırmı, axı o, elə sayda cisimlərdən ibarətdir ki, onlar azad insana lazım deyil? Bu planda belə rəvayət qeyd edək: *Sokrat* dar döngədə, xoşniyyətli və xoşgörümlü gənc olan *Ksenefontla* rastlaşanda öz əsası ilə onun yolunu kəsib haradan yeməli bir şey almaq olduğunu soruşur? O, cavab verir ki, dükandan; lakin «Harada yaxşı və mülayim insan olmaq olar?» sualına gənc oğlan cavab tapa bilmir. Bu zaman *Sokrat* onun bu yeri öyrənməsi üçün onu izləməsini söyləyir. O vaxtdan sonra *Ksenefont Sokratın* şagirdi olmuş, onun sözlərini bizə çatdırmış və birinci olaraq filosofların tarixini yazmışdır[12]. *Ksenefontun* bildiyi şey, yemək və əşyalar, sərvət və maddi-cismani varlığın başqa predmetlərindən yüz dəfə artıq mühüm və əhəmiyyətli idi.

*Sokratın* şagirdi olan *Aristipp* öz düşüncələrində birinci yerə müxtəlif xurafat və yanılmaların yad olduğu müdrikin idealını qoyur. O, belə hesab edir ki, sərvət müstəqil dəyərə malik deyil, O, müvəqqəti olaraq zövq almaq imkanı verir. *Aristippi* insanın həyatdakı quruluşu daha çox maraqlan-

dırırdı. Belə bir fakt diqqətəlayiqdir ki, o, sərvətin «zövq» verməsinə şübhə ilə yanaşaraq *Sokratın* şagirdlərindən birincisi olmuşdur o, müdavimlərdən haqq alaraq onu öz müəlliminə göndərmişdi. Bir dəfə o, müəlliminə 20 min göndərir, amma pullar geri qayıdır və *Sokrat* deyir ki, daxili səs onu həmin pulları qəbul etməyə qoymur. Bu müdrikin «ürəyincə» deyildi və onun həyat dəyərlərini başa düşməsi ilə ziddiyyət təşkil edirdi[13]. *Laertli Diogen Aristippin* öz şəraitinə uyğun olaraq istənilən yerə, zamana və ya insana «tətbiq olunmaq» bacarığını qeyd edir. Sərvət və pulun özü üçün «əlverişliliyi» buradan doğur. *Dionisiyanın*, «niyə zənginlər filosofların qapılarına yox, filosoflar zənginlərin qapılarına gedir?» sualına o, belə cavab verir: «Çünki bir qisim insanlar onlara nə lazım olduğunu bilirlər, başqa bir qisim insanlar isə bunu bilmirlər»[14].

Zənginlik – Tanrının yanındakı ziyafətlərdə mövcud olan dəbdəbələrə nail olunması üsuludur. *Amma bununla yanaşı, cahil olmaqdansa, yoxsul olmaq daha yaxşıdır: əgər ikinci puldan məhrumdursa, birinci insan obrazından xalidir*. Zənginlik isə bu obrazı saxlamağa kömək edir, çünki pulun sayəsində özünə çoxlu cismani və mənəvi zövqlər vermək olar, o, insanlarla davranış və ünsiyyət bacarıqlarının inkişafına yol açır. Bir dəfə *Aristipp* tərəvəz təmizləyən *Diogenin* yanından keçərkən *Diogen* ona gülüb deyir: «Əgər sən bununla qidalana bilsəydin, tiranların sarayında işləmək məcburiyyətində qalmazdın». *Aristipp* isə cavab verir: «Əgər sən insanlarla yaxşı rəftar edə bilsəydin, özün üçün tərəvəz təmizləmək məcburiyyətində qallmazdın»[15]. Nəticə etibarilə, zənginlik – son məqsədə (ağıldan – xoşbəxtliyə; və ağılsızlıqdan - kədərə) gətirib çıxaran daha yüksək şeylərdən: bilik, müdriklik, bacarıq, ünsiyyət, qabiliyyət və s.-dən törəmədir. Yaxşılıq – ağıl və ədalətlilikdir, pislik isə onların əksidir; ortalıqda – zövq və ağrı durur. Lakin bütün bunlar, qarşısına xoşməramlı məqsədlər qoyan müdrik üçün əlçatandır, çünki *müdriklik və zənginlik qarşılıqlı əlaqəlidir*. Fəlsəfi antropologiya dilində desək, bu eyniyyət insan tərəfindən, həm öz mənəvi vəziyyətini, normallıq, tarazlıq və həyati dərinlik üzrə qayğılarının, həm də oriyentasiya və mənaların üzviliyinin və tamlığının bərpa edilməsi[16], insanın özü ilə, başqa insanla və sosiumla harmoniya səviyyəsinə nail olmağa imkan verilməsidir.

*Platonun* nemət haqqında düşüncələri qanunauyğun olaraq zənginlik probleminə gətirib çıxarır. Əgər son məqsəd Tanrıya oxşamaqdırsa, onda xeyirxahlıq insanı xoşbəxtliyə istiqamətləndirir. Yaxşılıq aşağıdakı forma-

larda ola bilər: *mənəvi* – ədalətlilik, ağıl, mərdlik, sağlam fikirlilik və s.; *cismani* – gözəllik, yaxşı bədən quruluşu, sağlamlıq, güc; *«kənar»* – dostlar, vətənin xoşbəxtliyi, zənginlik. İnsanın xeyirxahlıq sayəsində nail olduğu xoşbəxtlik ağıllı arzulardan, müsbət hisslərdən və sağlamlıqdan, uğurdan, təmiz şöhrətdən və zənginlikdən ibarətdir[17]. «Georgi» dialoqunda *Platon Sokratın* sözləri ilə, dialoqda işbazın iddia etdiyi kimi, sərvətin nemətlərdən ən böyüyü olmasına şübhə ilə yanaşır. Ona qarşı şair, həkim, müəllim və mütəfəkkir durur. Onların fikrincə, sərvət yalnız o zaman xoşbəxtlik gətirir ki, ona sahib olan insan öz dostlarına dövlət mükəlləfiyyətlərini namusla və ürək açıqlığı ilə yerinə yetirməyə kömək etsin[18]. Nəticə etibarilə, *Platonda* zənginlik, ilk növbədə, başqalarının xeyrinə yaxşı işlərin görülməsi imkanı ilə bağlıdır, ikincisi, o, *Platonun* dediyi kimi, «kənar» dəyərlərə aiddir.

Qədim yunan mütəfəkkirləri üçün mənəvi-əxlaqi dəyərlərin ön plana çəkilməsi, maddi dəyərlərə isə köməkçi rolun verilməsi ümumi tendensiyadır. *Biant* zənginlikdə istənilən işin hərəkətverici qüvvəsini görməsinə baxmayaraq, hesab edirdi ki, sərvətə sahib olan insan özünə yox, ona məxsusdur. Qarşısına sərvətə nail olmaq məqsədini qoymuş insan, onun elə qayğısına qalır ki, sanki sərvət onun özünündür, amma ondan elə istifadə edir ki, elə bil o, başqasınındır[19].

Sərvətin sarkazm formasında xüsusilə parlaq tənqidi *Sinoplu Dioqendə* tərəfindən irəli sürülmüşdür. O, deyirdi ki, o, hökmdarları, həkimləri və ya filosofları görəndə ona elə gəlir ki, sanki insan canlı orqanizmlərdən ən ağıllısıdır. Lakin o, dilmancları (mütərcimləri), kahinləri (gələcəkdən xəbər verənləri) və ya onlara inanan insanları, habelə «*şöhrət və sərvətlə lovğalanan* gördükdə, ona elə gəlir ki, insandan axmaq heç nə ola bilməz»[20].

*Zenon* nemət haqqında düşünərək onu fayda gətirən bir şey hesab edir. O, stoisizmin banisi kimi, yaxşı dedikdə xeyirxahlıq – ağıl, ədalət,

> *««Yoxsulluq» dedikdə, mövcudluq yox, mövcud olmamaq və ya qədimdə deyildiyi kimi, yoxluq, var olan şey yox, olmayan şey nəzərdə tutulur. Çoxlu sayda boş səhəngdən heç bir şey doldura bilməzsən. Sərvət çoxlu sayda çatışmazlıqlardan yox, çoxlu sayda şeylərdən təşkil olunmuşdur. Sən yoxsulluğu düzgün başa düşmürsən. Yoxsul olmaq az şeyə sahib olmaq yox, heç bir şeyə malik olmamaqdır. İnsan bu ada, malik olduğu şeylərə görə yox, sahib olmadığı şeylərə görə borcludur».*
>
> Atipatr

mərdlik, sağlam fikirlilik və s., pis dedikdə isə bu dediklərinə əks olanları başa düşür. Lakin nə isə ortalıq olan, nə bu, nə də digəri olmayan bir şey də var ki, bunlar nə fayda, nə də zərər gətirməyən şeylərdir. Məsələn, həyat, sağlamlıq, zövq, gözəllik, güc, sərvət, şöhrət, ad-san (əsil-nəcabət), həmçinin, bunların əksləri: ölüm, xəstəlik, əzab, eybəcərlik, gücsüzlük, kasıblıq, şöhrətsizlik, əsilsizlik və buna oxşarlar. İstiyə soyutmaq yox, isitmək xas olduğu kimi, yaxşılıq da zərər yox, fayda gətirir; *lakin sərvət və sağlamlıq nə fayda, nə də zərər gətirmir; sanki sərvət və sağlamlıq yaxşılıq deyildir*[21]. Bundan başqa, zənginlik və əsil-nəcabət biri digəri üçün tərcih-edilən predmetlərdir, yəni onlar təkbaşına heç bir mənaya malik deyildir. Sərvətə qarşı həqiqi stoist (səbrli) münasibət onun maddi təbiətinə xasdır. Məqsəd, yəni sərvət vasitəsilə həllolunan təsərrüfat stimulu problemi antik mütəfəkkirləri az maraqlandırır. *Burada ilkin dəyərlər – həyati mənalı, mənəvi və hissidir*. Aydındır ki, o dövrün iqtisadi sisteminin qeyri-təkmilliyini onlar insanın təkmilləşdirilməsi hesabına aradan qaldırmağa (ləğv etməyə) çalışırdılar. *Aristotelin* sərvət haqqında təsəvvürləri bilavasitə pul nəzəriyyəsinə gedib çıxır. Onun iqtisadi baxışlarında sərvət etik və siyasi təlimləri ilə qarşılıqlı əlaqədardır. Sərvət – axtarılmayan yaxşılıqdır, çünki o öz faydalılığı cəhətindən nə isə başqa bir şey – məmnunluq, ehtiram, zövq, müxtəlif hərəkətlərin həyata keçirilməsi, dövlətə təsir göstərilməsi və s. üçün mövcuddur. Ancaq sərvət istifadə edilən cisimdir və ondan ən yaxşı istifadə edən xeyirxah insandır[22]. Sərvət özünə qarşı mötədil münasibət tələb edir, o, fəaliyyətlə, xüsusilə, əgər hökümdarın hakimiyyəti ilə bağlıdırsa, vicdanla əlaqədardır. Ümumiyyətlə *Aristotel* öncəki əxlaqi-aksioloji ənənələri izləyir. O, *Platonun* tələbəsidir və belə bir sual vermişdir: «Sağlam düşüncəli insanlardan kim ən müdrik insanların bizim üçün həm də ən zəngin insanlar olduğuna inanacaq? Əgər sərvətdən danışmaq lazımdırsa, onda hansı sərvət mənbəyinin gözəl, hansının isə utandırıcı olması haqqında, həmçinin, sərvətə sahib olmanın özü haqqında, yəni ona sahib olmanın yaxşılıq, yoxsa pislik olması barəsində danışmaq yaxşı olardı»[23]. Bir çoxları onunla razıdırlar ki, bir sıra insanlar üçün sərvət – pislikdir. Amma, əgər sərvət səadət olsa idi, o, heç kimə pis görünə bilməzdi. Hətta əgər zəngin olmaq çoxlu nemətə, əmlaka sahib olmağı ifadə edirsə, onda bunun nə mal olduğuna baxmaq lazımdır.

Sərvətə sahibolma – kifayət qədər nisbi anlayışlardır. *Platon* sərvətin vəziyyətinin nisbiliyini göstərir. Məsələn, karfogenlərdə dövriyyədə bir

qəpik vardı: bir parça dəriyə bükülmüş bir şey. Bunun nə olduğunu, bu şeyi düzəldənlərdən başqa heç kəs bilmirdi; onu istifadəyə buraxırdılar və belə bağlamalardan daha çox əldə edən şəxs ən çox pulu olan, yəni ən zəngin adam hesab olunurdu. *Platon* qeyd edir ki, Yunanıstanda belə bağlamaları əldə etmək insanı yalnız dağdan daş yığmaq qədər zəngin edə bilərdi. Lakedomonda dövriyyədə müəyyən çəkisi olan dəmir qəpik vardı. Kimdə bu dəmirdən çox olsa idi, o, ən zəngin insan hesab olunurdu. Baxmayaraq ki, bu qəpiklər başqa heç nəyə yaramırdılar, efiopiyada isə bu məqsədlə sahibkar kişinin heç nəyinə lazım olmayan müxtəlif daşlardan istifadə olunur[24]. Nəticə etibarilə, insanın sahib olduğu heç də bütün şeyləri sərvət hesab etmək olmaz. Yəni, şeyə sahibolma problemi onun faydalılığı məsələsi ilə məhdudlaşır, sərvət, pul isə öz-özlüyündə nisbi xarakterə malikdir, çünki o, yerdən, əxlaqdan, adətlərdən, cəmiyyətin xarakterindən və insandan asılıdır.

*Aristotel Platonun* opponenti kimi konkretliyə çalışır, buna görə də onu sərvətin münasibət kimi başa düşülməsi fikri qane etmir. Filosof sərvətin müəyyən edilməsi üçün iqtisadi qarşılıqlı əlaqələrin nəzəriyyəçisi kimi çıxış edərək mübadilə, qiymət, pul, dəyər, bölüşdürmə və s. kimi anlayışları aydınlaşdırır. O, əsas diqqəti mübadilənin nəticəsi kimi çıxış edən pula yönəldir. Buna görə də o, təbii olaraq, mübadilə ticarəti ilə şərtləşən zərurətlə bağlı olaraq ortaya çıxır. Pulun inkişafı üç mərhələdən keçir: predmet puldan (külçə vasitəsilə) qəpiyə; əvvəlcə dəyər ölçüsü kimi, sonra isə qəpik öz istehlak dəyərini tamamilə itirdikdə, dəyər simvolu və ya nişanına çevrilərək yalnız mübadilə dəyərini saxladıqda, mübadilə vasitəsi kimi çıxış etmişdir. Dəyər üzrə sərvətin ölçüsünü müəyyən edirik. Lakin burada *Aristotel*, onun sələfələri kimi, əxlaqa müraciət edir. Xüsusilə o, ədalətliliyin iki növü haqqında danışır: *bölüşdürücü və tarazlaşdırıcı.* Birinci növ ehtiramın və ya pulun, yaxud, ümumiyyətlə, hər şeyin müəyyən edilməsi zamanı təzahür edir ki, bu da mübadilənin predmetini təşkil edir. Amma tarazlaşdırma iki hissəyə bölünür: bir qisim ictimai münasibətlər ixtiyari, digərləri qeyri-ixtiyaridir; ixtiyari olanlara alış, satış, borcalma, əmanət qoyma, zaminlik və muzdla ödəniş aiddir. Qeyri-ixtiyari olanlar oğurluq, zina, zəhərin hazırlanması, aradüzəltmə, xidmətçiləri tovlamaq, qətl, yalandan şahidliketmə, öldürmə, qarət və s[25]. Ədalətliliyin belə başa düşülməsi filosofun sərvətə münasibətinin birmənalı olmamasından xəbər verir, yəni onun əldə edilməsi üsulu mühüm əhəmiyyət kəsb edir: əxlaqi –

ixtiyari, açıq, ictimai və əksinə – gizlin, nəticədə əxlaqsızlığa gətirib çıxaran – ədalətsizlik. Məsələn, alqı və satqı ixtiyari və azad mübadilə növüdür. O, ədalətliliyi tarazlaşdırır, çünki «başqa bərabər olanla əvəzlənmə» baş verir, yəni burada bərabərhüquqlu mübadilə mövcuddur. Predmetlərin müqayisəsi, tutuşdurulması və uyğunluğu olmadan mübadilənin mümkün olmadığı kimi, dəyərliləri tarazlaşdırmadan da o, qeyri-mümkündür. Nəticə etibarilə, bərabərlik olmadan mübadilə ola bilməz, barəbərlik isə ortaq ölçülük (*Pifaqorun* rəqəmli dünya modeli) olmadan mümkün deyil. Aristoteldə perdmetlərin ortaq ölçülülüyünün meyarı puldur. Elə bunun üçün də «vasitəçi» kimi qəpik buraxılmışdı. Çünki mübadilə olunan hər şey müqayisə oluna bilən olmalıdır, pul isə «ölçür və müəyyən edir», ağıllı istehlak üçün sərvətin ölçüsünü və onun miqdarını təyin edir.

Filosof üçün zənginlik problemi başdan-ayağa etikləşdirilmişdir və onun «bölüşdürücü» ədalətliliklə (ehtiram, pul, maddi imtiyazlar) əlaqəsi buradan meydana çıxır. Bu ədalət prinsipi – «qeyri-bərabər olanın qeyri-bərabərliyidir», çünki bu bölüşdürmə müxtəlif, eyni olmayan sosial qruplar arasında baş verir ki, bu da kasıb və varlılar bölgüsünü şərtləndirir. Buna görə də *Aristotel* ləyaqətə görə əldə edilmiş şeyi ədalətli hesab edir: ədalət – bərabərlikdir, amma hamı üçün yox, *bərabər olanlar* üçün. Bölüşdürücü ədalət layəqətə istinad etməlidir, ancaq ləyaqətin meyarı müxtəlifdir: demokratiya vətəndaşları onu azadlıqda, aristokratiya – xeyirxahlıqda, oliqarxiya – sərvətdə görürlər. Beləliklə, sərvət və onun ifadəsi olan pul, insanın sosial statusunu müəyyən edir və ən yüksək ləyaqət – azadlıq, insanı alçaldan əşyavi sahibolma ilə «qovuşmur».

*Aristotelin* etik mövqeyi sərvətə ticarət-sələmçilik kapitalı hesabına, yəni mənfəət gətirən pul vasitəsilə nail olunması üzrə fəaliyyətlə razılaşmağa imkan vermir. Natural təsərrüfatın tərəfdarı kimi o, pul tədavülünü məqsəd yox, vasitə hesab edirdi. *Aristotel* qeyd edir ki, mübadilə ticarəti qaçılmaz olaraq sərvət, var-dövlət və pul toplamaq sənətinə gətirib çıxarmışdır. *Xremastikanın* – sərvət qazanmaq, pul toplamaq sənətinin mütəfəkkirin *iqtisadiyyat* adlandırdığı anlayışla qarşı-qarşıya qoyulması buradan meydana çıxır. Aristotel bildirir ki, pulun ixtirası ilə mübadilə ticarəti inkişaf edib əmtəə ticarətinə çevrildi, bu sonuncu isə onun ilkin tendensiyası ilə ziddiyyətdə *xremastikaya – pul qazanmaq sənətinə* çevrildi. O hesab edir ki, əsil sərvət həyat üçün zəruri, dövlət və ailə ünsiyyəti üçün faydalı olan vasitələr məcmudan ibarətdir[26]. Belə sərvət – məqsəd yox, vasitədir. Çünki

insan öz enerjisini təkcə sərvətə sərf edərək sonsuz əldə etmələrlə məşğul ola bilməz. Əsil sərvət istehlak dəyərlərindən ibarətdir; yaxşı üçün zəruri olan mülkiyyətin miqdarı həddə malikdir. Burada *ölçü prinsipi* fəaliyyət göstərir. Lakin xremastika sənəti sərvətə və mülkiyyətə heç bir məhdudiyyət qoymur, çünki burada, *E.Munenin* qeyd etdiyi kimi, «oyuna pul daxil olur. O, insanı insaniyyətdən məhrum edir və onu avtomatik olaraq hakimiyyəti, vətəni, ailələri, məhəbbəti öz əlinə alan, arzuları söndürən, etirazları boğan qüvvədə olan anonim qüvvələrə tabe edir»[27].

> *«Əgər biz hamımız yaxınımızı öz xeyirimiz üçün qarət etmək və onun marağını pozmaq həvəsi ilə əhatə olunsaq, onda bu, qaçılmaz olaraq, yüksək dərəcədə təbiətlə uyğun olan insan cəmiyyətinin tənəzzüllünə gətirib çıxaracaqdır. Çünki hər kəsə öz həyatı üçün lazım olan şeyləri başqası üçün yox, təbiət tərəfindən əks təsirlə qarşılaşmayaraq məhz özü üçün əldə etmək imkanı verilmişdir; lakin təbiət bir şeyə dözmür: bizim başqa insanları qarət edərək öz vəsaitlərimizi, sərvətimizi və qüdrətimizi artırmağımıza».*
>
> Mark Tuli Siseron

Əmtəə ticarəti öz təbiəti etibarilə xremastikaya məxsus deyildir, «Burada mübadilə yalnız özləri, yəni alıcılar və satıcılar üçün zəruri olan predmetlərə aid edilir»[27]. Klassik siyasi iqisad dili ilə desək, *Aristotel* P-Ə-P düsturunu yox, Ə-P-Ə düsturunu qəbul edir. Yalnız birinci proses həyata keçirilə biləndir, sonludur, həddə malikdir, etelixaldır, ikincisini isə «*pis sonsuzluq*» (*Q.Hegel*) kimi adlandırmaq olar. Sələmçilik – sərvətin əldə edilməsinin qeyri-əlverişli formasıdır, çünki onun «yolu» sosial ədalət prinsiplərinə uyğun gəlməlidir. Nəticə etibarilə, sərvət mümkün və zəruridir, lakin yaxşı həyatdan ibarət olan şey ona və mülkiyyətə malikolma ölçüsü olmalıdır. Buna baxmayaraq, *Solon* belə hesab edirdi ki, «insanlar üçün heç bir sərvət həddi qoyulmamışdır», ancaq insan fəaliyyətinin başqa sferalarında olduğu kimi, burada da bu hədd mövcuddur.

Sərvət – həyatı həyata keçirən iqtisadi və siyasi alətlər məcmusudur və istənilən maddi-əşyavi törəmə kimi, hədsiz deyildir. İnsan üçün əsas – ləyaqətli həyata nail olmaqdır. Belə düşünmək yanlış olardı ki, «asan pul qazanmaq sənətinin əsas predmeti, əsas etibarilə, puldur və onun əsas vəzifəsi mümkün qədər çoxlu pul əldə edilən mənbənin tədqiqindən ibarətdir»[29]. Buna görə də çox vaxt sərvət dedikdə, pul yaratmaq «bacarığı»,

sənəti kimi yaxşı həyat haqqında inam yaradan pul «artıqlığı» başa düşülür. Lakin bu həmişə belə deyildir, çünki bəzən pul insanlar üçün boş səs və kifayət qədər şərti əşya, mahiyyət etibarilə, heç nə kimi çıxış edir. Ona qarşılıqlı münasibət tətbiq olunan kimi, o, bütün ləyaqətini itirir və adi həyatda heç bir dəyərə malik olmur. Bu cür sərvət istənilən mənadan uzaqdır və «artıq» pula malik olan insan əfsanəvi Midas şahı kimi, ac ölümlə ölə bilər. Mülkiyyət və pul qazanmaq sənəti və sərvət insanın həyatı təsərrüfat fəaliyyətində onun fəaliyyət və bacarıqlarının müxtəlif növlərini təşkil etdiyini iddia edən mövqeyi düzgün hesab etmək lazımdır. Burada rasionalizmin, kapitalizmin formalaşmasında istinadgah kimi çıxış etmiş «əmək-pul» səbəb-nəticə əlaqəsinin qanunauyğunluğunu dərk etmək kimi əsası nəzərə almaq olur[30]. Hər şey sərvətin əldə edilməsi xarakterindən asılıdır: insanın təbiətinə uyğun gələn sərvət, məqsədi pul toplamaqdan yox, resurslardan ağılla istifadə olunmasından ibarət olan ev təsərrüfatı sahəsinə aid edilir, ona görə də o, həddə malikdir. Pul dövriyyələri ilə məşğuliyyət pulun miqdarının sonsuzluğa qədər artırılması arzusunu doğurur[31]. *Hər şey məqsəddən, həyata nemət kimi yox, ümumiyyətlə səy göstərilməsindən asılıdır*. Həyata həvəs hədsizdir, buna görə də bu «həvəsə» uyğun vasitələr – universal-özgəninkiləşdirilmiş mahiyyətə malik olan pul seçilir. Həvəs – artıq buddizm motividir. «Həvəsdən» yaxa qurtarmaq tələbi, məlum olduğu kimi, buddizmi dünya dininə çevirmişdir.

*Aristotel* hesab edir ki, pula vasitə kimi səy göstərilməsi hüdudsuzdur, çünki insan məqsədə səy göstərilməsində daimidir. Hətta nemətli həyata səy göstərən insanlar belə, onlara fiziki zövq verən şey axtarırlar. Lakin onların təsəvvürlərinə görə bunun həyata keçirilməsi üçün vasitələri mülkiyyət və pulun verdiyi üçün belə insanların bütün fəaliyyət istiqaməti dəyişdirir və onların gücü xeyirxahlıq yerinə, asan qazanca istiqamətlənir. Bu «əkstəbiətli təbiətdə» və insanın təyinatına uyğun gəlməyən «incəsənət növü» olan var-dövlət toplamaq sənəti möhkəmlənir.

*Aristotel* həyatın həyata keçirilməsinin mənəvi mahiyyətində insanın təbii-ilahi təyinatını görür. Lakin fiziki zövqə daha çox oriyentasiya edən insanlar artıq zövqlərin əldə edilməsi üçün vasitələr axtarmırlar. Əgər insan öz məqsədinə pul qazanmağın təbii sənəti vasitəsilə nail ola bilmirsə, onda o, bunu başqa yollarla əldə etməyə çalışır və bunun üçün təbiətin səsinə[32], yəni ilahi əqlin səsinə rəğmən öz qabiliyyətlərini işə salır. Bütün qabiliyyətlər pul qazanmağa yönəlir, sanki bu, əsas məqsəddir. Məqsədə nail ol-

maq üçün isə hər şeyi gözə almaq lazım gəlir («məqsəd vasitəyə haqq qazandırır»!). Buradan belə çıxır ki, mərdlik cəsurluqda, hərbi sənət – qələbədə, həkim sənəti – sağlamlıqdadır və s. hər şey pul qazanmağa çevrilir. Nəticə etibarilə, bütün iş həyatın məqsədini müəyyən edən dünyagörüşü oriyentasiyasındadır, lakin onun yanaşı vasitələr problemi ortaya çıxır ki, bunu da *Aristotel* mənəvi-əxaqi oriyentasiyanın vacibliyinin əsaslandırılmasının köməyilə həll etməyə cəhd edir. Burada *Aristotel* personalizm mövqeyini irəli sürür, bu mövqeyə görə «yüksək ölçüdə cisimlərə uyğunlaşmaq və deməli, onların quluna çevrilmək lazımdır»[33]. Beləliklə, hər şeydə ölçü. Qədim fəlsəfə belə bir nəticə çıxarır ki, yoxsulluq və ya zənginlik, istənilən zərurət kimi, öz həddən artıq ağılsızlıqları üzündən eyni şəkildə məhv olmağa məhkumdur, çünki insan ehtiraslarını ifadə edir. Tənzimlənmiş və harmonik dünya qanunları hər hansı mahiyyətlərin vahid məkan nöqtəsinə axmasını onların orada mərkəzləşməsini nəzərdə tutmur. Bu, antik dünyada üzərində çox qiymətləndirilən dünyanın bərabərhüquqlu şəkildə doldurulması sistemini pozur. Buna görə də sərvət və pul toplanmasına münasibətdə sosiumun «kəskin» ziddiyyətlərini harmoniyaya salmalı olan ölçü təyin etmək bu qədər mühümdür.

## 3. PUL – SƏRVƏTƏ QARŞI MARAQ STİMULUDUR

İntibah dövrü – providensial (ilahi qüvvədən törəyən) zəmanətlərdən məhrum olan əxlaqi idealların reallaşdırılması insanın işinə, dünyanın strukturunu dərk etmiş və dünyaya təsir göstərən insanın işinə çevrildiyi zamandır. Əxlaqi qanunlar (qaydalar) insan fəaliyyətinin istiqamətlərini müəyyən edən səbəblərin müəyyənləşdirilməsi ilə əlaqələndirilir. Təbiilik anlayışı öz köhnə mənası ilə yanaşı başqa bir məna da əldə edir: *təbiət qanunlarına uyğun olan şey təbiidir*. İnsanın tamamilə təbii olaraq sərvətə, mülkiyyətin, pulun və əmlakın artırılmasına həvəsli olması bununla əlaqədardır. Tamahkarlıq (acgözlük), simiclik, hədsizlik, inamsızlıq, xudbinlik və başqa anlayışların yerinə *maraq* anlayışı gəlir. *N.Makiavelli* bir şeyə qarşı çox dərin inam ifadə edirdi ki, maraq – insan fəaliyyətlərinin ən qüdrətli stimuludur. Onun təzahürləri müxtəlifdir, amma o, daha çox insanların öz əmlakını, öz mülkiyyətini saxlaması və sərvətə nail olunmasına səy göstərməsi ilə müəyyən olunur. «İnsanlar üçün onların atasının ölməsi əmlakın

itirilməsindən daha az diqqət tələb edən bir məsələdir»[34]. Yalnız şəxsi maraqların təmin olunmasından, qızıl, pul və sərvət əldə etdikdən sonra insan öz ləyaqətinin (şərəfinin) qayğısına qalmağa çalışır.

Esxataloji (dünyanın sonu) qorxularından azad olmuş renesans insanı, Tanrıdan qorxan (mömin) insandan acgöz, özünü sevən, xudbin və pula qarşı həris insana çevrilərək, bu həyatdakı bütün nemətlərin əldə edilməsinə ümumən səy göstərməyə başlayır. XV və XVI yüzilliklərin tarixinin göstərdiyi kimi, «pul Qərbi Avropanın hər yerində hakim mövqe tutmağa başladı». *Erazm* gileylənir - «Pecniae oboediunt omnia»; *Hans Saks* elan edir – «Pul yerdədir – yer Tanrınındır»; *Vimfelinq* «pulun padşahlığa başladığı» dövrü təəssüfə layiq hesab edir[35]. İnsanlar dəyişmişdir və onlar haqqında, ümumi olaraq, bunu söyləmək olar ki, onlar «nankor və müvəqqətidirlər, riyakarlığa (ikiüzlülüyə) və aldatmağa meyillidirlər, təhlükədən qorxurlar (hürkürlər) və asan qazanca həvəslidirlər»[36]. Sərvət – «həyat marağını» və insan fəallığını müəyyən edən *nemət və stimul deyildir*.

> *«Sağlam susama və xəstəlik susaması olur. Sağlam susama söndürülür, xəstə isə söndürülməz susuzluqdan əziyyət çəkir. Şan-şöhrət və şəhvətli zövqlər kimi sərvət arxasınca qaçanlarda da belə olur: onlar zəifləri soyur, günahsızlara əzab verir, eyibli (utanılacaq) şəhvətpərəstliklə məşğul olurlar. Lakin bununla onlar heç vaxt kifayətlənmirlər: onlara getdikcə daha çox var-dövlət və hakimiyyət lazım olur, onlar daha yeni zövqlər axtarırlar və bununla bərabər, sahib olduqları şeyləri itirməkdən qorxurlar. Paxıllıq, hirs, qısqanclıq hissi onları bürüyür və ələ keçirməyə çalışdıqları şeyə nail olmamış ölürlər. Belə insanlara paxıllıq etmək yox, onlara yazığı gəlmək və onlar kimi olmaqdan qorxmaq lazımdır».*
>
> Epiktet

*N.Makiavelli* hesab edirdi ki, cəmiyyət ehtirasların mübarizə meydanıdır və burada sosial həyat üçün, yeni əxlaq nöqteyi-nəzərindən qeyri-xeyirxah ehtiraslar, xaosun harmoniya üzərində üstünlük təşkil etdiyi kimi, üstünlük təşkil edir. Bu, onun mövcudluğuna enerji sərf olunmaması, zərərli ehtiraslara qarşı ictimai əxlaqın möhkəmləndirilməsinə istiqamətlənmiş insan iradələrinin durmaması şərtilə mümkündür. Bu, təsərrüfat fəallığının təzahürü demək idi. Buna baxmayaraq, *Makiavelli* birinci yerə ümummilli maraqları ifadə edən «ümumi xeyiri» qoyur, amma bununla yanaşı, varlılığı, zənginliyi dövlət

orqanizminin vahidliyinin saxlanılması şərti kimi irəli sürür. Bununla bərabər, maddi rifah, fəaliyyət obrazı zamanın xüsusiyyətlərinə cavab verən, daim güclüləri seçən şəxsiyyətin səy göstərməsi gücündən də asılıdır. Güc isə uğurla üst-üstə düşür ki, bunlar da birlikdə sərvəti əmələ gətirir və bu da marağın əsasını təşkil edir[37]. *Makiavelli* providensionalizmə zidd olaraq, əmindir ki, tarixin gedişatı hər zaman insan maraqları ilə istiqamətlənir. Bununla da sərvət və pul ictimai-əxlaqi reabilitasiya əldə edir.

İntibah, «xeyir işlər» məntiqini «həyatı fəda vermə» məntiqi ilə qarşılaşdıran İslahatla üst-üstə düşür[38]. Yeni iqtisadi həyat yeni insanlar əsrinə çevrilir. «XVI əsrin Volteri» *rotterdamlı Erazm* humanist və maarifçi kimi, çoxsimalı axmaqlıqda təzahür edən cəhaləti pisləyir. Sərvətə oriyentasiya axmaq (səthi) insanların qələbə çalmasına gətirib çıxarır. Bunun səbəbi ondadır ki, uğur (fortuna) çox da ağıllı olmayan, lakin cəsur olan və «Qoy nə olcaqsa, olsun» prinsipi üzrə fəaliyyət göstərən insanları sevir. Buna görə də, hər addımda yoxsulluqda, aclıqda yaşayan və hər yerdə yalnız nifrət və həqarətlə qarşılanan müdriklər görürük. Axmaqlara isə pul axır, onlar dövlət hakimiyyətinin sükanını öz əllərində saxlayırlar və «ümumiyyətlə çiçəklənirlər». Buna baxmayaraq, bütün baş verənlər, həyatın başlanğıcı və sonu – Tanrının əlindədir, ancaq bunun həyata keçməsi insanın azad fəaliyyətləri olmadan qeyri-mümkündür.

Müəyyən azadlıq iradəsi minimumu olmadan nə fəaliyyət, nə də əxlaq mümkün deyil. İnsan nemətlərin əldə edilməsinə nail olmaq iradəsini, qüdrətli axmaqlığın onu yoldan çıxarmaması üçün fasiləsiz olaraq ağıl gücü ilə cilovlamalıdır. *Erazmın* əxlaqi doktrinası qədimliyin fundamental etik prinsipi üzərində qurulur: «*ölçüsündən yuxarı heç nə yoxdur*». Yalnız ağıllı şəkildə tərbiyə olunmuş iradə tələb edən ölçü hissi insanı onun həyatının düzgün yoluna istiqamətləndirə və arzuları (sərvət, şöhrət, hakimiyyət) təshih edə bilər. Bu yolun çətinliyi onunla əlaqədardır ki, istənilən cisim, əşya iki üzə malikdir. Həyati əksliklər arasındakı sərhədin qeyri-müəyyənliyi, «ölçüsündən yuxarı heç nə» prinsipinə riayət etməyə vadar edir. Əks təqdirdə, şöhrətpərəstliyə və yığıcılıq həvəsinə alüdə olaraq, hətta müdrik insan belə qəflətən yoxsul və ya axmaq, yaxud despot olur. Həyat nemətləri zəruridir, lakin onlara nail olmaq, axmaqlıqdan yaranan cazibələrin dəf edilməsi şərtilə mümkündür ki, bu da ağla nəzarət şərtilə azadlığı nəzərdə tutur. *Rotterdamlının* Tanrının «insan iradəsinin azadlığını və zəmanətli ilahi bərəkti» nəzərdə tuturdu.

İntibah dövrü islahat protestantizmi ilə birlikdə sərvət anlayışına rasional ifadə verir: təbii tələbatların təmin edilməsi hüququ. İnsan davranışlarının əsas mühərrikinin xoşbəxtlik və məmnunluq olduğunu söyləyən *M.Montenin* naturalizm mövqeyi bundan ibarət idi. Onlara sərvət vasitəsilə nail olunur, buna görə də hər kəs faydaya, mənfəətə səy göstərir. Lakin elə bir fayda yoxdur ki, başqaları üçün zərərlə əlaqədar olmasın. *Montenə* görə, «təbiət burada da onun üçün təyin olunan qaydaya sadiqdir, çünki təbiətşünasların düşündükləri kimi, hər bir cismin doğulması, qidalanması və böyüməsi, eyni zamanda başqa birisinin dağılması və məhv olmasıdır»[40]. Buna görə də əsas məsələ hər hansı məqsədi (şöhrət, bolluq, sənət və s.) mütləq qaydada, ehkamlarla birlikdə izləməkdən yox, ictimai həyatın çətinliyini nəzərə alaraq və təbiətin səsinə qulaq asaraq «bacarıqla yaşamaqdır» (*M.Monten*). Belə dünyagörüşün məqsədi insanı ya formalaşmış ehkamların, ya da cismani arzuların kor davamçısına yox, *sərvətə nail olunmasına məqsəd kimi deyil, nemətin (xeyirin) tərkib hissəsi kimi can atan ağıllı, fəal fərdə çevirmişdir*. Problemin bu cür qoyuluşunda insan «ilk dəfə olaraq özünü azad, öz taleyinin sahibi və öz tarixinin yaradıcısı kimi hiss etməyə başlayır. O, məsuliyyəti başqa çiyinlərə ünvanlaşdırmamağı və gizli tale sirlərini açmamağı, özü olmağı və dünyanı mərdcəsinə mənimsəməyi öyrənir»[41].

## 4. KAPİTALİZMİN BAŞLANĞIC DÖVRÜNDƏ FƏLSƏFƏDƏ SƏRVƏT NƏZƏRİYYƏSİ

Yeni dövr əsri fəlsəfi düşüncələrin istiqamətini metofizikadan rasionaistikaya doğru dəyişir. Öz işində zirək (cəld) olan, düşüncəli, peşəkar, pulun «qanuni yolla» əldə olunmasına oriyentasiya edən, müasir təsərrüfat quruluşunda «işcilliyin» (çalışqanlığın) ifadəsi və nəticəsi kimi çıxış edən, «*öz təyinatını izləyən*» insana nümunə olan fərd yaranır[42]. Erkən kapitalizm dönəmində «yeni insanın» formalaşması elmin, biliyin inkişafını tələb etdi, çünki sahibkarlığın həyata keçirilməsi planların tərtib edilməsini və onların həyata keçirilməsini tələb edir. Bütün bunlar, cəmiyyətin həyatda mədəniyyət və əxlaqa borclu olduğu alimliyin (ziyalılığın) inkişafını tələb edir[43].

«Sahibkarlıq ruhunun» (*V.Zombart*) formalaşması dövrü sərvəti yeni şəkildə, artıq emosional, düşünən, gündəlik-müqayisəedici nöqteyi-nəzər-

dən yox, elmi əsaslandırılma mövqeyindən qiymətləndirir. Erkən kapitalizm dövrünün ilk mütəfəkkiri *F.Bekon*, misal üçün, sərvəti mütləqləşdirmir, *yoxsulluğa və qənaətcilliyə* hörməti təbliğ edir. O yazır ki, *Yuli Sezar* məhv olan Roma respublikasının bərpa edilməsi üçün sərvətə qarşı hörməti, sərvətin özünü yox, sanki büt kimi, ona qarşı münasibəti məhv etmək vəzifəsini qarşısına qoyur. Əgər seçilən vəzifələr, nə də insanların adətən can atdıqları başqa şeylər pulla ələ keçməsə, dövlətin tənəzzülü və yoxsulluğu «sərvətə göstərilən ehtiramla birlikdə yox olacaqdır»[44]. Yoxsulluq – xeyirxahın taleyidir, baxmayaraq ki, bəzən o, dəbdəbənin və qayğısızlığın nəticəsi kimi çıxış edir. Buna görə də, *Süleyman* şahın kəlamına riayət etmək lazımdır: «Eynilə bilik və müdriklik kimi, həqiqəti də satın al, amma onu satma!». Bu sözlərlə o, sanki bildirir ki, sərvəti sərvət əldə etmək üçün yox, biliklərin əldə edilməsi üçün sərf etmək lazımdır[45].

«Təcrübə fəlsəfəsinin» («emprizmin») yaradıcısı *F.Bekon* faktlar və nümunələr üzərində *ədalətli yolla əldə etmək, ağılla sərf etmək, ürəkdən və təəssüf hissi keçirmədən paylamaq* gərəkən sərvətin mahiyyətini göstərir. Sərvətə rahibələr və ya filosoflar kimi nifrət etmək lazım deyil, çünki o, «təkcə şeytanlıqla», fırıldaqla, soyğunçuluqla və başqa yanlışlıqlarla yox, həm də düzgün, ədalətli üsullarla da qazanılır. Buna baxmayaraq, varlanmaq yolları çoxdur və onların əksəriyyəti çirkindir[46]. Bəzi üsullar yavaş, digərləri sürətlidir. *Kiçik pullar qazanmaq – çətin, böyük pullar qazanmaqsa asandır. Lakin sərvətə nail olunmasının əsas şərti məntiqi cəhətdən düşünməyi, fikirləşməyi və dərk etməyi bacarmaqdır*. Əgər «insan məntiqdə həqiqətən də güclü olsa, həm sağlam mühakimələr yürütsə, həm də yaradıcı olsa, xüsusilə, əgər zaman buna şərait yaradırsa, o, böyük işlər edəcəkdir»[47]. Burada, «biliyin gücünə» əmin olan *F.Bekon* sərvətin qazanılması və əldə edilməsini, ilk növbədə, düşünən və ziyalı insanla əlaqələndirir.

*F.Bekon* dövrün ruhuna uyğun olaraq, varlanma üsullarının əxlaqi qiymətləndirməsini həyata keçirir: ədalətli – sənətkarlıqdan ticarətə qədər, artırılan – çalışqan əmək və ədalətli işbazın şöhrətilə. Lakin şübhəli qazanclar (mənfəətlər) başqasının bədbəxtliyindən istifadə olunduqda, əvəz olunmuş şəxslər tərəfindən fəaliyyət göstərildikdə, daha az gəlir verən alıcılardan hiyləgərliklə qopmaq, vasitəçilik və buna oxşar fəaliyyətlər inkar yox, şərh edilir. Onlar mövcuddur, amma onlarla məşğul olmaq etibarsız insanlarla işləmək deməkdir. Xidmətlə əldə olunmuş sərvət daha hörmətəlayiqdir, amma əgər o, yaltaqlıq, razılaşma, qul əməyi ilə əldə edilmişdirsə,

ən eyibli fəaliyyətlərə aid edilir. Əgər sən ona necə nail olmağı bilirsənsə, bu başqa məsələdir: yalnız doğru mənfəətlərin axtarılması çətin ki, zənginlik yaratsın; riskli işlər yoxsulluğa və müflisləşməyə gətirib çıxarır; buna görə də, riski zərərlərin baş verməsi halı üçün məlum təminatla əlaqələndirmək lazımdır. Varlanmaq üzrə düzgün yol – inhisar və əmtəələrin satınalınması üzrə müstəsna hüquqlardır, xüsusilə, əgər əmtəələrin ehtiyatının yaradılması nöqteyi-nəzərindən gələcəkdə tələbin necə dəyişəcəyi haqqında məlumat varsa bu, özünü daha aydın ifadə edir[48]. Sərvətə nail olunması üzrə funksiyalarına görə fərqləndirilən bütün ruhi keyfiyyətlərdən ibarət olan vəzifənin uğurla yerinə yetirilməsi üçün zəruri olan «sahibkarlıq ruhu» belə formalaşır. Onlar «kəmiyyətcə müxtəlifdirlər, çünki sahibkarın öhdəsindən gəlməli olduğu vəzifələr, işin ölçüsü və çətinliyi baxımından, güclərinə görə bir-birilərindən həddən artıq fərqlənir»[49].

Sərvət – hər zaman çalışmaq, səbr etmək, «tikanları» dəf etməyi bacarmaq, habelə bilik, fikir, dayanıqlılıq və gücdür. «Sərvətə nifrət etdiyini elan edənlərə inanmaq olmaz, çünki sərvətə yalnız ona nail olmaqdan ümidini kəsmiş insanlar nifrət edirlər; birdən onlar varlansalar, bundan pis heç nə ola bilməz»[50]. Tənqidçi bu zaman xəsisliyi, xırdaçılığı, hətta əvvəlki alçalma və yanılmalara görə intiqamalmaları nəzərdə tutur. Sərvətin «qanadları» var: bəzən o, özü uçur, bəzən isə onun daha çox sərvət (bu isə, əlbəttə ki, daha çoxlu miqdarda nağd pulun mövcud olmasını şərtləndirir) cəlb etməsi və gətirməsi üçün onu «uçurtmaq» lazım gəlir[51]. Lakin sərvətin bu xüsusiyyət və metamorfozları biliyin, imkan və fəaliyyətin ağıllı şəkildə tutuşdurulmasını nəzərdə tutur. Belə demək olar ki, erkən kapitalizm dövründə *F.Bekon* insanı hər şeyin ölçüsü (meyarı) kimi saxlamağa çalışır.

Sərvətin başa düşülməsinə münasibətdə *D.Berkli* radikal mövqe tutur. Tanrının mövcudluğuna necə sarsılmaz surətdə inandığı kimi, xüsusi mülkiyyətin də sarsılmazlığı və möhkəmliyinə əmin olan filosof sərvət problemini möhkəmləşən kapital kontekstində nəzərdən keçirir. Özünün əsas iqtisadi traktatı olan «Soruşan» əsərində o, insanların həqiqi məqsəd və vəzifəsinin sərvət olduğu haqqında aksiom irəli sürür. Buna görə də, hamını sərvətə necə nail olmaq və sərvətin mənbəyinin nə olması barəsində məsələlər narahat edir. O, sərvətin mənbəyinin torpaq olduğu fikrini inkar edir. «Məgər belə düşünmək yanlış olmazdımı ki, torpaq öz-özünə sərvətdir? Məgər biz sərvəti formalaşdıran və əmək fəaliyyətinin vasitə və stimulu kimi çıxış etdikləri zaman heç bir dəyərə malik olmayan qızıl və gümüşü

sərvətə çevirən xalqın əmək fəaliyyətini sərvətin mənbəyi kimi nəzərdən keçirməməliyikmi?»[52]. Pul da özlüyündə sərvətin mənbəyi deyildir. Pul sərvətin hərəkətverici qüvvəsi yox, onun yalnız xarici, törəmə ifadəsidir. Əmək – sərvətin həqiqi mənbəyidir. *D.Berkli* bu fikri, ingilis siyasi iqtisadının təməlini öncədən müəyyən edən, *Adam Smitin* «Xalqların sərvəti» adlı əsərinin yazılmasından qırx il əvvəl söyləmişdi.

Yeni motiv – *əməkdir*. Sərvət hər zaman əməklə mütənasibdir, O, kreditə çevrilir. Kredit isə, öz növbəsində nişanlara, yəni pula çevrilir. *Berkli* ön plana dövlət maraqlarını çıxararaq, əməyi, ilk növbədə, əsas ictimai nemət kimi nəzərdən keçirir, bu maraqların təmin oluması isə vətəndaşlar üçün layiqli həyatı yaratmağa imkan verir. Əgər insan əməyi sərvətin həqiqi mənbəyidirsə, onda buradan belə nəticə çıxır ki, ağıllı şəkildə qurulmuş dövlətdə, ilk növbədə, «bekarçılığa» (avaraçılığa) mane olmaq lazımdır[53]. Xristianlığın fəlsəfi-əxlaqi dəyərlərinin daşıyıcısı və təbliğatçısı olan Berkli üçün (axı o, yepiskop idi) hətta qızıl və gümüş belə, əgər onlar ölkə sakinlərinin zəhmətsevərliyini azaldırlarsa, məhvedicidir[54]. Burada mütəfəkkir gözüaçıqcasına xəbərdarlıq edir ki, cəmiyyətin çiçəklənməsi və normal həyatına o dövrdə artıq məşhur olan ümumi bərabərlik haqqında utopik ideyaların həyat təcrübəsində təcəssüm etdirilməsi Vasitəsilə nail olmaq olmaz. Əgər hamı varlı olsa, onda fərdi fəaliyyətə qarşı stimul yox olacaq və o dövrdə İspaniyanın atstektlərin qızılı və xəzinələri ilə «pozğunlaşması» kimi dövlət tənəzzülə uğrayacaqdır. Milli sərvətə doğru yol, mütəfəkkirin fikrincə, əməyin tətbiqi sferasının genişləndirilməsindən və onun məhsuldarlığının artırılmasından ibarətdir. İngiltərənin hərtərəfli sənayeləşdirilməsi də labüd olaraq buna gətirib çıxarır, *D.Berkli* öz iqtisadi əsərlərində israrla buna səsləyirdi.

İnsanın hər zaman nail olmağa çalışdığı xoşbəxtlik kimi çıxış edən fərdi və milli sərvətin artımının əsasında duran xalqın əmək səylərini nə ilə stimullaşdırmaq olar? sualına mütəfəkkir aşağıdakı cavabı vermişdir: tələbatların inkişaf etdirilməsi ilə. «Məgər tələbatların yaradılması insanlara zəhmətsevərliyin aşılanması üçün ən münasib yol deyildirmi?»[55]. *D.Berkli* – iqtisadi «liberalizmin», dövlətin Ölkənin iqtisadi həyatına müdaxilə etməməsinin tənqidçisidir. Onun üçün aşağı təbəqənin təmin olunmuş həyatı – əmək fəallığının artırılması vasitəsidir, çünki təminatlılıq yeni tələbatlar yaradır, onların təmin edilməsi böyük məvaciblərin, mənfəətin əldə edilməsinə və son nəticədə zənginliyə gətirib çıxarır.

Mütəfəkkir belə hesab edir ki, sərvətin həqiqi sahibi dövlətdir, çünki yalnız o, başqalarının əməyi üzərində sərəncam verə bilər. Ölkənin və ayrıca insanın iqtisadi həyatının stimullaşdırılması Vasitələrinin yaradılması rolu məhz ona məxsusdur. Belə vasitə kimi, xüsusi yox, ictimai müəssisə kimi təşkil olunan milli bankın yaradılması xüsusi əhəmiyyətə malikdir. Onun ən mühüm vəzifəsi müxtəlif ictimai quruluşlar üzrə təxsisatların həyata keçirilməsindən ibarətdir ki, bu da əmək fəaliyyəti sferasının inkişafına yol açardı. Mütəfəkkirin əmin olduğu kimi, yalnız o, sərvətə aparıb çıxarır. İnsanların sərvətin formalaşdırıcısı kimi çıxış edən zəhmətsevərəliyin üstünlüyünə inamı da vacibdir. Sərvətin həqiqi təbiətinin aydınlaşdırılması üçün ən əlverişli üsul gəmi heyətinin insan ayağı dəyməmiş adaya buraxılması çıxış edə bilər, onlar orada tədricən işləri və vətəndaş həyatını qaydaya salırlar, bu zaman əməksevərlik bu insanlarda qarşılıqlı etibara (inama) və çalışqanlığa səbəb olur[56]. Dairə qapanır: sərvət yalnız həyatın mənası olan əməyin nəticəsidir . «Kapitalizm ruhunun» bu motivi öz klassik əsasını *D.Defonun* «Robinzon Kruzo» əsərində tapmışdır.

Sərvət konsepsiyası kontekstində iqtisadi yox, fəlsəfi maraq kəsb edən berklian pul nəzəriyyəsi formalaşır. O, *merkantilistlərin pul fetişizminin* əksinə istiqamətlənmişdir. *Berkli* üçün əmtəə təsərrüfatının *birinci pilləsi* əmtəə mübadiləsidir. Onun üzərində ikinci pillə kimi, metal pulları ümumi ekvivalent kimi qəbul edən pul tədavülü qurulur. Üçüncü pillə kimi isə metal pulları əvəz edən kağız pul nişanlarının vasitəçiliyi ilə ifadə olunan əmtəə tədavülü çıxış edir. Buna görə də sərvəti və pulu, onların tərkibinin müxtəlif olması səbəbindən eyniləşdirmək olmaz. Sərvət – zəhmətsevərliyin nəticəsidir, pul isə, təkcə kağız pullar yox, həm də qızıl və gümüş pullar da müstəqil dəyərə malik deyildir və yalnız vasitə, mübadilə ölçüsü kimi çıxış edir. «Məgər pulun ideyası özlüyündə tamamilə hesab üçün bilet və ya ceton ideyası deyildirmi?»[57]. «Nəcib» metallar kultuna tamamilə haqq qazan-

> *«İnsanar maddi maraqlara o qədər uymuşlar ki, hətta insanlara qarşı münasibətlərdə ifadə olunan insan qəlbinin təzahürünə belə yalnız öz maddi vəziyyətlərini yaxşılaşdırmaq nöqteyi-nəzərindən baxırlar. Onların hörməti, insanın daxili ləyaqəti ilə deyil, bu və ya digər şəxsin sərvəti ilə Ölçülür. Lakin həqiqətən ziyalı insan öz ağıllı «Mən»inə hörməti səbəbindən, sahib olduqlarına, puluna görə utanır».*
>
> R. Emerson

dırılmamışdır. İşin mahiyyəti öz-özlüyündə qızılda və gümüşdə yox, onların tədavül vasitələri kimi funksiyalarındadır. Onlar iqtisadi həyatda, qandaşıyan damarların orqanizmdə oynadıları rolu oynayır. Bunlar, hələ sərvət yox, onun daşıyıcılarıdır. Kağız pullar bu vəzifənin öhdəsindən uğurla gələ bilər. *Berkli* tərəfindən layihələşdirilən Milli Bank, onlardan industrial kapital qoyuluşu üzrə təxsisat kimi istifadə etməlidir. Sərvət və pulun fərqləndirilməsi diqqəti birincinin və ikincinin həqiqi təyinatlarını müəyyənləşdirməyə imkan verən ağıl üzərində cəmləməyə imkan yaradır, nəticədə isə belə bir fikir çıxarmağa əsas verir ki, nə qızıl, nə də pul yox, zəhmətsevərlik insan üçü həqiqi nemətdir.

Sərvət və pul problemi bu dövrün – «möminlik ruhuna» zidd olaraq, «sahibkarlıq ruhunun» formalaşması dövrünün bütün görkəmli mütəfəkkirlərini narahat edir. *D.Yumun* iqtisadi əsərlərində öz klassik ifadəsini məhz ingilis iqtisadi fikrində tapmış dəyərin əmək nəzəriyyəsi öncədən düşünülmüşdür. Qərb iqtisadi fikrində belə bir düşüncə mövcuddur ki, *K.Marks* «özünün izafi dəyər nəzəriyyəsini yaratmaq üzrə böyük stimulu Yumun iqtisadi təcrübəsindən götürmüşdür»[58]. Yumda sərvət onun, insanlarda affekt, xüsusilə qürur və şöhrətpərəstlik yaradan və oyadan ideya və təssüratların fəlsəfi nəzəriyyəsi ilə əlaqədardır. Sərvəti mülkiyyət formasında hər şeyi əldə etmək imkanı kimi nəzərdən keçirmək lazımdır və buna görə də o, təsəvvürə təsir göstərir. Bu səbəbdən, bir çox hallarda pul sərvət kimi, özündə məlum keyfiyyətlərə (sıxlıq, çəki və s.) malik metalı əks etdirdiyi üçün yox, məmnunluq və həyati rahatlıqlarla əlaqədə olduğu üçün sərvət kimi nəzərdən keçirilir.

Bu situasiyada *D.Yumun* prinsiplər haqqındakı fikirləri diqqətəlayiqdir. Onlardan birincisi, ilk baxışdan göründüyünə nisbətən daha böyük əhəmiyyətə malik olan xoş obyektlər haqqında düşüncələri təsdiq edən fikirdir. Bütün xoş olan şeylər hislər, təsəvvür və düşüncələrlə bağlıdır, onların vasitəsilə insanda həvəs oyanır və insanın cismani orqanlarına təsir göstərir. Lakin sərvət və qüdrət öz-özlüyündə, hətta istifadə edilməsə də təbii olaraq hörmət və ehtiram yaradır. Lakin, bu affektlər gözəl və ya xoş obyektlər ideyası ilə yaranmır. Belə demək olar ki, pul sərvət və qüdrətin (gücün) «nümayəndəsidir», çünki elə xoş obrazlar yaratmaq iqtidarındadır ki, onlar məmnunluq affekti doğurur. Pul yalnız malik olduğu iradə sayəsində həyati nemətlərin əvəzedicisi kimi çıxış edir və nəticədə, öz təbiəti etibarilə, özündə onun sahibinin və sərvətin gücünü birləşdirir. «Əgər biz

insana onun var-dövlətinə görə hörmət ediriksə, mülkiyyətçi hissinə daxil olmalıyıq»[59]. Bu cür təsəvvür yaratmadan sərvət tərəfindən təmin olunan məmnunluğu, çətin ki, başa düşə bilək. Özümüzə «simpatiya» yaradaraq, biz onun köməyilə sərvət sahibinin hisslərinə daxil olmalıyıq və yalnız o zaman ona qarşı hörmət yaranacaqdır. Beləliklə, «birinci prinsip, yəni istifadə edilməsi sərvət yaradan obyektlərin xoş ideyası bizim hörmət etdiyimiz və sevdiyimiz insana qarşı simpatiyaya çevrilir»[60]. Çünki biz özümüzün onların gücündə iştirakını təsəvvür edirik.

Sərvət hakimiyyətlə əlaqədardır, buna görə də ona sahib olan insana güc verir. Sərvətə dostluq və xeyirxah münasibət də birləşir, çünki əks təqdirdə, «bizim, təbii olaraq, zəngin insanların özümüzə qarşı xoş və xeyirxah münasibətini görmədən onlara ilk dəfədən hörmət etməyimizi başqa nə cür izah etmək olar»[61]. *D. Yumun* sərvətə münasibəti onun idrakın subyektiv nəzəriyyəsi (daha ənənəvi – subyektiv idealizm) kimi adlandırılan öz fəlsəfi konsepsiyasının nəzəri əsaslandırılması ilə izah olunur. *Təsəvvür sayəsində biz sərvətə və onun daşıyıcısına, təkcə onlar bizim ətrafımızda olduqda yox, onlar təsir dairəsindən uzaqda olduqda belə, onlara hörmət edirik.*

Filosof tez-tez sərvət nümunəsinə öz fəlsəfəsinin nəzəri müddəalarının təsvirində müraciət edir. Çünki o, iqtisadi fəaliyyətin ifadəsi kimi çıxış edərək ictimai güclərdən birini təşkil edir. *Sərvət – təkcə mülki yox, həm də əxlaqi gücdür.* «Yaxşı bolluğa» malik olan varlı insan yad insanlarla ünsiyyətə girərək onlara, onların əmlaki və ictimai vəziyyətləri haqqında məlumatlılığı üzrə müxtəlif hörmət və ehtiramla münasibət göstərir. Bu zaman onlardan hər hansı fayda əldə etmək imkanı tamamilə istisna olunur. İnsanı cəmiyyətə onun var-dövlətindən asılı olaraq buraxırlar. Bu da onu müəyyən əxlaqi keyfiyyətlərlə təltif etməyə imkan verir: zəhmətsevərlik, çalışqanlıq, qənaətcillik və s. Nəticə etibarilə, insanların müxtəlif ictimai vəziyyətləri əhəmiyyətli dərəcədə sərvətlə müəyyən olunur: bu, vəziyyətinə görə həm yuxarı, həm də aşağı təbəqələrə, tanış və tanış olmayanlara da aiddir.

*Sərvət öz-özlüyündə heç bir məna kəsb etmir və heç nəyi ifadə etmir.* Simpatiya prinsipi kimi, hakimiyyətə və sərvətə hörmət, yaxud aşağı səviyyə və yoxsulluğa nifrəti təcəssüm etdirən heç nə ola bilməz. Bu prinsip insana əlaqədarlıq, anlayışlılıq verir ki, bunun sayəsində də biz varlı və kasıbları hiss edirik və onların məmnunluqları və xoşagəlməz vəziyyətlərində birgə iştirak edirik. *Yum* tərəfindən, öz sahibini, təkcə maddi təminatlılıq

üçün yox, ilk növbədə, sosial parametrlər təmin edən sərvətin subyektiv-sensualist cəhətdən əsaslandırılması bununla əlaqədardır. Sərvətlə «xoşluqlar» həm iqtisadi, həm də maddi planda əlaqədardır. Burada nəzərdə insanlardan yalnız yaxşı əmətəələrin, ilk növbədə, himayədarlıq, varlı və qüdrətli olanlardan yardım gözlənilməsi nəzərdə tutulur. Bu isə bizim heç vaxt fayda götürə bilməyəcəyimiz insanlara belə hörmət bəsləməyə vadar edir. Sərvətin bəxş etdiyi məmnunluq xoşluq ideyasını ifadə edən təsəvvür vasitəsilə ötürülür[52].

*D. Yum* gözəllik haqqında düşünərkən qeyd edir ki, insanların ürəyi onların bir-biriləri üçün «affekt şüalarının», hislərin və fikirlərin «sönənə» qədər təkrar-təkrar əks olunduğu aynadır. Məsələn, varlı insanın əmlakdan məmnunluğu tamaşaçıda əks olunaraq onda məmnunluq və hörmət yaradır, bu hislər isə, öz növbəsində, sahibin məmnunluğunu gücləndirir; bir daha əks olunaraq onlar tamaşaçıda təkrarən məmnunluq və hörmət üçün yeni əsasa çevrilir. Sərvət, onun tərəfindən təmin olunan həyatın bütün üstünlüklərindən istifadə etmək hakimiyyətdən çıxan ilkin məmnunluğa səbəb olur. *Yumun* fikrincə, sərvətin təbiəti və mahiyyəti bundan ibarət olduğundan, onda onun tərəfindən yaradılan bütün affektlərin ilkin mənbəyi də bunda əksini tapmalıdır. Xüsusi halda, sərvət sayəsində əldə olunan hörmət və məhəbbət sahibliyin ilkin məmnunluğunu əks etdirən, şöhrətpərəstlik kimi çıxış edir ki, bu da bizim zəngin (varlı) olmaq arzumuzun və ya varlı olanlara hörmət etmək istəməyimizin əsas səbəbidir[63]. Bu affektin (başqalarının da) xarakteri, onda başdan ayağa qədər «hər şeyi», yəni mükəmməl ictimai həyat üçün zəruri olan bütün hiss və təsəvvürləri «birləşdirən» qavrayışın (hissetmənin) ümumi tendensiyası ilə müəyyən olunur.

*D. Yum* belə hesab edir ki, insanın gözəlliyi həm cismani üstünlük (sağlam görünüş, güc, çəldlik), həm də *üç müxtəlif səbəbə* görə haqq qazandırılan əmlaki üstünlüklə əlaqədardır. Bu prinsiplərə aiddir: ona məxsus olan gözəl əşyaların, evlərin, bağların bilavasitə görünüşündən məmnunluq; onun açıqürəkliliyi və əliaçıqlılığı sayəsində əldə etməyə ümid bəslədiyimiz faydalar; onun öz əmlakından özünün əldə etdiyi və ona qarşı hörmət yaradan məmnunluq və faydalar. Sərvət öz ictimai tərkibinə görə müxtəlif affektlərə, o cümlədən xeyirxahlıq, xudbinlik, kiməsə məhrumiyyət, kiməsə məmnunluq və fayda vermək bacarığına səbəb olur. Sərvət, özünün yaratdığı nəticələrin çoxsaylılığı və əhəmiyyətliliyi vasitəsilə bizim

ruhumuzda maraq yaradaraq insana güc verir və ona «öz ətrafında» (cəmiyyətdə) əhəmiyyət və nüfuz bəxş edir[64].

Beləliklə, sərvət, öz sahiblərində qürur və şöhrətpərəstlik yaradaraq, *insan təsəvvürünün illüziyaları* kontekstində nəzərdən keçirilir. Bu, hər zaman təəssürat və ideyalar arasında ikiqat münasibətlər sayəsində baş verir. Sərvətin öz mahiyyət hissi sfera ilə əlaqədardır, çünki onun bizə məmnunluq və həyati rahatlıq vermək qabiliyyətliliyindən ibarətdir. «Bu qabiliyyətin mahiyyəti isə ondan ibarətdir ki, o, bizi düzgün və yanlış qərarlar (hökmlər) əsasında bu məmnunluğun real mövcud olmasının əvvəlcədən «dadına baxmağa» vadar edir»[65]. *D.Yum* bu məmnunluğun səbəbini insanın istifadə etdiyi əmlakda və mülkiyyətdə görərək, bu emosional vəziyyətlərin təmin edilməsi üçün özünü sərvətdən uzaqlaşdırmamağı tövsiyyə edir.

*D.Yumun* sərvətə iqtisadi baxışlarında o, öz *aqnostisizm* postulatlarından (müddəalarından) uzaqlaşır. Xüsusi mülkiyyəti, kommersiya fəaliyyətini, azad sənaye rəqabətini təsdiq edərək o, insan və cəmiyyət tərəfindən xoşbəxtliyə və çiçəklənməyə nail olunması məqsədini müdafiə edir. Sərvət bu məqsədin həyata keçirilməsi şərti kimi çıxış edir, onun mahiyyəti isə sadə ideyalardan mürəkkəb ideyaların formalaşdırılması prosesi nəzəriyyəsindən irəli gəlir. Filosofun baxışları getdikcə möhkəmlənən «kapitalizm ruhuna» uyğun gəlir, çünki xaricən onlar bütün təbəqələrin varlanmaq üzrə ümidlərini ifadə edir. Onun sərvət haqqında fəlsəfi düşüncələri çox halda *A.Smitin* klassik siyasi iqtisadın inkişaf istiqamətlərini müəyyən etmiş «Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat» adlı fundamental əsərinin 1776-cı ildə işıq üzü görməsini müəyyən etmişdir. Çünki *D.Yum* iqtisadi problemləri ictimai və fərdi tələbatlar kontekstindən nəzərdən keçirir ki , bu da burjua siyasətinin hamı üçün aydın və anlaşılan olan fikirlərə qarşı müsbət münasibətinə səbəb olmuşdur: «İctimai çörək mağazası, mahud və silah anbarı – həqiqi sərvət və dövlətin gücü bunlardan ibarətdir»[66]. «... Əgər ölkə öz ticarətini, zəhmətsevərliyini və əhalisini itirirsə, onda o, öz qızıl və gümüşünü əlində saxlayacağına ümid bəsləyə bilməz»[67].

*Merkantilist* sxemlər çərçivəsindən kənara çıxılması mütəfəkkirə *D.Vanderlint və Ş.Monteskye* ilə birlikdə metal pulların kəmiyyət nəzəriyyəsinin banisi olmağa imkan verdi. Bununla yanaşı, *D.Yum* pulun ictimai təbiətini və onun sənayenin inkişafı ilə əlaqəsini başa düşürdü. Əgər ticarətçilərin cibləri cingildəyən qəpiklərlə doludursa, amma fabrik və zavodlar işləmirsə, onda xoşbəxtliyi gözləmək lazım deyil – ölkə iqtisadiyyatı tənəz-

zülə uğrayacaqdır. Çünki pulun, əmlakın, sərvətin və «dünyadakı hər şeyin» əldə edilməsi üçün əmək olmayacaqdır. *V.Zombart* hesab edir ki, burada insanın fəaliyyət ölçülərinin dəyişməsi həlledicidir. «Günün, ilin, ömrün istənilən anı əməyə həsr olunur…Bütün həyati dəyərlər əmək Moloxu (müharibə Tanrı) uğrunda qurban verilir, ruhun və qəlbin bütün hissləri (həyəcanları) bir marağa – işə qurban verilir»[68]. Lakin «iş» çiçəklənməli və mənfəət gətirməlidir; hər zaman pul məbləği ilə başlayan və onunla da bitən kapitalist fəaliyyətləri yalnız «artıq» təsərrüfatı ifadə edir[69]. Bunu, təsərrüfat həyatının tərəqqisi və çiçəklənməsi – sərvətin «kapitalizm ruhu» kontekstində yeni tərzdə başa düşülməsinin əsası tələb edir.

## 5. BAZAR TƏSƏRRÜFATINDA PUL SƏRVƏT KİMİ: XEYİR VƏ FAYDALILIQ

Sərvət probleminin tədqiqinin yeni aspekti *M.Veber* tərəfindən qlobal təsərrüfat fenomeni kimi kapitalist təsərrüfatı kontekstində təqdim edilmişdir. Bunun çərçivəsində yaxınlaşmaqda olan əsrin fəlsəfi «şüuru» döndərən və ona yeni tədqiqat sahəsinin yolunu göstərən orijinal ideyası səsləndi: «Din necədirsə, xalqların təsərrüfat həyatı da elədir!»[70]. *M.Veberin* əsas ideyası ondan ibarət idi ki, kapitalizm, qərbi Avropa sivilizasiyasına nail olunması kimi protestantizmin təsiri altında formalaşmışdır.

Mütəfəkkir sərvətin öz konsepsiyası çərçivəsində son dərəcə dəqiq və müfəssəl təhlilini, dünya nemətlərinə doğru *istənilən* meyilə qarşı olan xristian askezinin «kapitalist ruhuna» qarşı-qarşıya qoyulmasından başlayır. XVI əsrdə erkən xristian dəyərlərinin ən ortodoksal ideoloqu olan *C.Kalvin* dindar insanların sərvətində onların fəaliyyətində heç bir maneə görmürdü; bundan başqa, o, sərvətdə onların təsirinin artması vasitəsinin olduğunu göstərir və onlara əmlakı faydalı işlərə sərmayə qoymağa icazə verirdi[71].

*M.Veber* «kapitalist ruhunun» ilkin şərti kimi çıxış etmiş puritan baxışları təhlil edərək göstərir ki, protestant təlimləri ümumi və şəxsi vardövlətə nail olmaq xeyrinə «ifadə olunur», çünki Tanrı özünün bu və ya digər seçilmişinə mənfəət götürmək şansı vermişdir. Cismani zövqlər və günahkar xoşbəxtliklər üçün yox, Tanrı üçün *işləmək və varlanmaq* lazımdır. Sərvət yalnız ona görə pislənir ki, o, özündə *tənbəlliyə, fəaliyyətsizliyə və günahkar dünya zövqlərinə həvəs hissini əks etdirir (sərvətə can atma isə*

*yalnız o halda ki, o, qayğısız və xoşbəxt həyat ümidi ilə əlaqədardır*). Lakin əgər sərvət peşəkar borcun nəticəsidirsə, onda ona, nəinki haqq qazandırılmış, hətta o, əvvəlcədən yazılmışdır[72]. *M.Veber* belə hesab edir ki, asan qazanca providensial təşəbbüs işgüzar insanın ideallaşdırılmasına xidmət edir. Protestantizm rasional burjuaziya sahibkarlığının və əməyin rasional təşkilinin «etosunun» daşıyıcısı kimi çıxış etmişdir.

İnsan ona etibar edilmiş və onun idarəedici kimi tabe olduğu əmlak üzrə cavabdeh olmalıdır. Əmlak nə qədər çoxdursa, onun saxlanılması və artırılması üzrə məsuliyyət də bir o qədər güclüdür. Asketik protestantizm etikası «kapitalizm ruhunun» inkişaf istiqamətini müəyyən etmişdir. Sərvətdən birbaşa zövq almanı rədd edərək və istehlakı ixtisar etməyə çalışaraq (xüsusilə, onun artıqlığına çevrildiyi zaman) protenstantizmin dünyəvi asekzi zəngin insanlardan bədənin öldürülməsini yox, «sərvətdən elə istifadəni tələb etdi ki, bu, zəruri və praktiki faydalı məqsədlərə xidmət etsin»[23].

Verilmiş düşüncə vektorunun fərqi aşağıdakıdır: *sərvət praktiki fayda gətirməlidir*. Asan qazanca həvəsdən azadolunma ilə birləşdirilmiş istehlakın məhdudlaşdırılması, nəticədə *asketik qənaətcillik* məcburiyyəti vasitəsilə *kapitalın yığılmasına* gətirib çıxarır. *M.Veber D.Ueslinin* sözlərini ifadə edir: «...Din qaçılmaz (labüd) olaraq, həm zəhmətsevərliyi, həm də qənaətcilliyi yaratmalıdır, bu xüsusiyyətlər isə, öz növbəsində, mütləq sərvətə aparıb çıxarır. Sərvətin artdığı yerdə isə xüdpəsənlik, ehtiraslar və bütün öz rəngarəngliyi ilə birlikdə həyatın dünyəvi sevinclərinə bağlılıq üçün əlverişli mühit yaranır... Biz insanların qənaətcil olmasına məne ola bilmərik. *Biz mütləq olaraq bütün xristianları ona çağırmalıyıq ki, mümkün olan qədər qazansınlar və mümkün olan hər şeyi yığsınlar, yəni sərvətin əldə edilməsinə səy göstərsinlər*»[74]. Bu sözlərdən, həmin dövrün, XIX – XX əsrlərin astanasında marksizm, irrasionalizm, neokantçılıq və sərvəti komfortabelli burjua mövcudluğunun əsas şərti kimi qiymətləndirən xristian

> *«İnsanların, onların tələbatları vasitəsilə yaranan əlaqələri və bu tələbatların təmin olunmAsı üçün vasitənin hazırlanması və təqdim edilməsi ümumi xarakter alır, sərvətin toplanması yüksəlir, çünki bu ikiqat ümumilikdən ən böyük xeyir götürülür. Lakin, məhz bu ikiqat ümumilik xüsusi əməyin ayrılmasına və məhdudlaşmasına və bununla da bu əməklə bağlı olan sinfin asılılığına və ehtiyacına, buradan isə öz azadlığını, xüsusilə vətəndaş cəmiyyətinin mənəvi üstünlüklərini hiss etməmək və onlardan zövq almamaq qabiliyyət-sizliyinə gətirib çıxarır».*
>
> Q.V.F.Hegel

modernizminin sınağından keçmiş bütün fəlsəfəsi müəyyən olunur[75].

Ənənəvi həyat normalarının «kapitalist təsərrüfatçılığı kosmosuna» dəyişməsi ilə sərvət üzərində mərkəzləşən xarici dünyəvi nemətlər insanları özünə getdikcə daha güclü şəkildə tabe etdi və ən nəhayət, bütün əvvəlki insan mövcudluğu tarixinin görmədiyi hakimiyyəti fəth etdi. Əxlaqi və mənəvi dəyərlərə gəldikdə isə, əgər onlar birbaşa «iqtisadi məcburiyyətlər» kimi subyektiv olaraq hiss olunmurlarsa, müasir insan, sadəcə olaraq, bu anlayışın mahiyyətinə varmağa çalışmır. Bu gün, *M.Veberin* fikrincə, dini-etik və nəticə etibarilə, əxlaqi tərkibindən məhrum olmuş sərvətə, asan qazanca təşəbbüs göstərilməsi, ən yüksək azadlığa nail olduğu yerdə (ABŞ) qarşısıalınmaz ehtiras, bəzən idman ehtirasına yaxın xarakter alır[76]. Nəticə etibarilə, sərvətə səy göstərilməsi, onun əldə saxlanılması və genişləndirilməsi sadəcə olaraq ağıllı yox, həmçinin insanın instinktiv kəşfidir. «Heç bir din və ideologiya, heç bir mədəniyyət və siyasət, heç bir başqa oriyentasiyalar sərvət instinktini dəf edə bilməmişdir»[77]. Kapitalizm sərvətin başqa ölçüsünü verir. İnsan öz yerini xeyirə verərək sanki ikinci plana keçir. *Fayda* yox, ictimai şüurda yetişdirilmiş *xeyir* dünyəvi əxlaq üzərinə hakimiyyət əldə edir. O, mexaniki və maşın, bu gün isə texnoloji-informasiya istehsalının texniki və iqtisadi ilkin şərtlərilə əlaqədar olan müasir təsərrüfat quruluşunun yaradılmasında müəyyənedici rol oynamağa başlayır. Xeyir, həyat dəyərlərinə, fəaliyyət məqsədlərinin mahiyyətinə başqa ölçü verir – universallığın yerini asan qazanc tutur. Əgər sərvət – «insana açıq olan bütün dünyadırsa» (*Y.M.Osipov*), onda xeyir humanist və maarifçilərin istənilən «bənövşəyi arzularını», onların «ağıllı xudbinlik» dövrünə ümidlərini sıxışdırır və məhv edir.

«Kapitalizm ruhu» yeni sosial quruşları şərtləndirir. *M.Veber* qeyd edir ki, «askezin bu sabiq iqamətgahında gələcəkdə kimin məskunlaşacığını heç kəs bilmir; bu möhtəşəm təkamülün sonunda tamamilə yeni peyğəmbərlik ideyaları ortaya çıxacaqdırmı, əvvəlki təsəvvür və ideallar misilsiz güclə böyüyəcəkdirmi, əgər nə bu, nə də digəri baş verməsə, insanların öz əhəmiyyətliliklərinə həycanlı inanma cəhdləri ilə dolu olan mexaniki bərkimə (inkişafdanqalma) əsri gəlməyəcəkdirmi?»[78]. Bu mədəniyyət təkamülü insanlarına aşağıdakı sözlər uyğun gəlir: «Ürəksiz peşəkarlar, qəlbsiz şəhvətpərəstlər – bu yaramazlar elə düşünürlər ki, onlar insanların əvvəllər çatmadığı inkişaf səviyyəsinə nail olmuşlar»[79]. Əgər bu dövrü, elmin sürətli inkişafının fəlsəfi ideyalarla yoxlanıldığı (əksinə yox) XVII-XVIII əsrlərdə – dahilər dövründə yetişmiş ağıl, azadlıq və başqa ideal konstruksiyaların həyata keçirilməsi üzrə romantik ümidlər nöqteyi-nəzərindən qiymətləndirsək, onda bu peyğəmbərlik gerçəkləşmişdir.

Qalib gəlmiş və möhkəmlənmiş kapitalizm sərvət haqqında, onun üstünlükləri və çatışmazlıqları, insanı həqiqətədən də nəcibləşdirən ləyaqətlər barəsində düşüncələrə ehtiyac duymur. Onu sərvət adlandırılan və pulla ölçülən uğura və əmlaka sahibolmaya aparan «iş» maraqlandırır. Harmonik, gözəl insan təsəvvürlərindən uzaqlaşma, habelə «ruh» və «qəlb» üçün rahat olan və «ürəyin» həqiqətin baş yoxlama kriteriyası kimi çıxış etdiyi «varlığın evi» (*M.Buber*) dövrü ilə vidalaşma baş verir. İndi – rasionalıq zamanıdır və «biz belə – rasional olmalıyıq» (*M.Veber*) (lakin mütləq «səmimi» və ya «həssas» yox). Bu, keçmişin idealı, gələcəyin ümidi olaraq qalır, baxmayaraq ki, belə insanlar bu gün də var (onlar, həqiqətən də həmişə olmuşlar), lakin «kapitalizm ruhunun» möhkəmləndirdiyi həyatın qalibləri kimi, pul ekvivalentinin kəmiyyət göstəricilərində ifadə olunan sərvətə nail olmuş insanlar çıxış edirlər.

Sərvətə qarşı fəlsəfi münasibətlər də dəyişir. Məlumdur ki, *Sokrat* kütləvi satışda olan məişət və zinət əşyalarına baxarkən ucadan demişdi: «Görün mənə lazım olmayan nə qədər çox şey var!» Lakin «kapitalizm ruhu» şəraitində insana həddən artıq çox şey lazım olur, çünki peşəkar fəaliyyətin forma və üsullarının diferensiasiyası tələbatları rəngarəngləşdirir. Bunun nəticəsində sərvət öz təyinatını dəyişir, çünki «həcminə görə belə nəhəng süni sərvət» yaradan insan dəyişir. Ona görə də qeyri-təbiinin, yəni təsərrüfat tipinin təbii olan üzərində üstünlük təşkil etməsini söyləməyin əsl vaxtıdır.

## ƏDƏBİYYAT


[1] *Осипов Ю. М.* Богатсва // Философия хозяцства. – 2003. - № 1(25). – С. 242.

[2] *Ковадо Г.П.* Анропокультурни вимири моральности // Филосовська антропология: екзистенциальни проблеми. – К., 2000. – С. 248.

[3] *Осипов Ю. М.* Богатсва. – С. 242.

[4] Yenə orada.S. 243.

[5] *Мунье Э.* Манифест персонализма. – М., 1999. – С. 485.

[6] *Осипов Ю. М.* Богатсва. – С. 242.

[7] *Шептун А.А.* Философия денег // Вопросы философии. – 1999. - №7. – С. 182.

[8] *Диоген Лаэртский.* О жизни , учениях и изречениях знаменитых фиолософов. – М., 1979. – С. 90.

[9] Yenə orada.

[10] *Гомперц Т.* Греческие мыслители. – Мн., 1999. – С. 581.

[11] Yenə orada.S. 586.

[12] *Диоген Лаэртский.* О жизни, учениях и изречениях знаменитых фиолософов. - С. 119.
[13] Yenə orada.S. 124.
[14] Yenə orada.S. 125.
[15] Yenə orada.
[16] *Бердяев Н.А.* Судьба Росии. – М.: Харьков, 1998. – С. 235.
[17] *Диоген Лаэртский.* О жизни , учениях и изречениях знаменитых фиолософов. - С. 178.
[18] *Платон.* Собрание социнений: В 4-хидмят т.: - Т. 1. – М., 1990. – С. 484.
[19] *Гомперц Т.* Греческие мыслители. – Мн., 1999. – С. 199.
[20] *Диоген Лаэртский.* О жизни , учениях и изречениях знаменитых фиолософов. - С. 241.
[21] Yenə orada.S. 309.
[22] *Аристотель.* Сочинения: В 4-х т.: - Т.1. – М., 1983. – С. 121.
[23] *Платон.* Диалоги. – М., 1986. – С. 370.
[24] Yenə orada.S. 375 – 376.
[25] *Аристотель.* Сочинения: В 4-х т.: - Т.1. – М., 1983. – С. 385.
[26] Yenə orada.S. 390.
[27] *Мунье Э.* Манифест персонализма. – М., 1999. – С. 110.
[28] *Чаньшев А.Н.* Аристотель. – М., 1981. – С. 181.
[29] *Аристотель.* Сочинения: В 4-х т.: - Т.1. – М., 1983. – С. 393.
[30] *Королев В.К.* Деньги в хозяйственной культуре // Филоофия хозяйства. – 2002. - № 5 (23). – С. 284.
[31] *Гегель Г.В.Ф.* Философия права. – М., 1990. – С. 393
[32] *Аристотель.* Сочинения: В 4-х т.: - Т.1. – М., 1983. – С. 393.
[33] *Мунье Э.* Манифест персонализма. – М., 1999. – С. 474.
[34] *Макиавелли Н.* Государь. – М., Харьков, 1998. – С. 349.
[35] *Зомбарт В.* Буржуа. – С. 26.
[36] *Макиавелли Н.* Государь. – С. 371.
[37] Yenə orada.S. 351.
[38] *Зомбарт В.* Буржуа. – С. 16.
[39] *Элоян М.Р.* Хозяйства и религия (М.Вебер, С. Булгоков, В.Зомбарт). – С. 138
[40] *Монтень М.* Опыты. В. 3-х кн. – Кн. 1. М., 1981. – С. 101.
[41] *Элоян М.Р.* Хозяйства и религия (М.Вебер, С. Булгоков, В.Зомбарт). – С. 139.
[42] *Вебер М.* избранные произведения. – М., 1990 – С. 76.
[43] *Платон.* Диалоги. – М., 1986. – С. 101.
[44] *Бекон Ф.* Сочинения. В 2-х т. – Т. 2. – С. 102.
[45] Yenə orada.

[46] Yenə orada.S. 432.
[47] Yenə orada.S. 433.
[48] Yenə orada.
[49] Кузнецов Б. Г. Идеи и образы Возрождения. С. 45 – 46.
[50] *Бекон Ф.* Сочинения. В 2-х т. – Т. 2. – С. 45 – 46.
[51] Yenə orada.
[52] *Беркли Д.* Сочинения. М., 2000. – С. 477.
[53] Yenə orada.S. 478.
[54] Yenə orada.
[55] Yenə orada.S. 477.
[56] Yenə orada.S. 478.
[57] Yenə orada.S. 477.
[58] Юм Д. Сочинения. В 2-х т. – Т. 2. М., 1966. – С. 155 (примечание).
[59] Yenə orada.S.496.
[60] Yenə orada.S.456.
[61] Yenə orada.S. 497.
[62] Yenə orada.S. 498.
[63] Yenə orada.S. 501-502.
[64] Yenə orada.S. 583.
[65] Yenə orada.S. 447.
[66] Yenə orada.S. 157.
[67] Yenə orada.
[68] *Зомбарт В.* Буржуа. – С. 138.
[69] Yenə orada.S. 132.
[70] *Элоян М.Р.* Хозяйства и религия (М.Вебер, С. Булгоков, В.Зомбарт). – С. 133.
[71] *Вебер М.* избранные произведения. – М., 1990 – С. 195.
[72] Yenə orada.S. 191.
[73] Yenə orada.S. 198.
[74] Yenə orada.S. 201
[75] Мунье Э. Манифест персонализма. – М., 1999. – С. 133.
[76] *Вебер М.* избранные произведения. – М., 1990 – С. 207.
[77] *Осипов Ю. М.* Богатсва. – С. 244.
[78] *Вебер М.* избранные произведения. – М., 1990 – С. 207.
[79] Yenə orada.

# PUL, SİMVOL MƏKANINDA

*«Pul onu xərcləmək üçün, xərclə-mələr isə xeyir iş görmək və bununla da şərəf qazanmaq üçün mövcuddur»*

F. Bekon

*İnsan təkcə predmet dünyasının həyatına yox, həmçinin sonsuzluğa oriyentasiya edən o dünya (axirət dünyası) və bu dünya arasında sərhəd simvolları və nişanları dünyasına da aiddir. Simvollar bizim aramızda, bizim içimizdə və bizim daxilmizdə, predmet mühitinin reallığı ilə rəqabət aparan ruhun reallığı kimi iştirak edir. İnsan simvollar dünyasına uyğunlaşmışdır və o, təkcə əşyalar yox, nişanlar da yaradır. Simvol – sadəcə olaraq alleqorik ifadə, metaforanın növ müxtəlifliyi, dil və ya predmet vahidlərinin üfüqi müqayisəsi deyildir. Simvol – sonsuz mahiyyətli nişandır, çünki o, mədəniyyətin məhdudiyyətsiz semantik sahəsinə hörülmüşdür.*

# 1. CİSMİ SİMVOLİZM VƏ PUL

Dünyanın insan tərəfindən mənəvi-praktiki cəhətdən mənimsənilməsi, dünya haqqında ümumiləşmiş biliklərin əldə olunması ilə şərtləşən müxtəlif formalarda həyata keçirilir. Dünyanın mənəvi-praktiki cəhətdən mənimsənilməsi səviyyəsində, *Q.Hegelin* ifadəsinə görə, təsərrüfat və mədəniyyət fenomenlərinin yaxınlaşması nəticəsində subyekt, insan fəaliyyəti sujetlərinin personajı kimi çıxış etmək, insan dünyası münasibətlərinin spesifikliyini ifadə etmək qabiliyyətinə malik xüsusi növ obyektlərlə əlaqədə olur. Obyektləri mədəni fenomenlərə döndərən, dünyanın mənəvi-praktiki mənimsənilməsi onları insanın fəaliyyət nişanlarına çevirir. Nəticədə şüurun əşyalarda «rezenansı» mümkün olur[1]. Şübhəsiz ki, belə nişan kimi, çoxsaylı başqa predmet və əşyalarla yanaşı, pul da çıxış edir. «Xarici görüntünün çıxarılmasının» (*Q.Hegel*) nəticəsi olaraq, o, həqiqətə, sonra isə insan cəmiyyətinin kommunikativ əlaqələri məhsuluna daxil edilmiş empirik reallıqdan fərqlənən predmetliyin ideal obrazı kimi çıxış edir.

> *«Pul özündə mənim gücümü əks etdirir; o, öz-özlüyündə sahiblikdən çox, sahibolma aləti kimi çıxış edir. Məhz buna görə, çox nadir axmaqlıq halı istisna olmaqla, pul öz alıcı qabiliyyətliliyi qarşısında karıxır (özünü itirir); o, anidir, obyektin, konkret cismin üzərindəki örtüyü çıxarmaq üçün yaradılmışdır; o, yalnız keçici varlığa malikdir. Lakin mənim üçün o, yaradıcı gücdür; predmeti almaq – predmetin yaradılması ilə eyni mənaya malik olan simvolik fəaliyyətdir».*
>
> C.-P. Sartr

Dünyanın mənəvi-praktiki cəhətdən mənimsənilməsinin ən mühüm cəhəti – *cismi simvolizm* obyektlərin mənəvi təkrar istehsalının bu xüsusiyyəti ilə əlaqədardır. O, yalnız o zaman əhəmiyyət kəsb edir ki, «obyekt, eyni zamanda, həm əşya (cisim), həm də ondan fərqlənən başqa şey, başqa söz, müəyyən mahiyyətlərin simvolu kimi çıxış etsin». Bu simvolizm, simvollar kimi sözlərin çıxış etdiyi yazının nişanlılığından fərqlənir, çünki dünyanın mənəvi-praktiki mənimsənilməsində cisimlərin özləri nişanlar kimi çıxış edir. Bunun nəticəsində xarici simvolizm sistemində bu və ya digər fenomenlərin nişanlarla ifadə olunması (misal üçün, pulun dəyərlə ifadə olunmuş müəyyən əhəmiyyətə malik olması ilə əlaqədar olaraq) yox, həm də cisimlərin ideal əhəmiyyətə malik

nişanlarla birbaşa əvəz edilməsi baş verir. Adətən, bu, hər zaman bəşəriyyət tarixində baş vermişdir. Nümunə kimi simvol, yəni *pulun ideal mənasının cismi nişanı* rolunu oynayan qəpik çıxış edə bilər. Çünki «ideal olan simvolda və simvol vasitəsilə, yəni xarici, hissi qavranılan, görünən və eşidilən cisimlərlə – sözlərlə həyata keçirilir»[2]. Pul, özü kimi qalaraq, eyni zamanda, başqa bir predmetin varlığı və onun «ideal varlığı», onun bilavasitə hissi qavrayışından tamamilə fərqli mənası kimi çıxış edir[3].

Pul, nişan kimi ibarət olduğu nişanla heç bir ümumi cəhətə malik deyildir. Lakin dünyanın mənəvi-praktiki və təsərrüfat cəhətdən mənimsənilməsi prosesində düşüncəyə xas olan nişanlılıq, simvolizm, assosiativlik cisimlərin özlərinə də aid edilə bilər. Dünyanın mənimsənilməsinin alleqorizmi və emblematikliyi buradan çıxır. Bu formalar öz struktur və tərkibi təbiətlərinə görə pulun mahiyyətini *asan başa düşülən vasitəsilə çətin başa düşülən kimi təqdim edilməsinə* şərait yaradır.

Simvol, obrazın hissi-əyani dərk edilmə nişanı kimi həyatın rəngarəng məna potensiallarını ifadə edərək, sanki mədəniyyətin semantik sahəsinin dibsiz dərinliklərindən bizim predmet dünyamıza «çıxır». Bu rəngarənglik insanın mövcudiyyətinin alleqorik atributunu – vəzifə fərqləri və mükafatlarını, bayraqların, gerblərin, himnlərin, tarixlərin və yuxuların emblemini, dil işarələrini, kağız və metal pulları, teatr səhnəsinin simvolik tərtibini, memarlıq ansambllarını, təsviri incəsənət və ədəbiyyat dünyasını, kultların ovsunlu və dini simvollarını, mərasimlərin stereotiplərini, sosial davranışların, insanların milli özünüdərkinin müəyyən edilməsini möhkəmləndirir. Bu nöqteyi-nəzərdən pul, nominal şərti cəmiyyətin bütün sferalarının (iqtisadi, siyasi, sosial, mədəni) əksini (inikasını) özünə daxil edən ən geniş yayılmış simvollardan biridir. Pul, istənilən simvol kimi, reallıq elementidir, amma predmetlər dünyasında obyektiv zahiri görünüşdən məhrumdur. *N.A.Berdyaev* yazır: «Pul istənilən ontoloji əsasdan ayrılmışdır, onda həqiqi varlıq yoxdur, o, saxta şəkildə, ruhən mövcuddur»[4]. Müasir hesablaşma formaları, plastik kart və ya kağız əskinazlar olmasından asılı olmayaraq pullar iqtisadi inkişaf proseslərinin və ümumiyyətlə, təsərrüfatın simvolu kimi dəyər xüsusiyyətlərini yaxşı təsvir edir.

Pul – sosial-mədəni həyatın simvollarından biridir. Bunu bütün cəmiyyətin tarixi təsdiq edir. Onda «hissələrə ayrılmamış tamdan onun analitik üzvlərə ayrılmasına və sonradan zənginləşdirilmiş ümuminin yenidən yaradılmasına nüfuz etməyə» imkan verən simvolun təbiəti nədən ibarətdir?[5] Varlığın simvolik formaları sosial-mədəni reallığın rəngarəngliyində transendent dünya ilə cisimlərin mövcud olduğu dünya arasında əlaqələndirici halqa kimi çıxış edir. İnsan daimi olaraq simvollar yaradır,

o, nişan-simvol dünyasında yaşayır, yaradır və onunla assimilyasiya edir. Bu dünya, mədəniyyət dünyası kimi, «onun simvolik sistemlərinin (bu simvollarda ifadə olunmuş dəyərlər sisteminin) rəngarəngliyində çox halda insan fəaliyyətinin bütün, o cümlədən, zahirən mədəniyyətdən asılı olmayan növlərinin (iqtisadi fəaliyyət, təbii elm və s.) xarakterini müəyyən edir»[6]. Buna görə də pulun mahiyyətinin mühüm aspektləri simvollar vasitəsilə açılır.

Simvol – ümumi qəbul olunmuş mənadan başqa, həm də diskursiv təfəkkür çərçivəsindən kənara çıxan müəyyən tərkibə malik olan xüsusi məna da daşıyır. Simvol varlığın təzahürlərinin bütün rəngarəngliyini analogiyalar, oxşarlıqlar, uyğunluqlar, yəni qanuna nsibətən daha zəif, xaosa və təsadüfə nisbətən daha güclü qayda tipləri vasitəsilə nizamlayır. Varlığın bu yarımsistemliliyi öz səsi kimi, məhz simvolu seçir, çünki başqa formalarda (obraz, anlayış, söz) o, ifadə oluna bilmir. Təbiətin bütün cisimləri və sosial-mədəni mühitin məhsulları *tərkibi obrazlar və anlayışlarla ifadə oluna bilinməyən* simvollardır[7]. Nəticə etibarilə, simvol özündə predmetlərin forma, mahiyyət və alqoritmini əks etdirir bunun sayəsində onlar özlərini müxtəlif vəziyyətlərdə, situasiyalarda saxlayır. Buna görə də həqiqi simvollar obyektiv təbiətə malikdir və insan tərəfindən fəaliyyət prosesində varlığın dərinliklərindən çıxır. Pul da müxtəlif formalarda (qızıl, banknot, elektron variant və s.) və üsullarda (hakimiyyət, güc, var-dövlət) çıxış edərək bir vasitə ilə ifadə etdiyi fəaliyyət və münasibətlərdə öz tərkibini açır.

*Simvollar dünyası cisimlərin ontoloji əsasını aşkar edir*. Bu planda, pul möhkəm varlıq mahiyyətinə malikdir. Lakin onun tərkibi əhəmiyyəti əvvəlcə sözdə əks olunur. Buna görə də, pulu cismi simvol kimi nəzərdən keçirərkən, onun, insan və təsərrüfat münasibətləri cəmiyyəti üçün müəyyən son dərəcə zəruri olan söz tərkibini tədqiq etmək lazımdır.

## 2. SÖZÜN SİMVOLİKASI

«Pul» anlayışının simvolik mahiyyətinin aydınlaşdırılması *sözün* özünün metodoloji cəhətdən müəyyən olunmasını tələb edir. Sözün mahiyyətindəki bütün tərkibi – məna ifadələri bir mühüm xüsusiyyətə malikdir – onlar sözün səs tərəfi üzrə mahiyyətini ifadə edir. «Zahirən sözün mənasının söz xarakteristikaları məna və səsin üst-üstə düşməsi kimi çıxış edir. Belə ki, səs qeyri-səs mənasını daşıyır və buna görə də qeyri-səs mənası simvoldur»[6]. Nəticə etibarilə, bütün məna tiplərini bir tip – simvolik – məna qatı, yəni söz halında ümumiləşdirmək olar; onların bir «qat» halındakı

vəhdətini isə ümuminin mənasının «*simvolik vəhdəti*» və ya sözün ilk simvolik mövcudiyyəti kimi adlandırmaq olar. Lakin hər bir söz potensial halda özündə formal variasiyaların tamamilə müəyyən məcmusunu əks etdirir ki, bunlardan da hər biri onun vəhdətində simvolik mənanın bütün fərdiliyi ilə xarakterizə olunaraq, mənanın tam və ümumi simvolik vəhdətini ifadə edir (sözün ikinci simvolik vəhdəti). Mənada ilk simvol – başqa sözlər arasında verilən, zaman, xüsusi və təsadüfi vəziyyətləri və onun bu ankı vəziyyətində sözün mənasının *ideal mənzərəsidir*. İkinci simvol sözün, özündə potensial olaraq «bu sözün, rəngarəng, ola bilsin ki, müəyyən zaman və məkan anları xarakteri üzrə saysız-hesabsız mümkün və düşünülə bilən ayrı-ayrı mənalarını» daxil edən ümumi mənasıdır[9]. Mənanın tam simvolu özündə verilmiş sözün potensial formalarının vəhdəti kimi çıxış edərək, *mümkün və düşünülə bilən talelərini* əks etdirir. Pula münasibətdə bu sözdə onun ilk nümayişi, onun tərəfindən dünya ilə qarşılıqlı əlaqəsinin aşkarlanması ifadə olunur.

Simvolik «məna qatının» aydınlaşdırılmasından sonrakı mərhələ – sözün daxili həyatına keçiddir ki, bu da onun «səs örtüyü» ilə yanaşı çoxtərkibli «pul» anlayışının təhlili ilə şərtlənir. Ümumi sözündə əvvəllər göstərilmiş bütün anlar, ya bilavasitə fonematik, ya da simvolik məna daşıyırdılar. İndi isə özlüyündə sözün səslənmədən asılı olmayan mənasını təhlil etmək lazımdır. Burada biz işıqlandırılan predmetin yerinə işığın özünü öyrənəcəyimiz təqdirdə əldə edə biləcəyimizi əldə edəcəyik, çünki işıq verilmiş predmetin işıqlandırılmasında fəaliyyət göstərir. Simvolik mənalar işıqlandırılan predmetlərdir. Belə ki, onda «mənasız səslər dərk olunur. Bu predmeti və bu səsləri atsaq, öz-özlüyündə işıq mənzərəsini əldə edəcəyik, çünki o, predmetin işıqlandırılması, yəni səsin başa düşülməsi üçün yaradılmışdır»[10]. Biz «sözdə başa düşülən» şeyi əldə edəcəyik və bu artıq simvolik deyil, *noematik* (təfəkkür) məna daşıyacaqdır. Bununla da biz, hər dəfə tə-

> *«Söz qəlbin vəziyyətinə, dərman tərkibinin bədənə təsir etdiyi kimi təsir göstərir. Müxtəlif dərmanların bədəndən şirələri qovduğu, bəzilərinin xəstəliyi, bəzilərinin isə həyatı aradan qaldırdığı kimi, sözlərin də bəziləri dinləyicini kədərləndirir, bəziləri həzz verir, üçüncülər qorxudur, dördüncülər cəsarət verir, beşincilər hansısa pis inancla zəhərləyir və ya qəlbi məftun edir».*
>
> Qorqiy

ləffüz edilərkən yeni-yeni tərkiblərlə təzahür olunan *«pul» sözünün mənaca zənginliyinə* yanaşırıq.

Pulun predmet kimi tam, adekvat, ontoloji dərk olunması barəsində sual, onun bütün ümumən mümkün olan anlayışları nəzərdən keçirməyi tələb edir. Məsələn, «pul» sözünu biz simvolik məna kimi, yəni müəyyən məna ilə birləşmiş bir sıra səs kimi götürə bilərik. Lakin axı elə bu səslər həm də simvolik mənalar sırası da əmələ gətirə bilər. Çünki o, bu və ya da digər məna ilə nəzərdən keçiriləcəkdir. Nəticə etibarilə bütün bu simvolik mənaları saymaq, ümumiləşdirmək, cəmləmək olar və bu da nə isə kifayət qədər maraqlı və mühüm bir şey kimi çıxış edəcəkdir. Çünki burada söhbət *pul predmetinin* bu söz vasitəsilə həqiqi başa düşülməsindən gedir. Bütün bu mənaların belə ümumiləşdirilməsi onların simvolik mənası kimi çıxış edəcəkdir.

Ancaq pul semantik tərkibdən başqa, cismi tərkibə də malikdir və bu da onun simvolik tərkibinin başa düşülməsini çətinləşdirir. Buna görə də biz lüğəti açsaq, hər bir söz altında bu və ya digər anlayışın əsas simvolik mənaları siyahısını tapacağıq (buna baxmayaraq, bu zaman onun istənilən emosional, empirik, affekt və başqa başa düşülməsi formaları göstərilmir) ki, bu da onların hamısını hansısa ümumi bir mənaya gətirməyə imkan verir. *A.F.Losevin* təqdim etdiyi nümunə diqqətəlayiqdir: yunan sözü olan «eydos» çoxlu sayda müxtəlif mənalara malikdir: zahiri görünüş, görkəm, forma, sima, məntiqi mənada görkəm və s. Lakin bütün bu mənalar *görmək* mənasını verən bir sözə köklənir, odur ki, «zahiri görünüş» burada onun səs varlığı çaları ilə, «görkəm» – görmə fəaliyyəti çaları, məntiqi görkəm – idraki görmə və intuitivlik çaları və s. ilə əlaqəsini ifadə edir. Verilmiş sözün bütün bu ayrı-ayrı mənaları ilə ümumi olan cəhət elə məhz həmin sözün simvolik mənasıdır[11].

Yadda saxlamaq lazımdır ki, sözün həqiqi və adekvat başa düşülməsi yalnız bütün subyektiv xüsusiyyət və anların kənar edilməsindən sonra həyata keçirilir. Predmetin həqiqi şəkli və ifadəsi kimi, «pul» sözünə keçmək üçün biz əvvəlcə, səs tərtibatını (fonema) məna anlamında mütləq olması gərəkməyən cəhət və xalis təsadüfi an kimi kənara qoyaraq, onu xalis məna təbiətli anlayış kimi başa düşməliyik. Bu, simvoliklik mənanın yerinə xalis fikri (noematik) mənanın əldə edilməsi deməkdir. Onun dərinliklərində qalaraq biz onun daxilindən bütün *subyektiv anlayış* xüsusiyyətlərini (hər zaman müfəssəl bilik verə bilməyən) kənarlaşdırmalı-

yıq, yəni biz verilmiş sözün fərdi-subyektiv mənasını çıxarmalıyıq. Onda biz artıq, nə səslərdən, nə psixi həyəcanlardan, nə də *başa düşmə sferasında* predmetin verilmiş hansısa korrelyatından asılı olmayan təmiz anlayış (noema) əldə edəcəyik. «Təmiz noema, başa düşmə aktlarından verilmiş predmetin ümumi başa düşmə sferasına keçirilməsi üçün zəruri olan məna surəti kimi götürülmüş başa düşülən predmetlikdir, predmetliyin başa düşülməsidir»[12].

Beləliklə, «pul» sözündən subyektiv-fərdi münasibət təbiətinin (başa düşmə, intensiya və s.) çıxdaş edilməsi fərdidənkənar, yəni predmetə qarşı sözdə anlayış münasibətinə gətirib çıxarır. Fərdi subyekt («Mən») fərdidənkənar, anlayış, hamı üçün ümumi pul predmetinin, yəni onun fikri, noemal və predmet tərkibi ilə bağlı olan mahiyyətinin başa düşülməsini ifadə edə bilər.

## 3. SİMVOL VƏ SİMVOLİK MƏNA

Nəzəri təhlil sadə sinonimlər kimi çıxış edən simvol və simvolik məna ifadələrini bir-birindən fərqləndirmək məsələsini qarşıya qoyur. Bu fərqləndirmə *Q.Hegeldən* başlayır, onun fikrincə, simvolda tamamilə ixtiyarilik hökm sürür, yəni məna və onun ifadəsinin motivləşdirilməmiş birliyi yoxdur, ancaq onlar arasında müəyyən uyğunluq vardır, baxmayaraq ki, bu uyğunluq tam yox, qismədndir[13]. Simvolun, eyni zamanda, həm bunu, həm də digərini ifadə edən ikimənalılığı buradan çıxır. Simvol da nişandır, lakin öz xarici formasında «onda aşkar olunan təsəvvürləri əks etdirən xüsusi nişandır»[14]. Buna görə də, «pul» sözünün mənasının başa düşülməsinə ideya «qatları» arasından, yəni onun konkret mahiyyətinin öz-özlüyündə konkret sözdə təcəssüm olunan məkandan keçməyi nəzərdə tutan şəkildə yaxınlaşmaq lazımdır. Bu ona görə baş verir ki, predmet varlıq özünə müxtəliflikləri qəbul etməyə, mövcud olmayanı dərk etməyə, nəticə etibarilə, başqa mənanı ifadə etməyə başlayır. Bu da «pul» sözünün, onun predmet mahiyyətinin mövcudluğu ilə dialektik-zəruri şəkildə bağlı olan konkret verilmiş mənasını təmin edir.

Sözün mənasının simvolla predmetin xalis korrelyasiyası arasındakı bütün sferasını ümumi bir «məna» adı ilə adlandırmaq olar (pul-sərvət və pul-cisim). Simvol sferasından əldə edilmiş məna varlığı özündə, «pul» sözünün konkret tələffüzü ilə əlaqədar olan müxtəlif (xırda, iri, zaman, məkan) fərqlərin bütün əlamətlərini daşıyır. Verilmiş sözün eyni predmet tərkibini müxtəlif xalqlar müxtəlif cür başa düşürlər, cəmiyyət sferasında – müxtəlif fərdlər müxtəlif cür başa düşürlər, fərd sferasında – başa düşmə müxtəlif zaman anları və şərtləri üzrə dəyişir. İndi mən «pul» sözünü hökmlə, başqa bir dəfə – nifrətlə, üçüncü dəfə – etinasızlıqla və s. tələffüz edirəm. Bütün bunlar fərqli məna və onun mahiyyətinə yaxınlaşmanın müxtəlif dərəcələridir; hər dəfə eyni sözlər, fikriliyin, başa düşülmənin, şairliyin və ciddiliyin tam bir ierarxiyasını yaradıraq, getdikcə daha xüsusi və tam məna ilə tələffüz olunacaqdırlar. Pulun mahiyyət predlmetliyinə yaxınlaşaraq biz noemadan qeyri-predmet və predmetdənkənar fərqlilik anını, predmetdənkənar çoxobrazlılıq anını çıxdaş edirik və yalnız o zaman «pul» sözündə predmet mahiyyətinin və ya ideyanın adekvat əksini əldə edirik.

*Predmet mahiyyət* «pul» sözündə öz mahiyyəti etibarilə yox, özünün məna tərtibatı və ifadəsi kimi çıxış edən müəyyən keyfiyyəti ilə iştirak edir. Fikri cəhətdən məna cəhətinin çıxarılması predmetdən kənarlaşmaya gətirib çıxarır, çünki fikir, anlayış özündə bu və ya digər, az və ya çox dərəcədə subyektiv-fərdi, az və ya çox ümumi, az və ya çox dərəcədə predmetə yaxın olsa da, onun konkret dərkini ifadə edir. Əgər biz, misal üçün, yunan sözü olan «həqiqət» (istina) sözünü götürsək, onda bu sözdə mücərrəd və ümumi «istina» (latınca və rusca «istina» sözü kimi) mənasından başqa, məhz yunan dünyagörüşünə xas olan psixologiya anı da vardır. Çünki hərfi mənada bu söz «unudulmaz», «yaddan çıxarılmaz», nəticə etibarilə isə «daimi» mənasını verir. Bu sözün predmet mahiyyəti – həqiqətdir, lakin hər bir xalq və dil, bu xalqın hər bir üzvü kimi,

> *«Zəngin olmaq istəyirəm, ədalətsiz sahib olmağı arzu etmirəm, bu sərvətə: nə vaxtsa, onun üçün cavab verməli olacağam. Bir çox alçaq insanlar zəngindirlər, yaxşılar isə kasıblaşırlar; Biz ki mərdliyimizi pul kisəsinə dəyişməyəcəyik: axı xeyirxahlıq həmişə bizimlə qalır, pul isə bu gün vardır, sabah yox».*
>
> Solon

bu predmeti müxtəlif cür dərk edir, öz maraq və tələbatları baxımından, onun tərkibində müxtəlif cəhətlərə üstünlük verir. Belə ki, yunan dilində «unudulmazlıq» vurğulanır, latın dilində etibar, inam anı qeyd olunur və s.[15]

Əgər bu halda pul sözünü götürsək, o da müxtəlif mənalara malikdir. Məsələn, «drahma» sözü hərfi mənada «bir ovuc» kimi tərcümə olunur. Qədim Yunanıstanda, qəpiyə çevrilməzdən öncə, bu söz ovucda sıxılmış və pul vahidi rolunu yerinə yetirən altı ədəd dördüzlü çubuğu ifadə edirdi; «lepta» (pay) yunancadan hərfən tərcümədə «nazik» mənasını verir və həm kiçik qəpiyi, həm də minimal əmanəti ifadə edir; almanca Culden – qızıl – XIV əsrdə Almaniyada kəsilmiş qızıl qəpik idi; «kreyser», almanca Kreuzer – xaç mənasını verir. Bu ad qəpiyin üzərində xaç təsvirli qalxandan törəmişdir; «krona», almanca Krone – tac (korona), bir çox Avropa qəpiklərinin adıdır və qəpik üzərində tacın təsvirindən yaranmışdır. Bu sözlərin predmet mənası – ödəniş vasitəsi rolunu yerinə yetirən puldur, lakin bu sözlərin hər biri üzrə, hər bir ölkədə və hər bir dövrdə mənasını qəpik üzərindəki bu və ya digər təsvir (verilmiş ölkənin təsərrüfatının, mədəniyyətinin, ideologiyasının simvolu) vasitəsilə ifadə edən müəyyən mənalar formalaşmışdır.

Təqdim edilmiş müxtəlifikliklər pulun predmet mahiyyətini formalaşdırır və müəyyən edir pulun təhlilində kifayət qədər mühüm olan bu anı yaddan çıxarmaq bağışlanmazdır. Bununla əlaqədar olaraq, o da diqqətəlayiqdir ki, Qədim Yunanıstanda «*moneta*» və «*nomisma*» (qanun) sözləri müəyyən mənada eyni idilər. Yunan xalqı üçün «qanunilik» özlüyündə «pul» sözünün mənasını verir və «pul» sözünün predmet mahiyyətinin artıq xüsusi yunan yox, predmetin özünə adekvat olan korrelyasiya əldə etmək üçün bu predmet mahiyyətin «başqanın» sferasına keçməsi ilə əlaqədar nəticəni kənarlaşdırmaq lazımdır. Yunanlar üçün «qanunilik» sözü «pul» sözünün təmiz fikri mənası olduğu kimi, *Diogen, Sokrat, Aristotel* və bu dövürün başqa mütəfəkkirləri üçün də belə fikri məna kimi, insan münasibətləri və anlayışların (xeyirxahlıq, ədalətlilik, bilik, materiya və s.) daha dar sferalarından asılı olan xüsusi spesifikasiyalar kimi ifadə olunurdu.

«Pul» sözünün simvolik anı onun predmetdən əvvəlki strukturu ilə bağlı deyil və «pul» adının öz predmetliyi mənasında onun simvolu kimi çıxış edir. «Pulun» simvol kimi anlayışında mahiyyət ilkin olaraq bütün başqaları kimi çıxış edir, çünki «simvolda elə enerjilər axır ki, onlar mahiyyəti tərk etməyərək onu qismən bütün ətraf mühitdə təcəssüm etdirir»[16]. Bura-

dan görünür ki, hər bir ümumiləşdirici söz: ad, anlayış – öz mahiyyəti etibarilə, simvolikdir, çünki onlar, sadəcə olaraq, mahiyyət yox, bu və ya başqa varlıq forması ilə əlaqələndirilmiş bu və ya digər formada varlığın başqa forması kimi ifadə olunan mahiyyət kimi çıxış edir. Pul anlayışı predmet simvolu kimi, onun ifadə olunması sferasına, yəni məna, ifadə sferasına, daha dəqiq desək, simvolik, varlıq formasına daxil olmaq imkanı yaradır.

## 4. PULUN EYDETİK SİMVOLİKASI

«Pul» anlayışının keyfiyyətcə müəyyən olunması onun cismi simvolunun *eydostan* – mövcud olanın hansısa yekunlaşdırılmış bütövlüyü kimi çıxış edən obrazdan ciddi surətdə fərqləndirilməsini tələb edir. Pul adının «eydosu» (obrazı) vahid kimi, mövcud olanın varlıq anıdır və simvoldan köklü şəkildə fərqlənir. *Simvolik predmetliyin özünəməxsusluğu obrazlıdan fərqlənir ki, bu da pulun mahiyyətinə dərindən nüfuz etməyə imkan verir*. Bu simvolik özünəməxsusluq ona gətirib çıxarır ki, biz simvolda başqa, öz təşkilində obraza tabe olan varlığın materialını tapırıq. *Pul, simvol kimi, nə eydos, nə forma, nə görkəm, nə də onların varlığının başqa formasında – bütünlükdə təsərrüfatda (eyni zamanda, mütləq olaraq onun real, faktiki fəaliyyətində yox) məcmusu deyildir*. Simvol sözünün öz mənasında varlığın başqa formasına real keçid yox, varlığın başqa formasının obraza (formaya, eydosa) mənaca sığışdırılmasıdır, hansı ki, varlığın başqa forması özündə yenidən yaranır, yenidən öyrənilir, artıq onda daxili və xaricə, yəni onun tərkibi elementinə çevrilir. Buna görə də məna, həmçinin apofatik, yəni unikal məna imkanlarının misilsiz sərvəti mövcuddur[17]. Simvol, onun daxilində parlaq və zəngin şəkildə genişlənən təkrarlanmama şərtilə düşünülə biləndir. Obraz öz-özlüyündə unikaldır, çünki o, hər hansı ciddi tərtibatdır və mövcud olanın bütövlüyün-

> «*Pul hakimiyyətin sinonimidir: təkcə ona görə yox ki, o, həqiqətdə arzu etdiyimizi bizə verə bilər, həm də xüsusilə ona görə ki, o, özündə mənim arzumun həqiqiliyini əks etdirir. Məhz pulun cismə keçməsi səbəbindən, o, bu cismə keçərək və onu sadəcə olaraq nəzərdə tutaraq, mənim predmetlə sehrli əlaqəmi ifadə edir*».
>
> C. -P. Sartr

dən «koordinasiyalı şəkildə ayrıdır» (*A.F.Losev*).

Simvol, hissi varlığın başqa formasını və hissi-alogik formalaşmanı nəzərdə tutur, özünün başa düşülməsi üçün bu varlığın başqa forması olan sferanı dəf etmək tələb olunur, çünki o, xalis fikri, amma yenə də nə isə dayanıqlı və dəqiq şəkildə təsvir edilmiş fəaliyyətdir. Reallıqda təsərrüfatda (varlığın başqa forması) daimi dinamikalar, dəyişikliklər baş verir, pul isə sanki özündə müəyyən dayanıqlı koordinatları fokuslaşdırır (mərkəzləşdirir). Buna görə də bu varlığın başqa formasını dəf edərək, onun daimi olaraq dayanıqlı hala keçməsinin şahidi oluruq və məna (hansı ki, bunun köməyilə o, məhv olmur, eydetləşir, dərk olunur) ilkin obrazda (eydosda), olduğu o mücərrəd məna ilə müqayisədə artıq yeni olan dayanıqlı mənanın «daimiliyinə» keçir. Misal üçün, «moneta» anlayışının formalaşması bu cür baş verir. Məşhur versiyaya görə, qəpik (moneta) öz adını qədim Romada qəpik sarayının Yerin himayəçisi, bütün mövcudluğun anası olan Yunonanın məbədində yerləşdiyinə görə almışdı. Romada və əyalətlərdə buraxılan qəpiklərin üzərində çox vaxt Yunonanın təsviri olurdu. Tədricən bu təsvir yeni məna kəsb etdi və bizim eranın I əsrinin sonunda qəpiklərin üzərində Yunona ilə heç bir ümumi cəhətə malik olamayan qadın fiquru əmələ gəlir[18]. Qəpik (moneta) anlayışının, bütün metal pullara aid olan ümumi mənaya transformasiyası belə baş vermişdir. Getdikcə daha çox təsərrüfat və iqtisadi tərkib və məna ilə dolma onları uğur və ya uğursuzluq simvolu kimi fərqləndirməyə imkan verir, lakin bu artıq müəyyən nəticəyə nail olmağa çalışan son dərəcə insani fəaliyyətdir.

> *«Bütün filisterlərin (dar düşüncəlilərin), yəni mənəvi tələbatları olmayan insanların böyük dərdi ondan ibarətdir ki, ideal olan heç bir şey onlar üçün maraq kəsb etmir və onları əyləndirmir və onlar sıxıntıdan qurulmaq üçün daimi olaraq reallıqlara ehtiyac duyurlar. Lakin sonuncular tezliklə tükənir və onda bu reallıqlar əyləndirmək əvəzinə, onları yorur, əksər hallarda isə çoxlu bədbəxtliklər gətirirlər; ideal olanlar isə tükənməzdir və özlüyündə günahsız və zərərsizdirlər».*
>
> A. Şopenhauer

Simvol «məntiqi və daimi olaraq dayanıqlı, aydın daima dayanıqsız və qeyri-aydın olan qeyri-məntiqi (alogik) olanın antitezisidir heç vaxt onun barəsində tam qeyri-aydınlıqdan tam aydınlığa keçmək olmur»[19]. Məhz elə bu da bu və ya digər simvola (etik, estetik, iqtisadi, təsərrüfat və

s.) müraciət edilməsinin əsasıdır. Çünki dəyişən reallığın dinamikası onların sonsuz şəkildə yenidən dərk olunmasını, yeni obrazlı – görünüş mənalarının axtarılmasını tələb edir. Simvolun bütün gücü, mənalılığı daima doğulan və daima yox olan «məna enerjilərində» – *onun başa düşülənliyindədir*. Apofatizmin (anlaşılmazlığın) sonsuz dərinliyinə gedərkən onun mənası oradan ağıllı və təmiz düşüncə dünyasına «dəfedilməz və düzgün» şəkildə qayıdır[20]. Bu əsasda, pul simvol kimi, özündə dərkolunmanın alogik gücünü – «*məna dövriyyəsini*» əks etdirir. Bu situasiyada «simvolik məna ifadə planının başqa plana – tərkib planına köçürülməsi vasitəsi kimi çıxış edir»[21]. Bu da yekunda özündə idrakın məna gücünün mahiyyətini əks etdirir.

## 5. APOFTİZM VƏ PUL SİMVOLİKASI

Pulun simvolik mənası simvolizmlə eyni olan apofatizmdən ayrılmazdır. Apofatizm özünün klassik formasında tipik dialektik təlimdir, çünki dialektika öz mahiyyəti etibarilə, təsdiq və inkarın, «heç nə» ilə «nə isənin» qarşılıqlı olaraq bir-birinə keçməsidir. Bu kontekstdə apofatizm nə isə yeni, unikal, xarici dünya üzərində fokuslaşmış bir şeyi ifadə edir. Bu iki sferanın (simvolik və apofatik) ayrılığı aqnostisizm yarada bilər və onda pul «özündə şey» olacaqdır, insan ağlının heç bir idraki aspekti artıq ona toxuna bilməz. Bunun nəticəsində bütün real mövcud olanlar illüziyaya çevrilir və bu da problemi bizdən uzaqlaşdırır; yaxud subyektivizmin yaranmasına səbəb olur ki, bu zaman da biz, istənilən hadisənin öz-özünə səbəb kimi çıxış etdiyi çirkin pozitivizm əldə edəcəyik. Nəticədə, bütün həyati reallığı, onun təzahürlərinin bütün təsadüfilikləri ilə birlikdə, mütləqləşdirmək və ilahiləşdirmək lazım gəlir. Lakin simvolizm həqiqət hadisəsini subyektivizmdən, qeyri-həqiqilikdən, kor pərəstişdən (sitayişdən) (məsələn, pulun fetişə çevrilməsindən) qoruyur və bununla da onun ontoloji reallığını möhkəmləndirir. Apofatik yanaşma, öz növbəsində, mövcud mahiyyətin əhəmiyyətliliyini ifadə edərək onu aqnostisizmdən, rasional metafiziki dualizmdən qoruyur. Hadisə və mahiyyətin vahid olduqları kimi, simvolizmlə apofatizm də vəhdətdədir. Nəticə etibarilə, eydos, obraz, simvol kimi, pulun mahiyyətinin təzahürünün, onun predmetliliyinin müxtəlif dərəcələridir. «Simvol, ifadə planında və tərkib planında müəyyən vahid

özündə qapalı mənaya və onu ətrafdakı semiotik məzmundan aydın şəkildə fərqləndirməyə imkan verən dəqiq ifadə olunmuş sərhədə malikdir»[22].

Simvol, mədəniyyət yaddaşı mexanizmi və onun vəhdəti kimi çıxış edərək, özündə mətn və süjetlərin dərin və geniş proqramlarını saxlayır və kondensasiya etdirir. Bu, simvolik mənası sosial-mədəni həyatın gələcək inkişafı üçün həyati məna daşıyan ənənələri qanuniləşdirərək təsərrüfatı müəyyən bütövlükdə saxlayan pul timsalında yaxşı görünür.

## 6. PULUN LOQOS KİMİ SİMVOLİKASI

Simvol «dərk olunmuş ifadəlilik» mühitinə, yəni daxilinin xarici işarəsi olan təsərrüfat fəaliyyəti münasibətləri sisteminə daxil olmağa imkan yaradır. Bu mühitdə, simvol kateqoriyasını deduksiya yolu ilə sübut edərək biz eydet tipli, yəni pulun subyektin şüurunda obrazlı formalaşmasına yanaşdıq. Obrazlı, eydet tipli sfera pulun dərin mahiyyətinin başa düşülməsinin fərdi, nəticə etibarilə təsadüfi başa düşülməsini təmin edir ki, bu da tamamilə şüurun adi gündəlik səviyyəsinə uyğun gəlir. Lakin gündəlik, sosial-empirik səviyyədən başqa, alogik eydosa qarşı duran *Loqos* qaydası da mövcuddur[23]. *Loqos*, pul fenomeninin başa düşülməsində, bütöv mənzərəni kateqorial tərkib hissələrə ayıran (parçalayan) eydet xəyalpərəstliliyini qəbul etməyərək, bu anları, onların «varlığın başqa formasına» təcəssüm (simvol üçün) etdirərək, yəni sosial-iqtisadi və mədəni münasibətlər sistemində fiksə edir.

Məhz burada biz pula qarşı «fəaliyyət», «münasibət», «kəmiyyət», «ölçü», «keyfiyyət» və s. kimi kateqoriyaların tətbiq oluna bilməsi haqqında danışmağa başlayırıq. Pulun sosial-mədəni varlığın başqa fenomenləri ilə bir sırada başa düşülməsi buradan başalyır. Bu planda, pul simvolunu idraki, iradi, hissi aktlar kimi başa düşərək, *Loqos* pulun, xalqların və ayrı-ayrı fərdlərin həyat fəaliyyəti tarixində hansı adla çıxış etmələrindən asılı olmayaraq, bütün müxtəlif talelərinin dəstəyi və əsası kimi çıxış edir. Məntiqi quruluş tədqiq olunan obyektin predmet mahiyyətinə nüfuz etməyə imkan verir. Pulun müxtəlif mümkün təzahür tipləri onların ilkin mahiyyətlərindən nə qədər fərqlənsə də yalnız məntiqi yanaşma, onların yalnız onun vasitəsilə idarə edildiklərini və yalnız ondan çıxdıqlarını başa düşməyə və dərk etməyə imkan yaradır. Çünki pulun

mahiyyəti məna və varlıqla doludur və o, həyatın mənbəyidir, bu da getdikcə yeni-yeni təriflər doğurur. Canlı, həqiqi mahiyyət tədricən öz simasının yeni-yeni hadisələrini bəyan edir[24]. Mahiyyətdən simvola və əksinə daimi transformasiya bununla əlaqədardır.

«Canlı mahiyyət» nə deməkdir? İnsana münasibətdə işlədilən «canlı» sözü son dərəcə maddi oyektlə əlaqədə öz mənası ilə o qədər də adekvat görünmür. Lakin pul – özünə semantika və başqa anları daxil edən eydetik tərəfə malik olan münasibətdir, simvoldur, buna görə də o öz mahiyyətinin dərinliklərindən tədricən yeni-yeni «məna enerjiləri» buraxır. Bu planda, pul öz mövcudluğunun təkcə xarici yox, həm də daxili tərəfini nümayiş etdirir. Çünki insanların, təsərrüfatçılıq dünyası – canlı dünyadır. Səthi rasionalizmi təbliğ edərək, biz belə deyə bilərik ki, pulun nə olduğunu (onun funksiyalarını, onun insana nə etdiyini, ona sahib olmağın mahiyyətinin nədən ibarət olduğunu və s.) bilirik və ya bilə bilərik. Mücərrəd anlayışlarla kifayət qədər əhatə olunmuş belə bilik təsvir edilə və ifadə oluna biləndir; görünür ki, biz təkcə onların xarici yox, həm də daxili mahiyyətini sona qədər bilə bilərik.

> *«Heraklitin Loqosu kosmosun harmoniyasının ifadəsidir, onun daxilində isə ayrı-ayrı hissələr əməkdaşlıqda və mübarizədədir. Əksliklər oyunu aşağıdakı sözlərlə ifadə olunur: «Lukanın adı həyatdır, onun işi isə ölümdür». Heraklitin bu simvolunda orta yolun dərin mənası durur ki, bu da əksliklərin itələnməsindən harmoniyaya keçidi ifadə edir. Məsələn, pula qarşı səxavətlilik xəsisliklə israfçılıq arasındakı sıfır səviyyəli məntəqə deyildir, amma müsbət dəyərə malik olan iki funksiyanın sintezi, onların əksliyinə baxmayaraq – məhz pulun əldə edilməsi funksiyası ilə onun sərf edilməsi funksiyası, istehsal və bölüşdürmə arasındadır. Hər iki funksiya olmadan mesenat qeyri-mümkündür. Xəsislik, israfçılıq kimi, bu funksiyaların real ziddiyyətliliyini əmələ gətirir, belə ki, pulun sərfiyyatı onun qazanılmasına uyğun gəlmir».*
>
> B. Vışeslavsev

Lakin bu, kifayət qədər səthi, abstrakt-metafizik və sadəlövh baxışdır. Bu halda, həm aydın, həm anlaşılan, həm də «sonuna qədər» təsvir edilən bilən verilmiş obyekt və ya hadisə ilə biz heç bir *real həyati münasibət* tapa bilmirik, həmçinin, bu cür obyekt və ya hadisə belə ehtirasların, hislərin, təəssüratların, həyati məna kəsb edən oriyentasiyaları və s. simvolu kimi çıxış edə bilməz. Çünki simvol

ali funksiyaları ifadə edir və bunun nəticəsində «tərkib, nə isə irrasional bir şey kimi, ifadə içərisindən sayrışır, simvol isə irrasional dünya ilə mistik dünya arasında əlaqələndirici körpü rolunu yerinə yetirir»[25]. Bu aspekt istənilən simvolun tərkibinin çoxölçülüyünü açır.

Bütün təsərrüfat münasibətləri (o cümlədən, əxlaqi-emolsional) spektirinin əsası kimi çıxış edərək, pul öz həyati mahiyyətini nümayiş etdirir. Ayrılmaz, substansional əsası olan, özünü bütün qanunauyğun və təsadüfi, böyük və kiçik təzahürlər arxasında qətiyyətlə və daimi olaraq möhkəmləndirən şeyi sevmək, ona nifrət hörmət, pərəstiş etmək olar və s. İnsanın siması kimi, pulun eydosu da onun simvolik formasında eyni çalarlarda yeni-yeni imkanlar nümayiş etdirərək canlı məna və canlı mahiyyət ifadə edir. Yalnız bu sima ilə pul, insan təşəbbüslərinin təzahüründə olduğu kimi, «canlı» ünsiyyət qabiliyyətinə, xüsusiyyətinə malik ola bilər. Nəticə etibarilə, nə eqnostisizm, nə də rasionalizm yox, məhz *simvolizm* pulun mahiyyətinin dərk edilməsində yol göstərən ulduz kimi çıxış edə bilər. O, hər an öz mahiyyətlərinin bu və ya digər tərəfini ifadə edir, sona qədər ölçülə bilmir, çünki mahiyyət (Loqos kimi), bütün mahiyyətin iştirak etdiyi öz mövcudluğundan daha dərin və daha ölçülə bilməzdir. Mahiyyətin irrasional dərinliklərinin iştirakına baxmayaraq və onlar sayəsində yalnız simvol dəqiq ideya kimi çıxış edir.

## 7. PUL SİMVOLUNUN EKZİSTENSİANAL ENERJİLƏRİ

Tükənməz mahiyyət «dənizi» «üzə çıxan eydosun» (*A.F.Losev*) sərt sahillərini, verilmiş halda, inkişaf, təsərrüfat prosesində ortaya çıxmış pul fenomeni yuyur. Bu fenomen daxili ekzistensianal enerjilərlə doludur və bu enerjilər ona nüfuz etmişdir, çünki o, öz dərin tərkibində «mahiyyətin bütöv simvolik siması» kimi çıxış edir. Nəticədə simvol özünün «mədəniyyətin dərinliyi» ilə hərəkəti prosesində təkcə məna itirmir, həm də qazanır[26]. Nəticə etibarilə, pulun simvolik təbiəti kontekstində həyata keçirilən mənanın formalaşması prosesi «şəxsi mənaların, həqiqətin konseptual dərk edilməsinin və cəmiyyətdə daimi olan həmin gərgin dialoqun, ümumən mədəniyyətin» hərəkətidir[27]. Bu kontekstdə «pul» anlayışı təkcə müəyyən sosial-iqtisadi, mədəni-mənəvi vəziyyətin yox, həm də insanın dünyaya münasibətinin bütün spektri kimi çıxış edən «başqada» verilmiş mahiyyətdir. Pulun mahiyyətinin «başqa» varlığı onun enerjisi, pulun öz mahiy-

yətindən ayrılmaz, lakin onun apofatik (hiss olunmayan) dərinliyindən fərqlənən irrasional daxili gücdür[28]. Beləlikə, «pul» anlayışı (*adı*) məna ifadəsidir, çünki mövcudluğun rasional-simvolik parametrlərində predmetlərləşərək öz mahiyyətinin enerjisini aşkar edir.

*Simvol – varlıq fenomenlərini məna ilə təmin edən, onların tərkibini söz (ad) vasitəsilə həyat sferasına daxil edən şeydir.* Sosial-mədəni və təbii həqiqət öz rəngarəngliyində ad məntiqinin – ismin təhlili vasitəsilə aydınlaşdırılır. Çünki fərdi həyat «ata-baba tarixi yaddaşında ad vasitəsilə qalır. Ad vasitəsilə fərdin, öz fərdiyyətini itirmədən ata-baba mədəniyyət bütövlüyünə daxil olması baş verir»[29]. Simvolda özünün tam tərifinə çatmış adı dialektik təsvir etmək, bütün mahiyyətin, onun bütün tabe anları ilə birlikdə təsvirini ifadə eməkdir. *İçərisinə tərkib elementlərinin (məsələn, «pul» sözü) bütün həcmi daxil olan simvollar, onun əsasını, gücünü, məqsədini və istiqamətliliyini ifadə edir və təkcə konkret iqtisadi situasiyada yox, həm də ümumiyyətlə təsərrüfat həyatında, dərk olunmuş varlığın maksimal gərginliyini əks etdirir.* Çünki məna «təskinlik (rahatlıq) ifadə etmir: bundan başqa, sakitliyə can atma məna axtarışında məneə kimi çıxış edir». Gərginlik insanı öz gücünü açmağa vadar edən şərtdir. Əgər o, həqiqətin üzünə tələşsız baxsa, onda başa düşüəcəkdir ki, həyatın, insanın öz güclərini açaraq, yaradıcı şəkildə yaşayaraq verdiyi mənadan başqa heç bir mənası yoxdur; yalnız daimi fəaliyyət, fəallıq və məqsədyönlülük bizi qarşımızda duran vahid vəzifədə – bizim mövcudluğumuzun qanunları ilə verilmiş sərhədlərdə gücümüzün tam inkişaf etdirilməsi vəzifəsində uğursuzluqdan qoruya bilər[30]. İnsan varlığını stimullaşdıran başlıca energetik güc həyatın mənasını təcəssüm etdirən simvolun mənasının başa düşülməsindədir. Pul, bu aspektdə simvol kimi, fərdin mövcud olduğu fəaliyyətin mənasını açır.

Pulun adı (söz, isim) ilə ifadə olunmuş simvolda «məna və ağıllı harmoniya dünyasında canlı məxluqların ağıllı ünsiyyəti, varlığın canlı enerjilərinin dərk olunması yer alır»[31]. Bu tərifdə bizim tərəfimizdən təhlil olunan pulda olan emosional mənalar ifadə edilir. Çünki ad özü bu və ya başqa hadisənin predmet tərkibini əks etdirmir, həm də onları yaradır, çünki onların Loqosunu, onların fərdlərlə, xalqlarla və bütünlükdə dünya ilə qarşılıqlı fəaliyyət meyarını özüdə cəmləşdirir. Həmçinin simvolda ad vasitəsilə insan sözünün enerjisi açılır. Pulun simvolik mənasının empiriktəsviri təhlili göstərir ki, artıq «pul» sözünün özünə (insanlararası kommunikasiya və münasibətlərin nəticəsi və üsulu kimi) bütün düşünlümüş

xərclərin yekunu daxil olur və insan subyektində bütün elan olunmuş enerjilər sığışır.

Nəticə etibarilə, insan, fəaliyyət subyekti kimi, eyni zamanda, həm fiziki, həm üzvi, həm sensual, həm də «noetik enerjinin» daşıyıcısıdır. Həmçinin, *A.F.Losevin* hesab etdiyi kimi, noetik (fikri-mənəvi) enerji özünün bütün növlərində – porseptiv, imaginativ, koqnitiv (kogitativ) növlərdə insan üçün mümkündür. Eyni mənada, insan sözü də (məsələn, təhlil edilən «pul» sözü kimi, eyni zamanda, bütün elan olunmuş «enerjilərin» daşıyıcısıdır[32]. Sosial-mədəni orqanizmin başqa tərkib elementləri ilə, ümumən təsərrüfatla qarşılıqlı fəaliyyətə girərək, enerjilərdən hər biri, insan subyektinin ümumi məqsədəuyğunluğunu əks etdirərək daimi, eyni zamanlı fəaliyyət prosesində dəyişir. Bunun sayəsində, o, öz ifadəsini məna yaradan anlayış – sözlərdə tapır. Bunların arasında ən mühüm yerlərdən biri pula məxsusdur. Çünki bu söz təkcə iqtisadi yox, həm də ümumiyyətlə sosial-mədəni həyatda ən çox istifadə olunan sözdür.

Fəaliyyətdə olan subyektin «pul» anlayışının mahiyyətinə daxil olması onu ifadə edir ki, təsərrüfat prosesində o, özünü pulun predmet mahiyyətin enerjisinin təcəssümü kimi dərk edir. Söz, anlayış – ağılda cisim, predmet və anlayışdır. Başqa sözlə, mahiyyətin enerjisi mahiyyətin özündən ayrılmazdır və həmişə onun daxilindədir[33]. Buna görə də o, subyekt tərəfindən yaradılmır, onu elə tərtib və dərk edir ki, adətən bunu cismin öz mahiyyətinə münasibətdə də edir. Nəticə etibarilə, pul, gündəlik «pul qazanmaq» ifadəsinə baxmayaraq, bu və ya başqa subyekt tərəfindən yaradılmır (amma subyekt pulla əşya, predmet kimi rəftar

> *«Mənim haqqımda deyirlər: «O, niyə fəlsəfəni sevə-sevə varlı olmaqda davam edir? niyə o, var-dövlətə nifrət etmək gərəkdiyini öyrədir, özü isə var-dövlət toplayır? Həyata nifrət edir – amma yaşayır? Sağlamlığa nifrət edir, amma bununla belə, öz sağlamlığının çox qayğısına qalır? Sürgündə yaşamağı boş şey sayır, ancaq əgər əlindən gəlsə, öz vətənində qocalıb elə orada da öləcəkdir?»*
>
> *Mən isə deyirəm ki, bütün bunlara ona görə nifrət etmək lazım deyildir ki, onlardan imtina edəsən, ona görə ki, onlar haqqında narahat olmayasan. Müdrik, var-dövəti sevmir, lakin o, varlı olmağı yoxsulluqdan üstün tutur; o, var-dövləti evində yox, ürəyində toplayır».*
>
> Lutsiy Anney Seneka

edir). O, subyektə təsir göstərir, onun düşüncələrini təsərrüfat məntiqi üçün zəruri olan istiqamətlərə yönəldir. Subyekt simvolun təsiri altında, verilmiş anlayış-sözün enerjisini təcəssüm etdirərək özünü fəal olaraq yenidən təşkil edir və pulun mahiyyət enerjisi getdikcə daha çox onda təcəssüm olunur. Nəticə kimi, təsərrüfat «subyekti» və «obyekt» (pul) qarşılıqlı təsirə girərək ünsiyyətdə olur və müəyyən situasiyalarda, hətta öz aralarında obyekt-pulun cismi-simvolik enerjisi vasitəsilə eyniləşdirilir.

## 8. ELM KONTEKSTİNDƏ SİMVOL

Simvolar aləmi cisimlərin ontoloji əsasını müəyyən etməkdən başqa, həm də özündə, hisslərin subyektivizmi ilə birlikdə anlayışların obyektivizmini, həmçinin aksiomların mücərrədliyini, doqmatizmi və primitiv missti-sizmini də dəf etməyə imkan verən idrakın bütövlük metodologiyasını əks etdirir. Qneseologiyanın dünya görüşü konteksti idrakın mənəvi istehsal, dünyanın özünküləşdirilməsi və onun nəticələrinin mənimsənilməsi üsulu kimi geniş təhlilini nəzərdə tutur[34]. Bu şərait pul simvolunun məna yaradılmasının əsasına, insanın mahiyyət güclərinin reallaşdırılması formasının onların nəzəri və mənəvi-praktiki oriyentasiyasına daxil etməyə imkan verir. *Varlıq simvolu kimi, pulda ağlın obyektiv ümumiliyi subyektiv mərkəzləşmə, ağlın «xəyalpərəstliyi» və hisslərin coşğunluğu əlaqələndirilir.* Bu, ona görə mümkündür ki, simvol özündə maksimum idrak azadlığını əks etdirsin, çünki o, məntiq qaydaları ilə buxovlanmamışdır və hisslərin qeyri-mükəmməlliyi ilə xarakterizə olunan obraz (eydos) kimi çıxış edir. Eyni zamanda, simvol «xaosda nizamlılığın» mənbəyidir.

> *«Tacirlər üçün pul, sənətkar üçün alətin ifadə etdiyi kimi, yalnız növbəti asan qazanc üçün vasitəni ifadə edir. Onlar öz kapitallarını saxlamağa, dövriyyələrlə artırmağa və sonuncunun, heç olmazsa, tam olaraq əllərində qalmasına çalışırlar. Məhz buna görə də sərvət heç yerdə, ticarətdə olduğu qədər adi hadisə kimi çıxış etmir».*
>
> A. Şopenhauer

Sözün, anlayış, ad kimi təhlili əsasında elmin bölünməsi haqqında təlim ortaya çıxır. Çünki söz anlayışı – ümumiyyətlə, elmi şüur anının mahiyyətidir. «Pul» anlayışının mahiyyət mənasını fərqləndirərək, biz aydınlaşdırdıq ki, onun mənası və fakt başa düşülən və ya ifadə olunan tərkib və faktla – simvolla eyniləş-

dirilir. Buna görə də xalis predmet mahiyyəti və ya qismən məna ilə məşğul olan bir cür elmlər və varlığın başqa formasına (təbii və ya sosial reallıq), fakta keçmiş mənaları öyrənən başqa cür elmlər və başa düşülən məna, mənanın ifadə olunması, simvolar haqqında üçüncü bir cür elmlər fərqləndirilir[35].

Ancaq, simvol da hər hansı məna, onun müəyyən strukturu olduğundan, elmlərin «faktiki» elmlərə və «məna» elmlərinə bölünməsi haqqında danışmaq olar. Başqa sözlə, məna haqqında və faktlar haqqında elmlər mövcuddur. Anlayış, öz əsasında sözlər – ağılla dərk olunan, hiss olunan xalis mənadır: «ağıl», «ratio» və mənanın modifikasiyasıdır. Lakin məna həm də ifadədir. Məna və ya simvol ifadəsi altında mənanın mənadakənar anlarla uyğunlaşdırılması, mənanın onun alogik anları ilə eyniləşdirilməsi nəzərdə tutulur. Bu ifadə haqqında «xüsusi elmi idrak – *ifadə Loqosu* mövcud olmalıdır ki, bu da *simvol* deməkdir. Çünki simvol və ya ifadə bütün mahiyyətin, onun bütün ayrı-ayrı anları ilə birlikdə ifadəsidir»[36].

Beləliklə, məlum olur ki, pulun mahiyyəti özünə bütün mümkün mənaları bir nöqtədə – insan münasibətləri təbəqələrini simvolizə edən öz adında, anlayışda birləşdirir. Bu simvol – nöqtəni onun özüifadəsində, onun enerjilərində genişləndirərək müxtəlif məna «şüalanmaları» əldə edirik. Pul anlayışının mahiyyəti, adətən hər hansı bir fəaliyyət (estetik, əxlaqi-etik, metodoloji və s.) kontekstində nəzərdən keçirilir. Elmi təhlil bütün kənar təsirlərdən abstraktlaşmağa imkan verir ki, bu da onlar haqqında bütöv təsəvvür formalaşdırmağa şərait yaradır.

## 9. PULUN VARLIQ SİMVOLİKASINDA MÜƏYYƏN EDİLMƏSİ

Simvollar, elmi-metodoloji rolla yanaşı, ictimai həyatın dəyişdirilməsi və təşkili aləti kimi çıxış edərək mədəni-sosial funksiyaları da yerinə yetirir. Belə ki, yeni həyatın yaradılması hər zaman yeni simvoların daxil edilməsi ilə başlayır. Buna parlaq nümunə kimi, onu göstərə bilərik ki, hər bir yeni dövlətin qurulması mütləq yeni pulun – *mümkün* iqtisadi maddi – rifah halının və azadlıq simvolunun dövriyəyə buraxılması ilə başlanır. Pul, simvol gerb, bayraq və s. kimi mütləq sözlərlə bərabər gəlir. Yeni buraxılmış pulların üzərində mütləq surətdə millətin və ölkənin ləyaqətini, ağlını, gözəlliyini, şərəfini, şöhrətini, müdrikliyini təcəssüm etdirən simvol – təsvirlər olur. Bunlar, xalqın mənəvi gücünü simvolizə edən memarlıq və tarixi abidələr, elm, mədəniyyət, incəsənət xadimlərinin portretləridir.

> *«Platonun Erosu qəlbin sonsuzluğa gedib çıxan və tərkibinə görə çoxobrazlı olan, lakin həmişə varlığın böyüməsinə istiqamətlənən canatma funksiyasını ifadə edir. Eros həyata aşiq olmaqdır, «varlıq effekti», tamlıq həvəsi, bütövlük həvəsi, gözəllikdə doğulma, əbədi həyat həvəsidir; son nəticədə isə Eros təcəssüm, şəkil dəyişmə və dirilmə həvəsi, insanın doğulması, bu həqiqi «gözəlliklə doğulmanın» arzu edilməsi, pərəstiş və inam həvəsi, nəhayət, dünyanı gözəlliyin xilas edəcəyinə inamdır».*
>
> B. Vışeslavtsev

Analogiya aparılması başqa real predmetlər haqqında danışmaq imkanını təmin edir: arxaik mədəniyyətlərdə sonsuzluq simvolu kimi, dairə, çarx və mumya haqqında; antik dövrdəki ümumi təbiət emblemləri su, torpaq, od, hava) haqqında, onun daxilində, eydos kimi ideyanın, bədən və jestin vəhdətinin təcəssümü kimi, heykəltaraşlığın rolu haqqında; xoralın, cəbrin, kabbalın və əlkimyanın işarə sistemləri haqqında. Yeni Avropa mədəniyyəti dünyaya dinamik baxışın artıq çoxsaylı simvolik strukturları ilə xarakterizə olunur. Buraya riyaziyyatda tətbiq olunan dillərdən, fuqa və sonnatanın hərəkət edən obrazlarına qədər, əmtəə dövriyyəsi fetişindən, tətbiqi-aparat fəaliyyəti – pərgar və tərəzi (layihələşdirmə və ölçmə obrazı kimi) simvolikasına qədər, görünənin sərhədini keçmək simvolu kimi teleskop və mikroskop daxildir[37]. Bü dövrdə pulun gücü və stabilliyini təcəssüm etdirən müasir bank sisteminin formalaşmasının baş verməsi də diqqətəlayiqdir. *Hər bir bank öz nüfuzunu saxlamaq üçün, müştərini bankın mötəbər stabil bir təsisat olduğuna, onunla daimi işgüzar əlaqələr saxlamağın, pul qoymaq Maliyyə hesablaşmaları aparmağın mümkün və lazım olduğuna inandıran müxtəlif simvolardan istifadə edir.*

İnsan simvoldan xüsusi, şüur vasitəsilə yaranan həyat hadisəsi kimi, predmet-əlçatmaz olana yaxınlaşmaq, gündəlikliyin sərhədindən, kənara baxmaq üçün labüd olaraq istifadə edir. Məsələn, ölüm şəxsi fərdi təcrübə hadisəsi kimi hiss oluna və təsvir edilə bilməz. Öz ölümünün təsvir edilməsi üçün canlı olmaq lazımdır, bu isə qeyri-mümkündür. Buna görə də insan üçün şəxsi ölüm özündərketmə faktı deyil, «mövcud olan qanunun» simvoludur (*M.Mamardaşvili*).

Nəticə etibarilə, *simvollar təkcə mədəniyyət dili kimi yox, insanın həyat fəaliyyətinin vəziyyəti kimi də çıxış edir*. Simvollar «varlığın xüsusi semiotik fakturasını və ya onun mental ontologiyasını yaradır»[38], bu isə mənəviliyin

özünəməxsus ontologiyasını tələb edir. Çünki pul cəmiyyətin ümumi mənəvi vəziyyətindən qırılmamışdır, o, təkcə dünyanın mexanistik mənzərəsini əks etdirmir, həm də təsərrüfat, sosial-siyasi və mənəvi-mədəni orqanizmin müəyyən keyfiyyət göstəricisi kimi çıxış edir. *V.Zombart* yazırdı: «Təsərrüfat hadisələrinin düzgün başa düşülməsinin ilkin şərti təsərrüfat həyatının ruhunun çox müxtəlif ola bilməsinin dərk olunmasından ibarətdir; bu, o deməkdir ki, sahibkarlıq üçün tələb olunan təsərrüfat fəaliyyətlərində səmimi keyfiyyətlər, ayrı-ayrı hallarda, təsərrüfat fəaliyyətinin müəyyən olunduğu rəhbər ideya və prinsiplərin fərqləndiyi kimi fərqlənir»[39]. Buradan aydın olur ki, pulun simvolik mənası təsərrüfat reallığı kontekstində yazılmışdır.

Simvollar həqiqətin bütün tərəfləri və aspektləri ilə əlaqədardır. Buna görə də onları müxtəlif növlərə bölmək olar. Qədim Yunanıstanda, misal üçün, *Loqos* – antik ruhun ən mərkəzləşmiş ifadəsinin konsepsiyası işlənib hazırlanmışdı. O, ağlın *Loqos* (yəni insanın başındakı intellekt) və *Sofiya* (varlığın konkret təzahürlərinin müdrikliyi) kimi ikili şərhinə istinad edirdi. Loqos – varlığın qanun, qayda və quruluşunun simvoludur. Sofiya isə Yaradıcının, yaradılışın və yaradılanın vəhdətini simvolizə edir. Buna görə də cisimlər, bütün öz utilitarlıqları, istehlak olunanlıqları, maddi sferanı yarada bilmək qabiliyyətləri ilə birlikdə, eyni zamanda, varlığın mənəvi niyyət əlaməti kimi, ali mənaların işarəsi kimi nəzərdən keçirilirdi[40]. Bu mənalara birləşmək «fərəhli bədiilik» kimi çıxış edir, çünki bu, cisimləri (əşyaları) təkcə məişət predmetləri, istifadə vasitələri və həyat prosesinin tərkib hissələri kimi yox, həm də ünsiyyət simvolları, alleqorik ifadə varlığında xarakterizə edir.

Başqa növ simvollar da mövcuddur, baxmayaraq ki, onlara münasibətdə istənilən təsnifat şərtidir, çünki onları tamlıqla açmaq mümkün deyildir. Həmçinin, *S.Averintsevin* hesab etdiyi kimi, simvol ikili ölçüyə malikdir. Bu, ya işarə funksiyasının obrazı, ya da obraz funksiyasının işarəsidir. Məsələn, xaç işarəsi bütün istiqamətlərə keçid və çıxış obrazını verir; o, göylə yer, Tanrıyla şeytan, cəhənnəmlə cənnət, əsarətlə qurtuluş arasındakı məsafəni ifadə edir. Bu simvol-işarə dünya oxunu, dünya ağacını, edam alətini, ölümü və onun üzərində qələbəni, inam və sədaqət obrazlarını assosiasiya edir. Əksinə, balıq obrazı isə işarə mənası vasitəsilə qədim yunan dilindəki ixtios sözünün simvolu kimi çıxış edir.[41] Buna görə də ən geniş yayılmış varlığın rəqəmli simvolikası fərqləndirilir (məsələn,

Troitsa və ya «müqəddəs Tetratiks»). Klassik fəlsəfə sistemlərində «varlığın ənənəvi alqoritmi vasitəsilə varlığın mahiyyəti açılır. *Q.Qalileyin* məşhur triadasını və ya *İ.Q.Fixtenin* «antitetik metodunu» xatırlamaq kifayətdir». Varlığın rəng-işıq simvolikası mövcuddur: qeyri-varlıq – qara rəng, varlıq – ağ rəng; göy rəng – sonsuzluq, varlıqdan kənar; varlıq – işıq; qeyri-varlıq – qaranlıq. Həmçinin, əxlaqi, dini, tarixi, mistik, siyasi və s. simvolikalar da mövcuddur. Hər bir fəlsəfi sistem özündə dünyəvi müdrikliyi və biliciliyi (əllaməliyi) əks etdirən özünün ali simvolunu, özünün bir növ «fəlsəfə daşını» ucaltmağa çalışır. Bu, antikliyin Loqos və Sofiyası, yeni Avropa fəlsəfəsinin ratio və sensusu, *Q.Hegelin* «Dünyəvi ruhu», *A.Şopenhauerin* «dünyəvi iradəsi», *Q.Skovoradanın* «ürəyi», *K.Yasperin* «fəlsəfi inamıdır» və s.

Sosial-iqtisadi fəaliyyət sferasında simvollar təsərrüfatın ümumi prinsiplərini müəyyən edən arxetiplər formasında əks olunur. Bu planda, pul təsərrüfat orqanizminin fəaliyyətinin tənzimləyicisi kimi çıxış edir, onun funksionallığını və dayanıqlılığını təmin edir.

«Pul arxetipinin» simvolik rolu təsərrüfatın qapalı mənalarını açmağa və bununla da onun təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməyə kömək edir. Özünü pulda reallaşdıran kapital üçün iqtisadi və təsərrüfat fəaliyyəti sistemində əsas amil, fəaliyyətdə olan fərd kimi, öz səylərini axtarılan şeyə – sərvətə, maddi nemətlərə nail olmağa istiqamətləndirən təsərrüfat subyektini xarakterizə edən «işgüzar insan» arxetipidir. Həmçinin, sahibkarlıq fəaliyyəti prosesini əks etdirən və maksimal pul mənfəətinin əldə edilməsini nəzərdə tutan arxetipi də fərqləndirmək olar. O, təsərrüfatın açıqlığını, öz şəxsi sərhədləri çərçivəsindən çıxmaq imkanını, pulun ən mühüm rol oynadığı başqa sahibkarlıq və iqtisadi problemlərlə və ümumiyyətlə, təsərrüfatla qarşılıqlı əlaqədə nə isa «canlı» iş, «canlı» orqanizm kimi çıxış edir, çünki o, bu fəaliyyətin mənasını, məqsədəuyğunluğunu simvolizə edir.

Pulun ümumi ekvivalent rolunu, alqı-satqı zamanı dəyər ölçüsünü, kapital, vasitə, mübadilə və s. rolunu oynayan əmtəə kimi müəyyən edərkən, sosial-mədəni sferada, qarşılıqlı fəaliyyətin və qarşılıqlı tənzimləmənin tanınan «mediatoru» kimi, onun simvolik mənasını fərqləndirmək lazımdır. Pulun simvolik mənası, həmçinin, «enerjinin informasiya ekvivalenti» kimi nəzərdən keçirilir, çünki o, söz kimi informasiya dəyərinə malikdir. O, həyati təminatın maddi vasitələri (yemək, istilik, yaşayış yeri) kimi çıxış edə bilmir, lakin o, biosistemlərin həyat fəaliyyətinin təmin olunması üçün ener-

ji və material daxilolmalarını təmin edə bilmir. Bu səbəbdən, «pul – enerjinin şərti informasiya ekvivalenti və biosistemlərin qarşılıqlı təsir mediatorudur»[42]. Bu mövqedən, pul öz dəyərliliyinin ən mühüm şərtini – onun adından, sözündən, anlayışından reallaşdırılan şeyin qabiliyyətsizliyini simvolizə edir ki, bu da insan cəmiyyəti həyatının ümumi qəbul olunmuş qaydalarından biridir. Belə yanaşma məşhur fikrin düzgünlüyünü müəyyən edir: «Söz – puldan bahalıdır» və başqa buna oxşar həyati fikirləri. Çünki bu halda pulda olan informasiya enerjisi, bu informasiya enerji axınını situasiya ilə əlaqədar lazımi və ya tələb olunan istiqamətə yönəldən sözün gücü ilə eyniləşdirilir.

O fikirlə razılaşmaq olar ki, pul, simvol kimi, *informasiya kompleksidir*. Lakin istənilən simvol informasiya daşıyıcısıdır. Skiflər onların torpağına müharibə ilə daxil olmuş İran şahı Daraya məhz bu yolla məktub yazmışdılar. Onlar işğalçılara iki ox, siçan, quş və qurbağa göndərmişdilər. Fars müdrikləri bu müraciətnaməni (məktubu) dil müraciəti kimi oxumuşdular: əgər işğalçılar quş kimi göyə uçmasalar, siçan kimi yerə girməsələr, qurbağa kimi suda gizlənməsələr, onda skif oxları onları hər yerdə haqlayacaqdır. Nəticə etibarilə, gündəlik həyat cisimləri qeyri-verbal dil ilə informasiya verə bilər. Bu, simvolun əmələ gəlməsi və fəaliyyət göstərməsi prosesini nəzərdən keçirməyi şərtləndirir.

Problemin belə aspektdə qoyuluşu pulun, onun fəaliyyətinin yalnız instinktlər vasitəsilə motivləşdirilməsi ilə assosiasiya təşkil edən ideya mahiyyətinə görə əsas, dominant kimi müəyyən olunduğu situasiyaya qədər müxtəlif intensiyalarını aşkar etməyə imkan verir. Pulun tərkibi və təsərrüfat-mədəni mənası kontekstində, simvol kimi nəzərdən keçirərək biz özümüz üçün varlığın məna tərkibli quruluşunu müəyyən edirik. Ağsaqqal Osiya haqqında Bibliya dövründən qalan qədim pritça mövcuddur. Pritçada Osiya ömrünün sonunda bütün öz var-dövlətini uşaqlarına, borclarını insanlara, vergiləri – şaha, ürəyini arvadına, qorxusunu isə Tanrıya vermiş, özünə isə günəşin qürubu zamanı xüsusilə uzun müddət və gözəl görünən yalnız zeytun ağacı altındakı yeri saxlamışdı. Bu yerdən Osiya əmlakın cismiliyini, pulu, bədən və onunla bağlı hissləri üstələyən şeyi görmüşdü. Onun qarşısında zaman, sonsuzluq, işıq, gözəllik və varlığın gəldi-gedərliyi simvolları açılmışdı. Ola bilsin ki, həyata məhz bu yanaşma insanın özünü mədəniyyət simvollarında ifadə edən Universimuma münasibətinin həqiqətini müəyyən edir.

## ƏDƏBİYYAT

[1] *Гегель Г.В.Ф.Эстетика: В 4-х т..* – М., 1969. – Т. 2. – С. 365
[2] Ильенков э. В. Диалектическая логика. Очерки истории и теории. – М., 1974. – С. 193.
[3] Yenə orada.
[4] *Бердяев Н.А.* Судьба Росии. – М.: Харьков, 1998. – С. 241.
[5] Бахтин М. М. Эстетика словесного творчества. – М. 1979. – С. 76.
[6] Лекторский В. А. Гуманизация, гуманитаризация и культурологический подход компанийа образования // Вопросы философии. – 1997. - № 2. – С. 4.
[7] Тутов Л. А. Философия хозяйства. Опыт духлвного преображения. – М., 2003. – С. 114.
[8] Лосев А.Ф. Философия имени. – М., 1990. – С. 40.
[9] Yenə orada. S. 41.
[10] Yenə orada. S. 42.
[11] Yenə orada. S. 45.
[12] Yenə orada. S. 41.
[13] *Волкова Е.В.* Пространство символа и символ пространство в Работах Ю.М.Лотмана. – С. 151.
[14] *Гегель Г.В.Ф.Эстетика: В 4-х т..* – М., 1969. – Т. 2. – С. 365
[15] *Лосев А.Ф.* Философия имени. – М., 1990. – С. 55.
[16] Yenə orada. S. 98.
[17] Yenə orada. S. 41.
[18] Черняк В.З. Деньги. – М., 1997. – С. 134.
[19] *Лосев А.Ф.* Философия имени. – М., 1990. – С. 113.
[20] Yenə orada. S. 115.
[21] *Волкова Е.В.* Пространство символа и символ пространство в Работах Ю.М.Лотмана. – С. 152.
[22] Лотман Ю.М. Внутри мыслящих миров. – М., 1996. – С. – 123.
[23] *Лосев А.Ф.* Философия имени. – М., 1990. – С. 149.
[24] Yenə orada. S. 150.
[25] *Волкова Е.В.* Пространство символа и символ пространство в Работах Ю.М.Лотмана. – С. 152.
[26] *Лосев А.Ф.* Философия имени. – М., 1990. – С. 157.
[27] Андрос Э.И. Криза людськои самоидентификации и програма смисоиутворения – Филосовска антопология: екзистенциальни проблеми. К., 2000. – С. 153.
[28] *Лосев А.Ф.* Философия имени. – М., 1990. – С. 162.

[29] *Волкова Е.В.* Пространство символа и символ пространство в работах Ю.М.Лотмана. – С. 153.

[30] *Фромм Э.* Человек для себя. – Минс, 1996. – С. 50.

[31] *Лосев А.Ф.* Философия имени. – М., 1990. – С. 166.

[32] Yenə orada. S. 167.

[33] Yenə orada. S. 185.

[34] *Крымский С.Б.* Философия как путь человечности и надежды. – С. 83.

[35] *Лосев А.Ф.* Философия имени. – М., 1990. – С. 187.

[36] Yenə orada. S. 188-189.

[37] *Крымский С.Б.* Философия как путь человечности и надежды. – С. 62.

[38] Yenə orada. S. 63.

[39] *Зомбарт В.* Буржуа. Этюды по истории духовного развития современного экономического человека. – М., 1994. – С. 78

[40] *Крымский С.Б.* Философия как путь человечности и надежды. – С. 63.

[41] Yenə orada. S. 62.

[42] *Турищцев Л.А.* Деньги и идея // Философия хозяйства. – 2002. - № 4 (22). – С. 124.

# İQTİSADİ HƏYATDA MENTALİTET

•

## *Milli psixologiya və mentalitet*

•

## *İşgüzar münasibətlərdə dünya xalqlarının mentalitetinin xüsusiyyətləri*

# MİLLİ PSİXOLOGİYA VƏ MENTALİTET

*Bu gün heç kim şübhə edə bilməz ki, tarixi, sosial, mədəni, iqtisadi tərəqqi dövrün tələbat və tələblərini təcəssüm etdirən şəxsiyyətin inkişafı səviyyəsindən asılıdır. Lakin şəxsiyyət – abstraksiya yox,* ***davranış, əxlaq xüsusiyyəti, təfəkkür mədəniyyəti, bu və ya digər əxlaqi dəyərlərin seçilməsinə istiqamətləndirmə – milli xarakteri təşkil edən hər şeydir.*** *Həyat axınında baş verən bütün nailiyyət və itkilər məhz bu xarakterlə şərtlənir. Dünya təsərrüfat tarixi göstərir ki, bütün əldə etmə, qazanma, hasilat və s. milli xarakterlə bağlıdır. Bu an hələ Bibliya (İncil) dövrlərindən qeydə alınmışdır. İnsanlar tərəfindən onların varlanmaq üzrə təşəbbüslərinin reallaşdırılması prosesində onlar arasındakı qarşılıqlı münasibətlərin müxtəlif aspektləri bu və ya başqa formada subyektin pul əməliyyatlarının müəyyənedici rolu üzrə konkretləşir. Subyekt isə – hər zaman konkret millətin nümayəndəsidir.*

## 1. ARXETİP VƏ MİLLİ XARAKTER

Pula münasibətin özü, «sahibkarlıq ruhunun» daşıyıcısından asılı olaraq, müxtəlif aspektlərə malikdir ki, bu da xalqın psixi quruluşunun müəyyən ümumiliyinin nəticəsidir. Pul, «möcüzəli indiikator» kimi hər zaman sosial münasibətlərin inkişaf səviyyəsini göstərir. *F.Brodel* qeyd edir ki, «onun tədavül etməsi, onun tədavülünün çətinləşməsi, pul sisteminin mürəkkəbləşməsi və ya pulun çatışmazlığına görə insanların bütün fəaliyyətləri, onların hətta ən kiçik həyat hadisələri haqqında belə kifayət qədər əminliklə fikir söyləmək olar»[1]. Sosial münasibətlər isə hər zaman, onun (sosial münasibətlərin) statistik xarakteristikalarını əks etdirən milli xüsusiyyətlərlə çulğalaşır.

Pulun iqtisadiyyatın fəaliyyətindən ayrılmaz olduğu kimi, onun inkişafı da *etnosun psixoloji tərkibi* ilə şərtlənir. Xüsusilə, bizim böyük adlandırdığımız millətin yüksəlişi və nailiyyətləri məhz psixi tərkiblə şərtlənir. Müxtəlif tarixi dövrlərdə, bu və ya digər ölkə (Almaniya, Yaponiya, Koreya və s.) ilə bağlı «iqtisadi möcüzələri» yada salmaq kifayətdir. Məsələn, Rusiyanın yüksəlişi, I Pyotrun ətalətli mentalitetdən yaxa qurtarmaq və öz ölkəsini Avropa mədəniyyəti axınına keçirmək üçün cəhd etdiyi XVIII əsrdən başlayır.

Etnosun psixi tərkibi – özündə verilmiş xalqın bütün əvvəl gələn mənəvi-mədəni törəmələrinin sintezini əks etdirən xüsusi *energetik gücdür. Q.Lebonun* fikrinə görə, «təkcə canlılar yox, ölülər də hər hansı xalqın müasir həyatında üstün rol oynayırlar. Onlar – onun əxlaqının yaradıcıları və onun davranışının şüursuz mühərrikləridir. Hər hansı xalqın həyatı və onun sivilizasiyasının bütün təzahürləri onun qəlbinin sadə əksini (inikasını), görünməyənin, lakin çox real olanın görünən nişanlarını təşkil edir. Xarici hadisələr onların gizli mahiyyətini müəyyən edən yalnız görünən səthi təşkil edir. Nə təsadüf, nə xarici şərait, nə də xüsusi olaraq siyasi təsisatlar hər hansı xalqın tarixində əsas rol oynamır. Müxtəlif xalqların psixoloji quruluşları arasında mövcud olan dərin müxtəlifliklər ona gətirib çıxarır ki, onlar tamamilə fərqli hiss edir, mühakimə yürüdür və fəaliyyət göstərirlər. Buradan belə çıxır ki, onlar bir-biriləri ilə təmasa girərkən aralarında bütün məsələlər üzrə fikir ayrılığı mövcud olur. Tarix boyu daima baş verən müharibələr böyük əksəriyyəti bu fikir ayrılıqları ucbatından meydana çıxmışdır. İşğalçı, dini və sülalə müharibələri hər

zaman həqiqətdə irqi müharibələr olmuşdur. Möhkəm kollektiv özündə məlum xalq üçün onun möhtəşəmliyinin apogeyini təşkil edir. Bu hər zaman onun tənəzzülü anını ifadə edir»[2].

İsveçrəli psixoloq *K.Q.Yunq kollektiv şüursuz* olanın rolunu etnosun psixoloji tərkibi ilə müəyyən edir. Etnosların əmələ gəlməsi prosesi *kollektiv şüursuzluğun arxetipləri* ilə əlaqədardır. Arxetip təqib olunan şüursuz ibtidai obrazların və nəsillərdən nəsillərə keçən psixika strukturlarının mahiyyəti, forması və əlaqə üsulunu ifadə edir. Arxetiplər şəxsiyyətin davranışının, strukturlaşmasının, bu və ya digər etnik qrupa xas olan dünyanın başa düşülməsinin əsasını, qarşılıqlı anlaşmanın daxili vəhdəti və qarşılıqlı əlaqəsini təmin edir. Başqa sözlə, arxetiplər bir növ aprior psixi və davranış proqramları əmələ gətirirlər. İbtidai obrazlar, psixikanın struktur elementləri özlüyündə ayrıca etnik qrupun davranış, təfəkkür və dünyanı görmə nümunələridir. Arxetiplər şəxsiyyətin ümumi strukturunu və konkret etnosun yaradıcı fəallığı zamanı onun şüurunda əmələ gələn obrazların ardıcıllığını verir və buna görə də, onun mənəvi həyatı özündə arxetipik əlamət (iz) daşıyır[3]. *Arxetip elə simvolik düsturdur ki, şüurlu anlayışların mövcud olmadıqları və ya ümumiyyətlə, mövcud ola bilmədikləri yerlərdə fəaliyyət göstərməyə başlayırlar*. Arxetiplər subyektiv həvəs kimi, obyektin təsirindən daha güclüdürlər. Suyektiv-irrasional təsirlərin gücü də məhz bundan ibarətdir, çünki rasional-obyektiv təsir bütün təəssüratların əsasında duran psixi dəyərlərə malik deyildir.

Bu mənada, arxetip «pulun qatlara ayrıldığı» bütün iqtisadi və sosial münasibətlərə «sirayət edir». *F.Brodelin* sözlərinə görə, o – «qədim reallıq və ya başqa cür desək, qədim texniki vasitə, tamah (ehtiras) və diqqət predmetləridir»[4]. Lakin arxetip də bu cür qədimdir, hətta mədəniyyətdən daha qədimdir, buna görə də ənənələrlə, miqrasiya və danışıqlarla ötürülmür. O, psixikanın aprior formasıdır, spontan olaraq və hər yerdə meydana çıxır. Pul, öz növbəsində, sosial və mədəni həyatın bütün münasibətlərinə elə möhkəm şəkildə «sirayət» etmişdir ki, psixikanın ibtidai obrazları, obyektiv meyillər (həvəslər) onusuz qeyri-mümkündür. «Subyektiv təəssüratlar arxetiplərlə sıx bağlıdırlar və universal mifoloci motivlərin simvolik və ya arxetipik obrazlar vasitəsilə ifadə olunması ilə həyata keçirilir»[5]. Sonuncular istənilən dinin, mifologiyanın, əfsanənin, bunlar vasitəsilə ilə isə – şəxsiyyətin yaradıcı şəkildə reallaşdırılması prosesində bütün mümkün təsəvvürlərin əsas komponentləridirlər.

Bu reallaşdırma insanın konkret-praktiki fəaliyyətinin istənilən formasına aiddir. Onların buradakı atributivliyi də, yuxularda, qarabasmalarda və estetik təəssürratlarda olduğu kimi qanunauyğundur. Məhz burada insan özünün dünyanı görməsinin şüursuz nümunələrini daha tam şəkildə təcəssüm etdirir, bu nümunələrin reaksiyaları isə bir sıra hallarda əsas arzu, yəni «*pul*» təsəvvürü kimi konkretləşdirilir. *Korpenko Karıy* da özünün «Yüz min» komediiyasında xəzinə axtaran (yerqazan) obrazını – Bonaventuranı, belə demək olarsa, sahibkar obrazını daxil edir. Kobud surciqdə (üç dilin qarışığında) danışan yarımağıllı istefaya çıxmış unter (çar ordusunun kiçik zabiti) otuz illik əziyyətdən sonra daşlaşmış ağac, mis həvəngdəstə və sınıq tava tapmışdır. Bununla belə, gizli yerlərin bütün əlamətləri ona təfərrüatı ilə məlumdur! Bu «bəsirət» (qəzavü-qədər) elə arxetipik-estetik təəssüratların bir hissəsidir. *Çünki arxetiplərdən hər hansı biri çoxlu sayda simvolik reprezentasiyalara malikdir, arxetipik formanın özü isə vahid və universaldır.*

Pula münasibət artıq formalaşmış davranış strukturları vasitəsilə müəyyən olunur. Bu halda, pulun yerinə istənilən, mənası olan, insan həyatında ömrünü müəyyənləşdirən yeri olmasa da kifayət qədər mühüm yer tutan hadisə çıxış edə bilər. O, bütün əvvəlki inkişafla müəyyən olunur və mədəniyyətdə aktuallaşdırılır. Biz istənilən arxetipik formadan danışarkən, onun fundametal əhəmiyyəti hər zaman universaldır. Bu, «mədəniyyətlərə də aiddir: ruslar əsas kütlə etibarilə açıqdırlar, ekstravertdirlər; yaponlar, bütün Şərq xalqları kimi, introvertdirlər; yəhudiləri və ya isveçliləri düşünən tipə aid etmək daha düzgündür, gürcülər isə həssas təsir bağışlayırlar»[6]. *K.Q.Yunq* tərəfindən fərqləndirilmiş ekstravert və introvert terminləri altında verilmiş insanın kənar qütblərinin, əsas etibarilə, ya xarici obyektlər dünyasına, ya da öz subyektiv dünyasının hadisələrinə istiqamətliliyinə uyğun gələn fərdi-psixoloji fərqlərinin xarakteristikası başa düşülür.

Ekstravert və introvert anlayışları *K.Q.Yunq* tərəfindən şəxsiyyətin iki bir-birinə əks olan tipini ifadə etmək üçün daxil edilmişdir. Ekstravert tipi üçün şəxsiyyətin ətraf dünyaya meyilliliyi xarakterikdir. İntrovertiv tip üçün şəxsiyyətin maraqlarının, onun ən yüksək dəyər verdiyi şəxsi daxili dünyanın hadisələri üzərində fiksasiyası səciyyəvidir. Mahiyyət isə ondan ibarətdir ki, davranışı və ya bütövlükdə etnik qrupları müəyyən dərəcədə *axetipik enerji* terminləri ilə izah etmək olar. Nəticə etibarilə, əgər biz davranışın, özündə firavanlıq simvolunu, sevinci, yerinə yetirilmiş işin

dəyər xarakteristikaları, ümumiyyətlə, fəaliyyəti təcəssüm etdirən (şəxsiyyət və ya qurupun) pula qarşı obraz kimi istiqamətliliyindən danışırıqsa, onda burada birinci və ikinci tiplərin vəhdətindən çıxış etmək lazımdır. Nəzərdə tutulur ki, arxetiplər hər zaman konkret tərkiblə dolurlar və misal üçün, xeyir və şərə qarşı münasibətdə neytral olurlar. *Onlara ambivalentlik və immanentlik xasdır*. Onlar yaradıcılığın simvolikasının, ayinlərin, miflərin, nağılların, yuxuların və komplekslərin əsasında dururlar. Yeri gəlmişkən, müxtəlif aspektlərdə pul, var-dövlət, onlara nail olunması imkanları və s. haqqında nəql edilən kəlam və nağılların bu qədər çoxlu sayda olması da bu səbəbdəndir. Lakin əsas məsələ ondadır ki, hər bir xalq üçün bu kəlamların, milli xarakterlə müəyyən olunan spesifik tələffüzü mövcuddur.

Bu şərait vəhdətin bu və ya digər forması ilə şərtlənir. *K.Q.Yunq* hesab edir ki, bu, «zamanların başlanğıcında» baş vermişdir. İnsanın yaranması haqqında müxtəlif miflər bu vəhdətdən çıxış edir ki, bu da öz əksini ən müxtəlif simvollarda tapır. Misal üçün, öz quyruğunu dişləyən *Misir səma ilanı* (*ou robor*), *Çin Tayszı* – bütün əkslikləri özünə daxil edən dairəvi qab formasına malikdir, filosofların *Dünya yumurtası*, əlkimyaçıların *rotundumu*, Hind fəlsəfəsindəki *Puruş* kimi mövcudluğun ikitarlalığı və s. Belə atriibutlar hər hansı insan şəxsiyyətinə tətbiq oluna bilmir və hər zaman kollektiv şüursuzluğun tərkibinin proyeksiyasının baş verdiyinə işarə edir. Nəticədə, ayrı-ayrı etnik qruplarının öz davranışlarında oriyentasiya etdikləri müəyyən nümunələr yaranır. *Nümunələr isə şüurun tərkibi və fərdi şüursuzluqla qarşılıqlı təsirə girir*.

Öz etnosunun mədəniyyətinə (arxetiplərinə) riayət edilməsi onun inkişafının tərkibi determinantıdır. Mənəvi zənginlik elm və incəsənət kimi nəsildən-nəslə ötürülür və qorunur, buna görə də o, müstəqil olaraq təkamül edə biər. O, maddi mədəniyyətdən fərqli olaraq, məhdudiyyətlərə malik deyildir. Bu anı pul üzərinə ekstroplyasiya etmək olar: iqtisadi (maddi) planda onun fəaliyyəti çoxdan müəyyən edilmiş beş funksiya ilə məhdudlaşır; mədəni (mədəni) planda pul ipostasiyaları saysız-hesabsızdır, çünki insanın mənəvi (ekzistensial) təzahür imkanları bitməz-tükənməzdir. İnsanın emosional fəaliyyətə təsir göstərmək, onu təşkil etmək imkanı mövcuddur. Bu, milli mənəvi mədəniyyətin başlıca ideyaların nəsildən-nəslə verən incəsənət vasitəsilə daha effektiv şəkildə həyata keçirilir. Bəşəriyyətin təkamül prosesi müxtəlif sosial sistemlər arasında yarış yolu ilə zaman üzrə baş verdiyinə görə, son nəticədə yalnız o cəmiyyətlər sağ qalacaq ki, onlarda *mənəvi mədəniyyət insaniyyətin təkamül inkişafının tələblərinə uyğun gəlsin*. Belə ki, misal üçün, xristian mədəniyyəti Avropanın şərqi-müsəlman

ekspansiyası (tatar-monqol, ərəb xilafəti, Osmanlı imperiyası) şəraitində sağ qalmasına imkan yaratmışdır.

Lakin o, müxtəlif qüvvələrə yalnız o zaman müqavimət göstərə bilər ki, o, hərtərəfli inkişaf etmiş varlıq olsun. Ancaq sonuncunu, son dərəcə humanitar xarakteristika və biliklər dəsti kimi dar mənada başa düşmək olmaz. Bu gün yalnız texniki bilik alan insanlar «*humanitar münasibətlər məntiqinə*» İntibah və ya Maariflənmə dövrünün insanından az daxil deyildir. Yalnız getdikcə artan liberallaşma ilə əlaqədar olaraq, bu münasibətlər bir çox parametrlərdə əvvəlki, klassik münasibətlərdən fərqlənir ki, bu da homo economicusa münasibətdə bütün müxalifət sistemini və bu *monetarist* şüuruna malik «iqtisadi insanın» fəaliyyət göstərə, yaşaya bildiyi reallığı doğurur. Öz etnosunun mədəniyyətini izləmə prosesinin özü təkcə şəxsi ləyaqət hissini (özünü bu etnosun üzvi kimi hiss etmə) gücləndirmir, həm də bütün həyat fəaliyyəti prosesinə səmərəli şəkildə təsir göstərən şəxsiyyətin emosional vəziyyətini yüksəldir.

Pul problemi özünün bütün aspektlərində həyat fəaliyyətindən ayrılmazdır. Onun həlli emosional əhvali-ruhiyyə ilə şərtlənir, hansı ki, hər zaman sosial inkişafın təkamülündə iştirak edən «xeyir», «xoşbəxtlik», «varlılıq», «həyatın tamlığı» və s. kimi arxetiplərlə müəyyən olunur. Belə arxetiplər *cəmiyyətin mədəniyyətini* – cəmiyyətin bütün üzvlərinin həyatında mühüm rol oynayan canlı, aktual, funksional məhsul və nümunələrin məcmusunu formalaşdırır[8]. Bu mədəniyyətdə pul birləşdirici amil rolunu oynayır – o, etnosun inkişafını sivilizasiyalı istiqamətdə determinasiya edir.

## 2. MENTALİTET

Arxetipik enerji «*maliyyə sivilizasiyası*» şəraitində iqtisadi insanın həyatındakı problemlərlə vasitəli şəkildə bağlıdır. Bu gün, məişətdə gündəlik həyatda arxetipin əvəzinə, «*mentalitet*» termini daha çox işləkdir. Əgər biz pul qazanılması və ya itrilməsinin spesifikasını göstərmək istəyiriksə, «*kollektiv şüursuzluğa*» və «*arxetipə*» (arxetipliyə) yox, daha çox *mentallığa* (mentalitetə) müraciət etməliyik.

Mentallıq bilavasitə pulla əlaqədardır, çünki insanın mənəvi dünyasını və ya sosial cəmiyyəti, dövrü və etnomədəniyyəti əks etdirən sosial-psixoloji hadisələr bu termin vasitəsilə müəyyən edilir. «Mentallıq» kateqoriyası sosial, siyasi və ya etnik kontekstdə insanların psixi tərkibini təhlil etmək imkanı yaradır. «Mentalitet» sözünün müxtəlif yaranma versiyaları

mövcuddur, amma bunlardan ən geniş yayılanı ingiliscə «mentality» sözünün tərcüməsi olan intellekt, ağıllı inkişaf, ağlın tərkibi və ağıllı həvəs ifadələridir. Latınca «mens» sivilizasiya kökünə daha yaxındır və ağıl, təfəkkür, təfəkkür üsulu, qəlbin tərkibi və s. kimi tərcümə olunur. Ümumiyyətlə isə mentallıq – kollektiv və fərdi şüurun dərin səviyyəsidir ki, buraya da şüurdan yuxarı, fərdin və ya sosial qrupun müəyyən şəkildə fəaliyyət göstərməyə, düşünməyə, hiss etməyə və dünyanı dərk etməyə meyilliyi və hazırlığı daxildir[9]. Bu «müəyyən şəkil» insanın başqa insanlara və ümumiyyətlə, sosial-mədəni reallığa münasibətini göstərən, qeyd edən, spesifikləşdirən və aşkar edən bir cəhətdir. Çünki hər bir insan – bu və ya digər etnosun nümayəndəsidir və bu da onun daxilində nə isə xüsusi bir şeyi tanımağa imkan verir, bunun nəzərə alınması isə şəxsən düşünlmüş şeyin daha səmərəli şəkildə həyata keçirilməsini mümkün edir.

İngilisdilli psixoloji ədəbiyyatda mentalitet «ayrı-ayrı fərdləri və ya fərdlər qrupunu xarakterizə edən, təfəkkürün xarakterini müəyyən edən bütün xarakteristikaların ümumiləşdirilməsi» ağlın xüsusiyyəti kimi müəyyən olunur[10]. Xarici psixoloji ədəbiyyatda «mentallığın» *üç struktur komponenti* fərqləndirilir: özünə verbal və davranış vəziyyətindən öncə gələn və biliklərin sistemləşdirilməsi üzrə impuls kimi çıxış edən emosional vəziyyəti daxil edən *emosional (emotiv) komponent*. Mentallığın *verbal komponenti* fərdi həyat təcrübəsinin əldə edilməsi, yəni öyrənmə və özünüöyrətmə prosesləri ilə bağlı olan həyat fəaliyyətinin obyekt və situasiyaları haqqındakı biliklərdən ibarətdir. Mentallığn *davranış sistemi* elementar fiksəolunmuş məqsədlərin, bütöv oriyentasiyaların və etnik dəyərlərin aktuallaşdırılması impulsu kimi çıxış edir. Mental məqsəd insanın fəaliyyətlərində və hərəkətlərində reallaşır[11].

Etnik mentallıq insanın dominantlıq edən əhvali-ruhiyyəsində, dünya tərbiyəsinin xarakterik xüsusiyyətlərində, tərbiyənin əxlaqi tələblər, normalar, dəyərlər və prinsipləri sistemində, şəxsiyyətlərarası qarşılıqlı münasibətlərin formasında və etnosun özünü təşkil etməsin konkret faktlarında təzahür olunur. Məsələn, individualizm (fərdiyyətçilik) fəaliyyətə sahibkar münasibəti, hər şeyin dəyərə keçirilməsi («sən amerikanların yeni dolları kimi gülümsəyirsən») bu ölkənin tarixi inkişaf prosesində, onun mürəkkəb etnik və demoqrafik strukturunda formalaşmışdır.

Hər bir dövr keçmişi rekonstruksiya və interpretasiya edir və bununla da özünün şəxsi dünyagörüşünü yaradır. Lakin bu görüşün əsası ixtiyari

(əsassız) fantaziya yox, «bu dövrün ümumi ağıllı və psixi təminatlılığıdır». *L.Fevr* («mentallıq» termininin yaradıcılarından biridir və *M.Blokla* birlikdə onu geniş istifadəyə daxil etmişdir) hesab edir ki, hər bir cəmiyyət müəyyən inkişaf mərhələsində fərdi şüurun strukturlaşdırılması üçün öz spesifik şərtlərinə malik olur: mədəniyyət və ənənələr, dil, həyat tərzi və din birlikdə bir «model» yaradır ki, bu model çərçivəsində də mentallıq formalaşır.

Həm cəmiyyətin, həm də şəxsiyyətin inkişafının hər zaman potensial invariantları mövcuddur. Amma bununla yanaşı, müəyyən insan cəmiyyətinə xas olan dünya tərbiyəsi, həyat tərzi, dil mədəniyyəti, mentallığın ümumi xarakteri sosial qrup və ya fərdlərdən asılı deyildir. Onlar sanki onlara «bəxş edilmişdir». Beləliklə, mədəniyyət müəyyən görünməz sfera yaradır və insanlar bu sferadan kənara çıxa bilmirlər. Onlar bu məhdudiyyətləri hiss etmir və ya dərk etmirlər, çünki onlar bu mədəni və mental sferanın «mərkəZindədirlər». Subyektiv olaraq, onlar özlərini azad hiss edirlər, «obyektiv olaraqsa», onlar ona tabedilər. Məsələn, özlərinin həddən artıq xəsis olmaları ilə məşhur olan Qabrova şəhərinin sakinləri artıq folklarda, lətifələrdə, kəlamlarda formalaşmış obraz çərçivəsindən kənara çıxa bilmirlər. *L.Fevr* və *M.Blok* hesab edirlər ki, mentallıq hər yerdə mövcuddur və o, bütün insan həyatına sirayət edir. O, insanların şüuru və davranışının bütün səviyyələrində mövcuddur[12].

Mentallığın təfəkkürün düşünülmüş sistemləri ilə işi yoxdur. Bir sıra başlıca aspektlərdə mentallıq *refleksləşdirilməmiş və məntiqi cəhətdən aşkar olunmamış* sfera olaraq qalmaqdadır. «Yeni rusların» pul xərclərini məntiqi cəhətdən müəyyən etmək qeyri-mümkündür, lakin bunu, rus qəlbinin qədim dövrlərdən qalmış genişliyi ilə izah etmək olar. Mentallıq – nə elmi, nə psixoloji, nə fəlsəfi, nə də estetik sistem yox, ictimai şüurun elə səviyyəsidir ki, burada düşüncələr emosiyadan, şüurun latent (gizli) vərdişlərindən və üsullarından ayrılmazdır.

Mentallıq, spesifik qanunauyğunluqlar və ritmlərin xas olduğu öz xüsusi sferasını yaradır. Bu sfera ziddiyyətlidir və cəmiyyətdə mövcud olan, lakin ona heç vaxt müncər olmayan ideyalar dünyası ilə vasitəli şəkildə bağlıdır. İnsan necə «ideyalı» olsa da onun mentallığı konkret hallarda situasiyanın və ya davranış məqsədinin seçilməsinə mühüm təsir göstərə bilər. *İ.L.Andreyev* müasir Afrika həyatını və onun göstəricisi olan bazarı təsvir edərək göstərir ki, o, təkcə ticarət məkanı, «canlı» pullar halında mənfəət əldə edilən yer yox, indiki pullardan insani qarşılıqlı münasibətləri

yolu ilə əhəmiyyətli dərəcədə uzaq olan «*həyati pulların*» alqı-satqısından ibarət olan yerdir. Bu planda, bizim üçün tarixi keçmişin bir sıra elementlərini özündə saxlayan, ən qədim nemətlər, psixi enerjilər və müxtəlif qəbilə və xalqların həyat təcrübələrinin mübadiləsini xatırladan ənənəvi afrikan bazarı diqqətəlayiqdir. Bu da onu, «ürəksiz» satış informasiya industriyasından və «qızıl milyard» ölkələrində parıldayana qədər cilalanmış mənfəət «qazanılmasından» nəzərəçarpacaq dərəcədə fərqləndirir[13]. Bu, *Le Qoffanın* belə bir fikrini təsdiq edir ki, mentallıq – daha çox ənənə, vərdiş və şüurun müəyyən həcmidir. O, rasional dünyəvi tərbiyənin müəyyən məntiqinə malik deyildir, bu və ya digər dövrə yaxud qrupa xasdır. Mentallıq – dəqiq olaraq ifadə olunmamış və tam həcmdə dərk edilməmiş (və ya ümumiyyətlə, dərk edilməmiş) düşünmək qabiliyyətidir[14].

*Mentallıq* mənəvi istiqamətlərin, ictimai şüurun bütöv mənalarının cəminə (din, fəlsəfə, incəsənət) aid edilməyən bütöv ifadəsidir, həqiqətin, etnosun müəyyən coğrafi, tarixi və mədəni məkandakı həyat fəaliyyəti ilə şərtləşən spesifik inikası kimi çıxış edir. *Etnik mentallıq* isə öz mahiyyəti etibarilə, verilmiş mədəni və sosial şəraitlərdə davranışları stimullaşdıran və tənzimləyən obrazlar və təsəvvürlərdir. *İ.L.Andreyev,* afrikalıların pula və mənfəətə qarşı münasibətlərini xarakterizə edərək göstərir ki, onlar emosional coşğunluqla, ürək rahatlığı, simpatiya və mənəvi məmnunluq hissi ilə müqayisədə bəzən çox cüzi olurlar. Onlar heç də zəngin olmayan insanlardır, duzsuz xeyriyyəçilik yox, sərt, sirli, əlaqədarlığın arxaik psixikasının dərinliklərində gizlənmiş və nahaq yerə artıq bir şeyin qəbul edilməsinə etiraz oyadan qədim bir instinktə boyun əyərək, kommersiya mənasında öz zərərlərinə fəaliyyət göstərərək gəlirdən asanlıqla, məcburiyyətsiz, cəsarətlə, ədəblə, zərifliklə və qətiyyətlə imtina edə bilərlər[15]. Beləliklə, mentallıq şüurun, intellektin və ağlın birliyi kimi, xalqın təfəkkür xarakterində, onun fəaliyyət üsulunda, psixi-psixoloji xüsusiyyətlərində, dünyagörüşündə davranış reaksiyalarında, etnik cəmiyyətlərin mədəniyyət və inanclarında, adət və ənənələrində təzahür edir.

İnsan cəmiyyətlərinin tədqiqi elə bir yerə gəlib çıxmışdır ki, yalnız rasional sxemlərin tətbiqi konkret cəmiyyətin, onun həyatı və inkişafının dərin əsaslarının mövcudluğunun başa düşülməsi və şərh edilməsinin bütün təbəqələrini əhatə etmir. Etnik subyektlərin xarakterik psixoloji cəhətləri onların mentallığında fiksə edilmişdir. Bunlar dair tarixi və sosial formalaşma prosesi haqqında fikir söyləmək olar. Elmi instansiyalarda «mentali-

tet» termininin möhkəmlənməsi o haqda danışmağa imkan verir ki, etnik cəmiyyətlərin inkişafının mental əsasları müasir Avropanın milli «doğulması» prosesi ilə qarşılıqlı əlaqədə tapılır[16]. Bununla yanaşı, heç bir şübhə yoxdur ki, etnik mentallıq şəxsiyyətin müxtəlif fəaliyyət davranışlarının başa düşülməsi şərtinə çevrilir. Xüsusilə, əgər onlar, bir qayda olaraq, bu gün çox halda pulla bağlı olan, həyati əhəmiyyət kəsb edən davranışlara Aiddirlərsə.

Pula qarşı münasibət, onların başa düşülməsi hər zaman *son dərəcə fərdi xarakter* daşımışdır. «İctimai istifadədə» olan şey hər zaman səmimi deyildir və buna görə də *ayrıca-şəxsi, mental* istifadənin yarada bildiyi marağı yaratmır. Çünki ideologiya və kütləvi psixologiyadan fərqli olaraq, mentallığı dəqiq müəyyən olunmuş parametrlərdə ölçmək və təsvir etmək mümkün deyildir, o, müfəssəl sosial təhlil olunmur. Əbəs yerə onu, nə isə ölçülə bilməyən, əlçatmaz, mənəvi varlıq səviyyəsində mövcud olmayan «*xalq qəlbi*» ilə eyniləşdirmirlər. Pul kimi. Çünki müxtəlif hesab və hesabat (büdcə, debet, kredit, əməkhaqqı, gəlir, sosial təminat və s.) işlərində pulla bağlı olan kəmiyyət göstəriciləri və xarakteristikaları onun, insanın ona verdiyi «qəlbi-mənəvi» tərkibinə toxunmur. Xüsusilə, əgər həyati əhəmiyyət kəsb edən problemlərin həlli ondan, yəni puldan asılıdırsa. Pul adət edilmiş atributa çevrildikdən sonra mənəvidən kənar, həmçinin, qəlbdənkənar münasibətlərə çevrilir. Lakin ilkin münasibət, hər zaman mental, dərk edilməmiş və rəsmiləşdirilməmiş olur.

Mentallıq – bizim qəlbimizin öz yolu ilə öz məqsədinə doğru gedən avtonom hissəsidir. Bu məqsəd – fərdiləşmə, fərdi şüurun genişlənməsi, onun ibtidai qrup şüurundan fərqləndirilməsi prosesidir. *K.Q.Yunq* belə hesab edirdi ki, ibtidai psixi bütövlüyün ümumi inkişafı fərdi şəxsiyyət istiqamətində (heç vaxt nail oluna bilinməyən məqsəd) həyata keçirilir. Nəticə etibarilə, «təbiiliyin anadangəlmə özünəməxsusluğunun» həyata keçirilməsi, bütün bəşəriyyət üçün ümumi olanın kollektiv şüursuzluq «sahəsindən» çıxarılmasıdır. Dərin, ümumi refleksləşdirilməmiş əsasların, yəni bəşəriyyətin mövcudluğuna öz dövründə *F.Nitsşe* də diqqət ayırmışdır. O, hesab edirdi ki, vahidlərin fərqləndirilməsi bizi aldatmamalıdır. Əslində, fərdlərin altından nə isə «axır». *K.Q.Yunqun* nəzəriyyəsində «nə isə axıcı olan» arxetip (bu haqda artıq danışmışıq), kollektiv şüursuzluq adını alır. Arxetiplərin dəqiq müəyyənləşdirilməsi qeyri-mümkündür, çünki onlar anlayışdan çox, simvolikalarla doludur və bununla da təsəvvürlər kimi çıxış edir. Onlar əhəmiyyətli dərəcədə tipik həyati situasiyalarda fəaliyyət və əks fəaliyyətlər üzrə «instinktiv hazırlıqlardır». Onlar, hər zaman təkrarlanan

tipik həyati hadisələrlə (doğum, ölüm, mübarizə, yaradıcılıq ilhamı, məhv etməyə təkan və s.) müəyyən olunur[17].

Bu gün pulla bağlı hər şey – mənfəət, zərər, gəlir, müflislik, israfçılıq, uğurlu (uğursuz) saziş və s. az əhəmiyyət kəsb edən həyati fəaliyyətlər deyildir. «Maliyyə sivilizasiyası» («pul quruluşu») mədəniyyətilə bağlı olan hər şeydir. Aydındır ki, mədəni arxetiplərin özləri xüsusi olaraq, kollektiv şüursuzluğun arxetipi mental strukturların formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir.

## 3. MENTALİTETİN XÜSUSİYYƏTLƏRİ

Pul kimi mentallıq da heç vaxt hər hansı universal prinsip kimi çıxış edə bilmir. O, bir sıra spesifik təzahürlərin ümumi xarakteristikası kimi mövcud olur, amma hər bir konkret halda onun təsiri xüsusidir. Bu, pullara da aiddir: onların ümumi xarakteristikası ilə yanaşı, hər bir ayrıca halda onlar, hər zaman fərqlidir, çünki hər dəfə onlara müxtəlif enerji, müxtəlif qəlbi və mənəvi gərginliklər daxil olur. Onların dəyərliliyi bundan asılıdır. Yoxlanılmış olan fikri yada salmaq kifayətdir: «Necə gəlmişdisə, elə də getdi», yəni asan qazanılmış pullar, asan da xərclənib gedir. Onlar, ağır zəhmət nəticəsində əldə olunan pullar kimi dəyərə malik olmur. Buradan, zədəganlar tərəfindən onların mülklərinin pullarının «sağa-sola xərclənməsi», «yeni ruslarla» və ya onlara oxşar olanlarla qumar masaları arxasında və ya ruletka oyununda böyük məbləğdə pulların uduzulması aydın olur. Zəhmətlə qazanılmış pullar isə başqa məsələ. Onların sahibləri – öz pullarını boş yerə xərcləməyən və dəyişməyən insanlardır. Həm birinci, həm də ikinci halda, mentallığın formalaşmasına təsir göstərən arxetipikliklə birbaşa əlaqə müşahidə olunur. Məsələn, pulu çətinliklə qazanan kəndlilər və «avanturizm ruhunun» səciyyəvi olduğu «dəniz» xalqları.

Mentalitetin formalaşması və inkişafı *filogenez* və *ontogenez* aspektlərdən nəzərdən keçirilir. *Filogenez* prosesində həyat şərtlərinin təsiri altında bioloji təkamül nəticəsində insan psixikası dəyişir. *Ontogenez* – hər hansı orqanizmdə doğumdan həyatın sonuna qədərki fərdi inkişafda mentalitetin formalaşmasıdır. Burada *daxili* və *xarici amil-şərtləri* fərqləndirmək olar.

*Daxili amillər*, anadangəlmə introverslik – fərdin genetik olaraq doğum anından formalaşan və daxili və xarici amillərin təsiri altında heç cür dəyişə bilməyən, psixoloji məqsədinin formasında təzahür edən

filogenetik irslə müəyyən olunur. Burada emosiya və hislər iradə və intellekt üzərində dominantlıq edir. Bununla yanaşı, amillərdən biri kimi, təlim nəticəsində ortaya çıxan həyat təcrübəsinin həcmi və dərinliyidir ki, bu da, öz növbəsində, insanın öz fərdi imkanlarını mümkün qədər tam aşkar edilməsinə və inkişaf etdirməyə çalışmasına təsir göstərir. Ayrıca fərddə mentalitetin inkişaf prosesi şəxsiyyətin fiziki, intellektual və mənəvi potensialını inteqrasiya etdirən psixi proseslərin və ya psixi funksiyaların (yaddaş, emosiya, hiss, təfəkkür, empatiya, iradə anı) xüsusiyyətlərindən asılıdır. *Xarici amillərə isə* ailə ənənələri, kollektivlə, mühitlə, kütləvi informasiya vasitələrilə qarşılıqlı fəaliyyətin tərkib və formaları aid edilir.

Formalaşmış mentalitetin təsir səviyyəsindən asılı olaraq, bu və ya digər xalqın milli xarakterik xüsusiyyətləri, onun başqa millətlərdən fərqləri haqqında danışmaq olar. Məsələn, ukraynalılar üçün torpağa ana vətən kimi münasibət bəslənməsi, öz mədəni-tarixi dəyərlərinə, azadlıqsevərliyinə inam, yalnız öz gücünə istinad etmə, əminlik kimi cəhətlər prioritet hesab olunur. Yaponlara zəhmətsevrəlik, borcluluq hissi, daxili özünütəhlil hissi xasdır. *D.Didro* qeyd edir ki, «əslində, hər bir insanın olduğu kimi, hər bir xalqın da öz xarakteri var və bu ümumi xarakter təbiət və vərdişin bir ölkənin sakinlərinə, onları fərqləndirən bütün müxtəlifliklərə baxmayaraq, bəxş etdiyi oxşar cəhətlərdən əmələ gəlir. Belə ki, fransızın xarakteri, dahiliyi və ağlı bu krallığın müxtəlif əyalətlərinin malik olduğu ümumi cəhətlərdən ibarətdir. Giena və Normandiya sakinləri çox şeydə oxşar deyildirlər. Bununla belə, bir fransız dahisi bu müxtəlif əyalətləri bir millət halında birləşdirir və ilk baxışdan fransızı italyandan və ya almandan fərqləndirməyə imkan verir. Fransızların xarakterinin əsası Sezarın təsvir etdiyi kimidir. Qallar qərar qəbulunda sürətli, döyüşdə cəsarətli, hücumda qarşısıalınmazdırlar, lakin asanlıqla ruhdan düşürlər»[19].

Hər bir millətin öz spesifik mədəniyyəti, nişanlar, simvollar, adətlər sistemi və s.vardır. Bəs bu, bəzən psixologiya adlandırılan fərdi mentallıqla hansı əlaqəyə malikdir? Gündəlik şüurda xalqlar arasında mental fərqlərin mövcudluğu şübhə doğurmur. Almaniyada, Hollandiyada, İngiltərədə yüksək qiymətləndirilən dəqiqlik (punktuallıq) İspaniyada və Ukraynada nisbətən az, Latın Amerikası və Afrikada isə daha az əhəmiyyətə malikdir. Şimali amrikalılar və ruslar bir-birilərini asanlıqla öz adları ilə çağırırlar, lakin bu, heç də Qərbi Avropada olduğu kimi, dostluq və ya intim yaxınlıq demək deyildir. Milli xüsusiyyətlər xalq məişətində, salamlaşma forma-

larında, qonaqpərvərlik qaydalarında, incəsənətdə, ilk növbədə, xalq incəsənətində parlaq şəkildə ifadə olunur. Təcrübəli insan xüsusi olaraq çətinlik çəkmədən müxtəlif xalqlar üçün tipik cəhətləri səciyyələndirə bilir. Lakin belə xarakteristikalar qeyri-müəyyən və əsassızdır.

Milli kolorit gündəlik həyatın bir çox tərəfləri, habelə incəsənətin bütün növlərindəki bir çox elementlər və normalar üçün xarakterikdir, baxmayaraq ki, onun intensivliyi və müəyyənliyi heç də eyni deyildir. Məsələn, Ukrayna və alman musiqilərinin intonasiya quruluşunu, hind və Orta Asiya ornamentini, rəqs hərəkətlərini (ləzginka və qopak) dəqiq olaraq tanımaq olar və s. Bədii formanın müəyyən elementləri arxasında məhz hansı etnopsixoloji xüsusiyyətlərin gizləndiyini müəyyən etməyin çox çətin olması ilə əlaqədar, adətən, incəsənətin milli xüsusiyyətlərinin interpretasiyası heç də hər zaman ciddi elmi anlayışlarla ifadə olunmayaraq, nisbətən ümumi iradlara, təəssüratlara, obrazlara gətirilir. Buna görə də, poetik metaforalar kimi «*rus koloriti*», «*Ukrayna qəlbi*», «*Asiya bazarı*» və s. kimi ifadələr qəbul olunur.

İlk dəfə Yaponiyaya gəlmiş avropalını yaponun təkcə sevinərkən yox, həm də ona hökm çıxarılarkən və ya o, kədərli bir xəbər, misal üçün, kiminsə öldüyü xəbərini çatdırarkən gülməsi heyrətləndirə bilər. Təcrübəsiz insan bunda ürəksizlik, həyasızlıq və arsızlıq təzahürlərini görə bilər. Əslində isə gülümsəmə burada sadəcə olaraq başqa simvolik mənaya malikdir: o, ağır situasiyanı yüngülləşdirməyi, insanın bu situasiyanın öhdəsindən gələcəyini qeyd etməyi və s. nəzərdə tutur[20]. Məşhur Kiplinq ideyası buradan çıxır: «Şərq Şərqdir, Qərb Qərbdir və bunlar heç vaxt birləşə bilməz». Məşhur bolqar «bəlisini» misal göstərmək olar: onlar «bəli» demək istəyərkən başlarını yuxarıdan-aşağıya, «xeyr» demək istəyərkən isə soldan-sağa hərəkət etdirirlər. Bu simvollar, jestlər, reaksiyaların müxtəlifliyini başa düşmək o qədər də asan deyil.

Gündəlik şüurda psixoloji xüsusiyyətlər və müxtəlif xalqların mədəniyyəti haqqında geniş yayılmış stereotip təsəvvürlər hər zaman bütöv, qiymətləndirici xarakter daşıyır, şüurlu və ya şüursuz olaraq öz xalqının və onun mədəniyyətinin xüsusiyyətləri haqqındakı müəyyən təsəvvürlərlə uyğunlaşır. *M.Monten* yazır ki, «əslində bizdə, görünür ki, həqiqi və ağıllı olanın, bizim üçün nümunə kimi çıxış edən ölkə adətlərindən başqa meyarı yoxdur»[21]. *Ş.Monteskye* bundan özünün «*qanun ruhu*» düsturunu çıxarmışdır: «Ruhun birləşməsi kimi çıxış edən bütün cəmiyyətlərdə ümumi

xarakter formalaşır. Bu, yalnız özünə xas olan təfəkkür tərzinə malik olan, artan və əsrdən-əsrə bir-birilərinə keçən saysız-hesabsız səbəblər zəncirindən ibarət olan ümumi qəlbdir… Əxlaqi səbəblər millətin ümumi ruhuna, ümumi xarakterinə daha çox təsir göstərir və ümumi ruhun aşkar edilməsi zamanı fiziki səbəblərlə müqayisədə daha çox nəzərə alınmalıdır»[22].

*E.Dyurkqeymin* fikrincə, milli xarakter sanki iki hissədən ibarətdir; hər bir fərd iki şüura malikdir – biri fərdi, digəri – fərdlər qrupuna xas olan vəziyyəti əks etdirir; ancaq bu iki vəziyyət, fərdi cəmiyyətlə bağlayan müəyyən oxşarlıqlara malikdir. Bu, eyni etnik xüsusiyyətli, adi situasiyalara hiss və vəziyyətlər formasında eyni reaksiyaya malik olan insanlar üçün birtipli «*bizim daxilimizdəki cəmiyyətdir*» ki, bu da, öz növbəsində, milli xarakteri təşkil edir. *Bu amil bizim şəxsiyyətimizin bir hissəsidir*.

Milli xarakterli hadisələri *etnopsixologiya* öyrənir. Çünki milli psixologiyanın cəhətləri onun nümayəndələri arasında qeyri-bərabər bölünmüşdür – bu cəhətlərin mövcud olmasından tutmuş, onların tamamilə mövcud olmamasına qədər. Bu səbəbdən, millətin adətlərini, ənənələrini, inanclarını (etiqadlarını), tarixini və təbii yaşayış şəraitini təhlil edərək onun psixologiyasının ən səciyyəvi xüsusiyyətlərini axtarmaq lazım gəlir. Misal üçün, *Ş.Monteskyenin* bunu təbiətə müraciət edərək etdiyi kimi. *Q.Lebon* yazırdı ki, «təsadüfi olaraq seçilmiş min nəfər fransız, min nəfər ingilis və min nəfər çinli, əlbəttə ki, bir-birilərindən fərqlənməlidirlər, ancaq onlar öz irqlərinin vərəsəliyi üzrə ümumi xüsusiyyətlərə malikdirlər ki, bu xüsusiyyətlər əsasında da ideal tipə analoji olaraq, fransızın, ingilisin və çinlinin ideal tipini yaratmaq olar»[23].

*Q.Hegelin* xalqların xarakteri haqqındakı fikirləri də maraq kəsb edir. O, xarakter və temperament anlayışlarının eyniləşdirilməsinin əksinə çıxış edir və onların tərkiblərinə görə fərqli olduqlarını iddia edir. Əgər xarakter etnoslar arasında ümumi cəhətlərə malikdirsə, temperament – hər bir inSAnın fərdi cəhətidir. *Q.Hegel* xarakteri göstərərək deyir ki, fransızın qulluqçusu daha yaxşı yaşayır. «Fransız ağasının (mülkədarının) qulluqçusu hətta mühakimə yürütməyə, şəxsi rəyə sahib olmağa və öz fikrini qorumağa belə cəsarət edir, sahibi ondan nə isə istədikdə, əmr kifayət etmir, əvvəlcə sahib öz fikrini qulluqçunu başa salmalı və hətta qulluqçunun bu fikirlə razılaşmasına görə ona minnətdarlığını da bildirməlidir…Prusiyalılarda əsgəri döymək adətdir və buna görə də əsgər – yamandır; həqiqətədən də, o adam ki, döyülməyə passiv şəkildə dözür, o, elə yamandır»[24]. TempeRamentə gəldikdə isə biz onu tez-tez məişət səviyyəsində şərh edirik. Məsələn Qafqaz regionunun «qaynar» temperamenti və ya əksinə, Skandinaviya

xalqlarının və Baltikyanı ölkə sakinlərinin, xüsusilə estonların artıq dərəcədə «soyuqluğu» və «ləng» xarakteri. Adətən biz bunu mentalitet adlandırırıq.

Hər bir xalq öz inkişafında yalnız ona məxsus olan mükəmməlliyə nail olur və bu kamilliyi özündə daşıyır. Xalq tərəfindən nail olunmuş maksimum nə qədər yüksəkdirsə, onun mövcud olması da bir o qədər möhkəmdir. Ancaq xalqların tarixi yolu onların, yaşayış yeri və zamanından, onların nümayəndələrinin daxili xarakterindən, habelə bütün səylərin məqsədindən asılı olaraq, əhəmiyyətli dərəcədə bir-birilərindən fərqləndiklərini və dəyişmələrini göstərir. *İ.Q.Qerder* hesab edirdi: «Çinlinin məqsədi zərif əxlaq və nəzakət, hindlinin məqsədi nə isə mücərrəd təmiz bir şey, sakit cidd-cəhd və səbrlilik, finikiyalının məqsədi – dəniz səyahəti və ticarətdir. Yunanların bütün mədəniyyəti, xüsusilə Afina mədəniyyəti, həm incəsənətdə, həm hüquqda, həm bilikdə, həm də siyasi quruluşda hissi gözəllik maksimumuna yönəlmişdi. Spartalılar və romalılar qəhrəman vətənpərvərlik şücaəti və vətənə məhəbbətə can atırdılar, lakin buna müxtəlif cür yanaşırdılar. Bütün belə işlərdə əsas məsələ zamandan və yerdən asılı olduğundan, xalqların milli xarakterin fərqləndirici xüsusiyyətlərini bərabərləşdirmək olmaz»[25]. Nəticə etibarilə, millətin, milli özünüdərk, hiss və xarakterin əlaqələndirilməsi kimi çıxış edən psixi quruşulu tarixi xarakter daşıyır və həyat şəraitinin dəyişməsi ilə o da dəyişir.

Milli-psixoloji xüsusiyyətlər müxtəlif sosial təbəqələrdə, qruplarda, konkret şəxsiyyətlərdə, formalaşmış davranş stereotiplərdə, bu və ya digər şəraitdə adət edilmiş fəaliyyət obrazında müxtəlif cür təzahür olunur ki, bu da bir qayda olaraq, milli xarakterə aiddir. Son nəticədə «fərdi müxtəlifliklər nadir hallarda təkrarlanırlar, buna görə də bizdən sivişib qaçırlar; və tezliklə biz nəinki ilk baxışdan ingilisi, italyanı, ispanı fərqləndirməyi bacarırıq, həm də onlarda həmin əsas cəhətləri təşkil edən məlum əxlaqi və intellektual xüsusiyyətləri sezməyə də başlayırıq»[26]. Nəticədə biz bu xarakteri *mentallıq* kimi başa düşürük, çünki onun şərti yenə diskursiv müzakirə olunacaq təəssüratların, hisslərin və əhval-ruhiyyələrin dinc toplanmasıdır.

## 4. MENTALİTETİN MƏNA MƏKANI

Etnik mentallıq hər zaman strukturlaşmış bütövlük kimi çıxış edir və fəaliyyət göstərir. Hər bir xalqın tarixi nə qədər mürəkkəb və ziddiyyətlidirsə, hər bir ayrıca xalqın mentallığı da bir o qədər mürəkkəb və ziddiyyətlidir. O, əsrlər ərzində coğrafi, iqlim, sosial-siyasi, iqtisadi, mədəni-təhsil və

başqa amil-şərtlər altında formalaşır və bununla əlaqədar olaraq, kifayət qədər dayanıqlı xüsusiyyətlərə malik olur.

Bu mənada mentallıq problemi dünyaya baxış üsulu, əqli əhvali-ruhiyyə, əqli vəziyyət, təsəvvür və ya kollektiv təəssürat kimi müəyyən olunan *subyektiv* problem kimi nəzərdən keçirilir. Tarixin faktları psixoloji faktlar kimi başa düşülür, tarixi isə insanın özü yaradır. «*Yeni tarixi məktəbdə*» mentallıq problemi, tarixi inkişafın konkret mərhələsi ilə sıx bağlı olan «hər yerdə mövcud» olan fenomen kimi qoyulmuşdur ki, bu da fərdi şüurun strukturlaşdırılması üçün spesifik şəraiti əks etdirir[27].

Hər bir dövr – insanın özü tərəfindən baxışların, əhval-ruhiyyələrin, meyillərin və arzuların müəyyən olunması dövrüdür. İnsan ictimai prosesdə iştirak edir, özünü dünya quruluşunun, cəmiyyətin və ya ayrı-ayrı mədəni formaların yaradıcılığının mərkəzinə qoyur. İnsan öz əhatəsinin elementlərini fiziki cəhətdən, psixi və mental formada – subyektiv təsəvvür və həvəslərə müvafiq olaraq öz təsəvvüründə mənimsəyə bilər. Konkret tarixi dövr – özü üçün qavrayış və dərketmə sərhədlərini, mənimsəmə və fəaliyyət sərhədlərini təyin edən insanın mental vəziyyətidir. Milli xarakterə malik olan konkret tarixi insan bir şeyə diqqət ayırır, başqa bir şeyi rədd edir, aktual dəyərlər və maraqlar yaradır, qeyri-aktual olanları unudur – lakin bu, cari tarixi an çərçivəsində baş verir.

Mentallıq – dövrdən əldə edilən təsəvvürdür, təəssüratdır, maddi və ideal yox, xarakter-məntiqi əhvali-ruhiyyədir. Sayəsində insanın insanı başa düşməyə səy göstərdiyi bu süni *məna konstruksiyaları*, maddi dünyanı ideal, psixoloji (milli xarakterlə) dünya ilə əlaqələndirən insanın təcrübə Alətləridir[28]. İnsan incəsənət əsərlərində, nə isə yaza bilər, lakin *mənasını, məzmununu (kontekstini) başa düşmədən*, onlar ölüdürlər, laldırlar.

İnsan da yalnız öz mədəni və milli mənası kontekstində başa düşülə bilər. *K.Q.Yunq*, «fərdi, təkcə introversiya və ekstraversiyanın universal fərqliliyinə görə yox, həm də ayrı-ayrı psixi funksiyalara görə, ən ümumi şəkildə fərqləndirmək mümkün olduğunu hesab edərək» xalqları psixoloji funksiyalar üzrə təsnifləşdirməyə çalışmışdır[29]. Başqa funksiyalardan əhəmiyyətli dərəcədə fərqlənən başlıca funksiyalar təfəkkür, emosiya, hissetmə və intuisiyadır. Əgər bu zaman adətən sadalanan funksiyalardan biri dominantlıq edirsə, onda *müvafiq psixoloji tip* yaranır. Məhz o, öz bütövlüyü ilə mentaliteti təfəkkür, emosional, sensor və intuitiv funksiyaların vəhdəti şəklində əks etdirir.

İnsanın başlıca problemlərindən biri – *dünyaya inteqrasiya* problemidir. İnsan dünya ilə, xüsusilə, obyektiv-predmet (maddi) mübadilə yolu ilə dialoqa girir. Mentalitet insana öz şəxsi fəaliyyətini həqiqət qarşısında inteqrasiya etdirməyə və aktuallaşdırmağa imkan verir. Buna görə də subyektiv problem – mental (psixoloji) tiplərin reallaşdırılması vasitəsilə nail olunan *dünyanın başa düşülməsi problemidir*. Məsələn, neqroidlər – əsil ekstravertdirlər və bu da onların ətraf mühitə istiqamətliliyində aşkar olunur. Eyni zamanda onlar üçün aparıcı funksiya emosiyalardır (rəqslər, hisslərin sürətlə dəyişməsi). *K.Q.Yunqun* fikrincə, avropalılar sensor tip olaraq öz enerjilərini xaricə, elmi-texniki tərəqqinin qarşısıalınmaz inkişafına, onları əhatə edən məkanın təkmilləşdirilməsinə yönəldirlər.Bu, onları, *K.Q.Yunqun* öz daxili dünyasına istiqamətlənmiş interovertiv irq kimi müəyyən etdiyi Şərqdən fərqləndirir[30]. Misal üçün, Yaponiyanın nisbətən ağrısız çoxəsrlik özünüreallaşdırmasını yada salmaq kifayətdir. Eyni zamanda onlara başlıca psixoloji funksiya kimi, *intuisiya* da xasdır. Yapon və Çin sahibkarlarının məişət malları bazarında səhvsiz «duyma qabiliyyəti» haqqındakı fikirlər bundan xəbər verir. Bu isə, sadəcə olaraq, «axıb» gəlməyən, özünə xüsusi münasibət tələb edən elə pulla bağlı «duyma qabiliyyətidir».

İnsan, *başqa insanla birlikdə olmaq* kimi, subyektiv şəxsiyyət motivinə malikdir. Cəmiyyətdə o, sosial tərkib qazanır: ünsiyyət, şəxsiyyətin aktuallaşdırılması, ümumi fəaliyyətlərin kooperasiyalaşdırılması və s. vəzifələri ortaya çıxır. Başqa sözlə, neytral psixi arzular *diskursiv tərtibli həvəslərə* çevrilir. «Adi» insanın öz varlığına (konformizm, ənənələr, tarxi zərurət) diskursiv olaraq haqq qazandırması cəmiyyətin yaradılmasının «*obyektiv*» amillərinin mövcud olmasının qəbul edilməsinin əsasında durur. Bu «*obyektiv*» *metatendensiya* maraqların, dilin, ictimai formaların və adətlərin dəyərliliyini, konkret dövr çərçivəsindən kənara çıxan mənanın ölçülməsini özünə daxil edir.

Obyektiv olanın təbiətinin başa düşülməsi məna – cisimlər dünyasına, tarixi hadisələrə xas olan anlayışlar vasitəsilə açılır. Müəyyən münasibətdə «məna» kimi, millətlərarası münasibətlərlə əlaqədar situasiyalarda diqqəti, qavrayışı, fikri və davranışı dəyişdirən məqsəd çıxış edə bilər. İlkin olaraq dünya heç bir mənaya malik deyildir. Bütün qanunlar, anlayışlar, ideyalar və məqsədlər insan tərəfindən, onun dünya kimi, gündəlik dünyanı nizama salmaq arzusu nəticəsində yaradılır. Lakin dünyanın diskursiv interpre-

tasiyası mədəniyyətlə şərtlənir. İnsan tarixi insanın özündə məna tapması zamanından, onun dünyanı öz mənası nöqteyi-nəzərindən sorğu-suala tutduğu vaxtdan başlayır. Bunu, millətlər tərəfindən yox, ayrı-ayrı fərdlər tərəfindən yaradılan və yalnız kütlələr tərəfindən tutulan məqsədlərlə də bağlı demək olar. *K.Q.Yunq* qeyd edir ki, «ayrıca insanın psixologiyası millətin psixologiyasına uyğun gəlir. Millətin etdiyi şeyi hər bir ayrıca insan da edir və o, nə qədər ki, bunu etməkdə davam edir, millət də onu etməkdə davam edəcəkdir. Yalnız ayrıca insanın məqsədinin dəyişməsi millətin psixologiyasının dəyişməsinin başlanğıcına çevrilir. Bəşəriyyətin böyük problemləri hələ heç vaxt ümumi qanunlar vasitəsilə deyil, hər zaman ayrıca insanın məqsədinin yeniləndirilməsi vasitəsilə həll olunmuşdır»[31]. Bu, mənadır, yəni *insanın dünya haqqındakı təsəvvürlərinin proyeksiyasıdır*.

Obyektivlik, nəsillərin vərəsəliliyi üsulu kimi, konkret-tarixiliyin çərçivəsindən kənara çıxış kimi, etnos tərəfindən öz tarixinin yaradılmasında təzahür olunan etnik mentallıq kimidir. O, dünyaya münasibət, təfəkkür, davranış və yaradıcılıq stereotiplərini, *landşaftda mövcudluq üsullarını və etnosun sivilizasiyadakı spesifik rolunu* müəyyən edir. Etnik mentallığın formalaşması, mənanın seçilməsinə təsir göstərən spesifik dünyaya münasibətin meydana çıxdığı artım mərhələsində həyata keçir.

*Mentallığın məna məkanı* – etnosun özü üçün yaratdığı həyat məkanıdır. O, xalqın enerjisini simvollarda, kontekstdə və mental strukturlarda möhkəmləndirərək saxlayır. Həyat məkanı insan tərəfindən obyektiv, əvvəlcədən müəyyən olunmuş bir şey kimi hiss olunur. Təfəkkür səviyyəsində – bu, özünü dərketmə forması və etnik özünüdərk formasıdır. Obyektiv olmaq – anlaşıqlı olmaq deməkdir. Buna görə də tarixən fəal insan öz subyektiv iradəsini etnik məna məkanının obyektiv formalarına çevrir. Nəticədə, bütünlükdə mədəni məkanın güclü tarixi dəyişiklikləri ortaya çıxır. Təkcə mövcud quruluşun deyil, həm də ictimai fəaliyyətin fərdi motivləşdirilməsinə istiqamətlənmiş özünüsaxlama sistemi belə yaranır. Məsələn, orta əsrlərdə «düşmüş» antiklik «subyektin monomədəniyyətini» dağıtdı və «orta əsr mentaliteti daxilində iki əks, bir araya sığmayan dünya mənzərəsinin, dəyər ierarxiyasının, mədəni dialoq və alternativin bir-birinə qarşılıqlı olaraq keçməsi situasiyasını yaratdı». Mədəniyyət subyekti, seçim və özünümüyyənləşdirmə situasiyasında tarixin oxları arasında sıxıla bilərdi. «İrəli sürülmüş» nöqteyi-nəzər, müqayisə obrazı, mücərrədləşmiş baxış yarandı. Bu səbəbdən, milli cəhətlər şəxsi mentalitet çərçivəsində,

amma başqa mədəniyyət tipi nöqteyi-nəzərindən dərk olundu[32]. Bu, başqa mənaların formalaşmasına və möhkəmlənməsinə yol açdı. *M.Lyuter* öz İradəsini özünün 95 tezisində kilsə islahatının german həvəsi kimi ifadə edərək, İntibah dövründə artıq İslahat və Maariflənmə dövrünü başlatdı (ən əsas akt Bibliyanın (İncilin) alman dilinə tərcüməsi tələbindən ibarət idi).

*Məna axtarışı – yaradılması hər zaman pul amilinin nəzərə alınması ilə baş verən rasional özütəşkilin axtarışıdır.* Marksistlər tərəfindən cəmiyyət həyatının ictimai-iqtisadi formasiyalara bölünməsi – özütəşkil prosesini sosial-mədəni prosesə, qanunauyğun nəticəsi *kapital* olan dəyər mövqeyindən təsir etmək nöqteyi-nəzərindən nəzərdən keçirilməsi cəhdidir. Ancaq bu yanaşma bəşəriyyətin inkişafının sosial-iqtisadi tərkib hissəsini, başqa, az əhəmiyyəti olmayan amilləri nəzərə almadan mütləqləşdirmişdir. Buna görə də belə bir nöqteyi-nəzərlə razılaşmaq lazımdır ki, müasir *inkişaf etmiş cəmiyyətlər* öz tarixlərində ən azı dörd özünütəşkil fazasına malik olmuşdur ki, bu da onlara üzvi cəhətlər vermişdir. Bunlara aşağıdakılar aiddir:

– ictimai idarəetmənin, ideologiyanın, əxlaqın, mədəniyyətin səciyyəvi formalarının meydana çıxması və inkişafına oriyentasiya edən özünü saxlama, onların, cəmiyyətin statistikasının qarşısının alınmasına yönəlmiş oriyentasiyalılığı;
– daxili mübadilə – cəmiyyətə dinamika – əmək məhsulları və ictimai təşəbbüsün dinamikasını verən münasibətlər;
– özünü tənzimləmə – cəmiyyətin dinamik tarazlığının (özünü saxlamanın statik tarazlığından fərqli olaraq) saxlanılması məqsədilə ictimai müdaxilə;
– özünü yaratma – şəxsiyyət və qrupların cəmiyyətin yaradılması üzrə motivləşdirilməsi (bu motivləşmənin kökləri nə qədər güclüdürsə, o, bir o qədər güclüdür). Bu fazalar Qərbdə feodaLizmin, kapitalizmin, industrial və müasir postindustrial cəmiyyətin inkişafına uyğun gəlir[33].
*Özünü təşkiletmə – daimi olaraq, ictimai özünüsaxlama formalarının istehsalına istiqamətlənmiş məna axtarışıdır.*

Bu formalar, təkcə mövcud situasiyanın yox, ictimai fəaliyyətin fərdi motivləşdirilməsinə də istiqamətlənmiş sistemə çevrilir. Eyni zamanda bu fəaliyyətin ifadəsi hər zaman mental çalara malikdir. Məsələn, feodalizmdə Çində konfutsi zamanı bu, əxlaqi insan mədəniyyətində, yapon cəmiyyətində – ictimai fəaliyyəti reqlamentləşdirən samuraylar kodeksində, islamda – «*öz iradənizlə hərəkət edin, sonra isə biləcəksiniz ki, həyatın sonunu kimi*

*müəyyən edir*» düsturu ilə ifadə olunur. Xristian fəallığı xilasetməyə oriyentasiya edir. Buna görə də müəyyən sivilizasiyanın özünüsaxlamasının xarakterinin başa düşülməsi üçün, həmçinin, müəyyən mentalitet yaradan dini fəallığın necə və hansı yolla istiqamətləndiyini aydınlaşdırmaq lazımdır. Xüsusilə, bunun necə fəallıq olduğunu aydınlaşdırmaq lazımdır – bazar (*protestantizm*) və ya bazara zidd olan (*konfutsi, orta əsr katolotizmi*); və ya o, xüsusiyə (*xristianlıq*), ya ümumiyə (*islam və şərq dinləri*); və ya o, aqressivdir (*islam*), yaxud sülhsevərdir (*buddizm*). Ümumiyyətlə isə feodal cəmiyyəti stabilliyin möhkəmlənməsinə istiqamətlənmişdir ki, bu da öz ifadəsini, qarşısına cisimlərin mövcud vəziyyətini olduğu kimi saxlamaq vəzifəsini qoyan dini müharibələrdə tapmışdır.

Qərbi Avropa ölkələrində ortaya çıxmış kapitalizm mentallığın, bu gün də avropalının milli-psixoloji xarakteristikalarında əyani şəkildə hiss olunan başqa, rasional tipini formalaşdırır. Kapitalizm, yeni mənaları müəyyən edən bir sıra sistem xüsusiyyətlər nəticəsində cəmiyyəti dinamikləşdirir. Xüsusilə, ictimai təşkilatın effektivliyi pul ekvivalenti xarakteri əldə edir ki, bunun sayəsində də onu ölçmək mümkün olur. *M. Veberə* görə, yeni mentallığı formalaşdıran bu yeni mənanın kökləri islahatdadır[34].

*İndustrial* cəmiyyətdə özünü tənzimləmə problemi *yeni şüur səviyyəsi* tələb edir. O, elmin, texnologiyanın əhəmiyyətli dərəcədə inkişafı, kapitalizmin bu və ya digər formalarda bütün dünyaya yayılması ilə bağlıdır. *Postindustrial* cəmiyyət, insanın sosiallığın və mədəniyyətin yaradılmasına kütləvi şəkildə motivləşdirilməsinin istehsalı ilə qarşılıqlı əlaqədə olan müəyyən həcmdə sistem vəzifələri yerinə yetirməlidir.

Bu faktlar nəticəsində bəşəriyyətdən yuxarı, insaniyyətdən ali sfera ortaya çıxır. Onun insan tərəfindən dərk olunması sistem effekti yaradır: insan insan-cismə, cəmiyyət isə özünü təşkil etmək qabiliyyətinə malik olan sistemə çevrilir. Özünü təşkilin hər bir fazası inkişafın dalan yolunu inkar edir, çünki əvvəlki fazanın (mərhələnin) ən effektiv nailiyyətlərini saxlayaraq, yeni mənalar və şərtlər axtarır. Belə ki, Qərb feodalizmdən təkcə xristianlığı yox, həm də cəmiyyətin ierarxik strukturunu, hakimiyyətə ehtiram və bir çox başqa şeyləri irsən, kapitalizmdən isə industrial istehsalı, əmək bazarını, sahibkarlığı və əmtəə-pul münasibətlərini götürmüşdür. İndustrial cəmiyyətdən dövlət və ictimai tənzimləmə, kapitalın mərkəzləşdirilməsi, transmilli şirkətlər və s. əldə edilmişdir. Bundan başqa, feodalizmin, kapitalizmin, industrializmin və postindustrializmin rəngarəng forma-

ları da mövcuddur[35]. Bu rəngarənglik həm sivilizasiyanın tipindən, həm də *etnik və subyektiv xüsusiyyətlərdən* asılıdır. Subyektivin obyektivdən kənar olan transendent səviyyəsinə çıxmasına imkan yaradan üstünlüyü bunda hiss olunur. Məna əlaqələri subyektiv aktuallıq və sistem effekti dərəcəsindən asılı olaraq ierarxiyalaşdırılmışdır: ən böyük subyektiv aktuallıq – qrupda, ən böyük sistem effektivliyi – sivilizasiyadadır. Lakin subyektivlik və sistemlilik, sivilizasiyanı formalaşdıran və ilkin qrupları tarixi perspektivə çıxaran etnoslarda tarazlanmışdır.

## 5.ETNİK STEREOTİP MENTALİTETİN SOSİAL OBRAZI KİMİ

Hər bir tarixi dövr, dərk edən insanın maraq mərkəzini müəyyən edən özünün dünyagörüşü xarakteristikasına malikdir. Antiklik kosmosa oriyentasiya edir, *kosmosentrizm* buradan yaranır, Qərbi Avropa orta əsr mədəniyyəti – Tanrıya istiqamətlənir ki, nəticə etibarilə də *teosentrizm* yaranır. İntibah dövründə əsas maraq insanın Tanrıya uyğunluğudur. Belə çıxır ki, Tanrını dərk edərkən insan yaddan çıxmışdır, buna görə də ən çox diqqət ona ayrılır. Buradan *antroposentrizm* yaranır. Yeni zaman – elmin əhəmiyyətinin dərk edilməsidir, buradan da *ssientizm* (ssientosentrizm) ortaya çıxır. Eyni zamanda, bu gün həyatın bütün «çağlarına» «finansizmlə» sirayət edən «*pul quruluşu*» (*A.Neklessa*) kimi çıxış edən «*iqtisadi sivilizasiyanın*» (*Y.Osipov*) geniş inkişafı başlayır.

Bununla yanaşı, bu proseslərin inkişafına, *etnik stereotiplə* formalaşmış mentalitetin təsiri mühüm amil olaraq qalır. Psixologiyada «stereotip» anlayışı öz təbiəti etibarilə dayanıqlı, emosional psixi törəməni ifadə edir və bu, sadələşdirilmiş formada həqiqətin hər hansı kifayət qədər mürəkkəb faktını əks etdirir. Stereotiplər, özündə insanların ünsiyyəti və qarşılıqlı münasibətinin sosial və psixoloji təcrübələrini birləşdirən, hissi olaraq çalarlaşmış *sosial nümunələrdir*. Stereotiplərin elmi həqiqət kriteriyaları və ciddi məntiqlə ölçülməsi onları son dərəcə qeyri-təkamül təfəkkür vasitələri kimi göstərir. Bununla belə, stereotiplər mövcuddurlar və insanlar tərəfindən geniş istifadə olunurlar, baxmayaraq ki, insanlar bunu heç *dərk etmirlər*. Obyektin xarakteri və onun yerindən asılı olaraq sosial strukturda, misal üçün, *qrup, peşəkar və yaş* stereotipləri işlənib hazırlanır. Stereotipləşdirmə obyektləri kimi, çox vaxt belə qrupların *ümumiləşdirilmiş və sadələşdirilmiş* obrazları çıxış edir. Milli (etnik) stereotipin əsasında, zahiri görünüşün hər hansı nəzərəçarpan cəhəti (dərinin rəngi, göz kəsiyi, saç tipi,

başın forması və s.) çıxış edir. Stereotipin əsasında xarakter və ya davranışdakı hər hansı tipik cəhət (sakitlik, cestikulyasiya, təmkinlilik, xəsislik və s.) də çıxış edə bilər[36]. *Mental stereotip* özünə milli və etnik xarakterləri daxil edərək bu və ya digər cəmiyyətin əqli quruluşunu, təfəkkürün tərkibini və s. müəyyən edir. Mental stereotipin tərkibində verilmiş millətdən olan insanlara münasibətdə fəaliyyət üzrə göstərişlər (təlimatlar) da mövcud ola bilər.

Etnik (və ya milli) qrupun, cəmiyyətin *mental stereotipi* onun bütün üzvlərinin müəyyən cəhətinin mövcud olmasını nəzərdə tutur. Bu diferensiasiyalaşdırılmamış mühakimə labüd olaraq özünə (gizli və ya aşkar) müəyyənedici qiyməti də daxil edir. Belə qiymət üzrə razılıq stereotipləri qrupun bütün üzvləri üçün eyniləşdirir, mənfi qiymətləndirmə stereotipindən istifadə olunması isə müəyyən şəraitlərdə «*yaxşı ton*» kimi çıxış edir. Mental stereotipin müstəsna dayanıqlığını xüsusi olaraq qeyd etmək lazımdır. Buna misal olaraq, qərb və şərq insanının xarakteristikaları çıxış edə bilər. Qərb sivilizasiyası daimi olaraq şəxsiyyət axtarışındadır, hansı ki, tədricən ş*əxsi həyat fəaliyyətinin subyekti* kimi kristallaşır. Qərb sivilizasiyasının hər şeyə qalib gələn fəallığı, onun dünyada fasiləsiz ekspansiyası onun təsiri altında daima dəyişən obyektin əhəmiyyətliliyini şübhə altında qoyurdu. Qərb fəlsəfəsi hər zaman obyekti subyekt, onun daxili təcrübəsi formaları (ağıl kateqoriyaları, dərrakə formaları, şüuraltı, intuisiya və s.) vasitəsilə əsaslandırmağa çalışmışdır.

Şərqdə isə, əksinə, şübhə altında həmişə *subyektin əhəmiyyətliliyidir*. İnsanın son imkanlarını verilmiş mütləqlə – cəmiyyətin, ona obyektiv şəkildə təsir göstərən və onun təsiri altında olmayan əbədi, dəyişməz qurğusu ilə müqayisə edilərkən böyük şübhə doğurur[37]. *Mentallığın hər şeydə təzahür edən əsası da elə bundan ibarətdir*. Məsələn, şərqin müəllifi, yaradıcısı (rəssamı) yaradıcı prosesdə öz fərdiliyini fərqləndirməyə çalışmır, yalnız bədii formul (düstur) və kanonlarını (qanunlarını), habelə onların variasiyaetmə bacarıqlarını nümayiş etdirir. Qərbdə müəllif ənənəyə müraciət edərək ondan ayrılmır, onunla daimi olaraq oyunda olur, çünki istənilən situasiyanın dərk olunması səhri subyektin özündədir. Burada istənilən ənənənin dərk edilməsi onun üzərində refleksiyadan onun məhv edilməsinə aparır. Şərqdə həqiqətin stabilliyi onun sosial obrazının da daimi olmasını şərtləndirir.

Əgər Şərqin bütövlüyü ali instansiyaların şərtlənməsi, onun başlanğıcı ilə müəyyən olunurdusa, onda Qərbin bütövlüyünə mübarizə, daimi dəfetmələr yolu ilə nail olunur, ya qazanılır və bu, permanent (daimi) sübut

tələb edir. Sonuncular, bu və ya digər mərhələlərdə şəraitlərin təsiri altında gah obyekt, gah da subyekt üzərində dayanır, bu və ya digər hissə, bu və ya digər sual üzərində «pərçimlənir». Əgər Qərbi Avropa təfəkkürünün əsasını qoymuş və potensial olaraq onun bütün yollarını və şaxələrini başa düşmüş antik dövr yunan insanını varlığın tamlığı (*Kosmos, dünyəvi qayda*), onun mahiyyəti maraqlandırırdısa, onda bu dünya qavrayışının tərəfdarları həyatdakı yerin məhdud rasionallığı üzündən, yalnız məhdud nəzəriyyələşdirməyə nail olmuşlar. Bu da müxtəlif millətlərin mentalitetinin formalaşmasının ilkin şərti kimi çıxış etmişdir.

Buna nümunə kimi müxtəlif kateqoriyaların və onların daimi olaraq dəyişən tərkibinin başa düşülməsi çıxış edə bilər. Belə ki, müəyyən tamlığı təşkil edən və müəyyən mahiyyətlər dəsti kimi tərcümə olunan alman sözü «Ge-schichte» qiyabi olaraq almanın əqli əhvalını əks etdirir. O, öz təbiəti etibarilə həm praktiki, həm də nəzəri mənada, varlığın mənşəyini, onun başlanğıcını, səbəbini və quruluşunu axtarıb tapmağa can atan bütövlükdə fərdin yox, yalnız ustanın, sənətkarın dünyaya baxışıdır. Buna görə də, əgər qədim yunanı «Varlıq nədir?» sualı maraqlandırırdısa, almanlarda ön planda «O, niyə mövcuddur?» sualı, fransızlarda – «Nə məqsədlə?» (O, nə üçün mövcuddur?) sualı dururdu. Buradan, tərəqqi, təkamül nəzəriyyələrinə, sosial utopiyalar vasitəsilə gələcəyə baxış cəhdlərinə həvəs yaranır. İngilisdilli xalqların mentallığı haqqında, işin, əməlin təbii olan, təbiət üzərində üstünlüyü kimi çıxış edən «*do*» felinin «hər yerdə mövcud olması» şahidlik edir. Cisimdən, əşyadan maksimal istifadə edilməsinə (onun mAhiyyətini, əsası isə *tələbatlarını* müəyyən edir) səy göstərilməsi kimi, amerikan praqmatizmini, bixevorizmini və operasionalizmini bununla izah etmək olar. Burada əsas sualı ingilis dilindən «Now how?» - «Bu və ya digər obyektlə necə rəftar etmək lazım olduğunu bilirəm» kimi tərcümə etmək olar[38]. Son halda, insanın sistem və dünyada yaradıcı rolunu, subyekt və obyekt dilemmasının həlli üsulunu və s. sübut etmək çox çətindir.

Mentalitetlərin müxtəlifliyi artıq qeyd edildiyi kimi, öz növbəsində, müxtəlif milli stereotipləri yaradan bir çox amillərlə, tendensiyalarla, fazalarla şərtlənir. Onlar konkret məqsədə xidmət edə və onlara nail olunması vasitələri kimi çıxış edə bilər. Məsələn, ayrı-seçkiliyə uğrayan millət, Amansız və zalım pozğun obraz, vicdansız, hiyləgər və ədalətsiz insan şəklində öz «diskriminatorunun» stereotiplərini yaradır. Belə ki, Ukrayna Radası özündə təkcə bizim əcdadlarımızın yox, həm də müasir ukraynalının

şüurunda yaşayan stereotipləri («murdar moskvalı», «cort lehi», «xəsis meyxanaçı yəhudi» kimi) əks etdirir; rus «**bılina**» eposu bizə qədər «qəzəbli tatar» stereotipini gətirib çatdırmışdır; eston eposunda rəhmsiz baltikayanı alman baronu stereotipi dəqiq olaraq ifadə olunur; Bayronun Şərq poemalarında biz qullara çevrilmiş yunanların təsəvvür etdikləri «amansız türk» stereotipini aşkar edirik[39]. Aydındır ki, şüur və xüsusilə, ünsiyyət və fəaliyyət üçün belə stereotiplərin əhəmiyyətini qiymətləndirməmək olmaz.

Belə stereotiplər həm bu və ya digər millətlərin nümayəndələrinin münasibətləri, həm də *mülkiyyət, pul, iş, hesabat* və s. kimi yaranır. Məsələn, şotlandlar və qabrovalılar öz xəsislikləri, gürcülər – genişürəklilikləri və aristokratlıqları, ukraynlar - simiclikləri, qənaətcillikləri və s. ilə məşhurdurlar. Kəlamlardan, folklordan, habelə kütləvi informasiya vasitələrindən əldə edilmiş biliklər nəticəsində formalaşmış bu stereotiplər başqa millətlərin işgüzar dairələrinin nümayəndələrini biznes, istehsal müqavilələri və Razılaşmalarının bağlanması zamanı çox diqqətli olmağa vadar edir. Hətta əgər kimsə belə informasiyanı bu və ya başqa mənbədən tənqidi qəbul etsə, onda o, onu heç vaxt nəzərdən qaçırmaz, bunun nəticəsində o, yenə də, bu və ya digər xalqın mentaliteti haqqında təsəvvür yaradaraq şüurda möhkəmlənəcəkdir.

## 6. MENTALİTETİN PARADİQMALARI

Sivilizasiyaların müasir tədqiqatlarının mərkəzində tez-tez bir dünyanın iki tərəfi, iki əkslik və bərabərlik *Qərb* və *Şərq* durur və bu iki tərəf öz yarışı və qətiyyətli fəaliyyəti ilə ya «*Avropa ekspansiyası*», *yapon möcüzəsi*, ya da «*Koreya sıçrayışı*» və s. ilə insanı təəccübləndirir. Filosoflar, politoloqlar və iqtisadçılar tarixin paradokslarını, onun əyriliklərini həll edirlər və sanki tapmacanın açmasını tapırlar, amma birdən daha bir «döngədən» gözlənilmədən yolgöstərən nəzəriyyədən tamamilə fərqlənən başqa bir landşaft çıxır, bu və ya digər mədəni orijinallıq yeni sərhədlərə hərəkətdə pillələr kimi çıxış edir. Elmi axtarışın mənası da elə bundan ibarətdir.

Bununla yanaşı, elmi – tədqiqatın tərəqqisi *növbəti* hərəkətin çıxış nöqtəsi kimi, müəyyən konstantlara (sabitlərə) ehtiyac duyur. Buna görə də ictimaiyyət üçün aşağıdakı məsələni yekun olaraq həll etmək vacibdir: niyə XVI-XVII əsrlərdə Şərqdə «burjua» (iqtisadi) inqilabları baş vermədi,

kapitalist münasibətlərinin işartısı belə görünmədi? Şərq despotizminin təhlili, ilk növbədə Hindistan və Çində onu göstərir ki, onlar Qərblə müqayisədə, daha inkişaf etmiş iqtisadiyyata – əmtəə-pul münasibətlərinin mükəmməl sisteminə, ticarət və sələmçiliyin formalaşmış ənənələrinə, mülkiyyəti olmayan çoxlu sayda əhaliyə, saysız-hesabsız xəzinələr şəklində əhəmiyyətli dərəcədə pul yığımına malik idilər. Bu ilkin şərtlər, məşhur subyektiv və obyevtiv amillərə baxmayaraq, inqilabi sarsıntılara səbəb olmadı. XX əsrdə Şərqin «*iqtisadi dağılmasının*» səbəbləri də tam aydın deyildir[40]. İqtisadi amillərin və göstəricilərin adi uçotu, «*ictimai şüurun nisbi müstəqillyinə» istinad edilməsi* kimi problemi həll etmir (*F.Engels*).

Şərq və Qərb arasındakı müxtəlifliyin aşkar edilməsinin ən səmərəli yolu kimi, mədəni orijinallığı, insanın dünyanı və özünü dərk etməsi üsulunu şərtləndirən cəmiyyətin özünüdeterminasiya tipi kimi müəyyən olunan antropoloji-mental yanaşma çıxış edir. Bu və ya digər ölkə üçün səciyyəvi olan bütün davranış və fəaliyyət dominantları kompleksi buradan çıxır. Məhz insanın vəziyyəti, onun özünü təhlili, özünü həyata keçirməsi sosial-mədəni həyatın bütün spektirini, dünyəvi tərbiyənin baxışlar sistemini, qiymətləri və oriyentirləri müəyyən edir. O, özündə fəaliyyət və qarşılıqlı asılılıqları birləşdirərək, bu və ya digər ictimai orqanizmi yaradan mərkəz kimi çıxış edir. Bütün tarixi kontinumunu əhatə etmək və varlığın şəxsi tarixi məkana çevrilməsi üçün müəyyən sabitlər, yəni dünya mədəniyyətinin bütün polifonizmi qurulan hesablama nöqtələri lazımdır. Avropa sivilizasiya paradiqması da elə məhz bu tələbatla – hər şeyi qaydaya salmaq (dünyanı rasionallaşdırmaq), başlanğıcı və sonu tapmaqla ifadə olunur. *K.Yasperin* nöqteyi-nəzərindən, Avropa mentalitetinin ən xarakterik cəhəti təfəkkürün və dünyəvi tərbiyənin rasional paradiqmalarının, bəşəriyyətin bütün tamlığını onun tarixi təcrübəsinə *burada, indi və hər zaman* sığışdırmaq qabiliyyətinə malik, hər yerdə mövcud olan Avropa ağlı ilə birləşdirilməsidir[41].

Buna görə də hər şeyi tarixiliyin, buradan da səbəbiyyətin, vərəsəliyin bir məxrəcinə gətirmək cəhdində Avropa təfəkkürü özündən uzaqlaşmamaq, öz mövqelərini qorumaq iqtidarında deyildir, yalnız onu başqası ilə mücərrəd şəkildə müqayisə edə bilərdi. «Başqası» ilə mücərrəd şəkildə müqayisələrin yayılması, «özgənin» qavranılmaması bununla izah olunur. Qərb fəlsəfəsi tərəfindən əldə edilmiş bütün «*şəxsi bilikləri*» müəyyən edən və avropalılarda «*avropasentrizm*» anlayışının ortaya çıxmasına səbəb olan

«*şəxsi varlıq*» da bununla xarakterizə olunur. Bunun sayəsində yenə də Avropa idealları meydana çıxdı – *xalqlar və mədəniyyətlərin bərabər hüquqluluğu*, eyni zamanda avropasentrizm *Avropa təfəkkür tərzinin* yayılması üçün maneəyə çevrildi. Dünyanın mənzərəsini nizamlamaq cəhdi ilə o, coğrafi cəhətdən determinasiyalı anlayış olan *Şərqlə* yox, özünə əks olan nə isə əla bir şeylə, dünyaya münasibətin, dünyanı hiss etmənin, dünyanı təsəvvür etmənin başqa bir *tipi* ilə qarşılaşdı.

Belə hesab etmək olar ki, XVII əsrdə «Avropa möcüzəsi» fenomeni yeni zaman iqtisadiyyatının, yəni sivilizasiyanın, insanın Allaha bənzədiyini iddia edərək, hər bir insandan ideya, Allah və dünya uğrunda fəal permanent təkmilləşmə tələb edən qərb xristianlığının fəal ekspansiyasının yaranmasının nəticəsidir. Qərb cəmiyyətlərinin bütün təməl və ənənələrinin xarici ekspansiya ilə paralel olan daxili dinamikliyi və dəyişkənliyi *antopoloji fəal şəxsiyyət əsası* ilə determinasiyalıdır.

Qərb cəmiyyətlərinin qapalılığı və bağlılığı, onlarda innovasiyaların olmaması, onların stabilliyi və daimiliyi, onlarda toplanmış potensial (misal üçün, XX əsrdə Yaponiyada təzahür etmiş), eləcə də siyasət və etikada konformizm, «*qızıl mərkəzi*» tapmaq, müsbət keyfiyyətlərdən istifadə edilməsi ilə bağlı ziddiyyətləri nizamlamaq bacarığı – bütün bunlar, həmişəlik olaraq hadisələr axınına düşmüş və varlığın əbədi Qanunauyğunluqlarına tabe olan insan mövcudluğunun passiv-anotropomorf xarakteri ilə əlaqədardır[42]. Dünyada həyatın *mücərrəd-təfəkkür və fəal-dəyişmə ÜSUllarının fərqləndirilməsi* və bu dünyanın dərk edilməsi Qərb və Şərqin, bu iki təkcə mentalitetin yox, həm də sivilizasiyanın prinsipial olaraq yeni tiplərinin müqayisəli xarakteristikaları üzərində dayanmağa imkan verir.

Subyektin «hər şeyi nəzərə alan» qneseoloji mövqeyi (obyekt-subyekt ənənəsi) bu gündə elmin inkişafını, dinin, incəsənətin və bütün bu dominantların təsiri altında varlıqdan fərqli əmələgəlmə formasında fərqlənən bütün ictimai şüur formalarının çiçəklənməsini müəyyən edən Avropa təfəkkür tipinin dominantıdır. Bu əmələgəlmə formalarının (və ya sadəcə olaraq əmələ gəlmələrin) spesifikliyi çox halda, Qərb və Şərq insanının etnik, milli və nəticədə mental xüsusiyyətləri ilə müəyyən olunur.

Müasir yapon filosofu *Yuasa Yasuo* belə hesab edir: əgər yaponların fəlsəfi təfəkkür tipinin mahiyyəti «*Həyatı necə yaşamaq lazımdır?*» kimi praktiki sualda özünə yer tapırsa, Qərbi Avropa təfəkkürünün əsas sualı «*Dünya necə mövcuddur?*» sualıdır. Avropalı özünün dünyadan uzaqlığını

düşünür, dünyanı obyektiv-subyektiv prizmadan görür, özünün fəal müdaxiləsinin zəruriliyini qəbul edir. Eyni zamanda, avropalı öz məkanının sərhədlərini müəyyən edir, konturunu cızır. Lakin belə mövqe münaqişə – «insanın öz yaradılışı ilə münaqişəsi, mütəfəkkirin öz fikirləri, avropalının öz sivilizasiyası və ya həqiqəti ilə münaqişəsini ...» doğurur[43].

Şərq mədəniyyəti paradiqması – dünyada «həll olma», qeyri-müəyyənlik, dünya ilə qarışma və ondan ayrılmazlıq – Qərb insanı üçün faciəvidir. Çünki obyektin sərhədlərinin itrilməsi, onları cızmaq bacarığını itirmə, son nəticədə subyekt tərəfindən onun özünü (təkcə obyekti yox) itirməsinə gətirib çıxarır.

Qərbi Avropa mentallığı nizamlı ardıcıllığa, irsi-səbəb ağlına əsaslanır. O, xətti olaraq hərəkət etməyi tələb edir, hər şeyi düz xəttə gətirərək, bir oyektə sahib olmaqdan başqa bir obyektə sahib olmağa keçməyi tələb edir. Buradan, *M.Dostoyevskinin* yaradıcılığı ilə öyrənilən «rus qəlbinin müəmmalılığı» haqqında daimi sual ortaya çıxır. Avropa insanının təfəkkürünün ardıcıllığı və məntiqiliyi nöqteyi-nəzərindən, misal üçün, *R.Raskolnikovun* hərəkətləri (fəaliyyətləri) anlaşılmazdır. Uğurlu qanqsterə hörmət ruhunda tərbiyə olunmuş amerikalı sələmçi qocanı uğurla öldürmüş və qarət etmiş, şübhədən kənar qalmış və bundan sonra da bu və ya digər məntiqi təfəkkürə sığmayan ağlın öz imkanlarına inamını möhkəmləndirən belə fəaliyyət və hərəkətlərlə məşğul olan qəhrəmanının davranışlarını necə başa salmaq olar. *Dostoyevskinin* yaradıcılığı, rasional dünyagörüşü rəssamlığın perspektivinə, musiqi əsrinin vahid tonallığına, fəlsəfədə – çıxış anı və son məqsədin mövcudluğu kimi, *Aristotelin* entelexiyasına, xristianlıqda – dünyanın başlanğıcı və sonu haqqında iki tərəfə çıxan ideyaya «axan» Avropa rasionallığının məntiqinə uyğun gəlmir.

Şərait sivilizasiyası insanı üçün dünya bir düz xətdə yerləşmir, istənilən xətti müstəvi üzərinə sığışmır. O, dolu, həcmli, çoxölçülü məkandır. Burada bütün hissələr (əgər onları çəkmək olsa), eyni zamanda və paralel olaraq mövcuddur, hər bir «element» başqa ilə əlaqədar yaranır, başlanğıca və sona (və ya səbəb və nəticəyə) malik deyildir. Burada hər şey sinxron olaraq səslənir və rezonas edir, çoxlu sayda saslərlə səsləşir, öz ayrıcalığında itir və *dəyişikliklərin dəyişməz qaydasını* yaradır. *İn* və *yan* kimi, yerlərini dəyişərək yenə də hərəkətin həmin qaydasına geri qayıdır. *İudzinanın heksoqramlarından* hər birinin fasiləsiz dünya yaradılışı prosesini

simvolizə edir, əslində isə özlüyündə onlar heç nəyə qadir deyildir, çünki *hər şeylə şərtlənir*[44].

Avropa təfəkkürü subyekt və obyektin ikiləşməsinə əsaslanın inkişaf modelidir, dixotomiyaya (ya bu, ya da o) məhkumdur və tez-tez son həddə çatdırılır və faciəvi antaqonizmə çevrilir. Qədim yunan faciəsi müasirlər tərəfindən, öz taleyinə qarşı real olaraq barışmaz müqavimət göstərilməsi ilə ifadə olunan, onun həyatından olan bir hadisə kimi qəbul olunmuşdur. Tale, dünyagörüşü qələbə çaldıqda, fərd ölür, lakin öz ölümü ilə antaqonik əksliklərin mövcud olmasının qeyri-mümkünlüyünü göstərir. Belə müqavimət Avropa təfəkküründə möhkəmlənmiş, idrak, dünyanı dərketmə üsuluna çevrilmişdir. *F.Şellinq* deyirdi, «... Daxili ikimənalılıq bizim şüurumuzda elə kök salmışdır ki, hətta tək olduqda belə biz kiminləsə birlikdə düşündüyümüzü sanırıq və öz sirli, dərin varlığımızı, öz mahiyyəti etibarilə, dramatik olaraq qəbul etməliyik»[45].

Çin dünya modeli, əksinə *dao*ya iki başlanğıcın, *in* və *yan*ın daxil olmasını əks etdirir. Lakin bu, Qərbdə olduğu kimi bir-birini qarşılıqlı istisna edən başlanğıclar yox, bir-birinə qarşılıqlı olaraq nüfuz edən və qarşılıqlı əvəzlənə bilən təbii qüvvələrdir – birlikdə müxtəlif ipostaslarda məhz daonu yaradır («bir *in*, bir *yan* birlikdə yoldurlar»)[46]. Hind dünya modeli də özündə buna oxşar *sansar* və *nırvananı* («Sansarsız Nırvana, Nırvanasız Sansar olan yerdə hər şey başqadır») əks etdirir.

Şərq sivilizasiyasının şəxsiyyəti belə dairə çərçivəsində mövcud olaraq, *sonu sonsuzluqda, müəyyənliyi qeyri-müəyyənlikdə, yekunu yekunsuzluqda və özündə isə dünyanı görür*. Şərq təfəkkürü idrakın imkanlarını yox, insanın dünyaya nüfuz etməsini əks etdirir. Çin filosofu *Sen-çcao* hesab edirdi ki, həqiqi müdriklik heç bir vəchlə biliyin anası deyildir, o, insanın taleyi, onun həyat yolu, özünə və dünyaya daxil olmasıdır (nüfuz etməsidir). Varlıqla birgə mövcud olmanın, onunla ortaqlığın yalnız bu üsulu harmonik və xoşbəxt həyatın yaranmasına yol açır. Şərqdə yalnız o insan mükəmməl hesab edilirdi ki, o, həyat axınının ardınca küləyin arxasınca hərəkət etdiyi kimi hərəkət edir, kosmik harmoniya ilə rezonasiya edərək özünü dünya ilə eyniləşdirir. Şərqdə mövcud olan hər şeydə iştiraketmə reallıq haqqında düşünmək yox, onunla yaşamağı, onun haqqında bilməyi, ona çevrilməyi ifadə edir.

Passivlik və təbiilik daoda mövcudolma üsulu kimi, – təkcə insanın yox, cəmiyyətin də stabilliyi və uğurunun təminatçısıdır. Əgər qədim Yu-

nanıstanda mübarizə harmoniyaya nailolma vasitəsi, həyatın sarsılmaz qanunudursa, Şərqdə, əksinə, *dao fəaliyyətsizlik tələb edir*. Əgər insan azaddırsa, cisimlərlə ahəngdə öz-özünə mövcuddursa, o, niyə mübarizə aparmalıdır, hər şeyə gücü çatırsa, ona müqavimət göstərəcək heç bir şey yoxdursa, niyə səy göstərməlidir, əgər əbədidirsə, daimidirsə və öz-özünə tarazlığa gələcəksə, niyə dəyişməlidir.

Qədim yunan dövründən insan varlığının ikiləşməsi üzərində insan mövcudiyyatının bütövlüyündən çıxarılmış *müəyyən mənəvi aktların mütləqləşdirilməsi* hökm sürməyə başlayır. Bu, elə Tanrının orta əsr mütləqləşdirilməsi, elə fərdiyyətin renesans (intibah) şişirdilməsi, elə insan ağlı imkanlarının yeni zaman məşhurlaşması və elmə himn oxunmasıdır. Özünün daimi «Dünya nədir və onu necə dərk etmək olar?» sualı ilə birlikdə alman klassik fəlsəfəsi də buraya aiddir. *Hegel* variantında o, mütləq ideya, dünya əqli üzərində mərkəzləşmişdir. Bütün bu sistemlər insan imkanlarının, ilk növbədə, özünüdərk reflekslərinin mütləqləşdirilməsindən başqa bir şey deyildir. Qərb insanının «təfəkkürə qarşı bu məhəbbəti» onunla şərtlənir ki, o, inkişaf etmiş hüquq sistemi və qanunvericilik hakimiyyətinə baxmayaraq, hər zaman özündə, öz fəaliyyətlərində, öz təbiətində qanunu əks etdirir, yəni o, özü-özünün sahibdir. Lakin Qərbdə qanun hər zaman Budda, Konfutsi, müqəddəs müdriklər vasitəsilə, yəni xaricdən mühakimə olunur.

Əgər fərd qanunu özü mühakimə edirsə, onda o, məsuliyyət ağırlığını özü daşıyır. Məsuliyyətli mövqe isə hər zaman problemlidir. Qeyri-müəyyən dünyada o, şübhələrlə müşayiət olunur və müəyyən dərketmə, düşüncə tələb edir. Bu, avropalıların mentallığında və xarakterində, onların həyat yolunun problematikliyində əks olunmuşdur[47]. Almanlarda o, *refleksiya* kimi cəhətdə, ingilislərdə – *təmkinlilikdə*, ruslarda – *əxlaqi utancda*, polyaklarda – *özünə güvənmədə*, fransızlarda – *skepsisdə* və s. təzahür etmişdir.

Qədim Çin, qədim hind və yapon fəlsəfi sistemləri fərdi «Mən»lərin mövcud olmasını qeyd edir, eyni zamanda, şəxsiyyəti inkar edərək, onu sadəcə olaraq *mütləqləşdirmirlər*. İnsan hər şeylə eynilikdə, paralel və sinxronluqda mövcuddur. Onlarda şəxsiyyət yalnız dünya quruluş sistemində başa düşülür. İstənilən sivilizasiyanın əsası insandır. Fərq ondan ibarətdir ki, Qərb mədəniyyətində o, episentrdə yerləşir, sistemyaradıcı rol ona məxsusdur, Şərq mədəniyyətində isə o, belə vəziyyətə malik deyildir, çünki o, burada hər şey və hər yerdədir: nırvanada, susqunluqda, fəaliyyətsizlik-

də, istənilən sərhədlərin pozulmasındadır. Həm qərb, həm də şərq mədəniyyətləri, fəaliyyətin bütün sferalarını, o cümlədən iqtisadi münasibətlər sistemini «antoropolojiləşdirən» öz mənəvi potensiallarını mentalitetlərin spesifikliyində reallaşdırır.

## ƏDƏBİYYAT


[1] *Бродель Ф.* Структуру повседневности. Возможное и невозможное: В 3-х т. – М., 1986. - Т. 1. – С. 464.

[2] *Ле Бон Г.* Психология топ. – М., 1998. – С. 119- 120.

[3] *Баронин А. С.* Этническая психология. – К., 2000. – С. 56-57.

[4] *Бродель Ф.* Структуру повседневности. Возможное и невозможное: В 3-х т. – М., 1986. - Т. 1. – С. 464.

[5] *Зеленский В.* Послесловие // Юунг К.Г. Аналитическая психология. – М., 1995. – С. 291.

[6] *Гороховский Е.* О том, где зарыты сокровища или Царей блистателные лики // Мир денег. – 2000. - № 5. – С. 59.

[6] *Баронин А. С.* Этническая психология. – К., 2000. – С. 58.

[7] Yenə orda. – S. 59.

[8] Yenə orda. – S. 61.

[9] *Старикова Л.* Це дивне слово «менталитет» // Философськи студии – 1993. - № 1. – С. 106.

[10] *Krech D., Grutchfild P..,* Ballachey E.L. Individual in Society. – N.Y., 1962. – P. 74.

[11] *Баронин А. С.* Этническая психология. – К., 2000. – С. 64.

[12] *Гуревич А. Я.* Исторический синтез и Школа «Анналов». – С. 62-65.

[13] *Андреев И.А.* Человек по имени «Деньги» // Вопросы философии. – 2002. - № 11. – С. 60-61.

[14] *Ле Гофф Ж.* Цивилизация средневекевого Запада. – М., 1992. – С. 335.

[15] *Андреев И.А.* Человек по имени «Деньги» – С. 62.

[16] *Грабовська И.* и знову програм поняття «ментальнисть» // Философськи студии. – 1995. – С. 80.

[17] Yenə orda. – S. 81.

[18] *Баронин А. С.* Этническая психология. – К., 2000. – С. 65.

[19] История в эняиклопедии Дидро и Д Аламбера. – Л., 1978. – С., 181.

[20] *Баронин А. С.* Этническая психология. – К., 2000. – С. 69.
[21] *Монтень М.* Опыты: В зянэинлик-х т. – М., 1987. – Т.1. – С. 265.
[22] *Таранов П.С.* Анатомия мудрости. 106 вопросов. Жизнь, судьба, учение. – В т. Симферeполь, 1992. – М.2. – С. 302.
[23] *Ле Бон Г.* Психология топ. – М., 1998. – С. 22.
[24] *Гегель Г.В.Ф.* Кто мыслит абстрактно? // Гегель Г.В.Ф. Работы разных лет. В 2-х т. – М., 1970. – Т.1. – С. 393 – 394.
[25] *Гердер И. Г.* Идеи в философии истории человечества. – М., 1977.
[26] *Ле Бон Г.* Психология топ. – М., 1998. – С. 22.
[27] *Гуревич А. Я.* Исторический синтез и Школа «Анналов». – С. 14 - 29.
[28] *Мостяэв О.* Субэктивни, етнични та цивилизацийни складови ментальности // Философськи студии. – 1995. – С. 83.
[29] *Юнг К.Г.* психологичесике типы. – М., 1996. – С. 74.
[30] Elə orada. – S. 87-89.
[31] *Баронин А. С.* Этническая психология. – К., 2000. – С. 101.
[32] Етносоциальни трансформации в Украини. К., 2003. – С. 121.
[34] *Вебер М.* Избранные произведения. – М., 1990. – 261.
[35] *Мостяэв О.* Субэктивни, етнични та цивилизацийни складови ментальности // Философськи студии. – 1995. – С. 90.
[36] *Баронин А. С.* Этническая психология. – К., 2000. – С. 102.
[37] Етносоциальни трансформации в Украини. К., 2003. – С. 116.
[38] Yenə orda. – S. 117.
[39] *Баронин А. С.* Этническая психология. – К., 2000. – С. 104.
[40] *Иванов Н.А.* Новые подходы компанийа изучению истории // Восток. – 1993. - № 4.
[41] Етносоциальни трансформации в Украини. К., 2003. – С. 105.
[42] *Мальро А.* Зеркало лимба. – М., 1989. – С. 37.
[43] Из книг мудрцов. Проза древного Китая. – М., 1987.
[45] Шеллинг Ф. Сочинения: 2-х т. – М., 1987. – Т.2». – С. 360.
[46] Из книг мудрцов. Проза древного Китая. – М., 1987.
[47] Етносоциальни трансформации в Украини. К., 2003. – С. 111.

# İŞGÜZAR MÜNASİBƏTLƏRDƏ DÜNYA XALQLARI MENTALİTETİNİN XÜSUSİYYƏTLƏRİ

*Mentalitet problemi təkcə idraki, etnoqrafik maraq üçün öyrənilməyə layiq deyildir. Onun xüsusiyyətlərini bilmək bir çox müasir problemlərin mahiyyətinə daha dərindən varmağa, müasir humanizmin ziddiyyətlərindən daha yaxşı baş çıxarmağa, bizim dövrün mənəvi böhranını dərk etməyə, ictimai və siyasi güclərin qarşılıqlı fəaliyyətinin səbəblərinin, müasir dünyanı bürümüş «**iqtisadi totallığın**» mahiyyətini anlamağa kömək edir.*

# 1. ŞƏRQ

**Yaponiya: kompromiss – an, məqam aynasıdır**

Şərq fəlsəfəsinin təhlili göstərir ki, o, insanın ümumi olaraq dünyada həqiqi həyatını və *xüsusi olaraq sosial ierarxiyanın normativliyi* üçün lazım olan davranış qaydalarını müəyyən edir. Yaponlar üçün, Şərqin başqa xalqları üçün olduğu kimi, *daxili şəxsiyyət amillərinə oriyentasiya* səciyyəvidir. Hələ orta əsrlər dövründə yaponlar barbar idilər, ancaq, yazı, elm, manufaktura, incəsənəti mənimsədikləri xalqlarla qonşuluq və ünsiyyət sayəsində, artıq təkcə Çinin yox, həm də bir çox başqa ölkələrin müttəfiqi olan bir dövlət yaradıldı. Yaponiyada formalaşmış dünyagörüşü özündə buddizm, daosizm, konfutsi və sintoizm bütpərəstliyini birləşdirirdi. Ümumiliyin xüsusiyyətləri sayəsində o, həm cahil, həm də savadlı şəxslərə uyğun gəlirdi. Bu, din və fəlsəfənin incəsənətlə sıx əlaqəsi ilə izah olunur, bunun nəticəsində Yaponiyada ideologiya, hər şeydən əvvəl, *estetikadır.*

Yaponlar üçün, tərəflərindən biri yapon olan suala münasibətdə xaricinin mövqeyinin rədd edilməsində təzahür edən *ksenofobiya* xarakterikdir. Ancaq onların milliyyətçiliyi aqressiv deyil, daha çox heysiyyətlidir. Yaponlar aşkar özünəgüvənmələri ilə yanaşı, başqalarından öyrənməyə hər zaman hazırdırlar və buna can atırlar. Onlar itaətkarcasına, lakin daxildə mənimsədikləri şeyi təkmilləşdirəcəklərinə əmin olaraq hər hansı bir şeyi təkrarlayırlar.

Yaponlar öz psixoloji mahiyyətlərində *individualzmi (fərdiyyətçiliyi) rədd edirlər.* Lakin onların kollektivçiliyi xüsusidir, onun xüsusiyyəti «özü» və «başqası» arasında, onlara müvafiq münasibət göstərilməklə, ayırıcı xəttin çəkilməsindədir. Yapon cəmiyyəti özündə, hər insanın ailə, birlik və ya firma şəklində çıxış edən hər hansı QRUpun bir hissəsi kimi hiss etdiyi qrupların birliyini əks etdirir. Yapon əxlaqı təbliğ edir ki, «*asılılıq hissi olmadan, əminlik hissi də ola bilməz*». Yapon təfəkkürü «xəbər verərək» reallaşdırılır, davranış qrupun iradəsinə tabedir və onun daxilindəki vəziyyət bundan asılıdır.

Əxlaqdan çıxan xüsusi keyfiyyət böyüklərə minnətdarlıq borcu kimi başa düşülən *sədaqətdir.* Məhz sadiqlik (sədaqət) yapon ailəsinin və onun nümunəsində yaradılan sosial qrupların əsasını təşkil edir, bu qruplarda belə münasibətlərə («ata - oğul»), müəllim və şagird, himayədar və qəyyumluqda olan arasındakı münasibətlər çıxış edir. Bu zaman sosial qrupa

sadiqlik, onun düzgün olub-olmamasından, onların davranışının ədalətli olub-olmamasından asılı olmayaraq, qeyd-şərtsiz (sözsüz) və hədsiz olmalıdır. Yaponun davranışına nəzarət olunur, onun haraya getdiyi, niyə getdiyi, nə vaxt geri dönəcəyi haqqında soruşulur. Buna görə də onun üçün şəxsi işlər anlayışı mövcud deyildir. *R.Şteynberq* yazır ki, «Yapon cəmiyyəti görkəmli şəxsiyyətləri qəbul etmir, o, başqalarını üstələyən istənilən şəxsi arxaya çəkir... İşgüzar aləmdə insan qabiliyyətlərinə görə yox, xidmət göstərdiyi firmaya görə tanınır»[1].

Yaponiyada sosial qruplara şaquli tabeçilik xasdır ki, bu da qrup üzvlərinin psixoloji xüsusiyyətlərini şərtləndirir. Şaquli əlaqələr hər yerdə, o cümlədən işgüzar sferada dominantlıq edir. Sərt ierarxiya «kənar insanı», subyektlər arasında əvvəllər formalaşmış başqa şaquli əlaqələr arasında yad cismə çevirərək onun daxil olma imkanını istisna edir. Belə şərait şəxsin bir qrupdan başqasına hərəkətini məhdudlaşdırır və bunu faydasız edir.

Yaponun ən yaxşı işi yalnız şəxsi resursları, şəxsi təşəbbüsü və şəxsi səyləri ilə həyata keçirilir. Əgər yaponlar nə isə kənar bir şeyi mənimsəyirlərsə, onda onun praktiki tətbiqi yalnız ideyanın və ya mahiyyətin aydınlaşdırılmasından sonra həyata keçirilir. Yapon, bir qayda olaraq, öz işinə və məxsus olduğu təşkilata (firmaya) tabedir. İşin tələb etdiyi qədər, hətta ondan da çox işləyir.

Danışıqların aparılmasının yapon metodu – əks tərəfi ilk olaraq güzəştə getməyə vadar etmək məqsədilə süni olaraq böhran situasiyasının yaradılmasına qədər xüsusi və ümumi problemlərin sonsuz təkrar olunmasıdır. Bu metod yaponlar tərəfindən danışıqların aparılmasının ən sevimli taktikası ilə şərtlənir: öz «kartlarını» açmadan əks tərəfin imkan hədlərini aşkar etmək, onun ən zəif yerini və xüsusi maraqlarını tapmaq. Yaponlar işgüzar danışıqların aparılması məsələlərində tez-tez əks tərəfdən əlavə güzəştlər əldə etməyə və ya heç olmazsa, rəqibin iqtisadi cəhətdən «tükəndiyinə» əmin olmağa çalışırlar.

Yaponlar üçün qeyri-müəyyənliyə meyillilik xarakterikdir ki, (onlar suallara heç vaxt birmənalı olaraq «bəli» və ya «xeyr» cavabı vermirlər) bu da bu və ya başqa qərara görə məsuliyyəti öz üzərinə götürməmək istəyi kimi izah olunur. Bunun səbəbi, yaponlara mühüm qərarları təkbaşına qəbul etməyə imkan verməyən «*qrup psixologiyasındadır*». Onlar müstəqil addımlardan qaçaraq, anonim *ümumi* rəyə oriyentasiya edirlər. Onlar, bunu danışıqlar zamanı əldə edirlər və bu zaman dialoqun gedişi diqqətlə

təhlil olunur. Ümumi fikrin formalaşması bir neçə amilin nəzərə alınması ilə baş verir: birincisi, danışıqların bütün gedişi *harmoniyanı pozmamalıdır*. Yaponlar belə hesab edirlər ki, onun saxlanması düzgünlüyü sübut etmək və ya fayda (gəlir, mənfəət) əldə etməkdən daha vacibdir. İkincisi, yaponlarda tələsmək tamamilə yersiz hesab olunur. Amerika və Avropa şüarı olan «zaman puldur», Yaponiyada dəstəklənmir və şübhə ilə qarşılanır. Tələsiklik harmoniyanı pozur. Məsələn, partnyorun ilkin qərarların nəticələrilə təmin edilməsi, mütləq olaraq yapon tərəfin şübhəsinə səbəb olacaqdır. Bu, yaponların belə bir inamı ilə əlaqədardır ki, istənilən saziş həm birinci, həm də ikinci tərəf üçün qaçılmaz zərərlərlə müşayiət olunur. Üçüncüsü, pul problemlərinin həllini vasitəçilərlə həyata keçirmək lazımdır. Yaponlar məsələnin maliyyə tərəfində yüksək maraq göstərmirlər, çünki bazarlıq etməyi qeyri-etik hesab edirlər və belə məsələlərin həllini hər zaman vasitəçilərə, yaxud tabeçilikdə olanlara həvalə edirlər[2]. Yaponlar özlərinin pula qarşı *laqeyd* olduqlarını göstərməyi sevirlər (məsələn, yaponlarda pulun qalığını saymaq yaxşı qəbul edilmir).

Yaponlar öz cəmiyyətləri daxilində nüfuzlu, dəstək verə bilən, himayəçi ola bilən insanların axtarışı ilə məşğuldurlar. Ümumiyyətlə, onların fəaliyyətində optimistik atmosfer qurulur. Ətraf mühit ilə təmaslar qurulmuş əlaqələrdən fayda götürülməsi ilə xarakterizə olunur. Ancaq yapon sahibkarlarında işgüzar münasibətlərin prinsipləri Qərbin işgüzar dünyasından əhəmiyyətli dərəcədə fərqlənir. Məsələn, yaponlar, telefon danışıqlarını yox, şəxsi görüşləri tərcih edirlər, çünki belə hesab olunur ki, telefon danışıqlarında, məktublaşma zamanı olduğu kimi, müfəssəl şəkildə danışmaq və keyfiyyətli şəkildə iş aparmaq mümkün deyildir.

Danışıqlar üçün yapon tərəfinə firmanın (təşkilatın) profili (ixtisası), rəhbərlərin tam adı, ünvanlar, buraxılan məhsulların çeşidi haqqında, məhsullar, texnologiya və xidmətlər haqqında mətn və qrafiki materiallar lazımdır. Bu zaman dəqiqliyə diqqət yetirmək lazımdır. Yaponiyada işgüzar ünsiyyətin bütün praktikası çox halda son dərəcə məsuliyyətliliyə əsaslanır. Danışıqlarda dəqiqlik – danışıqların aparılmasının yapon tərzinin ən mühüm cəhətlərindən biridir. Lakin onların templəri yavaş olacaqdır: dolayı məsələlərin müzakirə olunması, əlavə informasiyanın, konsultasiyanın (məsləhətin) əldə edilməsi və firmanın başqa bölmələrinin rəhbərləri ilə razılaşdırılması, səbrin yoxlanılması. Lakin Yaponiyada *səbr* əsas xeyirxahlıqlardan biri hesab olunur (o cümlədən biznesdə). Pul – olmalı olan

nəticədir, o – zərurətdir, bundan daha vacib olan isə – «*simanı itirməmək-dir*». Yapon üçün «simanın itirilməsi» sadəcə olaraq səriştəsizliyin, ya da səhvin qəbul olunması demək deyildir. Bu – özünü itirməkdir. Yapon tərəfi üçün danışıqları aparmaq çox çətin olmasına baxmayaraq, razılığa nail olduqdan sonra o, bir qayda olaraq, öz öhdəliklərini son dərəcə dəqiq şəkildə yerinə yetirir və eyni şeyi partnyorundan da tələb edir.

Yaponlar öz emosiyalarını saxlamağa öyrəşiblər, onlar jest və hərəkətlərdə mötədildirlər, lakin bununla belə, söhbət zamanı başlarını tez-tez aşağı-yuxarı hərəkət etdirmələri «*mən sizinlə razıyam*» deməkdən çox, «*mən sizə diqqətlə qulaq asıram*» mənasını verir. Öz hissini (həm müsbət, həm də mənfi) ifadə etmək danışıqlara pis təsir göstərir. Yaponlar hisslərini ifadə etməyi sevmirlər, buna görə də onların xarakterində Avropa mentaliteti üçün adət edilmiş milli xarakteristikalar səciyyəvi deyildir (pulu görərkən sevinmək, mənfəət əldə edərkən məmnuluq hissi keçirmək və s. *onlara xas deyildir*).

Yapon tərəfi ilə danışıqlar aparılması zamanı səbr etmə və qarşılıqlı anlaşmanın təmin edilməsinə səy göstərmə konfrontasiyaya nisbətən, daha yaxşı nəticə verəcəkdir. Bu xüsusiyyət sayəsində yaponlar üçün sosial transformasiyaların həddən artıq dinamizmi (Asiya meyarları üzrə) xarakterikdir. Qonşuların nailiyyətlərinin daimi olaraq mənimsəmək və öz şərait və ənənələrinə uyğun adaptasiya etmək, özgəyə qarşı canlı maraq, əcdadlardan əldə edilmiş və mənimsənilmiş şeyləri harmonik olaraq əlaqələndirmək bacarığı Yaponiyanı əsrlər boyu məlum qərb nümunələrinə əhəmiyyət verməyən ənənəvi Çin və Hindistandan ifadəli şəkildə fərqləndirir. «Yapon möcüzəsi» fenomeni əhəmiyyətli dərəcədə açıqlığın dayanıqlı özüeynilyin əlaqələndirilməsi ilə müəyyən olunur[3].

Sonuncu an onunla bağlıdır ki, yaponlar üçün kompromiss «*anın aynasıdır*». Yaponlar güzəştə güzəştlə cavab verməyə meyillidirlər, həmçinin daha zəif partnyorlara münasibətdə güzəştlər onlar tərəfindən «xeyirxahlığın» və «alicənablığın» təzahürü kimi nəzərdən keçirilir. Yaponlar iqtisadi mükəmməlik və nailiyyətlərə nail olma prosesində qərəzlərə (hədələrə) yol verməmişdirlər, onlar onlara qarşı heç bir psixoloji təsirə malik deyildirlər. Onlar özləri də hədə, blef, siyasi və psixoloji təzyiqlər tətbiq etməməyə çalışırlar. Yaponlar üçün, yuxarıda deyildiyi kimi, ən böyük təhlükə «simanın – şərəfin, nüfuzun, adın itirilməsidir». Bununla əlaqədar olaraq, uduzmamağa çalışmaq, udmağa çalışmaqdan daha güclü

ola bilər. Yapon üçün pul, bununla bağlı olaraq, məqsəd kimi çıxış etmir. Onlar, Yaponiya vətəndaşını mövcud sosial qaydaya salan (daxil edən) bütün həqiqi dəyər və xeyirxahlıqları saxlayırlar. O, qarşısına xoşbəxt, yaxşı tarazlaşdırılmış və yaxşı uyğunlaşdırılmış fərdin yaradılması vəzifəsini qoymuş öz cəmiyyəti ilə uyğunluq təşkil edir.

**Çinin Konfusi rasionalizmi**

Çinlinin mentallığı – Çin cəmiyyətinin maddi və mənəvi tələbatlarının çoxəsrlik mədəni inkişaf prosesinin nəticəsidir. «Psixi quruluş», tarixi kateqoriya kimi, daimi olaraq dəyişir və hər bir yeni dövr psixikada özünün xüsusi izini qoyur. Demək olar ki, Çin (eləcə də Asiya) mentalitetinin xüsusiyyətlərindən biri ondan ibarətdir ki, «ağıl səviyyəsində o, Qərbdə şəxsiyyətin təhkimlikdən (köləlikdən) azad edilmiş həyat fəaliyyətini və insan zəifliklərinə göz yuman Qərb mədəniyyətini qəbul edir, əxlaqi-psixoloji səviyyədə isə – onu rədd edir və milli ənənələrə riayət edir»[4]. Onun ən dayanıqlı elementləri dəyər oriyentasiyaları, xüsusilə bütün Çin şüuru ilə əlaqədar oriyentasiyalarıdır.

Çinli üçün maddi və mənəvi mədəniyyətin bütün formaları, təkcə Çin hadisəsi kimi yox, həm də başqa mədəniyyət və sivilizasiyaların dəyərlərinin meyarları kimi, müstəsna əhəmiyyətə malikdir. Çinlilər üçün avtoritetlər, təkcə sosial vəziyyətinə görə yuxarıda duranlar deyil, həm də hadisə və predmetlərdir. *Çinlilər üçün bütün Çin dəyərləri, davranış qaydaları, söz və jestlər, mərasimlər, dəlillərin təqdim olunması ardıcıllığı, Çin adət və ənənələri, əcdadların müdrikliyi avtoritetdirlər.*

Çinlilər üçün səciyyəvi cəhət rasionallıqdır – yəni hiss olunan fayda və xeyir gətirə bilən bir şeydir. Çinli ünsiyyətdə, hər şeydən əvvəl, partnyorun hansı konkret faydanı gətirəcəyini, onunla ünsiyyət saxlamağın nə qədər «rentabelli» olduğunu, nə qədər xeyir götürmək mümkün olduğunu müəyyən etməyə çalışır. Əgər belə motivasiya partnyorun hər hansı fəaliyyətini izah etmək üçün gərəksiz olsa, onda bu, çinlidə narahatlıq doğurur, çünki o, başqa təmənnasız (qərəzsiz) motivlərin mövcud olacağını mümkün hesab etmir. Motiv kimi əxlaqi, idraki məqsədin çıxış etdiyinin izahı çinli tərəfindən, hər zaman utilitar olan həqiqi məqsədlərin maskalanmasına istiqamətlənmiş hiylə kimi nəzərdən keçirilir.

Çinlilərin mentalitetində formanın dəyərliliyi onun tərkibi üzərində dominantlıq edir. Nəzakətin (ədəbin) xarici təzahürlərinə, xoşrəftarlılığa,

ehtirama üstünlük verilir və insanın hissləri, emosiyaları və daxili vəziyyətinə praktiki olaraq əhəmiyyət verilmir. Çinlinin şüurunda belə bir təsəvvür möhkəmlənmişdir ki, sənin ünsiyyətdə mühüm olan şey haqqında həqiqi olaraq yox, verilmiş kommunikativ situasiyada onun üçün yazılmış olan şey haqqında düşünməyindir. Burada inzibati sistemin əsaslandığı konfusiçiliyin təsiri dəqiq olaraq hiss olunur. Rəsmi olaraq şərh olunan konfusiçilik əxlaqi, sosial, siyasi və iqtisadi problemlərin həlli üçün ideoloji səbəb kimi çıxış edir.

Formaya oriyentasiya çinlilərin mentallığında *«simanın», «həyanın», «keçmişin dəyərliliyinin»* etnopsixoloji fenomenlərinin mövcudluğunu şərtləndirmişdir. Bu, öz tərkibini onun üçün adət edilmiş və stereotip şəklini almış formaya salınmasına imkan yaradır ki, bu da özlərinin ilkin formasına bürünmüş ideyaların yüksək dərəcədə qəbul olunmasına gətirib çıxarır. Buna görə də çinlilər obyektə və ya obyektiv varlığa yox, *subyektiv amillərə* oriyentasiya edirlər. Onların şüuru xarici şəraiti görür və yenə də həlledici olaraq, *subyektiv determinantı* seçir[6].

Çinli həyatı müəyyən sosial rolun reallaşması kimi başa düşür. Onun reallaşdırılması xeyirxahlıqları və ideal keyfiyyətləri ilə fərqlənən öhdəliklərin ciddi şəkildə yerinə yetirilməsinin zərurliyini əks etdirir. Həyatn belə başa düşülməsinin başlıca nəticəsi özünü çalışqanlıq, qavrayışın hissi kəskinliyi və minlərlə faydalı işlərdə incə ustalıqda ifadə etmişdir. «Çin ənənəsi dixotomiya çərçivəsində işləyir: dövlət tərəfindən nizamlanan cəmiyyət – öz mənəvi-maddi vəhdətində son ibtidai reallıq kimi, Daonun təbiət dünyasına praktiki olaraq adekvatdır. Hər iki başlanğıc tutqun şəkildə dərk olunan transendent varlığına qarşı müəyyən münasibətlərə malikdir, ancaq onlarda əsas cəhət – bilavasitə insana istiqamətlənən, onun praktiki fəaliyyəti ilə eyni ölçüdə olan cəhətdir»[7]. Şübhəsiz ki, din və ovsunun, mifologiya və təbiətdən yuxarı olanın qəhrəmanlığının təsirindən azad olunmuş, hamıya məlum olan Çin praktisizmi də bununla əlaqədardır.

Çinlilər geyimdə tələbkar deyildirlər, işlərin həyata keçirilməsində isə qənaətcil və rasionaldırlar. Onlar üçün qənaətcillik və sərhesablıq kimi cəhətlər səciyyəvidir. Onlardan bir çoxları varlanmağın, yığıcılığa can atmanın bütün mümkün formalardan istifadə edirlər. *Çinlilər pulu sevirlər*. Bir qayda olaraq, onun əldə edilməsi əməklə bağlıdır və burada əməyə qarşı münasibət öz təşkilatlılığı, intizamlılığı, səbrliliyi, zəhmətsevərliyi, işdə və təlimdə çalışqanlılığı və dəqiqliyi ilə xarakterizə olunur. Milli ruhda,

çətinlik və məhrumiyyətlərə dözmək qabiliyyətində tərbiyə olunmuş çinlilər çox vaxt bir çoxlarının imtina etdikləri işləri yerinə yetirirlər. Və bu, çətinliyi sevməklə yox, qazanmaq, daha çox əldə etmək arzusu ilə bağlıdır. Onlar iddiasızdırlar (qeyri-tələbkardırlar) və öz hiss və əhval-ruhiyyələrini başqa bir şəxsin (və ya başqa şəxs qrupunun) hiss və əhvalına sürətlə uyğunlaşdırırlar.

Yaponlar kimi, çinlilər də işgüzar danışıqları aparmağa tələsmirlər, çünki nəzərdə tutulan sazişin bütün aspekt və nəticələrini təfərrüatı ilə öyrənmədən qərar qəbul etmirlər. Yəni çinli «uğura» bel bağlamır, maliyyə və ya iqtisadi problemin sürətlə həll olunacağına inanmır. Çinli «*zəhmətsiz qazanılmış pullara*» bel bağlamır, ən azı ona görə ki, onun bütün həyat tərzi ciddi qayda və normalar üzərində qurulur.

İşgüzar görüşlər zamanı çinli iştirakçılar müzakirə predmetinə münasibətdə informasiya toplanmasından, habelə danışıqlar üzrə partnyorlara, zahiri dost münasibətlərinin formalaşdırılmasına qarşı çox diqqətlidirlər. Danışıqlarda belə zahirilik onlar üçün böyük əhəmiyyətə malikdir ki, bu da əhəmiyyətli dərəcədə çinlilərin mədəni ənənə və dəyərləri ilə şərtlənir. *Çinlilər bu dost münasibətlərini partnyorlarla yaxşı münasibətlərlə eyniləşdirirlər*. Bununla yanaşı, danışıqlar zamanı partnyorlar tərəfindən buraxılmış səhvlərdən, dostluğa baxmayaraq, öz xeyirləri üçün bacarıqla istifadə edirlər.

Nəticədə, müasir dünya Çinin gur inkişafını izləmək imkanına malikdir. Onun fenomeni, hər şeydən əvvəl, ənənəvi Çin dəyərlərinin və dünya, o cümlədən müasir iqtisadi fikrin nailiyyətlərinin uğurlu əlaqələndirilməsindən ibarətdir. Çin təcrübəsi nəhəng ölkəni, geridə qalmış ölkədən müasir, iqtisadi cəhətdən inkişaf etmiş dövlətə çevirməkdə (həm də tarixi olaraq qısa zaman kəsiyi ərzində) özünü doğrultdu. Çin təcrübəsinin uğuru göstərir ki, müasir dünyada müstəsna olaraq Qərb təcrübəsinə istinad etmək olmaz, qətiyyətlə, milli ənənə və mentalitetə cavab verən öz yolunu axtarmaq lazımdır.

**Koreya qeyri-rəsmi əlaqələrinin xüsusiyyətləri**

Koreya mentaliteti Uzaq Şərq mədəniyyətinə aiddir və həm Qərb, həm də qonşu milli xarakterlərdən fərqlənir. Bir çox ölkələrin sahibkarları koreyalıları dünyada ən çətin işgüzar partnyorlardan biri hesab edirlər. Və məsələ təkcə dildə yox, həm də çinlilərlə bir çox ümumi cəhətlərə malik olan

mentalitetin xüsusiyyətlərindədir. Bu, təəccüblü deyil, çünki Koreya sosial-mədəni sistemi özündə *Çin-konfusi* və *ona adaptasiya etdirilmiş yerli elementlərin* (buraya bizim eranın I minilliyində *buddizm* də əlavə olunmuşdur) *sintezini* əks etdirir. Siyasi institutların və sosial münasibət formalarının formalaşması müvafiq Çin institutlarının təsiri altında inkişaf etmişdir və eyni zamanda bu təsirin yolgöstərəni konfusiçilik, sonradan isə «çinliləşdirilmiş» buddizm olmuşdur. Koreya mədəniyyəti özündə Çin yazılı-ədəbi, bədii-yaradıcılıq və memarlıq ənənələrinin təsirini daşıyır, buna baxmayaraq, xalq mədəniyyəti özünün bir sıra orijinallıqlarını saxlamışdır[8]. Məsələn, Çində olduğu kimi, əgər Koreya nümayəndəliyi üzvlərindən kimsə başını yırğalayırsa, bu razılıq demək deyildir; bir çox hallarda qürur və «simanı itirmək» qorxusu sadəcə olaraq səhv başa düşülür.

Koreyalı abstrakt düşüncələrdən qaçır, sadə və konkret kateqoriyalara, məntiqi ardıcıllığa və dəqiq qarşılıqlı əlaqələrə can atır. Buradan aydındır ki, iqtisadi problemlərə, o cümlədən pula qarşı fəlsəfi münasibətlər kifayət qədər problemidir. Avropa fikrində bu terminin qeyri-fəlsəfi başa düşülməsi yox, konfusi və buddizm ənənələri çərçivəsində fəlsəfi başa düşülməsi qəbul olunmuşdur. Buna görə də koreyalıda rasional logizm (məntiqilik) yoxdur və bu da, xüsusilə, həmsöhbətə etiraz etməyin onlar üçün çətin olmasında təzahür edir.

Koreyada konfusi əxlaqı güclüdür, bu əxlaqa görə başqasının hisslərini nəzərə almaq lazımdır, ona, onun sosial statusuna uyğun olaraq münasibət göstərmək, onun hüquqlarına hörmət etmək (hətta qeyri-səmimi olmaq lazım gəlsə belə) lazımdır. Bu əxalqa riayət edən koreyalılar çox qonaqpərvərdirlər və öz qonaqları üçün qeyri-adi isti qonaq qəbulları təşkil edirlər. Belə situasiyada qonağın pula qarşı istənilən tələbatı təmin olunacaqdır. Bu, pula qarşı alət kimi münasibət göstərməyə əsas verir. Əsas məsələ – «birdəfəlik» münasibət kimi yox, onların həyatının ən mühüm şərti kimi, alicənablıq və mülayimlik göstərilməsi və ləyaqətin saxlanmAsıdır.

Koreyalılara, çinlilər kimi, rasionalizm xasdır. Buna görə də işgüzar görüşlərə girmək üçün, həm bu firmanın əməkdaşlarını (və ya işgüzar danışıqlara girmək istəyən şəxsi), həm də təklifin mahiyyətini yaxşı tanıyan üçüncü şəxsin tövsiyəsi lazımdır. Mülayimlik və qonaqpərvərlik maliyyə maraqlılığından azad etmir. Əgər koreyalı sahibkar partnyora qarşı maraq əxz etsə, o, şəxsi görüşə nail olmağa çalışacaq. Danışıqların, işügzar görüş-

lərin aparılmasının başqa üsulları qəbul olunmur, çünki pulun əldə edilməsinin, ələ keçirilməsinin qəbul olunmuş ənənəsi mövcuddur.

Koreyada (Cənubi) işgüzar münasibətlər sahəsində istənilən problemin həlli zamanı *qeyri-rəsmi (qeyri-formal) – regional, klan, dost əlaqələri* mühüm rol oynayır. Hakimiyyətin yuxarı orqanlarında qohum və dostların olması da böyük əhəmiyyət kəsb edir. Partnyorun real nüfuzluluğunun aydınlaşdırılması istənilən başlanğıcın perspektivliyinin qiymətləndirilməsi üçün çox vacibdir, çünki tez-tez yalnız qeyri-formal dəstək işi həll edə bilər. Bu işdə koreyalılar, tanışlıq, «blat», «kirvəlik» (qohumbazlıq) formal əlaqələrə nisbətən çox halda daha nüfuzlu hesab olunan rus və ukraynalılara oxşardırlar. Məhz qeyri-formal əlaqələr «qanuni» yola nisbətən daha böyük kəmiyyətdə pul əldə etməyə imkan yaradır.

Koreyalılar işgüzar məsələləri həll edərkən, yaponlardan fərqli olaraq, ikinci dərəcəli məsələləri uzun müddət müzakirə etməyə meyilli deyillər. Onlar qarşılıqlı münasibətlər qurulduqdan dərhal sonra təşəbbüsü əllərinə almağı tərcih edirlər (xüsusilə, əgər mənfəət perspektivləri açılırsa). Öz rasionallıqları təriqilə onlar *ümumi şəkilli* söhbətlərə tab gətirmir və partnyorluq imkanlarını *konkret*, müfəssəl şəkildə işlənib hazırlanmış proqram üzrə müzakirə etməyə hazırlıq nümayiş etdirirlər. Koreyalıların özləri də aydın və dəqiq ifadələrlə problemi ərz edir və onun həll edilməsi yollarını göstərirlər. Bu, onların çoxəsrlik əməklə tərbiyə olunmuş və «bəli» və «xeyr» kimi dəqiq oriyentasiyalar formalaşdırmış icraediciliyinin nəticəsidir. Burada ümumi qəbul olunmuş belə bir məsəli qeyd etmək yerinə düşərdi: «Pul hesabı xoşlayır», yəni koreyalı üçün pul hər zaman konkretdir.

Təcrübə göstərir ki, Koreya sahibkarlarının davranış sistemini dəyişmək cəhdi nəticəsiz olmuşdur. Koreyanın işgüzar dairələri və ya sadəcə olaraq koreyalılarla uğurlu əməkdaşlıq etmək üçün onların mental xüsusiyyətlərini yadda saxlamaq lazımdır. Bunun üçün təkcə işgüzar təklifləri yox, həm də milli xarakterin xüsusiyyətlərini, bu millətin sosial-mədəni cəhətlərini də diqqətlə öyrənmək lazımdır. Həmçinin «iki» - Şimali və Cənubi Koreya olduğunu da yaddan çıxarmamaq və onları qarışdırmamaq lazımdır. Tarixi xüsusiyyətlərlə əlaqədar onlarda pula qarşı müxtəlif münasibətlər mövcuddur.

**Ərəb dünyası: pulun dəyərliliyi və fəaliyyətin nüfuzu**

Ərəb, İran və türk subsivilizasiya təzahürlərinin daxil olduğu müsəlman dünyasının sivilizasiya sistemi erkən orta əsrlər dövründə öz formalaşmasını sona çatdırmamış, əksinə buna başlamışdır və bu, məlum mənada bu günə qədər davam edir. *Ərəb-müsəlman* sosiomədəni sistemi ilkin olaraq, Yaxın Şərqin qədim xristian irsinin erkən bizans dövrü ilə sintezi kimi çıxış edirdi. Yeni sivilizasiya, Suriya-estorian və qismən də iudeylər sayəsində bundan miras, utilitar-proqramatik biliklər – texnika, memarlıq, riyaziyyat, tibb və s., vaxt keçdikcə, hətta Aristotel fəlsəfəsinin neoplatonist şərhini də götürmüşdür. Ancaq milli xarakterlə bilavasitə təmasda olan, ilk növbədə, dini həyatda, poeziyada və spesifik ornomental təsviri incəsənətdə ifadə olunan emosional-iradi sferada qədim ərəb etnik irsi kifayət qədər hökm sürürdü. Sonuncu, xüsusilə, dini doktrina və pozesiya yeni sivilizasiyanın qəlbini təşkil edirdi[9]. Nəticədə bu, ərəblərin başlıca mental oriyentasiyalarını müəyyən etdi.

Ərəb ölkələri tarix boyu öz psixoloji quruluşlarını praktiki olaraq dəyişməz saxlayan dayanıqlı sivilizasiyadır. Müasir ərəblər özlərinin döyüşçü əcdadlarından əhəmiyyətli dərəcədə fərqlənirlər. Bu gün ərəb ölkələrinə, xüsusilə ticarətdə praqmatizm, işgüzarlıq, təşəbbüskarlıq xasdır. Ticarətlə məşğulluq hər zaman ərəblərin xarakterik xüsusiyyəti olmuşdur. Bu da pula qarşı xüsusi münasibət formalaşdırmış, onu qazanmaq bacarığını tərbiyə etmiş, sərvətin əsas yerlərdən birini tutduğu həyatın dəyər və nemətini müəyyən etmişdir.

Onlarla müstəqil dövlətlərdən ibarət olan müasir ərəb dünyası bir vaxtlar mövcud olmuş qüdrətli *Ərəb xilafətinin* xarabalıqları üzərində qurulmuşdur. Lakin ayrılıq ərəblərin milli xarakterinə böyük təsir göstərməmişdir. Dini fanatizm, terrorizm, habelə xəyanət, məkrlilik haqqında fəal şəkildə təbliğ edilmiş informasiyanın əksinə, ərəblər hər zaman əvvəlki, tərkibinə görə zəngin olan mədəniyyətlə tərbiyə olunmuş layəqəti saxlamağa çalışırlar. Ərəblər etibar edəndirlər, buna görə də onlarla söhbətdə, öz etiqadlarınızı gizlətmək tələb olunmur. Ancaq ərəblərin adət, ənənə və əxlaqlarının tənqidindən uzaq olmaq lazımdır. Onlar inanırlar ki, onların zamanın sınağından çıxmış mədəniyyəti insan üçün ən əlverişli olandır, buna görə də onların hisslərinin təhqir olunmasına qarşı çox həssasdırlar və bunu heç vaxt bağışlamırlar. Ən azı ona görə ki, onlar özləri başqa etiqadlara və başqa millətdən olan insanlara qarşı səbrlidirlər. Çünki, onla-

rı əsrlər boyu müxtəlif torpaqlar üzrə səyahət etməyə vardar etmiş «*ticarət ruhu*» başqa xalqlara qarşı belə münasibəti, insanda onun özünə, öz millətinə və öz işinə münasibəti tərbiyə etmişdir. Buna görə də **İslam** daşıyıcısı olan ərəbdə, onun ənənəvi mədəniyyətinin əsası və xalqın irsi kimi çıxış edən ona qarşı xüsusi münasibət mövcuddur[10]. Bütün bu xüsusiyyətlər nəhəng Müsəlman dünyasının nümayəndəsi olan, bu gün hər kəsi özü ilə hesablaşmağa və futuroloji proqnozları dəyişməyə vadar edən ərəblərin mentalitetini təşkil edir.

Ərəb mentalitetində (bütün müsəlmanlarda olduğu kimi) pula münasibət xüsusi mülkiyyətin toxunulmazlığını və ona qəsd edənin amansızcasına cəzalandırılacağını elan edən Quranla tərbiyə olunmuşdur. Quranda deyillir - «Oğrunun əllərini, etdikləri işə görə Allah adından kəsin». Eyni zamanda Quran, mötədilliyi, qeyri-tələbkarlığı və qənaətcilliyi təbliğ edərək həddən artıq varlanmanın, mənfəətə alüdə olmağa, əşyaların və pulların xəsissəinə və bacarıqsızcasına toplanmasının əksinə çıxış edir. Quranda, ticarətin müstəsna olaraq böyük əhəmiyyətinin qəbul olunmasına əsaslanan *ticarət münasibətlərinn reqlamentləşdirilməsi* mühüm yer tutur. «*Allah ticarətə icazə vermişdir*»[11] fikri əsasında ticarət mənfəəti normal hadisə kimi müəyyən olunur. Quranda ticarətdə riskə haqq qazandırılır, tacirlərin müqavilə öhdəliklərini sözsüz yerinə yetirmələri haqqında təlimatlar əks etdirilmişdir.

Orta əsr Ərəb Şərqinin məşhur mütəfəkkiri *İbn Xəldun* (1332 – 1406) zəruri və əlavə məhsul, xüsusi mülkiyyət, bazarda əmtəə və qiymət-qoymanın xüsusiyyətləri ilə bağlı problemlərini işləyib hazırlayarkən, pula böyük diqqət yetirir. İbn Xəldun Quran öyüdlərini, etnik xüsusiyyətləri və mədəni ənənələri birləşdirir ki, bu da bir sıra mühüm iqtisadi nəticələr çıxarmağa imkan yaradır. O, dəyərin əmək mənşəli olduğunu göstərir. «Alınan və pula çevrilən hər şeydə mütləq insan əməyi var»[12]. Buradan o, belə bir nəticə çıxarır ki, dəyərinə görə mübadilə ilə eyni əhəmiyyətə malik olan alqı-satqı aktının əsasında sərf olunmuş əməyin pərakəndə kəmiyyətinin bərabərləşdirilməsi prinsipi durur.

Mütəfəkkir «insaların öz əməkləri ilə yaratdıqları hər şeyin» dəyərinin ölçüsü «saxlama predmeti, gəlirlərin, qənaət edilərək toplanmış pulların və xəzinələrin əsasının» qızıl və gümüş olduğunu iddia edərək, pula xüsusi yer verir. *İbn Xəldun* hesab edir ki, qiymətli metallar sərvət yaratmırlar. Məsələn, Sudan torpağında çoxlu qızıl var, lakin ölkə kasıb olmaqda

davam edir, çünki xalqın maddi rifahı qiymətli metalların mövcud olmasından yox, ictimai həyatın inkişafından asılıdır ki, bu da əhalinin zəhmətsevərliyinə əsaslanır. Eyni zamanda mütəfəkkir qızıl və gümüşün stabil dəyərə malik olduqlarına və buna görə də sərvətin saxlanılmasının rahat (əlverişli) forması kimi çıxış etdiklərinə də diqqət yetirmişdir[13].

Həyat üçün zəruri vəsaitlərin təbii olaraq əldə edilməsi üsulları kimi, əkinçilik və sənətkarlıqla yanaşı, insanın ucuz alış və daha baha satış hesabına gəlir (ticarət mənfəəti) əldə etməsi kimi çıxış edən ticarət böyük əhəmiyyət kəsb edir. Bu nəsihətlər, ticarəti həmişə müqəddəs və nəcib bir iş hesab edən ərəb mentalitetinin bir hissəsidir. Tacir, vasitəçi və ticarət dünyasının istənilən nümayəndəsi, bir qayda olaraq, öz əməyi ilə pul, əmlak və nemət qazanan insandır.

*İbn Xəldunun* təqdim edilmiş fikirləri göstərir ki, ərəblərdə pula qarşı nə qədər hörmətlə münasibət bəslənilsə də birinci yerdə yenə də onun əldə edilməsi xarakteri durur. Pul – dəyərdir, lakin onun dəyərliliyi fəaliyyətin nüfuzluluğu ilə şərtlənir. İstənilən halda, onun «müftə», «zəhmətsiz» əldə edilməsi xoş qarşılanmır. Məşhur ərəb nağılındakı *Əlibaba* xəzinəni çətinliklə tapır. Yenə də yalnız çoxlu maneələr keçdikdən, məhrumiyyətlər yaşadıqdan, mübarizə apardıqdan və quldurlar üzərində qələbə çaldıqdan sonra qızıl, pul və sərvəti əldə etmək mümkün olur.

Ərəblər üçün *onları işə götürmüş insana və ya onların asılı olduqları insana qarşı düzlük və sadiqlik xarakterikdir.* Lakin bu asılılıq ərəbi alçaltmamalıdır. Bunun üçün həmin şəxs, hətta əgər intiqamçının özü ziyan çəksə belə, öz həyatı ilə cavab verməlidir. Əgər ərəb ona edilmiş xeyrə görə insana minnətdarlıq hiss edirsə, onun sədaqəti güclənir.

Ərəblər işgüzar və təşəbbüskardırlar, lakin eyni zamanda simpatiya bəslədikləri insanlara münasibətdə ədalətli və vicdanlıdırlar. İstənilən pul hesablaşması sözsüz düzgünlüklə, bəzən hətta ərəbin özünə zərərlə həyata keçiriləcəkdir. Əsas məsələ özünə və öz işinə (əmtəəsinə) qarşı layiqli ehtirama malik olmaqdır. Ərəblər bütün məcburiyyət formalarına qarşı səbrsizdirlər, lakin öz hisslərinin zahiri təzahürünü gizlətməyə çalışırlar. Buna görə də onlarla ticarət-pul münasibətlərini qarşılıqlı razılaşma əsasında həyata keçirmək məqsədəuyğundur. Razılaşma – ərəblə işgüzar münasibətin dəstəklənməsinin ən etibarlı formasıdır.

Ərəblərdə ədalətsizliyə nifrət və ədaləti pozanlara qarşı səbrsizlik hissi yüksək dərəcədə inkişaf etmişdir. Məsələn, belə bir Şərq qonaqpərvərliyi

məlumdur ki, qonağın xoşuna gələn hər hansı bir şeyi ona bəxş etmək lazımdır. Uzun müddət Yaxın Şərqdə yaşayan əcnəbilər mentalitetin bu xüsusiyyətini bilərək bundan öz qazancları üçün istifadə edirdilər. Onlar evə daxil olarkən bu və ya digər əşyanı təriфləməyə başlayırdılar və bilirdilər ki, onun sahibi həmin əşyanı onlara bəxş etməyə məcburdur. Bu sui-istifadələr praktiki olaraq qarətə çevrilmişdilər. Ərəblər bu situasiyanı başa düşərək aşağıdakı kimi hərəkət etdilər: ənənələrə uyğun olaraq qonağı evə dəvət edən və ona onun istəyilə hədiyyə bəxş edən sahib silahı götürüb öz evinə gedən qonağın yox, onunla ədalətsiz davranmış insanın yoluna çıxırdı. Onu öldürərək, ərəb nəinki öz əmlakını, həmçinin ədalət hissini də geri qaytarırdı. Ərəblər üçün özünə hörmət, ümumən müstəqilliyə və xüsusən maddi müstəqilliyə can atmaq xarakterikdir. Bunu, təkcə təqdim edilmiş nümunə yox, həm də bütün işgüzar münasibətlər praktikası, ticarət və maliyyə müqavilələri sübut edir.

*K.Q. Yunqun* təsnifatına görə ərəblər introvert təfəkkürlü tipə aiddirlər ki, bu da onların mental əsaslarını müəyyən edir. Onlar subyektiv əsasdan çıxan ideyaların həlledici təsiri altındadırlar. Onlar öz ideyalarını xaricdən yox, daxildən izləyirlər, yəni bu, psixoloji genişlənmə yox, dərinləşmədir. Onların mühakiməsi ixtiyaridir, belə ki, daha çox subyektə aiddir. Mülayimlik, lütfkarlıq aşkar ola bilər, ancaq onların arxasında rəqibi tərkisilah etmək niyyəti durur. Subyekt birbaşa mənada rəqib deyildir, ancaq müəyyən həssaslıq çərçivəsində o kənarlaşdırılır, yaxud ona heç bir əhəmiyyət verilmir. Nəticədə, subyekt müəyyən etinasızlığa uğrayır və ayrı-ayrı hallarda lazımsız ehtiyat tədbirləri ilə əhatə olunur ki, bunu da, misal üçün, amerikanlara, yəhudilərə və avropalılara münasibətdə formalaşmış stereotip və münasibətlərdə müşahidə etmək olar[14]. Bu stereotiplər bütün növ, o cümlədən ticarət-pul münasibətlərinə transformasiya olunur. Bu planda, onlar müxtəlif layihələr quraraq onların təhlükəsindən, möhtəşəmliyindən qorxmurlar, lakin arzularının həqiqət (zahiri) olma vaxtı gələn kimi, «tutulurlar». Bu zaman şübhələr ortaya çıxmağa başlayır və bu da partnyorları hər zaman sayıq olmağa vadar edir. Həmin amerikanların fayda əldə etmək imkanına qarşı inamsızlığı buradan çıxır və nə qədər təəccüblü olsa da onlar üçün gözlənilməz nəticədənsə, müharibə və ya münaqişə salmaq daha asan görünür.

Ərəblərin psixoloji quruluşunun digər xüsusiyyəti praktiki qabiliyyətin kifayət etməməsidir; əksər hallarda onlar kimisə (xüsusilə, müəyyən

nüfuzu olan şəxsi) öz tərəflərinə çəkmək üçün heç bir cəhd göstərmirlər. Bu, ticarət sazişlərinə və ya maliyyə əməliyyatlarına da aiddir. Ərəblərdə öz müştəriləri ilə münasibət tərzi özündə məhdudiyyət, ehtiyatlılıq, şübhə əks etdirir ki, bunların da səbəbi onların mental ehtiyatlılığındadır. Ekstravert millətlər olan avropalı və amerikanlara ərəblər əlçatmaz (sarsılmaz), qəzəbli (hirsli) və təkəbbürlü (lovğa) təsiri bağışlayırlar. Onları müstəbid (özbaşına), nəzakətsiz (saymaz) və buna görə də etibarsız hesab edirlər, çünki bu keyfiyyətlər sayəsində onlar Avropa rasionallığına uyğun gəlmirlər.

Ərəb etnosu *inteqral* tiplərə aiddir və burada iştirakçılar hər hansı məsələdə biliksizliyin, səriştəsizliyin və ya hazırsızlığın aşkar olunacağından ehtiyatlanırlar. Başqa etnoslara münasibətdə ərəb ölkələrinin nümayəndələri özlərini etibarsız aparırlar, qəbul olunmuş ənənələrin pozulmasına qarşı çıxış edirlər, onların davranışını nəzarətdə saxlayırlar. Bu xüsusiyyətlər sayəsində ərəblər qapalı, ənənəviçilik meyillərinə malik olan, hətta fanatizm alüdəçisi kimi xarakterizə edirlər.

Ərəblərlə işgüzar danışıqların aparılması etibarın qurulmasını nəzərdə tutur. Əgər amerikan, məsələn, istənilən problemin həllində hadisələrin inkişafını əvvəlcədən güman etməyə çalışırsa, ərəblər keçmişə oriyentasiya etməyə adət ediblər və daimi olaraq öz köklərinə və ənənələrinə müraciət edirlər. Ərəblər üçün danışıqlarda müzakirə olunacaq məsələlərin əvvəlcədən tədqiq edilməsi mühümdür. Bununla əlaqədar olaraq, ünsiyyət zamanı psixoloji distansiya minimuma enir ki, bu da öz xarici təzahürünü həmsöhbətlər arasındakı məsafənin kiçilməsində tapır, onlar demək olar ki, bir-birilərinə toxunurlar ki, bu da qarşılıqlı etibardan xəbər verir.

Ərəblər, yaponlar kimi, həm özünün, həm də həmsöhbətin «simasının saxlanılması» üzrə psixoloji məqsədə malikdirlər. Hər zaman növbəti təmaslar üçün imkan qalmalıdır. İnkar birbaşa formada ifadə olunmur, müxtəlif bəhanələrlə pərdələnmiş və təklifin xeyrinə bəzi təriflərlə təqdim olunur. Səmimilik və lütfkarlıq əsl müsəlman kimi, ərəb mentalitetinin ayrılmaz hissəsinə çevrilmiş Quranın tələbləri ilə şərtlənir. Son nəticədə, ərəblərlə işgüzar əlaqələrdə əldə edilən pul əksər hallarda layiqli qazanc xarakterinə malik olur.

### Yəhudi «işgüzar ruhu» və pula qarşı müdrik münasibət

Ərəb Şərqinin mentalitetini nəzərdən keçirərkən pula qarşı yəhudi mentaliteti üzərində də dayanmaq lazımdır. Görünür ki, bu problem hər

hansı nəzərdən keçirilmə tələb etmir, çünki yəhudi və pulun əbədi qarşılıqlı əlaqəsi hamıya məlumdur. Mübaliğəsiz demək olar ki, bunlar eyni alnayışlardır. Bəs niyə bir millət kimi formalaşan, ərəblərin qonşusu kimi çıxış edən, praktiki olaraq, bütün dünyada, öz işgüzar və praktiki fəaliyyətlərində yəhudilərdən geri qalmayan başqa xalqlarla birgə yaşayan, heç bir xalq gündəlik şüurda yəhudilər kimi, pulla belə assosiasiya təşkil etmir? Aydındır ki, tapmacanın cavabı, təkcə sağ qalan yox, həm də həyat üçün radikal vasitə olan pulu taparaq yaşayan yəhudi xalqının tarixindədir.

Yəhudi xalqının mədəniyyəti, dini və fəlsəfəsi pula ehtiram və ona qarşı müdrik münasibətlə çulğalaşır. Onun təşəkkül tapmasına, bununla yanaşı, həm də milli xarakterin formalaşmasına, *Kabbalanın* kifayət qədər anlaşılmaz, aydın olmayan, eyhamlarla dolu olan eniqmatik mətnlərində öz ifadəsini tapan iudeizm təliminin mistik elementləri də təsir göstərmişdir[15]. Onlar *Əhdi Ətiqin* alleqorik interpretasiyasını verirlər və Aristotel rasionalizminə əksdirlər. *M. Veberin* qeyd etdiyi kimi, dünyəvi həyat öz qanunauyğunluqlarına müvafiq olaraq nə qədər rasionallaşır və sublimasiyalaşırsa, onların fərqlənməsi bir o qədər barışmaz olur ki, bu da iqtisadiyyat sferasında özünü xüsusilə parlaq ifadə edir. İudaizm «xilas olmanın sublimasiyalaşmış dini olaraq məhz yəhudilər üçün başqa xalqlar arasında rasional həyat obrazının təşkilinə yol açmışdır. Belə həyat obrazı bütün təsərrüfat münasibətlərini pulla ifadə olunmağa oriyentasiya edən işgüzar müəssisələrinə çevirmişdir»[16].

Bununla bərabər, bu, o demək deyildi ki, yəhudi mentaliteti yalnız «işlə» və ya yalnız pulla bağlıdır. Artıq qeyd edildiyi kimi, onun üçün müdrikliyə oriyentasiya etmək xarakterikdir. Təkcə müdrik pritçaların deyil, həm də müdrik fəaliyyətlər, müdrik məsləhətlər və müdrik əməllərin aid edildiyi *Süleyman* şahını yada salmaq kifayətdir. «Axmaq adamın oxuduğu musiqidənsə, müdrik insanın məzəmmətinə qulaq asmaq yaxşıdır»; «Müdriklik müdrik insana şəhərdə on qüdrətlidən daha çox kömək edə bilər»; «Əsas – müdriklikdir: müdriklik əldə et və bütün adınla ağıl əldə et» - *Süleymanın* bu (həm də bir çox başqaları) nəsihətləri işgüzar, pul və təsərrüfat həyatının həyata keçirildiyi ümumi insani müdrikliyin bir hissəsinə çevrilmişdir.

Ancaq yəhudi mentaliteti üçün *Solomon* şahın aşağıdakı nəsihəti də diqqətdən kənarda qalmamışdır: «*Və mən düşündüm: mərdlikdənsə, müdriklik yaxşıdır, lakin yoxsulun müdrikliyinə nifrət edirlər və onun*

*söhbətlərinə qulaq asmırlar*». Məhz elə bu fikir daimi olaraq təsərrüfat və işgüzar fəaliyyətin nəticəsinə – pula maraq doğurmuşdur, hansı ki, pulun sayəsində nifrətdən qurtulmaq olar. Ondan, məlum olduğu kimi, yəhudilərin tarixində sonsuz təqib və qovulmalar kimi, bol olmuşdur. Pula və maddi nemətlərə bağlılıq özünü ifadə etmənin ən güclü üsulu kimi çıxış etdi (xüsusilə, «kapitalizm ruhu» ilə birlikdə İntibah dövründən başlayan iqtisadi sivilizasiya şəraitində). Pul, insan kütlələrini bu mədəniyyətə uyğunlaşmağa vadar edən başlıca zərurətə çevrildi.

*V.Zombart* sahibkar tiplərini onların milli xarakteristikalarına görə nəzərdən keçirərək diqqətini «*yəhudi işgüzar ruhunun*» ixtirası və onun yəhudi *təsərrüfat davranışında* meydana çıxması prosesi üzərində saxlayır. *V.Zombart* yəhudi sahibkarlıq ruhunu ticarətdən, tacirlikdən çıxarır. Tacirlər (sahibkar tipi kimi) – «kapitalist müəssisəsini əmtəə və ya pulların ticarətindən inkişaf etdirmiş insanlardır. Onlar əvvəlcə əmtəə və pul ticarəti sferasında fəaliyyət göstərirdilər, burada onlar xırda sənətkar peşələrini onların ilkin ölçülərindən genişləndirərək kapitalist müəssisələrinə çevirmişdirlər»[17]. Bu, florensiya, ingilis, fransız və yəhudi ticarətçiləri idilər, onlar sayəsində metamorfozun həyata keçirilməsi – kapitalist sahibkarı olmaq mümkün oldu.

Amma daha bir yol da var – əmtəə istehsalı sahəsinə müdaxilə etmək. Bu fəaliyyət, sərvətlərini ssudalar, kreditlər və b. yollarla qazanan zəngin insanlar «təbəqəsinin» formalaşmasına gətirib çıxardı. Zamanla bankirlərə çevrilən «sələmçilər» arasında artıq göstərilmiş milli özünü ifadə etmə nəticəsində çoxlu sayda yəhudi vardı. Bu işdə əsrlər boyu tərbiyə olunmuş əqli müdriklik də az rol oynamamışdı. Buna görə də çox ehtiyatlı olmaq və seçim etməyə heç vaxt tələsməmək lazımdır. Buna nümunə kimi, şahın yanında məsləhətçi işləyən və şah tərəfindən hörmət olunan yəhudi haqqında söhbət açılan pritça çıxış edə bilər. Bir gün şah məsləhətçiyə deyir: «Ürəyindən keçəni dilə məndən». Məsləhətçisi düşünür: «Şahdan gümüş və qızıl istəsəm, mənə verəcək; bunu məndən əsirgəməyəcək. Yaxşısı budur, şahzadəni özümə gəlin istəyim: onunla birlikdə hər şey mənim olacaq»[18]. Burada əsas iş – prinsip, hər şeyi düşünərək, yəni milli xarakterli ənənələrə uyğun olaraq, alaq otundan buğdanı, ikinci dərəcəli olandan birinci dərəcəli olanı seçərək yanaşmaqdır.

Yəhudi mentalitetinin formalaşmasında müdrik ravvin mühüm rol oynayır, onun məsləhəti olmadan heç bir iş, fəaliyyət, mühüm qərarların

qəbulu, mübahisəli məsələlərin həlli həyata keçmir. İlkin səbəb ravvinlər tərəfinən həyata keçirilən sistem təşkiletmədədir. Həmçinin Ulu Tanrıyaa ibadət müqəddəs kibatdan ayələrin oxunuşundan və onların izahından ibarətdir. Bu elə həyata keçirilir ki, il ərzində bütün Tövrat bir dəfə oxunmuş olur. Hərtərəfli izahatı və təlqini ilə birlikdə həyata keçirilən bu oxunuş ravvin tərəfindən həyata keçirilir.

Digər səbəb – yəhudilərin millət və ya xalq kimi, tarixi taleyindədir. Yəhudi dövlətinin dağılması iudaizmin ən fanatik nümayəndələri olan Əhdi-cədidin və fariseyin (bilicilərin) bütün yəhudiliyin başında durmasının (bu vaxta qədər onlara ən böyük əxlaqi dövlət məxsus idi) və onu arzu etdikləri kimi istiqamətləndirmək imkanı əldə etməsinin səbəbi kimi çıxış etdi. Dövlətsiz və milli ziyarətgahlar olmadan, yəhudilər farsiyevlərin hakimiyyəti altında *Tövratın* (*Q.Heyne* tərəfindən «məcazi vətən» adlandırılan) ətrafında birləşdirlər. Getdikcə güclənən ravvin hakimiyyəti buna əsaslanırdı. Yəhudilər nə qədər çox qapalı sahib-xalqlar olurdularsa (və ya onlardan qapanırdılarsa), ravvinlərin təsirləri də bir o qədər güclü və nəticə etibarilə, yəhudiliyi qanunçuluğa məcbur etmək bir o qədər asan olurdu. Lakin ravvinlər tərəfindən təlqin olunan qanunun icra edilməsi ilə bağlı həyat yəhudilərə həm daxili əsaslar, həm də qəlbin həvəsi üzrə ən dəyərli şəkildə təsir bağışlamalıdır, çünki o, təqib olunan və hər tərəfdən alçaldılan insanlara (yəhudilərə) öz insani ləyaqətini və bununla da yeganə mövcud olma imkanı verən amildir[19]. Talmudda ifadə olunan dini sistem sayəsində yəhudilik yüzillər ərzində yaşamışdır.

Ravvinlər, katolik və protestant ruhaniliyinə nisbətən düzgün həyat tərzi haqqındakı baxışlarını həm yazılı, həm də şifahi surətdə daha çox izah edirdilər. Ravvin – vasitəçi və hakimdir, o, milli mentalitetin ən səciyyəvi xüsusiyyəti kimi, yəhudi müdrikliyinin simvolu rolunda çıxış edir. O, hər zaman ehtiyatlı, qiymətləndirmələrdə diqqətlidir, yəhudi öz sahibkarlıq həyatında məhz elə belə olmalıdır. «Qızılla dolu pul kisəsi» pritçasında pəncərənin yanında durub küçəyə baxan Zansdan olan *Xaima* adlı ravvindən sözbət açılır. O, yoldan keçəni görüb, onu evə çağırır: «Mənə de görüm, əgər sən qızılla dolu pul kisəsi tapsan, onu sahibinə geri qaytararsanmı?» O cavab verir ki, əgər pul kisəsinin sahibinin kim olduğunu bilsəm, dərhal geri verərəm. Ravvin deyir: «Sən axmaqsan». Sonra o, başqa bir yoldan keçəni çağırır və eyni sualı ona da verir. O, cavab verir ki, tapdığı pul kisəsini geri qaytaracaq dərəcədə axmaq deyildir. «Sən yaxşı adam deyilsən» deyə ravvin cavab verir və üçüncü yoldankeçəni çağırır. O, suala belə cavab verir: «Ravvin, mən nə bilim ki, pul kisəsini tapandan sonra

necə olacağam və özümü pis iradadən uzaqlaşdıra biləcəyəm, ya yox? Ola bilsin ki, o, məni öz təsiri altına salsın və mən başqasına məxsus olan şeyi mənimsəyim. Amma, ola bilsin ki, Tanrı (O, xeyirxahdır) mənə onun öhdəsindən gəlməyə kömək edəcək və mən pul kisəsini onun qanuni sahibinə geri verəcəyəm!». Ravvin uca səslə deyir - «Bu yaxşı sözdür. Sən həqiqi müdriksən»[20]. Ravvinin nəticəsi belə olur.

Beləlikə, hər yerdə və hər şeydə: müdrik ehtiyatlılıq, düşünmə, düzgün istiqamətin seçilməsi, ravvinin, başlanğıcını bibliya peyğəmbərlərindən götürən öz milli ənənə və müdrikliyinə oriyentasiyasıdır. Öz etinik dairəsində olmaq və onu bütün «*yadların*» müdaxiləsindən qorumaq üzrə unudulmaz münasibət buradan çıxır. Məhz buna görə, Musa öz həmqəbilələrini, onların əsirlikdə və kökəlikdə olduqları zaman ərzində bütün yad şeylərdən azad olmaları üçün onillərlə Misir səhrası boyu aparmışdı. O zamandan, yəhudilər harada olsalar, onlar hər zaman kömək, dəstək, qazanc daxil ola bilən özünkülərə mənsub olmağın necə vacib olduğunu yadda saxlayırlar. *T.Mann* özünün məşhur «Yusif və onun qardaşları» adlı romanında Misir fironunun sarayında yüksək vəzifə tutan və fironun dostu olan *Yusifin* Misirə buğda dalınca gələn öz həmqəbilələrinə havadarlıq etməsindən danışır. Onlar evə gələndə buğdanı pulsuz əldə etdilər, çünki öz kisələrində buğda yox, pul tapdılar. Yusif, öz həmqəbilələrinin yad ölkədəki çətin vəziyyətini başa düşdüyünə və bunun üçün imkana malik olduğuna görə, onlara istədikləri malları almaqda hər cür köməkliyi göstərmiş və onlar tərəfindən sərf olunmuş pulları, özlərinin xəbəri olmadan onların bilmədən kisələrinə qoymuşdu. Əvvəlcə yəhudi-tacirlər ayağa qalxmış və tapdıqları pulları geri qaytarmaq üçün uzun-qulaqlara tərəf qaçmışdılar. Qəflətən də bu niyyətdən əl çəkmişdilər. «Mənası yoxdur» - deyə düşünmüşdülər və belə bir məntiqə əsaslanmışdılar ki, pulu geri qaytarmaq, pulun onların əlinə keçməsindən daha çox ağlasığmaz olmasa da, elə onun kimi ağlasığmazdır… Gah birinin, gah da o birinin dodaqlarında gülümsəmə yaranmış və elə olmuşdu ki, eyni vaxtda bir neçə adam yuxuda gülmüşdü[21]. Oxucu artıq özü Yusifin həmqəbilələrinin nəyə güldükləri haqqında nəticə çıxarmalıdır: pulun, mənfəətin geri qayıtmasına, yəhudi-həmyerli ilə görüşmələrinə, yoxsa sadəcə olaraq, uğura.

Başqaya özünəməxsus münasibət yəhudi etikasını ikiüzlü etmişdir: işin yəhudilər və qeyri-yəhudilər haqqında olmasından asılı olaraq, əxlaqi normalar müxtəlif olur. Hər bir xalq etikasında ilkin olaraq mühüm yer tutan hadisə – həmyerli və yadlara qarşı münasibətdə ikili əxlaq hökm sürür. «Bu xüsusiyyət, yəhudi xalqında uzun yüzilliklər ərzində rəngarəng talelər sayəsində saxlanmış və ən son dövrlərə qədər yəhudilərin işgüzar prinsiplərinə özünəməxsus təsir göstərmişdir»[22]. Bu prinsiplər yəhudilərin

bütün əlaqə və münasibətlərini müəyyən etmişdir ki, bu da onların, rasionalizm, praktiklik, işgüzarlıq, pula, mənfəətə və bolluğa qarşı daimi can atma cəhətlərinə malik olan mentalitetinə çevrilmişdi.

Yəhudi üçün pul – onun əməyinin, işgüzarlığının nəticəsindən çox, nüfuz, onun ağlının, müdrikliyinin, bacarığının və istedadının xarakteristikasıdır. Əsas iş bu bacarığın situasiya üzərində qələbə çalmasında və bununla da özünün seçilmiş, unikal xalqa mənsubluğunu sübut etməsindədir. *V.Zombart* Marsianın Roma imperiiyasında yəhudilər haqqındakı fikirlərini təqdim edir: «Bu günə qədər suriyalılarda (yəhudilərdə) işlərə qarşı elə anadangəlmə həvəs var ki, onlar qazanca görə bütün torpaqları gəzib dolaşırlar; və onların ticarət aparmaq ehtirası o qədər böyükdür ki, onlar Roma imperiiyasının hər yerində, müharibə, qırğın və qətllər arasında qazanc əldə etməyə çalışırlar». O, düz nöqtəsinə düşür və epiqrammatik müxtəsərliklə xalqların təsərrüfat həyatında yəhudilərin vəziyyətini xarakterizə edir: başqa xalqların sərvəti müharibələr, qırğınlar və qətllər yolu ilə qazanmağa çalışdıqları təqdirdə, onlar onu «müharibə, qırğınlar və qətllər arasında» qazanmağa çalışırlar. Dəniz və hərbi gücləri olmadan, florensiyalıların fəaliyyətlərində gördüyümüz güclər vasitəsilə onlar dünyanın hakimi vəziyyətinə qədər yüksəlirlər: pul – müqavilələr (bu, xüsusi alış müqavilələri deməkdir) – işi bilmə. Əsası onlar tərəfindən qoyulmuş bütün müəssisələr alverçi ruhu ilə süslənir; kapitalist sahibkarları səviyyəsinə qədər yüksələn bütün yəhudilər özündə tacirlərin sahibkar tipini əks etdirir[23].

Ancaq bu sahibkar xarakteri və ruhu təkcə ticarət və ticarət müqavilələrindən yaranmır, həm də sərvət üçün əlverişli şərait yaradan iudaizm dinilə şərtlənir. Ümumiyyətlə, yəhudi dinində heç vaxt yoxsulluq idealı olmamışdır. Yəhudi dininin ümumi və hər şeyi əhatə edən rasionalizmi, *V.Zombartın* fikrincə, yəhudilikdə sərvətə qarşı məhəbbəti müəyyən etmişdi. İudaizmin əxlaqi təlimləri min il əvvəl «*kapitalist ruhunun*» inkişafına əlverişli təsir göstərmiş və uzunmüddətli tarix ərzində, xristianlığın hələ yeni-yeni tərbiyə işinə başladığı zaman, yəhudilər çoxdan idi ki, kapitalizmə xidmət üçün hazırlayan seçim prosesinə yol açmışdı[24]. İqtisadi dövrə (Yeni iqtisadiyyata) daxil olarkən, iudaizm sayəsində yəhudi xalqı kapitalizmə yüksək səviyyədə hazır idi (başqa xristian xalqlarından fərqli olaraq). Bunun sayəsində yəhudilər, bərabər şərtlər altında, bütün yerdə qalan xalqlar qarşısında böyük üstünlüyə malik idilər.

*Talmudda*, daha dəqiq şəkildə *Şulxan-Aruxda* sənaye və ticarət azadlığı ideyası təqdim olunur. *Talmudda* və *Kodekslərdə* elə yerlər var ki, ticarət aparanlar arasındakı azad rəqabət prinsipial olaraq qəbul olunur. Bu kitabların bütün öyüdlərində müdriklərin avtoritetliyi, onların necə düşünməsi, məsələləri həll etməsi, danışması və qadağaları qeyd olunur[25]. Lakin

heç də şübhə doğurmur ki, Tanrı, təsərrüfat həyatını, pulun qazanılmasını, azadlığa nail olunmasının ağıllı, düzgün şəkildə həyata keçirilməsinə həvəs oyadaraq öz iradəsini onların dili ilə ifadə edir. Bu, iqtisadi və maliyyə fəaliyyətinin həyata keçirilməsində yəhudi mentalitetinin unikallığını müəyyən edən xüsusiyyətə çevrilmişdir.

## ƏDƏBİYYAT

[1] *Баронин А.С.* Этническая психология. – С. 134 – 135.
[2] Yenə orada. – S. 140.
[3] Цивилизационные модели современности. – К., 2002. – С. 151.
[4] Етносциальни трансформации в Украини. – С. 113.
[5] Цивилизационные модели современности. – К., 2002. – С. 134.
[6] *Баронин А.С.* Этническая психология. – С. 149.
[7] Цивилизационные модели современности. – К., 2002. – С. 140.
[8] Yenə orada. – S. 147-148.
[9] Yenə orada. – S. 110.
[10] *Баронин А.С.* Этническая психология. – С. 157.
[11] Koran. M., 1986. – S. 31.
[12] *Игнатенко А.А.* Ибн Хальдун. – М., 1980. – С. 86.
[13] Yenə orada. – S. 152.
[14] *Баронин А.С.* Этническая психология. – С. 159.
[15] Каббала (дословно: традиция, предания) – общее название еврейской мистики и религиозной философии, которая в XII в. ссылалась на тайнуя мудрость, содержащуюся в Священном писании. Содержит мистику чисел и письмен.
[16] *Вебер М.* Избранные произведения. – Маркетинг, 1990. – С. 315.
[17] *Зомбарт В.* Буржуа. Этюды по истории духовного развития современного экономического человека. – М., 1994. – С. 77.– С. 179 – 180.
[18] Притчи человечества. – Мн., 1998. – С. 177.
[19] *Зомбарт В.* Буржуа. – С. 179 – 180.
[20] Притчи человечества. Мн.,С. 175.
[21] *Манн Т.* Иосиф и его братья. В 2-х т.- Т.2. М., 1991. – С. 553
[22] *Зомбарт В.* Буржуа. – С. 202.
[23] Yenə orada. – S. 82.
[24] Yenə orada. – S. 202.
[25] Yenə orada. – S. 206.

## 2. AFRİKA: ZAMAN – PUL DEYİL

Müasir elm sübut edir ki, sivilizasiya və mədəniyyət mənbələri sırasına qədim Afrika da daxildir. Bu qitənin xalqları bir çox biliklərə malikdirlər, amma bununla yanaşı, onlara heç də hər zaman rasional olaraq izah oluna bilməyən spesifik xarakterik cəhətlər, milli xüsusiyyətlər də xasdır. Həmçinin, müxtəlif xalq və qəbilələrə məxsus olmalarına baxmayaraq, afrikalılar öz xarici təzahürlərində bir-birilərindən çox az fərqlənirlər. Bu fərq demək olar ki, ancaq zahiri görünüşdə olur. Buna görə də, Afrika ərazisində «milli xarakter» fenomeni haqqında mühakimə yürütmək bir qədər yersizdir. Xarakter konkret tarixi şəraitlərdə insanların həyat yollarının tipik şərtləri ilə müəyyən olunur, o, fərdidir və özünəməxsusdur, fərdin ömrünün, onun tərbiyəsinin keçdiyi təkrarlanmaz situasiyalar tərəfindən yaranır. Nəticə etibarilə, xarakter milli əlamət üzrə ciddi şəkildə ümumiləşdirilə bilməz. Belə hesab etmək olar ki, afrikalıların psixologiyası insanın ibtidai, təbii xüsusiyyətlərindən kəskin kənarlaşan xarici amillərin təsiri altında formalaşmışdır. Bu amillərə – uzunmüddətli müstəmləkə asılılığı, Avropa dövlətlərinin hakimiyyəti aiddir.

Avropalılardan mənimsənilmiş xarakter cəhətləri, mahiyyət etibarilə, afrikalılar tərəfindən həqiqi, əsl cəhətlər kimi tənqidi qarşılanmamışdır. Ağ (bəyaz) insani ali varlıq (uşağın yaşlı insanı necə hesab etdiyi kimi) və buna görə də təqlid nümunəsi hesab edən afrikalılar bəyazlar üçün xarakterik olan bütün cəhətləri mənimsəməyə can atırdılar. Ancaq, ağ insanlar afrikalıları aşağı səviyyəli məxluqlar hesab etdiklərindən, onlar afrikalılara qarşı heç də öz xarakterlərinin ən yaxşı cəhətlərini nümayiş etdirmirdilər. Nəticədə afrikalılar, bu «ali varlıqları» təqlid edərək, onlara xas olan bütün səhvləri də «əsl centlmen» xüsusiyyətləri kimi qəbul etdilər. Eyni zamanda avropalılar afrikalılara qeyri-mükəmməllik kompleksini aşılaya bilmişdilər, bununla əlaqədar olaraq, onlarda koloniyadan əvvəlki dövrdə ətrafdakıların, hər şeydən əvvəl, qohumların və tanışların gözündə yüksəlmək, öz mövqeyini möhkəmlətmək həvəsi yaranmışdı[1]. Məsələn, afrikalı öz tanışlarını, onların əslində olduqlarından, daha əhəmiyyətli şəxslər (görkəmli xadim, biznesmen və s.) kimi qələmə verməyə çalışır.

Bəyənilmək, öz əhəmiyyətliliyi ilə təssürat yaratmağa çalışmaq və buna görə də hər şeyi şişirtmək afrikalılar üçün səciyyəvidir. Bu həvəs özlüyündə, hakimiyyətə malik afrikalıların nümayiş etdirdiyi göstəriş lovğalığı hissinin kompensasiyası idi. Məsələn, nazir və ya yüksək vəzifəli

şəxs qəsdən gecikə və qatarın yola düşməsini gecikdirə bilər. Bu kölə psixologiyası və lovğalıq bu günə qədər də saxlanmışdır və təkcə afrikalılarda yox. Ən əsası isə bu residivlər afrikalıların təfəkkürünü heç də həmişə sahibkarlıq oriyentasiyalarında, xüsusilə də «kapitalizm ruhunda» saxlamayan mental öyüdlərinin təcəssümüdür.

Hər bir afrikalının idealı – böyük ev, böyük avtomobil və böyük ailədir. Bu, arzu və səylərin son həddidir. Afrikalılarda pul haqqında tamamilə başqa təsəvvür mövcuddur, pul, afrikalı folklorunda fərdiləşdirilmişdir, *mübadilə münasibətlərinin* qurulmasının kifayət qədər riskli və az etibarlı vasitəsi kimi çıxış edir. Bunun əvəzinə, sadəlövh insanların aldadılması aləti kimi, pul, sadəcə olaraq əvəzedilməzdir. Məşhur ««Pul» adlı adam» afrikan nağılında qəhrəman işləri ilə əlaqədar olaraq uzunmüddətli səfərə çıxmış dostunun əmlakını və qızını qorumağı öz üzərinə götürür. Dostunu gözləmədən, o, qızı böyük pul müqabilində varlı bir insana ərə verir. Qızın atasının əşyaları və təsərrüfatını isə əlverişli şəkildə satır və tezliklə geri dönəcəyinə söz verərək yox olur. Geri dönən dostu onu hər yerdə ömrü boyu axtarır və ölərkən uşaqları və nəvələrinə, onlara çatmalı olan pulları axtarmağı vəsiyyət edir. Lakin onlar da heç kəsi tapa bilmirlər. O zamandan, sadə insanlar əbədi olaraq, sadəlövh dostunun əlindən asanlıqla sivişib qaçan adam kimi, uçub gedən pulu axtarırlar. Buna görə də, «*pul*» sözünün özü diribaşların və yalançıların ümumi ləqəbinə çevrilmişdir. Lakin belə adı daşıyan insan, bir qayda olaraq, ələkeçməzdir[2]. Konkret olana, mövcud olana sahib olmaq həvəsi bununla əlaqədardır.

Afrikalılar teatral insanlardır: onlar öz talelərindən şikayətlənməyi və öz kədərli vəziyyətləri barəsində danışmağı sevirlər. Lakin bu, sadəcə olaraq, tamaşadır, çünki özlərinin həqiqi kədərlərini afrikalı heç vaxt göstərmir. Onun üçün əsas məsələ – söhbət, ünsiyyət, bu və ya başqa bir situasiyanı oynamaqdır. *İ.A.Andreev* belə bir misal göstərir ki, Qvineyada şərait elə gətirir ki, o, bir yerə gəlib çıxana qədər taksi sürücüsü ilə uzun müddət söhbət etməli olur. Onlar, hiss olunmadan keçən vaxtdan və göz qarşısında məhv olan iş planlarından xəbərsiz, ümumi dil və qarşılıqlı maraq taparaq söhbət edirlər. Nəticə, avropalı üçün gözlənilməz bir final olur. Taksi sürücüsü müştəri ilə ünsiyyətin ona böyük məmnunluq verdiyini bildirir. Pulların qalığı qoy qalsın, onlar çoxlu dostu olan yaxşı insana lazım olar. Qoy onları gözəl afrikan suvenirləri sevindirsin. Bundan imtina etmək və məni incitmək olmaz. «Mən sizinlə keçirdiyim vaxtı əbəs yerə sərf etməmişəm, əksinə, onu, özüm üçün mühüm təəssürat və düşünmək üçün mövzu ilə birlikdə geri qaytarmışam»[3].

Afrikalı üçün, onun fikrincə, ləyaqətli insanla faydalı ünsiyyət və onun tərəfindən şəxsən ona göstərilən xoş diqqət müddəti müqəddəs hesab olunur. Bunu avropalılar tərəfindən ox və bəzəklər üçün faydalı olan eşmə dəmir «pulların» (*kisi*) və ya balıqqulağıların (*kauri*) əvəzinə gətirdikləri kirli kağızlarla təhqir etməyə dəyməz. Afrikalıların öz pullarının məzənnəsi sahildə 60 sentdən, qitənin içərilərinə doğru 3 dollara qədər yüksəlir.

Afrikalılar üçün «zaman – pul deyildir». Onlar zaman amilinə qarşı laqeyd münasibət bəsləyirlər. Onların fikrincə, *saat insanı yaratmamışdır. Zaman zamanla yarışmalıdır*. Bu özünəməxsus zaman fəlsəfəsi Afrikada «*afrikalı vaxtı*» adını almışdır. Konkret sakinlərin düşüncəsində – bu, unutqanlıq, başqasına qarşı hörmət edilməməsi yox, nəzakətin və zaman amilinin mahiyyətinin başa düşülməsinin ifadəsidir. Adətən «afrikalı vaxtı» iki başlıca formada təzahür edir: *düz bir saatdan sonra və ya düz təyin olunmuş vaxt, amma sabahısı gün*[4]. Hətta əgər afrikalı nahara gəlməmişdirsə, bundan heç bir nəticə çıxarmaq lazım deyil, çünki *o, ona görə gəlməmişdir ki, bunu yaxşı rəftar hesab edir*.

Pula qarşı yox, insana qarşı hörmət «*afrikalı şəxsiyyəti və afrikalı qəlbinin özünəməxsusluğundan*» çıxır (*E.Blayden*). Bu nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, afrikan irqi ağ irqdən fərqli keyfiyyət və ənənələrin daşıyıcısıdır. Neqroidin çıxış mövqeyi ağ və qara insanın əqli quruluşunun fərqli olmasını təsdiq etməkdən ibarətdir, yəni «*afrikalının induitiv düşüncələri Avropa cəmiyyətinin analitik və məntiqi ideyaları ilə başa düşülə bilməz*»[5]. *İ.A.Andreyev* ofisinatlara böyük bəxşişlərin verilməsinin və ruslar tərəfindən onlara pulsuz araqların bəxş edilməsinin onları (Afrikalıları) necə «sıradan çıxardığı» haqqında nümunə göstərir. Səbəb – gözlənilmədən əldə edilən pullar deyildir. Səxavətlilik ta qədimdən nüfuz və uğurun kifayət qədər doğru yolu kimi qiymətləndirilir. Sadəcə olaraq, mənimsəyici xarakterli atomosferdə tərbiyə olunmuş gənc insanların mentaliteti gələcəyin planlaşdırılması «dalğası», öncəgörmə, öz taleyinə fəal təsir göstərilməsi üçün qurulmamışdır. Pulun yığılması, hər hansı işə qoyulması, səhmlərin alışı üçün istifadə edilməsi və s. haqqında düşüncələr bu mentalitet («*afrikalı qəlbi*») üçün yad və altından qalxılmayacaq hesab edilmişdir. Öz stereotipi daha yaxın, daha aydın və daha səmimi təsir bağışlamışdır: gözlənilmədən əlinə pul keçibsə, ürəyini üzmə, aldanma, xərclə getsin![6] Bu, «afrikalı məntiqi» nümunəsi avropalıya yaddır. Burada mənimsəyici xarakterli stereotip fəaliyyət göstərir və mənası ondan ibarətdir ki, tapılmış, əldə edilmiş və ya başqa bir yolla hasil edilmiş pulu birbaşa təyinatı üzrə dərhal sərf etmək lazımdır. Bu stereotip yerli sahibkarlığın genişlənməsi üçün ciddi maneə kimi çıxış edir. Əgər yerli ənənələr, sosial konsolidasiya

və mentalitet formaları nəzərə alınmırsa, afrikalı iqtisadiyyatına ünvansız investisiyalar və kapitalların sərf edilməsi gərəksizdir.

Afrikalılar öz fəaliyyətlərində *mühakiməni üstələyən* təcrübəyə əsaslanırlar. Onlar üçün yalnız xarici şəraitin yol verdiyi müddət ərzində dəstəklənən münasibətlər əlverişlidir. Ticarət müqavilələrin, işgüzar sazişlərin, alışların həyata keçirilməsi buna əsaslanır. İşügzar fəaliyyət üzrə afrikan mədəniyyəti bu günə qədər *natural* olaraq qalmışdır. O, intusiya ilə süslənmişdir, bunun sayəsində afrikalı obyektiv reallığın əsasına qoyulmuş ən geniş imkanlar spektrinə nail olmağa çalışır. Ancaq bu işdə pul avropalının şüurundakı yerlə müqayisədə, eyni rolu oynamır. «Məmulatın hazırlanması üçün sərf olunan vaxta gəldikdə isə, onun astronomik vaxtdan fərqləndirilməsi daha çətindir, əməyə sərf edilmiş pullarla qiymətləndirmək isə, ümumiyyətlə mümkün deyildir. Sonuncunun dəyərini real olaraq sərf olunmuş zaman və ustalıq səviyyəsi yox, əsas etibarilə, ənənələr və bazar konyunkturu, habelə fərdin əhval-ruhiyyəsi və ani tələbatları müəyyən edir»[7]. Afrikalı mentaliteti öz intuitivliyi ilə insanların bir-birlərinə münasibətlərinin və əmtəə-pul münasibətlərinin ayrılığını möhkəmləndirərək, pulun rasional-praqmatik dəyərliliyini «*yox edir*».

## ƏDƏBİYYAT

[1] *Баронин А.С.* Этническая психология. – С. 207.
[2] *Андреев И.А.* Человек по имени «Деньги». – С. 60.
[3] Yenə orada. – S. 69.
[4] *Баронин А.С.* Этническая психология. – С. 207.
[5] Yenə orada. – S. 211.
[6] *Андреев И.А.* Человек по имени «Деньги». – С. 60.
[7] Yenə orada. – S. 66.

## 3. AVROPA

### QƏRBİ AVROPA

Yarımbaşlığın adını Avropa yox, Qərbi Avropa kimi qoyaraq, biz Avropa qitəsinin müxtəlif hissələri (Cənubi, Qərbi, Şərqi) arasındakı müxtəlifliyi qeyd etmiş oluruq. Lakin regionların müxtəlifliyinə baxmayaraq, Qərbi Avropa ümumi tərkib hissəyə – bütün sosial-fəlsəfi konsepsiyaların baza konsepsiyası kimi çıxış edən *regionallıq* ideyasına malikdir. Rasional cəmiyyət – ağlın tələblərinə uyğun olaraq ictimai həyatın təşkilidir. Başqa sözlə, cəmiyyət «müəyyənedici keyfiyyəti ağıl olan varlıqlar tərəfindən yaradılan və qarşısına ağılla (təkcə insani yox, həm də ilahi ağıl) dərk olunan məsələlərin həllini qoyan reallıqdır ki, bu da insanların məqsədyönlü fəaliyyətini nəzərdə tutur»[1]. Rasionallıq – heç də həmişə cəmiyyətin vəziyyəti deyildir. Lakin o, ictimai orqanizmin mövcudluğunu və inkişafını, bununla bərabər, Avropa mentallığını istiqamətləndirən onun *müəyyənedici intensiyasıdır*. Cəmiyyət ağıl meyarlarına nə qədər cavab vermirsə, o, bir o qədər *gücsüz, əsassızdır,* mövcud olmaq hüququn və autentik mahiyyətindən məhrum hesab edilir. Buna görə də Avropa mentalitetini «geniş rus ürəyi» və ya Ukrayna irrasionallığı prinsiplərinə əsaslanan mentalitet kimi təsəvvür etmək çətindir, çünki o, yüzillər ərzində *sosial rasionallıq* şəraitində formalaşmışdır.

Avropa mentalitetinin rasionallığı, insanı hər zaman düşüncələr, fikirlər, davarınşlar səviyyəsinə yüksəldən, onu olduğundan daha ali və təmiz varlıq kimi təsvir edən Şərq mədəniyyətindən fərqli olaraq, Qərb mədəniyyətinin inkişafı prinsipləri ilə şərtlənmişdir. *V.Frankl* yazırdı: «İnsanı olduğu kimi qəbul edərək, onu daha pis edirik, onu, onun ola biləcəyi kimi qəbul edərək isə, biz onu, onun ola biləcəyi kimi olmağa vadar edirik»[2]. «Məni», insan özünüdərkini, şəxsiyyəti ucaldan Avropa fəlsəfəsi, incəsənəti və ədəbiyyatının kredosu (məsləyi, əqidəsi) belədir. Qərb sivilizasiyası daimi olaraq şəxsiyyət axtarışındadır. Və bu, onun özbaşına şıltaqlığı yox, şəxsiyyətin tədricən öz həyat fəaliyyəti subyekti kimi kristallaşdığının inikasıdır. Buna görə də Avropa insanının mentaliteti rasional təcrübə formaları – kateqoriyaları, düşüncə formaları və yalnız bundan sonra şüuraltı, intuisiya və s. vasitəsilə formalaşmışdır. Mentalitetin bu rasional müəyyənliyi, insanlar arasında «*sivilizasiyalı*» münasibətlərin simvolu kimi çıxış edən pul vasitəsilə xüsusilə dəqiq təzahür edir. Lakin bu, o demək deyildir

ki, bütün Avropa xalqlarının mentaliteti eyni cürdür. Bütün xalqlar təkcə öz tarixlərinə yox, həm də onların pula, biznesə, işgüzar fəaliyyətə qarşı spesifik münasibətlərini görməyə imkan verən etnik müxtəlifliklərə də malikdir.

**Alman qənaətkarlığının rasional təcrübəsi**

Müasir alman xalqının nümayəndələri eynicinsli irq deyildirlər, onlar müxtəlif german, slavyan və kelt qəbilələrinin qarışmasından formalaşmışdırlar. XVI əsrdə Almaniyaya çoxlu sayda fransız-qugenotlar yerləşmişdilər. Tarixi şərait və coğrafi xüsusiyyətlər, uzunmüddətli siyasi ayrılıq, milliyyətçi idelogiya, hər şeydən əvvəl, xırda mülkiyyətçi maraqlarına etiqad edən müasir alman tipini yaratmışdır. Həqiqətən də almanın xarakterində xırda mülkiyyətçi cəhətləri çox parlaq ifadə olunmuşdur. Bu səbəbdən onlar son dərəcə qənaətcildirlər. *N.V.Qoqol* «Burun» povestində çəkməçi *Qofman* tənəkəçi *Şillerin* xahişi ilə onun burnunu kəsməyə çalışır. O, əllərini yırğalyaraq deyirdi – «Mən istəmirəm, mənə burun lazım deyil!». «Mənim bir buruna ayda 30 funt tütün gedir və mən iyrənc rus mağazasına hər funta görə 40 qəpik ödəyirəm; bu da edəcək, bir rubl 20 qəpik – bu da edəcək 14 rubl, 40 qəpik! Bəli, bayramlarda mən 2 funtluq rape çəkirəm[3]. İldə mən, bir funtu 2 rubl olan 2 funt rape çəkirəm. Altı üstəgəl on dörd – edəcək, bir tütünə görə iyirmi rubl, qırx qəpik… Mən şvab almanıyam; mənim Almaniyada kralım var. Mən burun istəmirəm! Kəs mənim burnumu!»[4]. Burada *N.V.Qoqol* absurd səviyyəsinə gəlib çıxan və analoqu olmayan alman sərhesablığını yaradan alman qənaətcilliyini göstərir.

Alman üçün şəxsi «Mən» və şəxsi maddi rifah hər şeydən üstündür. Onun ictimai, siyasi və şəxsi həyatına, qohumlara, dostlara və hətta öz ailəsinə belə münasibəti bununla müəyyən olunur. Aydındır ki, buna görə də onlar öz fikirlərini ifadə edərkən öz rifahlarına zərər verməmək üçün çox ehtiyatlıdırlar. Onlar üçün qapalılıq və gizlilik xarakterikdir. Almanlar hər zaman nə qədər qazandıqlarını, onların bank hesabında nə qədər pul olduğunu, gəlirlərinin nə qədər olduğunu gizlədirlər. İlk növbədə xərcləri (həqiqi və mümkün) hesablayırlar.

Alman sərhesablığı təkcə pula (hər şeyi, son pfeninqə qədər hesablamaq) yox, həm də ailə münasibətlərinə də sirayət edir. Almanlarda ailə xüsusi mülkiyyət və mülki münasibətlər əsasında qurulur. Almaniyada hesabla evlənmək normal (Rusiya və Ukraynada olduğu kimi amoral yox)

hadisədir. Məsələn, alman filosofu *Q.V.F.Hegel* özünün qırx yaşı ərəfəsində evlənmək haqqında düşünür və buna işgüzar bir məsələ kimi münasibət göstərir. O, dostu *Nitxammerə* bildirir ki, «Mən daha bir işə başlamaq və onu sona çatdırmaq: evlənmək və ya daha yaxşı desək, özümə arvad tapmaq istəyirəm! Siz buna nə deyirsiniz? Əgər burada sizin həyat yoldaşınız olsaydı, mən ondan xahiş edərdim ki, mənim üçün arvad axtarsın»[5]. Dostluq da bunun kimi, birgə işgüzar əsas üzərində qurulur, o, *xeyir* gətirməlidir.

Qənaətcillik zəhmətsevrəlik və dəqiqliklə qarşılıqlı əlaqədardır. Almanlar hər zaman işə və işdən evə eyni vaxtda gedib-gəlirlər. Buna nümunə kimi, görkəmli alman filosofu *İ.Kantın* ölçülüb-biçilmiş, hesablanmış və ən dəqiq xronometr kimi qurulmuş həyatını göstərmək olar. O, düz axşam saat 10-da o, yatır, düz saat beşdə dururdu. Və 30 il ərzində o, bir dəfə də olsun vaxtsız durmamışdı. Düz saat 19-da gəzintiyə çıxırdı. Köninqsberq sakinləri söz saatlarını onunla yoxlayırdılar. *İ.Kant* özünü, ucaldılmış və gözəl hissi özündə uğurlu birləşdirən alman kimi hiss etdiyi üçün fəxr edirdi. Mütəfəkkir hesab edirdi ki, alman hər şeydə, hətta məhəbbətdə belə metodikidir. Düzlük, çalışqanlıq, qayda-qanuna qarşı sevgi – fəxr edilməli olan alman xeyirxahlıqlarıdır[6].

Alman dəqiqliyinin (punktuallığının) nəticəsi *maliyyə hesablamalarındakı* dəqiqlikdir. Almanlar borc vermir və borc almırlar. Onlar, yerinə yetirilməmiş iş üçün avans almamağa üstünlük verirlər. Onlar bilməlidirlər ki, onlara nəyə görə pul *verirlər*. Buna görə də istehsal etdikləri məhsulu maksimal keyfiyyətə çatdırmağa çalışırlar ki, bu da onun keyfiyyətini təşkil edir. Sənətkar üçün, istənilən işçi üçün olduğu kimi, öz ustalığının, bacarığının, iş üsullarının səlisləşdirilməsində pedantlıq (xırdaçılıq) mütləqdir. Pul hesablamalarındakı pedantizm buradan çıxır: alman heç vaxt artıq pul verməz, o, hər zaman qənaət haqqında düşünəcək, öz pullarını, ilk növbədə, xərclərində qənaətcillik və ehtiyatlılıq hesabına saxlamağa çalışacaqdır.

Alman xarakterinin xrestomanik cəhətlərindən biri olan *itaət* bununla bağlıdır. İtaət almanın həyatını yüngülləşdirir, çünki məsuliyyəti sərəncam verən daşıyır. O, əmrə müvafiq olaraq davranmağa alışmışdır. Alman yuxarıdakıların əmrlərini, göstərişlərini və sərəncamlarını olduğu kimi, tənqidsiz qəbul edir. Hətta o, əmrlə razı deyilsə belə, yenə də onu yerinə yetirəcəkdir, çünki müdriyyət onun üçün ali avtoritetdir. *K.Q.Yunq* hesab edir ki, «almanlar özlərinin qeyri-adi təlqin olma xüsusiyyətləri nəticəsində

xüsusi zəiflik göstərirlər. Bu, onların itaətə tabe olmalarında, onların əmrlərə iradəsiz olaraq boyun əymələrində təzahür edir ki, bu da yalnız təlqinin başqa bir formasıdır. Bu, almanların ümumi psixoloji qeyri-mükəmməliyinə uyğun gəlir»[7]. D*ünyanın bütün xalqlarına nisbətən, almanlar başqalarından daha çox hakimiyyətə tabe olmağa meyilli və hakimiyyət dəyişikliyinə başqalarından daha az qadirdirlər.*

*İ.Kant* almanların mental dərinliyinə və psixologiyasına girərək, onlarda istənilən despotik rejimlə keçinməyə hazırlığı görürdü. Alman, hakimiyyəti altında yaşadığı hökumətə hamıdan asan və hamıdan uzun müddətə tabe olur, onun ağlına, nə mövcud hakimiyyətə müqavimət göstərmək, nə də yenisini düşünmək gəlmir[8]. Rejim necə olursa-olsun, o, yenə də intizamı ifadə edir. Alman üçün isə «*intizamsızlıqdansa, qanunsuzluğa dözmək daha asandır*» (*İ.V.Gete*).

Uşaqlıqdan nizam-intizama qarşı tərbiyə edilən sevgi bütün həyat sferalarına, xüsusilə, iqtisadiyyata da daxil olur. «Alman möcüzəsi» - müharibədən sonrakı Almaniyanın bərpa edilməsi, əsas etibarilə intizama olan sevgi ilə şərtlənir. O, almanların nizam-intizama, korrektliyə (səhihliyə) qarşı tələbkar olmalarını müəyyən edir. İşgüzar görüşlərə gecikmək, maliyyə və ya başqa öhdəliklərin vaxtında yerinə yetirilməməsi, razılaşmaların qeyri-dəqiq yerinə yetirilməsi işgüzar və şəxsi qarşılıqlı münasibətlərə mənfi təsir göstərir. Xırda şeylərə böyük əhəmiyyət verən almanlar onlara diqqət yetirir, onları fiksə edirlər.

Almanlar öz fikirlərinin ifadə edilməsində ehtiyatlıdırlar və bir qayda olaraq, verilmiş situasiyada zəruri olan şeyi söyləyirlər. Almanlar qərar qəbul edərkən mümkün nəticələri yaxşıca düşünməyə və şəxsi faydalarını konkretləşdirməyə çalışırlar. Bununla, milli xarakterin individualizm, şəxsi maddi rifaha can atma kimi xüsusiyyətləri müəyyən olunur ki, bu da onların pula münasibətlərində son dərəcə dəqiqlik nümayiş etdirmələrinə səbəb olur. Belə mental nəsihətlərin tərbiyələndirilməsində məntiqi təfəkkürə meyillik də sonuncu yeri tutmur. O, hər şeyin məntiqə əsaslanmasında, yəni hər şeyin ağ və ya qara, bu və ya digəri olmasında (baxmayaraq ki, həyatda belə olmur) təzahür edir. Aydındır ki, *Kantın, Fixtenin və Hegelin* təlimlərinin, təkcə onların *həqiqiliyinə* görə yox, həm də *məntiqiliyinə* görə qavranılması bununla izah olunur. Xüsusi olaraq, dahi mütəfəkkir *Q.V.F.Hegelin* həyatı elə məntiqi olmuşdur ki, onun haqqında *Q.Heyne* belə demişdi: «Hegel elə böyük dahi idi ki, hətta filister (meşşan) belə ola

bilərdi». Hətta məhəbbət belə «onu nizamlı həyat tərzi çərçivəsindən çıxara bilmir, əksinə filosof evliliyi həyat dənizi dalğalarında sakit körpü kimi, «yer məqsədinə» nail olmaq kimi nəzərdən keçirir. O, adaxlısını öyrədir ki, sevgidə məmnunluğu və xoşbəxtliyi «yalnız din və borcluluq hissi tamamlayır». O, toydan öncə özünün ev təqvimində gəlir və xərclərin son dərəcə dəqiq hesabını aparır və bu hesaba nə bəxşişləri, nə gəlinə veriləcək hədiyyələri, nə də toy haqqında elanın ödənişlərini daxil etməyi unutmur»[9].

Məntiqlilik istehsalın, mübadilənin, qayda-qanunun və işgüzar əməkdaşlığın təşkilinin rasional təcrübəsini şərtləndirir. Bu zaman yüksək peşəkarlıq və qəbul olunmuş öhdəliklərin sözsüz yerinə yetirilməsi uzunmüddətli işgüzar əlaqələrin nizama salınmasına yol açır. Nəzərə almaq lazımdır ki, almanlar razılışmalara və görüşlərin keçirilməsi zamanına hər zaman əməl edirlər, bütün vədləri yerinə yetirirlər. Danışıqlar zamanı alman sahibkarları sualları ardıcıl olaraq, bir-birinin arxasınca müzakirə etməyi xoşlayırlar. Müqavilə bağlanılması qəbul olunmuş öhdəliklərin ciddi olaraq yerinə yetirilməsi ilə müşayiət olunur. Danışıqlar zamanı almanlar peşəkar və rəsmidirlər və öz partnyorlarından da belə olmağı tələb edirlər. Bütün bunlar birlikdə, son nəticədə almanların mədəniyyətinin (fəlsəfi, iqtisadi, maliyyə və məişət) yüksək inkişaf səviyyəsini müəyyən edən alman mentallığını təşkil edir.

**İngilislərin sahibkar fərdiyyətçiliyi**

Xalqları, şərti olaraq, ekspressiv-emosional və rasional xalqlara bölmək olar. Rasional xalqların xarakterində cəzalılıq, yəni özünə nəzarət üstünlük təşkil edir. Onlar özlərinin azad, qarşısıalınmaz (şiddətli) şəkildə təzahür olunan hisslərini doğru olmayan, vulqar qeyri-ictimai hisslər kimi nəzərdən keçirirlər. Bu kateqoriyaya, özünü ələ almanın insan xarakterinin başlıca ləyaqəti hesab edən ingilislər aid edilir. İngilis milli xarakteri üçün *stabillik* və *daimilik* səciyyəvidir. Səbəblərdən biri, ölkənin, qitənin fəal xarici təsirlərindən uzaq olmasına imkan yaradan ada mövqeyinə malik olmasındadır ki, bu da nə mədəniyyətlərin qarışmasına, dəyərlərin yenidən bölüşdürülməsinə yox, nə də millətin psixologiyasının dinamik dəyişməsinə yol verməmişdir.

İngilis mentalitetinin xüsusiyyəti – maddi vəziyyət, pul, sosial mənsubiyyət, cəmiyyətdəki mövqe kimi dəyərlərə oriyentasiya edilməsidir. Ancaq Böyük Britaniyada, ABŞ-da olduğu kimi, pul kultu yox, ölkənin tarixi, köhnə ənənələri, ayinləri, mərasimləri, habelə şəxsi tale, milli davra-

nış normalarına riayət olunması təbliğ olunur. *Q.S.Kommacer* yazırdı, «Milli xarakter – hər yerdə canlıdır. Lakin bu, öz naturalarının canlı olması üzrə sanki patentə malik olan ingilislər qədər heç bir xalqa aid deyildir. İngilislərin birinci və ən aşkar cəhəti – onların xarakterinin stabilliyi və daimiliyidir. Onlar zamanın, qüvvədə olan dəbin təsirinə başqalarından daha az məruz qalırlar. Əgər ingilislər haqqında yazan müəlliflər çox halda bir-birilərini təkrarlayırlarsa, bu, hər şeydən əvvəl, ingilis xarakterinin dəyişməməzliyi ilə izah olunur»[10].

İngilislər zəhmətsevərdirlər, bu da intizamlılıqda, dəqiqlikdə, müəyyən qədər konservatizmdə, onlar tərəfindən istehsal olunan məhsulların davamlılığında, başladıqları işi sona çatdırmağa can atmalarında təzahür edir. Onlar istehsal məsələlərinin müzakirəsində uzaqgörənlik, sərhesablıq və ehtiyatlılıq nümayiş etdirirlər. Ancaq iş prosesində ingilislər buxovsuzluqla sazlanmanı əlaqələndirirlər ki, bu da qaydalar üzərində qurulan həyat Ritmini əks etdirir. *Əsrlər boyu belə bir rəy formalaşmışdır ki, idmanda olduğu kimi, həyatda da qaydalara sözsüz riayət etmək lazımdır, qaydaları pozanları isə cəzalandırırlar.* İnsan, «oyunun» «qaydalar ilə» oynanılacağına zəmanətə malik olaraq, bu qaydalar çərçivəsində özünü kifayət qədər azad hiss edir. Vərdiş etmədikləri şəraitdə ingilislər özlərini fəaliyyətdə olan qaydalara uyğun aparmağa çalışır və özlərini formalaşmış qaydaya salmağa can atırlar[11]. Nəticə etibarilə, ingilisin məqsədi – fərqlənmək yox, oxşamaqdır və bu da insanı şüursuz nümunələr kimi çıxış edən qaydalara müvafiq olaraq hərəkət etməyə vadar edir. Bu, xüsusi olaraq, ingilislərin ən xarakterik xüsusiyyətlərindən birində – *günün nizam qaydalarına* riayət etməkdə reallaşır.

*İ.Kant* qeyd edirdi ki, «ingilislər üçün bütün yadelli olan hər şeyə nifrət etmək səciyyəvidir»[12]. Müstəmləkəçiliyin inkişafı dövründə formalaşmış quruluş bütün əcnəbiləri ya rəqib kimi, ya da sivilizasiyanın inkişafının aşağı pilləsində duranlar kimi nəzərdən keçirməyə məcbur edir, amma bu, nə parlaq vətənpərvərlik, nə də aqressiv milliyyətçilik kimi ifadə olunmur. *V.V.Ovçinnikov* yazır: «İngilislər nəinki əcnəbilərdən çəkinirlər, həm də onlara qarşı xüsusi olaraq diqqət yetirmirlər. Onlar əcnəbilərə, yaşlılar cəmiyyətində uşaqlara göstərilən münasibət kimi, bir qədər mərhəmətli münasibət bəsləyirlər. Çətin ki, Londonda əcnəbi olmaq, hər hansı üstünlüyə malik olmaqdır. Onu evə dəvət edirlər, onun qeyri-adi davranışına diqqət verirlər, onun saf mülahizələrinə qulaq asırlar. Lakin

əgər xaricdən gəlmiş qonaq özünü hər hansı bir şeydə qeyri-adi şəxsiyyət kimi göstərsə, ətrafdakılar onun istedadına və ləyaqətinə təəccüblə maraq göstərəcəklər»[13].

Bu və ya başqa *təmkinlilik* anları əsasında «*soyuq ingilis*» stereotipi formalaşmışdır ki, bu da özünə ağlı, dözümü, özünü ələ almaq və ekstremal vəziyyətlərdə sakit qalmaq bacarığını göstərir. Onlar sağlam ağla, borcluluq hissinə, ictimai nizam-intizamla malikdirlər və bu və ya digər şey üçün qurban verməyə hazırdırlar. Buradan, *İ.Kantın* qeyd etdiyi kimi, onların bəzən inadkarlığa və hətta ağılsız əcaibliyə (qəribəliyə) qədər gedib çatan daimiliyi aydınca görünür. Misal üçün, Londonun əntiq əşyalar və incəsənət əsərlərinin satıldığı Sotbi hərracında qiymətlər *gineya* ilə ifadə olunur, amma ödəniş zamanı onları dərhal *funta* çevirirlər. *Gineya* – qədim qızıl qəpikdir. Bu gün – bu, 105 pensdən ibarət olan (funt sterlinq isə 100 pensdən ibarətdir) şərti vahiddir. Başqa sözlə, bu, ingilislərin konservatizminin və qəribəliyinin təzahürü kimi, sosial *snobizmin* özünəməxsus formasıdır. Yaxın dövrlərə qədər yazıçıların, vəkillərin və müğənnilərin qonorarları gineya ilə hesablanırdı. Ləl-cəvahiratın, xəzlərin, yarış atlarının qiyməti də gineya ilə ifadə olunurdu. Bununla, vulqar funtla kifayətlənməyə məcbur olanlar üzərində üstünlük vurğulanırdı[14]. Avropa Birliyinə daxil olmamaq, funtun saxlanılması və avroya etibar etməmək snobizmdən və şəxsi ləyaqət hissindən xəbər verir.

İngilislər üçün xüsusi həyat kultu səciyyəvidir ki, bu da oturaqlığa meyillilik və kənar baxışlardan gizlənmək arzusu ilə izah olunur. İngilis əxlaqı insana öz xüsusi həyatını xarici dünyadan təcrid etməyi təlqin edir. *Q.Lebon* yazır ki, İngiltərəni ziyarət edən əcnəbi «ən xırda işçinin komasında müstəqil həyata qarşı tələbatı hiss edəcəkdir. O, irqin enerjisini, həm işçinin gərgin əməyində, həm də kiçik yaşlarından özünü idarə etməyi öyrənən, həyatda onun taleyi ilə ondan başqa heç kəsin məşğul olmayacağını artıq bilən şagirdin əməyində tapacaqdır...»[15]. Başqa xalqlar üçün heç də hər zaman aydın olmayan və ingilislərin mentallığının müəyyən edilməsi üçün material kimi çıxış edən onların soyuqluğu və təmkinliliyi bununla əlaqədardır.

İngilisin şəxsi həyatını onu əhatə edən dünyadan ayıran sərhəd xətti evinin astanasıdır. İngilislərin müstəqilliyini və şəxsi ləyaqət hissini vurğulayan belə bir ingilis atalar sözü hamıya məlumdur: «*Mənim evim – mənim qalamdır*». Ukraynalılarda isə, bundan fərqli olaraq, son dərəcə

xudbin bir mövqe tutan «Moya xata s krayu (Mənə dəxli yoxdur)» atalar sözü mövcuddur. Xüsusi mülkiyyət kultu evə qarşı qala münasibətini formalaşdırmışdır. İngilis üçün ev – mövcudiyyətin mərkəzidir və onun həyatında aparıcı yer tutur. Ev – onun azadlığının, müstəqilliyinin, öhdəliklərinin olmamasının zəmanətidir. Bununla da ruhun azadlığı maliyyə asılılığı zənciri ilə buxovlanır və ingilis özünün bütün ləyaqətini uğurun və faydanın əldə edilməsinə istiqamətləndirir. *N.M.Karamzin* yazırdı: «İngilislər düzgündürlər, onların əxlaqı, ailə həyatı, qohumluq və dostluq əlaqələri var… Onlara qibtə etmək olar. Onların sözü, mehribançılığı, tanışlığı etibarlıdır: fəaliyyətləri, ümumi ticarət ruhu insanları bütün çaları ilə hər kəsə hörmət etməyi və öz etibarını saxlamağı öyrədir. Lakin ciddi ədalətlilik onlara incə xudbinlər olmağa mane olmur. Onlar öz ticarətlərində, siyasətlərində və öz aralarındakı şəxsi münasibətlərində belədirlər. Hər şey düşünülmüş, hər şey nəzərə alınmışdır və son nəticə … şəxsi faydadır»[16]. Bu şərait hər şeyə, o cümlədən əxlaqi-etik problemlərə qarşı praktiki yanaşmanı şərtləndirir. İngilislər üçün, başqa xalqlar tərəfindən yalnız mənəvi planda nəzərdən keçirilən məsələlərə son dərəcə praktiki mahiyyət vermək səciyyəvidir ki, bunu da təhsil, din və ədalət göstərir. Birinci rəsmi protestant kilsəsi – ingilis kilsəsi olmuş və qanunvericiliklə məhz İngiltərədə təsis edilmişdi.

İngilis hər şeydə fərdidir. Hətta ingilis ailəsində ər-arvad belə bir-birinin işlərinə qarışmırlar, ailənin hər bir üzvünün şəxsi həyatı toxunulmazdır. Ailə həyatı, eləcə də pul gəlirləri, mənfəət haqqında söhbət, ən azı, ədəbsiz hesab olunur. «Rəsmiyyətpərəst ingilis» - çoxdan stereotipə çevrilmiş, adət edilmiş söz birləşməsidir. Buna rəğmən, burada, rəsmiyyətpərəstlikdənsə, xırdaçılıq (vasvasılıq) işlətmək daha yerinə düşər. Bunun əsasını ingilislərin şəxsi həyatını kənar baxışlardan ayıran kar divarlar haqqında təsəvvürləridir. Əlbəttə ki, bu vasvasılıq ingilisləri qapalı və adamayovuşmaz olmağa məcbur edir (xüsusilə, tanış olmayan insanlarla)[17]. Buna baxmayaraq, ingilis realığında yaşyaraq artıq inanmağa başlayırsan ki, ingilislərə təmkinli olmaqla yanaşı, həm də qarşılıqlı xoşüzlük və bezikdiriciliksiz düzgünlük xasdır.

İngilislərin psixologiyası reallığa oriyentasiya edir. Onlar gündəlik qidaya qarşı tələbkar deyildirlər. Qidaya sərf olunan pullar, onlar tərəfindən boşa sərf olunmuş kimi hesab olunur. Həqiqətdə isə onlar üçün reallıq tamamilə mövcud deyildir, onlar boş fantaziyalarda yaşayırlar. *Daxili*

*obyektlər onların qavrayışına əşyaların (cisimlərin) subyektiv obrazı kimi təqdim olunur*. Amerika filosofu *D.Santayana* soruşur – «İngilisləri nə idarə edir? - Əlbəttə ki, ağıl yox; nadir hallarda ehtiras; çətin ki, - tamahkarlıq olsun. Əgər desək ki, ingilisləri adətlər idarə edir, onda belə bir sual ortaya çıxır: Onda bəs İngiltərə necə individualizm, eksentriklik, eres, yumor və qəribəliklər ölkəsidir? İngilisi onun daxili atmosferi, onun qəlb havası idarə edir. O, pivə içərkən və öz qəlyanını çəkərkən; yuyunmuş və saçlarını daramış vəziyyətdə kilsədə, zəbur surələrindəki heç olmazsa, bir sözə belə inandığı haqqında heç düşünmədən onları oxuyarkən; ona toxunmayan, amma həm də diksindirməyən sentimental musiqiləri dinləyərkən; onun ən sevimli dostu və ən sevimli şairinin kim olduğu barəsində qərar verərkən; şikara atəş açarkən və ya sahələr boyu addımlayarkən – onu hər hansı dəqiq əqli dəlil, hər hansı məqsəd, hər hansı xarici fakt yox, hər zaman onun daxili dünyasının atmosferi idarə edir»[18].

Bu şərait, aydındır ki, ingilis biznesini başqa ölkələrin biznesindən fərqləndirən səbəblərdən biridir. Onun üçün kastaçılıq xarakterikdir ki, bu da yüksək peşəkarlığa baxmayaraq, yeni güclərin axmasına maneçilik törədir. İngilis biznesmenləri uzunmüddətli perspektivlərin təhlili səviyyəsinə qədər yüksəlmirlər, ani faydadan söhbət gedərkən inadkarlıq göstərərək, ani olaraq mənfəət gətirən müqavilələr bağlayırlar və verimi 5-10 ilən sonra olacaq sərmayələri könülsüz olaraq həyata keçirirlər[19]. Bu nədir – pula, sərvətə qarşı laqeydlik, qeyri-uzaqgörənlik, xəsislik, yoxsa biznesi həyata keçirmək bacarıqsızlığıdır?

Daha çox konservatizmin nəticəsidir ki, bunun sayəsində yüksək ixtiraçılıq tələb edən ideya və texnologiyaların seriyalı istehsalda tətbiq edilməsi üzrə kifayət qədər işlənib hazırlanmış mexanizm mövcud deyildir. *D.B.Pristli* yazırdı: «Mən iddia etməyə çalışmıram ki, ingilislər heç vaxt dəyişməmişlər. Dəyişikliklər hər zaman baş verir. Lakin zahirən bu qədər gözəçarpan olan bu müxtəlifliklər kökə qədər nüfuz etmir. Yaxşı və ya pis, indiyə qədər ümumi məxrəc olaraq qalmış ingilis təbiətinin çoxdankı cəhətləri milli xarakterə və həyatın ümumi tərzinə dərin təsir göstərir»[20].

İngilislərin ticarət-pul təcrübəsi və işgüzar əməliyyatlarda müəyyən ünsiyyət mərasimi fəaliyyət göstərir ki, bu da təkcə iqtisadiyyatla yox, həm də idmanla, ədəbiyyatla və incəsənətlə bağlı olan peşəkar hazırlığı və geniş maraqlar dairəsini nəzərdə tutur. İnsani keyfiyyətlər əgər həlledici deyilsə, çox mühüm əhəmiyyətə malikdir. Qeyri-peşəkarlıq biznes müqavilələri və

işlərinin sona çatdırılmasının başlıca səbəbidir. Perspektiv üçün fayda gətirə bilən təmasların qurulması üçün işgüzar naharlarda iştirak etmək, seminarları, sərgiləri, simpoziumları, tennis turnirlərini və s. ziyarət etmək lazımdır. Bütün bunlar qarşılıqlı tədbirlərin təşkil edilməsini nəzərdə tutur.

İngilis işgüzar dünyası özünün inkişafının strategiya və taktikasının işlənib hazırlanması prosesində hər bir mövqeyi hesablayır, müqavilə və razılaşmaların bütün parametrlərini ciddi şəkildə fiksə edir. Mütləq olaraq hərtərəfli hazırlıqlar və uzlaşmalar həyata keçirilir – improvizasiyalara yol verilmir. Punktuallıq xüsusi əhəmiyyətə malikdir. O, centlmen kodeksinin zəruri tərkib hissəsidir və hər bir ingilis bununla fəxr edir və onun ideallaşdırılmasına can atır. *İ.Erenburq* yazır: «Əgər səhvən almanı ingilis bilsəniz, alman özündənrazı şəkildə gülümsəyəcəkdir – əlbəttə, o, centlmendir, onun əynində xovlu şotland mahudundan kostyum var, o, axmaq rapira oyunundansa, qolf oyununa üstünlük verir və nəhayət, o, humanistdir…Siz fransız snobuna nəzər salın – o, fransız sözlərini ingilis aksenti ilə tələffüz etməyi öyrənmişdir, o, qəlyan çəkməyə çalışır, baxmayaraq ki, bu, onun ürəyini bulandırır, o, hətta anadangəlmə qışqırıqçı olsa belə, sakit və könülsüz olaraq danışmağa çalışır. O, görürsünüz ki, marsel dükançısının oğlu yox, centlmendir. Çətinlik çəkmədən demək olar ki, istənilən Pikadilli silindri Avropanın orta sinfinin idealı olaraq qalmaqdadır. Pul – Nyu-Yorkda, bordellər – Parisdə, amma ideallar, yalnız ideallar - Londonda»[21]. Centlmen dəqiqdir, punktualdır, başqaları haqqında yaxşı və ya pis danışmır, özünənəzarətin, alicənablılığın, ədalətli oyunun təcəssümüdür. Centlmenlə aparılan işgüzar təmaslarda əldə edilmiş, qazanılmış pullar ədalətli pullardır. Centlmenlə müqavilə hər zaman ləyaqətli olmağa vadar edir ki, bu da pula qarşı hərisliyin qarşısını alır və özündə hakimiyyət və azadlıq, biznes və lirika, boks kultu və Şekspir kultu, gəlirləri və teosofiyanı təcəssüm etdirir. Ola bilsin ki, İngiltərənin zənginliyinin və həmişə özünün tamahkar məqsədlərinə nail olan ingilisin praktikliyinin sirri elə bundadır.

**Fransız düzgünlüyü, yığımcıllığı və qənaətkarlığı**

Fransız milli xarakterinin formalaşması prosesi tarixdə xalqların assimilyasiyasının mürəkkəb yolu ilə baş vermişdir ki, bu da fransızların psixi quruluşunun və mentalitetinin formalaşmasına təsir göstərmişdir. *D.Didro* yazır: «Bu xalq çevikdir, asanlıqla şikayətlənir, ondan da asan

boyun əyir və öz bədbəxtliklərini həddindən artıq tez unudur…Nə vaxtsa dünyanın yarısını fəth etmiş xalq, hazırda ruhanilərin hakimiyyəti altına tanınmaz hala düşmüşdür, amma bu zəiflik altında hələ də əvvəlki böyük ruh gizlənməkdədir… Bugünkü fransızın xarakterinin əsası, onu *Sezar* təsvir etdiyi kimi qalmışdır. Qall qərar qəbulunda sürətli, döyüşdə cəsur, hücumda qarşısıalınmazdır, amma asanlıqla ruhdan düşür. Sezar, Aqafiy və başqları deyirlər ki, bütün barbarlardan qallar ən mədəni olanlar idilər, daha sivilizasiyalı dövrdə onlar qonşular üçün nəzakətlilik nümunəsi kimi çıxış edirdilər»[22].

Adətlər, müasir fransız milləti formalaşana qədər müxtəlif təsirlərə məruz qalaraq dəyişmişdir. *İ.Q.Qerder* yazırdı: «Milli xarakterin canlılığı, ərəblər və normanlarla əsrlər boyu aparılmış müharibələr, əcdadların bu müharibələrdə qazandıqları şan-şöhrəti, artıq bir sıra ailələr tərəfindən nail olunmuş maddi rifah və çiçəklənmə, fransız və norman qanının birləşməsi, hər şeydən əvvəl, xalqın xarakterində qallardan başlanan bütün tarix boyu özünü göstərən nəisə özünəməxsus cəhət – cəngavər zümrəsinə (təbəqəsinə) xas olan gümrahlıq, ruh yüksəkliyi, qeyri-adi ünsiyyətçillik, çeviklik, parlaqlıq və zəriflik bəxş olunmuşdu; buna oxşar cəhətlərə başqa heç bir xalqda rast gəlmək olmaz (ola bilsin ki, keçmişdə belə xalqlar olmuşlar)»[23].

Fransız fəlsəfəsi *kartezian rasionallığı* və *skeptisizmi* ilə məşhurdur. Bununla belə, o, iddia edir ki, dünya, obyektiv situasiyalar və ümumi mənaya malik dəyərlərlə uzlaşan hisslər üzərində qurulmuşdur. Fransız xarakterinə xas olan *emosionallıqdan* da danışmaq olar. Fransızlara, yüksək dərəcədə özünü ifadə etmə üzrə tələbat, daimi olaraq başqalarını mühakimə etmək ehtirası və eyni zamanda özü haqqında başqasının fikrinə qarşı həssaslıq xasdır[24]. Buna görə də fransızların xarakterində *individualizmlə ünsiyyətçillik* arasında daimi olaraq mübarizə gedir.

Biz fransızların hər hansı bir psixoloji stereotipi haqqında danışa bilmərik. İş orasındadır ki, Fransanın müxtəlif əyalətlərinin sakinləri öz xarakterlərinin konkret fərqləndirici cəhətləri sayəsində müəyyən nüfuza malkdirlər. Məsələn, *Normandiya* sakinləri ehtiyatlı, təmkinli; *bretonlar* - inadkar hesab olunurlar, onlarla razılaşmaq çox çətindir; cənublular, o cümlədən məşhur qaskonlar şimallılardan daha diri və ekspansivdirlər, onların hissləri və danışıqları bir qədər sərtliyi ilə xarakterizə olunur. Ancaq temperament onların əsl hiss və mahiyyətlərini gizlədir. Münasibətlər tanışlıqlar və qarşılıqlı xidmətlər əsasında qurulur.

*Kanta* görə, fransız nəzakətli, gülərüzlü və lütfkardır, lakin tez bir zamanda familyar (təklifsiz) olur. Hazırcavablıq onun üçün prinsipial əhəmiyyət kəsb edir. Məşhur *Blokovun* sözlərini yada salaq: «*...İti qall mənası mənə aydındır...*». Fransız – sülsevər vətəndaşdır, lakin onun milli xarakterində «öz oyununa hətta ağlı belə cəlb edən və xalqın dövlətə münasibətində ən kənar sərhədlərə keçən dağıdıcı entuziazm doğuran yolxucu azadlıq ruhu mövcuddur»[25]. Bu, Böyük Fransa inqilabından tutmuş, bütün baş verən inqilablarla, fransız mütəfəkkir-maarifçilərinin bütün dünya radikallarını özünə cəlb edən azadlıqsevər ideyaları ilə sübut olunur.

Fransızları yüngülxasiyyət hesab edirlər, lakin bu qiymətləndirmə daha çox onların, həyat fəaliyyətinin bütün sferalarında, o cümlədən qadın və kişinin münasibətlərində təzahür edən azadlığının qəbul olunmaması nəticəsində ortaya çıxmışdır. Lakin iş ciddi məsələlərə gəldikdə, heç bir fransız yüngülxasiyyətliliyindən söhbət gedə bilməz. Buna misal olaraq, fransızların pula və sərvətə münasibəti çıxış edə bilər. Onlar – *M.Montenin* qeyd etdiyi kimi, «həyat incəsənətinin nəticəsidir». Pul həyatdan zövq almaq üçün məkanın yaradılmasına xidmət etməlidir, buna görə də *D.Didronun* iddia etdiyi kimi, «simiclik – qocaların günahıdır»[26].

Pulsuz həyat həyata keçirilə bilməz. *D.Didro* belə bir fikirlə razılaşır ki, pulu tanımayan mədəni xalq, adətən, tiranlardan azaddır. Lakin, əgər xalqda bütün həyat üçün zəruri əşyaların şərti işarəsi olmasa, o xalqı mədəni hesab etmək olarmı? Pulun məhv edilməsi ümumi durğunluğun baş verməsi deməkdir ki, bu da elmin, incəsənətin tərəqqisi və insan ruhunun təkmilləşdirilməsi üçün heç də əlverişli deyildir. *Didro* o fikirlə razıdır ki, pula qarşı məhəbbət, nemətə qarşı məhəbbətlə ekvivalentdir – istedadlar, vətənə və xeyirxahlığa məhəbbət üçün dağıdıcıdır. Amma, pula qarşı məhəbbətin yalnız zövqlərə qarşı məhəbbətin ekvivalenti olması isə, başqa məsələdir. «İnsanlar niyə pul, pul və yenə də pul istəyirlər? Ona görə ki, pulla hər şey almaq olar: hörmət, hakimiyyət, ehtiram və hətta ağıl»[27]. Pulun məhz belə qiymətləndirilməsi, hər zaman bu cür həyat obrazına qarşı nifrət yaradan ədəbi obrazları yaratmışdır – *Qarpaqon, Qobeks* və s.

Bununla da fransız mentalitetində pula qarşı etiraz tipli, mənfi münasibət formalaşmışdır. Pul, nə *B.Paskalın* «fəlsəfə ürəyinə», maarifçi-filosofların rasionalist tərbiyə doktrinasına, nə də fransız utopist-sosialistlərinin əhval-ruhiyyəsinə uyğun gəlmir. O, *V.Hüqoda, E.Zolyada, E.Syuda, O. de Balzakda, A.Fransada* və s. emosional-mənfi qiymətləndir-

mişdir. Aydındır ki, buna görə də fransızlarda pul kultu yoxdur, amma onların əksəriyyətində, onların böyük nailiyyət hesab etdikləri keyfiyyət olan *qənaətcillik* vardır. İsrafçılığı sevməmək öz gələcəyini, qocalığını indidən təmin etmək səyi, özünü və öz ailəsini ehtiyac zamanı etibarlı şəkildə təhlükədən qorumaq, habelə borclarla bağlı alçaldıcı maddi və mənəvi asılılıqdan uzaq olmaq istəyi ilə izah olunur.

Borcdan xilas olmaq – artıq *namus* işidir və bu da fransız mentallığının tərkib hissələrindən biridir. *Napoleonun* vəsiyyəti hamıya məlum olanda, onun avtoriteti fransız xalqının gözündə daha da ucaldı. O, Müqəddəs Yelena adasında öləcəyini hiss edərək vəsiyyət hazırlayır və orada müxtəlif şəxslərə: ona və öz borcuna qarşı sədaqəti ilə məşhur olan bir çox generallara, əyanlara, xidmətçilərə və zabitlərə veriləcək pul məbləğlərini göstərir. «Özünün ümumən 200 milyon frank məbləğindəki əsas əmlakını isə o, aşağıdakı kimi vəsiyyət edir: yarısını – onun bayrağı altında döyüşən «zabit və əsgərlərə», digər yarısını – Fransanın 1814 və 1815-ci illərdə basqınlardan zərər çəkmiş yerlərinə verir». İmperatorun daimi olaraq müraciət etdiyi şərəf və namus pul hesabı ilə möhkəmlənmişdi ki, bu da fransızların əsl nəciblik (alicənablıq) haqqındakı mental təsəvvürlərini yaratmışdır.

Yığımcıllıq və qənatcillik fransızları riskli maliyyə avantüRalarına getməməyə vadar edir. Onlar «zəhmətsiz» pullar əldə etməkdənsə, qənaət etməyə can atırlar. Rus aristokratlarının keyf məclisləri, eyş-işrət ziyafətləri, əyyaşlıqları, onların qənaətcil fransız nöqteyi-nəzərindən, anlaşılmaz, heç bir şeylə motivləşməmiş xərcləri və artıq (izafi) xərcləmələri fransızlarda necə təəccüb və şok yaratdığı aydın olur. *L.Lyubimov* özünün «Qəriblikdə» adlı kitabında kafenin daimi sakinlərinin, oraya gəlmiş rus zabitinin özünün bütün pulunu sərf edərək kafedəki bütün adamları içkiyə qonaq etməsinə təəccüblənmələrindən söhbət açır.

Böyük tarixi keçmiş fransızları müəyyən dərəcədə şöhrətpərəst etmişdir. Onlar öz milli problemlərinə beynəlxalq miqyas verir, dünyada baş verən hadisələri isə öz reallıqlarına «uyğunlaşdırırlar». *İ.Q.Qerderin* fikrincə, fransız şöratpərəstliyi belə bir cəhətin şərti olmuşdur ki, «Fransa Avropaya yol göstərmiş və bütün ən mühüm dəyişikliklərə ton vermişdir»[29]. Bütün əcnəbilərə etibarsızlıq və bütün bədbəxtliklərin onlarla əlaqələndirilməsi, insanlararası ünsiyyət «sxeminə uymayanları» başa düşmək istəməmək, bununla bağlıdır.

Özünəhörmət müəyyən spesifik xüsusiyyətlərə malikdir. İşgüzar münasibətlərdə fransızlar ingilis və alman dillərindən istifadə olunmasına yaxşı reaksiya vermirlər və bunun, onların milli qüruruna toxunduğunu hesab edirlər. Nəzərə almaq lazımdır ki, Fransanın işgüzar həyatında *şəxsi tanışlıqlar və əlaqələr* böyük əhəmiyyətə malikdir. Yeni təmaslar adətən sizə lazım olan şəxslərlə qohumluq, maliyyə və ya dostluq əlaqələri ilə bağlı olan vasitəçilər vasitəsilə qurulur[30]. Xüsusilə, əgər bu, fransız millətinin nümayəndələrinə aiddirsə. Ehtiyatlılıq və risklərdən uzaq olmağa çalışmaq fransız sahibkarlarını işgüzar danışıqları çox diqqətlə hazırlaşmağa, bütün mümkün «*mənfi*» və «*müsbətləri*» təhlil edərək, daxil olan maliyyə təkliflərinin bütün aspektlərini və nəticələrini hərtərəfli öyrənməyə vadar edir. Ehtiyatlı olmaq üzrə mental əhval-ruhiyyə fransız sahibkarına edilmiş təkliflərin məqsədəuyğunluğuna dərhal inanmağa imkan vermir və o, bağlanılacaq sazişin hər bir detalını dəlillərlə və hərtərəfli şəkildə müzakirə etməyə üstünlük verir. Danışıqlar prinsiplərə istinad edilməsi və kompromislərə etibar edilməməsi ilə fərqlənir. Eyni zamanda kompromislərə qarşı mənfi münasibət fransızlara xas olan intellektual üstünlük hissi ilə bağlı olaraq güclənir. Onlar öz mövqelərini müdafiə etməyə çalışırlar, baxmayaraq ki, onlar *bazarlıq etməyə* meyilli deyillər[31]. Son nəticədə, fayda, pul öz yerini subyektə, problemlərin müzakirə olunduğu insana qarşı marağa verir. Pula qarşı münasibət məhz danışıqları aparan insandan asılıdır.

Fransız hər zaman subyektivdir, onu, həmişə *məna (mahiyyət)* daha çox maraqlandırır, o, *skeptikdir*, hər şeydən şübhələnir. Buna görə də fransız mentallığında pul, başqa millətlərdə olduğu kimi mütləqləşdirilməMişdir. Fransız milli xarakteri, nə folklorda, nə də nağıllarda pula və ya sərvətə qarşı tamahla heç cür assosiasiya təşkil etmir. Daha çox hissi məmnunluqlara, zövqlərə, və dəbdəbəyə qarşı maraq özünü göstərir. Məşhur məşuqlar, memarlıq üslubları, romanlar, poeziya, namus, qurman, qadınlara məftunluq (pərəstiş) – fransız üçün əsas olan şeylər bunlardır. Pula yox, zövqə oriyentasiya – fransız mentalitetinin istiqamətidir.

**İtalyansayağı «fors atmaq» (özünü çəkmək).**

İtalyanların milli xarakteri *monoetnik* ölkədə formalaşmışdır. İtaliya səyahətçiləri hər zaman özünə cəlb etmişdir. İncənəsət, romantika, zəvvarlar (səyyahlar), qurmanlar, dəb biliciləri, turistlərin hər biri öz məqsədləri ilə – gözəlliyə yaxın olmaq, xristian ziyarətgahlarına baş çəkmək,

gündəlik həyat təlaşından uzaqlaşmaq, tələbkar (müşkülpəsənd) zövqləri məmnun etmək istəyilə buraya can atırlar. Bu ölkə öz xəzinəsini səxavətlə hamının üzünə açaraq və məişət sirlərini bölüşərək ətraf dünya üçün özünəməxsus maqnit olmuş və olaraq qalmaqdadır. Lakin İtaliya hər zaman sözsüz heyranlıq yaratmış və hazırda yaradırsa da italyanlara qarşı münasibət daha mürəkəbbdir. İtaliya səyahətindən qayıdanlardan tez-tez, onlara pis əmtəəni üçqat qiymətə satmış və ya onları keyfiyyətsiz «milli» yeməklə qidalandırmış «bədbəxt italyanlara» qarşı şikayətlər eşitmək olar. Turistlik yerləri adətən çoxsaylı ziyarətçilərin pul qoparan və müxtəlif cür hiylələr etməyin, bəzən isə aldatmanın heç də qəbahət olmadığını düşünən italyanlarla dolu olur. Bu, o deməkdirmi ki, italyanlar pula görə böyük keçmişi olan ölkə sakinlərinin ləyaqətini qurban verirlər?

Müasir italyanlar canlı və hiss olunan tarixin onları bütün ömür boyu müşayiət etdiyi Qədim Roma torpağında yaşayırlar. Ölkənin şöhrəti və gözəlliyi onu miras almış xalqla pis oyun oynamışdır. Mədəniyyət və incəsənətin böyük əsərləri fonunda gündəlik həyatı yaşayan real insanlar lazımsız maneə yaradaraq və ətrafdakı gözəlliyi öz məişət təsvirləri ilə gözdən salaraq itir və uduzurlar. Buna görə də, müxtəlif növ narahatlıqlar (qaydasızlıqlar) və artıq pul xərcləmələri belə çox gözə çarpır.

İtalyanların yaşadığı torpaq hər zaman insanlar tərəfindən ziyarət edilən torpaqlardan olmuş və bu, əhəmiyyətini bu günə qədər də saxlamışdır. Aydındır ki, bu, onların mentalitetində də öz izini buraxmışdır. Onlar sadəcə olaraq ünsiyyətcil yox, həm də öz *emosiyalarını ifadə etməkdə açıqdırlar*. İtalyanların xarakterində ekspressivlik dominantlıq təşkil edir, emosiyaların boğulması qeyri-təbii hesab olunur və riyakarlıqla eyniləşdirilir. Bununla əlaqədar olaraq, ünsiyyətdə *teatrallıq* təzahür edir. Aktyorlar özləri, yəni italyanlar başqalarını da bu oyuna cəlb edirlər.

Hesab olunur ki, italyanlar ağıllı, hazırcavabdırlar, obyektləri zərif şəkildə qəbul edirlər, təbiətən bədii zövqə malikdirlər. Onların estetik xarakteri – effektlə birləşmiş zövqdür. Onların temperamenti ucalığa meyilliliyi əks etdirir. Onlar incəsənəti çox gözəl başa düşür, musiqini, mahnıları və rəsm əsərlərini incə şəkildə hiss edirlər[32]. Bununla yanaşı, italyanların xarakteri və həyatı *paradoks və ziddiyyətlərdən* ibarətdir. Bütün dünyada məşhur olan opera müğənniləri və buna qarşı duran sakinlərin kobud, qışqırıqçı səsləri. Gücün və sağlamlığın klassik idealları və pis döyüşçülər. Güclü inkişaf etmiş fərdiyyətçilik və kütlənin hakimiyyəti.

Avropada ən mükəmməl zibilin təkrar emalı sistemi və çirkli küçələr. Ailə kultu və son dərəcə aşağı doğum. Bu xalq üçün, demək olar ki, böyük həcmli və qısa xarakteristika vermək qeyri-mümkündür, birmənalı epitetlər italyanlara müncər olmur. İtalyan üçün xarakterin hər bir fərqləndirici cəhəti bütün zidiyyətliliyi ilə birlikdə uğurlu şəkildə bir araya sığır.

İtalyanların ekstravert hissləri onların ictimai əyləncələrdə – karnaval, tamaşa, yürüş və təntənəli nümayişlərdə iştirak etmələrini şərtləndirir. İstirahəti əyləncəli məkanlarda və ictimai yerlərdə etməyi tərcih edirlər. İtalyan həyat tamaşasının ən sevimli fəaliyyət yeri – küçə, kafe və bardır. İtalyan kafe və barlarının masaları teatrdakı sıralar kimi yerləşdirilir ki, ətrafda baş verənlərə sakitcə baxmaq mümkün olsun. İtalyan şəhərlərində şam yeməyindən öncə mərkəzi küçə boyu axşam gəzintisinə getmək adət edilmişdir. Küçə həyatının ənənələri yüzilliklər ərzində dəyişməz olaraq qalmışdır.

İtalyan mentalitetinin ayrılmaz tərkib hissəsi «*bədən fiqurunu (əndamını) saxlamağa*», yəni «*fors atmağa*» çalışmaqdır. Bu, həyatı daimi olaraq cəmiyyət qarşısında keçən xalqın xarici davranışının norma və prinsiplərinin xüsusi kodeksidir. Bu, italyanların ictimai həyatının bütün sferalarına aiddir. Hər şey bu həvəsə tabe etdirilmişdir. Hər kəs görməlidir ki, sən öz həyatının sahibisən və hər şey, o cümlədən pul da buna tabe etdirilməlidir. Buna misal kimi, «İtalyansayağı qarət» filmini göstərə bilərik, filmdə lazımi «fasonun» saxlanılması, mövcud qaydanın dəstəklənməsi üçün bankdan oğurlanmış pullar geri qaytarılır və bu, elə edilir ki, bankın sahibləri hətta xəbər belə tutmurlar. «*Yüksəkdə*» olmağa çalışmaq geyimə, cəmiyyət qarşısında rəftara da aiddir. Ətrafdakılara öz əminliyini, qətiyyətliliyini, zəifliyin və şübhələrin olmadığını göstərmək mühümdür.

İtalyan mentalitetinin xüsusiyyətləri dünya üzrə məşhur filmlərdə də ifadə olunmuşdur. «İtalyansayağı evlilik», «İtalyansayağı boşanma». Bu filmlərdə, ictimai şüur üçün başa düşülən «yüksəklik», «fasonun» qəhrəmanlara öz adi (bayağı) həyati məqsədlərinə nail olmağa necə imkan verdiyi haqqında danışılır. Pul yox, məhz şəxsi güc və qətiyyətlilik birinci yerdə durur. *Nə karyera, nə pul, öz-özlüyündə nə əmək, nə siyasət* italyanlar üçün zövq almaqdan daha vacib deyildir. Bu, həm yaxşı şərab, həm ləziz yemək, həm gözəl qadın, həm dostla ünsiyyət, həm də küçə və ya ailə bayramıdır. Məhz bu şeylər birinci dərəcəli əhəmiyyətə malikdir, onlar həyatın mahiyyətini təşkil edir və ona məna verirlər.

Zövqlərə italyanlar son dərəcə ciddi yanaşırlar. Məsələn, yemək – sadəcə olaraq qida, qastronomik nəfislikləri qəbul etmək, bolluq və rəngarəngik yox, həm də mühüm və olduqca məsuliyyətli prosesdir, bu prosesdə hər şey əhəmiyyətlidir: qayda-qanun, zaman, şərait, əhval-ruhiyyə. Nə yer, nə də qiymət bu halda əhəmiyyət kəsb etmir – hər kəs ümumi bir qayda üzrə yaşayır. *Sahib, ayinin baş tutması üçün hətta maliyyə itkilərinə belə getməyə hazırdır*. Yeganə istisna – turistlərin toplaşdığı yerlərdə açılmış və italyan rahatlığı və məmnunluğunun mahiyyətini başa düşməyən müəssisələrdir.

İtalyanlar mehribandırlar və asanlıqla dostlaşırlar. Əgər italyan sizi öz dostu hesab etsə, bu o deməkdir ki, siz bu ölkədə bütün problemlərinizi həll etdiniz. İtalyanlar insanpərvərdirlər və bu da onların dostluğu necə başa düşmələrində çox yaxşı təzahür edir. Bu, onlar üçün – müqəddəs işdir, dosta xəyanət isə, sadəcə olaraq, mümkünsüzdür. Pul və var-dövlət dostluq və həmçinin, birinci dərəcəli əhəmiyyət kəsb edən başqa dəyərlərin qarşısında geri çəkilir.

İtalyanların işgüzar danışıqlar və təmaslara münasibəti də diqqətəlayiqdir, onlar bu işlərə münasibətdə o qədər də punktual və mütəşəkkil deyillər. Problem onların pula, mənfəətə qarşı laqeyd olmalarındadırmı? Əlbəttə ki, yox. Kapitalist dünyasının əhəmiyyətliliyinə şübhə olmayan bu dəyərlərə qarşı italyanların mental əhval-ruhiyyəsi sanki öz yerdəyişməsini irəli sürür (*tərcüməçidən*: topla şahın yerinin dəyişdirilməsi). Xüsusilə, italyanlar işgüzar danışıqları qeyri-rəsmi şəraitdə həyata keçirməyə üstünlük verirlər. Əgər qazanılmış, əldə edilmiş pullar artıq qeyd edilmiş qayda və ayinlərə cavab versə, yaxşısı budur ki, bundan imtina edəsən. Həyat elə gözəldir və onda o qədər yaxşı şeylər var ki, doğrusu, onu bürokratik şərtlərlə, inzibati və başqa diskomfort prosedurlarla mürəkkəbləşdirməyə dəyməz. Buna görə də *Qobsekin* italyan olmasını təsəvvür etmək çətindir. O, əmin-amanlığın, sevincin musiqinin və mahnının nə atmosferinə, nə də iqliminə uyğun gəlmir.

**İspanlar: ləyaqəti saxlamaq**

İspanların mentalitetində nəzakət, açıqlıq və sosial vəziyyətdən asılı olmayan şəxsi ləyaqət hissi dəqiq hiss olunur. Şəxsi həyatda və cəmiyyətdə davranış nə vaxtsa İspaniyada çiçəklənən cəngavərliyin nəticəsi olan müəyyən qədər təmtəraqlılığı, rəftarlardakı zərifliyi ilə fərqlənir. Bu əsnada, nəcib ispan hidalqosu (zadəganı) *Don Kixotu* xatırlamaq kifayətdir. İspan-

ların həyatın zahiri tərəfinə diqqət yetirmələri bununla bağlıdır. *İ.Kantın* fikrincə, ispan ciddidir və düzgündür. Onun qəlbi qürurludur (ən sadə kəndli belə istənilən müdirİyyətin qarşısında şəxsi ləyaqət hissinə malikdir) və gözəl hərəkətlərdənsə, möhtəşəm, böyük hərəkətlər etməyə meyillidir. Hətta şəxsi həyatda belə onun davranşında lovğalıq və hansısa təmtəraq müşahidə olunur. O, işləməyə bildiyi üçün fərx edir[33]. Sonuncu, alman üçün xüsusilə anlaşılmazdır.

İspanlar əsasən qonaqpərvərdirlər, asanlıqla tanış olurlar və sizi öz evlərinə dəvət edə bilərlər. Ancaq işgüzar partnyorları evə dəvət etməyə adət etməmişdirlər. Biznes – ev mühitinə daxil ediləsi həyati iş deyildir. *İspan üçün pul şəxsi ləyaqətdən daha az vaciblik kəsb edir*. Əcnəbi ilə yemək yeyən ispan heç vaxt əcnəbinin onun yerinə hesabı ödəməsinə imkan verməyəcəkdir; həm də ispan elə edəcəkdir ki, özü əcnəbinin hesabını da ödəyə bilsin. Hesabı təqdim etməyə və ya hesabın ödənilməsi üçün pulun bir qisminin tələb edilməsinə, əcnəbi ilə münasibətlərə son qoymağa, ispana məxsus olan nəzakət (ədəb) hissi imkan vermir.

İspanların psixi quruluşunda obyektlə şərtlənmiş duyğu üstünlük təşkil edir. Buna nümunə kimi, korridaya qarşı sevgi çıxış edir ki, bu da onunla izah olunur ki, *duyğu funksiyası* onları kütləvi yığıncaqları ziyarət etməyə, istirahət etməyə və yeni təəssüratlar (duyğular) qazanmağa vadar edir. Bununla bərabər, onlar müxtəlif xarakterli kütləvi hərəkatlarda asanlıqla iştirak edirlər. Ancaq almanlardan fərqli olaraq, onların iştirakı əlavə duyğuların əldə edilməsi ilə xarakterizə olunur ki, bu da sonradan hisslərdə öz izini buraxır. Eyni zamanda daxili psixoloji təzahürlər onlara qeyri-sağlam təsir bağışlayır və onlar bu təəssüratlardan qaçmağa, kooridalara gedərək fiestalar (şənliklər) təşkil etməyə, çalışırlar və s[34].

İspanlara İntibah dövründən başlayaraq macara və qızıl axtaranlar adı verilmişdir. Böyük coğrafi kəşflər, ilk növbədə Yeni Dünyanın kəşfi İspaniya ilə bağlıdır. Atsektlərin, inklərin qızıllarının ələ keçirilməsi tamahı onların dövlətlərinin dağılmasına, müstəmləkəyə çevrilməsinə və zorla xristianlaşdırılmasına gətirib çıxardı. Eyni zamanda onlar kobud və Amansız məmnunluq və var-dövlət axtaran xarakteristikası qazandılar. Bu, onların əbədi rəqibi olan ingilis-amerikan ədəbiyyatında formalaşmış, daha çox, şişirdilmiş bir xarakteristikadır. İspan qəsbkarı (istilaçısı) *Kortesin* adı ilə, amansızlıqla yanaşı, İspaniyanın böyüklüyü və qüdrətliliyi də bağlıdır. Ancaq hədsiz var-dövlətə can atma əks nəticəyə – mövcud böyüklük və

qüdrətin itirilməsinə gətirib çıxarmışdır. Bu, *D.Berkli* tərəfindən, dəyərin əmək nəzəriyyəsi mövqeyindən çıxış edərək təsdiqləmişdir. «Əgər insan əməyi sərvətin həqiqi mənbəyidirsə, onda buradan belə çıxmırmı ki, ağılla təşkil olunmuş dövlətə, hər şeydən əvvəl, bekarçılıq məneçilik törətməlidir? Məgər ölkə üçün sakinlərin zəhmətsevərliyini azaldan qızıl və gümüş məhvedici deyildirlərmi? Məgər İspaniya bunun nümunəsi kimi çıxış etmirmi?»[35]. Sayəsində İspaniya xəzinəsinin qızıl və gümüşlə dolduğu şücaət əks nəticə verdi, yəni böyüklük və qüdrətin itiritməsinə səbəb oldu.

İspanların mentalitetində formalaşmış xarici dünyaya ekspansiya, habelə şəxsi («cəngavər») ləyaqət hissi onları mövhumatlara (xurafata) meyilli etmişdir. Onlar nəinki həyatı mürəkkəbləşdirir, həm də iqtisadi inkişafa mane olurlar. Onlar, şəxsi qəribəliklər kimi çıxış edən, mentallığın dərinliklərinə gedib çıxan və pul problemlərinin həllinə maneçilik törədən müxtəlif psixoloji münasibətlər yaradırlar. *V.Botkin* yazırdı: «İspaniyada var-dövlət insanın ayağının altındadır – bircə onu əyilib götürmək lazımdır; lakin ispanlar hələ əyilməyi xoşlamırlar»[36]. Yəqin ki, bu, ispanın obrazını müəyyən etmişdir: onu xəsis cəngavər, tacir, iltimatçı kimi təsəvvür etmək çətindir. Əgər başqa ölkələrdə bekarçılıq nöqsan hesab edilirsə (*D.Berklinin* sualı bu haqdadır), İspaniyada o, belə hesab olunmur. *İspanlar deyirlər ki, insan heç bir şey etməmək üçün yaradılmışdır.*

Həyat tərzi, davranışları, xarakter, habelə iş qabiliyyətliliyini müəyyən etmiş iqlim xüsusiyyətlərini də nəzərə almaq lazımdır. İspan üçün yeni duyğular yaradan duyğular əldə etmək mühümdür. Onlar, rasional əmələgəlmə duyğusu kimi, irrasional təsadüf duyğularına da məruz qalırlar. Onların daimi motivi obyekti duymaqdan, hissi təəssüratlara malik olmaqdan ibarətdir[37]. Demək olar ki, onların yeni torpaqların kəşfindəki birinciliyi, hər şeylə yanaşı, həm də təəssüratlara can atma ilə də şərtlənir.

İşgüzar münasibətlərdə ispan üçün avtoritet heç bir rol oynamır. İspanlar danışıqların vəziyyətlərinə görə bərabər olan şəxslər arasında getməsinə xüsusi diqqət ayırırlar. Ümumiyyətlə, ispan cəmiyyətində münasibətlər güclərin balansı (tarazlığı) üzrə formalaşır, buna baxmayaraq, birinci yerdə şəxsi «Mən» durur. *Baltazar Qratsiani* yazırdı: «heç vaxt özünə hörməti itirmə və tək olduqda belə özünə qarşı ədəbsiz (nəzakətsiz) münasibət səviyyəsinə enmə. Qoy şəxsi təbiətinin bütövlüyü, sənin, istənilən xarici münasibətlərdən çox, əsas etibarilə, özün haqqındakı mühakimələrinin ciddiliyinə əsaslanan əxlaqi meyarın olsun… Özünə qarşı hörmətkar

(ixlaskar) qorxu ilə münasibət bəsləməyi öyrən və sənin xəyali müəllimə (rəhbərə) ehtiyacın qalmayacaqdır…»[38]. İspanlar ömürləri boyu konkret obyekt üzərində real müşahidələri toplayırlar və bu, nə qədər parlaq ifadə olunursa, onlar öz təcrübələrindən bir o qədər az istifadə edirlər. Buna görə də ispan özünün adını (şöhrətini) saxlamaq planında öz duyğularının prioritetliyini hər cür vəchlə saxlayacaqdır. İspana göstərilən təzyiqin istənilən artırılması dərhal pozulmuş tarazlığın bərpa olunması reaksiyasına gətirib çıxaracaqdır.

İspan mentalitetinin xüsusiyyətlərini nəzərdən keçirərkən, görürük ki, ispan üçün pul təkcə maddi rifahın mənbəyi kimi yox, həm də onun müəyyən vəziyyətə və ya artıq mövcud vəziyyəti saxlamağa nail olma göstəricisi kimi çıxış edir. İspan başqa insana heç də həmişə etibar edə bilməz, lakin danışıqlar, kompromislər və diplomatik oyunlarla tənzimlənə bilər. Lakin ispan öz temperament və xarakterini göstərmək haqqını hər zaman özündə saxlayır.

**Skandinav xalqlarının pul mentaliteti**

Biznesin, istehsalın, maliyyə əməliyyatlarının həyata keçirilməsi üçün ən optimal mentalitet skandinavların mentalitetidir. Bütün skandinav xalqları qonaqpərvərliyi, başladıqları işi başa çatdırmaq üzrə inadkar qətiyyətliliklər, vicdanlığı, verdikləri sözə xilaf çıxmamaları, güclü inkişaf etmiş şəxsi ləyaqət və məsuliyyət hissləri ilə fərqlənirlər. Lakin onların arasında fərqlər də var. Məsələn, alman etnik qruplarının təsiri altında formalaşmış isveç milli xarakteri. *K.Q.Yunqun* tiologiyasına görə, skandiinavlar (almanlar kimi) *həssas introvertlərə* aiddirlər. Bu, onların xarakter və mentalitetinin ümumi cəhətlərinin olmasından xəbər verir.

Skandinavlar üçün pul heç zaman həyat məqsədi olmamış, sitayiş kultu kimi çıxış etməmişdir. Belə ki, dinc, mehriban və sülhsevər xalq olan norveçlər öz dəyər oriyentasiyalarını evə və ailəyə istiqamətləndirirlər. Norveçlilərin mentaliteti zərb-məsəllərə çevrilmiş düzlüklə, ədalətliliklə çulğalaşır. Bundan başqa, norveçlilər üçün doğruluq və safürəklilik də xarakterikdir. Onlar diribaş, inadcıldırlar, iradə gücünə və borcluluq hissinə malikdirlər. Buna görə də norveçlilərlə həyata keçirilən istənilən maliyyə məsələsi hər zaman qarşılıqlı faydalı nəticəyə malik olacaqdır. Əgər, əlbəttə ki, öhdəliklər partnyorlar tərəfindən pozulmazsa.

Norveçlilər pul işlərində dəqiqlik və aşlarlığı sevirlər. Formalaşmış həyat tərzinə görə onlar, zehni gərginlik və bununla bağlı təəssüratlar tələb edən bütün ciddi işlərdən uzaq olmağa çalışır və bütün həyat sferalarında təşkilatlılığa riayət edirlər. Buna görə də pul onlar üçün məqsəd olsa da, bu məqsəd elə həyatın qurulması üçün istifadə edilir ki, sonda bu, heç bir ekstremal situasiyanı gərginləşdirməsin.

Pul kultu, onun uğrunda yarışmaların mövcud olmaması onların milli xarakterinin xüsusiyyətlərini yaradır – məişətdə təvazökarlıq, dəbdəbənin inkar edilməsi, sərhesablıq və qənaətcillik hökm sürür. Hər bir ailə pul gəlirindən asılı olmayaraq qidaya qənaət edir. Az şeylə kifayətlənməyə meyil etmə ictimai münasibətlərdə də təzahür edir. Bu, həmçinin onunla da təsdiq olunur ki, hakimiyyət nümayəndələri heç bir imtiyazdan istifadə etmirlər. Cəmiyyətin mövcud psixoloji strukturu səbəbindən, mentalitet, vəzifəli şəxsə pərəstişi istisna edir. İşgüzarlığa həyatın həyata keçirilməsinin etibarlılığı bununla əlaqədardır.

İsveçlilər də zəhmətsevərdirlər. Onlar olduqca ehtiyatlıdırlar və adətən öz fikirlərini könülsüz ifadə edirlər. Onlar, haqlı olaraq, təmassız və qapalı hesab olunurlar, çünki öz emosiyalarını başqalarına göstərməkdən qorxurlar. İsveçlilərin kommunikativ xüsusiyyəti ondan ibarətdir ki, onlar əcnəbilərlə həmyerlilərinə nisbətən daha həvəslə təmasa girirlər. Buna görə də tez-tez norveçlilərdənsə, isevçlilərin biznes və pul işlərinə rast gəlmək mümkündür.

İsveçlilər, almanlar kimi, yüksək punktuallıqları ilə fərqlənirlər. Buna görə də pul onlar üçün dəqiq şəkildə təşkil olunmuş həyatın nəticəsi kimi çıxış edir. Onlar rasional və yaradıcıdırlar. Bəzən «isveç sosializmi» adlandırılan yüksək həyat səviyyəsi də bundan xəbər verir. İsveç cəmiyyətində tutulan mövqeyə uyğun olaraq ciddi intizam və subordinasiyaya riayət olunur.

İsveçlilərin təsərrüfatçılığı və işgüzar ruhu protestant etikasına əsaslanır (onlar da almanlar kimi, lüterandırlar). Onların «pul mentalitetini» *M. Veberə* görə öyrənmək olar: o, çalışqanlığa, səliqəliliyə, ciddiliyə, alicənablılığa, dəqiqliyə və etibarlılığa əsaslanır. İşgüzar əlaqələrdə hər şeyi əvvəlcədən planlaşdırmağı sevirlər. Buna görə də avantüralara meyilli deyillər, çünki hər şeyi hesablayır, ölçüb-biçir və planlaşdırırlar. Ümumiyyətlə, «kapitalizm ruhu» tərbiyəsi keçmiş bütün protestant Avropasında olduğu kimi, onlarda da təzahür edir.

## ŞƏRQİ AVROPA

### Ukrayna: arzudan reallığa

Ukrayna mentallığı haqqında son illər ərzində kifayət sayda müxtəlif tədqiqat işləri yazılmışdır. Onlarda, bütün mümükün qərb və qeyri-qərb «küləklərin» «kəsişməsində» yaranan Ukrayna milli şüurun formalaşmasının ziddiyyətliliyinin vurğulanması dominatlıq təşkil edir. «Humanizm kultu olan İntibah dövrünü keçən, elmin təsirinin güclənməsi ilə maariflənmənin təsirini duyan, antikliyin antinomikliyini və xristianlığın «müqəddəsliyini» (qüdsiyyətini) yeniləşdirən Ukrayna şüuru öz folklor əsaslarında, qeyri-müəyyən müəyyənlikdə, bütövlüyə can atmaqda, prinsipial olaraq bu bütövlüyə nail olmamaqda və ruhun antinomikliyini qazanaraq autentik olaraq qalmışdır»[39]. Bu ayrılıq, şəxsi tərzin, Ukrayna mentallığına çevrilmiş şəxsi yerin axtarışı üçün stimul kimi çıxış etmişdir.

Ukrayna mentallığının xarakterik cəhəti öz «Məninə» istinad etməkdir, yəni əsas iş həyatın fərdiləşdirilməsindən ibarətdir. Sonuncu ona hər yerdə xasdır, bunun üçün «Mənim işim deyil…» kimi səslənən xalq kəlamını yada salmaq kifayətdir. *A.Kulçitski* Ukrayna fərdiliyi haqqında yazır: «…Avropassientizminin rasional-əqli komponentinin zəifləməsinin nəticəsi kimi, personalizm, dünyada insan şəxsiyyətinin ekspansiyasına yox, daha çox «daxili» mühitə, şəxsi olanın, daxili həyatın intensivləşdirilməsinə müraciət etmişdir»[40]. Belə xarakteristikalar hər yerdə öz əksini pula və sərvətə münasibətdə də tapır.

Milli əxlaqda sərvətə qarşı ənənəvi mənfi münasibət dominantlıq təşkil edir. Belə mental istiqamətlilik Ukrayna xalqının yüzillər boyu polyaklar, tatarlar, türklər, ruslar, avstriya-macarlar və başqaları tərəfindən alçalmış olduğu tarixi inkişafın xüsusiyyətləri ilə bağlıdır. Ukrayna millətini kölə halına salan hər bir xarici qüvvə ikiqat alçalma yaradırdı. Buradan spesifik situasiya ortaya çıxmışdır – ukraynalı işləməli, işləməli və yenə də işləməli idi, amma onun mənfəəti həmişə kiminsə tərəfindən mənimsənilirdi (ya basqınlar zamanı, ya da «özgələşmiş» «özününkülər» tərəfindən). Mülki, pul münasibətləri öz mülkiyyətinin saxlanılmasına çalışmağa vadar edirdi, həmçinin bütün vasitələr işlənib hazırlanmış və artıq, «daxili», «qəlbi» olanın saxlanılmasına can atan milli şüurun dərinliklərində idi.

Ukrayna «kulakı», daha dəqiq desək, (kütləvi şüur təsəvvüründə) öz tamahkarlığı, hər şeyi, hətta təsərrüfat üçün heç də lazımlı olmayan şeyləri

yalnız «özü üçün» və «öz əlinə» yığmağa çalışan «qolçomağı» da belə yarandı. Məşhur «Samandan cöngə» nağılında sahib müxtəlif yırtıcı heyvanları xüsusi tələ, yemi samandan düzəldilmiş congənin sayəsində ovlayır və onların hamısını zirzəmidə gizlədirdi. Nağılda bütün bu yırtıcıların onun nəyinə lazım olduğu və nə üçün işlədiləcəyi haqqında danışılmır. Ancaq samandan cöngənin sahibi üçün bütün bunların gec-tez lazım olacağı heç də şübhə doğurmur. Bu xüsusiyyət, yəni ehtiyatlılıq rus mentaliteti üçün də səciyyəvidir, amma bu qədər parlaq ifadə olunmur. *İ.Karpenkonun* «Karaə Katılka» pyesinin, qarşısına mümkün qədər çox var-dövlət, yəni torpaq əldə etmək məqsədini qoyan qəhrəmanı belə xəyal edir: «Bir gün gedirsən – kimin torpağıdır? Katılkanın! İkinci gün gedirsən – kimin torpağıdır? Katılkanın!» və s.

«Ukraynalı xəsis» obrazı öz opponentlərində torpaqsız kəndlilərdə böhran situasiyalarında inqilabi dəyişikliklərin motivi və bəhanəsi kimi çıxış edən müəyyən mənfi münasibət yaratmışdır. Bu, 1917-ci il inqilabına da aidddir, çünki tarixi keçmişdə Ukraynada belə etirazlar əsasən milli-azadlıq xarakteri daşıyırdır. Bununla belə, Ukrayna mədəni ənənəsində həddən artıq tamahkarlığın xoş qarşılanmaması xətti izlənir və təsərrüfat-pul münasibətlərinin ədalətli şəkildə qurulmasına ümid müşahidə olunur.

Bu psixoloji və mental əhval-ruhiyyə bütün əvvəlki ictimai-nəzəri düşüncələrlə formalaşmışdır. Kiyev Rusiyası dövrünün maarifçisi *Daniil Zatoçnik* insan ləyaqətini alçaldan yoxsulluğa qarşı çıxaraq, knyazları və hakimiyyətdə olanları «bütün isanlara, yetim və dullara, əyanlar tərəfindən sıxışdırılan hər kəsə qarşı mərhəmətlə yanaşmağa» çağırır. «...Nə qızıl, nə də gümüş saxlamayın, insanlara paylayın», «müdrik insanı çörəkdən məhrum etməyin, ağılsız varlını buludlara ucaltmayın»[41]. XVI-XVII əsrlərin kəndli-kazak üsyanı dövrünün publisist-polemikaçısı *İvan Vişenski* polşa-katolik reaksiyasının, uniatlığın, təhkimçiliyin, varlı və maqnatların günahlarının kəskin tənqidçisi kimi çıxış edir, sosial bərabərlik ideyalarını müdafiə etmiş, əyanların, şlyaxtanın (xırda zadəganların) var-dövləti və dəbdəbəsini mühakimə etmiş və bunların təhkimçilərin «əməyi və təri» ilə yaradılmış nemətlərin mənimsənilməsi ilə qazanıldığını qeyd etmişdi.

Rasional-mücərrəd olanın bədii düşüncəsində birləşən xristianlıq, mifologiya, fəlsəfə və folkloru sintez edən dərin bilikli Ukrayna mütəfəkkiri *Q.Skovorodanın* yaradıcılığı özündə fəlsəfi sistemi əks etdirir. Bununla yanaşı, bu sistemdə əsas sual belə səslənir: «Həqiqi insan nədir?». Və bura-

dan belə bir problem çıxır: «Layiqli həyatı necə yaşamaq lazımdır?». Burada, *Q.Skovoroda* tamahkarlıq, zənginlik, qızıl, təmtəraq (ehtişam), hədsiz tərifə (mədhiyyəyə) qarşı çıxış edir. O, təmiz vicdanın itirilməsinin, qızıla və sərvətə həvəsin xoşbəxtlik gətirmədiyini təkrarən qeyd edir. Sərvət və pul mənasız və etibarsızdır. Sərvətə can atma əsl xoşbəxtlik gətirmədən insan tərəfindən daxili azadlığın itirilməsinə səbəb olan xüsusiyyətlər və əziyyətlərlə bağlıdır.

Şüurda mənfi obrazların obyektivləşdirilməsinin təfsilatına varmayaraq deyək ki, milli mentalitet şəxsi tamlıq haqqında təsəvvürlər kompleksi kimi, əsas həyati mahiyyət kəsb edən dəyərləri fiksə edir. Əlbəttə, insanda mənəviyyatın prioritetliyini iddia edən *Q.Skovoroda* pula və sərvətə, özünün *ekzistensional həyat mövqeyi («fəaliyyətsiz fəaliyyət»)* səbəbindən əhəmiyyət verməmişdir. Lakin milli mentalitetdə ədalətsiz, yəni insan əməyi vasitəsilə qazanılmamış pul və sərvətin mənəvi cəhətdən qəbul olunmaması fiksə olunmuşdur.

Əmək-dəyər nəzəriyyəsinin İngiltərədə yaranmasına baxmayaraq, o, Ukraynada da məşhur və aktualdır. Əmək adamı hörmətə layiq olan əsas fiqurdur. Müftə pullar xeyirliyə yox, daha pis nəticəyə – əsas var-dövlət olan ürək üzərində mərkəzləşən insaniyyətin itirilməsinə səbəb olur. *N.V.Qoqolun* povestinin, öz qəlbini şeytana – *Basavryuka* iki kisə qızıla SAtan qəhrəmanı *Petro* hətta sevdiyi qızla evlənsə də, yenə də əmin-amanlıq və xoşbəxtlik tapa bilmir. «Pidorka və Petrus pan və paneya kimi yaşamağa başladılar. Hər şey bol idi, hər şey parlayırdı...Ancaq xeyirxah insanlar onların həyatına baxıb başlarını yırğaladılar». Hamı bir səslə dedi: «Şeytandan xeyir gəlməz». «Provoslav insanını yoldan çıxaran şeytandan başqa, bu qədər pulu haradan qazanmaq olar?»... Heç bir ay belə keçməmişdi ki, Petrusu artıq heç kəs tanıya bilmirdi. O, bir yerdə oturmuş, heç kəslə danışmırdı. Elə hey fikirləşir və sanki nəyisə xatırlamağa çalışırdı...Və getdikcə onun vəziyyəti daha da ağırlaşdı. Zəncirlənmiş kimi komanın ortasında oturmuş və ayaqlarını kisələrin içinə salmışdı. Vəhşiləşmiş, saçları uzanmışdı, qorxunc şəklə düşmüşdü»[43]. Nəticədə, hər şey faciəvi şəkildə – ölümlə, ağılsızlıqla, yoxsulluğa və bədbəxtliklə bitir.

Belə nəsihətlər pula və sərvətə qarşı münasibətin formalaşmasında müəyyənedici olmuşdur. Müxtəlif növ tamahlara baxmayaraq, Ukrayna mentaliteti nəsihət verir ki, pulu ədalətli şəkildə, əməklə qazanmaq lazımdır və yalnız bu halda o, rifah, xoşbəxtlik və dinc həyat yaradacaqdır. Fırıl-

daqçılıq, aldatma, şarlatanlıq xeyirliyə gətirib çıxarmayacaqdır. Nümunə kimi, *M.Staritskinin* məşhur «İki dovşan arxasınca» əsərindəki Qoloxvastovun kədərli tarixi çıxış edir.

Bütün Ukrayna ədəbiyyatı aldatma və ədalətsizliyə əks münasibəti təbliğ edir. XX əsrin başlanğıcında təbliğ olunan, ədalətli əmək cəmiyyətinin qurulacağını vəd edən sosializm ideyasını bununla izah etmək olar. Çünki əsrlər ərzində «sağ qalmağa» çalışmaq aldanış və yalanın gücünə qarşı inam yaratmışdı. Əlbəttə ki, bu, ilk növbədə, *kasıblıq və qanunsuzluqla* izah olunur. Sonuncu, ola bilsin ki, hər şeyi əhatə edən və tayı-bərabəri olmayan korrupsiyanın nəticəsidir. Ola bilsin ki, onun yayılması, hər şeylə yanaşı, fərdiləşmə, özlülük və özünə varma ilə, amma, nə qədər qəribə səslənsə də, həm də özünü ifadə etməyə səy göstərməklə izah olunur. Çünki çıxılmaz situasiyada, öz maraqlarına xilaf çıxmamaqdansa, problemi, hətta qanunsuz və qeyri-əxlaqi olsa belə, pulla həll etmək daha asandır. Pul – mümkün olan işdir, mövcudiyyətin mahiyyətini müəyyən edən həyati məqsəd, arzu isə bütün sərvətlərdən ucadır. Ukraynalının əsrlər boyu yaşadığı qaydasız vəziyyətdə əhalinin bir qismi üçün belə bir əqidə formalaşmışdır: «*Pul heç nədir, məqsəd – hər şeydir*». Qanunsuzluqdan yaxa qurtarmaq, müstəqil olmaq imkanına nail olmaq – məgər bu, pula dəymirmi, hətta əgər o, azdırsa və ya ümumiyyətlə, pul yoxdursa?

Bu aspekt Ukrayna xarakterini aşkar edən, öz xeyirini heç kəslə bölüşməyən varlı, insanı formalaşdıran bir çox aspektlərdən biridir. Bundan başqa, ukraynalıya hiyləgərlik, bir sıra hallarda başqasının hesabına uğura nail olmaq arzusu da xasdır. Bu heç vaxt qəbul olunmamışdır, bu gün – xüsusilə. Xarici işgüzar dairələrdə belə hesab edirlər ki, biznesdə Ukrayna davranış tərzi qeyri-mütləqliyi və qeyri-dəqiqliyi, verilmiş sözü tutmaq vərdişinin olmaması, «varlı əcnəbilərdən» daima nə isə yalvarıb almağa can atmaqla fərqlənir.

Belə mövqe heç vaxt gözəllik vermir, xüsusilə, hər bir «qəpiyini» sayan avropalının özü də xoş qarşılanmır, yaddaşda və şüurda etibarsızlıq hissi saxlayır və ilk görüşdən onları «qaydalara uyğun» olmayanların «siyahısına salmağa» vadar edir. Buna görə də inkişaf etmiş Qərb dünyası ilə əlaqələr qurmağa çalışan və orada hansı oyun qaydalarının qüvvədə olduğu barəsində təsəvvürü belə olmayan və öz mentalitetinə istinad edən milli sahibkarlar «heç nəyin» uğurlu olacağına ümid bəsləyirlər.

İşgüzar birliklərin yaradılmasının, danışıqlar aparılmasının və müxtəlif növ layihələrdə iştirak etməyin müasir Ukrayna tərzi ehtiyatlılığı və risksiz olmağa meyililiyi ilə fərqlənir. Əgər həllin daha çox və ya daha az riskli variantları arasında seçim mövcud olsa, yəqin ki, ikinci variant seçiləcəkdir. Riskdən qorxmaq təşəbbüskarlığın məhdudlaşmasına gətirib çıxarır. Buna görə də, ən azından, yaxın vaxtlara qədər, danışıqların Ukrayna iştirakçıları öz həlli yollarını irəli sürməkdənsə, partnyorun irəli sürdüyü təkliflərə reaksiya verirdilər. Bu ehtiyatlılıq işgüzar fəaliyyəti tormozlayır. Lakin dünyagörüşün genişlənməsi, «qolçomaq-xutoryan» psixologiyasından liberiallaşma dəyərlərinə keçidlə əlaqədar olaraq situasiya da dəyişəcəkdir. Amma pul ukraynalı üçün həmişə bölünməsinə yol verilməyən dəyər olaraq qalacaqdır. Ukrayna ərazisində bu günə qədər də tapılan qızıl, gümüş və b. qəpiklərlə dolu xəzinələrin mövcud olması da bundan xəbər verir.

**Rusiya: strategiya və layihələrin «kosmizmi»**

Rusiya xalıqlarının mentaliteti təkcə əcnəbiləri yox, həmyerliləri də təəccübləndirmişdir. «Rus qəlbinin» sirrini *A.S.Puşkin, A.S.Xomyakov, N.Y.Danilevski, V.S.Soloyev, P.A.Sorokin, S.N.Bulqakov, Q.P.Fedotov, N.O.Losski* və bir çox başqa tədqiqatçılar başa düşməyə çalışmışlar. Bu maraq kifayət qədər qanunauyğundur, çünki milli xarakterin xüsusiyyətlərinin başa düşülməsi cəmiyyətin inkişaf tendensiyalarını ekstropolyasiya etməyə imkan verir. Rusiyanın sonsuz geniş ərazisindəki böyük sərvəti həmişə böyük maraq oyadır. O, daimidir, çünki hər şeylə maraqlanan əcnəbilərin hər bir yeni nəsli üçün rus mentaliteti anlaşılmaz olaraq qalır. Baxmayaraq ki, bu mentalitet haqqında çoxsaylı tədqiqat işləri yazılmış, *Dostoyevski* və *Tolstoyun* yaradıcılığı hərtərəfli öyrənilmişdir.

Bütün xarici sosial amillərin təsir göstərdiyi rusların təbii temperamentini psixoloqlar *epitim tipə* aid edirlər. Bu tipin ən səciyyəvi xüsusiyyətlərindən biri hakimiyyət və xarici dünyaya təsiri daimi olaraq genişləndirmə üzrə güclü həvəsdir. Buna görə də bu ruslar üçün əhval-ruhiyyənin dərin apatiyadan və tənbəllik, inadcıllıq və ətalətlilikdən, qeyri adi enerji gücünün və qarşısında heç bir şeyin dayana bilməyəcəyi azğın ehtirasın təzahürü xarakterikdir. Bu tərəddüdlər çox vaxt xarici şəraitlərdən çox, orqanizmdə gedən daxili proseslərlə bağlı olur. Epitimlərin başqa bir keyfiyyəti təfəkkürün özlülüyü və mükəmməllik, detalların diqqətlə işlən-

məsinə, əsaslılıq və özünün bütün fəaliyyətini təlimatlara və ya xüsusi plana tabe etdirilməsinə çalışmaqdır. Buna görə də onları anadangəlmə bürokratlar hesab etmək olar. Dərin kök salmış rus büorokratizmi hamıya məlumdur. Sosial sistemlər, dövlətlər, dövrlər, nəsillər dəyişir, amma bürokratizm rus məmurunun öz «haqlılığında» sarsılmazlıq obrazı kimi mövcud olmuş və bu cür olaraq da qalmaqdadır.

Onlar qıcıqlandıqda və qəzəbləndikdə, qarşısıalınmaz və hətta Amansız olurlar. Bu təbii cəhətlər toplanaraq mədəniyyətdə də özünü göstərir. Davranış tərzi və təfəkkür xüsusiyyəti rus mentalitetinin mühüm cəhətlərindəndir. Bununla əlaqədar olaraq, provoslav kilsəsinin çoxəsrlik təsirini də qeyd etmək lazımdır. Zaman keçdikcə, ruslarda dərin dindarlıq, ali mənəvi dəyərlərə can atma, çətin həyat şəraitlərində qeyri-adi dözüm, vicdanlılıq, xeyirxahlıq, yaxına qarşı mərhəmət formalaşdırmışdır. Lakin bu yüksək mənəvi keyfiyyətlər kafirlik, qəddarlıq və başqa nöqsanlarla birlikdə də mövcud ola bilər (xüsusilə, əgər insan lazımi təhsildən və xristian mədəniyyətindən uzaqdırsa).

Bütün ömrü boyu rus xarakterini öyrənən filosof *N.O.Losski* rus xalqının ziddiyyətliliyinə xüsusi diqqət ayırır. Rus xarakterində, mənəvi təcrübənin yüksək formalarına qabiliyyətlə yanaşı, ehtiraslı iradə gücü və tənbəllik («oblomovçuluq»), həyatın yüksək dəyərlərinin axtarışı və anarxiyaya meyillilik; təbii xeyirxahlıq və mənasız amansızlıq, messiançılıq və intizamsızlıq da mövcuddur. İngilis tədqiqatçısı *M.Berinqin* dediyi kimi, rus xarakterində *Böyük Pyotrun*, knyaz *Mışkinin* və *Xlestakovun* cəhətləri birləşir. Bu, təbii, bütpərəst, dionik və ziddiyyətli xüsusiyyətlər (despotizm, dövlətin hipertrafiyası və anarxiya, saymazlıq, qəddarlıq və xeyirxahlıq, fərdiçilik və şəxssiz kollektivizm, millilik və universallıq, insanilik, ALLAHı axtarmaq və mübariz allahsızlıq, təvazökarlıq, köləliyi yaratmış provoslavlığın asketik zahidliyindən yaranan ziddiyyətlilik haqqında *N.A.Berdayev* yazır: «Əgər Qərb xalqları, nəhayət ki, Rusiyanın təbii simasını görməyə və onun təyinatını qəbul etməyə məcbur qalsalar, bizim özümüzün Rusiyanın nə olduğunu və onun təyinatının nədən ibarət olduğunu dərk edib-etmədiyimiz yenə də qeyri-müəyyən olaraq qalacaqdır. Bizim üçün Rusiya açılmamış sirr kimidir. Rusiya ziddiyyətlidir, antinomikdir. Rusiya qəlbi heç bir doktrina ilə əhatə oluna bilmir…Rusiya qəlbində gizlənmiş sirrin açılmasına yalnız Rusiyanın antinomikliyini, onun dəhşətli dərəcədə ziddiyyətliliyini qəbul edərək yaxınlaşmaq olar»[44]. Bütün bunlara görə rus

xalqı hər zaman gözlənilməzdir və ona görə də yüksək dərəcədə özünə qarşı «güclü sevgi və güclü nifrəti» təlqin edə bilər.

İstənilən xalqın mentaliteti onun kollektiv şüursuzluğu ilə əlaqədardır ki, bu da *K.Q.Yunqun* göstərdiyi kimi, tipik yuxugörmələr, nağıllar, miflər, əfsanələr və dini inancların tərkibində aşkar oluna bilər. Rus xalqlarının nağıllarının təhlili göstərir ki, onlarda aldatma və qəddarlıq, hiyləgərlik və tənbəllik, başqasının hesabına yaşamağa həvəs vardır. İstedadsız a*xmaq İvanuşka* haqqındakı bir çox nağıllarda xoşbəxtlik ona gözəl at və ya sonradan *Gözəl Vasilisaya* çevrilən qurbağa və ya *Qarbunka atı* və s. şəklində gəlir. Bu xoşbəxtlik ona ciddi əməyə görə mükafat kimi yox, ya «elə-belə», ya da kiçik bir xidmətə görə, məsələn, tutulmuş durnabalığının buraxılması müqabilində verilir. Uğura nail olmaq arzusu və xüsusən əziyyət çəkmədən xoşbəxt olmağın son həddinin təsviri kimi, heç bir şey etməyərək, arxası üzərində uzanaraq, xrestomanik-xalq deyimində «Öz-özünə, mənim istəyimlə ...» deyərək hər şeyə sahib olan Emelya haqqında məhşur rus nağlı çıxış edə bilər. Bu arzu, yəni zəhmət çəkmədən varlanmaq arzusu mentalitetdə həmişəlik qalmışdır. Ticarət yollarında işləyən quldur dəstələri (o cümlədən, ən məşhur «varyaqadan yunana») macara yox, pul və sərvət axtaranlardan ibarət idilər.

Yazıçı *N.Leskov* milli xarakterin aşağıdakı xüsusiyyətini qeyd edir: xüsusi olaraq zəhmət çəkmədən, necəsə qəflətən, sehirli simurq quşunun quyruğundan tutaraq varlanmaq arzusu. Heç kim öz öhdəliklərinin düzgün yerinə yetirilməsinə, əməyə, çalışqanlığa yox, ilk növbədə, uğura və bəxtə ümid edir. Ümumi rus gözləməsi, arzusu, «kiselli sahilləri olan süd çayları» haqqında xəyal, «xeyirxah şaha», gələcək və hər şeyə hökm verəcək «ağaya» ümid etmək bununla əlaqədar deyilmi? Ola bilsin ki, elə buna görə də Rusiyada formalaşan kommunist şahlığı uzun müddət asanlıqla yaşaya bilmişdi, çünki ruslar mental olaraq «müftəxorluğa» meyillidirlər.

Rus nağıllarını özündə protestant etikasını daşıyan qərb nağılları, Qrim qardaşlarının və Andersonun nağılları ilə müqayisə edərkən görürük ki, sonuncularda uğura təsadüfi yolla yox, inadcıl əmək və peşəkar ustalıqla nail olunması vurğulanır. Fatma şahzadəyə yalnız ona görə çevrilir ki, o, həmişə və daimi olaraq işləmiş və bütün işlərdə məharətli olmuşdur. Qazanılmış xoşbəxtlik ifadəsi buradan əmələ gəlmişdir. Bundan başqa, şahzadəyə bacarıqlı arvad və ya bizim bu gün dediyimiz kimi, peşəkar lazımdır.

Tarixçi *N.Karamzin* rus milli xarakterinin belə xüsusiyyətinin səbəblərindən birini monqol-tatar hücumunda görür. O zamanlar xalq, qürurunu itirərək zəiflərin gücünü əvəz edən alçaq hiyləgərliklərə öyrəşmişdi; tatarı aldadaraq onlar özlərini aldadırdılar; işğalçıların zülmündən pulla xilas olaraq, onlar daha çox tamahkar, incikliklərə və abıra qarşı daha hissiz olurdular. «Ürəklərə hakim olan» alçalma, qorxu, nifrət hissi əxlaqdakı «qaranlıq sərtliyə» gətirib çıxardı. Xalqın xüsusiyyəti hər zaman şəraitlərlə izah olunur, ancaq hərkətlər səbəblərdən daha uzunmüddətli olurlar: nəvələr, başqa şəraitlərdə yaşasalar da müəyyən xeyirxahlığa və öz babalarının günahlarına malikdirlər.

Rus Çarın praqmatizminə və onun pula olan sevgisinə etiraz etmək olmaz. Ancaq onu heç də hər zaman, sözün Qərbi Avropa mənasında rasional adlandırmaq olmaz. *M.Berinqin* XX əsrin həyata keçirdiyi səciyyələndirməyə görə Rusiyada həyat üzrə xərclər böyük və təklif edilən məhsulların keyfiyyətinə qarşı qeyri-mütənasibdirlər; iş – bahalı, pis və çox ləngdir, kasıblar – geridə qalmış və cahildirlər, orta sinif – qayğısız və həddən artıq pintidirlər, tərəqqi qəsdən yubadılır və bütün mümkün Manelərlə onun qarşısı alınmağa çalışılır, təsadüflərlə idarə edilən Rusiya bütün müdriyyət formaları özbaşına, etibarsız və astagəl olan ölkədir, işgüzar həyatın bütün formaları iridir və rəsmi süründürməçiliklərlə yüklənmişdirlər. Rüşvət işgüzar və inzibati həyatda zəruri üsuldur, bir sözlə, ölkə çox tənbəl, rüşvətxor və səriştəsiz olan çoxsaylı məmurlar tərəfindən əziyyətə salınmışdır. Ruslar üçün hər şeyə məzəmmət etmək, tənqid etmək, amma heç vaxt fəaliyyət göstərməmək, hər zaman bütün fərdi orijinallığa və fərqliliyə şübhə ilə baxmaq xasdır. Ruslar Şərqin bütün çatışmazlıqlarlarına malikdirlər, amma onun heç bir xeyirxahlığına, ləyaqətinə və daxili nizam-intizamına malik deyildirlər. Yəqin ki, məhz buna görə Rusiyadakı islahatlar həmişə belə əzabla keçmişdir. İstənilən xeyirxah balanğıclar, əgər yeni formada fəaliyyət göstərmək, təfəkkürün adəti üsulunu dəyişmək, fəaliyyəti başqalaşdırmaq və s. lazım olurdusa, bu, hər zaman qarşıdurmalara (etirazlara), müqavimətlərə, boyun qaçırmalara rast gəlmişdir.

Əslində, islahatçıların özləri bunu başa düşürdülər. Ona görə də, *I Pyotr, Lenin və Stalin* kimi onlar da şüurlu olaraq sərt və amansız tədbirlər görürdülər. Emiqrasiyada yaşayan inqilabçılar başa düşürlər ki, işləmək, düşünmək, dəqiq, toplanmış, qanuna tabe olmaq və s. bacarığını Qərbdən öyrənmək lazımdır. Amerikada yaşamış və ölkəni tanıyan

inqilabçı *N.K.Sudzilovski* hesab edirdi ki, oraya təkcə siyasi və sosial məsələləri həll etməyi öyrənmək üçün yox, həm də «rus qəlbinin» zərərlərindən: özünə inamsızlıqdan, özbaşnalıqdan, anlamazlıqdan, səhlənkarlıqdan və nəzəriyyəçilikdən müalicə olunmaq üçün getmək lazımdır. Rus həyatının bütün pislik və qeyri-mükəmməllikləri milli xarakterin və kütləvi şüurun çatışmazlıqlarında, ya da bəzən Qərb məqsədəuyğunluğundan çox uzaq olan mental münasibətlərin spesifikliyində gizlənir.

Bir çox iş və fəaliyyətlərdə milli mentalitetin qəribəliyini şərtləndirən «rus qəlbinin» dominantlıq etməsi provaslav ənənəsi, rus şüurunun «*axirət dünyasına*», mənəvi sahəyə, ideal olanın hakimiyyətdə olduğu yerə istiqamətliliyi ilə izah olunur. Bu, katoliklik və protestantlıqdan köklü şəkildə fərqlənir. *Zatoçnik* isə belə öyrədirdi: «İş – insan həyatında əsas şey deyildir. Əsas məsələ – Tanrıya istiqamətlənmiş ürəyin əhvalıdır». Filosof *L.Karsovinin* fikrincə, rus adamı mütləq idealsız mövcud ola bilməz və bunun üçün o, malik olduğu hər şeyi qurban verə bilər. Əgər ona mütləq olanın mövcud olmadığı və ya onun qeyri-mümkünlüyü, hətta yalnız uzaqlığı sübut edilsə, o, dərhal bütün yaşamaq və fəaliyyət göstərmək həvəsini itirəcəkdir ki, bu da «heyvanlıq və ya hər şeyə qarşı mifoloji laqeydlik doğuracaqdır».

Belə nəsihətlərdə Avropa düşüncə tərzinə adekvat olan pulun həyat dəyəri kimi formalaşması mümkün deyil. Çünki, son nəticədə, Tanrıdan yaranan mənəvi tələbatın ifadəsi kimi, vicdanın hakimiyyətinə «*mənəvi*» inam, ümumi olaraq, özündə xarici və hüquqi məcburiyyət əks etdirən qanunun hakimiyyətinə qarşı etinasızlığa səbəb olmuşdur. Rus təfəkkür ənənəsinin hüquqi normalarının düzgün başa düşülməməsi hüquqi dövlətin yaranmasına da maneə olmuşdur, Oktyabr inqilabından sonra isə o, «inqilabi məqsədəuyğunluğun» qanuna mistik şəkildə tabe olmasını dəstəkləyirdi[45]. Belə intellektual tendensiya cəmiyyətin təkmilləşməsinə, onun Avropa rasionallığına uyğunluq yoluna istiqamətlənməsinə səbəb ola bilər.

Ancaq, rus insanını tamamilə Tanrıdan qorxan və ya müqəddəs hesab etmək lazım deyil. *N.A.Berdyaev* yazırdı: «Rus müqəddəsdir, yalnız o mənada ki, müqəddəslərə və ilahi olanlara əbədi olaraq hörmət edir, həyatın yüksək səviyyəsini yalnız müqəddəslikdə görür, Qərbdə isə yüksək səviyyəni idraka nail olma və ya ictimai ədalətdə görürlər»[46]. Ancaq, artıq qeyd edildiyi kimi, rus insanı heç də tamahsız deyildir. Müqəddəs olan şeylərə nə qədər hörmət etsə də o, puldan, o cümlədən onun böyük məbləğlərindən

qaçmır. Doğrusu, pul, Qərb insanında olduğu kimi, son dərəcə dəqiqliklə hesablanıb bölüşdürülmür və pula qarşı münasibət tamamilə başqa cürdür. *A.M.Qorkinin* qəhrəmanları – tacirlər və pul başçıları öz eyş-işrətlərində çoxlu miqdarda pulu əbəs yerə (protestat etikası nöqteyi-nəzərindən) xərcləyirdilər. Məsələn, ofisiantın sifətini xardalla batırmaq üçün min rubl xərcləmək kimi.

Öz vəziyyətinə baxmayaraq, rus adamı yenə də qəlb, müqəddəslərə və müqəddəs şeylərə sitayiş etmək haqqında düşünəcəkdir. *N.A.Berdyaev* yazır: «Rus xalqının qəlbi heç zaman var-dövlətə pərəstiş etməmişdir və inanıram ki, ürəyinin dərinliyində ona heç vaxt pərəstiş etməyəcəkdir»[47]. Lakin rus qəlbi aşağı vəziyyətlərə də düşə, alçala, ədalətsizliyə yol verə, çirkli yollara və işlərə baş vura bilər. Rus insanı pul qazanarkən və qarət edərkən maddi sərvətə yüksək dəyər kimi ehtiram göstərməyəcəkdir. O, ümidsiz dələduz və cani ola bilər, lakin qəlbinin dərinliyində o, müqəddəs şeylərə dərindən hörmət edir və müqəddəslər vasitəsilə özü üçün xilas axtarır. O, yırtıcı və qaniçən olsa da müqəddəs şeylər qarşısında səmimi qəlbdən baş əyə, səhralar boyu gəzə və obrazlar qarşısında şam yandıra bilər. Bu, riyakarlıq yox, əsrlər boyu tərbiyə edilmiş dualizm, varlı, zəngin olmaq arzusundan qurtarmayan xüsusi tərz, xüsusi yoldur.

Əksər insanlar üçün olduğu kimi, Ruslar üçün, həyatın uğuru yüksək sosial status, geniş ictimai dairələrdə məşhürluqdan xəbər verən maddi müstəqilliyə nail olmaqla bağlıdır. Sözsüz ki, pul, insanlar üçün şan və şöhrətə nail olmaq üçün səyləri artırmaq məqsəd, kimi çıxış etmiş və edəcəkdir. Bunun üçün xarakter – cəsarət, qətiyyətlilik, inadcıllıq, məqsədyönlülük, israrçılıq və zəhmətsevərlik lazımdır. Rus insanlarına bunlar yaddır, amma bu xüsusiyyətlər ilk növbədə mənəvi-rasional əsasa malik insanlara məxsus olur. Bu zaman yüksək məqsəd üçün bütün Avropa təsəvvürlərinə uyğun gələn və rus mənəviyyatının əhəmiyyətliliyindən xəbər verən böyük və layiqli olan şey yaradılır. Mənəvi cəhətdən inkişaf etmiş insan bütövlüyə o zaman çatır ki, xarici uğur daxili niyyətlə üst-üstə düşür, onun fəaliyyəti özünü aktuallaşdırmanın təbii tələbatlarına cavab verir və öz təbiətinin əksinə getmir.

Provoslav xristianlığına əsaslanan rus mənəvi ənənəsi həyati uğur anlayışını yerin bol maddi istehlak kimi fərəhlərindən çox, həyatı düzgünlüyə, saflığa, mərhəmətliyə, yaxınlarına qarşı həssaslığa əsaslanan yüksək əxlaqi prinsiplərə uyğun olaraq  yaşamaq imkanları ilə əlaqələndirir. Yəqin

ki, məhz bu, mənəvi-mədəni ənənədə sərvətin müsbət qarşılanmamasının və pulda köklü pisliyin görülməsinə meyilin səbəbidir. Vexlərdə tapırıq ki, «Rus ziyalıları var-dövləti sevmirlər. Ziyalılar sərvətin özünü yox, yalnız onun ədalətli şəkildə bölüşdürülməsini istəyirlər; o, (ziyalı) sərvətə nifrət edir və ondan qorxur»[48]. Yəqin ki, rus mentallığının daha bir cəhəti buradan çıxır – *mədəni köksüzlük, möhkəm sivilizasiya əlaqələrinin mövcud olmaması, özünü identifikasiya etmənin böhranı.* Bu, qanunauyğun olaraq təsərrüfat həyatının və bununla bərabər olaraq, pula və öz imkanları sayəsində ona sahib olan şəxslərə qarşı münasibət mədəniyyətinin təşkilinin bacarıqsızlığına səbəb olur.

Burada rus mentalitetinin daha bir xüsusiyyəti dəqiq şəkildə fərqlənir – öz maddi rifahını və layiqli həyatını qura bilmədiyi üçün günahkar axtarmaq. Bunun ümumi sosial quruluşsuzluq (təhkimçilik, kapitalın ilkin yığımı və s.) mövcud olduğu dövr bir məsələ, sosial dirçəliş dövrlərində öz əməyi sayəsində uğura nail olmaq istəyənlərin təqib olunduğu dövr isə başqa bir məsələdir. Bu, ona görə aydındır ki, rus insanında, kifayət qədər təhsil və əxlaqi maariflənmə əldə etməmiş və buna görə də doğma mədəni irsinin saflaşdırıcı mənbələrindən uzaq olan istənilən başqa xalq nümayəndəsinin xarakterində olduğu kimi, həddən artıq çox çatışmazlıqlar görmək olar. Onlar o qədər asanlıqla aradan qalxmır, çünki mədəni mifologiyaların arxetipləri müəyyənedici olaraq qalır.

Mənəvi ənənənin intellektual və fəlsəfi məhsuldarlığı millətin, xalqın sosial-iqtisadi uğurlarının təminatçısı kimi çıxış etmir. Tarix şahidlik edir ki, ideyaların zənginliyi, mənəvi dərinlik, intellektual kəskinlik sözsüz ola bilər, lakin onlar zamana uyğun gəlmirlərsə, onda bütün bu üstünlüklər tələb olunmayacaqdırlar. Elə həyat tələbləri var ki, onlar yalnızca mənəvi təvəkküllə həll olunmurlar. Bu, maddi rifahın və mədəni özükifayyətliliyin bərabərliyini nəzərdə tutan mədəniyyətin dəyərliliyidir, əks təqdirdə isə buna yerini orijinallıq üzrə istinadlar, mentalitetin unikallığı – meqolomaniya, utopik ehtiras, möcüzənin gözlənilməsi, öz-özünə vurulmaq, özünü qeyri-adekvat qiymətləndirmək, gücə istinad, formalaşma sindromu tutur. Bunlar, əhatə olunmuş düşmənlərdən müdafiəsizlik, əzabverici refleksiya, qorxular və digər tərəfdən – geriliyin təzahürü, inkişafdan qalma və özünü müdafiənin infantil üsullarıdır. *N.V.Qoqol* alovlu məhəbbət bəslədiyi Rusiyanı «tilsimli yer» adlandırmışdır, elə yer ki, buradan nə qədər çıxmaq istəsən də yenə olduğun yerdə qalırsan. Bu qeyri-müəyyənliyi, praktiki

olaraq, ümumi sivilizasiyalı inkişafdan imtina edən və mental nəsihətlərdə qarışıqlığa nail olan sovet dövrü daha da pisləşdirmişdi[49]. Kommunizm idealı Manilov xəyalları, əsassız fantaziyalarla, utopik ümidlərlə üst-üstə düşürdü və eyni zamanda inkişafdan qalmanın və yetkinliyə daxil olma qarşısında maneə əlaməti kimi çıxış edirdi. Məhz bu idealın təbliğatı yolu ilə xüsusi mülkiyyətin, pulun, şəxsiyyətin dəyərinin və s. başa düşülməsi preparat halına salınmışdı.

Mentalitet – sivilizasiyalı inkişafın magistral xətti ilə üst-üstə düşə bilən, onun qarşısına birbaşa və ya dolayı yolla bir sıra mənəələr qoya bilən gücdür. «Rus qəlbinin» üstünlüyünə ümid etmək bu gün artıq təsəlli vermir. *Q.P.Fedotov* milli mentaliteti xarakterizə edərkən qeyd edir ki, rus təbiətinin «genişliyi», özbaşnalığı və üsyankarlığı – ideya və ya sektant (təriqətçi) üsyankarlığı yox – formanın istənilən bitmişliyinə üzvi sevgisizlikdir. Moskva təhkimçilikdən çıxmış slavyanları sona qədər intizama sala bilmədi. O, kazaklığa, üsyanlara səbəb oldu, XIX əsrdə o, öz ifadəsini eyş-işrət və əyyaşlıqda, həyatın fantastik şəkildə puç edilməsində, səhlənkarlıqda və rus təbiətinin aktyorluğunda tapdı. Bir qaraçı mahnı və rəqsində rus qəlbinin bu tərəfi özünün ən adekvat ifadəsini tapmışdır. Rus əyyaşlığı ağır və qəmgin olur, lakin tez-tez o, şən, səxavətli və açıqürəkli olur. Avropaçılığı rus özbaşnalığı ilə əlaqələndirən *Puşkinin* ifadə etdiyi əyyaşlıq belədir. Bir çox istedadlı rus insanları öz təbiətinin qurbanı olmuşdur, lakin bu cəhət bu günə qədər də rus xarakterindən ayrılmazdır[50].

Gümrahlıq, şadlıq, əyyaşlıq, səxavətlilik – cəlbedici cəhətlərdir. Lakin yaddan çıxarmaq olmaz ki, bu cəhətlər rus insanını uzun müddət məmnun edə bilməz. O, hər zaman ciddi, faciəvi şəkildə bitir. Həm də özü öz vəziyyətinin faciəvi olduğunu başa düşür. Bu, məşhur rus mahnısında da səslənir: «Həm içəcəyik, həm gəzəcəyik, ölüm gələndə, öləcəyik!». Əgər şüurda itaətkarlıq, biliyin zəif inkişaf etməsi, azadlığa qarşı tələbatın olmaması, kollektivdə həyatın yüngüllüyünə adət etmə, «xidmətdə və çətində» əsas vərdiş kimi çıxış edirsə, nə etmək olar? Bəs pul? O, əksər hallarda, ya durna balığını tutmuş, ya oxu lazımi istiqamətə atmış, ya da simurq quşunun lələyini əldə etmiş adama çatır.

## ƏDƏBİYYAT

[1] *Пролеэв С.* Легитимация розуму и рационализация влади // Философсько-антропологични 2000. Эвропейський вектор та основни цинности украинскои гуманистки. – Истина. Правда. Жинтя. – К., 2000. – С. 109.
[2] *Франкл В.* Человек в поисках смысла жизни. – М., 1990. – С. 27.
[3] Тертый табак (фрнац.: рапер - тереть).
[4] *Гоголь Н.В.* Избранные произведения. – М., 1947. С.– 233.
[5] *Гегель Г.В.Ф.* Работы разных лет: В 2-х т. – М., 1971. – Т. 2. – С. 314.
[6] *Гульга А.В.*Кант. – М., 1977. – С.67.
[7] *Юнг К. Г.* Аналитическая психология. – М., 1995. – С. 182.
[8] *Гульга А.В.*Кант. – М., 1977. – С.68.
[9] *Волков Г.Н.* Сова Минервы. – М., 1973. – С. 73.
[10] *Овчинников В.В.* Ветка сакуры. Корни дуба. Горяция пепел: Повести. – М., 1987. С. 222.
[11] *Баронин А.С.* Этническая психология. – С. 200.
[12] *Гульга А.В.*Кант. – М., 1977. – С.67.
[13] *Овчинников В.В.* Ветка сакуры. Корни дуба. Горяция пепел: Повести. – М., 1987. С. 232.
[14] Yenə orada. – S. 315.
[15] *Лебон Г.* Психология толп. – М., 1998. – С. 1998.
[16] *Овчинников В.В.* Ветка сакуры. Корни дуба. Горяция пепел: Повести. – М., 1987. С. 223.
[17] Yenə orada. – S. 454.
[18] Yenə orada. – S. 462.
[19] *Баронин А.С.* Этническая психология. – С. 203.
[20] *Овчинников В.В.* Ветка сакуры. Корни дуба. Горяция пепел: Повести. – М., 1987. С. 223.
[21] Yenə orada. – S. 338.
[22] История в энциклопедии Дидро инэилис Д Алаббера. – Л., 1978. – С. 182.
[23] *Гердер И.Г.* Идеи к философии человечества. – М., 1977. – С. 588.
[24] *Баронин А.С.* Этническая психология. – С. 176.
[25] *Гульга А.В.*Кант. – М., 1977. – С.67.
[26] *Дидро Д.* Сочинения: В 2-х т. – М., 1991. – Т.2. – С. 375.
[27] Yenə orada. – S. 475.

[28] *Тарле Е.В.*напалеон. – Мн., 1992. – С. 393.

[29] *Гердер И.Г.* Идеи к философии человечества. – М., 1977. – С. 589.

[30] *Баронин А.С.* Этническая психология. – С. 179.

[31] Yenə orada. – S. 180.

[32] Yenə orada. – S. 172.

[33] *Гульга А.В.*Кант. – М., 1977. – С.67.

[34] *Баронин А.С.* Этническая психология. – С. 182.

[35] *Беркли Дж.* Сочинения. – М., 2000. – С. 182.

[36] *Боткин А.С.* Этническая психология. - С. 184.

[37] *Баронин А.С.* Этническая психология. – С. 184.

[38] *Грин Р.* 48 законов власти. – М., 2004. – С. 500.

[39] Етносциальни трансформации в Украини. – К., 2003. – С. 122.

[40] *Миочук И.* Свитогляд украинскького нроду. Спроба характеристики // Генеза. – 1995. №2.

[41] Украинська економична думка: Хрестоматия. – К.: Знания, 1998. – С. 20-22

[42] *Сковорода Г.С.* Вирши. Писни. Бацки. Диалоги. Трактати. Притчи. Прозови перклади. Листи. – К., 1983. – С. 17.

[43] *Гоголь Н.В.* Избранные произведения. – М., 1947. – 25.

[44] *Бердяев Н.А.* Судьба Росии. – М., Харьков, 1998. – С. 273.

[45] *Гарин И.И.* Что такое философия?; Запад инэилис Восток; Что таое истина? – М., 2001. - С. 619.

[46] *Бердяев Н.А.* Судьба Росии. – М., Харьков, 1998. – С. 336.

[47] Yenə orada. – S. 336-337.

[48] *Гарин И.И.* Что такое философия?; Запад инэилис Восток; Что таое истина? – М., 2001. - С. 607.

[49] Yenə orada. – S. 640.

[50] *Федотов Г.П.* Трагедия интеллегенции // О Росии инэилис русской философской культуре. – М., 1990. – С. 403-443.

## 4. AMERİKALILARIN «MONETAR» MENTALİTETİ

«Amerikalı» və «pul» kimi bir-birilə daha çox eynilik təşkil edən başqa anlayışlar yoxdur. Pul heç yerdə Amerikada olduğu qədər yüksəyə ucaldılmamışdır. «Sən yeni dollar kimi gülümsəyirsən» - görüş zamanı yalnız amerikalıya deyilə bilən ən yaxşı tərifdir. Pula, ən başlıca dəyər kimi oriyentasiya edilməsi amerikalıların öz şəxsi müstəqillikləri uğrunda uzunmüddətli mübarizə prosesində formalaşmışdır. Fərdiçilik (individualizm) – amerikalıların öz azadlıqları üzrə qazandıqları və meyarı *dollar* olan haqdır. Amerikalının milli özünüdərki nə qədər güclü baş verirdisə, onun düşüncəsində dollar avtoriteti ilə möhkəmləndirilmiş gücə qarşı inam güclənirdi. Bu avtoritetə nail olmaq həvəsi mentaliteti formalaşdırdı və bu mentalitetdə iradə hissi üstünlük təşkil edir ki, bu da ram edilməz enerjini, inkişaf etmiş təşəbbüsü, tam özünü ələ almanı izah edir. *Bütün bunlar pul problemlərinin həlli üçündür*. Bu səbəbdən, amerikalının psixologiyasında dayanıqlı «pul əxlaqı» və borc haqqında son dərəcə aydın təsəvvür, fəallıq, amma ünsiyyətdən uzaqlıq kök salmışdır. Sonuncu, yalnız özünə güvənməyi tələb edən fərdiliyin nəticəsidir.

Amerikalılar praktikdirlər. Yəqin ki, bu xüsusiyyətdə onlar almanlardan, ingilislərdən geri qalmırlar. Ancaq fərqlər göz qarşısındadır. Tədqiqatçılar amerikalıların, şeylərin praktiki və müsbət tərəfini göydə tutan və abstrakt axtarışlarla özünü yormayan sağlam düşüncələrinin olduğunu qeyd edirlər. Amerikalılar üçün, şübhəsiz, faktlara qarşı çox canlı və ümumi ideya və dini ənənələrə mötədil-dinc münasibət xarakterikdir. Buraya həmçinin amerikalının, yadelli olan hər şeyə nifrətlə baxmağa vadar edən optimizmini əlavə etmək olar. Sonuncu xüsusiyyət amerikalıların öz optimizmlərinin başlıca dayağı olan qüdrətli dollara arxalanaraq bütün dünyada qurmağa çalışdıqları hegemoniyanı da izah edir.

Amerikan mentaliteti hər şeydə və hər şey üzərində dominantlıq etməyə can atmanı, qayğı göstərməyi, himayədarlıq etməyi (*hətta bu, qayğı obyektinin arzusuna zidd olsa belə*) nəzərdə tutur. Buna misal kimi, amerikalıların hər yerdə xalqlara və ölkələrə totalitar rejimdən xilas olmağa, demokratik qayda-qanun qurmağa və sivilizasiyalı dəyərlər sistemini formalaşdırmağa kömək etmək istəyi çıxış edə bilər. Əlbəttə ki, bunu, necə təsəsvvür edirlərsə, elə də həyata keçirirlər. Belə münasibətlər sosial nəzarət münasibətləri kimi səciyyələndirilə bilər, harada ki, *kontroller* (amerikalılar)

nəzarət altında olanları (başqa etnik cəmiyyətlərin nümayəndələri) daima izləyir. Sonuncularda bu zaman elə bir təəssürat yaranır ki, onlar təcrübə dovşanları kimi daima izlənirlər[1]. Lakin amerikalılar üçün başqa etnik cəmiyyətlərin nümayəndələrinin bütün iş və fikirləri əhəmiyyətsizdir (hətta bu xalqlar üçün onların problemlərinin son dərəcə böyük əhəmiyyət kəsb etdiyi, həddən artıq vacib olduğu zaman belə).

Mənəvi-mədəni dünyaya çıxmamaq və başqa xalqların psixoloji əhval-ruhiyyəsinə qarışmamaq arzusu amerikalıların, onların mədəniyyəti və həyat tərzinin təbii olaraq xoş qarşılanmaması ilə nəticələnir. Bununla yanaşı, heç kim onların praktisizmlə, praqmatizmlə şərtlənən qüdrətini, onların Noks istehkamının qızılına, hər yerdə mövcud olan dollara əsaslanan qüdrətinin son nəticədə, bütün mübahisələrdə ən əsaslı dəlil olduğuna əminliyini inkar edə bilməz. Amerikalılar sanki qızılla yüklənmiş uzunqulağın ən yüksək qalanı ələ keçirəcəyi haqqında qədim sentensiyanı yenidən dünyaya gətirirlər. Buna görə də amerikalı üçün pul – bütün problemlərin həllində əsas və radikal vasitədir. Lakin bir şərtlə ki, bu onlara fayda versin. Buradan – xərclərin və mümkün mənfəətlərin mütləq əvvəlcədən hesablanmasına qarşı həvəs yaranır. Əgər nəticə mənfəətin xeyrinə olmazsa, onda heç bir humanizm niyyətləri və ya dini nəsihətlər müəyyənedici rol oynaya bilməyəcəkdir. Çünki amerikalı üçün əsas məsələ onun ailəsi, ölkəsi və öz dini tərəfindən ona qarşı irəli sürülən tələbkarlığı bilməsidir.

Amerikalılar üçün bütün rəsmi reqlamentasiyadan azad olan maksimum şəxsi təşəbbüs xarakterikdir. Onlar müxtəlif növ formal qaydalara, xüsusilə, etiketə etinasız münasibət bəsləyirlər. Onların başqalarını da güldürən gülüşü, az tanış olduqları insanın kürəyindən vuraraq onunla yaxınlığını qeyd etməsi, həddindən artıq sərbəstliyi, amerikalıları təmkinli ingilislərdən o dəqiqə fərqləndirən açıqlığı ifadə edir. Lakin bütün bunlarla yanaşı, onlara dəqiq icraçılıq və kifayət qədər punktuallıq da xasdır. Münasibətlərdə azadlıq təkcə «birinci kəşf edən ruhu» ilə yox, həm də dünyanın ən varlı və ən qüdrətli ölkəsinə mənsub olmaq hissi ilə izah olunur.

Amerikalılar üçün avtoritet, sitayiş və ya sözsüz tabe olma obyekti kimi yox, müəyyən özülə qarşı psixoloji tələbat kimi mühüm rol oynayır. Bu onunla izah edilir ki, rəqabət və daimi sosial mübarizə şəraitində onlar etibar edilməli olan obyektə qarşı tələbat hiss edirlər ki, bu da sosial həyat proseslərinə öz proeksiyasını salır. Belə ki, Tanrıya inanmayan amerikalı

yenə də kilsəni ziyarət edir və ona görə yox ki, onu əhatə edənlər tərəfindən *obstruksiya* istəyir, ona görə ki, *psixoloji inam mənbəyi* tapmaq niyyətindədir. İnam və etibar fenomenini amerikalıların reklama inam vərdişi aşkar edir. Onlar üçün bu, ən yüksək avtoritetdir. Amerikan cəmiyyətində reklam Vasitəsilə istənilən ideyanı təlqin etmək və ya mühüm psixoloji münasibəti (sağlam həyat tərzi, bu və ya başqa dəyərlərə, pərəstişgahlara və s. qarşı mənfi və ya müsbət münasibət) təbliğ etmək mümkündür. Amerikan cəmiyyətinə kütləvi informasiya vasitələri vasitəsilə həyata keçirilən reklamın təsiri kommersiya, ticarət və maliyyə əməliyyatları sferasında olduğu kimi, ölkənin siyasi aspektdə ictimai rəyinin formalaşmasında da mühüm rol oynayır. Yəqin ki, amerikalıların hər yerdə biznesdə iştirak etmələri, pul qazanma və ya hasil etmələri, daima pul gəlirləri axtarışında olmaları, hər yerdə mənfəət və fayda axtarmağa can atmaları bununla izah olunur. Amerikan cəmiyyətinin özünü bu cür təqdim etməsi gələcəkdə öz rifahı haqqında ehtiyatlanma hissi ilə əlaqədardır. Bu səbəbdən, daimi psixoloji gərginliklər yaranır.

Amerikalıların fərqləndirici xüsusiyyəti fərdiyyətçilikdir. Onları uşaq yaşlarından səbr, dözmə, güc, yalnız özünə ümid etmə kimi hissləri nəzərdə tutan biznesə, işgüzar fəaliyyətə hazırlayırlar. *O, Henri* bunu özünün «Seçdiyimiz yollar» adlı nağılında gözəl şəkildə təsvir edir. İki quldur qatarı uğurlu şəkildə qarət edib və təqibdən qurtulduqdan sonra, onlardan birinin atının ayağı sınır. Amma, atının ayağı sınan quldurun dostu *Akula Dadsonun* ona kömək edəcəyi ümidi puça çıxır. Çünki *Akula Dadsonun* atı Bolivar «iki nəfəri daşıya» bilməzdi. Buna görə də o, keçmiş dostu ilə işi bitirir, yəni onu sadəcə olaraq öldürür. Pul və mənfəət haqqında söhbət gedən yerdə dostluğu unutmaq lazımdır. *Cek Londonun* qəhrəmanları da hər zaman yalqız olurlar. Onlara sərt iqlimin və Klondayka şaxtalarının, günahkar canilər və ya sadəcə olaraq başqasının hesabına qazanmağa çalışan yaramazların qarşı durması vacib deyil.

Fərdiyyətçiliyin yaranmasına praqmatizm – «amerikan fəlsəfəsi» səbəb olur. Bu fəlsəfi istiqamətin baniləri – *Ç.Pirs, U. Ceyms, Q.Mid və D.Dyui* – bu və ya başqa formada ABŞ-ın mənəvi həyatı ilə əlaqəlidirlər. Xüsusilə *D.Dyuinin* praqmatizm ideyalarının təsiri demək olar ki, bütün həyat sferalarına (təhsil, incəsənət, ictimai əxlaq, elm) yayılmışdır. Praqmatizm fəlsəfəsi «rasionallaşma» və gündəlik şüurun nəzəri rəsmiləşməsi, əhval-ruhiyyənin, sosial-psixoloji münasibətlərin, dünyaya baxış və

amerikalı cəmiyyəti üçün xarakterik olan həyati məsələlərin həllinə yanaşma kvintessensiyası (əsas mahiyyəti) kimi formalaşmışdır. Praqmatizm – nəzəri fəlsəfədir, amma yenə də onun nəticəsinə, onun tərəfindən tətbiq edilən prinsiplər üzrə hər zaman amerikan kütləvi şüurunun təsəvvürlərinə, etiqadlarına və mental əhval-ruhiyyələrinə aparıb çıxaran yol nəzərə çarpır.

*D.Dyuinin* praqmatizminin əsas kateqoriyası təcrübədir, lakin idrak forması və ya üsulu kimi yox, insanların gündəlik adi təcrübəsi, hisslər dünyası, insanın təəssürat və fəallıqları, onun adi həyat fəaliyyəti sferasıdır. Məhz gündəlik həyat təcrübəsində tələbatlar, maraqlar və tələblər formalaşır, problemlər və məsələlər ortaya çıxır, qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün vasitələr axtarılır. Təcrübə dünyası – sağlam düşüncə, həqiqi dəyərlər (əgər dəyərlər kimi, bizim can atdığımız, dəyər verdiyimiz, əldə etmək və həyatda saxlamaq istədiyimiz şeylər başa düşülürsə) dünyasıdır. Bir qayda olaraq, bu, yaxşılığa nail olma və pislikdən uzaqlaşma, yəni həyatın ali maraqlarıdır[2]. İdrak özü istiqamətə malik olan fəaliyyətlə məşğul olmalıdır, o, həqiqətin konkret fərdin maraqları əsasında dəyişdirilməsi üsullarının təsvirindən ibarətdir. Bunun üçün o, ağıla, fəallığa malik olmalı, daimi olaraq praktika ilə əlaqəni hiss etməlidir. Fəal, bacarıqlı insanı mücərrəd idrak yox, «*problemləri həll etmək bacarığı*» fərqləndirir (*D.Dyui*). Yalnız bu yolla pul «qazanmaq» və sərvətə nail olmaq olar. Qeyd edək ki, amerikalının şüurunda «qazanmaq» - istənilən üsuldan, hətta cinayətdən belə istifadə etmək kimi başa düşülür. Uğura bu yolla da nail olmaq mümkündür.

Əlbəttə ki, uğura nail olmağa çalışmaq təkcə amerikalıları xarakterizə etmir. Lakin onlarda uğur, ilk növbədə, pullarla bağlıdır, çünki məhz onlar (pullar) fərdi təcrübənin əhəmiyyətlilyini ən yüksək dərəcədə əks etdirirlər. Praqmatizm fəlsəfəsi üçün ideyanı, yalnız onun mühüm spesifik problemin həllində faydalı olduğu təqdirdə qəbul edilməsi mühümdür. Xüsusilə, əgər onun tərəfindən nəzərdə tutulan və onun əsasında həyata keçirilən situasiya dəyişkənliyi gözlənilən uğurla sona yetmişdirsə. *D.Dyui* üçün istənilən tədqiqat *qiymət* tədqiqatıdır və *nemətin* formalaşmasına istiqamətlənməlidir. Nəticə etibarilə, həqiqətə nail olunmasına istiqamətlənmiş idraki tədqiqatlar əslində (özü üçün) *qiymət* problemlərinin həllidir. Bu halda həqiqət özündə sadəcə olaraq nemətin növ müxtəlifliyini əks etdirir, çünki bir sıra nemətlər, dəyərlər kimi, hər zaman bizim istənilən problemi (nə cür olursa, olsun) həll etmək cəhdlərimizin bilavasitə məqsədini təşkil edir.

Tədqiqat, problematik situasiyanın həll olunmuş situasiyaya dəyişdirilməsi kimi, idrak prosesindən çox, qiymət prosesi kimi nəzərdən keçirilə bilər. Pul, başqa maddi nemətlərdən, əlbəttə ki, bilavasitə daha çox qiymət xarakteri daşıdığından, idraki fəaliyyət bu məqsədə nail olmaq üçün vasitələrin seçilməsindən ibarət olur.

Amerikalıların *«pul» mentalitetinin* formalaşmasında iqtisadi nəzəriyyələr də mühüm rol oynamışdırlar. Eyni zamanda, onlar sosial-psixoloji əhval-ruhiyyənin inikası kimi də çıxış edirlər. Bu, xüsusilə, institutsionalizmin sosial-psixoloji versiyasına aiddir. Amerikalı institutsionalizminin banisi *T. Veblen* iqtisadi hadisələri ictimai psixologiyadan çıxarmışdır. O, belə hesab edirdi ki, insanların iqtisadi davranışları mürəkkəb, ziddiyyətli və hətta irrasional xarakter daşıyır. Buna görə də insanın hərtərəfli fəaliyyətinin, cəmiyyətin inkişafı və insanların yaşadığı *institutsiyaların* əvəzlənməsi ilə əlaqədar daimi dəyişən psixoloji motivasiyasını nəzərə almaq lazımdır.

*T. Veblenə* görə *institutsiya* anlayışı – bu və ya digər insan qruplarına xas olan, tarixi inkişaf prosesində meydana çıxan ənənələr və adətlərlə şərtlənən şüurun ümumiliyi, müəyyən təfəkkür obrazı, insanın peşəkar fəaliyyətində, əxlaqi-hüquqi normalarda, dövlət təsisatlarında rəsmiyyət qazanan, vətəndaş həyatı əldə edən hər şeydir. *İnstitutsiyalar* tarixi inkişaf prosesində meydana çıxmışlar və bunun nəticəsi yeni həyat tərzi olmuşdur ki, bunun da mərkəzində – xüsusi mülkiyyət, əsasında isə – aldatma və zorakılıq dururdu.

*T. Veblen* öz konsepsiyasında bir sıra qeyri-ənənəvi iqtisadi anlayışlar irəli sürür, məsələn, «*nümayiş bədxərcliyi*». Güclü inkişaf nəticəsində texnikanın tərəqqisi insanların göstəriş dəbdəbəsi həvəsi ilə münaqişəyə girdi. Əmtəələr, onların faydalı xüsusiyyətlərinə görə yox, onlara sahib olmanın insanı onun yaxınlarından nə dərəcədə fərqləndirməsinə («*paxıllıq müqayisəsi*» effekti) görə qiymətləndirilməyə başlandı. Müəyyən insan nə qədər bədxərc olursa, onun nüfuzu da bir o qədər yuxarı qalxır. Mülkiyyət üzərində nəzarəti sayəsində, faydalı əməklə məşğul olmayaraq istehsaldan daha çox sərvət əldə etmiş insanlara daha yüksək ehtiram göstərilir. Nəticə etibarilə, *T. Veblenə* görə, fəaliyyətsiz (yəni istehsal etməyən) sinfin iqtisadi prosesə münasibəti «*pul münasibətidir*».

«Fəaliyyətsiz sinif» haqqında təlim *industrial sistemin* Veblen *konsepsiyasının* əsasında durur. Bu nəzəriyyəyə görə, kapitalizm – «*pul təsərrüfatı*»

- iki inkişaf mərhələsindən keçir: 1) *sahibkarın hökmüranlıq etdiyi mərhələ*, bu zaman hakimiyyət və mülkiyyət sahibkara məxsus olur; 2) *maliyyənin hökm sürdüyü mərhələ*, bu zaman hökmüran qüvvə *maliyyə* və ya *puldur*. Fəaliyyətsiz sinif ardıcıl olaraq institutların inkişafını elə yönə istiqamətləndirməyə çalışır ki, bu, iqtisadi həyatı formalaşdıran pul məqsədinə cavab versin[3].

İctimai rəyin və bununla yanaşı, təsərrüfat fəaliyyətinin formalaşmasında pulun rolunun xarakteristikasında daha radikal mövqeyi institutsianalist *V.Mitçell* tuturdu. O, iqtisadi problemləri psixoloji, sosialoji və başqa problemlərlə qarşılıqlı əlaqədə nəzərdən keçirirdi ki, bu da *kompleks halda insan davranışının motivləşməsini* şərtləndirir. Lakin *T.Veblendən* fərqli olaraq, *V.Mitçell* hesab edirdi ki, insanların təsərrüfat davranışına maliyyə-kredit təsisatlarının fəaliyyətindəki pul amili daha ciddi təsir göstərir. Onun sözlərinə görə, pul cəmiyyətdə müstəqil rol oynayır və ona görə də iqtisadi fəaliyyətin əsas hərəkətverici qüvvəsidir. «Pul – iqtisadi elmin kökədür»[4]. Buna görə də iqtisadi elmin əsas məsələsi *pul tədavülü və insanların davranışı* arasındakı əlaqələrin tədqiqindən ibarət olmalıdır.

İnstitutsionalizm iqtisadiyyat üzərində ictimai nəzarətə və cəmiyyətin iqtisadi inkişafına rəhbərlik edilməsinə istiqamətlənmişdi. Bu planda, o, «pul sivilizasiyası» şəraitində insan həyatının xüsusiyyətlərini nəzərə alırdı. «Pul iqtisadiyyatını» cəmiyyətin təsərrüfat təşkilatının ən yaxşı forması kimi nəzərdən keçirərək, o, hesab edirdi ki, onun daxilində pulun istehsalı, əldə edilməsi onun fərqləndirici xüsusiyyətidir. Buna görə də *V.Mitçell* mAliyyə kapitalizminə müsbət münasibət göstərirdi, maliyyəçi və biznesmeneləri tənqid etmir, onların mövcud olmaları və fəaliyyətlərinin zəruri olduğunu başa düşürdü. Bu səbəbdən də fərdiyyətçiliyi «pul sivilizasiyasına» qoşulmaq şərti kimi başa düşürdü.

Amerikan institutsionalizmi, bütün başqa nəzəriyyələrdən daha fərqli şəkildə amerikan mentalitetini (xüsusilə, «orta» təbəqənin) əks etdirir. Hətta *T.Veblen* tərəfindən həyata keçirilən sosial ziddiyyətlərin tənqidi belə özünün nəzəri nəticəsi ilə maliyyə maqnatlarının hakimiyyəti faktının izahı, maliyyə kapitalının manipulyasiya yolu ilə artırılması və s. kimi çıxış edir. Başqa ölkələrin təcrübəsinin və «orta amerikalının» həyat idealının xüsusiyyətlərini nəzərə alaraq, XX əsrin ikinci yarısında kapitalizmin, yəni «xalq kapitalizminin» sistemli transformasiyası nəzəriyyələri (mülkiyyətin diffuziyası nəzəriyyəsi, gəlirlərin inqilabı, rifah cəmiyyəti, sosial partnyorluq

nəzəriyyələri) formalaşdı. Bu nəzəriyyələrdən hər birində kapitalizmin keyfiyyətcə yeni cəhətləri, onun sosial-iqtisadi sisteminin təkamül modifikasiyalarının əlamətləri əks olunur[5], eyni zamanda «*amerikan pul mentalitetinin*» formalaşmasına təsir metodologiyası da işlənib hazırlanırdı.

Bu planda, *C.Byukenenin* «iqtisadi insan» konsepsiyasının ilkin şərtlərinə əsaslanan «ictimai seçim» nəzəriyyəsi diqqətəlayiqdir. Bu artıq *A.Smitin* «iqtisadi insanı» yox, bazar iqtisadiyyatında öz üstünlüklərini əmtəə ilə eyniləşdirən yeni tip insandır. O, *faydalılıq funksiyasının qiymətini* maksimumlaşdıran qərarları qəbul etməyə çalışır. Onun davranışı rasionaldır, bu isə o deməkdir ki, hər şey – seçicilərdən prezidentə qədər – öz fəaliyyətində, ilk növbədə, iqtisadi prinsiplərə istinad edirlər: son xərcləri və son faydaları müqayisə edirlər (ilk növbədə, qərar qəbulu ilə bağlı fayda və xərcləri).

İctimai seçim nəzəriyyəsi – insanların hökumət təsisatlarından öz maraqları üzrə istifadə etməyə imkan verən müxtəlif üsul və metodları öyrənir. Bununla da ictimai seçim nəzəriyyəsinin köməkliyi ilə ardıcıl olaraq fərdiyyətçilik prinsiplərini bütün fəaliyyət növləri üzrə mərkəzləşdirərək həyata keçirməyə cəhd edilir[6]. Onlar dövlət xidməti vasitəsilə həmçinin mental münasibət strukturları da formalaşdırırlar.

Fərdiyyətçilik amerikalılar üçün xarakterik olan şəxsi təşəbbüs maksimumunun əsas şərtidir. Bu səbəbdən, onların münasibətlərində ifrat dərəcədə ciddilik (pürmüddəalıq) yoxdur, onlar rahat gündəlik geyimə üstünlük verirlər, hətta həmsöhbətlər arasında böyük yaş və ictimai mövqe fərqi olmasına baxmayaraq, bir-biriləri ilə sadə ünsiyyət saxlayırlar. Fərdiyyətçilik ona gətirib çıxarır ki, amerikalılar başqa uğur və ictimai nüfuz qazanmış insanın nailiyyətlərini qiymətləndirirlər. Buna görə də onlar yarışları çox sevirlər, nailiyyətləri və rekordları qiymətləndirirlər. Bu zaman, həmin nailiyyətlərin idman, hərbi, elmi və ya əlbəttə ki, pul və maliyyə xarakterli olmasının heç bir fərqi yoxdur.

Amerikalıların işgüzar həyatın həyata keçirilməsinə istiqamətlənmiş mentaliteti artıq uşaqları belə biznesə hazırlamağa vadar edir. Buna görə də onlar ətraf mühitə belə sürətlə öyrəşirlər və əsas diqqətlərini nəticə, yəni fayda verən obyektlər üzərində cəmləşdirirlər. Təşəbbüskarlıq və fərdiyyətçilik amerikalını qeyri-müəyyənlik qarşısında qorxudan azad edir, xüsusilə, əgər mövcud maneələrin dəf edilməsi sonunda mənfəət, xeyir, amerikalı

həyat tərzi stereotipinə uyğun gələn komfort (rahatlıq) əldə etmək mümkündürsə. Bu planda onlar üçün *gözləmək* praktikası yoxdu.

Burada amerikalıların intensivliyi və enerjiliyi, nəticə verəcək istənilən fəaliyyətdə qətiyyətli əhval-ruhiyyə nəzərdə tutulur. ABŞ-da mövcud olan bütün təhsil və sosial-psixoloji münasibətlər və mentalitetin tərbiyə sistemi bu məqsədə xidmət edir. Məktəb illərindən amerikalılarda inadkarlıq, qarşıya məqsəd qoymaq və ona nail olmaq müsbət qarşılanır, buna görə də sonrakı dövrlərdə onlar öz kompaniyalarının, ailələrinin, öz şəxsi və əlbəttə ki, dövlətin maraqlarını sərt şəkildə müdafiə edirlər. Amerikalılar «yaşayarıq - görərik» prinsipi ilə yaşamırlar, onlar fəaliyyət göstərirlər. Onlar gözləmirlər və əgər lazımdırsa, təyin edilmiş qaydaları pozan ölkələri bombalayırlar, özlərinə lazım olan müharibələri başlayır və davam etdirirlər, inqlilablar hazırlayır və həyata keçirirlər, siyasi rejimləri dəyişirlər, öz hakimiyyətlərini – dollar hakimiyyətini saxlamaq və möhkəmləndirmək üçün hər şey edirdər. Amerikalıların mentalitetində uğura nail olmaq, pul qazanmaq məqsədi həyatın əsas mahiyyətidir. Onlar öz işlərini son həddə qədər aparıb çıxarmalarından həzz alırlar, heyatlarını risk altına qoyurlar və bütün qeyri-müəyyənliklər onları cəlb edir.

Amerikalılar geniş ixtisaslaşmaya can atmırlar. Lakin, belə bir fikir yayılmışdır ki, insan nə qədər çox iş görürsə, onun həm öz işlərində, həm də başqalarının gözündə nüfuzu bir o qədər yuxarıdır. Lakin amerikalılar mücərrəd söhbətləri sevmirlər. Onlarla söhbət zamanı öz problemlərin haqqındakı informasiyaları minimuma endirmək və onun həyatı, ailəsi və biznesi haqqındakı məsələlərə diqqət yetirmək lazımdır. Amerikalılar fərdiyyətçi olduqlarından, onları kiminsə problemləri maraqlandırmır. Ona görə də onlarda belə bir tezis yayılmışdır: «Bu, sənin problemindir». Başqasının problemlərinə, xidməti borcu bundan ibarət olan insanlar maraq göstərə bilərlər.

Amerikalıların mentalitetinin başa düşülməsi onların sosial dəyərlərinin dərk edilməsi ilə müəyyən olunur. *Amerikada pul qazananlar və ya pul qazanılmasına kömək edənlər hörmətlə qarşılanırlar*. Başqa xidmətlər, onların misal üçün, Avropa cəmiyyəti nöqteyi-nəzərindən hansı əhəmiyyətə məxsusluğundan asılı olmayaraq diqqətə alınmır. Amerikalılara, hər şeyə icazəlilik və pul qazana bilməyən və ya qazanmayan hər kəs üzərində üstünlük kimi xüsusiyyətlər xasdır. Onların məqsədi obyektiv zərurət kimi nəzərdən keçirilən bir şey, yəni genişlənən biznesin çoxsaylı tələblərinə nail

olmaq üçün subyekti ağlasığmaz şəkildə qurban verir. Pul və biznes amerikalının həyatında, dini mahiyyətli və öz cazibədarlığı təriqiliə sonsuz gücə malik olan əsasdır.

Lakin burada dünya ictimaiyyətinin şüurunda amerikalı obrazını az cazibədar, bir sıra hallarda isə hətta – iyrənc edən bir xüsusiyyət də ortaya çıxır. Bu, psixoloji cəhətdən onunla izah olunur ki, amerikalıların obyektiv reallığa uyğunlaşması zəif təşkil olunmuş subyektiv impulsların şüura çatmasına mane olur. Ancaq boğulmuş impulslar öz enerjilərini itirmir, onların şüursuz xarakterini nəzərə alaraq, görmək olar ki, onlar primitiv arxaik şəkildə təzahür edə bilərlər. Subyektiv tələbatlar boğulduqca və ya onlara daha çox əhəmiyyət verilmədikcə, daimi olaraq toplanan şüursuz enerji şüurlu münasibəti dağıtmaqla məşğul olur. Nəticədə, xarici dünyaya və başqa insanların tələbatlarına istiqamətli olan amerikalıların əksəriyyəti praktiki olaraq indifferent (laqeyd) insanlara çevrilirlər. Buna görə də amerikalılar üçün onlaın şüursuz münasibətini əks etdirən, şüursuzluq və amansızlıqla hüdudlanan *eqoizm* (xudbinlik) xüsusiyyəti səciyyəvidir[7]. Xüsusilə, əgər bu, onların maraqları ilə əlaqədardırsa.

*K. Yunqun* tipologiyasına görə, amerikalılar *hiss edən ekstravertlərə* aid edilə bilərlər. Bu hiss onları ictimai yerlərə aparır, işgüzar görüşlərdə, pikniklərdə iştirak etməyə, dostlar qazanmağa vadar edir. Ancaq bu, həqiqətən də kommersiya münasibəti kimi təsir bağışlayır (misal üçün, *D.Karneqinin* «Dostu necə qazanmalı və insanlara necə təsir göstərmək olar» adlı bestselləri. Bu, yenə də öz maraqlarından çıxış edərək obyektiv situasiyaya uyğunlaşmağa çalışmağa vadar edir. Amerikalıların psixologiyası «*kimin və nəyin neçəyə olduğunu*» müəyyən edən rasional funksiya ilə şərtləndiyindən, həyata keçirilən qiymətləndirmənin subyektiv əsası haqqında danışmaq olar.

«Orta statistik amerikalı», xüsusilə bu gün, müəyyən əxlaqi sabitə malik deyildir. Heç olmazsa, ona görə ki, o, daimi olaraq öz üzərində qohumlar, qonşular, iş yoldaşları, reklam tərəfindən göstərilən əxlaqi təzyiqin müxtəlif formalarını hiss edir və çox vaxt öz davranışını onlara tabe etdirməyə məcbur olur. Məsələn, əşyaların əldə edilməsi ola bilsin ki, həqiqi tələbatla yox, başqalarından daha kasıb görünməməklə bağlı ola bilər. Kütləvi incəsənət tədbirləri də hər zaman əxlaqi münasibətlər vermir. Məsələn, «Milyonu necə oğurlamalı» filmi, bir çox başqa film və kitablar, öyüdlər, kompyuter oyunları və s. amerikalıların fəaliyyətinin əxlaqi qa-

nunları, bu yolla onların cəmiyyətinin rasional-praqmatik nəsihətlərilə və müvafiq əxalqi baxışlarla üst-üstə düşür.

Amerikalıların praqmatizmi işgüzar söhbət və danışıqlar zamanı da dəqiq şəkildə təzahür edir. İşgüzar qarşılıqlı fəaliyyətin amerikalı tərzi utilitarizmlə, artıq işin xoş qarşılanmaması ilə, əbəs yerə əmək sərf etməkdən qaçmaq cəhdləri ilə, ənənələrə qarşı etinasızlıqla, verilmiş sözün gücü ilə, istənilən işin təşkilinin həyata keçirilməsində dəqiqliklə, təhlil, funksiyaların bölüşdürülməsi, icranın yoxlanılması, müxtəsərlik, aydınlıq və müştərək bölüşdürülmüş fəaliyyətlə xarakterizə olunur. Amerikalılar xudbin olduqlarından, öz tərzlərini hamı üçün ən əlverişli tərz hesab edirlər. Ona görə də onlar belə düşünürlər ki, istənilən ölkə və istənilən milliyyətin biznesindən çox gözəl baş çıxarırlar. İşgüzar təmaslarda onlar detallar haqqında informasiya vermirlər, lakin *işin və biznesin amerikalı qaydalarına uyğun olaraq həyata keçirilməsini gözləyir və buna israr edirlər.* Amerikalı biznesmenin mütləq keyfiyyəti üç qaydaya əməl olunmasıdır: *təhlil et, funksiyaları (öhdəlikləri) bölüşdür və icranı yoxla.* Amerikan sahibkarlıq praqmatizmi çox halda obyektiv amillərlə – hər zaman güclü mövqe (iqtisadi, siyasi, maliyyə) ilə şərtlənir ki, bu da onların həyata keçirilməsi xarakterinə öz təsirini göstərməyə bilməz. Amerikan sahibkarı öz məqsədlərini inadla reallaşdırmağa çalışır, müqavilənin bağlanması zamanı bazarlıq etməyə səy göstərir. Danışıqlarda faktiki sübutu nəzərdə tutan səbəb-nəticə dəlillərinə üstünlük verilir. Bütün informasiya müfəssəl, ətraflı şəkildə təqdim olunmalıdır. Bu cəhətdən, onlarda rəqəmlər yüksək dərəcədə qavranılır, çünki amerikalıların mentaliteti son dərəcə iqtisadi şəraitlərdə formalaşmışdır. İnandırıcı rəqəmlər, göstəricilər və cədvəllər formasında təqdim olunmuş informasiya sanki onlara hipnotik təsir göstərir[8]. Bu, onunla bağlıdır ki, rəqəm mAgiyası, onların konkretliyi pul göstəricilərinin dəqiqliyi və müəyyənliyi ilə assosiasiya təşkil edir: müqaviləyə görə hesab, işlərin ödənilməsi, bank hesabı, əldə edilmiş mənfəət və s. rəqəmlərlə göstərilir. Rəqəm amerikalının şüurunda hər zaman dollarla eynilik təşkil edir. O, hər zaman və istənilən şəraitdə amerikalılarla ümumi dilin tapılması üçün ən parlaq cəhət kimi çıxış edir.

## NƏTİCƏ

Pul haqqında söhbət düşdükdə, onda əsas problemdə, onların əldə edilməsi problemində bütün amillər (obyektiv və subyektiv) hərəkətə gəlirlər. Dünya getdikcə daha çox *«pul», maliyyə* dünyasına çevrilir. Lakin hələ ki, heç bir qloballaşma prosesi milli və mental fərqləri aradan qaldıra bilməmişdir. Pulun əldə edilməsi, qazanılması və xüsusilə, «istehsal edilməsi» hər zaman dəqiq şəxsi fəaliyyətlər tələb edir. Mental münasibət insanın davranışlarında (əməllərində) reallaşır, belə ki, məhz intellektdən, iradədən, xarakterdən fərqli olaraq, məhz davranış fərdin ayrıca aspektinə aid edilmir, əksinə, özündə insanın şəxsiyyət kimi real bütöv olaraq təzahür etməsinə uyğun gələn vahid strukturunu əks etdirir. Etnik mentallıq bu və ya digər formada hər zaman əhval-ruhiyyədə, dünya görüşündə, dəyər münasibətlərində, şəxsiyyətlərarası və işgüzar qarşılıqlı münasibətlər formasında təzahür edir. Mentalitet, bu və ya digər «maliyyə, işgüzar proqramın» reallaşdırılması prosesində həmişə pul üçün «sınaq daşıdır»[9]. Və əksinə – pulun kəmiyyət və keyfiyyəti tədricən bu və ya digər xalqın mental xüsusiyyətləri ilə tutuşdurulur.

Pulun sosial-mədəni və təsərrüfat həyatı fenomeni kontekstində milli, mental xüsusiyyətlər təkcə idraki, etnoqrafik maraq üçün öyrənilməyə layiqdir. Bu xüsusiyyətləri bilmək müasir problemlərin mahiyyətinə daha dərindən nüfuz etməyə, hadisə və proseslərinin, siyasi və ictimai güclərin qarşılıqlı fəaliyyət mexanikasının əsl səbəbini təkcə öz ölkəsində yox, həm də bütün dünyada daha yaxşı başa düşməyə imkan verir.

## ƏDƏBİYYAT

[1] *Баронин А.С.* Этническая психология. – С. 162.
[2] *Дбюуи Д.* Психология и педагогика мышления. – М., 1991. – С. 28 – 29.
[3] *Сорокиня С.Г.* Сценарии будущего или иллюзии прошлого? – М., 1981. – С. 53.
[4] История економичних вчень. – К., 2004. – С. 1089.
[5] Yenə orada. – S. 1116.
[6] Yenə orada. – S. 1214.
[7] *Баронин А.С.* Этническая психология. – С. 166.
[8] Yenə orada. – S. 169.
[9] *Овчинников В.В.* Ветка сакуры. Корни дуба. Горяция пепел: Повести. – М., 1987. С. 207.

**Мазараки Анатолий Антонович**

# ТОРГОВЛЯ
# ДЕНЬГИ
# МЕНТАЛИТЕТ

**(на азербайджанском языке)**

***Çapa imzalanıb 08. 04. 2010. Kağız formatı 70x100 1/16.***
***Həcmi 36,1 ç.v. 46,6 ş.ç.v. Sifariş 78. Sayı 500.***

***" İqtisad Universiteti " Nəşriyyatı.***
***AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6***

***Qrant layihəsi əsasında qeyri-kommersiya***
***xarakterli nəşr***